

NOBEL MÜKAFATI LAUREATI

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin
**“Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında”** 2007-ci il 24 avqust tarixli sərəncamı ilə nəşr olunur.

*“Şərq-Qərb”*
Bakı – 2009

# Pär Lagerkvist



*Inventas vitam juvat excoluisse per artes*
Ustalığa yüksələrək bu dünyanı xoş edənə

NOBEL MÜKAFATI LAUREATI

# Per Lagerkvist

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

*"Şərq-Qərb"*
Bakı – 2009

**ISBN 978-9952-34-242-0**

Tərcümə edəni və
ön sözün müəllifi: İlqar Əlfioğlu

Redaktor: Mahir Qarayev

Korrektor: Yeganə Mehdiyeva

Bədii tərtibat və
dizaynın müəllifi: Tərlan Qorçu

Kompüter düzümü: Hikmət Aydınoğlu
Mehman Musabəyli

**Per Lagerkvist. Seçilmiş əsərləri.** – Bakı: 2009, 800 səh.

Bu kitab oxucularımızın Per Fabian Lagerkvistin yaradıcılığı ilə ilk tanışlığıdır. O, bütün yaradıcılığı boyu Tanrısını axtarıb. İnanmaq istərdik ki, onun maraqlı əsərlərini oxuyan hər kəs o ali məqsədə – öz Tanrısını tapmağa bir az da yaxınlaşacaq.

Mətn: Bakı Slavyan Universiteti, “Kitab aləmi” NPM, 2009
Bədii tərtibat, səhifələnmə: “Tutu” nəşriyyatı, 2009
© “Şərq-Qərb” ASC, 2009

# TANRISINI AXTARAN İNSAN

1974-cü il iyulun 11-də Stokholm xəstəxanalarından birində Per Lagerkvist adlı insan 83 yaşında beyin iflicindən dünyasını dəyişdi. O, müasir İsveçin ən tanınmış yazıçısı idi. Ədibin bir çox xalqların dillərinə tərcümə olunmuş ən məşhur əsərlərini müasir dünya klassikasının gözəl nümunələri sırasına aid etmək olar.

Yazıçının ölümündən sonra tanınmış İsveç tənqidçisi Qunkel Malmström yazırdı: "İnsanlar arasında yadlaşma XX əsr ədəbiyyatının baş mövzusudur və bu baxımdan Per Lagerkvist özünün ruhu etibarilə Frans Kafka və Alber Kamyu kimi yazıçılara daha yaxındır. Lagerkvist elə söz ustalarındandır ki, onun bəşəriyyətin humanizm ideyalarından uzaqlaşmasına qarşı mübarizəsi sirli Tanrının axtarışlarına, həyatın metafiziki gizlinlərinin açılmasına gətirib çıxardı".

Məşhur İsveç romançısı, şairi və dramaturqu Per Fabian Lagerkvist 1891-ci il may ayının 23-də Cənubi İsveçin kiçik Veksö şəhərində anadan olub. O, Anders Yohan Lagerkvistlə İohanna Lagerkvistin yeddi uşağından ən kiçiyi idi. Atası əvvəlcə fermada çalışırdı, sonra isə dəmir yolunda işə düzəlmiş, uzun müddət yol nəzarətçisi olmuşdu.

1910-cu ildə orta məktəbi bitirən Per təhsil illərində Çarlz Darvinin, dövrünün digər qabaqcıl alim və yazıçılarının əsərlərini oxuyaraq, ailəsinə xas mühafizəkar lüteran tərbiyəsindən ciddi fərqlənən dünyagörüşə sahib olur. Orta təhsilini başa vurandan sonra o, iki il ərzində universitetdə ədəbiyyat və incəsənəti öyrənir.

Lagerkvistin ilk ədəbi təcrübələri 1912-ci ildə dövri mətbuatda işıq üzü görmüş "İnsanlar" povesti və bir neçə

şeri olmuşdur. 1913-cü ildə yazıçı Parisə səfər edir, orada bir müddət yaşayıb, o dövrün müasir təsviri sənəti ilə ciddi məşğul olur, modern cərəyanlarla maraqlanır, fovistlər və kubistlərin təsiri altına düşür. Elə həmin ildə də "Söz sənəti və təsviri sənət" adlı essesini dərc etdirir. Lagerkvist bu essesində naturalizmi incəsənətdə ziyanlı cərəyan kimi tam inkar edir, öz düşüncələrini əsaslandırmaq üçün Skandinav və yunan eposlarından çoxlu misal gətirirdi. Onun bu tənqidi essesi ədəbi ictimaiyyətin diqqətini cəlb edir və yazıçı öz nəzəriyyələrini 1914-cü ildə işıq üzü görən "Motivlər" şeir və hekayələr, 1915-ci ildə nəşr olunmuş "Dəmir və insan" adlı novellalar toplularında əyani olaraq əsaslandırmağa çalışır.

1916-cı ildə Lagerkvistin "Xiffət" poeziya toplusu da oxucuların diqqətini cəlb edir. Bu kitaba daxil olan əsərlər İsveç tarixində ilk ekspressionist nümunələr sayılır, öz üslubunda yazıçının fovizm və kubizmə marağını əks etdirirdi. Lagerkvistin üçüncü toplusu Birinci Dünya müharibəsindəki dəhşətlərin ağrı-acısına həsr olunmuşdu. Amerika şairi və tənqidçisi Ketten Reksrot yazırdı ki, "Xiffət" nəinki siyasi illüziyaların puça çıxmasına, həm də yazıçının vahid ruhunun parçalanmasına dəlalət edir.

Per Lagerkvist müharibə illəri ərzində bitərəf Danimarkada yaşayıb. O, yaradıcılığının bu dönəmində əsas diqqətini səhnə əsərlərinə yönəldir, müxtəlif teatrlar üçün pyeslər yazırdı. Ədibin dərc olunmuş ilk pyesi "Sonuncu adam" yer üzündə qalmış axırıncı insanın taleyindən bəhs edir və müharibə mövzusunun məntiqi davamı kimi səslənir. Yazıçı bu və sonrakı pyesləri ilə naturalist dramı büsbütün inkar edir. Onun səhnə əsərlərində məşhur yazıçı Avqust Ştrindberqin simvolizmin nümunəsi olan son pyeslərindən bəhrələndiyi aydın duyulur. Məhz Ştrindberq yaradıcılığının təsiri Lagerkvistlə alman ekspressionizmi arasındakı sıx əlaqəni izah edir.

1919-cu ildə Lagerkvist "Svenska Daqbladt" qəzetində ədəbi tənqid bölməsinə rəhbərlik edərkən "Xaos" poeziya toplusunu və "Göylərin sirri" pyesini nəşr etdirir.

Hər iki əsərdə yazıçının dərin pessimizmi öz əksini tapır. O, belə hesab edir ki, əgər insan ona bəxş olunmuş həyatı ən ali nemət sayırsa, bu, onun Tanrıya biganəliyindən qaynaqlanır. Bunun ardınca Lagerkvistin qələmindən çıxan "Əbədiyyətin təbəssümü" (1920) povestində də yazıçı həmin motivi inkişaf etdirir. Əsərdə personajlar onları düşündürən suallara cavab almaq üçün İlahi ilə görüşür, insanı niyə yaratdığını sorurlar. Tanrı isə onlara deyir ki, insanı yaradarkən heç bir məxsusi məqsədi olmayıb, sadəcə, çalışıb ki, hər şey yaxşı olsun. Beləliklə, insanlar Tanrı ilə görüşdən arzuladıqları mənəvi dayağı ala bilmir, çaşqın qalaraq, öz daxillərinə müraciət edirlər və təskinliyi də bundan sonra tapırlar.

İyirminci illərdən etibarən Lagerkvist Fransa və İtaliyaya çoxlu səyahət edir, onun pessimizmi yumşalmağa başlayır, yazı üslubu isə bir qədər konkretləşərək, özünəməxsusluq kəsb edir.

Lagerkvistin bu dövr poeziyası "Xoşbəxt insanın yolu" (1921) və "Qəlb nəğmələri" (1926) toplularında cəmləşib. Həmin əsərlərin fərqli cəhətləri onlarda yazıçının yaradıcılığının ilk dövrü üçün səciyyəvi olmayan nikbinliyin üstünlük təşkil etməsidir. Bu nikbinlik onun elə həmin dövrdə nəşr etdirdiyi nəsr əsərləri üçün də səciyyəvidir. "Dünyada qonaq" (1925) və "Azad olunmuş adam" (1927) kitablarına daxil olan bütün əsərlər ədəbi tənqidçilərin yekdil rəyinə görə, tam avtobioqrafik nümunələrdir. Birinci kitabda yazıçının uşaqlıq çağlarından söhbət açılır, ölüm haqqında düşüncələrin onun qəlbinə hələ lap erkən yaşlarından hakim kəsildiyi təsvir olunur, "Azad olunmuş adam" isə Lagerkvistin dünyaya və öz yaradıcılığına baxışının təhlilidir desək, yanılmarıq. Amerika tənqidçisi Alrik Qustafson yazırdı ki, bu əsərlər, toplu halında götürəndə, xeyirin şər üzərində əbədi qələbəsinə, insan ruhunun yenilməzliyinə həsr olunub. Həmin kitablar həm də Lagerkvist üslubunun və dilinin çox uğurlu nümunələrindən sayılır.

Otuzuncu illərdə dünyada faşizm təhlükəsi gücləndikcə yazıçının da yaradıcılığında humanist bir ruh baş

qaldırır, o, öz oxucularına şər qüvvələrə qarşı mübarizənin zəruriliyini təlqin etməyə çalışır. Lagerkvist "Tonqal yanında" (1932) şeir toplusunda və "Kral" (1932) pyesində özünün humanist fəaliyyət proqramını açıqlayır. Onun "Cəllad" (1933) əsəri isə faşizmə qarşı qəti mübarizəyə çağırış kimi səslənir. Bir il sonra bu povestin motivləri əsasında yazdığı eyniadlı pyesin də süjet xətti orta əsrlərlə müasir dövrümüzün müqayisəsi üzərində qurulub. Əsərin qayəsi insan durduqca şər qüvvələrin də yaşayacağı, onlarla mübarizənin son dərəcə zəruriliyidir.

Müharibə ərəfəsini yaşayan Avropanın bütün problemlərinin araşdırılması Lagerkvist yaradıcılığının bu dövrü üçün çox səciyyəvidir. Bir neçə il ərzində işıq üzü görən "Qəlbsiz insan" (1936), "Zülmətdə qələbə" (1939), "Şeir və mübarizə" (1940) kitabları da yazıçı üçün prioritet təşkil edən mövzuların daha dərindən araşdırılmasına həsr edilib. Lakin bu dövrün ən əhəmiyyətli əsəri, heç şübhəsiz ki, "Cırtdan" (1944) alleqorik romanıdır. Romanda italyan İntibahı dövründə cərəyan edən hadisələrdən bəhs olunur, həmin hadisələrə cırtdanın gözüylə qiymət verilir. Xislət etibarilə dünyadan narazı olan bu məxluq saray intriqalarının lap mərkəzində qərar tutur, öz ağasına sədaqətini sübuta yetirmək üçün qanlı cinayətlərə imza atır. Roman insan ikiüzlülüyünün, kin-küdurətin, səbəbsiz qəzəbin doğurduğu dəhşətli hadisələrdən bəhs edir. Lakin tənqidçilər "Cırtdan" əsərini də mahiyyətcə faşizmin tənqidinə həsr olunmuş, yüksək dinamikaya və gözəl yazı üslubuna, zəngin dilə malik bir nümunə sayırlar.

1940-cı ildə Per Lagerkvist yüksək ədəbi nailiyyətlərinə görə İsveç Akademiyasının həqiqi üzvü seçilir, öz oxucularını yeni-yeni əsərləri ilə müntəzəm surətdə sevindirməkdə davam edir. 1950-cı ilədək bədii yaradıcılıqla intensiv məşğul olur, geniş şöhrət tapmış "İmkan verin, adam yaşasın" (1949) pyesini yazır. Oxucunun gözləri önündə insan barışmazlığının qurbanına çevrilmiş personajların həyatı sərgilənir. Bunların arasında sırf

yazıçı təxəyyülünün məhsulu olanlar da var, Sokrat, İsa, Janna D`Ark kimi real, tarixi şəxsiyyətlər də.

1950-ci ildə Per Lagerkvistin "Varavva" romanı işıq üzü görür. Əsər nəşr olunan kimi ədəbi ictimaiyyət tərəfindən böyük diqqətlə qarşılanır. O dövrün tənqidçiləri "Varavva"nı misilsiz bir əsər adlandırırlar. İsa Məsihin həmin dövrədək neçə-neçə ədəbi nümunədə araşdırılan tarixçəsinə Lagerkvist tamam başqa prizmadan yanaşır. Onun qəhrəmanı həmin hadisələrin bilavasitə iştirakçısı olmuş, lakin İsadan fərqli olaraq, çarmıxa çəkilməmiş, azad edilmiş qəddar quldurdur. Tanrıdan uzaq olan bu insan da, əslində, elə İsanın taleyini yaşamağa məhkumdur. O, bütün ömrü boyu çarmıxdan azad olunmasının ağrısını çəkir, tənəsini ağır yük kimi çiyinlərində daşıyır, amma yenə də Tanrını tanımaq istəmir və elə İsa kimi də çarmıxda ölür. Onların hər ikisi, əslində, elə inancının qurbanıdır: İsa – Rəbbinə, Varavva isə – Tanrının yoxluğuna inancının. Yazıçı öz oxucusuna bəşər övladı üçün inancın çox zəruri olduğunu özünəməxsus ustalıqla, diqqəti çəkmədən təlqin eləyir və əsəri oxuyan hər kəs bunun həqiqət olduğunu öz batinində duyur.

Roman müasir oxucunun diqqətini yeni eranın ilk illərində Fələstin torpaqlarındakı ab-havanın, insan münasibətlərinin, adi məişətin inandırıcı və son dərəcə koloritli təsviri ilə çəkir.

Ədəbi tənqid də "Varavva" romanına biganə qalmır. Tanınmış tənqidçi Çarlz Rono əsəri "əsl şedevr" adlandırır və bu fikir həqiqətə tam uyğundur. Ədəbiyyatşünasların yekdil rəyinə görə, "İncil"dəki hadisələr hələ heç vaxt həmin romandakı dəqiqlik və mötəbərliklə təsvir olunmamışdır. Roman dünyanın bir çox dillərinə tərcümə edilərək, geniş oxucu kütləsinə təqdim olunmuş, əsərin motivləri əsasında 1952-ci ildə bədii film də çəkilmişdir.

1951-ci ildə Per Lagerkvist ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldü. Bu barədə qərarda deyilirdi ki, böyük mükafat "bəşəriyyət qarşısında duran əbədi suallara yazıçının öz yaradıcılığı ilə cavab tapmaq cəhdinə, onun

mülahizələrinin bədii gücü və mütləq müstəqilliyinə görə verilir". İsveç Akademiyasının üzvü Anders Esterlinq mükafatın təqdimat mərasimində belə demişdir: "Lagerkvist elə yazıçılardandır ki, bəşəriyyətin ən ümdə problemlərinə, varlığımızın ən əsas dayaqlarına açıq müraciət etməkdən çəkinmir". Xasiyyətcə çox utancaq və qapalı adam olan yazıçı isə cavab nitqindən imtina etmiş, bir neçə minnətdarlıq kəlmələrindən sonra 1921-ci ildə yazdığı və heç vaxt dərc etdirmədiyi "Bəşəriyyətin mifi" əsərindən parça oxumuşdur.

Sonrakı illərdə Lagerkvist məhsuldar işləməkdə davam etmiş, özünün doqquzuncu şeir toplusunu – "Dünya axşamçağı" (1953) kitabını bitirmiş, daha beş roman – "Sivilla" (1956), "Aqasferin ölümü" (1960), "Dənizin zəvvarı" (1962), "Müqəddəs torpaq" (1964) və "Mariamna" (1967) romanlarını yazmışdır. Bütün bu romanlar bir-biriylə sıx bağlıdır və onların hamısında aparıcı xətti məhəbbət mövzusu təşkil edir. Lakin eyni mövzu təzadlı rəmzlər sistemindən uğurla istifadə olunmaqla çox fərqli rakurslardan araşdırılır ki, bu da yazıçının böyük ustalığına dəlalət edir.

Bu kitab oxucularımızın Per Fabian Lagerkvistin yaradıcılığı ilə ilk tanışlığıdır. O, bütün yaradıcılığı boyu Tanrısını axtarıb. Tapıb-tapmadığını deyə bilmərik, amma inanmaq istərdik ki, onun maraqlı əsərlərini oxuyan hər kəs o ali məqsədə – öz Tanrısını tapmağa bir az da yaxınlaşacaq.

*İlqar Əlfioğlu*

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# ROMAN VƏ POVESTLƏR

# CIRTDAN

*(roman)*

Mənim boyum yaxşıdır – 26 düymdür, mütənasib bədən quruluşum da var, bəlkə, başım bir az yekədir. Saçlarım başqalarınınkı kimi qara deyil, kürəndir, özü də dedikcə cod və sıxdır, arxaya darandığından, o qədər də hündür olmayan geniş alnımı aydın göstərir. Üzümə tük çıxmır, amma qalan əzalarım elə bütün kişilərinki kimidir. Qaşlarım çatmadır. Mən çox güclüyəm, xüsusilə də hirslənəndə. İosofatla mənim aramda yarış düzəldəndə onu iyirmi dəqiqəyə kürəyi üstə çırpıb boğdum. O vaxtdan mən bu sarayın tək cırtdanıyam.

Cırtdanların əksəriyyəti təlxəkdir. Onların işi ağalarını və qonaqları güldürmək üçün boş-boş çərənləyib oyunbazlıq eləməkdir. Mən heç vaxt bu dərəcədə alçalmamışam. Əslində, heç kəs mənə belə təkliflə müraciət də eləməyib. Elə yalnız zahiri görünüşüm bu rolda istifadə olunmağıma imkan vermir. Mənim zahirim gülməli hərəkətlər üçün əlverişli deyil, buna görə mən özüm də heç vaxt gülmürəm.

Mən təlxək deyiləm. Mən cırtdanam, yalnız cırtdan.

Əvəzində, çox iti dilim var və bu da, yəqin ki, ətrafımdakı adamlardan bəzilərini əyləndirir. Amma bu, hər halda, onların təlxəyi olmaqla eyni şey deyil.

Mən diqqətinizə yetirdim ki, üzüm bütün qalan kişilərin üzünün eynidir. Bu o qədər də həqiqətə uyğun deyil, çünki mənim üzüm başdan-ayağa qırış-qırışdır. Mən bunu çatışmazlıq saymıram. Mən bu cür yaranmışam və başqalarının başqa cür doğulmasının mənə heç bir dəxli yoxdur. Mənim üzüm heç nəyi bəzəmədən və təhrif etmədən necəliyimi göstərir.

Bəlkə də, adamın üzü, əslində, yalnız qılaf kimi bir şey olmalıdır, lakin üzümün elə olmaması mənim xoşuma gəlir.

Qırışlara görə mən çox qoca görünürəm. Əslində, qoca deyiləm. Amma eşitmişəm ki, biz cırtdanlar indi yer üzünü məskunlaşdırmış bütün irqlərdən daha qədim bir irqə mənsubuq və elə bu səbəbdən də anadan qoca doğuluruq. Bilmirəm, bu, həqiqətən, belədirmi, lakin belədirsə, deməli, başlanğıc hüququ bizimkidir. Mən şadam ki, tamam başqa cinsdənəm və bu, hamıya aydın görünür.

Digər insanların üzü mənə tamam ifadəsiz görünür.

Sahiblərim xətrimi çox istəyirlər, xüsusilə də qeyri-adi və güclü insan olan hersoq. Uzaqlara nüfuz edən fikirlərin müəllifi və həm də onları həyata keçirməyə qadir bir şəxsiyyət. Fəaliyyət adamı və eyni zamanda hər işə vaxt tapan, ən müxtəlif mövzularda söhbətləşməyi sevən, savadlı bir hökmdar. O öz həqiqi niyyətlərini bu cür söhbətlərin arxasında ustalıqla gizlədir.

Adam fikirləşir ki, axı hər şeylə eyni zamanda maraqlanmağın nə faydası var – lakin o, həqiqətən, maraqlanırsa, – çox mümkündür ki, bu, onun vəzifəsidir, ola bilər ki, onun maraqları hər şeyi əhatə etməlidir, o elə buna görə hersoqdur da. Adamda elə təəssürat yaranır ki, sanki, dünyada nə varsa, hamısını artıq dərk edərək ona yiyələnib, ya da, ən azı, buna can atır. Heç kəs inkar etməz ki, onun şəxsiyyəti hər kəsdə hörmət doğurur. O, mənim nifrət etmədiyim yeganə şəxsdir.

O çox süni insandır.

Mən öz ağamı kifayət qədər yaxşı tanıyıram. Amma onu tam tanıdığımı söyləməzdim. Çox mürəkkəb naturası var, baş çıxarmaq asan deyil. İçində nəsə bir qeyri-adi, məxsusi bir sirr gizlətdiyini iddia etsək, yanılarıq – qətiyyən elə deyil, amma ona açar tapmaq da asan deyil. Əslinə qalsa, mən onu

düz-əməlli başa düşmürəm və özüm də mat qalmışam ki, niyə əsl köpək vəfası ilə onun dalına düşmüşəm. Amma o da məni başa düşmür axı.

Özünə qarşı başqalarına təlqin etdiyi pərəstişkarlığı, xoşniyyətliyi mənə təlqin edə bilmir. Amma insanlara belə hisslər təlqin etmək iqtidarında olan bir ağaya xidmət etmək mənə xoş gəlir. O, böyük hökmdardır, mən bunu təkzib etmirəm. Lakin öz cırtdanının gözlərində heç kim böyük ola bilməz.

Mən onun dalınca kölgə kimi gəzirəm.

Hersoginya Teodora məndən çox asılıdır. Mən onun sirrini qəlbimdə gəzdirirəm və heç vaxt, bir dəfə də olsun bu sirrə zərrə qədər eyham da vurmamışam. Lap mənə işgəncə versəydilər, ən dəhşətli əzablara məruz qoysaydılar belə, heç nə qaçırmazdım dilimdən. Niyə? Özüm də bilmirəm. Mən ona nifrət edirəm, onun ölümünü arzulayıram, onun cəhənnəm alovunda necə yanmasını, bu alovun onun murdar bədənini necə yalamasını görmək istərdim. Mən onun pozğun həyatına, mənim vasitəçiliyimlə öz sevgililərinə göndərdiyi abırsız məktublarına, kamzolumun altında közərmiş kömür kimi sinəmi yandıran intim kəlmələrinə nifrət edirəm. Amma satmaram onu. Mən daim ona görə həyatımı riskə qoyuram.

O, məni öz yanına – yataq otağına çağırıb qulağıma ərklə tapşırıqlarını pıçıldayaraq, sevgi məktublarını kamzolumun altında gizləyəndə bütün bədənim əsir və qan düz başıma vurur. Lakin o heç bir şey görmür, o hətta tapşırıqlarının mənə həyatım bahasına başa gələ biləcəyi barədə bir an belə düşünmür. Onun həyatı bahasına yox, mənim həyatım bahasına! O yalnız sezilməz təbəssümüylə gülümsünür və məni hara lazımdırsa, ora da göndərir – risk və ölüm təhlükəsiylə görüşə. Onun gizli həyatının iştirakçısı olmağım qətiyyən vecinə deyil. Amma o mənə bel bağlayır.

Mən onun bütün sevgililərinə həmişə nifrət etmişəm. Onların hər birinin üstünə atılıb xəncərlə yaralayardım ki,

axan qanına tamaşa edəm. Xüsusilə də onun neçə illərdən bəri əlaqə saxladığı və görünür, ayrılmaq fikrində də olmadığı don Rikkardonu görən gözüm yoxdur. Ona nifrət edirəm.

Hərdən hersoginya heç utanıb-eləmədən məni öz yanına hələ yataqdan qalxmamış çağırır. Artıq cavan deyil və yataqda beləcə uzanıb, qarşısında kameristkanın tutduğu mücrüdən daş-qaşlarını bir-bir çıxarıb seçərkən məzələnəndə döşlərinin necə sallaq olduğu görünür. Başa düşmürəm ki, onu necə sevmək olar. Onda kişi ehtirası doğuracaq heç nə yoxdur. Bircə görünəni odur ki, nə zamansa gözəl olub.

Soruşur ki, mənim fikrimcə, bu gün hansı daş-qaşını taxsa, yaxşıdır. Məndən həmişə bunu soruşur. O, bəzək şeylərini nazik barmaqları arasından buraxır və qalın ipək örtüyün altında tənbəl-tənbəl gərnəşir. O, fahişədir. Hersoqun böyük və dəbdəbəli yatağındakı fahişə. Bütün həyatı – sevişmədədir. O, məhəbbəti barmaqlarının arasından sürüşdürərək, özünün sezilməz təbəssümüylə onun necə axıb getməsinə tamaşa edir.

Belə dəqiqələrdə o, çox asanlıqla ruh düşkünlüyünə düçar olur, bəlkə də, özünü elə göstərirdi. Cazibədar bir hərəkətlə qızıl zəncirbəndini boynuna tutur, iri yaqut hələ də gözəl olan döşlərinin arasında alışıb-yanır və o soruşur ki, necə bilirəm, bu zəncirbəndi taxsa, yaxşı olarmı. Bütün yatağına ürəyimi bulandıran bir qoxu hopub. Ona nifrət edirəm, cəhənnəm alovunda necə yanmasını görmək istərdim, amma cavab verirəm ki, məncə, bundan yaxşı seçim ola bilməz və o da minnətdar baxışlarını mənə göndərir, sanki, hansısa dərdinə şərik oldum və kədərli bir təsəlli verdim ona.

Hərdən məni özünün acıdil dostu adlandırır. Bir dəfə məndən soruşdu ki, sevirəmmi onu.

Hersoq bir şey bilirmi? Heç nə bilmir? Ya, bəlkə, hər şeyi bilir?

Adamda belə fikir yaranır ki, elə bil, o, arvadının ikinci, məxfi həyatı üzərində heç düşünməyib. Amma kim bilir,

onun barəsində heç bir şeyi dəqiqliyi ilə deyə bilməzsən. Onun üçün hersoginya yalnız günün işıqlı yarısındakı siması ilə mövcuddur, çünki o özü də elə gün işığında yaşayan məxluqlardan idi, ondakı hər şey parlaq gün işığıyla aydınlanırdı. Çox təəccübləndirici idi ki, belə bir adam mənim üçün necə anlaşılmaz qala bilər axı. Yəqin, ona görədir ki, mən onun cırtdanıyam və təkrar edirəm: mən özüm də onun üçün anlaşılmaz idim! Hersoginyanı mən ondan daha yaxşı anlayırdım. Mən onu anlayıram, çünki nifrət edirəm. Nifrət etmədiyin adamı başa düşmək çətindir, elə bil, silahsızsan, içini açmalı bir alətin yoxdur.

Onun hersoginya ilə münasibətləri necə idi? O da sevgilisi idi? Bəlkə, yeganə həqiqi sevgilisi elə o idi? Bəlkə, elə ona görə qadınının xəlvətə salıb çıxardığı oyunlara, sanki, biganədir? Məsələn, mən hiddətlənirəm – onun isə vecinə deyil! Mən bu sakit insanı dərk etmək gücündə deyiləm. Onun güzəşti məni dəli eləyir, daim özümdən çıxarır. Kaş o da mənim kimi olaydı!

Sarayda saysız-hesabsız qəribə və səmərəsiz adamlar qaynaşır. Həyatın mənasını tapmaq ümidi ilə saatlarla başından ikiəlli yapışıb oturan müdriklər. Qoca, bulanıq gözləri ilə, guya, insanların taleyini müəyyənləşdirən səma cisimlərinin yolunu izləyə biləcəyini güman eləyən alimlər. Gecələr uzunu saray xanımlarına özlərinin şit şeirlərini oxuyan, səhər açılanda isə arxlara qusan avara və fırıldaqçılar – beləsini bir dəfə elə arxın içində deşmişdilər, bir başqası isə, yadımdadır, kavaler Moroşelli haqqında söyüş dolu həcvlərinə görə çubuqla döyülmüşdü. Əxlaqsız həyat yaşayan və kilsələri müqəddəslərin gözəl şəkilləri ilə dolduran rəssamlar. İndi kilsənin nəzdində yeni kampanilla (orta əsrlərin və İntibah dövrünün italiyan memarlığında, bir qayda olaraq, kilsədən ayrı yerləşən zəng qülləsi) inşa etmək tapşırığı almış memar və bənnalar. Öncəgörənlər və hər növ şarlatanlar. Bütün bu

avaralanan kütlə ürəyi istəyəndə peyda olur, kefinə düşəndə yoxa çıxır, bəziləri isə burada simsar kimi lap uzun müddət yaşayırlar və onların, istisnasız olaraq, hamısı hersoqun qonaqpərvərliyindən istifadə eləyir.

Başa düşmürəm ki, bu avaralar onun nəyinə lazımdır. Beynimə batmayan isə budur ki, onların sarsaq çərənçiliyinə saatlarla necə qulaq asmaq olar. Yaxşı, şairləri bir-iki saat dinləmək olar, onlar da təlxək kimidirlər – saraylarda mütləq gərək olurlar. Onlar paklığı və insan ruhunun ucalığını, mühüm hadisələri və qəhrəmanlıqları vəsf edirlər. Xüsusilə də öz şeirlərində sənin sahibinə mədhiyyələr, təriflər yağdırırlarsa, buna nə deyə bilərsən? İnsanın tərifə ehtiyacı var, tərif olmasa, adam heç öz gözlərində layiq olduğu məqama yüksələ bilməz. Həm indi, həm də keçmişdə o qədər gözəl, yüksək şeylər taparsan ki, yalnız şairlərin vəsfinə görə məhz belə gözəl və yüksək olub. Onlar, hər şeydən öncə, məhəbbəti vəsf edirlər və bu da düzgündür, çünki ən çox elə məhəbbətin ehtiyacı var ki, onu, əslində, necə varsa, elə təsəvvür etməsinlər. Şeri dinləyəndə qadınlar o dəqiqə qüssəli olurlar və sinələri ah çəkməkdən qalxıb-enir, kişilər də ətraflarına əlini üzmüş, xəyalpərvər baxışlar yollamağa başlayırlar, axı onların hamısı bilir ki, məhəbbət, əslində, necədir və deməli, şeir elə həqiqətdə də gözəl alınıb. Mən başa düşürəm ki, qara camaat üçün müqəddəslərin şəkillərini çəkən bu rəssamlar da olmalıdır ki, adamlar özləri kimi yoxsul və kirli olmayan kimsəyə sitayiş edə bilsinlər; mükafatlarını o dünyada almışlara oxşamağa çalışsınlar və alınlarına yazılan müddəti dözüb başa çatdırandan sonra beləcə mükafatlandırılacaqlarına inansınlar deyə. Şəkillərdə bahalı paltar geymiş, qızıl çələng taxmış əzabkeşlərin gözəl təsvirləri, üstəgəl qara camaata Tanrılarının bu həyatda müəyyən işlər görmək istədiyinə görə çarmıxa çəkilməsini əyani nümayiş etdirən rəsmlər. Deməli, onların da burada, bu yer üzündə ümidini bağlayası heç nələri yoxdur. Başa düşürəm, bu cür bəsit sənətkarlar bütün hökmdarlara

lazımdır, bircə bunu anlamıram ki, onların qəsrdə nə işi var axı? Onlar insanlar üçün bir sığınacaq, məbəd, bəzək-düzəkli məhbəs tikirlər ki, istənilən an içəri girib ruhi sakitlik bulsunlar. Orada onların həmişəlik xaçdan asılmış Tanrısı səbirlə gözləyir. Bütün bunlar mənə aydındır, çünki mən özüm də elə xaçpərəstəm, onlar kimi mən də xaç suyuna salınmışam və mənim xaç suyuna salınmağım qanuni qüvvəsindədir, hərçənd ki, bu mərasimi zarafatla təşkil eləmişdilər: hersoq Qonzaqo ilə donna Yelenanın nikah mərasimi vaxtı məni, onların ilki kimi, sarayın kupelində xaç suyuna salmağa aparmışdılar, guya, gəlin hamını heyran qoyaraq, elə öz toyu günü azad olmuşdu. Mən dəfələrlə eşitmişəm ki, bu hadisə barəsində dəhşətli dərəcədə gülməli bir şey kimi danışırlar, amma elə gülməli idi, özüm də bunu təsdiq eləyə bilərəm, çünki bu hadisə vaqe olanda, mənim artıq on səkkiz yaşım tamam idi və bizim hersoq məni bu mərasim üçün onlara əlborcu vermişdi.

Lakin heç başa düşmürəm ki, saatlarla oturub həyatın mənasını izah etmək istəyənlərə necə qulaq asmaq olar. Filosofların həyat və ölüm, bu qəbildən olan cürbəcür əbədi tapmacalar haqqında dərin mülahizələrinə, xeyirxahlıq, şərəf, cəngavərlik barəsində düşüncələrinə. Bir də ki ulduzlar barədə nəsə bildiyini fikirləşənlərə, onlarla insan taleləri arasında müəyyən bir bağlılıq olduğunu güman eləyənlərə. Onlar kafirdirlər, hərçənd ki, küfrlərinin nədən ibarət olduğunu bilmirəm, heç bilmək də istəmirəm. Onlar təlxəkdirlər, hərçənd ki, bu nə özlərinin, nə də başqalarının ağlına belə gəlmir; onlara gülən olmur, oyunbazlıqları heç kəsi əyləndirmir. Onları niyə sarayda saxlayırlar – bilən yoxdur. Lakin hersoq onlara elə qulaq asır, sanki, sözlərində mübhəm bir məna tapıb, fikirli-fikirli saqqalını sığallayır, mənə də tapşırır ki, elə onun özününkü kimi qonaqlarının da gümüş badələrinə şərab süzüm. Amma hərdən şərabı rahat süzməyim üçün kimsə məni dizinin üstündə oturdanda gülüşürlər.

Ulduzlar barədə nəsə bilən varmı? Onların sirrini kim yoza bilər? Bu avaralar? Onlar Kainatla söhbət eləyə bildiklərini düşünürlər və qəliz cavablar alıb şad olurlar. Özlərinin səma xəritəsini açaraq, göyləri kitab kimi oxuyurlar. Bu kitabı da özləri yazıb, ulduzlar isə onların kitablarından xəbərsiz öz naməlum yolları ilə hərəkətlərindədir.

“Gecənin Kitabı”nı mən də oxuyuram. Amma yozumuna girişə bilmərəm. Necə deyərlər, əlifbalarına bələdəm, lakin onu da bilirəm ki, göylərdə oxuduqlarımın yozumu yoxdur – mənim müdrikliyim də elə bundadır.

Onlar durbin, kvadrant götürüb gecəni səhərə kimi sarayın qərb qülləsində marığa oturaraq elə fikirləşirlər ki, guya, Kainatla ünsiyyətə girirlər. Mən isə onlarınkı ilə üzbəüz qüllədə, hələ qədim zamanlardan cırtdanlar yaşayan otaqdayam, İosafatı boğandan bəri burada tək yaşayıram, – tavanım alçaqdır, elə bizim cinsə tam uyğun, pəncərələr də mazğala bənzəyir. Qabaqlar burada hər yerdən – uzaq ölkələrdən, hətta həbəşlərin diyarından gətirilmiş çoxlu cırtdan yaşayırdı: hersoqların, papa və kardinalların hədiyyəsi, ya da ki canlı əmtəə – hərdən belə də olur axı. Biz cırtdanların nə doğma evi, nə ata-anası olur, biz bu dünyaya gizli gəlirik, yadlardan doğuluruq, harada və kimdən olmağımızın da fərqi yoxdur, qoy lap ən kasıblardan olsun, təki nəslimiz kəsilməsin. Təsadüfi valideynlərimiz dünyaya cırtdanlar nəslinin nümayəndəsini gətirdiyindən xəbər tutan kimi bizi nüfuzlu hökmdarlarına satırlar ki, onları öz eybəcərliyimizlə əyləndirək, onların təlxəkləri olaq. Mənim də başıma belə iş gəlmişdi – anam kimi doğduğunu anlayan kimi iyrənərək üzünü yana çevirib satmışdı məni: onun heç xəbəri də yox idi ki, mən çox qədim nəslin nümayəndəsiyəm. İyirmi eskudoya[1] satmışdı, bu pula özünə bir paltarlıq parça və qoyunlarına keşik çəkmək üçün qoyun iti almışdı.

Mən cırtdan pəncərəsinin qabağında oturub gecəyə baxıram – zəndlə baxıram, həmin o münəccimlər kimi. Mənim

[1] *Eskudo* – Portuqaliyanın milli pul vahidi

durbinə ehtiyacım yoxdur, durbinsiz də kifayət qədər diqqətliyəm. Mən də "Gecənin Kitabı"nı oxuyuram.

Hersoqun bütün bu alimlər, rəssamlar, filosof və münəccimlərlə maraqlanmasının çox sadə bir izahı var. İstəyir ki, onun sarayı bütün dünyada şöhrət tapsın, özü isə hamının hörmətini qazansın. Tamamilə anlaşılan bir istəkdir: mənə məlum olduğu qədərincə bütün insanlar, imkan daxilində, elə buna çalışırlar. Mən onu gözəl başa düşürəm və bu istəyinə tamamilə şərikəm.

Kondotyer[1] Bokkarossa özünün çoxsaylı məiyyəti ilə bir yerdə şəhərə gələrək, Ceraldi ailəsi qovulandan sonra boş qalmış palasso Ceraldidə yerləşdi. O, hersoqu bir neçə saatlıq ziyarət elədi. Başqa heç kəsin iştirakına icazə verilməmişdi.

O, böyük, məşhur kondotyer idi.

Kampanillanın inşa işləri başlanmışdı, biz ora baş çəkib işlərin necə getdiyinə baxdıq. Kampanilla kilsə günbəzindən xeyli uca olacaqdı və zəngləri çalınmağa başlananda adama elə gələcəkdi ki, səs göylərdən gəlir. Gözəl ideya idi, həqiqətən də, ideya adlandırılmağa layiq idi. Bu zənglər İtaliyanın bütün zənglərindən yüksəkdə duracaqdı.

Hersoq yeni tikiliyə çox maraq göstərir və onu başa düşmək olar. O, tikinti meydançasında eskizlərə bir də baxdı və Çarmıxa Çəkilənin həyatının səhnələrini təsvir edən, onun kampanillasının aşağı hissəsini bəzəyən barelyeflərdən lap vəcdə gəldi. Hələ ki işin yalnız bu qismi hazır idi.

Bəlkə, bu tikinti də heç vaxt başa çatmayacaqdı. Mənim hersoqumun fikirləşdiyi bir çox tikililər yarımçıq qalır. Böyük ideyaların gözəl xarabalıqları. Amma son nəticədə elə bu xarabalıqların özləri də ideya müəllifinə abidədir. Mən onun böyük hökmdar olduğunu heç vaxt inkar etməmişəm. O, küçə ilə gedəndə məmnuniyyətlə yanaşı addımlayıram. Hamı yuxarı,

---

[1] *Kondotyer* – İtaliyada muzdlu döyüşçülərin başçısı

ona baxır, məni görən olmur. Amma bunun elə bir əhəmiyyəti yoxdur. Onu, ali bir varlıqtək, ehtiramla salamlayırlar, lakin hersoqun fikirləşdiyi kimi, sevdiklərinə və yaxud hörmət elədiklərinə görə yox, yalnız ona görə ki, özləri qorxaq, ancaq qul olmağa layiq qara kütlədən savayı, başqa bir şey deyillər. Məni şəhərdə tək görən kimi gözlərinə tez dəyirəm, başlayırlar dalımca qışqırmağa: “Hersoqun cırtdanı! Ona bir təpik vurdunsa, elə ağasına vurmuş kimisən!” Amma vurmağa ürək eləmirlər, əvəzində, zibil qalaqlarından ya siçovul ölüsü, ya da başqa murdar bir şey tapıb dalımca tolazlayırlar. Mən də hirslənib şpaqamı sivirəndə başlayırlar qəhqəhəyə: “Bizim bu hökmdar yaman qüvvətlidir!” – deyə anqırışırlar. Özümü müdafiə edə bilmirəm, çünki müxtəlif silahlarla döyüşürük. Odur ki başdan-ayağa zibilin içində, canımı yalnız qaçmaqla qurtarıram.

Cırtdan hər şey haqqında həmişə ağasından çox bilir.

Düzünü desəm, mən öz hersoquma görə dözməyin əleyhinə deyiləm. Son məqamda bu, onun ayrılmaz tərkib hissəsi olduğuma daha bir izafi sübutdur və bəlli hallarda onun yüksək personasını mən təmsil edirəm. Bisavad qara camaat da başa düşür ki, ağanın cırtdanı, zatən, elə onun özüdür, məsələn, qəsr də öz qüllələriylə elə odur, saray da özünün dəbdəbəsi və gözəlliyi ilə odur və meydanda boyun vuran cəllad da, saysız-hesabsız sərvətlərlə dolu xəzinə də, aclıq əyyamında yoxsullara çörək paylayan baş eşikağası da, – bütün bunlar elə onun özüdür. Onlar mənim təmsil etdiyim hakimiyyəti hiss eləyirlər. Mən isə onların nifrətini görəndə məmnun oluram. Çalışıram ki, imkan dairəsində hersoq kimi geyinim: eyni parçalar, eyni biçim. Ona paltar tikəndə qalan parça artığından, sonra mənim üçün istifadə olunur. Yanımdan həmişə şpaqa asılır, eynən onunku kimi, amma mənimki xeyli qısadır. Elə qamətim də, əgər diqqət yetirsən, onunku kimi vüqarlıdır.

Beləliklə, əgər fikir versən, görərsən ki, mən hersoqa oxşayıram, lakin boyda ondan çox balacayam. Əgər mənə qərbdəki qüllənin münəccim təlxəklərinin ulduzlara baxdığı şüşələrdən baxsan, yəqin ki, hersoq olduğumu düşünə bilərsən.

Uşaqlarla cırtdanlar arasında böyük fərq var. Boyları eyni olduğu üçün, böyüklər fikirləşirlər ki, onlar bir-birinə uyğun gəlir, amma qətiyyən yox, heç uyğun gəlmirik. Cırtdanları tez-tez uşaqlarla oynamağa məcbur eləyirlər, daha anlamırlar ki, cırtdan uşağın tam ziddidir, o artıq doğulanda qoca olur. Balaca vaxtı cırtdanlar, mənə məlum olduğu qədər, heç oynamırlar, axı niyə oynasınlar, qırışlı, qoca sifətləriylə gülməli görünərdi oynamaqları. Bizi oynamağa məcbur etmək əsl təhqirdir. Axı insanlar bizim barəmizdə heç nə bilmirlər.

Ağalarım məni heç vaxt Anjelika ilə oynamağa məcbur etməyiblər. Əvəzində, o özü məcbur eləyirdi. Mən demək istəmirəm ki, bunu pislik üçün eləyirdi, amma onun ilk illərini xatırlayanda hərdən adama elə gəlir ki, qəsdən, incə bir işgəncə verirdilər mənə. Başqalarının heyran qaldığı girdə, mavi gözləri və şıltaqlıq əlaməti kimi ağzı olan bu uşaq, mənə hersoqun saraydakı məiyyətinin hamısından artıq işgəncə verirdi. Elə bir gün yox idi ki, səhər tezdən mənim yanıma, yuxarıya qalxmasın (o vaxt qız hələ zorla yeriyirdi!), qoltuğunda da mütləq pişiyi olardı. “Pikkolino, bizimlə oynamaq istəyirsən?” Mən cavab verirəm: “Heç cür oynaya bilmərəm, mənim daha vacib işlərim var, bu gün oynamaq halında deyiləm”. “Sən nə iş görəcəksən ki?” – deyə saymazyana soruşur. “Balacalar bunu anlamaz”, – cavab verirəm. “Onsuz da bayıra çıxacaqsan da, bütün günü yatmaq olmaz ki! Mən çoxdan, lap çoxdan oyanmışam”. Və mən onunla getməli oluram, qəti imtina eləməyə ağalarıma görə ürəyim gəlmir, hərçənd ki, içim qəzəbdən qaynamaq dərəcəsindədir. Qız öz dostu kimi əlimdən tutur, – nə sarsaq vərdişdir, zəhləm yapışqanlı uşaq əlindən gedir! Mən qəzəblə yumruğumu sıxıram, amma ona

dəxli yoxdur, onsuz da qəmiş olub, ara vermədən danışa-danışa hər yana sürüyür məni: geyindirəcəyi, yedirdəcəyi kuklalarının yanına, it damının yanındakı zənbildə qaynaşan, hələ gözləri açılmamış küçüklərin yanına, mütləq pişiklə oynamalı olduğu qızılgül bağçasına. Onun bütün heyvanlara, özü də məhz balalarına, bütün balaca şeylərə bezdirici bir marağı vardı. O, öz balaca pişiyi ilə oynayır, oynayır, əl çəkmirdi və belə hesab eləyirdi ki, mən də onunla mütləq oynamalıyam. Ona elə gəlirdi ki, mən də uşağam və bir uşaq kimi, hər şeyə sevinirəm. Mən ha! Mən heç nəyə sevinmirəm.

Düzdür, hərdən mənim necə əldən düşərək əsəbiləşdiyimi görəndə onun beyninə ağıllı fikirlər də gəlirdi, – qəflətən mənə, qırışlı, qədim sifətimə təəccüblə baxırdı: “Niyə sənin oynamaqdan xoşun gəlmir?”

Nə qıfıllanmış dodaqlarımdan, nə minillik təcrübədən təkmilləşən soyuq gözlərimdən cavab almayaraq, mənə tamamilə yeni bir ifadə ilə – sadəlövh uşaq baxışlarındakı bir az qorxaq ifadə ilə baxıb bir müddət susurdu.

Oyun nədir? Mənasız qurdalanma... Əşyalar və hadisələrlə davranışda qəribə sünilik. Hər şeyi əslində olduğu kimi, ciddi qəbul etmirlər. Münəccimlər ulduz-ulduz oynayırlar, hersoq öz tikintiləri, kilsələri, barelyefləri, kampanillalarıyla oynayır, Anjelika kuklaları ilə oynayır – hamı oynayır, hamı riyakarlıq edir. Təkcə mənim sünilikdən zəhləm gedir. Yalnız mən ciddi yaşayıram.

Bir dəfə mən sakitcə onun yatdığı otağa girdim, pişiyini uzadıb xəncərlə başını kəsdim və elə pəncərədən də zibilliyə tulladım. Elə qəzəblənmişdim ki, nə etdiyimi, demək olar, anlamırdım. Daha doğrusu, anlamağına lap gözəl anlayırdım, mən qızılgül bağçasında saatlar uzunu ürəkbulandırıcı oyunlarımız zamanı beynimə gələn planı həyata keçirirdim. O, pişiyin yoxa çıxdığından duyuq düşəndə ovunmaq bilmirdi, hamı ona sevimli heyvanının, çox güman ki, artıq sağ olmadığını söyləyəndə isə qəribə bir qızdırma tutdu onu və

uzun müddət yatağa düşdü, odur ki, mən onu görmək zəruriyyətindən azad oldum. Sağalanda isə, təbii ki, qızın öz sevimlisinin taleyi barədə, onun anlaşılmaz bir tərzdə yoxa çıxması haqqında acı və bitib-tükənməz hekayətinə qulaq asmalı oldum. Heç kəs pişiyin hara yoxa çıxması üzərində baş çatlatmırdı, əvəzində, bütün saray qızın boğazında haradansa peyda olmuş qan ləkələrinə görə, az qala, qorxudan ölmüşdü və əfkari-ümumiyyəyə əsasən, bu, çox bəd əlamət ola bilərdi. İnsanların ürəyi gedir cürbəcür bəd əlamətlər tapmaq üçün.

Onun bütün uşaqlıq illəri boyu əlindən heç rahatlığım yox idi, zaman-zaman oyunları dəyişirdi, vəssalam. Daim zəhləmi tökür, öz sirləri, dostluğu ilə mənə qəmiş olurdu, hərçənd ki, bu dostluq qətiyyən gərəyim deyildi. Hərdən fikirləşirəm ki, mənə bezdirici bağlılığının səbəbi onun pişik, it, ördək balalarına və ümumiyyətlə, bütün balacalara bağlılığı ilə eyni idi. Ola bilər ki, o, böyüklərin dünyasına uyuşa bilmirdi, ola bilər, çəkinirdi ondan, yaxud nədənsə qorxmuşdu. Amma bunun mənə nə dəxli vardı axı! Özünü tənha hiss edirdisə belə, mənim əlimdən nə gələrdi ki! Amma mənə necə yapışmışdısa, qopmaq bilmirdi ki, bilmirdi. Hətta sonralar, uşaqlıq dövrünə “əlvida” deyəndən sonra da. Onda anası onunla daha maraqlanmırdı, onun kuklalarını əvəz edəcək yaşda deyildi – o da daim oynamağındaydı, bütün adamlar kimi – atasının isə, təbii ki, başqa qayğıları özünə bəs edərdi. Bəlkə də, atanın qızı ilə az maraqlanmasının tamam başqa səbəbi vardı. Amma bu barədə sussam yaxşıdır.

Yalnız on-on iki yaşlarından etibarən qaradinməz oldu, özünə qapanmağa başladı və nəhayət ki, ondan canımı qurtardım. O vaxtdan bəri, ilahiyə şükür ki, məni sakit buraxıb və özü başını hərləyir. Amma hərdən ondan çəkdiklərimi xatırlayanda, elə indi də qəzəbimdən boğuluram.

O, tamam böyük qızdır, on beş yaşına çatdı və yəqin, tezliklə ona xanım kimi baxacaqlar. Amma elə indiyədək uşaq xasiyyətlidir və özünü qətiyyən əsil-nəcabətli xanım kimi

aparmır. Yeri gəlmişkən, atasının kimliyi bəlli deyil, ola bilər ki, elə hersoqun özüdür, lakin bic olduğunu da istisna eləmək olmaz və əgər belədirsə, onda onunla nahaq yerə hersoq qızı kimi davranırlar. Bəziləri deyirlər ki, o qəşəngdir. Mən isə heç bir düşüncə işartısı sezilməyən iri və girdəgözlü, yarıaçıq ağızlı bu uşaq sifətində qəşəng bir şey tapa bilmirəm.

Məhəbbət ölə bilər. O öləndə çürüməyə, dağılmağa başlayaraq, yeni bir məhəbbət üçün münbit zəmin yarada bilər. Onda ölü məhəbbət özünün gözəgörünməz həyatını diri məhəbbətin içində sürür və bu o deməkdir ki, əslində, məhəbbət ölmür.

Hersoginya məhz bu əqidəyə, mənim anlayışıma görə, öz şəxsi təcrübəsi əsasında gəlib və xoşbəxtliyini də bunun üzərində qurur. Axı onun xoşbəxt olmasına heç bir şübhə yoxdur. O başqalarını da özü istəyən kimi xoşbəxt eləyir. Hal-hazırda belə xoşbəxt don Rikkardodur.

Ola bilər ki, hersoq da xoşbəxtdir. Xoşbəxtdir ki, bir zamanlar onda oyatdığı hisslər hələ ölməyib – təxəyyülündə canlıdır. O özünü elə göstərir ki, guya, məhəbbəti yaşayır. Onların ikisi də özünü elə göstərir ki, guya, məhəbbətləri yaşayır. Hər ikisi oynayır.

Bir zamanlar hersoginyanın bir sevgilisi vardı, xəyanət etdiyinə görə qadın onu işgəncələrə məruz qoydu. Elə düzübqoşdu ki, ağlına heç bir şey gətirməyən hersoq onu heç ağlına belə gəlməyən cinayətə görə ittiham elədi. Onda həqiqəti təkcə mən bilirdim və işgəncələrdə də iştirak edirdim ki, sonradan özünü necə aparmasından hersoginyaya danışım. Özünü qəhrəman kimi aparmırdı, elə onların hamısı, təxminən, necə aparırdısa, elə də aparırdı.

Bəlkə də, qızın atası elə o idi. Kim bilir?!

Amma hersoq da ola bilər, bunu da istisna eləmək olmaz. Axı onda hersoginya onun qəlbini ələ almaq üçün qılığına girməyə çalışırdı və onların məhəbbəti özünün ikinci baharını

yaşayırdı. Qadın hər gecə ərini qucaqlayıb, itirilmiş sevgilisinin aclığını çəkən aldadılmış ağuşunu ona təklif edirdi. O, sanki, ərinə də işgəncəyə məhkum sevgilisi kimi nəvaziş göstərirdi. Hersoq da nəvazişə nəvazişlə cavab verirdi, özlərinin ilk, qaynar məhəbbət gecələrindəki kimi. Ölü məhəbbət dirisinin içində öz sirli həyatını yaşamaqda idi.

Hersoginyanın müqəddəs atası hər şənbə günü səhər, onun üçün ayrılmış vaxtda gəlir. Gəlişindən xeyli qabaq isə qadın artıq ayaq üstə olur, geyinir, daranır və iki saat da xaçdan asılmışın qabağında dizi üstə durur. O, tövbə üçün hazırdır.

Tövbəlik bir şeyi də yoxdur. Nə aldadır, nə də riyakarlıq eləyir. Əksinə, səmimiyyətlə, lap ürəkdən danışır. O günahın nə olduğunu bilmir. Özünün pis bir hərəkətini də görməyib. Bircə qulluqçusuna əsəbiləşib, saçlarını əcaib düzəldəndə. O, təmiz, hələ yazılmamış bir səhifədir, Müqəddəs ata da başını təbəssümlə ona tərəf elə əyir, sanki, hələ toxunulmamış bakirədir.

Duadan, Çarmıxa Çəkilənlə ünsiyyətdən sonra onun baxışları aydın və sirayətedici olur. Özünün oyuncaq xaçından asılmış əzabkeş insancığaz ona görə də əzab payını alıb və qadının ruhu bütün günahlardan təmizlənib, günah anlayışı barədə yaddaşın özü belə beynindən silinib. O, özünü möhkəmlənmiş və sanki, cavanlaşmış, lakin, eyni zamanda, həm də xilaskar və diqqətli hiss edir; bu da onun sadə qara paltarına və bəzək-düzəksiz sifətinə çox yaraşır. Sonra da oturub sevgilisinə indiki ruhi vəziyyətini əks etdirən məktub yazır, içində məhəbbət və görüş barədə bircə kəlmə də olmayan sakit bacı məktubu. Belə əhvali-ruhiyyədə olanda yelbeyinliyə çox dözümsüz olur. Mən də məktubu sevgilisinə aparıram.

Onun əsl mömin olduğuna şübhə etmək yaramaz. İnanc onun üçün dəyərli, həyati əhəmiyyət kəsb edən bir şeydir.

Onun inanca ehtiyacı var, istifadə edir ondan. İnanc qəlbinin, ruhunun bir hissəsidir.

Bəs hersoqun özü necə, mömin adamdırmı? Demək çətindir. Müəyyən mənada, bəli, əlbəttə, elədir, çünki o, özündə hər şeyi, o cümlədən, inancı birləşdirir, amma buna inanc demək olarmı? Dünyada inanc adlı bir məfhumun olması onun xoşuna gəlir, inanc, inam barədə söhbətlərə, maraqlı teoloji mübahisələrə qulaq asmağı sevir – insanlara xas olan bir şey ona yad ola bilərmi? Onun dini obrazlardan, məşhur rəssamların madonnalarından, gözəl, əzəmətli məbədlərdən, xüsusilə də özünün tikdirdiklərindən xoşu gəlir. Bilmirəm, bunu inanc adlandırmaq mümkündürmü. Amma ola bilər. Onun barəsində əgər bir hökmdar kimi bəhs etsək, o, şəksiz, dinin təsiri altındadır. Bu işdə səmimiyyəti heç də hersoginyanınkından az deyil. O, xalqın dinə ehtiyacını anlayır, başa düşür ki, bu ehtiyac ödənməlidir və qapıları həmişə bu tələbatı ödəməklə məşğul olanlar üçün açıqdır. Prelat və digər dini simalar bu qapılardan o yan-bu yana şütüməklərindədirlər. Amma özü necə, şəxsən özü imanlı adamdırmı? Bu, tamam başqa məsələdir – burada mən bir söz demirəm.

O ki qaldı hersoginyaya, ona heç şübhə yoxdur, o, həqiqi mömindir.

Bəlkə, onların ikisi də inanır, hərə öz bildiyi kimi?

Ümumiyyətlə, inam, iman nədir? Mən bunun üzərində çox düşünmüşəm, amma bir yana çıxa bilməmişəm.

Bu barədə neçə il qabaq keçirilmiş karnavalda, məni yepiskop rolunu oynamağa məcbur edib elə onun kimi geyindirəndə və mən Mantuan hersoqunun özü ilə karnavala gətirdiyi cırtdanlarla dini mərasim icra edəndə xüsusilə dərindən fikirləşmişəm. Biz qəsrin zallarından birində qurulmuş kiçik mehrabın önündə toplaşdıq, ətrafda isə kinayə ilə gülümsünən qonaqlar əyləşmişdilər – bütün bu senyorlar, cəngavərlər özlərinin təlxək geyimlərində fors göstərirdilər. Mən xaçı yuxarı qaldırdım, bütün cırtdanlar dizi üstə

düşdülər. “Bu sizin günahlarınızı Bağışlayandır!” – onlara alovlu nəzərlərlə baxaraq, şimşək gurultusunu andıran qalın səslə dedim. – “Bu, bütün cırtdanların günahlarını bağışlayan, böyük hersoq Ponti Pilat zamanında işgəncə verilərək, yer üzündəki bütün adamların sevinci və rahatlığı naminə oyuncaq xaça mismarlanmış əzabkeş cırtdandır”. Mən camı qaldırıb, onların gözləri qabağında tutdum: “Bu onun – həmin cırtdanın qanıdır, sizin bütün böyük günahlarınız bu qanda yuyulacaq və bütün qara ruhlar təmizlənərək, qar kimi ağaracaq”. Sonra prosforanı götürərək, onlara göstərdim, ayinə müvafiq olaraq gözlərinin qabağında ondan bir dişləm kəsib, camdan bir qurtum içdim, eyni zamanda da bu ecazkar ayinin mənasını izah edirdim: “Mən onun, elə sizinki kimi, eybəcər, isti vücudunu yeyirəm. Dadı öddən də acıdır, çünki hədsiz nifrət hopub ona. Qəbul edin və siz də yeyin! Mən onun qanını içirəm, tonqal kimi alışdıran, heç kəsin söndürə bilməyəcəyi alovlu qanını. Sanki, elə öz qanımın dadını gördüm.

Ey cümlə cırtdanları bağışlayan, qoy sənin alovun bütün yer üzünü yandırsın!”

Sonra mən camdakı şərabı ətrafda oturub dörd gözlə bizə baxan sarsılmış, ağappaq ağarmış tamaşaçıların üstünə səpdim.

Mən kafər deyiləm. Kafərliyi onlar eləyirdilər, mən yox. Buna baxmayaraq, hersoq əmr elədi ki, məni bir neçə günlük qandallasınlar; guya, onlar sadəcə şənlənmək istəyirmişlər, mən də hər şeyi korlayaraq onları dilxor elədim, qonaqları qorxutdum. Mənim ölçümdə qandal tapılmadı, məcbur oldular ki, məxsusi düzəltdirsinlər, dəmirçi isə deyinirdi ki, belə əhəmiyyətsiz həbs müddətinə görə bu boyda əlləşməyə dəyməz, hersoq da dedi ki, düzəlt, bəlkə, nə vaxtsa yenə gərəyimiz oldu. Məni lap tez buraxdı, təyin olunmuş vaxtdan

da tez və mənə elə gəlir ki, hersoq bu cəzanı, daha çox, qonaqlara görə vermişdi: onlar gedən kimi məni buraxdılar. Lakin ilk günlər o mənə birtəhər, elə bil, ürkək baxır, otaqda mənimlə tək qalmaqdan çəkinirdi, adama elə gəlirdi ki, hətta qorxurdu məndən.

Cırtdanlar, təbii ki, bir şey başa düşmədilər. Onlar murdar xədim səslərilə cükküldəşərək, ürkmüş toyuqlar kimi bilmirdilər hara təpilsinlər. Heç bilmirəm bu dəhşətli səs onlarda haradandır. Mənim səsim həm bəm, həm də gurdur. Onlar axı yalnız cisimləri ilə xədim və qul deyillər, həm də batinləri elədir və onların əksəriyyəti öz bədəninin başına gətirdiyi murdar oyunlarla nəslini biabır edən təlxəklərdir.

Mənfur cins! Yalnız onları görməməyimin xətrinə, işi elə qurdum ki, hersoq onları bircə-bircə satdı, axırda tək mən qaldım. Mən xoşbəxtəm ki, artıq onlar yoxdurlar və cırtdanların yataq otaqlarında sükut və boşluqdur, indi mən gecələr öz xəyallarıma rahatca dala bilirəm. Mən şadam ki, İosafat da yoxdur və onun bədbəxt qoca sifətini görmək, ciyiltili səsini eşitmək zəruriyyətindən azadam. Mən xoşbəxtəm ki, tək qalmışam.

Görürsünüz də, işlər elə gətirib ki, hərdən öz xalqına da nifrət eləməli olursan. Bizim irqdən olanların hamısına nifrətim var.

Lakin mən elə özümə də nifrət edirəm. İçi ödlə dolu vücudumu yeyib-tökürəm. Zəhərli qanımı içirəm. Mən – öz xalqımın məşum baş ruhanisi hər gün müqəddəs sirlərimin mübhəm mərasimini tək-tənha keçirirəm.

Bu həngamədən sonra hersoginya özünü qəribə aparmağa başladı. Elə məni buraxdıqları gün, səhər yanına çağırdı və onun yataq otağına girəndə mənə fikirli-fikirli, sanki, sınayırmış kimi baxdı. Mən qınaq gözləyirdim, hətta yeni cəza alacağımı düşünürdüm, lakin o, nəhayət ki, danışmağa başlayanda etiraf etdi ki, mənim moizəm onun yaddaşında

çox dərin izlər buraxıb: ondakı çox məşum və dəhşətli məqamlar içini sarsıdıb. "Mənim içimə necə yol tapdın, ən məhrəm şeyləri necə sarsıda bildin?"

Heç bir şey anlamırdım. Lakin o susaraq, yol çəkən gözlərini məndən uzaqdakı bir nöqtəyə zilləyəndə aradakı fasilədən istifadə eləyib kinayəli bir təbəssümlə gülümsündüm.

Soruşdu ki, sən bilən, xaçda çarmıxa çəkilib asılı qalmaq necədir? Necədir, səni qırmancla döyüb ölənə kimi işgəncə versinlər? Sonra dedi ki, İsa mənə nifrət etməlidir, bunu anlayıram. Bu əzablardan mənim xətrimə keçdiyinə görə dəhşətli nifrət bəsləməlidir mənə.

Cavab vermək fikrim yox idi, o da söhbətini daha davam elətdirmədi və uzun müddət sükut içində uzanaraq gözlərini naməlum bir nöqtəyə zillədi.

Sonra isə özünün gözəl əli ilə yüngül bir işarə verdi, yəni bu günlük bəsdir, kameristkanı səsləyib, tünd-qırmızı paltarını gətirməyi tapşırdı, yataqdan qalxmaq vaxtı idi.

Heç bu günə qədər də başa düşmürəm ki, onda hersoginyaya nə olmuşdu.

Mən görürəm ki, hərdən adamlara qorxu təlqin eləyirəm. Amma, əslində, insanlar məndən yox, özlərindən qorxurlar. Onlara elə gəlir ki, məndən qorxurlar, mən isə onların hər birinin içindəki cırtdanam – meymun sifətli, insanabənzər məxluq, o məxluq ki onların iç dünyasının dərinliklərindən tez-tez bayıra boylanır. Ona görə qorxurlar ki, batinlərində tamam başqa bir vücudun yuva qurmasını bilmirlər. Onlar içlərindən, ruhlarındakı üfunətli girdabların hansındansa qəfil çıxan, onların yaşadığı gündəlik adi həyata heç bir dəxli olmayan, mövcudluğunu ağıllarına belə gətirmədikləri hər şeydən qorxurlar. Nə qədər ki həmin nəsnə üzə çıxmayıb, onların heç nə vecinə deyil, heç bir təhlükədən çəkinmirlər. Onlar qədlərini dikəldib etinasız görkəmlə gəzib dolanırlar və hamar üzlərindən heç bir ifadə oxunmur. Lakin iç dünyalarında daim mövcudluğundan bixəbər olduqları baş-

qa bir məxluq həyatını sürür, onlarsa, özləri də bilmədən, bir neçə həyatı eyni zamanda yaşayırlar. Onlar möhkəm masqalanıblar, onlar anlaşılmaz və çoxüzlüdürlər.

Nə isə, eybəcərdirlər, hərçənd ki baxanda qətiyyən deməzsən.

Mən yalnız öz həyatımı – cırtdan həyatımı yaşayıram. Heç vaxt qamətli və hamar sifətli olmuram. Mən həmişə elə özüm kimiyəm, həmişə eyni, bircə həyat yaşayıram. İçimdə də heç bir başqa məxluq yoxdur. İçimdə nə varsa, hamısını tanıyıram, ruhumun dərinliklərindən qəfil çıxan heç nə olmur, orada gizlənən də yoxdur. Odur ki həm onları qorxudan naməlum varlıq mənə tamam yaddır, həm də anlaşılmaz və mübhəm nəyinsə qarşısında qorxu hissi keçirmək. Mənim üçün belə bir şey, ümumiyyətlə, mövcud deyil. İçimdə "başqası" yoxdur.

Qorxu? O nə olan şeydir? Çox güman ki, gecənin zülmətində tək qalarkən, İosofatın kabusunun gəldiyini, özünün ölüm kimi bəmbəyaz sifətilə, boynundakı boğulma qançırlarıyla bir yerdə, ağzını geniş açıb, getdikcə mənə daha çox yaxınlaşdığını görəndə qorxmalıyam.

Lakin mən nə qorxu hissi keçirirəm, nə də peşmançılıq, ümumiyyətlə, heç bir güclü hissiyyatım olmur. Onu görəndə yalnız bir şey düşünürəm ki, İosofat ölüb və həmin gündən bəri mən tamam tək qalmışam.

Mən tək qalmaq istəyirəm, mən istəmirəm ki, özümdən başqa nəsə olsun. Onun öldüyünü lap aydın görürəm. Bu yalnız onun kabusudur və mən zülmətin içində tənhayam, eyni şey düz onu boğandan bəri hər gecə təkrarlanır.

Bunda da qorxulu bir şey yoxdur.

Sarayda çox ucaboy bir kişi peyda oldu, hersoq onunla təəccüb doğuracaq dərəcədə hörmətlə, hətta deyərdim ki, ehtiramla davranır. Çağırılmış qonaqdır və hersoq deyir ki,

yolunu çoxdan gözləyirdi, onu, nəhayət ki, öz viziti ilə şərəfləndirdiyindən xoşbəxtdir. Onunla lap özünə bərabər adam kimi davranır.

Lakin, saraydakıların hamısına bu gülməli gəlir, bəziləri isə deyirlər ki, qonaq, həqiqətən də, qeyri-adi adamdır və hersoqlara bərabər tutulası insandır. Amma o, hersoqlar kimi geyinmir, çox sadə geyinir. Bu şəxs, əslində, kimdir və qeyri-adiliyi nədədir, hələlik öyrənə bilməmişəm. Yəqin, zamanı yetişəndə aydınlaşacaq. Deyirlər ki, burada uzun müddət qalacaq.

İnkar edə bilmərəm ki, onda nə varsa, adamlarda özünə qarşı ehtiram hissi oyadır: Özünü tam sərbəst və başqalarından çox ləyaqətli aparır, hündür, necə deyərlər, zəka möhürü aydın oxunan alnı var, çallaşmış saqqalıyla bitən sifəti isə nəcib və həqiqətən, gözəldir. Onda incə və çox ahəngdar nəsə var, hərəkətləri və maneraları sakit, ölçülüdür.

Eybəcərliyinin nədən ibarət olduğunu bilmək pis olmazdı.

Diqqətəlayiq qonaq hersoqla eyni mizin arxasında nahar edir. Onlar daim müxtəlif mövzularda söhbətlər edirlər və mən ağama xidmət göstərirəm – o, həmişə tələb edir ki, bunu məhz mən eləyim, – görürəm ki, qonağımız, həqiqətən, ziyalı adamdır. Onun zəkası, sanki, dünyada hər şeyi əhatə edir, hər şeylə maraqlanır. O istənilən şeyi izah etməyə girişir, amma başqalarından fərqli olaraq, öz nöqteyi-nəzərinin düzgün olduğuna həmişə əmin deyil. Məsələn, filan, ya bəhmən hadisəni, onun fikrincə, necə başa düşmək lazım olduğunu yerli-yataqlı izah edərkən hərdən susub fikrə gedir, sonra da şübhələrini bölüşür, amma çox mümkündür ki, mənim bu dediklərim həqiqətə uyğun olmasın. Mən özüm də bilmirəm ki, bunu necə qiymətləndirim. Bax, bu, müdrikliyin bir növüdür, amma çox ola bilər ki, belə deməsinin səbəbi, həqiqətən də, nəyisə dəqiq bilməməsi, tərəddüddə olmasıdır və buradan da belə bir nəticə hasil olur ki, bayaqdan bəri qurduğu söz sarayları da əhəmiyyətsiz və dəyərsiz bir şeydir. Əgər mən insan şüurunun imkanlarını düzgün qiymətləndirirəmsə,

ikinci ehtimalım daha realdır. Lakin çoxları anlamırlar ki, insan şüurunun qeyri-kamilliyi adamı bəlli bir təvazökarlığa sövq edir. O isə, çox mümkün ki, bunu başa düşür.

Hersoq da bunların heç birini duymur, onu elə acgözlüklə dinləyir, sanki, büllur kimi saf, bilik və idrak qaynayan bir bulağın suyunu içir. Üzüyola şagird müəlliminə baxan kimi, onun düz ağzına baxır, amma, təbii ki, özünün hersoq ləyaqətinə bir xələl gətirmədən. Hərdən ona “maestro” deyir. Maraqlıdır, bu yaltaqlığa bənzəyən mutiliyin səbəbi nədir? Sahibimi yaxşı tanıdığıma görə deyirəm ki, nəsə bir səbəb mütləq olmalıdır. Alim, kişi isə özünü elə aparır, sanki, bu müraciəti heç eşitməyib. Bəlkə, o, elə, əslində də, təvazökardır. Amma, digər tərəfdən də o, hərdən çox qəti fikirlər bildirir, öz nöqteyi-nəzərini əminliklə müdafiə edərək, elə dəlillər gətirir ki, bu da onun iti və sirayətedici zəkasının birbaşa sübutudur.

Belə çıxır ki, o, həmişə tərəddüd etmir.

Bir qayda olaraq, sakit, gözəl və qeyri-adi dərəcədə ahəngdar, musiqili bir səslə danışır. Mənə qarşı gülərüzdür, hətta müəyyən maraq da göstərir. Səbəbini bilmirəm. Hərdən mənə elə gəlir, sanki, o, nəyi isə hersoqu xatırladır, hərçənd ki, nədə bənzədiyini düz-əməlli izah eləyə bilmərəm.

O, saxta adam deyil.

Bizim möhtərəm yadelli Santa-Kroçdakı fransiskan monastırında işə başlamağa hazırlaşır, oradakı ziyafət salonunun divarında nəsə şəkil çəkəcək. Deməli, o, sadəcə olaraq, bu saraydakı çoxları kimi müqəddəslərin şəkillərini və bu qəbildən olan başqa cürbəcür şeyləri cızma-qara eləyənlərdəndir. Sən demə, onun “diqqətəlayiqliyi” elə bunda imiş.

Mən demək istəmirəm ki, o, eyni zamanda başqa, daha böyük və əhəmiyyətli bir şəxs ola bilməz və onu mütləq sadə peşə yoldaşlarına bərabər tutmaq lazımdır. Axı etiraf etmək gərəkdir ki, o, qat-qat dərin təsir doğurur və aydındır ki, hersoq da onu bütün qalanlarından daha diqqətlə dinləyir.

Amma, hər halda, qeybdən xəbər verən orakul[1] deyil ki, ağzını açıb qulaq asasan, hər gün özünlə bir masa arxasında oturdacaq dərəcədə əhəmiyyətli bir adam deyil. Yox, bunu heç dərk etmək olmur. Nə deyirsən de, o yalnız sadə sənətkardır və bütün savadına, zəkasına baxmayaraq, nə iş görürsə, məhz əlləri ilə görür və danışarkən çox şeyi, o qədər şeyləri əhatə edir ki, heç özü də əməlli qavraya bilmir! Əlləri necədir, bilmirəm, ümidvaram ki, əgər hersoq bu işi ona tapşırıbsa, bacarıqlıdır, o ki qaldı boyundan böyük suallara cavab tapmağa girişən şüuruna, bunu da elə özü etiraf edir də. Yəqin, o, xəyalpərəstdir, fantaziyabazdır. Özünün aydın zəkasına və saysız-hesabsız ideyalarına baxmayaraq, görünür ki, öz dünyasını düz qum üzərində ucaldır və demək, bu dünya zatən irrealdır.

Amma nə qədər qəribə olsa da, məndə bu insan haqqında konkret fikir hələ formalaşmayıb. Görəsən, niyə? Adətən, rastlaşdığım bütün insanlar barədə məndə müəyyən bir fikir lap tez formalaşır. Çox güman ki, o, başqalarından elə öz boyu qədər uca şəxsiyyətdir. O, sanki, bütün parametrlərdə orta səviyyəni üstələyir. Soruşulur ki, bu şəxs görəsən, niyə mənim rastlaşdığım bütün adamlardan bu dərəcədə fərqlənməlidir?

Hər necə olsa da, məncə, hersoq onun dəyərini, əslində, olduğundan yüksək qiymətləndirir.

Onun adı Bernardodur, lap adi adlardan biri.

Hersoginyanı o maraqlandırmır. Qocadır axı. Kişi söhbətləri isə, göründüyü kimi, onu qətiyyən cəlb eləmir. Onların uzun-uzadı söhbətlərinin iştirakçısına çevriləndə, o susaraq, öz xəyallarına baş vurur. Mənə hətta elə gəlir ki, bu diqqətəlayiq kişinin nə dediklərini heç eşitmir də.

Əvəzində, deyəsən, onu hersoginya əməlli-başlı maraqlandırır. Fikir vermişəm ki, kimsə görməyəndə onu yaman oğrun-

---

[1] *Orakul* – bütün məkan və zamanları görən ilahi qüvvənin "danışan ağzı" sayılıb, məbədin qapalı guşəsində qalaraq həqiqəti açıqlayan və istənilən sualı cavablaya bilən medium, vasitəçi kahin (*oraculum* – müqəddəs söz, *lat.*)

oğrun süzür. Sifətini öyrənir, özünün hər şeylə maraqlanan və getdikcə daha fikirli baxışlarıyla, sanki, nəsə tapmaq istəyir bu qadının çöhrəsində. Bu kişini onun nəyi cəlb edə bilər?

Axı üzü qətiyyən maraqlı deyil. Fahişə olduğu o dəqiqə görünür, hərçənd ki, bunu aldadıcı günahsızlıq pərdəsi arxasında gizlətməyə çalışır. Onun mahiyyətini anlamaq üçün uzun-uzadı baxmaq gərəkməz. Daha sifətində baxılası nəyi qalıb ki? Onda cazibədar olan nədir?

Rəssama nə var axı; onu isə, dünyada hər şey öz cazibəsinə sala bilər, bu, aydın görünür. Məsələn, yerdən bir daş qaldırıb – bunu özüm görmüşəm – qeyri-adi bir maraqla nəzərdən keçirə bilər, o üz-bu üzünə çevirib tamaşa edə bilər, axırda da qiymətli bir şey kimi cibinə qoya bilər. Adama elə gəlir ki, yer üzündə onun diqqətini özünə cəlb etməyə qadir olmayan bir şey yoxdur. Divanədir, nədir?

Qibtəyə layiq divanəlikdir! Adi daşı da qiymətli sayan birisi addımbaşı xəzinə tapar da.

Hər şeylə maraqlanır. Burnunu hər yerə soxur, hər şeyi bilməlidir, hər şeyi soruşub-öyrənməlidir. Fəhlələrdən alətləri, iş üsulları barədə xəbər alır, qeydlərini söyləyir, məsləhətlər verir. Şəhərdənkənar gəzintilərindən bir qucaq gül-çiçəklə qayıdır, oturub başlayır ləçəklərini bircə-bircə yolmağa ki, quruluşlarını içəridən öyrənsin. Saatlarla dayanıb quşların dəstə-dəstə uçmasına baxa bilər, guya, bunda nəsə qəribə bir şey var. Hətta qəsr darvazalarının qarşısında payalara sancılmış, hamının baxmaqdan çoxdan bezdiyi oğru, qatil kəllələrinə də, az qala, saatlarla tamaşa edərək düşüncələrə qərq ola bilər, sanki, nəsə bir tapmaca var onlarda, baxıb cib dəftərçəsinə gümüş qələmlə təsvirlərini köçürər. Bir neçə gün qabaq meydanda Françeskonu asanda o, kiçik oğlan uşaqları ilə hamıdan qabaqda dayanmışdı ki, yaxşı görə bilsin. Gecələr ulduzlara tamaşa eləyir. Onun maraq dairəsində, sözün əsl mənasında, həm yer, həm göy var.

Görəsən, həqiqətən, hər şeydə maraqlı nəsə var?

Burnunu hara soxması mənim heç vecimə deyil. Lakin əgər bir də mənə toxunsa, xəncərləyəcəyəm onu. Qəti qərarımdı, vuracağam – sonra başıma nə gəlir, qoy gəlsin.

Bu gün axşam ona şərab süzəndə əlimdən yapışdı, deyəsən, baxmaq istəyirdi, – acıqla dartdım əlimi. Hersoq isə gülümsünüb, əmr elədi ki, əlimi göstərim. O, əlimə diqqətlə baxırdı, sırtıq bihəyalıqla, hər oynağını, biləyimdəki hər qırışı öyrənirdi, hətta qolumu da çırmalamaq istəyirdi ki, bir az da yuxarıları nəzərdən keçirsin. Mən bir də əlimi dartdım, artıq ağlım tamam çaşmışdı, içimdə qəzəbim qaynayırdı. Hər ikisi gülümsünürdü, mən isə onları baxışlarımla yandırıb külə çevirməyə hazır idim.

Əgər o bir də mənə əlini vursa, onun axan qanına ləzzətlə tamaşa edəcəyəm! Mənə toxunanda zəhləm gedir, bədənimlə cüzi yad təmas da dözülməzdir.

Qəribə şayiələr dolaşırdı, guya o, hersoqun razılığını almışdı ki, Françeskonun cəsədini ona versin; istəyirdi meyiti yarsın, insanın quruluşuna içəridən də baxsın. Ola bilməz. Heç ağlasığan deyil. Ola bilməz ki, cəsədi kəndirdən çıxarsınlar, axı o asıla qalmalıdır ki, camaat quldurun biabırçı sonunu görüb qorxsun, hökm belə çıxarılıb, niyə o birilər kimi, bu alçağın da cəsədini qarğa-quzğun dimdikləməsin ki! Təəssüf ki, mən onunla tanış idim, çox yaxşı tanıyırdım və əla bilirəm ki, dünyada ən ağır cəzaya layiq idi, küçədə dalımca o qədər murdar sözlər qışqırırdı ki. Onu kəndirdən çıxarsalar, cəzası o biri asılanlarınkı kimi olmayacaq.

Mən bu barədə yalnız bu gün axşam eşitmişəm. İndi isə gecədir, görə bilmirəm ki, o murdar hələ kəndirdən asıla qalıbmı.

İnana bilmirəm ki, hersoq bu işə qol qoya. Yalandır!

Yox, bu, həqiqət imiş! Əclaf daha dar ağacından asılmayıb. Mənə hətta bəllidir ki, meyit hara itib. Alim qocanı biabırçı bir iş üstə tutdum!

Diqqət yetirdim ki, zirzəmi həmişəki kimi deyil. Daim qıfıllı olan qapı açıq qalmışdı. Bunu hələ dünən görmüşdüm, amma fikir verməmişdim. Bu gün isə getdim ki, görüm orada nə baş verir, gördüm qapı elə dünənki kimi aralı qalıb. Dar, qaranlıq dəhlizlə növbəti qapıyadək getdim, o da açıq idi, səs salmamağa çalışaraq, içəri girdim, geniş bir otaq idi – otağın cənub divarındakı dar pəncərədən düşən işığın altında Françeskonun cəsədinin üstünə əyilmiş qocanı gördüm. Əvvəlcə gözlərimə inanmadım, amma Françesko idi, lap dəqiq, özü də artıq yarılmışdı, bütün içalatı, ürəyi, ciyərləri görünürdü, lap heyvanlarınkına oxşayırdı. Ömrüm boyu bundan murdar bir şey görməmişdim, heç təsəvvür edə bilməzdim ki, insanın daxili bu qədər iyrəncdir. Qoca isə əyilib, içalatı gərgin bir maraqla nəzərdən keçirirdi, ürəyin yanındakı nəyisə qayçı ilə kəsirdi. Başı öz məşğuliyyətinə elə qarışmışdı ki, mənim içəri girdiyimi də görmədi. Adama elə gəlirdi ki, indi onun aləmində əlləşdiyi bu murdar içalatdan başqa heç nə yoxdur. Nəhayət ki, başını qaldırdı və mən onun xoşbəxtlikdən parıldayan gözlərini gördüm. Üzündə mükəmməl bir heyranlıq ifadəsi vardı. Ürəyim istəyən qədər tamaşa edə bilərdim ona, çünki o, işığın altında durmuşdu, mən isə kölgənin lap dərinliyində idim. Onsuz da gözləri başqa heç nəyi görmürdü, Tanrıyla söhbət eləyən peygəmbər kimi, ilhamlı duruşu vardı. Təsəvvürəgəlməz bir ürəkbulanması qalxdı içimdə.

Hersoqlara tən gələn! Cinayətkarın içalatına baxan nəcib cənab! Üfunətdə eşələnən!

Bu gecə onlar, az qala, dan yeri sökülənədək oturdular – elə hey danışır, danışırdılar. Əvvəllər bir belə danışdıqları heç olmamışdı. Özlərini lap əsl ekstaza düşənədək

qızışdırmışdılar. Onlar təbiətdən, onun əzəmət və səxavətindən danışır, təəccüblənirdilər. Əzəmətli, vahid bitkinlik, vahid möcüzə! Yer üzündəki çaylar suyu torpağa yayan kimi, qanı bədənə paylayan arteriyalar, okeanın qabarma və çəkilmələri kimi nəfəs alan ciyərlər, bədən üçün yerin söykəndiyi daş təbəqələrin rolunu oynayan skelet, bədən isə elə Yerin özüdür. Yer kürəsinin nüvəsindəki alov, ruhun atəşinə bənzəyən, elə mənbəyini də onun özü kimi Günəşdən götürən bir alovdur, o Günəş ki, onu hələ qədim insanlar ilahiləşdirmişdilər – bütün canlı ruhların başlanğıcı, həyatın ilk mənbəyi və ilk səbəbi, Kainatın bütün səma cisimlərinə öz işığını bəxş edən Günəş. Çünki bizim dünya Kainatın minlərlə ulduzundan biri idi.

Onlar dəliyə oxşayırdılar. Mən də bütün bunları dinləmək məcburiyyətində idim, etiraz etməyə heç imkanım yox idi. Getdikcə daha artıq əmin oluram ki, o, həqiqətən, divanədir, şeytanın qulağına qurğuşun, bir də gördün, hersoqu da öz gününə saldı. Qəribədir ki, hersoq onun əlinə düşəndə nə qədər yumşaq, üzüyola olurdu.

Belə fantaziyaları ciddi qarşılayıb, necə inanmaq olardı axı?! Bu ilahi vəhdətə necə inanmaq olardı? Özü necə deyirdi, harmoniya?! Bu cür gəlişigözəl, pafoslu, mənasız sözlərdən istifadə etməyə də utanmırdı! Təbiətin möcüzəsi! Mən Françeskonun içalatını xatırladım, ürəyim ağzıma gəldi.

Təbiətin sirli batininə nəzər salmaq necə böyük xoşbəxtlikdir! – deyə heyran nidalarla danışırdılar. Gör orada tədqiqatçının hər şeylə maraqlanan gözlərinə nə qədər nəhayətsiz imkanlar təklif olunur! Bütün bunları, bütün bu gizli qüvvələri mənimsəyən və onları özünə işlədən insan gör öz əhəmiyyəti, sərvəti baxımından nə qədər yüksələr! Təbiətin dörd ünsürü onun iradəsi önündə baş əyər, qəzəbi ram edilmiş atəş sakitcə ona qulluq edər, torpaq yetirdiyi nemətləri yüz dəfə artırar, çünki insan yeni inkişaf qanunları kəşf edəcək, çaylar onun sözünə baxacaq, okeanlar isə onun gəmilərini

Kainatın fəzasında gözəl bir ulduz kimi süzən əzəmətli planetimizin dörd tərəfinə aparacaq. O hətta səmaları da fəth eləyər, günlərin birində quşların uçuşunu təqlid edərək, çəkisindən azad olub süzməyə başlayar, elə quşlar kimi, fəzadakı ulduzlar kimi və indi bəşər zəkasının nə dərk, nə də ki fərz edə bildiyi məqsədinə sarı uçub gedər.

Ah! Bu dünyada yaşamaq necə əla, necə gözəldir! Gör insan yaşamının idrakdankənar əzəməti nə qədərdir!

Onların sevinci tükənməz idi. Oyuncaqlar, nəyinə gərək olduğunu da bilmədiyi halda, dağ boyda üst-üstə qalaqlanmış oyuncaqlar barədə mənasız xəyala dalan uşaqlara bənzəyirdilər. Onlara müdrik cırtdan nəzərlərilə baxırdım və qırışların şırımladığı qədim sifətimdə bircə əzələm belə tərpənmədi. Cırtdanlar uşaqlara bənzəməzlər. Onlar heç vaxt oynamırlar. Mən arabir barmaqlarımın üstünə qalxıb onların badələrinə naqqallıq eləyə-eləyə içdikləri şərabdan süzürdüm.

Axı onlar həyatın əzəməti barədə nə bilirlər? Haradan bilirlər ki, onun əzəməti, ümumiyyətlə, varmı? Bu, yalnız insanların təkrar etməkdən doymadığı bir ifadədir. Elə həmin uğurla iddia eləmək olar ki, həyat əhəmiyyətsiz bir şeydir. Lazımsız, kiçik – cücü kimi dırnaqla əzib yox etmək mümkün olan bir şey. Həyat heç onda da müqavimət göstərməz, özünün sonu onu heç də qalan şeylərdən artıq maraqlandırmır. O, hər şeyə biganədir. Niyə də olmasın? Niyə axı o, özünü qorumalı, müdafiə etməyə can atmalıdır? Ümumiyyətlə, niyə həyat nəyəsə can atmalıdır? Doğrudan da, niyə onu nəsə narahat etməlidir?

Təbiətin bətninə nəzər salmaq! Yaxşı nə var bunda? Əşi, onlar bunu eləyə bilsəydilər, özləri də dəhşətə gələrdilər. Elə bilirlər, təbiət məxsusi onlar üçün mövcuddur, təxəyyüllərində canlandırırlar ki, bütün bunlar yalnız onların faydalanması, onları sevindirmək, şəxsən onların həyatını, həqiqətən, gözəl, əzəmətli etmək üçün mövcuddur. Axı onlar bu barədə nə bilirlər? Haradan bilirlər ki, təbiət ancaq onlarınkıdır, onların yöndəmsiz uşaq arzularını gerçəkləmək üçündür?

Onlara elə gəlir ki, Təbiətin Kitabını oxuya bilirlər, elə bilirlər, bu kitab qabaqlarında açıqdır. Hətta elə fikirləşirlər ki, irəliyə baxıb, hələ yazılmamış, ağappaq, təmiz səhifələri də oxuya bilərlər. Ağılsız, özündən müştəbeh sarsaqlar! Onların həyasız müştəbehliyinin hədd-hüdudu yoxdur!

Təbiətin nəyə hamilə olduğunu, bətnində nələri böyütdüyünü kim bilər axı?! Nəyisə hələ baş verməmişdən kim görə bilər?! Məgər ana qarnında gəzdirdiyinin oğlanmı, qızmı olduğunu bilir? Haradan biləcək! O, bəlli zamanını gözləyir və yalnız onda hamı görəcək ki, dünyaya gətirdiyi nədir.

Cırtdandan soruşaydınız barı, o, hər şeyi izah edərdi.

Mən də ona təvazökar deyirdim! Necə səhv etmişəm! Əksinə, mən tanıdığım adamlar içində ən özündənrazısı elə odur. Onun bütün mahiyyəti, bütün ruhu özündən müştəbehlikdir. Düşüncəsi də o qədər özündənrazıdır ki, qətiyyən ona tabe olmayan dünyanı bir hökmdar kimi idarə etmək istəyir.

O, sadə, təvazökar görünə bilər, çünki daim nəsə soruşur, aydınlaşdırmaq istəyir, həmişə də deyir ki, guya, filan-filan şeyləri bilmir, yalnız öz qüvvəsi müqabilində öyrənməyə çalışır. Lakin ona elə gəlir ki, mənzərə bütövlükdə ona aydındır. Arxayındır ki, o, həyatın mənasını artıq dərk eləyib. O, kiçik məsələlərdə tərəddüdlər keçirir, böyüklərdə yox. Qəribə təvazökarlıqdır.

Dünyada hər şeyin, baş verən hər hadisənin, insanların məşğul olduğu bütün işlərin bir mənası var. Lakin həyatın özü heç bir məna kəsb etmir, edə də bilməz. Əks təqdirdə heç mövcud ola bilməzdi.

Mən buna inanıram.

Biabırçılıq! Şərəfsizlik! Heç vaxt həmin o məşum gündəki həddə təhqirə məruz qalmamışdım. Hərçənd ki, belə şeyləri xatırlamasam yaxşıdır, amma başıma gələnləri sizin üçün təsvir etməyə cəhd göstərəcəyəm.

Hersoq mənə tapşırdı ki, Santa-Kroçenin ziyafət salonunda işləyən maestro Bernardonun yanına gedim, nə üçünsə lazım idim ona. Getdim, amma hirslənmişdim ki, mənə yad olan, özündənrazı bir adamın nökərinə çevrilirəm. O, məni yüksək iltifatla qarşılayıb dedi ki, cırtdanlarla həmişə çox maraqlanıb. Mən fikirləşdim: “Əgər Françeskonun bağırsaqları və ulduzlar barədə də hər şeyi öyrənmək istəyirsənsə, görəsən, dünyada maraqlanmadığın nəsə qalıbmı? Amma mənim barəmdə, cırtdanlar barədə heç anlayışın da yoxdur”. Daha bir neçə kəlmə mehriban və mənasız sözlər deyib bildirdi ki, mənim portretimi çəkmək istəyir. Mən fikirləşdim: söhbət, yəqin ki, hersoqun ona sifariş etdiyi portretimdən gedir, bir az qürrələndim, lakin cavab verdim ki, mən portretimin çəkilməsini istəmirəm.

“Niyə?” – soruşdu. Mən bu şəraitdə çox təbii olan bir cavab verdim: “İstəyirəm ki, sifətim yalnız özümə məxsus olsun”. Dedi ki, bu çox orijinal fikirdir, əvvəl gülümsədi, sonra isə dediyimi məntiqli sayıb mənimlə razılaşaraq, dilləndi ki, yalnız şəkillərdəki deyil, ümumiyyətlə, istənilən sifət çoxlarının malıdır, ona baxan bütün adamlara məxsusdur. O isə, sadəcə olaraq, mənim şəklimi kağıza köçürmək istəyirdi ki, quruluşumu öyrənsin, odur ki “soyun”, – dedi, – “bədən quruluşundan karandaşla eskiz alım”. Hiss elədim ki, rəngim ağarır. Həm qəzəbdən, həm də qorxudan, bilmirəm hansından daha çox ağarmışdım: hər iki hiss məni birdən vurdu, əsdim.

Həyasızlığından necə narahat olmağım onun diqqətini çəkdi və başladı danışmağa ki, cırtdanın öz bədənini olduğu kimi, başqa birisinə göstərməyində ayıb heç nə yoxdur. Təbiət qarşısında o, həmişə eyni riqqət hissi keçirir, hətta qəribə istəyindən doğaraq adi çərçivəyə sığmayan bir məxluq yaradanda belə. Özünü başqa birisinə necə varsansa, elə də göstərmək qətiyyən ayıb deyil, çünki, əslində, heç birimiz yalnız özümüzə məxsus deyilik. “Mən özümə məxsusam! – deyə qəzəb içində qışqırdım. – Özünəməxsus olmayan sizlərsiniz! Mən özümə məxsusam!”

O, mənim emosional partlayışımı tamamilə sakit qarşıladı, hələ bu azmış kimi, məni böyük maraq və diqqətlə süzürdü, buna lap qızdım. Sonra isə dedi ki, işə başlamaq vaxtıdır və mənə tərəf bir addım atdı. “Mən imkan verməərəm ki, bədənimə müdaxilə edələr!” – deyə lap özümdən çıxaraq, çığırdım. O, sözlərimə qətiyyən əhəmiyyət vermədi, amma başa düşəndə ki, könüllü soyunan deyiləm, məni soyundurmağa özü hazırlaşdı. Xəncərimi qınından çəkə bildim və məncə, o, poladın parıltısını görəndə çox təəccübləndi. Lakin onu ehtiyatla əlimdən alıb yuxarı qoydu. “Görünür ki, sən təhlükəli şəxssən”, – dedi və mənə təəccüblü nəzərlərilə baxdı. Mən onun bu sözlərinə kinayə ilə gülümsündüm. Sonra isə o, heç bir şey olmayıbmış kimi, mənim paltarlarımı çıxarmağa, bədənimi abırsız bir tərzdə lütləməyə başladı. Mən ona həyatımı qoruyurmuşam kimi, var gücümlə müqavimət göstərir, mübarizə edirdim, amma hər şey əbəs idi, axı o, məndən güclüydü.

Özünün biabırçı əməlini başa çatdırandan sonra məni qaldırıb, salonun ortasında qurulmuş taxtın üstünə qoydu.

Tamamilə mudafiəsiz, lüt, addım atmağa iqtidarı olmayan bir vəziyyətdə durmuşdum, hərçənd ki, içimdəki dəhşətli qəzəb kükrəyib coşurdu. Səkidən bir neçə addım aralıda isə o, mənim biabırçılığımı soyuqqanlı bir tərzdə, insafsızcasına süzürdü. Büsbütün onun baxışlarının ixtiyarına verilmişdim, mənimlə lap öz malı kimi davranırdı. Başqa bir şəxsin gözləri önündə beləcə sərgilənməkdən dəhşətli əskiklik ola bilməzdi və mən bu vəziyyətə necə dözdüyümü heç anlaya bilmirəm. Onun gümüş qələminin kağızı cızarkən çıxardığı səsi indiyədək yaxşı xatırlayıram – çox mümkün idi ki, qəsr darvazaları önündəki qurumuş kəllələri və başqa murdarçılıqları da elə həmin qələmlə çəkirdi. Onun baxışları dəyişib bıçağın ucu kimi iti olmuşdu, mənə elə gəlirdi ki, baxışları bədənimi dəlib keçirdi.

Mən insan övladına qarşı içimdə oyanan nifrəti, həmin o dəhşətli dəqiqələrdə olduğu kimi, heç vaxt duymamışdım.

Bu nifrəti fiziki olaraq hiss edirdim və az qalırdı ki, huşumu itirəm, gözlərim dəqiqəbaşı qaralırdı. Görəsən, yer üzündə insandan murdar, nifrətə ondan layiq məxluq varmı?!

Üzbəüz divarda onun çəkdiyi iri tablonu görürdüm – həmin o şedevr alınacağına əmin olduqları tablosunu. Təzəcə başlamışdı və görünür, “Sirli axşam”ı, İsanın öz tələbələri ilə qardaş süfrəsini təsvir edəcəkdi. Mən başı üzərində ilahi halə görünən bu göylər hökmdarı ilə yanaşı özlərini hər şeydən və hamıdan qüdrətli sayan tələbələrin günahsız, təntənəli sifətlərinə qəzəb içində baxırdım. Birdən bədxahcasına fikirləşdim ki, onu bir azdan tutacaqlar, küncdə büzüşmüş İuda isə onu lap tezliklə satacaq. Hələlik ona pərəstiş, sitayiş edirlər, qardaşlıq süfrəsində oturub hələ – məni isə elə buradaca biabırçı şəkildə sərgiləyirlər! Lakin onun da biabır olacağı an yetişəcək! Tezliklə özününkülərin çevrəsində, süfrə başında əyləşməyəcək, elə onlar tərəfindən satılacaq, tək-tənha çarmıxa çəkiləcək. Elə mənim kimi lüt asılacaq, elə mənim kimi alçaldılacaq. Hamının gözü qabağında asıla qalacaq, onu da söyəcəklər, təhqir edəcəklər. Niyə də olmasın! Niyə o elə mənim kimi əzab çəkməsin! O, daim çevrəsində məhəbbət görüb, anasının döşlərindən məhəbbət əmib, mən isə nifrət əmmişəm. Mən nifrəti anamın südüylə əmmişəm, onun acı dadını da elə onda tanımışam. Mən anamın öd dolu döşünü yemişəm, o isə mərhəmətli, mehriban Madonnanı əmib – qadınların ən incəsini, ən gözəlini, dünyada ən şirin ana südünü əmib, elə bir süd ki, öləri insanlardan heç biri onun dadına bələd deyil. Sadəlövh xeyirxah, dostlarının içində kefikök oturub özü üçün, heç ağlına da gəlmir ki, kimsə ona ziyan vura bilər. Niyə də vurmasınlar! Nədir, o istisnadır məgər! Əlbəttə, ona elə gəlir ki, əgər Tanrı-Atadan yaranıbsa, mütləq bütün sadə insanların sevimlisi olmalıdır. Sadəlövhlüyə bir bax! Bəsit bir uşaq kimi insanları tanımır! Axı onların qəlbində gizli pusqu qurmuş kin elə məhz həmin o möcüzəyə görə yaranıb. İnsan övladları Tanrı tərəfindən zorlanmağı xoşlamırlar.

Bu ağrılı biabırçılıqdan qurtararaq həyatımın ən rəzil alçaqlığına məruz qaldığım bu lənətəgəlmiş ziyafət otağının qapısında duranda da hələ ona baxırdım. Eybi yox, tezliklə səni də bir neçə eskudoya səlahiyyətli şəxslərə satacaqlar, – səni də elə mənim kimi satacaqlar!

Sonra qəzəblə qapını çırpdım, həmin qapını ki, məni tablonun yaradıcısından, öz şahanə əsərini nəzərdən keçirməyə qərq olmuş və onun ucbatından misilsiz əzablar yaşamış bir cırtdanı artıq unutmağa macal tapmış maestro Bernardodan ayırırdı.

Ən yaxşısı Santa-Kroçeni xatırlamamamaqdır, ondan da yaxşısı, çalışıb unutmaqdır. Amma bir şey beynimdən heç cür çıxmır. Geyinərkən gözlərim ətrafa səpələnmiş şəkillərə sataşırdı, qəribə məxluqat təsvirləri vardı, heç kəsin indiyədək görmədiyi, ümumiyyətlə, təbiətdə mövcud olmayan heyvan şəkilləri. İnsanla heyvan arasında duran canlılar: yarasa qanadlı qadınlar, qurbağa pəncəli, kərtənkələ sifətli kişilər, iblis kimi havada uçan qartal başlı, əl yerinə caynaqlı pəncələri olan kişilər və bir də nəsə eybəcər məxluqlar, nə kişiydi, nə qadın; dəniz heyvanına bənzəyirdi, qamçı kimi uzun, qıvrılmış qolları, insan gözünə bənzəyən soyuq və acıqlı bəbəkləri vardı bu məxluqların. Bu eybəcər məxluqlar məni dəhşətə gətirdi, indiyə qədər də onların təsirindən çıxa bilmirəm, gözlərimin qabağından çəkilmirlər. Niyə onun fantaziyasını məhz bu cür şeylər işğal edir? Niyə bu eybəcər, kabus obrazlarını yoxluqdan çağırır? Niyə onun gözlərinə bu həyulalar görünür? Niyə təbiətdə olmayan nəsnələrlə əlləşir? Nəsə bir səbəb olsun gərək! Görünür, nəsə bir daxili tələbatı var belə işlərə. Bəlkə də, onlara elə təbiətdə mövcud olmadıqlarından maraq göstərir? Mən başa düşə bilmirəm.

Belə eybəcərliklər yaradan insanın gör özü nə olmalıdır? Bütün bu dəhşətlərdən ləzzət alan, onlara can atan bir insan!

Qeyd etməliyəm ki, onun, demək lazımdır, nəciblikdən və incəlikdən xali olmayan özündənrazı sifətinə baxanda, heç ağlına sığışmır ki, bu eybəcər şəkillər onun beyninin məhsuludur. Lakin bu belədir. Burada düşünməli məqamlar var. Görünür, bu eybəcər məxluqat, yaratdığı bütün qalan şeylər kimi, elə onun öz içində yaşayır.

Mənim şəklimi çəkərkən aldığı görkəmin də üzərində düşünməmək mümkün deyil, necə birdən-birə dəyişdi, sanki, tamam başqa adam oldu: Bu xoşagəlməz, iti, soyuq və ürpərdici baxışlar və sifətindəki dəhşətli dərəcədə qəddar ifadə – lap İblisin özüydü.

Belə çıxır ki, o qətiyyən özünü göstərmək istədiyi kimi deyil. Elə bütün qalan adamlar kimi.

Qətiyyən ağlasığan deyil ki, eyni adam həm də qardaşlıq süfrəsində Məsihin günahsız, işıqlı obrazını yaradıb.

Ancelika bu gün axşam zala girdi. Yanımızdan keçəndə hersoq ona dedi ki, aparmaq istədiyi tikmə qurğusunun dalında bir dəqiqə əyləşsin. Qız həvəssiz tabe oldu, hərçənd ki, etirazını bildirməyə ürək etməzdi, tünlüyü o, ümumiyyətlə, sevmirdi, heç saray həyatına da, hersoqun qızı roluna da yaramırdı. Yeri gəlmişkən, heç hersoqun qızı olması da hələ bəlli deyildi; olsun ki, hətta bic idi. Amma xilaskar Bernardo bu barədə heç nə bilmirdi axı. O, qızın gözlərini aşağı dikərək sarsaq kimi necə ağzıaçıq oturmasına yayınmadan baxırdı, guya, çox maraqlı bir şey görürdü – onun üçün hər şey maraqlı idi. Yoxsa, mənim kimi və yaxud onun qeyri-adi, qiymətli, o qədər qiymətli ki, yerdən götürdüyü, tamaşasından doya bilmədiyi daşları kimi, daha bir təbiət möcüzəsi kəşf etmişdi? O susurdu, adama elə gəlirdi ki, həqiqətən, riqqətlənib, hərçənd ki, qız lap zırrama kimi oturmuşdu və bütün vaxt ərzində bircə səs belə çıxarmamışdı. Sükut yavaş-yavaş dözülməz olurdu.

Bilmirəm, onu mütəəssir edən nə idi. Çox mümkün ki, gözəl olmadığından yazığı gəlirdi ona, o axı gözəllikdən yaxşı

baş çıxarırdı və başa düşürdü ki, insan üçün gözəllik nə dərəcədə mühüm bir şeydir. Ola bilər, məhz bu səbəbdən qıza qüssəli, acıyan nəzərlərlə baxırdı. Bilmirəm, heç bilmək də istəmirəm.

Təbii ki, qızın hövsələsi çatmırdı, tez qaçıb getmək istəyirdi. O, ədəb normalarının tələb etdiyi qədər oturdu, bir dəqiqə də artıq qalmadı və hersoqdan getmək üçün icazə istədi. Tələsik, amma qorxa-qorxa ayağa durdu, özünün adi natarazlığı, nahamarlığı ilə o hələ də yöndəmsiz yeniyetməyə bənzəyirdi. Qəribədir ki, hər cür incəlik deyilən zaddan necə bilmərrə məhrum idi bu qız.

Geyimi, təbii ki, həmişəki kimi, sadə, az qala, lap kasıbyana idi. Onun üçün necə geyinməsinin əhəmiyyəti yox idi, elə başqaları da onun geyiminə əhəmiyyət vermirdilər.

Maestro Bernardo, görünür, öz işindən həqiqi zövq ala bilmirdi. Gah bir işin, gah da başqasının qulpundan yapışırdı, başlayır və sona çatdırmadan yarımçıq qoyurdu. Bunu nə ilə izah etmək olar? Zahirən indi ona yalnız "Sirli axşam" üzərində işləmək lazım idi ki, nəhayət, başa çatdırsın bu tablonu. O isə heç əlini də vurmurdu. Görünür, bezmişdi. Bunun yerinə qəflətən hersoginyanın portretinə başladı.

Deyirlər ki, qadın özü portretinin çəkilməsini heç istəmir. Bu, hersoqun arzusudur. Mən bu qadını anlayıram, onu başa düşmək çətin deyil. Özünə güzgüdə tamaşa eləyə bilərsən, amma kənara çəkiləndə istəməzsən ki, əksin orada həmişəlik qalsın, ürəyi istəyən gəlib yiyələnsin. Haradasa şəklinin qalmasını, elə mənim kimi, niyə istəmədiyini gözəl başa düşürəm.

Heç kəs özünəməxsus olmur? Nə murdar fikirdir! Yox bir, heç kəs özünəməxsus olmur. Hər şey hamınındır. Sənin üzün, deməli, səninki deyil! Ona baxan istənilən adamınkıdır! Bədənin də! Deməli, başqaları da sənin bədəninə yiyələnə bilərlər! Mənə bu barədə düşünmək belə iyrənc gəlir.

Mən özümə məxsus hər şeyin sahibi özüm olmaq istəyirəm. Mənim heç nəyimi heç kim mənimsəyə, ona toxuna bilməz. Mənimki elə mənimdir, heç kimin deyil. Öləndən sonra da özümə məxsus olmaq istəyirəm. Mənim içalatımda heç kim eşələnə bilməz. Mən istəmirəm ki, yad bir adam onu nəzərdən keçirsin, hərçənd ki, inanmıram alçaq Françeskonunku qədər murdar olsun içim.

Maestro Bernardonun daim hər şeyə burnunu soxması, hər şeylə maraqlanması mənim aləmimdə nifrətəlayiqdir. Bu, nəyə xidmət edə bilər ki? Hansı məntiqli məqsədə? Mən şəklimin onda qalmasını fikirləşəndə də nifrət edirəm, indi də mənə yiyələnib. Daha özüm özümə tam sahiblik etmirəm, yəni, eyni zamanda həm burada, həm də Santa-Kroçedə onun murdar eybəcərlərinin yanındayam.

Lap yaxşı – qoy hersoginyanın da şəklini çəksinlər! Qoy o da mənim kimi buna dözsün! Mən hətta sevinirəm də, indi o da bu həyasız şəxsin gözləri qarşısında aşkar sərgilənəcək, ona da əl atılacaq.

Amma bu fahişədə maraqlı nə var ki? Məsələn, mən heç vaxt güman etməmişəm ki, onda maraqlı nəsə ola bilər, hərçənd ki, bu qadını başqalarından daha yaxşı tanıyıram.

Nə isə, vaxtı gələndə bilinər, hələ görək bu portret məsələsindən nə çıxacaq. Bunun mənə aidiyyəti yoxdur.

Düşünmürəm ki, o, insanlardan düz-əməlli baş çıxarsın.

Etiraf etməliyəm ki, maestro Bernardo məni təəccübləndirdi. O dərəcədə təəccübləndirdi ki, bütün gecəni yuxuya gedə bilmədim, elə hey bu barədə düşündüm.

Dünən axşam onlar, adəti üzrə, oturub söhbət edirdilər – sevimli yüksək materiyalarından. Lakin o, yaman pərt görünürdü. Şələ saqqalını ovcunun içində sıxıb düşüncələrinə, özü də qətiyyən ürəkaçan olmayan düşüncələrinə qərq olmuşdu. Amma qəflətən danışmağa başlayanda ehtirasla, hərarətlə danışırdı, hərçənd ki, bu hərarətin üstündə, sanki, bir kül

pərdəsi vardı. Onu tanıya bilmirdim: mənə elə gəlirdi ki, tamam başqa adama qulaq asıram.

Deyirdi ki, insan düşüncəsi son nəhayətdə gücsüzdür. Onun uçmaq üçün güclü qanadları var, lakin bu qanadları insana bəxş etmiş tale bizdən güclüdür. O, bizi çox uzaqlaşmağa qoymur, icazə verdiyi sərhəddən o üzə keçə bilmirik. Bizim qabağımızda bir sədd qoyub: kiçik bir dairə ilə yüyürərək dövrə vuranda qəlbimizdə bir ümid, bir sevinc oyanır, sonra isə bizi yenidən geri çəkirlər; şahin uçuran ovçu quşun ipini çəkən kimi. Azadlığımızı nə vaxt tapacağıq? O ipi nə vaxt kəsəcəklər ki, şahin də açıq səmaya qalxa bilsin?

Nə vaxt? Ümumiyyətlə, bu, nə zamansa olacaqmı? Mövcudiyyətimizin sirri elə ovçunun əlinə bağlanmağımızda, əbədilik bağlı qalmağımızda deyilmi? Əks təqdirdə, biz indiki məxluqlar olmazdıq və bizim taleyimiz də adi insan taleyi olmazdı.

Amma biz, hər halda, daim açıq səmaya can atmaq üçün, özümüzü uca göylərə bağlı sanmaq üçün yaranmışıq. Yüksəklik, heç nəyə baxmayaraq, mövcuddur, o, öz ənginlikləri ilə gözlərimizin qarşısında açılır, mütləq reallıqdır bu. Bu genişlik də elə bizim əsir olmağımız kimi bir reallıqdır.

Heç vaxt əlimiz çatmayan bu ənginliklər niyə mövcuddur bəs? – deyə mühakimə yürüdürdü. – Ətrafımızdakı, həyatın ətrafındakı bu nəhayətsizliyin nə mənası var, əgər biz elə həmişəki əsirləriksə və həyat da elə həmişəki kimi öz içində davam edirsə? Bu nəhayətsizliyin nə mənası var onda? Məgər biz bundan daha xoşbəxt oluruq? Heç oxşamır. Bəlkə, hələ bir az da bədbəxt hiss edirik özümüzü.

Mən ona diqqətlə göz qoyurdum – üzündəki tutqunluq, qoca gözlərində qəfil açılan dərin yorğunluq nə idi bəs!

– Biz həqiqəti tapmağa can atanda daha xoşbəxt oluruqmu? – deyə sözünə davam edirdi. – Bilmirəm. Mən yalnız onu tapmağa can atıram. Bütün həyatım həqiqəti tapmaq naminə sonsuz axtarışlardan ibarət olub və hərdən mənə elə

gəlir ki, ayılıram, sanki, həqiqət səmasının təmiz bir parçası gözlərim önündə açılır. Lakin heç vaxt göylər sirrini mənə açmayıb və baxışlarım nəhayətsizliyin görüntüsündən dadmayıb, onu dadmadan yer üzündə heç nəyi dərk edə bilməzsən. Bizə bu icazə verilməyib. Elə buna görə də mənim bütün səylərim, əslində, əbəs idi. Elə buna görə də baş vurduğum hər şey yarımhəqiqət olaraq qalırdı, bəhrəsini vermirdi. Yaratdıqlarım barədə ürək ağrısı ilə fikirləşirəm, yəqin, başqaları da onları görəndə qüssə, əzab çəkirlər – başı, qolları olmayan antik heykəllərə də elə eyni hisslərlə tamaşa edirik. Mənim yaratdıqlarımın hamısı eybəcər, yarımçıqdır. Özümdən sonra insanlara da yalnız yarımçıq işlər qoyacağam.

Axı burada qəribə nə var ki?

İnsanın qismətidir bu. İnsanın bütün çabalarının, bütün yaratdıqlarının qaçılmaz nəsibi budur. Bizim yaratdıqlarımız həmişə əlçatmaz qalacaq, qarşımızda açılmalı olmayan və heç vaxt aça bilməyəcəyimiz nəyəsə aparan yolun ilk addımıdır. Bütün bəşər mədəniyyəti mahiyyətcə əlçatmaz bir məqsədə aparan yolun yalnız ilk addımıdır. Bütün yaratdıqlarımız eybəcərdir, antik heykəllərin faciəvi natamamlığını andırır. Bəs insan ruhunun özü necə, elə eyni natamamlıq deyilmi?

Bizi heç vaxt göylərə qaldıra bilməyəcək qanadların nə faydası? Onlar yükümüzü azaltmaq əvəzinə, yalnız əlavə narahatlıq yaradır. Biz qanadlarımıza görə rahat ola bilmirik. Biz onları dalımızca sürüyürük və nəhayətdə onlara nifrət etməyə başlayırıq.

Sonra ovçu öz qəddar əyləncəsindən bezib başımıza qapaq taxaraq, bizi zülmətə qərq edəndə bir yüngüllük duyuruq.

O, hərəkətsiz oturmuşdu, əzgin və sərt idi, dodaqlarını qürurla sıxaraq danışırdı, gözlərində acı bir alov parlayırdı. Mən, etiraf edim ki, dəhşətli dərəcədə heyran qalmışdım. Yəni bu, bir neçə gün qabaq insanın nəhayətsiz əzəmətinə

heyranlığını bildirən, onu hər şeyə qadir sayan, bəşər övladının dünyanı qüdrətli bir hökmdar kimi idarə edəcəyi haqda peyğəmbərlik eləyən həmin o adam idi? İnsanı, az qala, ilahiləşdirən kim idi?

Yox, anlaya bilmirəm onu. Mən heç nə anlamıram.

Hersoq isə ona ağzıaçılı qulaq asırdı, maestronun ağıllı nitqlərinin əsiri idi, hərçənd ki, indi dedikləri əvvəllər söylədikləri ilə daban-dabana ziddiyyət təşkil edirdi. Onunla tam razı görünürdü. Nə demək olar, istedadlı şagirddir.

Bunları bir-birinə necə bağlamaq olar axı? Batinlərində bu ziddiyyəti necə yerləşdirirlər, nədən desən, eyni əminliklə necə danışa bilirlər? Mən özüm həmişə sabit qalıram, elə bu səbəbdən də onları başa düşmürəm.

Uzun müddət yuxuya gedə bilmirdim və çalışırdım ki, onların həqiqi mahiyyətini aşkarlayam özüm üçün, lakin bacarmıram. Mənzərəni heç aydınlaşdıra bilmirəm.

Gah başdan-ayağa təntənə içindədir – nə bilim, insan olmaq gözəldir, nə bilim, filan, bəşməkan... Gah da görürsən, çıxılmazlıqdan dəm vurur, həyatında heç bir məna görmür, pisikir.

Bunların hansını ciddi deyir?

Hersoginyanın portretini dayandırıb, daha çəkmir. Deyir ki, bitirə bilmir, alınmır: guya, nəsə bir mübhəm şey var onda, tuta bilmir, aydınlaşdıra bilmir özü üçün. Beləliklə, bu işini də "Sirli axşam" kimi yarımçıq qoydu, elə əlini buladığı bütün işlər kimi.

Mən hersoqun yataq otağında o portreti görmüşəm, bilmirəm onun nəyindən narazıdır. Məncə, əla portretdir. Onu elə olduğu kimi çəkib: qocalmaqda olan fahişə. Dəhşət oxşayır, adamın tükləri biz-biz olur. Ağır göz qapaqları olan hissiyyatlı sifət və bir də zorla sezilən günahkar təbəssüm, hamısını dəqiq tutub. Onun lap içini üzə çıxararaq çəkib, dəhşət ifşa eləyib onu.

Yox, nə deyirsən de, amma insanlardan yaxşı baş çıxarır.

Bəs çatışmayan nədir? Axı o deyir ki, nəsə çatmır portretdə. Nədir bu çatmayan? Deyir ki, mühüm, əsaslı bir şeydir çatmayan, elə bir şey ki, onsuz bu qadın, elə hesab elə ki, yoxdur. O şey nədir? Heç cür anlaya bilmirəm.

Amma deyirsə ki portret bitməyib, deməli, elədir. “Özümdən sonra yarımçıq işlər qoyuram” – onun öz sözləridir də. Bir də ki deyirdi nəyə baxsan, əlçatmazlığa aparan yolun ilk addımıdır. Bütün bəşər mədəniyyəti yalnız ilk addımdır, başlanğıcdır, sonuna çatmaq isə qətiyyən mümkün deyil. Bu səbəbdən də küll halında götürəndə heç bir şeyin mənası yoxdur.

Təbii ki, mənası yoxdur. Həyatı məgər başqa cür təsəvvür etmək olar?! Axı mənasızlıq onun bünövrəsinin bünövrəsidir. Başqa bu cür möhkəm və sabit bünövrə var ki, üzərində həyat qurula? Axı istənilən, hətta ən parlaq ideya belə, başqa parlaq ideya tərəfindən sarsıdıla bilər və zaman keçdikcə dağılar, məhv olar. Mənasızlıq isə möhkəm şeydir, dağılmaz, sarsılmazdır. O, yeganə başlıca əsasdır, ona görə seçim onun üzərinə düşüb. Yəni bunu anlamaq üçün bu qədər baş sındırmalısan?

Bu, mənim üçün çoxdan aydındır.

Fəzada nəsə bir nigarançılıq kabusu dolaşır. Nə məsələdir? Heç nə bilmirəm, amma hissiyyatım deyir ki, nəsə hazırlanır.

Zahirən hər şey sakitdir, qəsrdə həyat öz axarı ilə davam edir. Hətta həmişəkindən də sakitdir, çünki qonaq lap azdır, qəbullar təşkil olunmur, həmişə ilin bu aylarında planlaşdırılan tədbirlər yoxdur. Sizə necə anladım bunu... elə buna görə də nəsə mühüm hadisələr baş verəcəyini daha aydın duyursan.

Mən daim ayıq-sayığam, hər şeyə fikir verirəm, amma zahirən fikir veriləsi bir şey də yoxdur. Hər şey lap həmişəki kimidir, dəqiq. Amma nəsə pis bir şey baş verir. Çox ciddi bir şey. Əminəm.

Hövsələni basıb gözləmək lazımdır, görək nə olur.

Kondotyer Bakkarossa yola düşdü və palasso Jeralda yenə boşaldı. Hara getdiyini kimsə bilmir, yoxa çıxıb, elə bil, yerin təkinə girib. Əlbəttə, fikirləşə bilərlər ki, hersoqla onun arası dəyib. Çoxlarına qəribə gəlirdi ki, hersoq kimi dərin savadlı birisi onun təki kobud, yonulmamış adamla ünsiyyətdən nə zövq alır. Amma mən fərqli fikirdəyəm. Təbii ki, Bokkarossanın əməlli-başlı vəhşi, hersoqun isə son dərəcə həssas, tərbiyəli insan olduğunu təkzib edə bilmərəm. Lakin o özü də kondotyerlər nəslindəndir, əksəriyyət bunu, deyəsən, çoxdan unudub. Məgər onun əcdadları çoxdan kondotyer olub? – cəmi bir neçə nəsil qabaq! Bir neçə nəsil nədir ki!

Mənə elə gəlir ki, bu iki nəfər bir-birini gözəl başa düşürdü.

Hələ bir dəyişiklik yoxdur, lakin fəzada elə qabaqkı nigarançılıq havası var. Hissiyyatım məni belə şeylərdə aldatmır. Nəsə ciddi bir şey hazırlanır.

Hersoq yaman qızğın fəaliyyətdədir. Nə iş görür? Kimlərisə qəbul edir, otaqda kilidlənirlər, nəsə məxfi danışıqlar aparırlar. Hər şey məxfi saxlanılır. Söhbət nə barədə gedə bilər?

Çaparlar peyda olur, tam gizli gəlirlər, saraya da yalnız gecə buraxırlar onları. Yaman çox adam var indi, iş dalınca gəlirlər: valilər, müşavirlər, sərkərdələr, qədim nəsillərin – qədim döyüşçü nəsillərinin, bir zamanlar hersoqun əcdadları tərəfindən tabeliyə salınan nəsillərin nümayəndələri. İndi daha deməzsən ki, qəsrdə sakitlikdir.

Maestro Bernardo, görünür, bu baş verənlərdə heç bir rol oynamır. Hersoq indi ətrafına tamam başqa tip adamları toplayıb. Qoca alim, görünür, artıq səhnədən tamam çəkilib, hər halda, qabaqkı vəziyyətilə heç müqayisəyə gəlməz. Mən bunu yalnız alqışlaya bilərəm. Ona sarayda, onsuz da, həddindən ziyadə diqqət yetirilirdi.

Mənim nəyinsə baş verəcəyi barədə hissiyyatım özünü doğrultdu. Daha heç bir tərəddüdə yer yoxdur.

Bir çox əlamətlərə əsaslanıb nəticə çıxarıram. Əvvəla, münəccimləri çağırmışdılar və onlar hersoqun yanında xeyli oturdular: saray münəccimi Nikodemus və burada parazit kimi yaşayan digər uzunsaqqallılar da orada idilər. Dəqiq əlamətdir. Bundan başqa, hersoqun səfir Mediçi və Venesiya Ticarət Respublikasının nümayəndəsi ilə sürəkli söhbətləri olmuşdu, ən başlıcası isə Müqəddəs taxt-tacı təmsil edən arxiyepiskopla. Həm bu, həm də son günlərin bəzi digər hadisələri kifayət qədər birmənalı idi və hər şey eyni istiqamətə yönəlmişdi.

Görünür, hərbi yürüş hazırlanırdı. Münəccimləri, yəqin, ona görə çağırmışdılar, məsləhətləşmək istəyirdilər ki, nəzərdə tutulan tədbirə ulduzların münasibəti necədir – hər bir ağıllı hökmdar, ilk növbədə, bunu aydınlaşdırmaqdan vaz keçməməlidir. Hersoq messir Bernarda ilə oturub-duranda, yazıq münəccimlər əhəmiyyətsiz adamlara çevrilmişdilər, düzdür, messir də ulduzların qüvvəsinə inanırdı, amma bu barədə tamam başqa anlayışlara malik idi, onun fikirlərini bizim münəccimlər kafirlik, iblisin təsiri altında olma kimi qiymətləndirirdilər. İndi isə hersoq öz ətrafına möminləri toplamağa üstünlük verirdi. Onlar da təzədən az qalırlar şişib partlayalar forslarından. Səfirlərlə görüşlər isə ona görə düzənlənirdi ki, onların dövlətləri bizi müdafiə etsinlər, heç olmasa, niyyətimizə mane olmasınlar.

Zənnimcə, hamısından mühümü bu planlara ruhanilərin münasibəti idi. Tanrının xeyir-duası olmadan yer üzündəki heç bir iş uğurla bitməzdi. Ümidvaram ki, xeyir-dua veriblər, hövsələm çatmır daha, müharibə başlanaydı barı.

Müharibə olacaq! Ürəyimə damıb, ürəyimə daman da mütləq olur, mən müharibə olacağını hər şeydə duyuram: bu həyəcan, bu məxfilik, insan sifətlərindəki tanış ifadə... Havanın özündən də müharibə iyi gəlir. Havada adamın kefini qaldıran, yaxşı tanıdığım nəsə var. Sonsuz boşboğazlıqlarla

dolu bu boğucu adilikdən ayrılanda adam cana gəlir. İlahiyə şükür ki, adamlara çənə döyməkdən savayı, nəsə bir iş tapıldı.

Əslində, müharibəni bütün adamlar istəyirlər. Müharibə zamanı hər şey daha sadədir, ona görə adama bir yüngüllük gətirir. Adamların hamısı fikirləşir ki, həyat çox müşkül şeydir. Elədir ki, var. Çünki onu elə insanlar özləri müşkülləşdirirlər. Həyat isə özlüyündə qətiyyən qəliz deyil, əksinə, təəccüblü dərəcədə sadədir. Amma onlar, görünür, bunu heç vaxt dərk etməyəcəklər. Onlar anlamırlar ki, ən yaxşısı, hər şeyi elə necə varsa, eləcə də qoymaqdır. Onlar heç cür həyatın yaxasından əl çəkmək, onu ən müxtəlif, qəribə məqsədlərinə tabe etmək fikrindən vaz keçmək istəmirlər. Bununla yanaşı, həm də deyirlər ki, sadəcə yaşamaq, nəfəs almaq özü artıq bir nemətdir!

Dərhal hersoqun əhval-ruhiyyəsi yüksəldi, qəddi dikəldi. Üzündə enerjili qətiyyət – qısa, dördkünc saqqal, rəngi qaçmış batıq yanaqlar, gizlin diqqət, ovlağı üzərində süzən alıcı quşunku kimi iti baxış. Görünür, o, indi öz sevimli ovuna – nəsillərinin köhnə düşmənlərinə köklənmişdi.

Bu gün onun qvardiya rəisinin müşayiətilə (yəqin, qoşunların hazırlığını yoxlamaqdan gəlirdilər) rəsmi pilləkəndən yuxarı necə yüyürdüyünün şahidi oldum – zala girən kimi çiynindəki plaşı özünü yetirən nökərin qoluna saldı və əynində qırmızı kamzolu qaldı, qılınc tiyəsi kimi elastik, möhkəm, nazik dodaqlarında təkəbbürlü təbəssüm. O, maskarad kostyumunu, nəhayət ki, çıxarmış adama bənzəyirdi. Bütün vücudundan enerji yağırdı. Onun hər şeyi hərəkət adamı olduğundan xəbər verirdi.

Onun belə adam olduğunu mən çoxdan bilirdim.

Münəccimlər elan elədilər ki, müharibə üçün çox uğurlu fürsətdir, bundan yaxşısı ola bilməzdi. Onlar hersoqun ulduz cədvəlini quraraq aşkar etdilər ki, o, Şir bürcü altında doğulub. (Elə böyük bir şey tapmamışdılar, hersoq anadan olanda

bəlliydi bu və deyirlər ki, bu əlamət onların ailəsinə yaxın olan insanların fantaziyasını ilhama gətirirmiş, onu gələcək hökmdar üçün müsbət, çox şey vəd edən bir əlamət kimi qiymətləndirirmişlər, xalq isə bundan çox qayğılanmış, çox qorxmuşdu. Onun üçün də adı belə idi – Leo). Bu bürcün düz yanında isə indi Mars qərar tutmuşdu və tezliklə müharibə ilahəsinin bu qanlı ulduzu hersoqun qüdrətli bürcü ilə birləşəcəkdi. Hersoqun taleyinə təsirə malik digər səma fenomenləri də müstəsna dərəcədə əlverişli mövqelərdə idilər. Guya, bu səbəbdən də münəccimlər hərbi kampaniyanın uğurlu sonluğunu dəqiq vəd edirdilər. Hələ bu azmış kimi, deyirdilər ki, belə nadir fürsəti fövtə vermək bağışlanmaz səhv olardı.

Onların öncəgörmələri məni qətiyyən təəccübləndirmir, axı onların proqnozu hökmdarların ürəyi istəyənlərlə həmişə üst-üstə düşür, xüsusilə də, hersoqun atası nəsillərinin məhv olmaq təhlükəsi ilə qarşılaşdığını söyləmiş münəccimi şallaqladandan sonra: həmin münəccim hesablamışdı ki, sülalənin banisi qan tökməklə taxt-taca qalxdığı gün tarix etibarilə göy qübbəsində uzun, yanar quyruğu olan yeni ulduzun yaranması ilə eyni vaxta düşürdü – bu bəd əlamət, az qala, bütün hökmdar sülalələri üçün keçərli sayılırdı.

Bir də təkrar edirəm ki, onların məhz belə söylədikləri heç qəribə deyildi və bu dəfə onlardan razı qaldım. Onlar öz işlərini bilirdilər, nəhayət ki, nəyəsə faydaları oldu – axı mühüm məsələ o idi ki, həm hersoq, həm onun əsgərləri, həm də bütün xalq inandı ki, ulduzlar bu kampaniyaya müsbət münasibətdədir, hətta onun baş tutmasında maraqlıdır. İndi artıq ulduzlar da öz sözlərini demişdi və bu sözlərdən hamı çox razı qaldı.

Amma heç vaxt ulduzlarla söhbət etmirəm, insanlar isə bu məşğuliyyətdən ötrü ölürlər.

Maestro Bernardo məni yenə məəttəl qoydu. Dünən axşam hersoqla onun səmimi bir görüşü oldu və qabaqlardakı kimi, gecəyarısından xeyli ötənədək söhbətləşdilər.

Mənə aydın oldu ki, qoca alim saraydakı mövqeyini mənim fikirləşdiyim kimi, qətiyyən itirməyib və onun çoxbilmiş araşdırmaları narahat dünyamız üçün də yad deyil. Qətiyyən yox. Mən çox yanılırmışam.

Yanılmağıma əsəbiləşirəm, axı insanların bu üzündən o biri üzünü görürəm.

Məni, adətləri üzrə, onlara qulluq etmək, şərabla dolu qədəhlərini vermək üçün çağıranda hər ikisini nəsə qəribə şəkillərin üstünə əyilmiş gördüm və əvvəlcə nəyə baxdıqlarını başa düşmədim. Sonra isə onları yaxından seyr edə bildim, söhbətlərini dinləyəndə isə hər şey aydın oldu. Şəkillərdə indiyədək görünməmiş, düşmənlər arasında ölüm və dəhşət yayacaq hərbi maşınlar vardı – insanları uzun dəryazlarla biçən, özündən sonra hər tərəfdə qanlı insan qalıqları qoyan təkərli döyüş arabaları və daha bir şeytan əməli, arxada çapan atların itələdiyi, düşmən sıralarına soxulan təkərli araba, onun qarşısında istənilən insan cəsurluğu tam gücsüz idi, bir də ki üstü və yanları bağlı, içində möhkəm qorunan atıcılar olan, onun dediyi kimi, istənilən döyüş düzümünü darmadağın etməyə qadir olan və hərəkəti zamanı arxadan gələn, maşının açdığı yolla düşmənin içinə soxularaq işi başa çatdıracaq piyadaları qoruyan maşın. Bu şəkillərdə elə dəhşətli ölüm alətləri vardı ki, sadəcə olaraq, insanın ağlına bu cür şeylərin necə gəlməsini anlamaq olmurdu, – mən, təəssüf ki, həyatımı hərb sənətinə həsr etmək imkanından məhrum olmuşam deyə, çox şeyi əməlli anlamırdım. Orada həm də cürbəcür mortirlər, bombardalar, falkonyetlər[1], alov püskürən, daş, mərmi atan, əsgərlərin əl-ayağını qoparan müxtəlif şeylər vardı və bütün bunlar o qədər həqiqətə uyğun və canlı təsvir olunurdu ki, elə bil, şəkillərin çəkilişi maestronu heç də onun məzmunundan az narahat etmirdi. Sonra o, bu və ya başqa ölüm alətinin necə işləməsini, hansı dağıntılara səbəb olacağını təfərrüatı ilə təsvir edir, ağlı və fantaziyasını işğal edən

[1] *Mortir*, *bombarda*, *falkonyet* – istehkam qurğularını dağıtmaq üçün toplar

hər şey barədə necə sakit və işgüzar ahənglə söhbət açırdısa, bunlar haqda da elə danışırdı. Görkəmindən bəlliydi ki, bu maşınların real həyatda necə işləməsinə məmnuniyyətlə baxardı, bu da tam anlaşılan idi, çünki bu maşınları da o yaratmışdı və kim istəməz ki, öz əməyinin bəhrəsini görsün?

Belə çıxır ki, maestro Bernardo başını qatan min dənə başqa işi – təbiəti tədqiq etmək, onun sirlərini açmaq, çiçək və daşları öyrənmək, Françeskonun içalatında eşələnmək – içalat barədə, yadımdadır ki, hersoqa təbiətin dahi, ağlasığmaz bir əsər yaratdığını söyləmişdi – Santa Kroçedə qeyri-adi, gözəgörünməz pyedestala qaldırılan, onu sevən tələbələrilə əhatə olunmuş Məsihi olan və öz küncündə büzüşmüş, gələcəyin satqın İudası olan “Sirli axşam”ı çəkməklə yanaşı, hərb maşınları ilə də məşğul olmağa vaxt tapırmış.

Əminəm ki, bu işlərin hamısını eyni həvəslə görürdü. Axı niyə də olmasın, öz qəribə maşınlarına, elə bütün başqa işləri kimi, niyə qızğın maraq göstərməsin? Fərz edək ki, insan bədəni, həqiqətən də, çox qəliz qurğudur, hərçənd, mən özüm qətiyyən bu fikirdə deyiləm, lakin maşın da ondan sadə deyil, həm də bir daha təkrar edirəm, axı bu maşınları da özü yaradıb.

Nə qədər maraqlı olsa da, hersoqun diqqətini qəribə görkəmli, dəhşətli, mənim fikrimcə, çox faydalı olan, təkcə görünüşləri ilə bütöv bir qoşunu pərən-pərən düşməyə məcbur edə bilən maşınlar deyil, zahirən kifayət qədər sadə və qorxulu olmayan mexanizmlər cəlb etdi. O dedi ki, bu maşınlar ona daha etibarlı görünür. Onun düşüncəsinə görə, o birilər daha çox gələcəyin işi idi. Mühasirə qurğuları, qala qüllələrinin altına lağım atıb mina qoymaq üçün nəzərdə tutulan maraqlı üsul, daşatan dəzgahların işində düşmən üçün hələlik sirr olan gözlənilməz təkmilləşdirmələr, qısası, yəqin, əvvəllər də müzakirə etdikləri və hətta bəzilərini əməli olaraq sınaqdan belə keçirdikləri mexanizmlər.

Hersoq, ümumiyyətlə, heyran qalmışdı. İdeyaların, tapıntıların heyrətamiz bolluğu, həqiqətən, sərhədsiz fantaziyanın

qanad açması – bütün bunlar onu heyran qoymuşdu və o, qoca alimin dühasını ən tərifli ifadələrlə qiymətləndirirdi. Deyirdi ki, maestro hələ heç vaxt öz zəkasını və zəngin təxəyyülünü bu cür əyani isbatlamamışdı! Onların hər ikisi xirtdəyə kimi bu fantaziya dünyasına qərq olmuşdu və qızğın fikir mübadiləsi aparırdı – eynilə bu yaxınlarda birgə keçirdikləri ən məhsuldar gecədəki kimi. Mən də onlara sevinc içində qulaq asırdım, çünki bu dəfə qəlbim heyranlıq və məftunluqla dolmuşdu.

İndi mənim üçün tam aydındır ki, niyə hersoq messir Bernardonu saraya dəvət etmişdi və niyə onunla özünə bərabər birisi kimi davranır, ehtiramını daim nümayiş etdirir, ona diqqət və qayğı göstərirdi. Bernardonun elmi araşdırmalarına, təbiət sahəsindəki həm faydalı, həm xeyirsiz tədqiqatlarına hersoqun qızğın marağı, onun rəssamlıq məharəti, Santa-Kroçedəki "Sirli axşam"ı haqqında, bu hərtərəfli istedada malik insanın gördüyü bütün işlər barədə diqqətli və heyran mülahizələrinin mənası da mənə indi çatdı!

O, həqiqətən, böyük hökmdardır!

Bu gün dəhşətli yuxu gördüm. Gördüm ki, ucaboy və əzəmətli, nəcib, mütəfəkkir alnı çal saçların haləsində olan maestro Bernardo çox uca bir dağın başında durub, ətrafında isə əcaib varlıqlar – Santa-Kroçedəki şəkillərdə gördüyüm həmin o murdar məxluqlar sürətlə uçuşurlar. Onlar qocanın ətrafında şər qüvvələr kimi qaynaşırdılar, o isə, sanki, hökmranlıq edirdi onlara. Bu dəhşətli məxluqların üzləri kərtənkələ və qurbağa sifətlərinə bənzəyirdi, onun öz üzü isə həmişəki ciddiyyətində və nəcabətində idi. Lakin onun boyu yavaş-yavaş kiçildi, bədəni büzüşərək rəzil və murdar oldu və kürəyindən tüklü ayağı ilə birləşən iki qanad çıxdı, lap yarasa kimi. Üzündə elə bayaqkı təntənəli ifadə, qanad çalmağa başladı və qəflətən yerdən qalxaraq, həmin o dəhşətli varlıqların əhatəsində gecənin zülmətinə uçdu.

Mən yuxulara əhəmiyyət vermirəm. Onların heç bir şeylə əlaqəsi yoxdur və heç bir məna daşımır. Az-çox əhəmiyyəti olan yeganə şey həqiqətin özüdür.

Onun eybəcər olduğunu mən çoxdan anlamışam.

Kondotyer Bakkarossa dörd min əsgərlə sərhədi keçdi! O, ölkənin içərilərinə artıq iki mil soxularaq, hücum gözləmədiyindən heç bir hazırlıq görməyə macalı olmayan Öküz ləqəbli Lodoviko Montansanı qəfil yaxaladı.

Bütün şəhəri ildırım kimi vuran inanılmaz xəbər! Bütün beyinləri həyəcana gətirən ağlasığmaz hadisə!

Kondotyer cənub-şərqin əlçatmaz dağlarında, tam məxfilik içində öz muzdlularını toplayaraq, hücum planını lap şeytan bicliyi ilə hazırlamışdı və bu plan da indi ona uğur gətirirdi.

Heç kəs heç bir şey bilmirdi, hətta biz özümüz də. Bu dahiyanə hücum planının əsl təşəbbüskarı və ilhamvericisi hersoqdan savayı. Heç ağlasığan deyil! Hətta adamın inanmağı da gəlmir!

İndi artıq Montansa ailəsinin sanılı günləri qalırdı və nifrətəlayiq Lodoviko – deyirdilər ki, bizim kimi, elə həmvətənlərinin də onu görən gözü yox idi – nəhayət ki, bu öküz boynunu qırdıracaqdı və bununla da, murdar bir nəslin hakimiyyəti sona yetəcəkdi.

Bütün bicliyinə, çoxbilmişliyinə baxmayaraq, onu barmaqlarına dolamışdılar! Heç şübhəsiz ki, hersoqun ona hücum etmək barədə düşündüyündən xəbərdar idi, lakin onu da bilirdi ki, burada, şəhərdə heç bir qoşun yoxdur və elə bu səbəbdən çox elə narahat da deyildi. Hər şeydən az heç bir sərhəd qalalarının olmadığı həmin o keçilməz yerlərdən hücum gözləyirdi. Öküzün sonu çatdı! Cavabdehlik anı yetişdi!

İndi şəhərdə hakim olan əhvali-ruhiyyəni təsvir etmək çətindir. Adamlar küçələrə toplaşıb əl-qolla, ucadan, həyəcanla və qızğın danışır, ya da ki dinməzcə durub marşla yanlarından keçən döyüşçü dəstələrinə – hersoqun qoşunlarına

tamaşa edirlər. Bəlli deyil ki, bu qoşun haradan çıxdı, sanki, yerin altındaymış. Hə, məlum olurdu ki, bu hücum yaxşı planlaşdırılmışdı. Bütün kilsə zəngləri çalınırdı, kilsələr insanla dolu idi, onların girişində daim basabas idi. Ruhani atalar müharibənin uğurla başa çatmasına qızğın dualar edirdilər və heç şübhə yox idi ki, bütün bunlar kilsənin xeyir-duası ilə baş verirdi. Başqa necə olmalı idi ki? Müharibə bizim hamımıza şöhrət gətirəcək!

Bütün xalq coşqunluq içindədir. Sarayda məxsusi canlanma var – misilsiz heyranlıq duyğusu hakimdir və hersoqla əməlli-başlı fəxr edirlər.

Bizim qoşunlar döyüşə başqa yerdə girəcəkdilər: onlar sərhədi şərqdən, geniş çay vadisindən keçəcəkdilər – qədim, klassik hücum yolu. Bir gün yol qət edib, dağ ətəyindəki düzənlikdə, döyüş üçün rahat olan, torpağın igidlərin qanı ilə suvarıldığı bir məkanda kondotyerin dəstələri ilə birləşəcəkdilər. Kampaniyanın planı bu idi! Onu mən öyrənə bildim!

O mənada demirəm ki, nəyisə dəqiqliyi ilə öyrənə bilmişəm, yox, mən, onsuz da, hər şeydən iyləyib-çüyləyib xəbərdar olmuşdum, məlumatları havada tikə-tikə qapırdım; buradan bir kəlmə, oradan bir kəlmə, bir də görürdün ki, mənzərə aydınlaşdı. Başım elə buna qarışmışdı, hər şeyi bilməyə, heç nəyi diqqətdən yayındırmamağa çalışırdım: qapı dalından qulaq asır, şkafların, pərdələrin arxasında gizlənir, indi baş verən böyük hadisələr barədə, imkan dairəsində, daha çox şey öyrənməyə çalışırdım.

Əcəb plan idi! Çox güman ki, baş tutacaqdı. Düzdür, sərhədin bu hissəsində qalalar da vardı. Lakin onlar alınacaqdı. Bəlkə, hələ özləri də təslim olacaqdılar, bu imkanı da unutmaq olmaz, baxacaqdılar ki, müqavimətin mənası yoxdur, təslim olacaqdılar. Bəlkə də, o qalaları hücumla tutacaqdılar. Hər halda, qabağımızı ala bilməyəcəkdi bu qalalar. Qarşımızı heç nə kəsə bilməz, çünki hücum gözlənilməz, müstəsna dərəcədə sarsıdıcı idi.

Bizim hersoq gör necə dahi sərkərdədir! Təcrübəli tülküdür! Sən bicliyə, ölçüb-biçməyə bir bax! Bu kampaniya ideyasının özündəki vüsətə, əzəmətə bax!

Belə bir hersoqun cırtdanı olmaqdan qürur duyuram.

Bütün fikirlərim eyni arzuya köklənib: müharibəyə necə gedim? Mütləq getməliyəm. Nəyin bahasına olursa olsun. Amma necə, hansı yolla gerçəkləşdirim bu arzunu? Mənim heç bir hərbi biliyim yoxdur. Sərkərdədən, ya da, heç olmasa, adi əsgərdən tələb olunan biliyi deyirəm. Lakin mən silahla davrana bilirəm! Kişi kimi qılınc çalıram! Mənim şpaqam heç kiminkindən pis deyil! Bir az gödəkdir, vəssalam. Amma qısa tiyələr bəzən uzunlardan təhlükəli olur! Düşmən bunu öz canında hiss edəcək!

Yaxamdan əl çəkməyən bu fikirlərdən bihal oluram, evdə, qadınlar və uşaqlarla qalacağımdan, nəhayət ki, nəsə baş verdiyi günlərdə kənarda qalacağımdan qorxuram. Ən dəhşətli qırğın isə, yəqin, elə indi, kampaniyanın başlanğıcında olacaqdı.

Mən qana susamışam!

Məni də aparırlar! Aparırlar!

Nəhayət ki, bu gün səhər içimdəkilərin hamısını hersoqa açdım, yürüşdə iştirak etmək kimi həyati əhəmiyyət daşıyan arzumu bildirdim. Öz xahişimi elə hərarətlə açıqladım ki, o biganə qalmadı, bunu hiss etdim. Həm də bəxtim gətirdi: xahişim, necə deyərlər, onun xoş anına təsadüf etmişdi. O, alnına sarı daradığı qısa saçlarına sığal çəkdi – əhvali-ruhiyyəsinin yaxşı olduğunun dəqiq göstəricisi bu idi – və mənə nəzər salanda qara gözləri parladı.

“Əlbəttə, sən də gedərsən müharibəyə”, – dedi. Özü gedirdi, təbii ki, məni də aparacaqdı. Hersoq öz cırtdanı olmadan nə edə bilər? Onu şəraba kim qonaq edəcək? Sonra o, şən bir tərzdə mənə göz vurdu.

Məni aparırlar! Aparırlar!

Artıq piniyalar[1] bitən təpədə qurulmuş yürüş çadırında oturmuşam, buradan dağın ətəyindəki düşmən mövqeləri lap ovcunun içi kimi görünür. Çadırın enli, sarı və qırmızı zolaqlı – bu, hersoqun rəngidir – parçası küləyin altında şappıldayır, adamı lap şeypur səsi kimi coşdurur, tələsdirirdi. Mən tam döyüş qiyafəsindəyəm, əynimdəki hər şey eynilə hersoqunku kimidir: zireh də, dəbilqə də, böyrümdən asılmış gümüş kəmərli şpaqa da. Axşamtərəfidir, indi burada məndən başqa heç kəs yoxdur. Girişdə salınan örtük qaldırılıb və mənim qulağıma sabahkı döyüş planını müzakirə edən sərkərdələrin səsləri yetişir, uzaqdan isə əsgərlərin oxuduğu mərdlik mahnısının sədaları gəlir. Aşağıda, düzənlikdə Öküzün qara-ağ çadırını, çadırın ətrafında qaynaşan insan fiqurlarını görürəm, bapbalaca görünürlər, buradan baxanda fikirləşirsən ki, tamam ziyansız məxluqlardır, sol tərəfdə, lap uzaqlarda isə döyüş əlbisələrini çıxarmış qurşağa kimi lüt süvarilər atlarını çayda çimizdirirlər.

Bir həftədən artıqdır ki, yürüşdəyik – əzəmətli hadisələrlə zəngin günlər. Hücum elə dəqiq mən deyən kimi inkişaf etdi. Bizimkilər düşmənin sərhəd qalalarını aldılar, amma əvvəlcə onları messir Bernardonun zəkasının məhsulu, nəyə qadir olduğunu ilk yoxladığımız əvəzsiz bombardalardan atəşə tutdular. Dəhşətli yaylım atəşindən qorxmuş qarnizon elə o dəqiqə təslim oldu. Öküz Bokkarossanın qarşısını kəsmək üçün saxladığı, sayı o qədər də çox olmayan dəstələrini tələsik qabağımıza çıxardı, lakin bütün qızğın döyüşlərdən biz qalib çıxdıq, çünki düşmənin gücü bizimkindən xeyli az idi. Elə bu əsnada Bokkarossanın muzdluları getdikcə daha az müqavimət görərək, özlərinin düzənliyə yolunu qılınclarıyla açdılar və düşmənin canlı qüvvəsinə aman verməyərək bir az da şimala irəlilədilər ki, bizim dəstələrlə birləşə bilsinlər. Beləliklə, dünən günortaüstü, çoxdan intizarında olduğumuz, kampaniyanın gələcəyi üçün çox mühüm sayılan bu görüş baş tutdu. Hal-hazırda bizim

---

[1] *Piniya* – çətirşəkilli şam ağacı

birləşmiş qüvvələrimiz dağətəyi nahiyədə, düzənlik ilə dağların arasında qərar tutub. Say etibarilə on beş min nəfərdən artıqdır ki, onların da iki min nəfərini süvarilər təşkil edir.

Mən hersoqun kondotyerlə görüşündə iştirak etdim. Həqiqətən, unudulmaz, tarixi bir an idi. Bu vaxt ərzində cavanlaşaraq, hamını təəccübləndirmiş hersoq qiyamət bir zirehli geyimdə idi: sinəbəndi və dirsəkliyi qızıl suyuna çəkilmiş gümüşdən idi, dəbilqəsində isə iki lələk vardı: biri sarı, o birisi qırmızı, – çoxsaylı əsabələrinin əhatəsində xoşagəlməz şöhrətilə seçilən müttəfiqini nəzakətlə salamlayanda dəbilqəsindəki lələklər çox qəşəng tərpəndi. Onun daim solğun, çil sifəti bir az qızarmışdı, nazik dodaqlarında isə təbəssüm yaranmışdı, səmimi, ürəkdən gələn, lakin bununla yanaşı, həm də, adəti üzrə, bir az gərgin, ehtiyatlı təbəssüm. Onunla üzbəüz qüdrətli, enlikürək Bokkarossa durmuşdu – əsl nəhəng. İçimdə qəribə bir hissiyyat vardı, sanki, onunla ilk dəfə idi görüşürdüm. Amma bu görkəmdə onu gördüyüm, həqiqətən, birinci dəfəydi – axı birbaşa döyüş meydanından gəlirdi. Əynində hersoqunkularla müqayisədə lap sadə görünən polad geyim vardı, yeganə bəzəyi sinəsində bürüncdən düzəldilmiş heyvan sifəti idi – ağzını qəzəblə açmış şir. Dəbilqəsində heç bir lələk, ya başqa bəzək yox idi – sadə, hamar dəbilqə idi. Onun sifəti mənə insan sifətlərinin ən dəhşətlisi kimi gəldi. Piyli, çopur idi, elə bir çənəsi vardı ki, görəndə istər-istəməz əsərdin, ağzı isə ətyeyən heyvanlarınkı kimi qan qırmızısı rəngdə idi. Qalın dodaqları möhkəm sıxılmışdı, pusquda durmuş vəhşi kimi, haradasa lap dərində qərar tutan baxışları isə, elə bilirəm, öz yuvasından bir anlıq görünməsi ilə istənilən düşməni qaçıra bilərdi. Ona baxanda adam qorxurdu. Amma mən onun qədər kişiyə oxşayan başqa birisini heç vaxt görməmişdim. Mənim üçün o, hakimiyyət anlayışının təcəssümü idi. Qədim baxışlarımla baxırdım ona, dünyada artıq hər şeyi görmüş, özündə minilliklərin təcrübəsini toplamış cırtdan gözüylə heyran-heyran baxırdım.

Az danışırdı, demək olar ki, susurdu. Danışan başqaları idi. Bir dəfə hersoqun hansı sözünəsə gülümsündü. Bilmirəm, buna niyə gülümsəmək dedim, amma başqa insanlarda bunun adına elə “gülümsəmək” deyirlər.

Maraqlıdır, bəlkə, o da mənim kimi, gülümsəməyi bacarmır?

O, başqaları kimi hamarsifət deyil. Heç dünən də anadan olmayıb, qədim nəsildən çıxıb, bizimki qədər qədim olmasa da, hər halda...

Hersoq onunla yanaşı mənə, elə bil, əhəmiyyətsiz gəldi. Bu da hökmdarımın qarşısında ehtiramla baş əydiyim bir zamanda – dəfələrlə dediyim kimi, bu ehtiramım son zamanlar möhkəm artmışdı – baş verirdi!

Ümidvaram ki, kondotyeri döyüşdə görmək mənə nəsib olacaq.

Beləliklə, sabah səhər həlledici döyüş olacaq. Adama elə gəlir ki, qoşunlarımızın iki dəstəsi birləşən kimi, nə qədər ki Lodoviko nəfəsini dərib gücünü toplamamışdı – yeri gəlmişkən, etdiyi ilk şey də elə bu olmuşdu – ara vermədən, təcili hücum etmək lazım idi. Mən öz fikrimi hersoqa dedim, o isə cavab verdi ki, adamlara bir az istirahət vermək gərəkdir. Bir də ki elə düşmənə də cəngavər münasibəti göstərmək, ona bu məsuliyyətli döyüş üçün hərbi hazırlığını bərpa etmək fürsəti vermək lazımdır. Mən belə bir baxışla müharibə aparmağın məqsədəuyğunluğu barədə öz tərəddüdümü bildirdim. “Məqsədəuyğunluq öz yerində – o cavab verdi, – lakin mən, hər şeydən öncə, cəngavərəm. Bizim qanunlar sənin üçün yazılmayıb”. Mən başımı buladım. Gəl bu qəribə adamı anla görüm, necə anlayırsan. Bilmək istərdim ki, Bokkarossa bu barədə nə düşünür.

Öküz isə, bəlli idi ki, vaxtını hədər yerə keçirmirdi. Biz axı buradan hər şeyi görürdük. Gün ərzində hətta ehtiyat qüvvələrini də gətirdə bilmişdi.

Biz, təbii ki, istənilən vəziyyətdə qələbə çalacağıq, bu artıq həll olunmuş bir məsələdir. Bəlkə də, elə qoşununun sayını artırması da yaxşı oldu: bizimkilərin baş kəsmələri üçün xeyli adam tapılacaq. Düşmən nə qədər çox olsa, qələbə də bir o qədər inamlı sayılar. Əslində, o, onsuz da, uduzacaqdı, başını işlədib, qoşunun sayını artırmaya bilərdi, əsgəri nə qədər az olsa, onun üçün bir o qədər yaxşı olardı. Lakin o, qürurlu və həqiqətən də, öküz kimi tərsdir.

Onun tam təhlükəsiz olduğunu düşünmək də böyük yanlışlıq olardı. O, bicdir, cəsarətlidir, başını yaxşı işlədir və gerçəkdən, qeyri-adi sərkərdədir. Əgər müharibə onun başına bu qədər qəfil gəlməsəydi, təhlükəli düşmən olardı. Günbəgün daha yaxşı anlayırsan ki, bax belə, qəflətən hücum etmək nə qədər mühüm imiş; biz bu məqamı hələ yürüş bitənə kimi dəfələrlə xatırlayacağıq.

Sabahkı döyüşün planı mənə bütün təfərrüatı ilə bəllidir. Bizim, yəni hersoqun qoşunları zərbəni mərkəzdən endirəcək, Bokkarossanın qüvvələri – sol cinahdan. Beləliklə, hücuma bir yox, eyni zamanda iki istiqamətdən keçəcəyik. Tamamilə təbiidir, çünki ixtiyarımızda iki müstəqil qoşun var. Cəmi bir qoşunu olan düşmən isə məcbur olacaq ki, eyni zamanda iki istiqamətdə döyüşsün. Aydındır ki, bu, onlar üçün çox böyük problem yaradacaq, bizə isə əhəmiyyətli üstünlük verəcək. Nəticədən nigaran qalmağa əsas yoxdur. Hərçənd ki, biz də müəyyən itkilərə hazır qalmalıyıq. Ümumiyyətlə isə, mənə elə gəlir ki, döyüş qanlı olacaq. Qurban vermədən heç nəyə nail ola bilməzsən. Bir də ki bu döyüş fövqəladə əhəmiyyətlidir, çox güman ki, bütün müharibənin sonluğu onun nəticəsindən asılıdır. Bunun naminə müəyyən qurbanlar verməyə dəyər.

Hərb sənətinin mənə indiyədək gizlin qalmış sirləri ilə getdikcə daha artıq maraqlanmağa başlayıram. Yürüş həyatının rəngarəngliyi və gərginliyi lap ürəyimcədir. Gözəl həyatdır! Müharibədə iştirak həm bədən, həm də ruh üçün

bir azadlıqdır! Sanki, tamam başqa adama çevrilirsən. Hərəkətlərim də yüngülləşib. Elə bil, bədənim çəkisizdir.

Ömrum boyu belə xoşbəxt olmamışam. Əşi, nə deyim daha! Məgər mən əvvəllər xoşbəxtlik nə olduğunu bilirdim ki?

Deməli, sabah! Sabah!

Mən bu döyüşə uşaq kimi sevinirəm.

Dəhşətli dərəcədə tələsirəm. Qısaca söyləyəcəyəm.

Qələbə çaldıq, parlaq qələbə! Düşmən dağılmış dəstələrini toplamağa çalışaraq, tam qarışıqlıq içində geri çəkilir. Biz onları addımbaaddım təqib edirik! Bu ana kimi əlçatmaz sayılan Montansa şəhərinin yolu artıq açıqdır!

Vaxt tapan kimi, bu gözəl döyüşü təfərrüatı ilə təsvir edəcəyəm. Hadisələr özü hər şeyi danışır, – artıq sözlər öz mənasını büsbütün itirib. Mən qələmi qılıncla əvəz etdim.

Nəhayət ki, nələrisə qeyd etmək üçün azacıq boş vaxtım var. Bu son günlər biz döyüşə-döyüşə inadla irəliləyirdik, sözün əsl mənasında, nəfəs çəkməyə fürsətimiz yox idi. Hətta bəzən, gecələmək üçün çadır qurmağa da vaxt tapılmırdı və biz düşərgəni açıq çöldə, piniya və zeytunların içində salıb plaşımıza bürünür, başımızın altına isə daş qoyaraq yatırdıq. Gözəl həyatdır! Bayaq dediyim kimi, indi boş vaxtımız bir qədər çoxalıb. Hersoq deyir ki, istirahət bizə ziyan gətirməz, o, bəlkə də, haqlıdır. Arasıkəsilmədən qələbə çalmaq da axı adamı yorur.

İndi şəhərdən cəmi yarım mil məsafədəyik, şəhər, elə bil, ovcumuzun içindədir: tən ortadakı təpədə qədim Montansa qəsridir, ətrafında isə gözətçi qüllələri, kilsələr, zəng qüllələri, bir az geridə də başqa, nisbətən sadə evlər və bütün bunlar çox hündür qala divarları ilə əhatə olunub – əsl quldur yuvasıdır. Qulaqlarımıza kilsə zənglərinin səsi yetir – yəqin, ilahidən nicat diləyirlər. Biz çalışarıq ki, onların duası müstəcəb olmasın. Öküz bütün qoşununun qalıqlarını bura toplayıb

– bizimlə şəhər arasındakı düzənliyə. Kimi mümkündürsə yığıb. Onu elə döymüşük ki, müdafiə üçün sayları bəs eləməyəcək. Görkəmli sərkərdədir, amma, görünür, vəziyyətinin tam ümidsiz olduğunu anlamır. Belə çıxır ki, son damla qanlarına kimi döyüşmək niyyətindədirlər, əlindəki bütün qüvvələri ortaya atacaq, təki onun üçün yazılmış taledən qaça bilsin. Bu, şəhəri xilas etmək üçün onun son cəhdidir.

Tamamilə mənasız bir cəhd. Montansa ailəsinin taleyi həmin tarixi səhər çağında, təxminən, bir həftə qabaq həll edilib və indi artıq onların son saatı yetişib.

Aşağıda isə həmin o əzəmətli, tayı-bərabəri olmayan döyüşün geniş və dəqiq şərhini verməyə cəhd edəcəm.

Hər şey ondan başlandı ki, hər iki qoşunumuz eyni zamanda hücuma keçdi, bütün dəqiqliyi ilə elə mənim qabaqcadan dediyim kimi. Təpənin başından bu proses lap əzəmətli bir tamaşa idi, sanki, həm gözü, həm də ruhu oxşayan bir tamaşa. Döyüş musiqisi guruldadı, hersoqun ştandartı açıldı, rəngarəng, səliqəli sıraların başı üstündə bayraqların səfi dalğalandı. Doğan günəşin nuruna boyanmış döyüş meydanını gümüş şeypurların sədası doldurdu, bu səda altında yamacla piyadalardan ibarət sel üzüaşağı axdı. Düşmən onları sıx, qorxulu sıralarda gözləyirdi və elə ki başdan-ayağa silahlanmış rəqiblər toqquşdular, əlbəyaxa döyüş qopdu. Yəqin ki, orada qan çay kimi axırdı. Adamlar biçilmiş kimi yerə sərilirdilər, yaralılar isə sürünərək meydandan çıxmağa cəhd edirdilər, lakin onları elə o dəqiqə ölümcül zərbələr, ya da tapdalanmaq gözləyirdi, acı çığırtılar eşidilirdi, bütün döyüşlərdə olduğu kimi. Döyüş meydanı təlatümlü dəniz təki dalğalanırdı, belə görünürdü ki, bəzi yerlərdə üstünlük bizim, bəzilərində isə düşmənin tərəfində idi. Bokkarossa əvvəlcə özünü elə göstərdi ki, guya, bizimlə eyni istiqamətdə irəliləyir, amma onun dəstələri tədricən istiqamətdən yayındılar, geniş bir çevrə cızaraq, düşmənin üstünə cinahdan atıldılar. Düşmən hiyləgər manevrdən çaşqınlığa düçar olaraq ciddi müqavimət

göstərə bilmədi. Qələbə uzaqda deyildi, mən belə düşünürdüm. Artıq neçə saat keçmişdi və günəş xeyli yüksəkdə idi.

Qəfildən də dəhşətli bir şey baş verdi. Çayın yanında mövqe seçmiş dəstələrimiz sarsıldılar. Onlar Lodovikonun sağ cinahının təzyiqi altında geri çəkilməyə başladılar, getdikcə bu dəstələri bir az da arxaya sıxışdırırdılar, onlar isə pərakəndə müqavimət göstərməkdən savayı, bir şey edə bilmirdilər. Kənardan elə görünürdü ki, döyüş əzmini artıq tamam itiriblər. Elə hey geri çəkilirdilər. Görünür, ölüm qorxusu canlarını elə almışdı ki, yaşamaq imkanını nəyin bahasına desən qızırqanmadan alardılar. Gözlərimə inanmırdım. Anlaya bilmirdim nə baş verdiyini, axı biz düşməni say cəhətdən xeyli üstələyirdik: az qala iki dəfə. Sifətim qıpqırmızı oldu: bu murdar qorxaqların yerinə utanırdım! Mən coşmuşdum, qışqırır, ayaqlarımı yerə döyür, qəzəbdən onlara yumruq göstərir, lənətlər yağdırırdım – bir sözlə, öz qəzəbimi, nifrətimi nümayiş etdirirdim. Nə faydası! Onlar məni, təbii ki, eşitmirdilər – elə hey geri çəkilməklərindəydilər. Mənə elə gəlirdi ki, dəli olacağam. Heç kəs də onların köməyinə tələsmirdi. Çətin vəziyyətlərinə fikir verən də yox idi. Onlar buna layiq idilər!

Birdən gördüm ki, mərkəzə rəhbərlik edən hersoq arxada gözləyən bir neçə dəstəyə işarə etdi. Onlar qabağa, çay istiqamətində irəliləməyə, düşmən sıralarını bacarıqla yarmağa başladılar. Çaya aparan yolu qarış-qarış azad edərək, nəhayət, zəfər bağırtılarıyla sahilə çatdılar. Düşmənin geri çəkilməyə yolu qapandı! Beş yüzlə yeddi yüz nəfər arasında düşmən dəstəsi mühasirəyə düşdü. Elə bil, torbada idilər, məhv ediləcəkləri anı gözləməkdən savayı çıxış yolları qalmamışdı.

Mən heyrətdən donub qaldım. Bu cür hərbi biclik barədə təsəvvürüm də yox idi. Mən də bunu qorxaqlıq kimi qiymətləndirmişdim. Ürəyim çırpınırdı, sevindiyimdən az qalırdı nəfəsim kəsilə. Sanki, çiyinlərimdən ağır bir yük atmışdım.

Sonra da maraqlı bir tamaşa başlandı. Bizim dəstələr mühasirədəki düşməni hər tərəfdən sıxışdırır, onları döyüş

meydanı ilə çay arasındakı nazik zolağa qovurdular. Nəhayət, düşmən elə bir məngənəyə düşdü ki, heç tərpənə bilmədi və bizimkilər onları amansızcasına məhv etməyə başladılar. Mən həyatım boyu belə "qanlı hamam" görməmişdim. Özü də əsl hamam idi, suyu da vardı: onları birbaşa çaya sıxışdırırdıq, dəstə-dəstə suya tökür, pişik balaları kimi batırırdıq. Onlar axınla mübarizə aparır, burulğanlarda boğulur, qışqırıb köməyə çağırırdılar və özlərini heç əsgər kimi aparmırdılar. Onların, demək olar ki, heç biri üzə bilmirdi, sanki, ilk dəfə idi suya girdikləri. Üzüb sahilə çıxmağa nail olanları da qılınc zərbələrilə öldürürdük, qarşı sahilə keçməyə cəhd göstərənləri isə su özü aparırdı. Demək olar ki, nicat tapan olmadı.

Qorxaqlıq parlaq qələbəyə çevrildi!

Həmin dəqiqədən etibarən, hadisələr ağlasığmaz sürətlə cərəyan edirdi. Mərkəzi qüvvələr də, sol cinah da düşmənə ağır zərbələr endirdi, Bokkarossanın sağ cinahdakı dəstələri də düşməni ikiqat qəzəblə doğrayırdılar. Yamacla üzüaşağı isə yaxşıca dincəlmiş süvarilərimiz əllərində nizə, yel kimi özlərini yetirib, döyüşün ən qızğın yerinə soxuldular, Lodovikonun əldən düşmüş, sıxışdırılan sıralarında əsl başıpozuqluq yarandı. Çox tezliklə onlar təzyiqə davam gətirməyib bizə kürəklərini göstərdilər. Biz də başda süvari dəstəsi olmaqla, onları təqib etməyə başladıq ki, gözəl qələbəmizin bəhrəsini sona kimi yığa bilək. Hersoq, təbii ki, qarşısında açılan imkanları əldən vermək fikrində deyildi. Piyadalardan və süvarilərdən ibarət bir neçə dəstə əsas qüvvələrdən ayrılaraq, yan tərəfdəki dərəyə sarı hərəkət etdi – yəqin ki, düşmənin yolunu kəsmək idi məqsəd. Hadisələrin sonrakı inkişafını artıq biz görə bilmədik, çünki dağlar hər iki qoşunun qarşılaşdığı yeri gizləyirdi. Hər şey göz önündən birdən çəkildi, elə indicə hərbi əməliyyat meydanı olmuş düzənliyin o biri üzündə, yamaclarında üzüm bağları olan təpələrin arasında qeyb oldu.

Bizim duşərgədə o dəqiqə qarışıqlıq başladı, hər şey hərəkətə gəldi. Atları arabalara qoşur, silahları, döyüş ləvazimatını

tələsik arabalara yükləyirdilər, hamı yüyürür, canfəşanlıq edirdi, arabalar yola hazırlanırdı. Mən hersoqun çadırı yüklənmiş araba ilə getməli idim. Hərəkət siqnalı verildi və biz yamacdan döyüş meydanına endik, indi bu meydan ölülər və yaralılarla dolu cansıxıcı bir səhranı xatırladırdı. O qədər çox idilər ki, hərdən bədənlərin üstündən keçəsi olurduq. Əsasən, ölülər idi təkərlərin altında qalanlar, amma bəziləri dəhşət içində qışqırırdılar. Bizim yaralılar da arxamızca çığırırdılar ki, onları da özümüzlə aparaq, lakin buna imkanımız yox idi, tələsməliydik ki, qoşuna çata bilək. Müharibələr insanı möhkəmlədir, elə bil, hər şeyə öyrəşirsən. Amma belə bir şeyi həyatım boyu hələ görməmişdim. İnsanların arasında atlar da uzanılı qalmışdılar. Biz qarnı yırtılmış, içalatı tökülmüş bir atın üstündən keçdik. Baxa bilmirdim, az qaldı qaytarım. Bilmirəm niyə, amma mənə yaman təsir elədi bu mənzərə. Arabaçıya qışqırdım ki, tələssin, o da qamçısını şaqqıldatdı və biz sürətlə irəli atıldıq.

Qəribə işdir. Neçə dəfə şahidi olmuşam ki, bəzi vəziyyətlərdə mən çox həssas oluram. Elə şeylər var ki, onların görünüşünə qətiyyən dözə bilmirəm. Məsələn, Françeskonun bağırsaqları barədə fikirləşən kimi ödüm ağzıma gəlir. Ən təbii şeylər, nədənsə, xüsusilə ürəkbulandırıcı olur.

Gün sona yetirdi. Dünyada hər şeyin, təəssüf ki, bir sonu olur. Dağların arxasından hələ boylanan günəş görünməmiş cəsarətin, görünməmiş şərəf və məğlubiyyətin şahidi olmuş döyüş meydanını hamıya "əlvida" deyən şüalarıyla işıqlandırırdı. Silkələnən arabada arxası ata oturaraq, düzənlik üzərinə düşən alatoranı seyr edirdim.

Budur, bütün səhnə zülmətə qərq oldu və burada cərəyan etmiş qanlı dram tarixin payına çevrildi.

İndi öz yazılarıma ürəyim istəyən qədər vaxt ayıra bilərəm. Məsələ burasındadır ki, yağış tökür. Sanki, göy üzü yırtılıb, sel-su axır yerə. Gecə-gündüz elə hey yağır, yağır.

Təbii ki, zəhlətökəndir. Düşərgədə lıqqa palçıq. Çadırların arasındakı keçidlər dizə kimi batdığın və içində ara-sıra at, insan nəcisi üzən duru, gilli bir horraya çevrilib. Nəyə əl vursan yapışqanlı, çirklidir, toxunmağa iyrənirsən. Su çadırın qalın parçasından da süzülür, içəridə hər şey yaşdır. Xoşagələn bir şey yoxdur və bu, təbii ki, çoxlarının əsəbinə toxunur. Hər axşam ümid edirsən ki, səhər yaxşı hava olacaq, amma yuxudan oyananda yenə yağış damcılarının çadırı təbil kimi döyəcləməsini eşidirsən.

Bu bitməyən yağışın nə xeyri var axı! Ancaq hərbi əməliyyatlara mane olur, bütün müharibəni saxlayıb. Özü də parlaq qələbəmizin bəhrəsini yığmalı olduğumuz bir zamanda. Niyə yağır!

Əsgərlər sakitləşmişdi. Peşələri ancaq yatmaq, bir də zər atmaqdı. Hansı döyüş ruhundan söhbət gedə bilər ki. Öküz güc yığır – heç şübhə etməyə bilərsiniz. Biz isə, aydındır ki, güclənmirik. Əlbəttə, narahatlığa heç bir əsas yoxdur, amma fikirləşəndə adamı hirs götürür.

Yağış kimi qoşunun döyüş ruhuna pis təsir edən ikinci bir şey ola bilməz. Göz önündəki mənzərə artıq baxışları cəlb etmir, ehtiras doğurmur, hər şey, sanki, bozarır, parıltısını itirir, – müharibə ilə bağlı olan bütün parlaq və bayramsayağı nə varsa. Bütün gözəlliklər solur. Amma müharibəni əbədi bayram kimi də təsəvvür etmək olmaz. Müharibə oyuncaq deyil, ciddi məsələdir. O, ölüm, fəlakət, qırğındır; sayca səndən az olan düşmənlə maraqlı döyüşlərdə vaxtını xoş keçirmək deyil qətiyyən. Burada dözüm, səbir gərəkdir, bütün məhrumiyyət və əzablarla barışmağı öyrənməlisən. Bu qaçılmazdır.

Əgər darıxma bütün qoşuna sirayət etsə, iş təhlükəli məcraya düşəcək. Evimizə qələbə ilə dönənə kimi, hələ çox şeylər etməliyik. Düşmən hələ də tam məhv edilməyib, hərçənd ki, bunun üçün çox gözləmək lazım gəlməz. Sonra etiraf etmək vacibdir ki, onlar çay kənarındakı ağır məğlubiyyətə baxmayaraq, geriyə uğurla çəkilmişdilər, hətta qismən mühasirəni

yarıb, canlarını qurtarmağa da müvəffəq olmuşdular. İndi isə, təkrar edirəm, düşmən, yəqin, yenidən güc toplayır. Bizə onu birdəfəlik darmadağın etmək üçün mütləq əvvəlki döyüş ruhumuz gərəkdir.

Hersoq isə qətiyyən ruhdan düşməyib. O, müharibəni, həqiqətən, sevənlərdəndir – onun bütün təzahürlərini. Sakit, inamlı və enerjilidir, daim sabit ruh yüksəkliyindədir. Bir dəqiqəliyə belə mərdliyini, qələbəyə dərin inamını itirmir. Əsl döyüşçü! Yürüş həyatında biz onunla yaman oxşayırıq.

Onda məni qane etməyən, heç vaxt bağışlamadığım, həmişə qızğın bir şəkildə qınadığım yeganə cəhət məni döyüş meydanına buraxmaq istəməməsidir. Bilmirəm, niyə qoymur? Niyə mane olur? Hər döyüş ərəfəsində ona yalvarıram, bir dəfə hətta dizi üstə çöküb ayaqlarını qucaqlayaraq zır-zır ağlamışam da! O isə ya özünü elə göstərir ki, guya, heç nə eşitmir, ya da təbəssümlə cavab verir ki, mən onun üçün çox qiymətliyəm və pərvərdigar məni başıma gələ bilən təhlükədən qorusun. Gələ bilən! Bəs istədiyim nədir! O heç cür başa düşmək istəmir ki, bu, mənim üçün həyati əhəmiyyət kəsb edən məsələdir. Anlamır ki, bütün varlığımla döyüşə can atıram – onun heç bir əsgəri belə arzulamır döyüşü, – bunu başqalarından səmimi, hərarətlə arzulayıram. Mənim üçün müharibə oyuncaq deyil, həyatın özüdür. Mən vuruşmaq, öldürmək istəyirəm. Fərqlənmək üçün istəmirəm, döyüş xatirinə istəyirəm. Ətrafımda ölənlərin necə yıxıldığını görmək istəyirəm, ölümü, məhvi görmək istəyirəm. Onlar mənim, əslində, necə olduğumu heç təsəvvür etmirlər. İndi, ruhumun döyüş meydanına can atdığı bir zamanda ona şərab verməliyəm, qulluq göstərməliyəm, ayağımı çadırdan bir addım belə kənara qoymamalıyam. Mən daim yalnız tamaşaçıyam, mən bütün düşüncələrimin yönəldiyi bir işi başqalarının necə elədiyinə baxmaq məcburiyyətindəyəm – özümə isə döyüşdə iştirak üçün icazə verilməyib. Dözülməz bir həqarət. İndiyədək bircə nəfər belə

öldürməmişəm! Kaş biləydi ki, əlimdən bu imkanı almaqla mənə necə əzab vermiş olur.

Odur ki, həqiqətən, xoşbəxtəm deyəndə, tam səmimi deyiləm.

Təbii ki, mənim döyüşə can atmağımı başqaları da görür. Lakin hersoqdan fərqli olaraq, onlar bilmirlər ki, bu məsələ mənim üçün nə qədər ciddidir. Onlar, sadəcə, görürlər ki, mən əynimdə zireh, yanımda şpaqa gəzirəm, təəccüblənirlər. Onların mənim bu yürüşdə oynadığım rol haqqında fikirlərinə tam biganəyəm.

Hersoqun indiki çevrəsinə girənlərin əksəriyyətini, təbii ki, yaxşı tanıyıram. Hamısı onun əyanları və qəsrimizin daimi qonaqlarıdır, əsrlər boyu müharibələrdə fərqlənmiş qədim nəsillərin nümayəndələridir, bir də ki təkcə özlərinin yüksək mövqeyinə görə qoşuna başçılıq edən ali rütbəli məmurlardır. İndiki sərkərdələrin hamısı çoxdan və gözəl tanışdır mənə, elə onlar məni tanıyan kimi. Hersoqla bir yerdə onlar da kampaniyanın gedişini idarə edirlər. Deməliyəm ki, onu, həqiqətən, cəmiyyətin seçilmişləri əhatə edir – ölkənin hərbi aristokratiyasının ən parlaq nümayəndələri.

Məni əsəbiləşdirir ki, yürüşdə don Rikkardo da iştirak edir. Bu gopçu və özündənrazı harada aşdırsa, orada da başdır (hersoqun böyründən heç qopmur), özünün hamını əyləndirən həmişəki sarsaq zarafatları ilə. Yanağında plebey qırmızılığı, hər şey ona gülməli gəldiyindən, daim ağartdığı iri, ağ dişləri var – çox adi bir şəxsdir! Təkcə saçlarını geriyə atması və balaca, qıvrım saqqalını barmaqlarının arasında özündənrazı bir görkəmlə oynatması bəs eləyər. Anlamıram ki, onun burada olmasına hersoq necə dözür!

Nəhayət tamamilə anlaşılmazdır ki, bu köklü plebeydə cəlbedici nə tapıb hersoq. Əslində, bunun mənə bir dəxli yoxdur. Bu məni, sadəcə olaraq, maraqlandırmır.

Hərdən onun cəsurluğu barədə söz-söhbətlər eşidirəm və qətiyyən aydın olmur ki, bunu deyərkən nəyi nəzərdə tuturlar.

Azından, elə mən özüm anlamıram. Başqaları ilə bir yerdə çay kənarındakı döyüşdə iştirak edib, amma onun nəyləsə fərqlənə bildiyinə heç inanmıram. Məsələn, mən heç onu görmədim. Görünür, bunu özü deyir və başqaları da diqqətlə qulaq asanda maraqdan düz ağzının içinə girirlərsə, onları inandırmağa nə var ki. Şəxsən mən onun nəsə bir cəsurluq göstərdiyinə heç inanmıram. Dözülməz gopçudur o, vəssalam. Cəsur! Adamın lap qıdığı gəlir!

Bax, hersoq, həqiqətən, cəsurdur. Qızğın döyüş haradadırsa, o da qar kimi ağappaq atının belində elə oradadır; dəbilqəsinin rəngbərəng lələyi onu döyüşün ən gərgin yerində seçməyə imkan verir və düşmən istəsə, onunla lap üzbəüz vuruşa bilər, o, həyatını hər dəqiqə təhlükəyə atır. Əlbəyaxa döyüşü elə onun əlbəyaxalığına görə sevir, kənardan o dəqiqə görünür, yəqin, məst olur belə döyüşdən. Bokkarossa da, təbii ki, cəsurdur. Amma düzünü desəm, onun barəsində danışanda bu ifadə çox zəif görünür adama. Cılız ifadədir, onun döyüş zamanı özünü necə aparması barədə tam təsəvvür yaratmır. Mənə danışırdılar: o, düşmənin üstünə gedəndə, ən sınanmış döyüşçülər belə qorxuya düşürlər. Ən dəhşətlisi isə, deyirlər ki, o, döyüşdən nə qızır, nə məst olur, sadəcə, tam diqqətlə öz işini görür, soyuqqanlılıqla öldürür. Danışırlar ki, tez-tez atdan düşərək vuruşur – yəqin, düşməninə bir az da yaxın olmaq üçün. Görünür, insan qanı axıtmaq, insan bədənini bu üzündən o üzünə kimi deşmək, sadəcə, xoşuna gəlir. Hersoqla qalanlarının döyüşməsi onunkuna baxanda, deyirlər ki, lap uşaq oyununa bənzəyir. Mən özüm görməmişəm, bu məsafədən hər şeyi seçmək olmur, adamların danışdıqlarına əsaslanıram. Onun döyüşünü yaxından görə bilmədiyim üçün nə qədər yanıb-töküldüyümü ifadə etmək iqtidarında deyiləm.

Bax, hersoq kimi, onun kimi insanlar, həqiqətən, cəsurdurlar, hərəsi özünəməxsus bir tərzdə. Amma don Rikkardo! Bu adı onlarınkı ilə yanaşı çəkmək lap gülməlidir.

Bokkarossa – elə özünün muzdluları kimi – deyirlər ki, öz yolunun üstündə hər şeyi kül etmək, talamaq, müflis etmək və xarabazara çevirməkdən xoşlanır. Bu isə, hersoqun fikrinə görə, tamam artıq bir şeydir, heç bir hərbi məqsədəuyğunluğu yoxdur belə əməllərin. Amma onun elə özü də dağıtmağın heç əleyhinə deyil. Lakin Bokkarossa keçən yerdə, deyirlər ki, ancaq xarabazarlıq qalır. Ümumiyyətlə, əgər danışılanlara inansaq, hersoqla kondotyer arasında fikir müxtəlifliyi mövcuddur. Şəxsən mən bu məsələdə Bokkarossanın baxışlarını bəyənirəm. Düşmən torpağı, elə düşmən torpağıdır da, gərək elə buna müvafiq də davranasan. Müharibənin qanunu budur. Qoy buna qəddarlıq desinlər, lakin qəddarlıqla müharibə ayrılmaz məfhumlardır, nə etmək olar. İstədin-istəmədin, kiminlə döyüşürsənsə, onu da məhv etməlisən, ölkəni isə bünövrəsinə kimi viran qoymalısan ki, bir də özünə gələ bilməsin. Arxanda müqavimət ocaqları qoymaq təhlükəlidir, gərək arxayın olasan ki, kürəkdən zərbə almayacaqsan. Yox, Bokkarossa, şəksiz, haqlıdır.

Hersoq hərdən düşmən içində olduğunu bilmərrə unudur. Əhali ilə, mənə belə gəlir ki, heç düzgün davranmır. Məsələn, belə bir hadisəni götürək. Biz axmaq bir dağ kəndindən keçirdik və o ayaq saxladı ki, nəsə bir bayramları vardı, ona tamaşa eləsin. Dayanıb, onların necə tütək çalmasına diqqətlə qulaq asırdı, elə bil, nəsə bir qiymətli musiqi idi və onu dinləmək üçün vaxt itirməyə dəyərdi. Başa düşmürəm ki, orada zövq almalı nə vardı. Bu yarımvəhşilərlə söhbət eləməyə niyə həvəs göstərirdi? Şəxsən mən bunu heç anlamıram. Elə bayramın özü də çox sarsaq bir şey idi – adı, gərək ki, məhsul bayramı idi, ya da nəsə ona bənzər bir şey. Bir hamilə qadın yerə bir az şərab, bir də zeytun yağı tökdü və hamısı həmin yerin ətrafında dövrə vurub əyləşdilər, sonra da başladılar çörəyi, şərabı, keçi südündən özləri düzəltdiyi pendiri bir-birinə ötürə-ötürə yeyb-içməyə. Hersoq da oturub onlarla bir yerdə yeyir, zeytunlarını, eybəcər, yastı pendirlərini tərifləyirdi,

növbəsi çatanda isə köhnə, kirli bardağı ağzına yaxınlaşdırıb hamı kimi şərab içdi. Adam baxanda iyrənirdi. Onu tanıya bilmirdim. Hər dəfə bir şeylə məni daim təəccübləndirir.

O soruşanda ki qadın şərabla yağı niyə yerə tökür, bunun mənası nədir, onlar utancaq-utancaq susdular, guya, bu, nəsə çox mühüm bir sirr imiş və küt kəndçi sifətlərində bic bir təbəssüm peyda oldu. Nəhayət, aydınlaşdıra bildik ki, torpağın gələn il bol üzüm və zeytun gətirməsi üçün belə edirlər. Lap gülməlidir. Guya, torpaq başa düşməlidir ki, ona şərabla yağ töküblər və tökəndə nə arzulayıblar. "Biz həmişə ilin bu çağında belə eləyirik", – dedilər. Uzun, pırtlaşıq saqqallı, deyəsən, şərabdan babat vurmuş bir qoca isə hersoqa yaxınlaşıb düz gözünün içinə baxaraq məhrəmanə bir tərzdə dedi: "Atalarımız belə eləyib, biz də onların adətini yaşatmalıyıq".

Sonra isə hamısı – həm qocalar, həm cavanlar, hətta bir ayağı gorda olan həmin o qoca özü də – özlərinin nataraz kəndçi rəqslərinə başladılar. Musiqiçilər isə əldəqayırma çoban tütəklərində çalırdılar, onlardan cəmi iki-üç səs çıxarmaq olurdu, ona görə də elə eyni şey alınırdı. Bilmirəm, hersoqun dünyanın ən adi musiqisinə qulaq asmağa haradan həvəsi vardı. Lakin o da, don Rikkardo da – o da bizimlə idi, qopan deyildi – müharibə getdiyini, ətraflarında düşmənlərin olduğunu tamam unudub, əyləşdikləri yerdə eləcə dinləyirdilər. Bu yarımvəhşilər öz uzunçu, cansıxıcı mahnılarına başlayanda daha oradan heç qopa bilmədilər. Beləcə, şər qovuşana kimi oturdular. Sonra da, nəhayət, anladılar ki, gecəgözü dağlarda qalmaq təhlükəsiz deyil.

Düşərgəyə dönəndə bir-birlərinə: "Nə gözəl axşamdır" – deməkdən yorulmurdular. Hissiyyata qapılaraq ah-uf etməkdə mahir olan don Rikkardo isə buraların təbii gözəlliklərindən pafoslu ifadələrlə dəm vurmağa başladı, hərçənd ki, burada xüsusi bir gözəllik yox idi, arabir də ayaq saxlayıb tütək, mahnı səslərinə qulaq asırdı; həmin o dağların başında itmiş, kirli, sarsaq, qotur kənddən musiqi sədaları hələ xeyli müddət eşidildi.

Elə həmin axşam da düşərgədən iki pozğun qadın götürüb hersoqun çadırına gəldi; qadınlar şəhərdən çıxıb düşmən düşərgəsindən keçərək, kim bilir, necə çatmışdılar bura – görünür, qazanmaq ümidilə gəlmişdilər, çünki bizdə bu malın əməlli-başlı qıtlığı vardı. Bundan başqa, qadına düşmənlə yatmaq həmişə daha maraqlıdır – özləri deyirdilər bunu. Əvvəlcə hersoq çox narahat oldu, görkəmindən bəlliydi və mən heç şübhə etmirdim ki, bu dəqiqə əsəbiləşib fahişələri qovacaq, don Rikkardonu isə görünməmiş həyasızlığa görə nümayişkaranə şəkildə cəzalandıracaq, amma mənim sonsuz təəccübümə səbəb o oldu ki, hersoq qəflətən şaqqanaq çəkib qadınlardan birini dizinin üstünə oturtdu və mənə əmr etdi, ən incə çaxırımızı gətirim. Mən o gecə elə şeylər gördüm ki, indiyə qədər özümə gələ bilmirəm. Nə desən, verərdim ki, onların gecə orgiyası zamanı içəridə olmayım: indi isə yaddaşımdakı ürəkbulandırıcı səhnələrdən qurtara bilmirəm.

Cəbhə xəttini necə keçmişdilər! Heç aydın deyildi. Əşi, qadınlar, ələlxüsus da bu növ qadınlar, siçovul kimi bir şeydirlər, onlar üçün heç bir maneə yoxdur, haranı desən, gəmirib yol açarlar özlərinə. Mən elə hazırlaşırdım ki, öz çadırıma gedib yatım, amma onlara qulluq etmək üçün qalası oldum – özü də yalnız öz sahibimə və don Rikkardoya yox, həm də bu ənlik-kirşanlı, yüz addımlıqdan Venesiya məlhəmi, qızmış, tərli arvad bədəninin iyini verən qadınlara. Bütün vücudumu çulğayan nifrətimi heç cür izhar edə bilmirəm.

Don Rikkardo qadınların, xüsusilə də onlardan birinin gözəlliyinə heyranlığını bildirirdi, gözlərinə, saçlarına, ayaqlarına – dedikcə də onları bir-bir hersoqa göstərirdi (heç olmasa, qadın dayandıraydı bu abırsızı!), sonra da o biri qadına tərəf çönüb onu da eyni gəlişigözəl sözlərlə tərifləməyə başladı ki, inciməsin. "Bütün qadınlar gözəldir! – deyirdi. – Həyatın bütün heyranedici gözəlliyi onlarda cəmləşib! Lakin hamısından gözəli isə kurtizankalardır: bütün ömrünü məhəbbətə həsr eləyən, ona bircə an belə xəyanət etməyən kurtizankalar!"

Özünü dəhşətli dərəcədə sarsaq və bayağı aparırdı, düzdür, mən onu həmişə kişilərin ən bayağısı və ən səfehi saymışam, amma onun bu dərəcədə gülməli və küt olduğunu güman etməzdim.

Onlar çox içirdilər və çaxır yavaş-yavaş öz təsirini göstərirdi, don Rikkardo, təbii ki, tamam duyğulandı, məhəbbətdən danışmağa başlayaraq, sözünü şeirlə bitirdi, şeir də lap darıxdırıcı idi, Laura adlı birisindən məhəbbət sonetləri, – bu gicəsula qadınların lap gözləri də yaşardı. O, başını onlardan birinin dizi üstünə qoydu, hersoq da o birisinin, fahişələr isə bu boşboğazlıqlara qulaq asa-asa onların saçlarını nəvazişlə sığallayaraq, dalbadal köks ötürürdülər. Don Rikkardonunku həmin o qəşəngi idi və mən fikir verdim ki, səfeh qadınlar onun dediyi və elədiyinə heyranlıqlarını bildirərək, ah-uf edəndə hersoq Rikkardoya necə qəribə, diqqətli nəzərlərlə baxırdı. Qadınlar həmişə sadə, əhəmiyyətsiz kişilərə üstünlük verirlər, çünki bu cür kişilərlə onların bənzərlikləri daha çoxdur.

Lakin don Rikkardo qəflətən yerindən sıçrayıb dedi ki, bəsdir, göz yaşlarıyla dolu məhəbbət heyranlığı kifayət edər, içək, şənlənək! Sonra burada əsil orgiya başlandı: sərxoşluq, zarafatlar, hırıltı, lətifələr o qədər abırsız idi ki, təkrarlaya bilmərəm. İçki məclisinin ən şirin yerində hersoq badəsini qaldırıb don Rikkardonun şərəfinə içərək qışqırdı: “Sabahkı döyüşdə mənim bayraqdarım sən olacaqsan!” Don Rikkardo gözlənilməz şərəfdən vəcdə gəldi, gözləri parıldadı. “Ümidvaram, möhkəm döyüş olacaq!” – deyə özünü göstərərək qışqırdı ki, qadınlar onun cəsurluğunu layiqincə qiymətləndirə bilsinlər. “Əvvəlcədən bilmək olmaz, amma mümkündür”, – hersoq cavab verdi. Sonra burada da don Rikkardo onun əlindən tutub ehtiramla, nəcib bir tərzdə öpdü, sanki, cəngavər öz süzereninin əlini öpürdü. “Mənim mehriban hersoqum, içki məclisinin şadyanalığında verdiyin sözü unutma!” – “Arxayın ol. Mən unutmaram”.

Fahişələr, görünür ki, bu səhnəyə valeh olmuşdular, hər ikisini gözləriylə yeyirdilər. Xüsusilə də, təbii ki, döyüşdə bayraq aparacaq şəxsi.

Bu səhnəcik bitəndən sonra isə abırsız orgiya davam etdi, onlar özlərini getdikcə daha pozğun, daha həyasız aparırdılar, zorən şahidə çevrilmiş mən yazıq isə utanır, onlara tamaşa etməkdən iyrənirdim. Onlar aşkar və həyasız şəhvətlərindən çox murdar bir şəkildə qızaraq qucaqlaşıb öpüşürdülər. Təsvirəgəlməz murdarlıq! Hərçənd ki, qadınlar özlərini müqavimət göstərirmiş kimi aparırdılar, kişilər onları qurşağa kimi soyundurdular, döşlərini açıqda qoydular və həmin o qəşənginin döşünün giləleri çəhrayı idi, birinin düz yanında xalı da vardı, o qədər də iri deyildi, amma, hər halda, gözəgirən idi. Şərab süzəndə, onun bədənindən gələn qoxu ürəyimi bulandırdı. Ondan da səhərlər, hələ yataqdan qalxmamış hersoginyadan gələn iy gəlirdi, amma hersoginyaya heç vaxt belə yaxınlaşmamışdım. Don Rikkardo onun döşlərindən yapışanda, içimdə bu pozğun adama qarşı elə bir nifrət baş qaldırdı ki, onu boğmağa, ya da elə yerindəcə xəncərlə deşməyə hazır idim ki, şəhvət dolu qanı axıb qurtarsın və bir də heç bir qadına toxuna bilməsin. İyrənməkdən əsərək, bir kənarda durub fikirləşirdim: gör adamlar necə murdar məxluqdurlar. Qoy onların hamısı cəhənnəm odunda yansın!

İstər-istəməz qadınların qəşəngi ilə məşğul olan – qadın özü qəmiş olmuşdu ona, yaxasından əl çəkmirdi – don Rikkardonun ağlına axırda növbəti sarsaq ideya gəldi, gözəlçənin taleyini qoy zərlər həll etsin: yəni kim udsa, o da yiyələnəcək. İdeya hamının xoşuna gəldi, hersoqun da, qadınların da; barəsində söhbət gedən qadın isə yarıçılpaq vəziyyətdə oturacağa sərilərək qarşıdakı yarışmanın kefini ucadan, cır səsli gülüşü ilə dadırdı. Ona baxmaqdan iyrənirdim, başa düşə bilmirdim ki, onda gözəl və cəzbedici nə vardı və bu murdarlıqda mükafata necə can atmaq olar. Sarışın saçlı, bəyaz dərili, iri, mavigözlü və qoltuqlarının altı dəhşətli dərəcədə

tüklü – məncə, bəs deyincə iyrənc idi. Heç vaxt başa düşməmişəm ki, insanların qoltuğunun altında tük nəyə lazımdır, hər dəfə belə şey görəndə dəhşət nifrət eləyirəm, xüsusilə də qoltuqların altı tərli olanda. Biz cırtdanlarda hər şey tamam başqa cürdür və bu iyrəndirir bizi. Mənim başımdan başqa – başda tük, həqiqətən, lazımdır – haramdasa tük olsaydı, xəcalətdən girməyə deşik axtarardım.

Mənə tapşırdılar ki, zərləri gətirim, hersoq birinci atdı, altı ilə bir düşdü. Danışığa əsasən, gözəlçə əlli xalı birinci kim yığdısa, onunku idi. Onlar növbə ilə atırdılar, hər iki qadın isə diqqətlə izləyirdi, yaman maraqlanmışdılar, hərdən də bir-birinə nəsə şit söz deyir, ciyildəyib hırıldaşırdılar. Hersoq uddu və hamısı birdən yerindən sıçrayıb, gülüşərək çığırışdı.

Sonra hər ikisi qadınların üstünə atıldı, hərə özününkünün, paltarlarını çıxarıb elə murdar oyunlar açdılar başlarına ki, özümü unudub çadırdan güllə kimi bayıra çıxdım və o dəqiqə qusmağa başladım. Tamam soyuq tər bürüdü məni, dərim isə tükü yolunmuş qaz dərisinə oxşadı. Tir-tir əsərək, sürünə-sürünə özümü nökərlərin çadırına çatdırdım və aşpazla dözülməz dərəcədə kobud, daim at iyi verən, hər səhər atları təmizləmək üçün yerindən qalxanda məni təpiyi ilə vuran mehtərin arasındakı samanıma uzandım. Niyə vururdu məni, bilmirəm, amma özü deyirdi ki, məni təpikləməkdən xoşu gəlir.

İnsanlar arasındakı məhəbbət mənim üçün anlaşılmaz bir şeydir. Mən ondan yalnız iyrənirəm. Həmin gecə şahidi olduğum hər şey məndə ancaq nifrət oyatdı.

Ola bilər ki, mən tamam başqa cinsin, daha incə, daha həssas, daha nəcib bir cinsin nümayəndəsiyəm deyə, onların vecinə gəlməyən çox şeylərə kəskin reaksiyam olur. Bilmirəm. Onların məhəbbət dediyi şeyi heç vaxt sınamamışam, heç belə bir istəyim də yoxdur. Az da olsa. Bir dəfə mənə bir cırtdan qadın təklif etdilər, mənim kimi qırışlı, zərif sifətində xırda, diqqətli gözləri olan bir gözəl qadın idi – insanlardan xeyli gözəl. Amma o, məndə heç bir hissiyyat oyatmadı, hərçənd ki,

onun gözəlliyində insanlarda olan kimi, xoşagəlməz bir şey yox idi, onun gözəlliyi tamam başqa gözəllik idi. Bəlkə də, səbəb bunda idi ki, onu mənə hersoginya təklif edirdi, o elə bilirdi ki, biz dünyaya onun çox arzuladığı bala cırtdan gətirəcəyik. Bu, hələ Ancelika anadan olmamışdan idi, özünə oyuncaq istəyirdi. Deyirdi ki, körpə cırtdanı olmaq maraqlıdır. Lakin mən ona bu xidməti göstərmək fikrində deyildim, abırsız təkliflə razılaşıb nəslimin adını batıra bilməzdim.

Yeri gəlmişkən, bizim ona cırtdan bağışlayacağımızı düşünəndə artıq səhv edirdi. Biz cırtdanların uşağı olmur, biz təbiətən anadangəlmə sonsuzuq. Biz həyatın davamına xidmət etmirik və bunu heç arzulamırıq da. Nəsil artırmaq bizə lazım deyil, axı cırtdanları adi insanlar gətirir dünyaya. Biz narahat olmaya bilərik. Qoy bizi bu özündənrazı məxluqlar doğsunlar, elə insanı dünyaya gətirəndə çəkdikləri əziyyəti bizim üçün də çəksinlər. Bizim qədim nəslimiz onların səylərinə görə davam edir – biz dünyaya ancaq belə gəlməliyik. Sonsuzluğumuzda dərin məna var. Biz eyni mənşədənik, amma buna rəğmən tamam fərqliyik. Biz yer üzündə qonağıq. Qədim, sifəti qırış-qırış qonaq, minilliklərin qonağı, əbədi qonaq.

Deyəsən, hekayətimdən yaman yayındım. Beləliklə, davam edirəm.

Ertəsi gün səhər don Rikkardo, həqiqətən də, hersoqun bayrağını aparırdı. Bunun niyə və necə baş verdiyi haqqında nələr eşitmədim! Lakin mənim bu barədə şəxsi fikrim var, məsələnin əsl mahiyyətindən şübhələnirəm. Danışırdılar ki, guya, hersoq bu qəribə əmrini verməklə, don Rikkardonun həyatını əlavə təhlükəyə atıb və o, guya, az qalıbmış ki, həlak olsun, yalnız möcüzə nəticəsində sağ qala bilib, çünki düşmən üzərinə özünün kiçik süvari dəstəsi ilə birinci hücum etməyə məcbur olaraq, çox təhlükəli vəziyyətə düşüb. Bir də deyirdilər ki, o, qeyri-adi cəsurluqla döyüşürmüş, bax, buna ömründə inanmaram. Onun yanında lap az süvari qalanda isə, guya, onların hamısı bir nəfər kimi bayrağı dövrəyə

alaraq qətiyyətlə döyüşürmüşlər, baxmayaraq ki, düşmənlə müqayisədə dəryada bir damla qədər imişlər. Sonra hamı bayrağın əldən gedəcəyini düşünəndə döyüşün qızğın nöqtəsinə hersoq atılmışdı – ya bu qədər riskli oyunda iştirak etmək istəyindən, ya da tamam başqa səbəbdən, düzünü pərvərdigar bilir. Başındakı kiçik süvari dəstəsi ilə düşmən səflərinə soxularaq, sağdan-soldan qılınclamağa başlayıb, kömək üçün don Rikkardoya yaxınlaşmağa can atırmışlar. Lakin həmin an hersoqun atı sinəsindən nizə zərbəsi alaraq, yerə yıxılır, hersoq özü isə yəhərdən düz düşmənlərin içinə düşür. Deyirlər ki, yaranmış vəziyyət don Rikkardonu elə qəzəbləndirir ki, o, öz adamları ilə düşmən halqasını yararaq, hersoqun dəstəsindən sağ qalan döyüşçülərin yardımı ilə, kömək gələnə kimi düşmənin ona yaxınlaşmasının qabağını alır. Danışırlar ki, don Rikkardo aldığı çoxsaylı yaralardan qanına qəltan imiş. Şahidlər eyham vururdular ki, anlamışdı hersoqun ona ölüm arzulamasını, lakin buna baxmayaraq, yenə də cəsurluq göstərib ağasının həyatını xilas edir.

Mən bu versiyaya inanmıram. O, mənə çox qeyri-inandırıcı gəlir. Nəhayət, onu yalnız bu səbəbdən sizə çatdırıram ki, həmin səhər baş vermiş dramatik hadisələr barədə məhz bunları danışmışdılar mənə. Əgər mən bu hadisəyə tamam başqa baxış nöqtəsindən nəzər salıramsa, bu yalnız don Rikkardonun xasiyyətinə yaxşı bələd olduğumdandır. Mənim kimi onu heç kəs tanımır. O, bu cür adam deyil.

Bu versiyaya, mənə elə gəlir ki, don Rikkardo barədə hamıda formalaşmış təsəvvürlərdən və onun özünün özü barədə düşüncələrindən ibarət romantik bir bəzək-düzək vurulub. Nəticədə gözəl bir əfsanə yaranıb və artıq heç kim onun həqiqətə nə dərəcədə uyğun olmasının fərqində deyil. Belə düşünürlər ki, bu insan elə cəsarətin özüdür və nə edirsə, nəcibdir, gözəldir, əladır. Bunun səbəbi də yalnız onun özünü gözə soxmaq, hər üsulla diqqəti cəlb etmək bacarığındadır. Onun döyüş meydanında davranışı da elə bütün

hərəkətləri, bütün gördüyü işlər kimi gülməli şöhrətpərəstliyindən qaynaqlanır. Hamını riqqətə gətirən, cəsarət dedikləri düşüncəsizliyi isə sarsaqlıqdan başqa bir şey deyil. Sarsaq düşüncəsizliyi igidlik kimi qələmə verirlər.

Əgər o, həqiqətən də, görünməmiş cəsarət sahibidirsə və özünün dediyi kimi, həyatını daim təhlükəyə atırsa, bəs niyə həlak olmur? Sual öz-özünə yaranır. Heç kəs təəssüflənməzdi buna, ən azından mən qətiyyən məyus olmazdım.

Bu dəfə, guya, çoxlu yara alıbmış. Bunun həqiqət olub-olmamasını bilmirəm, amma icazə verin, şübhə edim. Yəqin, vəziyyəti təhlükəli deyil. Yüngül yaralardır aldığı. Hər halda, həmin gündən bəri onu görmək məcburiyyətindən azad olmuşam.

Əvəzində, mən inanıram ki, o, dəbilqəsində hersoginyanın rənglərini əks etdirən lələklərlə döyüşmək həyasızlığını özündə tapıb, deyirlər ki, biz yürüşə çıxan günün axşamı bu lələkləri qadın özü bağışlayıbmış ona, deməli, lələklər həmin səhər artıq onun dəbilqəsində dalğalanırmış və deməli, o, hamının gözü qabağında, açıq-aşkar qəlbinə məhrəm olan xanımının şərəfinə döyüşdüyünü nümayış etdirirmiş. Hersoqun bayrağını o cür igidliklə qoruyarkən o həm də sevgilisinin uğrunda döyüşürmüş. Hətta hersoqun həyatını xilas edərkən də. Amma elə həmin ərəfədə başqa qadınla qol-boyun olmuşdu. Bəlkə də, elə döyüşə də o qadının yatağından qalxıb, dəbilqəsini sevgilisinin verdiyi – böyük, alovlu məhəbbət rəmzi olan lələklərlə bəzəyib getmişdi. Onun həqiqi məhəbbəti cəngavər dəbilqəsinin açıq niqabının üstündə çiçəklənmişdi, məkrli vücudu isə hələ cinayətkar ehtirasın hərarətini özündə saxlayırdı. Həqiqətən də, insanlar arasındakı sevgi tapmacadır. Qəribə deyil ki, mən bu məhəbbəti dərk edə bilmirəm.

Eyni qadına bağlı olan bu iki kişinin də münasibətləri elə tapmaca kimi bir şeydir. Görəsən, onların arasında gizli bir bağlılıq yoxdur ki? Hərdən mənə elə gəlir ki, var. Görəsən, don Rikkardo, danışdıqları kimi, həqiqətənmi hersoqun həyatını

xilas edib? Düşünmürəm. Amma mümkündür – yalnız şöhrətpərəstliyindən qaynaqlanır onun bu hərəkəti, hersoqa onun ölümünü arzuladığı üçün öz tərzilə, cəngavərcəsinə cavab verirmiş, yəqin hamıya göstərmək istəyirmiş ki, görün mən necə müstəsna dərəcədə nəcib insanam. Bax bu, dəqiq onun ruhundadır. Həqiqətən, inandırmaq istədikləri kimi, hersoq don Rikkardonun həyatını xilas etmək üçün irəli atılaraq, onu ölüm təhlükəsindən qurtarıbmı – axı elə indicə həlak olmasını arzulayırdı? Bilmirəm. Mənə bunlar qətiyyən aydın deyil. Axı insan, eyni zamanda həm sevə, həm də nifrət eləyə bilərmi?

Onun həmin gecədəki qəribə, diqqətli baxışlarını xatırladım – bu baxışlar ölüm müjdəçisi idi. Lakin mən həm də don Rikkardo böyük, dərkedilməz, bizi öz alovu ilə yandıran, bütün vücudumuzu külə döndərən məhəbbət haqqında şeirlərini oxuyanda hersoqun xəyalpərəst, nəmli gözlərini xatırlayıram. Bəlkə, məhəbbət elə müəyyən məzmunu olmayan, avazla oxunduğundan sadəcə qulağa xoş gələn qəşəng şeirlərdir? Bilmirəm. Amma istisna etmək olmaz. Adamlar da saxta pul kəsənlər kimidirlər.

Məni həmin o gecə fahişə qadınla münasibəti də mat qoyub. Həmişə fikirləşirdim ki, hersoq heç vaxt belə alçala bilməz. Əşi, mənə nə var e-e. Onun mənim təsəvvür etdiyim kimi olmamasına artıq öyrəşmişəm. Ertəsi gün bu hadisə barədə nökərlərdən birinə ehtiyatlı ifadələrlə danışaraq, heyrətimi bildirdim. O isə qəti təəccüblənmədi. Hersoqun həmişə saray xanımları, şəhərli qadınlar, bəzən də məşhur kurtizanlar arasından sevgililəri olub, hal-hazırda onun istəklisi hersoginyanın bir damicellasıdır (saray xanımı) – Fyametta, Hersoq sevgililərini əlcək kimi dəyişir, – deyə gülərək mənim məlumatsızlığıma təəccüb etdi.

Qəribədir ki, bu boyda şey mənim fövqəladə diqqətli, sirayətedici gözlərimdən yayına bilib. Gör hersoqa qeyd-şərtsiz pərəstişim məni necə kor qoyub.

Onun hersoginyaya xəyanəti məni narahat etmir. Bu qadına nifrət bəsləyirəm və onun aldadılmasına hətta sevinirəm də. Özü də o, don Rikkardonu sevir axı. Sinəmdə gizləməyə məcbur olduğum, qaynar məhəbbət sözləriylə dolu məktubları da ona yox, don Rikkardoya yazır. Ürəkdən inanıram ki, onu nə vaxtsa vurub öldürəcəklər.

Yağış, Tanrıya şükürlər olsun ki, kəsdi. Bu gün biz çadırlardan çıxanda günəş möhkəm parlayırdı, dağların silueti dəqiq görünürdü, hərçənd ki, bütün ətrafa hələ rütubət hopmuşdu, hər yerdə gölməçələr, qıjıltıyla axan sular vardı. Adamın əhvalını fövqəladə yüksəldən bir səhər idi. Göy üzü təmizlənmişdi, gözlərimiz qarşısında təpənin üstündə yüksələn quldur şəhəri Montansa açılırdı; biz artıq onun görkəmini də unutmuşduq, indi isə qala divarlarının arxasındakı hər ev, qədim qüllələrin hər mazğalı – bir sözlə, kilsələrin və zəng qüllələrinin başındakı qızıl suyuna çəkilmiş xaçlara qədər hər şey yağışdan sonra xüsusilə aydın görünürdü. Bu lənətə gəlmiş şəhərin alınacağı və nəhayət ki, yer üzündən silinəcəyi gün uzaqda deyil.

Çölə çıxıb təmiz havada bədənini açdığına hamı sevinirdi, yaxşı hava adamı oyadır, hərbi əhvali-ruhiyyəni qaldırır. Darıxmaq, biganəlik, elə bil, küləklə sovrulmuşdu. Hamı döyüşə can atırdı. Mən ordunun döyüş ruhuna yağışın öldürücü təsir göstərdiyini güman edəndə böyük səhvə yol vermişdim. Görünür, yağış döyüş ruhunu zamanı yetişənə qədər bir az kütləşdirirmiş.

Düşərgəmizdə həyat qaynayır. Əsgərlər danışıb gülə-gülə silahlarını təmizləyirlər, nökərlər cəngavər zirehlərini par-par yanana kimi sürtürlər, atları zeytunlu təpələr arasından yağışdan sonra qıjıltı ilə addımbaşı axan kiçik çaylarda çimdirməyə aparırlar, hamı və hər şey qarşıdakı döyüşə hazırlanır. Düşərgə əvvəlki görünüşünü qaytarıb, müharibə isə özünün rəngarəngliyini və bayramsayağılığını; bu sima

ona, heç şübhəsiz, daha çox yaraşır. Rəngbərəng əsgər mundirləri, dəbdəbəli gümüş yəhər-qayışlar günəş altında parlayaraq bərq vurur.

Mən durub şəhəri – yürüşümüzün son mənzilini bir xeyli nəzərdən keçirdim.

Zahirən güclü istehkamlarla möhkəmləndirilmişə oxşayırdı, onun divarları və qala qurğuları hətta alınmaz kimi görünürdü. Lakin onu alacağıq və bu işdə bizə messir Bernardonun böyük köməyi dəyəcək. Onun yeni taranlarını və daşatan maşınlarını, bic mühasirə qurğularını və dəhşətli, nəhəng bombardalarını görmüşəm. Dünyanın heç bir qalası onların qarşısında davam gətirə bilməz. Biz istənilən maneədən keçəcəyik, uçurub-dağıdacağıq, o da alınmayanda, həmin axşam özünün dediyi kimi, lağım atıb divarın bir parçasına mina qoyaraq, sadəcə, partladacağıq, bütün ağlabatan vasitələrlə döyüşəcəyik, bu dahinin bizim üçün ixtira etdiyi hər şeydən istifadə edəcəyik və ətrafımıza ölüm və dağıntılar səpərək şəhərə, onun küçələrinə soxulacağıq. Şəhər yandırılacaq, talanacaq, yer üzündən silinəcək. Daş üstə daş qalmayacaq. Sonra onun əhalisi, bu qaçaq-quldur layiqli cəzalarını alaraq, ya məhv ediləcək, ya da əsir götürüləcək, Montansanın keçmiş əzəmətinə yalnız böyük, tüstülənən xarabazarlıq dəlalət edəcək. Mən inanıram ki, hersoq özünün sərt əliylə qan düşmənini məhv edəcək. O ki qaldı Bokkarossanın muzdlularına – onların azğınlığını təsəvvürə gətirmək belə dəhşətlidir. Bu, bizim son və qəti qələbəmiz olacaq.

Amma əvvəlcə yolumuzun üstündəki, şəhərlə bizim aramızda qərar tutan qoşunları süpürləməliyik. Onların sayının əhəmiyyətli dərəcədə artdığını görmək çətin deyil – bunu mən də təxmin edirdim. Bəziləri deyir ki, bu çox əzəmətli qoşun elə bizimki boydadır, sayı Bokkarossanın qüvvələri ilə bir yerdə bütün bizim qoşunların sayından az olmaz. Şişirtmədir. Düzdür, onlar əvvəlkindən xeyli böyük ərazini tutublar, amma ona əzəmətli demək düşmənin gücünə layiq olduğundan

artıq qiymət verməkdir. Hersoq onları ilk dəfə görəndə əvvəlcə qaşları çatıldı, amma elə o dəqiqə də qarşıdakı döyüş barədə fikirdən, nəhayət ki, insanı şövqə gətirən son və həlledici çarpışmaya girə bilmək imkanından ilhamlanaraq şad oldu. Bax buna deyərəm əsl döyüşçü! O, bir dəqiqəlik belə olsa, qələbəmizə şübhə etmir, mənə məlum olduğu qədər, heç sərkərdələrimiz arasında da buna şübhə ilə yanaşan yoxdur.

Şəhərə hücumun iştirakçısı olmaq, yəqin, əla şeydir. İndiyə kimi bu, mənə bir dəfə də qismət olmayıb.

Mən qəsrimizin sol qülləsindəki yataq otağımda, adətən, yazı-pozu etdiyim guşədəyəm. Bu alçaq, mənim üçün çox rahat olan masanın arxasında iştirakçısı olduğum o əlamətdar və taleyüklü hadisələrin təsvirinə davam edirəm. Necə olub ki, mən yenə evimizə dönmüşəm? Bunun çox bəsit bir izahı var.

Biz döyüşdə qələbə çaldıq. Amma heç şübhəmiz yox idi ki, əhəmiyyətli itkilər bahasına belə olsa, mütləq qələbə çalacağıq. Ölənlər həm o, həm də bu tərəfdən kifayət qədər idi, amma düşmən tərəfdən daha çox olardı. İndi, təbii ki, bizə nəsə bir ciddi müqavimət göstərmək çətin olacaq. Lakin təkrar edirəm ki, bu döyüş bizim üçün də qanlı-qadalı oldu. Xüsusilə də, döyüşün ikinci günü. Amma əsgərlər elə bunun üçündür də. Elə bir dəhşətli şey də olmayıb, adamlar boş-boş danışırlar özləri üçün.

Biz indi ona görə evdəyik ki, hersoq müharibəni tam qələbə ilə başa çatdırmaq məqsədilə geri dönərək güc toplamaq məcburiyyətində qaldı. Sonra bundan başqa, eşitmişəm ki, bu məqsədə çatmaq üçün zəruri olan ehtiyat maliyyə vəsaitləri də olmalıdır. Belə bir kampaniyaya, təbii ki, böyük vəsaitlər tələb olunur. Deyirlər ki, hersoq Venesiya tacirləriylə danışıqlar aparır. Bu alverçilərdə bizə lazım olan mal zibil kimidir və bu məsələ, deyilənə görə, lap yaxınlarda həllini tapacaq. Bundan sonra isə ara vermədən yürüşə çıxacağıq.

Deyirlər ki, Bokkarossa və onun muzdluları paylarının artırılmasını tələb ediblər, bundan savayı, onlar elə hesab edirlər ki, əvvəlki razılaşmadan paylarına düşəsi məbləği də tam almayıblar. Bu səbəbdən də indi bizimkilər üçün xeyli problem yaradırlar. Mən etiraf edim ki, onların müharibənin bu tərəfinə belə əhəmiyyət vermələrini heç gözləməzdim, axı heç kəs onlar kimi cəsur və qorxmaz vuruşmurdu. Elə fikirləşirdim ki, onlar müharibəni elə müharibə xatirinə sevirlər, məsələn, mənim kimi. Lakin belə qərəzsizliyi hamıdan ummaq da olmaz yəqin. Onların pul istəməkləri tamamilə təbiidir. Odur ki, paylarına düşəni alacaqlar.

Bir də hersoqla kondotyer arasındakı fikir ayrılıqlarından söz açırlar – o qədər boş-boş şeylər eşidir ki adam. Qoşunlar itki verəndə və işlər rəvan getməyəndə adamlar, adətən, ruh düşkünlüyünə düçar olurlar. İşin nəticəsindən hamı narazı qalır, hamı bir-birini ittiham edir, yorğunluqdan şikayətlənir, özünün və düşmənlərinin itkilərini saymağa başlayır və sairə və ilaxır. Bokkarossanın muzdluları isə əla, lap quduz kimi vuruşsalar da, çox mümkündür ki, bunu hersoqun gələcəyə yönələn planlarının gerçəkləşməsi naminə eləmirlər, böyük ehtimalla, onların beynindəki tamam başqa şeylərdir. Amma bütün bunlar xırda məsələlərdir. Tam əhəmiyyətsiz və keçici.

Əşi, belə məsələlər mənim üçün qətiyyən maraqlı deyil, o ki qalmış müharibə kimi bir işdə bayağı pul məsələləri ola və ona görə də bu barədə geniş söhbət açmaq fikrim yoxdur.

Evdə oturmaq ay darıxdırıcıdır ha! Birbaşa döyüş meydanından gəlmiş bir adam üçün buradakı həyat son dərəcə boş, yeknəsəqdir. Zaman dartıla-dartıla uzanıb gedir, bilmirsən ki, başını nə ilə qatasan, bütün həyat, sanki, iflic olur. Amma bu günlərdə hər şey öz həllini tapmalıdır. Tezliklə, yenə də yürüşə.

Buranın sakinlərinə adamın gülməyi gəlir baxanda, mən nökərləri və müharibədə iştirak etməyən başqalarını nəzərdə

tuturam. Onlar, sanki, tamam fərqli aləmdə yaşayırlar; elə bil, ölkənin müharibə vəziyyətində olmasından belə bixəbərdirlər. Mənim zirehli paltarıma baxanda, ağızları açıla qalır, guya, bilmirlər ki, döyüş meydanında həmişə belə geyinirlər – yoxsa, heç ağzını açmağa da macal tapmamış düşmənin qənimətinə çevrilərsən, özünü məhv edərsən. Onlar deyirlər ki, döyüşü anladıq, amma burada axı heç bir təhlükə yoxdur. Düzdür, amma müharibə də bitməyib hələ. Mən tezliklə yenə yürüşə çıxacağam. Hersoqun yürüş əmrini hər dəqiqə gözləmək olar, bunun üçün də tam hərbi hazırlıq vəziyyətində olmaq gərəkdir. Mən buna görə zirehli paltarı çıxarmıram. Əşi, onları anlatmaq mümkündür məgər?

Özləri müharibədə olmadıqlarından bunu, təbii ki, heç cür təsəvvür edə bilməzlər. Yürüş həyatını, onun bütün təhlükələrilə bir yerdə, təxmini də olsa, təsvir etməyə çalışanda sənə sarsaq kimi inamsız nəzərlərlə baxırlar, amma eyni zamanda, həsədlərini də gizlədə bilmirlər. Bütün görkəmləri ilə demək istəyirlər ki, bu işlərin sənə ki bir dəxli yoxdur, sən ki bunları yaşamamısan, haqqında danışdığın döyüşlərin heç birində az və ya çox dərəcədə əməli fəaliyyətin qətiyyən olmayıb. Bu fikirlərin onların içindəki adi paxıllıq hissindən doğduğunu anlamaq çətin deyil. Yaşamamışam! Onlar bilmirlər ki, şpaqamın tiyəsində son qəddar döyüşün qanlı izi hələ durur. Mən onu göstərmirəm, çünki, adətən, müharibə zamanı çiçəklənən, məsələn, elə don Rikkardonun özünə də aid olan əsgər gopçuluğu ilə heç aram yoxdur. Mən yalnız şpaqamın qəbzəsini bir az da bərk sıxaraq, arxamı onlara çevirirəm.

Hadisə isə belə olmuşdu. Son ikigünlük döyüşümüz zamanı bizim qarşımızda sağ cinahla şəhər arasındakı yüksəkliyi tutmaq vəzifəsi dururdu və biz bunu həyata keçirdik. Amma bu əməliyyat ucuz başa gəlmədi. Əvəzində, vəziyyətimizi xeyli dərəcədə yaxşılaşdırdı. Hersoq o dəqiqə yüksəkliyin bizə verdiyi üstünlükləri qiymətləndirmək üçün ora yollandı. Mən də, təbii ki, onunla getdim. Yüksəkliyin lap

təpəsində Lodovikonun şəhərkənarı qəsri yerləşirdi. Qeyd etmək lazımdır ki, yerini yaxşı seçmişdilər, sərv və ərik ağacları ilə əhatə olunmuş qəsr çox gözəl görünürdü. Bir neçə əsgərlə mən getdik ki, görək qəsrdə bizə xoşagəlməz sürpriz düzəldib üstümüzə qəfil hücum edərək, hersoqun həyatı üçün təhlükə yarada biləcək düşmən gizlənməyib ki. Qəsr bomboş idi, bir neçə qocalıb, əldən düşmüş və görünür, elə bu səbəbdən geri çəkilərkən özləri ilə aparmadıqları nökərlərdən savayı, kimsə yox idi – hersoq onların işini bitirməyə icazə vermədi. Mən də vaxt var ikən zirzəmiyə endim, onu nəzərdən keçirmək heç kimin ağlına gəlməmişdi, hərçənd ki, bundan gözəl sığınacaq tapa bilməzdin. Orada gözlənilmədən bir cırtdan gördüm – Lodoviko öz sarayında çoxlu cırtdan saxlayırdı – yəqin, onu da geri çəkilərkən atmışdılar, amma bilmədim niyə. O, dəhşətli dərəcədə qorxdu və yarıqaranlıq yan keçidə üz qoydu. Qışqırdım: "Dayan!" Amma o, qışqırtıma əhəmiyyət vermədi, bundan özüm üçün elə nəticə çıxardım ki, deməli, bu cırtdanın vicdanı təmiz deyil. Onun silahlı olub-olmamasını bilmirdim və elə buna görə də dolaşıq yeraltı keçidlərdə onu təqib etməyim həyəcanlı, riskli bir iş idi. Nəhayət ki, o, bayıra çıxışı olan bir otağa sivişdi, yəqin, çıxıb qaçmaq istəyirdi, amma qapını açmağa macal tapmadı, özümü yetirdim. O, şikayətlə ciyildədi, ilişdiyini dərk edirdi. Onu siçovul kimi divarların dibi ilə qovaladım, bilirdim ki, əlimdən qurtarası deyil daha. Axırda birtəhər küncə sıxışdırdım – artıq o, mənim idi! Şpaqamı onun qarnına itələdim, çox asan dəlib keçdi. Əynində döyüşçüyə aid zireh-zad da yox idi, gülməli mavi, məxmər kamzol geymişdi, yaxalığında krujeva-zad vardı, lap balaca uşaq kimi. Onu elə yıxıldığı yerdə qoyub, gündüz işığına və döyüşə qayıtdım.

Bu barədə ona görə danışmadım ki, həmin hərəkətimi qəhrəmanlıq saymıram. Adi bir hadisədir, müharibə üçün adi. Bununla qürrələnmək istəmirəm. Mən öz əsgər borcumu yerinə yetirdim – vəssalam. Bu barədə heç kəs bilmir, nə

hersoq, nə də başqa birisi. Heç kəsin ağlına da gəlmir ki, mənim şpaqam düşmən qanından qıpqırmızıdır və mən o qanlı izi silmirəm – yürüşdə iştirakımdan yadigar saxlayıram.

Bir az təəssüf edirəm ki, məhz cırtdanla rastlaşdım, daha yaxşı olardı ki, çox nifrət bəslədiyim adamlardan kiminləsə üzləşim. Həm də döyüşümüz daha maraqlı olardı. Amma mənim elə öz xalqımı da görən gözüm yoxdur, cırtdanlara da nifrət edirəm. Bu döyüşdə, ələlxüsus da ölümcül zərbəni endirəndə qəribə bir ekstaza düşdüm, sanki, bir dini ayin icra edirdim. Buna bənzər hissi İosofatı boğanda keçirmişdim – özümə bənzərləri qırmaq yanğısı. Niyə, nə üçün? Bilmirəm. Özüm özümü anlamıram. Yəni hətta özümə bənzəyənlərin də məhvini arzulamağa məhkumam?

Onun da, bütün cırtdanlar kimi, cırıltılı xədim səsi vardı, xədim səsi məni yaman özümdən çıxardı. Öz səsim bəmdir, möhkəm çıxır.

Nifrətəlayiq, miskin xalq.

Onlar niyə mənim kimi deyillər!

Bu gün səhər hersoginya mənimlə məhəbbətdən danışmağa cəhd elədi. Nəsə ağlaşma qurmaq əhvali-ruhiyyəsindəydi, bilmirəm niyə. Ümumiyyətlə, onun ağlamasına səbəb şəksiz ki, var, əgər bilsəydi ki, nə qədər səbəb var bunun üçün! Sonra birdən söhbətinin ahəngini bir anda dəyişdi – onun əhvalı ani dəyişən şeydir – və başladı zarafatla danışmağa. Kameristka[1] onun saçlarını düzəldənə kimi, güzgü qabağında oturub zarafatı ciddiyə qataraq çalışırdı ki, məni yersiz və xoşagəlməz saydığım bu söhbətə çəksin. Hər bir vəchlə boyun qaçırırdım. Amma o da əl çəkmirdi. Yəni heç vaxt eşq macərası yaşamamışam? "Yox, elə bir şey olmayıb", – deyə qaşqabağımı sallayıb cavab verirdim. O təəccüblənir, inanmaq istəmirdi. Yenə yaxamdan əl çəkmədi. Nəhayət, bu söhbəti kəsmək üçün dedim ki, əgər nə vaxtsa sevsəm, kişi sevərəm.

---

[1] *Kameristka* – qulluqçu qadın

O, üzünü mənə tərəf çevirib abırsızcasına qəhqəhə çəkdi, dalınca da kameristkası. “Kişi!” – istehzalı bir nida etdi, guya, bunda maraqlı nəsə vardı, – “Kişi? Konkret kimi? Bokkarossa deyil ki”? Sonra onların hər ikisi yenə gülüşdü. Mən qızardım, çünki elə onu nəzərdə tuturdum. Mənim qızardığımı görən kimi lap şənləndilər.

Başa düşə bilmirdim ki, burada gülməli nə var. Onlara buz kimi, nifrət dolu nəzərlərlə baxırdım. Gülmək, məncə, eybəcər, biabırçı bir şeydir. Adamın ağzı birdən aralanıb qırmızı damağı görünəndə təsəvvürəgəlməz dərəcədə zəhləm gedir. Mən neyləyə bilərəm ki, Bokkarossa məndə ən səmimi qürur hissi oyadır, elə bir hiss ki, onda müəyyən yanğı rüşeymi də var. Mənim gözümdə o əsl kişidir.

Xüsusilə də o murdar qulluqçunun hırıltısı, özü də sahibəsinin gülüşündən xeyli abırsız hırıltısı məni özümdən çıxardı. Mən hələ hersoginyanın zarafatı ilə birtəhər barışaram, hərçənd ki, mənimlə bu mövzuda zarafat etmək həvəsini burnundan gətirə bilərdim, onun sualına elə cavab verərdim ki, lap dəhşətə gələrdi, mən onun gözlərini bu “məhəbbətə” açardım. Yenə buna, bir də təkrar edirəm, birtəhər dözə bilərəm – necə olsa, mənim sahibəmdir, hersoq nəslindəndir. Lakin bu qız kimi yerindən qalxan hər murdar mənə gülsün! Yox, məni məzur tutun! O, özünü mənimlə münasibətdə həmişə dözülməz aparır, yekəbaşlıq, kinayə edir, məni lağa qoyurdu ki, saraydakı bəzi qıfılları aça bilmirəm. Ona nə var axı! Sırtıq, yonulmamış kəndçi, beləsini ancaq şallaqlayasan.

Bokkarossa isə... Mənim ona heyranlığımda qəribə nə var ki? Mənim də xasiyyətim döyüşçü xasiyyətidir.

Günlər əzici intizarda keçir, bilmirsən başını nə ilə qatasan.

Dünən məni Santa-Kroçeyə yolladılar, maestro Bernardoya tapşırıqları vardı. O, adətən, elə orada itib-batır, “Sirli axşam” üzərində işini davam elətdirir. Mən özümə dəfələrlə

bu sualı vermişəm ki, niyə o, müharibədə olmadı və maşınlarının fəaliyyətinə əməli iş şəraitində tamaşa etmədi – özünün yaratdığı maşınlara? Yəni onları təkcə dünyaya gətirməyi kifayət edir ona?

Mən elə bilirdim ki, onların işinə baxmaq istəyəcək. Orada ürəyi istəyən qədər meyitləri də öyrənə bilərdi, elmdə böyük nailiyyətlər qazanardı.

Mən onu öz qiymətli əsərinin seyrinə qərq olmuş vəziyyətdə tapdım – hətta mənim içəri girməyimi də görmədi. Nəhayət, başını qaldırıb mənə baxanda, gözləri harasa başqa yerə baxırdı – harada dolaşırdı fikirləri? Mənim cəngavər geyimimə heç diqqət eləmədi, hərçənd ki, ilk dəfə idi məni bu qiyafədə görürdü. Yəqin, hər halda, gördü, amma nə təəccüb, nə də elə bir maraq göstərmədi. Üzümə dostyana baxıb soruşdu: “Sənə nə lazımdır, balaca?” Məni belə adlandırmasından hirslənsəm də, tapşırıqları ona çatdırdım və elə o dəqiqə də çıxıb getdim, burada ləngiməyin mənası yox idi. Bircə onun bu şedevrini gözucu süzdüm, mənə elə gəldi ki, elə keçən dəfəki kimi, işin axırına hələ çox qalıb. O heç vaxt bir işi axıra çatdırmır. Görəsən, bir belə müddəti nəyin üzərində düşünür bu?

O, müharibədən heç bir şey soruşmadı, baxmayaraq ki, mən elə birbaşa oradan gəlirdim. Məndə elə təsəvvür yarandı ki, müharibə onu qətiyyən maraqlandırmır.

Sinyora bizə borc verməkdən boyun qaçırdı! Yolladıqları nümayəndə dedi ki, daha onlardan heç bir maliyyə vəsaiti gözləməyək. Ağlasığmazdır! Heç aydın olmadı. Onların fikrincə, müharibəni pis aparmışdıq. Pis! Həyasızlığa bax! Pis! Dalbadal qələbələr çalmağımıza baxmayaraq! Biz düşmən ölkənin lap içərilərinə girmişdik, düz onların quldur yuvasına çatmışdıq, indi də divarlarının dibində dayanmışdıq, şəhəri almağa tam əzmli idik ki, böyük qələbələrimizin bəhrəsini dərək. Belə bir zamanda bizə badalaq vurmaq! Şəhərin taleyi

artıq həll olunduğu, alınacağı, talan ediləcəyi, yandırılacağı, yer üzündən silinəcəyi bir zamanda. Bu, dözülməzdir! Adamın inanmağı gəlmir ki, rəzil alverçilər bizim qəti qələbəmizə mane olsunlar! Yalnız ona görə ki, bu zəhrimar qır-qızıllarından heç cür əl çəkmək istəmirlər! Yox! Ola bilməz belə bir şey! Bu, həyasızlığın son nöqtəsi olardı!

Hersoq çıxış yolu tapmağa sadəcə borcludur. Təbii ki, tapacaq da. Belə böyük, şərəfli bir müharibənin qələbə ilə başa çatmasının müqəddəratını murdar bir şey olan pul müəyyənləşdirə bilərmi? Bu, tam istisna olunur.

Sarayda çaparların, yadelli səfirlərin, müşavirlərin və sərkərdələrin əlindən ayaq basmağa yer yoxdur. Çaparlar elə ora-bura çapmaqlarındadırlar.

Həyəcandan az qalıram dəli olam.

Bokkarossanın muzdluları daha vuruşmaqdan imtina eləyirlər! Onlar tələb edirlər ki, razılaşdıqları məbləğ tam olaraq indi ödənilsin, sonrakı mərhələdə isə iki dəfə çox alacaqlar. Yəni onlara düşəni tam şəkildə almasalar, barmaqlarını da tərpətməyəcəklər. Hersoq pul tapa bilmir və çalışır ki, onları başqa yolla şirnikləndirsin, deyir ki, şəhər alınanda, talan üçün büsbütün onların ixtiyarına veriləcək, oradakı qənimət isə görünməmiş bir sərvətdir. Onlar da cavab verirlər ki, şəhərin alınıb-alınmayacağı hələ bəlli deyil, indiyədək bu şəhəri alan olmayıb. Özü də əvvəlcə Öküzün qoşununu darmadağın etmək, şəhəri uzun müddət mühasirədə saxlamaq lazımdır, onların isə mühasirə ilə heç arası yoxdur, darıxırlar. Nə qədər ki mühasirə halqasını gözləyirsən, heç talan etmək də olmur. Onların, onsuz da, xeyli, güman etdiklərindən artıq itkiləri vardı. Lakin bütün bunlardan heç xoşlanmırdılar. Onlara xoş gələn öldürməkdir, özlərinin gəbərməyi deyil, elə belə də çatdırın, öləndə də, heç olmasa, babat pula görə öləsən, qəpik-quruş üçün yox, bir sözlə, onların ifadələrində diplomatik incəlikdən əsər belə yox idi.

İndi nə olacaq? Bunların axırı necə olacaq?

Yəqin, hersoq nəsə bir çıxış yolu tapar. Kəlləsi saat kimi əla işləyir. O, maneələri sevir, qarşısına maneə çıxanda onun dühası da var gücü ilə təzahür eləyir. Bir də axı bizim məğlubedilməz ordumuz Montansa şəhərinin divarları önündə necə durmuşdusa, eləcə də dayanıb. Gəlin bunu unutmayaq.

Müharibə başa çatdı! Qoşunları geri, sərhədlərdən bu üzə çəkəcəklər, hər şey bitdi. Qurtardı!

Yuxuda deyiləm ki, görəsən! Bunlar mənim yuxularımda baş vermir ki! Yəqin, indi oyanıb başa düşəcəyəm ki, bu ancaq yuxu imiş, qorxulu, dəhşətli yuxu.

Lakin bu, yuxu deyildi! Bu, həqiqətdir. Dəhşətli həqiqət! Çıxılmazlıq içində başından tutursan, bunları başa düşməkdən imtina edirsən.

Acgözlük, şərəfsizlik, satqınlıq – insanın bütün bu qüsurları birləşərək bizim qəhrəman orduya üstün gəldi, onun silahını əlindən aldı. Bizim düşmən qapısında dəhşətli bir qüvvə kimi dayanmış şanlı ordumuz bircə məğlubiyyət belə görmədən başını aşağı salıb geri çəkilməlidir, aldanmış, satılmış, hamı tərəfindən aldadılmış halda evə dönməlidir. Evə! Ya qələbə, ya ölüm yanğısıyla yaşadıqları halda! Bu, nə cinayət, nə faciədir!

Bizim əzəmətli, ölkə tarixində ən uğurlu müharibəmiz və bu cür sonluq!

Sanki, iflic vurub məni. Ömrüm boyu heç vaxt içimdə belə bir etiraz baş qaldırmamışdı. Mənim bütün vücudum qəzəblə etiraz edir, ancaq eyni zamanda, sanki, iflic olmuşam, tam gücsüzlüyümü hiss edirəm. Mən işlərin gedişinə necə müdaxilə edə bilərəm, onu necə dəyişə bilərəm axı? Bu ağrılı tamaşanı necə dayandıra bilərəm? Mənim əlimdən heç nə gəlməz. Heç bir şey.

Bu, sondur. Hər şey bitdi. Son.

Bu barədə eşidəndə və eşitdiklərimin mahiyyətini anlayanda qaçıb getdim, heç kəs görmədən gözdən itdim ki,

yuxarıda, öz otağımda tək qalım. Qorxurdum ki, hisslərim məndən güclü çıxa, qorxurdum ki, onların öhdəsindən kişi kimi gələ bilməyəm. Elə ki öz otağıma qədəm basdım, məni ağlamaq tutdu. Bunu gizlətmirəm. Daha özümə gücüm çatmırdı. Dəli bir qəzəb içində yumruqlarımı gözlərimə sıxıb ağlayırdım. Hönkürtü çəkirdim.

Hersoq öz otağından çıxmır və heç kəsi qəbul eləmir. Elə naharını da orada eləyir, təklikdə. Masa arxasında mən qulluq eləyirəm ona, məndən və yeməyi gətirən nökərdən başqa onu görən olmur. Zahirən tamamilə sakitdir. Lakin bu solğun maskanın arxasında nələrin gizləndiyini demək çox çətindir. Onun qara saqqalla çevrələnmiş sifəti tabaşir kimi ağarıb, gözləri isə donuq nəzərlərlə baxır. Çətin ki, mənim burada olduğumu duya; nazik, qanı qaçmış dodaqlarından bircə söz belə qopmur. Yazıq nökər ondan dəhşət qorxur. Qorxağın biridir.

Venesiyanın imtina etməsi barədə, bu zəhrimar alverçi respublikanın ona müharibəni davam etdirməkdə mane olmaq fikrinə düşdüyü barədə xəbər yetişəndə qəzəbindən partladı. Onu heç vaxt bu vəziyyətdə görməmişdim. Qəzəb içində kükrəyirdi, qorxudan baxmaq olmurdu ona. Özümü unudub xəncərimi qapdım, onu, az qala, qəbzəsinə kimi stola sancdım. Əgər bu rəzil alverçilər onu həmin anlarda görsəydilər, əminəm ki, pullarını çıxarıb, masanın üstünə qoyardılar.

Deyirlər ki, o, messir Bernardonun dahiyanə ixtiralarından əməlli-başlı istifadə edə bilməməsindən daha çox narahatdır. Bu təchizat indi onun karına yaman gələrdi. O, arxayındır ki, bu mexanizmlərin köməyi ilə biz şəhəri mütləq alacaqdıq, qələbə, necə deyərlər, lap ovcumuzun içində idi. Bəs niyə olmadı?

Mən onun dəli olmasına məmnuniyyətlə tamaşa edirdim. Qəzəbi gözəl idi. Amma sonra fikirləşdim ki, bəlkə də, hersoq heç o dərəcədə güclü şəxsiyyət deyil. Niyə başqala-

rından bu qədər asılıdır axı? Murdar pullardan asılıdır? Niyə öz qoşunumuza əmr verib şəhəri toza çevirmədi? Bəs qoşun nə üçündür?

Mən sadəcə soruşuram. Sərkərdə deyiləm, bəlkə də, hərb sənətindən qətiyyən başım çıxmır. Amma mənim də qəlbim yanır, əzab çəkir, başımıza gələnləri anlamağa çalışıram.

Döyüş paltarımı çıxardım, onu acı hisslərlə cırtdanların yataq otağında divardan asdım. Elə oradaca asılı qalıb – kəndirdən asılan kukla kimi yazıq, gücsüz, abırdan düşmüş, şərəfi əlindən alınmış halda.

Sülh şəraitində yaşamağımızın bir ayı olacaq, az qalıb. Əhvali-ruhiyyə pisdir – qəsrdə də, şəhərdə də, ölkədə də. Qəribədir ki, qısa, ya da uzun sülh şəraiti ümumi narazılıq və sıxıntı vəziyyətini necə gücləndirir, bax indi də elə bu baş verir, atmosfer getdikcə daha boğucu olur, insanı darıxdıran ölü sükunət hökm sürür fəzada. Evlərinə dönmüş əsgərlər hər şeydən narazıdırlar, müharibədən gizlənənlər isə onlara kinayə edir, lağa qoyurlar, yəqin, ona görə ki, müharibə gözlənilən nəticəni verməmişdi. Gündəlik həyat çoxdan müəyyənləşmiş bir məcra ilə ölgün, darıxdırıcı tərzdə axıb gedirdi, nə bir sevinc vardı, nə də qarşıda bir məqsəd. Müharibənin gətirdiyi bütün ruh yüksəkliyi, bütün gümrahlıq izsiz yox olmuşdu.

Qəsr, sanki, ölmüşdü. Əsas qapılardan nə girən vardı, nə çıxan, təkcə özümüzük, biz də çox vaxt başqa qapılardan istifadə edirik. Nə məruzə etməli bir adam var, nə də qonaq eləməli. Rəsmi zallar bomboşdur, hətta saray əyanları da orada-burada gizlənir, burunlarının ucunu da göstərmirlər. Saray keçidlərində bir ins-cins görməzsən, pillələrdə isə yalnız öz addımlarının əks-sədası eşidilir. Adamın canına lap üşütmə düşür, sanki, xəyalat səltənətinə düşmüsən. İçəridə, uzaq yataq otaqlarında isə hersoq ya obaş-bubaşa gəzir, ya da üstündə xəncər zərbəsinin qaralan yarası olan stolun arxasında düşüncələrə qərq

olub oturur. Eyni nöqtəyə baxır, qaşlarını çataraq, qəzəblə baxır, nəsə fikirləşirdi, fikri nə idi – bəlli olmurdu.

Kədərli, darıxdırıcı günlər. Gün uzanıb gedir, axşam düşənəcən bezirsən.

İndi boş vaxtım nə qədər desən var, ürəyim istəyən qədər həyatımı təsvir eləyə, düşüncələrimi bölüşə bilərəm, amma heç həvəsim yoxdur. Vaxtımın çoxunu pəncərə qarşısında keçirir, qəsrin qabağından boğuq sarı kərtənkələ kimi qıvrıla-qıvrıla, tənbəl-tənbəl axaraq qala divarlarının yaşıl mamırını parça-parça qoparıb aparan çaya tamaşa edirəm.

Lodovikonun torpaqlarında bizim parlaq qələbəmizə şahidlik edən həmin bu çaya!

Yox, bu görünməmiş bir şeydir! Bu, son, dəhşətli günlər ərzində baş vermiş hadisələrin ən ağlasığmazıdır! Ayağımın altından torpaq qaçır – bundan sonra kimə və nəyə inanasan axı?!

Heç təsəvvürə gətirmək olardı ki, hersoq bizimlə Montansa arasında barışığı zəruri bilsin və bir də bir-biriylə müharibə etməyəcəkləri barədə saziş imzalamağı vacib saysın! Deyirmiş ki, bu bitmək bilməyən müharibələrə son qoymaq lazımdır, tərəflər təntənəli şəkildə öhdəlik götürməlidirlər ki, heç vaxt bir-birlərinə qarşı silah qaldırmayacaqlar! Sonuncu hücumdan qəzəblənən Öküz, guya, əvvəlcə razılaşmırmış. Lakin hersoq öz təklifində möhkəm israr edib. Yəni deyib ki, niyə bizim xalqlarımız bir-birini qırmalıdır, bu mənasız müharibələrin nə faydası var? Müharibə xırda fasilələrlə artıq neçə yüz ildir davam edir, tərəflərdən heç biri həlledici qələbəyə nail ola bilmir, hər ikisi var-yoxdan çıxır. Nə qədər bəla gətirir bu müharibələr! Sülh və razılıq şəraitində yaşamaq nə qədər gözəl olardı, ölkələrimiz necə lazımdır çiçəklənər, öz rifahını daim yüksəldərdi! Deyəsən, Lodoviko da yavaş-yavaş hersoqun ona öz namələrində təlqin etdiklərinə qulaq asmağa, onun dəlillərini ağıllı saymağa başlamışdı.

İndi isə artıq öz cavabında hersoqun təklifinə razılıq verərək, “əbədi sülh” danışıqlarına gəlmək, “təntənəli müqavilə” imzalamaq dəvətini qəbul edirdi.

Deyəsən, hamının ağlı çaşıb! Əbədi sülh? Müharibəsiz həyat? Bu nə sayıqlama, bu nə uşaqlıqdır! Yəni onlar belə hesab edirlər ki, dünya düzənini dəyişmək iqtidarındadırlar? Özündən müştəbehliyə bir bax! Keçmişin böyük ənənələrinə xəyanətə bir bax! Nədir, belə çıxır ki, daha heç vaxt qan axmayacaq, şərəf, igidlik hörmətəlayiq sayılmayacaq? Heç vaxt şeypurlar səslənməyəcək, süvarilər əldə nizə hücuma yürüməyəcək, düşmənlər bir-birinə qarşı qalxaraq, döyüş meydanında qəhrəmancasına həlak olmayacaqlar? Bəşər övladının nəhayətsiz özündənrazılığını cilovlaya biləcək heç bir şey qalmayacaq? Deməli, belə çıxır ki, soyuqqanlı, amansız Bokkarossa da enli qılıncını yelləyərək forsundan cırılan insan kütləsinə onları idarə edənin kimliyini və nəliyini anlatmayacaq? Sonra həyatın ən vacib təməli söküləcək?!

Barışıq! Bundan böyük biabırçılıq təsəvvür edilə bilərmi?! Qarı düşmənlə barışıq! Həyat, yaşam qanunlarının necə murdar təhrifidir bu! Bizim hamımız üçün necə alçaqlıq, necə böyük təhqirdir! Bizim döyüşçülər üçün, həyatını bu yolda qurban vermişlər üçün! Həlak olmuş qəhrəmanların xatirəsinə necə dəhşətli bir həqarət idi, belə çıxırdı ki, onlar özlərini nahaqdan qurban vermişdilər! Bu murdarlıqdan lap ürəyim bulanırdı.

Deməli, bu barədə düşünürmüş. Mən də heç başa düşmürdüm, anlaya bilmirdim. Bu imiş məsələ! Əhvali-ruhiyyəsi də gözlə seziləcək dərəcədə dəyişmişdi bundan sonra, yenə də insanlarla təmas saxlayırdı, gümrah, özündənrazı idi yenə. Görünür, elə bilirdi ki, qeyri-adi dərəcədə müdrik bir çıxış yolu tapmış, “əhəmiyyətli bir ideya” kəşf etmişdi.

Sonsuz nifrətimi təcəssüm etdirmək üçün söz yoxdur. Hersoqa, ağama inamım sarsıdıcı bir zərbəyə məruz qaldı və bu zərbədən bir də özünə gəlməz. O, bir hökmdarın enə

biləcəyi ən aşağı nöqtəyə düşdü. Əbədi sülh! Əbədi barışıq! Əbədi olaraq müharibəyə "yox" deyirik. Yalnız sülh və yenə də sülh!

Həqiqətən, belə bir ağanın cırtdanı olmaq asan deyil.

Qəsrdə bu sarsaq hadisəyə görə it yiyəsini tanımır. Addımbaşı süpürgəyə, vedrəyə ilişirsən, hər tərəfdə cır-cındır qalaqlanıb, onları pəncərələrdən çıxarıb çırpanda toz ərşə elə dirənir ki, adamın lap boğazı qovuşur. Çardaqlardan qədim qobelenləri gətirib hər tərəfdə salıblar yerə, indi isə üstündəki sarsaq məhəbbət səhnələrini tapdalayırlar ki, düzəlsin, sonra da onları biabırçı "sülh və həmrəylik" bayramını bəzəmək üçün divarlardan asacaqlar. İllər uzunu boş qalmış qonaq otaqlarını tələsik qaydaya salırlar, nökərlər fırfıra kimi ora-bura o qədər fırlanırlar ki, ayaqları dolaşır. Hamı qəzəblidir, hamı bezib, ürəklərində hersoqun bu axmaq planına lənət yağdırırlar. Palasso Ceraldini də yuyub təmizləyirlər, görünür, orada Lodovikonun eskortu yerləşəcək. Deyirlər ki, Bokkarossa və muzdluları özlərindən sonra orada əsl donuz tövləsinə bənzər bir mənzərə qoyublar. Anbarlar yeyəcəklərlə doldurulur – yüzlərlə öküz, dana, qoyun cəmdəyini eşikağasının tapşırığı ilə yoxsul camaat gətirir bura; nə qədər taxıl da gətiriblər, həm də qonaqların atlarını yemləmək üçün. Təbii ki, kəndlilər də qəzəblidirlər, bütün ölkədə narazılıq var. Fikirləşirəm ki, əgər gücləri çatsaydı, hersoqun bu sərsəm "sülh bayramına" görə qiyama qalxardılar. Meşə təsərrüfatlarında maralları, qırqovulları və dovşanları ovlayır, dağlarda qaban vururlar. Saray ovçuları mətbəxə kəklik, leylək daşıyır, nökərlər göyərçin kəsir, quş damlarında axta xoruzların yağlısını axtarır, rəsmi ziyafət üçün tovuz quşları seçirlər. Dərzilər hersoq üçün, hersoginya üçün bahalı Venesiya parçalarından pal-paltar tikirlər – buna kredit açıqdır, müharibə məsələsi deyil ki! – eləcə də şəhərin bütün zadəganları üçün elə hey olçü çıxarır, geyindirib yoxlayırlar. Qəsrin önündə və sonra

da bütün küçə boyu zəfər tağları qurulur, Lodoviko özünün əsabələri ilə onların altından keçəcək. Hər tərəfdə bəzəkli talvarlar qurulur, qulluqçular xalıların, cürbəcür tikmələrin tozunu çırpırlar; onları pəncərələrdən asacaqlar. Musiqiçilər səhərdən axşama kimi məşq edirlər, adamın az qalır başı çatlasın, saray şairləri isə komediantların taxt-tac zalında oynayacağı növbəti sarsaq tamaşanın sözlərini qoşurlar. Hamının işi-peşəsi bu axmaq bayrama hazırlıqdır! Bütün söhbətlər də bu barədədir, fikir-düşüncələr də. Bir qazan yağda qaynayırıq elə bil; sarayda bircə dənə xəlvət guşə belə tapılmaz – kiməsə toxunmadan, ya nəyəsə ilişmədən, addım belə ata bilməzsən, hər yerdə qaçhaqaç, qovhaqovdur.

Hirsimdən lap partlamağım gəlir.

Düşmən onun şərəfinə misilsiz dərəcədə bəzənmiş paytaxtımıza təntənə ilə girdi. Lap öndə at belində, əllərində təbərzin tutmuş yaşıl və qara paltarlı süvari cangüdənlərin əhatəsində otuz şeypurçu və fleytaçalan gəlirdi. Lodoviko Montansa küçələrdən öz oğlu, ağzından süd iyi gələn Covanni ilə bir yerdə çapıb keçdi, onların arxasınca isə əsil-nəcabətli cəngavərlər, senyorlar, lap axırda isə iki yüz arbaletçi ötdü. Lodoviko gümüş tikməli, tünd-yaşıl örtüklü qara at minmişdi, öz əynində isə gümüş zireh vardı və xalq onu “böyük ruh yüksəkliyi ilə” qarşıladı – xalqla tapşan kimi ruhu yüksəlir, bunun səbəbinin isə heç əhəmiyyəti yoxdur; məsələn, indi onlar əbədi sülhə görə xoşbəxt sayırdılar özlərini. Hersoq tərəfindən dəstənin pişvazına çıxmış üç carçı Lodovikonun gəldiyindən xəbər verdi, bu səfərin məqsədini şərh etdi və şəhərin bütün kilsələrində zənglər çalındı. Bizim biabırçılığımızın əla üvertürası. Hətta qəsr təpəsində yerləşən, göyə tuşlanmış bombardalardan yaylım atəşi də açıldı – məncə, onlara bir az da bol barıt qoyub təşrif gətirənlərin dəstəsinə tuşlasaydılar, daha düzgün olardı. Montansanın oğlu minən at yaylım atəşindən, ya nəsə başqa şeydən ürkdü, oğlan az

qaldı yəhərdən düşə, qıpqırmızı olmuşdu, lakin atı tez ram edib çaparaq getdi. O lap uşağa bənzəyirdi, yəqin, on yeddi yaşı ancaq olardı. Düzdür, hər şey salamatlıqla qurtardı, amma ətrafdakı camaat başladı fikirləşməyə ki, görəsən bu, bəd əlamət sayılırmı? Onların peşəsi "təntənəli hadisələrdə" cürbəcür əlamət axtarmaqdır, lakin bu mərasimdə onların təxəyyülünü canlandıracaq başqa bir fürsət olmadı.

Qəsrin darvazasına çatanda Lodoviko atdan endi və hersoq tərəfindən dəbdəbəli, bər-bəzəkli ifadələrlə salamlandı. O, möhkəm bədənli, qırmızı damarları görünən ətli yanaqlı və qısa, öküz boyunlu, bəstəboy bir kişi imiş. Saqqalı yalnız çənəsinin kənarlarında çıxırdı, özü də seyrək və belə saqqal, onsuz da, qəşəng olmayan sifətini heç gözəlləşdirmirdi. İtibaxışlı, xırda boz gözləri özünü səmimi göstərməyə çalışırdı, amma onlara inanmaq olmazdı, axı hamı bilir ki, o, bicin biridir. O, tez qızışan adam təsiri bağışlayırdı və köklüyünü nəzərə alsaq, məncə, hər dəqiqə qan sıza bilərdi beyninə.

Gün mərasimlərdə, qəbullarda, ziyafətlərdə və bizim iki dövlət arasındakı saziş ətrafında danışıqlarda keçdi. Axşam latın dilində dəhşətli dərəcədə darıxdırıcı bir tamaşa göstərildi, mən bircə kəlməsini də anlamadım, elə bilirəm, başqaları da mənim kimi. Əvəzində, onun dalınca adam dilində əttökən bir komediya göstərdilər, bu tamaşanı hamı daha yaxşı başa düşdü – ondakı kobud zarafatlardan, əttökən sözlərdən doyunca ləzzət aldılar.

Amma bu tamaşa da mənə iyrənc gəldi.

Bu günümüz, nəhayət ki, belə bitdi və mən indi öz otağımda oturub tənhalığıma sevinirəm. Bundan ləzzətli nə ola bilər! Yaxşı ki, cırtdanların otağında tavan alçaqdır, yoxsa, bura da qonaqları yerləşdirərdilər. Bu lap dəhşət olardı.

Bu hersoq oğlu insanların "şəkil kimi gözəl" dediklərindəndir, deməli, heç atasına çəkməyib. Mavi məxmər çullu atının belində, əynində elə həmin rəngdə paltar, atası ilə yanaşı çapanda, ətrafdakıların hamısı ona "gözəl" dedi. Ola

bilər. Amma şəxsən mənim zövqümə görə, onda kişiyə xas cəhətlər çox azdır – onun maral gözləri, uzun, qara saçları və qız kimi incə dərisi... Bir şey olan kimi də elə qız kimi qızarır... Bəlkə də, mənim zövqüm pisdir, amma mən belə zahiri qəbul etmirəm. Məncə, kişi kişiyə oxşamalıdır. Deyirlər ki, o – anasına, böyük mömin və son dərəcə gözəl qadın Beatriçaya oxşayır, deyirlər ki, bu qadın cəmi on il qabaq ölməsinə baxmayaraq, artıq məhşərdən cənnətə keçib.

Günortadan sonra mən oğlanın Ancelika ilə rozaridə necə gəzdiyini gördüm. Daha sonra isə çayın yanında gəzir, qu quşlarını çörək qırıntıları ilə yemləyirdilər. Hər iki dəfə fikir verdim ki, nə barədəsə danışırdılar. Başa düşmürəm ki, bu sarsaq uşaqla nə barədə danışa bilər o. Bəlkə də, qızın nə dərəcədə kifir olduğunu da görmürdü, əks-təqdirdə onunla yanaşı olmaqdan qaçardı. Ola bilər ki, onun özü də elə sadə məxluqdur.

Don Rikkardo isə, təbii ki, harada aş – orada başdır, bütün mərasimlərdə iştirak edir, əlinə fürsət düşən kimi özünü qabağa dürtürdü. Yaraları artıq sağalmışdı. Mən nədən danışıram e? Hansı yaralar? Baxanda heç nə hiss olunmur, təkcə əlinin biri azacıq ləng tərpənir. Bu da onun bütün qəhrəmanlığı.

Artıq üçüncü gündür ki, düşmən şəhərimizdədir. Onların şəninə bayram tədbirləri bir-birinə calanıb və bir dəqiqə rahatlıq yoxdur. Dünən axşam yaman yorğun idim, heç bir şey yaza bilmədim, bu səhər də dünənki boşluğun yerini doldurmağa tələsirəm. Sizə dünənki günün necə keçdiyindən, özümün bu barədə düşüncələrimdən söz açım.

Hər iki hersoq qəsrdən hava işıqlaşmamış çıxdı və bir neçə saatlarını şəhərin qərb tərəfindəki çəmənliklərdə şahin ovuna həsr etdi. Lodoviko şahin ovunun böyük azarkeşi idi, bizim hersoq isə əla şahinlər saxlayır, onların arasında Fransa kralından hədiyyə aldığı bir neçə nadir quş da var və təbii ki, indi quşlarını göstərib qürrələnməyə tələsirdi. Ovdan

qayıdandan sonra masa arxasına keçdilər, yeyib-içmək başlandı, bitmək bilməyən ziyafət, sonra musiqiçilərin növbəsi çatdı, istədin-istəmədin, qulaq asmalı idin, hərçənd ki, mənim aləmimdə musiqidən axmaq şey yoxdur, bunun dalınca mahnı və rəqslərdən ibarət sarsaq bir şey göstərdilər, sonra da jonqlyorlar çıxış etdilər, hamı ləzzət aldı və baxmağa dəyən yeganə çıxış elə bu idi. Çıxış bitən kimi yenidən masa arxasına keçdilər, gecədən xeyli ötənədək yeyib-içmək davam elədi, yemək vaxtı isə abırsız bir pantomima göstərildi – kişi və qadın aktyorlar elə dar paltarlar geymişdilər ki, lap lüt təsəvvürü bağışlayırdılar. Tamaşaya qədər əksəriyyət artıq donuz kimi sərxoş idi. Beləliklə, günün proqramı başa çatdı, mən, nəhayət ki, yatmağa gedə bildim və ölü kimi yatdım.

Hersoq bütün bu müddət ərzində çox canlı, mehriban və cazibədar idi, onu hələ belə görməmişdim. Görünür, bilmirdi ki, öz qonaqlarına necə yarınsın – onların qarşısında elə oyunlar çıxarırdı ki, adamın ürəyi bulanırdı. Elə düşünmək olardı ki, guya, Öküzlə o, nə vaxtdan bəri çox mehriban dost idilər. Bizim hersoq bu rolu var gücüylə oynamağa çalışırdı. Lodoviko isə əvvəlcə özünü bir az donuq, hətta ehtiyatlı aparırdı, amma yavaş-yavaş düzəldi. Özü də bura cangüdənləriylə, neçə yüz əsgərlə gəlmişdi – əbədi sülh imzalamağa gedəndə bu qədər əsgər nəyinə lazım idi, bilmirəm. Amma mövqeyi bunu tələb edirdi. Təbii ki, hersoq başqasının sarayına əsabələri olmadan gələ bilməz. Elə özüm də gözəl bilirəm ki, adət-ənənə belədir. Lakin sakit baxa bilmirəm onlara, düşmənləri adam lap qılınclamaq istəyir, amma təəssüf ki, barmağını belə vura bilməzsən. Dəhşətli vəziyyətdir.

Ağamın davranışı – başdan-ayağa tapmaca idi; özünü qarı düşmənimizlə bu cür necə apara bilərdi? Mən heç nə anlamıram. Amma heç təzə xəbər deyildi bu. Mən onu nə vaxt başa düşə bilmişəm ki? Bu da nəsə bir qismətdir. Əşi, bu barədə bəsdir daha, istəyirəm bayaq söylədiyimi bir daha təkrar eləyim: ona nifrətim, həqiqətən, hədsizdir.

Covanni ilə Ancelikanı dünən yenə bir yerdə gördüm, özü də neçə dəfə. Görünür, darıxırdılar yaman. Axşamtərəfi çay kənarında oturmuşdular, lakin bu dəfə qu quşlarını yemləmirdilər, heç söhbət də etmirdilər, sakitcə oturub suya baxırdılar. Yəqin, daha danışmağa mövzuları tükənmişdi.

Daha nədən yazım, vacib nə qaldı? Deyəsən, bir şey qalmadı. Bu gün "əbədi sülh sazişi" imzalanacaq və bundan sonra rəsmi ziyafət olacaqdı, özü də bütün tamaşaları-filanları bir yerdə. Yəqin, səhərə kimi çəkəcəkdi. Qanım it qanıdır, hər şeydən zəhləm gedir.

Hersoq mənə böyük etimad göstərdi! Lap başım gicəllənir! Mənə hansı tapşırığı verdiyini deyə bilmərəm. Heç bir kəlmə də. Bu bizim sirrimizdir. İndiyədək başa düşmürdüm ki, biz bir-birimizə nə dərəcədə yaxınıq.

Həddən artıq xoşbəxtəm. Bundan artıq heç bir şey deyə bilmərəm.

Bu gün axşam saat altıda böyük rəsmi ziyafət başlanacaq. Bu, bayram tədbirlərinin ən başlıcasıdır, ziyafət üçün o qədər gözəl şeylər düşünüblər ki, bu tədbir, heç şübhəsiz, əla keçəcək. Gözləməyə daha səbrim qalmayıb.

O, həqiqətən, böyük hökmdardır!

İndi sizə sonuncu günün necə keçməsindən – əsasən də, bizim hersoqla Montansa arasında sazişin imzalanması şərəfinə bayram tədbirlərini yekunlaşdıran ziyafətdən və onunla bağlı bəzi məsələlərdən söhbət açacağam.

Beləliklə, biz əvvəl taxt-tac zalında toplaşdıq, orada iki dövlət arasında pozulmaz sülh barədə sazişin mətni oxundu. Saziş çox gözəl və təntənəli ifadələrlə tərtib olunmuşdu və sənəddə başqa şeylərlə yanaşı, sərhəd qalalarının ləğv olunmasından, ölkələrimiz arasında sərbəst ticarətdən, bu ticarəti asanlaşdırmaq üçün görüləsi tədbirlərdən söz açılırdı. Sonra imzalama mərasimi oldu. Hər iki hersoq ən yaxın əsabələriylə

bir yerdə masaya yaxınlaşaraq, iki böyük kağızda imzalarını cızdı. Hər şey çox təntənəli idi. Elə həmin an şeypurlar dilləndi: altmış şeypurçu divarın dibinə üç addımdan bir düzülmüşdü. Sonra elə bu gün üçün bəstələnmiş təntənəli musiqinin sədaları altında bütün mərasim hofmeysterin rəhbərliyi altında ziyafət salonunda keçdi. Əzəmətli zal əlli gümüş qəndilin, qızıl tikməli nökərlərin tutduğu iki yüz məşəlin nuruna qərq olmuşdu, amma nökərlərdən savayı, küçədən tutduqları, cır-cındır içində, kirli ayaqları yalın olan və yaxınlaşanda pis iy verən oğlanlar da gətirilmişdi. Bütün zal boyu beş böyük stol açılmışdı, stollar üstündəki gümüş və mayolika qab-qacaqdan, dağ kimi qalaqlanmış cürbəcür yemək və meyvələrdən, şirin xəmirdən bişirilən, mənə deyildiyinə görə, yunan mifologiyasından – bu nəsə tanımadığım bütpərəst inanclardan biri idi – səhnələr təsvir olunan fiqurların ağırlığından, az qala, qırılırdı. Əsas stolun ortasındakı hər şey qızıldan idi: qəndillər, meyvə vazaları, boşqablar, şərab dolçaları, qədəhlər – hər iki hersoq və onların soyadlarını daşıyan şəxslər, həmçinin ən yaxın adamları həmin stolun arxasında oturmuşdular. Hersoq düz Öküzlə üzbəüz əyləşmişdi, ondan sağ tərəfdə al-qırmızı, bəyaz, tikməli ipəkdən yarıqlı qolları olan, yaxası qızılla, daş-qaşla bəzəkli paltar geyinmiş hersoginya əyləşmişdi. Başındakı brilyantlı gümüş tor eybəcər şabalıdı saçlarını bir az bəzəyirdi və onun neçə saat ənlik-kirşanla məşğul olduğundan, indi bu həddindən ziyadə yumşaq və kök sifətin bir zamanlar çox gözəl olduğu, şəksiz, nəzərə çarpırdı. O, özünün həmişəki gözəgörünməz təbəssümü ilə gülümsünürdü. Hersoqun əynində qara məxmərdən dar kostyum vardı, çox sadə kostyumun qolları yarıqlı idi, yarıqlardan isə şux sarı ipək görünürdü. Onun şax qaməti lap yeniyetmə bədənini xatırladır, şpaqa tiyəsi kimi oynaq görünürdü. Azacıq sıxılırmış kimi gözə dəyirdi, amma əhvali-ruhiyyəsi yaxşı idi: ara-sıra mənə yaxşı tanış olan hərəkətilə qısa qara saçlarına sığal çəkirdi. Sonra mən birdən

hiss elədim ki, ona necə nəhayətsiz dərəcədə sadiqəm. Öküzün əynində əla tünd-yaşıl parçadan, sincab dərisi ilə işlənmiş qısa, enli örtük vardı, onun altında isə sinəsindən ağır qızıl zəncirlər sallanan şux qırmızı kamzol görünürdü. Bu paltarda bir az da enli və alçaqboy hiss olunurdu, sincab dərisinə bürünmüş öküz boynu isə daha kök və daha qısa təsiri bağışlayırdı. Onun sifətində dostyana səmimiyyət ifadəsi oxunurdu, amma insanın sifətindən çox, bədəni ifşa edir onu.

Don Rikkardonun da yeri, təbii ki, yaxınlıqda, ən hörmətli yerlərdən biri idi, hərçənd ki, xeyli uzaqda, tamam başqa stolun arxasında oturmalıydı. Lakin o, daim özünü qabağa soxur, hersoq da, təbii ki, onsuz keçinə bilmir, hersogindan isə heç danışmağa dəyməz. Don Rikkardo o dəqiqə qara qıvrım saqqalını barmaqlarında özündənrazı görkəmlə oynadaraq çərənləməyə başladı və bir azdan hamını bezdirdi. Mən ona buz kimi nəzərlərlə baxırdım və bu baxışların həqiqi mənası, təbii ki, heç kəsin ağlına gəlmirdi. Yaxşısı budur, hələlik susum.

Yerləri ümumi sırada olsa da, Covanni ilə Ancelika bir-birinin yanında oturmuşdular. Onlar təxminən eyni yaşda olduqları üçün yanaşı oturmaları təbii idi. Həm də onların hər ikisi hersoq nəslindən idi – ən azından oğlan barədə bunu dəqiq söyləmək olardı. Qız, çox ola bilər ki, bicdir. Onlar qonaqlar arasında ən gənc idilər və daha çox uşağa bənzəyirdilər. Adama elə gəlirdi ki, onların bu məclisə düşmələri səhvən olmuşdu. Yazıq Ancelikanın bu, böyük cəmiyyətə ilk çıxışı idi və ona qızıl tikməli qolları olan ağ ipək paltar geyindirmişdilər, başında isə sarı, az qala, rəngsiz görünən saçlarını azacıq örtən mirvari və qızıl tikməli kiçik papağı vardı. Təbii ki, görkəmi çox pis idi. Onu daim sadə, az qala, kasıb paltarda görməyə adət edənlər üçünsə bugünkü görkəmi, yəqin, lap gülünc idi. Ağzı, həmişəki kimi, yarıaçıq idi və uşağınkını xatırladan yanaqları utancaqlıqdan alışıb-yanırdı. Onun iri, girdə, mavi gözləri heyranlıq içində parlayırdı,

sanki, nəsə görünməmiş bir şeyə baxırdı. Covanni də, görünür, bütün bu əsil-nəcabətli insanların arasında utanır, hərdən onlara ürkək nəzərlər salırdı. Amma o, deyəsən, cəmiyyət içinə çıxmağa daha çox adətkərdə idi, ürkəklik, çox güman ki, onun xarakterində idi. Əynində yaxalığı qızıl tikməli, mavi məxmər paltar vardı, boynundakı nazik qızıl zəncirdən girdə medalyon asılmışdı, deyirdilər ki, medalyonun içində, hamının fikrinə əsasən, indi cənnətdə rahatlıq tapmış – bunu hardan bilirdilər axı, bəlkə, yazıq hələ indiyə kimi məhşərdə sakitcə əziyyətini çəkirdi – anasının portreti vardı. Qonaqlar onu, təbii ki, qənirsiz gözəl kimi qəbul edirdilər, onların pıçıldaşmalarını özüm eşidirdim, lakin bu “gözəl cütlük” barədə danışdıqlarına qulaq asanda anladım ki, onların gözəllik haqqında təsəvvürləri çox qəribədir. Qısası, o, mənim zövqümə uyğun deyil. Məncə, kişi kişi kimi olmalıdır. Hətta adamın inanmağı gəlmir ki, bu oğlan Montansa evindən hersoq oğludur. O, taxtda necə əyləşəcək, xalqı necə idarə edəcək? Lakin, mənim anlayışıma görə, iş o yerə çəkməyəcək – o heç vaxt taxta çıxası deyil.

Bu uşaqlar ümumi söhbətdə heç iştirak etmirdilər və görünür, diqqət yetirməli hər şey onlara əziyyət verirdi. Onlar öz aralarında da heç o qədər danışmırdılar, amma mən fikir verdim ki, daim bir-birinə qəribə tərzdə nəzər salır, baxışları toqquşanda oğrun-oğrun gülümsünürdülər. Bu qızın təbəssümünü görmək mənə qəribə gəlirdi – nəsə onun körpəlik dövründən sonra gülümsəməyini heç xatırlaya bilmirəm. Düzdür, indi də inamsız gülümsünür, sanki, özünü sınayırdı hələ. Yəqin, başa düşürdü ki, onun təbəssümü gözəl deyil. Amma, məncə, elə, ümumiyyətlə, insan təbəssümü kifir şeydir.

Onlara nə qədər çox göz qoysam, bir o qədər də çox təəccüblənirdim: onlar niyə belə idilər? Yeməklərə, demək olar ki, toxunmur, vaxtın çoxunu gözlərini boşqablarına zilləyərək oturmuşdular. Fikir verdim ki, stolun altında da əl-ələ tutmuşdular. Onlar əl-ələ olanda, ətrafdakılardan kimsə qonşusuna

göz eləyib onların tamaşasına dururdusa, yaman utanırdılar, qıpqırmızı olub başlayırdılar yalandan qızğın söhbət eləməyə. Nəhayət ki, mən onların arasında tamam başqa münasibətin – məhəbbətin olduğunu anladım. Dəhşətli kəşf idi! Heç özüm də əməlli başa düşmürəm ki, kəşfim niyə məni bu dərəcədə hiddətləndirdi. Niyə bu qədər nifrət elədim.

İnsanlar arasındakı məhəbbət həmişə iyrəncdir. Lakin zahirən günahsız görünən bu uşaqlar arasında məhəbbət ikiqat murdar idi. O qədər qəzəbləndim, içimdə elə bir etiraz baş qaldırdı ki, hətta hərarətim yüksəldi, bu biabırçılığın şahidi olduğuma dözə bilmirdim.

Nə isə, onlar barədə kifayətdir artıq. Mən bu ziyafətdə əsas sima olmayan uşaq-muşağa onsuz da lazım olduğundan artıq diqqət yetirdim. Ziyafətin təsvirini davam etdirsəm yaxşıdır.

Qonaqlar masaların üstündə həddindən ziyadə bol olan soyuq qəlyanaltıların işini bitirəndən sonra açıq qapıda qırmızı yəhərli ağ atın belində hofmarşal göründü və uca səslə ilk on iki isti xörəyin adlarını elan etdi və elə həmin dəqiqə saysız-hesabsız nökər və xörəkpaylayanlar həmin yeməkləri gətirdilər. Hofmarşalın atının yüyənini tutmuş iki şeypurçu isə şeypurlarına güc verdi. Buğlanan xörəklər ət, ədva, yağ qoxusu yayırdılar, mənim bütün yeməklərə nifrətimi anlasanız, bilərsiniz ki, ürəyim necə bulanırdı. Baş xörəkpaylayan həmişəki əhəmiyyətli və sarsaq görkəmi ilə boynunu xoruz kimi uzadıb hersoqun stoluna yaxınlaşdı və əti, ördək və xoruzları doğramağa başladı, onun sol əlinin barmaqlarından yağ damır, sağ əlindəki bıçaqla özünün ölümcül məharətini nümayiş etdirən qılıncoynadan kimi ustalıqla davranırdı. Qonaqlar yeməyə cumdular və mən hiss elədim ki, halım qarışır; çeynəyən adamları, xüsusilə də bunlar kimi yeməkdən doymayan insanları görəndə içimdə həmişə baş qaldıran iyrənməyə bənzər həmin o hiss güclənirdi. Onlar iri tikələri içəri ötürmək üçün ağızlarını eybəcər şəkildə daha geniş açır, çənələri durmadan işləyir, ağızlarının dərinliyində isə dilləri tərpənirdi.

Hersoq stolunun arxasında oturanlar arasında Öküzə baxmaq ən xoşagəlməzi idi: o, çox kobud yeyirdi, tikəni tikənin dalınca dəhşətli bir acgözlüklə içəri ötürürdü. Dili də murdar idi – al-qırmızı, enli, əsl öküz dili. Hersoq isə, əksinə, ədəblə yeyirdi. Həmin axşam o, həmişəkindən də az yedi; içki, demək olar ki, içmədi. Bir dəfə diqqət yetirdim, qədəhi qaldırıb, onun yaşılımtıl şüşəsinə baxaraq, fikrə getdi, sanki, dünyaya bu şüşənin arxasından tamaşa edirdi. Qalanları ağına-bozuna baxmadan hədsiz dərəcədə çox içirdilər.

Böyük mayolika buludlarda gözəl bişirildiyindən hamının bir xeyli heyranlığını bildirdiyi qızılı-qırmızı nərə balıqları, karp, durnabalığı gətirdilər, sonra şirə gəzdirilməmiş yeməklər başlandı, iri boşqablarda qəribə mum ornamentlə bəzədilmiz xörəklər gəldi, bəzəyi o qədər bol idi ki, yeməyin nədən bişirildiyi dadmamış bilinmirdi, onların dalınca maral, qaban kəlləsi şəklində düzəldilmiş paştetlər, bütöv qızardılmış qızılı çoşqalar, şirin, ətirli ədviyyatlı toyuqlar və bildirçin, qırqovul və leyləklərdən hazırlanmış cürbəcür qoxulu yeməklər gəldi. Nəhayət, ovçu paltarı geymiş pajlar qızılı rəngə çalan bütöv vəhşi qaban gətirdilər, onun ağzından alov dilimləri çıxırdı, nəsə axmaq iyi olan yanan bir şey qoymuşdular ağzına. Burada nimfa paltarı geymiş qızlar çıxdılar ortaya – paltarlıdan daha çox lütə oxşayırdılar – və başladılar döşəməyə qoxulu tozlar səpməyə, vəziyyət bir az da gərginləşdi: daha heç nəfəs almaq olmurdu. Mən, az qala, boğulurdum.

Öküz acgözlüklə qaban qızartmasına cumdu, elə bil, bayaqdan heç nə yeməmişdi. Qalanları da özlərinə tünd-qırmızı, alaçiy ətdən iri tikələr götürdülər, bu da nadir yeməklərdən sayılırdı. Onların çənələrinin təzədən necə işə girişməsinə, dodaqlarını, saqqallarını yağlı ət suyu ilə necə bulaşdırmasına nifrətlə baxırdım, içimdə elə bir hiss vardı ki, sanki, abırsız bir şeyin şahidinə çevrilmişdim – mən, ümumiyyətlə, hamı ilə bir yerdə yeməkdən həmişə qaçıram, yalnız ən vacib şeylərin dadına baxıram, getdikcə bu yeməkdən və

içməkdən şişmiş qıpqırmızı, sanki, yalnız mədədən ibarət olan yekə adamlara tamaşa etməkdən daha çox iyrənirdim. Baş xörəkpaylayanın qabanı yırtmasına, onun skeleti lüt qalana kimi, qanlı tikələri içindən sökməsinə baxmaq da dözülməz idi.

Məxsusi onun üçün ət doğramaq məqsədilə təyin olunmuş nökərin köməyi ilə yalnız sol əlilə yeyən don Rikkardo tikələri dalbadal ağzına dürtür, üstündən xeyli şərab içirdi. Onun üzü indi yekə və sarsaq bir təbəssümdən ibarət idi və salamat əli ilə qədəhi dəqiqəbaşı ağzına yaxınlaşdırırdı. Əynində tünd-qırmızı məxmər kamzol vardı, görünür, bu rəng onun ehtirasını simvolizə etməli idi – axı o həmişə qəlbinə hakim kəsilmiş qadın üçün geyinirdi. Baxışları həmişəkindən artıq yanırdı və oturduğu yerdə, əl-qol ata-ata, hersoginyadan başqa, onu dinləmək istəyən istəkli adama üzünü tutub, sarsaq-sarsaq şeirlər oxumağa başlayırdı. Qadın məhəbbətindən bəhs edən təmtəraqlı sözlər onun ağzından, qarnına tökdüyü şərabla düz mütənasib həcmdə çölə axırdı. O, hərdənbir hersoginyaya nəzər salanda qadının gözləri işarır, ona müəmmalı təbəssümünü bəxş edirdi, hərçənd ki, bütün qalan vaxtı, digər bayramlarda olduğu kimi, stolun arxasında elə otururdu, sanki, heç burada deyildi. Bundan başqa, heç kəsin görmədiyini düşünəndə, hərdən uzun-uzadı, oğrun-oğrun baxışırdılar və hər ikisinin gözündə nəmli, az qala, xəstə bir parıltı peyda olurdu. Mən axı hər şeyi görürdüm. Onları bircə dəqiqəliyə belə gözümdən qaçırmırdım, hərçənd ki, ağıllarına belə gəlməzdi bu. Heç mənim qəlbimin dərinliklərində olanlar da qətiyyən ağıllarına gəlməzdi. Bunu kim bilər ki? Kim bilər ki, mən, cırtdan qəlbimin heç kəsin girə bilmədiyi mübhəm guşələrində nələr hazırlayıram? Lap dərinliklərində bu insanların taleyi həll olunan cırtdan qəlbi haqqında kim nə bilir axı? Mənim, əslində, necə olduğumu təsəvvür eləyə bilməzlər. Təsəvvür edə bilməmələri onların xoşbəxtliyidir. Bilsəydilər, dəhşətə gələrdilər. Əgər xəbər tutsaydılar,

təbəssümləri dodaqlarındaca solardı, dodağın özü də əbədi quruyardı. Bütün yer üzünün şərabı belə onları bir də isladıb, öz rəngini qaytara bilməzdi.

Görək dünyada elə şərab tapılacaq ki, onların təravətini və təbəssümünü qaytara bilsin!

Mən həm də hersoginyanın damicellası Fyamettoya baxırdım, o, hersoq stolunun arxasında oturmasa da, çox yaxşı, sarayda tutduğu mövqeyə görə oturmalı olduğu yerdən də yaxşısında əyləşmişdi. Sarayda o, təzə peyda olmuşdu və indiyədək nəsə mənim diqqətimi cəlb etməmişdi. İndi mən bu diqqətsizliyimi artıq izaholunmaz sayırdım. Axı o, çox bariz bir gözəldir – ucaboy, şax qamətli, gənc və eyni zamanda yetkin, bu həyat üçün artıq tam yetişmiş. Onun düzgün cizgili, qarabuğdayı, çox qürurlu sərt sifəti və lap dərinliyində tək bircə qığılcım işaran kömür kimi qara gözləri var. Mən fikir verdim ki, hersoq arabir ona tərəf narahat baxışlarla nəzər salır, sanki, bu sakit sifətdən onun sahibinin fikirlərini, əhvali-ruhiyyəsini oxumaq istəyirdi. Xanım isə ona heç baxmırdı.

Budur, zalda, demək olar ki, şamların hamısını söndürdülər və naməlum bir yerdən iti musiqi səsləndi. Qaranlığın içinə dişlərində yanan məşəllər tutmuş on iki mavritaniya rəqqasəsi atıldı və çılğın bir rəqsə başladı. Hamı nəfəsini dərmədən tamaşa edirdi. Qara başlarının ətrafında odlu halə olan rəqqasələr burulğan kimi hərlənir, məşəlləri gah bir-birinə, gah da yüksəklərə atır və qaranlıqda işaran vəhşi dişləriylə yenidən tuturdular. Onlar alovla lap təhlükəli düşmən kimi oynayırdılar və hamı bu əcaib-qəraib məxluqların dəhşətli rəqsinə tilsimlənibmiş kimi, qorxu içində baxırdı. Rəqqasələr, əsasən, hər iki hersoqun əyləşdiyi yerin yaxınlığında dövrə vururdular, məşəllərini tullayanda da qığılcımlar yağış kimi yağırdı. Göydə uçan məşəlləri dişləri ilə tutmağa hazırlaşanda isə qara sifətləri tükürpədici ifadədən elə əyilirdi ki, elə bil, cəhənnəmdən çıxaraq özləriylə zəbanə çəkən alov gətirmiş dəhşətli ruhlar idilər. Niyə də olmasınlar? Kim dəqiq

deyə bilər ki, onlar məşəllərini cəhənnəm tonqalında yandırmayıblar? Mən qədim cırtdan sifətimi görünməz edən zülmətə bələnərək durmuşdum və bu qəribə ruhlara, onların, sanki, iblisin özündən öyrəndikləri qorxulu, əcaib rəqslərinə baxırdım.

Sonra, sanki, özlərinin iblisdən ilhamlanan mahiyyətlərini sübuta yetirmək üçün bütün dirilərin yolunu gözləyən ölülər səltənətinin rəmzi olaraq, rəqsin lap axırında məşəllərini üzüaşağı çevirib döşəmədə söndürdülər və tez də yoxa çıxdılar, elə bil, yerə girib, yox oldular.

Şamları yenidən yandırana kimi, mən qaranlıqda adamlardan yaxşı seçən iti cırtdan gözümlə gördüm ki, qonaqların bəziləri xəncərlərinin qəbzələrini əsəbi halda necə sıxmışdılar, elə bil, hər dəqiqə bütün gözlənilməz hadisələrə hazır idilər.

Xeyir ola? Axı bunlar rəqqasədən savayı, başqa bir şey deyildilər, hersoq onları Venesiyadan, qonaqları əyləndirmək üçün gətirtmişdi.

Elə ki zal yenidən işıqlandırıldı, qapının ağzında qofmarşal özünün ağ atı ilə yenə peyda olaraq, uca səslə bu axşamın "hadisəsi", təəccübdoğurucu və çox incə bir təamın gətiriləcəyini söylədi və elə həmin dəqiqə hər tərəfdən əlliyə yaxın nökər stollara yaxınlaşdı, onlar başlarının üstündə bahalı daş-qaşla bəzədilmiş gümüş sinilərdə taxtın üstündəki kimi oturmuş, göy qurşağının bütün rənglərinə çalan quyruqlarını sallamış qızılı tovuz quşlarını gətirirdilər. Onların görünməyi tamam dəli bir heyranlığa səbəb oldu. Bayaqkı qorxu da, ölümü xatırladan başıaşağı çevrilmiş məşəllər də bir göz qırpımında buxarlanıb getdi, sanki, heç yox imiş. Adamlar da uşaq kimidir: təzə oyunun xətrinə köhnəsini o dəqiqə unudurlar. Yalnız mənim onlarla oynayacağım oyunu heç vaxt yaddan çıxara bilməyəcəklər.

Görmədikləri yeməyə də gözlərini bərəldərək baxırdılar, bayaqdan bəri hər təzə xörəyin üstünə necə cumurdularsa, elə həmin acgözlüklə indi də buna soxuldular. Həmişə zəhləm getmiş insanları mənə xatırladan – bəlkə də, ona görə

ki, insanlar bu quşlara heyranlıqla baxır, onları təamların ən ləzizi sayırlar – bu özündənrazı quşların ucbatından hər şey təzədən başlandı. Tovuz quşlarının işi bitiriləndən sonra stola yenidən qırqovullar, xoruzlar, bildirçinlər, ördəklər, nərə balıqları, karplar və vəhşi heyvanların qızartmaları gəldi – təzədən dağ kimi qalaqlanan yeməklər – onları elə acgözlüklə udurdular ki, nifrətdən az qalırdı qaytaram. Sonra da ortaya qonaqların, bütün axşamı ac oturubmuş kimi, dəhşətli sürətlə yox etdikləri şirin şeylər, konfetlər və cürbəcür müşk qoxuyan şirnilər gəldi. Lap sonda da, özlərinin dediyinə görə, böyük məharətlə hazırlanmış və dadlı bişirilmiş yunan mifologiyasının ilahi fiqurlarına cumdular, onları doğrayıb, ağızlarına dürtə-dürtə axırlarına çıxdılar; masa üzərində yalnız qırıntıları qaldı. Masalar, sanki, barbar hücumlarından qalan xarabalıq idi. Mən bu talana, bu qızmış və tərli adamlara böyük niflrətlə tamaşa edirdim.

Bu yerdə hofmeyster irəli yeriyərək, sakitlik tələb etdi və elan elədi ki, indicə qonaqlara gözəl alleqorik bir səhnəcik təqdim ediləcək, bu səhnəciyin sözlərini hersoqun əmri ilə saray şairləri mötəbər qonaqları əyləndirmək üçün qələmə alıblar. Bayaqdan ən uzaq və ən kasıb masanın arxasında əyləşmiş arıq, əldən düşmüş şairlər qulaqlarını şəklədilər – bu bəsit, özündənrazı məxluqlar özlərinin dərin məzmunlu və geniş yozumlu əsərlərindən bayramın bəzəyinə çevriləcək nümunələrinin səslənməsini səbirsizliklə gözləyirdilər.

Divarın dibində qurulmuş səhnəyə əynindəki zirehli paltarı bərq vuran Mars gəldi və elan etdi ki, iki əzəmətli döyüşçünü – Tselefonla Kaliksti şöhrəti bütün dünyaya yayılacaq və onların adlarını əbədiləşdirəcək bir döyüşdə qarşılaşdırmaq qərarına gəlib, əsas məqsədi isə insanları hərb ilahisinin əzəmətinə və nəhayətsiz imkanlarına inandırmaqdır: “Qoy hamı görsün ki, onun iradəsinə tabe olan iki nəcib cəngavər necə igidliklə döyüşərək, öz qanlarını necə axıdır. Nə qədər ki yer üzündə cəsarət və cəngavərlik yaşayır, insan xarakte-

rindəki başqa gözəl cəhətlər də yalnız mənə qulluq edəcək, başqa heç kəsə”. Mars bu sözləri deyərək, səhnədən çıxdı.

Bu yerdə səhnədə iki döyüşçü göründü və gözləri bir-birinə sataşan kimi döyüşə atıldı. Kifayət qədər çəkən bu səhnədə elə qılınc çalmaq məharəti nümayiş etdirdilər ki, bundan gözəl başı çıxan, bu qarşılaşmanı layiqincə qiymətləndirə bilən bəzi qonaqlar öz valehliklərini gizlətmədilər. Etiraf etməliyəm ki, onlar əla döyüşürdülər və mən bu qarşılaşmadan böyük zövq aldım. Onlar özlərini elə göstərirdilər ki, guya, bir-birinə təhlükəli yaralar vurur, nəhayət, guya, axıdılmış qandan gücdən düşüb hər ikisi yerə yıxılaraq canlarını tapşırır.

Bu yerdə yenə hərb ilahisi önə çıxıb təmtəraqlı ifadələrlə qəhrəmanların güzəştsiz döyüşündən söz açır, bu çarpışmanın onlar üçün əsl igid ölümü hazırladığını söyləyir, özünün isə insanların ruhuna nəhayətsiz hakim kəsildiyini, Olimp ilahilərinin hamısından güclü olduğunu bildirir.

Sonra da çıxıb gedir. Sakit, ehtiyatlı səslənən bir musiqi eşidilir və bir müddətdən sonra səhnəyə özünün “qrasiya” adlı üç rəfiqəsi ilə birlikdə Venera çıxır, əzəmətli bədənləri dağım-dağım olmuş, öz qanlarında çimən bu iki döyüşçünü görür. Üç qrasiya onların üzərinə əyilərək ağlaşma qurur ki, belə gözəl, belə misilsiz kişilər heç bir səbəb olmadan öz qüdrətlərini əldən verərək həlak olublar, bu döyüşçülərin acı taleyinə ağladıqları zaman onların sahibəsi izah edir ki, qəddar Mars onları qızışdıraraq mənasız bir döyüşə atılmağa məcbur eləyib. Qrasiyalar bununla razılaşırlar və xatırladırlar ki, Mars onun aşiqidir, bütün ilahi gözəlliyinə baxmayaraq, Venera onu daim öz ağuşuna alır, qucaqlayır. Venera isə cavab verir ki, bu, alçaqcasına şər atmaqdan başqa bir şey deyil. Məgər məhəbbət ilahəsi hamının, hətta atası Yupiterin belə görməyə gözü olmayan qana susamış bu barbar ilahini sevə bilərmi? O, bu sözlərlə yaxınlaşıb, özünün sehrli ağacı ilə cəsədlərə toxunur və onlar sağ-salamat, heç nə olmayıbmış

kimi, yerlərindən qalxaraq əbədi sülh və dostluq əlaməti olaraq bir-birinə əl uzadırlar, söz verirlər ki, onları bu qanlı, ölümcül döyüşə vadar eləyən qəddar Marsın sözlərinə bir daha uymayacaqlar.

Sonra isə ilahi uzun və riqqətə gətirən bir nitq söylədi, həmin nitq onun özünü vəsf edir, insanlar üzərində hakim olan qüvvələrin ən güclüsü və ən nəcibi, həyatın mənbəyi, bütün başlanğıcların başlanğıcı olduğunu çatdırırdı. O, məhəbbətin gözəl hökmranlığından, onun istənilən gücə incəlik bəxş etmək bacarığından, dünyəvi varlıqları ilahi qanunlara tabe etməsindən, qarşısında bütün canlıları baş əydirən, insanlarda kobud, heyvani nə varsa islah edən, onları nəcibləşdirən, hökmdarların hərəkətlərini və xalqların adətlərini yönəldən bir nemət olduğundan uzun-uzadı danışır, deyir ki, bəşər məhəbbəti və bəşər mərhəməti artıq viran edilmiş, qanla murdarlanmış yer üzündə öz müzəffər yürüşünə başlayıb, nəciblik və cəngavərlik onun qulluğundadır, məhəbbət bəşər övladına döyüşçü şərəfi, hərbi şöhrətdən daha uca anlayışlar bəxş edir. Və axırda da öz sehrli çubuğunu qaldıraraq, elan edir ki, nəhayətsiz gücə və nəhayətsiz hakimiyyətə malik bir ilahi olan o, günahkar dünyanı fəth edəcək, oranı məhəbbətin və əbədi sülhün sığınacağına çevirəcək.

Əgər mənim gülümsəmək bacaran üzüm olsaydı, bu sadəlövh sonluğu eşidəndə mütləq gülümsünərdim. Lakin ilahinin pafoslu çıxışı tamaşaçılarda möhkəm əks-səda doğurdu, çoxlarını həyəcanlandıraraq riqqətə gətirdi, sonluqda söylədiyi gözəl sözləri isə hamı nəfəs çəkmədən dinləyirdi. Bu əsəri dünyaya gətirən şairlər də, sifətlərindəki özünəməftun ifadədən sezildiyi kimi, tamaşanın bütün uğurunu öz adlarına çıxmağa meyilli idilər, hərçənd ki, onlar barədə fikirləşən qətiyyən yox idi. Mən əminəm ki, onlar özlərinin eyhamlarla, gəlişigözəl sözlərlə dolu alleqoriyalarını bizim hersoq ailəsi ilə Montansa evi arasında əbədi sülh sazişinin imzalanması şərəfinə keçirilən bütün təntənələrin ən əhəmiyyətlisi sayırdılar.





Mən isə elə düşünürəm ki, ən əhəmiyyətli hadisə məhz bundan sonra baş verəcəkdi.

Mənim yerim, adəti üzrə, yüksək hökmdarımın arxasında idi, çünki onu kifayət qədər yaxşı tanıdığımdan öz istəyini dilinə, yaxud ağlına belə gətirməmişdən tapır, yerinə yetirə bilirdim, sanki, onun bir parçası idim. O, məndən başqa kimsənin sezmədiyi bir işarə elədi ki, Lodovikoya, onun oğluna, onun yaxınlarına ixtiyarımda olan, reseptini ancaq mənim bildiyim qiymətli şərabdan süzüm. Mən öz qızıl dolçamı götürüb əvvəlcə Öküz üçün süzdüm. O, içkinin təsirindən qızaraq xəzli örtüyünü çoxdan çıxarıb atmışdı, əynində qırmızı kamzolu oturmuşdu, gödəkboy, ətli və başına vurmuş qandan tamam qıpqırmızı idi. Boynundakı qızıl zəncirlər elə dolaşmışdı, sanki, zəncirləmişdilər onu. Bu içi yeməklə ağzına kimi dolu cəmdəyin ətrafındakı hava qazla, tər iyi ilə, şərab buxarı ilə zəhərlənmişdi və bu heyvanabənzər məxluqun yanında durmaq ürəkbulandıran dərəcədə murdar bir şey idi. Onun yanından çəkilərkən fikirləşdim ki, görəsən, yer üzündə insandan murdar məxluq varmı və başladım onun hersoq masasının arxasında oturmuş yaxınlarına növbə ilə şərab süzməyə. Sonra Covanninin badəsini doldurdum, fikir verdim ki, Ancelika mənə özünün girdə mavi gözlərindəki sadəlövh heyranlıq ifadəsi ilə baxır, hələ uşaq olanda, mənim daşa dönmüş sifətimdən onunla oynamaq istəmədiyimi başa düşərkən baxdığının eyni ifadəsi idi. Mən yaxınlaşanda, fikir verdim, oğlanın əlini buraxdı, qəflətən rəngi ağardı, yəqin, qorxdu ki, onların biabırçı sirlərindən duyuq düşərəm. O, heç də səhv etmirdi. Onların bir-birinə yaxınlaşmasını görmək nifrət doğururdu, özü də düşmənçilik edən iki nəslin nümayəndələri olmaqla yanaşı, həm də uşaq idilər, amma məhəbbətin murdar bataqlığına girmişdilər artıq. Mən onların sifətindəki qırmızılığa, qanın utanc gətirən istəklərdən coşmasını göstərən rəngə göz qoyurdum, bu istəklər əyaniləşəndə çox murdar bir mənzərə yaradırdı. Günahsızlıqla

şəhvətin bu qarışığını görmək ikrah doğururdu, bu qarışıq xüsusilə ona görə murdar idi ki, onlar yaşda olan insanların arasındakı məhəbbəti tamam başqa, biabırçı bir şeyə çevirirdi. Məmnuniyyətlə onun yarımçıq camını tamam doldurardım, amma bunun bir əhəmiyyəti yox idi, şərabımın bir damcısı da bəs edərdi.

Sonra don Rikkardoya yaxınlaşıb onun badəsini ağzına kimi doldurdum. Bu, mənə həvalə olunmuş vəzifəyə aid deyildi. Amma mənim şəxsən özümə aid vəzifələrim də vardı. Mən özüm də özümə tapşırıqlar verə bilirəm. Görəndə ki hersoq mənə baxır, onun baxışlarına sakitcə davam gətirdim. Qəribə baxış idi. İnsanlarda belə baxış olur. Cırtdanlarda isə heç vaxt. Sanki, pusquda durmuş, qəlbinin dərinliklərində gizlənən bir şey qəflətən üzə çıxmışdı və mənə qorxuqarışıq məmnuniyyətlə göz qoyurdu. Gizlin bir istək bircə dəqiqəliyə dərinliklərin zülmətindən çıxmışdı, sürüşkən bədəni qıvrılan, işıqdan qorxan su həyulası təki qəfil çıxmışdı. Mənim kimi qədim bir məxluqun bu cür baxışı heç vaxt ola bilməz. Onun gözlərinin içinə dimdik baxırdım və ümidvaram ki, əlimin əsmədiyini hiss etdi.

Bilirəm o, nə istəyir. Mən həm də onun cəngavər olduğunu bilirəm. Mən cəngavər deyiləm. Mən yalnız cəngavərin cırtdanıyam. Onun arzularını söyləməmişdən, heç fikrinə belə gətirməmişdən tapıram və onun bir hissəsi olmaqla, eşidilməz əmrlərini belə yerinə yetirirəm. Adamın yanında öhdənə düşən işlərin bir hissəsini boynuna çəkəcək belə balaca bir muzdlu qatil olsa, yaxşıdır.

Don Rikkardoya şərab süzəndə onun badəsi, təbii ki, yenə boş idi, kreslosuna yayılıb elə bir qəhqəhə çəkdi ki, saqqalı dimdik kimi qabağa uzandı, iki sıra bəyaz, enli dişləri olan ağzı isə lap geniş açılıb yekə bir deşik kimi qaraldı. Onun düz hülqumuna baxa bildim. Ğülən adama baxmağın, məncə, nə qədər iyrənc olduğunu artıq söyləmişəm. Lakin "həyata aşiq olmuş" və onu sonsuz dərəcədə gözəl sayan bu

təlxəyin bayağı qəhqəhəsini görmək ikiqat iyrənc idi. Dodaqları, damağı lap yaş idi, parlaq, geniş açılmış bəbəklərinə xırda damarlar uzanan gözlərinin kənarlarında daim yaş gilələnirdi. Qısa, qara tüklərindən aşağı, boğazında hülqumu atılıb-düşürdü. Sol əlində hersoginyanın bağışladığı yaqut qaşlı üzüyü gördüm, xəstələnəndə yollamışdı, bu üzüyü onun şəhvətli sevgi məktublarından birinə bükərək, sinəmdə gizlətmişdim.

Nəyə güldüyünü bilmirəm, mənim üçün maraqlı deyildi, əminəm ki, bilsəm belə, mənə qətiyyən gülməli gəlməyəcəkdi. Hər halda, sonuncu dəfə gülürdü, bunu bilirdim.

Mən öz işimi gördüm. İndi isə bu əxlaqsız, nikbin təlxəyin yanında duraraq onun qoxusunu, əynindəki, ehtirasına işarə olan tünd-qırmızı kamzolunun məxmərinin qoxusunu sinəmə çəkərək, işimin nəticəsini gözləyirdim.

Nəhayət, budur, hersoq – mənim möhtərəm hökmdarım yaşıla çalan badəsini qaldırdı və ən nəcib bir təbəssümlə özünün hörmətli qonaqlarına, Lodoviko Montansa ilə onun bütün əsabələrinə, ilk növbədə, üzbəüz əyləşdiyi Lodovikoya müraciət elədi. Onun insana nəcib və gözəl gələn sifəti buradakı bütün qalan qırmızı və şişkin sifətlərdən çox fərqlənirdi. Özünün xoşagələn, yumşaq və eyni zamanda bəm, güclü, əsl kişi səsilə iki dövlət, iki hersoq ailəsi, iki xalq arasında bu gündən etibarən, bərqərar olacaq əbədi sülhün şərəfinə sağlıq dedi. Bitmək bilməyən mənasız müharibələrə son qoyulub artıq, yeni dövr başlanıb və bu dövr bizim hamımıza xoşbəxtlik və sevinc gətirəcək. Nəhayət ki, müqəddəs kitabın dünyada əmin-amanlıq barədə yazdıqları həyata keçəcək. Bu sözləri deyərək, o, öz badəsini başına çəkdi və onunla eyni anda bütün ali qonaqlar da öz qızıl badələrini boşaltdılar.

Hökmdarım əyləşdi və əlində badəsi bir xeyli fikrə getdi, sanki, dünyanı yenə şüşə arxasından süzürdü.

Bayram səs-küyü təzədən qızışdı, bunun nə qədər davam etdiyini söyləmək mənə çətindir: elə vəziyyətlər olur ki, zaman anlayışını bilmərrə itirirsən. Həm də daxilimdəki gərginlik çox güclü, az qala, dözülməz idi, öz qədəhinə əlini belə vurmamış Covanniyə qəzəbim isə dəlilik həddinə çatırdı. Qəzəb içində görürdüm ki, Ancelika solğun bir təbəssümlə qədəhi özünə sarı çəkdi, elə bil, içmək istəyirdi. Umid edirdim ki, bir-birini sevən bu iki cavan mənim şərabımdan dadacaq, eyni bulağın gözündən içmək istəyəcəklər. Amma onların biri qədəhə heç toxunmadı da. Ya bu murdar qız nəsə duymuşdu, ya da onlar öz ehtiraslarından artıq elə məst idilər. Qəzəb içimdə qaynayırdı. Niyə yaşamalıdırlar axı! Lənətə gəlsin onları!

Əvəzində, don Rikkardo, təbii ki, badəsini başına çəkdi. Yeri gəlmişkən, son badəsini də nəcib kavaler kimi qəlbinin hakimi hersoginyanın şərəfinə qaldırdı. Tabutunun başında da oyunbazlıq edirdi. Komik jestlə yararsız sağ əlinə işarə edərək, sol əlilə onu qonaq etdiyim əvəzsiz içkini yuxarı qaldırdı, özünün məşhur, amma son dərəcə sarsaq görünən təbəssümünü bütün ağzı ilə nümayiş etdirirdi. Qadın da onun üzünə gülümsünürdü, əvvəlcə yüngülvari, bic-bic, sonra isə baxışlarından məni iyrəndirən nəm, nisgilli parıltı yağdıraraq gülümsünürdü. Başa düşmürəm ki, bu cür baxmaqdan necə utanmır qadın olan bəndə.

Birdən Öküz vəhşi bir nərə çəkdi və onun gözləri bir anda, sanki, şüşəyə döndü. Stolun həmin tərəfində oturmuş əsabələrindən bir neçəsi yerindən sıçradı, amma ayaq üstə dayana bilmədi, masanın kənarından yapışıb, təzədən öz stullarına sərildilər, ağrıdan qıvrılır, zəhər barədə nəsə mızıldanırdılar. Eşitmək olmurdu onları. Lakin hələ halı üstündə olanlardan biri ucadan, bütün zala çığırdı: "Bizi zəhərləyiblər!" Hamı yerindən qalxdı, ara dəhşətli dərəcədə qarışdı. Lodovikonun adamları xəncərlərini, başqa silahlarını qaparaq, zalın hər tərəfindən əsas stola sarı yüyürüb, öz ağalarına yaxınlaşa

bilmək üçün bizimkilərə zərbələr endirməyə başladılar. Amma bizim adamlar da artıq qalxmışdılar, özlərini və hersoqu müdafiə etməyə çalışırdılar. İt yiyəsini tanımırdı, ağlasığmaz bir qarışıqlıq düşdü. Həm bizimkilərin, həm də onların arasında ölənlər, yaralananlar vardı, qan su yerinə axırdı. Elə indicə dinc, yanaşı oturmuş sərxoş, qırmızısifət döyüşçülər bir anın içində ölümcül davaya qalxmışdılar, dörd divar arasında, bərbəzəkli stolların arxasında müharibə meydanındaymış kimi vuruşurdular. Hər tərəfdən can verənlərin iniltisini, xırıltısını boğan qışqırıq, çığırtı eşidilirdi. Dəhşətli lənətlər cəhənnəmin bütün ruhlarını bura, cinayətlərin ən məkrlisinin törəndiyi yerə çağırırdı. Mən stulun üstünə qalxdım ki, baş verənləri yaxşı görə bilim. Əməlimin nəticəsinə həyəcandan, coşqunluqdan özümü itirərək baxırdım, daha yaxşı aqibətə layiq olmayan bu murdar cinsin kökünü necə kəsdiyimə baxırdım. Baxırdım ki, mənim amansız və öldürücü, cəza verən və intiqamını alan qüdrət qılıncım onların başları üstündə necə oynayır. Bu insanları əbədi əzab üçün cəhənnəmin körüyünə necə yolladığıma baxırdım. Qoy onların hamısı cəhənnəm alovunun zəbanəsində yansın! Ozlərini insan adlandıran və yalnız ikrah, nifrət doğuran bütün bu iyrənc məxluqlar! Niyə yaşasınlar axı! Niyə yeyib hırıldaşsınlar, sevişsinlər, doğub-törəsinlər yer üzündə! Xeyirxahlıqları bəd əməllərindən dəhşətli olan bu yalançı komediantlar, bu ikiüzlülər, bu günahkar və abırsız məxluqlar nəyə lazımdır axı! Qoy onların hamısı cəhənnəmdə kül olsun! Mən özümü iblis sayırdım, zülmətin bütün ruhları məni əhatə edirdi, bu ruhları isə onların özləri çağırmışdılar cəhənnəmdən və indi həmin o ruhlar ətrafda qaynaşırdılar, üz-gözlərini eybəcər şəklə salıb özlərilə ölülər səltənətinə hələ bədən iyi verən təzə ruhları dartıb aparırdılar. O vaxtadək yaşamadığım, huşumu itirəcək dərəcədə iti olan bir həzzlə yer üzündəki hakimiyyətimi duyurdum. Mən idim dünyanı dəhşət və ölümlə dolduran, mən idim buraları parlaq bayramdan ölüm

və qorxu səltənətinə çevirən. Mən öz dərmanımı hazırlayıram – hersoq və hersoginyalar ölümqabağı can çəkişmələrində inildəyir və döşəmədə, öz qanlarında qıvrılırlar. Mən öz içkimə onları qonaq edirəm – bəzəkli, təmtəraqlı stolların arxasındakı möhtərəm qonaqların rəngi ağarır, daha heç kəs heç kəsə gülümsünmür, qadına məhəbbətdən, həyata məhəbbətdən dəm vurmur. Çünki mənim şərbətim həyatın ecazkar və gözəl olduğunu unutdurur, ətrafda hər şeyi qatı duman bürüyür, gözlər kor olur, baxışlara zulmət çökür. Mən onların məşəlini təpəsi üstə çevirərək söndürürəm, qaranlıq hər yanı öz ağuşuna alır. Buranın sahibi mənəm, mən onları özümün Dəhşət Axşamıma toplayıram, daim qəlbimi qidalandıran, onlar üçünsə elə ölümün özü olan zəhərli qanımdan daddıraraq hamısını kor edirəm.

Öküz hərəkətsiz oturmuşdu, üzü göyərmiş, seyrək saqqallı alt çənəsi isə qəzəbli bir tərzdə sallanmışdı, sanki, öz çürük dişləriylə kimisə dişləməyə hazırlaşırdı. Gözləri hədəqəsindən çıxmış, saralaraq qanla dolmuşdu, baxanda adamı dəhşət götürürdü. Birdən zəncirlənmiş boynunu iti bir hərəkətlə tərpətdi, sanki, sındırmaq istəyirdi və ağır kəlləsi yana sallandı. Onun qısa öküz bədəni qövs kimi əyildi, bıçaq sancılıbmış kimi titrədi, – o artıq ölmüşdü. Onun hersoq stolunun arxasında oturmuş yaxınları isə cəhənnəm əzablarında qovrulurdular, lakin tezliklə onlar da hərəkətsiz qaldılar, həyat nişanəsi daha görünmürdü sifətlərində. O ki qaldı don Rikkardoya, o, kreslosuna yayxanaraq gözlərini qapayıb ölürdü, sanki, mənim şərbətimdən ləzzət alırdı (gözəl şərab dadanda, onun sevimli pozası bu idi), sonra birdən bütün dünyanı qucaqlamaq istəyirmiş kimi, əllərini yana açdı, arxası üstə yıxıldı, peysəri yerə dəyib taqqıldadı – bu da son.

Qızğın döyüşdə və qarışıqlıqda isə onların hayına qalan yox idi, özləri öləsi idilər və hərə də öz bacardığı kimi ölürdü. Təkcə Öküzlə bir sırada oturmuş və lənətə gəlmiş qızın ucbatından

şərbətimə əl dəyməmiş Covanni atasının yanına atılıb cəsədi üstünə əyilmişdi, guya, əlindən nəsə gələ bilərdi. Lakin qoca əclafın canı ağzından çıxan kimi, yumruqları yaxşı dəmirçi yumruqlarına bənzəyən bir nəhəng Covanniyə yaxınlaşmağa müvəffəq oldu, onu qoltuğuna vurub çıxışa sarı üz qoydu. Bu qorxaq da, təbii ki, özünü aradan çıxarmalarına imkan verdi. Bax, beləcə qaçdı əlimizdən. İblis aparsın onu!

Stol aşdı, üstündə nə vardısa yerə töküldü, qəzəbdən özünü unudub, bir-birinin qanını tökməyə can atanların ayaqları altında sıyığabənzər bir şeyə çevrildi. Qadınlar artıq çoxdan çığırtı salıb dağılışmışdılar, lakin davanın ən qızğın dəmində hersoginyanı gördüm, daş heykəl kimi donaraq, ətrafındakı dağıntının içində durmuşdu, sifəti ölününkü kimiydi, gözləri, elə bil, şüşə parçasına çevrilmişdi. Qırışlı, boşalmış dərisində yanaq qırmızısının qalıqları olan bu son dərəcə solğun maska komik təsir bağışlayırdı. Nəhayət ki, nökərlər onu bu dəhşət zalından apara bildilər, o da tamamilə iradəsiz halda onların dalınca getdi, sanki, harada olduğunu, hara getdiyini də anlamırdı.

Montansanın say etibarilə üstün qüvvələrimiz tərəfindən sıxışdırılan adamları çıxış qapılarına tərəf geri çəkilməyə başladılar, amma yenə də vəhşi kimi müdafiə olunurdular, hərçənd ki, silahları aşkar azlıq edirdi. Döyüş pilləkənlərdə də davam edirdi, onlar düz meydana kimi təqib olundular. Lakin burada hər tərəfdən sıxışdırılan düşmənə Montansanın palasso Ceraldidən çağırılmış şəxsi mühafizə dəstəsi köməyə yetişdi və düşmən onların yardımı ilə şəhərdən qaça bildi. Yoxsa sonuncu nəfərədək qırılacaqdılar.

Mən boşalmış zalın alatoranında durmuşdum, bütün qəndillər yerdə idi. Yalnız cır-cındır geymiş, ac küçə uşaqları əllərindəki məşəllərlə ölülərin arasında yemək qalıqları axtarır, tapdıqlarını dəhşətli bir acgözlüklə udurdular və eyni zamanda, gümüş qab-qacağı da götürməyi unutmurdular, onları paltarlarının altında gizlədərək çırpışdırırdılar. Burada çox

ləngiməkdən qorxduqları üçün məşəlləri atdılar, qənimətlərini də götürərək sivişib küçəyə qaçdılar, mən isə zalda tamam tək qaldım. İndi ətrafıma sakitcə göz gəzdirib düşünə bilərdim.

Daş döşəmədə sönməkdə olan məşəllərin sayrışan işığında, qan gölündə tapdalanmış, kirlənmiş süfrələrin, ziyafət xörəklərinin arasında yaman gündə olan meyitlər qalaq-qalaq idi – həm bizimkilərin, həm də onların meyitləri. Bayram paltarları cırılmış, kirlənmişdi, rəngi qaçmış sifətləri isə hələ qəzəbli ifadələrdən əyilmişdi, çünki onların hamısı qəddar döyüşdə, dəli qəzəbin ağuşunda ölmüşdü. Mən də dayanıb bütün bu mənzərəyə özümün qədim gözlərimlə baxırdım.

Bəşər sevgisi. Əbədi sülh.

Bu məxluqlar özlərindən, öz həyatlarından danışarkən pafoslu, gözəl sözlər olmadan keçinə bilmirlər də.

Ertəsi gün mən hersoginyanın yataq otağına gələndə o, yerinin içində hər şeyə biganə halda uzanmışdı – mənasız gözlər, qupquru dodaqlar. Adama elə gəlirdi ki, bu dodaqlar bir də heç bir səs çıxarmayacaqdır. Səliqəsiz, solğun saçları əzik çarpayı başlığında kilkə kimi qalmışdı. Əlləri heysiz halda yorğanın üstnə düşmüşdü. O, məncə, gəldiyimi heç görmürdü, hərçənd ki, düz otağın ortasında durmuşdum və onun üzünə baxırdım ki, tapşırığı varsa, söyləsin. Onu ürəyim istəyən qədər nəzərdən keçirə bilərdim. Yanağının qırmızısı hələ tam silinməmişdi – keçmiş sevincin yeganə sübutu, üzünün solmuş və qurumuş dərisi, köklüyünə baxmayaraq, tamam qırış içində olan boynu. Həmişə ifadəli olan gözləri də indi donub qalmışdı. Onların bütün parlaqlığı itmişdi. Heç kəs inanmazdı ki, nə vaxtsa gözəl olub bu qadın, kimsə onu sevib, qucaqlayıb. Bu fikrin özü indi ağlasığmaz görünürdü. Yataqda qoca, eybəcər bir qadın uzanmışdı.

Nəhayət ki.

Bizim sarayda matəmdir. Saray öz təlxəyini itirdi. Bütün saray camaatı, bütün cəngavərlər, şəhərin bütün adlı-sanlıları

və təbii ki, öz nökər-qulluqçuları yola salırdı onu. Mən əminəm ki, onun nökərləri sidq-ürəkdən ağlayırdılar onun üçün – belə qayğısız, bədxərc xozeyinə qulluq eləmək, yəqin, xoş idi. Dəfn mərasiminə tamaşa eləmək üçün qara camaat da küçələrə tökülmüşdü – deyirlər ki, bu məsuliyyətsiz insandan onların da xoşu gəlirmiş. Onlar, nə qədər qəribə olsa da, belələrini çox istəyirlər. Bir qarnı ac, bir qarnı tox yaşaya-yaşaya, başqalarının qayğısız, israfçı həyat tərzindən gözəl hekayətlərə sevə-sevə qulaq asırlar. Deyirlər ki, qara camaat onun barəsində dillərdə dolaşan lətifələrin hamısını – onun "igidlikləri" və "oyunbazlığı" haqqında – əzbər bilir, bu lətifələri sarayın yanına sığınmış yoxsul daxmalarında danışmağı xoşlayırlar. İndi isə o, camaatı bir də sevindirirdi, özünün təmtəraqlı dəfninə tamaşa etmək imkanı vermişdi onlara.

Mərasimin önündə başını lap aşağı salmış, qüssədən əzilmiş kimi görünən hersoq gedirdi. Aktyorluq etmək lazım gələndə onun əvəzi yox idi. Amma bunda təəccüblü bir şey də yoxdur. O axı təbiətən çoxsifətli idi.

Heç kəs pıçıldaşmağa cəsarət eləmirdi. Mərasimdən sonra, öz daxma və saraylarında nədən danışacaqdılar, bunun elə bir əhəmiyyəti yox idi. Baş vermiş hadisəni taleyüklü bir anlaşılmazlıq hesab etmişdilər. Don Rikkardo mötəbər qonaqlar üçün nəzərdə tutulmuş zəhərli şərabı səhvən içmişdi. Axı onun sonsuz iştahası hamıya bəlli idi, təəssüf ki, faciəvi ölümündə də bütün günah elə onun öz boynuna düşürdü. O ki qaldı Lodoviko ilə əsabələrini zəhərləməyimizə, buna yalnız sevinirdilər, – elə zəhərlənməli alçaq idi, – deyirdilər.

Dəfn mərasimində hersoginya yox idi. O elə uzana qalmışdı, hərəkətsiz, hər şeyə biganə idi, yeməkdən də imtina etmişdi. Daha doğrusu, imtina etmirdi, çünki, ümumiyyətlə, bir kəlmə də danışmırdı, amma qulluqçular bir tikə də sala bilmirdilər ağzına. Gözləri qıpqırmızı olmuş sarsaq kameristkası da çaşqın halda onun başına hərlənir, gözlərinin yaşını ətli yanaqlarına yaxırdı.

Məndən heç kəs şübhələnmir. Çünki mənim içimdəkiləri bilən yoxdur.

Çox ola bilər ki, hersoq onun ölümünə möhkəm qüssələnir. Onun təbiətini nəzərə alsan, bunu da istisna etmək olmaz. Mənə belə gəlir ki, onun üçün kədərlənmək hersoqa xoş gəlir, ona elə gəlir ki, bu, gözəl və nəcib bir hərəkətdir. Cəngavərlərə xas qərəzsiz kədər – bu hiss insanı ucaldan, böyüdən bir hissdir. Həm də hersoq onun ölümünü arzulasa belə, yaman bağlanmışdı ona. İndi o, dünyasını dəyişəndən sonra isə ikiqat əziz olmuşdu. Əvvəllər onun öz dostuna bəslədiyi hissləri nələrsə məhdudlaşdırırdı. İndi onların heç biri artıq yoxdur. İndi, istədiyinə çatandan sonra hiss edirdi ki, getdikcə daha çox sevir onu.

Hamı don Rikkardodan danışır, başqa mövzu yoxdur. Onun necə insan olmasından, necə yaşamasından, necə ölməsindən, filan-filan vaxtlarda nə deməsindən, filan-filan hallarda necə ürəyigenişlik göstərməsindən, cəngavərliyindən, şən və igid bir kişi olmasından söhbət açırdılar. Sanki, o, yaşadığı günlərə nisbətən indi daha canlı idi. Amma insan təzə öləndə həmişə belə danışırlar. Bu tez keçir. Sənin mütləq unudulacağından labüd həqiqət mövcud deyil.

Onlar isə söyləyirlər ki, guya, o heç vaxt unudulmayacaq. Sonra müstəsna adam olması, qeyri-adiliyi haqqında nağıllar uyduraraq onu ölməzliyə qovuşdurmaq istəyirlər. Qəribədir ki, bu insanlar ölümə nifrət edirlər, xüsusilə də əgər söhbət öz sevimlilərindən gedirsə. Beləliklə, əfsanə yaradıcılığı özünün ən qızğın dövrünü yaşayır və bu əyyaş, boşboğaz və təlxək barədə bütün həqiqətləri bilənlərə isə yalnız əllərini yana açıb onların nağıllarına qulaq asmaq qalır. Danışdıqlarının həqiqətə qətiyyən aidiyyəti olmadığı belələrini heç narahat eləmir; deyirlər ki, o, sevincin, poeziyanın özüdür, daha nədir, daha nədir və dünya onsuz ləzzətini itirib, təəssüf ki, bir də heç vaxt onun sirayətedici gülüşünü eşitməyəcək,

zarafatlarının şahidi olmayacaqlar, onlar özlərini kədərin əlində əsir olan bir yetim kimi hiss edirlər. Onun xiffətini çəkməkdən indi hamının dəhşətli dərəcədə xoşu gəlir.

Hersoq bu melodramda özünəxas qəlbigenişliklə iştirak edir. O, təriflərlə dolu nitqlərə qüssə içində qulaq asır, arabir də hersoqun dilindən çıxdığına görə, daha gözəl görünən replikalarını tullayır.

Amma, ümumiyyətlə, küll halında götürəndə ümidvaram ki, o, özünün kiçik rəğbətindən tam razı qalıb. Hərçənd ki, bunu heç büruzə vermir. O, baş vermiş hadisə barədə mənə nə yaxşı, nə də ki pis bir söz demədi. Hersoq istəsə, öz nökərlərinin hərəkətlərini görməyə bilər, əgər ona belə rahatdırsa.

O, məndən qaçır. Həmişə bu cür vəziyyətlərdə olduğu kimi.

Hersoginyanın kədəri heç bir şeydə görünmür. Bilmirəm bunu necə yozum, – ola bilər ki, bu, onun çox qüssələnməsinə dəlalət edir. O, sadəcə, yataqdadır, gözlərini bir nöqtəyə zilləyərək uzanıb.

Onun qəm yeməsinin səbəbkarı təkcə mənəm, başqa bir kimsə deyil. Əgər o, çıxılmazlığa düçar olubsa, bu yalnız mənə görədir. Əgər o, tanınmaz dərəcədə dəyişibsə və bir də heç vaxt əvvəlki kimi olmayacaqsa, bunun da baiskarı mənəm. Və əgər o, yatağa düşübsə, uzana qalıbsa və daha öz görkəmi barədə heç düşünmürsə, bütün bunlar mənə görədir.

Mənim heç ağlıma da gəlməzdi ki, onun üzərində nə dərəcədə təsirim varmış.

Qətl hersoqun populyarlığını lap artırdı. Hamı bir ağızdan deyir ki, o, görkəmli hökmdardır. Hələ heç vaxt düşmən üzərində qələbə belə tam olmamışdı və hökmdarın şəxsiyyətinə təbəələrində bu dərəcədə sitayiş doğurmamışdı. Onunla fəxr edirlər və belə düşünürlər ki, bu hərəkəti ilə qeyri-adi uzaqgörənlik və qətiyyət nümayiş etdirib.

Bəziləri tərəddüd edirlər ki, bütün bunlar sonucda xeyrə calanacaqmı? Onlar indidən xoşagəlməz şeylər duyurlar. Əşi, beləlləri həmişə olur da. Əksəriyyət isə ruh yüksəkliyi içindədir və elə ki hersoq göründü, onu alqışlarla, heyranlıqla qarşılayırlar. Məqsədə aparan yolda heç bir maneə görməyən hökmdarın nüfuzu qarşısında kim davam gətirə bilər ki!

Xalq ümid edir ki, nəhayət, sakit və xoşbəxt həyat sürəcək. Onlar razı qalıblar ki, qonşu xalq öz başçısını itirib: artıq xoşbəxtliyə çatmaq yolunda qonşuları heç bir maneə yarada bilməyəcək, onları narahat etməyəcəklər.

Onların dərdi-azarı təkcə xoşbəxtlikdir.

Maraqlıdır, görəsən, indi hansı uzaqgörən planlar qurur. Görəsən, onlara yenə hücum çəkib birbaşa şəhərə girmək, ölkəni tam istila etmək istəyirmi? Onların bütün başçılarını, az-çox əhəmiyyətli simalarının hamısını aradan götürəndən sonra bundan asan nə vardı ki. Covanni uşaqdır, onu saya almaq gərəkməz, o, bizim üçün heç bir narahatlıq yaradası deyil, bir şey olan kimi aradan çıxanlardandır. Yaxşı olardı ki, onu tutub əsl kişi davranışının necə olduğunu öyrədək.

Şübhə etmirəm ki, mənim ağam bu qətliamın meyvələrini dərmək niyyətindədir. Bu, ağlabatan hərəkət olardı. O, əlindəkilərlə qane olanlardan deyil. Əgər əkdinsə, mütləq biçmək də lazımdır.

Sarsaq şayiələr dolaşır, guya, Montansa xalqı silaha sarılaraq, öz hersoqlarının və onun yaxınlarının qanını alacağına and içir. Boş söhbətlərdir təbii ki. Çox ola bilər ki, onlar, həqiqətən, qəzəbləniblər. Bizim istədiyimiz də elə bu idi də. Amma silaha sarılmaqları, belə bir hökmdara görə qisas almaq niyyətində olmalarına inanmağım gəlmir. Hətta deyilənlər həqiqət olsa belə, buna əhəmiyyət vermək lazım deyil. Hökmdarsız xalq, təkəsiz keçi sürüsü kimi bir şeydir.

Eşitmişəm ki, onlarda hakimiyyət başına gənc Covanninin əmisi, Lodovikonun qardaşı gəlib. İntiqam alacağına da, guya, o and içib. Bax bu, həqiqətə daha çox oxşayır. Xalq öz hökmdarına görə intiqam almır, niyə də alsın ki? Xalq bütün hökmdarların əyyamında eyni dərəcədə pis yaşayır və həmişə özünə əzab verənlərin lap birindən də olsa, canını qurtaranda sevinir.

Deyirlər ki, o da elə mərhum Lodoviko kimi bir adamdır, amma indiyədək onu sıxışdırır, əhəmiyyətli bir rol oynamasına imkan vermirdilər. Adı Erkole Montansadır və görünür, döyüşçü olmasa belə, təhlükəli adamdır. Deyirlər ki, o indi sükanı öz əlinə alıb, özünün dediyinə görə, ölkəni ölüm təhlükəsindən xilas etmək və həm də səltənətin hersoqu olmaq, həddindən ziyadə zəif xarakterə malik gənc varisi kənarlaşdırmaq üçün; o, özünü Montansa nəslinin layiqli davamçısı kimi, hökmdarlıq vəzifəsinə daha uyğun sayırmış. Nə olar, tamamilə inandırıcıdır. Dünyada hər şey, adətən, belə baş verir.

Deyəsən, bu maral gözlü, sinəsində medalyonu olan oğlanın heç vaxt taxta çıxmayacağı barədə dediklərim yavaş-yavaş doğrulmağa başlayır axı.

Deyirlər ki, artıq qisas almaq üçün lazımi sayda qoşun toplanıb, guya, düşmən artıq ölkəmizə girib çay boyu irəliləyir. Qoşuna rəhbərliyi Bokkarossa edir; o, muzdluları ilə bir yerdə, bizim verdiyimizdən iki dəfə artıq məbləğə yeni Montansa uğrunda ölməyə razılıq verib. Onlar vəhşilik törədir, qarşılarına çıxan nə varsa yandırır, məhv edirlər – görünür, heç ölməyə hazırlaşmırlar, başqalarını öldürməyə gəliblər bura.

Bizim sərkərdələr tələsik qoşun yığırlar ki, düşmənin irəliləməsini dayandıralar. Şəhərdə əsgər yenə çoxdur, onlar cəbhəyə yollanırlar ki, nəhayət, öz işləri ilə məşğul ola bilsinlər.

Hersoq isə, əslində, tam fəaliyyətsizdir.

Deyirlər, canlı qüvvə sarıdan bizim çətinliyimiz var, məlum məsələdir də, gör sonuncu müharibədə nə qədər adam ölmüşdü.

Lazımi qədər, heç olmasa, əlində qılınc tuta bilən kişi yığmaq elə asan iş deyil. Amma çalışırlar, kim varsa yığırlar ki, Montansanın ordusundan sayca az olmayaq, axı onlar da son müharibədə kifayət qədər gücdən düşmüş, möhkəm itkilərə məruz qalmışdılar. Əvvəlki ruh yüksəkliyi gözə dəymir, amma hamı əmrə tabe olur, başa düşürlər ki, bu, qaçılmazdır. Hamı anlayır ki, hərə öz nəsibi ilə sözsüz barışmalıdır, həyatda yalnız xoşbəxtlik naminə yaşamaq olmaz.

İstilaçılar şəhərə can atırlar və onların qarşısını indi yalnız təsadüf ala bilər. Bizim qoşunlar mövqelərini uzun müddət saxlaya bilmir, hər dəfə geri çəkilməyə məcbur olurlar. Döyüş meydanlarından elə eyni zəhlətökən, kədərli məlumatlar yetişir – verilən itkilər və bizim qoşunların geri çəkilməsi barədə.

Düşmən, ayağı dəyən yerləri sonuna kimi talan eləyir. Kəndləri tutan kimi yandırır, əhalini o dəqiqə qətlə yetirir. Mal-qaranı tutub aparır, bir qismini kəsib elə düşərgə tonqallarının dibində yeyirlər, qalanını isə ehtiyat üçün aparırlar. Zəmilərdəki taxıla od vururlar. Bokkarossanın muzdluları ürəkləri istəyəni edirlər. Onlar keçən yerdə bir ins-cins qalmır.

Şəhərə dəstə-dəstə qaçqın axışır, şəhər darvazalarından öz arabaları ilə arası kəsilmədən, elə hey keçirlər. Nələr yoxdur bu arabalarda: gil qazanlar, yorğanlar, cır-cındır, köhnə-kürüş, o qədər gərəksiz şeylər gətirirlər ki, hamını gülmək tutur. Kimsə keçinin, arıq inəyin buynuzundan yapışıb çəkir, möhkəm qorxduqları isə görkəmlərindən bəllidir. Şəhərlilər deyinirlər: niyə gəliblər bunlar? Onların şəhərə doluşması hamıya narahatlıq yaradırdı. Qaçqınlar elə meydanlardaca binə salır, öz mal-heyvanlarının yanında yatırdılar və şəhər də getdikcə daha çox pinti bir kəndə bənzəyirdi, onlar harada yerləşirdilərsə, oradan dəhşətli üfunət ucalırdı.

Bizim qoşunlar geri çəkilməkdən başqa heç bir iş görmürlər. Şayiələr gəzir ki, düşmən artıq şəhərin yaxınlığındadır, amma dəqiq harada olmaları mənə bəlli deyil, aldığım məlumatlar bir-birinə tamamilə ziddir, odur ki, onlara inanmaq olmur. Cəbhədən gələn məlumatlar da elə eyni zəhlətökən, darıxdırıcı xəbərlərdir, guya, müqavimət göstərib bizimkilər, amma axırda geri çəkilməyə məcbur olublar, indi isə yeni mövqedə möhkəmlənməyə çalışırlar, bir azdan da xəbər yetişir ki, bu mövqeni də buraxıb geri çəkildilər və sairə. Qaçqınlar sel kimi axır, onlar bütün şəhəri özlərinin mal-davarı, cır-cındırıyla ağzına kimi doldurublar.

Qəribə müharibədir.

Mənim üçün hersoqun biganəliyi, bütün işləri öz sərkərdələrinə tapşırması anlaşılandır. Onu müdafiə qətiyyən maraqlandırmır, cəlb etmir. O, mənim kimidir, hücum etməyi sevir. Hücum – bu, bizim ruhumuzun mayasındadır. Müdafiə olunmaqdan nə ləzzət almaq olar? Daim eyni şeydir, nə döyüşün parlaqlığı, nə ehtirası var onda. Nəyə lazımdır müdafiə? Tamam mənasız şeydir. Ondan kimin xoşu gələ bilər ki? Darıxdırıcı müharibədir.

Montansanın və Bokkarossanın qoşunları artıq şəhər divarlarından görünür. İndi axşamdır, qüllənin təpəsində yerləşən otağımın pəncərəsindən düzənlikdə düşərgə tonqallarını işıqlı nöqtələr kimi görürəm. Qaranlıqda bu çox gözəl mənzərədir.

Mən indi tonqal kənarında oturmuş və bugünkü qəhrəmanlıqlarını qeyd edən muzdlu döyüşçülərin sifətini aydın təsəvvür edirəm. Budur, tonqala zeytun ağacının budaqlarını atırlar və alovun oynaşan dilləri onların sifətlərinin sərt, qətiyyətli cizgilərini işıqlandırır. Onlar əsl kişidirlər, təsadüf ehtimalı qarşısında qorxu yaşamır, öz talelərinə sahiblik edirlər. Onlar öz tonqallarını istənilən torpaqda çatırlar, hansı xalqın

çörəyini yedikləri barədə qətiyyən düşünmürlər. Onlar hansı ağaya qulluq etdiklərini də heç vaxt soruşmurlar: həmişə yalnız özlərinə qulluq edirlər. Usanmış halda birbaşa torpağın üstünə uzanır, sabahkı qanlı qırğın ərəfəsində dincəlirlər. Onların öz vətəni yoxdur, amma bütün yer üzü də elə onlara məxsusdur.

Gözəl axşamdır. Payızın havası təmizdir, dağlardan küləyin gətirdiyi sərinlik duyulur havada, göydə də, yəqin, ulduzlar var. Mən pəncərənin qabağında uzun müddət oturub, saysız-hesabsız işıqlı nöqtələrə – tonqallara baxırdım. Amma vaxt idi artıq, gedib dincəlməliydim.

Bu qədər uzaqda olan tonqalları seçə bilməyim qəribə idi, göydəki ulduzları isə, ümumiyyətlə, görmürəm, heç vaxt görə bilməmişəm. Mənim gözlərim, elə bil, başqalarınkı kimi deyil, amma bu heç də o demək deyil ki, gözlərim xarabdır, çünki yer üzündə nə varsa, tamam aydın görürəm.

Mən Bokkarossa barədə tez-tez düşünürəm. O, gözlərimin önündədir; özünün çopur sifəti, yırtıcı çənəsi və dərində gizlənən gözləri, hündür, az qala, nəhəng boyu ilə. Sinəsində də şir sifəti – qəzəblə qıcanmış yırtıcı dişlər, bütün dünyaya göstərdiyi dil.

Qala divarlarının düz altında baş vermiş dramatik döyüşdən sonra bizim əsgərlər özləri də şəhərə qaçqınlarla bir yerdə gəldilər. Döyüş qanlı olmuşdu və bizimkilər neçə yüz adam itirmişdilər, sürünə-sürünə şəhər darvazalarından keçən, ya da döyüş meydanına ərlərini, oğullarını axtarmaq üçün çıxmış qadınların köməyi ilə gətirilən yaralılardan isə heç danışmağa dəyməzdi. Bizim əsgərlər müqaviməti dayandırıb şəhər divarlarından içəri çəkilərək, burada sığınacaq tapanda vəziyyət artıq ağlamalı idi. Onların ucbatından şəhərdə, həqiqətən, dəhşətli bir qarışıqlıq vardı, adama elə gəlirdi ki, küçələrdəki əsgərlərin, yaralıların, kəndlərdən gəlmiş qaçqınların

əlindən şəhər indicə partlayacaq. Ara tamam qarışmışdı, təbii ki, əhvali-ruhiyyə də bundan daha pis ola bilməzdi. Adamlar elə küçədəcə yatırdılar, hərçənd ki, gecələr möhkəm soyuq olurdu, amma elə gündüz də əldən düşmüş, yorğunluqdan yatmış adamlara, yaralılara rast gəlirdin, onların bəzilərinin yaralarını eləcə birtəhər sarımışdılar, daha bir kimsə yox idi qayğılarını çəkə. Qısası, bir çıxılmazlıq, ümidsizlik vardı hamıda və qarşıdakı mühasirə barədə düşüncələr bu ümidsizliyi bir az da dərinləşdirirdi.

Heç Bokkarossa kimi birisinə müqavimətə cəhd etməyə dəyərdimi? Şəxsən mən bu müharibənin uğuruna heç vaxt inanmamışam.

Lakin deyirlər ki, şəhər son damla qanımızadək müdafiə olunacaq. Yəni onun müdafiə istehkamları, guya, çox möhkəmdir, uzun müddət davam gətirə bilər, bəlkə də, lap alınmazdır bizim qala. Bütün şəhərlər həmin o ana kimi alınmaz olur ki, kimsə onu almaq üçün əməlli hücuma keçir. Bu alınmaz qalalar barədə mənim öz düşüncəm var.

Hersoq birdən dirilib, deyəsən, şəhərin müdafiəsini öz üzərinə götürəcək. İndi ona çəp-çəp baxır, görəndə də heyran alqışlarla qarşılamırlar daha. Qətiyyən. Belə hesab edirlər ki, Montansanın bütün əsabələriylə bir yerdə qətli ağılsız bir hərəkət idi və belə hərəkət yeni müharibələr, yeni əzablardan savayı, heç nə gətirə bilməzdi.

Hersoginya yenə ayaq üstədir, başlayıb xırda-xırda yeməyə, amma özünə hələ də oxşamır. Çox arıqlayıb, bir zamanlar kök üzünün dərisi bozararaq tamam quruyub. Onu, elə bil, dəyişiblər. Paltarları əynindən tökülür, elə bil, özgəninkidir. Daim qara geyinir. Hərdən dillənəndə də yavaş, az qala, pıçıltıyla deyir sözünü. Ağzı elə əvvəlki kimi, qupqurudur, arıqlamağı sifətinin ifadəsini büsbütün dəyişib, gözləri çuxura düşüb, ətrafında qara halqalar var, baxışı qızdırmalı adamlarınkına bənzəyir.

O, saatlarla, dizləri tamam uyuşana kimi xaçın önündə dua eləyir, sonra da böyük çətinliklə ayağa qalxır. Nə barədə dua etməsini, təbii ki, mən bilmirəm, lakin duaları çox güman ki, yerinə çatmır, çünki hər gün təzədən başlayır İlahiyə yalvarmağa.

O, öz yataq otağından heç çıxmır.

Mənim eşitdiyimə görə, maestro Bernardo hersoqa müdafiə istehkamlarının möhkəmləndirilməsi üçün kömək edir və mühasirəyə düşmüş şəhər üçün son dərəcə qiymətli, cürbəcür qurğular fikirləşir. Deyirlər ki, qızğın iş gedir bu sahədə, nə gündüz bitir, nə də gecə.

Mən maestro Bernardonun dahiliyinə zərrə qədər də şübhə etmirəm. Lakin Bokkarossanın qarşısında, elə bilirəm ki, o da acizdir. Qoca maestro ruhən, şəksiz ki, güclüdür, zəkası da çox şeyi, bəlkə də, lap hər şeyi ehtiva eləyir. Onun qulluğunda təbiətin güclü ünsürləri durub, bəlkə də, bunu həmin o ünsürlər heç öz iradələrilə etmir. Amma Bokkarossa özü bir təbiət ünsürüdür və bütün qalan ünsürlər də ona məmnuniyyətlə kömək edirlər. Mənə elə gəlir ki, təbiətə o daha yaxındır.

Bernardo – ana təbiətdən ayrılmış bir insandır və onun özündənrazı, aristokrat cizgiləri həmişə içimdə bir inamsızlıq oyadıb.

Mənə elə gəlir ki, döyüş qeyri-bərabər olacaq.

Kim onları yanaşı qoyub baxsa, – Bernardonun zəkalı alnına və Bokkarossanın vəhşi, yırtıcı çənəsinə, – kimin daha güclü olması barədə qətiyyən tərəddüd etməzdi.

Şəhərdə ərzaq qıtlığı yaranıb. Burada, sarayda biz, təbii ki, bunu hiss etmirik, amma deyirlər ki, xalq aclıq çəkir. Əhalinin bu qədər artdığını nəzərə alsaq, burada qəribə heç nə yoxdur. Qaçqınlara getdikcə daha artıq narazılıqla baxırlar, onları tamamilə əsaslı olaraq ərzaq qıtlığının baiskarı

sayırlar. Həqiqətən də, şəhər əhalisi üçün ağır yükdür onlar. Xüsusilə də burnunu hər yerə soxub, sədəqə dilənən, daim zarıyan kirli-paslı uşaqlar adamın zəhləsini tökürlər. Deyirlər ki, fürsət tapanda onlar hətta oğurluq da edirlər. Çörəyi həftədə iki-üç dəfə paylayırlar, onu da çox az miqdarda, çünki heç kəs mühasirəyə hazır deyildi, indi də ərzaq ehtiyatı azlıq edir. Yəqin, tezliklə ərzaq tamam tükənəcək. Özüylə keçi, inək gətirmiş qaçqınlar əvvəlcə südlə dolanırdılar, sonra isə acından arıqlayıb ölən heyvanlarını kəsməyə məcbur oldular, çünki yem onsuz da yox idi və bir müddət həmin heyvanların ətini yeməklə, əti una, başqa şeylərə dəyişməklə dolandılar. İndi onların artıq heç nəyi yoxdur, şəhərlilərin onların ət gizləmələri, başqalarından daha yaxşı yaşamaları barədə söhbətlərinə mən elə də inanmıram, çünki həmin kəndlilərə baxanda vəziyyətlərini anlayırsan. Onlar dəhşətli dərəcədə arıq və ac görünürlər. Mən bu insanlara xüsusi rəğbət bəslədiyimdən belə danışmıram. Şəhərlilərin narazılığına da tam şərikəm. Onlar bütün kəndlilər kimi kütdürlər, bütün günü barmaqlarını barmaqlarına vurmadan oturub ətrafa tamaşa edirlər. Heç kimlə ünsiyyətləri yoxdur, həmyerlilər dəstə-dəstə bölüşüb, az qala, bütün vaxtlarını sığınacaq tapdıqları yerdə, meydanın pis qoxulu, cır-cındırlı, öz evləri kimi yerləşdikləri hissəsində keçirirlər. Gecələri isə, əgər odun tapmağa müvəffəq olublarsa, tonqalların ətrafında söhbətlərdə keçir, bizlərin bir söz belə anlamadığı bəsit ləhcələrdə danışırlar. Əşi, onların nədən danışdıqlarını anlamaq kimə gərəkdir ki...

Küçə və meydanlarda yerləşmiş bu adamların kiri-pası, qoxusu, sadəcə olaraq, dəhşətdir. Mənim zatən təmizkar və səliqəli olmağımı, başqalarının davranışına bu baxımdan tələbkarlığımı nəzərə alanda onların pintiliyi lap dözülməzdir. Mənim xüsusi – bir çoxlarının fikrinə görə şişirdilmiş – nifrətimi insan ifrazatları, onların yaydığı iylər doğurur. Bu sadə məxluqlar isə özlərini lap heyvan kimi aparır, zəruri

işlərini harada gəldi görürlər. Əsl donuzluq edirlər. Havadan, elə bil, vəba yağır, küçələr, meydanlar elə kökdədir ki, imkan dairəsində şəhərə çıxmamağa çalışıram. Həm də hersoginya dəyişəndən, don Rikkardo isə, məni xoşbəxt edərək, öləndən bəri daha tapşırıqlarım da az olur.

Bütün bu evsizlər elə küçədəcə gecələyirlər, indi isə artıq qışdır, sərt qış, görünür, əyinlərindəki pal-paltarda o qədər də isti olmaz onlara. Deyirlər ki, bəzilərini səhər don vurmuş halda tapırlar: baxırlar ki, cır-cındıra bürünərək uzanıb, başqaları kimi yerindən qalxmır, tərpədəndə görürsən ki, həyat nişanəsi hiss olunmur. Amma əksəriyyət soyuqdan yox, acından ölür, bunların da çoxu, onsuz da, gücdən düşmüş, qanı heç qızmayan qocalar olur. Əşşi, qoy ölsünlər özləri üçün, başqalarının yükünü ağırlaşdırmaqdan savayı, nəyə yarayırlar ki, onsuz da, şəhərdə adam çoxdur.

Bokkarossanın muzdluları ehtiyac nə olduğunu bilmirlər. Bütün ölkə onların ixtiyarındadır, nə qədər istəyirsən tala, onlar da, təbii ki, talayırlar, getdikcə ölkənin içərilərinə nüfuz edir, özlərini lazım olan hər şeylə təmin eləyirlər. Talayandan sonra kəndləri yandırırlar, gecələr uzaq yanğınların şəfəqini göy üzündə tez-tez görmək olur. Bu yaxın ətrafı isə artıq çoxdan var-yoxdan çıxarıblar.

Amma, nə qədər qəribə olsa da, hələlik şəhərin üzərinə hücuma keçmirlər. Məni təəccübləndirir bu, axı müdafiəni indi yarmaq su içmək qədər asandır. Bəlkə də, onlar fikirləşirlər ki, əhalini acından tamam əldən salsalar, əziyyətləri az olar, özü də gözlədikləri bu müddət ərzində bikar durmurdular, ölkəni ürəkləri istəyən qədər talayırdılar, ona görə də nə qədər desən, gözləməyə hazır idilər.

Ancelikanın da avaraçılıqdan başqa əlindən heç nə gəlmir. Əvvəllər, heç olmasa, tikmə ilə məşğul olurdu. O, az qala, bütün vaxtını çay kənarında keçirir, orada oturub, ya qu quşlarını yemləyir, ya da eləcə yanından axan suya tamaşa edir.

Hərdən də bütün axşamı öz pəncərəsinin önündə əyləşir, düşmənin aşağıda, yandırılmış çöllüyün dərinliklərinə qədər uzanan gözətçi tonqallarına və çadırlarına baxır. Yəqin, daim öz şahzadəsi barədə düşünür.

Qəribədir, adamlar vurulanda, ələlxüsus da möhkəm vurulanda nə axmaq görkəm alırlar. Sifətlərində misilsiz dərəcədə küt bir ifadə olur və mən qətiyyən anlamıram ki, məhəbbətin insanı gözəlləşdirdiyini necə iddia eləmək olar. Onun gözləri əvvəlkindən də sarsaq, ifadəsiz görünür – əgər bu, ümumiyyətlə mümkündürsə; yanaqları da ki tamam solub, daha qonaqlıqdakı kimi deyil. Amma ağzı, elə bil, böyüyüb, dodaqları da şişib, daha aydın görünür ki, uşaq deyil.

Elə bilirəm ki, mən onun cinayətkar sirrini bilən yeganə adamam.

Təəccüblüdür, lakin hersoginya bu gün məndən soruşdu ki, necə düşünürsən, Məsih mənə nifrət edirmi? Təbii ki, bunun mənə məlum olmadığını söylədim. O, qızdırmalıymış kimi, yanan gözləriylə baxdı mənə, deyəsən, nədənsə, bərk həyəcanlı idi. Əlbəttə, Məsih, yəqin ki, nifrət edirdi ona, yoxsa, heç olmasa, bir dəqiqəliyə rahat buraxardı. Bütün günahlarına görə ona nifrət etməliydi də, bəs necə. Mən dedim ki, onun vəziyyətini başa düşürəm. Guya, həmfikir olmağımdan təsəlli tapacaqdı? Hersoginya dərindən köksünü ötürüb stula çökdü. Mənim daha burada qalmağımın əhəmiyyəti yox idi, çünki gözlədiyim kimi, mənə dair heç bir tapşırığı yox idi. Soruşanda ki gedə bilərəmmi, cavabı belə oldu ki, mənim ixtiyarım onun əlində deyil, amma bunu deyərkən elə iltimasla baxdı, sanki, məndən nəsə bir kömək istəyirdi. Lakin özümü çox narahat hiss edirdim onun yanında və getməyə üstünlük verdim, qapının ağzında bir də çönüb ona baxarkən gördüm ki, xaçın qabağında yenə diz çöküb duanın sözlərini bir çıxılmazlıq içində mızıldayır, barmaqları isə təsbehinin dənələrini lap əsə-əsə çevirir.

Bütün bunlar mənə çox qəribə təsir elədi.

Bu qoca sarsağa nə olmuşdu, görəsən?

Heç şübhə yox idi ki, Məsihin ona nifrət etdiyini tam ciddi düşünürdü. Bu gün yenə qayıtdı həmin söhbətə. Dedi ki, bütün duaları əbəsdir; o, məni onsuz da bağışlamır, sadəcə, eşitmir məni və məni bircə an belə rahat buraxmamasından savayı, mövcudluğumdan xəbərdar olmasını heç bir şeylə büruzə vermir. Bu, dəhşətdir, dözə bilməyəcək. Mən də dedim ki, elə bilirəm, öz ruhani atanıza müraciət etməlisiniz, o sizin ruhi ehtiyaclarınıza qarşı həmişə diqqətli olub. O, başını yellədi – artıq sınamışdı, amma bunun da bir köməyi olmamışdı. Heç başa da düşməmişdi hansı vəziyyətə düşdüyünü. Ruhani ata onu tamam günahsız sayırdı. Mən yaltaq rahibin bu sözlərinə kinayə ilə gülümsündüm. Onda hersoginya soruşdu ki, maraqlıdır, bəs sən nə fikirləşirsən bu barədə. Dedim ki, onu günahkar qadın sayıram və cəhənnəm odunda yanacağına inanıram. Bu yerdə o, önümdə diz çökdü və göyərənə qədər barmaqlarını bir-birinə sıxıb qışqırmağa, inildəməyə başladı; yalvarırdı ki, onu xilas eləyim, bağışlayım. Mən isə onun ayaqlarıma düşərək ikiqat olmasına sakitcə tamaşa edirdim. Əvvəla, ona kömək etmək üçün heç bir vasitəm yox idi, ikincisi isə, fikirləşirdim ki, o, haqlı olaraq, bu əzabları çəkir. O, əlimdən yapışıb onu göz yaşlarına qərq elədi, hətta öpməyə cəhd göstərdi, lakin mən əlimi dartdım, buna imkan vermədim. Bu yerdə o daha ucadan qışqırmağa, yalvarmağa başladı, özünü əsl isterika vəziyyətinə çatdırdı. “Günahlarına tövbə et!” – dedim və özüm də hiss elədim ki, bunu deyəndə üzümün ifadəsi necə ciddiləşdi. Sonra o, bütün cinayətlərini, pozğun həyat tərzi keçirdiyini, ağuşuna şeytanın itələdiyi kişilərlə nikahdankənar əlaqələrini, şeytanın torunda dolaşaraq bu əlaqələrdən ləzzət almasını etiraf eləməyə başladı. Onu məcbur elədim ki, törətdiyi bu günahın özünü, yaşadığı qeyri-adi həzzi bütün təfərrüatı

ilə təsvir eləsin, cinayət əlaqəsinə girdiyi kişilərin adlarını söyləsin. O, müticəsinə tabe olub tapşırdıqlarımın hamısını yerinə yetirdi və mənim gözlərim önündə bu qadının biabırçı həyatının dəhşətli mənzərələri canlandı. Lakin o, don Rikkardo barədə bircə söz belə deməd, mən də bunu ona xatırlatdım. Hersoginya mənə elə baxdı, sanki, ondan nə istədiyimi heç cür başa düşə bilmirdi. Axı bunun don Rikkardoya nə dəxli vardı? Məgər bu da günahdır? Ona izah elədim ki, bu bütün günahların ən böyüyüdür. Deyəsən, heç cür başa düşə bilmirdi və mənə təəccüblə, hətta şübhə ilə baxırdı, amma sonra dediklərim barədə fikrə getdi, yəqin ki, indiyə qədər ağlına gəlməyən şeyləri düşünürdü və görünür, öz fikirlərindən qorxdu. Soruşdum ki, məgər onu hamıdan çox sevmirdi? Pıçıltı ilə “hə” deyə zorla eşidilən bir cavab verdi və yenə də ağlamağa başladı, amma bayaqkı kimi yox, adam kimi. Heç cür qurtara bilmirdi ağlamağını, axırda bezdim və dedim ki, vaxtdır, getməliyəm. O, mənə iltimas dolu nəzərlərlə, köməksiz qalmış kimi baxdı və soruşdu ki, onu bir şeylə ovundura bilmərəm ki. O nə etməlidir ki, Tanrının ona rəhmi gəlsin? Cavab verdim ki, bu qədər günahın ola-ola Tanrının mərhəmətini diləmək onun tərəfindən görünməmiş cəsarətdir və Rəhim Allahın dualarını eşitməməsi tamamilə təbiidir. Ona görə çarmıxa çəkilməyib ki, bu cür qadınların günahlarını bağışlasın. O, məni etiraz etmədən dinlədi və dedi ki, özü də eynilə bu cür düşünür. Nəinki bağışlanmağa, heç eşidilməyə də layiq deyil. O, Çarmıxa çəkilənin təsviri önündə dizi üstə dua edərkən, bunu qəlbinin dərinliklərində duyurdu. Köksünü ötürüb bir az sakitləşmiş vəziyyətdə stula oturdu və başladı özü barədə dünyanın ən böyük günahkarı kimi, insanların ən alçaldılmışı kimi danışmağa. Şikayətlənirdi ki, göylərin mərhəmətini dadmaq ona heç vaxt nəsib olmayacaq. “Mən çox sevmişəm, – dedi. – Lakin Tanrını, onun oğlunu sevməmişəm və buna görə də belə cəzalandırılmağım ədalətlidir”.

Axırda mənə mərhəmətli olduğum üçün təşəkkür elədi. Günahlarının etirafından sonra bir az yüngülləşmişdi, hərçənd, özü də gözəl bilirdi ki, günahları heç vaxt bağışlanmayacaq. Və bu gün o, ilk dəfə idi ki, ağlaya bilmişdi.

Mən getdim, o isə qaldı – gözləri qızarmış, kilkələnmiş saçları köhnə sağsağan yuvasına bənzəyən donqarbel qarı.

Hersoqla Famyetta birlikdə çox vaxt keçirirlər. Onlar tez-tez şam yeməyindən sonra ikilikdə qalırlar, onda mən də qalıram ki, qulluq edim. Hersoginya ilə də hərdən axşamlar ikilikdə oturardılar, amma bu, çox nadir hallarda baş verərdi. Famyetta tamam başqa tip qadındır, soyuq, sakit, əlçatmaz və əsl gözəl. Onun qarabuğdayı sifəti indiyədək gördüyüm qadın sifətlərinin içində ən sərti idi və bu dərəcədə gözəl olmasaydı, onda cazibədən bircə əlamət də qalmazdı. Kömür kimi qara gözlərin, bəbəklərin lap dərinliyində oxunan bir tək qığılcım baxışı adamı ram edir, öz sehrinə salır.

Mən belə düşünürəm ki, o, məhəbbət oyunlarında da soyuqdur və verdiyindən çox alır və kimisə sevmək üçün kiçilirsə, həmin adamdan da tam itaət tələb eləyir. Hersoqun da, deyəsən, bundan – tabe olmaqdan xoşu gəlir. Bəlkə, məhəbbətdə soyuqluq heç də ehtirasdan az qiymətləndirilmir, mən haradan bilim.

Şəxsən mənim içimdə ona qarşı heç bir şey yoxdur. Əvəzində başqalarında var. Nökərlər, qulluqçular onun gözündə heç adam deyillər, onlar da, özlərinin dediyinə görə, belə davranışa öyrəncəli deyillər, özü də bu xanım onların sahibəsi də deyildi, hersoqun adi kənizi idi. Amma buna baxmayaraq, o, digər saray qadınlarını özünə tay bilmir – mən elə fikirləşirəm ki, görəsən, o, nə vaxtsa, ümumiyyətlə, kimisə özünə tay bilibmi? Amma xarakterinin bu cəhəti onda təşəxxüs kimi görünmür, bu, çox güman ki, anadangəlmə qürurdur. Onlar da, təbii ki, yanıb tökülürlər. Amma büruzə verməyə cəsarətləri çatmır, fikirləşirlər ki, birdən hersoginyanın

yerini tutar, əlbəttə, əgər o, bu mövqeyi təzədən özünə qaytarmasa.

Bütün saray danışır ki, o, elə təşəxxüsünə görə, mənəviyyatsızlıq edərək özünü "yoldan çıxarmağa" imkan verib, yoxsa balıq kimi soyuqqanlıdır. Mən bilmirəm, onlar nəyi nəzərdə tuturlar, axı belə əməllərə əl atanların hamısından fərqli olaraq, o qətiyyən mənəviyyatsız qadın təsiri bağışlamır.

Hersoq ona yüz faiz məftun olub və bir yerdə olanda xüsusilə diqqətli, cazibədar görünməyə çalışır. Amma ümumən götürəndə, onun əhvali-ruhiyyəsi yaxşı deyildi, tez əsəbiləşir və nökərlərinə tamamilə səbəbsiz qızaraq hücum da çəkə bilərdi, əvvəllər onda qətiyyən belə bir şey görməzdin, – özü də təkcə nökərlərə yox, onlardan yuxarıda dayanan şəxslərə də. Deyirlər ki, guya, xalqın ondan narazılığına görə, daha sevilmədiyinə görə əsəbidir. Xüsusilə də, təbii ki, aclıq çəkənlər onun əhvalını korlayır, bura gəlib, düz pəncərələrin altında qara-qışqırıq salaraq çörək tələb edirlər.

Məncə, belə şeylərə fikir vermək hersoqa yaraşan hərəkət deyil, nə dəxli var ki, onu əhatə eləyən qara kütlə nə düşünür, ya nə çığırır. Onlara qalsa, çığırmaq üçün həmişə bəhanə taparlar. Əgər kütlənin qışqırdığı şeylər barədə fikirləşsən, işin-peşən ona yarınmaq olacaq.

Deyirlər ki, o, hamıdan gizlin saray münəccimi Nikodemusu və digər uzunsaqqallıları məhz nikbin öncəgörmələrinə görə şallaqladıb. Nə deyim, çox ola bilər. Axı onun atası da həmin hərəkəti eləmişdi, hərçənd ki, onda səbəb tamam başqa idi: astroloqlar ağalarının xoşuna gəlməyən proqnozlar vermişdilər.

Ulduzları oxumaq asan iş deyil. Həm də gərək elə oxuyasan ki, başqaları da səndən razı qalsın.

Şəhərdə vəziyyət durmadan pisləşməkdədir. İndi artıq, demək olar ki, orada əsl aclıq tüğyan edir. Hər gün nə qədər adam acından ölür, bəlkə də, təkcə acından yox, həm də soyuqdan, demək çətindir. Küçə və meydanlarda ayağa qalxmaq iqtidarında olmayan, artıq hər şeyə biganə insanlar o qədər

yıxılıb qalıb ki. Başqaları isə şəhəri lap canlı skelet kimi, bir tikə dişə dəyən şey, aclığını cilovlayacaq nəsə tapmaq ümidilə dolaşır. Pişikləri, itləri, siçovulları əməlli-başlı ovlayırlar, indi onlar ləziz təam sayılır. Qaçqın düşərgələri üçün əsl bəla olan, zibilliklər içində sürüylə dolaşan siçovullar indi, az qala, nadir ov heyvanına çevriliblər və getdikcə azalmağa, yoxa çıxmağa başlayıblar. Daha siçovul da tapmaq olmur. Bəlkə, nəsə xəstəliyə tutulublar, çünki addımbaşı meyitlərin içində dolaşırdılar və belə çıxır ki, siçovullar adamların onlara ehtiyacı yarananda aradan çıxdılar.

Siçovulların insanlarla qonşuluğa davam gətirə bilməməsi məni qətiyyən təəccübləndirmir.

Görünməmiş bir şey baş verdi. Mən bunun barəsində sakit, təmkinlə danışmağa cəhd edəcəyəm, özü də hadisələrin cərəyan etdiyi ardıcıllıqla. Bu çox asan deyil, çünki özüm də bu hadisələrin bilavasitə iştirakçısı olmuşam, əhəmiyyətli rolum olub onlarda və indiyə kimi də həyəcanımdan tir-tir əsirəm. İndi, hər şey artıq arxada qalandan və hər şey uğurla başa çatandan, nəticələrdən də, özümdən də tamamilə razı qalandan sonra, vaxtımın müəyyən hissəsini hadisələrin necə cərəyan etdiyinə ayırmaq istəyirəm.

Dünən axşam öz pəncərəmin qabağında əyləşərək, adətim üzrə, Bokkarossanın tonqallarının işığına tamaşa edəndə çayın kənarındakı ağacların arasında qəsrin sağ cinahına tərəf gedən bir insan fiquru gördüm. Mənə qəribə gəldi ki, görəsən, kimdir gecənin bir aləmi buralarda işi olan, hətta fikirləşdim ki, yəqin, nökərlərdən biridir. Ay işıq saçırdı, amma qatı duman olduğundan bu adamın siluetini zorla seçə bilirdim. O, deyəsən, gen plaşa bürünmüşdü və fligelə sarı, az qala, qaça-qaça gəlirdi, elə yan qapıların birindən də içəri girdi. Belə fikirləşdim ki, girişin səmtini bilirsə, deməli, özümüzünkülərdən biridir. Amma bu şəxsin zahiri görkəmində məni nəsə ehtiyatlandırdı, elə onun davranışı da şübhəli idi. Ona görə də yoxlamaq qərarına gəldim ki, görüm

nə məsələdir və tez aşağı enərək, elə həmin qapıdan keçib, onun dalına düşdüm. Pilləkən zülmət içində idi, amma məhz bu pilləkən mənə bütün başqalarından yaxşı tanışdı, axı qabaqlar məni daim bu pilləkənlə aşağı-yuxarı qovurdular, düz əldən düşənə kimi. Elə Ancelikanın yataq otağına da bu pilləkən aparırdı. İndi isə bütün qalan otaqlar boş olduğundan, pilləkən yalnız onun otağına qalxırdı.

Birtəhər yuxarı, onun qapısının ağzına çıxdım və qulaq asmağa başladım. Qismən bunu gözləsəm belə, yenə də mənim dəhşətli təəccübümə səbəb o oldu ki, qapının arxasından bir yox, iki səs eşitdim. Səslərdən biri Covannininki idi!

Onlar pıçıldaşırdılar, amma həssas qulağım deyilənlərin hamısını seçə bildi. Görünür, mən riqqətəgətirən, nəhayətsiz bir "xoşbəxtliyin" gözəgörünməz şahidinə çevrilmişdim.

"Sevgilim!" – səsin biri boğulurdu və "Sevgilim!" – deyə ikinci səs pıçıltıyla ona cavab verirdi. "Sevgilim!" – və yenə də "Sevgilim!" – başqa heç nə demirdilər və onların başını bir belə qatan bu söhbət yad qulaqlar üçün elə böyük maraq kəsb etmirdi. Əgər baş verən hadisənin ciddiliyi, dəhşəti olmasaydı, eyni sözün bu cür təkrarı mənə də gülməli gələrdi. Amma mən gülmək vəziyyətində deyildim. Bumbuz olub onların sadəlövhlüklə, tamamilə fərqinə varmadan təkrarladıqları bu sözü dinləyirdim, əgər bircə dəqiqə dərindən fikirləşsəydilər, onun hansı mənanı ehtiva etdiyindən, onların dilində necə səsləndiyindən dəhşət içində diksinərdilər. Sonra isə bu canilərin necə öpüşdüyünü eşitdim, yenə də bir-birini sadəlövhcəsinə öz sevgilərinə inandırmağa çalışırdılar. Bu, dəhşət idi!

Mən geriyə döndüm. Hersoqu harada axtaraydım? Bəlkə, şam otağında, bir saat qabaq onu Famyetta ilə orada qoymuşdum. Onlara qulluq edirdim, sonra da dedi ki, daha gərək deyiləm, gedə bilərəm.

Daha gərək deyiləm! Əcəb gərək olmadım, deyə qaranlıq pillələri tələsik düşə-düşə fikirləşirdim. Cırtdan ağasına həmişə lazımdır.

Mən qəsrin içəri həyətindən köhnə və təzə tikilini bir-birindən ayıran əsas girişin tağlı keçidinə tərəf yüyürdüm. Oradakı pilləkən və keçidlər də, təbii ki, zülmətə qərq olmuşdu. Lakin mən yolu tapdım və nəhayət, nəfəsim kəsilə-kəsilə, özümü hündür ikilaylı qapının önünə çatdırdım. Qulaq verdim. Heç bir səs gəlmirdi. Amma çox mümkün idi ki, onlar içəridə olalar. Yaxşı olardı ki, yoxlayım. Amma, təəssüf ki, mən qapını aralaya bilməzdim: bu, həmin o qapılardan idi ki, mən boyumun ucbatından onları aça bilmirdim. Bir də diqqət kəsildim. Sakitlik idi. Hərçənd ki, içəridə olub-olmamaqlarını tam dəqiqliyi ilə bilmədim, amma çıxıb getməkdən başqa yolum qalmamışdı.

Mən hersoqun yataq otaqlarına yollandım. Onlar yemək otağından çox elə uzaq deyildi, amma bir mərtəbə yuxarıda yerləşirdi. Pillələri qalxıb qapıya yaxınlaşdım, qulaq asmağa başladım. Nə qədər qulaq assam da, bircə səs belə seçə bilmədim ki, onun içəridə olmasına dəlalət edə. Bəlkə, artıq yatıb, deyə düşündüm. Bu, çox mümkün idi. Fikirləşdim ki, bəlkə, riskə gedib oyatmağa dəyər onu? Yox, ola bilməz, bu, görünməmiş cəsarət olardı. Lakin baş vermiş hadisə də fövqəladə əhəmiyyətə malik idi, onu təcili görməliydim. Tamamilə müstəsna bir vəziyyət idi.

Bütün cəsarətimi toplayıb, qapını döydüm. Heç kəs cavab vermirdi. Qapını var gücümlə yumruqladım. Cavab gəlmədi.

Deməli, burada yoxdur. Axı nə qədər ayıq yatdığına yaxşı bələd idim. Yaxşı, burada da deyilsə, bəs haradadır? Getdikcə daha artıq əsəbiləşirdim. Nə qədər vaxt itirirdim! Harada ola bilərdi, görəsən?

Bəlkə, Famyettanın yanında idi? Bəlkə, ora getmişdilər ki, özlərini daha sərbəst hiss edələr? Bu, mənim son ümidim idi.

Mən pillələrlə aşağı yüyürüb həyətə atıldım. Famyetta qəsrin tamam başqa hissəsində yaşayır, ola bilər ki, bunu özləri, bilə-bilə düzüb-qoşmuşdular ki, münasibətlərini bu yolla ört-basdır edə bilsinlər.





Lazımi girişi tapdım, lakin qəsrin bu hissəsi mənə çox az tanış olduğundan bir xeyli fəhmlə dolaşdım, pillələri səhv qalxır, sonra yenə enir, digəriylə qalxırdım, onun dalınca da saysız-hesabsız keçidlərdə dolaşdım, oralar da qaranlıq idi və mən də itirdiyim vaxta görə əsəbiləşərək, irəli-geri vurnuxur, yolu tapa bilmirdim. Mən özümü yeraltı yolların labirinti ilə yüyürərək qarşısına çıxan hər şeyi həyəcanla qoxlayan köstəbək kimi hiss edirdim. Xoşbəxtlikdən, elə köstəbək kimi də qaranlıqda səmti yaxşı müəyyənləşdirə bilirəm. Həm də onun fasad tərəfdəki pəncərələrinin yerini dəqiq bilirdim, nəhayət, səmti düzgün tapıb, lazımi qapını aşkar etdim.

Qulaq asdım. Kimsə varmı, görəsən? Var!

İlk eşitdiyim – Famyettanın soyuq gülüşü oldu. Mən qabaqlar onun necə güldüyünü heç eşitməmişdim, amma o dəqiqə hiss etdim ki, bu, onun gülüşüdür. Elə bil, bir az qəddar gülüş idi, bir az qondarma, amma onda nəsə ehtiras doğuran notlar da vardı. Sonra hersoqun gülməyini eşitdim, qısa və həvəssiz. Yüngülləşib nəfəsimi dərdim.

Sonra da onların səslərini eşitdim, lakin dediklərini anlamaq olmurdu, haradasa otağın içərilərində idilər. Amma aydın idi ki, əməlli-başlı söhbət edirdilər, daha bayaqkılar kimi, eyni sözləri təkrarlayıb durmamışdılar. Məhəbbətdən danışırdılarmı, bilmədim, amma inanmıram, buna oxşamırdı. Sonra birdən sakitlik çökdü. Qulağıma nə qədər güc versəm də, heç nə eşidə bilmədim. Amma bir azdan xoşagəlməz bir ah-uf eşitdim və başa düşdüm ki, nəsə biabırçı işlə məşğuldurlar. Ürəyim yüngülcə bulandı. Düzdür, o qədər həyəcanlı idim ki, özümü pis hiss edə bilməzdim, amma ehtiyat üçün qapının ağzından aralandım, amma çox uzağa çəkilmədim, hersoqu heç qaçırmaq istəmirdim, başladım gözləməyə. Fikirləşdim ki, hövsələmi basıb gözləyim ki, bu xoşagəlməz səsləri bir də eşitməyim. Mənə elə gəldi ki, düz bir ömür gözlədim orada.

Nəhayət ki, yenidən qapıya yaxınlaşanda onlar nə barədəsə soyuqqanlı söhbət eləyirdilər, amma söhbətləri nə barədə

idi, yenə bilmədim. Bu gözlənilməz dəyişiklik məni həm təəccübləndirdi, həm də sevindirdi və mən fikirləşdim ki, nəzərdə tutduğumu tezliklə həyata keçirəcəyəm. Lakin onlar tələsmirdilər, uzanıb söhbət eləyirdilər, çox güman ki, boş-boş şeylərdən. Mən artıq özümdən çıxırdım, gör nə qədər qiymətli vaxt itirmişdim! Amma əlimdən gələn bir şey yox idi. Təbii ki, beləcə içəri girib onlara mane ola bilməzdim.

Nəhayət, hersoqun yerindən necə qalxdığını eşitdim, qalxdı və onunla nəyisə müzakirə eləyə-eləyə, geyinməyə başladı, deyəsən, nədəsə razılaşa bilmirdilər. Qapıdan yenə aralandım, qaranlıqda bir yer seçib, gözləməyə başladım.

Çıxanda özü də bilmədən birbaşa mənə tərəf yeridi. “Əlahəzrət!” – deyə, hələ uzaqda ikən pıçıldadım. Məni burada görəndə yaman qəzəbləndi və dəhşətli söyüşlər, təhdidlər yağdırdı: “Sən neynirsən burada? Casusluq edirsən? Murdar, eybəcər məxluq! Zəhərli ilan! Haradasan, çıx görüm! Bu dəqiqə boğazını üzərəm!” Sonra o, əllərini açıb o tərəf-bu tərəfə atılmağa başladı, qaranlıqda məni tutmaq istəyirdi. Amma bu zülmətdə məni, təbii ki, tuta bilməzdi. “İcazə verin, söyləyim! İcazə verin, məsələnin nədən ibarət olduğunu deyim”, – sakit bir tərzdə təkrarlayırdım, hərçənd ki, bütün içim əsirdi qorxudan. Nəhayət ki, imkan verdi.

Onda birbaşa üzünə dedim ki, məhz elə bu dəqiqə Lodoviko Montansanın oğlu onun qızını zorlayır – o, qəsrə gizlincə girib ki, qızın namusuna təcavüz edərək, onun bütün ailəsinin şərəfini silinməz bir ləkə ilə murdarlasın, atasının qisasını alsın. “Bu, yalandır! – o qışqırdı. – Sən nə çərənləyirsən, ay dəli! Yalandır bu!” – “Yox, yalan deyil! – mən qətiyyətlə ona lap yaxınlaşaraq, etiraz etdim. – O, indi qızın otağındadır, cinayətkarın ora necə girdiyini öz gözlərimlə gördüm. Sən çox gec yetişəcəksən, cinayət artıq çox güman ki, sona çatıb, amma, bəlkə, oğlanı hələ orada tuta bilərsən”. Başa düşdüm ki, ancaq indi inandı mənə: ildırım vurmuş kimi yerində qalmışdı. “Ola bilməz! – dedi, amma iti addımlarla,

az qala, qaça-qaça çıxışa tərəf üz qoydu. – Ola bilməz! – deyə təkrar edirdi. – Şəhərə necə girə bilər axı? Elə qəsrin özünə də; bu, mümkün deyil – buralar tamam qorunur!” Mən var gücümlə çalışırdım ki, ondan dala qalmayam, amma sözlərini də cavabsız qoymadım, dedim ki, mən də başa düşmürəm, amma əvvəlcə onu çayın kənarında gördüm, ola bilər bərə ilə, ya da başqa şeylə keçib, kim bilir, bu sarsaq, südəmər gədə nəyə qadirdir, oradan da birbaşa sarayın içəri həyətinə girib, yəqin. “Ola bilməz!” – tutduğunu buraxmırdı. – “Şəhərə çay tərəfdən xəlvət girmək, həm o tayda, həm də bu tayda oxçuları, bombardirləri olan, gecə-gündüz mühafizə edilən qüllələrin arasından görünmədən sivişib keçmək mümkün deyil. Bu qətiyyən ağlasığmazdır!” – “Bəli, ağlasığmazdır, – deyə razılaşdım. – Bunu başa düşmək mümkün deyil, heç iblisin özü də baş çıxarmaz ki, bu oğlan necə girib qəsrə, amma buna baxmayaraq, o indi burdadır. Mən qəti əminəm ki, məhz onun səsini eşidirdim”.

Biz aşağı enib, qəsrin həyətinə düşdük. Hersoq cəld əsas girişə tərəf getdi ki, gözətçilərə diqqətli olmağı tapşırsın və oğlanın qaçmasına mane ola bilsin. Onun ehtiyatlı davranmağı çox əsaslı idi – amma gədə artıq aradan çıxıbsa, nə olacaq? Bəlkə də, elə bir yerdə qaçıblar! Bu dəhşətli fikir məni həyəti yüyürərək keçməyə, özümü Ancelikanın qapısı ağzına yetirməyə məcbur etdi.

Qulağımı qapıya dirədim. Səs gəlmirdi! Yəni, doğrudan, qaçıblar? Ürəyim həm yüyürməkdən, həm də onların aradan çıxması barədə fikirləşəndə bədənimi çulğayan həyəcandan möhkəm çırpınırdı, bu çırpıntı düz qulaqlarımda səslənirdi. Düşündüm ki, bəlkə, elə buna görə heç nə eşitmirəm. Çalışdım ki, özümü ələ alıb, sakitləşim, nəfəsimi dərim; sonra yenə diqqət kəsildim. Yox, otaqdan bircə hənirti belə gəlmirdi. Özümü lap itirmişdim. Elə bilirdim, dəli olacağam. Nəhayət, qeyri-müəyyənliyə dözə bilməyib, ehtiyatla qapını araladım. Bunu elə elədim ki, heç cırıltısı da eşidilmədi. Qapının

arasından işığın yandığını gördüm, amma burada insan olmasına dəlalət edən heç bir səs-səmir yox idi. Sivişib, otağa keçdim. Və elə o dəqiqə də sakitləşdim. Söndürməyi unutduqları balaca çırağın işığında onların hər ikisini yataqda gördüm – yatmışdılar. Özlərinin heyvani şəhvətiylə ilk tanışlığından sonra yorğun uşaqlar kimi yatmışdılar.

Mən çırağı götürdüm, yaxınlaşıb işığı üstlərinə saldım. Onlar üzlərini bir-birinə çevirib yatmışdılar, yarıaçıq ağızları, pörtmüş rəngləri vardı, hələ də törətdikləri cinayətin istisi canlarındaydı, elə yatmışdılar, elə bil, özlərini unutmuşdular, dünyadan tam bixəbər idilər. Kirpikləri nəm idi, hər ikisinin üst dodaqlarında isə tər damcıları puçurlanmışdı. Mən öz sakitliyi ilə tam günahsız olan bu yuxuya tamaşa edirdim. Görəsən, insanların xoşbəxtlik dediyi elə budur?

Covanni qıraqda uzanmışdı, qara saçlarının qıvrımları alnına tökülmüşdü, dodaqlarında isə məmnuniyyət dolu bir təbəssüm donmuşdu, sanki nəsə bir qəhrəmanlıq etmişdi. Boynundakı nazik qızıl zəncirdən indi cənnətdə olduğu deyilən anasının portreti asılmışdı.

Bu yerdə pillələrdən səs gəldiyini eşitdim – hersoq iki muzdlu gözətçi ilə bir yerdə içəri girdi, gözətçilərdən birinin əlində məşəl vardı. Otaq işığa qərq oldu, lakin möhkəm yatmış bu gəncləri heç nə oyada bilməzdi. Hersoq inamsız, az qala, ləngərləyən addımlarla yatağa yaxınlaşdı və bu biabırçılığı gözləri ilə gördü. Qəzəbdən ölü kimi ağararaq, gözətçinin qılıncını qapdı və bir zərbə ilə Covanninin başını bədənindən ayırdı. Ancelika yerindən dik atıldı və qan içində olan sevgilisinin cəsədini yataqdan necə çıxardıqlarını, pəncərədən birbaşa zibilləyə atmaqlarını öz gözləriylə gördü. Bu yerdə o da huşunu itirib yıxıldı və biz gedənə kimi özünə gəlmədi.

Öz işini yüksək səviyyədə görmüş hersoq həyəcandan titrəyirdi və mən onun otaqdan çıxarkən yıxılmamaq üçün qapıdan necə tutduğuna diqqət yetirdim. Onun dalınca çıxıb öz otağıma getdim. Mən tələsmədən gedirdim – daha tələsik

bir işim yox idi. Həyətdə, məndən xeyli irəlidə hersoqu müşayiət edən məşəli gördüm, sonra da həmin işıq tağın altında yox oldu, elə bil, zülmətdə ərimişdi.

Ancelika qızdırmadan yanırdı, saray həkimi də gücsüz idi, huşu özünə gəlmirdi. Onun halına azacıq da olsa, yanan yoxdur, çünki zorlananda kiçicik bir müqavimət belə göstərmədiyi aydın idi və onun ləyaqətinin alçaldılması hersoq ailəsi üçün, bütövlükdə hersoqluq üçün heç bir şeylə müqayisə olunmayacaq şərəfsizlik idi. Ona bir qoca qarı qulluq edir, saray əhlindən heç kəs qıza baş çəkmirdi.

Onun cinayətkar sevgilisinin cəsədini çaya atdılar, istəmədilər ki, qəsrin qabağında uzun müddət qalsın. Deyirdilər ki, meyiti burulğanlar da çəkməyib, axın onu dənizə çıxarıb.

Şəhərdə qəribə bir xəstəlik yayılmağa başlayıb. Eşitdiyimə görə, bu xəstəlik titrətmə və dəhşətli baş ağrılarından başlayır, sonra da gözlər tor görür, dil isə elə şişir ki, adam heç əməlli danışa da bilmir, bütün bədən qızarır və dəridən üfunətli irin sızır. Xəstələr daim qışqırıb su istəyirlər, çünki bütün içəriləri alışıb-yanır. Həkimlər onlara heç bir kömək edə bilmirlər – onların əlindən, ümumiyyətlə, nəsə gəlir ki? Deyirlər ki, xəstəlik tutanların hamısı ölür; indiyədək cəmi nə qədər adam ölüb, mənə bəlli deyil.

Sarayda, təbii ki, heç kəs xəstələnməyib. Azar ən yoxsul, ən ac adamların arasında tüğyan eləyir, xüsusilə də qaçqınların içində və görünür, bu da onların öz düşərgələrində, şəhərin hər tərəfində əmələ gətirdikləri misilsiz murdarçılıqlarla birbaşa əlaqədardır. Məni təəccübləndirən onların dörd bir tərəfindəki kəsafətdən ölməməkləridir.

Ancelika, təbii ki, tamam başqa xəstəlikdən əziyyət çəkir. Onun bu azarı bir dəfə uşaq vaxtı tutulduğu xəstəliklə tamam eynidir, amma onda hansı şəraitdə, nəyə görə azarladığı yadımda deyil. O, həmişə elə şeylərdən xəstələnir ki, başqasının

qətiyyən vecinə olmazdı. Hə, indi düşdü yadıma, uşaq vaxtı, mən onun pişiyinin başını kəsəndən sonra yatağa düşmüşdü.

Epidemiya yaman tez yayılır. İndi artıq təkcə kasıblar deyil xəstələnən, lənətə gəlmiş taun heç kəsə rəhm eləmir. Bəla hər evə, hər küçəyə, hər meydana baş çəkir, axı camaatın çoxu açıq havada yaşayır. Deyirlər ki, orada addımbaşı xəstələrə tuş gəlirsən, əynində cır-cındır olan insanlar küçənin ortasında ağrıdan qıvrılaraq qulaqbatırıcı səslə çığırırlar. Görünür, ağrıları dözülməzdir, adamı lap dəlilik dərəcəsinə çatdırır. Şəhərdə yerimək, sadəcə, mümkün deyil, bu mənzərəni gözləriylə görənlərin danışdıqları ikrah doğuran, dəhşətli təfərrüatlarla doludur. Xəstələrin nəfəsi üfunətli olur, bədənlərini isə murdar, suluqlu yaralar basır, suluqlar partlayanda, nəsə eybəcər bir maye axır yaradan. Mən bu cür şeyləri eşidəndə az qalıram qaytaram.

Xəstəliyin səbəbkarının qaçqınlar olduğuna çox az adam tərəddüdlə yanaşır və onlara həmişəkindən daha çox nifrət etməyə başlayıblar. Amma eşitmişəm ki, bəziləri hər şeyi tamam başqa cür izah edirlər. Onlar belə hesab edirlər ki, taun Tanrının qamçısıdır, insanların böyük günahlarına görə verilən ilahi cəzadır. İndiki əzabları Tanrı yollayıb adamlara, günahlarını təmizləmək üçün yollayıb, odur ki pərvərdigarın iradəsi ilə barışmaq gərəkdir.

Mən bunu cəza kimi qəbul etməyə razıyam. Amma Tanrıdırmı onları qamçılayan? Bilmirəm. Çox ola bilər ki, bunu tamam başqa, şər qüvvələr eləyir.

Hərdən balaca pəncərəmin önündə oturub şəhərə yuxarıdan baxıram.

Hersoginya qəribə bir həyat yaşayır. Heç vaxt tərk etmədiyi yataq otağında daim alaqaranlıqdır: pəncərələrdən qalın pərdələr asılıb. O deyir ki, günəş işığından ləzzət almağa layiq deyil. Divarlar lüm-lütdür, otaqda nə stullar var, nə də

stol, təkcə dua etmək üçün skamya durur, bir də ki çarmıxa çəkilənin şəkli. Əsl rahibə hücrəsidir. Çarpayısı həmişəki yerindədir, lakin orada yatmır, birbaşa döşəmənin üstündəki saman qalağına uzanır, onu da dəyişməyə izn vermir, saman isə getdikcə, iylənir, ətrafa pis qoxu yayır. Otağın havası heç vaxt təzələnmir, dəhşət bürküdür orada, bu üfunətli havadan lap boğuluram. Otağa bayırdan girən kimi əvvəlcə heç nə görmürsən, amma tədricən gözlərin alaqaranlığa öyrəşir, yalnız onda hersoginyanın siluetini seçə bilirsən. Necə gəldi geyindiyinin, başına daraq dəymədiyinin, özünün zahiri görünüşünə tam biganəliyinin şahidi olursan. Baxışları qızdırmalı adamların baxışıdır, yanaqları isə tamam əriyib, çünki öz vücudunu öldürməklə məşğuldur, yeməkdən, demək olar ki, büsbütün imtina edib. Sarsaq qulluqçusu isə, elə hey deyinir ki, sahibəsi heç nə yemir. O da hərdən bir tikə yeyir ki, bu axmaq qız ağlamağını kəssin. Qulluqçunun özü yupyumru, enlisifətdir, əlinə düşəni içəri ötürür. Ucadan şikayətlənə-şikayətlənə, sahibəsinin imtina elədiyi bütün ləziz təamları içəri təpişdirir.

Tövbə edən günahkar qadın vaxtının çoxunu çarmıxa çəkilmiş Məsihin önündə keçirir, dizi üstə duraraq faydasız dualarını oxuyur. O bilir ki, dualarının xeyri yoxdur və hər dəfə də dua etməmişdən Məsihə xüsusi bir iltimasla müraciət edir, yalvarır ki, ona növbəti dəfə müraciət etdiyinə görə bağışlasın. Hərdən də lap həvəsdən düşərək, təsbehini bir kənara qoyur, alovlu nəzərlərini o böyük rəhmdilə dikib öz yaradıcılığının məhsulu olan dualarını mızıldamağa başlayır. Lakin o, yenə eşitmir və qadın dizləri üstündən elə duadan qabaq necə idisə, eləcə də ayağa qalxır. Çox vaxt qulluqçunun köməyi olmadan yerdən dura bilmir, deyirlər ki, hərdən halsızlıqdan yerə yıxılıb qalır, yalnız kameristkası gələndə onu çəkib samanın üstünə uzadır.

İndi o, bizim başımıza gələn bədbəxtliklərdə yalnız özünü günahlandırır. Başqasının yox, məhz onun günahlarıdır

şəhərdə baş verən dəhşətlərin, bütün əzabların baisi. Çətin ki, şəhərdəki vəziyyət barədə elə çox məlumatı ola. Lakin, hər halda, dumanlı şəkildə də olsa, yəqin təxmin eləyir nələr baş verdiyini. Bütün bunlara baxmayaraq, mənə elə gəlir ki, o, bu dünyaya biganədir və burada baş verənləri tam əhəmiyyətsiz sayır. İndi öz dünyasında yaşayır və öz qayğıları var onun.

İndi başa düşüb ki, don Rikkardoya məhəbbəti günahlarının ən böyüyüdür. Məhz onun ucbatından yaşamağı çox qiymətli nemət sayaraq, həyatdan möhkəm yapışırdı. Deyir ki, hər şeydən çox onu sevirmiş, məhəbbəti bütün vücudunu çulğayaraq, böyük xoşbəxtlik gətirirmiş özünə. İnsanı belə hədsiz sevmək yaramaz. Yalnız Tanrını belə sevmək olar.

Bilmirəm, özünə indiki əziyyətləri verməsi onun cinayətkar həyatına, cəhənnəmdə mütləq nəsibi olacaq əzablara gözlərini açmağımla nə dərəcədə əlaqədardır. Mən ona yaramazların çəkəcəyi əzablardan danışmışdım, o da izahlarımı müticəsinə dinləyirdi. Sonra da başladı özünə əzab verməyə.

Mən onun yanına gələndə həmişə çox minnətdar olur. Mənsə onun otağına tez-tez gəlməkdən çəkinirəm.

Ancelika xəstəlikdən qurtuldu, yenə ayaq üstədir. Lakin nə stol arxasında görünür, nə sarayda. Mən onu bir neçə dəfə rozaridə, bir də çay kənarında görmüşəm. Gözləri əvvəlkindən də böyük olub – əgər ondan böyük göz, ümumiyyətlə, ola bilərsə – özü də bomboşdur bu gözlər. Adamda elə təəssürat yaranır ki, gözləri heç nə görmür.

Mən fikir verdim ki, boynunda Covanninin medalyonunu gəzdirir və o medalyon qana bulaşıb. Görünür, yatağından tapıb yadigar kimi götürmüşdü. Barı üstündəki qanını yuyaydı əvvəlcə.

Görün nə fikirləşirəm. Ana cənnətdədir, bu, bəlli, oğlu isə cəhənnəmdə əzab çəkir, çünki günahın qoynunda uyuyarkən ölüb; nə etiraf edib, nə tövbə. Belə çıxır ki, onlar heç vaxt görüşə bilməyəcəklər. Ola bilər ki, Ancelika oğlanın

ruhunun nicatına dayaq ola biləcək bir məxluq kimi dua edir. Amma mənasız səylərdir.

Onun beynindəkiləri kim bilir ki? O həmin gecə oyanandan bəri, daha doğrusu, sevgilisinə son sözünü deyəndən bəri, ağzını açıb bir kəlmə də danışmayıb. Sonuncu sözü nə idi, onların söhbətlərinə qulaq asmış bir şəxs kimi, bu, mənə tamamilə aydındır.

O, indi öz ümidinə qalıb, hamı qaçır bu qızdan.

Taunun və başqa bəlaların Pərvərdigarın cəzası olduğuna və bütün bu azar-bezardan qorxmağın yersizliyinə inananlar, bütün bunlar üçün İlahiyə minnətdarlıq hissi bəsləmək lazım olduğunu söyləyənlər, indi küçələri dolaşaraq, öz inanclarını yaymaqla məşğuldurlar, onlar öz vücudlarına əzab verirlər ki, Tanrıya onların ruhunu xilas etməkdə yardımçı olsunlar. Gözləri çuxura düşmüş canlı skeletlərdən ibarət bu dəstələrdəki insanlar o qədər zəifdirlər ki, əgər vəcdə gəlmələri olmasaydı, heç ayaq üstə də dayana bilməzdilər. Onların dalınca çoxları gedir və bir azdan vəcdə gəlməyi öyrənirlər. İnsanlar öz işlərini buraxır, evlərini, yaxınlarını, hətta ölən qohumlarını belə ataraq, onlara qoşulurlar. Qəflətən tükürpərdici, sevincək bir çığırtı eşidilir, birisi küçənin ortasına atılır, özünü birtəhər dəstənin ortasına soxub, ucadan, rabitəsiz sözlər çığıraraq baş-gözünə döyməyə başlayır. Bu yerdə hamı Tanrıya alqış yağdırır və küçənin hər iki tərəfində bu mənzərəyə diqqətlə baxan camaat dizi üstə düşür. Dəhşətlərini bəs deyincə seyr etdikləri dünyəvi həyat artıq onlar üçün öz dəyərini tam itirir. Onların qayğısı indi yalnız ruhlarının nicatıdır.

Deyilənlərə görə, ruhani atalar bu fanatiklərə çəp-çəp baxırlar, çünki onlar xalqı kilsələrdən, oradakı təntənəli mərasimlərdən yayındırır, – ikonalı-zadlı, küçələrdəki bu üfunətin içində gözəl qoxu yayan buxurdanların yelləndiyi, dini mahnılar oxuyan oğlanları olan mərasimlərdən. Onlar deyirlər

ki, özünə qeyri-insani əzab verən bu insanlar əsl xaçpərəst deyillər və özlərinin vəhşi fanatizmi ilə həqiqi imanın bəxş etdiyi ilahi təsəllidən qaçırlar. Tanrı heç də onları təqdir edib, bu hərəkətlərinə sevinə bilməz. Amma mən düşünürəm ki, həqiqi mömin elə onlardır ki, öz inamlarını belə ciddi qəbul edirlər. Ruhani ataların isə onların moizələrini çox ciddi qəbul edənlərdən, bir qayda olaraq, heç xoşları gəlmir.

Amma elələri də var ki, ətrafındakı dəhşətlər onlara həyatı əvvəlkindən daha çox sevdirməyə başlayıb. Ölüm qorxusu onları məcbur edir ki, həyatdan nəyin bahasına olursa olsun, lap möhkəm yapışsınlar. Şayiələr dolaşır ki, şəhərin bəzi saraylarında kef məclisləri gecə-gündüz bitib-tükənmək bilmir, deyirlər ki, oralarda lap rəzil əxlaqsızlıqlar çiçəklənir. Lakin elə yoxsulların, lap dilənçi kökündə olanların arasında da özünü, imkan dairəsində, bu cür aparanlar az deyil, onlar indi imkanları çatan həmin o yeganə günahı gecə-gündüz törədirlər. Onlar öz miskin həyatlarından əl çəkmək istəmirlər və burada, qəsr darvazaları qarşısında nadir hallarda çörək paylananda bu murdarlar hər tikənin üstündə qəzəblə çarpışır, bir-birlərinin boğazını üzməyə hazır olurlar.

Amma digər tərəfdən, elə adamlar da var ki, yaxınlarının yolunda özlərini qurban verməyə hazırdırlar, nə qədər mənasız olsa belə, özlərinin yoluxmağına səbəb olsa belə, xəstələrə qulluq edirlər. Onlar ölümə və hər cür təhlükəyə tam biganə olduqlarını əməllərində nümayiş etdirirlər, sanki, həyatlarını riskə qoyduqlarını da dərk etmirlər. Onları da dini fanatiklərə bərabər saymaq olar, lakin bu fanatizm tamam başqa cür təzahür eləyir.

Beləliklə, əgər mənə yetişən söhbətlərə inansaq, şəhərin əhalisi eynilə elə əvvəllər yaşadığı kimi yaşayır, hər kəs öz meylinə uyğun, amma indi hər şeydə bir ifratçılıq da müşahidə olunur. Deməli, Tanrının onlara yolladığı bu cəzanın nəticəsi tamamilə cüzi oldu. Ona görə mən yaman tərəddüd içindəyəm. Tanrıdırmı bu taunu, başqa imtahanları bizə göndərən?

Famyetta bu gün mənim yanımdan keçdi. Təbii ki, mənə tərəf nəzər salmağı özünə layiq bilmədi. Amma bu sakitliyində necə mükəmməl, necə gözəldir! İndiki murdar qarışıqlıq və tələskənliyin içində o, ruhu təzələyən sərin meh kimidir. Bütün görkəmində – əlçatmaz, vüqarlı mahiyyətində adama sakitlik bəxş edən bir sərinlik var. O, həyatın murdarlıqlarına özü üzərində qələbə çalmaq imkanı vermir, onlardan güclüdür. Hətta onlardan istifadə etməyi də bacarır. O, diqqət cəlb etmədən, qürurunu qoruyaraq, heç nə olmayıbmış kimi, hersoginyanın yerini tutaraq, sarayın birinci xanımı rolunu oynamağa başlayır. Qalanları isə getdikcə daha aydın başa düşürlər ki, bu yerdə tabe olmaqdan savayı, əllərindən gələsi bir şey yoxdur. Ona heyran qalmaya bilmirsən.

Əgər başqa kimsə mənim yanımdan keçib üzümə nəzər salmağı özünə əskiklik bilsəydi, dəli olardım. Amma indi mən onun bu hərəkətini tamamilə təbii sayırdım.

Mən hersoqun onu niyə sevdiyini gözəl başa düşürəm. Özüm bunu bacarmazdım, amma bu, tamam başqa məsələdir. Mən, ümumiyyətlə, kimisə sevməyə qadirəmmi? Bilmirəm. Əgər sevə bilsəydim, yalnız hersoginyanı sevərdim. Amma bunun əvəzinə ona nifrət edirəm.

Hər halda, bunu aydın duyuram ki, o, sevə biləcəyim yeganə insandır. Bu, necə alınır, bilmirəm, mənim üçün bu tamam anlaşılmazdır.

Məhəbbət, həqiqətən, dərkedilməz bir şeydir.

Ancelika özünü çayda boğdu. Amma bunu heç kəs görməyib, çünki, görünür, ya dünən axşam eləyib, ya da ki gecə. Qoyduğu məktubdan tamamilə aydındır ki, intiharın məhz bu üsulunu özü seçib. Bütün günü mühasirəyə düşmüş şəhərin sərhədləri içində çayboyu gəzərək, onun cəsədini axtardılar, amma bir nəticə hasil olmadı. Görünür, su onun meyitini də Covannininki kimi dənizə aparmışdı.

Sarayda dəhşətli qarışıqlıq var. Hamı heyrət içindədir, onun öldüyünə heç cür inana bilmirlər. Məncə, burada qaranlıq

bir şey yoxdur: sevgilisi ölmüşdü deyə, o da özünü öldürdü. Hamı bərk dilxordur, hərə özünü günahlandırır. Ən çox da qızın məktubu səbəb olub bu söz-söhbətə. Məktubun məzmununu bir-birlərinə, kim bilir, neçənci dəfə danışır, ucadan oxuyurlar. Deyirlər ki, hersoqu bu məktub sadəcə sarsıdıb; o, ümumiyyətlə, baş vermiş hadisələrdən sarsılıb. Saray xanımları köksləri ni ötürüb burunlarını çəkir, məktubun təsirli ifadələrinə göz yaşı tökürlər. Mənim üçün onların göz yaşlarının, qüssələrinin səbəbi qətiyyən aydın deyil. Heç cür başa düşmürəm ki, qeyri-adi nə var axı bu məktubda. Bu məktub nəyi dəyişir ki: elə indicə müzakirə elədikləri cinayət də cinayət olaraq qalıb. Məktubda təzə heç nə yoxdur.

Mən onu yüz dəfə eşitmişəm, daha ürəyim bulanır, lap əzbər bilirəm bu məktubu. Orada bunlar yazılıb:

"Mən artıq sizlərin içində qalmaq istəmirəm. Mənə qarşı çox mehriban olmusunuz, amma sizi başa düşə bilmirəm. Başa düşə bilmirəm ki, uzaq ölkədən mənə dünyada məhəbbətin olduğunu demək üçün gəlmiş sevgilimi mənim əlimdən necə ala bildiniz.

Mən məhəbbət kimi bir hissin olduğunu heç bilmirdim. Amma Covannini görəndə başa düşdüm ki, məhəbbət dünyada real olan yeganə şeydir, bütün qalan anlayışlar onun qarşısında bir heçdir. Onu ilk dəfə gördüyüm an anladım ki, niyə mənim üçün o vaxtadək yaşamaq çətin idi.

İndi də onsuz burada qalmaq istəmirəm, onun dalınca getmək istəyirəm. Mən Tanrıya dua elədim, O isə mənə söz verdi ki, Covanni ilə görüşəcəyik və daim bir yerdə olacağıq. Amma məni hara aparacağını demədi: Bunu mənə deyə bilməzdi. Mən, sadəcə olaraq, suya uzanmalı idim, özü aparacaq məni lazım olan yerə.

Odur ki mənim özümə qəsd etdiyimi düşünməyin, mən, sadəcə olaraq, deyildiyi kimi elədim, mən ölməmişəm, getmişəm ki, öz sevgilimə əbədilik qovuşum.

Medalyonu da özümlə aparıram, hərçənd ki, o, mənim deyil. Amma bunu da mənə demişdilər. Mən medalyonu açdım, içindəki portretə baxdım və bu dünyadan köçmək istədim.

Xahiş elədi, sizə çatdırım ki, o, sizi bağışlayıb. Mən özüm də sizi ürəkdən bağışlayıram.

Ancelika"

Hersoginya beyninə yerləşdirib ki, Ancelikanın ölümündə də günahkar odur. Mənə elə gəlir ki, öz uşağına ilk dəfədir ki, belə maraq göstərir. Özünə əvvəlkindən də artıq əzab verir ki, günahını yusun; heç bir şey yemir, Çarmıxa çəkilləndən bağışlanmasını diləyir.

Çarmıxa çəkilən isə cavab vermir.

Bu gün nahardan qabaq hersoq məni maestro Bernardo üçün yazdığı məktubla Santa-Kroçeyə göndərib. O, çoxdandır ki, sarayda görünmürdü və bu müddət ərzində, demək olar ki, onun mövcudluğunu da unutmuşdum. Mən şəhərə çox həvəssiz çıxdım, taun başlayandan bəri ilk dəfə idi oralara ayaq basdığım. Bu heç də mənim xəstələnməkdən qorxduğuma dəlalət etmir, sadəcə olaraq, elə şeylər var, onlara baxa bilmirəm, hətta, demək olar ki, baxmaqdan qorxuram da. Nahaq deyilmiş getmək istəməməyim. Gördüklərim, həqiqətən, dəhşət idi. Amma bununla yanaşı, gördüklərim dərin təsir bağışladı mənə: bu mənzərələr özünün ibtidai çılpaqlığı ilə fərqlənirdi, dünyəvi məfhumların əbəsliyi və ötəriliyini duymağa imkan verirdi. Xəstələr və ölülər bütün yol boyu ayaqlarımın altına sərilmişdilər, artıq canıçıxmışları başına göz üçün iki yarığı olan qara başlıqlı qəbirqazan-rahiblər yığırdılar, dəhşətli görkəmləri vardı onların. Qorxulu siluetləri, sanki, yerin təkindən peyda olur, bütün mənzərəyə bir irreallıq verirdi. Onlar təhlükəli lunatik arxayınlığı ilə ayaqlarının altında qeyri-təbii qıvrılaraq sərilmiş, cır-cındıra bürünmüş bədənlərə baxırdılar, – həyat əlamətinin görünüb-

görünmədiyini belə dəqiq demək mümkün olmayan bədənlərə. Bu xəstəlik qurbanlarının görüntülərindən daha miskin, daha murdar bir şeyi təsəvvür etmək belə çətindir. Tez-tez üzümü yan çevirirdim ki, ürəyim qalxmasın. Cır-cındırın arasından dəhşətli yaralar görünürdü, dərinin göyümtüllüyü – sonun yaxınlaşdığına dəlalət edən göyərmə nəzərə çarpırdı. Bəziləri tükürpərdici çığırtılarla cisimlərinin hələ həyata mənsub olduğunu bildirir, digərləri isə huşsuz vəziyyətdə qalsalar belə, itaətdən çıxmış əzaları qıcolmadan mənasız hərəkətlər edirdi. Mən insanın bu dərəcədə alçalmasını ilk dəfə idi ki, görürdüm. Elələri vardı ki, dibsiz baxışları divanəlik alovundan parlayırdı və onlar halsızlığa qələbə çalaraq, xəstələr üçün quyulardan su daşıyan adamların əlindəki qabları vəhşi kimi alır, qiymətli suyu yerə dağıdırdılar. Bəziləri də, heyvan kimi, dörd ayaq üstə sürünüb, özlərini arzuladıqları quyuların başına, bütün bu zavallıların ən çox ehtiyacı olduğu suya, birtəhər də olsa, yetirirdilər. Qiymətini tamamilə itirmiş həyatın hər bir işartısından belə acgözlüklə yapışan bu miskin məxluqlar insan simasını artıq itirmiş, insan ləyaqətinin son qalıqlarından da məhrum olmuşdular. Onlardan yayılan üfunətdən danışmaq istəmirəm, bu barədə elə düşünmək bəs edir ki, ürəyim bulansın. Meydanlarda tonqallar çatılmışdı, qalaq-qalaq cəsədlər yandırılırdı, havada boğucu bir qoxu dururdu. Zəif tüstü-dumanın ağuşunda olan şəhərin üzərində dəfn zəngləri səslənir, bütün kilsələrdən dünyasını dəyişənlərin xatirəsinə fəzaya yayılan zəng səsləri bir-birinə qarışırdı.

Mən maestro Bernardonu "Sirli axşam"a dərin fikirlər içində baxdığı vəziyyətdə gördüm, elə keçən dəfələrdə olduğu kimi. Ağarmış başını azacıq yana əyərək oturmuşdu, mənə elə gəldi ki, sonuncu dəfə gördüyümdən bəri bir az da qocalıb. Stolun arxasında oturmuş Məsih çörək kəsib tələbələrinə paylayırdı. Başının üstündə elə həmin ilahi halə görünürdü. Şərab camı əldən-ələ ötürülür, masanın üstündə isə ağappaq bezdən süfrə vardı. Burada nə ac vardı, nə susuz. Amma

əlində palitra və fırçası olan qoca, nədənsə, acı düşüncələrə qərq olmuşdu.

Mən ona deyəndə ki hersoqdan məktub gətirmişəm, heç bir cavab vermədi, yalnız əliylə hövsələsiz bir tərzdə işarə elədi: yəni qoy bir yana. İstəmirdi ki, onu öz aləmindən ayıralar. Hansı aləmdən?

Mən Santa-Kroçeni çaşqınlıq içində tərk etdim.

Qayıdarkən kampanilanın yanından keçirdim – həmin kampanilanın ki, bütün qalanlarından hündür olmalıydı. Müharibə zamanı, təbii ki, orada heç bir iş getmirdi və hamı artıq unutmuşdu bu tikilini. Elə natamam da qalmışdı, bənnalar işi yarımçıq tullayıb getmişdilər. Daha çox xarabalığa bənzəyirdi, hərçənd ki, aşağı hissələrində Çarmıxa çəkilənin həyatından səhnələri əks etdirən bürünc barelyeflər tam başa çatmışdı və çox uğurlu da alınmışdı.

Mən əvvəlcədən deyirdim ki, belə olacaq.

Bizim qəsr matəm içindədir. Divarlar, mebel qara örtüyə bürünüb, hamı pıçıltı ilə danışır, barmaqlarının ucunda yeriyir. Saray xanımları, hamı bir nəfər kimi, qara atlaz parçadan paltarlar geyiblər, kişilərin əynində isə qara məxmər kostyumlar, əllərində qara əlcəklər var.

Hər şeyin səbəbkarı Ancelikanın ölümüdür. Sağlığında heç kəsə bu qədər əziyyət verməmişdi. Bizim sarayda yas saxlamaqdan ötrü ölürlər. Don Rikkardonun matəmi indi də qızın matəmi ilə əvəz olunub, əgər belədirsə, deməli, indi don Rikkardo artıq birdəfəlik öldü. Bu dəfə mərhumun sağlığında necə insan olmasını yada salmırlar, çünki məxsusi, maraqlı bir cəhəti yox idi bu qızın – yeri gəlmişkən, kim bilir ki, o, əslində, necə idi? Onun üçün, sadəcə, ağlayırlar. Hamı gənc hersoq qızının bədbəxt taleyinə ağlayır, hətta Covanninin də taleyinə acıyırdılar, hərçənd ki, o ən nifrətəlayiq bir düşmən nəslinə mənsub idi. Onların artıq heç kəsin şübhə ilə yanaşmadığı məhəbbəti və bu məhəbbət naminə ölümləri üçün

köks ötürürlər. Məhəbbət və ölüm – insanların sevimli mövzularıdır, çünki məhəbbətə də, ölümə də ağlamaq adama həmişə ləzzət eləyir, xüsusilə də onlar birləşəndə.

Hersoq, görünür, sidq-ürəkdən əzab çəkir. Ən azı, mənə belə gəlir: o, tamam özünə qapanaraq dərdini heç kimlə bölüşmür. Hər halda, mənimlə bölüşmədiyi yəqindir, amma əvvəllər hərdən olurdu ki, mənə inam göstərib sevindirirdi. Amma onda tamam başqa şərait idi. İndi adamda elə təəssürat oyanır ki, sanki, qaçır məndən. Xidmətlərimdən də daha gec-gec istifadə eləyir. Bernardoya məktubunu da birbaşa özümə verməmişdi, saray adamlarının birinin vasitəsi ilə ötürmüşdü.

Mənə hərdən elə gəlir ki, o hətta məndən qorxmağa başlayıb.

Bu qırmızıyanaq kəndçi qızı – hersoginyanın kameristkası da xəstələnib. Nəhayət ki, onun da rəngi qaçdı. Maraqlıdır, görəsən, nə olub ona?

Qəribə işdir, amma mən ətrafda dolaşan xəstəlikdən heç qorxmuram. Məndə elə hissiyyat var ki, heç vaxt yoluxmaram. Niyə? Sadəcə hiss eləyirəm, vəssalam.

Xəstəlik insanlar üçün qorxuludur, məni əhatə eləyən bütün məxluqlar üçün qorxuludur – mənim üçün yox.

Hersoginya getdikcə daha çox düşür. Bu düşgünlüyü müşahidə eləmək ağırdır, bu düşgünlük həm onun öz içini dağıdır, həm də dörd tərəfində pintilik, cansıxıcı bir kir-pas yaradır. Onun əsil-nəcabətinə və əvvəlki xasiyyətinə işarə edən yeganə şey – onun qətiyyətidir, heç kəsə müdaxilə etmək imkanı vermədən seçdiyi yolla inamla gedir.

Kameristka xəstələnəndən sonra daha onun otağına heç kəsin girməyə ixtiyarı yox idi və otağın zirzibili xirtdəyə çıxmışdı. Heç bir şey yemir və elə arıqlayıb ki, başa düşə bilmirəm, ayaq üstə necə durur.

Təkcə mənim icazəm var ona baş çəkməyə. O təmənna eləyir, yalvarır ki, gəlib bu zavallı günlərində ona kömək əlimi uzadım, imkan verim ki, günahlarını mənə etiraf etsin.

Sakitləşə bilmirəm. Elə indicə onun yanından gəlirəm və hələ hakimiyyət duyğusunun xofu canımdan çıxmayıb, insanlar üzərində bəzən ələ keçirdiyim hakimiyyətin xofu. Onunla görüşümü təsvir eləyim.

Otağa birinci girdiyimdən həmişəki kimi heç bir şey görmədim. Əvvəlcə, qalın pərdələrə baxmayaraq, pəncərə bəlli oldu, sonra da onu seçdim, Çarmıxa çəkilənin qarşısında həmişəki bitib-tükənmək bilməyən dualarını mızıldanırdı. Başı duasına o qədər qarışmışdı ki, qapını açıb içəri girməyimdən də xəbəri olmadı.

Otaqda elə bir hava vardı ki, az qaldım boğulam. İyrəndim. Hər şeydən iyrənirdim. Üfunət, alaqaranlıq, beli bükülmüş siluet, arıq, abırsızcasına açıq qoyduğu çiyinlər, boynunun aydın seçilən vətərləri, köhnə sağsağan yuvasına bənzəyən səliqəsiz saçları, nə vaxtlarsa sevilməyə layiq miskin cismi. İçimdə quduzluğa bənzər bir hiss duydum. İnsanlara nə qədər nifrət bəsləsəm də, belə alçalmaqlarına heç sakit baxa bilmirdim.

Birdən, o, məni hələ qaranlıqda görməmişdən içimdən ucalan quduz qışqırığımı eşitdim:

– Nə dua eləyirsən? Sənə deməmişəm ki, dua eləmə! Sənin duaların mənim zəhləmi töküb.

O çöndü, diksinməmişdi də, yalnız təpik dəymiş qancıq kimi zingildədi və müti baxışlarını mənə zillədi. Belə davranış kişinin əsəbini səngidə bilər?! Mən insafsızcasına sözümə davam etdim:

– Sən elə bilirsən duaların lazımdır ona? Elə bilirsən ayaqlarının altına bax beləcə sərələnsən, yalvarıb burnunun suyunu töksən, günahlarını boynuna alıb tövbə eləsən bağışlayacaq səni? Pah, tövbə eləyir, çox böyük işdir! Elə bilirsən, aldada bilərsən onu? Elə bilirsən, sənin içini görmür o? Sən

don Rikkardonu sevirsən, onu yox! Elə bilirsən bilmirəm? Elə bilirsən əzilib-büzülməyinlə, pəhrizinlə, şəhvətli cisminə əziyyət verməyinlə məni aldada bilərsən? Sən aşnan üçün darıxırsan, Çarmıxa çəkilən üçün yox! Sən onu sevirsən!

Mənə dəhşət içində baxırdı. Qanı qaçmış dodaqları titrəyirdi. Qəflətən ayaqlarıma yıxılıb inildədi:

– Düzdür! Düzdür bu! Xilas et məni! Xilas et!

Onun etirafını eşidib lap özümdən çıxdım.

– Pozğun fahişə! – deyə çığırdım. – Xilaskarı sevən kimi göstərirsən özünü, o tərəfdən də cəhənnəmin arvadbazıyla pozğunluq eləyirsən! Cəhənnəmə atdığı birisinə görə öz Tanrını aldadırsan! Murdar iblis, Çarmıxa çəkilənə mütiliklə baxırsan, ona məhəbbətini etiraf eləyirsən, özün də fikrən başqasının ağuşundasan, həzz alırsan! Axı niyə başa düşmürsən ki, Tanrı nifrət edir sənə? Başa düşmürsən?!

– Başa düşürəm! Anlayıram! Xilas et məni! Xilas et! – deyə inildəyir, ayaqlarımın altında tapdalanmış soxulcan kimi qıvrılırdı. Onun necə süründüyünü görmək nifrətimi oyadırdı, bu, məni ancaq əsəbiləşdirirdi, nə qədər qəribə olsa da, düşdüyü bu vəziyyətdən qətiyyən ləzzət almırdım. Əllərini mənə sarı uzatdı: – Məni cəzalandır, sən cəzalandır, Tanrının qamçısı sənsən! – deyə inildədi. Və yerdəki qamçını qaldırıb, mənə uzatdı, özü isə it kimi büzüşdü. Mən içimdə tüğyan edən, nifrətlə qəzəbin qarışığından yaranmış bir hisslə qamçını qapıb onun murdar bədənini qamçılamağa başladım, öz qışqırığımı da eşidirdim:

– Bu, Çarmıxa çəkiləndir! Həmin o Çarmıxa çəkilən ki, sənin divarından asılıb, odur səni qamçılayan, od kimi alışan yalançı dodaqlarınla min dəfə öpdüyün, sevirəm dediyindir! Sən heç bilirsən ki, məhəbbət nədir?! Bilirsən ki, nə istəyir o, səndən?! “Mən sənin üçün əzab çəkmişəm, sən isə bu barədə düşünmədin” – deyir! – “İndi özün gör ki, əzab çəkmək nədir!”

Mən tamam özümdən çıxmışdım, nə etdiyimi, bəlkə də, anlamırdım. Anlamırdım? Necə yəni! Gözəl anlayırdım! Mən

öz qisasımı alırdım, hər şeyə görə alırdım! Mən ədalət məhkəməsi idim! Mən insanlar üzərində dəhşətli hakimiyyətimi gerçəkləşdirirdim! Amma bütün bunlara rəğmən, sevinə bilmirdim.

O bircə dəfə də inildəmədi. Əksinə, sakitləşdi, susdu. Hər şey bitəndən sonra, necə vardısa, eləcə də uzanıb qaldı, ona əziyyət verən bütün tərəddüdlərini çox qəribə bir tərzdə dağıtmışdım.

– Cəhənnəm zəbanəsində yanacaqsan! Qoy alov sənin murdar məhəbbət günahını dadmış bətnini daim yalasın!

Bu hökmü səsləndirərək, onu yarıhuşsuz vəziyyətdə uzanılı qoyub getdim.

Öz otağıma qalxdım. Cırtdanların yataq otağına girib, qapını kilidlədim, ürəyim lap ağzımdan çıxırdı.

İndi, bu yazını qələmə aldığım zaman həyəcanım çəkildi, hal-hazırda içimdə ancaq nəhayətsiz boşluq, ifrat doyma hissinə bənzər bir şey duyuram. Ürəyim də artıq çırpınmır, heç nə hiss etmirəm. Boşluğa baxıram, daşa dönmüş sifətim isə sərt və kədərlidir.

Bəlkə də, o, mənə Tanrının qamçısı deyəndə səhv etmirdi.

İndi elə həmin günün axşamıdır, oturub ayaqlarımın altına sərilmiş şəhərə uzaqdan baxıram. Artıq şər qarışır, kilsə zəngləri dəfn sədalarını kəsib, şəhərin ilahi məbədləri də insan məskənləri kimi aramla qaranlığa qərq olur. Onların arasından meyitlər yandırılan tonqalların tüstüsünün buruluraq necə qalxdığını seçirəm və üfunətli qoxu bura, mənim yanıma dırmanır. Yer üzünə, elə bil, qara duvaq enir və tezliklə tamam zülmət düşəcək.

Həyat! Nəyə lazımdır o, nə xeyri var, nə mənа daşıyır? Bu, çıxılmazlıqdırsa, boşluqdursa onun mahiyyəti, bəs niyə davam edir?

Mən məşəli başıaşağı çevirib döşəmədə söndürürəm və gecə düşür.

Qulluqçu qız öldü. Onun qıpqırmızı yanaqları da mane olmadı ölməyinə. Taun öz dəryazı ilə onu da biçdi, hərçənd ki, yoluxması uzun müddət heç kəsin ağlına belə gəlmirdi, çünki başqaları kimi əzab çəkmirdi.

Famyetta da öldü. Dünən səhər xəstələndi, bir neçə saatdan sonra artıq yox idi. Mən onu kabus-rahiblər aparmağa gələndə gördüm. Ona baxmaq dəhşət idi. Sifəti şişib eybəcərləşmişdi, görünür, elə bütün bədəni də bu kökdə idi. Onda artıq heyran qalası heç nə yox idi. Murdar bir cəsəd idi, vəssalam. Rahiblər onun qorxulu sifətini örtüb apardılar.

Bizim sarayda xəstəlikdən dəhşətli dərəcədə qorxurlar və çalışırlar ki, meyitlərdən canlarını təcili qurtaralar. Amma onu bu axşam xüsusi təmtəraqla basdıracaqlar – hökmdarın iradəsi belədir. Əşi, öləndən sonra nə fərqi var ki.

Onun ölməsinə kədərlənən yoxdur.

Hersoq, ola bilər ki, kədərlənir. Bəlkə də, belədir. Ya da özündə bir yüngüllük hiss eləyir. Ola da bilər ki, bu iki hissi eyni zamanda yaşayır.

Heç kəs bilməz bunu, çünki heç kimlə söhbət eləmir. Onun sifəti ağarmış, əldən düşmüş görünür, heç özünə oxşamır. Qara kəkilinin altından görünən alnı tamam qırışıb, yeriyəndə də qəddini bükür. Tutqun baxışlarında qəribə bir parıltı, həyəcan var.

Bu gün onu ötəri gördüm. Xeyli vaxtdır ki, nadir hallarda görürəm onu.

Daha ona yemək vaxtı qulluq eləmirəm.

O vaxtdan bəri hersoginyanın yanında olmamışam. Deyirlər ki, yarıhuşsuz vəziyyətdədir, uzanır. Hersoq tez-tez ona baş çəkir, gecələri səhərə kimi yanında oturur – bir gəl oturmasın, Famyetta ölüb axı.

Bu insanlar qəribə məxluqdurlar. Onların bir-birinə məhəbbətini də heç vaxt başa düşə bilmədim.

Taun onların da içində azğınlığa başlayandan sonra düşmən mühasirəni açıb şəhərdən uzaqlaşdı. Bokkarossanın muzdlularının bu düşmənlə döyüşməyə həvəsi yox idi.

Beləliklə, taun müharibəyə son qoydu. Təbii ki, başqa heç nəyin buna gücü çatmazdı. Hər iki ölkə müflis olub, xüsusilə də bizimki. Görünür, hər iki xalq da bu iki müharibədə elə əldən düşüb ki, daha onları heç cür davam etdirə bilməz. Montansa da heç nəyə nail olmadı. Çox mümkündür ki, onun əsgərləri xəstəliyi buradan öz evlərinə aparacaqlar.

Sarayda ölənlərin sayı getdikcə artır. Ancelikanın şərəfinə qurulmuş matəm atributlarına dəymirlər, ümumi yas ovqatı ilə tam uyuşur.

Saraydakı xidmətimdən tamam uzaqlaşdırılmışam. Daha məni çağıran yoxdur, heç kəsə gərək deyiləm. Hamıdan da az hersoqa lazımam. Onu daha heç görmürəm.

Sifətlərdən görürəm ki, burada nəsə bir məsələ var. Nə işdir, anlaya bilmirəm.

Görəsən, məndən ona nəsə deyiblər?

Öz otaqlarımda oluram, özüm üçün yaşayıram. Hətta yeməyə də düşmürəm, burada köhnə çörək qırıntıları qalıb, onları yeyirəm. Bəs eləyir, onsuz da yeməyə ehtiyacım həmişə az olub.

Alçaq tavanın altında tənha oturub düşüncələrimə qərq oluram.

Heç kəsin maneçilik törətmədiyi bu tənhalıq getdikcə daha çox xoşuma gəlir.

Mən artıq çoxdandır bir şey yazmıram. Bu, həyatıma qəflətən müdaxilə edən və qeydlərimi davam etdirməyə mane olan hadisələrlə əlaqədardır. Yazılarıma əlim çatmırdı. Onları yalnız indi veriblər özümə.

Sarayın zirzəmilərindən birində, divara zəncirlənərək oturmuşam. Bir az bundan əvvələ kimi əllərim də zəncirlənmişdi,

amma bilmirəm niyə, onsuz da buradan qaçan deyildim ki. Bunun məqsədi, yəqin, cəzanı ağırlaşdırmaq idi. İndi, nəhayət, qollarımı açıblar – bilmirəm niyə, bunu xahiş etməmişəm, mən onlardan, ümumiyyətlə, heç bir xahiş eləməmişəm. Qandalsız bir az rahat oldu, amma belə götürəndə, heç bir şey dəyişmədi. Bax, elə onda zindan gözətçisi Anselmonu razılaşdırdım ki, cırtdanların yataq otağından yazı ləvazimatımı gətirsin, hərdən başımı qatım. Yazılarımı gətirməyə razılıq verəndə, çox mümkün ki, özünü müəyyən təhlükəyə məruz qoyurdu, çünki əllərimi açsalar da, inanmıram, bu sevinci mənə verməyə razı olaydılar, elə o özü də, ürəyi istəyən kimi, nəyəsə icazə vermək hüququna malik deyildi, özü dedi bunu. Amma sadə oğlan olduğundan, onu nəhayət ki, razı sala bildim.

Yazılarımı əvvəldən axıradək oxudum – hər gün bir az – ləzzət elədi, sanki, öz həyatımı, bir çox başqalarının həyatını bir də yaşadım, boş vaxtlarımda hər şey barədə fikirləşdim. İndi mən yazıları dayandırdığım yerdən davam etdirmək istəyirəm ki, həqiqətən, yeknəsəq həyatıma, heç olmasa, bir az rəngarənglik gətirim.

Düzünü desəm, burada nə qədər qaldığımı bilmirəm. Zindan həyatım o qədər hadisəsiz keçir, günlər o qədər bir-birinə bənzəyir ki, ayın tarixini hesablamaqdan vaz keçmişəm, vaxtın necə ötdüyünə heç fikir vermirəm. Lakin məni bu çalaya gətirmələrinə, divara qandallamalarına səbəb olmuş hadisələri bütün detallarıyla xatırlayıram.

Günlərin birində səhər özümçün sakitcə otağımda oturmuşdum, birdən qapıda cəlladın köməkçilərindən biri peyda oldu və mənə tapşırdı ki, onun dalınca gəlim. Heç bir şey izah eləmədi, mən də soruşmadım, çünki onunla birinci danışmağı ləyaqətimdən aşağı sayırdım. Məni bir otağa gətirdi, nəhəng, qırmızısifət, qurşağa kimi çılpaq cəllad özü də artıq orada idi. Otaqda hakimin nümayəndəsi də vardı, mənə işgəncə alətlərini göstərəndən sonra dəvət etdi ki, hersoginyanın yanına gedərkən orada baş verənləri səmimi etiraf eləyim,

onun niyə bu vəziyyətə düşdüyü maraqlandırırdı onları. Mən, təbii ki, imtina elədim. O, iki dəfə dəvət elədi məni etirafa, xeyri olmadı. Onda cəllad yaxamdan tutub işgəncə dəzgahına bağlamağa başladı, təbii ki, işgəncə vermək fikrində idi. Bəlli oldu ki, dəzgah mənim bədənimin ölçülərinə yaramır, məcbur oldum düşüm, gərək cırtdanlara uyğun gəlməsi üçün ölçülərini kiçildəydilər. Məcbur oldum sarsaq, kobud zarafatlarını dinləyim, deyirdilər ki, səni elə dartacağıq hündürboy oğlan olacaqsan. Sonra məni yenidən ata dırmaşdırdılar və başladılar qəddarcasına işgəncələr verməyə. Ağrıya baxmayaraq, cınqırımı da çıxarmadım, öz murdar peşələriylə məşğul olan bu adamlara istehza ilə baxırdım. Qanun adamı, başımın üstündə dayanıb mənə sarı əyilmişdi, etiraflarımı eşitmək istəyirdi, lakin dilimdən bircə kəlmə də çıxmadı. Mən onu satmadım. İstəmirdim ki, onun necə alçaldığını bilsinlər.

Niyə mən məhz belə hərəkət elədim? Bilmirəm. Amma heç ağlıma da gəlmədi ki, onu alçaldacaq nələrisə etiraf eləyim; bunun üçün hər şeyə dözməyə hazır idim. Dişlərimi bir-birinə sıxıb nifrət etdiyim bu qadına görə işgəncələrə dözürdüm. Niyə? Bəlkə də, onun yolunda əzab çəkməkdən xoşum gəlirdi.

Nəhayət, onlar əl çəkməli oldular, lənətlər yağdıra-yağdıra kəndirlərimi açdılar. Məni zirzəmiyə aparıb qandalladılar, həmin o qandalla ki, əzilən xalqımı ilahi sirlərə vaqif eləyəndən sonra mənim üçün düzəltdirmişdilər, hersoq düz demişdi onda, bu qandallar da kara gəldi. O məhbəs indikindən xeyli qonaqpərvər idi. Bir neçə gündən sonra məni bir də apardılar və həmin əzablardan yenə keçəsi oldum. Amma bu dəfə də bütün səyləri boşa çıxdı. Yer üzündə elə bir qüvvə yoxdur ki, məni danışmağa məcbur eləsin. Onun sirrini, elə əvvəlki kimi, qəlbimdə qoruyuram.

Bir müddətdən sonra bir məhkəmə qabağında durası oldum, orada öyrəndim ki, yer üzünün ən qatı canisiyəm və digər məsələlərlə yanaşı, hersoginyanın ölümündə də müqəssirəm. Onun öldüyünü bilmirdim, amma əminəm ki,

bu xəbəri eşidəndə mənim sifətim içimdən hansı hisslər keçdiyini qətiyyən bildirmədi. O, huşu özünə qayıtmadan ölmüşdü.

Soruşdular ki, özümü müdafiə etmək üçün deməyə bir sözüm varmı. Onları bircə kəlməyə də layiq görmədim. Neçə-neçə bədbəxtliyə səbəb olmuş bəd əməllərimə görə məni sarayın ən qaranlıq zirzəmisində ömürlük həbsə məhkum eləyirdilər, orada divara qandallanmalıydım. Sən demə, mən zəhərli ilan, əlahəzrət hersoqun şər dühası imişəm və elə əlahəzrətin ali iradəsinə əsasən, həmişəlik təcrid olunmalıydım.

Hökmü dinləyərkən tüküm də tərpənmədi və qədim cırtdan sifətim onlara ünvanlanan kinayə və istehza nümayiş etdirirdi, fikir verdim ki, onlar qorxu içində baxırdılar mənə. Məni apardılar və o vaxtdan bəri Anselmodan başqa, bu rəzil məxluqların heç birini görməmişəm; o isə bir insan kimi o qədər bəsitdir ki, nifrət etməyə də dəyməz.

Zəhərli ilan!

Bəli, mən zəhər verdim onlara, bəs kim buyurmuşdu bunu etməyi? Bəli, mən don Rikkardonu öldürmüşəm, bəs onun ölümünü kim idi arzulayan? Bəli, mən hersoginyanı qamçılamışam, bəs kim yalvarırdı ki, mən bunu edim?

İnsanlar çox zəif, reallıqdan çox uzaq məxluqlardır, belələri talelərini özləri yaza bilməzlər.

Adama elə gəlirdi ki, sadalanan bütün bu dəhşətli cinayətlərə görə məni ölümə məhkum etməliydilər. Lakin hökmün elə olmamasına ya çox sarsaq, ya da ki mənim hökmdarımı tanımayan birisi təəccüblənə bilər. Mən hersoqu o dərəcədə tanıyıram ki, belə şeylərdən qorxmaya bilərəm. Mahiyyətcə mən heç onun hakimiyyəti altında da deyiləm.

Mənim üzərimdə hakimiyyət! Nə dəxli var ki, mən bu quyunun dibindəyəm indi! Zəncirləməyin nə əhəmiyyəti var! Mən onsuz da sarayın ayrılmaz parçasıyam. Bunu onların özləri də, məni saraya zəncirləməklə sübut etdilər. Yox, biz bir-birimizdən qurtula bilmərik – nə mən, nə mənim ağam.

Mən məhbəsdəyəm – hersoq da məhbəsdədir. Biz bir-birimizə zəncirlənmişik. Bir zəncirlə bağlıyıq.

Mən gözəgörünməz, köstəbək həyatımla bu çalada yaşayıram, o isə indi öz dəbdəbəli zallarında gəzib-dolaşır. Lakin mənim həyatım həm də onun həyatıdır. Onun gözəl və çox möhtərəm həyatı isə mahiyyətcə elə mənim həyatımdır ki var.

Bütün bunları yazmaq üçün xeyli vaxt gərək oldu. Mən yalnız günəş şüası dar pəncərədən kağızın üzərinə düşəndə yaza bilirəm, elə ki işıq düşdü, tələsməliyəm. Şüa döşəməyə düşənədək bir saatdan az vaxt keçir, ora enməyə isə zəncirlərim imkan vermir. Hərəkətim çox məhduddur. Elə buna görə də köhnə yazılarımı oxumağa bu qədər vaxtım getdi, amma elə belə yaxşıdır, çünki başımı daha uzun müddətə qata bildim.

Günün bütün qalan vaxtını isə elə əyləşdiyim kimi də əyləşirəm, qandallandığımdan başımı qatmağa heç nə yoxdur. Saat üçdən etibarən hava qaralmağa başlayır və günün çox hissəsini tam zülmətdə keçirəsi oluram. Qaranlıq çökən kimi siçovullar peyda olur, ac gözlərini parıldada-parıldada, başlayırlar ətrafımda şütüməyə. Onları elə o dəqiqə görürəm, çünki qaranlıqda heç də onlardan pis görmür gözüm, yavaş-yavaş, deyəsən, elə siçovul kimi yeraltı məxluqa çevrilirəm mən də. Mənim bu eybəcər və murdar məxluqları görən gözüm yoxdur, onları ovlayıram, sakitcə oturub yaxınlaşmaqlarını gözləyirəm, sonra da başlayıram tapdalamağa. Bu, hələlik, imkanım çatan həyat təzahürlərindən biridir. Səhər isə Anselmoya əmr edirəm ki, aparıb tullasın onları. Heç bilmirəm ki, haradan peyda olur bu siçovullar. Görünür, qapının altında yarıq-zad var.

Divarlarda nəm puçurlanır, zirzəminin havası adamın iliyinə işləyən dərəcədə boğucudur; bu hava mənə hər şeydən çox əziyyət verir, çünki qoxulara qarşı həddindən ziyadə həssasam. Döşəmə torpaqdır, məndən əvvəlki məhbuslar onu tapdalayaraq sərtləşdiriblər. Görünür, onların hamısı mənim

kimi divara zəncirlənməyibmişlər, çünki döşəmə, həqiqətən, lap daşa dönüb. Gecə mən bir qucaq samanın üstündə yatıram – onun kimi. Amma mənim samanım onunku kimi kirli və üfunətli deyil, Anselmoya tapşırıram ki, hər həftə dəyişsin. Mən tövbə edən günahkar deyiləm. Mən azad insanam. Mən özümə əzab vermirəm.

Bu zindan çalasında bax, beləcə keçinirəm. Daşa dönmüş bir sifətlə oturub, həyat və insanlar barədə düşüncələrimə qərq oluram və elə əvvəlki kimi, elə həmişəki kimi, heç bir şeydə dəyişmirəm.

Əgər onlar məni sındıra biləcəklərini fikirləşirlərsə, çox səhv edirlər!

Kənar aləmlə müxtəsər bir əlaqəni mənim mehriban nəzarətçim vasitəsilə yaradıram. Mənə yemək gətirəndə sadəlövh bir tərzdə yuxarıda baş verənlərdən danışır, hadisələri öz bildiyi kimi yozur. Onu dünyada baş verənlər yaman maraqlandırır və hadisələr barədə zülmlə ağlına gələn fikirlərini bölüşməkdən yaman xoşlanır. O danışanda hər şey adama dəhşətli dərəcədə sadə görünür, onu ən çox narahat eləyən bütün bunlar barədə Tanrının nə düşündüyüdür, amma, hər halda, işıqlı dünyanın işlərinə indi dərindən bələd olmağıma görə, hadisələr haqqında təxmini bir təsəvvür yaranır məndə. Hersoginyanın ömrünün son günləri, onun ölümü və mən bura düşəndən bəri baş vermiş başqa hadisələr barədə də təsəvvürüm bu yolla formalaşıb. Hersoq günlər uzunu sadiqlik nümayiş etdirərək, onun yatağının böyründən əl çəkmir, onun sifətinin günbəgün daha da şəffaflaşmasını, saray diliylə desək, şövqlənməsini izləyirmiş. Anselmonun dediyinə görə, o lap Madonna kimi gözəlləşibmiş, oğlan elə danışırdı, sanki, özü görmüşdü. Mən hersoginyanı öz gözləriylə görən bir adam kimi, onun həqiqətdə necə olduğunu bilirəm. Həm də ona inanıram ki, hersoq özünü onu tərk etməkdə olan arvadına həsr edərək gecə-gündüz yanından əl çəkməyib. Bəlkə

də, gənclik məhəbbətini bir də yaşayırdı, amma bu dəfə təkbaşına, çünki sevgilisi artıq dünyəvi şeylərin hamısından aralanmışdı. Yəqin ki, qadının tərki-dünyalığında, onun ilahi görkəmində çox riqqətləndirici məqamlar görürdü – onu mən yaxşı tanıyıram. Amma bununla yanaşı, ola bilər ki, qadının onun iştirakı olmadan baş vermiş bu mübhəm dəyişməsindən çaşqınlıq keçirirdi, hərçənd ki, onu həyata qaytarmaq arzusu da səmimi idi. Qadın isə yavaş-yavaş, heç bir səbəb olmadan uzaqlaşırdı və bu, onun məhəbbətini daha da gücləndirirdi – axı həmişə belə olur.

Məni də məhbəsə, işgəncələrə özü elə bu əhvali-ruhiyyədə olarkən məruz qoymuşdu. Onu əlçatmazlığına görə sevirdi, elə məni də bu səbəbdən əzablara düçar etmişdi. Bu, məni təəccübləndirmir, məni təəccübləndirə bilən heç nə yoxdur.

Bernardo da, başqaları da ona baş çəkirdi. Qoca maestro deyirmiş ki, onun sifəti tam qeyri-adidir və o, nəhayət, indi anlamağa başlamışdı bu qadını. Sonra, deyəsən, dərk etməyə başlayırdı ki, onun portreti niyə alınmamışdı. Amma hələ bəlli deyildi ki, onda, həqiqətənmi, portret yaxşı alınmamışdı, hərçənd ki, artıq özü heç həmin portretinə bənzəmirdi. Bu qoca həmişə düşünüb sonra danışsaydı, əla olardı.

Sonra səhnəyə müqəddəs atalar çıxmışdılar. Mən təsəvvür eləyirəm ki, onlar irəli-geri nə təhər şütüyürdülər oralarda. Ruhanilər bəyan ediblər ki, onun əbədi həyata qədəm basması gözəl, ruhu yüksəldən bir mənzərədir. Təbii ki, onun öz ruhani atası da gəlibmiş və təbii ki, hər yetənə onun necə günahsız, mömin bir qadın olduğundan dəm vururmuş. O can verəndə, arxiyepiskop öz əliylə ona müqəddəs yağ çəkərək, dini ayini icra edib, otaqda çoxsaylı prelat və bütün dini rütbə və çinlərdən olan xadimlər vardı. Lakin bütün bu camaata baxmayaraq, o, tənha ölürdü, yanında kimsənin varlığından bixəbər.

Ölümündən sonra onun kirli, əzik kağız parçasında yazdığı məktubunu tapmışdılar. Yazırdı ki, cəsədinin taun tutmuş xəstələrinki kimi yandırılmasını, külünün isə küçələrdə havaya sovrularaq tapdalanmasını arzulayır. Qərara aldılar ki, bu məktubu yazanda, ağlı və huşu artıq başında olmayıb və onun son iradəsinin yerinə yetirilməsinə heç kəs qol qoymadı, hərçənd ki, onun iradəsi, həqiqətən, belə idi. Bunun əvəzinə, ortaq məxrəcə gəldilər: meyiti mumiyaladılar, lakin bəzək-düzəksiz adi dəmir tabuta qoydular, bəzək-düzəksiz, sonra da küçələrdən keçirib kilsəyə, hersoq məqbərəsinə apardılar. Hersoq soyadının imkan verdiyi həddə sadə keçirilən dəfn mərasiminin ardınca nəfəsini də dərməyən qara camaat – hələ ölməmiş, canlı skeletlər gedirdi və Anselmo taunlu şəhərdən keçən izdihamı təsvir edərkən söylədi ki, bu, ürəkparalayan bir mənzərə idi. Ola bilər ki, həqiqətən, belə imiş.

İndi, təbii ki, xalqa elə gəlirdi, mərhum barədə hər şeyi bilir: necə insan olduğunu, son zamanlar necə yaşadığını. Camaat da başlamışdı eşitdiklərini öz bildiyi kimi, belə mərasimlər vaxtı, adətən, necə danışarlarsa, elə də nəql etməyə. Onların fantaziyasını, təbii ki, mərmərlə bəzənmiş məqbərədə gümüş hersoq tabutları ilə yanaşı qoyulan bu kifir tabut coşdurmuşdu. Sadə tabut bu qadını qara camaata yaxınlaşdırır, onlardan biri edirdi. Kameristkanın macal taparaq hamıya danışdıqları: hersoginyanın tutduğu oruclar, özünə zülm verməsi, ali ailədən olmasına baxmayaraq, onu başqalarından artıq əziyyət çəkən seçilmiş bir şəxsə çevirmişdi – Tanrının oğlu olduğundan, hamıdan artıq əzab çəkən İsa kimi, hərçənd ki, çarmıxa təkcə onu çəkməmişdilər, bəzilərini hətta təpəsi üstə asmışdılar və ondan da artıq işgəncələr vermişdilər. Bu qadın tədricən, az qala, müqəddəsləşmişdi, bu dünyaya nifrət bəsləyən, onu rədd edərək cismini bilərəkdən öldürən birisi kimi. Sonra qara camaat qətiyyən həqiqətin qeydinə qalmayaraq, öz fantaziyalarını ürəkləri istəyən şəklə

salana kimi, rahatlanmadı. Amma mərasim möcüzəsiz də ötüşmədi! Hər halda, Anselmo bu möcüzəyə əməlli-başlı inanmışdı. O israr edirdi ki, gecələr onun tabutunun ətrafında bir parıltı yaranırdı. Olsun, nə deyirəm. Kilsə günün bu vaxtında bağlı olduğu üçün kimsə buna tam əminliklə nə “hə” deyə bilər, nə “yox”. Mömin adam isə həqiqətlə yalan arasında seçim etməli olanda həmişə ikincisini seçir. Yalan hissiyyata daha zəngin məfhumlar sırıyır, həqiqətdən daha qəribə görünür, elə bu səbəbdən mömin həmişə ona üstünlük verir.

Bu söhbətləri eşidəndə etiraf etməyə bilmirdim ki, özüm öz əllərimlə, amma qeyri-ixtiyari ona müqəddəslik haləsi düzəltmişdim, hər halda, bu halənin parlaqlığında mənim də xidmətlərim vardı. Bunu etdiyim üçün indi zindanda divara zəncirlənmişdim. Onlar, təbii ki, bu barədə heç bir şey bilmirdilər, əgər bilsəydilər belə, mənim əzabkeşliyim heç kəsin marağını cəlb etməyəcəkdi. Mən, onsuz da, əzabkeş kimi tanınmağa can atmıram. Lakin məni əməlli-başlı təəccübləndirən, müqəddəslikdən bu qədər uzaq olmağıma baxmayaraq, belə bir məqsəd üçün alət seçilməyimdir.

Bir zamanlar – dəqiq vaxtını xatırlamıram, – Anselmo danışdı ki, Bernardo Müqəddəs Ananın hersoginyanı xatırladan portretini yaradır. Hersoq da, bütün saray əhli də onun işini diqqətlə izləyirdilər, hamısı bərk sevinirdi. Qoca maestro deyirmiş ki, qadının daxili mahiyyətini, bir zamanlar ancaq təxmin etdiyi, ölüm yatağında isə əyani gördüklərini təsvir etmək istəyir. Bilmirəm bu dəfə nə dərəcədə müvəffəq olub, amma Anselmo deyir ki, əsl şedevr yaratdığını hamı birağızdan söyləyir, amma onsuz da onun elədiklərinin hamısına şedevr deyirlər də. Uzun müddət işləyib həmin portretin üstündə, amma, nəhayət ki, bitirə bilib. Onun çörək kəsən Məsihi təsvir etdiyi “Sirli axşam”ı isə hələ başa çatmayıb və çox güman ki, yarımçıq da qalacaq, amma bu əsərini bitirib. Yəqin, bunu çəkmək daha sadə imiş. Onu kilsədən asıblar, mehrabın üstündə sol tərəfdən, Anselmo da onu görən kimi

uşaq təki sevinirmiş. Portreti çox bəsit ifadələrlə təsvir edərək, deyirdi ki, hamının yekdil rəyinə görə, hələ heç kəs belə Müqəddəs Ana yaratmayıb – mərhəmətli və gözəl. Xüsusilə də hamı onun sirli, mübhəm təbəssümünə heyran qalıbmış. O, hamını riqqətə gətiribmiş, deyirmişlər ki, görün bu portretdə nə qədər canlı, anlaşılmaz, ilahi görkəm var. Mən başa düşdüm ki, həmin bu təbəssümü rəssam elə əvvəlki portretdən köçürüb – onun fahişəyə oxşadığı portretdən.

Anselmo kimi bisavadın dilindən portret barədə təsəvvür yaratmaq asan deyildi, amma mənim anladığım qədər maestro mömin adamların qəlbini riqqətləndirə bilmişdi. Özünün Müqəddəs Anaya inanmasına çox kiçik ehtimal olsa belə, yaratdığı obraza əsl dini hissiyyat verməyə, onu həqiqi dini məzmunla çulğamağa müvəffəq olmuşdu. Tamaşaçılar bu portretin önündə həyəcan keçirərək, şaşırırdılar. Xalq yeni Müqəddəs Ananın önünə dəstə-dəstə gəlirdi, artıq tezliklə onu əllərində şam ziyarət edir, qabağında diz çökürdülər. Onun önündə diz çökənlərin sayı başqa mehrablardakından artıq olmuşdu, mərhum hersoginyanın portreti önündə o qədər şam yanır ki, kilsəyə girən kimi diqqəti cəlb edir. Xüsusilə də orada yoxsullar daha çox cəmləşir – dua etmək və dərdlərinə təsəlli tapmaq üçün. İndiki ağır zəmanədə artmış bədbəxt və istismar olunanların hamısı. O, yoxsulların Müqəddəs Anasına və hamisinə çevrilmişdi, onlara hövsələ ilə qulaq asır, şikayətlərini dinləyərək, təskinlik verir, sonra da ruhlarını dirçəldərək, yola salırdı, hərçənd ki, sağlığında, mən biləni, kasıblarla heç vaxt maraqlanmazdı. Belə çıxırdı ki, Bernardo ilə mən xalqın dərin və səmimi dini hisslərinin oyanmasına xidmət göstərmiş olurduq.

Mən indiyə kimi bu hadisə barədə düşünürəm. Kim fikirləşərdi ki, bu qadın mərhəmətli, təsəlli verən Müqəddəs Ana qismində kilsədən asılacaq, qara kütlənin sitayiş və məhəbbət predmetinə çevriləcək? Kimin ağlına gələrdi ki, günahsız, ilahi bir obraza girərək, günahsızlığı və ilahiliyinə görə ona

gətirilən nəzir pullarına alınmış saysız-hesabsız şamların parıltısında hamıya yuxarıdan aşağı baxacaq? Qəsrdə isə onun başqa bir portreti asılıb; hersoq tapşırmışdı ki, onu çərçivəyə alaraq divardan assınlar, baxmayaraq ki, maestro Bernardo özü bu portretdən razı deyildi; söhbət həmin o fahişəyə oxşadığı şəkildən gedir. Bir-birinə bənzəmədiyinə baxmayaraq, hər iki portretin, görünür, öz həqiqəti vardı və hər iki portretdə tamamilə eyni mübhəm bir təbəssüm görünürdü – kilsədəki dizibüküklər ona ilahi təbəssüm deyirdilər.

İnsanlar bulanıq güzgüyə baxmağı sevirlər də.

İndi, bütün bunları, yəni mən zindana düşəndən sonra baş verənləri təsvir edəndən sonra, belə baxıram ki, daha yazılası bir şey qalmır. Düzdür, Anselmo şəhərdə, sarayda baş verən cürbəcür hadisələrdən danışırdı mənə, lakin elə bir əhəmiyyətli şeylər baş vermirdi. Əhalinin xeyli hissəsini özüylə aparmış taun səngimişdi, elə başladığı kimi öz-özünə qurtarmışdı, adamlar getdikcə daha gec-gec xəstələnirdilər – sonra da taun birdən dayandı. Həyat tədricən həmişəki, adi məcrasına düşdü və şəhər bütün başına gələnlərə baxmayaraq, əvvəlki görkəminə qayıtdı. Kəndlilər yanmış təsərrüfatlarına dönüb evlərini yenidən qurdular, ölkə yavaş-yavaş özünə gəldi, gücünü topladı, hərçənd ki, hələ çox zəif idi. Müharibədən nəhəng borclar qalmışdı, dövlət xəzinəsi boş idi, elə buna görə də Anselmonun mənə danışdıqlarına inansaq, əhali ağır vergilərlə yüklənmişdi. Amma nə deyirsən de, sülh gözəl şeydir. Anselmo düşünür ki, vəziyyətdən birtəhər çıxacaqlar, hər şey düzələcək. Xalq ruhdan düşmür. Bunları söyləyəndə onun bəsit sifəti məmnuniyyətdən işıqlandı.

O, mənim başımı özünün bitib tükənməyən boşboğazlığıyla qatırdı, hərçənd ki, hərdən çərənçiliyindən yaman yorulurdum. Bu yaxınlarda gəlib elan elədi ki, Venesiyaya olan borcumuzu artıq ödədik və ölkə, nəhayət ki, ağır yükdən qurtuldu. O deyirdi ki, indi müəyyən aydınlıq yaranıb və

zəmanə çox ağır sınaqlardan sonra yaxşıya doğru dəyişirdi. Hətta neçə illərdən bəri inşası dayandırılmış kampanilanı yenidən tikməyə başlamışdılar və ümid edirdilər ki, tezliklə başa çatdıracaqlar. Mən bunu da xatırladıram, amma hərçənd ki, heç bilmirəm bunu yazmağa dəyər, yoxsa yox.

İndi artıq maraqlı heç nə baş vermirdi.

Mən öz zirzəmimdə oturub günəş şüasının intizarında gözlərimin kökünü saraltmışam, o görünəndə isə işıq saldığı kağıza etibar edəsi bir şey tapmayacağam. Qələmim bikar qalıb, mən isə əlimi tərpətməyə belə ərinirəm.

Yazılarım bezdirib məni, çünki məhbəs həyatım hər cür hadisəni tam istisna edir.

Sabah kampanilanın təntənəli açılış mərasimi olacaq, onun zəngləri ilk dəfə səslənəcək. Onların müəyyən hissəsi xalqın könüllü ianələri hesabına gümüşdən düzəldilib. Əksəriyyətin fikri belədir ki, zənglərin səsi məhz buna görə daha gözəl çıxacaq.

Açılışda hersoq da, bütün saray əhli də iştirak edəcək.

Açılış mərasimi baş tutdu və Anselmo şahidlərdən eşitdiyi o qədər cürbəcür şeylər danışdı ki mənə. O deyir ki, bu mərasim qeyri-adi, unudulmaz idi, o qədər camaat toplaşmışdı ki, iynə atsan yerə düşməzdi, az qala bütün şəhər orada idi. Hersoq saray əyanlarının önündə küçələrdən piyada keçmişdi, onların dalınca isə dəstə-dəstə camaat gəlirmiş, çünki hamı hökmdara tamaşa etmək və belə bir təntənəli mərasimdə şəxsən iştirak etmək istəyirmiş. O, çox ciddi, yenə də, həmişəki kimi, şax qamətli görünürmüş, bu əlamətdar günün yetişməsinə sevindiyi açıq bəlli imiş. Özü də, bütün əsabələri də gözəl, dəbdəbəli paltarlar geyibmişlər. Kilsəyə yaxınlaşanda içəri keçib, ilk növbədə, hersoginyanın tabutu önündə, sonra onun təsviri asılmış mehrabın qarşı-

sında diz çökür və bütün camaat da onun kimi dizi üstə düşür. Dua edəndən sonra məbəd meydanına çıxırlar və bu an kampanilanın zəngləri səslənir. Səs o dərəcədə ecazkar imiş, sanki, göydən gəlirmiş və camaat da onu, az qala, yerində donaraq durub dinləyirmiş. Səs bütün şəhərə yayılırmış, dinləyənlərin hamısı da özünü xoşbəxt sayırmış. Bütün sadə camaat meydanda imiş, hersoqun ətrafına toplaşıbmışlar və hamı deyirmiş ki, bu gün həyatlarının ən xoşbəxt günüdür. Bütün bunları Anselmo danışmışdı.

Çox təəssüflənirdi ki, özü həmin mərasimdə iştirak edə bilməmişdi, çünki həmin saatda məhbuslara yemək paylamalı imiş və o, meydandan yayılan zəng səslərinə yalnız uzaqdan qulaq asmaqla kifayətlənməli olmuşdu. İlk zəng səsi eşidiləndə yanıma gəlib dedi ki, mərasim başlandı. O qədər həyəcanlı idi ki, mənim qulaq asa bilməyim üçün hətta qapını da açdı. Mənə elə gəlir, bu mehriban adamın gözlərində yaş parlayırdı, o dedi ki, həqiqətən, ilahi səsi var zənglərin. Amma mənə elə gəldi ki, adi zəngdir də, görünməmiş bir şey yoxdur. Nəhayət, yaxamdan əl çəkib gedəndə buna əməlli-başlı sevindim.

Mən qol-qıçımın qandallarıyla oturmuşdum özüm üçün, günlər isə axıb gedir, həyatımda heç vaxt, heç nə baş vermirdi. Həyatım boş və mənasızdır, amma şikayətlənmirəm. Mən başqa zəmanənin yetişməsini gözləyirəm, gözlədiyim zəmanə mütləq gələcək, məni əbədilik burada saxlaya bilməzlər axı. Mənim hələ öz salnaməmi, bir zamanlar olduğu kimi, gündüz işığında davam etdirmək imkanım olacaq və hələ ehtiyac hiss edəcəklər mənə. Əgər öz ağamı düzgün başa düşürəmsə, şəxsi cırtdanı olmadan uzun müddət keçinə bilməyəcək. Yox, mən ruhdan düşmürəm. Mən yanıma gələrək ayaqlarımdakı kündələri çıxaracaqları günü düşünürəm, mütləq gələcəklər, çünki mənim dalımca onları hersoq göndərəcək.

# VARAVVA
*(roman)*

Onların xaçdan necə asılmaqları, xaçın yanına kimlərin toplaşması hamıya bəllidir – anası Mariya və Mariya Maqdalena idi, Kireniyalı Simon idi, sonradan onu örtüyə bürüyən Arimafeyli İosif idi. Lakin təpənin ətəklərində, onlardan azacıq aşağıda daha bir nəfər durmuşdu, xaçdan asılaraq can verənə baxır, onun ölümqabağı cançəkişmələrini əvvəldən axıra kimi izləyirdi. Adı Varavva idi. Bu kitab da elə onun barəsində yazılıb.

Yaşı otuza yaxın olardı, möhkəm bədənli, kürənsaqqal, qarasaç idi, üzü sarıya çalırdı. Zil qara qaşları vardı, gözləri isə, elə bil, baxışlarını daha yaxşı gizlətmək üçün lap çökəyə düşmüşdü. Gözünün altındakı dərin çapıq aşağıya uzanıb saqqalında itirdi. Əslində, onun görkəminin mətləbə elə bir dəxli də yoxdur.

O, camaatın dalınca düz pretoriyadan qarabaqara gəlirdi, amma bir az dalda, heydən düşmüş ravvin belindəki xaçla bir yerdə yıxılanda və xaçı aparmağı Simona tapşıranda Varavva ayaq saxladı ki, onlarla bərabərləşməsin. Əgər Roma əsgərlərini saymasaq, dəstənin içində kişi xeylağı az idi; məhkumu daha çox qadınlar və bir dəstə oğlan uşağı müşayiət edirdi – onların küçəsiylə kimisə çarmıxa çəkməyə aparanda bu dəcəllər o dəqiqə toplaşırdılar. Belə əyləncəni heç vaxt qaçırmazdılar. Lakin tezliklə uşaqlar yoruldular, ümumi dəstədən dalda gələn, üzü çapıqlı adama nəzər salıb həmişəki oyunlarına dönmək üçün getdilər.

Budur, o artıq təpələrdən birinin üstündəydi, baxır və ortadakı xaçdan asılmış şəxsdən gözlərini çəkə bilmirdi. Yuxarı qalxmaq istəmirdi heç, başdan-ayağa kəsafət, xəstəlik idi

bura, camaat deyirdi ki, bu lənətə gəlmiş bəd məkana ayaq basan öz ruhunun bir tikəsini burada qoyur, bu yerlərə yenə qayıdası olur və axırda da elə burada qalır. Təpənin dörd tərəfi insan kəllələri və artıq heç nəyə yaramayan çürümüş xaçlarla dolu idi, lakin onları yığışdıran da yox idi, heç kəs əlini bulamaq istəmirdi. Niyə durmuşdu burada? O ki bu adamı heç tanımırdı da, nə işi vardı onunla? Varavva Qolqofaya niyə gəlmişdi, axı onu buraxmışdılar ki, çıxıb getsin?

Çarmıxdakının başı artıq sallanmışdı, ağır-ağır nəfəs alırdı. Deməli, az qalıb daha. Ona cüssəli deməzdin. Arıq, sümüklü bədəni vardı, əlləri də nazik, elə bil, heç vaxt işlətməmişdi onları. Qəribə görkəmi vardı – seyrək saqqal, sinəsi də lap uşaq sinəsi kimi tüksüz. Varavvanın ondan xoşu gəlmədi.

Onu ilk dəfə hələ sarayın qabağında görəndə başa düşmüşdü ki, başqa adamlara heç bənzəmir. Niyəsini deyə bilməzdi, sadəcə olaraq, hiss etmişdi bunu. Ona bənzəyən kimisə görməmişdi heç vaxt. Amma Varavvaya, bəlkə də, ona görə belə gəlmişdi ki, qaranlıq zindandan lap təzəcə buraxıldığından gözləri işığa hələ tam öyrəşməmişdi. Odur ki ilk baxışda bir işıq haləsinin içində görmüşdü onu. Bu parıltı, təbii ki, elə o dəqiqə də söndü, gözlərinin həmişəki itiliyi özünə qayıtdı və Varavva yalnız sarayın önündə tənha dayanmış bu şəxsi deyil, ətrafdakı hər şeyi aydın görməyə başladı. Amma yenə qəribə idi, o heç kəsə oxşamırdı. Varavva heç cür başa düşə bilmirdi ki, belə bir adamı onunla bir məhbəsə necə atmaq olar, ölümə necə məhkum eləmək olar. Heç ağlına sığışmırdı bu. Bunun Varavvaya bir aidiyyəti olmasa da, ağlına sığışmırdı ki, belə bir adamı axı necə edama məhkum etmək olar? Günahsız olduğu elə baxan kimi görünürdü.

Onu apardılar ki, çarmıxa çəkələr, Varavvanın isə zəncirlərini çıxarıb azadlığa buraxdılar. Onluq bir şey yox idi. Qərarı özləri vermişdilər. Kimi istəsələr, onu da azad edəcəkdilər. Onlar da Varavvanı seçmişdilər. Hər ikisi ölümə məhkum edilmişdi, amma birini buraxmalıydılar. Lap heyran qalmışdı

bu işə. Onun zəncirlərini açanda əsgərlər o birisini tağın altından keçirirdilər, xaçı da kürəyinə şələlənmişdi.

Varavva hələ durub tağın altından uzanan bomboş yola bir xeyli baxdı da. Sonra gözətçi onu itələyib qışqırdı:

– Hə, nə var, nə ağzını ayırıb baxırsan? Səni buraxdılar, əl-ayağım dəyməmiş itil buradan!

Özünə gəldi, elə həmin tağın altından keçdi, kürəyində öz xaçını daşıyan o birisini görən kimi, onun dalınca getdi. Varavva heç özü də bilmirdi ki, niyə onun dalına düşüb. Anlamırdı ki, niyə neçə saat burada durub onun ölümqabağı əzablarına tamaşa eləyir; axı bu işlərin Varavvaya artıq heç bir dəxli yox idi.

Yaxşı, bəs onun başına toplaşanlar, yanına düşüb gedənlər niyə gəlmişdilər bura? Yəqin, özləri istəyirdilər. Bura, bu üfunətin içinə gəlməyə onları məcbur eləyən yox idi. Yəqin, yaxın dostları, qohumları idi. Qəribədir, amma, deyəsən, heç xəstəlikdən-zaddan da qorxmurdular.

Bax, o qadın, yəqin, anasıdır. Amma çarmıxdakına heç oxşamırdı. Ona bənzəyən kimsə, ümumiyyətlə, mövcud idimi? Qadın sərt, kobud kəndçi sifətindəydi, əliylə də burnunu, dodaqlarını silə-silə durmuşdu; burnu axırdı, amma göz yaşlarını saxlamışdı. Ağlamırdı. Onun qüssəsi də o birilərinkinə bənzəmir, çarmıxdakına, elə bil, başqa cür baxırdı. Hə, yüz faiz anasıdır. Oğlunun halına daha çox acıyırdı və elə bil, həm də inciyirdi ondan, burda asıldığına görə inciyirdi, əməlləri çarmıxla sonuclandığından inciyirdi. Görünür, bu təmiz, günahsız adam elə bir iş tutmuşdu ki, onu çarmıxa çəkirdilər, anası da onu elə buna görə qınayırdı. Varavvanın isə anası yox idi. Heç atası da yox idi, onun haqqında heç vaxt, heç nə eşitməmişdi. Qohumları barədə də bir şey bilmirdi. Hərgah çarmıxa onu çəkəsi olsaydılar, yəqin, heç ağlayan da tapılmazdı. Amma bunun üçün yaman aglayıb-sıtqayırdılar, elə bil, bundan böyük dərd görməmişdilər, hönkürtü çəkib, bərkdən ulaşırdılar.

Sağdakı xaça mismarlananın dabbaqda gönünə bələd idi. Əgər o indi Varavvanı görsəydi, elə biləcəkdi ki, bura məhz ona görə gəlib: gəlib ki, layiqli cəzasını necə aldığına tamaşa eləsin. Varavva isə ona baxmaq üçün gəlməmişdi. Düzdür, onun əzablarına baxmaqdan da vaz keçməzdi. Əgər burada ölümə layiq olan vardısa, lap birincisi elə bu əclafın özüydü. Amma indi nəyə görə edam olunurdusa, ona görə yox, tamam başqa məsələyə görə.

Varavva nəyə görə ona baxmalıydı ki? Axı bura ona tamaşa etmək üçün yox, ortadakı xaçdan, onun yerinə – Varavvanın yerinə asılmış şəxs üçün gəlmişdi. O idi Varavvanı bura gəlməyə məcbur eləyən, buna yalnız onun təsiri, onun gücü yetərdi. Nə güc? Burada gücsüz birisi varsa, elə o zavallının özüdür. Xaçdan belə məzlum görkəmlə asılan hələ görünməmişdi, o biri iki nəfər daha yaxşı vəziyyətdə idi və sanki, əzabları da ona nisbətən az idi. Görünür, ondan dözümlü idilər. Bu isə heç başını da əməlli saxlaya bilmirdi, tamam yana sallanmışdı.

Bax, azacıq qaldırdı başını, qurumuş dodaqlarını yaladı, nəfəsi arıq, tüksüz sinəsində, sanki, qəfil ilişdi və nəsə pıçıldadı, deyəsən: “Su”. Əsgərlər enişdəki otluğa sərilərək, bu üç nəfərin canını nə vaxt tapşıracağının intizarında darıxdıqlarından zər atırdılar və təbii ki, onun nə dediyini də eşitmədilər. Vəziyyəti belə görəndə qohumlarından hansısa onlara yaxınlaşdı. Əsgərlərdən biri könülsüz ayağa qalxdı, süngəri kuzədəki suya batırıb agacın ucuna sancdı və çarmıxdakına uzatdı, o isə dodaqlarını bu bulanıq suya sürtərək, onu içməkdən vaz keçdi, həmin o əclaf əsgər də istehza ilə fınxırıb, yoldaşlarının yanına döndü və hamısı bərkdən hırıldaşdı. Əclaflar!

Qohum idilər, ya nə idilərsə, çarmıxa çəkilənə yaman iztirabla baxırdılar, o isə boğulur, boğulurdu, məlum idi ki, canını lap elə indicə tapşıracaq. Kaş tez öləydi, Varavva fikirləşdi, canı qurtulaydı bu əzablardan. Bitəydi hər şey! Hər şey qurtaran kimi, buradan qaçıb getmək, bu hadisəni tamam unutmaq, bu barədə bir də heç vaxt düşünməmək lazımdır!

Lakin qəflətən təpəyə qaranlıq çökdü, sanki, günəş söndü birdən, zülmət qaranlıq və bu zülmətin içindən çarmıxa çəkilənin uca qışqırığı qopdu:

– Ulu Tanrım! Ulu Tanrım! Niyə məni tək qoydun?

Dəhşətli bir qışqırıq. Nə demək istəyirdi? Niyə birdən qaranlıq çökdü? Günün günorta çağı? Bu nə zülmət idi, aydın deyildi. Qaranlıqda üç dənə xaç lap zorla sezilirdi. Adamın canına üşütmə düşürdü. Sanki, indicə nəsə dəhşətli bir şey baş verəcəkdi. Əsgərlər yerlərindən sıçrayıb silahdan yapışdılar, – bunlar da bir şey olan kimi silaha əl atmağı bilirlər. Əllərində nizələri tez xaçları mühasirəyə aldılar, yerlərində donmuşdular, nəsə pıçıldaşırdılar – Varavva səslərini eşidirdi. Hə, pis qorxmuşdular! İndi heç hırıldamaq ağıllarına da gəlmirdi! Yaman mövhumatçı idilər, deyəsən.

Varavva özü də qorxmuşdu. Və göy üzü yenidən işıqlaşmağa başlayanda, ətrafdakı hər şey öz adi vəziyyətinə dönəndə hətta sevindi də. Yavaş-yavaş işıqlaşırdı, lap sübh çağı olduğu kimi. Günəşin şüaları yenə təpəyə, ətrafdakı zeytunluqlara axdı, indicə susmuş quşlar yenə civildəşməyə başladılar. Lap dan yeri söküləndə olduğu kimi.

Qohumları xaçın yanında idilər, heç qımıldanmırdılar. Artıq nə səsini başına atıb ağlayan vardı, nə inildəyən. Eləcə dayanıb çarmıxdakına baxırdılar. Əsgərlər də baxırdı və ətrafda bir sükut vardı.

İndi rahatca çıxıb getmək də olardı. Hər şey bitmişdi axı. Varavvanın burada daha bir işi yox idi. Əgər o artıq canını tapşırıbsa, daha burada qalmağın nə mənası? Gedərkən onu xaçdan çıxardıqlarını gördü. Həmin o iki kişi də meyitini örtüyə bürüdü – bunu da Varavva gedə-gedə görmüşdü. Bədəni ağappaq idi, çox ehmallı davranırdılar, sanki, yaralamaqdan, incitməkdən ehtiyatlanırdılar, qəribə işdir: axı onu çarmıxa da çəkmişdilər, daha nədən ehtiyat edirdi bunlar? Ümumiyyətlə, yaman qəribə adamlar idi. Anası oğlunun nəşinə qupquru gözləriylə baxırdı, tutqun siması içindəki kədəri tamlığıyla

nümayiş etdirə bilmirdi, üzündə sərgilədiyi yeganə ifadə isə bu baş verənləri heç cür dərk edə bilməməsi və bir də heç vaxt bağışlamayacağı idi. Varavva onu tam başa düşdü.

Kişilər cəsədi qaldırdılar, qadınlar da onların yanına düşdü, hüznlü bir sırayla Varavvanın yanından ötəndə kişilərdən biri başını onun anasına sarı əyib qulağına nəsə pıçıldadı. Qadın da ayaq saxlayıb Varavvaya baxdı; onun gözlərində elə çarəsizlik, elə qınaq vardı ki, bu baxışları heç vaxt unuda bilməyəcəyini düşündü. Onlar Qolqofadan enən yolla düşdülər, təpənin ayağında isə sağa buruldular.

Onları izləyirdi, amma yenə bir az arxada gəlirdi ki, onu görə bilməsinlər. Qəbiristan lap yaxında idi, qayanın içində yonulmuş daş tabut da öz cəsədini orada gözləyirdi. Mərhumu həmin tabuta qoydular. Yanında durub dua eləyəndən sonra qapının ağzına bir yekə daş dığırlatdılar və çıxıb getdilər.

Onda Varavva da tabuta yaxınlaşdı, bir az dayandı yanında. Amma dua eləmədi, o, qatil idi, şərə qulluq edənlərin duası isə onsuz da müstəcəb olmur, hələ, üstəlik, Varavvanın son günahı da yuyulmamış qalmışdı. Bir də ki həmin bu şəxsi axı heç tanımırdı. Elə-belə durdu orada. Sonra da yolun ağına düşüb, Yerusəlim istiqamətində yollandı.

Şəhərə Davud darvazasından girəndə küçədə Dovşandodağı gördü. Qız divarın dibi ilə oğrun-oğrun gedir, özünü elə göstərmək istəyirdi ki, guya, onu heç görmür də, Varavva isə qızın onu gördüyünü artıq sezmişdi. Qız çaşqınlıq içindəydi, rastlaşacaqları ağlına belə gəlməzdi, axı əmin idi ki, onu çarmıxa çəkiblər.

Qızın dalına düşüb getdi və tezliklə yetişdi ona. Varavva gərək onun dalınca düşməyəydi heç, gərək onunla danışmayaydı da, danışmağına özü də təəccüb elədi. Deyəsən, qız da onu dilləndirməyinə yaman mat qalmışdı. Amma başqa əlacı yox idi, ürkək-ürkək ona baxmaqdan savayı, əlindən nə gələrdi ki?

Onlar hər ikisini narahat edən məsələlərdən heç danışmadılar, o yalnız qızın hara getdiyi ilə maraqlandı və bir də soruşdu ki, Qalqaldan bir xəbər varmı. Qız suallara qısaca cavab verir və həmişəki kimi, tın-tın danışırdı, sözlərini zorla başa düşmək olurdu. Məlum oldu ki, heç yana getmək fikrində deyilmiş, indi harada yaşadığını soruşanda cavab vermədi. Paltarının ətəkləri lap süzülmüşdü, piltə-piltə sallanırdı, iri, kirli ayaqları yalın idi. Tezliklə söhbətləri bitdi, yolun qalanını sükut içində getdilər.

Evlərdən birinin açıq qapısından quyu dibindən çıxırmış kimi, bərk səs-küy gəlirdi və elə həmin qapıdan düz qabaqlarına hay-harayla bir hündür, kök qadın çıxdı. Sərxoş idi. Varavvanı görən kimi gonbul qollarını havada sevincək oynada-oynada onu içəri dəvət elədi. Tərəddüd eləyirdi, bir az da özünün qəribə yoldaşından utanırdı, amma qadın əl çəkmədi, onların hər ikisini zorla evə itələdi. İçəridə onu iki kişi və üç qadın səs-küylə salamladı, onları ancaq gözləri alaqaranlığa öyrəşəndən sonra tanıya bildi. Onu elə həmin dəqiqə masanın arxasına əyləşdirib şərab süzdülər və hamısı birağızdan danışmağa başladı. Deyirdilər ki, nə yaxşı olub səni zindandan buraxmaqları, bəxtin yaman gətirib, sənin yerinə başqasını edam eləyiblər! Şərab onların başına vurmuşdu əməllicə, istəyirdilər onun bu sevincinə şərik olduqlarını birtəhər büruzə verələr, əllərini Varavvaya toxundururdular ki, xoşbəxtliyindən onlara da pay düşsün, qadınların biri hətta əlini onun köynəyinin yaxasından içəri salıb, gonbul arvadın qəhqəhələri altında tüklü sinəsini sığallayırdı.

Varavva hamı ilə birlikdə içir, amma lap az danışırdı. Oturub, ətrafdakılardan gizlənmək istəyirmiş kimi, özünün çuxura düşmüş tünd-qəhvəyi gözlərilə məchul bir nöqtəyə baxırdı. Ondakı qəribəlik hamının diqqətini çəkdi. Düzdür, hərdənbir qabaqlar da belə olurdu.

Qadınlar ona şərab süzürdülər. O, yenə içir, ortalıqda gedən ümumi söhbətləri dinləyirdi, amma özü qətiyyən

dinmirdi. Nəhayət, hamısı birdən qır-saqqız oldu ona: nə baş verib, niyə beləsən deyə. Gonbul qadın isə onun boynunu qucaqlayıb dedi ki, Varavvanın başına hava gəlsə də, təəccüblənəsi bir şey yoxdur, çünki zindanda o qədər qalıb ki, az qala, lap ölmüşdü, axı kimə ölüm cəzası kəsirlərsə, o, elə ölmüş hesabdır, sonra lap azadlığa buraxıb bağışlasalar belə, ölüdür ki var. Çünki bağışlanana kimi artıq ölmüşdü də. Elə bil, öləndən sonra təzədən dirilmiş adamdı, başqaları kimi adi həyatını yaşamır ki... Onun sözlərini şaqqanaqla qarşılayanda gonbul özündən çıxıb, hədələdi ki, bu dəqiqə hamını qovacaq çölə, təkcə Varavvadan, bir də ki heç tanımadığı dovşandodaq qızdan savayı; bu kasıb geyimli qızı tanımasa da, görkəmindən ciddi, mehriban adama oxşayır deyə, onu heç vaxt qovmaz. Kişilər onun bu sözlərinə də möhkəm gülüşdülər, amma sonra özlərini birtəhər ələ alıb sakitləşdilər və Varavvaya pıçıltıyla danışdılar ki, qaranlıq düşən kimi yenə dağa qalxmalıdırlar, şəhərə enmələrinin səbəbi isə qurbanlıq çəpiş gətirmələri imiş. Lakin qurbanları qəbul olunmamışdı deyə, çəpişi bazarda satmışdılar, onun yerinə də məbədə iki dənə qəşəng göyərçin vermişdilər. Qalan pula isə gonbulçanın evində əməlli-başlı kef eləmişdilər. Maraqlandılar ki, Varavvanın yenə onlara qoşulmaq fikri varmı və həm də yerlərini tanıtdılar ki, gəlmək istəsə, onları tapa bilsin. Varavva isə ancaq başını tərpədir və susurdu.

Qadınlardan biri Varavvanın yerinə çarmıxa çəkilən şəxsdən söz saldı. Bir dəfə necə olmuşdusa, küçədə rastlaşmışdılar, onun barəsində danışırdılar ki, yazı-pozu bilir, gələcəyi söyləyir və möcüzələr göstərir. Bunun nə ziyanı var ki, çoxları elə onun elədikləri ilə məşğuldurlar da, yəqin, onu bu işlərinə görə çəkməyiblər çarmıxa. Arıq, birtəhər adam idi... Yadında daha başqa bir şey qalmamışdı. İkinci qadın isə söylədi ki, onun özünü görməyib, amma camaatdan eşidib: guya, deyirmiş ki, məbəd dağılacaq, Yerusəlim şəhəri zəlzələdən məhv olacaq və alov yeri də, göyü də yandıracaq. Axmaq-axmaq sözlərdir də,

di gəl buna görə adamı öldürmə görüm, necə öldürmürsən. Qadınların üçüncüsü dedi ki, yoxsullarla dostluq edirmiş, onlara vəd eləyibmiş ki, İlahinin dərgahına gedəcəklər, hətta fahişələrə də deyirmiş; bu yerdə qadınların üçü də ürəkdən gülüşdü, yekdil rəyləri belə oldu ki, əgər fahişələrə də bunları deyibsə, onda əladır ki.

Artıq Varavva onları bayaqkı biganəliklə dinləmirdi. Düzdür, bu söhbətlərdən, bircə dəfə də olsa, dodağı qaçmadı. Gonbul qadın onu bir də qucaqlayanda diksindi, qadın isə deyirdi ki, çarmıxa çəkilən iki nəfərə heç tüpürmək də istəmir, ya vəlvələdən, ya zəlzələdən öldülər, qurtardı getdi. Əsas məsələ budur ki, çarmıxa onları çəkdilər, Varavvanı yox.

Dovşandodaq əvvəl-əvvəl büzüşüb oturmuşdu, söhbətə qətiyyən fikir vermirdi. Lakin çarmıxdakından söz düşəndə, sanki, birdən ayıldı. İndi isə lap birtəhər olmuşdu. Yerindən dik atıldı, əzab çəkmiş ağ sifətində müdhiş bir ifadə vardı, üzünü yol yoldaşına tutub qəribə, boğuq səslə qışqırdı:

– Varavva!

Burada nə var ki, adamdı da, yoldaşını adıyla çağırır, amma hamı ona maraqla baxırdı, heç cür anlaya bilmirdi ki, niyə çığırır. Varavvanın özü də, elə bil, bir göz qırpımında qəribələşdi, göz bəbəkləri o yan-bu yana qaçırdı, o kiməsə baxmaq istəməyəndə həmişə belə olurdu. Heç kəs heç nə anlamadı, bir də nə əhəmiyyəti vardı axı, ən yaxşısı – fikir verməməkdir. Nə deyirsən de, amma Varavva onların özününküdür, düzdür, bir az halı üstündə deyil, kim bilir nə oyun çıxara bilər?

Qız yenə torpaq döşəməyə çöküb büzüşdü, amma alışıb-yanan gözlərini daha ondan çəkmirdi.

Gonbul, Varavvaya yemək gətirdi, fikirləşdi ki, yəqin, acmış olar, bu köpək uşağı, yəqin, zindanda adamı ac saxlayırlar. Qabağına duz, çörək və bir tikə qızardılmış qoyun əti qoydu. O, azacıq yedi, sonra da özünü doymuş kimi göstərərək, qalanını Dovşandodağa uzatdı. Qız isə yeməyin üstünə cumaraq, vəhşi kimi hamısını bir göz qırpımında uddu, sonra da qaçıb getdi.

Bu yerdə həmsöhbətləri qət elədilər ki, Varavvadan yoldaşının kimliyi barədə soruşsunlar və təbii ki, heç bir cavab almadılar. Elə özü idi ki, vardı: öz işlərini həmişə hamıdan sirr saxlayardı.

– Həmin o öncəgörən nə möcüzələr edirmiş? – Varavva qadınlardan soruşdu. – Gələcəkdən nələr deyirmiş?

Onlar cavab verdilər ki, xəstələri sağaldır, bəd ruhları qovub bədəndən çıxarırmış, hətta ölüləri də dirildirmiş, amma bunların hamısı dillərdə dolaşanlardır, kim bilir, doğrudur, yoxsa yalan. Çox güman ki, yalandır. O ki qaldı gələcəyi deməyinə, bu barədə bir şey bilmirdilər. Ancaq bir qadın danışırdı: guya, kimdənsə eşidib ki, haradasa bir varlı toyu imiş, nə isə böyük ziyafət təşkil eləyiblərmiş, qonaqlar da gəlib çıxmırlar; onda nökərlər yola çıxıb, rast gəldikləri adamların hamısını içəri dəvət eləyirlər, tərs kimi gələnlərin də hamısı acından ölən, cır-cındır geymiş, ayıblarını örtə bilməyən yoxsul adamlar olur, varlı ev sahibi də möhkəm hirslənir buna görə, nəsə deyir... sonra da... kimsə yenə gəlir... Yox, unudub əhvalatın axırını. Varavva isə bütün deyilənlərə son dərəcə diqqətlə qulaq asırdı, sanki, nəsə çox mühüm bir şey söyləyirdilər ona. Qadınlardan biri deyəndə ki çarmıxa çəkilən də başqaları kimi özünü peyğəmbər, Məsih sayırmış, Varavva şələ, kürən saqqalını ovcunda sıxıb dərin fikrə getdi.

– Peyğəmbər? Yox bir... – deyə dodaqaltı mızıldandı.

– Əşi, ondan peyğəmbər olar, – kişilərdən biri dilləndi, – əgər peyğəmbər olsaydı, heç onu çarmıxa çəkə bilərdilər? O alçaqların hamısı elə yerində qalardı ki. Deyəsən, sən heç bilmirsən ki, peyğəmbər nədir!

– Yox bir, xaçdan düşüb, hamısının atasını yandıracaqdı, hə?..

– Peyğəmbəri çarmıxa çəkmək olar?! Heç belə bir şey eşitmisiniz?

Varavva isə saqqalını ovuclayıb gözlərini torpaq döşəməyə zilləyərək oturmuşdu.

– Yox, o, peyğəmbər deyildi...

– Nə mızıldayırsan orada, Varavva, yaxşısı budur, vur getsin! – dostlardan biri dillənib Varavvanı qabırğasından dümsüklədi, buna necə ürək elədi, bilinmir, amma əməlli-başlı dümsüklədi.

Varavva isə üzüyola adam kimi, masanın üstündəki gil parçdan bir qurtum şərab alıb, fikirli-fikirli yerinə qoydu. Qadınlar o dəqiqə təzədən şərab süzdülər və məcbur elədilər ki, yenə içsin. Şərab, yəqin ki, öz təsirini göstərirdi, amma Varavvanın xəyalı yenə haradasa uzaqlarda dolaşmağındaydı. Dostu dirsəyilə bir də onu dümsüklədi:

– Vur, Varavva, vur, özünə gəl! Yoxsa xaçdan asılıb iylənmək əvəzinə, xudmani məclisdə oturmağına heç sevinmirsən? Bu daha yaxşı deyil məgər? Nədir, bizimlə pis keçir səninçün? Sən bir düşün, Varavva! Canını ilan ağzından qurtarmısan, sağsan! Sağsan! Eşidirsən, Varavva?

– Hə-hə, – deyə cavab verirdi. – Əlbəttə, düz deyirsən...

Beləliklə, tədricən buna nail oldular ki, artıq Varavva gözlərini döşəməyə zilləmirdi, adama oxşamağa başlamışdı. Onlar yeyib-içir, oradan-buradan söhbətləşirdilər, Varavva da artıq bayaqkı kimi qeyri-adi görünmürdü.

Amma qəflətən yoldaşlarına qəribə bir sual verdi. Soruşdu ki, bu gün günəş birdən-birə yoxa çıxanda, düşən qaranlıq barədə nə fikirləşirlər.

– Qaranlıq? Nə qaranlıq? – Onlar mat-məəttəl dostlarına baxırdılar. – Qaranlıq idi məgər? Nə vaxt?

– Altıya işləyərdi...

– Əşi, qurtar görək! Ağ elədin ha! Belə bir şey olsaydı, başqaları da fikir verərdilər də!

O, çaşqınlıq içindəydi, nəzərləri gah birinin, gah da digərinin üzündə dolaşırdı. Onu inandırırdılar ki, heç bir qaranlıq görməyiblər, nəinki onlar, hətta başqaları da, bütün Yerusəlim əhalisi də görməyib. Onun gözlərinə, doğrudan, qaranlıq görünüb? Günün günorta çağı? Bu, nə nağıldır, danışır bizə?

Əgər ona, həqiqətən də, elə gəlibsə, deməli, zindanda çox qalmasından gözləri nəsə xarab olub. Bütün problem onun gözlərindədir, vəssalam. Gonbulça da dedi ki, hə, məsələ gözdədir, gözləri işıqdan yadırğayıb, günəş şüaları da onu bir anlıq kor eləyib. Burada təəccüblü nə var ki?!

O, tərəddüdlə bütün həmsöhbətlərini nəzərdən keçirdi – deyəsən, bir az yüngülləşdi. Qəddini dikəldib əlini şərab parçına uzatdı, bir qurtum da aldı. Amma parçı bayaqkı kimi yerinə qoymadı, uzatdı ki, bir az da şərab süzsünlər. Gözləmək lazım olmadı, o dəqiqə süzdülər və yenə də başladılar vurmağa, elə Varavva da onlara qoşuldu, deyəsən, axır-axırda şərabın dadını duymağa başlamışdı. O, elə qabaqlar olduğu kimi, parçı birdəfəlik başına çəkirdi, yavaş-yavaş sərxoşluğu bilinməyə başlayırdı. Demək olmazdı ki, dili tamam açılmışdı, yox, amma, hər halda, onlara zindandakı həyatından bir az danışdı. Başı ay bəlalar çəkmişdi ha. Adam qəribə olar da. İşə bax ey, buraxdılar, hə? Onlar ki caynaqlarına keçirməyə adam gəzirlər! Bəxti lap ayaq üstəymiş! Əvvəla, onun növbəsi Pasxa bayramına düşmüşdü, Pasxada isə canilərdən birini mütləq azad eləyirdilər! İkincisi də, buraxılmaq məhz onun qismətinə düşmüşdü! Xoşbəxtliyə bax ha! Varavva onlarla razı idi və dostları onun kürəyini şappıldadanda, üstünə yıxılıb qaynar nəfəslərini düz sifətinə verəndə o gülür, bir-bir hamısıyla içirdi. Şərab artıq beyninə vururdu, getdikcə bədəni boşalır, bir az da şənlənirdi, artıq isti oldu, köynəyinin yaxasını açıb, o biriləri kimi yerə dirsəklənərək lap rahatlandı. Görünürdü ki, vəziyyəti yaxşıdır. O hətta yanındakı qadını sığallayıb, özünə tərəf çəkmişdi. Qadın da gülərək onun boynunu qucaqladı. Gonbul isə bu yerdə Varavvanı özünə sarı dartaraq dilləndi ki, nəhayət, öz sevgilisini tanıya bilir, nəhayət, onun sağ-salamat olduğunu, zindan dəhşətindən özünə gəldiyini görür. Onu bir də qara basmayacaq, beyninə sarsaq-sarsaq fikirlər gəlməyəcək, ay nə bilim, zülmət düşdü, nə oldu... qurtardı hamısı – qadın onun yaxasından yapışıb sinəsinə çəkdi, üzünün hər yerini

marçamarç öpdü, koppuş barmaqlarıyla boynundan yapışdı, kürən saqqalını qarışdırdı. Onun vəziyyətinin düzəlməsi hamını sevindirirdi; o dəyişdi, qabaqlar kefikök olanda necə idisə, elə də oldu. Hamının kefi tamam durulmuşdu. Yeyib-içir, qışqırışırdılar, amma sözləri bir-birinin boğazından keçirdi, bir yerdə özlərini o qədər gözəl hiss eləyirdilər ki, sevinclərinin həddi-hüdudu görünmürdü, şərab da onları getdikcə daha çox qızışdırırdı. Kişilərin dilinə aylarla şərab dəymir, qadın üzü görmürdülər, indi də fövtə verdikləri fürsəti, sanki, birdəfəlik yaxalamaq istəyirdilər – Yerusəlimə gəlməklərini, Varavvanın buraxılmasını bayram eləməliydilər, yoxsa yox?! Vaxt isə az idi, tezliklə yenə dağa qalxmalıydılar!

Onlar tünd-turş şərabdan doymaq bilmir və Gonbulçadan savayı, bütün qadınlarla əylənirdilər, bir-bir pərdə dalına keçir və oradan pörtmüş halda, təngnəfəs çıxıb yenidən vurmağa, qışqırışmağa davam eləyirdilər. Onlar hər bir işlərini əsaslı şəkildə görürdülər, adətləri beləydi. Düz hava qaralana kimi şənləndilər. Sonra ikisi də birdən ayağa qalxıb elan elədi ki, vaxtdır, getməlidirlər, sağollaşıb keçi dərilərini çiyinlərinə ataraq silahlarını onun altında gizlətdilər və ehmallıca sivişib artıq qaranlıqlaşan küçəyə çıxdılar. Qadınların üçü də pərdənin arxasına keçdi, sərxoş, əldən düşmüş halda idilər və elə o dəqiqə də daş kimi yuxuya getdilər. Varavva Gonbulçayla ikisi qalanda qadın soruşdu ki, bəlkə, onlar da bir-birlərini sevindirsinlər, maraqlandı ki, başı bəlalar çəkəndən sonra meyli varmı sevişməyə, özünün içi lap alışıb-yanırdı zindanda bəlalar görən və az qala, çarmıxa çəkiləcək sevgilisi üçün. Sonra da Varavvanı damın üstünə çıxardı, orada isti günlər üçün palma budaqlarından bir talvar kimi düzəltmişdi. Uzandılar və qadın ona nəvazişlərini göstərməyə başladı, tezliklə o da ehtirasa gələrək onun iri, piyli bədəninə elə bərk soxuldu, sanki, bir ömür qopmayacaqdı. Gecənin yarısı necə ötdü, bilmədilər.

Nəhayət ki, ikisi də əldən düşdü. Qadın böyrü üstə uzandı və elə o dəqiqə də yuxuladı. O isə qadının tərli bədəni ilə

yanaşı uzanıb, yuxusuz gözlərini başının üstündəki palma şaxlarına zilləmişdi. Orta xaçdan asılmış həmin o adam barədə, Keçəldağda bu gün baş verənlər haqqında düşünürdü. Qəfil çökmüş qaranlığı xatırladı, görəsən, həqiqətən, olmuşdu belə bir şey, yoxsa yox? Yəni, doğrudan, gözünə görünmüşdü bütün bunlar? Bəlkə, ancaq orada, Qolqofada qaranlıq çökmüşdü, şəhərin özündə isə heç kəs duymamışdı bunu? Orada yüz faiz qaranlıq idi, əsgərlər də necə lazımdı, qorxmuşdular... bəlkə, bu da onun gözünə görünmüşdü? Bəlkə, hər şey ancaq onun gözləri önündə beləydi? Yox, heç nə alınmır, heç nəyi başa düşə bilmir...

Yenə də xaçın üstündəki adam haqqında fikirləşməyə başladı. Gözlərini geniş açıb uzanmışdı, yuxuya gedə bilmirdi, yanında da qadının şişman bədəni. Talvarın quru şaxları arasından göy görünürdü – yəqin ki, göy idi gördüyü, hərçənd bircə ulduz da yox idi göy üzündə. Heç yerdə heç nə yox idi, yalnız zülmətdən savayı.

Hə, indi Qolqofada da, bütün başqa yerlərdə də qaranlıq idi.

Ertəsi gün Varavva şəhəri gəzib dolaşırdı, çoxlu tanışla rastlaşdı – dostlar və düşmənlər – hamısı da onu görəndə, təəccüblənirdilər, hətta kabus görübmüş kimi, diksinənlər də olurdu. Varavva özünü lap itirmişdi. Belə çıxırdı ki, azadlığa buraxılmasından onların xəbəri yox idi? Nə vaxt qanacaqlar ki, çarmıxa çəkilən o deyil, başqasıdır!

Günəş bərk şaxıyırdı, qəribəydi ki, parlaq işığa baxanda gözləri yaman əziyyət çəkirdi. Bəlkə, həqiqətən, zindanda ona nəsə olmuşdu? Varavva gün işığından kölgədə qorunmaq qərarına gəldi. Portikin altından məbədə sarı keçərək içəri girdi və gözlərinə dinclik vermək üçün yarıqaranlıqda bir yer seçib oturdu. Vəziyyəti o dəqiqə düzəldi.

Məbəddə artıq bir neçə nəfər divarın dibində büzüşüb oturmuşdu. Sakitcə söhbət eləyirdilər və görünür, gəlişindən heç məmnun deyildilər, ona tərəf çəpəki nəzər salıb səslərini

bir az da içlərinə saldılar. O yalnız ayrı-ayrı sözləri eşidir, söhbətin ümumi məzmununu tuta bilmirdi və buna heç səy də göstərmirdi, onların sirri qətiyyən maraqlı deyildi onun üçün. Söhbətləşənlərdən biri Varavva ilə, təxminən, yaşıd idi, onun da kürən saqqalı vardı, elə kürən, uzun, pırtlaşıq saçları da saqqalına qarışmışdı. Gözləri mavi idi və elə bu səbəbdən qəribə baxışları vardı, uşaq kimi baxırdı, sifəti isə iri, ətli idi. Bu adamın hər şeyi iri idi. Hündürboy, cantaraq birisi. Əllərinə, paltarlarına fikir verəndə, sənətkara oxşayırdı. Əslində Varavva üçün onun necə görünməsinin elə bir əhəmiyyəti yox idi, amma belə birisinə diqqət yetirməmək mümkün deyil, ümumiyyətlə götürəndə, isə onda qeyri-adi bir şey yox idi. Təbii ki, gözlərindən savayı.

Hündürboyu nəsə kədərləndirirdi, elə, deyəsən, qalanlarını da. Deyəsən, hansısa bir ölmüş şəxs barədə danışırdılar, çox güman ki, elə idi. Hamısı kişi olsa da, tez-tez dərindən ah çəkirdilər. Əgər Varavva hər şeyi düzgün anlamışdısa, onlar, həqiqətən, kiminsə itkisinə görə dərd çəkirdilərsə, bu ahufları qadınlara, ağıçılara buraxa bilməzdilər məgər?

Varavvanın qulağı birdən çaldı ki, onların dünyasını dəyişən yaxınları çarmıxa çəkilibmiş. Özü də dünən. Dünən?..

O lap diqqət kəsildi, lakin divarın dibində oturanlar səslərini bir az da alçaltdılar və Varavva daha heç nə eşidə bilmədi.

Görəsən, kimin barəsində danışırdılar?

Bu yerdə küçədən keçənlərin səs-küyü imkan vermədi ki, nəsə eşidə. Amma yenidən sükut çökəndə yenə bəzi sözlərini eşidə bildi və başa düşdü ki, düz anlayıb, elə onun barəsində danışırdılar. Həmin o adamın...

Qəribədir... Varavva da indicə elə onun barəsində fikirləşirdi. Sarayın qarşısındakı tağın altından keçəndə elə o düşmüşdü yadına. Onun yıxılaraq xaçı əllərindən saldığı yerdən ötəndə də, təbii ki, bir də xatırlamışdı.

İndi də bunlar oturub onu xatırlayırlar... Qəribədir! Həmin o adamın bunlarla nə əlaqəsi vardı axı? Niyə daim pıçıltıyla

danışırlar, görəsən? Yalnız həmin o hündürboy və kürən hərdənbir ucadan nəsə deyirdi, sözlərini eşitmək olurdu, görünür, pıçıltı üçün həddindən artıq iri idi.

Görəsən, onlar... qaranlıqdan danışmırdılar ki? O öləndə qəfil düşən qaranlıqdan!..

Qulaqlarını lap şəklədi, elə diqqət kəsildi ki, deyəsən, onların da diqqətini qeyri-ixtiyari özünə cəlb elədi. Söhbətlərini qəfil kəsdilər, daha bir kəlmə də danışmadılar, elə oturub çəp-çəp ona baxırdılar. Sonra yenə də nə barədəsə pıçıldaşdılar, o heç bir şey eşidə bilmədi. Axırda həmin o hündürü ilə sağollaşıb getdilər. Onlar dörd nəfər idi, heç biri Varavvanın ürəyinə yatmadı.

Varavva hündürboyla tək qaldı. Könlündən keçirdi ki, onunla bir söhbət eləsin, amma bilmirdi necə yaxınlaşsın. O isə oturmuşdu, arabir iri başı silkələnir, ağzı əyilirdi. Bütün sadə adamlar kimi, o da kədərini gizləmək barədə düşünmürdü. Axırda Varavva ondan birbaşa kədərinin səbəbi barədə soruşdu. O təəccübləndi. Varavvaya girdə, mavi gözləriylə baxıb dinmədi. Təxminən bir dəqiqə ərzində ona tanış olmayan bu şəxsi sadəlövh nəzərlərilə süzdü, sonra isə Varavvadan soruşdu ki, əslən Yerusəlimdəndir, yoxsa yox. Yox, o, buralı deyildi. Amma ləhcələri yaman oxşayırdı axı. Varavva cavab verdi ki, onun da vətəni yaxınlıqdadır, şərqdəki dağlarda. Hündürboy, deyəsən, sakitləşdi. Bu yerusəlimlilərə heç inanmırdı, elə Varavvaya da kəsəsini dedi, dedi ki, onların, demək olar ki, hamısı ya quldurdur, ya da başkəsən. Varavva gülümsündü və ürəyində onunla razılaşdı. Bəs özü haradan idi. O? Onun vətəni bu yerlərdən çox-çox uzaqlarda idi. Uşağınkını andıran gözlərilə söhbətin necə uzaq ellərdən getdiyini anlatmağa çalışdı. Varavvaya sadəlövhcəsinə dedi ki, indi necə istərdi Yerusəlimdə yox, öz doğma el-obasında olsun, dünyanın heç bir guşəsində olmağı bir belə arzulamırdı. Amma doğma yerlərini görmək, qabaqlar düşündüyü kimi, orada yaşayıb ölmək, çətin ki, ona nəsib olsun. Varavva

təəccübləndi. Niyə axı? Nədir ona mane olan? Hər kəs öz həyatının ağasıdır.

– Yoox, səhvin var, – hündürboy cavab verdi, sonra isə bir anlıq dərin fikrə gedib əlavə elədi: – Yox, elə deyil, yox.

– Bəs onda niyə buradadır? – Varavva daha bir sual verməkdən özünü saxlaya bilmədi. Hündürboy o dəqiqə cavab vermədi, amma sonra, sanki, istəmədən dilləndi ki, burada olmasının səbəbkarı Müəllimdir.

– Müəllim?

– Yəni sən Müəllim barədə bir şey eşitməmisən?

– Yox.

– Yox? Dünən Qolqofada çarmıxa çəkilən adam barədə?

– Çarmıxa çəkilən? Yox, bir şey eşitməmişəm. Onu niyə çəkdilər ki çarmıxa?

– Çünki taleyi belə yazılmışdı.

– Yazılmışdı ki, çarmıxa çəksinlər onu?

– Hə. Müqəddəs yazılarda belə yazılıb. Müəllim özü də bunu qabaqcadan demişdi.

– Özü? Müqəddəs yazılarda da var? – Varavvanın yazı-pozu ilə işi yox idi deyə, bu barədə də bir şey bilmirdi.

– Mən də bilmirdim. Amma orada vardı.

Varavva həvəslə inandı. Yaxşı, bəs Müəllimi niyə çəkdilər çarmıxa? Əcəb qəribə işdir.

– Hə... Məncə də qəribədir. Heç cür anlamıram ki, niyə gərək öləydi o. Özü də belə əzablı bir ölümlə. Amma yazılmışdı, bunu özü də deyirdi. Nə baş verməliydisə, elə o da baş verdi. Axı dəfələrlə özü də söyləmişdi ki, bizim hamımızın əvəzinə – bu yerdə hündürboy iri gözünü yerə dikdi, – əzab çəkərək ölməlidir.

Varavva ona baxdı:

– Bizim yerimizə ölməlidir?

– Hə, bizim yerimizə! Günahsız olaraq işgəncə görməli və bizim əvəzimizə ölməliydi. Axı tamam aydındır ki, günahkar biz idik, o yox.

Varavva oturub küçəyə baxırdı və daha sual vermirdi.

– İndi onun zaman-zaman bizə dediklərini daha yaxşı anlamaq olar, – hündürboy, öz-özünə müraciət edirmiş kimi dilləndi.

– Sən onu yaxşı tanıyırdın? – Varavva soruşdu.

– Əlbəttə. Əlbəttə, yaxşı tanıyırdım. Mən lap əvvəldən onunla idim, hələ bizim tərəflərdə təzə başlayan vaxtlarından.

– Deməli, o da siz tərəflərdəndir?

– Sonra da hər yerdə onunla birlikdə olmuşam, hara getsə, ayrılmamışıq.

– Niyə?

– Niyə? Hələ bir soruşursan da? O dəqiqə bəlli olur ki, sən Müəllimi tanımırsan.

– Haradan bəlli olur ki?

– Başa düş, onun gücü vardı. Ağlasığmaz bir gücü. Bircə kəlmə deyərdi: gəl dalımca! Sən də düşürdün onun dalınca. Başqa cür ola da bilməzdi. Bax, belə bir qüvvə sahibi idi. Sən də tanısaydın onu, heç soruşmazdın da. Sən də onun dalınca gedərdin.

Varavva susdu. Sonra dedi:

– Hə, əgər sən deyənlərin hamısı həqiqətdirsə, görünür, gözəl insan imiş. Amma onu çarmıxa çəkiblərsə, belə çıxır ki, gücü o qədər də çox deyilmiş, düz demirəm məgər?

– Yo-ox, elə deyil. Mən özüm də əvvəlcə sənin kimi fikirləşdim – dəhşət də elə bundadır. Bircə dəqiqəlik də olsa, bu cür düşünməyim dəhşətdir! Amma indi, deyəsən, artıq anlamışam ki, bu biabırçı ölüm nəyə lazım imiş, çox fikirləşdim, müqəddəs yazıları məndən yaxşı bilənlərlə söhbət elədim. Başa düşürsən, o tam günahsız olaraq bizim kimilərin xətrinə bütün bunlara dözməli, hətta cəhənnəmi belə öz gözüylə görməliydi. Lakin o bir də geri dönəcək və öz gücünü isbat edəcək. O, ölülər içindən diriləcək! Biz buna şübhə eləmirik!

– Diriləcək? Bu nə sayıqlamalardır?

– Sayıqlama deyil! Mütləq diriləcək. Bəziləri hətta düşünür ki, bu, sabah səhər baş verəcək, çünki bu hadisənin üçüncü gün olacağı deyilir. Özü deyirmiş ki, cəhənnəmdə üç gün olacaq, mən özüm eşitməmişəm, danışırlar. Guya, belə deyib. Sabah, hava işıqlananda...

Varavva çiyinlərini çəkdi.

– İnanmırsan?

– Yox.

– İnanmırsan... haradan inanasan... Sən ki onu tanımırdın. Amma bizimkilərdən çoxu inanır buna. Doğrudan da, əgər başqalarını dirildirdisə, niyə özü dirilməsin ki?

– Dirildirdi? Ola bilməz belə bir şey!

– Elə olar ki! Öz gözlərimlə görmüşəm.

– Yəni həqiqətdir bu?

– Əsl həqiqətdir. Dirildirdi. Qüvvəsi çatar dirilməyə, təki istəsin. Təki özü üçün də çalışmaq istəsin. İndiyədək onda belə bir istək görən olmayıb. Bu qədər gücü ola-ola niyə imkan verirdi ki, onu çarmıxa çəksinlər?.. Hə, bilirəm, bilirəm... Amma bunu dərk eləyə bilmirəm, asan deyil. Mən gördüyün kimi, sadə bir adamam və bunları, qardaşım, başa düşmək müşkül məsələdir.

– Belə çıxır ki, sən də onun diriləcəyinə inanmırsan?

– Yox, yox, mən inanıram. Əlbəttə ki, onlar düz deyirlər. Müəllim qayıdacaq və gücünü də, şöhrətini də bütün dünyaya əyan edəcək. Mənim buna heç bir şübhəm yoxdur – onlar həm də müqəddəs yazıları daha yaxşı bilirlər. Bax, həmin o əzəmətli an da onda yetişəcək. Hətta deyirlər: yeni əsr başlanacaq, xoşbəxtlik əsri, İnsan övladı öz səltənətində hökmranlıq edəcək.

– İnsan övladı?

– Hə. O özünü belə adlandırırdı.

– İnsan övladı?..

– Hə. Belə deyirdi. Amma bəziləri düşünür ki... Yox, heç cür dilimə gətirə bilmirəm...

Varavva ona bir az da yaxın oturdu.

– Nə düşünürlər?

– Onlar... fikirləşirlər ki, o, Tanrının oğludur!

– Tanrının oğlu!

– Hə... Amma, bəlkə də, həqiqət deyil bu. Adamı lap çaşqınlıq tutur. Yaxşısı budur, elə getdiyi kimi də qayıtsın.

Varavva özündən çıxdı.

– Gör bir nə çərənləyirlər ha! – qışqırdı. – Tanrının oğlu! Tanrının oğlunu çarmıxa çəkiblər! Özün də başa düşürsən ki, belə bir şey ola bilməz!

– Mən artıq sənə dedim axı, ola bilər ki, həqiqət deyil bu. İstəyirsən, bir də təkrar eləyim.

– Hansı sarsaq inanar buna? – Varavva sözünə davam edirdi və gözünün altındakı çapıq qıpqırmızı olmuşdu, həmişə onu nəsə özündən çıxaranda çapığı qızarırdı. – Tanrının oğlu! Bu necə Tanrı oğludur! Yox bir, Tanrı oğlu yerə enəcəkdi! Sonra da sənin vətənində gəzib dolaşaraq moizə söyləyəcəkdi!

– Niyə... ki? Əslində, bu mümkündür. Niyə bizim yerlər olmasın ki? Düzdür, əldən-ayaqdan uzaq, sakit yerlərdir, amma haradansa başlamaq onsuz da lazım idi axı. – Hündürboy ona elə sadəlövh nəzərlərlə baxdı ki, Varavva az qaldı gülə. Amma gülmək üçün həddindən ziyadə həyəcanlı idi. O, dəqiqəbaşı dartınıb, çiyninə atdığı keçi dərisini düzəldirdi, amma dəri heç çiynindən sürüşənə bənzəmirdi. – Yaxşı, bəs onun ölümündən sonra baş verən möcüzələrə sözün nədir? – deyə hündürboy soruşdu. – Onlar barədə heç fikirləşmisən?..

– Möcüzələr?

– Sən bilmirsən ki o, canını tapşıranda hava birdən qaraldı?

Varavva üzünü bir kənara çevirib gözlərini möhkəmcə ovxaladı.

– Həm də yer titrədi və Qolqofa xaçın durduğu yerdən düz ətəyinə kimi çat verdi?

– Yalandır! Bunların hamısını özünüz uydurmusunuz! Qolqofanın çatladığını haradan bilirsən? Sən məgər orada idin?

Qəflətən hündürboyun sifətindəki ifadə dəyişdi. O, tərəddüdlə Varavvaya baxdı, elə o dəqiqə də başını aşağı saldı.

– Yox, yox. Mən heç bir şey bilmirəm. Heç nəyi sübut eləyə bilmərəm, – deyə mızıldandı. Sonra uzun müddət dalbadal, dərindən köksünü ötürərək tamam susdu.

Nəhayət, əlini Varavvanın çiyninə qoyub dilləndi:

– Bilirsən... Müəllim əzab çəkərək canını tapşıranda mən onun yanında deyildim. Mən qaçmışdım. Onu atıb qaçmışdım. Həmin ərəfədə isə hətta ondan imtina da elədim. Elə ən dəhşətlisi də budur. Mən ondan imtina elədim. Əgər o qayıtsa, necə bağışlaya bilər məni! Əgər məndən bu barədə soruşsa, nə deyəcəyəm, nə cavab verəcəyəm! – Və iri, saqqallı sifətini ovuclarında sıxıb başını bulamağa başladı. – Axı mən belə bir hərəkətə necə yol verdim! İnsan belə bir işi necə tuta bilər! – O, yenidən Varavvaya baxanda mavi gözləri yaşla dolu idi. – Bax, sən soruşurdun ki, nədən belə kədərliyəm? İndi artıq hər şeyi bilirsən. Necə adam olduğumu da bilirsən. Mənim müəllimim və sahibim isə hər şeyi səndən də yaxşı bilir. Mən bədbəxt və zavallı adamam. Necə bilirsən, Müəllim bağışlayar məni?

Varavva cavab verdi ki, yəqin, bağışlayar. Hündürboyun danışdıqları onu o qədər də maraqlandırmırdı, amma yenə dedi də, söhbəti davam etdirmək üçün dedi, bir də ki, heç bir pis iş tutmamış, amma özünü cinayət törətmiş bir insan kimi hiss eləyən bu şəxs nədənsə onun xoşuna gəlmişdi. Əşi, o qədər adam bir-birini aldadır ki!

Hündürboy onun əlini bərk-bərk sıxdı.

– Doğrudan, belə düşünürsən? Doğrudan? – batmış səsiylə təkrarlayırdı.

Bu məqamda meydandan bir neçə nəfər keçirdi. Onlar hündürboy və kürən şəxsi görəndə, onun kiminlə söhbət elədiyinə diqqət yetirəndə, yerlərində donub qaldılar, sanki, gözlərinə

inanmaq istəmirdilər. İçəri, hündürboya tərəf tələsdilər, amma davranışlarında onun əyin-başı, görkəmi ilə qətiyyən uyuşmayan bir ehtiram sezilirdi. İçəri girən kimi də qışqırdılar:

– Sən bu adamı tanıyırsan?

– Yox, – deyə hündürboy səmimiyyətlə cavab verdi, – mən onu tanımıram. Amma mərhəmətli bir ürək sahibidir və biz onunla əməllicə söhbətləşdik.

– Sən bilmirsən ki, Müəllimi onun yerinə çarmıxa çəkiblər?

Hündürboy Varavvanın əlini buraxıb gah danışanın, gah da başqasının üzünə baxırdı, çaşqınlığını heç cür gizlətmək iqtidarında deyildi. Qalanları isə Varavva barədə nə düşündüklərini aşkarca nümayiş etdirirdilər. Necə qəzəblə, ağır-ağır nəfəs aldıqları da eşidilirdi. Varavva ayağa qalxıb üzünü yana çevirdi.

– Rədd ol buradan, kafər! – deyə çığırdılar.

Varavva isə keçi dərisinə bürünərək küçəyə çıxıb getdi, heç arxasına da baxmadı.

Dovşandodaq qız yatmırdı. Uzanıb ulduzlara baxır və lap bu yaxınlarda baş verəcək hadisələr haqqında fikirləşirdi. Yox, ona yatmaq olmazdı, gərək bütün gecəni oyaq qalaydı.

O, Peyin darvazaları yanındakı xəndəyə yığdığı samanın üstündə uzanmışdı, ətrafda isə xəstələr zarıyır, ağrısını gəzişməklə toxtatmaq istəyən cüzamlının zınqırovu cingildəyirdi. Zibil təpələri bütün vadini üfunətlə doldurmuşdu, nəfəs almaq çətin idi, amma o artıq öyrəşdiyindən iyrənc qoxunu heç hiss eləmirdi. Burada üfunəti hiss eləyən kimsə yox idi. Sabah dan yeri söküləndə... Sabah dan yeri söküləndə...

Adama lap qəribə gəlir fikirləşəndə – tezliklə bütün şikəstlər şəfa tapacaq, bütün aclar doyacaq. Adamın sadəcə inanmağı gəlmir. Necə olacaq bu? Göylərin qapıları açılacaq, oradan mələklər enib hamının, – heç olmasa, bütün yoxsulların – qarnını doyuracaqlar. Varlılar qoy elə əvvəlki kimi öz evlərində yesinlər, amma, həqiqətən, ac olanların hamısını

elə burada, Peyin darvazalarının yanındaca doyuracaqlar, yerə təmiz ağdan süfrələr salınacaq, üstünə cürbəcür təamlar düzüləcək, kimin ürəyi istəsə, elə süfrənin yanındaca dirsəklənib yeməklərdən dada biləcək. Bunu təsəvvür eləmək o qədər də çətin deyil, bircə yadda saxlamaq lazımdır ki, heç nə indikinə bənzəməyəcək. Hər şey dəyişib, tamam başqa cür olacaq...

Kim bilir, bəlkə, elə onun da təzə paltarı olacaq? Bəlkə, lap bəyaz paltar olacaq əynində? Bəlkə, göy ətəklik geyinəcək? Axı Tanrının Oğlu ölülər arasından diriləndə, təzə əsr başlananda hər şey birdən dəyişəcək.

O uzanıb bunları fikirləşirdi, bunların necə baş verəcəyini düşünürdü.

Sabah... Sabah dan yeri sökülləndə... Yaxşı ki, onu qabaqcadan xəbərdar eləyiblər.

Cüzamlının zınqırovu lap yanında cingildədi. Qız onu tanıdı, gecələr həmişə buradan keçirdi, hərçənd ki, yasaq idi onlara, gərək öz yerlərində, dərənin dibində qalaydılar, amma bu, gecələr çıxıb gəzməyə ürək eləyirdi. Yəqin, insanlara yaxınlaşmaq istəyir bir az. Bunu bir dəfə elə onun özü dilinə gətirmişdi. Qız onun ulduzların işığında yatmış adamların arasından necə ehtiyatla keçməsini görürdü.

Ölülər səltənəti... Ora necədir, görəsən?.. Deyirlər ki, indi o, ölülər səltənətində gəzib-dolaşır... Nəyə bənzəyir ora?... Yox, bunu heç cür təsəvvüründə canlandıra bilmirdi.

Kor qoca yuxuda zarıdı. Bir az o yanda isə tamam əldən düşmüş bir yeniyetmə uzanmışdı, o boğulurdu, hər gecə onun necə boğulduğunu eşidirdilər. Lap yaxınlıqda isə Qalileyadan olan bir qadın uzanmışdı, onun əli bir yerdə durmurdu, ara vermədən tərpənirdi, vücuduna yad ruh girmişdi, deyəsən. Buralar hamının birdən sağalacağına inanan saysız-hesabsız xəstələr, elə bu zibilxanada tapdıqlarını yeyən dilənçilərlə dolu idi. Sabah isə artıq burada bir nəfər də qalmayacaq. Onlar yuxuda oyanbuyana çönürdülər, qızın isə artıq heç kimə yazığı gəlmirdi.

Yəqin, mələk suya üfürəcək, su isə o dəqiqə təmizlənəcək! Camaat da ayağını bu suya basan kimi sağalacaq? Hətta cüzamlılar da sağalacaq yəni? Yəni onları da suyun içinə buraxacaqlar? Qovalamayacaqlar? Kim bilir... Heç kəs heç bir şey bilmir...

Bəlkə də, heç suya aid bir şey yoxdur, məsələ heç suda deyil. Bəlkə, elə bir dəstə mələk Gexinom vadisi üzərindən, bütün yer üzərindən uçanda öz qanadları ilə xəstəlikləri, bəlaları, qəm-qüssəni süpürüb aparacaq!

Aha, yəqin, elə olar!

Sonra o, Tanrının Oğlu ilə necə görüşdüyünü xatırlamağa başladı. Onunla necə mehriban idi. Heç kəs heç vaxt onunla belə mehriban davranmamışdı. Ondan xahiş eləyə bilərdi ki, üzündəki eybəcərliyi düzəltsin, amma istəmirdi. Onun üçün bu, su içmək qədər asan bir iş idi, lakin xahiş eləmək istəmirdi. O, həqiqətən, köməyə ehtiyacı olanlara yardım göstərirdi, əzəmətli işlər görürdü. Belə kiçik bir şey üçün onun vaxtını almaq istəmirdi.

Amma qız tozlu yolda onu görüb diz çökəndə baxdı və yaxınlaşaraq çox qəribə sözlər dedi:

– Sən də məndən möcüzə gözləyirsən? – deyə soruşdu.

– Yox, İlahi, mən gözləmirəm. Mən sadəcə olaraq sənin yol getməyinə tamaşa eləyirdim.

Sonra ona elə nəvazişlə və elə qəmli baxdı ki... Əlini onun yanağına çəkdi, dodaqlarına toxundurdu, lakin dodaqları necə vardısa, eləcə də qaldı. Sonra isə dedi:

– Sən mənə şahidlik eləyəcəksən.

Qəribə sözlər idi. Nə deməkdir bu? "Mənə şahidlik eləyəcəksən". Yəni o, şahidlik eləməlidir? Başa düşə bilmirdi. Necə şahidlik eləyəcək axı?

O görürdü ki, bu qız başqaları kimi deyil; ona tamam başqa sözlər deyirdi. Təəccüblü nə vardı burada, elə ona görə Tanrının Oğlu idi ki, hər şeyi anlasın da.

Beynindən cürbəcür, saysız-hesabsız fikirlər keçirdi: onunla danışanda necə baxdığını, agzına toxunanda əllərindən gələn

qoxunu... Gözlərini geniş açmışdı, bəbəklərində ulduzlar yanırdı, ulduzlara baxdıqca sayları artırdı, lap heyran qalmışdı. Evlərindən çıxdığı gündən bəri o qədər ulduz görmüşdü ki... Maraqlıdır, ulduzlar necədir, görəsən? Təbii ki, onları da Tanrı yaradıb, amma necəliyini kimsə bilmir... Burada, səhrada ulduzların sayı-hesabı yoxdur... Dağda da çox idi... Qalqal yaxınlığındakı dağlarda... Amma həmin o gecə görünmürdülər...

İki kedr ağacının arasında yerləşən evləri haqda düşünməyə başladı... O, çiynində lənət yükü dağdan enənə kimi, anası qapının ağzında durub dalınca baxırdı... Bəli, onu evdən qovmalı olmuşdular, bu gündən etibarən vəhşi heyvan kimi mağaralarda, yuvalarda yaşamalı olacaqdı... O, baharda tarlanın necə yaşıllaşması barədə fikirləşirdi, anası isə həmin o lənətləyənlər görməsin deyə, qapının içindəki qaranlıqda yanpörtü durub baxırdı...

Artıq bunların heç bir əhəmiyyəti yoxdur. Artıq heç nəyin əhəmiyyəti yoxdur.

Kor dikəlib oturdu, kənardan gələn səslərə qulaq verdi, oyanan kimi cüzamlının zınqırovunu eşitmişdi.

– Rədd ol buradan, görüm! – qaranlıqda çığırıb yumruğuyla onu hədələdi. – İtil burdan! Buna bax, dadanıb lap!

Zınqırovun səsi zülmətdə dondu və qoca yenə yerinə uzanaraq boş göz oyuqlarını əliylə örtdü.

Ölmüş uşaqlar necə, onlar da, görəsən, ölülər səltənətinə düşürlər? Ana bətnində hələ doğulmağa macal tapmamış ölənlər, yəqin, ora düşməz, hə? Bu ola bilməz axı... Yəni onlar da əzab çəkməlidirlər? Bəs onlar niyə? Yox, bunu dəqiq demək olmaz... Heç nəyi dəqiqliklə demək olmaz.

"Bətnindəki körpəyə lənət olsun sənin"...

Məgər yeni əsr başlananda, bütün lənətlər öz-özünə gücdən düşəcək? Bəlkə də... Kim bilir bunu?

"Bətnindəki... körpəyə... lənət olsun"...

Əsdi, sanki, bədənindən bir üşütmə keçdi. Kaş səhər tez açılaydı! Nə vaxt söküləcək e bu dan yeri! Gör nə vaxtdan

bəri uzanıb burada, gecə isə bitmək bilmir ki, bilmir! Hə, ulduzlar başqa cür işıq saçır artıq, təzə ay da çoxdan dağların dalında gizlənib. Gözətçilərin sonuncu dəstəsi də dəyişdi – şəhər divarlarının üstündə üçüncü dəfəydi ki, məşəllər görürdü. Hə, artıq gecə bitdi. Sonuncu gecə...

Budur, Zeytunlu dağın üstündən dan ulduzu qalxdı! O dəqiqə tanınırdı bu ulduz, iri, parlaq idi, başqalarından çox-çox parlaq. Bu ulduz hələ heç vaxt belə işıq saçmamışdı. Əllərini çökək sinəsinin üstündə cütləyib, uzanaraq ulduza alovlu gözləriylə baxırdı.

Sonra isə birdən qalxıb zülmətə qaçdı.

O, tabutla üzbəüz, yolun qarşı tərəfindəki tamarisk kolunun arxasında büzüşüb uzanmışdı. Hava işıqlaşanda hər şeyi görəcək. Buradan yaxşı görünür. Günəş tez çıxaydı bircə!

Əlbəttə, ölü dirilə bilməz, bunu onsuz da dəqiq bilirdi, amma yenə də öz gözləriylə görmək istəyirdi hər şeyi, inanmaq istəyirdi. Elə bu səbəbdən də səhərin açılmasına xeyli qalmış yerindən qalxıb bura gəlmişdi, kolluqların arxasında pusqu qurmuşdu. Amma özü özünə lap təccüb eləyirdi. Niyə burada idi? Məgər onun üçün baş verənlərin bir fərqi vardı? Bu məsələlərin ona nə dəxli var axı?

O, elə düşünürdü ki, bu böyük möcüzəyə baxmaq üçün lap çox, xeyli adam gələcək. Elə bu səbəbdən gizlənmişdi ki, onu görən olmasın. Amma görünür, bura ondan başqa heç gələn yox idi. Qəribədir.

Amma yox – kimsə dizi üstə çökmüşdü, lap yaxınlıqda, düz yolun üstündə. Kimdir bu, görəsən? Necə olub ki, onun addım səslərini heç eşitməyib? Deyəsən, qadındır. Onun boz silueti yolun boz tozuna qarışaraq, demək olar ki, görünməz olurdu.

Artıq işıqlaşırdı və tezliklə şəfəqin ilk şüası tabutun yonulduğu qayanın üstünə düşdü. Hər şey o qədər tez baş verdi

ki, o heç nə görə bilmədi, amma elə Varavvanın əsl diqqət kəsilmək, baxmaq məqamıydı! Tabut boş idi! Qabağındakı daşı kənara çəkmişdilər və qayadakı tabut bomboş idi!

Əvvəlcə lap mat-məəttəl qaldı, yerində uzanıb, gözlərini tabutun qapağına zilləmişdi, çarmıxa çəkiləni bura gətirdiklərini axı özü görmüşdü, bir də daşa baxırdı – onu da gözünün qabağında çəkmişdilər mağaranın ağzına. Amma sonra hər şeyi anladı. Qəribə bir şey baş verməmişdi. Daşı, Varavva bura gəlməmişdən kənara çəkmişdilər. Tabut da, artıq o gələndə boş idi. Daşı kimin yığışdırdığını, meyiti kimin apardığını fərz eləmək heç çətin deyildi. Şagirdləri eləmişdilər bunu, gecə eləmişdilər. Gecənin qaranlığında onlar öz sevimli Müəllimlərini oğurlamışdılar ki, sonradan, özünün vəd etdiyi kimi, dirildiyini söyləyə bilsinlər. Bunu qanmaq üçün fövqəladə ağıl da lazım deyil.

Elə buna görə də bu sübh çağı, hamının möcüzə gözlədiyi bir vaxtda, özləri heç bura gəlməyiblər. Haradasa gizləniblər!

Varavva sığınacağından çıxıb, tabuta yaxınlaşdı ki, hər şeyi lap yaxşı görə bilsin. Diz üstə çökmüş həmin o boz fiqurun yanından keçəndə qadına ötəri bir nəzər saldı və Dovşandodağı tanıyaraq heyrətləndi. Yerində donub qalmışdı, qıza baxırdı. Rəngi qaçmış, yorğun bir sifət isə tabuta tərəf çönmüşdü, son dərəcə xoşbəxt gözləri başqa heç nəyi görmürdü. Dodaqları yarıaçıq idi, demək olar ki, nəfəs almırdı və üst dodağındakı eybəcər çapıq tamam ağarmışdı. O, Varavvanı görmürdü.

Qızın üzünə baxmaq Varavva üçün çətin idi, həm də, elə bil, xəcalət çəkirdi. Yadına nəsə düşdü – heç bir vəchlə xatırlamaq istəmədiyi nəsə; onda da qızın sifəti belə idi. O isə elə onda da indiki kimi xəcalət çəkirdi... Çiyinlərini çəkib, sanki, həmin o xatirələrini tökürdü çiyinlərindən.

Nəhayət, qız da onu gördü. Gördü və burda gördüyünə təəccübləndi. Məlumdur, elə o özü də öz hərəkətlərinə təəccüblənirdi. Axı bütün bu məsələlərin ona nə dəxli vardı?

Varavva üçün ən yaxşısı özünü buradan təsadüfən yol keçən birisi kimi göstərmək olardı, guya, heç burada nə baş verdiyini də bilmirdi, tabutdan da xəbər-ətəri yox idi. Niyə özünü belə göstərməyəydi ki? Düzdür, buna inanmaq çətin idi və çox güman ki, heç qız da inanmayacaqdı, amma yenə də ehtiyat üçün soruşdu:

– Burada niyə uzanmısan?

Qız nə gözlərini qaldırdı, nə də yerindən qımıldandı, elə bayaqkı kimi dizi üstə çöküb baxışlarını qayadakı tabutun qapısına zilləmişdi. O, qızın nə pıçıldadığını lap zorla eşidə bildi:

– Tanrının Oğlu dirilib...

Qəribədir, amma bu pıçıltı ona yaman təsir elədi. Qeyri-ixtiyari nəsə duydu içində, amma heç özü də bilmədi ki, nə idi bu hissiyyat. Elə yerindəcə qalmışdı, bilmirdi nə desin, nə etsin. Sonra, elə əvvəldən niyyət elədiyi kimi, tabuta yaxınlaşıb yaxından baxdı və əmin oldu ki, həqiqətən, boşdur – bunu əslində elə bayaqdan da bilirdi, bir də onun üçün fərqi nə idi ki, nə mənası vardı bütün bunların? Yenə də qızın dizi üstə çökdüyü yerə qayıtdı. Üzündə elə bir məmnuniyyət, elə bir dərin bəxtiyarlıq ifadəsi vardı ki, lap yazığı gəldi ona. Axı hər şey başdan-ayağa ağ yalan idi. Əlbəttə ki, o, bu dirilmə məsələsinin necə baş verdiyini açıb danışa bilərdi qıza, amma dinmədi, çünki onsuz da bir dəfə artıq incitmişdi onu... Çəkdiyi əzabları az idi məgər? Əsl həqiqəti açıb söyləməyə özünü heç cür məcbur eləyə bilmədi. Yalnız ehtiyatla soruşdu ki, bu dirilmə məsələsi necə baş verib, görəsən, bu barədə sən nə fikirləşirsən?

İlk anlarda o, Varavvanın üzünə dərin bir təəccüb ifadəsiylə baxırdı. Yəni, doğrudan, bilmir? Amma sonra başladı özünün tın-tın danışığı ilə, heyran-heyran söyləməyə ki, bəs səmadan bir mələk endi, əlini nizə kimi irəli uzatmışdı, əynindəki cübbəsi də alovdan idi. Nizəsi daşla qayanın arasına sancılan kimi, onları yardı. Bu əsl möcüzə olsa da, danışanda

sadə bir şey kimi gəlir adama. Amma hər şey elə mən danışan kimi oldu. Məgər o, özü görmədi bunu?

Varavva baxışlarını yerə dikib cavab verdi ki, yox, o bir şey görə bilmədi, özü isə ürəyində sevindi: yaxşı ki, mən bunların heç birini görmədim. Deməli, onun gözləri yenə qaydasına düşürdü, yenə başqalarının gözləri kimi olmuşdu, nə olmayan bir şey görünmürdü, nə də ki qara basırdı onu, hər şeyi necə vardısa, eləcə də görürdü. Çarmıxdakının təsirindən qurtarmışdı artıq. Varavva heç bir dirilmə-zad da görməmişdi. Qız elə dizi üstə qalmışdı, gözləri isə gördüklərinin təxəyyülündən par-par yanırdı.

Nəhayət ki, qız çıxıb getmək üçün ayağa qalxanda şəhərə sarı birlikdə yollandılar. Yol boyu az danışırdılar, amma başa düşdü ki, ondan ayrıldığı dəmdən bəri qız Tanrının Oğlu adlandırdığı, Varavvanın isə çarmıxda ölən dediyi həmin o insana inanıb. Varavva soruşanda ki o, sizə nəyi öyrədirdi, qız cavab vermədi. Gözlərini qaçırıb susdu. Beləliklə, yolayrıcına kimi birgə getdilər, sonra yolları ayrıldı – qıza Gexinom vadisi lazım idi, o isə Davud darvazasına tərəf getməliydi və ayrılarkən birbaşa soruşdu ki, onun öyrətdikləri nədən ibarət idi, qız özü nəyə inanır, hərçənd, bunların ona – Varavvaya elə bir dəxli də yox idi. Qız bir müddət key-key oyan-buyana baxdı, sonra onun sifətinə tərəddüdlü bir nəzər salıb həmişəki kimi zorla anlaşılan bir tərzdə dedi:

– Bir-birimizi sevməliyik.

Beləcə də ayrıldılar.

Varavva bir xeyli durub onun dalınca baxdı.

Varavva heç bir işi olmadığı bu Yerusəlimdə nədən ilişib qalmasına təəccüb edirdi. Küçələri bütün günü mənasız, avara-sərgərdan gəzib dolaşırdı. Dağda isə, yəqin, çoxdan onu gözləyirdilər, bilmirdilər ki, başına nə iş gəlib. Bu vaxta kimi niyə şəhərdə qalıb? Bunu heç Varavvanın özü də bilmirdi.

Gonbulça əvvəl elə başa düşmüşdü ki, şəhərdə məhz onun xətrinə ləngiyir, amma tezliklə səhvini anlamışdı. Bir az yer eləyirdi ona, amma pərvərdigar onsuz da bu kişilərin hamısını qədirbilməz yaradıb, gərək çox üz verməyəsən, o isə hər gecə yatırdı onunla, axı özünə də xoş idi. Qadının yanında əməlli-başlı, sevişməli bir kişi yatanda yaxşı olur. Varavvanın isə daha bir yaxşı cəhəti vardı: düzdür, ona qətiyyən əhəmiyyət vermirdi, amma heç başqaları da yüz faiz vecinə deyildi. Ona heç kəs lazım deyildi. Elə həmişə belə olub. Amma belə götürəndə, onun xoşuna gəlirdi Varavvanın etinasızlığı. Lap sevişəndə də. Sonra, düzdür, yanıb tökülürdü, hərdən lap ağladığı da olurdu. Amma heç bu da pis deyildi. Hələ dərindən fikirləşəndə, hətta bir şirinliyi, ləzzəti də vardı. Gonbulça eşqbazlıqda zəngin təcrübəyə malik idi və məhəbbət özünün istənilən formasında məqbul idi onun üçün.

Niyə indiyə kimi Yerusəlimdə qalmışdı – bunu heç cür başa düşə bilmirdi. Bütün günü harada itib-batırdı, başı nəyə qarışmışdı? O axı küçələrdə məqsədsiz veyillənən avaralardan deyildi, çətin, təhlükəli bir həyata alışıq idi. Veyillənmək heç xas deyildi ona.

Yox, az qala çarmıxa çəkiləcəyi həmin o gündən bəri heç özünə bənzəmirdi. Elə bil, onu götürüb qəflətən sərbəst buraxmaqlarına heç cür alışa bilmirdi, – şişman qadın isti havada əllərini piyli qarnının üstünə qoyub uzanaraq öz-özünə fikirləşəndə bu qənaətə gəldi və möhkəm gülmək tutdu onu.

Hərdənbir Varavva həmin o çarmıxa çəkilən ravvinin davamçıları ilə də rastlaşırdı. Heç kəs deyə bilməzdi ki, Varavva onlarla görüşməyə məxsusi can atır, amma yarmarkada, küçədə təsadüfən görüşəndə söhbətləşmək üçün məmnuniyyətlə ayaq saxlayırdı və onlardan çarmıxa çəkilən həmin o şəxs barədə, onun qəribə, heç cür anlaya bilmədiyi moizələri haqqında soruşurdu. Bir – birimizi sevməliyik?..

Saray meydanına getmirdi, heç onun həndəvərindəki zənginlər yaşayan küçələrdə də görünməzdi, aşağı şəhərin

sənətkarlar işləyən, səyyar ticarətlə məşğul olanların öz mallarını təriflədiyi dar-dolanbac küçələrində gəzib dolaşırdı. Bu sadə insanların arasında dindarlar daha çox idi və Varavva dəbdəbəli, sütunlu, tağlı binalarda yaşayanlara nisbətən, onlarla ünsiyyətdən daha çox xoşlanırdı. Qəribə anlayışları barədə bəzi şeyləri artıq öyrənmişdi, amma inanclarından yenə heç cür baş çıxara bilmirdi. Bəlkə, ona görə ki, hər şeyi çox bəsit, sarsaq tərzdə izah eləyirdilər.

Məsələn, onlar sidq-ürəkdən inanırdılar ki, Müəllimləri dirilərək ölülər səltənətindən qayıdıb və tezliklə səma qoşununun başında duracaq, yer üzündə öz məmləkətini quracaq. Eyni şeyi təkrarlayırdılar, görünür, belə öyrətmişdilər onlara. Lakin onun məhz Tanrı Oğlu olmasına heç də hamısı inanmırdı. Bəziləri belə fikirləşirdi ki, bu bir az qəribədir: axı onu öz gözlərilə görərək danışdıqlarına qulaq asmışdılar, hətta söhbət də eləmişdilər. Hələ biri onun ayağına bir cüt səndəl də tikmişdi, nə bilim, ayaqlarının ölçüsünü-zadını çıxarmışdı. Yox, nəsə adamın heç inanmağı gəlmirdi. Başqaları isə deyirdilər ki, o, həqiqətən, Tanrının Oğludur və gün gələcək buludların üstündə Atası ilə yanaşı oturacaq, amma əvvəlcə bu günah dünyası, bu yaramaz dünya məhv olacaqdı.

Nə qəribə adamlardır bunlar?!

Onlar fikir verirdilər ki, Varavva dediklərinin heç birinə inanmır, elə bu səbəbdən də onunla bir az ehtiyatlı davranırdılar. Bəziləri isə inamsızlıqlarını aşkar nümayiş etdirir, onu bu yolla anladırdılar ki, gəlişindən qətiyyən məmnun deyillər. Varavva isə bu münasibətə çoxdan öyrəşmişdi, amma qəribə burasıdır ki, indi adamlardan gördüyü bu cür münasibətdən yaman inciyirdi, qabaqlar isə qətiyyən əhəmiyyət verməzdi. İnsanlar ona ehtiyac duymadıqlarını həmişə Varavvaya açıq nümayiş etdirir, ondan gen gəzməyə çalışırdılar. Bəlkə, onun görkəminə görə, gözünün altındakı bıçaq yarasına görə idi bu, axı bu yaranın haradan peyda olduğunu da heç kəs bilmirdi, bəlkə, çox dərində yerləşən, heç kəsin aydın

görmədiyi gözlərinin ucbatından idi, bilmirdi. Varavva bunun hamısını yaxşı anlayırdı, lakin nə dəxli vardı ki, adamlar onun barəsində nə düşünürlər: O, özünə göstərilən münasibətə heç fikir verməməyə adət eləmişdi.

Lakin indiyədək bilməzdi ki, bu cür münasibətdən nə vaxtsa inciyə bilər.

Bu insanları isə bir-birilə hər yerdə, hər işdə ümumi inanc birləşdirirdi və bu inanclarına aidiyyəti olmayanları yaxına buraxmaqdan həmişə qorxurdular. Onların arasında ümumi bir qardaşlıq telləri vardı, daim məhəbbət axşamları keçirir, birlikdə, böyük bir ailə kimi öz aralarında çörək kəsirdilər. Bütün bunların, yəqin ki, onların inancına, "bir-birimizi sevməliyik" deyiminə aidiyyəti vardı. Amma hələ bəlli deyildi ki, onların sırasından olmayanları necə, sevirdilər, yoxsa yox.

Varavvanı onların məhəbbət axşamları qətiyyən cəlb eləmirdi, bircə bu çatmırdı, adamın lap zəhləsi gedir. Bu dünyada kiməsə bel bağlamaq olar?! Varavva həmişə özünün ağası olub və qətiyyən dəyişmək fikrində də deyildi.

Lakin, nədənsə, onlarla görüşməyə yaman can atırdı.

Hətta bir müddət özünü elə göstərdi ki, guya, onların qardaşlığına qoşulmaq niyyətindədir, amma əvvəlcə gərək onların inancını əməlli-başlı anlasın ki, səhvə yol verməsin. Onlar da demişdilər ki, onun bu seçimini yalnız alqışlaya bilərlər və Müəllimdən öyrəndiklərinin hamısını ona anlatmağa çalışacaqlar, lakin həmin bu sözləri deyəndə belə, onların üzündə sevinc ifadəsi-filan qətiyyən görünmürdü. Çox qəribə idi. Amma, sanki, utanırdılar, onun təklifinə, özlərinə yeni məslək qardaşı tapacaqlarına heç sevinmədiklərindən utanırdılar – qabaqlar isə hər belə hadisə onlar üçün bayrama çevrilərdi. Səbəb nə idi? Varavva bunun səbəbini bilirdi, elə buna görə də qəflətən ayağa qalxıb oradan uzaqlaşdı, gözünün altındakı çapıq isə yenə möhkəm qızarmışdı.

İnanmaq! Çarmıxa çəkildiyini öz gözləriylə gördüyü bir adama necə inana bilərdi axı! Bu çoxdan ölmüş və heç dirilməmiş

– bunun da şahidi özüydü! – bir vücuda necə inanaydı! Bütün bunlar boş təxəyyüldən başqa bir şey deyil! Əvvəldən axıra kimi – uydurmadır! Ölülərin hələ heç biri indiyə kimi dirilməyib: nə onların qiymətli "Müəllimi", nə də başqa biri! Qısası, vaxt kimi seçdiklərinə görə cavabdehliyi Varavva daşımır! Bu, onların öz işiydi! Kimi istədilər, onu da seçdilər, belə alındı da. Tanrının Oğlu! Əşi, onun harası Tanrı Oğludur! Tutalım, lap deyilənlər tam həqiqətdir, yenə də əgər özü istəməsəydi, kim onu çarmıxa çəkə bilərdi ki? Belə çıxır ki, özü seçmişdi sonunu! Həm heyrətləndiricidir, həm də adam lap nifrət eləyir – deməli, özü əzab çəkmək istəyirmiş. Əgər o, doğrudan da, Tanrının Oğlu olsaydı, onun üçün canını qurtarmaq su içmək qədər asan idi. Amma o istəmədi. O, özü qərar verdi ki, əzab çəksin, canını dəhşətli bir ölümün ağuşunda tapşırsın, qurtulmaq istəmədi, elə istədiyi kimi də oldu, onu azad eləmədilər. O, elə elədi ki, Varavvanı buraxdılar. Əmr elədi: Varavvanı azad eləyin, məni isə çarmıxa çəkin.

Əşi, o haradan Tanrı Oğlu oldu, hər şey gün kimi aydındır...

O, öz gücündən çox qəribə bir tərzdə istifadə elədi, çox qəribə, elə bil, heç istifadə eləmədi, imkan yaratdı ki, qərarı başqaları versin, necə istəyirlərsə, elə də eləsinlər, özü isə, guya, heç bir şeyə müdaxilə etmədi, amma ürəyində seçimi artıq hazır idi: onu çarmıxa çəkəcəklər, Varavvanı isə buraxacaqlar.

Bunlar da ağızlarını qoyublar boşa: ay nə bilim, bizim əvəzimizə, bizim yerimizə öldü. Nə demək olar! Ola da bilər. Amma dəqiq olanı bircə budur ki, o, Varavvanın yerinə ölmüşdü, bunu daha heç kim inkar eləyə bilməz! Belə çıxır ki, ona bu birilərdən də, bütün adamlardan da ən yaxını elə mənəm – Varavva! Bizi bir-birimizə tamam başqa tellər bağlayır, bunlar da hələ məni yaxına buraxmaq istəmirlər! Özü məni seçib, seçib ki, əzab çəkməyim, əzabdan xilas eləmək üçün seçib. Əsl seçilmiş elə o özüdür – Varavvadır ki, onu Tanrı Oğlunun yerinə buraxıblar – onun özü istəyib bunu, özü əmr eləyib. Sadəcə olaraq, bunların heç biri hələ bilmir bunu!

Onların “qardaşlığı” da, “məhəbbət gecələri” də, “bir-birimizi sevməliyik” də qətiyyən lazım deyil ona. Tanrının Oğlu dedikləri, həmin o çarmıxa çəkilənlə də münasibətlərində elə özü kimi qalacaq. O biriləri kimi quldur məgər?! Qoy duanı, ah-ufu da o birilər eləsin.

Əzab çəkməyi necə arzulaya bilərsən axı? Heç bir ehtiyac olmadan, heç kəs səni məcbur eləmədiyi bir halda? Adam heç təsəvvür də eləyə bilmir, ürəyi bulanır fikirləşəndə. Onun gözləri önünə yenə arıq, rəngi qaçmış bədən, nazik, öz çəkisini saxlaya bilməyən qollar gəldi, qupquru, o dərəcədə quru dodaqlar ki, “su” kəlməsini də zorla deyə bildi. Yox, bu cür bəlalara özü can atan, çarmıxa öz iradəsi ilə çəkilən birisindən heç xoşu gəlmirdi. Ondan xoşu gəlmirdi! Bunlar da onu sevməyirlər, əzablarını əllərində bayraq eləyiblər, yazıq, miskin ölümünü bayraq eləyiblər – yəqin, bu ölümün miskinliyi onlara heç çatmırdı da. Onlar ölümə aşiq idilər. Varavva isə iyrənirdi, heç fikirləşə də bilmirdi bu barədə, lap ürəyi qalxırdı. Nə onların inancı lazım idi Varavvaya, nə onların özləri, nə də ki inandıqları həmin o yazıq.

Yox, Varavva ölümü sevmirdi. O, ölümə nifrət eləyirdi, o, ümumiyyətlə, ölmək istəmirdi. Bəlkə, elə buna görə belə alınmışdı hər şey? Bəlkə, elə buna görə seçilmişdi – ölümdən qurtulması üçün? Əgər çarmıxa çəkilən, həqiqətən, Tanrı Oğludursa, deməli, hər şeydən xəbərdardır və əgər xəbərdardırsa, deməli, gözəl bilirdi ki, Varavva ölmək istəmir – nə ölmək, nə də əzab çəkmək. Odur ki Varavvanın yerinə öldü! Varavvanın qismətinə isə onu Qolqofaya ötürmək, necə çarmıxa çəkildiyinə tamaşa etmək düşdü. Ondan, başqa heç nə tələb olunmurdu, elə bu da bəsiydi, axı ölümdən, onunla bağlı nə varsa, hamısından zəhləsi gedirdi.

Hə, uğrunda Tanrı Oğlunun can verdiyi insan elə o özüdür! Onu buraxın, məni çəkin çarmıxa! – Bu sözlər Varavvanın barəsində deyilmişdi, bir başqası barədə yox!

Bütün bunları Varavva yaxınlaşmağa cəhd göstərdiyi həmin o adamlardan aralanandan sonra, yolda düşünürdü. Dulusçular döngəsindən, ondan xoşlanmadıqlarını aşkarca nümayiş etdirdikləri həmin o dükandan iri addımlarla uzaqlaşaraq yolboyu bunları fikirləşirdi.

Qərara aldı ki, bir də getməsin onların yanına.

Lakin ertəsi gün yenə ora qayıdanda soruşdular ki, inanclarında onun üçün aydın olmayan nədir, bu dəfə aşkar göstərirdilər ki, dünənki soyuq münasibətə görə peşmançılıq hissi keçirirlər və əgər o bütün bunları öyrənməyə, həqiqətən, bu qədər israrlıdırsa, imkanları daxilində, hər cür köməyə, hidayətə hazırdırlar. Nəyi öyrənmək istəyirdi? Aydın olmayan nə idi ona?

Varavva əvvəl istədi çiyinlərini çəkib desin ki, ümumiyyətlə, heç bir şey anlamır və əslində, buna görə çox elə kədərlənmir də. Amma sonra dedi ki, məsələn, bu dirilmək məsələsi heç cür onun beyninə sığışmır. O inanmır ki, kimsə öləndən sonra bir də dirilə bilər.

Onlar gözlərini dəzgahlarından çəkib əvvəlcə Varavvaya, sonra isə bir-birinə baxdılar. Dalınca da azacıq pıçıldaşdılar öz aralarında və ən yaşlısı soruşdu ki, Varavva Müəllimin diriltdiyi adamı öz gözləriylə görmək istəmir ki? Əgər istəyirsə, onlar Varavvanı həmin adamın yanına apara bilərlər, amma yalnız axşam, işdən sonra, çünki həmin adam Yerusəlimin özündə yaşamır.

Varavva qorxdu. O, belə bir şey eşidəcəyini əsla gözləmirdi. O, elə bilirdi ki, bəhs açacaqlar, öz anlayışlarını izah etməyə çalışacaqlar, daha ortaya belə kəsə, birbaşa, kobud bir sübut çıxarılacağına heç gümanı gəlməzdi. Təbii ki, o yaxşı bilirdi: bütün bunlar təxəyyüllərinin məhsulundan, xoşniyyətli yalanlardan başqa bir şey deyil və dirilmiş dedikləri həmin adam da, əslində, heç ölməyibmiş. Amma yenə də qorxdu. Varavva həmin adamı görmək istəmirdi. Lakin bunu dilinə də gətirə bilməzdi axı. Məcbur oldu desin ki, onların

Tanrısının və Müəllimlərinin qüdrətinə şahidlik etmək fürsəti tapdığı üçün çox məmnun və minnətdardır.

Axşamın düşməsini gözləyənə kimi o, küçələrdə dolaşır və getdikcə daha artıq həyəcanlanırdı. Günün sonunda yenə dulusçuların yanına qayıtdı və bir yeniyetmə oğlan onu şəhər divarlarından çölə çıxararaq, Zeytunlu dağa tərəf apardı.

Yanına getdikləri həmin adam dağın döşündə, o qədər də böyük olmayan kəndin lap kənarında yaşayırdı. Cavan dulusçu qapıdan asılmış saman örtüyü əlilə kənara çəkəndə gördülər ki, ev sahibi masanın arxasında, qapıya nisbətdə yanpörtü oturub, əllərini masanın üstünə qoyaraq, düz qabağına baxırdı. Oğlan cingiltili bir səslə salam verənə kimi, deyəsən, onları görmədi də. Kişi üzünü aram-aram qapıya sarı çevirdi, qəribə, eşidilməz bir səslə salamlarını aldı. Oğlan isə ona Dulusçular döngəsindəki qardaşlardan salam yetirib bura nə üçün gəldiklərini anlatdı, kişi onların hər ikisini oturmağa dəvət elədi. Varavva onunla üzbəüz oturub qocanın sifətini nəzərdən keçirməyə başladı. Sarımtıl rəngdə idi, zahirən bərk, lap sümük kimi görünürdü. Dərisi tamam qurumuşdu. Varavva heç vaxt güman eləməzdi ki, insanda belə bir sifət olar və həmin sifətdən bu dərəcədə boşluq, tənhalıq sezilər. Kişinin üzü, elə bil, səhra idi.

Oğlanın sualına ev sahibi cavab verirdi ki, bəli, o ölmüşdü, sonra isə onu Qalileyadan olan bir ravvi – onların Müəllimi həyata qaytardı. Dörd gecə, dörd gündüz tabutda qalmışdı, indi isə elə həmin bədəni, həmin ruhu idi, heç bir şey dəyişməmişdi. Müəllim öz gücünü, öz şöhrətini göstərdi və isbat elədi ki, həqiqətən, Tanrının Oğludur.

Aramla danışırdı, səsində heç bir ahəng yox idi və bütün bu müddət ərzində Varavvaya özünün avazımış, sönmüş gözləriylə baxırdı.

Sonra bir az da Müəllimdən, onun gördüyü əzəmətli işlər barədə danışdılar. Varavva söhbətə müdaxilə eləmədi. Bir azdan oğlan elə bu kənddə yaşayan ata-anasına baş çəkməyə gedərək, onları baş-başa buraxdı.

Varavva bu adamla heç tək qalmaq istəmirdi. Amma elə beləcə, durub getmək olmazdı və getmək üçün heç səbəb də tapa bilmirdi. Kişi isə heç bir şey, o cümlədən də həmsöhbətinə maraq ifadə eləməyən, lakin qəribə bir cazibəsi olan sönük baxışlarını Varavvanın üzündən çəkmirdi. Varavva getmək istəyirdi, canını qurtarıb qaçmaq istəyirdi buradan, amma qaça bilmirdi.

Əvvəlcə ev sahibi kirimişcə oturmuşdu, sonra isə birdən soruşdu ki, onların ravvisinə, onun Tanrının Oğlu olmasına inanırmı. Varavva bir az tərəddüd elədi, lakin sonra dedi ki, yox, inanmır, çünki qocanın bu mənasız baxışlarına, sənin yalan deyib-deməməyinin heç bir əhəmiyyəti olmayan baxışlara yalan söyləmək də mənasız idi. Ev sahibi incimədi, yalnız başını tərpədib dedi:

– Hə, çoxları inanmır. Elə dünən anası da gəlmişdi bura – heç o da inanmır. Amma məni diriltmişdi ki, onun barəsində şahidlik edim.

Varavva dedi ki, məlum məsələdir, sənin başına gələnlərdə inamsızlığa heç yer qalmır, indi gərək bu möcüzəyə görə əbədi minnətdar olasan ona.

O isə cavab verdi ki, onu həyata qaytardığı üçün, daha ölülər səltənətində olmadığı üçün hər gün ona minnətdarlığını ifadə eləyir.

– Ölülər səltənəti? – Varavva dilləndi və özü də hiss elədi ki, bu sözləri deyərkən səsi necə titrədi. – Ölülər səltənəti?.. Necədir ora? Sən ki orada olmusan! Danış!

– Necədir? – deyə dilləndi və Varavvanın üzünə sual dolu bir nəzərlə baxdı. Sualın mahiyyətini anlamadığı baxışlarından sezilirdi.

– Hə! Nə vardı orada? Hansı hisslər keçirirdin?

– Heç nə duymadım, – o çox könülsüz cavab verirdi, sanki, Varavvanın israrından narazı idi. – Mən ölmüşdüm. Ölüm isə heç nədir.

– Heç nə?

– Hə. Heç nədən başqa nə olmalıdır ki?

Varavva gözlərini çəkmədən onun üzünə baxırdı.

– Deməli, sən istəyirsən ki, mən sənə ölülər səltənətindən danışım? Mən onun barəsində heç bir şey danışa bilmərəm. Ölülər səltənəti bir heçdir. O var, amma eyni zamanda, bir heçdir.

Varavva yalnız gözünü çəkmədən baxırdı və kişinin boşluq, heçlik ifadə eləyən sifəti qorxudurdu onu, lakin gözlərini də heç cür çəkə bilmirdi.

– Hə, – ifadəsiz, boş nəzərləri Varavvanın yanından ötdü, – ölülər səltənəti boşluqdur, heç nədir. Amma orada olmuş adam üçün elə qalan şeylər də heç nədir. Qəribədir ki, sən bununla maraqlanırsan, başqaları heç bu barədə soruşmurdular.

Sonra o danışdı ki, Yerusəlimdəki qardaşlar bura tez-tez adamlar göndərirlər, o da danışaraq imana gətirir onları, çoxları buradan gedəndə ona söz verirlər. O, Müəlliminə bu yolla xidmət göstərirdi və onu həyata qaytarması müqabilində heç vaxt qarşılığını vermək mümkün olmayan bir borcun altından belə çıxmağa çalışırdı. Həmin bu oğlan, ya da bir başqası, az qala, hər gün bura kimisə gətirirdi, o da dirilməsindən danışıb şahidlik edirdi. Amma ölülər səltənətindən heç danışmamışdı. Heç kim, heç vaxt ölülər səltənəti barədə soruşmamışdı ondan.

Otağa qaranlıq dolmağa başladı. O, ayağa qalxıb, alçaq tavandan sallanan çıraqdakı yağı alışdırdı. Sonra da çörəklə duz gətirdi, çörəkdən bir tikəni ikiyə bölüb yarısını Varavvaya uzatdı, özününkünü isə duza batıraraq, ağzına qoydu. Varavva da həmin hərəkəti elədi, hərçənd ki, əli möhkəm əsirdi. Bax, beləcə, çırağın sönük işığında dinməzcə çörəklərini yedilər.

Bu adam Varavva ilə məhəbbət axşamı keçirməkdən iyrənmədi! Dulusçular döngəsindəki qardaşların tayı deyildi! O, insanlar arasında heç bir fərq qoymurdu! Lakin qupquru,

sarı barmaqlar paralanmış çörəyi uzadanda və Varavva da yeyəsi olanda, ona elə gəldi ki, ölmüş adamın ətini çeynəyir.

Niyə axı, niyə Varavvayla çörək kəsirdi o? Bu axşam öz bətnində hansı sirləri gizləyirdi?

Hər şey bitəndən sonra, ev sahibi Varavvanı qapıya kimi ötürərək sağollaşdı. Varavva da cavabında nəsə mızıldandı və cəld qaranlığa addımladı. O, şəhərə tərəf iri addımlarla, enişaşağı gedirdi, yaxasından əl çəkməyən fikirləri isə beynində yaman qarışıqlıq salırdı.

Gonbulça Varavvanın həmin axşam onu necə ehtirasla basmarlamasına təəccüb qaldı; həmin axşam o lap od-alov idi. Qadın bunun səbəbini anlaya bilmirdi, amma bu gün ona, həqiqətən, təsəlli vermək, ovundurmaq lazım idi. Ondan başqa, Varavvanı kim ovunduracaqdı ki? Qadın xəyala dalmışdı, fikirlərində yenə cavan idi və kimsə bərk sevirdi onu.

Ertəsi gün çalışdı ki, aşağı şəhərdən, Dulusçular döngəsindən uzaq gəzsin, amma onlardan biri Varavvanı Solomon sütunlarının altında gördü və elə o dəqiqə də axşamkı görüşlərinin necə keçdiyi ilə maraqlandı. Necə oldu, sənə yalan söyləmirdik ki? Cavab verdi ki, bəli, həmin şəxs ölübmüş, sonra təzədən dirilib, buna heç bir şübhə ola bilməz. O ki qaldı şəxsən Varavvanın özünə, özü heç cür anlamır ki, onu təzədən diriltmək Müəllimin nəyinə lazım idi. Dulusçu lap yerində donub qaldı, Tanrılarına belə bir təhqirdən sonra sifəti bomboz bozarmışdı, lakin Varavva artıq tamam başqa səmtə baxırdı, ona isə yalnız çıxıb getmək qalırdı.

Görünür, bu söhbətin sorağı təkcə Dulusçular döngəsinə deyil, həm də nehrəçilərə, dəriçilərə, toxuculara və bütün başqa məhəllələrə də yayılmışdı, çünki Varavva bir də həmin yerlərə gələndə həmişə söhbətləşdiyi möminlərin indi ona tamam başqa münasibətdə olduğunu aşkar görürdü. Dinmirdilər, amma ona çəpəki, şübhəli nəzərlərlə baxırdılar. Düzdür, heç qabaqlar da elə yaxın yoldaşlıqları yox idi, amma indi ona aşkar inamsızlıq nümayiş elətdirirdilər. Varavvanın

qətiyyən tanımadığı, qupquru taqqanağa dönmüş bir qoca isə onun üstünə yeriyib başladı sorğu-suala ki, bura niyə gəlirsən, nə lazımdır sənə, səni saray gözətçiləri göndərib, yoxsa baş kahinin, saddukeyanın cangüdənləri? Varavva heç bir cavab verə bilmədi ona, eləcə bu keçəl qocaya baxa-baxa qaldı, onun keçəl başı isə hikkəsindən qıpqırmızı olmuşdu. Varavva onu heç tanımırdı da, kimliyindən də xəbəri yox idi, yalnız qulağındakı deşiklərə taxdığı göy, qırmızı saplardan bildi ki, boyaqçıdır.

Varavva başa düşdü ki, onlar bərk inciyiblər və ona münasibətləri tamam dəyişib. Bütün sifətlərdə o artıq soyuqluq, düşmənçilik sezirdi, bəziləri isə onu baxışlarıyla, az qala, deşir, ifşa etmək istədiklərini aydın göstərirdilər. Varavva isə özünü elə göstərirdi ki, guya, heç nə başa düşmür.

Nəhayət ki, baş verdi. Bu xəbər möminlər yaşayan bütün döngələri meşə yanğını kimi öz ağuşuna aldı və bircə nəfər də qalmadı ki, onu eşitməmiş ola: bu, odur! O! Müəllimin yerinə buraxılan! Xilaskarın, Tanrı Oğlunun yerinə! Bu, Varavvadır! Varavvadır buraxılan!

Onu hər yerdə acı baxışlar müşayiət edirdi, gözlər nifrətdən alışıb-yanırdı. Bu tufan heç onların yanından ayağını kəsəndən sonra da səngimədi.

– Varavva – buraxılan! Varavva – buraxılan!

Sonra o, özünə qapandı, daha heç kəslə görüşmürdü. Heç bir yana çıxırdı ki... Elə Gonbulçanın evində, ya pərdə arxasında, ya da ki evdə bərk səs-küy olanda yuxarıdakı talvarda uzanıb qalırdı. Bütün günləri eyni minvalla keçirdi, əlini ağdan-qaraya vurmadan. Hətta yemək yeməyi də unudurdu; əgər qabağına qoymasaydılar, zorla məcbur eləməsəydilər, elə ac qalardı. Ətrafındakı heç nəyi görmür, heç bir şeyə məhəl qoymurdu.

Gonbulça başını çatladırdı, nə olub görəsən ona, heç nə anlamırdı. Soruşmağa da qorxurdu. Axırda ondan əl çəkdi,

qoy necə istəyir, elə də yaşasın özüyçün. Bir söz deyəndə də, onsuz da, cavab vermirdi. Hər dəfə pərdənin dalına boylananda görürdün ki, uzanıb tavana baxır. Gonbulça lap beynini çatladırdı. Yoxsa başına hava gəlib? Sərsəmləyib? Yox, qadın heç nə anlamırdı.

Hər şey birdən çatdı ona. Camaatdan eşitdi ki, Varavva daim həmin o çarmıxa çəkilən zavallıya inanan ağıldankəmlərlə söhbət eləyirmiş! Bax, onda başa düşdü hər şeyi! Məlum məsələdir, ona görə bu günə düşüb də! Artıq hər şey aydındır! Başını xarab eləyiblər! Beynini cəfəngiyatla doldurublar! Bu ağıldankəmlərlə oturub-duran dəli olar da! Onlar inanırdılar ki, həmin o çarmıxa çəkilən ya xilaskar, ya da ona bənzər bir şeydir, guya, yardım edəcək onlara, nə istəsələr verəcək, sonra da Yerusəlimdə çar olacaq, bu saqqalsız əclafların da hamısını qovacaq buradan, onun barəsində daha nələr demirdilər ki, özü heç düz-əməlli bilmirdi, nəyə inandıqlarından, nə öyrətdiklərindən xəbərdar deyildi heç, əslində, bilmək də istəmirdi, amma onların sərsəm olmaqları hamıya bəlli idi. İlahi pərvərdigara, axı onun nə işi vardı bunların yanında? Nəyinə lazım idi? Hə də! İndi daha hər şey aydındır! Onun özünü çarmıxa çəkmək istəyirdilər, sonra da fikirlərini dəyişdilər, əvəzində onların xilaskarını çəkdilər çarmıxa, o da yazıq, yəqin, başlayıb onlara izah eləməyə ki, bəs məsələ belə olub, bu işdə onun heç bir günahı yoxdur, onlar da başlayıblar öz bildiklərini danışmağa ki, həmin o çarmıxa çəkilən necə gözəl insan imiş qətiyyən də, heç bir günahı-zadı yox imiş, həm də, guya, çox böyük adam imiş, az qala, çar imiş və onunla, onların Tanrısı ilə belə rəftar eləmək heç cür olmazmış, nə bilim, belə-belə sözlərdən deyib, Varavva yazığın beynini doldurublar da, onun da başı havalanıb ki, bəs niyə onda ölmədim, niyə mən ölmədim. Məlumdur, məlum məsələdir necə baş verib bu! Hə də, onu çarmıxa çəkmədiklərinə görədir hər şey! Lap axmaq imiş ki bu! Ay Varavva, adamın gülməyi tutur! Qarnın cırılar! Hər şey məlumdur, hər şey buna görə baş verib!

Yaxşı, daha bəs deyil məgər? Bir ağlını işlətsin də. Bir əməlli-başlı söhbət eləyə bilsəydi onunla... Nə olub axı? Nə hadisə baş verib?

Lakin qadın onunla söhbət eləyə bilmədi. İstəyirdi, amma alınmadı. Varavva heç özü barədə danışar ki? Yox, belə bir söhbətlə ona yaxınlaşa bilməzsən. Odur ki hər şey necə vardı, eləcə də qaldı, qadın da onun başına fırlanıb fərziyyələrini yürüdürdü özü üçün. Bəlkə, xəstələnmişdi? Həqiqətən, bəlkə, elə xəstə idi? Yaman arıqlamışdı, onun avazımış, arıq sifətinə bircə Eliaxunun bıçağından yadigar qalan çapıq çəhrayı çalar verirdi. Yazıq heç özünə oxşamırdı. Elə, həqiqətən də, heç nəyi daha özünə oxşamırdı. İşsiz-gücsüz avaraçılıq eləmək, uzanıb tavana baxmaq! Bu, Varavvadır yəni? Varavva kimi bir kişi! Bəlkə, onu dəyişiblər? Bəlkə, bu heç onun özü deyil, kiminsə ruhu girib bədəninə? Yəqin, elədir ki, var! O birisinin ruhudur? Həmin o çarmıxa çəkilənin? Təbii ki, o, Varavvanın yaxşılığını istəməz. Bəlkə, elə həmin o "xilaskarın" ruhu ağzından çıxanda Varavvanın nəfəsinə üfürülüb ki, ölməsin, ona verilən əzabların qisasını çıxa bilsin, azadlığa buraxılandan intiqamını alsın? Belə də ola bilər axı! Əgər dərindən fikirləşsən, görərsən ki, Varavva elə həmin gündən qəribələşib, hər şeyi yaxşı yadında saxlamışdı, buraxılan kimi yanına hansı vəziyyətdə gəlməsini gözəl xatırlayırdı. Hə, görünür, hər şey elə məhz bu cür baş vermişdi. Amma bir məsələni anlamaq çətin idi, həmin bu ravvı öz ruhunu Varavvanın vücuduna necə üfürə bilmişdi, axı o, Qolqofada canını tapşırırdı, Varavva isə heç orada deyildi. Amma camaatın danışdıqları kimi güclüydüsə, onun üçün nə vardı gözəgörünməz olub istədiyi yerə getməyə. Özünün qeyri-adi gücü ilə, yəqin, nəyə desən, qadir idi.

Maraqlıdır, görəsən, Varavva özü bilir başına gələnləri? Bilir ki bədəninə başqasının ruhu girib? Xəbəri var ki, əslində, özü ölüb, vücudunda həmin o çarmıxa çəkilən yaşayır? Bilir, yoxsa yox?

Bəlkə də, özünün heç ağlına gəlmir, amma nə dəxli var, vəziyyətinə kənardan baxanda hər şey aydın görünür. Məlum məsələdir: yad ruh elə yad ruhdur da, Varavvanın yaxşılığını istəməyəcək ki...

Qadının ona yazığı gəlirdi, halına o dərəcədə acıyırdı ki, heç üzünə də baxa bilmirdi. Heç Varavva da onun səmtinə baxmırdı, amma ona görə ki, sadəcə, baxmaq istəmirdi. Daha lazım deyildi ona, heç lazım deyildi, odur ki baxmırdı da. Heç gecələr də istəmirdi onu – hər şeydən pisi də elə bu idi. O isə sarsaq kimi yapışmışdı bu zavallıya, qopmaq bilmirdi. Qadın gecələr yerinin içində uzanıb ağlayırdı, daha ləzzət alası, şirin bir şey qalmamışdı aralarında. Qəribədir... Heç ağlına gəlməzdi ki, başına nə vaxtsa belə bir oyun gələr.

Necə cəlb eləsin onu təzədən? Çarmıxa çəkiləni necə qovsun onun canından, Varavvanı necə qaytarsın əvvəlki vəziyyətinə? Yad ruhları necə qovmaq lazım olduğu haqda təsəvvürü yox idi. Bu barədə heç bir şey bilmirdi, üstəlik, bu ruh da təhlükəli, güclü idi, o dəqiqə hiss olunurdu gücü, özünü ağciyər saya bilməzdi, amma yenə qorxurdu. Həmin ruhun gücü elə Varavvaya baxan kimi görünürdü, bir az əvvəl sağ-salamat olan onun kimi cavan, qüvvətli bir oğlanı sıxıb yumağa döndərmişdi ruh. Gücə bax e! Beləsindən qorxarsan da. Məlumdur, adi adamın yox, çarmıxa çəkilənin ruhudur axı, gücü də qeyri-adi olacaq.

Əlbəttə, demək olmazdı ki, qadın ondan lap çox çəkinirdi. Amma nəyinə lazım idi çarmıxda ölən birisiylə çəkişmək? Çox sağ olun, amma ona gərək deyil, istəmir. Şikayətlənmək günahdır: onun iri, dolu bədəni vardı və Varavva ona çox uyğun gəlirdi. Amma əsl Varavva. "Gərək çarmıxa məni çəkəydilər" – fikri beyninə girənəcən necəydisə, bax, qadına həmin Varavva uyğun gəlirdi. Amma qadın sevgilisinin çarmıxdan canını qurtarmağına, azadlığa buraxılmağına uşaq kimi sevinmişdi.

Gonbulça öz tənhalığının ağuşunda belə düşünürdü. Amma sonra birdən fikirləşdi ki, Varavvanı, əslində, heç

tanımır. Bilmir ki, onun başına nələr gəlib, çarmıxa çəkilənin ruhu vücuduna girib, yoxsa yox... Heç nədən xəbəri yoxdur. Bircə onu bilir ki, artıq ona gərək deyil, özü isə, tərs kimi, vurulmuşdu ona. Bu barədə fikirləşən kimi qəhərləndi və anladı ki, lap bədbəxtlərin bədbəxtidir.

Varavva qadının yanında yaşadığı müddətdə şəhərə cəmi bir neçə dəfə baş çəkmişdi. Bir dəfə isə başına görün nə gəlmişdi.

Gedib bir evə çıxmışdı – alçaq tavanlı, işığı ancaq damdan düşən, kəskin dəri, turşu iyi gələn bir ev idi, görünür, dəri aşılanırmış burada, hərçənd ki, Dəriçilər küçəsində də deyildi, təpənin ətəyində, məbəddən Kedron vadisinə enən küçədə idi. Burada, yəqin, əvvəllər məbəddə qurban kəsilən heyvanların dərisini aşılayırdılar, indi isə, görünür, daha işləmirdi, divarların dibindəki təknələr, çənlər boş idi, amma iyi-qoxusu hələ də dururdu. Döşəmənin üstü çır-çırpı, zirzibillə dolu idi.

Varavva sivişib içəri keçdi və düz giriş qapısı yanındakı küncdə yerləşdi. Elə oradaca çömbəlib ibadətə gələnlərin doluşduğu otağa göz gəzdirdi. Onların çoxunu görə bilmirdi, yalnız damdan üzünə işıq şüaları düşənləri seçmək olurdu; amma, yəqin ki, otağın hər yerində ibadətlə məşğul idilər, lap qaranlıq künclərdə də dua oxuyanlar vardı – eşidirdi. Hərdən otağın müxtəlif yerlərindən səslər ucalır, ucalırdı, sonra da yavaşıyıb ümumi uğultunun içində əriyirdi. Hərdən də hamısı bir yerdə səslərini ucaldaraq vəcdə gəlirdi və kimsə dizi üstündən qalxıb başlayırdı dirilmiş Xilaskardan danışaraq şahidlik etməyə. Qalanları isə elə o dəqiqə susaraq üzlərini danışana çevirirdilər, sanki, ondan güc almaq istəyirdilər. Nitq bitən kimi də əvvəlkindən də böyük səylə dualarına davam edirdilər. Şahidlərin üzlərini Varavva görə bilmirdi və yalnız bir dəfə, yanındakı adam ayağa duranda Varavva gördü ki, onun üzünü lap tər basıb. Adama elə gəlirdi ki, o, dünyada hər şeyi unutmuşdu, batıq yanaqlarından tər damcıları

yuvarlanırdı. Xeyli yaşı olardı. O danışdı, danışdı, sonra da birdən torpaq doşəmədə təzim elədi, alnı lap yerə dəyənə kimi, dua edən bütün adamların həmişə elədiyi bir hərəkət. Elə bil, lap indicə yadına düşmüşdü ki, bayaqdan haqqında danışılan adamdan başqa, bir Tanrıları da var axı...

Bunun ardınca otağın uzaq küncündən Varavvaya tanış gələn bir səs ucaldı. Həmin səmtə baxanda damdan düşən işığın şüaları altında Qalileyadan olan həmin o kürənsaqqal nəhəngi gördü. O, hər bir yerusəlimliyə gülməli gələn Qalileya ləhcəsində, bayaqkıların hamısından sakit danışırdı. Amma buna baxmayaraq, onu qalanlarından daha diqqətlə dinləyir, hər sözünü udurdular, elə bil – hərçənd ki, qeyri-adi bir söz də demirdi. Əvvəlcə, bir az özünün "qiymətli" Müəllimindən dəm vurdu, elə beləcə də adlandırırdı onu – "qiymətli". Sonra Müəllimin "mənə inananların hamısını bircə adıma görə hər yerdən qovacaq, qınayacaqlar" dediyini xatırlatdı. Hamımız əzablarımıza dözməliyik və yaddan çıxarmamalıyıq ki, Müəllimimiz nələrə dözürdü. Əlbəttə, buradakıların hamısı adi, zəif, yazıq adamlar idi, ona tay deyildi, lakin çalışmalıdır ki, qarşıdakı sınaqlardan üzüağ çıxsın, ondan üz çevirməsin, inanclarından imtina etməsin. Bundan başqa bir söz demədi. Sanki özünə danışırdı, camaata yox. O, sözünü bitirəndə, otaqdakılar, elə bil, bir az narahat oldular. Yəqin, bunu hiss elədi və dedi ki, indi onlar üçün Müəllimin özündən öyrəndiyi bir duanı oxuyacaq. Eləcə də elədi, duasını oxuduğu müddətdə dinləyənlər yaman məmnun görünürdülər, bəziləri lap hissiyyata qapılmışdı. Hamısı bir qəribə heyranlıq içində idi. Budur, o, duasını bitirdi və Varavvanın yaxınlığında dayananlar üzlərini ona tərəf elə bir ifadə ilə çevirdilər ki, elə bil, indicə basıb öpəcəkdilər və bu yerdə onları da tanıdı – ona "Rədd ol burdan, kafər!" çığıraraq qovanlar idi.

Sonra daha iki nəfər də şahidlik elədi, elə duygulandılar ki, vəcdə gəlib, özlərini tamam itirərək, oyan-buyana yellənməyə başladılar. Varavva küncdən iti gözləriylə izləyirdi onları.

Birdən diksindi. Tavandan düşən şüalardan birinin altında Dovşandodaq sataşdı gözünə, əllərini arıq sinəsinə sıxıb bənizi ağarmış üzünü işığa sarı çevirərək durmuşdu. Tabutun yanında ayrıldıqdan sonra onu görməmişdi, bir az arıqlamışdı, yazıq görkəmi vardı, aclıqdan yanaqları batmışdı, əynindəki cırcındır isə bədənini zorla örtürdü. Onu hamı təəccüblə nəzərdən keçirirdi, hiss olunurdu ki, burada onu bir kimsə tanımır. Bu qız onlara qəribə gəlirdi, hərçənd ki, səbəbi bəlli deyildi – bəlkə, elə əynindəki cındırlara görəydi – və onlar təəccüb içində durub onun nə deyəcəyini gözləyirdilər.

O, niyə şahidliyə burnunu soxurdu? Neyləmək istəyirdi? Varavvanın heyrətdən nəfəsi içində donmuşdu. Yəni başa düşmür ki, bu iş əsla onluq deyil? Bu məsələlərin şəxsən özünə heç bir dəxli olmasa da, qıza yaman hirslənmişdi Varavva. Nəyinə lazım idi bu şahidlik?

Görünürdü ki, göstərdiyi cürətdən heç özü də şad deyildi: gözlərini yummuşdu, sanki, ətrafdakı adamların heç birini görmək istəmirdi və yeganə arzusu bütün bunların tez başa çatması idi. Yaxşı, onda bəs nəyinə lazım idi? Onu ki məcbur eləyən yox idi!

Və budur, başladı. Tanrıya və Xilaskara inamından dəm vurdu – tın-tın danışa-danışa, amma, deyəsən, dedikləri heç kəsi duyğulandırmadı. Əksinə. Həmişəkindən də anlaşılmaz idi nitqi, çünki bu qədər adamın eyni zamanda onu dinləməsinə adət eləməmişdi və təbii ki, sıxılırdı. Dinləyicilər isə emosiyalarını aşkar nümayiş etdirir, bilmirdilər ki, xəcalətdən gözlərini necə gizlətsinlər, bəziləri isə sadəcə, üzünü yana çevirirdi ondan. Nəhayət ki, “İlahi, sənin barəndə şahidlik elədim, necə ki özün əmr etmişdin” deyə mızıldanıb susdu və yenə büzüşüb yerində oturdu – çalışırdı özünə diqqəti cəlb eləməsin.

Camaat xəcalət içində bir-birinə baxırdı. Sanki, qız lağa qoymuşdu onları. Bəlkə, elə həqiqət budur! Bəlkə, elə düzü belədir! Elə bil, hamı istəyirdi ki, tezliklə dağılışıb getsin. Əsas simalardan – ona “Rədd ol, kafər!” deyənlərdən biri

ayağa qalxıb elan etdi ki, ayrılmaq vaxtıdır. Sonra da əlavə elədi ki, nədən şəhərdə deyil, burada toplaşdıqları hamıya aydın olmalıdır, gələn dəfə isə tamam başqa yerdə yığışacaqlar və harada yığışacaqları hələ məlum deyil. Amma Tanrıları, yəqin ki, dünyanın şərindən uzaq bir sığınacaq tapacaq onlar üçün və öz sürüsünü başlı-başına qoymayacaq, axı mehriban çobanıdır onların və...

Varavva daha ardına qulaq asmadı. O, bayıra başqalarından əvvəl çıxaraq, bu adamlardan tez uzaqlaşmağa çalışdı.

İyrənc idi.

Təqiblər başlayanda kor qoca həmişə boğulan həmin oğlanın əlindən yapışıb sinedrionda bu işə baxanların yanına gedərək dedi:

– Peyin darvazalarının yanında bir qız xilaskardan dəm vurur, deyir ki, guya, yer üzünə enib bütün dünyanı dəyişəcək. Guya, indi nə varsa hamısı məhv olacaq, yeni, daha yaxşı həyat başlanacaq və bu həyatda, guya, ancaq onun iradəsi yerinə yetiriləcək. Bu qızı da daşqalaq etmək lazımdırmı?

Öz işlərində ehtiyatlı olan təqibçi kordan xahiş elədi ki, eşitdiklərini bir az müfəssəl danışsın. Onun ittihamı konkret nəyə əsaslanır? Hər şeydən öncə də bu xilaskarın kimliyi barədə bildiklərini söyləsin. Kor cavab verdi ki, söhbət inancına görə adamlarını daşqalaq elədikləri həmin o xilaskardan gedir. Ədalət naminə bu qızı da daşqalaq eləmək gərəkdir. Qızın dediklərini öz qulaqlarıyla eşidib, deyirdi ki, onun Tanrısı hamıya nicat verəcək, hətta cüzamlılara da. Yəni sağaldacaq onları, onlar da başqaları kimi olacaqlar. Görün nə alınır: cüzamlılar da ürəkləri istəyən yerdə, yəqin ki, zınqırovsuz gəzib dolaşacaqlar, gəl seç görüm kim xəstədir, kim yox, ələlxüsus da əgər korsansa. Heç camaat arasında da belə söhbətlər yaymaq olar?

Kor şura üzvünün saqqalını necə qaşıdığını, sonra da sualını eşitdi ki, bəs oralarda qadının bu vədlərinə heç inanan varmı?

– Əlbəttə, olur, – cavab verdi, – Peyin darvazalarındakı sürü nəyə desən, inanar. O ki qaldı cüzamlılara, onlar hamıdan çox sevinirlər. O qız cüzamlılarla yaxınlıq eləyir, deyirlər ki, bu abırsız dəfələrlə onların yanına, çəpər dalına keçib, bilmirəm nə edirmiş orada. Bəlkə, elə sevişir onlarla, kim bilir? Mən özüm dəqiq bilmirəm. Amma eşitmişəm ki, heç bakirə də deyil. Deyirlər, körpəsini də öldürüb. Dəqiqini bilmirəm. Ancaq adamlar nə danışırsa, ondan xəbərim olur. Mənim gözlərim yoxdur, koram, qulaqlarım ki, yerindədir. Kor olmaq böyük bəladır, cənab. Mənim kimi kor olmaq dəhşətdir.

Şura üzvü soruşdu ki, o qız həmin o “xilaskar” dediyinə – əslində, ona “çarmıxa çəkilən” desək, daha düzgün olar – çoxmu davamçı toplayıb?

– Hə, çoxdurlar. Hamı nicat tapmaq istəyir, guya, o da gəlib hamını sağaldasıdır: şikəstləri də, dəliləri də, korları da. Guya ki, yer üzündə dərd qalmayasıdı, nə Peyin darvazalarının yanında, nə bir başqa yerdə. Lakin artıq başlayıblar ondan inciməyə, gözləyirlər, gəlib çıxmaq bilmir. Gələcəyini çoxdan vəd eləmişdi, amma yoxdur ki, yoxdur, gözləməkdən beziblər, qızı ələ salırlar, söyürlər onu, belə də olmalıydı da, gecələr ah-uf eləyib camaatın yuxusunu pozanda yaxşı idi? Cüzamlıların bəziləri hələ də ümidlidirlər, gör nə qədər vədlər verib onlara, üz çevirmək asandır məgər? Deyib ki, guya, onları məbədə də buraxacaqlar, Tanrının evinə də girəcəklər.

– Cüzamlılar?!

– Hə.

– Belə sayıqlamaları necə dilinə gətirə bilir?

– Özü demir ki, bunları, bu vədləri onun Tanrısı verir, o isə güclüdür, nə desən, vəd eləyə bilər, nəyi istəsə, dəyişər. Hər şeyin hökmdarı odur, çünki Tanrı Oğludur.

– Tanrı oğlu?

– Hə.

– Tanrı oğlu? Elə beləcə də deyir?

– Hə, bəyəm kafirlik deyil bu? Axı hamı bilir: onu çarmıxa çəkiblər, vəssalam. Onu mühakimə eləyib cəzalandıranların məgər ağlı yoxdur, nə elədiklərini bilmirlər?

– Mən də onu mühakimə eləyənlər arasında idim.

– Deməli, kimin kim olduğunu özün məndən də yaxşı bilərsən.

Bir müddət ortaya sükut çökdü və kor yalnız zülmət içində olan bu adamın öz saqqalını necə qaşımasını eşidirdi. Sonra isə səs dedi ki, bu qadını məhkəməyə cəlb etmək lazımdır, qoy gəlib öz inancına görə cavab versin, əgər bacarsa, lap müdafiə eləsin özünü. Qoca da ona təşəkkürünü bildirdi, müti bir tərzdə təzim eləyə-eləyə dal-dalı gedərək, əllərini divarlara sürtüb bayaq girdiyi qapını tapmağa cəhd göstərdi. Şura üzvü ona kömək etmək üçün nökəri səslədi, o gəlib çıxana kimi isə qayda-qanun naminə qocadan soruşdu ki, həmin o qadına qarşı ürəyində bir kini yoxdur ki?

– Ona qarşı kin? Nəyə görə? Mən, ümumiyyətlə, insanlara qarşı qətiyyən kinli deyiləm. Niyə kinli olum ki? Mən heç onları görməmişəm də. Heç birisini görməmişəm.

Nökər onu küçəyə çıxardı, qapının ağzında isə həmin o həmişə nəfəsi çatmayan yeniyetmə gözləyirdi, kor onun əlindən möhkəm yapışdı və yola düzəldilər.

Dovşandodağı ittiham edib, məhkumların daşqalaq olunduğu çalanın kənarına gətirdilər. Çala şəhərdən cənubda yerləşirdi. Onların dalınca qara-qışqırıq salan kütlə və saray gözətçilərinin rəislərindən biri öz başının dəstəsi ilə gəlirdi; gözətçilər qurşağa kimi lüt idilər, saqqalları, saçları hörülmüşdü, əllərində isə camış dərisindən dəmir ucluqlu qamçılar vardı – onlar asayişə nəzarət eləyirdilər. Mənzilbaşına çatanda qızışmış kütlə çalanın ətrafına toplaşdı, gözətçilərdən biri isə qızı aşağı apardı. Çalanın içi daşla dolu idi, lap dibində isə köhnə qan ləkələrindən qapqara olanları da vardı.

Gözətçilərin rəisi əmr elədi ki, hamı sussun və baş kahinin carçısı hökmü, onu doğuran səbəbləri elan etdi, əlavə

olaraq dedi ki, ilk daşı bu qadını ittiham etmiş şəxsin özü atmalıdır. Sonra koru çalanın kənarına gətirib nə etmək lazım olduğunu başa saldılar. O isə heç qulaq asmaq belə istəmirdi.

– Mən niyə daş atmalıyam ona? Mənim nə işim var onunla? Mən heç onun üzünü də görməmişəm!

Amma, nəhayət, ona anladanda ki bəs qayda-qanun belədir və bundan heç bir vəchlə yaxasını kənara çəkə bilməyəcək, o qaşqabağını töküb dedi:

– Yaxşı, qoy olsun.

Əlinə bir daş verdilər və o, daşı zülmətə atdı. Sonra bir də cəhd elədi – yenə bir şey çıxmadı, axı heç təsəvvürü də yox idi ki, hədəf haradadır, daşları sadəcə zülmətə tolazlayırdı, zülmət isə elə hər tərəfdə eyni idi. Yaxınlığında dayanmış Varavva bayaqdan çalanın dibindəki qızdan gözünü çəkmirdi, indi də bir nəfərin qocanın köməyinə gəldiyini gördü. Bu adamın çox sərt, yaşlı üzü vardı, alnından isə gön kisəciklərin içində müqəddəs vəsiyyətlər asılmışdı. Yəqin, kitab əhli idi. O, korun əlini hədəfə doğru yönəltdi ki, edam prosesi davam etsin. Amma bu dəfə də alınmadı. Daşlar yan keçirdi. Cəzaya məhkum edilən aşağıda, gözlərini geniş açıb durmuşdu, nə baş verəcəyini gözləyirdi.

Mömin kişi axırda lap hövsələdən çıxdı, əyilib yerdən yekə, iti bir daş götürdü, sinninin ona verdiyi imkan çərçivəsində var gücüylə qıza tərəf atdı. Və çox dəqiq atdı, qız arıq qollarını çarəsiz bir tərzdə havada oynadıb səntirlədi. Kütlə vəcdə gələrək hayqırdı, mömin qoca isə qabağa əyilib özündənrazı bir görkəmlə əməlinin nəticəsini süzürdü. Varavva ona tərəf kiçicik bir addım atıb əynindəki əbanı azca qaldıraraq bacarıqla, adətkarcəsinə əliylə bıçağını dəstəsinə kimi qocanın bədəninə sapladı. Hər şey o qədər ani baş verdi ki, heç kəs bir şey duya bilmədi. Hamının başı qarışıq idi: kütlə nişan alıb, daş atırdı.

Varavva sivişib oradan aralandı, Dovşandodağın aşağıda səntirləyə-səntirləyə bir az qabağa yeridiyini və əllərini irəli uzadıb ucadan qışqırdığını gördü:

– O gəldi! Gəldi!.. Görürəm! Onu görürəm! – Sonra qız dizləri üstə çökdü, sanki, kiminsə ətəklərindən bərk-bərk tutmuşdu və dedi: – Pərvərdigara, mən axı necə şahidlik edim sənə? Bağışla məni, İlahi. Bagışla və günahlarımdan keç...

Dedi və qanlı daşların üstünə yıxılıb, canını tapşırdı.

Hər şey qurtarandan sonra, yaxınlıqda dayananlar gördülər ki, ortada bir nəfərin meyiti qalıb, başqa birisi isə üzümlüklərin içi ilə qaçaraq Kedron vadisinə kimi uzanan zeytunluqda gözdən itdi. Gözətçilər onun dalınca yüyürdülər, axtardılar, amma tapa bilmədilər. Elə bil, yer udmuşdu onu.

Gecə düşəndə Varavva çalanın yanına qayıtdı, içinə endi. Qaranlıqda heç nə görmürdü, fəhmlə irəliləyirdi. Çalanın lap dibində qızın parça-parça olmuş bədənini tapdı, az qala, tamam daşların altında idi; axı öləndən sonra da onu hələ xeyli müddət daşlamışdılar. Elə balaca, elə yüngül idi ki, onu çaladan çıxarıb zülmətə aparanda qollarına qətiyyən ağırlıq eləmirdi.

Neçə saat idi ki, Varavva qucağında aparırdı onu. Hərdən zülmətin ağuşunda nəfəsini dərmək üçün dayananda cəsədi yanında uzadırdı. Bir azdan səmanı sarmış buludlar dağıldı, göylər ulduzlandı, dalınca ay da çıxdı, hər tərəf görünməyə başladı. O oturub qızın üzünə baxırdı, qəribə idi, onun sifətinə, demək olar ki, zədə dəyməmişdi. Heç rəngi də sağlığında olandan artıq solğun deyildi, daha ondan çox ağarmayacaqdı ki. Lap şəffaf idi, sanki. Ust dodağındakı çapıq tamam solub görünməz olmuşdu, heç olub-olmadığı bəlli deyildi. Amma daha bunun nə əhəmiyyəti vardı ki...

Qıza, guya, onu sevdiyini deməsi yadına düşdü. Bir də ki onunla olması... – yox, bu barədə heç fikirləşməsə yaxşıdır... Bu “sevirəm” sözünü ona görə demişdi ki, heç kəsə xəbərləməsin, sözünə baxsın; amma bu sözləri eşidəndə qızın sifəti birdən-birə necə də işıqlanmışdı!..

O heç vaxt bu cür sözlər eşitməmişdi... O zaman, az qala, xoşbəxt eləmişdi qızı, amma dediklərinin yalan olması da, yəqin ki, ağlına gəlməmiş deyildi. Kim bilir, bəlkə də, heç

gəlməmişdi? Hər halda, onda öz istədiyinə çatmışdı – qız hər gün həvəslə onun yanına qaçır, yemək gətirirdi – gətirdikləri ölməmək üçün bəsiydi, – özü də onun böyründə uzanırdı. O isə qızla hətta ehtiyac duyduğundan da tez-tez olurdu, çünki böyür-başında başqa bir qadın yox idi və qızın tın-tın danışığından zinhara gələrək ürəyi bulansa da, onunla olmağa məcburdu; ayrı əlac yox idi. Sadəcə, bərk-bərk tapşırırdı ki, az danışsın. Təbii ki, ayağı sağalan kimi oradan çıxıb getmişdi. Getməyə bilməzdi – başqa necə olmalıydı ki?!

O, qarşısında göz işlədikcə uzanan, boş, tərk edilmiş səhraya – ayın ölü işığı altındakı ölü səhraya baxdı. Hansı səmtə üz tutsaydın, bu səhra elə beləydi; bunu yaxşı bilirdi. O, səhranı yaxşı tanıyırdı, heç baxmadan da onu bir tam şəklində görürdü.

"Bir-birinizi sevin"...

Qızın üzünə bir də diqqətlə nəzər saldı və sonra onun cəsədini qaldırıb yenə üzü dağlara apardı.

O, İudeya səhrasını dəvə, qoyun cığırıyla Moavit torpaqları istiqamətində keçirdi. Cığır, demək olar ki, tamamilə görünməz idi, lakin istiqamətini heyvan peyinləri, çaqqalların gəmirib ağartdıqları sür-sümük nişan verirdi. Gecənin tən yarısına kimi beləcə irəlilədi, budur, cığır üzüenişə idi və o bilirdi ki, artıq mənzilbaşına lap yaxınlaşır. Dar sıldırımlardan ötüb, daha boş, daha kimsəsiz görünən, sanki, tamam başqa bir səhraya qədəm basdı. Cığır burada da davam eləyirdi, amma Varavva dincəlmək üçün oturdu, enişaşağı getmək yaman yormuşdu onu. Özü də, demək olar ki, artıq mənzilbaşına çatmışdı.

Görəsən, tapa biləcəkdi, yoxsa yenə qocadan xahiş eləyəsi olacaqdı? Varavva qocanın yanına getmək istəmirdi, ən yaxşısı, bu işi onun köməyi olmadan başa çatdırmaq idi. Qoca, yəqin, yenə də başa düşməyəcəkdi ki, meyiti niyə bura gətirib. Guya Varavvanın özünə aydın idi bu? Nə xeyri vardı? Fikirləşdi ki, yaxşı, tutalım onun evi burada olub, əgər bu

zavallının evi, ümumiyyətlə, vardısa, burada idi... Onu Qalqalda əsla basdırmazdılar, elə Yerusəlimdə də cəsədini itlərə atacaqdılar. Bu heç yaxşı olmazdı. Amma əslində, nə fərqi vardı ki? Yaxşı, gətirdi onu bura – sağlığında yaşadığı, qovulduğu yerə və onu da götürüb, uzatdılar körpəsinin yatdığı tabuta. Bunun nə faydası vardı ona? Sadəcə olaraq, Varavvanın ürəyi istəmişdi ki, qızın xətrinə, heç olmasa, bunu eləsin, qoy xətri xoş olsun. Ölünü sevindirmək az iş deyil ki...

Yerusəlimdə axı nə işi vardı bu qızın? Niyə başında böyük Məsihin mütləq zühur edəcəyi, hamının Tanrı şəhərinə can atacağı barədə fikirdən savayı, başqa bir şey olmayan o ağıldankəm çöllülərə qoşuldu? Qocanın sözünə baxsaydı, başına heç vaxt belə işlər gəlməzdi. O qoca yerindən tərpənmək fikrində deyildi, deyirdi ki, onun bəsidir, neçə dəfə ürəyində ümid qığılcımları alışıb, həmişə də puça çıxıb, özünü yalandan Məsih kimi qələmə verən o qədər adamlar olub ki... Niyə bu sonuncusu mütləq həqiqi Məsih olmalıydı ki? Qız isə tutduğunu buraxmırdı, o sərsəmlərə qulaq asırdı.

İndi də, budur, uzanıb, bədəni parça-parçadır. Onun ucbatındandır da. Nədir, həqiqi Məsih belə olar?

Həqiqidir, hə? Dünyanın nicatı? Bəşəriyyətin xilaskarı? Bəs niyə ona kömək eləmədi? Niyə icazə verdi ki, onun yolunda daşqalaq eləsinlər qızı? Əgər xilaskar idisə, xilas eləyəydi də onu, niyə eləmədi?

Bunu eləmək istəsəydi, nə vardı ki onun üçün? Yox, niyə eləsin ki, ona əzab lazımdır, özü də əzab çəksin, başqaları da. Hələ o da lazımdı ki, şahidlik də eləsinlər onun üçün. "Budur, mən də əmr etdiyin kimi, şahidlik edirəm sənin qüdrətinə"... "Dirilərək, ölülər səltənətindən gəlmişəm ki, sənə şahidlik eləyim"...

Yox, Varavvanın ürəyincə deyildi bu çarmıxa çəkilən. Varavva ona nifrət eləyirdi. O öldürdü qızı. Qurban getməsini də özü tələb eləmişdi, sonra da göz qoyurdu ki, canını qurtara bilməsin. Özü də orada idi axı, çalada, qız görürdü ona

yaxınlaşdığını, əllərini uzadırdı, yalvarırdı ki, xilas eləsin, cübbəsindən tutmuşdu, o isə kömək eləmək üçün heç barmağını da tərpətmədi. Bu da Tanrı Oğlu! Tanrının sevən Oğlu! Dünyanın nicatı!

Varavva, heç olmasa, ona ilk daşı atan adamın canını aldı. Heç olmasa, bunu elədi ki. Heç bir faydası olmasa da, elədi. Daş artıq atılmışdı, hədəfinə də dəymişdi. Artıq heç bir faydası yox idi. Amma, hər halda... Hər halda, Varavva gəbərtdi onu.

O əyilmiş ağzını ovcunun içiylə silib, istehza ilə gülümsündü. Sonra çiyinlərini qabağa atıb, ayağa durdu. Əsəbi bir tərzdə yükünü qaldırdı, sanki, onun əlindən yorulmuşdu daha və yoluna davam elədi.

Qocanın hücrəsinin yanından keçdi, hücrəni o saat tanıdı, ilk dəfə, təsadüfən bura gəlib çıxandan bəri yerini yaxşı yadında saxlamışdı. Sonra başladı qocanın onu körpənin tabutunun yanına necə apardığını xatırlamağa. Cüzamlıların mağarası onların solunda qalırdı, divanə çöllülərinki isə irəlidə olmalıydı, onda ora kimi gedib çıxmamışdılar. Hə, yadına düşdü, hərçənd ki, indi, ay işığında hər şey tamam başqa cür görünürdü. Bax, buradan onlar yamacla üzüaşağı getmişdilər, onda hələ qoca da danışırdı ki, körpə elə anasının bətnində lənətləndiyi üçün ölü doğulmuşdu, o da elə həmin dəqiqə dəfn eləmişdi onu, ölü doğulan hər şey murdar sayılır axı. “Bətnindəki körpəyə lənətlər olsun”... Onda anası gələ bilməmişdi, əvəzində sonra tabutun yanında bir xeyli oturmuşdu... Qoca elə hey danışır, danışırdı...

Buradırmı, görəsən? Deyəsən, buradır... Aha, həmin daş da yerindədir...

Daşı bir kənara çəkib, qızı körpənin qurumuş cəsədi ilə yanaşı uzatdı. Parça-parça olmuş cəsədi elə ehtiyatla uzatdı ki, elə bil, istəyirdi, yeri rahat olsun və axırda da onun üzünə, dodağının üstündəki çapığa bir daha nəzər saldı; artıq heç bir şeyin əhəmiyyəti yox idi. Sonra daşı yenidən öz yerinə çəkdi, oturdu və səhranı gözdən keçirdi.

Səhra elə ölülər səltənətinə oxşayırdı, fikirləşdi ki, qız artıq oradadır, özü gətirmişdi onu. Nə dəxli var ki, adamı öləndən sonra hara uzadırlar, o isə məhz öz körpəsinin qurumuş cəsədinin yanına uzanmışdı, başqa bir yerə yox. Onun üçün əlindən nə gəlirdisə, elədi – Varavva düşündü və kürən saqqalını qaşıya-qaşıya dodaqlarını əyib acı-acı bir də qımışdı.

"Bir-birinizi sevin"...

Özününkülərin yanına qayıdanda elə dəyişmişdi ki, Varavvanı heç kim tanıya bilmədi. Düzdür, Yerusəlimdə olan həmin o iki nəfər onun qəribəliklərini yoldaşlarına danışmışdı, amma burada görünməmiş bir şey də yox idi: onu uzun müddət zindanda saxlamışdılar və az qalmışdı, çarmıxa da çəkələr. Yəqin, tezliklə bu vəziyyəti keçib gedəcəkdi. Amma yox, keçib getməmişdi, hərçənd ki, xeyli ötmüşdü üstündən. Səbəbi bəlli deyildi, amma heç özünə oxşamırdı.

Əslində, onda elə həmişə bir qəribəlik vardı, heç vaxt başa düşməzdin ki, nə fikirləşir, nə qurğu qurur, amma indi tamam başqa məsələ idi, indi onlara yadlaşmışdı, elə baxırdı, elə bil, birinci dəfəydi ki, görüşürdülər. Görmək istədikləri işdən danışanda da heç qulaq asmır, söhbətə bircə kəlmə də müdaxilə eləmirdi. Elə bil, onun üçün heç nəyin fərqi yox idi. Təbii ki, İordan vadisindəki karvan yollarına basqınlarda o da iştirak eləyirdi, amma bu işə artıq heç bir maraq göstərmirdi və elə bir xeyri də dəymirdi. Bir təhlükə ilə üz-üzə gələndə isə, demək olmazdı ki, qaçıb canını qurtarır, amma elə buna bənzər bir şey eləyirdi. Bəlkə, bu da onun biganəliyindən idi, kim bilir. Elə bil, heç nə istəmirdi. Yalnız bircə dəfə, İyerixon sakinlərindən baş kahin üçün toplanmış vergini aparan arabaya basqın edəndə qəzəbindən elə coşmuşdu ki, yükü mühafizə eləyən saray gözətçilərinin ikisini də doğramışdı. Niyəsi də aydın deyildi, yazıqların heç muqavimət göstərmək fikri də yox idi, sayca az olduqlarını görən kimi təslim olmuşdular. Hələ sonra onların cəsədlərini biabırçı şəklə də salmışdı. Heç bir ehtiyac

olmadığı halda. Saray gözətçilərinə, baş kahinin dəstəsinə hamısının nifrəti vardı, lakin ölülər məbədə məxsus idilər, məbəd isə İlahininki idi. Yoldaşları onun meyitlərlə bu cür rəftarından, az qala, qorxmuşdular.

Amma, ümumiyyətlə, heç bir iş görməyə, onların hər birinin öhdəsinə düşən vəzifələri icra etməyə həvəs göstərmirdi, sanki, ümumi işin ona qətiyyən aidiyyəti yox idi. Hətta İordandakı keçiddə Roma əsgərlərinə hücum eləyəndə də canfəşanlıq göstərmədi, baxmayaraq ki onu çarmıxa çəkmək istəyən elə romalılar idi, yoldaşları isə onda əməlli-başlı coşmuşdular, son nəfərinə kimi hamısının boğazını kəsib cəsədlərini çaya atmışdılar. Əlbəttə, heç kəsin şübhəsi yox idi ki, Varavvanın Tanrı xalqını əzənlərə nifrəti onlarınkından az deyil, lakin əgər yoldaşları da özlərini onun kimi soyuqqanlı aparsaydılar, həmin gecə bəladan heç cür can qurtara bilməyəcəkdilər.

Onda çox qəribə təbəddülat var idi. Çünki aralarında əsl cəsur birisi vardısa, o, elə Varavvanın özü idi. Qabaqlar elə riskli basqınlar planlaşdırardı ki, lap məəttəl qalardın, özü isə həmişə birinci gedərdi. Onun üçün namümkün bir şey yox idi, hər işin öhdəsindən bacarıqla gəlirdi. Cəsarətinə, iti ağlına görə yoldaşları daim ona bel bağlayırdılar, bilirdilər ki, Varavvanın planları həmişə uğur gətirir. Onların arasında, az qala, başçı kimi bir şeyə çevrilmişdi, hərçənd ki, quldurlar nə başçı sayırdılar, nə də Varavvadan xoşları gəlirdi. Amma, bəlkə də, elə bu səbəbdən başçıya çevrilmişdi – heç kəsə oxşamayan xasiyyətinə görə. Axıra kimi də başları çıxmadı ondan, elə yad olaraq qaldı. Hamısı özləri, yoldaşları barədə hər şeyi bilirdi, Varavva haqqında isə, demək olar ki, heç nə məlum deyildi və qəribəsi də bu idi ki, məhz elə bu səbəbdən ona ümidləri daha çox idi. Hətta ondan çəkinirdilər, çəkindikcə də ürəklərində onun bacarığına ümidləri bir az da artırdı. Amma yox, hər şeyin səbəbi elə onun cəsarətində, ağlında və planlaşdırdığı bütün işlərin uğurla nəticələnməsində idi.

Bəs indi, qətiyyən rəhbərlik etmək istəməyən, ümumiyyətlə, heç nə istəməyən başçı kimin nəyinə gərəkdir? Onun istədiyi bircə mağaranın ağzında oturub İordan vadisinə, ondan da uzağa – Ölü adlandırılan dənizə tamaşa etməkdən savayı, başqa bir şey deyildi. Adama elə anlaşılmaz nəzərlərlə baxırdı ki, çaşıb qalırdın. Daim susurdu, ağzını açıb bir söz deyəndə də qəribəliyini o saat büruzə verirdi. Sanki, fikirləri hardasa çox uzaqlarda dolaşırdı. Adamın ürəyi bulanırdı lap. Bəlkə, Yerusəlimdə çox qaldığına, onu çarmıxa çəkmək istədiklərinə görə belə idi? Sanki, onu, doğrudan da, əvvəlcə çarmıxa çəkmişdilər, ölmüşdü və sonra təzədən qayıtmışdı yoldaşlarının yanına.

Onunla adamın zəhləsi tökülürdü. Qayıtmasına, onlarla bir yerdə olmasına qətiyyən sevinmirdilər. Onun yeri bura deyildi. Başçılığa qətiyyən yaramırdı Varavva – başqa nəyə yarayırdı ki? Belə çıxır ki, heç bir işə yararlı deyildi. Hə, qəribə işdir, amma, həqiqətən, belə çıxırdı!

Lakin yaxşı xatırlasan, görərsən ki, Varavva heç də həmişə aparıcı, həlledici, cəsur və qorxu-hürküsüz, heç bir şeyi – nə təhlükəni, nə də ölümü vecinə almayan adam olmayıb. Eliaxu gözünün altına çapıq qoyana kimi, belə ürəkli deyildi. Həmin günə qədər heç cəsarətli saymazdın onu, bəlkə də, hələ lap əksinə idi. Bunu hamı yaxşı xatırlayırdı. Amma sonra birdən əsl kişiyə çevrildi. O vaxt, Eliaxu qəflətən onun üstünə hücum çəkərək, çox güman ki, öldürmək istəyəndə və onlar ölüm-dirim döyüşündə kəllə-kəlləyə gələndə Varavva əzəmətli, güclü, amma artıq yaşlaşmış, ağırlaşmış Eliaxunu mağaranın ağzından uçuruma atmışdı. O, cavan, daha zirək, cəld idi və qoca döyüşçü nə qədər güclü olsa belə, onu üstələyə bilməzdi, nahaq girişmişdi bu işə. Niyə öldürmək istəyirdi onu? Niyə Varavvaya həmişə nifrət bəsləyirdi? Bunu heç kəs axıra kimi də bilmədi. Lakin daxilən ona həmişə nifrət etdiyi hamıya bəlli idi.

Varavva dəstənin başçısına elə onda çevrildi. O vaxta qədər isə əhəmiyyətli adam saymırdılar onu. O, çapığını qazanandan sonra kişi olmuşdu.

Belə danışırdılar, daha doğrusu, pıçıldaşırdılar.

Amma onlar bilmirdilər, ümumiyyətlə, heç kəs bilmirdi ki, yaxşı xatırladıqları Eliaxu, əslində, Varavvanın atası idi. Bunu heç kim bilmirdi, heç kim də bilə bilməzdi. Onun anası moava qızı idi, İerixona gedən yolun üstündə karvanı talayanda onu da əsir götürmüşdülər və quldurların hamısı əməlli-başlı kefinə baxandan sonra qızı Yerusəlimə, fahişəxanaya satmışdılar. Orada da görəndə ki tezliklə doğasıdır, saxlamaq istəməmişdilər, küçədə doğmalı olmuşdu və meyitini elə küçədən tapmışdılar. Uşağın kimdən olduğunu heç kəs bilmirdi, heç özü də deməzdi, bircə onu deyərdi ki, körpəni hələ bətnində olarkən lənətləmişdi və göyə də, yerə də, bu göyü-yeri Yaradanın özünə də nifrət yağdıraraq, öz bətnindən rədd eləmişdi.

Yox, bu barədə heç kim heç nə bilmirdi. Nə mağarada pıçıldaşanlar, nə də oturub uçuruma boylanan və Moavanın günəş altında yanmış dağlarına, Ölü adlandırılan nəhayətsiz dənizə tamaşa eləyən Varavvanın özü.

Varavva Eliaxu haqqında fikirləşmirdi, baxmayaraq ki, düz onu uçuruma tulladığı yerdə oturmuşdu. Kim bilir nədən, daha doğrusu, yəqin ki, tamamilə səbəbsiz, çarmıxa çəkilmiş Xilaskarın anasını xatırladı, onun dünyaya gətirdiyi, indi isə xaça mismarlanmış oğluna necə baxdığını yadına saldı. Varavva qadının göz yaşlarından əsər-əlamət olmayan gözlərini, kədərini ifadə edə bilməyən, bəlkə də, yadların gözü qarşısında bu kədəri göstərmək istəməyən kobud kəndçi sifətini xatırladı. Bir də yanından ötəndə Varavvaya necə qınaqla baxdığı düşdü yadına. Niyə ona belə baxırdı? Guya, orada başqası yox idi qınamağa!

O, tez-tez Qolqofa barədə, orada baş verənlər barədə fikirləşirdi. Bir də o birisinin anası barədə...

O, Ölü dənizin o üzündəki dağlara baxır, baxırdı; onların üstünə, Moava torpaqlarının üzərinə qaranlıq çökürdü.

Canlarını ondan necə qurtarsınlar – yoldaşları bunun üstündə baş çatladırdılar. Hər cür sevinci boğan, adamı tamam

darıxdıran bu qaraqabaq sifətdən, bu lüzumsuz, mənasız maneədən çan qurtarmaq arzusundaydılar. Amma necə yaxınlaşaydılar? Birdən-birə gəlib deyəydilər ki artıq onlara gərək deyil, lazımsız adamdır burada və çıxıb getsə yaxşıdır? Bunu axı kim söyləyə bilərdi ona? Heç kim məxsusi can atmırdı. Düzünü etiraf eləsək, heç kəsin cürəti çatmazdı. Qəlblərinin dərinliyində yuva salmış həmin o hiss sarsaq, yersiz qorxu idi, nə idi, bilmirəm, amma o imkan verməzdi.

Onlar pıçıldaşmalarına davam eləyir və deyirdilər ki, zəhlələrini töküb, heç kəs istəmir onu, heç vaxt da istəməyiblər, yəqin, elə onun ucbatından son zamanlar bəxtləri gətirmir, lap bu axır vaxtlarda daha iki nəfəri itirdilər, ölümə məhkum edilmiş adam vardı yanlarında, hansı bəxtdən danışmaq olar ki... Küt, qatı bir qəzəb mağaranı ağzına kimi doldururdu, kahanın içindəki yarıqaranlıqdan uçurum kənarında tənha oturmuş, bədtaleli bu insana nifrət dolu baxışlar sancılırdı. Canlarını necə qurtarsınlar ondan?..

Günlərin birində, dan yeri söküləndə gördülər ki, özü yoxa çıxıb. Heç yerdə yox idi. Əvvəlcə fikirləşdilər ki, başına hava gəlib və özünü uçuruma atıb, ya da ki, vücuduna girmiş bir bəd ruh onu qayadan aşağı itələyib. Bəlkə, Eliaxunun ruhu idi onunla haqq-hesab çürüdən? Uçurumun dibini, nə zamansa Eliaxunun parçalanmış meyitini çıxardıqları yeri axtardılar, amma Varavvanı orada tapmadılar. Heç onun izini-tozunu da görmədilər. O, sadəcə, yoxa çıxmışdı.

O dəqiqə yüngülləşdilər və sıldırım qayanın başındakı, artıq günəşin möhkəm qızdırdığı yuvalarına qayıtdılar.

Varavvanın sonrakı taleyi, onun hara getməsi, necə yaşaması barədə dəqiq bir şey bilən yox idi. Bəziləri elə düşünürdülər ki, yoxa çıxandan sonra səhraya üz tutmuş, ya İudey səhrasına, ya da Sinaya getmiş və orada da bütün ömrünü Tanrının və insanların dünyası barədə tənha düşüncələrinə qərq olaraq keçirmişdir. Başqaları isə, əksinə, söyləyirdilər

ki, Yerusəlim məbədini, ruhaniləri, müqəddəs kitabları oxuyan adamları görməyə gözü olmayan samaralıların yanına getmiş və guya, onu müqəddəs dağdakı Pasxa bayramında, qurbanlıq quzu kəsilərkən görmüşlər; dizi üstə çöküb Qarizom dağı üzərində şəfəqin doğulmasını gözləyirmiş.

Digərləri isə dəqiqliyi ilə təsdiq edirdilər ki, guya, o, ömrünün çox hissəsini yenə də quldurluq edirmiş, Livan dağlarının Suriyaya yaxın hissələrində quldur dəstəsinin başçısı kimi əlinə keçən həm yəhudilərlə, həm də xaçpərəstlərlə qəddarcasına davranırmış.

Bayaq dediyimiz kimi, heç kəs dəqiq bilmir ki, bu danışılanların hansı yalandır, hansı düz. Əvəzində, dəqiq bəllidir ki, ömrünün altıncı onilliyində, Pafosdakı Roma canişininə məxsus mədənlərdə bir neçə il işləyəndən sonra elə onun evində şəxsi qulu olmuşdu. Onu nəyə görə tutub mədənlərdə işləməyə – o vaxt bundan dəhşətli cəza ola bilməzdi – məhkum eləmişdilər, burası bilinmir. Lakin qəribə olanı onun bu mədənlərə düşməsi deyildi, qəribə burası idi ki, həmin o cəhənnəmə düşəndən sonra belə, lap qul kimi olsa da, yenidən həyata qayıda bilmişdi. Amma burada tamam başqa şəraitin təsiri vardı.

O artıq başını ağartmışdı, dərisi qırış-qırış idi, lakin nəsibinə düşən hadisələrə baxanda görürdün ki, təəccüb doğuracaq dərəcədə yaxşı qalıb. Özünə çox tez gəlmişdi, demək olar ki, yenə keçmiş illərdəki kimi güclü idi. Mədənlərdən çıxanda daha çox ölüyə bənzəyirdi: bədəni qupquru, mənasız baxışlı gözləri isə suyu tükənmiş bir cüt quyu kimi idi. Bu gözlər yenidən işıqlı dünyaya baxmağa başlayanda ifadəsi əvvəlkindən də narahat, həyəcanlı idi – eynən küncə sıxılmış itinki kimi. Amma anasının onu doğarkən yağdırdığı nifrinlərə bənzər bir nifrət zaman-zaman parlayırdı gözlərində. Və gözünün altındakı, demək olar ki, artıq nəzərə çarpmayan çapığı yenidən allanaraq, ağ saqqalına doğru uzanırdı.

Xəmiri sərt yoğrulmasaydı, heç cür sağ qurtara bilməzdi. Buna görə Eliaxuya və moava qızına minnətdar olmalıydı, ona həyat bəxş eləyən onlar idi. Amma heç biri sevmirdi onu, hər ikisi nifrət eləyirdi. Heç bir-birilərini də sevmirdilər. Görün sevginin qiyməti necə azdır. Lakin Varavvanın özü bir-birinə nifrət edərək qucaqlaşan həmin bu iki nəfərə nəyə görə borclu olduğunu bilmirdi.

O, çoxlu qul olan böyük bir evə düşdü. Qulların arasında hündür, nataraz, arıq erməni vardı, adı da Saak. Boyu həddindən ziyadə uzun olduğundan daim qəddini bükürdü. Azacıq bərəlmiş, iri, zil qara gözləri elə odlu idi ki, deyərdin elə özü də alışıb-yanırdı. Ağ, qısa saçlarına və yanmış sifətinə görə adama elə gəlirdi ki, qocadır, əslində isə, qırxı təzə haqlamışdı. O da mədənlərdə olmuşdu, bütün müddəti də Varavva ilə birlikdə işləyib, elə onunla bir yerdə də canını mədəndən qurtara bilmişdi. Amma o, axıra kimi özünə gələ bilmədi. Əldən düşmüş, Ay kimi ağ saçları olan bu adam, sanki, katorqanın məxsusi, əbədi möhürünü öz üzündə gəzdirirdi; üzü küllüyü andırırdı. O, sanki, heç Varavvanın da bilmədiyi nəsə qeyri-adi hisslər yaşayırdı; düzünə qalanda, bu elə belə də vardı.

Qalan qullar mədəndə olmuş və sağ çıxmış bu iki nəfərlə çox maraqlanırdılar, onların söhbətlərini eşitmək istəyirdilər, axı, adətən, oradan sağ çıxan olmurdu. Bunlar isə öz keçmişləri barədə ancaq susurdular. Ümumiyyətlə, hamıdan gen gəzirdilər və heç öz aralarında da, demək olar ki, danışmırdılar; qətiyyən aydın deyildi ki, onları bir-birinə bağlayan nədir. Ayrılmaz idilər. Qəribəydi. Amma yemək yeyəndə də, dincələndə də yanaşı otur
urdular, gecələr samanın üstündə də yanaşı yatırdılar, çünki mədənlərdə onların ikisini də bir zəncirlə kündələyirmişlər.

Onların hər ikisini elə adaya ayaq basan kimi kündələmişdilər. Qulları lap əvvəldən iki-iki zəncirləyirdilər, elə o vaxtdan bəri onların ikisi bir yerdə işləməyə məhkum idi. Daha ayrıla bilməzdilər və bu əkiz qullar bir-birini lap əzbərləmişdi,

tez-tez aralarında dəli bir nifrət baş qaldırırdı. Hərdən, heç bir səbəb olmadan vəhşi kimi bir-birinin üstünə atılırdılar, yalnız ona görə ki, bu cəhənnəmdə onları bir-birinə zəncirləmişdilər.

Lakin bu iki nəfər bir-biriylə dil tapır, hətta çətinliyə düşəndə bir-birinə kömək də eləyirdi. Hərdən dərdləşir, katorqa əzablarının ağırlığını bu yolla yüngülləşdirməyə çalışırdılar. Varavvanın, məlum məsələdir, danışmaqla arası yox idi, lakin o, yoldaşına diqqətlə qulaq asırdı. Əvvəl-əvvəl özləri barədə danışmırdılar, hərə öz taleyi barədə susurdu, hər birinin bölüşmək istəmədiyi xeyli sirri vardı və onlar bir-biri haqqında nəsə öyrənənə kimi çox çəkdi. Bir dəfə, çox güman ki, təsadüfən aydınlaşdı ki, Varavva Yerusəlim yəhudisidir. Saak çox maraqlandı, sorğu-suala keçdi. Sanki, bu şəhəri çox yaxşı tanıyırdı, hərçənd ki, heç o həndəvərdə olmamışdı. Nəhayət, Varavvadan soruşdu ki, orada yaşayıb-yaratmış ravvini, çoxlarının inandığı böyük peyğəmbəri tanıyırdımı? Varavva söhbətin kimdən getdiyini başa düşdü və cavab verdi ki, həmin adam barədə eşidib. Saakın sualları bitmirdi, lakin Varavva elə cavab verirdi ki, sanki, dəqiqliyi ilə heç nədən xəbəri yoxdur. Öz gözlərilə görübmü onu? Hə... görməyinə görüb. Varavvanın onu şəxsən görməsi, deyəsən, Saakı əməlli-başlı sarsıtdı. Odur ki, özünə gələndə yenə də soruşdu ki, bayaq ona dedikləri həqiqətdirmi. Varavva da zorla, istəməyə-istəməyə cavab verdi ki, hə, görüb onu.

Saak əlindəki külüngü yerə saldı. Yerində donaraq fikrə getmişdi, qismətinə düşən bu hadisədən heyrət içində idi. Onun üçün hər şey birdən dəyişmişdi, bu yeniliyi zorla həzm eləyə bilirdi. Şaxta da, mədənlər də dəyişmişdi, sanki. Bir anın içində hər şey tamam başqa cür olmuşdu. Axı o, Tanrını görmüş adamla bir zəncirlə bağlanmışdı.

Bu yerdə nəzarətçinin qırmancı onun kürəyini odladı. Saak zərbənin altında elə əyildi, sanki, onun gücünü azaltmaq istəyirdi və cəld külüngünü işə saldı. Nəzarətçi, nəhayət

ki, çıxıb getdi. Saakın isə qanı axırdı, uzun bədəni tir-tir əsirdi. Nitqi kəsilmişdi, özünə tezliklə gələ bilmədi. Amma dili açılan kimi Varavvadan soruşdu ki, ravvi ilə harada, hansı şəraitdə rastlaşıb? Yəqin, ya məbəddə, ya da müqəddəs yerlərdən hansındasa, elədirmi? Onu görəndə gələcək çarlığından danışmırdı ki? Ya tamam başqa vaxt görmüşdü onu? Varavva əvvəl susurdu. Sonra özü də istəmədən dedi ki, onu Qolqofada görüb.

– Qolqofa? O haradadır elə?

Varavva dedi ki, ora cinayətkarların çarmıxa çəkildiyi yerdir.

Saak susdu. Gözlərini yerə zillədi. Sonra çox yavaşdan dedi:

– Hə, deməli, orada görmüsən...

Beləliklə, onların arasında çarmıxa çəkilən ravvi barədə ilk söhbət belə baş verdi, amma sonralar ondan tez-tez danışırdılar.

Saak istəyirdi çox danışsınlar, onun dediyi müqəddəs sözləri bilsin, böyük möcüzələrindən eşitsin. Özü də bilirdi ki, onu çarmıxa çəkiblər, necə bilməyəydi? Yaxşı olardı ki, Varavva ona nəsə başqa bir şey danışaydı.

Qolqofa... Qolqofa... Qəribə, yad bir ad idi, gör nə vaxtdan bilirdi bu adı, Xilaskarın çarmıxda necə öldüyündən və həmin vaxt necə qəribə möcüzələr baş verdiyindən neçə dəfə danışmışdılar. Varavvadan soruşdu ki, məbəddə ikiyə bölünmüş örtüyü də görmüşdümü. Dağ özü də yarılmışdı, oradaydısa, bunu mütləq görmüş olar.

Varavva cavab verdi ki, bəlkə də, bunlar həqiqətən olub, amma o, şəxsən görməyib, buna görə də bir söz deyə bilməz.

– Axı ölülər də tabutlarından çıxmışdılar! Ölülər səltənətindən gəlmişdilər ki, onun barəsində şahidlik eləsinlər, gücündən, şöhrətindən danışsınlar!

– Hə... – Varavva dedi.

– Onun ruhu bədənindən çıxanda yer üzünə qaranlıq çökmüşdü?

Bax, bunu Varavva özü görmüşdü. Həmin o zülməti görmüşdü.

Bu cavabı Saakı, deyəsən xoşbəxt elədi, hərçənd ki, dəhşətli edam yeri barədə düşüncələri əzab verirdi ona; yarılmış dağ, dağın başındakı xaç, xaçın üstündə qurban gedən Tanrı Oğlu gözlərinin önündən heç çəkilmirdi. Hə, əlbəttə. Xilaskar əzab çəkib ölməli idi, bunu etməliydi ki, bizlərə nicat verə bilsin. Elədir ki var, amma heç cür dərk eləmək olmur bunu. Saaka xoş gələn, onu öz çarlığında, hər bir şeyin buradakından tamamilə fərqli olduğu müqəddəs məkanda, şan-şöhrət içində təsəvvür etmək idi. Yaxşı olardı ki, onunla bir zəncirə bağlanmış Varavva Xilaskarı yalnız Qolqofada deyil, başqa yerdə də görmüş olaydı. Niyə onu məhz Qolqofada görmüşdü?

– Qəribədir ki, sən onu məhz orada görmüsən. Sən axı haradan gedib çıxmışdın ora?

Bu suala Varavva daha cavab vermədi.

Növbəti dəfə Saak soruşdu ki, həmin ana kimi Varavvanın heç Xlaskarı görməməsi həqiqətdirmi? Varavva bu sualının cavabını o dəqiqə vermədi. Lakin sonra dedi ki, o, ravvinin ittiham olunduğu pretoriyanın həyətində də olub və bunun ardınca da o vaxt hər şey necə baş vermişdisə, hamısını danışdı. Ravvinin ətrafında qəribə nur haləsi gördüyünü də söylədi. Saak bu barədə eşidəndə yaman sevindi. Daha Varavva izah etmək istəmədi ki, bütün bunlar onun gözünə zindanda çox qaldığından, bayıra çıxanda isə parlaq günəşin onu kor etdiyindən görünmüşdü. Niyə? Saaka bunun nə xeyri vardı? Kimə xeyri vardı ki bunun? Odur ki heç bir izahat verməyərək, Saakı xoşbəxt elədi. Saak onun bu möcüzədən bir də danışmasını xahiş elədi. Onu dinlədikcə Saakın üzü işıqlanırdı, bəxtiyarlığı Varavvaya da sirayət edirdi, sanki, xoşbəxtliyi bölüşürdülər. Hər dəfə Saak ondan xahiş eləyəndə Varavva həmin o qəribə görüntülərdən danışır və elə bil, hər dəfə də o qəribə işığı təzədən görürdü.

Bir müddət keçdi və o, Saaka dedi ki, Müəllimin dirilməsinin də şahidi olub. Yox, onun necə dirildiyini özü şəxsən görməyib. Bunu, ümumiyyətlə, görən olmayıb, amma əlini

nizə kimi tutmuş, əynində alovdan cübbəsi olan bir mələyin göydən enməsini o görüb; nizə tabutun qabağındakı daşa dəyən kimi daş bir kənara düşmüşdü, nizənin özü isə düz daşla qayanın arasına sancılmışdı, qaya da yarılmışdı. Və Varavva baxıb görmüşdü ki, tabut boşdur...

Saak nəfəsini çəkmədən iri, inamlı gözlərini Varavvaya zilləyib dinləyirdi. Yəni, həqiqətən, belə olub? Yəni bədbəxt, kirli bir qul bunu görə bilərdi? Yəni bu möcüzə, bu möcüzələr möcüzəsi onun gözləri qabağında baş vermişdi? Kimdir axı bu? Bəs Saaka bu xoşbəxtlik niyə nəsib oldu: axı Tanrıya bu dərəcədə yaxın, belə möcüzələrin şahidi olmuş bir insanla eyni zəncirlə bağlanıb?

Bu xəbərdən lap özünü itirdi və başa düşdü ki, artıq o da öz sirrini açmalıdır – daha gizlətmək olmaz. Və Saak ehtiyatla ətrafına göz gəzdirib yaxınlıqda bir kimsənin olmadığına arxayınlaşandan sonra Varavvaya pıçıltı ilə dedi ki, ona bir şey göstərəcək. Sonra onu divarın çıxıntısındakı çırağın yanına çəkib titrəyən şölənin işığında boynundan asdığı kiçik lövhəni göstərdi. Bütün qulların belə lövhələri, üzərində də sahiblərinin işarəsi vardı. Bu mədənlərdə isə bütün qulların daşıdığı lövhələrdə Romanın möhürü olurdu, onlar dövlətin mülkiyyəti sayılırdılar. Saakın lövhəsinin arxa tərəfindəki qəribə işarələri isə onlar zəif işıqda zorla seçə bildilər, bu işarələri heç biri anlaya bilməzdi. Saak izah elədi ki, bu, çarmıxa çəkilənin, Xilaskarın, Tanrı Oğlunun adıdır. Varavva cadunu-zadı xatırladan bu qəribə işarələrə maraqla baxırdı, Saak isə pıçıldadı ki, bəs burada bir şey yazılıb: "Saak Tanrı Oğluna məxsusdur, onun quludur". Varavvaya icazə verdi ki, lövhəyə toxunsun, o da yoldaşının lövhəsini uzun müddət əlində saxladı.

Birdən elə bildilər ki, nəzarətçi gəlir. Yox, yanılmışdılar, onlar yenidən bu qəribə yazılara tərəf əyildilər. Saak Varavvaya danışdı ki, lövhəni ona bir yunan verib. O qul da xaçpərəst imiş, həm də qul idi, Saaka Xilaskar barədə, onun tezliklə başlayacaq çarlığı barədə danışır, inancını bölüşür, iman

gətirmək öyrədirmiş. Saak onunla mis əridilən sobaların yanında tanış olmuşdu.

Orada heç kəs bir ildən artıq davam gətirmirdi. Yunanınkı heç bir il də çəkmədi və canı çıxanda Saak sobanın istisi içində pıçıltısını eşidib: “Məni tərk etmə, İlahi”. Sonra isə yunanın ayaqlarını kəsiblər, kündələri çıxarmaq üçün bundan asan üsul yox idi və cəsədini alovun içinə atıblar – orada hamı ilə eyni cür davranırdılar. Saak düşünürmüş ki, yəqin, özünün də taleyi bu cür olacaq, başqa bir taleyin ümidində deyildi. Amma tezliklə qulların bir hissəsini, o cümlədən elə Saakın özünü də bura gətirdilər, burada çoxlu qul lazım olmuşdu.

Hə, belə, indi Varavva artıq bilir ki, o da xaçpərəstdir, Tanrının quludur, – Saak sözlərini beləcə bitirib, Varavvanın üzünə inamla baxdı.

Varavva bu söhbətlərdən sonra bir neçə gün sakit və fikirli dəyirdi gözə. Sonra isə qəribə bir tərzdə titrəyən səsilə Saakdan soruşdu ki, onun da lövhəsinə həmin yazıdan cıza bilərmi?

Saak məmnuniyyətlə kömək edəcəyinə söz verdi. Düzdür, bu sirli işarələri heç özü də anlamırdı, lakin öz lövhəsinə baxa-baxa cıza bilərdi...

Onlar bir az səbir elədilər ki, nəzarətçi keçib getsin, o keçən kimi də Saak itiuclu bir daşla çırağın zəif işığında başladı həmin işarələri səylə cızmağa. Onun əlləri üçün tanımadığı işarələri cızmaq heç də asan deyildi, amma yaman çalışırdı ki, yazı dəqiq öz lövhəsindəki kimi çıxsın. Tez-tez işindən ayrılırdı: gah kimsə yaxınlaşırdı, gah da onlara elə gəlirdi ki, yaxınlaşan var, – nəhayət ki, yazını bitirdi və baxanda bu qənaətə gəldilər ki, çox yaxşı alınıb. Hər ikisi sükut içində öz lövhəsinə, onun üzərindəki anlaşılmaz, sirli işarələrə tamaşa edirdi. Amma onlar bilirdilər ki, bu işarələr çarmıxa çəkilənin adını, bir də ki onun qulu olduqlarını əks etdirir. Sonra ikisi də birdən dizüstə çöküb, öz Tanrısına, bütün bədbəxtlərin Xilaskarına alovlu dua eləməyə başladı.

Nəzarətçi onları uzaqdan gördü, düz çırağın yanında oturmuşdular və gözləri dünyada heç bir şeyi görmürdü, dua eləyərkən özlərini də unutmuşdular. Üstlərinə cumub, az qala, ölənəcən döydü. Sonra, nəhayət ki, yaxalarından əl çəkdi və Saak yerə yıxıldı. Amma yıxılanda nəzarətçi təzədən qayıdıb onu döyməyə başladı ki, ayağa qalxsın. Qullar səntirləyə-səntirləyə, bir-birinin üstünə yıxıla-yıxıla, yenidən işləməyə başladılar.

Varavva çarmıxa çəkilənə görə, solğun bənizli, tüksüz sinəli, onun yerinə çarmıxa çəkilmiş ravviyə görə ilk cəzasını belə aldı.

Günlər bir-birini əvəz eləyir, illər ötürdü. Onlar günün keçdiyini bu qaranlıqda heç cür ayırd eləyə bilməzdilər, lakin hər axşam işləməkdən əldən düşmüş yüzlərlə digər qul kimi, onları da yatmağa qovurdular və yalnız onda xəbər tuturdular ki, artıq gecədir. Onları əsla sərbəst qoymurdular. Qanı qaçmış, kölgəyə bənzəyən bu insanlar yarıqaranlıqda, aşağıda, ətrafı yalnız zəif çıraqların və bir də ki tək-tük sobaların işıqlandırdığı ölülər səltənətində illər uzunu yaşayırdılar. Şaxtanın girişindən zəif bir işıq düşürdü və orada, yuxarıda nəsə görünürdü, bəlkə də, səma idi görünən. Lakin əvvəllər mənsub olduqları yer üzünün torpaqlarını heç vaxt görə bilmirdilər. Yeməklərini də elə burada, girişin ağzındaca yuxarıdan sallayırdılar – zənbillərdə və kirli taknələrdə sallayırdılar ki, heyvan kimi tıxsınlar.

Saakın dərdi vardı. Varavva daha onunla dua eləmirdi. Xilaskarın adını öz lövhəsində cızmağı xahiş eləyəndən sonra bir-neçə dəfə dua elədi, sonra isə dayandı. O, əvvəlkindən də qaradinməz, qəribə və anlaşılmaz oldu. Saak heç nə anlamırdı. Adamın başı çatlayardı fikirdən. Özü isə elə həmişəki kimi duasını eləyirdi, Varavva da yalnız üzünü yana çevirirdi, sanki, heç baxmaq da istəmirdi. Düzdür, elə dayanırdı ki, Saakı onun arxasında görən olmasın, ibadətini heç kəs mane olmadan, rahat eləyə bilsin. Belə çıxırdı ki, ona kömək eləmək istəyirdi, lakin özü heç vaxt dua eləmirdi.

Niyə? Nədən ötrü? Saak anlaya bilmirdi. Tapmaca idi lap. Varavva onun üçün, ümumiyyətlə, çətin bir tapmacaya

çevrilmişdi. O isə elə bilirdi ki, burada, yerin altında, bu cəhənnəmdə rastlaşandan, xüsusilə də neçə dəfə birlikdə dua eləyəndən sonra lap yaxşı tanıyır yoldaşını. Birdən anlamışdı ki, Varavvanı heç tanımır, onun barəsində heç bir şey bilmir, hərçənd ki, ayrılmaz idilər. Hərdən isə böyründəki bu qəribə adam ona lap yad gəlirdi.

O, əslində, kimdir görəsən?

Onlar qabaqkı kimi söhbət eləyirdilər, amma daha o cür yox və Varavva onunla danışanda üzünü mütləq yana çevirirdi. Saak daha onun gözlərini görə bilmirdi. Ümumiyyətlə, heç onun gözlərini bircə dəfə də olsun görmüşdümü? Deyəsən, görmüşdü, bəlkə də, yox...

Saak kiminlə bir zəncirdə idi?

Varavva daha öz köhnə xatirələrindən danışmırdı. Bu isə Saak üçün böyük bir itki idi, təsəvvür edilməyəcək dərəcədə böyük. Dəfələrlə cəhd elədi ki, hər şeyi gözləri önündə canlandırsın, onun danışdıqlarını birtəhər yadına salsın. Asan idi məgər? Yox, tamam başqa cür alınırdı, elə yox... Axı Saak özü heç vaxt onunla yanaşı dayanmamışdı, ətrafındakı nur haləsindən gözləri qamaşmamışdı. O, Tanrını görməmişdi.

Və məcbur oldu ki, Varavvanın öz gözlərilə gördüyü gözəlliyin yaddaşında qorunan bir parçası ilə qane olsun.

Onun ən çox xoşuna gələn həmin pasxa səhərinin görüntüləri, Tanrını ölülər səltənətindən xilas etmək üçün səmadan ildırım kimi enən alovlu mələk idi. Bunu aydın təsəvvür eləyəndə dəqiq inanırsan ki, o dirilib, sağdır, tezliklə qayıdaraq, özünün neçə dəfələrlə vəd etdiyi kimi, yer üzündə səltənətini quracaq. Saakın buna heç bir şübhəsi yox idi, tam inanırdı belə olacağına. Onda hamını, şaxtalarda əzab çəkənlərin hamısını azadlığa səsləyəcəklər. Tanrının özü qapının ağzında duraraq, qulları qarşılayacaq, zəncirlərini açacaq və onlar birlikdə müqəddəs səltənətə qədəm basacaqlar.

Saak necə arzulayırdı bunu! Hər dəfə onları yeməyə səsləyəndə şaxtanın quyusundan yuxarı baxırdı ki, bəlkə, möcüzə

baş verib artıq. Lakin məgər buradan dünyanı görə bilərsən? Orada nələr baş verdiyi də məlum deyil. Orada nə desən baş verər, sən isə burada heç xəbər də tutmazsan. Lakin əgər belə bir şey həqiqətən olsaydı, Xilaskar zühur eləsəydi, təbii ki, onları da çağırardı. Onları unutmazdı, özününküləri yaddan çıxarmazdı, ölülər səltənətindən mütləq azad edərdi.

Bir dəfə Saak qayanın çıxıntısında dizi üstə oturaraq dua eləyəndə, çox qəribə bir şey baş verdi.

Şaxtada köhnə qaniçəni əvəz eləmiş yeni nəzarətçi arxadan Saaka elə yaxınlaşdı ki, onu nə görmək mümkün oldu, nə də ki addım səslərini eşitmək. Lakin ibadət eləyənin yanında dayanaraq özü dua eləməyən Varavva onun siluetini yarıqaranlıqda duyub Saaka pıçıldadı ki, bəs gələn var. Saak o dəqiqə ibadətini yarımçıq kəsib yerindən atıldı və külüngündən yapışdı. Döyüləcəyini yəqin etdiyindən belini büküb qırmanc zərbələrini qarşılamağa hazırlaşdı. Amma hər ikisinin təəccübünə rəğmən bu dəfə cəza almadı. Nəzarətçi, təbii ki, ayaq saxladı, amma səmimi bir tərzdə Saakdan soruşdu ki, niyə elə oturmuşdu, bunun mənası nədir? Saak zorla dilinə gətirə bildi ki, öz Tanrıma ibadət eləyirdim.

– Hansı Tanrıya? – nəzarətçi soruşdu.

Saak söhbətin hansı Tanrıdan getdiyini söylədi və o da dinməzcə başını tərpətdi, sanki, demək istəyirdi ki, mən də elə başa düşmüşdüm. Başladı Saakı çarmıxa çəkilmiş "Xilaskar" barədə sorğu-sual eləməyə. Onun barəsində çox qəribə əhvalatlar eşitmişdi. Yəni düz deyirlər ki, çarmıxa çəkilməyi, murdar qullara xas bir ölümlə dünyadan köçməyi onun öz iradəsi ilə baş verib? Bundan sonra ona yenə Tanrı deyib sitayiş eləyirlər? Qəribə işdir, çox qəribə... Bəs niyə onu Xilaskar adlandırırlar? Tanrı üçün maraqlı addır... Nə deməkdir bu? O, bizi xilas edəcək? Bizim ruhumuzu?.. Bu nə qəribəlikdir?.. Nəyə lazımdır ki?

Saak çalışdı ki, hər şeyi izah eləsin ona. O isə diqqətlə qulaq asırdı, hərçənd ki, bisavad qulun anlaşılmaz sözlərindən çox az şey dərk eləmək mümkün idi. Nəzarətçi hərdənbir başını

tərpədirdi. Amma bütün bu müddət ərzində tam diqqətlə qulaq asırdı, sanki, bu bəsit söhbətin onun üçün çox böyük əhəmiyyəti vardı. Nəhayət, dedi ki, bu qədər Tanrının olması bədbəxtlikdir, onlardan can qurtarmaq da mümkün deyil və adam gərək özünün sakitliyinə görə onların hamısına qurban desin...

Saak cavab verirdi ki, çarmıxa çəkilən qurban tələb eləmir. Onun tələbi yalnız odur ki, özünü qurban verəsən.

– Özünü? Necə yəni? Bu, nə deməkdir?

– Özünü onun əzəmətli körüyündə qurban verməlisən.

– Onun körüyündə?..

Nəzarətçi başını buladı.

– Sən bisavad qulsan, – deyə dilləndi, – öz ağlın kəsəni deyirsən. Bu nə sayıqlamalardır? Bunları haradan öyrənmisən?

– Mən bu sözləri bir yunan quldan eşitmişəm, – Saak cavab verdi. – O, həmişə danışırdı bunu. Amma özüm dəqiqliyi ilə bilmirəm ki, bu nə deməkdir.

– Görürsən? Heç kəs bilmir. Özünü qurban vermək... onun körüyündə... onun körüyündə...

Və yenə nəsə mızıldandı, amma onlar daha başa düşmədilər və tək-tük çıraqların arasındakı alaqaranlıqda yoxa çıxdı, elə bil, yerin təkinə getdi.

Saakla Varavva bu qeyri-adi hadisə barədə çox fikirləşdilər. Hər şey o qədər qəribə idi ki, qətiyyən anlamaq olmurdu. Belə bir adam bura necə gəlib çıxıb? Yəni o, adi nəzarətçidir? Özü də çarmıxa çəkilən barədə, xilaskar barədə soruşurdu? Yox, heç inanmaq olmur buna. Amma, təbii ki, baş verən bu hadisəyə hər ikisi sevinirdi.

O vaxtdan bəri həmin nəzarətçi tez-tez ayaq saxlayıb Saakla söhbət edirdi. Varavva ilə kəlmə də kəsməmişdi. Saakdan isə öz Tanrısından, onun həyatından, möcüzələrindən və çox qəribə görünən "bir-birimizi sevməliyik" inancından danışmasını istəyirdi. Bir dəfə dedi:

– Mən çoxdan fikirləşirəm ki, bəlkə, elə eyni zamanda bu Tanrıya da inanım? Amma necə inanım ona? Bu qəribə

şeylərə necə inana bilərəm? Mən, qulların nəzarətçisi, çarmıxa çəkilən bir qula necə ibadət eləyə bilərəm?

Saak cavab verdi ki, elədir. Tanrı öz dünyasını qul ölümü ilə dəyişib, lakin, əslində, elə həqiqi Tanrıdır. Yeganə Tanrı! Əgər ona inansan, daha başqasına inanmayacaqsan.

– Yeganə Tanrı! Özünü də qul kimi çarmıxa çəkiblər! Necə ola bilər axı! Vahid, yeganə Tanrı – onu da çarmıxa çəkiblər!

– Hə, – Saak dedi. – Elədir ki var.

Nəzarətçi ona anlamaz bir nəzər saldı, heç nə demədi. Sonra adəti üzrə, başını bulayaraq, şaxtanın qaranlığında görünməz oldu.

Onlar dayanıb nəzarətçinin dalınca baxırdılar. Budur, o, yaxınlıqdakı məşəlin yanında göründü və sonra zülmətdə tamam yox oldu.

Nəzarətçi isə gedə-gedə həmin bu naməlum Tanrı barədə düşünürdü və qəribə burası idi ki, nə qədər çox düşünürdüsə, bir o qədər də artıq çaşırdı. Birdən o, həqiqətən, yeganə Tanrı olar ha? Bəlkə, yalnız ona, təkcə ona ibadət eləmək lazımdır? Bəlkə, yer üzündə elə bir Tanrı var – bütün yerin və göyün sahibi, öz qanunlarını hər yana, hətta yerin təkinə də yayan yeganə Tanrı? Elə qəribə qanunları var ki, heç cür anlamaq olmur... "Bir-birinizi sevin"... Yox, bunu dərk eləmək mümkün deyil.

O, iki çırağın arasındakı qaranlıqda ayaq saxladı ki, yaxşıca fikirləşə bilsin. Və burada nə etmək lazım olduğu birdən ağlına gəldi. Bu naməlum Tanrıya inanan qulu hamının tələf olduğu mədənlərdən çıxarmaq, yuxarıda, günəşin altında bir işə qoymaq lazımdır. O nə həmin Tanrını, nə onun inancını dərk eləyir, bunu dərk eləmək heç mümkün də deyil, amma qulu mütləq xilas edəcək. Sanki, Tanrının özü əmr eləyirdi ona.

Yuxarı qalxan kimi birbaşa nəzarətçinin yanına getdi; mədənlərə aid torpaqlarda işləyən qullar onun sərəncamında idi. Sağlam kəndçi sifəti, nəm dodaqları olan birisi idi, sözlərini

dinləyəndən sonra anlatdı ki, şaxtada işləmiş qul ona gərək deyil. Lakin, əslində, həmin vaxt onun qullara böyük ehtiyacı yaranmışdı, şum vaxtı idi, öküzləri isə çatmırdı. Amma yox, aşağıdan kimisə götürmək niyyətində deyildi. Onlar heç bir işə yaramırlar, xeyirsiz məxluqdurlar, heç o biri qullarla da dolanmazlar – burada, yerin üstündə nə işi var onların? O, yenə şaxtaya qayıtdı.

Ertəsi gün Saakla onun Tanrısı barədə həmişəkindən də çox söhbət elədi. Sonra da planlarını bölüşdü. Gedib şaxtanın girəcəyindəki gözətçiyə adını deməlidir, ayağındakı kündəni çıxarıb yoldaşından ayıracaqlar. Sonra da qaldıracaqlar yuxarı, aparacaqlar bundan sonra tabeliyində işləyəcək şəxsin yanına.

Saak onun üzünə baxır, qulaqlarına inana bilmirdi. Amma sonra birtəhər dilləndi ki, yoldaşından ayrıla bilməz, çünki Tanrıları da eynidir, inancları da.

Nəzarətçi çox təəccüblənib Varavvaya baxdı.

– Eynidir inancınız? Bununla? Axı o heç vaxt dizi üstə durub ibadət eləmir!

– Hə, – Saak cavab verdi. – Elə olmağına elədir. Lakin o, Tanrımıza məndən də yaxındır. Xilaskar əzablar içində öləndə yanında durub – xaçın yanında; onun ətrafında parlaq işıq görüb, sonra da görüb ki, alovlu bir mələk gəldi və Tanrının ölülər səltənətindən çıxması üçün tabutun ağzındakı daşı necə götürdü. Tanrının şöhrətindən o danışıb mənə.

Nəzarətçi yalnız başını bulayaraq, yanağı çapıq Varavvaya çəp-çəp nəzər saldı, heç vaxt adamın birbaşa üzünə baxmayan, – bax elə indi də üzünü yana çevirdi – Varavvaya. Yəni beləsi də Saakın Tanrısına inana bilər? Mümkündürmü bu? Yox, Varavvadan heç xoşu gəlmirdi. Və heç istəmirdi onu mədəndən çıxarsın. Lakin Saak bir də təkrar elədi:

– Mən ondan ayrıla bilmərəm.

Nəzarətçi dodaqaltı nəsə donquldanaraq, yenə Varavvaya bir xeyli çəpəki baxdı. Sonra isə, ürəyindən olmasa belə,

razılaşdı, hər şey Saak istəyən kimi olacaq, yəni onlar ayrılmayacaqlar. Özü isə onlardan aralanıb tənhalığa çəkildi.

Budur, təyin olunmuş vaxtda Saakla Varavva şaxtanın girişindəki gözətçinin yanına gəldilər, onların zəncirlərini çıxarıb şaxtadan qaldırdılar. Ayaqları yuxarı dəyəndə mərsin və lavanda rayihəsi yayan dağların üzərində parlayan günəşi, vadinin yaşıllığını və uzaqlardakı dənizi görəndə Saak dizi üstə yerə düşüb sevincindən özünü itirərək qışqırdı:

– O artıq buradadır! Buradadır o! Bax, budur onun səltənəti!

Dallarınca gələn nəzarətçi təəccüblə ona baxdı, sonra da ayağının ucuyla yüngülcə dümsüklədi ki, ayağa qalxsın və dedi:

– Yeri görüm, yeri.

Onlar kotana yaxşı qoşulurdular, çünki elə əvvəlcədən də cüt öküz kimi bir zəncirlə bağlanaraq öyrəşmişdilər bir-birinə. Arıq, çox miskin idilər, yarıqırxılmış saçları da qalan qulların gülüş hədəfinə çevrilmişdi. Haradan gəldikləri o dəqiqə görünürdü. Lakin onlardan biri özünə tezliklə gəldi, çünki təbiətən sağlam adam idi və artıq işin öhdəsindən də əməllicə gəlməyə başladılar. Nəzarətçinin onlardan şikayəti yox idi: yerin altından qalxmış adamlardan bundan artıq nə tələb eləmək olardı ki?

Onların özləri isə başlarına gələnlərə görə minnətdarlıq duyğuları içində idilər. Hərçənd ki, səhərdən axşama kimi heyvan təki işləyəsi olurdular, amma hər şey daha dəyişmişdi. İşıqlı dünyanı görmək, sinə dolusu nəfəs almaq özü artıq xoşbəxtlik idi. Sonradan arıq bədənlərindən tərləri sel kimi axsa da, günəşə baxmaqdan qətiyyən doymurdular, onlarla elə əvvəlki kimi – heyvan kimi davransalar belə, bəxtiyar idilər. Başlarının üstündə qırmanc lap elə mədəndəki kimi vıjıldayırdı, xüsusilə də gücü Varavvadan az olan Saakın payına

əməlli-başlı düşürdü. Amma, hər halda, həyata qayıtmışdılar artıq, bütün məxluqlar kimi torpağın üstündə yaşayırdılar, yerin təkində, əbədi zülmətdə yox. Səhər açılırdı, axşam düşürdü, gündüz də vardı, gecə də, hamısını görür və gördükcə də sevinirdilər.

Lakin Tanrı səltənətinin hələ yetişmədiyini də bilirdilər.

Digər qullar da tədricən onlara alışdı; indi bu iki qula vəhşi heyvana baxan kimi baxmırdılar. Üstəlik saçları da uzandığından onlar daha diqqət çəkmir, elə başqalarına bənzəyirdilər. Ümumiyyətlə, bu məsələdə ən qəribəsi onların cəhənnəmə düşmələri yox, oradan çıxa bilmələri idi – başqalarında elə əvvəldən də maraq və təəccüb, özləri etiraf etməsələr də, hətta qeyri-iradi heyranlıq doğuran məhz işin burasıydı. Amma bütün bunların necə baş verdiyini öyrənmək cəhdləri əbəsdi – həmişə qaradinməz olan bu iki qul özlərinə də möcüzə kimi görünən bu məsələ barədə danışmaqdan qəti imtina eləyirdilər. Onlar qəribə idilər, hamıdan gen gəzir və həmişə bir yerdə olurdular.

Halbuki indi buna ehtiyac yox idi, onları bir zəncirlə bağlamamışdılar; kiminlə ürəkləri istəsə, dostlaşa bilərdilər, yanaşı yatmaqlarına, birlikdə yemək yemələrinə də heç ehtiyac yox idi. Onlar isə elə əvvəlki kimi, birlikdə gəzib-dolaşırdılar, sanki, bitişik idilər.

Ən qəribəsi də odur ki, indi artıq bir-birindən bezirdilər, söhbətləri daha əvvəlki kimi tutmurdu. Buna baxmayaraq, özlərini vahid bir vücud kimi aparırdılar, hərçənd ki, onları ayıran cəhətlər daha çox idi.

Düzdür, kotana qoşulanda bir yerdə olmalıydılar. Lakin iş başa çatandan sonra başqaları ilə qaynayıb-qarışa bilərdilər. Amma özlərini qalan qulların içində necə yad saydıqlarını nəzərə alsaq, aralı gəzib-dolanmaları adama o qədər də qəribə görünməz... Onlar bir-birinə, artıq ayaqlarını bağlamayan zəncirlərinə öyrəşmişdilər. Gecənin bir aləmində yuxudan qəfil oyanıb zənciri görməyəndə canlarını qorxu alırdı, ta

ki yoldaşının da yanında olduğunu görənə kimi. Görəndən sonra sakitləşirdilər.

Bir düşünün, görün Varavva nə günə düşmüşdü! Onun başına belə bir şey gələydi! Çox qəribə və ağlasığmaz idi. Kiməsə bu cür bağlanmaq Varavvaya qətiyyən gərək deyildi. Amma onu bağlamışdılar, soruşmadan, dəmir zəncirlərlə bağlamışdılar. Bu zəncirlər indi daha olmasa da, var kimiydi, sanki, yenə vardı. O görünməz zəncirlərini dartıb qoparmaq, qaçıb canını qurtarmaq istəyirdi...

Saak isə ondan qətiyyən uzaqlaşmaq niyyətində deyildi. Əksinə, əvvəlki kimi yaxın olmadıqlarını özünə dərd eləmişdi. Niyə yaxın deyildilər? Nə baş vermişdi axı?

Özlərinin mədənlərdən, ölülər səltənətindən ecazkar bir tərzdə nicat tapmalarından heç vaxt bəhs eləmirdilər. İlk günlər bir az danışıb susdular. Saak deyirdi ki, onları yer üzünə Xilaskar, Tanrı Oğlu çıxarıb. Elə idi də... Məlum məsələdir... amma, əslində, belə çıxırdı ki, Saakı, həqiqətən də, Xilaskar və Tanrı Oğlu çıxarmışdı oradan, Varavvanı isə Saak xilas eləmişdi. Düz deyil? Belə çıxmırdı?

Yaxşısı bu barədə heç düşünməməkdir.

Varavva, təbii ki, nicat tapmasına görə Saaka minnətdar idi. Bəs Tanrıya? Yəni elə ona da minnətdar idi? Dəqiq demək olmaz bunu. Varavvadır da, kim ondan baş çıxarar...

Saak kədərlənirdi ki, ürəkdən bağlandığı Varavvanı heç tanımır. Ona acıyırdı ki, mədəndə, ölülər səltənətində olduğu kimi, birlikdə ibadət eləyə bilmirlər. Necə arzulayırdı bunu Saak! Lakin o, Varavvanı qınamırdı. Sadəcə, anlaya bilmirdi.

Varavvanın anlaşılmaz cəhətləri çox idi. Əvəzində o, Xilaskarın necə ölməsini, necə dirilməsini şəxsən görmüşdü. Ətrafındakı nuru – bu aləmə xas olmayan həmin nuru da görmüşdü. Hərçənd ki, sonralar bu barədə heç söhbət etməmişdilər.

Saakın sifəti mis sobasının qığılcımlarından xal-xal, arıq bədəni nəzarətçilərin qırmanclarından zol-zol idi. Amma bunun əzabını çəkmirdi, əksinə, özünü xoşbəxt adam sayırdı. Xüsusilə

də Tanrının möcüzə göstərərək, onu yer üzünə, günəşin altına, elə özünün ilhamla təsvir etdiyi həmin o laləli çöllərə çıxarandan sonra.

O elə Varavvaya da eyni möcüzəni göstərmişdi. Varavva isə yenidən gördüyü işıqlı dünyanı narahat nəzərlərlə süzürdü və heç kəs bilmirdi ki, beynində nələr dolaşır.

Yuxarıda ilk zamanlar belə yaşayırdılar.

Yaz şumu başa çatandan sonra onları su çarxının yanında qoydular işləməyə. İstilər düşən kimi çarxı işə salmaq lazım idi ki, toxumlar qurumasın. Bu da ağır iş idi. Daha sonra, məhsul yığımı başa çatanda isə onları Roma canişininin evinin yaxınlığında yerləşən dəyirmana yolladılar, dəyirman digər tikililərlə bir sırada idi və yerlilərin yaşadığı kiçik kəndlə birlikdə körfəz sahilində, sanki, balaca bir şəhərcik yaratmışdı. Onlar dənizin kənarına bu minvalla gəlib çıxdılar.

Elə orada, dəyirmanda da təkgöz, balacaboy birisilə tanış oldular.

O, dolu bədənli, alçaqboy, saçları dibindən qırxılmış, boz sifətli və qupquru dodaqları olan bir qul idi. Bir gözü oğrun-oğrun baxırdı adama, ikincisini isə bir az un oğurladığına görə çıxarmışdılar. Bu günahına görə də boynunda iri taxta lövhə gəzdirirdi. İşi ondan ibarət idi ki, kisələri unla doldurub anbara aparırdı. Nə son dərəcə bəsit olan bu işində, nə siçan bozuna çalan sifətində, nə də törə boyunda gözəgəlimli bir şey vardı. Amma buna baxmayaraq, o, başqalarından çox dəyirdi gözə, bilinmirdi nədən, bəlkə, səbəb bu idi ki, yanında olanda, hamı özünü pis hiss eləyirdi. Həmişə, heç baxmadan da demək olardı ki, həmin adam buradadır, yoxsa yox. Onun təkgöz baxışını lap kürəyinlə də hiss eləyirdin. Amma bu baxışı tutmaq çox az adama nəsib olurdu.

O, təzə gələn iki nəfərə qətiyyən fikir vermədi, sanki, onları heç görmürdü. Varavvagili ən ağır dəyirman daşının yanına qoyanda da, istehzalı, kinayəli bir təbəssümlə baxmasını kimsə görmədi. Bəlkə də, boz, qurumuş dodaqlardakı

bu əyrinin kinayəli təbəssüm olduğunu, sadəcə olaraq, heç kəs anlamırdı. Çarx dörd dənə idi və hər birində iki nəfər işləyirdi. Adamlar burada eşşəkləri əvəz eləyirdi, çünki eşşək az, adam isə nə qədər desən vardı və onları saxlamaq da heyvan saxlamaqdan ucuz başa gəlirdi. Saakla Varavva isə, qabaqkına baxanda, buradakı yeməyi, az qala, lap bol sayırdılar və ümumiyyətlə də, işin özü çox ağır olsa belə, güzəranlarından razı idilər. Şişman, az hərəkət eləyən nəzarətçiləri onlarla pis davranmırdı, vaxtının çoxunu qırmancını kürəyinə ataraq gəzişməkdə keçirirdi, qırmancdan nadir hallarda istifadə edirdi. Onun dadını yalnız bir kor qoca görürdü, o da bəzən.

Dəyirmanın içi undan ağappaq idi, uzun müddət ərzində un hər tərəfinə çökmüşdü: döşəmə, divarlar, tavandakı hörümçək torları. Fəzası da bir un və bir də dörd dəyirman daşı eyni anda işləyəndə yaranan ağır gurultudan ibarət idi. Hamı paltarsız işləyirdi, təkcə taygöz belinə bir kisə bağlayıb dəyirmanın içində siçovul kimi oyan-buyana şütüyürdü. Boynundakı taxta lövhədən oğurluq üstündə tutulması bəlli idi, amma necə olmuşdusa, canını daha pis yerlərə atılmaqdan qurtara bilmişdi. Deyirdilər ki, guya, anbarda tək olanda, indi də kisələrdəki undan yeyir, amma boynundakı taxta mütləq mane olmalıydı ona. Bir də deyirdilər ki, unu ac qaldığına görə yemir, tərsliyindən belə eləyir, çünki bir dəfə də ələ keçsəydi, ikinci gözünü də çıxaracaq və ondan sonra həmin kor qoca kimi dəyirman daşının yanında işlədəcəkdilər, bu isə qətiyyən onun gücü çatan iş deyildi və bir də oğurluq üstə tutulardısa, atılacağı zindan əbədi zülmətdən də qorxulu idi. Amma bu deyilənlərin düz olub-olmadığını kim bilirdi ki...

Yox, bu təzə gələnlər onun üçün qətiyyən maraqlı deyildilər. Onlara da hamı kimi, həmişəki kimi xəlvəti göz qoyurdu və gözləyirdi görsün ki, nə baş verəcək, amma birbaşa onlara qarşı nə elə bir qərəzi, nə də xüsusi bir münasibəti yox idi. Eşitmişdi ki, yerin altından gəliblər, amma özünün

oradan gələnlərlə heç vaxt təması olmamışdı. Şaxtadan gələnlərə qarşı tam biganə idi. Ümumiyyətlə, heç kəsə qarşı xüsusi münasibət görməzdin onda.

Onlar mədənlərə düşmüşdülərsə – deməli, nəsə ağır bir cinayət törətmişdilər, hərçənd ki, ikisindən birincisi caniyə heç bənzəmirdi. Əvəzində ikincisi əməlli-başlı oxşayırdı və deyəsən, bunun kənardan da hiss olunmasından yaman çəkinir, bədbəxt, yazıq görkəm alırdı. Həmin o birincisi isə lap sarsağa bənzəyirdi, yaxşı, bəs bunlar şaxtadan necə azad olmuşdular? O cəhənnəmdən necə qurtulmuşdular? Kim kömək eləmişdi onlara? Bax, məsələ bunda idi.

Amma bu sualın cavabını tapmaq elə də asan deyildi. Eybi yox, təkcə gözləmək lazımdır, hər şey aydınlaşacaq. Hər şeyin bu və ya başqa şəkildə mütləq bir izahı var. Bu məsələ də, necə deyərlər, öz-özünə aydınlaşacaq. Belə işdə gərək gözdən iti olasan. Onun isə iti gözü vardı.

Elə ona görə günlərin birində gözünə dəydi ki, uzun və arıq, gözləri inək gözünə oxşayan qul axşamlar, qaranlıq düşəndən sonra dizi üstə çöküb dua eləyir. Niyə dizi üstə? Təbii ki, ilahiyə ibadət eləyirdi, amma hansına? Hansı ilahidir ki, ona bu cür ibadət eləmək lazımdır?

Təkgöz cürbəcür, xeyli ilahi tanıyırdı, hərçənd ki, onların hansınasa ibadət eləmək ağlına da gəlmirdi. Əgər beyninə belə bir şey girsəydi, məbəddə bütlərin qarşısında adam kimi ibadət eləyərdi. Bu sarsaq isə elə bilir ki, onun ilahisi düz qabağında, qaranlıqda dayanıb. Elə danışır onunla, sanki, canlı bir şəxsdir, onu görən və çox yaxşı tanıyan birisidir. Möcüzədir lap. Qaranlıqda elə hey pıçıldayır, pıçıldayırdı, sidq-ürəkdən dua eləyirdi, hərçənd ki, burada heç bir ilahinin olmadığı hamıya bəlli idi. Bu, sadəcə olaraq, boş təxəyyüldür, vəssalam.

Olmayan bir şey heç adama maraqlı da gəlməz, lakin Saakın necə ibadət elədiyini görən gündən təkgöz onu qeyri-adi Tanrısı barədə sorğu-suala çəkməyə başladı. Saak hər

şeyi bacardığı kimi izah elədi ona. Dedi ki, onun Tanrısı hər yerdədir, lap elə qaranlığın özündə də. Nə vaxt istəsən, onu çağıra bilərsən və o dəqiqə hiss eləyəcəksən ki, bax, budur, sənin yanındadır. Hərdən lap adamda elə hissiyyat olur ki, elə bil, burada, düz sinənin içindədir və bundan gözəl hiss yoxdur. Təkgöz isə etiraf etdi ki, əgər belədirsə, deməli, onun Tanrısı, həqiqətən, qeyri-adidir.

– Düzdür, – deyə Saak təsdiq elədi.

Görünür, təkgöz Saakın gözəgörünməz, lakin güclü Tanrısı barədə dediklərini beynində götür-qoy eləyirdi, çünki susmuşdu. Amma sonra qəfildən dilləndi ki, sizi mədənlərdən xilas eləyən də, yəqin, öz Tanrınız olub.

– Bəli, elədir ki var, – Saak dilləndi. – Bizi o xilas etdi.

Bir də əlavə elədi ki, onun Tanrısı bütün əzilənlərin, qulların Tanrısıdır və hamını zəncirlərindən qurtaracaq. Saak ona öz inancını təlqin eləmək istəyirdi, çünki bu dəqiqə danışdıqlarına heyrət içində, ağzıaçıq qulaq asan bir kimsə vardı qarşısında.

– Hə, beləymiş, demək... – təkgöz dedi.

Saak, getdikcə daha artıq inanırdı ki, heç kəsə gərək olmayan, bir gözü çıxarılmış bu törəboy qula ən gərəklisi necə nicat tapacağını eşitməkdir, Saak isə onun gözlərini açmağa borcludur – bu elə Tanrının iradəsi idi. O, Tanrısı haqqında aravermədən danışırdı, hərçənd ki, Varavva, deyəsən, bunu qətiyyən təqdir eləmir, onlara çəp-çəp baxırdı. Və bir dəfə də Saak, nəhayət ki, taygözə öz sirrini açdı, lövhəsinin üstündəki yazını göstərdi. Əslində, təkgöz ondan xahiş elədi ki, mümkünsə, Tanrısının adını desin, Saak da cavab verdi və Tanrısının gücünü, əzəmətini sübuta yetirmək üçün bu müqəddəs adı əks etdirən işarələri ona göstərdi. Təkgöz lövhəni böyük maraqla gözdən keçirir və Saakın lövhəyə bu yazını cızmış, bu işarələrin hər birini gözəl bilən yunan qul barədə danışdıqlarına nəfəs çəkmədən qulaq asırdı. Sən bir işə bax ha, Tanrının işarələrini bilirmiş!

Saak yazıya bir də nəzər salıb, lövhəni çevirdi və onu mütləq bir bəxtiyarlıq hissi içərisində sinəsinə sıxaraq dedi ki, “mən Tanrının quluyam, mən Tanrıya məxsusam.”

– Bəs belə... – təkgöz dilləndi.

Sonra da ondan şaxtada bir yerdə olduğu dostu haqqında soruşdu. Onun da lövhəsində bu cür yazısı vardımı?

– Əlbəttə, – Saak cavab verdi.

Təkgöz də başını tərpətdi, yəni “mən də elə bilirdim.” Lakin, əslində, bir məsələ yaman maraqlı idi: hər ikisinin Tanrısı da, inancı da eyni idi, amma çapıqlı quldursifət heç vaxt ibadət eləmirdi. Onlar yenə də bu qəribə Tanrıdan danışdılar, sonra yenə də, yenə də... və Saaka elə gəlirdi ki, aralarında gözəl anlaşma yaranıb. Düşünürdü ki, yaxşı oldu sirrini açdı ona, düşünürdü ki, bu yolu Tanrının özü nişan verib.

Gözəl səhərlərin birində nəzarətçi gəlib elan eləyəndə ki Saakla Varavvanı günorta, təyin olunmuş vaxtda şəxsən prokuratorun özü gözləyəcək, dəyirmanda hamı çaşıb qaldı. Belə bir şey heç görünməmişdi axı, ən azı, bu nəzarətçi qullarla işləyəndən bəri. Odur ki, onun özü də başqalarından heç də az çaşmamışdı və heç bir şey anlaya bilmirdi. İki bədbəxt qulu Roma imperiyasının canişini gözləyəcəkdi! Nəzarətçiyə isə tapşırılmışdı ki, onları prokuratorun yanına ötürsün, yazıq özü də qorxmuşdu: indiyədək hələ bu boyda rütbə sahibini yaxından gördüyü heç olmamışdı. Əslində, bu işin ona elə bir aidiyyəti yox idi, onun vəzifəsi yalnız qulları deyilən yerə çatdırmaqdan ibarət idi, vəssalam.

Bəlli vaxt yetişəndə yola düşdülər, dəyirmandakıların hamısı onların dalınca baxırdı, hətta siçovula bənzəyən, quruyub naziklәşmiş dodaqlarının ucbatından heç gülümsünə də bilməyən həmin o törəboy da tək gözüylə tamaşa edirdi onların getməyinə.

Təbii ki, Saakla Varavva bələdçisiz bu dar küçələrdə dolaşa-dolaşa qalacaqdılar, şəhəri heç biri tanımırdı axı. Onlar nəzarətçinin dalınca, elə həmişəki kimi, bir-birinə, az qala, bitişik addımlayırdılar. Sanki, yenə bir zəncirə kündələnmişdilər.

Malikanənin oyma sidr qapısına ayağından zəncirlənmiş hündürboy, cantaraq qul onları içəri buraxdı. Və elə qapının ağzındakı sütunlu dəhlizdə gözətçiyə təhvil verdi, o isə gələnləri günəş şüaları altında bərq vuran kiçik həyətdən keçirərək, bir salona gətirdi, salonun qapısı birbaşa elə həyətə açılırdı. Orada da qəflətən romalını gördülər.

Hər üçü dizi üstə düşüb, alınlarını döşəməyə toxundurdu – Saakla Varavvanı nəzarətçi belə öyrətmişdi, hərçənd onlar özləri belə hesab edirdilər ki, insan qarşısında bu cür alçalmaq yaramaz. Yalnız icazə veriləndən sonra ayağa durmağa cəsarət elədilər. Salonun uzaq küncündə kreslosuna yayxanmış romalı əlinin hərəkəti ilə onları yaxına çağırdı, həyəcan içində yaxınlaşdılar, gələ-gələ ehtiyatla, əməlli-başlı süzdülər onu. Möhkəm bədəni vardı, yaşı altmışa yaxın olardı, dolu, lakin sərt üzü, ağır çənəsi, əmr verməyə öyrənmiş – o dəqiqə görünürdü – ağzı vardı. Baxışları nüfuzedici, diqqətli idi, lakin birbaşa təhlükə sezilmirdi onlardan. Qəribə idi ki, onun görkəmində qorxuducu bir şey hiss olunmurdu.

Əvvəlcə nəzarətçidən bu iki nəfərin özlərini necə aparması, onlardan razı qalıb-qalmadığı barədə soruşdu. O, kəkələyə-kəkələyə cavab verdi ki, onlardan razıdır, sonra da ehtiyat üçün "mən qulları boş buraxmıram" deyə əlavə elədi. Bəlli olmadı ki, onun bu səyini ali hökmdar qiymətləndirdi, ya yox, yalnız şişman bədəninə ötəri bir nəzər salıb əlinin yüngül hərəkəti ilə onu azad elədi. Nəzarətçi də tələsik çıxdı. Canını yüngül qurtarmağına elə sevindi ki, tələsik gedəndə çaşaraq öz ağasına hətta arxasını da çevirdi. Prokurator isə Saak və Varavva ilə məşğul olmağa başladı, haradan olduqları, hansı günahlarına görə cəzalandırıldıqları ilə maraqlandı, mədənlərdən necə, kimin tapşırığı ilə çıxdıqlarını soruşdu. Bütün söhbət ərzində də çox səmimi, dostyana bir ahəngi vardı. Sonra ayağa qalxıb, salonda gəzişdi, qəribədir ki, boyu da çox hündür imiş. Saaka yaxınlaşıb, boynundan asılmış lövhəni əlinə götürdü, baxdı və soruşdu ki, onun üstündə

nə yazıldığını bilirmi. Saak cavab verdi ki, bu, Roma dövlətinin möhürüdür.

Prokurator razılıq əlaməti olaraq başını tərpətdi və dedi ki, düzdür, deməli, Saak da Roma dövlətinə məxsusdur. Sonra isə lövhəni çevirib, aşkar maraqla, lakin qətiyyən təəccüblənmədən arxasındakı sirli işarələrə baxmağa başladı.

– İsa Məsih... – deyə oxudu, Saakla Varavva isə Tanrının müqəddəs adı yazılmış işarələrdən prokuratorun baş çıxarmasına yaman təəccübləndilər.

– Bu kimdir belə? – deyə soruşdu.

– Mənim Tanrım, – Saak cavab verdi və səsi azacıq titrədi.

– Belə. Mən onun adını eşitməmişəm, deyəsən. Amma ilahi çoxdur, hamısını yadda saxlaya bilməzsən. O, sizin vilayətlərin Tanrısıdır?

– Yox, – Saak cavab verdi. – O, bütün insanların Tanrısıdır.

– Bütün insanların? Bəs beləymiş! Pis deyil. Məsələn, mən onun barəsində heç eşitməmişəm. Deyəsən, sizin Tanrı öz şöhrətini əməlli-başlı məxfi saxlayır.

– Bəli, – Saak cavab verdi.

– Bütün insanların Tanrısı... Deməli, onun qüdrəti də böyükdür. Nədədir onun gücü?

– Məhəbbətdə.

– Məhəbbətdə?.. Ola bilər, çox ola bilər... niyə olmasın ki?.. Yaxşı, mən qarışmıram, nə qədər istəyirsən, inan özün üçün. Bircə buna cavab ver, niyə lövhənin üstündə onun adını gəzdirirsən?

– Çünki mən ona məxsusam, – Saak cavab verdi və səsi yenidən azacıq titrədi.

– Belə de! Ona məxsussan? Bu, necə olur? Məgər sən dövlətin qulu deyilsən?

Saak heç bir cavab vermədi. Elə dinməz durub, gözlərini döşəməyə zilləmişdi.

Nəhayət, romalı yenə də səsində heç bir qəzəb əlaməti olmadan dilləndi:

– Sən cavab verməlisən. Biz aydınlaşdırmalıyıq ki, sən vəziyyəti dərk eləyirsən, yoxsa yox. Beləliklə, mənə cavab ver, sən dövlətə məxsussan? De.

– Mən ulu Tanrıma məxsusam, – deyə Saak baxışlarını qaldırmadan cavab verdi.

Prokurator isə ayaq üstə durub, ondan gözlərini çəkmirdi. Sonra onun çənəsindən yapışdı, qaldıraraq, soba qabağında yanmış sifətinə baxdı. İstədiyini tapdı deyə, daha bir söz demədi, Saakın çənəsini buraxdı.

Sonra Varavvaya yaxınlaşdı, indi də onun boynundakı lövhəni çevirərək, soruşdu:

– Bəs sən? Sən də inanırsan hamını sevən o Tanrıya?

Varavva cavab vermədi.

– Hə! İnanırsan, yoxsa yox?

Varavva başını yellədi.

– Yox? Bəs onda niyə lövhənin üstündə onun adını gəzdirirsən?

Varavva yenə də dinmədi.

– Bu sənin Tanrındır, yoxsa yox? Bu yazının mənası nədir?

– Mənim Tanrım yoxdur, – nəhayət ki, Varavva da cavab verdi, özü də lap yavaş, zorla eşidiləcək bir tərzdə. Lakin romalı da, Saak da onun cavabını eşitdilər.

Bu ağlasığmaz sözlərdən sonra Saak onun üzünə elə çıxılmazlıq, ağrı və anlamaz bir ifadə ilə baxdı ki, baxışı Varavvanın lap içinə yeridi, deşik-deşik elədi onu, hərçənd ki, Varavva özü heç Saaka sarı baxmırdı da.

Romalı da heyrətləndi.

– Mən başa düşmürəm, – dedi. – Bəs onda lövhənin üstündəki “İsa Məsih” sözləri niyə yazılıb?

– Çünki mən də inanmaq istəyirəm, – deyə Varavva gözlərini döşəmədən çəkməyərək, cavab verdi.

Romalı onun bomboş sifətinə, gözünün altındakı çapığa, əvvəlki gücünü hələ də saxlamış kobud, sərt ağzına baxdı. Üzündə heç bir ifadə yox idi və çox güman ki, heç çənəsindən

yapışsaydın belə, bir şey çıxası deyildi. Amma bu qul ilə belə davranmaq onun heç ağlına da gəlməzdi. Niyə? Niyəsini özü də bilmirdi.

O, yenə Saaka tərəf çöndü:

– İndi dediyin sözlərin fərqindəsənmi? Sən axı İmperatora qarşı üsyan edirsən? Başa düşürsən ki o da ilahidir, sən onunkusan və boynundan məhz onun lövhəsi asılıb? Sən isə burada elan eləyirsən ki, guya, başqa, tanımadığımız bir Tanrıya məxsussan, hələ bir onun adını da lövhəndə cızmısan ki, Sezara yox, ona məxsus olduğunu elan eləyəsən. Nədir, yoxsa düz demirəm?

– Elədir, – Saak inamsız bir səslə cavab verdi, amma səsi daha bayaqkı kimi titrəmirdi.

– Sən israr edirsən?

– Bəli.

– Anlayırsan ki, buna görə səni nə gözləyir?

– Bəli. Anlayıram.

Romalı susdu. O, qulların Tanrısı haqqında düşünürdü, düzünə qalsa, onun barəsində artıq eşitmişdi, son zamanlar yaman çox danışırdılar ondan – Yerusəlimli divanə, biabırçı qul ölümünü qəbul etmiş divanə. "...Bütün zəncirləri qırmaq"... "... Tanrının quluna elə öz Tanrısı da nicat verəcək"... Əgər dərindən düşünsən, bu cür sözlər heç də təhlükəsiz deyildi... Bu sir-sifətdə adam çətin ki, bir quldarın xoşuna gələ...

– Öz inancından imtina eləsən, sağ qalacaqsan, – dedi. – Aydındır?

– Yox, mən bacarmaram, – deyə Saak cavab verdi.

– Niyə axı?

– Mən öz Tanrımdan imtina edə bilmərəm.

– Qəribə adamsan... Ümidvaram ki, məni hansı hökmü çıxarmağa vadar etdiyini aydın başa düşürsən? Yəni sən o qədər cəsursan ki, inancına görə ölümü qəbul etməyə hazırsan?

– Bunu mən həll eləmirəm, – Saakın sakit cavabı belə oldu.

– O qədər də ürəkli səslənmədi bu sözlərin. Yəni sənin həyatına heç heyfin gəlmir?

– Gəlir, – Saak cavab verdi.

– Əgər sən öz Tanrından imtina etməsən, səni heç nə xilas edə bilməyəcək və həyata əlvida deməli olacaqsan.

– Mən öz Tanrımdan ayrıla bilmərəm.

Prokurator çiyinlərini çəkdi.

– Mən də sənin üçün daha heç bir şey eləyə bilmərəm, – deyərək, bayaq arxasında oturduğu masaya yaxınlaşdı. Fil sümüyündən olan çəkiclə masanın mərmər üstlüyünü taqqıldatdı. – Sən də elə Tanrın kimi divanəsən, – deyə əlavə elədi, amma bu sözləri daha Saaka demirdi.

Gözətçi gələnə kimi prokurator Varavvaya yaxınlaşıb, boynundakı lövhəni çevirdi, xəncərini çıxarıb, ucu ilə İsa Məsihin adının üstündən çarpaz xətt çəkdi.

– Əgər ona inanmırsansa, deməli, bu da lazım deyil sənə, – dedi.

Saak isə Varavvaya elə baxırdı ki, lap alov kimi yandırırdı və bu baxışları Varavva heç vaxt unuda bilməyəcəkdi.

Budur, Saakı apardılar, Varavva isə qaldı. Prokurator ağıllı hərəkətinə görə onu təriflədi, dedi ki, bu hərəkəti mükafata layiqdir. Sonra da tapşırdı ki, onbaşının yanına getsin, onu daha yüngül bir işə təyin eləsinlər.

Varavva prokuratora iti bir nəzər saldı və romalı gördü ki, sən demə, bu sifətdə ifadə də varmış, baxış da, amma bu baxışdan bir təhlükə gəlmirdi. Nifrət onun içində heç vaxt yayından qopmayacaq bir oxun ucu kimi titrəyirdi.

Varavva onun tapşırığını yerinə yetirmək üçün tələsdi.

Saakı çarmıxa çəkəndə, Varavva bir az aralıdakı kolluğun dalında durmuşdu ki, dostu xaçın üstündən baxanda onu görməsin. Lakin Saaka əvvəlcədən o qədər işgəncə vermişdilər ki, onsuz da Varavvanı görəsi halda deyildi. Onu da hamı kimi incitmişdilər, onlara elə gəlmişdi ki, hökmdar bu

barədə əmr verməyi unudub. Əslində isə prokurator heç bir işgəncə nəzərdə tutmamışdı, sadəcə olaraq, bu barədə xəbərdarlıq etməyi unutmuşdu. Odur ki ehtiyat üçün, gözətçilər həmişə necə davranırdılarsa, bu dəfə də elə eləmişdilər. Bu qul niyə çarmıxa çəkilirdi – bunu bilmirdilər, çox elə ehtiyacları da yox idi öyrənməyə. Onlar öz işlərinə artıq çoxdan öyrəncəli idilər.

Yenə onun başının yarısını qırxdılar, ağ saçları tamam qan içində idi. Üzündə heç bir ifadə yox idi, amma Varavva onu çox yaxşı tanıdığından, bilirdi ki, əgər gücü çatsaydı, indi üzündə hansı ifadə olardı. Varavva onun sifətinə od kimi yanan nəzərlərlə baxır, baxırdı; əgər Varavvanın gözlərinə yanmaq kəlməsi, ümumiyyətlə, uyğundursa. Amma indi bu gözlərə odlu demək olardı. Dostunun əldən düşmüş bədəninə də gözünü çəkmədən baxırdı, heç istəsəydi də çəkə bilməzdi, amma heç istəmirdi də. Bu bədən o dərəcədə arıq və gücsüz idi ki, içinə heç bir şər sığışmazdı. Bütün qabırğaları sayılan sinəsində dövlət möhürünü damğalamışdılar, bu o demək idi ki, dövlətə xəyanətdə ittiham edilirdi. Öz lövhəsini isə çıxarmışdılar artıq, metalı kara gələrdi, onsuz da onun özünə bir də lazım olmayacaqdı.

Onu şəhərdən kənarda, üstündə təkəm-seyrək kolluqlar olan kiçik bir təpədə edam edirdilər, belə kolların birinin də dalında Buraxılan Varavva durmuşdu. Ondan və çarmıxa çəkənlərin özlərindən başqa, heç kəs yox idi, Saakın ölümü kimi maraqlandırırdı ki... Adətən, bura camaat toplaşırdı, xüsusilə də təhlükəli bir canini edam eləyəndə. Saak isə heç kəsi öldürməmişdi, qarət eləməmişdi və nə törətdiyini heç kəs bilmirdi.

Yenə yaz fəsli idi, lap Saakla birgə yerin altından qalxanda və o dizi üstə düşüb: "O artıq buradadır! O, buradadır!" – deyə çığıranda olduğu kimi – yazdır.

Dörd bir tərəfdə zəmilər yaşıllaşırdı və hətta Saakı edam elədikləri təpə də tamam gül-çiçək içində idi. Günəş dağların,

yaxınlıqdakı göy dənizin üstündə parlayırdı. Lakin günorta idi, isti adamı əzirdi və bu murdar təpəyə kimsə ayağını basan kimi milçəklər yerdən bulud kimi qalxırdı. Onlar Saakın bütün bədəninə qonmuşdular, qımıldanıb qova da bilmirdi. Yox, bu cür ölümü nə gözəl adlandıra bilərsən, nə ibrətamiz.

Elə buna görə də aydın deyil ki, bu edam Varavvaya niyə belə təsir edirdi. Təsiri isə göz qabağında idi. Varavvanın bəbəkləri gördüyü hər şeyi, sanki, əbədi saxlamaq üçün içinə hopdururdu: alnından, dərin, arıq qoltuqlarından yuvarlanan tər damcıları, üzərində yandırılmış Roma damğası durmadan irəli-geri oynayan sinə, heç kəsin qovmadığı milçəklər... Başı sallanmışdı, inildəyərək can verirdi, Varavva kolun dalından hər şeyi aydın eşidirdi. O elə özü də ağır-ağır, qeyri-müntəzəm nəfəs alırdı, ağzı da xaçdakı dostununku kimi açıq idi. Hətta özü də su istəyirdi, təbii ki, indi elə Saak istəyən kimi. Hə, bu, ağlasığmazdır. Amma gör nə qədər bir zəncirlə bağlanmışdılar. Birdən Varavvaya elə gəldi ki, çərxifələk geri fırlanır və onu çarmıxdakı insanla yenə eyni zəncirlə kündələyiblər.

Budur, Saak nəsə demək istəyir, yəqin ki, su istəyir, amma heç kəs heç bir şey anlamır. Heç Varavva da diqqətini nə qədər cəmləsə belə, onun dediyini eşidə bilmədi. Düzdür, nisbətən uzaqda idi, amma təpənin başına çıxıb, xaça tərəf yüyürərək, dostundan soruşa bilərdi ki, nə istəyir və o, Varavva ona nə kömək edə bilər – həm də getmişkən milçəklərini qovardı. Amma bunların heç birini eləmədi Varavva. Elə kolluğunda gizlənmişdi. O heç bir şey eləmədi. Bütün bu müddət ərzində Saaka ancaq od saçan gözləriylə baxırdı, çarmıxdakının əzablarından ağzı da açıla qalmışdı.

Tezliklə bəlli oldu ki, çox gözləmək lazım gəlməyəcək. Nəfəsini lap üzdən alırdı; daha sinəsi körük kimi qalxıb-enmirdi, artıq Varavva da onun necə nəfəs almasını eşidə bilmirdi. Bir azdan da bu arıq sinə tamam dondu və deməli, Saak da

öldü. Günün günortaçağı heç bir zülmət-filan düşmədən, möcüzəsiz-zadsız, sakitcə, sezilmədən canını tapşırdı. Heç ona göz qoymağa gələnlərin də xəbəri olmadı, təpədə uzanıb zər atırdılar, eynilə onda, lap çoxdan olduğu kimi. Bu dəfə xaçdakı öləndə onlar yerlərindən sıçramadılar, qorxmadılar. Onlar sadəcə olaraq, heç nə görmədilər. Təkcə Varavva gördü hər şeyi, nə baş verdiyini anlayanda nəfəsi çatmadı, dizi üstə düşdü, sanki, ibadət eləyirdi.

Qəribə işdir, amma dostu bu səhnəni görə bilsəydi, yəqin, sevinərdi. Saak isə artıq ölmüşdü.

Varavva dizləri üstə düşsə də, dua eləyə bilmirdi. Üzünü tutub, dua eləyəsi bir kimsəsi yox idi. Elə bir az durdu dizləri üstə. Sonra isə əziyyət çəkmiş ağ saqqallı sifətini ovuclarına dirədi və yəqin ki, ağladı.

Qəflətən əsgərlərdən biri çarmıxdakının artıq öldüyünü görüb, söydü, əvvəlcə onu xaçdan çıxarmaq lazım idi, sonra itib-getmək olardı. Onlar da əvvəlcə çıxardılar, sonra isə itib-getdilər.

Saak çarmıxa belə çəkildi, buraxılmış Varavva isə durub, bütün bunlara tamaşa edirdi.

Prokurator tutduğu vəzifəsindən çıxıb, ömrünün qalan hissəsini sakit yaşamaq üçün Romaya qayıdanda onun sərvəti adanın bütün qalan hakimlərininkindən çox idi, onun zamanında mədənlər və elə bütün əyalət dövlətin xəzinəsinə görünməmiş gəlir verirdi. Saysız-hesabsız nəzarətçilər öz səyləri, ciddilikləri və qəddarlıqları ilə prokuratora kömək eləyirdilər ki, təbiətin nəyi vardısa, əhalinin, qulların imkanları nəyə çatırdısa, sümürüb çıxarsın. Prokuratorun özü qətiyyən qəddar deyildi. Onun hakimiyyəti sərt idi, özü yox. Əgər onu qəddarlıqda günahlandırırdılarsa, yalnız bilməməzlikdən edirdilər bunu, onu, sadəcə olaraq, tanımırdılar. Onu heç tanımırdılar deyə, haqqında şayiələr, dedi-qodu dolaşırdı. Mədənlərin dərinliyində, günəşin qupquru qurutduğu

zəmilərdəki kotanların arxasında minlərlə adam onun gedəcəyindən xəbər tutan kimi, taleyinə alqışlar yağdırdı, onlar öz sarsaqlıqları ucbatından ümid eləyirdilər ki, yerinə gələcək təzə hökmdar daha yaxşı olacaq. Prokurator isə bu gözəl adanı kədər və təəssüf hissi ilə tərk edirdi. O, burada pis yaşamamışdı.

İşdən də uzaqlaşmaq ürəyindən deyildi, çünki hələ bəs deyincə qüvvəsi vardı. Lakin onun həm də incə zövqlü bir təbiəti vardı və Romadakı dəbdəbənin, özünə bab yüksək zövqlü cəmiyyətin ona bəxş edəcəyi ləzzəti məmnuniyyətlə gözləyirdi. Kölgəli göyərtədəki rahat kreslosunda dincələrək, elə bu barədə xəyallara dalmışdı.

O özü ilə şəxsi ehtiyaclarını ödəmək üçün qullar aparırdı, onların arasında Varavva da vardı. Düzdür, Varavvanı siyahıya daha çox mərhəmətindən salmışdı, bu yaşda quldan nə fayda olacaqdı ki? Lakin prokurator ağıllı tərpənərək, Tanrısının adını silməyə imkan vermiş bu üzüyola qulu yaxşı xatırlayırdı deyə, qərara almışdı ki, onu da özü ilə aparsın. Kim güman edə bilərdi ki, Varavvanın belə yaddaşlı, qayğıkeş bir hamisi peyda olacaq?

Gəmi həmişəkindən yavaş gedirdi, uzun müddət səmt küləyi əsmədi və qan içində olan avarçılar neçə həftə aravermədən avar çəkərək, onu, nəhayət ki, Ostiyaya yetirdilər, ertəsi gün isə prokurator artıq Romada idi. Tezliklə bütün sərvəti, nökərləri, qulluqçuları, qulları da ora gəlib çıxdı.

Aldığı saray şəhərin lap ürəyində, onun ən varlı məhəlləsində idi. Bir-neçə mərtəbəsi vardı, rəngbərəng mərmərlə işlənmiş, görünməmiş bir dəbdəbə ilə bəzədilmişdi. Başqa qullarla bir yerdə zirzəmidə yaşayan Varavva, bütün evdən elə bircə bu zirzəmini görürdü, amma başa düşürdü ki, sahibinin evi çox təmtəraqlı, gözəldir. Bu, onun qəti vecinə deyildi. İşi yüngül idi, müxtəlif kiçik tapşırıqlar yerinə yetirirdi, hər səhər də başqa iki qulla birlikdə, keçmişdə qul olmuş, amma sonra sərbəst buraxılan, vacib bir şəxsi müşayiət elə-

yirdi, o, mətbəx məsələləri ilə məşğul idi və alış-veriş üçün şəhərdən kənara çıxırdı. Odur ki Romanı Varavva bəs deyincə gördü. Şəhər Varavvanın gözlərində eləcə sayrışırdı. Dar küçələrlə, qışqırıq salan bazarla adamların arasından sivişib keçərkən Varavva hər şeyi, elə bil, qatı duman içində görürdü. Dünyanın əzəmətli, səs-küylü paytaxtı onun üçün, sanki, həqiqi deyildi və o, şəhərin küçələriylə gedərkən öz düşüncələrinə qərq olaraq, ətrafında heç bir şeyi görmürdü, elə bil, özü deyildi gedən, kabusu idi. Burada müxtəlif irqlərdən, müxtəlif ölkələrdən olan kişi və qadınlar vardı, bu qarışqa yuvası, Varavvadan başqa, kimi desən heyrətləndirə bilərdi, sərvət və dəbdəbə, əzəmətli binalar və saysız-hesabsız ilahilərin şəninə ucalan saysız-hesabsız məbədlər; bu məbədlərə qızıla tutulmuş kəcavələrdə məşhur ağaları gətirirdilər ki, tacirlərin Via Sakradakı bahalı dükanlarında, zəngin hamamlarda təklif olunan nemətlərdən başları ayılanda hərə öz ilahisinə ibadət eləyə bilsin. Kimin desən, bu dəbdəbəni görən gözləri çəpləşərdi, lakin Varavvanın gözləri heç nə görmürdü, bəlkə də, ondan idi ki, çox dərində qərar tutmuşdu və baxdığı şeylərdən lazımsız, yad olanları göz yuvalarından yan keçir, bəbəklərinə yetişmirdi. Yox, bütün bunlar Varavvaya qətiyyən gərək deyildi. Heç olmasaydı da, fərq eləməzdi. Bunlara biganə idi. Ən azı, özü belə düşünürdü.

Lakin demək olmazdı ki, Varavva bütün dünyaya tam biganə idi. Yalnız ona görə ki, Varavva bu dünyaya nifrət eləyirdi.

Şəhərin küçələriylə hərəkət eləyən mərasim dəstələri: kahinlər, möminlər, müqəddəs rəmzlər onun gözündə, sanki, həqiqi deyildi. Ona, Tanrısı olmayan birisi kimi, qəribə gəlirdi ki, yolda belə dəstələrə addımbaşı tuş gəlirsən və hər dəfə də çəkilib yol vermək lazımdır. O, hər dəfə divara sıxılıb, dallarınca çəpəki, oğrun-oğrun baxırdı. Amma bir dəfə onların dalınca gedib, qabaqlar görmədiyi, qəribə bir məbədə çatdı, içəri girdi və qucağında körpəsi olan bir ana şəklinin qabağında camaatla durdu, soruşanda ki bu, kimin şəklidir,

cavab verdilər: İzida və körpəsi Qorun şəklidir. Lakin sonra başladılar ona şübhəli baxmağa, yəni bu kimdir ki, Müqəddəs Ananın adını bilmir və məbədin gözətçisi də gəlib, onu darvazadan çölə itələdi, sonra da döymə mis qapıların qabağında əliylə sehrli bir işarə elədi ki, məbədi də, özünü də Varavvadan qorusun. Sanki, onun yer və göydəki bütün məxluqlara, yerlə göyü Yaradana nifrət içində doğulması ürəyinə dammışdı!

Varavvanın gözünün altındakı çapıq qızarır, nifrət vəhşi, oğrun baxışında uçmağa hazır ox kimi titrəyirdi, Varavva küçələrlə, döngələrlə qaçırdı. "Rədd ol buradan, kafər! O, yolu çaşdırdı, azdı və nəhayət, evə gəlib çıxanda, az qalmışdı, gecikdiyinə görə cəzalandıralar, amma dəymədilər, sahibinin ona yaxşı münasibətindən xəbərdar idilər. Varavvanın yad şəhərdə yol azması, küçələri gəzməsi barədə dolaşıq sözlərinə də inanmalı oldular. O, zirzəminin uzaq küncündəki qaranlıqda uzandı. Sinəsi körük kimi qalxıb-enir və üstü cızılmış "İsa Məsihin" adı onu alov kimi yandırırdı.

Həmin o gecə yuxuda gördü ki, başqa bir qulla eyni zəncirdədir və o qul Varavvanın yanında oturub ibadət eləyir, Varavva isə onu görmür.

– Sən kimin üçün dua eləyirsən? – Varavva ondan soruşur. – Niyə dua eləyirsən?

– Mən sənin üçün dua eləyirəm, – qaranlıqdan həmin qulun səsi gəlir, bu səs isə ona tanışdır.

Lap sakit uzanmışdı ki, onun dualarına mane olmasın və Varavvanın qoca gözləri yaşla dolu idi. Lakin oyanıb, əllərini döşəməyə sürtərək, zəncirini axtaranda, nə zənciri tapa bildi yanında, nə də yoldaşını. Varavvanı heç kimlə bağlamamışdılar, bütün yer üzündə bağlandığı kimsə yox idi.

Bir dəfə, sarayın tağlı zirzəmisində tək qalanda divarın gizlin bir guşəsində kobud əllərlə cızılmış bir balıq şəkli gördü. Şəkli əlindən gəlməyən birisi cızmışdı, lakin nəyi təsvir edirdi, mənası nə idi, bu tamam aydın sezilirdi. Varavva dayanıb

fikirləşirdi ki, görəsən, bu qulların hansı xaçpərəstdir? Bu barədə sonra da xeyli fikirləşdi, qulların hər birinə göz qoydu, tapmacanı açmağa çalışırdı. Lakin heç kəsdən heç bir şey soruşmadı. Karına gələ biləcək məlumat da toplamırdı. Əgər istəsəydi, çətin iş deyildi. Amma heç kəsdən soruşmadı.

O, başqa qullarla ünsiyyət saxlamırdı, daha doğrusu, yalnız ehtiyac olanda danışırdı. Heç kəslə danışmadığına görə də heç birini tanımırdı və heç biri onun üçün maraqlı deyildi.

Romada xaçpərəst çox idi, bu, Varavaya bəlliydi. Məlum idi ki, onlar şəhərin müxtəlif yerlərindəki ibadət evlərində dəstə-dəstə toplaşırdılar. Amma o, belə yerlərə getmirdi. Birneçə dəfə fikirləşmişdi ki, getsin, lakin getməmişdi. Onların Tanrısının adını boynundakı lövhədə gəzdirirdi, amma bu ad artıq cızılmışdı.

Son vaxtlar, təbii ki, xaçpərəstlər də gizlənməyə başlamışdılar, məxfi yığışırdılar, başqa-başqa yerlərdə; təqiblərdən çəkinirdilər. Bu barədə qul bazarında eşitmişdi, orada bir nəfər Müqəddəs Ana məbədinin gözətçisi Varavvadan qorunmaq istəyəndə əlini açdığı kimi, beş barmağını açıb, xaçpərəstlərdən qorunmağa çalışırdı: Onlar təhlükəli və murdardırlar, cadu ilə məşğul olurlar – əllərindən nə gəlmir ki! Tanrıları da dəhşətli cinayətkardır, onu lap çoxdan asıblar. Onlardan nə qədər uzaq olsan, o qədər yaxşıdır...

Bir axşam o, təsadüfən eşitdi ki, iki qul zirzəminin qaranlığında pıçıldaşır, onu görmür və elə bilir ki, yaxınlıqda kimsə yoxdur. Varavva da onları görmürdü, amma səslərindən tanımışdı. Bu evə təzəlikcə gəlmişdilər, onları bazardan bir-iki həftə qabaq almışdılar.

Söhbət Appi yolunun üstündə, Mark Lüsi bağında xaçpərəst qardaşlığının sabah axşam baş tutacaq yığıncağından gedirdi. Tezliklə Varavva başa düşdü ki, onlar bağın özündə yox, oradan başlanan yəhudi katakombalarında yığışacaqlar.

Görüş üçün çox qəribə yer idi... Ölülərin arasında... Gör nələr gəlir ağıllarına...

Ertəsi gün axşam Varavva, hələ zirzəminin qapıları bağlanmamışdan, canını təhlükəyə atıb, gizlincə sarayın həyətindən çıxa bildi.

O, Via Apiaya çatanda şər qarışırdı və yolda, demək olar ki, heç kəslə rastlaşmadı. Bağa necə keçmək lazım olduğunu qoyun sürüsünü evlərinə qovan bir çobandan soruşdu.

Yerin altına girəndə əllərini divarlara sürtərək, üzüaşağı aparan dar keçidlə irəliləməyə başladı. Bayırdakı işıq hələ yuxarıdan düşürdü bura və bir-birinin yanında zülmətə gedən qəbirlərin ilk cərgəsi görünürdü. Varavva əlini soyuq, yaş divarlara sürtə-sürtə gedirdi. Onlar birinci, böyük qalereyada toplaşacaqdılar, bunu da həmin qullardan eşitmişdi. Varavva elə hey gedir, gedirdi.

Budur, deyəsən, nəsə səs eşidir. O, yerində donub, qulaqlarını şəklədi – yox, heç bir səs gəlmirdi. Yenidən getməyə başladı. Addımlarını ehtiyatla atırdı, qabağına tez-tez pillələr çıxırdı, gah bir, gah da ki, bir neçəsi birdən və bu pillələr onu getdikcə daha dərinliyə aparırdı.

Qalereya isə görünmürdü, yalnız qəbirlərin arası ilə irəliyə aparan dar yol vardı. Sonra isə bu yol haçalandı və Varavva artıq bilmirdi ki, hansı səmtə getməlidir. O, çaşqın halda yerində mıxlandı. Lakin qəflətən çox uzaqda bir işıq parladı. Hə, işıq idi! Varavva özünü həmin istiqamətə atdı. Hə, deyəsən, elə ordadırlar!

Birdən həmin işıq yox oldu. Tamam itdi. Bəlkə, o bilmədən, başqa keçidlə getmişdi? Tez geriyə döndü ki, işığı bir də görsün. Lakin artıq görünmürdü, heç yanda yox idi!

Varavva bir şey başa düşmürdü. Harda idilər? Necə tapsın onları? Axı burda olmalıdırlar!

Görəsən, hara gəlib çıxıb? Eybi yox, necə gəldiyini yaxşı xatırlayır, çıxışın yolunu bilir, nə vaxt istəsə, qayıda bilər. Varavva qərara aldı ki, geri dönsün.

Bütün girinti-çıxıntılarını yaxşı yadda saxladığı həmin o keçidlə qayıdanda, o işığı bir də gördü. Güclü, parlaq işıq

idi – yan keçiddə – yəqin, bayaq görməmişdi onu və işıq indi əks səmtə gedirdi. Yəqin, elə həmin işıq idi və Varavva işığa tərəf cumdu. İşıq isə getdikcə güclənir, güclənirdi... Birdən də söndü. Yenə tamam yox oldu.

Varavva başından tutdu. Əllərini sürtüb, gözlərini yoxladı. Bu nə işıq idi? Ümumiyyətlə, burada işıq vardımı? Bəlkə, onun gözünə görünüb? Bəlkə, yenə gözlərinə nəsə olub?.. bir zamanlar, lap çoxdan olduğu kimi... O, gözlərini ovuşdurub, çaşqın halda ətrafına göz gəzdirirdi...

Heç bir işıq yoxdur burada! Heç yanda! Ətraf yalnız qatı bir zülmətdir və o, bu zülmətin ağuşunda tək qalıb, heç kim yoxdur burada, heç kim, yalnız ölülərdir!..

Ölülər! Dörd bir yanında ölülər! Hər yerdə, hər yanda, hər tərəfdə, bütün keçidlərdə. Hara getsin? O bilmirdi, hara getmək lazımdır ki, çıxa biləsən, buradan çıxasan, ölülər səltənətindən çıxasan...

Ölülər səltənəti!.. O, Ölülər səltənətinə gəlmişdi! O, Ölülər səltənətinin əsiridir!

Onu dəhşət bürüdü. Ürəkbulandırıcı bir dəhşət. Birdən çıxıb getdi, hara gəldi getdi, keçidlərlə yüyürür, görünməz pillələrdə səndələyir, gah o tərəfə, gah da ki bu tərəfə cumurdu, çıxmaq istəyirdi buradan, bayıra çıxmaq... O, dəli kimi çapalayır, boğulmaq dərəcəsində nəfəsi kəsilirdi... Ləngərləyə-ləngərləyə, ölülər hörülmüş divarlara dəyə-dəyə, buradan can qurtarmaq ümidini də itirdi...

Birdən bir ılıq meh toxundu üzünə, haradansa yuxarıdan gəlirdi, başqa dünyanın mehi... Artıq ağlı tamam başından çıxmaqda olan Varavva üzüyuxarı getdi və bir də gördü üzümlüyün içindədir. Orada torpağın üstünə uzanıb boş, qaralmış səmaya baxırdı.

Hər tərəf qaranlıq idi. Həm yer, həm də göylər. Hər yan.

Varavva gecənin Via Appiası ilə şəhərə qayıdanda özünü tamam tənha hiss edirdi. Ona görə yox ki tək idi, heç kəslə

üz-üzə gəlmir, heç kəslə yanaşı addımlamırdı, ona görə ki, bütün yer üzünü sarmış bu nəhayətsiz gecədə, həm yerdə, həm göydə, həm ölülər, həm də dirilər arasında kimsəsiz qalmışdı. O, həmişə tək olub, amma bunu yalnız indi anlamışdı. Zülmət içində addımlayırdı, sanki, zülmətdə basdırılmışdı, qoca, tənha üzünü isə atasının vurduğu yaranın çapığı bölürdü. Qırış-qırış, qoca sinəsindəki çal tüklərin arasında da Tanrının adı pozulmuş lövhə gizlənmişdi. Bəli, o, tək idi, nə yerdə, nə göydə bir kimsəsi yox idi...

O, öz içində, özünün ölülər səltənətində qıfıllanmışdı. Necə çıxaydı oradan?

O, başqa bir insana bircə dəfə bağlanmışdı. Onda da dəmir zəncirlə. Yalnız dəmir zəncir bağlayırdı onları və başqa heç nə.

O, daş döşənmiş yolda addımlarının əks-sədasını dinləyirdi. Yoxsa mütləq sükut bərqərar idi, sanki, bütün yer üzündə tək-tənha qalmışdı. Hər tərəfdən zülmət qucaqlayırdı onu. Bircə işıq da görünmürdü. Heç yanda görünmürdü. Göylərdə ulduz da yox idi, sanki, hər yer tərk edilmiş, bomboş idi.

O, qızdırmalı kimi ağır-ağır nəfəs alırdı, hava boğucu, isti idi. Bəlkə, elə Varavvanın qızdırması vardı, bəlkə, xəstələnmişdi, bəlkə, orada, aşağıda ölüm dolmuşdu vücuduna? Ölüm! O, ölümü daim içində gəzdirirdi, ölüm elə anadan olandan onun özündə idi. Ölüm onu qaranlıq keçidlərə qovurdu – şüurunun qaranlıq köstəbək keçidlərinə, içinə dəhşət doldururdu. O isə sevinərdi ölümə... Əməlli-başlı sevinərdi... Yox, yox, bircə ölüm yox! Ölməsin!..

Onlar isə ölülər səltənətində, öz Tanrılarına ibadət üçün toplaşırlar, birləşirlər. Onlar ölümdən qorxmurlar, onlar ölümə qalib gəliblər. Qardaşlıq məclislərinə toplaşırlar, özlərinin məhəbbət axşamlarına... "Bir-birinizi sevin"... "Bir-birinizi sevin"...

Budur, yanlarına gəlmişdi, amma tapa bilmədi, yox idilər, heç kim yox idi. Və yenə zülmətdə, öz köstəbək keçidlərinin zülmətində dolaşası oldu...

Hara yox olmuşdular? Bir-birini, guya, sevən bu insanlar hara itmişdilər?

Hara itiblər, axı gecədir, boğucu gecə (burada, şəhərin içində artıq bürkü onu bayaqkı kimi əzmirdi), – bütün yer üzünü sarıb bu gecə, qızdırmalı gecə, nəfəs almaq imkanı verməyən gecə və bu gecə Varavvanı əzir, boğurdu...

O, tini buruldu və burnuna qəflətən tüstü qoxusu vurdu. Tüstü yaxınlıqdakı evin zirzəmisindən, onun birinci qatından gəlirdi, pəncərələrdən ara-sıra alov dilimləri də görünürdü... Varavva irəli atıldı!

Qaça-qaça digər qaçan adamların da səslərini eşidirdi:

– Yanğın! Yanğın!

Tinin ucuna çatanda gördü ki, o biri küçədə də yanğın var, özü də daha güclüsü. Heç nə anlaya bilmirdi... Birdən haradansa səs gəldi:

– Xaçpərəstlərdir! Xaçpərəstlər!

Varavva əvvəlcə yerində donub qaldı, başa düşmürdü, nə demək istədiklərini anlamırdı, dərk edə bilmirdi. Xaçpərəstlər?.. Və birdən hər şey çatdı ona.

Hə də! Xaçpərəstlərdir! Romanı onlar yandırıb! Onlar bütün dünyanı yandırırlar!

İndi aydın oldu ki, niyə katakombalarda tapa bilməmişdi onları! Şəhərdə qalmışdılar ki, murdar Romanı yandırsınlar, bütün bu murdar dünyanı odlasınlar! Onların vaxtı yetişdi! Onların Xilaskarı gəldi!

Çarmıxa çəkilən həmin o Qolqofadakı qayıtdı. İnsanları xilas etmək üçün, bu dünyanı dağıtmaq üçün. Vəd vermişdi axı! Dağıdacaqdı, odlar içində məhv edəcəkdi. Söz vermişdi. Nəhayət ki, öz gücünü əyan elədi. İndi Varavva da ona kömək etməlidir! Yazıq Varavva, Xilaskarın Qolqofadakı yazıq qardaşı onu bir daha peşman etməz! Bir də aldatmaz!

O artıq yaxınlıqdakı yanan evə çatırdı, yerdən alışmış taxtanı götürüb qonşu evin pəncərəsindən içəri tulladı. Kösövləri bir-bir götürüb atırdı, zirzəmilərə, evlərə atırdı!

Varavvaya arxayın ola bilərlər! O, hədəfi dəqiq vurur! Necə alov qalxırdı! Atəş bir evdən o birisinə keçir, divarları yalayırdı, hər şey alov içindəydi! Varavva isə hələ qaçırdı, qaçırdı ki, yanğın bir az da böyüsün, o qaçırdı, nəfəsi çatmasa da, qaçırdı və sinəsinin üstündəki Tanrının adı ürəyinin düz başında döyünürdü. Onları peşman eləmədi! Zaman yetişəndə, ona, həqiqətən, ehtiyac olanda, vaxtı çatanda, həmin əzəmətli an yetişəndə, hər şeyin məhv olmaq vaxtı çatanda o öz Tanrısını peşman eləmədi! Alov güc yığır, yığırdı! Nəhəng, qarşısıalınmaz bir od dənizinə dönmüşdü ətraf. Bütün dünya od içindəydi!

Budur o! Bax, onun çarlığı budur!

Kapitolinin altındakı zindana yanğınlar törətməkdə ittiham edilən bütün xaçpərəstləri toplamışdılar, onların arasında Varavva da vardı. Onu cinayət başında yaxalayaraq dindirmiş və bura gətirmişdilər, onların yanına. Artıq bir yerdə idilər.

Məhbəs elə qayanın içində yonulmuşdu, divarlarından da su damcılayırdı. Alaqaranlıqda üzləri görmək mümkün deyildi və Varavva buna sevinirdi. O, üzünü hamıdan çevirib çürümüş samanın üstündə, bir kənarda oturmuşdu.

Hamısı yanğından danışırdı, onları nə gözlədiyindən danışırdı. Təbii ki, yanğında ittiham eləməkləri yalnız onları tutmaq üçün bir bəhanə idi. Hakim özü də gözəl bilirdi ki, heç nəyi yandırmamışdılar. Axı onların heç biri yanğın baş verən yerdə deyildi, hamı evində idi, eşidəndə ki katakombalardakı görüş barədə kimsə xəbərləyib və bu gün onları tutacaqlar, heç biri evindən çölə çıxmamışdı. Onlar günahkar deyildilər. Amma nə fərqi vardı ki? Hamıya lazım idi ki, günahkar onlar çıxsın. Satqın, pulla alınmış tör-töküntülərin qışqırıqlarına hamı inanmalı idi: “Bu, xaçpərəstlərdir! Xaçpərəstlərdir!..”

– Onları kim satın almışdı, görəsən? – qaranlıqdan bir səs gəldi. Amma suala fikir verən olmadı.

...Onlar, Müəllimin davamçıları necə yanğın törədə bilərdilər, Romanı necə yandıra bilərdilər axı? Buna inanmaq mümkün idimi? İnsan ruhlarının Müəllimi insanların şəhərinə od vurmur. O, bizim Tanrımızdır, yerin və göyün Tanrısı, cani deyil.

Başladılar ondan danışmağa, İşıq və Məhəbbət olan Tanrılarından, onun vəd etdiyi və bu insanların gözlədiyi çarlığından. Sonra başladılar himn oxumağa, gözəl, qəribə sözləri olan, Varavvanın qabaqlar heç vaxt eşitmədiyi bir himn. O oturub başını aşağı dikərək dinləyirdi.

Bu yerdə qapının dəmir cəftəsini bayırdan çəkdilər, cırıldayıb açıldı və içəri nəzarətçi girdi. Qapını açıq qoydu ki, məhbuslara yemək paylayana kimi işıq düşsün. Özü isə, görünür, lap təzəcə yemişdi, əməlli-başlı vurmuşdu, çünki sifəti qırmızı idi, həm də çox danışırdı. Kobud söyüşlər söyə-söyə, yeyiləsi halı olmayan xörəyi dustaqların qabağına atırdı. Düzdür, öz söyüşləri ilə kimsəni təhqir eləmək niyyəti yox idi, sadəcə olaraq, bu işlə məşğul olanların dilində danışırdı, bütün həbsxana nəzarətçiləri bütün zamanələrdə elə belə danışırlar. Amma, ümumiyyətlə, məhbuslara münasibətinə pis deməzdin. Birdən o Varavvanı gördü, yarıaçıq qapıdan işıq düz onun üstünə düşmüşdü, görən kimi də qəhqəhə çəkdi.

– Bu sarsaq da buradadır ki! – qışqırdı. – Yaman əlamandaydı; otərəf-butərəfə cumub Romanı yandırırdı! Əbləhə bax! Siz də yalandan deyirsiniz ki, guya, xəbəriniz yoxdur! Onu əlində yanar kösöv yanacaq anbarına sarı qaçanda tutublar – Kay Servinin anbarına!

Varavva gözlərini qaldırmırdı. Üzü donuq idi və heç nə ifadə eləmirdi, yalnız gözünün altındakı çapıq qızarırdı.

Digər məhbuslar onu heyrət içində süzürdülər. Burada onu tanıyan yox idi. Onlar elə bilirdilər ki, adi cinayətkardır, bu işə heç aidiyyəti yoxdur, onu ayrı dindirmişdilər axı.

– Ola bilməz, – məhbuslar pıçıldaşdılar.

– Nə ola bilməz? – nəzarətçi təəccübləndi.

– O xaçpərəst ola bilməz, – cavab verdilər. – Əgər onun barəsində dediklərinin hamısı həqiqətdirsə, belə bir adam heç vaxt xaçpərəst ola bilməz.

– Ola bilməz deyirsiniz? Hə? Özü etiraf eləyib bunu. Onu yaxalayanlardan eşitmişəm. Elə dindirəndə də hər şeyi boynuna alıb.

– Axı biz onu tanımırıq, – çaşqın tərzdə mızıldandılar. – Bizimkilərdən olsaydı, tanıyardıq. Amma onu ilk dəfədir görürük.

– Yaxşı, bəsdir oyun oynadınız! Dayanın, indi göstərərəm! – Və o Varavvaya yaxınlaşıb boynundakı lövhəni çevirdi. – Buyurun! Baxın! Bu nədir – sizin ilahinin adı deyil, hə? Mən bu işarələrdən baş çıxarmıram, baxın da, görün nə yazılıb, düz deyil? Özünüz oxuyun!

Onlar Varavvanı dövrəyə alıb lövhənin arxasındakı yazıya sarsıntı içində baxırdılar. Əksəriyyəti bir şey anlamadı, amma bəziləri həyəcanla pıçıldayırdı:

– İsa Məsih... İsa Məsih...

Nəzarətçi lövhəni çevirib, qalib görkəmlə ətrafdakıların sifətlərini süzdü.

– İndi nə deyəcəksiniz, hə? Sizcə, o, xaçpərəst deyil? Bunu hakimə özü deyib və bir də əlavə eləyib ki, o, Sezarın qulu deyil, həmin bu Tanrının quludur, sizin ibadət elədiyiniz həmin o Tanrını isə çoxdan asıblar. İndi onun özünü də asacaqlar, nədən deyirsiniz, mərc gələ bilərəm. Elə sizin də hamınızı, yeri gəlmişkən, asacaqlar! Nə qədər zirək olsanız da, bəxtiniz gətirmədi, bu sarsaq peyda oldu sizin aranızda, ələ keçəndə də özü etiraf elədi ki, xaçpərəstdir!

Sonra onların çaşqın sifətlərinə istehzalı nəzər salıb qapını arxasınca bağlayaraq getdi.

Onlar isə Varavvanı dövrəyə aldılar, sual yağdırmağa başladılar. Kimdir o? Yəni, həqiqətən, xaçpərəstdir? Hansı qardaşlıqdandır? Yəni, doğrudan, o yandırıb?

Varavva isə onlara heç bir cavab vermirdi. Üzü tamam bozarmışdı və qoca gözləri baxışlarını lap dərində gizlədirdi.

– Xaçpərəst deyil! Nədir, özünüz görmədiniz məgər? Yazının üstündən cızıq çəkilib!

– Cızıq çəkilib? Tanrının adının üstündən cızıq çəkilib?!

– Hə də! Özünüz gördünüz ki!

Kimsə buna fikir vermişdi, amma başa düşməmişdi ki, bu cızığın mənası nə ola bilər. Nə idi mənası, görəsən?

Budur, indi də onlardan biri lövhəni özünə tərəf dartıb baxmağa başladı, içəridə işıq lap zəif olsa da, adın üstündən kiminsə qüvvətli əli ilə, bıçaqla çalın-çarpaz iki xətt cızıldığını seçə bildilər.

– Tanrının adının üstündən niyə cızıq çəkiblər? – soruşurdular. – Niyə? Bu nə deməkdir? Səninləyik – eşitmirsən? Nə deməkdir bu?

Varavva isə bir kəlmə də cavab vermirdi. O oturub başını aşağı salmışdı, imkan verirdi ki, lövhəsinə ürəkləri istəyən qədər baxsınlar, lakin bircə kəlmə də danışmırdı. Bu insan onları getdikcə daha çox heyrət və qəzəbə düçar edirdi. Özünü xaçpərəst kimi qələmə verir, amma belə birisi xaçpərəst ola bilməz! Belə iş olar?! Nəhayət, onlardan hansısa zindanın uzaq küncündə oturmuş və bu söhbətlərdə iştirak etməyən qocaya yaxınlaşdı. Onunla nəsə danışdı və az sonra qoca ayağa qalxıb, Varavvaya yaxınlaşdı.

Beli azacıq bükülsə də, bədəni möhkəm idi, boyu da hündür idi! Saçları uzun, amma seyrək, elə sinəsinə tökülmüş saqqalı kimi ağappaq idi. Bütün görkəmi insanda bir hörmət hissi doğururdu, çox sakit təbiəti vardı və gömgöy gözləri uşaq kimi baxırdı, hərçənd ki, ixtiyar müdrikliyi yağırdı bu gözlərdən.

Əvvəlcə o, bir xeyli müddət Varavvanın qoca, bomboz sifətinə diqqətlə baxdı. Sonra, elə bil, nəyisə xatırlayaraq başını buladı.

– Gör nə qədər keçib üstündən, – deyə, sanki özünə haqq qazandıraraq, dilləndi və onun yanındaca samanın üstünə oturdu.

Ətrafda durub bu mənzərəni süzənlər isə heyrət içindəydilər. Yəni onların müqəddəs atası bu şəxsi tanıyırdı?

O isə, heç şübhəsiz ki, tanıyırdı onu, elə ağzını açıb danışan kimi məsələ aydın oldu. O, Varavvadan həyatının necə keçdiyini soruşdu. Varavva da qismətinə düşənlərdən danışdı. Təbii ki, hər şeyi yox, hər şeyi necə danışa bilərdi, lakin elə danışdı ki, həmsöhbəti çox şeyi anladı və çox şeyi təsəvvür elədi. O, Varavvanın dilinə gətirmədiyi mətləbləri anlayanda ancaq fikirli-fikirli başını tərpədirdi. Onlar yaxşıca söhbətləşdilər, hərçənd ki, Varavvanın kimsəyə bel bağlamaq adəti yox idi, elə indi də bu qocaya qismən etibar edirdi. O, qocanın suallarına sakit, yorğun səslə cavab verir və hərdən onun uşağınkını xatırladan ağıllı gözlərinə və qoca, qırış basmış sifətinə baxırdı, illər ondan da yan keçməmişdi, amma üzündəki qocalıq Varavvanın üzündə olandan deyildi. Qırışlar dərinə işləmişdi, amma sifət tamam başqa idi, o, sanki sakitlikdən nurlanırdı. Dərisi, demək olar ki, ağappaq idi, yanaqları batmışdı, bəlkə də ağzındakı dişlərin azalmasından idi. Ümumiyyətlə isə, heç dəyişməmişdi, bir zamanlar olduğu kimi sadə, eyhamsız danışırdı.

Hörmətli qoca yavaş-yavaş öyrəndi ki, Tanrının adının pozulmasına səbəb nədir və Varavva nədən Romanın yandırılmasına kömək eləyirmiş – o, onlara yardım etmək, bu dünyanı bünövrəsinə kimi yandırmaq üçün Xilaskara kömək göstərmək istəyirmiş. Qoca bunu eşidəndə başını təəccüblə buladı və Varavvadan soruşdu ki, şəhəri onların – xaçpərəstlərin odlamasına necə inandı axı? Bunu Sezarın özü əmr etmişdi, Varavva isə bu işdə ona kömək eləyirdi.

– Sən bu dünyanın hökmdarına yardım edirdin, – dedi. – Boynundakı lövhənin üstündə adı sənin sahibin kimi yazılmış birisinə, adı pozulmuş Tanrıya yox. Özünün də xəbərin olmadan, qanuni sahibinə xidmət göstərirdin. Bizim

Tanrımız Məhəbbətdir, – deyə, o, sakitcə əlavə etdi. Varavvanın tüklü sinəsindən asılmış lövhəni əlinə alaraq öz Tanrısının və Müəlliminin pozulmuş adına acı-acı baxdı.

Sonra onu buraxıb dərindən köks ötürdü. O anladı ki, Varavvanın qismətindəki lövhə elə budur və onu ömrünün sonuna kimi daşımalıdır, başqa heç bir şey eləmək olmaz. O, bir də bunu anladı ki, Varavva özü də artıq hər şeyi anlayıb: bunu onun nigaran, kimsəsiz gözlərindən oxuyurdu.

– Kimdir bu? Kimdir? – hamı qocanın ayağa qalxdığını görəndə yerindən qışqırışdı. O cavab vermək istəmirdi, bu heç ürəyindən deyildi. Lakin onlar elə yapışmışdılar ki, əl çəkənə oxşamırdılar və qoca da güzəştə getməyə məcbur oldu:

– Bu, Varavvadır, Müəllimin yerinə azadlığa çıxan adam, – dedi.

Onlar bu yad adamı tam anlaşılmaz, çaşqın nəzərlərlə süzürdülər. Onları heç nə bundan artıq təəccübləndirə, qəzəbləndirə bilməzdi.

– Varavva, – deyə pıçıldaşdılar. – Buraxılan Varavva!

Ağıllarına sığmırdı heç cür. Qaranlıqda gözləri nifrət işığı saçırdı.

Qoca isə onlara təsəlli verdi:

– O, bədbəxt adamdır, bizim haqqımız çatmaz onu ittiham eləyək. Özümüzün o qədər çatışmayan, qüsurlu cəhətlərimiz var ki! Əgər Tanrı bizi bağışlasa belə, bu da öz xidmətimiz olmayacaq. Bizim ixtiyarımız yoxdur ki, kimisə Tanrısı olmadığına görə ittiham eləyək.

Onlar keyiyib durdular və sanki, bu sözlərdən sonra, bu dəhşətli sözlərdən sonra Varavvanın üzünə baxmağa belə cürətləri çatmırdı. Ondan dinməzcə aralanaraq, bayaq oturduqları yerlərinə keçdilər. Qoca da köks ötürüb onların dalınca getdi.

Varavva yenə tək qaldı.

Məhbəsdəki bütün günlərini bax beləcə tək, qalanlarından ayrı, bir kənarda keçirdi. Onların nəğmələr oxuyaraq

Tanrını necə vəsf etdiklərini, bir-birinə qarşıda onları gözləyən ölüm və əbədi həyat barədə düşüncələrini necə etibar elədiklərini eşidirdi. Hətta hökm elan ediləndən sonra bu söhbətlər daha tez-tez davam edirdi. Onlar inanırdılar və heç bir şübhələri yox idi buna.

Varavva bütün bunları eşidərək dərin fikrə getmişdi. O da qarşıda nələr görəcəyi barədə düşünürdü. Zeytunlu dağda onunla duz-çörəyini bölən, artıq çoxdan bir də ölmüş və ağaran kəlləsiylə çoxdan əbədi zülmətə gülümsünən qocanı da xatırladı.

Əbədi həyat...

Varavvanın yaşadığı bu həyatın bir mənası vardımı? Yəqin, yox idi. Axı o bunların heç birini bilmirdi və qərar vermək də onun işi deyildi.

Ağ saqqallı qoca aralıda, özününkülərin içində oturmuşdu. Onlarla bənzərsiz Qalileya şivəsində danışır, dediklərini dinləyirdi. Hərdən də tamam susur, əlləri ilə iri başına söykək verib dayanırdı. Bəlkə də, öləndən sonra uyumaq istədiyi doğma Genisaret sahillərini xatırlayırdı. Lakin bu, öz ixtiyarında deyildi. Onun yolunun üstünə Müəllimi çıxmış və demişdi: “Ardımca gəl”. Onun da gəlməkdən başqa, ayrı bir yolu yox idi. Uşaq gözləri ilə düz qarşısına baxırdı qoca və qırış-qırış sifəti ətrafa əzəmətli bir sakitliyin nurunu səpirdi.

Sonra onları çarmıxa apardılar. İki-iki zəncirlədilər, Varavvayla bir zəncirlə bağlanmağa adam qalmadı və o lap axırda, təkbaşına gedəsi oldu. Təsadüfən belə alınmışdı. Təsadüfən bir də elə alındı ki, onu ən uzaq xaçda çəkdilər çarmıxa.

Xeyli adam vardı və hər şey bitənədək çox çəkdi. Bütün bu müddət ərzində çarmıxdakılar bir-birinə təsəlli verirdilər. Varavvaya isə təsəlli verəcək bir kimsə yox idi.

Qaranlıq düşürdü və tamaşaya gələnlər ayaq üstə durmaqdan yorularaq dağılışdılar. Artıq xaçdakılar da canlarını tapşırmışdılar.

Bircə Varavva sağ idi. Onu daim qorxudan ölümün yetişdiyini hiss edəndə, üzünü zülmətə çevirdi və ona müraciət edirmiş kimi pıçıldadı:

– Ruhumu sənə tapşırıram.

Sonra ruhunu azadlığa buraxdı.

# SİVİLLA

Ətəyində Delfa şəhərinin yerləşdiyi dağın yamacındakı tənha daxmada qoca bir qarı özünün ağıldankəm oğlu ilə birlikdə yaşayırdı. Daxmaları çox balaca idi, onun arxa divarı dağın daim nəm verən yamacından ibarət idi. Bu, bir zamanlar çobanların tikdiyi kasıb daxma idi. O, şəhərdən, məbədin müqəddəs torpaqlarından xeyli yüksəkdə, lüm-lüt dağa yetim kimi sığınmışdı. Qarı bu daxmanı nadir hallarda tərk edərdi, oğlu isə – heç vaxt. O, bütün ömrü boyu oturub, gülümsündüyü kimi, indi də yarıqaranlıqda əyləşmişdi, fikirlərinə gülümsünürdü. Artıq çoxdan cavan deyildi, pərişan saçları ağarmağa başlamışdı. Sifəti isə toxunulmamış, həmişə necə idisə, eləcə də qalmışdı – saqqalsız, narın tüklü, özünün dəqiq cizgiləri olmayan, qəribə donuq təbəssümlü ilkin körpə toxunulmazlığında. Qarının sifəti sərt və qırışlı idi, alov qarsmış təki qaralmışdı, baxışlarından Tanrını görmək nəsibi olan insana bənzəyirdi.

Tamam tənha yaşayırdılar, onlara baş çəkən, heç o həndəvərə yaxın düşən belə yox idi. Bir neçə keçiləri vardı, qarı dağlarda bitki kökləri, ot-ələf yığırdı – elə bununla da dolanırdılar. Başqa adamlardan kömək gözləmirdilər, çünki onlarla ünsiyyət eləyən kimsə yox idi.

Daxmanın üzü vadiyə tərəf idi və qarı tez-tez oturub kandarın alatoranından aşağı, lap çoxdan tərk etdiyi dünyaya baxırdı. Hər şey ovcunun içi kimi görünürdü: evlərin arasında otərəf-butərəfə gedən, öz qayğıları ilə məşğul insanlar, ziyarətçilərin məbəd meydanına təntənə ilə addımladığı müqəddəs yol, ilahinin evi qarşısında qurbanlar kəsilən mehrab. Hər şey ona yaxşı tanış idi. Bəzən isə səhərlər, sübh çağı bu yolda elə hadisə baş verirdi ki, ona yaxından, hər şeydən artıq

bələd idi. Məbəd meydanında hələ kimsə yoxdur, təkcə xidmətçi oğlan oraları süpürür, qapının ağzını ilahinin müqəddəs meşəsindən gətirilmiş təzə dəfnə budaqları ilə bəzəyir. Günəş şərqdəki dağların zirvəsindən indicə boy göstərib, bütün vadi yeni, aydın nura qərq olub. İki kahin tərəfindən müşayiət olunan gənc qadın müqəddəs yolla tələsmədən üzüyamaca gedir, o, dağdakı qayadan çağlayan bulaqda yuyunub. Üzündə bir heyranlıq var, nəzərləri isə yaxınlaşmaqda olduğu müqəddəs məkana dikilib. Gəlin paltarındadır, ilahinin gəlini. Xidmətçi oğlan məbədin girəcəyində onun qarşısına çıxır, əlindəki camdan üstünə müqəddəs su səpir və qadın paklaşaraq, ilahinin evinə qədəm basır ki, onun yenilməz ruhunu qarşılasın.

Bineyi-qədimdən belə olub, indi də belədir. O, daxmasının qarşısında əyləşib hər şeyə özünün ixtiyar gözləriylə baxırdı. Arxasındakı alaqaranlıqda isə üzünü narın tük örtmüş, uşaq sifətli, çalsaç oğlu oturub gülümsünürdü.

Bir dəfə, lap qüruba yaxın şəhərdən gələn dağ cığırında bir nəfər göründü. Burada qəribə bir şey yox idi, bəzən adamlar mal-davarları otlayan dağ çəmənliklərinə də qalxırdılar. Cığır daxmadan xeyli aşağı keçirdi. Amma bu dəfə onu çox təəccübləndirən bir şey baş verdi. Həmin şəxs qəflətən cığırdan çıxaraq dik, yolsuz-rizsiz yamaca dırmanmağa başladı. Belə bir hadisə heç vaxt olmamışdı, heç vaxt kimsə cığırdan çıxıb onun daxmasına tərəf qalxmamışdı. Gələsi kim vardı ki bura. Yamac daşlı, çınqıllı idi və hərdən lap çətin qalxırdı onu. Bəlkə, buralara nabələd idi. Qarı özünün dağ yuvasından gözlərini çəkmədən dikdirə qalxan həmin bu adamı izləyirdi. Yaxınlaşdıqca sifətini seçə bilirdi. Onu tanımırdı. Kimi tanıyırdı ki. İndi yaşayanlardan heç kimi. Kifayət qədər hündürboy idi, buraların dəbinə uyğun vurulmamış qara, sıx, uzun saqqalı vardı. Yanaqları solğun, tamam qansız idi, amma bu yoxuşu qalxmaq da ona asan başa gəlmirdi. Ömrünün çiçəklənən çağında bir kişiydi, yəqin, orta yaşlarına yenicə qədəm qoyardı.

Yaxınlaşanda qarını salamladı, amma bu yerlərin camaatı kimi yox.

Daxmanın qabağındakı daş skamyaya çöküb aramla, sözləri çətinliklə seçə-seçə danışmağa başlayanda, qarı tam əmin oldu ki, gələn yadellidir, bəlkə də, çox uzaqlardan gəlmişdi bura. Ağır baxışlarında, cavanlığına baxmayaraq, qoca gözlərindəki ifadədə nəsə yad şeylər sezdi. Əlbəttə, bu ifadə onun bütün həmyerlilərinə deyil, şəxsən özünə də aid ola bilərdi.

Qarıya danışdı ki, Delfaya orakullardan özü üçün çox əhəmiyyətli olan bir sualla gəlibmiş. Lakin heç orakulla görüşməyə imkan verməyiblər, məbədin içərisində, sualları olan adamların toplaşdığı zala belə buraxmadan yola salıblar.

Sənin sualının cavabı yoxdur – ona belə izah ediblər. Dünyada heç bir orakul bu suala cavab verə bilməz.

O, çaşqın halda məbəd meydanını tərk edərək, bütün günü şəhərdə məqsədsiz dolaşıb, hərdən fikirləşib ki, daha gözləməli bir şey yoxdur, Delfanı tərk etmək, hara gəldi çıxıb getmək istəyib. Lakin şəhərin ən yoxsul hissəsindəki çirkli döngələrin birində qoca, əldən düşmüş bir dilənçi ilə söhbətləşib; o, tində oturub titrəyən əllərini sədəqə almaq ümidilə yoldan keçənlərə açıbmış.

Qoca dilənçini belə bir yerdə görmək qəribə idi, çünki buralarda, yəqin, elə hamı eyni dərəcədə yoxsul olardı, lakin o danışdı ki, əvvəllər məbəd meydanında, ya da müqəddəs yolun üstündə dilənərmiş, indi isə artıq ora getməyə gücü qalmayıb. Söhbətimiz belə başlandı, mən də ona öz qayğılarımdan, Delfaya uzun sürən mənasız səfərimdən danışdım, bir də onu söylədim ki, orakulun mənə cavab verə bilməyəcəyini eşidəndə necə kədərləndim. O, məni təəssübkeşliklə dinləyirdi, hərçənd ki Delfa orakulunun nəyəsə cavab verə bilməməsindən təəccüblənmişdi. “Yəqin, sualların yaman qəlizdir”, – dedi. Lakin sonra, bir az fikirləşib əlavə etdi ki, mənə kömək edə biləcək bir nəfər, hər halda, var. Həmin o şəxs hətta ən çətin suallara belə cavab verə bilər. O danışdı

ki, dağların zirvəsində Delfa orakulunun qabaqkı kahini, qoca pifiya yaşayır. O qadın ilahi qarşısındakı borcundan vaz keçdiyinə görə hamı tərəfindən lənətlənib, xalqın nifrətini qazanıb. O, məbəd qarşısında da, ilahi qarşısında da, bütün müqəddəs şeylər qarşısında da borcunu tapdalayıb, lakin o, fövqəladə vergi verilmiş, böyük sivilla idi, Delfa orakulunun heç bir kahini onunla müqayisə oluna bilməz, onların heç biri onun qədər ilahi sevimlisi, ilahi vurğunu olmamışdı. O qadın geniş açılmış dodaqlarıyla öncəgörmələrini söyləyirmiş və ilahiyə bağlantı anlarında onun görkəminə tab gətirə bilən kimsə yox imiş. Qüdrətli nəfəsi ağzından püskürürmüş və deyirlərmiş ki, nitqi kükrəyən alov kimi qarşısıalınmaz imiş, – ilahi onu o dərəcədə sevirmiş. İlahi başqalarını rədd edərək, yalnız onun vasitəsilə danışırmış.

Lakin sonralar ağır günah işlətmişdi, həm ilahi, həm də insanlar qarşısında və özü özünü məhv eləmişdi, paya ilə, daş ilə silahlanmış qəzəbli kütlə də onu şəhərdən qovmuşdu və bütün adamlar da, xəyanət elədiyi ilahinin özü də onu lənətləmişdi. "Bu hadisə hələ mən balaca uşaq olanda baş vermişdi, – qoca dedi, – lakin həmin o sivilla barədə danışan olmasa da, adını çəkməsələr də, deyirlər ki, o, hələ də qovulduğu dağlarda yaşayır və mən şübhə etmirəm ki, bu, həqiqətən, belədir. Çünki ilahiyə bu dərəcədə yaxın olan birisinin, məncə, ölməsi də asan bir şey deyil, yəqin, həmin o fövqəladə güc bu günə kimi də onun vücudunda qalır. İlahi öz ruhunu kimin vücudunda yerləşdiribsə, onu bir daha tərk etməz, mütləq lənətləməli olsa belə, orada yaşayar.

Get onu axtar tap, sualının cavabını, yəqin ki, eşidəcəksən, hərçənd ki, həmin cavab səni dəhşətə də gətirə bilər.

Sonra o titrəyən əliylə yuxarı, bu dağın səmtinə işarə elədi, mənə düzgün istiqamət verdi, hərçənd ki, tamam kor idi.

Qərib adamın öz nitqini ünvanladığı şəxs isə bütün söhbət ərzində olduğu kimi, hərəkətsiz oturmuşdu. Üzünün bircə cizgisi belə tərpənib qəlbinin içindəkiləri büruzə vermədi.

Qonaq qara, qırışlı sifətə təəccüb dolu diqqətlə baxır, sanki, bu qədim, aydın işarələrinə baxmayaraq, çətin oxunan kitabı anlamağa çalışırdı. Bu kitab indi daha heç kəsin bilmədiyi çox əski bir dildə yazılmışdı.

Qarı uzun müddət dinmədi, öz içinə qapılaraq, tərki-dünya nəzəri ilə baxırdı.

– Sən orakullardan nə barədə soruşmaq istəyirdin? – deyə, nəhayət, dilləndi, sanki, fikirlərindən ayılmışdı.

– Öz taleyim haqqında soruşmaq istəyirdim, – o cavab verdi.

– Öz taleyin haqqında?

– Bəli, öz taleyim haqqında. Gələcək həyatım barədə. Məni qarşıda gözləyən hadisələr barədə.

– Amma bu haqda, demək olar ki, bütün insanlar soruşur, onları maraqlandıran yeganə şey elə budur. Bəs sənin taleyinin diqqətəlayiq cəhətləri nədir? Bəlkə, onda nəsə bir məxsusi cəhətlər var?

– Bəli. Var.

Və o, başına gəlmiş, yaddaşına möhkəm həkk olunmuş, orada başqa heç bir şeyə yer qoymayan, onu qətiyyən rahat buraxmayan və Delfaya yollayan, indi isə suallarına cavab taparaq, ruhi müvazinət qazanmaq ümidilə bura, onun yanına gətirən qeyri-adi hadisədən danışdı.

– Mən cavan arvadım və balaca oğlumla bir yerdə xoşbəxt yaşayırdım özüm üçün, – deyə söhbətinə başladı, – anadan olduğum şəhərdə də ömrümün sonuna kimi yaşamaq niyyətində idim. Əlimdə gəlir gətirən işim, atamdan miras qalmış evim vardı. Varlı deyildim, amma ehtiyac nə olduğunu da heç bilmirdim, gələcəyim haqqında narahatçılıq keçirmədən, sakitcə yaşayırdım, – zahirən hər şey yaxşı idi.

Bir dəfə evimizin darvazası ağzında durarkən çiynində xaç daşıyan, tanımadığım bir şəxs gördüm. Bunda təəccüblü, qeyri-adi bir şey yox idi, tez-tez olurdu ki, əsgərlər çarmıxa çəkilməyə məhkum olunan insanları mənim evimin qabağından aparırdılar, edam yerinə gedən yol buradan keçirdi.

Elə həmin şəxsin özündə də mənim diqqətimi çəkən, məxsusi bir şey yox idi. Rəngi avazımışdı, zahirən çox zəif, əldən düşmüş kimi görünürdü, çünki bir anlıq ayaq saxlayıb, məndən bir neçə addım o tərəfdə evimin divarına söykəndi. Bu, mənim xoşuma gəlmədi, – ölümə məhkum, bədbəxt bir adam idi, bir də gördün evimizə bəla gətirdi. Ona dedim, yolunu get, mən istəmirəm burada dayanasan.

O, mənə tərəf çöndü, üzünü görəndə başa düşdüm ki, adi adam deyil, onda, həqiqətən, qeyri-adi nəsə vardır. Amma niyə mənə belə gəldi, bunu izah eləyə bilməzdim. Sifətinin cizgilərində kin yox idi, məncə, adi halında bu cizgilər sakitlik, mütilik ifadə edərdi, lakin həmin an tamam başqa ifadə vardı üzündə – bu ifadə o qədər hökm-fərma və qorxuducu idi ki, onu heç vaxt unuda bilmərəm. “Başımı sənin evinə söykəməyə imkan vermədiyin üçün sənin bədbəxt ruhun dünya durduqca rahatlıq tapmayacaq”, – dedi.

Onun sözləri məni sarsıtdı və qəlbimə ox kimi sancıldı, halım dəyişdi. Əsgərlər isə ancaq gülüşdülər, onu qısnamışdılar, ayaq saxlamasından narazı idilər və tez qovdular ki, yoluna davam eləsin. Lakin öz xaçını da götürüb gedənə kimi, yenə üzünü mənə tutub, sərt bir tərzdə dedi: “Mənə imtina etdiyin üçün, səni məndən də ağır cəza gözləyir: Sən heç vaxt ölməyəcəksən. Dünya durduqca bu dünyanı dolaşacaq, sakitlik tapa bilməyəcəksən”.

Sonra o, xaçını çiyninə aşırıb küçə ilə ayaqlarını sürüyə-sürüyə uzaqda, şəhər darvazalarının o üzündə gözdən itənə qədər getdi.

Mən isə qəlbimdə qəribə bir hissiyyat, baxa-baxa qaldım. Elə bil, nəsə gəlmişdi başıma, elə bir şey ki, hələ onu dərk etmək iqtidarında deyildim. Mən bunu nə özümə, nə başqasına izah edə bilməzdim, amma bu, belə idi. Bu adamın sözlərini eşitmiş qonşularım görəndə ki mən baxa-baxa qalmışam, özümə gələ bilmirəm, dedilər ki, heç pis olmağa, çarmıxa çəkiləsi bir cinayətkarın sözlərinə əhəmiyyət verməyə

dəyərmi, bu cür insanlar təhdid və qarğış yağdırmağı xoşlayırlar, çünki həyatlarını itirəcəklərinə görə hamıya, hər şeyə nifrət bəsləyirlər, belələri ağızlarına gələni söyləyə bilərlər, onların sözünə fikir verməyə qətiyyən dəyməz.

Mən, əlbəttə, anlayırdım ki, düz deyirlər bunu. Odur ki qonşuların bu məsələyə göstərdikləri münasibətdən, məni qınamaqlarından, çiyinlərini çəkməklərindən sakitləşdim. Kefim düzəldi, onlarla bir az söhbətləşib öz işimə döndüm və çalışdım ki, bu barədə daha fikirləşməyim.

Lakin bu hadisəni unuda bilmirdim. Onu özümdən nə qədər uzaqlaşdırsam da, zaman-zaman, bir də görürdün, yenə düşürdü yadıma. Saatlar ötürdü, mən öz işlərimlə məşğul idim, həyat adi axarında gedirdi; azından, mənim özümə belə gəlirdi, lakin həmin adamın dediyi sözlər ürəyimə batmışdı, içimdən səslənirdi, kimsə o sözləri mənə elə hey təkrar-təkrar deyirdi – kim? Mən özüm? Bilmirəm, ancaq eşidirdim onları, aydın, səlis eşidirdim. Anlaya bilmirdim ki, niyə yadıma salıram bu sözləri, axı bilirdim ki, onların heç bir mənası yoxdur, qətiyyən yoxdur, bu sözlər başını evimin divarına söykəməsinə icazə vermədiyim tanımadığım bir qatilin dilindən çıxmışdı. Vəssalam, buna görə də əhəmiyyət vermək sarsaqlıq idi. Bəs niyə onları unuda bilmirdim?

Mən qəti inanırdım ki, sabaha kimi vəziyyətim düzələcək. Lakin səhər yuxudan duranda içimdə belə bir hissiyyat vardı ki, başıma nəsə gəlib, mən hələ yarıyuxulu vəziyyətdə yerimin içində uzananda daxilimdəki səs yenə həmin sözləri deməyə başladı, lap astaca, pıçıltı ilə birbaşa üzümə deyilmiş həmin hökmü təkrarlayırdı – kimin idi bu səs?

Yataqdan qalxıb, yenə özümə döndüm və işimin qulpundan yapışdım. Lakin daha həmişəki həvəslə yox – amma mən, adətən, sevinə-sevinə, səylə görərdim işimi. Yerimdə sakit otura bilmirdim, başladım evimizi avara-avara dolaşmağa, əlim heç nəyə yatmırdı, heç nəyə həvəsim yox idi. Qətiyyən özümə bənzəmirdim, əvvəllər tamam başqa cür idim.

Günlər uzunu bax beləcə davam edirdi, mən yaman dəyişmişdim, heç özümü tanıya bilmirdim. Bilmirəm nə qədər çəkdi, amma bir gün ağızdan-ağıza dolaşan bu qəribə xəbər mənə də çatdı, guya, bizim küçə ilə çarmıxa çəkilməyə aparılan Tanrının oğlu imiş. Bu barədə açıq danışan yox idi, lakin şəhər camaatı pıçıldaşır, xəbəri gizlincə bir-birinə ötürürdülər. Bunu dəqiq bilməli olanlar, ona inananlar isə, görünür, gizlənir, xalqın qarşısında şahidlik etməkdən çəkinirdilər, onda hələ çəkinirdilər. Onlar azlıq təşkil edirdilər, şəhərlilərin çoxu isə, təbii ki, bu sözlərə inanmır, onu bəsit bir uydurma sayırdılar, həmin adamı edam edənlərsə bu fikri küfr sayaraq damğaladılar.

Tanrının oğlu... haradan oldu? Tanrının oğlu... Bu, sayıqlamadan başqa bir şey deyil. Lap gülməlidir ki. Uydurmaya bax. Tanrı oğlu?.. Mən başladım bu söz-söhbətin mənbəyini araşdırmağa, harada yaranıb və kim yayır onu – bəlli məsələdir ki, bunu eləyən ona inananlar, həmin o gizlənənlər idi. Onlar deyirdilər ki, möcüzə baş verib, hətta bir yox, neçə-neçə möcüzə və bu möcüzələr ona dəlalət edir ki, bunların hamısı həqiqətdir. Deyirdilər ki, bizim ona inanmağımız, Tanrı oğlu olduğuna əminliyimiz, bunu qəlbimizlə duymağımız özü məgər möcüzə deyil? Onlar üçün, təbii ki, ən böyük, ən vacib möcüzə elə bu idi. Bu insanlar inandırıcı görünmürdülər, onların sözlərinə əhəmiyyət verməyə dəyməzdi.

Mən bu barədə öz qonşularımla söhbət salırdım, soruşurdum ki, bu şayiələr haqqında, əgər xatırlayırlarsa, küçəmizdən öz xaçı ilə keçən qatilin Tanrı oğlu olması barədə nə fikirləşirlər? Onlar da bu söz-söhbəti eşitmişdilər, lakin əmin idilər ki, bütün bunlar boş danışıq, sarsaq uydurmadan başqa bir şey deyil.

– Lakin, elə bil, bu söhbətlərə çoxları inanırlar, – deyirdim.

Onlar da cavabında çiyinlərini çəkirdilər, yəni dünyada dəli az deyil ki.

– Sən də indiyə kimi onun sözlərini götür-qoy eləyirsən? – deyə qonşularımdan biri gülərək soruşdu.

– Yox bir, – deyə cavab verib, mən də güldüm. – Sənin ağlın başındadır, işim-gücüm yoxdur məgər?

Lakin düzünü deyirdimmi ona? Mən, doğrudan, bu barədə düşünmürdüm? Deməyə nə var ki, nə istəsən, deyərsən, bəs niyə mən bu qədər dəyişmişdim, ruhdan düşmüşdüm, sevinməyi yadırğamışdım, niyə hər şey mənə mənasız gəlirdi? Niyə belə olmuşdum? Niyə ətrafımda, öz içimdə bir sıxıcı boşluq duyurdum – axı əvvəllər özümü belə hiss etdiyim heç olmamışdı. Dəyişən nədir məndə? Niyə belə olmuşam?

Yadımdadır, bir dəfə gəzməyə çıxanda gördüm, mənə yaxşı tanış olan, arasında adda-budda zeytun və əncir ağacları bitən üzümlükləri, taxıl zəmiləri ilə bol gözəl yerlərə gəlmişəm. Qabaqlar gözlərimi oxşayan bu mənzərənin mənə nə dərəcədə boz, darıxdırıcı gəlməsindən bərk heyrətləndim. İşıqlı, aydın bir gün idi, amma mənə elə gəlirdi ki, günəş batmaq üzrədir və bu boz, bomboş yerlərə baxanda ürəyimi anlaşılmaz bir sıxıntı əzdi. Bu, nə deməkdir axı? Mənə nə olub?

Yəni mənim dünyam, bu gündən etibarən yaşamalı olduğum dünya, artıq belədir?

Şəhərə, evimizə dönəndə ayaqlarımdakı ağırlığı indiyə kimi xatırlayıram.

Onda hələ arvadıma öz vəziyyətim barədə bir söz söyləmədim, demək istəmirdim. Amma elə bilirəm ki, o, mənim özümdə olmadığımı görürdü. Necə görməyəydi axı?

Nəhayət, elə bir gün yetişdi ki, sirrimlə baş-başa qalmağa artıq qüvvəm qalmamışdı, daha dözə bilmirdim. Hər şeyi olduğu kimi ona danışmaq üçün günün bu vaxtlarında, adətən, hansı otaqda olurdusa, ora getdim.

İçəri girəndə həsirin üstündə uzanıb uşaqla oynayırdı, oyunlarına mane oldum. Başıma nəsə qəribə şeylərin gəldiyini bacardığım kimi izah etdim ona, dedim ki, yəqin, məni lənətləyiblər.

O, sözlərimin cavabında gülərək, arxası üstə uzanıb oğlumla oynamağına davam edirdi, uşağı əllərinin üstündə hündürə qaldırıb cingiltili səslə şaqqanaq çəkdi.

– Deyəsən, elə dediyin kimidir, – deyə dilləndi, – sən daha məni heç vaxt öpmürsən.

Gülümsəməyə çalışdım, dayanıb onlara baxırdım və bilirdim ki, gördüyüm bu mənzərə ən sevdiyim mənzərədir, lakin onların da üstünə, elə ətrafımda bütün gördüklərim kimi, indi, elə bil, bomboz kül səpilmişdi.

Birdən özümü onların hər ikisinə yad olan bir adam kimi hiss elədim, mən onların həyatına mane olmamalıydım.

Elə aralanan kimi, yenidən oyunlarına davam etdiklərini eşitdim.

Mən özüm də az əvvəl onlar kimi idim. Yaşadığıma, varlığıma sevinirdim, pərvərdigarın hər verən günü sevinirdim. Bu həyat mənim üçün çox qiymətli idi. Hər verən günü? Qəribədir, axı o demişdi ki, mən həmişə yaşayacağam, heç vaxt ölməyəcəyəm. Qəribə deyildi məgər?.. Bəs onda nədən narazıyam? Məgər ən böyük arzum elə bu deyildi – ölməli olmayım, heç vaxt ölməyim? Bəs niyə sevinmirəm? Niyə özümü xoşbəxt sanmıram?

“Dünya durduqca... Və heç vaxt da rahatlıq tapmayacaqsan...”

Əvvəllər bu barədə tam ciddiliyi ilə düşünməmişdim, indi isə əbədiyyətin nə olduğunu anlamağa başlayırdım. Anlamağa başlamışdım ki, əbədiyyət mənim öz həyatımı əlimdən alacaq. Başa düşdüm ki, bu əbədiyyət elə yoxluğun, lənətin özüdür, ruhumun sakitliyini də o alacaq əlimdən. “Əbədiyyət... onunla həyat arasında ümumi nə vardı”, – deyə fikirləşirdim, axı bu hər cür yaşama daban-dabana zidd olan, nəhayətsiz, vüsətinin sərhədləri olmayan bir ölüm səltənətidir, çətin ki, canlı bir məxluq ona dəhşətlənmədən nəzər sala bilə və mən də əbədiyyətdə yaşamağa məhkumam? Niyə məhz mənim nəsibimdir bu? “Dünya durduqca...” Mənim ölüm cəzam budur, ağla gətirilməsi mümkün olan ən qəddar cəza. “Bu Tanrı mənim əlimdən həyatın bütün sevincini alacaq”, – deyə öz-özümə pıçıldayırdım.

Onda ilk dəfə idi ki, gələcəkdə məni gözləyən mövcudluğu aydın təsəvvür edirdim, ilk dəfəydi ki, onun mənasızlığını qavrayırdım və ilk dəfə idi ki, dəhşətli lənətin mənə hakim kəsilməsinə, bu şübhəli Tanrının öz istəyinə nail olacağına və mənim ruhumun o deyənlərin hamısını yaşayacağına inandım. İnandım ki, hər şey onun öncədən gördüyü kimi baş verəcək.

Hər şey elə də oldu. Məndəki mənfi dəyişikliklər getdikcə daha gözəgirən olurdu və onlara müqavimət göstərməkdə artıq gücsüz idim. Nə etməliydim, nə gələrdi əlimdən? Başıma gələnlərə necə müdaxilə edə, mane ola bilərdim? Bu, mənim imkanım daxilində deyildi, mən tamam gücsüz idim. Əgər bədbəxt, kömək diləyən ruhum elə öz ruhum idisə, məni nəhayətsiz çıxılmazlığa yuvarlayan üzücü xislət elə mənim özümdəydisə, daha əlimdən nə gələrdi ki?..

Bir dəfə, tam sarsılaraq, elə bir iş... elə bir hərəkət etdim ki, mənim dərdimi, bədbəxtliyimi bir az da dərinləşdirdi. Günün günortaçağı idi, lakin mən bikar adam kimi yatağımda uzanaraq bir yana çıxara bilmədiyim fikirlərimin, ruhumdakı – mənim ruhum mənə məxsus deyildi artıq – nisgilin məngənəsində çırpınırdım. Qəflətən öz taleyimə və bu qismətimin günahkarı olan həmin o şər ilahiyə qarşı quduz bir qəzəb oyandı məndə. Niyə bununla barışıram?! Bu sərsəmliklə niyə barışıram?! Mənə yiyələnmiş bu gücə qarşı niyə üsyan etmirəm, niyə hayqırmıram ki, "mən yaşamaq, başqalarının yaşadığı kimi yaşamaq, həmişə olduğum kimi olmaq istəyirəm! Mən başqaları kimi olmaq istəyirəm! Yaşamaq istəyirəm!"

Bunu dilimə gətirəndə – bu kəlmələri ucadan dedim, hərçənd ki, özüm-özümlə danışırdım, – elə bil, lənət yükü, ağır bir paltar kimi çiyinlərimdən düşdü və elə bir yüngüllük, elə sərbəstlik duydum ki, son zamanlar heç şahidi olmamışdım. Vəziyyəti belə görəndə yatağımdan qalxıb, arvadımla oğlum olan otağa getdim. Bir dəqiqə dayanıb onların necə qığıldaşmasına, necə oynamasına tamaşa etdim, sonra isə yavaşca yaxınlaşdım, uşağı ehmallıca kənar eləyib arvadımı öpdüm.

O, isti, çılpaq qollarıyla boynumu qucdu və mənim otağıma keçdik, soyunandan sonra, bir neçə dəqiqə əvvəl əzablar içində qovrulduğum yatağıma girdi və mənim ona yaxınlaşmağımı gözləyərək tanış bir təbəssümlə baxdı. Hər şey qabaqkı kimi, bir-birimizi sevəndə olduğu kimi idi və mənə elə gəldi ki, artıq qələbəmi çalmışam, yenə də xoşbəxtəm.

Amma heç nə bacarmadım. O, mənimlə incə idi, həmişəkindən də incə, mən bunu duyurdum, axı gör nə vaxtdan bəri bir yerdə olmamışdıq, lakin içimdə ehtiras oyanmırdı. O, hərarətini verirdi mənə, amma təkcə o idi hərarətli, məni isə ancaq soyuq tər basmışdı, heç bir şey çıxmırdı. Üzümdə onun tövşüyən, məni arzuladığından tövşüyən nəfəsini duyurdum. Özüm isə heç nəyə yarayan deyildim. Nəhayət ki, hönkürtü çəkdim. Mən uzanaraq onun gözəl, isti bədənini qucaraq hönkürüb ağlayırdım.

Saçlarımı, yanaqlarımı sığalladı. Sonra ikiəlli başımdan tutub diqqətlə, sınayıcı nəzərlərlə üzümə baxdı, çoxdan idi ki, mənə belə baxmamışdı.

– Sənin gözlərin necə qocalıb, – dedi.

Həmin gündən bədbəxtliyim dibsiz quyu kimi nəhayətsiz oldu, elə bir quyu ki, içinə atıldım, amma dibinə çatmadım ki, ömrümün nöqtəsi qoyula. Bunda təəccüblü nə vardı ki? Zövqün zirvəsi, həyatın bəxtiyarlığı sonda ölmək imkanı deyilmi? Məhz bunu əlimdən almışdılar deyə, xoşbəxtliyini əbədi itirmiş birisi kimi bir daha onu dadmayacağım heyrətamiz deyildi. Mən əbədi bədbəxtliyə məhkum idim.

Elə bilirəm ki, bundan sonra hamı məndəki dəyişiklikləri hiss eləməyə başladı, özümə elə gəlirdi. Məndən qaçır, gen gəzirdilər, kəlmə kəsməyə, göz-gözə gəlməyə məcbur olan isə mənə qəribə nəzərlərlə tamaşa edirdi. Qonşularım qaradinməz olmuşdu, deyəsən, nəhayət, başa düşmüşdülər ki, başıma bəla gəlib və anlayırdılar; bu, evimin divarına söykənməyə icazə vermədiyim həmin o çarmıxa çəkməyə aparılan adamın ucbatındandır. Onlar bu barədə heç vaxt söhbət

salmırdılar, dediyim kimi, məndən qaçırdılar, lakin dəyişdiyimi aydın gördükləri də, davranışıma gizlincə göz qoyduqları da, pıçıldaşmaqları da və dərdimə şərik olaraq arvadım kimi gözlərimin çox qocaldığını deməkləri də yəqin idi.

Getdikcə arvadım məndən daha artıq çəkinməyə başlayırdı, elə bil, içimdə nəsə onu qorxudan bir şey vardı. Bəlkə də, lənətlənməyim barədə dediyim sözləri də yaxşı xatırlayırdı. Bilmirəm, onunla nə bu barədə, nə də aramızda baş verən həmin o hadisə barədə kəlmə də kəsməmişdik.

Öz-özümə deyirdim ki, görünür, o daha mənim gözlərimin içinə baxmaq istəmir.

Yəqin ki, o, məndəki dəyişiklikdən heç də özümdən az əzab çəkmirdi. Bilmirəm, axı biz fikirlərimizi bir-birimizlə bölüşmürdük, bir-birimizin nə düşündüyünü bilmirdik. Baxışlarımız isə danışdığım həmin o hadisədən sonra bir daha toqquşmurdu.

Onun nə düşündüyü, yeri gəlmişkən deyim ki, məni heç vaxt maraqlandırmayıb, uşaq kimi idi və onunla söhbətin heç bir faydası ola bilməzdi, amma əvvəllər mən bu barədə qətiyyən fikirləşmirdim, onun uşaq söhbətlərinə qulaq asaraq sadəcə ləzzət alırdım. İndi isə artıq ona heç müraciət etmirdim, çünki başa düşürdüm ki, onunla nəyisə müzakirə etmək mənasız bir işdir. Və artıq arvadımın varlığı mənim üçün bir əzaba çevrilmişdi, onun haradasa yaxında olmasından, hətta evimdə səsini, gülüşünü eşitməkdən əzab çəkirdim. Lakin o daha tez-tez gülmürdü. Vaxtının çox hissəsini uşaqla keçirirdi, görünür, yenə də oynayırdılar, amma əvvəlkindən xeyli səssiz – demək olar, heç səsləri çıxmırdı. Evimizdə, ümumiyyətlə, hər şey dəyişmişdi.

Özümdən asılı olmayaraq, həmin o kəsərsiz günümdən sonra arvadıma qarşı içimdə bir kin baş qaldırmışdı, ondan intiqam almaq istəyirdim və indi də artıq bu intiqamıma başlamışdım. Ona tərəf qətiyyən baxmırdım, nə onu, nə də uşağı görmürdüm, özümü elə aparırdım ki, elə bil, onlar heç

yoxdurlar. Oğluma qalanda, ona heç vaxt dərin bağlılığım olmayıb – ya, bəlkə, var idi? Hər halda, mənə elə gəlirdi ki, arvadım onun nazı ilə həddindən ziyadə oynayır, çünki özü də uşaq kimi idi və ona qarşı içimdə baş qaldırmış təhtəlşüur narazılıq indi, ondan həmişəlik ayrılandan sonra xüsusi bir vüsətlə alovlanmışdı.

Mənə belə gəlir ki, aramızdakı məhz bu narazılıqdan sonra əziyyət çəkməsi onun üçün daha böyük dərd olmuşdu və mən tez-tez ağladığını görkəmindən duyurdum.

Ona baxmaqdan çəkinsəm də, bunu həmişə hiss edirdim.

Dərd insanı daha mərhəmətli eləmir. Əgər mən əzab çəkirəmsə, niyə başqası çəkməməlidir!

Amma, əslində, ona kobud, pis bir söz demirdim, bunda məni qınaya bilməzdi. Demək olar ki, ümumiyyətlə, danışmırdım onunla və içimdə yığılan qəddarlığı büruzə verməməyə, gizləməyə çalışırdım. Amma elə bilirəm ki, o, içimdə baş verənləri hiss edirdi, bunu hiss etməyə bilməzdi. Kin də məhəbbət kimidir, sözsüz də başa düşülür.

Evimiz, elə bil, ölü idi, o dərəcədə sakit, üzücü olmuşdu ki, arvadım ruhdan duşmuş, qüssəli görünürdü, oğlum isə mən yaxınlaşanda gözdən itməyə can atırdı.

Təbiidir ki, elə bu cür şeylər də məni sıxırdı. Qəlbim özünü daha narahat, daha bədbəxt hiss edirdi. Uzun-uzadı pəncərə önündə oturub mənasız, boş nəzərlərlə qarşımdakı mənzərəyə baxır, heç nə görmür, öz içində dustaq olan əsir kimi, harada olduğumu belə dərk etmirdim. Hərdən də özümə yer tapa bilməyərək şəhər darvazaları arxasındakı boz, cansıxıcı, ağacların və zəmilərin küllə örtüldüyü yerlərdə gəzib dolanırdım. Heç bilmirəm mənim belə həyatım nə qədər çəkdi.

Günlərin birində arvadım yoxa çıxdı. Oğlumla bir yerdə. Özüm də təəccüb qaldım, başladım evi bir-birinə vurub onları axtarmağa, kim bilir, neçənci dəfə, adətən, oynadıqları, gülüşləri eşidilən – düzdür, son zamanlar heç gülmürdülər – otağa qaça-qaça girəndə, nəhayət, anladım ki, onlar burada

yoxdurlar və çox güman, bir daha olmayacaqlar; iniltilərlə yerə sərildim. Sanki, sinəmi xəncərlə yarmışdılar, qanım axa-axa, bir zamanlar arvadım kürəyi üstə uzanıb oğlumu çılpaq qolları üstündə yuxarı qaldıraraq güldüyü həmin o həsirin üstündə uzanıb qalmışdım. Heç bilmirəm nə qədər beləcə uzanılı qaldım. Lakin qəflətən içimdə bir səs duydum, o getdikcə daha aydın eşidilirdi, qəribə bir səs idi. Qeyri-ixtiyari qalxdım. Gözlərimi naməlum bir nöqtəyə zilləyib oturdum. Səs yenə, daha ucadan, lap ucadan gəlir, içimdə yayılırdı, mən üzümə elan olunmuş həmin hökmün dəhşətli sözlərini eşidirdim. Səs bütün içimi doldurdu, içim də hamının tərk etdiyi evim kimi boş idi və gələcəyimi, taleyimi müəyyənləşdirən bu qorxulu sözlər lüt divarlar arasında guruldayırdı. Onun lənəti ruhumun gizlinlərində qulaqbatırıcı bir əks-səda verirdi.

Elə həmin axşam, heç kəs görmədən doğma şəhərimi tərk edərək zülmətə yollandım ki, zamanlardan adlayan səyahətimə başlayam. Nəsibim olan əbədi lənət yoluna gecənin tənhalığında qədəm basdım.

Elə həmin vaxtdan bəri yer üzünü dolaşıram, alnıma necə yazılıbsa, nə dinclik bilirəm, nə istirahət, elə onun özü kimi, başımı söykəməyə bir yer belə tapmadan dolaşıram. Üstünə kül səpilmiş bu dünyada – mənim kül rəngli dünyamda gəzirəm. Bu dünyada insan dərdlərinin, əzablarının hamısını görmüşəm. Dərk etmişəm ki, dünya da mənim kimi qəzəbli, daşürəklidir, məhəbbət ona yaddır və o da mənim kimi əbədi olaraq belə yaşamağa məhkumdur. Anladım ki, bu dünya mənim – ilahinin lənətinə gəlmiş, qərarsız, bədbəxt ruhu bir daha sakitlik tapmayacaq insanın dünyasıdır.

Zaman-zaman elələrinə rast gəlirəm ki, məni bu həyata məhkum edən həmin o şəxsə etiqadları var. Getdikcə onlarla daha tez-tez rastlaşıram, görünür, bu inancın tərəfdarları gündən-günə artır. Bu insanlar olduqca xoşbəxt təsir bağışlayırlar, bunun səbəbi onların sadəlövhlüyündədirmi, yoxsa başqa bir şeydə, məsələn, elə bu inanclarının özündədirmi,

bilmirəm, lakin onlar deyirlər ki, inanclarındandır bəxtiyarlıqları. Bəlkə də, həqiqətdir bu. Görünür, mənə dəhşətli lənət yağdıran şəxs onlara xeyir-dua verib. İsrar edirlər ki, Tanrıları mərhəmətli, məhəbbətlidir, bütün inananlar və həyatını ona həsr edənlər üçün məhəbbətin özüdür. Nə deyim, ola bilər. Amma bundan mənə nə var? Mənim üçün caynaqlarını bədənimə keçirmiş, yaxamdan bir də əl çəkməyəcək, rahatlıq tapmağıma imkan verməyəcək şər qüvvədir o.

Bu insanlar onun həqiqi Tanrı olmasına, bizim evimizin yanından çarmıxa çəkmək üçün aparılanın həqiqətən Tanrı oğlu olmasına bir an da şübhə etmirlər. Deyirlər ki, bunun çoxlu əlaməti görünüb: Onun dirilməsi, buludun üstündə göylərə qalxması – neçə-neçə başqa nişanə də görünübmüş. Amma bütün bunlardan mənə nə var? Onların inancının, imanının, əlamətləri və möcüzələrinin mənə qəti aidiyyəti yoxdur.

Mənim üçün əsas problem ruhumun əbədi narahatlığıdır.

Əlbəttə, çox nahaq yerə ona imkan vermədim ki, başını evimin divarına söykəsin. Lakin mənim üçün o, Tanrı deyildi, adi cinayətkar idi, evimin yanından ötərək, çiynində öz xaçını daşıyan, camaatın çəkindiyi neçə-neçə adamdan biriydi. Dərdinə şərik olaydım? İnsansevərlik göstərəydim? Bu da ola bilərdi, çox mümkün idi. Lakin mən elə mərhəmətli insan deyildim və özümü heç vaxt bu cür qələmə də verməmişdim. Mən adi, lap adi adamam, beləläri yer üzündə hamıdan çox olur. Bu hadisə baş verən zamanlar mən xoşbəxt, qayğısız idim, daşqəlbli idim; həyatın əzabını görməyən birisi üçün bu, təbiidir. Bəlkə də, pis adam idim, amma başqalarından heç də pis deyildim. Onun mayası məhəbbətdən yoğrulmuş inancından çox şey anlamadım, dərk etdiyim bircə bu oldu ki, mənə uyğun deyil. Yeri gəlmişkən, onun özü necə, yəni çox mərhəmətli və məhəbbətlidir? Ona etiqad bəsləyənlərə dinclik, sakitlik bağışlayır – onlar belə deyirlər, – səmaya, öz yanına aparır, inanmayanları isə – bunu da onlar deyir, – əbədi əzablara düçar eləyir. Əgər bu həqiqətdirsə, deməli, o da eynən bizim kimi

mərhəmətli, bizim kimi qəzəblidir. Xoşumuz gələnlərə mərhəmətliyik, qalanlarına isə uğursuzluq arzulayırıq. Əgər bizim də onun qədər gücümüz olsaydı, xoşumuz gəlməyənlərin hamısını, yəqin, əbədi lənətə məhkum edərdik – amma bu bir az şübhəlidir. Buna ancaq Tanrının kini bəs edər.

Zaman-zaman mən bu insanlarla dünyanın müxtəlif guşələrində rastlaşırdım, lakin yaxın tanışlığa can atmırdım. Mən heç vaxt adamlara yaxınlıq göstərmirəm, onlar məndən çəkinirlər, görünür, məndəki qəribəliyi, qeyri-adiliyi, onları qorxudan nəyisə hiss edirlər. Elə bilirəm ki, mənim gözlərimdir onları qorxudan. Fikir vermişəm ki, baxışlarımı duyan kimi, nəzərlərini qaçırırlar. Görünür, gözümün içinə baxmaqdan, bu qupquru, dibsiz, içində heç bir şey olmayan quyuya nəzər salmaqdan qorxurlar. Bundan kim qorxmaz ki? Bəllidir ki, qorxurlar məndən.

Elə onun kimi.

Arvadım kimi... Yəqin indi gözləri cavan görünən kişiləri var onun, tənha səyahətim ərzində dəfələrlə bu barədə fikirləşmişəm. Ürəyim sıxılırdı, əllərimlə gözlərimi örtürdüm, sanki, onları gizləmək istəyirdim, amma gözlərimin içinə baxası, onları gizləməli bir kəs yox idi yanımda.

Niyə özünə kişi tapmayaydı ki! Belə də olmalıdır. Gözlərim cavan olanda məni də sevirdi.

Əşi, bəlkə, heç onda da sevmirdi?

Bunları özümlə təkbətək qalanda fikirləşirdim. Amma bir dəfə, vətəndən uzaqlarda həmşəhərlimlə rastlaşdım, danışdı ki, arvadım dünyasını anasının evində, rəngi solmuş, bədbəxt bir vəziyyətdə dəyişib, keçmiş gözəlliyindən əsər-əlamət qalmayıbmış, oğlum isə ondan xeyli əvvəl taundan ölübmüş.

Birlikdə həmişə şənlənib gülən bu iki nəfər həyatını belə başa vurmuşdular.

Həmin zamandan nə qədər vaxt keçirdi? Bilmirəm, axı mən zaman nə olduğunu bilmirəm, mənim üçün o yoxdur. Niyə hesabını aparım ki? Amma, deyəsən, lap çoxdan olmuşdu bunlar.

Bəli, onların hamısı öləcək. Nəsillər bir-birinin dalınca yox olacaqlar, özlərinin əzabları, qəddarlıqları ilə, əzabkeşlikləri və bir-birini didmələrinə şərait yaradan bütün cəhətləri ilə birlikdə yer üzündən silinəcəklər. Mən isə heç vaxt ölməyəcəyəm. Nə qədər ki kinini yaşatmağa daha çox önəm verən bu məxluqlar var, mən də olacağam, elə onlar kimi kinli; onların taleyi – mənim taleyimdir. Elə buna görə də öz taleyimi öyrənmək istəyirəm, tir-tir əssəm də, dəhşətə gəlsəm də, ona nəzər salmaq istəyirəm. Pərdəni götür onun üstündən, imkan ver, nəzər salım, nə qədər dəhşətli olsa da, öz taleyimi bilim!

O susdu.

Qaranlıq artıq düşürdü. Sözlərini ünvanladığı şəxs isə heç bir cavab vermirdi, elə bil, bayaqdan tək idi.

– Mən də sənin kimi Tanrını görmüşəm, – deyə qonaq bir müddət susandan sonra əlavə elədi. – Onunla yol üstündə rastlaşmışam və bu görüş qəlbimi dəhşətlə doldurub.

Qarı ondan qatı zülmət pərdəsinin arxasında gizlənərək oturmuşdu. Lakin qonaq onun astaca, az qala, səssiz dediyi bu kəlmələri eşitdi:

– Tanrı ilə görüş insana sevinc vəd eləmir.

Sonra o ayağa qalxıb üşüyürmüş kimi, paltarına büründü. Həqiqətən də, gün batandan sonra hava soyuq idi, onun da canına üşütmə düşmüşdü. Qarı onu daxmaya dəvət elədi, o da başını əyib heç bir şeylə örtülməyən girəcəkdən içəri keçdi. İnsan yaşayan belə kiçik yer hələ görməmişdi. Hər dəqiqə başını əyəsi olurdu, əli isə daxmanın istənilən divarına çatırdı – daxma dağ yamacına söykəndiyindən, divarlarından biri su verirdi.

Qarı döşəmənin üstündə qalaqlanmış odundan bir az çırpı götürüb alışdırdı. Ocaq əvəzinə yerdən çıxan bir daşdan istifadə edirdi, tüstü isə daxmanın damının dağa söykəndiyi yerdən, birbaşa tavanda açılmış deşikdən çıxırdı.

Ocaq alışanda bu qeyri-adi yaşayış məskəninə onun işığında göz gəzdirdi. Təəccübünə səbəb o oldu ki, içəridə tək deyildilər. Yarıqaranlıq küncdə ağbaş bir kişi belini donqarladıb

oturmuşdu... kişi idimi, yoxsa uşaq – heç cür başa düşə bilmirdi və bu qeyri-müəyyənlik onun qəlbində nəsə bir təhlükəli sirr hissiyyatı oyadırdı, səbəbini isə özü də bilmirdi, amma yaman təsirlənmişdi. Sifəti uşağınkı kimi idi, donuq bir təbəssümü vardı, alatoranda mübhəm görünürdü – bəlkə, təbəssümü üçün indi bir əsas olmadığından belə təsir bağışlayırdı. Bu təbəssüm nə mehriban, nə qərəzli idi və özünün daimiliyində baş verənlərə qarşı tam biganəlik əks etdirirdi – bəlkə, elə bu səbəbdən də sirli görünürdü – lakin bir az uzun boyunlu, çalsaç başı onlara sarı çönmüşdü və gözləriylə bütün hərəkətlərini ara vermədən izləyirdi. Bütün bunlar qeyri-adi idi, təəccüb doğururdu. Beynində qəflətən dumanlı bir xatirə oyandı – nə idi bu? Təbəssümün oyatdığı xatirə? Yox, o bilmirdi, heç nəyi yadına sala bilmirdi. Lakin belini büküb alaqaranlıqda oturmuş, üzündə dəyişməz təbəssümü olan bu ağbaş uşaqda son dərəcə qəribə, hətta ürküdücü nəsə vardı. Gözünü ondan çəkə bilmirdi. Bu nə məxluqdur belə, insanın yaşaması üçün az yarayan bu daxma özündə daha hansı sirləri gizləyirdi?

– Bu, mənim oğlumdur, – qarı dilləndi. – Onun yanında çəkinmədən danışa bilərsən, heç nə anlamır.

Qonaq isə bir söz deməyə cəsarət etmirdi, heç indicə bütün şüurunu işğal eləmiş məsələ barədə də soruşmadı: qarının bir küncdə oturub onların söhbətinə qulaq asaraq heç nə başa düşməyən, yalnız özünün qəribə təbəssümü ilə gülümsünən oğlu haqqında da soruşmadı...

Bu sükutu, nəhayət ki, qarı pozdu:

– Sən qəribə Tanrı ilə rastlaşmısan. Nə oldu, onu çarmıxa çəkdilər?

– Bəli.

– Qəribədir. Əgər o, həqiqətən də Tanrının oğludursa, çox qəribədir... Bəs onu niyə çarmıxa çəkdilər?

– Mən heç özüm də başa düşmürəm ki, buna nə ehtiyac vardı. Adamlar deyirlər ki, əzab çəkməsi üçün. Bunu özüm eşitmişəm. Guya, atası istəyirmiş ki, o əzab çəksin. Təmiz

divanəlikdir bu, yox, mən sənə heç bir şey anlada bilmərəm, çünki heç nə başa düşmürəm.

– Nə qəddar Tanrıdır.

– Qəddardır, əlbəttə, buna söz ola bilməz. Əgər onların danışdıqlarına inansaq. Əzab çəkmək üçün! Buna nə ehtiyac var axı?

– Bu Tanrını, deyəsən, mən tanıyıram, – qarı öz-özünə mızıldandı. Və azacıq duruxub bir qədər qətiyyətsizliklə sözünə davam elədi: – Bəs Tanrı üçün həmin oğulu doğmuş qadın barədə necə, bir şey bilirsən?

– Yox, onun barəsində heç vaxt eşitməmişəm. Mənə elə gəlir ki, ən adi qadın olub.

– Hə, yəqin, elədir. Deməli, onun haqqında heç nə bilmirsən?

– Yox, danışdıqları bircə bu idi ki, həmin qadın uşağı doğandan sonra, Tanrı anası olmuşdu – bu da məlum məsələdir. Yox, onun barəsində heç nə bilmirəm, niyə soruşursan ki?

– Sadəcə olaraq, öyrənmək istəyirdim ki, necə adam imiş, həyatını necə yaşayıb? Tanrı onu sevəndə necə olub, sonralar, bəlkə də, artıq sevməyəndə necə olub? Qısası, bilmək istəyirəm ki, Tanrıya oğul doğduğuna görə sevinibmi, xoşbəxt olubmu. Bəlkə, Tanrı elə onun özünü də çarmıxa yollayıb?

– Yox, yox, onu yollamayıb! Təbii ki, yox. Həm də axı o qadın idi!

– Hə, doğrudan ee, axı o qadın idi.

Qarı bir az susdu. Sonra isə soruşdu:

– O deyirmiş ki, məhəbbət Tanrısıyam?

– Elə də qiymətləndirmək olar. O, insana məhəbbət, insanlar arasında məhəbbət yayırmış, istəyirmiş ki, bütün adamlar bir-birini sevsinlər. Deyəsən, əsas məsələ elə bu imiş, əgər mən düzgün başa düşmüşəmsə.

– Nə qəribə təlimdir... Görünür, qeyri-adi Tanrı imiş.

– Nə deyim, ola bilər.

– Belə bir Tanrı barədə hələ eşitməmişəm. Amma o qədər müxtəlif ilahilər barədə eşitmişəm ki, elə bilirdim hamısını tanıyıram. Yəqin, xoşbəxt idi o qadın... Heyif ki, onu dünyaya gətirən, bu vəzifə üçün seçilmiş qadın barədə heç nə bilmirsən.

– Mənə qalsa, kaş o heç anadan olmayaydı. Onda bütün ömrümü xoşbəxtlik içində yaşayardım, onunla görüşənə kimi necə yaşayırdımsa, eləcə.

– Hə, hə. Tanrı ilə görüş öz daxilində təhlükə gizləyir, bu hamımıza bəllidir. Bəs sən niyə icazə vermədin ki, o, başını sənin evinin divarına söykəsin? Niyə qoymadın? Bu cür daşürəkli, qəddar hərəkətinə görə, yəqin ki, onun qarşısında böyük günaha yol vermisən.

– Qəddar, daşürəkli! Mən elə olduğum kimiyəm. Heç vaxt özümü başqa cür qələmə verməmişəm. Mən bütün başqa insanlar kimiyəm, burada pis nə var ki? Sən nə düşünürsən, məgər Tanrı sənin gözlərində məhəbbətlə dolu bir vücuddur? Yəni sən onun barəsində bu fikirdəsən? Bəlkə, səninlə davranışında məhəbbət görmüsən? Bəs onda səni niyə lənətləyib?..

Qarı əli ilə kəskin bir hərəkət elədi və o da səsini kəsdi. Bir ucu yanmış çubuqla ocağı elə eşələdi ki, qığılcımlar lap tavana qədər qalxdı.

Qonaq bir az susub sonra yenə dilləndi:

– Axı sən də ilahi qarşısında günah işlətmişdin, eynən elə mənim kimi də lənətlənmişdin. Bəs səni niyə lənətləmişdi? Sənə qarşı da ədalətli olub? Yəni haqq həmişə onun tərəfində olur? Məgər haqq heç vaxt bizim tərəfimizdə olmur?

O, qarının qoca, qırışlı sifətinə ümidlə baxır, gözləyirdi ki, əzab çəkmiş qəlbini ona açsın, başına gələn bəlalardan danışsın və bu minvalla da ona öz taleyini anlamaqda kömək göstərsin.

O isə dinmədən yalnız alova baxırdı, nə düşündüyünü bilmək olmurdu.

– Delfadakı kor dilənçi mənə sənin barəndə danışıb, amma o dərəcədə yox ki, sənin başına nələr gəldiyini anlaya

biləm. Necə oldu ki, sən orakulun kahininə çevrildin? – Bir dəqiqəlik sükutdan sonra cavab almadığını görəndə, bəlkə, indi danışdı deyə fikirləşib, ona daha bir sual verdi.

– Mənim valideynlərim möminlikləri ilə tanınırdılar, – nəhayət ki, qarı dilləndi, – bəlkə də, elə buna görə kahin oldum. Bir də ki çox yoxsul yaşayırdıq.

– Yoxsul yaşayırdınız? Bəlkə, elə yoxsulluqdan orakulun kahini olmusan?

– Ola bilər. Heç xoşuma gəlmir bunları yada salmaq.

– Burada, Delfada yaşayırdınız?

– Yox, vadinin içərilərində yaşayırdıq, şəhərli deyil, kəndli ailəsi idik.

– Belə de.

– Gündüz olsaydı, indi bizim yerləri görərdin, o qədər də uzaq deyil. Hərçənd ki, gözlərim qabaqkı deyil, amma mən buradan öz evimizi, onun yanındakı qoca zeytun ağacını görürəm. Amma indi orada kim yaşayır, xəbərim yoxdur.

– Bəs qohumların necə, qalmayıb?

– Qohumlarım? Yəqin ki, yox. Amma haradan bilim? Mən tanıdıqlarım, yəqin, çoxdan ölüblər...

– Sən axı heç kəsin adını çəkmədin.

– Doğrudan ha... demədim onlar barədə...

– Amma, yəqin, kimlərisə xatırladın, hə?

– Hə... Valideynlərim, ata-anam düşdü yadıma. Yaman çoxdan olub bütün bunlar... gör yaddaş uzaq keçmişi necə qoruyur...

Atam çalışqan adam idi, amma əkinə yararlı torpağı azlıq edirdi, bir də ki nə qədər özünü öldürsə belə – hər işi öz əlləri ilə görürdü axı, olan torpağın da məhsulu kasad idi. Torpaq, təbii ki, özümüzünkü deyildi, yığdığımız məhsulun böyük hissəsini məbədə verirdik: buradakı bütün torpaqlar məbədə məxsusdur. Ya da belə demək olar: bu torpaqlar ilahininki idi, biz ilahidən və məbəddən asılı vəziyyətdə yaşayırdıq. Töycünü verəndən sonra özümüzə, demək olar ki, heç nə qalmırdı.

Lakin aza qane olurduq, kasıbçılığa öyrəncəli idik. O vaxtkı həyatımız indi, başım bu qədər çəkəndən sonra mənə heç yoxsul gəlmir. Yadımdadır, bizim zeytunlar iri olardı, xüsusilə də evimizin yanındakı qədim ağacın meyvələri, ağac hələ onda artıq qoca idi, köhnə ağacların isə çox vaxt meyvəsi əla olur. Bu tamda zeytunu o vaxtdan bəri dadmamışam... Sonuncu dəfə zeytunu nə vaxt yeməyimi də heç xatırlamıram... Lap çoxdan olub.

– Deməli, həmin o evdə böyümüsən, hə?

– Elədir. Onların iki uşağı öldü, bircə mən sağ qaldım. Odur ki, uşaq vaxtı mənə düşən sevgi payı heç kasad olmayıb. Amma buna baxmayaraq, özümü tənha sanırdım – qəribəliyə bax. Uşaqlar hərdən lap məhəbbət içində böyüsələr də, özlərini tənha sanırlar, böyüklər isə bunu hiss etmirlər. Yəqin, mən qəribə uşaq olmuşam, hərçənd ki, əvvəl-əvvəl kənardan o qədər də hiss olunmurdu. Vaxtımı tək keçirir, yaşıdlarımla, demək olar ki, oynamırdım. Həm də bir az aralıda yaşayırdıq, o biri evlərdən çox uzaq deyildi, amma, hər halda, aralı idik. Ən çox anama meyilliydim. Görünür, onunla bir-birimizə çox şeydə uyğun gəlirdik, hər ikimiz təmkinli, səbirli, ciddi idik, söhbət eləyəndə deyərdin, eyni yaşdayıq, eyni həyat təcrübəsinə malikik. Amma, əslində, həyatın nə olduğunu o qədər də bilmirdik, nə o bilirdi, nə də mən. Başqalarının yaxşı tanıması ilə qürrələndiyi, həyat adlandırılan rəzillik, pislik və mənasız çarpışmadan ibarət nəsnənin mənim anama qəti dəxli yox idi. O yalnız ən sadə şeyləri bilirdi: dünyaya uşaq gətirməyi, sonra da onları itirməyi, bir zamanlar cavan və güclü olan, indi isə elə onun özü kimi ağır zəhmətdən yorulub əldən düşən bir insanı – ərini sevməyi. Bildiyi təkcə bunlar idi, məgər bəs deyildi? Qəlbi ağac kimi sadə, təmiz idi. Boydan ucaydı, həqiqətən, qamətli ağacı xatırladırdı, ətrafına da elə ağac kimi sakitlik, əmin-amanlıq yayırdı. Eynilə vadinin içərilərində, tarlaların arasında bitmiş həmin o tənha, böyük ağac kimi. Həmin ağac müqəddəs idi,

atam ona sitayiş edirdi. Hər gün səhər işə başlamamışdan həmin ağacın yanına gedirdi. Anamla mən isə hər gün dərəyə enərdik, orada da bizim sitayiş elədiyimiz bulaq qaynayırdı – şəffaf suyu olan, heç vaxt saralmayan yaşıllıqlarla əhatə olunmuş, həqiqətən, müqəddəs bir bulaq. Ona bircə nəzər salmaq bəs idi ki, ilahi mənşəyini duyasan. Suyun dibindəki hər qum dənəciyi aydın görünürdü, bir yerdə isə bu dənəciklər ilahinin görünməz barmağıyla hərəkətə gəlib dövrə vururdu.

Valideynlərim ilahiyə iman gətirib onu uca tutardılar, lakin onlar üçün ilahi olan bulaqlar, ağaclar, müqəddəs meşə idi, məbəddəki deyildi. Məbəddəki ilahi onlara çox əzəmətli və uzaq gəlirdi, onunla hər il becərdikləri torpağa görə zorla hesablaşa bilirdilər. Onlar nadir hallarda Delfaya gələndə, adətən, torpaq ilahisi Geyanın sadə məbədinə, elə öz evimizə bənzəyən taxta daxmasına baş çəkirdilər. Onlar ilahinin misilsiz əzəməti, nəhayətsiz dərinliyi, insan ruhuna dəhşətli dərəcədə hakim kəsilməsi barədə heç bir şey bilmirdilər. Onun məbədi və ətrafındakı biabırçılıqlar haqqında da məlumatı yox idi.

Onlar öz ilahiləri ilə vasitəçi olmadan ünsiyyət saxlayırdılar və evimizdən azacıq aralıda yerləşən meşədə atamın çəmən otlarından düzəltdiyi mehrabımız vardı, orada əkinçilərə himayədarlıq edən ilahinin şərəfinə hər il keçirilən bayramlar vaxtı qurban mərasimi icra edərdi. Lakin atam adi günlərdə də ora tez-tez baş çəkirdi, axşamçağı işdən dönərkən mehrabının önünə ya tarladan götürdüyü bir neçə sünbül, ya da meyvəzad qoyardı, ilin fəslinə baxırdı. Bir də yeməkdən qabaq, yeməkdən sonra ocağa qurban verərdi, lakin mənim çox yaxşı yadımdadır ki, başqalarının düşünmədən elədikləri, heç bir məna vermədikləri, mahiyyətinə varmadıqları bu mərasimi necə həyəcanla icra edərdi. Atam özünə qapalı, qaradinməz adam idi; ən çox gözləri yaddaşıma həkk olub, fağır, həmişə bir az kədərli və bir də yekə, kobud əlləri xatirimdədir. Ovuclarının dərisi piniya ağacının qabığı kimi sərt idi – bu əllər məni qucaqlayanda özümü sakit, qayğısız hiss edirdim.

Onunla bir yerdə harasa gedəndə mənim balaca əlim atamın enli ovcunda itəndə də bəxtiyar olurdum. Amma söhbət eləməklə arası heç yox idi. Yaşlaşdıqca daha sərt, daha qaradinməz olurdu, xüsusilə də anam öləndən sonra. Elə mənim başıma gələnlər də onun dərdini artırırdı. O qədər uzun ömür yaşadı ki, bu zərbə də ondan yan keçmədi. Tez-tez düşünürəm ki, yəni o da məni lənətlədi görəsən?

O, tənha öldü, atamı bayaq dediyim o müqəddəs ağacın altında tapmışdılar, lakin tapanlar ağacın müqəddəs olduğunu bilmirdilər və ona görə də başa düşməmişdilər ki, niyə ölmək üçün ağacın altını seçib. İndi onun məzarı üstə dünyasını dəyişənlərin ruhuna qurban verilmir, amma mən ümid eləyirəm ki, buna görə atamın mənə acığı tutmaz və onun ruhu rahatlıq içində uyuyar.

Böyüyürdüm, getdikcə mənimlə yaşıd olan başqa qızlara nədəsə bənzəmədiyim daha çox nəzərə çarpırdı. Xəyallar görür, səslər eşidirdim, bu, ilk dəfə yetkinlik yaşına çatmağımın birinci əlamətləri bəlli olanda əmələ gəldi, sonra da yox oldu. Amma məndə bir tərkidünyalıq yarandı, sanki, ruhum hardasa çox uzaqlarda pərvaz edirdi, təkliyə can atır, artıq öz hisslərimi heç anamla da bölüşmürdüm. Getdikcə öz tənhalığımı, başqalarına bənzəmədiyimi daha aydın hiss edirdim, onlardan fərqim nə idi – bunu izah edə bilməzdim, amma məhz bu səbəbdən möhkəm əzab çəkir və dərin nigarançılıq içində yaşayırdım, daha heç vaxt özümü sakit və inamlı hiss etmirdim, hərçənd ki, bunun üçün nə lazımdırsa, vardı. Məni ətrafımdakı sakit, inamlı həyatın özü narahat etməyə, əziyyət verməyə başlamışdı. Çox qəribə idi: çevrəmin sakitliyi mənə xoş təsir bağışlayırdı, onsuz keçinə bilməzdim, amma eyni zamanda da əziyyət çəkirdim bu sakitlikdən. Ata-anamın diqqətini cəlb etmədən onların dünyasına getdikcə daha çox yadlaşırdım, baxmayaraq ki, elə özüm də ömrümü bu dünyanın içində sürürdüm, buradan savayı heç yerdə yaşaya da bilməzdim. Mənim öz dünyam haradan ola

bilərdi axı? Heç haradan. Valideynlərim mənim üçün mövcud olan yeganə insanlar idi, onları nəhayətsiz sevirdim. Lakin öz evimizdə yad kimiydim, narahatlıq keçirirdim, onlar isə bunu heç ağıllarına belə gətirmirdilər, gətirsəydilər belə, onsuz da anlamayacaqdılar. Onlar yenə də ətraflarında nə vardısa, ona və dörd bir tərəfdə olan cürbəcür şeylərin özündə yaşayan Tanrılarına sadəlövh bir inam içində ömür sürürdülər.

Tanrılarına? Bəs özümün necə, əvvəlki kimi Tanrım vardımı? Yəqin, vardı, amma harada idi? Tanrım məni haradasa çox-çox uzaqlarda atmışdı. Ya mən atmışdım onu, bəlkə? Bəlkə, doğrudan, elə mən atmışdım onu? Yoxsa nədən belə həyəcan içindəydim, bütün rahatlığımı itirmişdim? Məgər Tanrı – hüzurun özü, dinclik və sakitlik deyil? İtirdiyim bütün şeylər Tanrı deyil?

Uzun müddət dünyada hər şeyə tam biganəlik içində yaşaya bilirdim və eyni zamanda da ruhum nələrinsə xiffətini yanaraq çəkirdi – mən bilmirdim nələrin. Hərdən məni qəflətən qaynar dalğa vururdu, elə bil. Xoşbəxtlik, sevinc dalğası... Bu dalğa qəlbimi həzzlə doldururdu, lakin sonra elə güclü, elə yandırıcı olurdu ki, məni qorxudur, dəhşətə gətirir, içimə elə bir həyəcan salırdı ki, qeyri-ixtiyari olaraq əllərimlə gözlərimi bər-bərk qapayırdım, bərk-bərk, bu hərarətin azalıb itəcəyini, özümə dönəcəyimi gözləyirdim. Özümə dönəcəyimi? Bu nə deməkdir?

Mən özüm kiməm axı?

O vaxtlar sağlam, güclü bədənim vardı, valideynlərim kimi hündür idim. Gör qəribəlik nədə idi. Məndə mükəmməl sağlamlıqla – məxsusi bir xəstəhallıq, adi kəndli qızı ilə bu çevrəyə yad olan həssas bir məxluq birləşirdi. Elə buna görə də mənim, əslində, necəliyimi asanlıqla anlamaq mümkün deyildi.

Amma zaman keçdikcə, təbii ki, qəribəliklərim də bəlli olmağa başladı. Yeri gəlmişkən, onsuz da bunu bütün ailəmiz barədə deyirdilər. Yəqin ki, məbəd qulluqçuları da elə buna görə yeni pifiyaya ehtiyac yarananda, məni salmışdılar

yadlarına. İndi dəqiq xatırlaya bilmirəm, amma, gərək ki, bu baş verəndə iyirmi yaşım vardı. Oranın rəhbərliyi, yəqin, fikirləşmişdi ki, hamının sadəlövh, bəsit adam kimi tanıdığı, valideynləri məbəddən asılı olan, qəribəliklərə malik kasıb kəndli qızı onlara tam uyğun gələr. Onlara uyğun gələn həm də o idi ki, mən Tanrıya möhkəm və səmimi inancı olan bir ailədə tərbiyə almışdım, yəqin, camaatı sorğu-suala çəkib öyrənmişdilər.

Atamla anam bu təklifi eşidəndə tamam özlərini itirdilər. Ömründə belə bir şey ağıllarına gəlməzdi. Onlar anlayırdılar ki, bu, böyük şərəfdir, əlbəttə, onlar da bilirdilər ki, bu, Tanrı əzəmətli, qüdrətlidir, onun məbədi də misilsiz dəbdəbəyə malikdir, – onlar elə özləri də nadir hallarda ora baş çəkir, bütün bu sərvətin içində, tanış olmayan çoxlu adamın arasında utanır, sıxılırdılar. Həm də məgər Delfanın ən yüksək mövqeli şəxsiyyətlərinin xahişinə rədd cavabı vermək mümkün idi? Əgər onlar nəyisə təklif edirlərsə, deməli, elə də olmalıdır. Bu işlər valideynlərim üçün o qədər anlaşılmaz idi ki, hansı cavabı verməyin düzgün olduğunu araşdırmaq imkanında deyildilər. Amma, görünür, razılıq vermək lazım idi. Tanrıya bel bağlamaq lazım idi, onun istəyinin belə olduğunu düşünmək lazım idi. Hərçənd ki məni naməlum, anlaşılmaz bir şeyin tam ixtiyarına vermək də qorxulu idi onlar üçün.

Bəs mən? Mən özüm?

Bu barədə eşidəndə məni həyəcan, nigarançılıq çulğadı. Tanrının seçdiyi? Mən seçilmişəm? Məbədə çağrılan mənəm? Tanrının yanına?

Onun alətinə çevrilmək üçün, onun sözlərini, təlqin etdiyi vəhyləri çatdırmaq üçün? Onun ruhuna bürünüb ilahi bir sevinc içində öncəgörmələr söyləmək?

Mən? Mən bunun üçün seçilmişəm?

Bu, bütün ruhumu sarsıdırdı, qorxudurdu, dəhşətə salırdı, əzirdi və nəhayətsiz bir xoşbəxtlik gətirirdi mənə.

Mümkündürmü belə bir şey? Tanrıya gərək olmağım mümkün idimi? Onlar demişdilər ki, belə fikirləşirlər. Tanrıya

– məni atan Tanrıya, mənim atdığım Tanrıya – gərək idimmi? Belə bir şey ola bilərmi? Yəni mən özü tərəfindən seçilmişəm ki, onun qulluğunda durum, iradəsini çatdırım, yəni o, dodaqlarımla danışmaq istəyir? Bu, ağlasığan deyildi, bu, möcüzə idi. Mənim gözlədiyim möcüzə?

Yox, Tanrı məni unutmamışdı, atmamışdı. Mən də onu atmamışam, əlbəttə ki yox. O, məni çağırır, mən də gedəcəyəm hüzuruna, bütün qəlbimlə gedəcəyəm, tək onunla dolu qəlbimlə!

Tanrı məni səsləyir!

İlk həyəcan səngiyəndən sonra sakit bir sevinc qaldı, məni gözləyən ecazkarlıq haqqında aravermədən fikirləşirdim. Bax, onda rahatlıq tapacağam, yenidən sakitlik tapacağam – onun yanında tapacağam.

Qərara aldıq ki, Delfaya, məbədə anamla ikimiz gedəcəyik. Bir səhər elə də etdik və gəlişimizin məqsədini söyləyəndən sonra bizi məbəd meydanındakı tikililərin birinə, o vaxt ən ali kahin vəzifəsini tutan bir şəxsin qəbuluna ötürdülər. Bu, Delfada tanınmış bir nəslin nümayəndəsi olan yaşlı bir nəfər idi, qabaqlar bu cür adamlarla heç görüşməmişdik. Gülərüz qarşıladı bizi, onunla danışmaq heç çətin olmadı. Biz ona bir az öz həyatımızdan söz açdıq və sonra da o, mənimlə qısaca söhbət elədi, uşaqlığımdan, digər şeylərdən soruşdu; bəlli deyildi ki, bunlarla niyə maraqlanırdı, görünür, sadəlövh cavablarımdan da razı qaldı. Axırda dedi ki, bu məbədin Tanrısı işıq ilahisidir, o – bütün ilahilərin ən böyüyü, onun orakulu isə dünyanın bütün orakullarının ən yaxşısıdır. Bu məbədin ilahinin özü tərəfindən çağrılan və xeyir-dua verilən kahini olmaq həm böyük səadət, həm də onun qarşısında böyük məsuliyyətdir. Mən həyəcandan, xoşbəxtlikdən gözlərimi yerə zilləyib durmuşdum.

Sonra o, nökəri çağırdı, o da bizi meydandan məbədə keçirdi və kahinlərdən birinin himayəsinə verdi.

Mən əvvəllər məbəddə heç olmamışdım. Anam əsl kənd qadınına xas çaşqın bir narahatlıq içində durmuşdu, heç

ətrafına da baxmırdı, mən isə heyranlıqla gördüklərimə tamaşa edir, ilahi məbədinin zənginliyinə, dəbdəbəsinə mat qalırdım. Mən hələ belə bir şeyi nə görmüşdüm, nə də mümkünlüyünü ağlıma gətirə bilərdim. Tanrıya yaxınlığımı dərk etdiyimdən məni heyranlıq, sevinc hissi bürümüşdü. Səhər günəşi par-par yanır, öz şüalarını bütün məbədə yayırdı. Həqiqətən də, bu, işıq ilahisinin məbədi idi, Tanrının olduğu yer, onun yaşadığı ev idi.

Kahin, görünür, mənim heyranlığımdan razı qalmışdı, hətta nə qədər qəribə olsa da, məbədə ilk dəfə qədəm basmağım da onu qane edirdi. O, səbirlə gözləyir, mənim ətrafa təəccüblə göz gəzdirməyimə mane olmurdu. Lakin sonra bizi məbədin içərilərinə, lap dərinliyinə apardı. Orada balaca bir qapı vardı, anama burada dayanıb bizi gözləməsini tapşırdı. Biz isə orta böyüklükdə olan bir zala keçdik, mənə izah elədi ki, müxtəlif suallarla orakula müraciət eləyən zəvvarlar burada toplaşırlar, sonra isə dar pilləkənlə aşağı, demək olar ki, tamamilə qaranlıq, cəmi iki yağ lampası ilə işıqlandırılan bir otağa düşdük. Oranın pis, ağır, hətta boğucu bir havası vardı və mənə elə gəldi ki, indicə boğulacağam. Ayaqlarımızın altındakı döşəmə saf, hamar deyildi, elə bil, selikli, sürüşkən idi, başa düşdüm ki, biz, sadəcə olaraq, nəm bir qayanın üstündəyik. Qayadakı yarğanın üzərinə hündür üçayaq qoyulmuşdu, onun hər iki tərəfində isə – iki hündür cam vardı, gözümə elə göründü, aydın seçə bilmirdim, gözlərimin önündə nə vardısa, bir-birinə qarışırdı. Divarları da görmədim, sanki, yerin içindəki bir mağarada idik. Qəribə qoxular gəlirdi buradan: müxtəlif ətirlərlə, yəqin ki, bu yarğandan qalxan ağır qoxular bir-birinə qarışmışdı və məni ən çox təəccübləndirən zəif, amma kifayət qədər hiss olunan keçi iyi oldu.

Qaranlığa baxmayaraq, məni diqqətlə izləyən kahinə fikir verirdim. İzah etdi ki, bura – məbədin lap ürəyidir, Tanrı huşsuz vəziyyətdə olan pifiyaya nə deyəcəyini burada təlqin edir və mən də Tanrıya bu otaqda qulluq göstərəcəyəm,

ruhumu ona tabe edərək. Mənim nəfəsim kəsilirdi, ona görə də heç bir şey deyə bilmədim. Görünür, kahin məndən də, müqəddəs mağaranın həssas ruhiyyəmə göstərdiyi təsirdən də razı qaldı. Burada gördüklərimi və sonralar da görəcəklərimi məxfi saxlamağım barədə tapşırıq verərək, məni geriyə qaytardı. Əllərimlə gözlərimi bərk-bərk qapayaraq möhkəm həyəcanlananda həmişə belə edirdim, onun dalına düşüb, dar pilləkənlə qalxdım.

Anam bizi yuxarıda gözləyirdi, mənə elə gəldi ki, müəyyən nigarançılıq keçirmişdi, mən qayıdan kimi, qayğılı nəzərlərlə gözlərimin içinə baxdı. Hələ də təngnəfəs idim, lakin ümid edirdim ki, bunu sezməyəcək. Günəşin şüalarına qərq olmuş əzəmətli, işıqlı məbədi donuq baxışlarla süzdüm. Burada hər şey elə bayaqkı kimi idi. Amma mən daha sevinc hissi duymurdum və bir anlıq parlaq işıqdan gözlərimi yumdum, sanki, içimi doldurmuş nəsə məni büsbütün uddu. Elə bil, ilahinin gizli mahiyyəti ilk dəfə açıldı mənə.

Məbədin önündə kahin mənə növbəti dəfə nə vaxt bura gəlməli olduğumu deyərək, bizdən ayrıldı. Biz ikimiz də əl-ələ verib sükut içində evə yollandıq. Anam kahinin məni hara apardığını soruşdu, mən də qeyri-müəyyən bir cavab verdim və bundan sonra daha bir kəlmə də kəsmədən evə kimi gəldik.

Yenə də əvvəlki kimi tək qaldım – yeni düşüncələrimlə baş-başa. Tanrının anlaşılmaz, dərkedilməz olması, yerin altındakı mağarada yaşaması, məni qorxutması barədə fikirlərimlə baş-başa! Buna baxmayaraq, darıxırdım onun üçün. Həqiqətən, darıxırdım, onun üçün darıxırdım. Baxmayaraq ki mənim təsəvvür etdiyim kimi deyildi və ondan ümid etdiyim köməyi gözləməyin heç bir mənası yox imiş. O, məni yalnız qulluq etmək üçün çağırırdı.

Bəs niyə məhz məni? Niyə məni seçmişdi?

Onun yuxarıda da məbədi vardı, gündüz işığına qərq olmuş məbədi, bu, belə idi. Gözəl, dəbdəbəli bir məbəd. Lakin ruhunu vermək üçün orada gözləmirdi məni. Oradakı Tanrı

fərqli idi, mənə ehtiyacı yox idi. Çünki mənim ruhumu öz işığı ilə doldurmaq deyildi niyyəti. Yox, aşağıda, məbədin altındakı zirzəmidə öz vəhylərini təlqin edəcəkdi mənə, mən onun ruhu ilə yerin təkində birləşəcəkdim.

Amma yenə də, yenə də məni çəkirdi oralar! Görəcəklərimdən vücudumu çulğamış qorxuya, dəhşətə baxmayaraq, məni ora çəkən qarşısıalınmaz bir istək idi! Mən yalnız bu barədə düşünürdüm – başqa heç nə haqqında fikirləşə bilmirdim – yalnız ağır, başgicəlləndirici qoxularla dolu boğucu zirzəmidə əsir olmaq və onun ruhu ilə birləşərək, geniş açılmış dodaqlarımla, köpük qaynayan ağzımla vəhşi, anlaşılmaz sözlər çığırmaq – Tanrıma təslim olmaq, ona qulluq etmək!

Bax, belə bir nigarançılıq içində başıma nələr gələcəyini gözləyirdim. Lakin yavaş-yavaş həyəcanım səngidi və huşsuzluq uçunmaya bənzər bir hisslə əvəzləndi, nigarançılığım özünü büruzə verməsə də, şüuraltında yaşamağında idi. Bilmirəm, bunu indi məni himayə edənlər görürdülərmi, vəziyyətimdən xəbərdar idilərmi? Delfada tez-tez olurdum, pifiya olacağım təntənələr yaxınlaşmaqda idi və məbədin işçiləri məni qulluğa hazırlamalıydılar, onlar istəyirdilər ki, gözlərinin qabağında, valideynlərimdən uzaq olum. Bu hazırlıq işlərindən az şey anlayırdım, bəzən isə qətiyyən heç nə başa düşmürdüm, yadımdadır, başıma açdıqları murdar əməliyyatın mənasını neçə illər keçəndən sonra anlamışdım; mənim bakirə olduğumu müəyyən etmək üçün imiş bu əməliyyat. Onlardan fərqli bir dünyada yaşayırdım və bəlkə də, Tanrı özü məni o vaxtkı huşsuzluğuma qərq etmişdi ki, müdafiə olunum, onlarınkında yox, onun dünyasında yaşayım. Bəlkə də, belə idi, amma dəqiqini haradan bilərəm ki?

Yaz ayının yeddinci günü – ilahinin şərəfinə keçirilən bayram günü, mənim ilk dəfə orakulun yanında qulluğa başlayacağım gün yaxınlaşırdı. Onların bütün ümidləri mənə idi, əvvəlki pifiya bir müddət əvvəl qəflətən, açıqlamaq istəmədikləri bir şəraitdə ölmüşdü. Neçə gün dalbadal davam

edəcək bu təntənələrə çoxlu ziyarətçi gözləyirdilər və nigaran idilər ki, bu işdə gücünü heç vaxt sınamamış bir qız bunun öhdəsindən necə gələcək, Tanrı mənim dodaqlarımla danışmaq istəyəcəkmi və gündəlik yorucu mərasimlərə dözə biləcəyəmmi? Onlar daim mənim qayğıma qalır, mənim üçün narahat olurdular. Lakin mənim xətrimə yox, mən bunu hələ lap uşaq olsam belə, müxtəlif insanları tanımasam belə, onların xislətinə bələd olmasam belə, başa düşürdüm. Onu da anlayırdım ki, onlar Tanrı üçün yox, onun məbədi üçün yaşayırdılar və Tanrını deyil, məbədi, onun nüfuzunu, dünyəvi şöhrətini sevirdilər.

Şübhə yox idi ki, zəvvarlar, həmişəki kimi, ilahinin şərəfinə keçirilən bu əsas bayrama dəstə-dəstə axışacaqlar, deməli, məbəd də çoxlu nəzir-niyaz, hədiyyə alacaq, öz sərvətini, qüdrətini daha da artıracaqdı. Belə ümid etmək olardı ki, bütün qonaq evləri dolacaq, şəhərdəki bütün əhali bu və ya başqa şəkildə mənfəət əldə edəcəkdi. Dünyanın hər yerindən qonaqların gəldiyi bu mərasimin yerli əhali üçün böyük əhəmiyyəti vardı, əslində onların hamısı elə bunun hesabına dolanırdı. Ona görə də  şəhər zəvvarların qəbuluna cidd-cəhdlə hazırlaşırdı.

Onda hələ çox məsələləri anlamırdım, az şeydən xəbərim vardı, əvəzində, sonralar bütün bunlarla tanış oldum, hətta, demək olar ki, lazım olduğundan da artıq bildim. Tanrını və onun məbədini əhatə eləyənlərlə tanış olmaq, məbədin ətrafındakı dağda bir-birinə söykənmiş, qarışqa qaynaşan yuvalara bənzər evlərindəki insanlar üçün orakul şöhrətinin hansı anlam daşıdığını öyrəndim. İlahiyə aidliyindən bütün dünyəvi qayğılardan azad olmuş bu adamlar inanırdılar ki, cəmiyyətdə xüsusi mövqe tuturlar və onların gözəl şəhərinə gəlməyə can atan yadellilərin hamısına yuxarıdan-aşağı baxırdılar. Onlar qürur hissi keçirir, bütün əhalisinin Tanrı ilə yaşadığı və dolandığı Delfanı müqəddəs şəhər sayırdılar.

Amma bütün bunlar mənim üçün hələ gizli mətləblər idi, təbii ki, ümumi qarışıqlığı görməyə bilməzdim, lakin bu

barədə heç düşünmürdüm, bəlkə də, Tanrının özünün iradəsi ilə uçunmaya qərq olaraq ətrafımdakı heç nəyi görmür, eşitmirdim, sanki, bunların mənə qəti aidiyyəti yox idi.

Nəhayət, həmin gün yetişdi – İşıq Tanrısının günü; onun şərəfinə bayram silsiləsini açan gün; həmin günün səhərini indiyədək aydın xatırlayıram. Səhər günəşi hələ heç vaxt dağların arxasından ogünkü kimi gözəl doğmamışdı – mənin üçün doğmamışdı. Üç gün idi ki, oruc tuturdum və quş kimi yüngül, az qala, çəkisiz idim. Kastal bulağında yuyunma mərasimi keçirdim, suyu o qədər təravətli idi ki, özümü tamamilə pak, ilahi səhərinə aid olmayan hər şeydən azad hiss edirdim. Məni gəlin kimi bəzədilər, onun gəlini kimi və müqəddəs yolla ahəstə-ahəstə məbəd meydanına tərəf irəlilədim. Yəqin ki, yolun hər iki tərəfində, elə meydanın özündə də saysız-hesabsız insan kütləsi durmuşdu, amma mən onları görmürdüm, heç kimi və heç nəyi görmürdüm. Bütün vücudum, bütün fikirlərim Tanrıya yönəlmişdi. Məbədin pilləlləriylə yuxarı qalxdım, xidmətçilərdən biri üstümə müqəddəs su çilədi və mən işıqlanan məbədə, ilahinin məni gözlədiyi, ona qulluq etməli olduğum işıqlı evinə qədəm basdım. Mən onun evindən keçirdim, qapanmış göz qapaqlarım yaşdan alışırdı, çünki yummuşdum onları, bu dəbdəbəni görmək, məni qulluq üçün seçmiş Tanrıma xəyanət etmək istəmirdim, fikrimi onun qulluğunda durmaqdan yayındıra bilən təmtərağın şahidi olmaqdan çəkinirdim. İki kahinin müşayiəti ilə ilahinin sönməz alovunun şöləndiyi mehrabın yanından keçib zəvvarlar zalına daxil oldum, oradan isə dar, alaqaranlıq pillələrlə aşağı, orakulun zirzəmisinə düşdüm.

Orada işıq elə əvvəlki kimi zəif idi, ətrafımda nəsə görənə qədər xeyli çəkdi. Lakin qayadakı yarğandan qalxan ağır buxarlanmanı o dəqiqə duymuşdum, bu qoxular indi mənə daha boğucu, daha başgicəlləndirən gəlirdi. Keçi iyini də elə o dəqiqə hiss etmişdim, o da mənə ötən dəfəkindən güclü gəlirdi. Anlaya bilmirdim ki, burada belə qoxu hardandır. Bir də tüstü iyi gəlirdi oradan, elə bil, nəsə yandırırdılar. Azacıq sonra

gözlərim qaranlıqda bir manqal seçdi, içində nəsə közərirdi, manqalın yanında isə balaca, arıq bir adam oturmuşdu, əlindəki quş qanadı ilə – deyəsən, çalağan qanadı idi – közü yelləyirdi. Sarı-bozumtul bir ilan onun düz ayağının yanından sürünərək zülmətdə itdi. Canımı qorxu aldı, axı eşitmişdim məndən qabaqkı pifiya, guya, ilan sancmasından ölmüşdü, amma fikirləşirdim ki, yəqin, yalandır, çünki ötən dəfə burada ilanzad görməmişdim. Sonralar bildim ki, bu, həqiqət imiş, ilanlar daim burada yaşayırdılar və orakulun ilahi şüura malik müqəddəs heyvanları sayılırdılar. Sonralar bunu da öyrəndim ki, manqalda yandırdıqları dəfnə ağacıymış, ilahinin müqəddəs ağacı, onun tüstüsünü kahin qadın ciyərlərinə çəkməli idi ki, ilahinin ruhu ilə qovuşa bilsin.

Budur, balaca adam manqalını da, quş qanadını da qoyaraq, mənə elə xeyirxah nəzərlərlə baxdı ki, vücudumu çulğamış qorxu yaxamdan əl çəkdi. Onun qupquru, qırışmış sifəti mehriban, mərhəmətli idi, hətta üzümə gülümsünürdü. Onda hələ bilmirdim ki, məbəddə yalnız o, mənim dostuma çevriləcək, bütün sonrakı illər ərzində yeganə dayağım, təsəllim olacaqdır, xüsusilə də taleyim öz sıldırım qayasından şığıyan qartal kimi mənə qəfil zərbə endirəndə. O vaxtkı huşsuz vəziyyətimdə çox fikir vermirdim ona, amma yenə də mərhəmətli adam olduğunu, orakulun yanında öz işini yerinə yetirsə də, mənə xeyirxahlıq etmək istəyini başa düşmüşdüm. O, içində ilahinin müqəddəs meşəsindən yeni dərilmiş dəfnə yarpaqları olan camı mənə uzatdı ki, manqalın tüstüsü ilə yanaşı, onlardan da dadım. Bu, Tanrı ruhunun mənə ötürülməsini təmin edəcəkdi. Orakulun qoca xidmətçisi də elə onda gülümsündü ki, çox qorxmayım və bütün bu dəhşətlər içində məni sakitləşdirən, təskinlik verən yalnız onun təbəssümü oldu.

Mənə verdikləri qarışığın murdar dadı vardı, ya onun təsirindən idi, ya da oruc tutandan sonra o dərəcədə əldən düşmüşdüm ki, özümü çox pis hiss edir, ayaq üstə zorla dayanırdım. Orakulun mənə göz qırpmadan nəzarət edən iki

kahini hündür üçayağa dırmanmağıma kömək elədilər, özüm çıxa bilməzdim onun üstünə, sonra da közərmiş manqalı hündür ayaqların üstünə, mənim başımın bərabərinə qaldırdılar, hər nəfəs çəkməyimlə başgicəlləndirən tüstünü sinəmə alırdım. Tüstü boğazımı qovuşdurur, başımı gicəlləndirir, şüurumu kütləşdirirdi. Amma mənə hər şeydən artıq yarğandan qalxan buxar təsir edirdi, – indi düz həmin yarğanın üstündə əyləşəndə, zəhərli, ürəkbulandıran buxar məni, sadəcə olaraq, boğurdu. Halım qarışdı, ağlımdan bir fikir keçdi: axı mən kimdənsə eşitmişəm ki, bu yarğan yerin təkinə kimi gedərək, düz ölülər səltənətinə çatır və orakul da öz gücünü oradan alır, çünki hər şeyi bilən yalnız ölümün özüdür. Dəhşət məni bürüdü, ayaqlarımın altında olan, əgər huşumu itirib, yerə yıxılsam, məni udacaq ölüm məmləkətindən doğan dəhşət, ölüm dəhşəti... Hiss edirdim ki, yıxılıram... Bəs Tanrı haradadır, haradadır o?! Yoxdur, o, mənim yanıma gəlmədi! O vəd etdiyi kimi, ruhunu mənə vermədi! Budur, yıxılıram, mən yıxılıram...

Dumanlı şüurumla, yarıhuşsuz vəziyyətdə birtəhər seçdim ki, orakulun kahinlərindən biri zirzəminin zülmətindən qeyri-adi böyüklükdə buynuzları olan bir qara keçi çıxarıb onun başına su tökməyə başladı, gözlərimə belə göründü və bundan sonra daha heç bir şey görmədim, eşitmədim...

Lakin birdən hər şey dəyişdi. Mən içimdə bir qəribə yüngüllük, sərbəstlik hiss etdim, daha ölüm duyğusu yox idi, həyat vardı, həyat, təsviredilməz sevinc hissi vardı, qaynar, əzəmətli... Bu o idi! O! O idi, bilirəm, vücuduma girmişdi! O, mənim vücuduma girib içimdəkiləri bir heç etmişdi və batinimi ağzına kimi özü ilə doldurmuşdu, öz xoşbəxtliyi, öz heyranlığı, öz sevinci ilə. Onun ruhundan, ilhamından duyğulandığını hiss etmək, büsbütün onunku olmaq, onu düşünmək gözəl idi. Onun heyranlığını, xoşbəxtliyini, nəhayətsiz sevincini yaşamaq gözəl idi. Tanrı ilə həyat eşqini bölüşmək – bundan gözəl nə ola bilər!

İçimdəki bu qeyri-adi hissiyyat çoxalır, artırdı. Yenə də bayaqkı kimi sevincli, heyrətamiz idi, lakin həddindən artıq coşqulu idi, həddindən ziyadə nəhəngləşmişdi; o, bütün sərhədləri dağıdır, məni içimdən söküb incidirdi, o, vəhşi, divanə bir hissə çevrilmişdi və mən bədənimin ağrıdan necə qıvrıldığını, boğazımın necə sıxıldığını, elə indicə boğulacağımı hiss etdim, lakin boğulmadım, bunun yerinə boğazımdan fışıltı ilə mənə tamamilə yad, dəhşətli, ağrıdıcı səslərin çıxdığını eşitdim, dodaqlarım qeyri-ixtiyari tərpənir, bu səslər mənim heç bir iştirakım olmadan yaranırdı və məndən qışqırtılar, bərk qışqırtılar çıxırdı, onları anlamırdım, onları anlamaq mümkün deyildi, amma onlar mənim ağzımdan, geniş açılmış ağzımdan qopurdu, lakin mənimki deyildi bu səslər, mən artıq özüm deyildim, özümünkü deyildim, ona məxsus idim, yalnız ona və bu dəhşət idi, çox böyük dəhşət!

Bunun nə qədər davam etdiyini bilmirəm, bu hala düşəndə vaxt hissiyyatını tamam itirmişdim. Yerin altından necə çıxdığımı, ondan sonra baş verənləri, mənə kimin kömək etdiyini, qayğımı kimin çəkdiyini yadıma sala bilmirəm. Məbədin yaxınlığında yerləşən, bütün bu müddət ərzində yaşadığım evdə özümə gələndə öyrəndim ki, o qədər əldən düşmüş vəziyyətdə olmuşam ki, gələn kimi dərin yuxuya getmişəm. Bir də onu öyrəndim ki, kahinlər məndən çox razı qalıblar, mən orakulun kahini kimi onların ümidlərini artıqlaması ilə doğrultmuşam. Bütün bunları mənə evində yaşadığım qarı dedi və sonra da məni qoyub getdi ki, yaxşıca dincəlib güc yığa bilim.

Yataqda əynimdəki gəlin paltarı ilə uzanmışdım – Tanrının gəlini. Bu, mənim ömrüm boyu geydiyim yeganə gəlinlik paltarı oldu. Yadımdadır ki, paltarın adət etmədiyim bahalı parçasını sığallayırdım və özümü son dərəcə tənha hiss edirdim.

Tanrı? Kimdir bu Tanrı? İndi haradadır? Niyə burada deyil? Mənimlə deyil. Haradadır mənim istəklim? Niyə məni qoyub gedib?

Onu başa düşmürdüm. Amma darıxırdım onun üçün. Yox, onu heç anlamırdım, kim idi o, bu barədə indi, özümü ona təslim edəndən sonra onun ruhuyla, həzziylə, ilhamıyla qovuşandan sonra, məni ağrıdan qışqırdandan sonra, daha az bilirdim. Bəli, o, mənim varlığımı ağrıtdı. Amma yenə də darıxırdım onun üçün. Yalnız onun üçün. Axı onsuz heç nə yox idi, təkcə boşluq vardı.

Ah, kaş öz məbədindən bura, mənim yanıma gələydi. Həmin məbəddən ki, kahinləri, Tanrını orada sevən müxtəlif adamlar, onu zənginliyinə, təmtərağına görə sevənlər indi şəninə alqışlar yağdırırdılar, yəqin. Kaş o gəlib məni qucaydı, sadəcə qucaydı; hər şey bitəndən sonra sevgililərin bir-birini qucaqladığı kimi. Gərək o, məni burada, gəlinlik bəzəyi əynimdə, sevgilisi daha ona lazım olmadığından atıbmış kimi, tamam tənha qoymayaydı; öhdəmə düşən vəzifəni yerinə yetirəndən, onu razı salacaq qədər yaxşı yerinə yetirəndən sonra gərək tək qoymayaydı məni. Od təki isti də, huşsuzluq da, divanəlik də başa çatandan sonra gərək qoymayaydı tənha qalam. Niyə məni orada sevirdi?! Niyə yalnız orada mənimlə idi?!

Ah, necə istərdim onun qolları arasında dincələm. Vəcdə gəlmədən, əsla həyəcan keçirmədən. Sadəcə dincəlmək istəyirdim, sakit və xoşbəxt olmaq istəyirdim. Başqa heç nə, yalnız onun ağuşunda sakitlik və səadət arzulayırdım.

Bəlkə, bu deyildi istədiyim? Bəlkə, heç bunun xiffətini çəkmirdim?

Əlbəttə, bunun xiffətini çəkirəm. Bunu nə vaxtsa sınamaq mənə nəsib deyil? Mənim vəzifəm bu deyilmi, bunun üçün gərək deyiləmmi ona?

Rahatlıq. Dinclik. Buna necə ümid edə bilərdim! Necə ümid edə bilərdim ki, onun ağuşunda məhz bunu tapacağam! Mən ilahidən rahatlığı necə istəyə bilərdim!

Yox, ilahi, görünür, mənim təsəvvür etdiyim kimi, mənim sidq-ürəkdən görmək istədiyim kimi deyildi. O, yəqin, heç mən istəyən kimi ola da bilməz. Mən elə bilirdim ki, ilahi

– qayğısızlıq, sakitlik, dinclikdir. Yox, ilahi – aramsızlıq, həyəcan, çaşqınlıq idi. İlahi bu demək idi.

Uzanıb, otaqda qaranlığın necə düşməsinə tamaşa edirdim. O, məni elə uzun yuxuya qərq etdi ki, artıq axşam idi, gün başa çatmışdı.

Səhər tezdən, günəş dağların arxasından boylanan kimi istəklim gələcək yanıma; gələcək ki, məni öz ruhuyla, isti nəfəsilə, həzzilə çulğasın, mən yenə də ona məxsus olacağam!

Bax, beləcə, onun kahini oldum, onun qulluğunda keçən uzun zaman kəsiyi belə başlandı..

Gah atamla anamın yanında yaşayırdım, gah da məbədin nəzdindəki həmin o evdə, məni müşayiət edən qarı ilə. O, həmişə tez-tez düşən və acı bağırsaq kimi uzanan bayramlar vaxtı pifiyalara qulluq edirdi, axı orakulun yanında olmaq o qədər yorucu idi ki, pifiyanın əməlli-başlı dincəlməsi üçün qulluğa, gecə isə sakit yataraq, qüvvə toplamağa ehtiyacı olurdu. Qarı da ömrünün əsas hissəsini kahinlərin tapşırığı ilə bu işə sərf etmişdi. Uzun qulluq illərində yanında olan bütün pifiyalar barədə hər şeyi bilirdi və onlardan danışmağı xoşlayırdı. Uzun-uzadı danışa bilərdi. Kahinlər barədə də hər şeydən təfərrüatı ilə xəbərdar idi: necə adam idilər, onlardan kimlər hansı ilahiyə, həqiqətən, sitayiş edirlər, hansılar isə özünü yalandan mömin kimi göstərirdilər. Məni ilk dəfə yerin təkinə aparan da özünü mömin göstərənlərdən idi, bunu mənə o dəqiqə dedi, lakin həmin kahinin böyük nüfuzu vardı, çünki xəzinədar olduğundan məbəd üçün çox iş görmüşdü. Onun müddətinə artıq az qalmışdı: bu vəzifəni yalnız müəyyən müddətə tuturdular. Kahinlərin hamısı Delfanın ən yaxşı nəsillərindən idi, ən yüksək vəzifə tutanları isə ən tanınmış ailələrdən çıxmışdılar; bu barədə o, tez-tez və bütün xırdalıqları ilə danışırdı. Görünür, məhz bu, məbədi onun gözündə ümumi hörmətə və şöhrətə mindirirdi. Bu şöhrətin qeydinə qısqanclıqla qalırdı, məbəd və onunla bağlı hər şey onun qəlbinə yaxın idi və o, heç şübhəsiz, məbədə qulluq etdiyindən qürur duyurdu.

Mənimlə söhbətlərində ilahinin özündən heç vaxt söhbət salmırdı.

Yüksək rütbəli şəxslərə, onların əsil-nəcabətinə bəslədiyi böyük hörmətə baxmayaraq, hətta onlar barədə də heç vaxt yaxşı danışmırdı. O, ümumiyyətlə, heç kəs barədə təqdirlə, təriflə danışmazdı, əksinə, bütün insani çatışmazlıqları çox sərt bir şəkildə qeyd edərdi. O zamanlar, gənc və təcrübəsiz bir adam kimi, dünya barədə onun söhbətləri əsasında formalaşan təsəvvürüm tam təhrif olunmuş, yanlış idi, mən bunu hiss edirdim, lakin görürdüm ki, onun sözlərində həqiqət də az deyil və bu, məni lap dolaşdırır, çaşdırırdı. Mən dəfələrlə düşünmüşəm ki, sonralar dərin nifrət hissi bəslədiyim bu qadın, görünür, insanlar barədə mülahizələrimə başqalarından daha çox təsir edərək, onlara xeyli acılı, ədalətsiz məqamlar gətirmişdi. Bu qadına nifrətimə, onun yalan dediyinə dərin inamıma baxmayaraq, sözlərimin təsiri, heç şübhəsiz ki, özünü göstərirdi. Axırda isə öz alçaqlığını mənə tam olaraq göstərərkən, onun insan xisləti haqqında yalan anlayışlarının həqiqət olduğu qənaətini məndə bir az da möhkəmləndirdi. Bax, həqiqət sandığımız bilgilərimizi, əslində, ən az inandığımız adamlardan beləcə qazanırıq və real həyatda, özümüz də dərk etmədən, ömür yollarında ən çox nifrət etdiyimiz nə varsa, onları rəhbər tuturuq.

Mən axı özüm də bu qarıdan eşitdiyim şeylərdən əlavə, insanların bir xeyli şər əməlləriylə rastlaşası oldum. Lakin tənhalıq içində keçmiş bütün bu illəri xatırlayarkən, başıma gələnlərə baxmayaraq, tez-tez özümə bir sualla müraciət edirdim: insanlar, həqiqətənmi, bu dərəcədə pisdirlər? Bəlkə, məni öz acı taleyim çaşdırmışdı, bəlkə, onlara çıxardığım hökmü də elə bu idi müəyyənləşdirən? Bilmirəm, axı daha adamlarla təmasım da olmurdu. Amma öz tənhalığımda bu fikirlər məni daim incidirdi.

Lakin onun təsiri altına düşməyimin əsas səbəbi danışdıqlarında həqiqət payının çox olması idi. Müqəddəs şəhərdə

baş verən bütün abırsızlıqlar haqqında, Delfaya dünyanın hər yerindən bu qədər kişinin gəldiyi böyük bayramlar zamanı baş verən mənəvi pozğunluqlar barədə həqiqəti deyirdi – bu kişilər təsadüfi qadınlar axtarırdılar və yoxsul ailələrin, başqalarının qızları karvansaralarda onların karına gəlirdi; qarı deyirdi ki, bütün şəhərdə bakirə qız, yəqin ki, tapılmazdı, yəqin, elə buna görə məni pifiya seçmişdilər, bunu qəflətən, heç bir keçid etmədən söyləyərək, əməlli-başlı utandırdı, qızartdı məni. Bayram günləri gedən qızğın alverin buraya çəkib gətirdiyi bu avaralar, fırıldaqçılar, demək olar ki, lap məbədin tavanı altında hansı qaranlıq, vicdansız əməllər törətmirdilər ki! Hətta kahinlər arasında da əsl fırıldaqçılar tapılırdı, onlar bəlli bir məbləğ xatirinə orakullara sualla müraciət edənlərə onlara lazım olan cavabları verirdilər, pifiyanın sözlərini onların arzu etdiyi bir tərzdə yozurdular – hərçənd ki, belə hadisələrin çox nadir hallarda baş verdiyini də etiraf edirdi qarı – ya da qurban mərasimində verilən nəzirləri mənimsəyir, qurbanlıq heyvanların dərilərini satmaqla və bu qəbildən olan digər əməllərlə pul qazanırdılar, imkanlı vəzifə tutanlar məbədi aldatmaq üçün daha hansı üsullar düşünmürdülər və mənə bəlli olanı o idi ki, çoxları, bəlkə də, hamısı bu üsullardan qazanc üçün istifadə edirdi.

Demək lazımdır ki, onun dözülməz qeybətcilliyi və barəsində danışdığı, təəssüf ki, özümün də dəfələrlə şahidi olduğum yalançılıqlar, alçaqlıqlar mənim ruhumda Tanrı və Tanrı məhəbbəti barədə yüksək düşüncələr doğururdu. Belə murdarlıqlarla əhatə olunduğundan, belə bir bataqlıqdan qalxdığından o daha artıq məhəbbətə layiq idi. Və mənə də daha vacib idi, onu sevməyə bilməzdim. Axı bu çirkin dünyada onu sevməsən, sevməli nə qalar? Mənim kimi bu murdar bəşər dünyasına atılmış bir insan nə qədər müdafiəsiz, köməksizdir.

Onun acı qeybətlərindən, ətrafda baş verənlərdən mən Tanrıda sığınacaq tapır, onun – mənim Tanrımın xiffətini çəkirdim və onun barəsində heç danışmadığına görə qarıya minnətdar

idim. Tanrıya yaxın olmağı arzulayırdım, məni ağuşuna alacağı, ilahi ləzzət, sonsuz ləzzət, ruh bəxş edəcəyi cansıxıcı zirzəmisinin xiffətini çəkirdim.

Ruh? Onun ruhu nədir axı? Yalnız ucalıq və əzəmətdirmi? Yüksəklikdirmi? Yalnız budurmu?

Əgər yalnız budursa, əgər hər şey belə sadədirsə, bəs niyə ona mənsub olmaq belə əzablıdır, niyə əziyyət çəkirəm, niyə ağrıdan qışqırıram? Bəs niyə onun məhəbbəti mənim sidqürəkdən arzuladığım mehribanlıq, sükunət deyil? Nədən daim ürəyimdə yalvararaq iltimas etdiyim sakitlik, arzulanan rahatlıq bağışlamır mənə? Niyə o yalnız gözəl, ilhamverici deyil, həm də qorxulu, qəzəbli, dəhşətlidir, niyə onda hər şey eyni zamanda mövcuddur, niyə mənim boğazımdan yapışaraq, boğur və eyni anda bütün vücudumu bir həzzlə doldurur?

Axı kimdir o? Kim?

Mən onun ağuşuna atılırdım, elə onun özü kimi çoşqun bir dəlisovluqla atılırdım və huşumu əlimdən almayana, dəhşətli ipə-sapa yatmazlığıyla vücudumu boşaltmayana kimi qışqırırdım: Tanrı, sən kimsən, kimsən sən?! Lakin o heç vaxt mənə cavab vermirdi.

O, içimi özüylə doldurur, özüylə boşaldırdı, – amma kimliyini mənə açmırdı.

Heç vaxt da açmadı. Elə indi də tənhalığıma qapılaraq onun kimliyi barədə fikirləşirəm. Elə hey soruşur, soruşuram. O isə cavab vermir.

Bəli, mən onu sevirdim. Bütün qəlbimlə sevirdim. Lakin bu məhəbbət mənə xoşbəxtlik gətirmədi. Bu, xoşbəxt məhəbbət deyildi.

Hə, mən qarıdan danışırdım axı. Mənə qarşı həmişə diqqətli, gülərüz idi, daim hədsiz təriflər yağdırırdı. Deyirdi ki, kahinlər xatırladıqları ən yaxşı pifiya olduğumu söyləyirmişlər, özü də indiyədək evində yaşayanların içində mənimlə müqayisəyə gələsi olmadığından dəm vururdu. O, məndən əvvəl pifiyalıq edənlər haqqında nifrətlə danışırdı, yaxınlıq və həmdərdlik

duyduğum bu qadınlar barədə hansı ifadələrlə danışdığına qulaq asmaq mənim üçün çox ağrılı, çox çətin idi. Onların bəzilərini hərdən şəhərin küçələrində görürdüm, xüsusilə də birini – arıq, qəribə görkəmli bu qadın ətrafına qorxa-qorxa nəzər salaraq, evlərin arasında oğrun-oğrun gəzir, həmişə də öz-özünə dodaqaltı nəsə danışırdı. Qarı onu ürəkdən ələ salırdı, gülərək deyirdi ki, o zavallı bir zamanlar ağıllı olubsa da, indi artıq ağlının olan-qalanını da itirib, mən isə onun sözlərindən diksinirdim, elə o dəqiqə düşünürdüm ki, bəlkə, mənim də axırım elə belə olacaq.

Bu qadınlara məhz orakulun kahini olduqlarına görə nifrət elədiyini anlayana kimi az müddət keçmədi. Təbii ki, onlara başqa cəhətlərinə görə də nifrəti vardı, lakin bunun səbəbi, ilk növbədə, pifiya olmaqlarında idi, onun nəzərində ancaq elə bunun özü hansı nifrətə desən layiq idi.

Mən sarsılmışdım. Ola bilərmi ki, o, həqiqətən, belə düşünsün? Hə, buna heç bir şübhə yox idi. Düzdür, heç nəyi açıq söyləmirdi, amma dediklərindən belə çıxırdı. Pifiyalara münasibətini biləndə nə dərəcədə sarsıldığımı söyləyə bilmərəm.

Gözlərim, nəhayət, açılanda, mən başqa şeylər də gördüm: belə düşünən yalnız bu qadın deyildi. Ətrafımdakı adamlara, onların mənə necə münasibət bəslədiklərinə, mənimlə necə davrandıqlarına göz qoymağa başladım və getdikcə anlayırdım ki, qarının sözlərindən qəlbimə səpilən şübhə toxumları əsassız deyil – mən insanlar içində nifrətəlayiq yer tuturdum. Məndən çəkinirdilər, bunu çoxdan duymuşdum və anlayırdım ki, bunun səbəbi ilahi ilə bu dərəcədə yaxın olan, müqəddəs, yeraltı zirzəmidəki qışqırıqlarını bəzən yuxarıda, məbədin içində eşitmək mümkün olan bir insanın qarşısında keçirdikləri qorxu hissidir. Məndən çəkinirdilər və buna heç təəccüblənmirdim, amma anlamışdım ki, bununla yanaşı, mənə yuxarıdan-aşağı, insanlar tərəfindən tərk edilmiş kimi baxırdılar, çalışırdılar mənimlə üz-üzə gələndə özlərini görməzliyə vursunlar! Mən həmişə tək olurdum, uşaq vaxtlarımdan

öyrəndiyim təkliyi axtarırdım, amma indi, ətrafıma göz gəzdirəndə anladım ki, sən demə, heç kəs mənimlə, ümumiyyətlə, münasibət saxlamaq istəmir və mən zorən tənhayam. Həqiqətən, tənhayam.

Qəribədir ki, bu kəşfimdən nə qədər sarsılmış, nə qədər kədərlənmişdim. Baxmayaraq ki özüm də tanışlığa can atmırdım, elə bil, yalnız tənhalıq üçün yaranmışdım – amma yenə də bu vəziyyət məni çaşqınlığa qərq edirdi. Oğlanlar məni küçədə görüb bir-biriylə pıçıldaşanda ürəyim ağrıdan sıxılırdı – hərçənd ki ürəyimin niyə sıxılmalı olduğunu da dərk etmirdim.

Nədir, yəni onlar da nifrət edirlər mənə? İnanmıram ki, onlar bu barədə düşünələr, sadəcə, başa düşürdülər ki, mən hamı kimi deyiləm.

Amma bu, həqiqət idi. Mən onlar kimi deyildim. Heç onlar kimi gənc də deyildim.

Gənc deyildim? Amma, əslində, onlardan çox böyük də deyildim. Gənc idimmi? Mən gəncəm?

Onlar məni heç vaxt dindirmirdilər. Heç kəs dindirmirdi. Yalnız başqa imkan qalmayanda danışardılar mənimlə.

Hətta məni tərifləməkdən doymayan kahinlər – onlar məni həm üzümə, həm də dalda tərifləyirdilər, – mənim orakul üçün vacibliyimi dərk edirdilər; amma heç onlar da mənimlə işimdən, dini ayinlərin icrası ilə bağlı məsələlərdən başqa heç nə barədə danışmazdılar. Onlara ancaq pifiya, məbəd qulluqçusu kimi lazım idim, qalan şeylərdə, sanki, yox idim və onlar mənə heç vaxt xoşagəlməz bir söz demir, mənimlə daim mehriban davranır və bununla da, vadinin harasındasa, kasıb ailədə doğulmuş bir qızla öz aralarındakı uçurumun dərinliyini anlatmaq istəyirdilər, sanki. Məni qiymətləndirirdilər, bu şübhəsizdir, Tanrının qısa bir zamanda öz ruhu ilə qovuşdurduğu, onun dili ilə aşkar məmnunluqda danışdığı, yaxşı pifiya tapdıqlarından xoşbəxt idilər, lakin gördüyüm böyük işlərin onlara faydalı olmasına, Tanrı tərəfindən

seçilməyimə baxmayaraq, mənə yerin altındakı müqəddəs məkanda istifadə etdikləri bir alət kimi baxırdılar. Tanrının bürkü zirzəmisindəki üçayağın üstündə oturmuş, huşsuzluğa, sayıqlamalara düçar olan bədbəxt qadın onlarda yalnız nifrət qarışıq bir acıma hissi doğururdu. O, ilahinin iradəsini dilinə gətirirdi, buna şübhə edən yox idi, lakin onun dediklərini kahinlər yozurdu, bixəbər adamlar üçün anlaşılmaz, qarışıq sözlərə yalnız onlar məna verə bilirdilər. Onların orakulun cavablarına qatdıqları dərin fikirlər, dünyanın zəka zirvəsi – o cavablar ki orakul məhz onların sayəsində əzəmət və ümumdünya şöhrəti qazanmışdı – əslində, bu savadsız qadının vəhşi qışqırıqlarıyla, demək olar ki, heç bağlı deyildi. Onu ilahinin vəcdə gətirməsi həqiqət idi, amma təkcə onlar bilirdilər ki, ilahi onun sözlərinə hansı mənanı verir, bu sözlərlə nə demək istəyir, təkcə onlar ilahinin mübhəm mahiyyətinə vararaq onu aça bilirdilər.

Həqiqətə nə deyəsən. İlahi iradənin müdrik yozumlarına mənim heç bir aidiyyətim yox idi, bu, mənim üçün əlçatmaz, gücüm yetməyən bir şey idi. Huşsuz vəziyyətdə nə çığırdığımı da bilmirdim və deməli, məndən necə istifadə etmələrinin, ağzımdan çıxan kəlmələrin necə yozulmasının da dəxli yox idi mənə. Yalnız özümü ilahiyə təslim edirdim.

Bilmirdim ki, mənə nələri təlqin edir, onun müdrikliyindən bixəbər idim, əslində, onun barəsində heç bir anlayışım yox idi, heç onun kimliyindən belə xəbərdar deyildim. Ancaq özümü onun ixtiyarına verirdim. Ancaq onu içimdə duyurdum. Mən ona məxsus idim. Başqa heç nə yox idi içimdə.

Yalnız buna görə məni nifrətə layiq görsünlər? Özümü ilahiyə təslim etməyimə, onun ruhuna tabe olduğuma görə? Bunun onlarda necə dərin nifrət oyatdığı ağlasığmaz idi. Mən heç nə anlamırdım. Mənim ilahi mərhəmət saydığım – axı Tanrı məni nə qədər qızın arasından seçərək, öz hüzuruna çağırmışdı, mənə üstünlük vermişdi, öz kahininə çevirmişdi, çatdırmaq istədiklərini mənim dilimlə səsləndirirdi, – bütün

bunlar isə başqalarının gözündə nədənsə əskiklik sayılırdı. Tanrının seçimi olmaq əskiklik idi!

Deyirdilər ki, orakul bütün dünyada məşhurdur, lakin ilahinin istəklərini səsləndirən, onun ruhunu qəbul edən birisi, əslində, həm də ünsiyyət saxlamaq ayıb sayılan, heç kəsin kəlmə kəsmək istəmədiyi rədd edilmiş bir insandır.

Bu, beynimə heç cür sığışmırdı.

Yanında yaşadığım və mənimlə özünəməxsus bir tərzdə səmimi olan qarı bir dəfə necə oldusa dilinə gətirdi ki, mənim pifiya olmağa razılıq verməyim onlar üçün böyük uğur idi, çünki son zamanlar pifiya olmağa razılıq verən qız tapmaq müşkül bir işə çevrilibmiş, hətta ən kasıb ailələrin qızları belə buna razılaşmırmışlar. Qarı mənə anlatdı ki, yalnız mənim valideynlərim kimi, guşənişin olaraq, haradasa vadidə yaşayan və görünür, müəyyən qəribəlikləri olan sadəlövh bədbəxtləri buna razılaşdırmaq olardı.

Dəhşətli bir çaşqınlığa düçar olmuşdum. Beynimdə doğulan qorxulu, tükürpərdici düşüncələrdən necə həyəcana gəldiyimi, necə əzildiyimi anlamaq heç də çətin deyildi.

İlahinin seçilmişi? Bəlkə, heç seçilmiş deyildim? Bəlkə, məni ilahi deyil, kahinlər, Tanrıya inanmayan adamlar seçmişdilər? Qarının dedikləri düzdürsə və onlar məni sadəlövh valideynlərimin əlindən, başqa heç bir imkanları olmadığından, bicliklə alıblarsa, onda necə? Əgər seçilməyimin, çağırılmağımın heç Tanrıya dəxli yoxdursa?

Mən isə buna inanmışdım axı, onun ruhuyla içimin necə dolduğunu aydın hiss edirdim – mənə elə gəlirdi. Amma belə idimi, həqiqətən? Doğrudan, dəqiq belə idi? Haradan biləydim bunu? Həqiqətən, onunla vahid bir tamda birləşdiyimi duyurdum, öz içimdə onun heyranedici aliliyini yaşayırdım, lakin hər şey bitəndən sonra tənha qalırdım, o artıq mənimlə deyildi. Çox vaxt o, mənimlə olmurdu, məni atıb gedirdi və içimdə yalnız nəhayətsiz boşluq hiss edirdim. Onun xiffətini çəkirdim, onun isə heç vecinə də deyildi; mən

onu çağırırdım, o isə səsimə hay vermirdi. Soruşuram: sən kimsən? Amma o cavab vermir. Hamıdan artıq sevdiyim bir varlıq, kimsən axı? O isə mənə cavab vermir. O, mənə heç vaxt cavab verməyib.

Həmişə belə olub, o vaxta qədər ki, öz misilsiz alovunu, heyranlıq və həzzini mənim üstümə yenidən yağdırmaq üçün yanıma gələrdi. Həmin qısa anlarda, hər şeyin aydınlaşdığı, hər şeyin ahəngdar olduğu anlarda mən xoşbəxt idim, dünyada hamıdan xoşbəxt. Sonra isə yenidən dibsiz bir boşluğa yuvarlanırdım. Heç kəsin duymadığı bir boşluğa, heç kəsin mənim qədər duymadığı bir boşluğa düşürdüm, – son damlasına kimi ona məxsus olan, onunla həyatın fərəhli zövqünü bölüşən mən.

Başıma bax bunlar gəlirdi. Mənim ilahiyə məhəbbətim bax belə idi. Kimliyini sona kimi bilmədiyim birisinə.

Bu məhəbbət mənə hüzur vermir, içimdəki inamı artırmırdı. Mən onun ağuşunda heç vaxt sakit dincələ bilmirdim. Qaynar həzzi dada bilirdim, amma sakitlik nəsibim olmurdu. Ona yalvarırdım ki, mənə sakitlik versin, amma o vermirdi.

Əgər məni Tanrının özü seçmişdisə, məgər o, belə edərdi?

Həmişəki kimi, bu barədə təklikdə düşünürdüm. Axı öz fikirlərimi kiminlə bölüşə bilərdim, həyəcanlarımı kimə etibar edə bilərdim? Bu vəziyyətimdə mənə kömək edə biləcək, suallarımın cavabını verə biləcək varlıq isə məndən həmişə olduğundan daha uzaq idi, o heç vaxt mənə bu dərəcədə uzaq gəlməmişdi. Mən onun xiffətini çəkirdim, ancaq bir şey arzulayırdım – vücudumu öz Tanrıma təslim etmək və bununla yanaşı, bu təmasdan qorxurdum da, ilk dəfə idi, gəlini kimi bəzənərək mağarasına, yeraltı məbədinə, görüşünə aparılmaqdan qorxurdum.

Bu görüşə hələ xeyli vardı, hələlik bayramlar yox idi. Amma sonra bayramlar arasında orakulun öncəgörmələri üçün bir gün təyin etdilər, haradansa çoxlu zəvvarın gələcəyini biləndə belə edirdilər. Həmin gün yetişdi, mən həmişəki

kimi Kastal bulağının şəffaf suyunda yuyundum, gəlin paltarımı geydim, müqəddəs yolla üzüyoxuşa yollandım, məbəddən keçib, qaranlıq pillələrlə aşağı endim. Zirzəmidə hər şey elə öz adi məcrasında davam edirdi və mən oranın ağır havasını, közərən dəfnə odunlarının tüstüsünü, acı keçi iyini, üçayağın altındakı yarğandan yüksələn ürəkbulandırıcı buxarı acgözlüklə sinəmə çəkirdim – beynimi dumanlandıra biləcək, cəzb olaraq onun ağuşuna ata biləcək nə varsa hamısını. Onun hicranından alovlanaraq, gözlərimi qapayıb oturmuşdum, ağzımda onun müqəddəs ağacının yarpaqlarının dadını hiss edir və bütün vücudumu çulğayacaq anı, içimi öz canlı ruhu ilə, ağrıdıcı xoşbəxtliyi və həzzi ilə doldurmasını, qəlbimdəki qorxu və tərəddüdü qovaraq içimi büsbütün boşaltmasını, ora bir məmnuniyyət yerləşdirməsini gözləyirdim.

Lakin o yox idi. Gəlib çıxmaq bilmirdi. Nəfəsimi dərindən alaraq fəzadakı buxarı içimə çəkirdim və hiss edirdim ki, onların təsiri artıq başlayır; nəfəsim təngiyirdi, huşumu itirəcəyimə az qalırdı. Amma başqa heç bir şey duymurdum. Tanrının ruhu gəlmirdi içimə, onunla yaxınlığımı heç hiss etmirdim.

Onlar keçini, ilahinin müqəddəs heyvanını çıxardılar və başına su tökdülər – ilahi ilham mənim vücudumu məhz indi, bu an çulğamalıydı. Lakin keçi ancaq heysiz halda başını salladı və qəribə bir səs çıxarıb yavaşca öz yerinə qayıtdı. Vəziyyəti belə görən orakul kahini məndən bir şey çıxacağına ümidini üzərək mərasimi dayandırmaq fikrinə düşdü.

Gözləri hədəqəsindən çıxmış və içimdə bu dəfə heç cür doğula bilməyən qışqırıq üçün yarıaçıq qalmış, titrəyən dodaqlarımla oturub qalmışdım. İçimdə boşluq vardı, başqa heç nə – elə dəhşətli bir boşluq ki, onu hələ heç vaxt belə aydın duymamışdım, hərçənd ki bu hiss mənə gözəl tanış idi. Ətrafımda da bir boşluq hakim idi, sanki, həqiqətən, heç bir şey yox idi: əllərimi qabağa uzadanda, sanki, nəhayətsiz, mütləq bir boşluğa, heçliyə girirdi. Ətrafımda yalnız ölülər səltənətindən qalxan tüstü vardı, bətnimi dondurucu nəfəsiylə doldururdu.

Mənə üçayaqdan düşməyə yardım etdilər, amma qolumu buraxanda səndirlədim, az qaldım yıxılam. Buna fikir verən yeganə adam xidmətçi qoca oldu, irəli atılaraq, mənə dayaq durmağa macal tapdı. Mən qapının üst tirindən yapışıb əbəs yerə mənə əziyyət verən başgicəllənməndən özümə gələnə kimi dayandım.

Orakulun məni ilk dəfə zirzəmiyə endirmiş kahini yaman narazı idi, salona toplaşan zəvvarlar əliboş getməli olmuşdular. Düzdür, bu dəfə orakuldan məsləhət almağa gələnlərin əksəriyyəti adi məişət qayğılarından əziyyət çəkən kəndlilər idi, amma kahin əsl məbəd qulluqçusu kimi, mənim öz borcumu yerinə yetirə bilməməyimdən, ilahinin təsirinə uymamağımdan çox dilxor olmuşdu. Mənə sərt bir söz demədi, amma elə sözsüz də hər şeyi anlayırdım. O özü Tanrıya inanmırdı, amma yenə də mənim ilahi ruhla qovuşmamağımdan möhkəm narazı idi.

Amma onun narazılığı mənim düçar olduğum çıxılmazlıq, yuvarlandığım dibsiz quyu ilə müqayisədə nədir ki! İndi artıq mən bilirdim ki, ilahi məni tərk edib. Atıb məni. İndi artıq mən, sadəcə, tərəddüd etmirdim, narahat olmurdum, mən artıq bunu dəqiq bilirdim. Mən ona gərək deyildim, o, məni rədd edirdi. Ümumiyyətlə, nə vaxtsa heç lazım olmuşammı ona? Məni, inandığım kimi seçmişdimi, – onun çağırışına inanan məni!

Görəsən, nə vaxtsa məni öz istəklisi, öz kahini etmək arzusunda olubmu?

Bunu kahinlər istəyirdi, bu, belə idi. Onlara fağır, sadəlövh bir qadın lazım idi ki, Tanrının qulluğunda durmağa məcbur edə bilələr. İlahinin özü isə bunu qətiyyən arzulamırdı. Kahinlər, nəhayət, onu Tanrıya sırıyanda isə ilahi qızı zorladı və sonra da gərəksiz bilib çölə tulladı. Ona sırıdıqları yazıq kəndli qızına nifrətini göstərdi, kahinlər isə elə fikirləşirdilər ki, Tanrı bu qızı qəbul edəcək, özünün müqəddəs ruhunu ona etibar edəcək, qızın məhəbbətinə eyni hisslə cavab verəcək...

Zorladı və rədd elədi, vəssalam. Bax onu elə bunun üçün seçmişdilər.

İlahinin çağırışı! O, məni heç vaxt çağırmayıb, axı bu, haradan girmişdi beynimə! Çağıran mənim özüm idim, tənhalıq, çıxılmazlıq içində səsləyirdim onu.

Beləliklə, mən çıxılmazlığa düçar olaraq acı, ümidsiz suallar içində özümü didirdim. Əgər qoca xidmətçi olmasaydı, bu sualların ağırlığından əzilərdim, yəqin. O, mənə təsəlli verir, başıma ağıl qoyurdu, baş verənlərə, məndən fərqli olaraq, daha açıq gözlə baxırdı. Belə hadisələr bəzən baş verirdi, bu qaçılmaz idi, çünki orakulun zirzəmisində çoxillik xidməti dövründə qazandığı təcrübə bunu deməyə imkan verirdi. Bu, bütün pifiyaların başına dəfələrlə gəlib. Mənim də başıma bəzən gələ bilərdi. Bu qətiyyən o demək deyildi ki, Tanrı öz seçdiyi qadını rədd edirdi, qətiyyən yox. Kahin isə belə hadisə baş verəndə həmişə əsəbiləşir, çünki, ilk növbədə, orakulun şöhrəti düşündürür onu, buna nə demək olar ki, bundan başqa, belə bir hadisənin məhz onun növbəsində baş verdiyi də kahini ikiqat narahat edirdi. Tanrının özü isə mənə əsəbiləşmirdi, yox, uğursuzluğun səbəbi bu deyildi. Əsl həqiqətin nədən ibarət olduğunu hələlik heç kəs izah edə bilmir, bu həqiqəti heç kəs tapmaq iqtidarında deyil. Bu, zirzəminin sirridir və orakul onu aça bilməz.

Həmin gün lap səhərdən bəri onun içində elə bir hiss vardı, sanki, hər şey həmişəki məcrada, lazım olduğu kimi cərəyan etmir. Bunun səbəbini özü də izah edə bilməzdi, amma o qədər görmüşdü ki, belə şeyləri və həmişə hissiyyatı ona nə baş verəcəyini qabaqcadan söyləyirdi. O, məndən əvvəl zirzəmiyə enəndə hiss eləmişdi ki, burada nəsə var. Sanki, hansısa duyğusu qabaqcadan xəbər vermişdi ona. Heç sarımtılboz ilanlar da gizli yuvalarından çıxaraq gözə dəymirdilər, bu, bəd əlamət idi, çoxdan sınanmış bir əlamət. Elə onun qulluq edib bəslədiyi, Tanrının müqəddəs heyvanı olan keçi də səhər onu tövlədən götürəndə özünü qəribə aparırdı: müqavimət

göstərir, zirzəmiyə enmək istəmirdi, sanki. Bax beləcə, bütün əlamətlər ona dəlalət edirdi ki, bu gün yaxşı bir şey gözləməyə dəyməz, orakul, çox güman ki, dillənməyəcək.

Yəqin ki, günah məndə deyildi. Mənim heç bir günahım yox idi. Əla pifiya idim, heç şübhəsiz, Tanrı da məni çox sevirdi. Dodaqlarımla məmnuniyyətlə danışdığı o dəqiqə görünürdü, çünki tez girir vücuduma və mən də ona təlqin üçün gərək olan huşsuz vəziyyətə belə asan düşürəm. Cəzb olanda isə üzümdən bəlli olur ki, Tanrı vücuduma girib. Bu, orakula filan qədər qulluq eləmiş bir adamın gözündən yayına bilməz.

Məni bu yolla razılığa gətirmək istəyirdi və tədricən bütün baş verənlərə açıq gözlə, sakit baxmağa başladım. Onun sözləri və sakit görkəmi, çoxlu qırışları olan quru sifəti – bütün bunlar mənə sakitləşdirici, müsbət təsirini göstərirdi. Təbii ki, bir az da sakitləşərdim, əgər gələn bayramda işlərimin həmişəki kimi yaxşı gedəcəyini qabaqcadan bilsəydim.

Özüm isə zaman keçdikcə fikirləşməyə başladım ki, hər şeyin səbəbi, çox güman ki, utancaqlığım, inamsızlığım, Tanrı ilə görüşüm ərəfəsində tərəddüdlərim idi. Ondan çəkinməyim idi. Buna isə, təbii ki, yol vermək olmazdı. Ürəkdə həyəcan, şübhə, tərəddüd olmamalıdır. Əks təqdirdə Tanrı öz qoynunu açmaz.

Amma necə qorxmayasan? Necə tərəddüd etməyəsən Tanrıya yaxınlaşanda?

Bu fikirlərimi dostumla bölüşmürdüm. Onunla, ümumiyyətlə, heç vaxt sona kimi səmimi olmamışam. Bu, onu yalnız kədərləndirərdi, mən belə fikirdə idim.

Orakulun yanında qulluq etdiyimiz müddətdə yaxından dostlaşdıq və sona kimi dost olaraq qaldıq.

Demək lazımdır ki, bir-birimizə tən gəlirdik, axı ona da nifrət eləyirdilər. Amma bunu özünə heç dərd eləmirdi, hətta bu barədə heç bilmirdi də, lakin mənim içimdə bir üsyan vardı buna görə. Görəsən, mənə niyə belə münasibətdə idilər?

Məbəd qulluqçularından heç biri onun kimi kiçik mövqe tutmurdu, lakin o, tamamilə razı idi işindən, ondan razı adam tapa bilməzdin. Məbədin döşəmələrini, pillələri süpürürdü, sonra da su səpirdi və adamların gətirdiyi bütün zirzibili süpürüb tullayırdı. O, buraları ilahi üçün təmizləyirdi, vəssalam və öz işini böyük səylə görür, hər yeri tərtəmiz, qəşəng eləyirdi. Təmizlik onun başlıca vəzifəsi idi, amma bundan savayı da bir xeyli işi olurdu. O, Tanrının müqəddəs meşəsində dəfnə ağaclarına qulluq edir, məbədin girəcəyindəki camları müqəddəs su ilə doldurur, orakulun müqəddəs ilanlarını quş yumurtalarıyla, siçanla yemləyirdi, məbədin içərisindəki mehrabda əbədi atəşi heç vaxt sönməyə qoymurdu, hərçənd ki ondan bu işi heç tələb eləyən də yox idi, özü eləyirdi bunu. Elə yeraltı məbədi də təmiz saxlayırdı, orakul qeybdən xəbər verəndə isə, bayaq dediyim kimi, kahinlərə qulluq və kömək edirdi. Onu hamı buyururdu. Amma nadir hallarda təşəkkür kəlmələri eşidərdi. Kahinlər özlərini onunla çox təşəxxüslü aparır və tez-tez üstünə bağırırdılar – hamısı, bircə ona heç vaxt müraciət eləməyən ali rütbəli kahinlərdən başqa. Onunla heç bir dəyəri olmayan, heç nəyə yaramayan bir şəxs kimi davranırdılar, əslində isə hər işini vicdanla, bacarıqla yerinə yetirirdi və şübhə etmirəm ki, Tanrı ondan çox razı idi. Məbədi sevir və sitayiş edirdi, heç kim onun qədər sevmirdi məbədi, onu ən qiymətli sərvət kimi qoruyurdu, Tanrını da sevirdi – amma səs-küysüz, heç bir mədhiyyə söyləmədən sevirdi, vacibliyini çox gözəl anladığı öz sadə işlərini, öz vəzifəsini, özünün süpürgəçi peşəsini sevdiyi kimi. O, Tanrının iqamətgahına qulluq edir, ilahi üçün gah bu, gah da başqa iş görürdü, daim qulluğunda idi, amma onların arasında heç bir anlaşılmazlıq, müşkül məsələ olmazdı – yalnız qarşılıqlı inam, səmimiyyət vardı və onları çox elə böyük məsafə də ayırmırdı: sadə xidmətçi idi, amma Tanrı qarşısında qorxu, inamsızlıq hissi keçirmirdi, özünü ilahinin dostu, məhrəmi kimi hiss edirdi. Tanrıya çox sadə yanaşırdı, onların arasında hər şey sadə, təbii idi.

Bunu görmək, onun ətrafına səpdiyi və bir hissəciyinin də mənə yetişdiyi bu sakitliyi duymaq o qədər xoş gəlirdi ki. O, bəlkə də, mənim indiyədək gördüyüm insanların ən xoşbəxti idi. Bilirdi ki, bütün işlərində xeyir, məna var, odur ki ilahi ilə də dostluğunu saxlayırdı.

Elə buna görə də təəccüblü bir şey yox idi ki, müvəqqəti məxluq olan adamların fikrinə, ona münasibətinə – hərçənd ki bu münasibətdə heç pis bir şey də görmürdü – qəti əhəmiyyət vermirdi. O qədər sadəlövh, şübhələrdən o qədər azad, insanların göstərdiyi münasibətə o qədər diqqətsiz idi ki, məni lap riqqətə gətirirdi, hərdən isə ona fikir verəndə gülməkdən özümü zorla saxlayırdım. Həmişə hamı ilə eyni dərəcədə səmimi, gülərüz idi, hətta ona dost münasibəti bəsləməyənlərlə də. Sadə, gözəgörünməz qayğıları ilə özünün də dərk etmədiyi sakit və adi mütilik içində yaşayırdı. Onda elə bir mütilik vardı ki, heç özü də onun mövcudluğundan xəbərdar deyildi.

Üstündən neçə illər keçsə də, onu çox yaxşı xatırlayıram. Dabanlarının kömür kimi qara rəngini, axı məbədin kandarından yalnız ayaqyalın keçmək olardı. O isə burada, demək olar ki, daimi olurdu və bu qaralıq, görünür, dərisinin altına işləmişdi və yəqin, daha təmizlənmirdi. Həmişə zirək ayaqlarının üstündə ora-bura şütüməsinə göz qoyanda pəncədabanlarının qarasını mütləq görürdün.

Məbəddə tək adam idi ki, onu sevinclə xatırlayıram, bax elə indi də oturub onun barəsində fikirləşən kimi qəlbimə bir sakitlik çökdü. İndi, yəqin, çoxdan ölmüş olar mənim dostum.

Tezliklə başlayan təntənələr vaxtı, bayaq dediyim kimi, lap ilk gündən işlərim əla gedirdi, buna görə də, ilk növbədə, ona minnətdar olmalıyam. Həmin ərəfənin axşamı mənimlə bir xeyli söhbət elədi, sakitləşdirir, ovqatımı yüksəltmək istəyirdi, vaxt yetişəndə və məni, təbii olaraq, təzədən qorxu basanda, özünü elə apardı ki, qorxumu bilmərrə unutdum. İçində çeynəməli olduğum yarpaqlar dolu camı mənə uzadanda

sakitcə pıçıldadı ki, orakulun ilanları artıq öz yuvalarından çıxıblar və bunu deyəndə sifətinin bütün qırışları üzündə özündənrazı bir təbəssüm əmələ gətirdi, sonra isə, elə bil, məni bihuşluğa apardı, çoxdan bəri xiffətini çəkdiyim heyranlığa qərq oldum. O zamandan etibarən mənə ilahi ilham çox nadir hallarda gəlməzdi, amma onda, elə ilk dəfəymiş kimi, çox dəhşətli ruh düşkünlüyünə düçar olurdum.

Getdikcə kahinlər məndən daha çox razı qalırdılar, illər keçdikcə şöhrətim də geniş yayılırdı – sən özün də bunu kor dilənçidən eşitmisən, – guya, mən o zamanadək bu məbəddə olan pifiyaların ən yaxşısıyam, əlbəttə, bu, həqiqət ola bilməzdi, amma bir də onu deyirdilər ki, guya, ilahi məndən başqa heç kəsin dili ilə danışmaq istəmir. Bu söhbətlər mənə bir az istirahət verib, uzun bayramlar ərzində yükümü azaltmaq üçün başqa bir qadını məbədə dəvət eləyəndən sonra yayılmağa başladı. Onların bu cəhdi uğursuzluqla nəticələnmişdi və mən yenə də öz vəzifələrimin icrasına davam etməli olmuşdum, yükümü özüm çəkəsiydim.

Mənim məşhurluğum orakulun pifiyası kimi bu qədər uzun müddət məbəddə fəaliyyət göstərməyimin, başqaları kimi bir neçə ildən sonra məbədi tərk etməməyimin səbəbi idi, bir çoxları dözə bilmədiklərindən bu işi, həqiqətən, atıb gedəsi olurdular. Mənim barəmdə isə, yəqin, fikirləşirdilər ki, belə şöhrətli pifiyaya malik olmaları əladır, məni itirməkdən qorxurdular. Amma mən özüm də heç məbədi, bu işimi tərk etmək istəmirdim.

Orakulun zirzəmisi və onunla bağlı olan nə varsa, qəlbimə hakim kəsilmişdi, orada baş verən mərasim, mənim özümdən fərqli bir varlığa çevrilməyim, təbdən çıxmağım, ağlımı itirməyim, bütün bəlli sərhədləri aşmağım – artıq bütün bunlar olmadan keçinə bilməzdim. Mən bunlarsız yaşaya bilməzdim.

Deyəsən, pifiya kimi şöhrət tapandan, orakula və təbii ki, bütün şəhərə verdiyim xeyir bəlli olandan, camaat arasında mənim Tanrının sevimlisi olmağım haqqında dolaşan söz-

söhbətdən sonra hamıdan daha artıq ehtiram görürdüm. Lakin elə bu söhbətlərin özü şərait yaradırdı ki, insanlar məndən çəkinələr; məndən, az qala, qorxurdular. Get-gedə məndən daha gen gəzməyə səy göstərirdilər, beləliklə, tamam tək qaldım, elə bil, heç cəmiyyət içində deyildim. Hamıya bəlli idi ki, mən Tanrı ilə necə təhlükəli bir bağlılığa girirəm və o, mənim içimə daxil olanda sifətim necə dəhşətli bir şəklə düşür. Bu, məni müqəddəs şəhərdə yaşayan insanların ən tənhasına çevirirdi.

Məni yalnız orakulun kahini qismində görürdülər – başqa heç cür, bəs özüm necə, məgər özümə yalnız bu gözlə baxmırdım? Mən orakuldan ayrılmaz idim, şəxsi həyatım yox idi, özümü başqa həyatda təsəvvür etmirdim, onunla, yalnız onunla. Mən, həqiqətən, yalnız pifiya idim, sanki, sözün adi mənasında, insan deyildim daha.

Demək olar ki, daim Delfada yaşayırdım, məni məbədin hesabına təmin edirdilər. Öz valideynlərimin yanında, öz evimizdə getdikcə daha nadir hallarda olurdum. Ata-anama tamam yadlaşmışdım və hiss edirdim ki, onlar da məndən elə özgələr kimi çəkinirlər. Evimizə gələndə söhbətə ki başlayırdıq, sanki, bilmirdilər nədən danışsınlar. Ən yaxşısı mənim Delfadakı həyatımdan danışmamaq idi. Bütün bunları qətiyyən başa düşmürdülər və bir söz eşidəndə əbəs yerə narahat olurdular, öz həyatlarından isə, ümumiyyətlə, danışılası bir şey yox idi, yaşamları həmişəki minvalla axırdı, heç nə dəyişmirdi, mən elə özüm də bu həyatı eninə-uzununa əzbər bilirdim. Amma, həqiqətən, bilirdimmi? Bəlkə, artıq bilmirdim?

Onların dünyası mənə həddən artıq yad idi, lap çoxdan ayrılmışdım o həyatdan. Görürdüm ki, o, elə əvvəlki kimi qalıb; bu həyata elə qabaqkı kimi yaxşı bələd idim, lakin buna baxmayaraq özümü orada yad hiss edirdim. İnsana həmişəlik tərk etdiyi uşaqlıq dünyası qədər yad gələn başqa şey olmur.

Onların hər ikisi artıq qoca idi və bu o dəqiqə nəzərə çarpırdı. İndi artıq hərəkətləri də ehmallı idi, anam isə çox arıqlamışdı. O lap qoca toyuq kimi başını otərəf-butərəfə çevirərək ətrafına baxırdı, gözləri çuxura düşmüşdü. Dincəlmək üçün tez-tez oturmağa məcbur olurdu, oturub dinmirdi. Onunla danışmağa, demək olar ki, söz tapmırdım.

Mən özüm də gənc deyildim, neçə yaşım vardı anam öləndə? Elə bilirəm otuzu çoxdan haqlamışdım.

Məbədə xəbər çatdı ki, anam can üstədir, amma mənə o dəqiqə deməmişdilər, mən onda zirzəmiyə enməyə hazırlaşırdım və bundan xəbər tutsaydım, təbii ki, öz vəzifəmi yerinə yetirə bilməz, Tanrının səsini eşitməzdim. Mən, təbii ki, hər şeydən öncə məbəd və Tanrı qarşısında vəzifəmi yerinə yetirməliydim. Həmin gün isə çoxlu zəvvar toplaşmışdı – böyük yaz bayramının son günü idi və orakulun mərasimi qeyri-adi dərəcədə uzun çəkirdi. Xidmətçi qoca özümə gəldiyimi görən kimi bu xəbəri mənə pıçıltıyla çatdırdı, amma hələ yarıhuşsuz vəziyyətdəydim, məstliyim hələ keçməmişdi və əvvəlcə heç nə başa düşə bilmirdim, mənə elə gəlirdi ki, o, nəsə çox uzaq, qətiyyən dəxli olmayan şeydən danışır. Hər halda, sonra onun sözlərinin mənası mənə çatdı və həyəcan içində evimizə yollandım.

Qıpqırmızı pörtmüş və ağır nəfəs ala-ala özümü ora yetirəndə hələ də tam ayılmamışdım, bir az hallı idim, təsəvvürəgəlməz bir sükut içində olan evə qədəm basdım. Burada həmişə sakitlik hökm sürürdü, amma indi həmişəkindən də qatı sükut hakim idi fəzaya. Və mən hiss etdim ki, öz gəlişimlə buradakı görünməmiş hüzuru, sükunəti pozdum.

Əynimdə gəlinliyim vardı – Tanrının nişanlısı kimi orakulun zirzəmisində geydiyim paltar. Fikir verdim ki, atam paltarıma təəccüblə baxdı, amma bir söz demədi.

Anamın ağ, lap ağappaq sifəti vardı; uzandırmışdılar, gözləri də qapalı idi – elə bildim ki, artıq ölüb. Lakin yanında oturub ağlamağa başlayanda gözlərini açıb heç vaxt unuda

bilməyəcəyim baxışlarını mənə zillədi. Bu baxışlar elə uzaqlardan gəlirdi ki, mənə necə yetişdiyini təsəvvür eləmək də çətin idi – baxışlar yad bir varlığa zillənmişdi sanki, bəlli deyildi bu varlıq niyə onun yanında idi. Elə bil, çarpayısında əyləşmiş tanış olmayan bir qadın görürdü. Qəribə geyimli bir qadın – geyimim, deyəsən, tanış gəlirdi ona, amma heç cür yadına sala bilmirdi ki, belə paltarları niyə geyirlər.

Sonra, deyəsən, kim olduğumu gözləri seçdi, tanıdı və başa düşdü ki, nəhayət, gəlib çıxmışam, axı o özü atamdan xahiş eləmişdi ki, mənə xəbər yollasın, ölməmişdən görüşək. Mən də gör nə geyinmişəm. Nə qədər yersiz görünürdü bu paltar.

Arıq əlini ahəstə-ahəstə mənə uzatdı və paltarıma toxundu, parçasını yoxladı, heç nə anlamadan. Yəqin, ona elə gəlirdi ki, görünüşümdən maskarada gələnə oxşayıram. Amma, əslində, elə bu cür idi. Ona da məhz belə gəlməli idi, çünki özü, həqiqətən, bir zamanlar gəlin olmuşdu və əri üçün övladlar doğmuş, onu da, balalarını da sevmişdi. Əynimdəki bahalı paltarı əlləməkdən doymurdu, amma heç nə anlaya bilmirdi.. Sonra isə yorğunluq və əzab hissi ilə gözlərini qapadı və arıq əli halsız düşüb qaldı.

Onun yatağından qalxdım və atam mənim yerimdə əyləşdi. Anamın əli onun əlinin içində sakitləşdi.

Dəhşət burası idi ki, o ölərkən belə mən hələ də tam ayılmadığımı dərk edirdim.

Atam iri, kobud əlini onun cavan olanda həmişə sığalladığı üzünə çəkdi və görünür, mənim heç vaxt yaşamadığım və yaşamayacağım nələrisə xatırladı, heç vaxt anlamayacağım nələrisə.

O, mənim necə çıxdığımı görmədi. Gəlinlik bəzəyimi əynimdən çıxarıb, hardansa tapdığım, gəncliyimdən burada qalmış köhnə paltarımı geyindim.

Mən qayıdanda atam elə bayaqkı kimi onun üzünə baxırdı, məni isə indi də görmədi. Yalnız onun diri ikən sevdiyi əzab dolu sifətini görürdü və bu sifəti indi də sevirdi – elə ruhu

kimi təmiz və sadə sifətini. İndi artıq ruhu uçmuşdu, amma üzü hələ xatırlayırdı ruhunu.

Mən də yaxınlaşıb, onun üzünə baxmağa başladım – gözəl, işıqlı üzünə. Amma görəndə ki, simasında necə hüzur, necə sakinlik var, hönkürtü boğdu məni.

Axı bir zamanlar biz bir-birimizə çox oxşayırdıq.

Onun əllərini sinəsinin üstündə çarpazladı, bu əllər qəribəlik həddində bəyaz və incə, az qala, şəffaf idi, uzun ömürləri boyu bu qədər iş görmüş əllər. İndi isə onlar o qədər ağ görünürdü, sanki, bütün dünyəvi şeylər artıq silinib yox olurdu.

Biz bir-birimizə kömək eləyə-eləyə cansız cəsədini yuduq, yağladıq. Sonra isə atamın düzəltdiyi dəfn xərəyinə – qədim ənənəyə uyğun olaraq, kəklikotu və zeytun budaqları döşənmiş xərəyə uzatdıq ki, bədəninə yeni həyat verək. Və atam mənim köməyimdən imtina edərək özü təkbaşına, daşa dönmüş barmaqlar ilə mərsin çələngi hörüb, zəruri ayinlərin icra olunduğuna dəlalət kimi başına qoydu. O, mərasimin dəqiq icrasına qısqanclıqla diqqət edirdi və biz heç bir şeyi unutmadıq.

Lap axırda çökmüş sinəsi üstünə bir neçə sünbül qoydu və yalnız bundan sonra üzünü örtdü ki, sükunət içində qalmasına heç nə mane olmasın.

Ertəsi gün atam yaxınlıqdakı meşədə, hər gün nəsə bir nəzir qoyduğu mehrabın yanında qəbir qazdı. Mənim üçün əməlli-başlı ağır olan – anam ucaboy qadın idi – xərəyi bir yerdə ora apardıq və torpağa endirdik.

Anam orada, təzə yarpaqlardan düzəlmiş döşəyin üstündə uzanmış halda, torpağa tapşırıldı, doğma ana qucağına qayıdırdı. Biz onun sakit sifətinə sonuncu dəfə baxdıq və sonra atam üstünü torpaqladı, lap axırda isə, adətə uyğun olaraq, məzara buğda səpdi. Zira o, ölümə deyil, həyata məxsus idi.

O vaxt mən bir müddət atamın yanında qaldım ki, ilk dövrlərdə ona yardım edim, o vaxt buna imkan vardı: böyük bayram artıq arxada qalmışdı. Atam adət etmişdi ki, evdə təsərrüfat işlərini görən bir qadın olsun. Elə mən özüm də

istəyirdim bir az burada qalam, sakitlik və hüzur içində bir müddət yaşayam, buna yaman ehtiyacım vardı. Çünki bütün baş verənlərdən əməlli-başlı sarsılmışdım – həm də anamın mənim bahalı paltarımı əlləməsindən və bu paltarda qızını zorla tanımasından narahat idim. Bir də ondan ki, anam kimi ola bilmədiyim üçün ondan üzr istəməyə vaxtım çatmadı, son anda yetişib sakitliyini pozdum və heç nə verə bilmədim ona – əli mənim dizimin üstündən boş düşdü... Bütün bunlardan möhkəm sarsılmışdım...

Maraqlıdır, amma insanın sifətindəki sakitlik də adama qınaq kimi görünərmiş; mənə, həqiqətən, məhz bu cür təsir etmişdi anamın sakitliyi. Bu sakitliyi tapa bilmədiyimdən qınayırdım özümü, ruhumda bir tənasüb duymadığımdan qınayırdım. Bütün başıma gələnlərdən dolayı, ruhumdakı, həyatımdakı dəyişikliklərdən dolayı qınayırdım. Niyə mən onun kimi deyiləm? Niyə mənim həyatım onunku kimi deyil? Niyə bütün həyat, bütün dünya onun kimi deyil? Niyə heç bir şey mənim uşaqlıq çağlarımdakı kimi deyil? Niyə biz onunla yarğandakı müqəddəs bulağa, şəffaf sulu, ətrafında daim təzə-tər yaşıllıq olan, qum dənəciklərinin Tanrının əliylə suyun içində ahəstə dövrə vurduğu bulağa getdiyim zamanlarda olduğu kimi deyil hər şey? Niyə bir vaxtlar olduğu təki əl-ələ tutub, ora gedə bilmirik? Onunla o qədər şeydən danışardım ki...

O, yatağında uzanıb gözləyirdi, mən də gəlmək bilmirdim, sonra gəldim, lakin artıq gec idi. Başım böyük bayrama həddindən ziyadə qarışmışdı, onun barəsində düşünə bilmirdim, bura, onların yanına gəlib xəstəliyindən, tezliklə öləcəyindən xəbər tutmurdum. Onun anlamadığı, izah edilməsi, beyninə sığışması mümkün olmayan şeylərlə başım həddən artıq qarışıq idi. Lakin mənim ruhuma hakim kəsilən bu şeylər olmadan mən yaşaya bilmərəm.

Yaşaya bilmərəm? Bəs onun yaşadıqlarıyla necə, onlarsız yaşaya bilərəm məgər? Doğrudan, bilərəm?

Məni əsir eləmiş, ayrıla bilmədiyim böyük bayram, divanəlik, heyranlıq, sərməstlik – bütün bunlar onun üzündəki, onun ruhundakı sakitliklə müqayisədə nədir ki!

Bəs mənim nəyim var? Və nələri itirmişəm? Mənim həyatım onunkunun müqabilində nədir ki? Anamı atıb gedəndə itirdiyim həyat.

Onun yanında, bu sükunətin içində oturmalıydım və əlini əllərim içində saxlamalıydım. Mənim yerim burada idi.

Yalnız indi başa düşdüm ki, böyük bayram buradaydı – anam uzanıb öləndə baş verirdi.

İstədim ki, bir müddət burada qalıb sakit, etibarlı həyat yaşayım. Onun həyatını. Heç olmasa, azacıq.

Mən tez-tez elə anamın oturduğu həmin yerdə, ocağın yanındakı həmin o yerdə otururdum və fikir verirdim ki, köhnə evimizin qoxusunu duymaq mənə xoş gəlir – bu, təəccüblü idi, axı qabaqlar, onlara baş çəkməyə gələndə belə deyildi. O vaxtlar bu qoxu mənə nədənsə xoş gəlmirdi, görünür, o səbəbdən bu qoxunu çox yaxşı xatırlayırdım. Sakitlik və hüzur isə məni yalnız sıxırdı. İndi isə bu sükunətə dalmışdım və onun bütün vücudumu çulğamasını, məni nəvazişlə qucmasını hiss edirdim. Nə qədər sevindirici idi bunu duymaq.

Beləliklə, mən uşaqlıq çağlarımın evini özüm üçün təzədən kəşf edirdim. Tarlaları, ətrafdakı torpaqları, evin yanındakı qoca zeytun ağacını, indi anamın uyuduğu mehrablı meşəni, bulaqlı yarğana aparan dolanbac cığırı. Bütün bu tanış və əlamətdar şeylər mənim üçün yenə əziz oldu, yenə məni sədaqətlə dövrəyə aldı, sanki, onlardan heç ayrılmamışdım. Bütün bunların, həqiqətən də, baş verdiyinə hələ inana bilmirdim və hərdən tamam başqa düşüncələr narahat edirdi məni, lakin elə bil, yavaş-yavaş özümün adi, həqiqi həyatıma dönürdüm.

Atam elə həmişəki kimi tarlada işləyirdi, mən də əlimdən gələn qədər ev işlərinə baxırdım. Bu işlərdən çoxdan aralanmışdım, çox şey artıq unudulmuşdu, amma tez adət elədim. Bizə bir yerdə yaşamaq xoş idi.

Nə qədər qəribə olsa da, biz anam barədə nadir hallarda danışırdıq, hərçənd ki hər ikimiz onun barəsində daim düşünürdük. Atam onun məzarı üstündə bir daş qoymuşdu və tez-tez orada qurban mərasimi eləyirdi. Adi, sadə, ikimizin də adət etdiyi qurbanlar idi. Mən onun bir neçə dəqiqəlik orada dayanmasını görürdüm, sonra evə qayıdanda isə fikir verirdim ki, gözləri yol çəkir, sanki, hələ də lap uzaqlardaydı fikri. Bu həlim, kədərli baxış onun qüdrətli bədəninə qətiyyən yaraşmırdı. Gözləri uşaq gözü kimi aydın idi, lakin onlardakı ifadə uşaq ifadəsi deyildi heç. Getdikcə o daha çox qapılırdı özünə, ancaq qaraqabaqlığının özündə də bir mərhəmət vardı.

Mənimlə keçirdiyi bu son ayları gözəl xatırlayıram. Axşamlar evə asta addımlarla girir, yeməyini yeyib qurtaranda isə iri, qoca əlləri elə masanın üstündə qalırdı, kələ-kötür, bikarçılığa adət eləməmiş əlləri. Onlara baxanda uşaq vaxtı əllərimi öz əllərinin içinə alıb saxlayarkən keçirdiyim gözəl hissləri xatırlamaya bilmirdim. Amma indi onun əlləri tamam dəyişmişdi, qırış-qırış idi.

Hər səhər, hər şeydən qabaq sitayiş etdiyi həmin o tənha ağacın yanına gedirdi, yalnız sonra özünün adi işlərinə başlayırdı. Evdən səhər şəfəqləriylə, gün qalxmamışdan çıxırdı – axı burada, dağların arasında hava günəş görünməmişdən ağarır.

Az sonra mən cığırla yarğandakı bulağa yollanırdım, həmin o müqəddəs bulağa. Axar suya tamaşa eləyirdim – ruh üçün necə rahatlıq, necə istirahət idi bu, vücudumu bir sükunət, bir dinclik sarırdı və evə sakitləşmiş, ruh yüksəkliyi içində, özünəməxsus tərzdə bəxtəvər dönürdüm.

Həyatımız beləcə axıb gedirdi. Bahar artıq öz gücünü göstərməyə başlamışdı, ətraf ecazkar gözəllikdə idi, həm bizim yerlərdə, həm də bütün məhsuldar vadidə.

Bir səhər adətim üzrə bulağa enərkən gördüm ki, bir nəfər suyun gözünə sarı əyilib, ovcuyla içir. Yadımdadır ki, onun suyu nədənsə sol əliylə içməsi diqqətimi o dəqiqə çəkmişdi.

Onu arxadan görməyimə rəğmən, tanımadığım bir kəs olduğunu anladım, addımlarımı yavaşıdıb bir az gözləməyə qərar verdim. Amma o artıq addım səslərimi eşitmişdi deyə, mənə tərəf çöndü. Lap cavan idi, məndən, bəlkə də, bir on yaş kiçikdi, aydın, açıq, günəşdə yanmış sifəti vardı. Diqqət yetirəndə nəsə tanış cizgilər gördüm üzündə. O da mənə tanıyırmış kimi baxırdı. Ayağa qalxdı və yaxınlaşanda gördüm ki, həqiqətən, tanışdır, buralıdır, elə vadidə yaşayır, lap çoxdan, o, hələ uşaq olanda hərdən rastlaşırdıq. İndi o, iyirmi beş-otuz yaşlarında bir kişi idi, boydan hündür olmasa da, möhkəm bədənli, sağlamdı. Lakin bir qolu yox idi.

Üstündən xeyli müddət keçsə belə, mən də düşdüm onun yadına. Bizim evlərimiz bir-birindən o qədər də uzaqda deyildi. Onun da valideynlərinin məbədin yaxınlığında balaca torpağı vardı, yoxsul idilər, hətta bizdən də yoxsul: ailələri çoxuşaqlı idi.

Söhbətimiz qızışdı. Danışdı ki, neçə illərdir evlərində olmayıb, ailələri böyük idi deyə, az qala, lap uşaq ikən evlərini tərk edərək əsgərliyə gedib. Sonra da müharibədə qolunu itirib, elə buna görə də qayıdası olub. Daha müharibə üçün yararlı deyildi, kinayəylə gülümsündü, amma özünə dərd eləməli bir şey yox idi. Onsuz da müharibədən xoşu gəlmirdi, amma qarnını birtəhər doyurmalı idi də, nə edəydi. Ən yaxşısı torpağı əkib-becərməkdir, təbii ki, əgər torpağın varsa. Düzdür, bunun üçün də, iki qolun olsa, daha yaxşıdır.

Sonra o, həyatımla maraqlandı, ona anamın ölməsi barədə söylədim və dedim ki, indi atamın yanında yaşayıram, təsərrüfatla məşğulam.

– Nədir, məgər ərdə deyilsən? – soruşdu.

– Yox, ərdə deyiləm, – bir az duruxaraq cavab verdim.

Sonra bulaq barədə danışdıq. Mən dedim ki, hər səhər bura gəlirəm, anam öyrədib, bu bulaq müqəddəsdir. Bunu o da bilirdi, dedi ki, bulağın suyu da çox gözəldir. Heç Kastaliyada da belə gözəl su yoxdur, baxmayaraq ki orada adam əlindən tərpənmək olmur, yaxın düşə bilməzsən. Qürbətdə olanda

bizim bu bulağın həsrətini həmişə çəkirmiş, qürbətdə olanda. Dünən axşam evlərinə dönüb, bu gün səhər ertə isə bura gəlib ki, suyundan tez dadsın.

O, bir də əyilib sudan ovuc-ovuc içməyə başladı, içdikcə içirdi.

– Bəs sən içməyəcəksən? – soruşdu.

Tərəddüd içində duruxdum, amma sonra onunla yanaşı, dizi üstə yerə çökdüm və ikimiz də buz kimi, təmiz suyu ovuclayıb, içməyə başladıq. Bunda, təbii ki, qəribə bir şey yox idi, amma nədənsə mənə elə gəlirdi ki, indi bizim hər ikimiz nəsə qəribə bir ayin icra edir. Su içməyimiz bitəndən sonra sifətlərimiz indi sakit axan bulağın ayna kimi üzündə aydın göründü. Bilmirəm suyun dibində astaca dövrə vuran qum dənəciklərinə fikir vermişdimi o. Bəlkə də, bunu heç görmürdü, lakin dedi:

– Belə gözəl suyu bütün yer üzündə tapa bilməzsən. Həqiqətən, müqəddəs bulaqdır.

Biz ayağa qalxıb sağollaşdıq. İstəyirdi bir az gəzib-dolaşsın, doğma yerlərə tamaşa eləsin, istəyirdi görsün ki, hər şeyi xatırlayırmı, bunu özü dedi və günəşdən yanmış üzündə yüngül bir təbəssüm çıxıb getdi.

Mən də cığırla tələsmədən evimizə sarı yollandım, asta-asta və arxasınca boylanmadan, hərçənd ki onun hansı səmtə getdiyini bilmək istəyirdim.

O, mənim pifiya olduğumu bilmir? Belə çıxırdı ki, bilmir?

Ertəsi gün səhər elə həmişəki kimi bulağa endim və bir xeyli qaldım orada, həmişəkindən bir az artıq. Nəhayət, o da gəlib çıxdı və mən hiss etdim ki, gəlişinə əməlli-başlı sevindim. Bu qəribə hissi yaşamaq qeyri-adi idi.

Yenə söhbətə başladıq. Söylədi ki, dünən uçurumun dibinə enib, düz çayın yanına, oraları yenidən görməkdən xoşhal olub. Eşidəndə ki orada heç vaxt olmamışam, çox təəccübləndi. Dedi ki, gərək mütləq gedəsən, o qədər də uzaq deyil, yolu tanıyırsansa, elə sərt enişi də yoxdur. Dedi ki, vaxt

tapıb, ora birlikdə də gedə bilərdik gəzməyə, sanki, son dərəcə adi, təbii bir şeydən danışırdı.

Bulağın suyundan içib doyandan sonra bir kənarda əyləşdik və o, özünün yad, qürbət yerlərdəki əsgərlik həyatından danışmağa başladı. Doğma yerlərə dönməkdən çox məmnun idi, amma Delfadan heç xoşu gəlmirdi. Bu, şəhər deyil, fırıldaqçıların oylağıdır, oradakı qadınlar isə lap pozğundurlar.

– Amma gözəl məbədi var şəhərin, – dedim.

– Hə, orası elədir, – cavab verdi.

Daha heç nə əlavə eləmədi. Mən anlamadım ki, pifiya olduğumu bilir, ya yox. Bir də nə əhəmiyyəti vardı ki, niyə bunu özümə dərd eləmişdim?

Bilmirsə də, tezliklə mütləq biləcək, nə fərqi var.

Biz onunla oturub söhbətləşirdik, köhnə dostlar kimi, elə bil, bir əsr idi tanışdıq. Amma hərdənbir bir-birimizə baxıb söz tapmırdıq deməyə, indicə toxunduğumuz mətləbləri də unudurduq.

Biz ayrılanda və mən evə dönəndə günəş artıq dağın üstündə əməlli qalxmışdı.

Üçüncü səhər – yaxşı xatırlayıram, ona görə ki, özüm də bilmədən günlərin hesabını aparırdım – atam tarlaya gedən kimi mən cəld hazırlaşdım və yadımdadır ki, hazırlaşarkən ürəyim necə çırpınırdı. Yarğana enəndə onun artıq aşağıda, elə həmin yerdə oturub gözlədiyini, demək olar ki, o dəqiqə gördüm və sübh işığının sayrışan, hələ tam gücünü yığmamış, amma hər an parlamağa, öz işığını dörd tərəfə səpməyə, bütün vadini aydınlatmağa hazır olan nurunda qəflətən özümü misilsiz dərəcədə xoşbəxt hiss elədim. Addımlarımın səsini hələ uzaqdan eşitdi, mənə tərəf çöndü və sonra da oturub gülümsəyərək mənim yetişməyimi gözlədi. Mən əyilib bulaqdan içməyə başlayanda isə o artıq doyduğuna baxmayaraq, dizi üstə yanımda dayanıb günəşin altında qəhvəyi rəngə düşmüş, enli, sıx tüklü əliylə suyu yenə də ovuclamağa başladı. İçib doyandan sonra biz dizlərimizin üstündən qalxmayaraq

bir-birimizə baxdıq və o, qəflətən mənim başımdan yapışdı, özünə sarı çəkib öpdü. Dodaqlarımız soyuq sudan buz kimi idi, amma yavaş-yavaş qızışmağa başladı, bir azdan, artıq istidən od kimi olmuşdu. Mən öz peysərimdə onun enli, nəmli əlini duyurdum və nəfəsimin təngiməsini, ürəyimin çırpınmasını hiss edirdim. Nəhayət, onun dodaqları mənimkindən qopanda sakit səsini eşitdim, amma, elə bil, bu səs uzaqlardan, çox uzaqlardan gəlirdi :

– Sən niyə gözlərini yumursan?

Düzü, heç bilmirdim ki, gözlərimi yumuram. Gözümü açıb onun günəşdən yanmış üzünü düz qənşərimdə gördüm, yenə mənə yaxınlaşmağa başladı, sonra isə artıq görmürdüm onu, bircə hiss elədim ki, güclü dodaqları mənim intizardan yarıaçıq qalmış dodaqlarıma sıxıldı.

Bundan sonra biz artıq bir-birimizə heç nə demədik, yalnız əl-ələ tutmuşduq dinməzcə. Mən onda ilk dəfə idi onun tək əlini öz əlimin içində saxlayırdım. Onun əziz, sevimli, yaxşı xatırladığım əlini.

Yerdən qalxaraq yanaşı duranda isə hər ikimiz tez-tez, qırıq-qırıq nəfəs alırdıq.

– Bəlkə, bir yerdə çaya gedək? – o gülümsəmədən təklif elədi. – Sən axı orada heç vaxt olmamısan.

Cavabında baxışlarımı ona zilləyib bir söz deməyərək əlini sıxdım. Mənə artıq qətiyyən qəribə gəlmirdi ki, o, mənə bu təklifi eləyir və biz ora birlikdə gedəcəyik.

Tələsik dağdan enməyə başladıq, eniş lap dikləşəndə isə o elə yerlər tapmaq istəyirdi ki, mən də asan keçə bilim, hərçənd adət etmədiyimdən və sürətlə yeridiyimizdən mənə onsuz da çətin idi. Lakin o ən çətin yerlərdə mənə kömək eləyirdi, aşağıda durub məni tutur, dayaq verirdi, ta ki hər tərəfindən piniya ağacının kökləri çıxan bu sıldırımlı qayalıqda ayağımı basmağa etibarlı bir nöqtə tapım. Getdikcə eniş daha sərt, daha keçilməz olurdu, çayın aşağıdan gələn səsi elə hey güclənirdi, o, möhkəm çağlayır, ilan kimi qıvrılaraq daha artıq

guruldayırdı. Getdikcə uçurum da daralırdı, dərə də, axırda isə lap alaqaranlıq oldu, çayın gurultusuyla dolu alaqaranlıq. Hələ çayın özü piniya ağaclarının arxasından görünmürdü, amma, yəqin ki, indicə görəcəkdik.

Lakin biz ağır enişdən nəfəsimiz kəsilə-kəsilə uçurumun dibinə çatdıq, heç baxmağa gəldiyimiz çay düşmədi yadımıza, ona tərəf heç nəzər də salmadıq, özümüzdən savayı dünyada hər şeyi unudaraq bizi heç kimin görə bilməyəcəyi, bütün baş verənlərin sirr olaraq qalacağı bu alaqaranlıqda bir-birimizin ağuşuna atılmağa tələsdik. Biz yerə yıxıldıq, gözlərimi yumdum və hiss etdim ki, əynimdəki paltarları çıxardı, onun mənə necə yiyələndiyini ilk dəfə yaşadım.

Ömrümdə ilk dəfə mən məhəbbətin, başqa bir şəxsin bədəninin mənimki ilə bir can kimi qovuşmasının, tənhalıqdan qurtulmaq möcüzəsinin nə demək olduğunu anladım. Bir-birimizi qucaqlayıb ilan kimi sarılanda, yandırıcı, sərsəm bir ləzzət mənim bunu çoxdan istəyən güclü bədənimi sarmışdı.

Bu hissləri yaşadığım bütün müddət ərzində mən çayın gurultusunu eşidir və altımdakı piniya budaqlarından olan yumşaq yatağımın xoş rayihəsini duyurdum, kim bilir bu qoca, mehriban ağaclar bu yatacağı neçə illər idi mənim üçün düzəldirdi. Onların rayihəsi və çayın gurultusu şüurumda məhəbbətlə bir-birinə sarılaraq yaddaşıma əbədilik yazıldı.

Mən gözlərimi açmırdım, istəmirdim, bu, mənə gərək deyildi, onsuz da bilirdim ki, sevimlim burada, yanımdadır, bilirdim ki, xoşbəxt bədənim həzz içindədir, onun ağuşuna yayılıb özümü son dərəcə rahat hiss elədiyim, dincəldiyim güclü, möhkəm qolunun üstündə uzanmışam. Hiss edirdim ki, onun barmaqları, sol əlinin barmaqları üzümü sığallayır, heç adət etməmişdim bu nəvazişə, eyni zamanda da sevinc içində idim, əvvəllər, əslində elə sonra da, heç kəsin əlləri məni belə sığallamamışdı.

Bu, insan xoşbəxtliyi idi – xoşbəxtlik bu imiş, bəs beləymiş xoşbəxt olmaq. Mən də bütün bu varlıqlar kimi xoşbəxt idim. Mən də onlardan biri idim.

Bir-birimizdən doyunca ləzzət alandan sonra yenə də yuxarı qalxdıq – gündüz işığına, günəş işığına, bütün vadini ağuşuna almış parlaq nura. Heç bir şey baş verməyibmiş kimi, sakit çağlayan bulağın yanında bir-birimizdən ayrıldıq və mən evə xoşbəxtlik içində yollandım.

Qapımıza çatanda hələ də od çıxan əlimlə üst tirdən yapışıb ayaq saxladım, xoşbəxtlik içimdə qaynayırdı.

Yemək hazırlayaraq atamın qayıtmasını gözləyəndə çay barədə fikirləşməyə başladım, yəqin, biz yaxşı iş görməmişdik onu unutmaqda, heç bir nəzər də salmamışdıq. Bəlkə də, o, bizim əlimizdən qəzəbləndi buna görə, qəzəbləndi ki, onun sahilində məhəbbət oyunlarımıza başlamamışdan nə dua etdik, nə də vücudumuzu təmizlədik. Yalnız özümüz h aqqında düşünməyimizdən qəzəbləndi, yəqin. Bəlkə də, bu elə bir hərəkət idi ki, ona görə bizi cəza gözləyirdi. Elə bir çay yoxdur ki, onun sularında bir ilahi gizlənməmiş olsun, elə onun qulaqbatırıcı gurultusu da ilahinin varlığına, onun qəzəbini oyatmağımıza bir sübutdur. Mənə elə gəlirdi ki, bu dəhşətli gurultunu hələ də eşidirəm və indi artıq tək qalanda bu səs canıma üşütmə salıb qorxudurdu məni.

Çay kinlidir, bunu hamı bilir. Elə Tanrı da...

Tanrı? Bəs Tanrı?.. Elədiklərimə görə, o necə, bağışlayacaqmı məni?

Axı mən ona məxsusam, onun nişanlısıyam.

Əlbəttə, elədir. Amma mən eyni zamanda həm də insanam axı. Mən insanam, qadınam, bütün başqa qadınlar kimi. Axı bunu özüm də hiss etdim, elə indicə yaşadım bunu, misilsiz ləzzət içində yaşadım. Elə bir sevinc, elə bir bəxtiyarlıq yaşadım ki, heç təsəvvürümə də gətirə bilməzdim. Bunları almışdılar məndən, bütün bu ləzzəti. Almışdılar? Kim almışdı?

Mən Tanrının seçilmişiyəm, o seçib məni. Lakin məni həyat da seçib, adi insan həyatı, seçib ki, qismətimdəkini

yaşayım. Məni məhəbbət seçib, məni sevdiyim insan seçib, mənə yiyələnmək istəyən, mənim yiyələnmək istədiyim bir insan. Mən onun nişanlısıyam. Mən həm onun, həm də Tanrının nişanlısıyam.

Yaxşısı budur, heç bu barədə fikirləşməyim. Yaxşısı necə xoşbəxt olduğum haqqında düşünməkdir. Ancaq bu barədə. Başqa heç nə.

Lakin bu həyəcanlı fikirləri Tanrının özü təlqin edirdi mənə, nə qədər qovub özümdən uzaqlaşdırmaq istəsəm də. Sonralar da dəfələrlə məni qaytarırdı bu fikirlərin girdabına, məni rahat qoymurdu. Onda hələ bunu anlamırdım. Heç ağlıma da gəlmirdi ki, özüm üçün, sevgilim üçün necə narahat olmalıyam, bizi nələrin gözlədiyi, necə təhlükələrə məruz qaldığımız heç ağlıma da gəlmirdi.

Biz bu uçuruma yollananda, səsli-küylü çayın sahilinə enəndə hələ nə iş tutduğumuzu bilmirdik.

Çalışırdım başımı ev işləriylə tamam qatım, onlardan savayı heç bir şey barədə düşünməyim. Lakin fikirlərimi yalnız onlara yönəltmək qeyri-mümkün idi, əllərim öhdəmə düşən işləri beynimə heç bir ehtiyac olmadan görürdü. Lap bu yaxınlarda onu əzizləyirdi bu əllərim...

Əllərimlə başını qucaqlayaraq əzizləyirdim – necə gözəl anlar idi... Sevgilinin başını ağuşuna almaq, onu qoynunda qızdırmaq, dodaqlarını öpüşlərinlə yandırmaq və baxışlarının sənin gözlərində necə qərq olmasını görmək...

Görəsən, baxışlarım necə idi həmin anlarda... yəqin, dərin sulara qərq olan adamın baxışları kimi...

Bəs bundan xəbər tutsalar, nə olacaq? Bizim hər ikimizi hansı dəhşətlər gözləyir? Lakin hamıdan gizlində baş vermişdi bunlar, kimsənin xəbəri yox idi. Necə yəni gizlində, çay ki bilir. Elə Tanrı da. Tanrının da xəbəri var!

Özü də bununla bitmədi ki, hələ yenə olacaq belə görüşlər. Yenə, dəfələrlə olacaq, bədənim tələb edir bunu və onun səsini heç bir şey batıra bilməz, mən bu barədə lap ucadan

qışqırmağa belə hazıram, qoy səsimi bütün dağlar eşitsin... Qoy nə olur-olsun! Mən heç nədən qorxmuram! Məhəbbət heç bir şeydən qorxmur! Yeganə qorxduğum – sevgilimin... mənim sevgilimin...

Bilirmi, görəsən, bu barədə? Bilirmi ki, mən pifiyayam, Tanrının nişanlısı və kahini? Bu barədə bilsə, necə olacaq, yəni o da hamı kimi... yəni bilsə...

Yox, yaxşısı budur, heç bu barədə fikirləşməyim – yalnız necə xoşbəxt olduğum haqqında düşünüm. İndi necə xoşbəxtəmsə, o barədə. İndi. Bu gün. Mehriban ağacların yaşıl çətiri altında onunla yanaşı necə uzanmışdım, xoş, rayihəli yarpaq döşəyin, onun güclü, möhkəm qolunun üstündə, rahatlığımı, dincliyimi tapdığım qolunun... Bəli, mən onun yanında rahatlıq tapmışdım, nəhayət ki, tapmışdım... Bircə Tanrı bu rahatlığı məndən almayaydı, imkan verəydi saxlayım... Onun yanında belə rahat ola bilmirdim, barı indi, bu rahatlığıma dəyməyəydi... Onun yanında rahatlıq ola bilməz axı, bu təbiidir, dərk edirəm... Amma insanın, yalnız insan olan zəif bir məxluqun alnına, yəqin, sakitliyin dadını bilmək qisməti yazılıb ki, bir-birini sevən iki nəfər qucaqlaşanda rahatlıq tapır... Yəqin, mənə də olar sevgilimin qucağında rahatlıq tapmaq, nə vaxtdan bəri bu rahatlığı axtaran mənə...

Tanrıya yalvardığım vaxtları xatırlayıram, yalvarırdım ki, xoşbəxtliyi dadmağıma, sakitliyi, məhəbbəti dadmağıma imkan versin, bunu mənə çox görməsin – indi içimi ağzına kimi doldurmuş adi, insani məhəbbəti.

Bilmirdim, sadəlövhlüyümdən anlamırdım ki, ondan heç vaxt mənə verə bilməyəcəyi şeyləri istəyirəm, bunun üçün dua etmək ağlasığmazdır. İndi mən yalvarırdım ki, yaxamdan əl çəksin.

Xoşbəxt olmağımız üçün onda belə yaxşı idi, hələ anlamırdım ki, yalvarışlarım nə qədər mənasız, ilahidən bu istədiklərimi gözləmək nə qədər yersizdir. Biz öz məhəbbətimizi yaşayırdıq, özümüzü son damlasınadək məhəbbətə təslim

edirdik, heç nədən narahat olmur, heç nəyin dərdini çəkmirdik – bəzən təsadüfən nigarançılıq keçirən də yalnız mən olurdum, təkcə mən, sevgilim isə – heç vaxt. Bu hiss ona tamam yad idi. Büsbütün bu həyata, insan həyatına, əsl həyata məxsus idi və onun hüdudlarından kənarda olan heç bir şeydən qorxmurdu. O heç qorxmalı olduğu şeylərin varlığından da xəbərdar deyildi və ola da bilməzdi.

Bəli, bilməməyimiz yaxşı idi bütün bunları.

Biz bir-birimizi sevir, yaxınlıq axtarırdıq, mümkün olan kimi, imkan tapan kimi. Gizlicə – başqa cür mümkün də deyildi və bu, bizim hisslərimizi bir az da qızışdırırdı. Bir-birimizi harda gəldi sevirdik, amma həmişə açıq havada olurdu bu, bütün heyvanlar, bütün canlılar kimi, təbiətin özü kimi. Biz buna məcbur idik, amma elə özümüz də istəyirdik, bu, bizim məhəbbətimizə daha uyğun gəlirdi, sığınacaqsız və xoşbəxt məhəbbətimizə. Bütün insanlar kimi, dam altında yox, – küləyin, yağışın, günəşin altında. İstək bizi saranda, yadımdadır, biz bir-birimizin ağuşuna lap arpa zəmisinin ortasında da girə bilərdik, orada hamıdan gizlənib uzanırdıq, bir biz, bir də ki məhəbbətimiz. Yalnız səmada süzən qartallar görürdü bizi. Yadımdadır, bir dəfə yayın qızmar çağında, taxıl tel-tel olanda, çiçək tozcuqları havaya sovrulanda günəşin parlaq şüaları altında bir-birimizə sarılmışdıq, arpanın qoxusu da yadımdadır, havanın istidən qaynaması da.

Amma çayın kənarına bir də düşməyə heç cür razılıq vermirdim. O, hərdən çağırırdı məni, "oralar etibarlıdır, heç kəs görməz" deyirdi. Soruşurdu ki, niyə getmək istəmirəm. Lakin mən heç vaxt demədim səbəbini.

Çayın o uğultusu, məhəbbətimlə çulğaşmış o uzaq, lakin qorxulu uğultu mənə bəs eləyirdi. Həmişə sevişəndə, həmin o uğultu qulaqlarımda olurdu. Günün günortaçağı, hətta taxıl zəmisinin ortasında yaşadığım ən xoşbəxt anlarımda belə, mənə elə gəlirdi ki, çayın həmin o boğuq gurultusunu eşidirəm. Bəlkə, içimdəydi bu səs?

Bu narahat fikirlərimi qəlbimdə saxlayırdım, o, bunları bilmirdi. Bu fikirlər ən çox tək qalanda əziyyət verirdi mənə, ev işlərini görəndə; evdə bu düşüncələrin girdabında qərq olmağa fürsətim daha çox olurdu. Belə anlarda məni mübhəm bir nigarançılıq götürürdü, gələcəkdən nigarançılıq. Necə olacaq? Gələcək mənə nə gətirəcək? Öz bətnində nələri gizlədib o?.. Bir dəfə təsadüfən gəlinlik paltarıma rast gəlməyim yadımdadır, nəsə tamam başqa bir şey axtarırdım evdə. Tez də gizlətdim. Boş evdə, çaşqınlıq içində bir xeyli var-gəl elədim, həyəcanlı fikirlər isə yaxamdan əl çəkmək bilmirdi.

Əgər onunla, öz sevgilimlə məni əzən düşüncələrimdən danışa bilsəydim. Nə qədər yüngülləşərdim. Kaş onunla bölüşə biləydim. Neçə dəfə hazırlaşmışdım buna, sevgilimə ürəyimi açmağa. İstəyirdim ondan soruşam ki, mənim... kim olduğumu bilirmi? Amma yenə cəsarət eləmirdim. Xoşbəxtliyim mənim üçün həddən ziyadə qiymətli idi, onu itirmək istəmirdim. Axı mən xoşbəxt idim indi, amma sevgilimə ürəyimi açsaydım, onu itirə bilərdim. O qədər belə şeylər olur ki, həyatda. Ona təkcə kimliyimi desəydim, bəs edərdi...

Lakin o, çox güman ki, bilirdi bunu, ola bilməzdi ki, xəbəri olmasın. Bəs onda niyə mən özüm etiraf etməyim bunu...

Nəhayət, bütün cəsarətimi topladım.

Bəlli oldu ki, orakulun kahini olduğumu hələ uşaqlıqdan bilirmiş, hətta sonralar, atası evindən çıxıb gedəndə də, bundan xəbəri varmış, sadəcə, düşünürmüş ki, bir neçə il pifiyalıq eləyəndən sonra məbəddən getmişəm, bu işlə artıq çoxdan məşğul deyiləm. Eşidəndə ki mən hələ də orakula qulluq edirəm, hələ də pifiyayam, yaman təəccübləndi. Qürbətdən dönəndən sonra mənim barəmdə bir kimsə ilə danışmamışdı ki, münasibətlərimizdən duyuq düşən olmasın, ona görə xəbərdar deyildi. Özüm nə demişdimsə, ancaq onları bilirdi: atamın yanında yaşadığımı, təsərrüfatla məşğul olduğumu. Sözlərindən belə başa düşdüm ki, heç orakulun kahini olmağın da nə anlam daşıdığını çox elə aydın təsəvvür eləmir.

Axı uzun müddət Delfadan kənarda yaşamışdı, bir də ki orada baş verənlərlə heç vaxt maraqlanmayıb, deyirdi ki, bu cür işlər mənim üçün deyil. Amma mənim hələ də pifiya olduğumu, ilahiylə əlaqəyə girdiyimi eşidəndə heyrətini heç gizləyə bilmədi. Bu barədə özümə bir söz demədi, lakin mən görürdüm ki, əməlli-başlı narahatdır.

Başıma gələnləri sakit qarşılamasından xeyli yüngülləşdim. Yox, mən onu itirməyəcəkdim, bunu artıq başa düşmüşdüm, itirməyəcəkdim sevgilimi. Onun üçün mənim pifiya olub-olmamağımın elə bir əhəmiyyəti yox idi, rast gəldiyim ilk adam idi ki, buna görə mənə qeyri-adi bir məxluq kimi baxmırdı, məndən çəkinmirdi. Həmişə xəbərdar olub bundan. Düzdür, indinin özündə də pifiyalıq etdiyim ağlına gəlmirdi. İndi isə artıq bunu da bilirdi və yenə sevirdi məni! Bu məsələnin onun üçün qətiyyən əhəmiyyəti olmadığına bundan gözəl sübut varmı!

İçimə bir minnətdarlıq, bir xoşbəxtlik dolmuşdu. Mən ona hər şeyi danışdım və o da mənim nigarançılığımın səbəbini dərk etdi. Hərçənd ki ən çox nədən nigaran olduğum barədə hələ ona bir söz deməmişdim, yəni açıq deməmişdim. Bir də ki daha nigaran qalan deyildim onsuz da. O, hər şeyi başa düşmüşdü, sevən adam necə başa düşərsə, eləcə.

Oturub onun əlini sığallayırdım, mənə əziz olan, sevimli əlini, sonra da, yadımdadır ki, öpdüm onu. Həmişəki kimi öpüşərək, təbəssümlə ayrıldıq.

Bu söhbətdən sonrakı ilk görüşümüzdə də hər şey əvvəlki kimi idi. İlk yaxınlığımızdan bəri heç vaxt mən ona belə ehtirasla nəvaziş göstərməmişdim, məhəbbətim daha alovlu olmuşdu, daha böyük minnətdarlıq vardı içimdə və bunu göstərmək istəyirdim ona, məhəbbətimi bağışlamaq istəyirdim, özümü bağışlamaq istəyirdim, sevən qadın istəklisinə nə verməyə qadirdirsə, hamısını vermək istəyirdim: öz hərarətimi, öz nəvazişimi, öz şəhvətimi. O da verdiklərimi qəbul elədi, özü də ehtirasa qapıldı. Amma, elə bil, çılğınlığımdan

bir az heyrətlənmişdi. Yadımdadır, boşalandan sonra məni yavaşca sığallayırdı, elə bil, sakitləşdirmək istəyirdi.

Bu dəfə o söhbətə qayıtmadıq, hər ikimiz yayınırdıq bundan. Ümumiyyətləsə, bu barədə, demək olar, heç vaxt danışmırdıq. Fikir vermişdim ki, o mövzuya toxunanda çəkinirdi, elə bil, özüm də indi bu barədə heç danışmaq istəmirdim, artıq açmışdım ona ürəyimi, hər şey yaxşı idi.

Bəli, münasibətlərimiz əvvəlki kimiydi. Yalnız məhəbbətim, sanki, daha da alovlanmışdı və mənim üçün indi, elə bil, daha əhəmiyyətli, daha böyük idi. Bu sevgimin nəhayətsiz dəyərini, mənim üçün nə qədər vacib olduğunu, bu istəkdən necə möhkəm yapışdığımı heç cür gizləyə bilmirdim. Mənə hava kimi, su kimi gərək idi bu sevgi. Bəlkə, elə kənardan baxanda da aydın görünürdü bu.

Onun hissləri isə daha təmkinli, daha sakit idi, elə özü kimi – bu cəhəti lap ürəyimdən idi. Məni də özünəməxsus tərzdə sevirdi – sakit, güclü, heç vaxt xəyanət etməyəcək bir adamın məhəbbəti ilə. Lakin alovlu şəhvətim, görünür, onun ehtirasını, istəyini qətiyyən artırmırdı. Hərdən hərəkətlərim onu çaşqınlığa düçar eləyir, çəkindirirdi məndən – yəqin, pifiya olduğum, Tanrının istəklisi seçilməyim, Tanrıya məxsusluğum barədə dediklərim də qorxudurdu onu. Az qala, məndən gen gəzməyə başlamışdı və bunu daha açıq duyduqca, bir az da bərk ehtiyacım olurdu ona. Ondan daha bərk yapışır, qoynuna daha ehtirasla sıxılırdım, imkan tapsaydım, bəlkə, ümumiyyətlə, qopmazdım ondan! Hərçənd ki artıq sevgilimi itirəcəyimdən də qorxmurdum, heç qorxmurdum, amma elə yapışırdım ona, sanki, əlimdən çıxacağından ehtiyatlanırdım, elə bil, təhlükə vardı buna; əslində isə qorxmalı heç nə yox idi, amma yenə də qorxurdum; heç bir ehtiyac olmadığı halda, üzümə yağ çəkirdim ki, dərisini yumşaldaraq qırışlarını açım, cavan görünmək istəyirdim, hərçənd ki mənim təravətli sifətimdə nə qırış-zad vardı, nə də öz yaşımı verərdilər mənə, görkəmimizdən biz eyni yaşlı insanlara

bənzəyirdik, amma, bütün bunlarla belə, tutduğumdan əl çəkmirdim və bir səhər onu bulaq başında görməyəndə özümü lap itirirdim, az qalırdı, ağlım başımdan çıxa. Ondan sonra həya nə olduğunu unudaraq, ehtirasımın bütün gücünü, şəhvani aclığımın dərinliyini ona göstərməyə çalışırdım və bilirdim ki, baxışlarım boğulan adamınkına bənzəyir, amma bundan heç xəcalət də çəkmirdim, gözlərimi gizləmirdim ondan, mən heç nəyi gizləmirdim! Gizləmək istəmirdim!

Ehtirasım onu udmağa hazır olan dibsiz uçurum idi və görürdüm ki, bu ehtiras onu qorxudur.

Bəli, mənim məhəbbətim dəhşətli həddinə yetişmişdi. Həddindən ziyadə məhəbbət də kimə yönəlibsə, ona ağırlıq edir, mən bunu dərk etmirdim, heç nə bilmirdim bu barədə. Bilsəydim də, köməyi yox idi. Axı məhəbbətə kim sərhəd qoya bilər!

Bu ipə-sapa yatmaz hisslər sevgilimi qorxutmaya bilməzdi, bu vəhşi yanğın onun özünə də, yaşadığı sakit, sabit həyata da yad idi. Mən axı bu sakitliyi, bu hüzuru sevirdim – deməli, o dərəcədə sevirdim ki, itirdim. İtirməyə bilməzdim. İtirdim ona görə ki, hədsiz sevirdim. Yox, mənim məhəbbətim bu həyat üçün yaramadı, bu həyata sığmadı. Görünür, mən bu həyata uyğunlaşa bilmirdim, sadə, insani həyat üçün yaranmamışdım, yəqin.

Sevgilimin ağuşu mənim üçün rahatlığın özü idi, arzuolunan, şirin rahatlığın. Lakin bu rahatlıq, bu sakitlik üçün yaranmamışdım, mən sakitliyə yad idim, çünki həddindən ziyadə sevirdim onu, sakit sevmirdim.

Sevgilim məni rədd etmədi. Mənimlə elə əvvəlki kimi mehriban idi, biz uzun müddət əl-ələ tutub otura, söhbətləşə bilərdik. Ona sığınanda həsrətində olduğumu anlayırdı, amma görürdüm ki, özünün buna meyli yoxdur, mən onda ehtiras doğurmurdum, lakin istəyimə tez-tez güzəştə gedir, çılğınlığıma, şəhvətimə dözməli olurdu; özü bənzər hisslər yaşamasa belə. Mənə mərhəmətindən güzəşt eləməsi lap ağrıdırdı ürə-

yimi və qəlbimin dərinliklərində özümdən asılı olmayaraq dərk edirdim ki, mərhəmətlə məhəbbət nə qədər fərqli məfhumlardır.

Bəli o çox mehriban idi, lakin ehtiraslı, güclü olan əliylə indi məni necə sakit sığalladığını gördükcə, içindəki məhəbbətin necə ölməsini də duyurdum.

Bax onunla münasibətlərimiz həmin o məşum günə kimi beləcə davam elədi. O gün isə məbəddən dalımca adam yollayıb dedilər ki, qayıtmalıyam. Orakul yenə öz mərasimlərinə başlayırdı və məni neçə günlük bayramlar, böyük zəvvarlar ordusu gözləyirdi.

Sonuncu axşam çıxılmazlıq içindəydim və bunu qətiyyən gizlədə bilmirdim. O isə elə hey soruşurdu ki, niyə beləyəm, mən də demək istəmirdim, özümü məcbur eləyə bilmirdim ki, düzünü söyləyəm. Ondan gözüyaşlı ayrıldım, ruhi sarsıntı içində.

Ertəsi gün səhər isə gəlinliyimi çıxardım, atama da bir söz demədən evdən çıxıb düz Delfaya yollandım. Hələ qaranlıq idi, ulduzların soyuq işığından üşüyürdüm. İndi Tanrını sevmirdim daha. Başqasını sevirdim, sevdiyimə də gərək deyildim. Mən tənha idim.

Yeraltı məbədə enəndə hiss elədim ki, artıq buradadır həmin o xəyanət elədiyim. Nəfəsi üzümə dəyirdi, güclü, məstedici və elə bil, o dəqiqə yapışdı məndən. O, bütün zirzəmini doldurmuşdu özüylə, ruhuyla; ağır, boğucu hava vardı içəridə. Orakulun zəhərli ilanları artıq yuvalarından çıxmışdılar və haça dillərini çıxarıb mənə sarı sürünürdülər, ölülər səltənətinə aparan həmin o dibsiz yarğandan isə üstümə zəhərli buxarlar duman kimi yeriyirdi və hələ üçayağa qalxmamışdan məst idim. Hələ heç vaxt onun iradəsinə belə tez tabe olmamışdım, içim bomboş idi, özüm də bu heçliyin bir parçasına çevrilmişdim və içim onunla dolmağa başladı, sanki, o da həmin bu anı nə vaxtdan gözləyirmiş ki, bütün gücünü üstümə yağdırsın. Boğazımdan elə bərk tutmuşdu ki, elə bil,

boğmaq istəyirdi, xirtdəyimdən dəhşətli xırıltı çıxmağa başladı. Yalnız dəhşət və qorxu hiss edirdim – heç bir yüngüllük, heç bir sevinc yox idi, heç bir qətrə belə. Hələ heç vaxt belə əzab çəkməmişdim, hələ heç vaxt mənimlə belə qəzəbli, belə kobud davranmamışdı və heç vaxt da sonda məni bu dəfəki dəli ekstaza gətirməmişdi. Mənə sonra danışırdılar ki, bədənimi, elə bil, azğın bir qüvvə oyan-buyana çırpırmış və dəhşətli bağırtılarım hətta yuxarıda, məbədin özündə belə eşidilirmiş. Bu, dəhşət idi. Lakin məni ən çox qorxudan, ən çox sarsıdan o idi ki, bu dəhşətin ən qızğın çağında, haradansa, çox uzaqlardan gurultu ilə axan çayın səsi yetirdi qulaqlarıma. Yəni belə bir şey ola bilərdi? Yəni mən həqiqətən də çayın səsini eşidirdim? Nədən bu səs məni bir belə qorxudurdu?

Sonradan mənə qulluq eləyən qarının evində özümə gələndə, dəhşətli yorğunluqdan yavaş-yavaş ayılanda, həmin o qoca xidmətçi gəldi baş çəkməyə və bir az çarpayımın yanında oturdu. Məndən nigaran qalmışdı, istəyirdi görsün, özümə gəlmişəmmi. Dedi ki, hələ heç vaxt sifətimi bu dərəcədə dəhşətli, qorxulu görməmişdi. Bunu kahinlər də duymuşdular, onlar da öz aralarında bu barədə danışırdılar. Onlar məndən, ilahi mübtəlalığımdan çox razı idilər. Lakin qoca öz tərəfindən ehtiyatla əlavə elədi ki, bəlkə, Tanrıya bu qədər fədakarlıqla tabe olmaq lazım deyil, axı Tanrı özü də heç bunu tələb eləmir. Yəqin, mən gözlərimi əlimlə örtüb onun sözlərini dinləyəndə yorğun sifətimdə zəif bir kinayə peyda oldu, hərçənd ki qoca bunu heç duymadı da.

O, Tanrıdan danışırdı. Öz Tanrısından. Mən bəs nəyə kinayə edirdim?

Sonra o, zəvvarlar otağının pilləriylə üzüaşağı qaçıb, müqəddəs zirzəmiyə girərək mənə dəhşət dolu gözləriylə baxan, heç kəsin tanımadığı, naməlum bir adamdan da söz açdı. Həmin şəxs, təbii ki, buralı deyildi, Delfada belə bir sərsəmliyə cürəti çatan tapılmazdı, hamı bilirdi bunun qada-

ğan olunduğunu. Orakulun kahinləri özlərindən yaman çıxmışdılar və təbii ki, məbəd qarovulu asayişi pozan bu şəxsin qolundan tutub o dəqiqə aparmışdı və indi heç bilən də yox idi ki, bu zavallıya nə cəza veriləcək.

Hadisə kifayət qədər qeyri-adi olsa da, mən onun söhbətinə o qədər də diqqət vermirdim, amma birdən qoca dedi ki, həmin şəxsin tək qolu vardı.

Sıçrayıb yerimin içində oturdum və yəqin ki, görkəmim də həmin anlarda son dərəcə qəribə idi. Qoca xidmətçi mənə heyranlıqla baxırdı, təəccüblənmişdi. Təbii ki, halımın nədən belə dəyişdiyini anlamırdı. Amma bu hərəkətimdən, yəqin, fikirləşdi ki, daha dincəlmək istəmirəm, deməli, artıq hər şey yaxşıdır. Sonra məmnun qalaraq, üzündə geniş bir təbəssüm çıxıb getdi.

Tək qalandan sonra bir xeyli daş kimi hərəkətsiz durdum, beynimdə təzadlı fikirlər dolaşırdı. Niyə gəlmişdi məbədə? Bunu necə başa düşüm? Nə vadar eləmişdi onu? Bəlkə, bunun mənası o idi ki, mənə qarşı ... hələ də tam biganə deyildi?

Zəif bir ümidə bənzəyən nəsə qəlbimin içini qızdırdı bir az, hərçənd buna elə bir səbəb yox idi.

Əynimdəki gəlinliyi asta-asta çıxardım, sadə bir paltar geydim və vadiyə yollandım.

Evimizdə kimsə yox idi, tarlalara göz gəzdirə-gəzdirə, ya bəxt dolaşmağa başladım. Onu uzaqdan gördüm – atasının əkdiyi zəmidə işləyirdi – görən kimi də ona sarı getdim. Məni görəndə azacıq diksindi, elə bil, üzündəki ürkək, bir qədər çəkingən ifadə diqqətimdən yayınmadı, adətən, baxışları çox açıq, geniş olardı. Yaxınlaşanda da gözlərini qaldırmadı. İkimiz də durub susmuşduq.

Hər şeyi anladım. Məni görmüşdü, Tanrı ruhuma girəndə dəhşətli sifətimi görmüşdü, elə bir şey görmüşdü ki, ona heç kəs dözə bilməzdi və bir dəfə görən bir də unutmazdı bunu. İndi mən onun üçün də pifiya idim artıq – onun üçün

də, bütün başqaları kimi. İndi artıq o da başqalarına bənzəyirdi. Artıq hər şey bitmişdi.

Mən soruşdum və o gizlətmədən cavab verdi ki, hər şeyi görüb və ömrünün sonuna kimi özünə gələ bilməyəcək gördüklərindən. Mən də başa düşdüm ki, nədən danışır: heç bir kişi o vəziyyətdə gördüyü bir qadını, içinə Tanrı ruhu girmiş bir qadını sevə bilməz.

Sonra danışdı ki, həmin günün səhəri bulağın yanına gəlib, yolumu gözləyib. Mən də gəlib çıxmamışam, o isə mənim axşamkı vəziyyətimi gördüyündən nigaran qalıb, fikirləşib ki, bəlkə, başıma bir iş gəlib. Evimizdə də heç kimi tapmayanda lap narahat olub. Sonra tarlada atamı görüb, ondan da soruşub məni. Bir şey bilmədiyini və mənim evdə olmadığımdan onun da təəccübləndiyini görəndə lap dəli olub. Bu sözləri onun ağzından, az qala, kəlbətinlə çıxarmaq lazım gəlirdi, heç danışmaq istəmirdi. Fikirləşib ki, kim bilir, nə baş verib, sonra da üz tutub Delfaya, orakulun məbədinə. Hələ məbədin girəcəyində, mənim dəhşətli bağırtılarımı eşidib, elə bilib ki, kimsə işgəncə verir mənə və zəvvarlar salonundan səs gələn səmtə yüyürüb, sonra da pillələrlə üzüaşağı...

Bura çatanda söhbətini xırp kəsdi.

Mən onun əlini əlimə aldım:

– Mənim üçün yəni belə bərk qorxdun?

– Hə.

– Daha mənə görə heç vaxt qorxmalı olmayacaqsan. Səni o qədər sevirəm ki, nə desən, eləyə bilərəm.

O anladı ki, bu sözlərimi nə mənada dedim – yəni onun yolunda ən çətin, ən ağır, sevən bir qadının qadir olduğu ən böyük fədakarlığı eləyə bilərəm: onu özümdən qurtararam və bir də üzümü görməz. Bu gündən etibarən biz ayrılacağıq, o, əvvəlki kimi, öz dünyasında yaşayacaq, mən də özümünkündə – əvvəldən də gərək belə olaydı.

Biz gözlərimizi yerə dikib xeyli dayandıq, baxışlarımızı görüşdürməkdən çəkinirdik, sanki. Mən onun əlini sıxırdım,

amma o dərəcədə möhkəm sıxmırdım ki, onu necə bərk sevdiyimi xatırlasın, indi necə ağır anlar yaşadığımı anlasın. Sonra həmişəlik ayrıldıq.

Evlərimizin yaxınlığına baxmayaraq, daha bir də görüşmədik, məndən qaçdığı bəlli idi, fikirləşirdi ki, hər ikimiz üçün belə yaxşıdır. Mən elə özüm də belə düşünürdüm və ona minnətdar idim buna görə.

Delfada olmağıma ehtiyac yaranmayanda, elə əvvəlki kimi, öz evimizdə yaşayırdım, atamla; məndən ayrılmış sevgilimin yaşadığı elə həmin təbiətin qoynunda, elə həmin vadidə. Yayın sonu idi, ətrafdakı bütün yaşıllıq susuzluqdan yanmışdı, bütün əzəmətli vadimizi, elə bil, odlamışdılar: meşələri də, çölləri də. Təkcə bulaq dəyişməmişdi, elə əvvəlki kimi saf, şəffaf, bol sulu idi, çünki o, müqəddəsdir. Qum dənəcikləri də, qabaqkı kimi, astaca dövrə vururdu özləriyçün, sanki, onları kiminsə görünməz əli tərpədirdi. Mən, əvvəllər olduğu kimi, yenə də hər səhər bulaq başına gedir, bir az otururdum orada, öz fikirlərimlə baş-başa qalırdım. Amma daha heç vaxt baxmırdım suya. Mən öz sifətimi suyun üzündə görə bilmirdim, görmək istəmirdim. Sadəcə, oturub boşluğa baxırdım, gündən-günə bozararaq payız rəngi alan boşluğa. Sonra da gözlərimi yumub sudan bir neçə ovuc içirdim və evə dönürdüm.

Təbii ki, o da hər gün gəlirdi bulağa, axı bu təmiz suyu məndən az sevmirdi, onsuz keçinə bilməzdi. Lakin ora başqa vaxt gəlirdi, mən olmayanda. O, mənə etibar edirdi, bilirdi ki, rastlaşmayacağıq.

Amma bir dəfə onu uzaqdan gördüm, atasının zəmisi ilə yanaşı kiçik meşədə zeytun yığarkən. Ona görə tanıdım ki, tək qolla həm budağı saxlayır, həm də meyvələri dərirdi, çətinliklə. Bir xeyli dayanıb ona tamaşa elədim, məni görə bilməzdi, onun tək qolla necə dartınmasına, qoca ağacın meyvələrini necə yığmasına baxırdım. Üzünü görmürdüm, amma bilirdim ki, bu, odur. Özümü saxlaya bilməyib yerə çökdüm və bir xeyli ağladım.

Evə dönəndən sonra oturdum, üzümü tutub elə hey onun barəsində fikirləşdim. Hələ tək idim, atam qayıtmamışdı.

Əgər ona kömək etmək imkanım olsaydı, budaqları tutardım, o da yığardı. Onunla burada, bu vadidə uzun və xoşbəxt bir insan ömrü yaşaya bilsəydim... Anamın yaşadığı ömür kimi, çox, lap çox adamın yaşadığı kimi. Niyə mənə olmaz? Niyə mən başqaları kimi ola bilmərəm?

Bu, sonuncu dəfə idi ki, onu görürdüm. Amma onda hələ bunu bilmirdim.

Həmin görüşdən az sonra başıma iş gəldi, orakulun zirzəmisindən huşsuz vəziyyətdə çıxdım – Tanrı zorlamışdı məni. Bu barədə, təbii ki, heç kəs bilmirdi, hamının bildiyi yalnız o idi ki, həmişəkindən fərqli olaraq, mən artıq onun dəlisinə çevrilirdim, ekstazım, divanəliyim elə dəhşətli həddə çatmışdı ki, sonuncu dəfə üçayaqdan, az qala, yıxılacaqdım, yaxşı ki, qoca xidmətçi vaxtında sıçrayıb əlimdən tutmuşdu.

Məsələ burasında idi ki, elə həmin an mən, həqiqətən, huşumu itirirdim, birdən boğucu keçi qoxusu duydum və Tanrını qara keçi cildində gördüm, orakulun sevimli heyvanı qəzəblə, acgözlüklə üstümə atıldı... Ağrı və ikrahla hiss edirdim ki, kimsə mənə yiyələnir, məni öz iradəsinə tabe eləyir – hansısa qeyzli, qəzəbli qüvvə, məni qeyri-insani ölçüləriylə dəhşətə gətirən qüvvə. Anlaşılmaz tərzdə orakulun zirzəmisindəki keçi cildinə girmiş, onun qoxusunu almış, hansısa bənzərsiz güc. Bütün bunlar baş verəndə mən həmişəkindən də aydın şəkildə çayın get-gedə güclənən gurultusunu eşidirdim, o artıq şimşək səsini andırırdı və bu səs bircə anda – mənim şəhvani ləzzət anımda bütün vücudumu heç nəylə müqayisə oluna bilməyən əzab və ağrıyla doldurdu.

Sonra, elə bil, harasa yuvarlandım və daha nə baş verdiyini bilmədim, ta ki ətrafımda otərəf-butərəfə gedərək məni tikanlı, çoxbilmiş baxışlarıyla burğulayan həmin bu qarının evində özümə gələnə kimi. Ondan xahiş elədim ki, məni tək buraxsın və nəhayət, o, üzümə şübhə ilə baxaraq istər-istəməz

tabe oldu və mən indi tək qalıb öz fikirlərimlə maneəsiz didişə bilərdim. Uzanıb qalmışdım, qalxa bilmirdim, evimizə yalnız axşamtərəfi getdim.

Bu, nə vaxt baş vermişdi? Həmin andamı? Bunu heç kəs, heç vaxt bilməyəcək. Onun yaralı cəsədini ertəsi gün çayda tapdılar, amma faciə, yəqin, bir gün öncə gəlmişdi onun başına, səhər evlərindən çıxıb gedəndə. Getmişdi və bir də dönməmişdi – mənim başıma bayaq danışdığım hadisələr gələn gün. Bu, necə olmuşdu və o, niyə getmişdi uçurum kənarına – bunu heç kəs anlamadı: axı bu dəhşətli uçurumda heç bir işi yox idi onun. Onlar haradan biləydilər ki, məsələ tamam başqa cürdür. Qeybdən bir çağırış eşitmişdi, onu çağırırdılar ki, öz ölümü ilə görüşsün. Heç şübhə yoxdur ki, onu uçurumun başına çağıran qarşısıalınmaz bir güc idi, onun ölümünü arzulayan, onu udmaq istəyən güc. Suda boğulmuşdu, ya qayadan yıxılıb ölmüşdü? Bəlkə, yıxılmış, ağrıdan huşunu itirərək suda boğulmuşdu, hərçənd ki indi suyun bol axan vaxtı da deyil. Bunu kim bilər! O, dümdüz, kürəyi üstə şax uzanıbmış tapılanda, su azca örtübmüş üstünü və onu məhz buralarda axtarmaq fikrinə düşən adamlar elə gələn kimi görmüşdülər cəsədini.

Onun uçurumdan yıxılmağı hamıya çox təbii gəlirdi, çünki onun tək əlində bir ağac budağı sıxılmışdı, belə fikirləşirdilər ki, yıxılanda ağacın budağından yapışmaq istəyib ki, özünü saxlasın. Heyrətamiz cəhət bu idi ki, əlində qalmış budaq dəfnə ağacınınkı imiş və Tanrının bu müqəddəs ağacı o dar dərədə bitmirdi. Bu, qəribə gəlmişdi camaata, amma sonra daha bu barədə düşünmək kimsənin ağlına gəlmədi, axı heç kəs bilmirdi ki, onun başına, əslində, nə iş gəlib və bütün bunların arxasında nələr gizlənib. Heç kəs bilmirdi ki, bu, Tanrının insandan xoşbəxt olduğuna görə aldığı intiqamdır, seçdiyi qadının ona xəyanət etdiyinə görə, yalnız onun üçün yaşamaq istəmədiyinə görə aldığı intiqam.

Onu tapan adamlar deyirdilər ki, elə bil, yatmışdı, lakin üzünün rəngi itmişdi. Bədəni tamam yara içində imiş, amma qan görünmürmüş. Qanının hamısını su aparmışdı. Çay aparmışdı onun qanını. Hamısını aparmışdı.

Mən özüm onun cəsədinə baxmadım, necə ürəyim gələrdi axı! Amma çoxları görmüşdü onu – bu qəribə ölüm yaman səs-küy yaratmış – belə qəribə əcəl aparmasaydı onu, insanların yadına da düşməzdi. Mən isə bacarmadım. Məhəbbətim mane olurdu ki, gedib, ona baxım, baxsaydım, mütləq büruzə verərdim özümü, hamı başa düşərdi. Onu evlərinə apardılar, mən gedə bilmədim, getsəydim, valideynləri təəccüblənərdi, bəlkə də, lap şübhələnərdilər, axı, demək olar ki, heç tanış deyildik onlarla. Heç bir şey eləyə bilmirdim. Heç bir şey, yalnız təkcə qalıb ağlamaq gəlirdi əlimdən, o da ancaq atamın gözlərindən uzaq düşəndə. Bütün bu müddət ərzində ağlamağımı bircə dəfə də görmədi. Amma bunları ondan eşitdim – sevgilimin öldüyünü, onu harada tapdıqlarını, bir sözlə, bizim vadidə hamının bildiklərini, hamının danışdıqlarını atam söylədi mənə.

Sonra isə hər şey unuduldu. Axı onu doğma el-obasında tək-tük adam tanıyırdı: neçə illər evlərində olmamışdı. Başqaları kimi torpaqla məşğul deyildi, camaatla doğmalaşmağa macalı olmamışdan öldü. Elə kədərlənirdim ki, ürəyim paralanırdı. Bütün ömrü boyu bir parça torpağa yiyələnib, onu özünün tək qoluyla əkib-becərmək nəsib olmadı zavallıya, amma bunu yaman arzulayırdı.

Mən isə onu unutmadım. Onun xiffətini elə çəkirdim ki, ürəyim parça-parça olurdu, sanki, ölümü həyatımı tamam almışdı əlimdən, hərçənd ki dünyasını dəyişəndə, artıq heç mənimki də deyildi, axı onu daha qabaq itirmişdim, elə öz həyatımı itirəndə, onun mənə məhəbbəti öləndə. İndi isə artıq itirəsi bir şeyim qalmamışdı. Onun barəsində fikirləşməyə bilərdimmi – mənə hər şey vermiş və sonra da hamısını almış, mənə həyatın dadını öz nəhayətsiz mərhəmətiylə tanıdan bir şəxs!

Mən heç vaxt unutmurdum onu. Unutmayacağam da, baxmayaraq ki, o hadisənin üstündən uzun-uzun illər ötüb, hər şey məndən bu qədər uzaqlaşsa da, əslində, həmin günləri mən yalnız qatı duman içində görməliyəm. Amma o, yenə də mənim gözlərim önündədir, sağ-salamatdır, sanki heç ölməyib.

Onu beləcə görüb-xatırlamaq, həmin o həqiqi həyatla yaşadığım dəmləri xatırlamaq nə qədər qəribədir.

Mənim üçün ağır dövr başlanırdı. Öz kədərimi rastlaşdığım insanlardan gizləmək yaman çətin idi. Axı gərək heç kəs bilməyəydi ki, başıma gələn bəladan necə çaşqınlıq içindəyəm. Lakin uşaqlıq çağlarımdan özümü gizləməyə, özümə qapanmağa adət etdiyimdən, deyəsən, bu çətin işin öhdəsindən gələ bilirdim, heç kəs bir şey duymadı. Delfadakı qarıdan savayı, heç kəs. Dəqiqini bilməzdim, amma belə hiss olunurdu ki, o, nədənsə şübhələnib. Onun insanlardan yaxşı başı çıxırdı, axı onların bütün çatışmazlıqlarını aşkarlamaqdan xoşlanırdı, bundan isə baxışları daha iti olurdu, gözündən heç nə qaça bilməzdi.

Payızın axırında, nədənsə, aybaşı olmadım və elə o vaxtdan içimi bir fikir gəmirməyə başladı: bəlkə, hamiləyəm. Bu, ürəyimi qorxu ilə doldururdu və bir də qəribə, cizgiləri tam aydınlaşmamış bir sevinc hissi yaşayırdım. Bu, mənim həyatımı tam dəyişərdi, əgər sağ qalsaydım. Çox şey qaranlıq idi mənim üçün, çox şeyi təsəvvürümə gətirə bilmirdim.

Amma bütün bu tərəddüdlərə baxmayaraq, içimdə, lap dərində, bir sevinc yuva qurmuşdu. Batinimdə bir xoşbəxtlik pusqudaydı, elə sakit ki, onu heç kəsin qulaqları çalmazdı, içimdə olmayan heç kim eşidə bilməzdi onun səsini, amma mənim özümə o, nəsə qeyri-adi şeylərdən pıçıldayırdı, səssiz, lakin israrla, durmadan pıçıldayırdı, görünməmiş şeylər deyirdi – ölüm üzərində çalınan qələbədən. Həm məhəbbətin ölümü üzərində, həm də, ümumiyyətlə, ölüm üzərində qələbədən.

Qımıldanmadan, lap yaxşısı, gözlərimi yumub oturmalıydım ki, eşidim, bətnimin sakit sevincini eşidim – qələbə sevincini. Onu eşidirdim, bax beləcə, sakit oturanda aydın eşidirdim! Sevgilim ölməyib, o, yenə sağdır, mənim bətnimdə yaşayır! O, məni tərk etməyib, o heç vaxt məni tərk etməyəcək, daha heç vaxt atmayacaq.

Mənim məhəbbətim, nəhayət, qələbə təntənəsi gördü və mən onu özümə qaytardım.

Bu, xoşbəxtlik idi, elə böyük xoşbəxtlik ki, ətrafımdakı insanların ondan xəbər tutmamaları mənə qəribə gəlirdi, bu boyda hadisə necə sirr olaraq qala bilərdi axı. Lakin bu, məndən başqa heç kəsin bilmədiyi, yad gözlərdən içimdə gizlənmiş bir sirr olduğundan, xoşbəxtliyim daha böyük, daha qəribə olur, başıma gələn möcüzə daha ağlasığmaz görünürdü.

Təbii ki, narahat idim. Təbii ki, gələcəyim barədə həyəcanla, qorxu içində düşünürdüm. Axı bilmirdim başıma nə gələcək, bütün bunları çox pis təsəvvür eləyirdim, məni gözləyən hadisələr çox mübhəm idi, axı gələcəyim alınmışdı əlimdən, gələcəksiz qaldığımdan artıq tamam azad, tamam qorxu-ürküsüz idim. Bəs indi necə, bu vəziyyətimdə nədənsə qorxurdummu? Özümün yeni, mübhəm vəziyyətimdə. İçimdəki sakit təntənə hər şeyi üstələyirdi: bütün nigarançılıqları, bütün həyəcanları, bütün qorxuları – başımın üstünü kəsdirmiş təhlükəni harasa – reallığın sərhədlərindən çox-çox uzaqlara qovurdu. Yalnız içimdə daşıdığım varlığın reallığını yaşayırdım. İndi mənim üçün yalnız o mövcud idi.

Qış yetişdi, hamiləliyim isə qışın oğlan çağında çiçəklənirdi, lap yay ərəfəsində olan bahar kimi, təbiətin cansızlığından, dünyada heç nədən qətiyyən narahatlıq keçirməyən bahar kimi. Heç kəs heç nə duymurdu, görkəmimdən hələ bir şey bəlli deyildi. Baxmayaraq ki, böyük möcüzə baş vermişdi, amma heç kəs mənim keçirdiklərimdən xəbər tuta

bilməzdi. Lakin iş qarıya qalanda, burada şübhələrim mənə rahatlıq vermir, heç cür beynimdən çəkilmir, getdikcə güclənirdi. Düzdür, mənimlə, həmişəki kimi, gülərüz davranırdı – o, ümumiyyətlə, kiminlə danışırdısa, mütləq gülümsünürdü. Lakin hərdən mənə çox qəribə nəzərlərlə baxır, göz qoyurdu, yalnız qadınlar bir-birinə bu cür göz qoya bilərlər. Bu heç xoşagələn deyildi və məni narahat etməyə bilməzdi. Lakin elə əvvəllər də həmişə mənə baxanda xoşum gəlmirdi, amma özümü sakitləşdirirdim. Baxır, göz qoyur, heç bir şey də demirdi, nədənsə xəbər tutmasına, şübhələndiyinə dəlalət eləyən heç bir eyham vurmurdu. Kaş onun bu cür baxışları olmayaydı...

Baxışlarının nədən məndə belə hisslər doğurduğunu biləcəyim vaxta artıq çox qalmamışdı. Nəhayət, mən anladım ki, o, mənə daim göz qoyurmuş və bu, əslində, onun vəzifəsi imiş, hərçənd ki bu vəzifə onun boynuna düşməsə belə güdükçülüyünü həvəslə yerinə yetirən birisi idi. Öyrəndim ki, pifiyaların bütün məsuliyyəti onun boynunda imiş, o, qadınlara göz qoymalı, Tanrının seçdiyi, ilahiylə yaxınlığından məbəd üçün, bütün şəhər üçün əhəmiyyətli bir fiqur olan kahin qadınları güdməli imiş – onların hər addımına göz qoymalı, davranışına fikir verməli, ən kiçicik şeyləri belə kahinlərə çatdırmaq onun birbaşa vəzifəsi imiş və o, bütün bunları böyük məmnuniyyətlə eləyirdi.

Pifiyalar barədə nəsə bir mühüm xəbər çatdırmaq çox nadir hallarda ona nəsib olurdu, dedikləri, adətən, elementar qeybətdən savayı bir şey olmurdu, bu məlumatlar isə onun özündən başqa bir kimsəyə maraqlı deyildi, indi isə əlinə elə bir məlumat keçmişdi ki, onda olan məlumata görə, indiyədək bu cür hadisə barədə kimsə, ümumiyyətlə, eşitməmişdi, odur ki bu xəbərinə, nəhayət, diqqət yetirəcəkdilər, özü də dəhşət, heyrət içində. Hələ üstəlik də, bu xəbər mənim barəmdə idi, qarı isə hələ məndən o vaxta kimi bircə kəlmə də qopara bilməmşdi.

Nəhayət, hamiləliyimə tam arxayın olandan sonra, görünür, başını bir xeyli çatladası olmuşdu ki, bütün tənhalığıma baxmayaraq, başıma bu iş necə gəlib, axı mən heç kəslə – nə kişilər, nə qadınlarla əlaqə saxlamırdım, ancaq qoca atamın yanına gedirdim. Görəsən, bizim məhəbbətimizin sirrini, vadidəki bütün baxışlardan mübhəm qalmış, yalnız ikimizə aid, başqalarının natəmiz fikirləri və sözlərinin yetişə bilməyəcəyi sirri necə aça bilmişdi. Amma necə olsa da, günlərin birində həm kahinlər, həm də bütün şəhər əhalisi Tanrı əleyhinə görünməmiş cinayətim haqqında eşitdilər. Eşitdilər ki, hamiləyəm, uşağın atası isə bir dəfə müqəddəs zirzəmiyə soxulub onu murdarlamaq istəyən, bəlkə də, Tanrının qiymətli sevgilisini qaçırmaq niyyətində olan həmin o təkqollu oğlandır.

Həmin o adamı, təbii ki, Tanrı artıq cəzalandırmışdı. Mən isə hələ qalmışdım. Mən – ən böyük cinayətkar – qalmışdım. Çünki həmin o oğlan adi adam idi, mən isə ilahinin seçilmişi idim, məni Tanrı seçmişdi ki, ona, onun məqsədlərinə qulluq edim, sədaqətlə, düzgün və fədakarcasına qulluq edim. Mənim, həqiqətən də, məhz bu cür qulluq etməyim, lap cavan yaşlarımdan başlayaraq məbəd və Tanrı üçün yaşamağım, camaatın gözündə orakulla, az qala, bir səviyyədə durmağım, onların öz diliylə desək, Tanrıya mənim dilimlə danışmasına razılıq verəcəyi dərəcədə əziz olmağım, bu məşhurluğumun məbədə və təbii ki, bütün şəhərə mənfəət gətirməsi – indi bütün bunlar ünvanıma irad kimi səslənirdi, bütün bunlar hərəkətimə daha dəhşətli don geyindirir, mənə qarşı qəflətən baş qaldırmış nifrəti isə daha qəzəbli edirdi. Məhz Tanrını təhqir etməyim və aldatmağım, ona xain çıxmağım, onu adi bir oğlana satmağım misilsiz cinayət, heç bir şeylə müqayisəyə gəlməyən biabırçılıq idi.

Ali kahinlər şurasının qarşısında dayandım və soruşdular ki, qarının söylədikləri həqiqətə uyğun ola bilərmi? Bu, onlara ağlasığmaz gəlirdi, mənim barəmdə eşitdikləri,

orakulun kahini kimi məbədə çoxillik qulluğum ərzində yaratdığım xoş təəssüratla qətiyyən uyuşmurdu. Onlar, təbii ki, çox istərdilər, bütün bu söylənənlər yalan olsun. Amma mən hər şeyi tərəddüdsüz etiraf elədim, hələ bu azmış kimi, bütün görkəmimdən də özümü hamiləliyimdən dolayı nə qədər bəxtiyar saydığım açıq bəlli olurdu və məsələnin bu cəhəti onları daha çox heyrətləndirdi, qəzəbləndirdi. Onlar bir-birinin sözlərini kəsə-kəsə öz aralarında danışmağa başladılar ki, bəs bütün bu baş verənlər görünməmiş, ağlasığmaz şeylərdir və məbəd üçün biabırçılıqdır, orakulun böyük şöhrətinə nə boyda zərbədir və ədalət naminə, məni məbədi murdarlayan bir şəxs kimi uçurumdan atmaq lazımdır. Mən isə yaxşı anlayırdım ki, onlar bu cəzanı verəsi deyillər. Bir xeyli danışandan sonra isə üzlərini bir də mənə tutdular və Tanrıdan, onun qarşısında necə böyük günah işlətməyimdən, məbədi, orakulu, bütün şəhəri biabır etməyimdən danışdılar. Axırda isə söylədilər ki, Tanrı bu cinayətlərə görə ən sərt cəza istəyir və bu cəza gün ərzində onlar tərəfindən müəyyən ediləcək.

Lakin məhkəməmdə qərar vermək onların işi deyildi: hökmün çıxarılmasını təxirə salaraq, taleyimi müəyyənləşdirmək imkanını başqalarına verdilər.

Bütün danışılanların həqiqət olduğu, hər şeyi etiraf etdiyim barədə xəbər şəhəri ildırım sürəti ilə dolaşdı və qəzəbli insan kütləsi, oturub hökmümü gözlədiyim evə – qarının evinə sarı axdı. Onlar nizələrlə, daşlarla silahlanmışdılar və ucadan bağıraraq ölümümü tələb edirdilər. Onları kiçik pəncərədən görürdüm, görürdüm ki, bu insanlar bir an da tərəddüd etmədən öz təhdidlərini həyata keçirməyə qadirdilər. Onların dəli nifrətdən əyilmiş, elə bu səbəbdən də bir-birinə bənzəyən sifətləri ikrah doğururdu. Evin içində isə boz siçovulu andıran sifətindəki vəhşi sevincini pis gizlədən qoca qarğa səssizcə var-gəldə idi, özünü elə göstərirdi, guya, mənimçün narahatdır və eyni zamanda da elə hey deyirdi ki,

mən artıq sənə cavabdeh deyiləm, yaxşısı budur, bu evi tərk edib gedəsən, başqa sözlərlə desək, məni bu azğın kütlənin ixtiyarına verməyə məmnuniyyətlə hazır idi. Təbii ki, məni satdığını büruzə vermirdi, mənim də heç həvəsim yox idi, bu barədə məlumatlı olduğumu ona göstərim, odur ki çox güman, elə bilirdi, heç nədən xəbərim yoxdur. Bu, ona əl verirdi, başıma gələn bu bəlada, mənə endirilən sarsıdıcı zərbədə o, özünü tam günahsız saya bilərdi, axı həmişə təkcə ədalətli deyil, həm də mərhəmətli, fağır, ömründə heç kəsə bir pislik eləməmiş, heç kəsin barəsində bəd danışmamış birisi sayırdı özünü, hərçənd ki onun nəzərində ətrafındakılar başdan-ayağa alçaq, yalançı, əclaf adamlar idi.

Bağırtılar və təhdidlər getdikcə daha qəzəblə səslənirdi, kahinlər də heç bir hərəkət eləmirdilər, görünür, mənə hökm çıxarmaq haqqını bu qara kütləyə verməyə məmnuniyyətlə hazır idilər ki, özlərini işin birindən azad eləsinlər. Ətrafında qəzəbli, qana susamış kütlə, içərisində isə arxamca sürünən boz gürzəsi olan bu evdə vəziyyətim dəhşətli idi və artıq buradan sağ çıxacağıma bütün ümidlərim ölmüşdü.

Bax elə yeganə dostum, orakulun xidmətçisi olan qoca da həmin anlarda yanımda peyda oldu. O, səndəllərini bərk taqqıldada-taqqıldada, qaçaraq içəri girdi və nəfəsini zorla dərib söylədi ki, nicatım yalnız məbəddədir, ancaq orada xilas ola bilərəm, çünki məbədin divarları müqəddəsdir və kimsə sənə orada toxuna bilməz, sən orada Tanrıya əmanət olacaqsan. Qoca qarğa bu gözlənilməz müdaxilədən, məbədin bu məqsədlə istifadə olunacağından, ilahinin mənim kimi onu aldatmış, ona xəyanət etmiş bir pozğun qadını qoruyacağından lap dəli oldu. Təbii ki, burada qəribə heç nə yox idi, qarı, ilk növbədə, ona əziz olan orakulun, məbədin dərdinə qalırdı – qorumalı olduğu sərvətinin, hərçənd ki ayaqları oralara, demək olar ki, heç dəymirdi. Məbəddən bu məqsədlə istifadə olunmasına yol vermək olardımı? Fikirləşirdi ki, birdən bu addım pozğun qadını layiqli cəzadan qurtarar! Qabaqlar





onun sifətində heç vaxt nifrət görmək olmazdı – boz, ölü sifətində, sonuncu dəfə baxdığım sifətində – amma indi daha özünü gizləyə bilmirdi.

Qoca xidmətçi isə heç bir şey görmür, həyatımı xilas etmək üçün məni arxasınca çəkib aparırdı. Qarının evi düz məbədin yanında olduğundan ümid vardı ki, camaat mənim qaçmağımdan duyuq düşənə kimi özümüzü məbədə yetirək. Kütlə qapının ağzına toplaşmışdı, yan tərəfdə isə heç kəsin bilmədiyi bir qapı da vardı. Amma biz məbədin pilləlәriylə üzüyuxarı, giriş qapılarına sarı qaçanda, təbii ki, gördülər və dəhşətli bağırtı arxadan bizi təqib etməyə başladı. Kütlə dalımıza düşmüşdü və bir göz qırpımında bütün pilləkəni doldurdu. Biz isə artıq sütunların altından keçməyə macal tapmışdıq, məbəddəydik və indiki kimi yadımdadır: təhlükə və həyəcana baxmayaraq, dostumun məbədə girəndə etdiyi ilk şey səndəllərini çıxarmaq oldu və təbii ki, bu an həyatda hər şeyi unutmuş mənim də ayaqqabılarımı çıxarmağıma nəzarət etdi. Bu, ona xas idi, həm mənim, həm də Tanrının dostuna – hər şeydən öncə bu barədə, müqəddəs məkana daxil olduğumuz barədə fikirləşmək. Elə onun bu müqəddəsliyinə görə biz indi təhlükədən nicat tapmışdıq, əgər, həqiqətən, artıq təhlükə sovuşmuşdusa. Kütlədə isə bu müqəddəs divarlara nəsə bir hörmət hiss olunmurdu – camaat qışqırıqlarla içəri soxuldu və mən məbədin dərinliklərində zorla gizlənə bildim. Onlar dəli kimi bağırırdılar ki, Tanrını bu pozğundan, ilahini və bütün şəhəri biabır edən fahişə kahindən indicə xilas edəcəklər.

Amma bu yerdə fağır xidmətçi qoca birdən elə dəyişdi ki, gözlərimə inanmadım. Ondan heç vaxt eşitmədiyim uca və qətiyyətli səslə bəyan elədi ki, bura Tanrının müqəddəs məkanıdır və zor işlətmək üçün məbədə soxulan hər bir kəs ölümünü ilahinin öz əlindən qəbul edəcək. Məbədə sığınan hər kəsi qüdrətli Tanrı özü qanadları altına alır.

– Yoxsa siz bunu bilmirsiniz? – o, bərk qəzəblə soruşdu.

Qara camaatdan ibarət, sifətləri həyəcandan ikrahdoğurucu həddə qızarmış kütlə eşitdiyi, həqiqətinə şübhə ilə yanaşmadığı – axı onsuz da bilirdilər bu həqiqəti – bu sözlərin təsirindən geri axdı. Onlar dala, sütunların yanına qayıtdılar, lakin qocaya elə gəldi ki, bəziləri geri çəkilməyə tələsmirlər və o lap əsəbləşdi, həmişə girəcəkdə qoyduğu süpürgəsini qapıb, onları zibil kimi süpürərək məbəddən çıxardı. Məbədi təmiz saxlamağa cavabdeh bir şəxs kimi.

Hamını bu üsulla çölə çıxarıb, özü isə sütunların altında qaldı ki, yenidən içəri soxulmaq istəyən olsa, qarşılarını kəsə bilsin. Görünür, öhdəsindən gələ bilmişdi, çünki məbəddə daha kimsə görünmədi, kütlə hətta hiss ediləcək dərəcədə sakitləşmişdi də, mən yalnız bir uğultu eşidirdim və hərdən də ayrı-ayrı adamların qışqırtısını.

Məbəddə tək idim. Tanrının mühafizəsi altında, tək. O, məni rədd etmədi, ona məxsus olduğumu hələ tam unutmamışdı. Mənə qoynunu açdı. Mənə qoynunu açdı və gündüz işığı ilə aydınlanan məbədində qəbul elədi. Özünün misilsiz şəninə ucaldılmış məbəddə, ona sonadək qulluq etmək mənə qismət olmayan məbəddə. Nəhayət ki, məni burada qəbul elədi.

Qəribədir. Məbəddən kənarda mənə divan tutmaq üçün, bəlkə də, lap öldürmək üçün qara camaatın toplaşdığı bu ağır anlarda qəflətən təntənəli bir hüzur tapdım – o, nəhayət, mənə öz hüzurundan pay verdi, ilahidən neçə dəfələrlə iltimas etmişdim bunu, amma heç vaxt verməmişdi. Nəhayət ki, nə vaxtdan bəri ondan yalvarıb istədiyim sakitliyi, rahatlığı duydum, nəhayət ki, o, mənə öz ağuşunda dinclik verdi. Başa düşürdüm ki, bu, vur-tut bir anlıqdır, çox yox, axı mənim taleyim artıq həll olunmuşdu. Yenə də çox xoşbəxt idim.

Ətrafımdakı hər şeyi, anamla birlikdə ilk dəfə bura gələndə Tanrıya burada qulluq edəcəyimi biləndə olduğu kimi riqqətlə, sevinclə nəzərdən keçirirdim. Bu arzuya çin olmaq

nəsib deyilmiş. İndi isə o, məni burada, özünün əsl məbədində qəbul edirdi və elə burada da mənə sığınacaq, sakitlik bağışladı – indi, ölüm təhlükəsini aşkar gördüyüm bir anda. Mən onun yaxınlığını hiss edirdim, bəlkə də, həmişəkindən daha çox, lakin indi o, mənim üçün yandırıcı alov deyildi, işıq idi. Mən onun nurunun üzümdə necə dolaşdığını duyurdum və bəxtiyarlıqdan qapadığım gözlərim göz yaşlarından yanırdı.

Bu qəddar, anlaşılmaz Tanrı indi mənim üstümə özünün bütün nurunu, bütün rahatlığını səpirdi. İndi, elə bir vaxtda ki, artıq hər şey bitib və mən məbədi əbədilik tərk etməliyəm. İndi o, öz sakitliyini mənə bir anlıq vermişdi, yalnız bir anlıq, divarın o üzündəki boğuq səslər isə məbədin ona məxsus sükunətindən, dincliyindən ötüb məni çağırır, məni tələb edirdi.

Həmin dəqiqələri heç vaxt unutmaram. Bu hissləri yaşamaq imkanı verdiyinə görə keçirdiyim minnətdarlığı unutmaram. Həm də heç vaxt anlamaram ki, o, indi mənə qarşı niyə belə olmuşdu, niyə belə olmalıdır.

Bəlkə də, mənə elə bu kömək elədi ki, bütün gücümü toplayıb məbədi tərk edim, baxmayaraq ki, kütlə hələ də bayaqkı kimi dayanıb sığınacağımdan çıxmağımı gözləyirdi. Bilmirəm, bu addımı atmağa məni nə vadar elədi – bəlkə, bu, elə Tanrının təlqini idi, bəlkə də, əksinə, içimdə gizlənmiş itaətsizlik, ona qarşı qiyam, özünütəsdiq istəyi; bu, sirli, qəlbidaş ilahiyə meydan oxumaq idi. Ya, sadəcə, qürur hissiydi, ölümə nifrət idi, məni öldürməyə toplaşmış kütləyə nifrət idi bu. Hər necə olsa da, mən etibarlı sığınacağımı tərk edib, öz taleyimə, həyatıma, ölümümə tərəf getdim. Axı məbəddə də ömürlük qalmaq olmazdı, gec-tez, mütləq çıxmalıydım oradan. Orakulun xidmətçisi olan qoca görəndə ki, səndəllərimi geyinirəm, niyyətimi başa düşdü və yaman qorxdu. Məni pıçıltıyla bu dəlilikdən daşınmağa çağırdı. Mən isə artıq qərarımı vermişdim, onun yalvarışlarına baxmayaraq, fikrimi dəyişmədim.

Əvvəlcə sütunların altına çıxdım, sonra da pillələrlə enməyə başladım, hamı heyranlıqdan donmuşdu. Onlar elə çaşmışdılar ki, özlərinə gələ bilmirdilər, heç söyüb-təhqir də etmədilər məni, yalnız dinməzcə aralanaraq yol verdilər. Görünür, indi onların qarşısına çıxandan, məni yaxından görəndən sonra qorxu düşmüşdü canlarına, məndən pifiya olduğum bütün illər ərzində qorxduqları kimi qorxurdular, – axı onda Tanrıya daha yaxın idim, onun ruhunu qəbul edir, onun əsiri olurdum. Yəqin, insanlar fikirləşirdilər ki, ilahi məni lənətləsə də, içimdə hələ də Tanrının gücü yaşamalıdır, qoy lap dəhşətli lənət şəklində olsun. Bu, onları qorxudur, mənə yaxın gəlmələrinə imkan vermirdi. Həm də, yəqin, bu hərəkətimin özündən də qorxmuşdular, məbəddən çıxmağa, onların arasında görünməyə özümdə cürət tapdığımdan, bunu heç bir ehtiyac olmadan etdiyimdən qorxmuşdular. Bu anlaşılmaz idi, adi adam belə iş tutmazdı və mənim bu addımımda qeyri-insani nələrinsə izini görürdülər.

Onlar məni didib-parçalamağa hazır idilər, fikir-zikirləri yalnız bu idi, lakin gözləri nifrətdən alışıb-yansa da, ehtiyatı əldən verməyərək, xeyli aralı durmuşdular.

Pillələrdən endiyim, müqəddəs yola çıxmaq üçün məbəd meydanından keçdiyim müddət ərzində qabağımdan çəkilib yol verirdilər – sərsəmləmiş, əlində nizə, dəyənək, daş olan, amma mənə əl vurmağa cəsarət eləməyən iki cərgə insanın arasından keçirdim. Lakin bir az aralıda duranlar yavaş-yavaş səs-küy salmağa başlamışdılar, çığırışırdılar və tezliklə hər tərəfdən mənim üzərimə təhqirlər, söyüşlər yağmağa başladı, qadına demək mümkün olan ən kobud sözləri eşitdim, hamiləlik üçün çox yaraşmayan yaşım barədə də kinayələr yağırdı. Onlar öz qanuni narazılıqlarını, şəhəri, məbədi, Tanrını – bu insanlar gözlərini açandan nəylə yaşayırdılarsa, hamısını – biabır etmiş, Delfa və orakullara başıaşağılıq gətirmiş, həm zəvvarların sayını, həm də onların gəlirlərini azalda biləcək bir addım atmış qadına nifrətlərini bildirmək

üçün heç nədən qızırqanmırdılar. Onların sifətləri qeyri-təbii həyəcandan qıpqırmızı olmuşdu və mən də bu adamların bir çoxunu tanıyır, içimdə dərin nifrət hissi yaşayırdım, axı onların hamısı yerli idi, ilin bu vaxtı Delfada yad axtarmaq əbəsdir. Qadınlar və kişilər müxtəlif rütbəli, bütün təbəqələrdən olan tör-töküntü dəstəsində bir-birinə qarışmışdılar, özü də qadınların sayı kişilərdən çox idi, amma mənə elə gəlirdi ki, məhəbbətim naminə elədiklərimi qadınlardan – bacılarımdan yaxşı kimsə anlaya, bağışlaya bilməzdi. Törətdiyim cinayətin adı onların dilində məhəbbət deyilsə, bəs nədir!

Bu murdar sifətlər məndə insanlara qarşı – bu adı daşıyan murdar məxluqa qarşı əbədi nifrət oyada bilərdi, əgər sağlam şüurum nələrisə pıçıldamasaydı, həqiqətin bundan ibarət olmadığını söyləməsəydi. Lakin onda həqiqət – təhlükəli, qəzəbli həqiqət elə mənim gözlə gördüklərim idi, başqa heç nə.

Onlar addımbaaddım dalımca gəlirdilər, yaxınlaşır, ara vermədən çığırıb söyüş söyürdülər. Amma əl vurmağa cəsarətləri çatmırdı: qorxurdular. Bəlkə, səbəb həm də onda idi ki, mən müqəddəs yolla irəliləyirdim. Axı bu yol da məbəd kimidir – burada da sakitliyi pozmaq, zor işlətmək olmaz. Yəqin, qorxuları da hələ tam çəkilməmişdi, qoca xidmətçinin sözlərindən yaranmış xof.

Yol burulanda arxaya çöndüm ki, dostumu, mənə yaxşılıq arzulayan yeganə adamı sonuncu dəfə görüm – o, hələ də məbədin pillələrində durmuşdu, əlində də süpürgəsi, dalımca baxır, ağlayırdı. Mənim də ürəyim pis oldu və göz yaşlarımı zorla uda bildim. Bir an sonra artıq o görünmürdü və o dəqiqə özümü nəhayətsiz dərəcədə tənha, lap yetim hiss elədim.

Bu müqəddəs yolla mən indi bu cür gedirdim. Bir zamanlar, mənim yeniyetmə çağlarımda, ilahinin nuruyla işıqlanmış sabahların birində bu yolla heyranlıq içində, gəlin kimi bəzənərək, ürəyimdə Tanrı məhəbbəti məbədə doğru

irəliləyirdim. İndi isə sonuncu dəfəydi ki, bu yola ayaq basırdım və başlanğıcdakından indi nə qədər fərqli idi bu yol! Hədələr, təhqirlər başıma yağırdı və mən bilmirdim ki, daha hansı dəhşətlərə məruz qalacağam, amma nə qədər qəribə olsa da, tamam sakit idim. Elə məbəddəki kimi sakit. Lakin indi bu sakitlik özümün qazandığım, öz əziyyətimlə nail olduğum sakitlik idi. Ya elə deyil?

Mənim indiki vəziyyətimdə belə sakit qalmağım onlara qeyri-təbii gəlirdi və bir az da elə bunun özündən qorxurdular, mənə – öz pifiyalarına əl qaldırmağa, payadan, dəyənəkdən istifadə eləməyə cürətləri çatmırdı. Bir də ona görə ki, mənə, içində hələ də əzəmətli bir güc uyuyan birisinə toxunmaq qorxulu idi onlar üçün. Lakin müqəddəs yol bitəndə mən üzüyoxuşa, dağa dırmanmağa başladım, bax onda dəhşətli bağırtılar ucaldı, arxamca daş-kəsək yağdı. Onların bəziləri çatırdı mənə, lakin zərbələr öldürücü deyildi, heç, deyəsən, təqib eləyənlərin də məni öldürmək fikri yox idi, qətlə yetirməyə qətiyyətləri çatmazdı, yalnız şəhərdən qovmaq istəyirdilər. Lakin daşların biri düz peysərimdən dəydi və zərbənin gücündən yerə yıxıldım, bir müddət qalxa bilmədim. Bir az keçəndən sonra durdum və dağa aparan cığırla dırmanmağıma davam etdim. Onlar isə dalımca gəlmədilər, aşağıda durub, lənətlərini yağdırır, qışqırışırdılar, hədələyirdilər ki, ayağım bir də Delfaya dəysə, özümdən küsüm.

Onlardan aralanan kimi, məni daha görə bilməyəcəkləri yerə çatan kimi əyləşdim ki, bir az nəfəsimi dərim. Mən xilas olmuşdum. Bir neçə yerimdən qan axırdı, ən çox da peysərimdəki yaradan: əlimlə onu sıxanda ovcum qanla dolurdu, bədənim də qançır idi başdan-ayağa. Amma sağ-salamat idim, həyatımın hansı təhlükələrə məruz qaldığına baxanda gözlənilməz dərəcədə yaxşı qurtarmışdım canımı.

Ən çox, bilirsiniz, nədən qorxurdum – qorxurdum, məni elə şikəst edələr ki, bətnimdəki körpəni dünyaya salamat

gətirə bilməyim, elə zədələr alam ki, hamilə qadın üçün böyük təhlükəyə çevrilə. Bu baxımdan daha narahat olmaya bilərdim, mənə heç nə olmamışdı. Qüvvətli bədənim çoxlarını sındıra bilən bu qəddar sınaqdan da üzüağ çıxmışdı, ruhum isə öz sakitliyini möhkəm qoruyurdu. Əgər Tanrının məndəki bu sakitliyə bir dəxli var idisə, əgər bu müvazinət yalnız mənim öz iradəm bahasına deyildisə, ona minnətdaram. Görünür, o da mənim nicatım üçün, deməli, həm də körpəmin nicatı üçün az iş görməmişdi. Amma Tanrının məni və körpəmi xilas etməsi məgər mümkün idi?

Təbii ki, xilaskarım, ilk növbədə, həmin o qoca idi – orakulun xidmətçisi. O olmasaydı, bu dəhşətli günü yaşayıb başa çıxa bilməzdim, həmin axşam mən bu barədə fikirləşərək, ətrafıma göz gəzdirir, ilk gecəmi açıq havada başa vurmağa hazırlaşırdım. Dağın sərt yamacındakı çökəklikdə, heç bir insan məskəninin görünmədiyi, yalnız yamacların və ulduzların göründüyü yerdə, elə torpağın, yığdığım yarpaqların üstünə uzanıb yatmağa hazırlaşanda da onun barəsində düşünürdüm. Bu tənha dəqiqələrimdə onun barəsində, yeganə dostum haqqında fikirləşirdim və bu fikirlərimdən ovqatım yüksəlirdi.

Görəsən, o, necə baxır mənim cinayətimə, bütün elədiklərimə? Mən axı bu barədə heç nə bilmirdim. O, mənə kömək elədi, məni xilas elədi, sona kimi mənim tərəfimdə durdu. Lakin bütün şəhəri ayağa qaldırmış bu hadisə barədə, mənim günahlarım barədə qənaətlərini, nə fikirləşdiyini heç bilmədim. Biz bu barədə kəlmə də kəsmədik, əslində, heç fürsət də olmadı buna.

Çox güman ki, mənim nəsə bir cinayət törətməyim heç onun beyninə sığışmamışdı. İnsanda pis bir cəhət görməyə qadir olmadığından, o heç vaxt heç kəsi ittiham eləmirdi. Kimisə qınamaq, əslində, ona tamam yad idi.

Bəs indi onun insan mərhəmətinə inamı necə olacaq, bu gün şahidinə çevrildiyi, etirazının partlayışına səbəb olan

hadisələr bu qocanın inamına – Tanrıya, insanlara inamına necə təsir edəcək? Onun dünya haqqında təsəvvürlərini alt-üst etməyəcək ki, görəsən?

Yox, ümid edirdim ki, həyatını qarışdıran bu hadisəni tez bir zamanda unudacaq və yenə də əvvəlki adam olacaq, yenə də insanlarda yalnız yaxşı cəhətlər görəcək, elə öz təbiətinə xas cəhətlər. O məhz belə olmalıdır – Tanrının və bütün insanların dostu, mən də yaddaşımda onu məhz bu cür saxlamaq istərdim.

Ürəyimdə bax bu ümidlə sakitcə yuxuya getdim.

Gecə bir neçə dəfə soyuqdan oyandım və günəş çıxanda sevindim, yalnız günəş çıxandan sonra canım bir az qızdı. Qışın ortası idi, gecələr yaman soyuq olurdu.

Amma, ümumiyyətlə, həmin qış kifayət qədər yumşaq keçdi. Bu, yaxşı idi, yoxsa dözə bilməzdim. Yaşamaq çətin idi, acından ölməmək, gecənin soyuğuna dözmək. Mən mağaralarda sığınacaq axtarırdım, bəzən də çobanların tərk etdiyi daxmalarda qalırdım və ilk vaxtlar ancaq dağdan tapdığım köhnə, qurumuş, yarıçürük giləmeyvələrlə, piniya qozalarının toxumlarıyla – bir sözlə, nə tapırdımsa, onunla da qidalanırdım, təki mənə güc verəydi, özümü tox hiss edəydim. Heç adlarını da bilmədiyim bu giləmeyvələri tapmaq üçün nə qədər gəzirdim. Amma zaman keçdikcə artıq bir az cəsarətli, çevik olmuşdum, aclıq, bətnimdəki körpənin taleyi məni buna vadar edirdi, istəyirdim o sağ qalsın, mənim daimi aclığımdan xətər görməsin. Başladım rastıma çıxan keçiləri sağmağa, dağda keçi görən kimi tovlayıb sağırdım. Südünü də çoban daxmasından tapdığım cama yığırdım, sonra da acgözlüklə içirdim. Getdikcə başqalarının keçiləriylə daha usta davranmağı öyrənmişdim, axı mənim özüm üçün, balam üçün süddən gözəl qida ola bilməzdi. Hətta çobanlardan pendir, çörək oğurlamağa belə cəsarət edirdim: yaxınlıqdakı kolların, ya da daşın dalında gizlənir, gözləyirdim ki, çıxıb getsinlər, sonra da içəri girib işimi görürdüm. Elə keçi dərisini də beləcə

ələ keçirmişdim, gecələr bürünüb, qızışırdım. Mən əlimə keçəni oğurlayırdım, heç bir vicdan əzabı çəkmədən uşağımın yolunda nəyə desən gedərdim, balamızın yolunda, ikimizin balasının – axı bu, məhəbbətimizin bəhrəsi idi, onun məhəbbətinin ölmədiyinə, mənim bətnimdə yaşadığına, sevgilimin hələ də sağ olduğuna – mənim içimdə yaşadığına sübut idi.

Mən vəhşi bir məxluq kimi yaşayırdım, dağ heyvanı kimi dağların qoynunda – insanlar tərəfindən qovulmuş, həyatdan qovulmuş kimi – yaşayırdım, buna məcbur idim və əldən düşmüş, balasının dünyaya gəlişini gözləyən heyvan kimi özümün və bətnimdəki balamın sağlığını təmin eləmək üçün heç bir imkandan vaz keçmirdim. Mən insan yaşayan yerlərdən cidd-cəhdlə uzaq dururdum, onlarla görüşməkdən qaçırdım. Onsuz da yaxşı heç nə gözləmirdim adamlardan və daim qorxurdum, çalışırdım ki, çobanlar məni görməsinlər. Yəqin, onlar da mənə bir pislik etməkdən daşınmazdılar, axı onlar da adam idilər.

Amma hər şeyə rəğmən, mən onda xoşbəxt idim. Azadlığımla xoşbəxt idim, belə bir həyata dözən bədənimdəki sağlamlığımla xoşbəxt idim. Bədənim, sanki, məhrumiyyət və əzablardan bir az da güclənir, bir qədər də dözümlü olurdu, artıq hər şeyə tablaşmağa qadir idi. Bir də ona görə xoşbəxt idim ki, dünyaya gətirəcəyim, ürəyimin altında gəzdirdiyim körpə, sevgilimdən yadigar idi mənə. Onun bətnimdə yaşamasını, necə tərpənməsini daim hiss edirdim və bu, içimi misilsiz bir xoşbəxtliklə doldururdu. Tənha və hamı tərəfindən rədd edilmiş olsam da, bəlalar, həyəcan, aclıq və soyuq görsəm də, ana olmağın misilsiz xoşbəxtliyini tam mənasında dadmışam.

Nəhayət, bahar yetişəndə, hər şey xeyli asanlaşdı, hər halda, ürəyim rahatlandı bir az. Daha üşümürdüm və tezliklə bütün başqa heyvanlar kimi, mənim üçün də yem yetirəcəkdi təbiət. Artıq təzə, sulu otlar tapırdım, heç şübhəsiz, sağlamlıq üçün faydalı idi onlar, hərçənd ki qarnımı yalnız otla

doyurmaq çətin idi, keçilərin südü isə artıq gözgörəsi qəlizləşmişdi. Onları tovlamaq çətin deyildi, çox vaxt elə özləri yaxınlaşırdılar ki, sağım, bəlkə də, artıq tanıyırdılar məni, ya da onları qadın əli sağanda xoşlanırdılar. Hərdən lap dalıma düşürdülər, addım-addım izləyirdilər məni. Onda heyvanları ürküdüb qovası olurdum, çünki qorxurdum ki, çobanlar məni görərlər. Heç əvvəllər rastlaşmadığım keçilər də bəzən dalıma düşürdülər.

Onda mən ilk dəfə hiss elədim ki, heyvanları nəsə cəlb eləyir məndə, hərçənd əvvəl-əvvəl bu, mənə heç qəribə gəlmirdi, əksinə, təbii sayırdım.

Dağlar cürbəcür çiçəklərlə rəngləndi və gecələr uzanıb məstedici rayihələrini sinəmə çəkəndə ürəyim onun xiffətindən sıxılırdı, axı bir zamanlar baharın möcüzəsini onunla dadmışdım. Cismimin yeganə baharının.

İndi sağ olsaydı, görəsən, harada olardı? Daha pifiya deyildim, onun balasını gəzdirirdim bətnimdə, görəsən, qayıdardı yanıma? Bu həyatı birlikdə yaşayıb xoşbəxt ola bilərdik?

Mənasız fikirlərdir! O ölüb. Artıq yoxdur həyatda və bir də olmayacaq. Onu çayda bənizi solmuş, bir qətrə qanı qalmamış, həyatın bütün çalarlarını itirmiş, tək əlində Tanrının müqəddəs budağını sıxmış halda tapmışdılar. Vəssalam. Bu, həmişəlik belədir.

İnsanın yalnız bir taleyi olur. Onun sonuna yetdinsə, daha heç nə qalmır.

Yalnız ilahilərin çoxlu taleləri olur və ölümün nə olduğunu da bilmirlər. Onlar hər şeyi qabaqcadan görür, hər şeyi sınayırlar. Hər şeyi – insan xoşbəxtliyindən savayı hər şeyi. Təkcə onu yaşamaq nəsibləri deyil, elə buna görə insanların da əlindən almaq istəyirlər bunu. Heç nə xoşbəxt olmağa cəsarəti çatan, adi insani xoşbəxtlik naminə Tanrısını unudan adam qədər qəzəb, kin oyatmır onlarda. İntiqamlarını onda alırlar. O da öz müqəddəs ağacının budağını qurbanının tək ovcuna qoydu.

Hərdən, lap sakit gecələrdə mənə elə gəlirdi ki, dərədə axan çayın səsini burada – dağlarda da eşidirəm. Dəhşətli gurultusu ilə bizim məhəbbətimizi qarabaqara izləyən və sonra da öldürücü zərbəsini vuran, qəddar qisasını alan çay. Yenə bahardır, vəhşi uçurumun dibindəki su, yəqin, xeyli artıb və səsinin hətta bura yetişməsində qeyri-adi heç nə yoxdur.

Axı ola bilməzdi ki, bu səsi öz içimdə eşidim.

Yox, mən bu səsin məhz uçurumun dibindən gəldiyini aydın seçirdim. Çiçəklərin arasında tək-tənha uzanmışdım və o çayı eşidirdim – sevgilimin qanını sümürüb aparan qəddar çayı.

Hə, o bahar mənim üçün daha sevincli və eyni zamanda, bütün tənha sevənlər üçün olduğu qədər ağır idi. Tənha? Mən ki heç tənha deyildim, necə dilim gəldi bunu deməyə! Axı mənim içimdə, mənim bətnimdə sevgilim yaşayır, məhəbbətim yaşayır, ölümə də, öz sonuna da qələbə çalmış məhəbbətim. Tanrıya qələbə çalmış məhəbbətim! Bu qənaət nə qədər ötkəm olsa da, həqiqət idi. Nahaq yerə ilahi sevgilimin həyatını əlindən aldı, nahaq yerə qanını çayda apardı. O, yenə də mənim içimdə yaşayırdı, mən ona təzə qan vermişdim, ürəyimin isti qanını, mənim məhəbbətimi oyadan qanımı, insan məhəbbətinin qanını, ilahilər üçün müəmma olaraq qalan qanı.

Bax belə alındı. Bizimlə Tanrı arasındakı mübarizə belə bitdi.

Sonra yay gəldi – mehriban, sakit, gül-çiçək əyyamı, məhsul şirəyə dolan, yerin bətni sevinən dəm. Əzəmətli dağların arasındakı bütün vadi şirəyə dolan həyatla doluydu və burada, yuxarıda bitməyə qadir olan nə vardısa, qol-budaq atırdı. Ətrafda hər şey nurlu, sevindirici idi, sakitlik və ümid vardı hər şeydə. Mən də sakit və işıqlı arzuların ağuşundaydım, baxmayaraq ki, nigarançılıq çəkməliydim – doğuş necə keçəcəkdi, bacaracaqdımmı bunu, özümü və balamı doyura biləcəkdimmi... Gələcəkdən nigaran qalası bir adam vardısa,

o da mən idim, amma nigaran qalmırdım. Özümə bir az da bu suallarla əzab verməyin heç yeri deyildi! Mən yaxşıya ümidli idim və heç nədən nigaran deyildim, bətnində uşaq gəzdirən qadın bəs necə olmalıdır? Mənim cantaraq bədənim yöndəmindən çıxmışdı, amma buna baxmayaraq, elə əvvəlki kimi, cəld idim, axı bütün ömrümü hərəkətdə keçirmişdim. Fikirləşirdim ki, doğmağa hazırlaşan dişi heyvan əgər qarnını doyurmağın qeydinə özü qalırsa, çox asan balalayır. Və inanırdım ki, məndə də belə olacaq. Bu barədə haradan biləydim axı?!

Getdikcə hava lap isinirdi, yayın oğlan çağı idi və mənə elə gəlirdi ki, lap bu yaxın günlərdə doğmağımın vaxtıdır. Amma vaxt yetişmək bilmirdi. Elə hey gözləyirdim, gözləyirdim, doğuş isə başlamaq bilmirdi ki, bilmirdi. Mən şübhələr içində itirdim, bu, necə ola bilər axı? Belə çıxırdı ki, vaxtımdan ötüb. Amma nə qədər ötdüyünü dəqiq bilmirdim. Təbii ki, mən sonuncu, lap sonuncu dəfə bir yerdə olduğumuz günü xatırlayırdım... Yox, yaxşısı budur, bu barədə heç düşünməyim, dözə bilmirəm... Yaxşısı budur, balamızın tezliklə dünyaya gələcəyi barədə düşünüm, məhəbbətimizin meyvəsi barədə fikirləşim. Ömrün ən gözəl çağlarının xatirələriylə yaşamaq yaxşıdır, bir-birimizi hərarətlə sevdiyimiz çağların xatirələriylə. Bu sevgi hər şeyə qələbə çaldı. İndi isə mən balamızı dünyaya gətirəcəyəm, məhəbbətimizin meyvəsini, ölmüş, qurban getmiş sevgilimin balasını – bizim qələbəmizi, ölüm üzərində qələbəni. Tanrı üzərində qələbəmizi.

Amma doğuş vaxtım yetişmirdi ki yetişmirdi. Mən elə hey gözləyir, gözləyirdim – amma doğmaq bilmirdim.

Yay da davam edirdi, istilər də, hava getdikcə lap dəhşətli, əzici, dözülməz olurdu, yalnız gecələr hərdən sərin meh əsirdi, sərinlik başı daim qarlı dağlardan aşağı enəndə.

Həmin ildəki kimi isti yayı ömrüm boyu görməmişdim və təbii ki, mənim vəziyyətimdə isti adama lap əziyyət verirdi, böyük, ağırlaşmış qarnım yorurdu məni, amma əvvəl belə

deyildim, indi yorulurdum. Bir az da şişmişdim, adama elə gəlirdi ki, bundan artıq şişmək olmaz daha, yəqin, doğuşa lap az qalırdı. Amma doğuş yetişmək bilmirdi. Sanki, bu uşağı heç vaxt doğa bilməyəcəkdim.

Axı doğuş bu qədər necə gecikə bilər? Heç nə anlamırdım. Yəni vaxtından bir belə ötmüş ola bilərdi?

Lakin bir dəfə istidən əldən düşüb uzananda, nəhayət, hiss etdim ki, tutmalarım başlanır. Əvvəlcə lap zəif, amma az sonra çox güclü tutmalar tezləşir, getdikcə daha ağrılı olurdu. Günəş insafsızcasına yandırırdı, közərmiş şüaları bədənimi dəlib keçirdi, elə bir bürkü vardı ki, nəfəs almaq olmurdu, amma, bəlkə də, bu, mənə belə gəlirdi. Qəflətən rəngli buludlar səmanın cənub guşəsində göründü və sürətlə yaxınlaşmağa başladı. Bütün yay ərzində ilk dəfə idi ki, deyəsən, şimşək çaxacaqdı. Vadinin rəngi boğuldu, buludların dəhşətli kölgələri yerlə sürünməyə başladı və onun ön xətti sürətlə mənim olduğum yerə yaxınlaşırdı. Birdən şimşək səmanın bağrını yardı, günəşin parlaq işığına baxmayaraq, şimşək görünürdü və bir an sonra da boğuq gurultular eşidildi.

Mən buna hazır deyildim, bunu heç gözləmirdim. Fikirləşirdim ki, açıq havada doğacağam, harada gəldi, amma heç güman eləməzdim ki, qapalı yer gərəyim ola. Nə edim görəsən? İndicə başlanacaq leysanın altında doğmaq olmaz axı, şimşək də çaxır, dağlarda isə ildırım o qədər tez-tez vurur ki adamı...

Ayağa qalxıb, ətrafıma göz gəzdirdim. Amma daldalanmalı bir yer görmədim, yaxınlıqda bircə dənə ağac da yox idi. Ətrafa baxa-baxa enişaşağı getməyə başladım. Tutmalarım lap güclənmişdi, ağrı məni bururdu, qarnımdan möhkəm yapışıb ikiqat olmuşdum, elə beləcə də gedirdim. Bunun axırı nə olacaq – fikirləşirdim. Hara gedim, balamı harada doğum?

Elə həmin an keçilər peyda oldu. Qabaqlar görmədiyimdən məni tanımayan keçilər. Mənə elə gəldi ki, onlar vəhşi

keçilər idi. Lakin, elə bil, anlayırdılar dərdimi və mən inildəyəndə yazıq-yazıq mələyib şikayət dolu səslər çıxarırdılar – qəribə, qeyri-adi, az qala, insan səsi. Keçilərdən bir neçəsi sürətlə üzüyoxuşa qaçmağa başladılar, eyni istiqamətdə, sonra isə yenidən yanıma qayıtdılar, sanki, məni dallarınca getməyə çağırırdılar. Üzüyuxarı dırmanmaq lazım idi, onların dalına düşmək mənə asan deyildi, amma getdim, inamsız addımlarla və azacıq səntirləyərək; elə bil, məni kimsə məcbur eləyirdi buna. Hərdən bircə dəqiqəlik dayanmalı olurdum, tutmalarım çox ağrıdanda; heyvanlar da, sanki, anlayırdılar məni, ayaq saxlayır, özümə gəlib yoluma davam eləyənə kimi gözləyirdilər. Yamac lap dikəlmiş, az qala, sıldırım olmuşdu, fikirləşdim ki, bu yoxuşu daha qalxa bilmərəm. Lakin mənim tərəddüdlərimi görən kimi, heyvanlar elə şikayətlə bəyirişdilər ki, cəsarət eləmədim xətirlərinə dəyim və bütün halsızlığıma rəğmən, uçurumun kənarıyla onların dalınca dırmanmağa başladım. Bu hərəkətimə aşkar sevindilər, səs-səsə verib ucadan bəyirməyə başladılar, sevinclərini belə ifadə edirdilər deyəsən.

Arxada şimşəyin necə dəhşətlə çaxmasını eşidirdim, dəhşətli leysan vadidən qalxaraq getdikcə daha da yaxınlaşır, göy gurultusu bütün ətraf dağları titrədirdi və kol-kosdan tuta-tuta, birtəhər dırmaşırdım qayaya, ətrafımda isə dalbadal çaxan şimşəklərin işığını görürdüm.

Nəhayət, tamam əldən düşmüş halda, keçilərlə bir yerdə qayanın çıxıntısına dırmandım, kiçik, amma kifayət qədər düz meydança idi və elə yağış məni haqlayanda düz qarşımda dağın içinə gedən bir mağara gördüm. Keçilər cəld sivişirdilər içəri və mən də, sanki, duman içində ləngərləyərək onların dalınca getdim.

İçəridə, demək olar ki, tamam qaranlıq idi, hər halda, gözlərim öyrəşənə kimi, amma elə sonra da mağaranın nə boyda olduğunu görə bilmədim, həqiqətən, qaranlıq idi. Mənə elə gəldi ki, o, çox böyükdür, uzaqküncü haradasa

zülmətdə itirdi. Qatı keçi iyi burnuma vurdu – sonra daha heç nə eşitmədim, heç bir şey görmədim, gücsüz halda nə vaxtdan bəri mağaranın yerində yığılmış qupquru keçi qığının üstünə yıxıldım. Onların üstündə uzanmaq pis deyildi, yumşaqdı və yerim mənə çox rahat gəldi.

Görünür, mən bir müddət huşumu itirmişdim. Özümə gələndə, keçilər məni sıx dövrəyə alıb gözləyirdilər, qorxa-qorxa, halıma yanırmış kimi baxırdılar. Özümə gəldiyimi görəndə yazıq-yazıq bəyirdilər. Elə həmin dəqiqə də dəhşətli tutmalardan, əvvəlkilərə qətiyyən bənzəməyən tutmalardan qıvrılaraq heyvani səslə bağıranda susdular, qorxub dal-dala çəkildilər, amma sonra yenə qayıtdılar yanıma və başladılar şikayətlə inildəməyə, qəribə, uzun, üzücü səslər çıxarmağa, mənim bağırtılarım kimi, ucadan olmasa da, kədərli, həzin, dilsiz-ağızsız heyvanın şikayətini bildirən qəribə səslər və mən elə bu səslərə görə bir belə ağrının, əzabın içində özümü tək hiss etmədim. Onlar mənim ağrımı bölüşürdülər, hərçənd ki, bunu başqa cür, insan kimi göstərə bilmirdilər, heç mənim özüm də artıq dözülməz ağrıdan adam kimi zarımırdım, odur ki biz indi eyni dildə danışır və bir-birimizi gözəl başa düşürdük.

Tutmalar artıq o qədər tezləşmişdi ki, onların arasında, elə bil, heç fasilə yox idi, nəfəsimi dərməyə zorla macal tapırdım, ağrılarım isə o dərəcədə dözülməz idi, az qalırdı qışqırığımdan mağaranın divarları əsə. Mən qışqırmaqdan özümü saxlaya bilmirdim və deyəsən, qışqıranda bir az yüngülləşirdim də. Mən çığıranda keçilərin bəziləri mağarada narahat-narahat yüyürüşürdü, digərləri isə yanımdan əl çəkmir, elə bayaqkı kimi dayanıb şikayət dolu səslər çıxarırdılar, amma onların səsi mənim qışqırıqlarımın içində itib-batır, heç eşidilmirdi. Lakin mən onların qorxmuş sifətlərindəki bəyirən ağızlarını, üst dodaqlarının daim əsməsini, dodaq qalxanda görünən nəm, sarımtıl dişlərini görürdüm.

Bu heyvanların davranışında, onların mənə həddindən ziyadə diqqətində nəsə qəribəliklərin olduğu barədə heç

düşünmürdüm, mən onda, ümumiyyətlə. heç bir şey haqqında fikirləşmirdim. Mən, sadəcə, minnətdar idim ki, onlar məni bu ağır saatımda tək qoymamışdılar, Tanrının və bütün insanların lənətlərinə rəğmən, mənim öz balamı əzablar içində doğmağıma yalnız bu varlıqlar mərhəmət, şəfqət göstərirdilər.

Bayırda isə tufan elə bayaqkı kimi tüğyan edirdi, indi artıq düz başımızın üstündə. Göylər ara vermədən guruldayırdı və hərdən şimşək parıltısından işıqlanan mağaranın qabağında leysan sel kimi tökürdü. Səma, sanki, yanğından qızarmışdı və titrək, alovlu dilləri bizə sarı uzanırdı.

Tutmaların gücündən başa düşdüm ki, indicə doğacağam və baxmayaraq ki ağrıdan, az qala, ağlımı itirmişdim, uşağın artıq çıxmaq üçün hərəkətə başladığını anladım. Beynimdə dumanlı bir fikir peyda oldu: deyəsən, ən çətini körpənin başının çıxması idi, amma başqa heç nə barədə fikirləşmirdim, elə vəziyyətdə deyildim. Mən var gücümlə doğuşa kömək eləməyə çalışırdım, daha doğrusu, bədənim edirdi bu köməyi: arzularıma rəğmən, mənə tabe olmayaraq, elə cidd-cəhdlə çalışırdı ki, lap məəttəl qalırdım. Məndə elə təəssürat vardı, sanki, indicə ortadan cırılacaqdım, ağrı mənim ağlımı başımdan alırdı, hərdən də lap huşsuz düşürdüm – öz qışqırıqlarımı da, sanki, kənardan eşidirdim. Bu nə qədər davam elədi, bilmirəm, bütün bu müddət ərzində vaxt anlayışım tamam itmişdi.

Nəhayət, qəribə bir yüngüllük, azadlıq duydum. Təbii ki, hələ də ağrıyırdım, amma daha bayaqkı kimi yox, tamam başqa cür, nəfəs almağım qaydasına düşürdü, artıq çığırmaya bilirdim, indi yalnız iniltilərim eşidilirdi, bədənimi də daha gücə salmaya bilərdim, boşalmışdım, hər yerim boşalmışdı və bu, o qədər gözəl idi ki, elə bil, həyata yenicə gəlirdim.

Gözlərimi açıb – onları yəqin ən dəhşətli ağrılarım başlayanda qapamışdım – gördüm ki, ayaqlarımın arasında bir qanlı ət parçası var, keçilər isə onu uzun, çəhrayı dilləri ilə cidd-cəhdlə yalayırdılar. Onlar elə məni də səylə yalayır, qanı

dilləri çatan qədər təmizləməyə çalışırdılar və görünürdü ki, bunu mənim üçün, mənə yaxşı olsun deyə eləmirdilər, qanın özü cəlb edirdi onları, qan bu heyvanlarda hərislik oyatmışdı, elə bil, içində onlar üçün çox qiymətli nəsə vardı. Mən keçiləri qovmağa məcbur oldum, təbii ki, gücüm çatan qədər – hələ çox zəif idim – nəm burunlarından vururdum ki, aralansınlar.

Bir az özümə gəlib, uşağı qaldırdım, oğlan idi. Göbəyini qırmağa çalışdım, amma bacarmadım, onda dişlərimlə birtəhər üzdüm onu və uşağı qollarımın üstünə aldım ki, keçilər daha yalamasınlar onu. Artıq tər-təmiz idi, qəşəng görünürdü, lakin heyvanlar heç cür əl çəkmək istəmirdilər ondan, mən də məcbur olurdum ki, elə hey qovum onları.

Bu heyvanların hərəkətlərinin mənası mənim üçün aydın deyildi, çiyrinirdim onlardan. Hərəkətləri qəribə olduğu qədər də ikrah doğuran idi. Nəhayət, içimdə elə bir nifrət baş qaldırdı ki, mən ləngər vura-vura ayağa qalxdım, artıq getmək istəyirdim. Bəlkə də, bu hərəkətim onlara qarşı nankorluq idi, amma özümlə bacarmırdım: keçi iyi verən, qan qoxusu duyulan bu mağara mənim ürəyimi bulandırırdı, hiss elədim ki, elə indicə buradan çıxmasam, boğulacağam. Şimşək isə artıq sakitləşmişdi, daha mağarada qalmağıma ehtiyac yox idi, gücüm çatsa, bayıra çıxmaq istəyirdim. Yenicə dünyaya gətirdiyim çağanı sinəmə sıxıb, səntirləyə-səntirləyə mağaranın çıxışına doğru getdim, çölə çıxdım. Hava yağışdan sonra sərinləmişdi, hiss edirdim ki, indicə huşumu itirərək yıxılacağam. Yalnız üzümə vuran sərin meh məni bu bəladan xilas elədi.

Mənim doğuşum bax beləcə keçdi, bu qədər intizarını çəkdiyim, arzuladığım doğuş. Mən beləcə azad oldum.

Bu yerdə qarı öz hekayətini kəsdi. Çiyinlərini dikəltdi, sonra irəli əyilib bayaqdan bəri çır-çırpı ataraq sönməyə qoymadığı ocağı iti hərəkətlə eşdi.

– Bəs doğduğum kim idi! – o, həyəcan içində sözünə davam elədi. – Budur, küncdə oturub! Mənim alovlu məhəbbətimin meyvəsi belə çıxdı. Ali insan səadətinin bəhrəsi.

Müqəddəs bulağın yanında başlanan qaynar sevgimizin yadigarı – budur onun sonluğu, bu sevgi belə bitdi! Sünbüllənən zəmilərdə qaynar eşq macərası, qartalların şahid olduğu məhəbbət. Bizim balamız budur.

Anlaya bilmirdim bunu. Bu, ağlasığmaz idi. Uşaq böyüdükcə, necəliyi yavaş-yavaş tamam aydın olurdu mənə və bu ağlasığmaz, dərkedilməz tapmaca üzərində başımı əbəs yerə sındırırdım – bizim məhəbbət belə bəhər vermişdi yəni? Bəllidir ki, sevgimizin soyuyan çağlarında hamilə qalmışdım, o vaxt daha əvvəlki kimi xoşbəxt deyildik. Heç o da, görünür, artıq məni sevmirdi. Bəlkə, bizə verilən cəzanın səbəbi elə bu idi? Qəddar cəzanın.

Lakin əvvəllər dəli-divanə idi axı mənimçün, bəs niyə uşağa onda qalmadım? Əgər övladımızın olmağı alnımıza yazılmışdısa, niyə bəs sevgimizin qaynar çağında baş vermədi bu? Niyə lap axırda, sevgilim artıq mənə əvvəlki hisslərlə yanaşmayanda baş verdi bu, məni ehtirassız sığallayanda, onun həyat şirəsi əsl gücünü itirəndə? Niyə belə oldu? Niyə bədbəxt bətnim onun toxumunu yalnız onda qəbul elədi? Məgər o vaxta kimi hamilə qalmamağım təəccüblü deyil?

Bəlkə də, bu lap sonuncu dəfə, bizim münasibətlərimizin üzücü anlarında, sevginin nə ona, nə mənə ləzzət vermədiyi anlarda baş verib?

Sonuncu dəfə... Əlbəttə, bu yalnız onda baş verə bilərdi, yoxsa doğuş indiyə qalmazdı. Çox qəribə, uzun hamiləlik idi...

Yox, yaxşısı budur, heç bu barədə düşünməyəsən! Nə barədə fikirləşirsən fikirləş, bircə bu barədə yox!

Axı qadın hamiləliyinin vaxtından artıq çəkməsi də olur, doğuşun gecikməsi də. Burada nə var ki? Bir də axı kim bilir müddəti necə saymaq lazımdır, bu barədə o qədər eşitmişəm ki. Yox, heç nə araşdırmaq mümkün deyil, baş çatlatmağa dəyməz. Yaxşısı bu barədə heç fikirləşməməkdir. Heç düşünməmək. Onsuz da xeyri yoxdur. Atmaq lazımdır bunları başdan... Beynimi başqa şeylərlə məşğul

etmək lazımdı, nəylə gəldi. Təki bu mənasız, gərəksiz hesablamalar olmasın...

Öz-özümə belə deyib, sakitləşməyə çalışırdım...

Başımdan qovmaq istədiyim fikirlərdən isə belə nəticə hasil olurdu ki, başqa qadınların saydığı kimi saysaydım, düz sevgilimin çayda həlak olduğu gün, Tanrının məni zorladığı gün alınırdı. Bu hadisələrdən az sonra kəsilmişdi aybaşım. Sevgilim isə həmin o ərəfədə artıq xeyli müddət idi ki, mənim üzümü də görmürdü.

Yox, bu nə sayıqlamalardır! Sərsəmlikdir bu! Ağlasığmazdır, lap ağlasığmaz...

İlahidən uşağa qalmaq? Tanrının oğlu... İnsan deməyə dilin də gəlməyən ağıldankəm və Tanrı oğlu! Yaşasa, yalnız bədbəxt, heç nəyi, hətta öz mövcudluğunu da dərk eləməyən divanəyə çevriləcək, üzündə mənasız istehzalı təbəssüm olan, yenicə doğulmuş çağanın ruhunu daşıyan divanəyə.

Bu nə fikirlərdir! Mənim ağlıma gələnlərə bax bir!

Orakulun zirzəmisindəki o murdar, qəddar varlıq – o vəhşi, qeyri-insani, adamın qanını donduran sifət uşaq doğursun? Məni ana eləmək üçün? Məhəbbət – mənim canlı, insani məhəbbətim yox – dərin nifrət hissi keçirmədən xatırlaya bilmədiyim bir murdarlıq məni ana eləsin?

Yox bir, bu, həqiqətən, ağlasığmazdır. Xəstə təxəyyülün uydurmasıdır, cəfəng fərziyyədir. Belə fikirlərin adamın ağlına gəlməsi də qəribədir...

Onsuz da əziz sevgilimə sonuncu dəfə məxsus olduğum günlərdən o qədər də çox ötməmişdi. Uşağın atası o da ola bilərdi. Bu uşağın. Əlbəttə, ola bilərdi. Əgər mən belə çox istəyirəmsə...

İstəyirəmmi? İstəyirəm ki...

Yox, bu barədə fikirləşmək mənə çətindir. Bu, məni tam çıxılmazlığa salırdı – həyatdan əlim üzülürdü, məhəbbətdən, Tanrıdan, hər şeydən.

Tanrı mərhəmətdən uzaqdır. Ona mərhəmətli deyənlər, sadəcə olaraq, bilmirlər ki, Tanrıdan rəhmsiz heç nə yoxdur.

O, qəzəbli və məkrlidir, şimşək kimi. Lap bətnində ildırım gəzdirdiyini güman etmədiyin buluddan çaxan şimşək kimi. Qəfil vurur – insanın başına zərbəsini qəflətən endirir və bütün qəddarlığını bir anda göstərir. Ya da məhəbbətini. Ya da öz qəddar məhəbbətini. Ondan nə desən, gözləmək olar. O, özünü nə vaxt desən və nədə desən göstərə bilər. Məni mağaraya qovmuş ildırım, mənə göz qoymaq üçün göndərilmiş keçilər, son həddinə kimi qızmış isti, günəşli yay, göyün yerə ildırımlar yolladığı bir vaxtda keçi mağarasında doğuş, heyvanların qəribə davranışı, onların doğuşa, körpəyə diqqəti, bu mağarada murdar, ikrahdoğurucu, qeyri-insani nəsnələrin acı dadı – bütün bunların arxasında gizlənən nə idi? Tanrının özbaşınalığı gizlənmirmi onların dalında? Qəddar, hiddətli Tanrı özbaşınalığı! Bunun arxasında ilahi qüdrəti gizlənməmişdimi?

İlahi şeylərdə insani nələrsə axtarmaq əbəsdir, o, mahiyyətcə tamam başqa şeydir. Əbəs yerə onda bizim arzuladığımız nəcib, uca, vəcdə gətirən nələrisə axtarırıq. İlahi nəsnələr bizə mahiyyətcə yad, çiyrindirən, bəzən də sərsəmlik çaları daşıyır. Kinli, təhlükəli, dəhşətli. Mənim qarşımda o məhz bu cür açıldı. Onun boğucu keçi qoxusu mənə yaxşı tanışdır, məndən yaxşı kim tanıyar onu! Mağaralarına girən kimi onu tanıdım. Bəlkə də, Tanrının oğlunu doğduğum mağaraya. Bəlkə də, onun atası Tanrının özü idi, yeraltı zirzəmidə keçi Tanrıdan qalmışdım uşağa, onun şəninə işıq, günəş ilahisi kimi ucaldılan gözəl məbədin altındakı zirzəmidə, o məbədin ki, mənə orada Tanrıma qulluq etmək nəsib olmadı. Əvəzində onun ağıldankəm oğlunu dünyaya gətirmək qismət oldu, onu nədənsə dünyaya gətirmək zəruriyyəti yarananda doğdum, sifətində daimi kinayə olan sərsəmi, boynumdan ömrümün sonuna kimi daş təki asılacaq dəlini doğdum...

Yox, yox, bu nədir mən danışıram... Axı heç nə bilmirəm, heç bir şey... Uşağın atasının kimliyini də dəqiq bil-

mirəm. Nə onda bilirdim, nə də indi bilirəm. Axı, o, Tanrının oğlu ola bilməz, heç mənim sevgiliminki də, ona da qətiyyən oxşamır, heç özümə də bənzəmir, ikimizdən heç birimizə, ümumiyyətlə, heç insana da oxşamır. Tanrıya necə, axı heç Tanrıya da oxşarı yoxdur bunun. Yox, mən heç nə bilmirəm.

Lakin mənimlə necə davrandığını xatırlayanda yumruqlarım sıxılır. Bəs kim idi başıma o oyunu gətirən, məni incidən, zirzəmidə, özünün orakul zirzəmisində qulluğa məcbur eləyən, kim idi məndən sözəbaxan bir alət düzəldən, mənim ruhumu və cismimi zorlayan, içimə dəhşətli ehtirasını yeridən, huşumu itirməyə məcbur eləyən kim idi, nələrisə təlqin edən, bətnimi qaynar nəfəsiylə, görünməmiş alovuyla dolduran, məni ağıldankəm, insana istehza olan, insana və onun şüuruna, onu dünyaya gətirən anaya, yəni mənə acı kinayə olan bir oğul doğmağa vadar eləyən kim idi? Kim idi məni yalnız qurbana çevirmək üçün, onun ruhunu qəbul etmək üçün, ağlını alıb, ağzını köpükləndirmək üçün və dünyaya dəli gətirmək üçün seçən? Kim bütün ömrüm boyu əzib məni! Məni əsl xoşbəxtlikdən kim məhrum edib, əsl insani xoşbəxtlikdən, başqa adamlara sevinc gətirərək, sakitlik, dinclik verən xoşbəxtlikdən? Əlimdən məhəbbətimi, sevgilimi, hər şeyimi alan və əvəzində heç nə, özündən başqa heç nə verməyən kim idi? Yalnız özündən başqa... İşə bir bax, o, hələ də mənim içimdə yaşayır, varlığıyla bətnimi doldurur, çılğınlığıyla doldurur, mənə rahatlıq vermir, çünki heç özü də rahat deyil və heç vaxt əl çəkməyəcək məndən! O, məndən heç vaxt əl çəkməyəcək!

Onun barəsində düşünəndə yumruqlarım sıxılır! Gücsüz yumruqlarım!

Qarı əsim-əsim əsirdi, adama elə gəlirdi ki, bütün vücudu etirazdadır. Yenə də ocağı qarışdırdı və görəndə ki artıq sönüb, əlindəki bir ucu yanmış çubuğu da tüstülənən ocağa atdı.

Lakin yavaş-yavaş sakitləşdi, özünü ələ aldı. Və səsi də əvvəlki ahənginə qayıtdı, təbii vəziyyətinə düşdü, bir az susub sözünə davam elədi:

– Bilmirəm, bunları sənə niyə danışıram. Sənə, tamam yad bir adama. Amma bu evdə heç yad olmayan varmı? Sən nəsə soruşdun məndən – mən də xatırlamaq istəyəndə bütün həyatım, bütün taleyim gəlib gözlərimin önündə durdu, yaddaşımda dirilib məni ağuşuna aldı. Bir də kim bilir sonuncu dəfə insanla nə vaxt danışmışam? Nə vaxt olub bu? Üstündən o qədər çox ötüb ki, heç yadıma da düşmür. Mən burada tənha qalıb öz taleyim barədə düşünürdüm. Bunun üçün vaxtım çox idi, lap çox. Amma bircə kəlmə kəsməyə belə bir kimsəm olmayıb.

Hə, insanların dünyasını tərk elədiyim gündən bəri, – həmin o dünyanı ki, əslində heç vaxt ona aidiyyətim olmayıb, həyatım daim təklikdə keçib. Bu uşaqla da tək keçirirdim vaxtımı – oğlumla, indi artıq başı ağarmış, hələ də özü barədə əsas şeyləri bilmədiyim oğlumla. Dağlarda da tək yaşayırdıq, bax, bu daxmada da təkik, buranı heç bilmirəm neçə illər qabaq düzəltdim ki, yaşamağa yerimiz olsun. Bizim yeganə yoldaşlarımız, harada yaşasaq da, hara getsək də, həmişə yanımızda olan vəhşi keçilərdir, dolanmağa da onlar kömək eləyir bizə. Bu onun tanıdığı yeganə canlılardır, onu maraqlandıran, diqqətini çəkən canlılar. Adamları, ümumiyyətlə, tanımır və heç onlarla maraqlanmır da. Keçilərə isə həmişə marağı olub, elə onlar da yanından əl çəkmirlər, hara getsə, qarabaqara dalına düşürlər, bir-birindən ayırmaq olmur onları.

Onun kimliyini dərk etmək istəyəndə ağlıma bunlar da gəlir. Bir də onun üzündə insanların yaşam adlandırdıqları nə varsa, heç birinin iz qoymadığını fikirləşirəm, sifətinin ifadəsi südəmər çağalarınkı kimi qalıb. İndi artıq ağsaçlı bir körpəninkinə oxşayır özünün uşaq, körpə təbəssümü ilə. Mənə daim əzab verən, məni didib-dağıdan mənasız təbəssüm.

Bilirəm ki, bir sərsəmlə yaşayıram, üzündəki ifadə, bu sarsaq təbəssüm imkan vermir unudam. Lakin hərdən özümə sual verirəm ki, mənim böyrümdə oturmuş, üzündən təbəssümü əskik olmayan bu uşaq aşağıya – öz məbədinə, öz Delfasına, insanların dünyasına baxaraq kinayə ilə gülümsünən Tanrının özü deyilmi?

Bilmirəm. Heç nə bilmirəm. Lakin bəzən fikirləşəndə belə şeylər də gəlir ağlıma.

O sözünü kəsdi və bir dəqiqə dinməzcə əyləşdi. Sonra qalxıb çıxışa tərəf getdi, gecə hələ zorla işarırdı.

Birdən ayaq saxlayıb qışqırdı:

– Yoxdur o! O burada yoxdur!

Həqiqətən də. Artıq burada yox idi o. Yoxa çıxmışdı.

Görünür, uzun söhbətin hansı anındasa çölə çıxaraq gecənin zülmətində yox olmuşdu. İçəridəki qaranlığı və daxmanın qapısız girişini nəzərə alsaq, bu, asan bir iş idi.

Qarı ağlını tamam itirmişdi. Üzünü seçmək olmurdu, amma səsindən bəlli idi ki, indi onun qoca sifətində necə təlaş var.

– Haradadır o görəsən, haradadır?! – qışqırırdı – Hara yox oldu?!

Niyə gecənin qaranlığında evdən çıxıb, axı o lap köməksizdir, ölə bilər! Uçurumdan yıxılar!.. Niyə belə elədi? Niyə? Niyə məni qoyub getdi? Bəlkə... onun barəsində danışdığım dəhşətli sözləri... başa düşüb! Yox, bu ola bilməz... Axı, o, insan nitqini heç anlamır, bir kəlmə də danışa bilmir. Bəlkə... bəlkə, başa düşdüyünü göstərmirdi, göstərmək istəmirdi? İnsanlarla ünsiyyət saxlamaqdan qaçırdı? Axı hərdən mənə elə gəlirdi ki... hərdən şübhələnirdim, deyirdim, görəsən, hərdən əsəbiləşib acığımı onun üstünə tökəndə, doğrudan, heç nə anlamır... bədbəxt balam... mənim balam... Çox olub, lap çox... mən ona qarşı ədalətsizlik etmişəm, ədalətsizlik... Necə edirdim bunu...o sözləri necə dilimə gətirirdim axı... onu incitməyi necə rəva bilirdim... O qədər incidi ki, məni atıb gedəsi oldu! Qoyub getdi!

O, öz-özüylə danışırdı, qonaqla yox, hərçənd ki, həyəcanla dediyi sözlər qonağa ünvanlanırdı.

– Əlbəttə, o anladı, elə buna görə də getdi... Mən nə etdim, nə etdim!..

– Onu axtarmaq lazımdır! – deyə qarı qəflətən tam çıxılmazlıq içində dilləndi, əyilib addımını daxmanın ağzında pilləni əvəz eləyən qayanın üstünə atdı və görünməz oldu. Qonaq da onun dalınca çıxdı.

Ay-ulduzlu gecə idi, lakin dağları ağuşuna almış soyuq zülmət uzağı görməyə imkan vermirdi.

Qarı əvvəlcə tələsik evin ətrafına göz gəzdirdi, görsün oğlu buralarda deyil ki. Sonra da çox düşünmədən harasa getməyə başladı, görünür, orada cığır vardı, hərçənd ki uzaqdan görmək mümkün deyildi. Bu cığır, yəqin, yuxarı, dağların qoynuna aparırdı. Elə sürətlə gedirdi ki, dağ-daşda yeriməyə adət etməmiş kişi onun dalınca yetirə bilmirdi. Çətin inanardın ki, onun yaşında belə iti yerimək mümkün ola. Lakin qarı ömrünün çox hissəsini bu dağlarda yaşamışdı, sanki, dağların bir hissəsiydi artıq. Köhnə keçi dərisi sarıdığı qoca ayaqları ilə yamacı heç bir əziyyətsiz qalxırdı, sanki, özü də elə bu təbiətin bir parçası idi – ayın bulanıq işığında, demək olar ki, görünməyən boz bir heyvan kimi. Vəhşi heyvanlar adət etdikləri təbiətin qoynunda necə hərəkət eləyirlərsə, eləcə davranırdı.

Qonaq qarının özü barədə, indi dağların qoynunda nagüman axtardıqları oğlu barədə danışdıqlarından dəhşətə gələrək, onun dalınca gedirdi...

Tanrının oğlu?..

Bəllidir ki, bu, heyvan cığırıdır, burada insan yeriməz. Onların cığırı haradasa aşağıda olmalıdır, lakin qaranlıqda bu cığırı qətiyyən seçmək olmurdu. Niyə qarı məhz bu yolu seçib? Yəqin, bunun da bir səbəbi var, yəqin, ürəyinə dammışdı oğlunun elə bu cığırla getməsi. Arxayındır ki, aşağıya – Delfaya enməyib, bu, tamam aydın idi, oğlan orada heç

olmamışdı. Bəlkə, onun ayaq izlərini görüb? Buna da ehtimal var, yoxsa məhz o səmtə belə inamla getməzdi.

Yoxuş əvvəl-əvvəl kifayət qədər rahat idi, amma bir azdan lap sərtləşdi. Onlar artıq dağların arasında xeyli yüksəyə qalxmışdılar və onun heç cür görə bilmədiyi cığır getdikcə daha sərt yoxuşa yönəlirdi. Lakin bir azdan onlar düzənlik bir yerə çatdılar – dağların arasında yayla kimi bir yer idi – qarı isə daha bir neçə addım gedib dayandı. Yəqin ki, həmin o gözəgörünməz cığır burada haçalanırdı, ya da ki izini itirmişdi oğlunun, – qarı bir yerdə dayanıb ətrafdakı çılpaq dağları tərəddüd içində nəzərdən keçirirdi. Soyuq duman pərdəsindən keçən ay işığı hər şeyə qəribə və sirli bir görüntü verirdi və o fikirləşdi ki, burada, bu yarımxəyali aləmdə hər şeydən şübhələnmək olar. Amma tezliklə, tələsik yoluna davam elədi, deyəsən, səmti müəyyən etməkdə daha çətinliyi yox idi. Kişiyə qeyri-ixtiyari elə gəldi ki, qarı adam olsa da, indi ya öz instinktlərinə arxalanaraq yol gedir – lap heyvan kimi, ya da adi adamlara xas olmayan hansısa hissiyyatına arxalanır. Onlar getdikcə real dünyanın bu xəyali, qeyri-real içərilərinə girirdilər. Düzənlik də bitdi və yol yenə yoxuşa dirəndi.

Qəflətən duman lap bir göz qırpımında əridi və ayın parlaq işığı altında, düz bizim qarşımızda əbədi qarlarla örtülü əzəmətli bir dağ açıldı, ağappaq qaranlığı, parlayan ulduzların altında çox sirli görünüşü olan bir dağ. Maili yoxuş düz qarlara aparırdı, qıvrılaraq uzanan dar heyvan cığırı isə indi lap aydın görünürdü; düz qarlara çatanda yox olurdu. Qarı niyə ora gedirdi, bəlli deyildi, cığır qarların başlanması ilə bitirdi, yox olurdu, vəssalam. Bu, qeyri-adi, qəribə mənzərə idi, əbədi qarların altında itən cığır. Qarı isə yoluna davam edirdi, düz üzüyuxarı.

Bir az da gedəndən sonra əyilib yerdən nəsə qaldırdı. Bu, keçi dərisindən kobud kəmər idi. Onu acgözlüklə nəzərdən keçirdi, sonra isə uçunurmuş kimi, dərindən nəfəs alaraq əlini halsız vəziyyətdə yanına salladı, amma yenə yoluna

davam elədi. Az keçmiş cığırın düz yanına atılmış paltar da tapdı, o da keçi dərisindən idi. Qaldırıb heç bir söz demədən qolunun üstünə atdı. Bir qədər də qalxandan sonra səndəlinin bir tayını, ondan bir az o tərəfdə isə ikincisini tapdı, sadə səndəllər idi, dəri parçalarından düzəltmişdi. Səndəlin ikinci tayı, demək olar ki, düz qarlar başlanan yerdə idi. Burada onlar dayandılar və baxışlarını sirli dağa dikdilər. Gecə təzə qar yağmışdı, üstündə yalın ayaqların izi aydın görünürdü. Onlar yollarına davam elədilər və az sonra başqa izlər də gördülər. İz əbədi qarların qoynuna aparırdı. Çox kiçik, gözəl bir ayağın yüngül, amma aydın izləri idi. Getdikcə izlər, elə bil, daha da yüngülləşirdi və tezliklə artıq onların insan ayağının ləpirləri olduğunu zorla təxmin etmək mümkün idi. Az sonra isə bu izlər də tamam itdi. Heç dağdan dönən izlərə də rast gəlmədilər.

Qarı kirimişcə durub bu qeyb olmuş əlamətlərə baxırdı, torpağa toxunmayan ayaqların nişanələrinə, çəkisini itirib göylərə qalxmış varlığın izlərinə. Tanrı dağının üstündəki yüksəklik o qədər aydın görünürdü ki, adama elə gəlirdi, ulduzlara toxuna da bilər.

– O, qayıdıb, – qarı özüylə danışırmış kimi, sakitcə dedi. – Mən elə də bilirdim. Hər dəfə daxmamızdan çıxanda bura üz qoyurdu, – deyə bir az keçmiş əlavə elədi, – buralar yaman çəkirdi onu. İndi artıq onu yad gözlərdən gizlədən qılafını, dünyəvi, yerdəki qılafını atıb və əslində, kimdirsə, ona da çevrilib. Atası onu öz yanına apardı.

O, kirimiş durmuşdu, içindəkiləri, mübhəm fikir və hissiyyatını heç bir şeylə büruzə vermirdi; qolunun üstündə oğlunun soyunub azad olduğu paltarları saxlamışdı; qarının öz əlləriylə düzəltdiyi paltarları, – bəlkə də, onun ürəyi sancırdı indi, ona görə sancırdı ki, onun əziyyətlə düzəltdiklərini bax beləcə tullamışdı. Əgər ürəyində sancı vardısa belə, bunu kənardan duymazdın. Onun qoca, qırışlı sifətində heç nə oxunmurdu və bayaqkı ruhi sarsıntılardan indi əsər-əlamət qalmamışdı,

axı o artıq nə baş verdiyini bilirdi. Artıq hər şey bəlli idi ona. Amma, çox güman ki, həmin dəqiqələrdə uzun həyatının bir çox səhnələri onun gözləri önündən keçdi, o anlarda ki, artıq hər şey aydınlaşmış, bitmiş kimi görünürdü, bu qaranlıq tapmacanın bütün məqamları əbədi qarların üstündəki izlərlə açılmışdı. O, bir anlıq gözlərini yumdu və qonaq onun söhbətindən bir parçanı xatırladı – ruhu nələrləsə ağzına kimi dolanda qarı belə eləyirdi. Sonra gözlərini yenidən açdı, özünün qoca gözlərini, hər şey görmüş gözlərini. Və onun qoyduğu nişanələrə bir də baxdı – anasını tərk edib getməsinin nişanələrinə, pəncənin yüngül izlərinə, o yaşda kişi üçün qəribə olan kiçik, qəşəng ayaqların izlərinə.

– Onun elə gözəl ayaqları vardı, – sakitcə dilləndi qarı, elə bil, bu haqda əvvəllər heç düşünmədiyinə görə qınayırdı özünü. – Əlləri, ayaqları gözəl idi.

Sonra bir az da dayandı, qarın üstü ilə asta-asta aşağı, dağın boz ətəyinə, yenidən torpağa qayıtmağa başladı. Öz evinə aparan yola çıxdı.

Onun yolu indi enişaşağı olsa da, yavaş gedirdi: artıq tələsəsi yeri yox idi. Bəlkə də, düşüncələrinə qapılmışdı deyə, həmişəkindən yavaş gedirdi. Əgər belə idisə, yəqin, oğlu haqqında fikirləşərdi, ondan qalan nə vardısa, qoltuğuna vurub indi öz daxmasına, öz tənhalığına qaytarırdı. Və bir də onun qüdrətli, bir zamanlar bətninə uşaq salan atası barədə.

Onun dalınca bir qədər arxada addımlayan qonaq gedə-gedə Tanrının oğlunu düşünürdü, əynindəki keçi dərilərini – Tanrı oğlu olduğunu gizlədən qılafı çıxararaq bu sirli dağdan göylərə ucalan oğlunu. O Tanrı həm də keçilərin Tanrısıydı, lakin təkcə keçilərin yox, o, keçi Tanrısı olmaqdan qat-qat uca idi. Görəsən, sonuncu addımını qarlara basaraq ulduzlara uçanda, elə ağbaş qalmışdı, yoxsa həmin an gəncliyi də dönmüşdü geri? Çox güman ki, indi artıq həmişəcavan idi. Və təbii ki, sifəti də dəyişmişdi, Tanrıya daha çox bənzəməyə başlamışdı.

Sonra o fikirləşdi ki, Tanrının digər oğlu – onun dəhşətli taleyinə görə məsuliyyət daşıyan, üzərinə lənətlər yağdıran oğlu da – axı elə dağın başından göylərə qalxmışdı, əgər ona sitayiş edənlərin, onu sevənlərin danışdıqlarına inansaq, həmin dağa Tanrı atası onu buludun üstündə qaldırmışdı. Amma əvvəlcə onu çarmıxa çəkmişdilər və bu, insanların gözündə adilikdən çıxarmışdı Tanrı oğlunu, onun həyatını isə hamı və bütün zəmanələr üçün dərin məna daşıyıcısına çevirmişdi. Lakin Tanrının bu oğlu, deyəsən, ancaq ona görə yaranmışdı ki, uçuq-sökük çoban daxmasının kandarında oturub dünyaya, insanların qaynaşmasına, onların bic-bic işlərinə, öz dəbdəbəli məbədinə yuxarıdan tamaşa etsin və bütün bunlara bir də gülsün.

Qəflətən onun ağlına bir şey gəldi, anladı ki, həmin bu əbədi təbəssüm ona nəyi xatırladır. Əlbəttə, Tanrının dünən Delfa məbədində gördüyü təsvirlərindən birini, təzə, qəşəng ilahilərə yer verirmiş kimi, lap uzaq küncdə qoyulmuş qədim bir fiquru. Onun da eynən belə bir təbəssüm vardı üzündə, izaholunmaz, mübhəm, mənasız və anlaşılmaz bir ifadə ilə dolu təbəssüm. Nə mehriban, nə qəzəbli və elə bununla da insanı dəhşətə gətirən təbəssüm. Həmin fiqur da, yəqin ki, bütün qalan təsvirlər kimi qarının şəninə məbəd ucaldılan Tanrısının idi, lakin onlardan çox-çox qədimdi, elə daş təbəssümünün sirri kimi qədim.

Bəli, Tanrı ağlasığmaz, qəddar, zəhmlidir. Qarı da bunu öz canında sınayıb, Sivilla onu hamıdan yaxşı tanıyır, ruhunu qəbul edirdi, sevimlisi və lənətlərinin ünvanı idi, bütün ömrünü onun üçün yaşamışdı, hələ, üstəlik, oğul da doğmuşdu ona. Elə bir oğul ki, onu dünyaya gətirməkdə məqsədi tam mənasızlığın özündə də bir ilahilik olduğunu göstərmək idi. Bəlkə də, təkqollunu sevdiyinə görə, onun ağuşunda, onun tək qolunun üstündə aldığı qısa həzzə görə ondan intiqam almaq üçün gəlmişdi o. Yalnız ona görə ki, bu qadın Tanrıdan başqa nələrisə tanımağa cəsarət göstərmişdi? Tanrıya məhəbbətdən savayı, başqa məhəbbət də görmüşdü?

Bəli, Tanrı qəzəblidir, bunu qarı düz deyirdi. Ürəksiz və qəzəbli. Tanrı kinlidir və ondan başqa kimisə sevənlərə nicat yolu qoymur. O kəslərə ki, evinin divarına başını söykəməsinə icazə verməmək cəsarətini özündə tapır. O, qəddar və mərhəmətdən uzaqdır. İnsanlar barədə yox, ancaq özü haqda düşünür. Heç vaxt heç kimi bağışlamır, heç vaxt heç nəyi unutmur. Lakin elə özümü də kimsə maraqlandırmır, özümdən savayı! Mən ona nifrət edirəm, elə onun mənə nifrət etdiyi kimi. O, məni lənətləyib – nə etməli, mən də onu lənətləyirəm! Onun qarşısında baş əymirəm və mən də, elə onun kimi ölümsüzəm! Özü məni ölümsüz edib – düzdür, ona görə yox ki, sevindirsin, qəzəbindən eləyib. Bu onun lənətinin tərkib hissəsidir və bu onda olan ən qəddar cəhətdir. Lakin artıq ölümsüzəm! Hərçənd ki, ölümsüzlüyüm onunkundan deyil.

O, taxta çıxıb, göylərdədir, cəmi bir neçə saat xaçdan asılmaqla səmaya qalxıb, indi də özünün həmişəcavanlığından ləzzət alır, mən isə yer üzündə əbədilik əzab çəkməyə məhkumam. Dünyanı dolaşıram, narahatlıq, nigarançılıq qovur məni, içimə o doldurub bunları və bədbəxt ruhum sakitliyin nə olduğunu heç vaxt bilməyəcək. Bu dünyada əbədi yaşayacağam, onun çoxdan tərk etdiyi dünyada və mənə bundan başqa dünya görmək nəsib olmayacaq. Günlər uzunu, illər uzunu, əsrlər, minilliklər boyu bu dünyaya qoca gözlərimlə baxmağa məhkumam, o gözlərimlə ki, hər şeyi görür, hər şeyin miskinliyinə, əhəmiyyətsizliyinə baxır. Başına kül olmuş bu dünyaya baxmaq. Məni ancaq buna görə seçib, məni buna məhkum edib. Amma qarşısında baş əymirəm! Nifrətim də onunku kimi ölümsüzdür!

Qonaq qarının dalınca gedərək, onun boz fiqurunu izləyə-izləyə öz taleyi haqqında bunları düşünür və içindəki hər şey bu taleyə etiraz edirdi.

Axırda qarı yalnız ulduzların işığında yeriyəsi oldu, ay batmışdı artıq, amma cığırın bu yeri ona xüsusilə yaxşı tanış

idi. Duman tamam dağılmışdı. Onlar, nəhayət, mənzil başına çatanda artıq yeni günün səhəri yetişirdi, içəri girmədən daxmanın qabağındakı kobud daş skamyanın üstündə oturdular. Göz önündə açılan fəzada hələlik günəş işığı yox idi, lakin azca ağaran səma onun tezliklə çıxacağını vəd edirdi.

İçindəki etiraz hələ sakitləşməmişdi və o, qəflətən elə çılğınlıqla sözə başladı, sanki, qarı ilə bayaqdan gedən qaynar mübahisəni davam etdirirdi:

– Axı sən də bütün başına gətirilənlərə görə, səninlə bu cür davranıldığına görə nifrət etməlisən Tanrıya! Hər hüceyrəsi belə mənasız qəzəblə dolu Tanrıya!

Qarı cavabı bir az ləngitdi, görünür, fikirləşirdi. Sonra dilləndi:

– Mən bilmirəm Tanrı kimdir. Necə nifrət edim ona? Ya necə sevim? Yox, mən nə ona nifrət etdiyimi deyə bilərəm, nə də sevdiyimi.

Əgər düşünsək, onun barəsində danışanda bu cür sözlər mənə mənasız gəlir. O, bizim kimi deyil və biz onu heç vaxt dərk etməyəcəyik. O dərkedilməz, əlçatmazdır. O, Tanrıdır.

Başa düşdüyüm qədər, o qəzəbli olmaqla yanaşı, həm də mərhəmətlidir, o həm işıqdır, həm zülmət, həm mütləq mənasızlıqdır, həm dərin məna, elə bir məna ki, onun dərinliyinə vara bilmirik, amma axtarmaqdan da qalmırıq. Bu, tapmaca tapmaq üçün deyil, bu, tapmaca olmaq üçündür. Bizim üçün daimi olmalıdır bu tapmaca. Həmişə narahat etməlidir bizi.

Ən anlaşılmazı isə odur ki, Tanrı həm otluqda, bir neçə sünbül qoyaraq mənəvi rahatlıq tapdığın kiçik mehraba da çevrilə bilər, həm də öz əksimizi gördüyümüz, qəribə suyunu ovuclayıb içdiyimiz bulağa. Bunların hamısı odur, mən bilirəm, o, belə də olur. Hərçənd ki, mənim üçün o bu cür deyildi, yəqin, bu cür ola bilməzdi mənim üçün.

Mənim üçün dibsiz uçurum idi, özümü də, mənə əziz olan nə varsa, onları da udan uçurum. Mənim üçün yandı-

rıcı nəfəs idi, sakitlik bəxş etməsə də, hər halda, bir ağuş idi, xiffətini çəkirdim bu ağuşun. Tükənməz və mənə yad olan güc idi, məni öz iradəsində saxlayan güc.

O, məni bədbəxt elədi. Amma mənə xoşbəxtlikdən dadmaq imkanı da verdi, elə böyük xoşbəxtlikdən ki, onu şüurunla dərk edə bilməzsən. Bəli, məhz belə idi, bunu da unutmamalıyam.

Onsuz mənim həyatım nə olardı? Əgər onun ruhunu içimə heç vaxt qəbul etməsəydim? Həmin o həzzi, onun özündən doğan həzzi, o əzabı, əziyyəti dadmaq nəsibim olmasaydı... Yandırıcı ağuşunda, yalnız ona məxsus olaraq özümün bir heçə çevrilməyimi yaşamasaydım. Heyranlığını, nəhayətsiz həzzini duymaq, Tanrı ilə birlikdən doğan xoşbəxtliyin zövqünü yaşamaq.

Bütün bunlarsız nə olardım! Əgər özümdən başqa heç bir şeyi tanımaq qismətim olmasaydı. Lakin mənə verdiyi dəhşətli əzabları, bütün pis şeyləri də unutmayacağam. Bütün həyatıma yiyələndiyini, az qala, bütün insani həzzlərdən məhrum etdiyini də yaddan çıxarmaram. Bir də qəzəbinin dibsiz dərinliklərini mənim qarşımda necə açdığını. Bunu unutmaram və bağışlamaram! Lakin burada, bu yamacda ömrümün qürub çağı, tənhalıq içində oturaraq yaşadığım həyata boylananda yenə də fikirlərim sənə yönəlib, mənim Tanrım! Çünki həyatım sən idin, sən, kükrəyən alov kimi, yolunun üstündəki hər şeyi dağıdıb külə döndərən sən. Keçdiyin yerlərdə özündən sonra heç nə qoymayan sən. Mənim həyatım – səndə yaşanmış həyatdır. Qəddar, acı, zəngin həyat və bu həyatı mənə sən vermisən. Lənət olsun sənə və eşq olsun sənə!

O, qarıya sükut içində baxırdı. Sanki, həqiqətən, odda yanmış qara sifətinə, onun qoca, dibsiz, anlaşılmaz gözlərinə – Tanrını görən gözlərinə.

Onun da gözləri Tanrını görmüşdü. Lakin bu gözlərdəki məna itmişdi, gözlər boşalmışdı bundan sonra. Lap qurumuş

quyu kimi, lap içində heç nə olmayan dərinlik kimi. Onun gözləri qarınınkı kimi deyil. Niyə belədir? Niyə o, bu qədər yoxsul, bu qadın isə bu qədər zəngindir?

– Bəs mənim taleyim, onun barəsində nə deyə bilərsən? – deyə, həyəcanla sordu. – İzah tapmaq ümidi ilə, qəlbimdəki məni əzən narahatlığı, başımın üstünü almış lənəti çözmək ümidi ilə bura gəlmiş bir adama. Məni necə sakitləşdirərsən? Axı səni sakitləşdirən, sənin üçün məna daşıyan şeylər mənə heç nə söyləmir.

Qarı ona nəzər saldı, baxışları toqquşdu. Onun baxışı, həqiqətən də, yoxsul idi, bəlkə də, ilk dəfəydi insanda bu yoxsulluqda baxış görürdü. O gələn dəqiqədən, qarı heyran qalmışdı buna – əynindəki sadə plaş onun baxışı ilə müqayisədə lap kral mantiyası idi.

Lakin onu da görmüşdü ki, qonağın öz gözləri barədə dedikləri – guya, onlar dibində heç nə olmayan qurumuş quyudurlar – həqiqətə uyğun deyildi. Bu gözlər boş deyildi. Onlar ağzına kimi çıxılmazlıqla dolu idi. Əgər boynuna düşən lənət onu yoxsul və zavallı etmiş, nəyi vardısa əlindən almışdısa, çıxılmazlıq hissini də bunların əvəzində vermişdi. Yəqin, qarı bütün bunları sezərək, belə dedi:

– Mən görürəm ki, sən Tanrının lənətinə gəlmisən, hər şey elə özün deyən kimidir. Baxanda görünür ki, sən azad deyilsən, sən ona buxovlanmısan və o da səni buraxmaq barədə fikirləşmir. Sən Tanrının lənəti ilə ona bağlanmısan, eynən əgər sənə xeyir-dua versəydi, necə bağlanardınsa, bax, eləcə. O, sənin taleyindir. Ruhun Tanrı ilə doludur, həyatın isə lənətləndiyindən, ondan ayrılmazdır. Ona nifrət edirsən, onu lağa qoyur, söyürsən. Lakin bütün bu narazı çıxışların yalnız onu göstərir ki, dünyada heç nəyin sənin üçün əhəmiyyəti yoxdur, bircə ondan savayı; sən ağzına kimi onunla dolusan; ona bəslədiyin nifrət adlandırdığın nəsnə ilə dolusan. Lakin bu yandırıcı nifrət, çox mümkün ki, sənin Tanrını duymağındır.

Bəlkə də, gün gələcək, o, sənə lənət yerinə xeyir-dua göndərəcək. Mən haradan bilim bunu! Bəlkə, elə bir gün gələcək, sən ona icazə verəcəksən ki, divarına başını söykəsin. O da mümkündür ki, bu heç vaxt olmasın. Bunu bilmək olmaz. Amma başına nə gəlsə, taleyin Tanrıdan ayrılmayacaq, ruhun isə daim onunla dolacaq.

Sən istəyirsən ki, mən gələcəyə nəzər salım. Bunu bacarmıram. Lakin mən insanların həyatına nə qədər bələdəmsə, onların keçdiyi yolları da bir o qədər təxmin edə bilərəm və deyirəm ki, Tanrının ya lənəti, ya da xeyir-duası olmadan heç kəs, heç vaxt yaşaya bilməyəcək. Onlar nəyə inansalar belə, nə düşünsələr, nə etsələr belə, taleləri Tanrıdan ayrı olmayacaq.

O, sözünü bitirib, üzünü çevirdi. Oturub harasa baxırdı, hara baxdığını isə qonaq bilmirdi. Bəlkə də, artıq üzərinə gün düşən – burada hələ qalın kölgəlik idi – uzaq dağlara baxırdı, ya da həmin an, yer üzünün bütün səhnələri onun gözləri önündə açılmış mübhəm bir mənzərəylə örtülmüşdü. Hər halda, adama elə gəlirdi ki, o haradasa çox-çox uzaqlardadır – sanki, qonağı tamam unutmuşdu, burada olduğunu heç görmürdü.

O isə oturub qarıya baxırdı və qulaqlarında onun sözləri cingildəyirdi. Ona elə gəlirdi ki, bu sözlər öz taleyini tamam başqa cür qiymətləndirməyə, ona dərindən baxmağa vadar edir. Bu sözlər ona taleyindəki elə şeyləri görməyə kömək edir ki, əvvəllər heç onlar haqqında düşünməmişdi və mümkün idi ki, indi öz yükünü yer üzündə daha asan çəkə bilsin. Bəlkə də, onun taleyi, əvvəllər düşündüyü kimi mənasız və sonsuz deyildi və hətta göründüyü qədər mütləq və dəyişməz də deyildi. Lakin bütün bunların cavabını yalnız sonu bəlli olmayan səyahətlər, önünə sərilmiş sonsuz yollar verə bilər. Çünki həqiqəti qarı demişdi: bu barədə heç nə bilmək olmaz.

Onlar uzun müddət dinməz oturdular.

Nəhayət, o, skamyadan qalxdı – gərək səyahətinə davam edəydi, gərək yenə yola çıxaydı. O sağollaşanda qarı yüngülcə

başını tərpətdi, heç nə demədi. Sükut içində, sözsüz ayrıldılar. O, enişaşağı, Delfaya sarı getdi, qarı isə elə oturduğu yerdən davam edərək, qonağın dalınca – qədim vadiyə, şəhərə, məbədə, özünə yaxşı tanış olan hər şeyə baxırdı. Günəş artıq ora da yetişmişdi və insanlar öz həyət-bacasında gündəlik işlərinə başlamış, küçələrə çıxmışdılar. Məbəd meydanı hələ boş idi, amma cavan xidmətçi artıq məbədin önünü süpürür və qapının girəcəyini Tanrı meşəsindən olan dəfnə budaqlarıyla bəzəyirdi. Müqəddəs yolla isə gəlinlik paltarı geymiş cavan bir qadın riqqətə gəlmiş adamların və çox da təsirlənməyən biganələrin müşayiətilə, tələsmədən irəliləyir. Baxışları düz qarşısında açılan əzəmətli məbədə yönəlib və təbii ki, üzündə hələ indidən heyranlıq görünür, bir də ola bilər, qorxu – qarşıda görəcəklərinin qorxusu. Tanrı ilə görüş ərəfəsində həyəcan və onun yaşanan xiffəti. Sübh günəşi öz işığını məbədə gedən insan kütləsinin, bütün vadinin, yaxın-uzaq ətrafın – yuxarıdan açılan bütün mənzərənin üzərinə səpir.

Qarı oturmuşdu və hər şeyi öz qoca gözləri ilə görürdü.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# ƏBƏDİYYƏTİN TƏBƏSSÜMÜ

Günlərin birində ölülər, kim bilir, harada oturub əbədiyyətə aparan uzun yollarını qısaltmaq üçün söhbət eləyirdilər.

– Yox, – deyə onlardan biri, kim bilir, nə vaxtdan bəri gedən söhbəti davam etdirərək dilləndi, – bu dirilər özlərinə yaman arxayındırlar. Elə davranırlar, sanki, dünya elə onların üzərində qurulub. Orada, aşağıda daim qarışqa kimi qaynaşırlar, elə bilirlər yaşamaq budur. Hər gün evdən çıxanda səhərin sərin mehinə, yeni günün özünə sevinib, bir-birinə mübhəm-mübhəm baxırlar – yəni biz sağıq ha, biz yaşayırıq. Sonra da cumurlar işlərinin dalınca, fərqi yoxdur, istər xeyir iş olsun, istər şər, mindirirlər bir-birinin belinə, o qədər yığırlar ki, axırda hamısı təpəsi üstə tökülür, dağılır, elə ki dağıldı, başlayırlar bir də təzədən qalaqlamağa. Özündənbəy, lovğa miskinlərdir də – onlara daha nə ad verəsən.

O oturub, qayğılı nəzərlərlə düz qənşərinə baxırdı. İri sümüklü, öd kimi acı, əldən düşmüş birisi idi.

– Hal-hazırda həyatda bir neçə milyard ölü var, – deyə o davam edirdi. – Əslində isə, diri elə bizlərik. Onların, həmin o aşağıdakıların həyatında yaşayırıq. Sakitcə yaşayırıq özümüzçün. Addımlarımızı eşidən yoxdur, yalın ayağı kim eşidəcək ki. Biz nə səs-küy salırıq, nə ara qarışdırırıq, təvazökar, qaradinməzik. Nə parovozların fitini basan bizik, nə də qatarları yola salan, telefonla oyan-buyana zəng də çalmırıq. Amma elə, əslində, yaşayan da bizik. Onlar kimi bu gün tikib, sabah sökən deyilik. Biz nə səhərin yetişməsini, nə axşamın düşməsini hiss etmirik. Amma məhz bizik yaşayan. – O, ağır-ağır nəfəsini dərdi. – Məhz biz yer üzündə hər şeyin fikrini çəkmək, hər şeyi xatırlamaq, heç nəyi unutmamaq iqtidarındayıq.

Günbəgün, ilbəil, minilliklər uzunu mənəvi aclıqdan əzab çəkən də bizik.

Bütün sükut anları bizə məxsusdur. Nə vaxt, kim ağlayırsa, onun göz yaşları da bizimkidir. Kim xoşbəxtdirsə, onun xoşbəxtliyi də bizimdir. Qısası, az-çox əhəmiyyətli nə baş verirsə, hamısı bizə məxsusdur. Zira kainatda, həqiqətən, canlı yalnız ölülər ola bilər.

O, öz monoloqunu kəsdi və öskürərək tüpürdü. Ağzını silə-silə yenə nəsə dedi, amma nə dedisə – daha eşidən olmadı.

– Düzü, bilmirəm ki, dedikləriniz həqiqətdir, yoxsa yox, – deyə həmsöhbətlərindən biri fikirli-fikirli dilləndi. – Bir Tanrı bilir ki, həqiqətən, biz böyük əhəmiyyət daşıyırıq, ya yox. – Mən dirilərin tam əhəmiyyətsiz olmasına heç əmin deyiləm. Məsələnin kökünə baxsaq, elə bilirəm, onların kiçik də olsa, əhəmiyyətini görə bilərik. Düzdür, onlar bizi həyasızcasına özlərinin alver predmetinə çeviriblər, elədiklərimizdən bəhrələnərək, özlərini həddindən ziyadə öyürlər. Lakin axı onlar da həyata öz paylarını verirlər, lap az da olsa və həmin bu pay hər konkret an üçün böyük əhəmiyyət daşıyır, baxmayaraq ki, sonralar yavaş-yavaş qiymətini itirir. Yox, mən heç cür razılaşa bilmərəm ki, onların dünyada heç bir əhəmiyyəti yoxdur. Hələ bundan da savayı, mən hətta özümdə cəsarət taparaq israr edirəm ki, biz ölülərdən fərqli olaraq, həqiqətən, yaşayan elə onlardır.

Ölülər uzun müddət susub oturdular, hərəsi öz fikirlərinə qərq olmuşdu.

Nəhayət, arıqlığından sümükləri çıxmış həmin ölü yenidən dilləndi. Qupquru əlini başına söykək edib, nəzərlərini zülmətə (biz buna zülmət deyərdik) dikərək deyirdi:

– Bu lap çoxdan olub, amma yadımdadır ki, onda dəniz kənarında yaşayırdım. Məncə, elə orada doğulmuşam, bütün ömrüm də orada keçib. Amma mümkündür ki, məni o yerlərə nə vaxtsa bir təsadüf gətirmişdi, sonra da çıxıb getmişdim. İndi

artıq yaxşı xatırlamıram, amma məsələ bunda da deyil. Hər necə olsa, dəniz sahilində yaşadığım yaxşı yadımdadır.

Ləpədöyənin şəffaf suyunda çınqılların xışıltısını xatırlayıram. Hər şeydən artıq da fırtınanı, bütün səsləri boğan, inildəyən fırtınanı, bir də ki suyun üzərində üst-üstə qonan buludları yadda saxlamışam. Və bir də sükut, donmuş sükut, ətrafımdakı mütləq sükut xatirimdədir.

Dəniz – aşağıda, yer üzündə olan şeylərdən, həqiqətən, yeganə əzəmətlisi elə onun özüdür. Bu, onların əbədiyyətidir. Mən dəniz sahilində yaşayırdım. Evim lap dəniz kənarındaydı, gözümün önündə onun ənginlikləri açılırdı. Pəncərələrimdən birinin qabağında balaca, yarıqurumuş bir dibçək çiçəyi vardı, daim unudurdum onu sulamağı. Bilmirəm, o, niyə belə yaddaşıma yazılıb, mənim həyatımda bu çiçəyin heç bir rolu olmayıb, əslində, axı dəniz kənarında yaşayırdım. Amma, hər halda, həmin o çiçəyi tamamilə dəqiq xatırlayıram. Yadımda o da qalıb ki, artıq lap ölməli olanda çiçək hələ də əvvəlki yerindəydi, hələ ona baxıb fikirləşdim də: əgər indicə öləsi olmasaydım, ayağa qalxıb su verərdim ona. Bir də yadımdadır uzanıb ona baxanda düşünürdüm ki, bu çiçək məndən çox yaşayacaq. Yazıq. Amma, əslində, elə bir rolu yox idi mənim həyatımda, axı dəniz kənarında yaşayırdım.

Mən kifayət qədər əhəmiyyətli adam idim. Məncə, yaşadığım dövrdə elə bir adam yox idi ki, mənimlə müqayisəyə gələ bilsin, adımız yanaşı çəkilsin. Hər halda, özümə bənzər birini görmək heç vaxt nəsibim olmamışdı. Bir də ki, camaatla nə işim vardı axı. Tənha yaşayırdım da; özümlə baş-başa. Fırtınanı, sükutu dinləyirdim, hələ sağ olanda kifayət qədər canlı, mütəfəkkir bir insan idim. Bütün həqiqətləri içimə sığışdırmışdım. Kimsə mənə tay deyildi, həqiqi sözümdür, düzü bu idi: yadımda qalan qədər o dövrdə mənim miqyasımda kimsə, doğrudan, bütün yer üzündə tapılmazdı.

Mən, sanki, ölmək üçün xəlq edilmişdim. Başqaları haqqında bunu deyə bilməzsən axı. Mən isə həqiqi çəkiyə, həqiqi

qiymətə malik idim. Mən, həqiqətən, canlıydım. Odur ki rahatca ölə bilərdim. Sadəcə ölərdim, vəssalam.

O susdu. Nəfəsini fışıltıyla çölə buraxdı. Lakin yenə dilləndi, elə həmin ciddi ahəngiylə:

– Mənə elə gəlir ki, ölüyə çevrilmək üçün, daha doğrusu, əbədiyyətə qovuşmaq üçün, həqiqətən, gərək yaşayanda dərin məna, məzmun daşıyasan. Gərək adi həyatdan kənarda, ondan ucada durasan, ona tabe olmayasan. Mən, məsələn, eləydim, əhəmiyyətli bir insan sayılırdım.

Söhbətə yenə ikinci həmsöhbət qoşuldu. O dedi:

– Mən burada deyilənlərlə qətiyyən razı deyiləm, diqqətinizə yetirmək istəyirəm ki, elə mən də həyatda olanda çox gözəgəlimli bir şəxsiyyət idim. Hərçənd ki, özüm barədə belə danışmaqdan heç vaxt xoşum gəlməyib. Mən – öz gözümdə də olmasa, başqalarının gözündə nə zamansa yer üzündə yaşamış insanların ən qeyri-adisi idim. Qismətimə sərvət və şöhrət içində yaşamaq düşmüşdü, dalbadal dahiyanə əsərlər yaradır, elə igidliklər göstərirdim ki, yəqin, insanların yaddaşında əbədi yaşayacaq. İndi artıq özüm unutmuşam nələr etdiyimi. Bəlkə də, elə belə yaxşıdır: bütün bunları burada xatırlamaq özü bir əzabdır. Axı indi özümü heç qeyri-adi şəxsiyyət saymıram. Mən indi özümü çox adi, çox əhəmiyyətsiz bilirəm. Amma mən, sanki, yaşamaq üçün xəlq olunmuşdum. Bax burada, beləcə ölmüş vəziyyətdə oturub qalmaq – məncə, bu hamının əlindən gələr, buna nə var ki. Lakin yaşamaq, sözün əsl mənasında yaşamaq və həyata sevinmək – bu yalnız qeyri-adi şəxsiyyətlərə aid olan bir şeydir. Mən də belələrindən idim. Özüm də, bir çox başqa adamlar da nə vaxtsa öləcəyimi ağlasığmaz bir şey hesab edirdilər. Ölməyim də elə çox sarsaq bir iş oldu – bədbəxt hadisə. – O da köksünü ötürüb susdu və bir xeyli müddət öz düşüncələrinə qərq olaraq, dinməz oturdu, amma sonra əlavə elədi: – Bayaq dediyim kimi, mən çox qəribə şəxsiyyət idim. İndi isə diqqətəlayiq heç nəyim yoxdur. Belə hesab edirəm ki, həyat çox əzəmətli

və zəngin bir şeydir. Mənə elə gəlir ki, ölüm bir heçdir. Mən dünyada canlı nə varsa hamısını sevirəm və indiki əhəmiyyətsizliyimə nifrət bəsləyirəm. Nə qədər qəribə olsa da, məncə, həqiqətən, yaşamış insan yer üzündə az olar. Özüm barədə danışmaqdan heç xoşum gəlməsə də, elə bilirəm, yaşamaq istedadında mənə tay ola biləcək kimsənin mövcudluğunu təkzib etməliyəm. İndi isə ölmüşəm. – O susdu. Sanki, söhbət artıq tamam bitmişdi.

Amma bu yerdə üçüncünün səsi çıxdı. O, alçaqboy tösbərək kişiydi, xırdaca gözləri və sallaq qarnı vardı, tomppuş əllərini daim qarnının üstünə qoyurdu. Dükançıya bənzəyirdi, zahiri görünüşündən müsbət adama oxşayırdı, amma yaman boz-bulanıq idi. Qısa ayaqlarını həmin o zülmətə bənzəyən şeyin içində yelləqirdi. Bəlli idi ki, əgər stulda otursaydı, ayaqları yerə çatası deyildi. O dedi:

– Hörmətli cənablar, sizin söhbətlərinizdən bir şey anlamasam da, səmimi-qəlbdən hər ikinizlə razıyam. Yaşamaq yaman gözəl idi. Necə şirin, necə zəngin idi həyat. Piştaxtamın arxasında dayananda ətrafım malla dolu olurdu, qəhvə, pendir qoxusu, sabun, marqarin iyi dəyirdi burnuma – həyat qiyamət idi.

Şəhərdə ən böyük dükan mənimki idi. İnanın mənə, ikinci belə dükan tapa bilməzdin. Dükanım əsas küçədə yerləşirdi, bütün müştərilər mənim yanıma gəlirdilər. Mən də onlara o qədər həssas münasibət göstərirdim ki, gəl görəsən. Qısası, bizim şəhərdə bundan gözəl dükan yox idi, inanın mənə, mən bunu ona görə demirəm ki, indi sizin qarşınızda qürrələnmək istəyirəm, adi adamam da – baqqal Petterson, vəssalam. Amma rəbbimə şükür eləyirəm ki, dünyada yaşamışam.

Ölmək vaxtım çatanda – ah, nə qədər ağır idi mənə – üzümü divara çevirdim və öz-özümə dedim ki, tamamdır, Petterson, hər şeyin axırı çatdı. İnanmırdım ki, orada hələ nəsə var, elə bilirdim, həqiqətən, hər şeyin sonudur. Başım həmişə işlərimə elə qarışıq olurdu ki, yüksək materiya barədə düşünməyə

vaxtım qalmırdı, o qədər qayğım vardı ki. Bir də kim idim axı mən! Sadəcə, baqqal Petterson, mənim kimisi minlərlədir və ölərkən bütün həyatımı xatırladım, xatırladım ki, illər uzunu tərəzi dalında nəsə çəkmişəm, balıq-zad bükmüşəm kağıza, fikirləşdim ki, bunlara görə mənim də qismətimə əbədiyyətin düşməsi çox qəribə olardı. Öz-özümə dedim ki, ölümdən sonra həyatın olub-olmamasının dəqiqini şeytan bilir, yəqin, amma mənim nəsə buna heç inanmağım gəlmirdi. Sonra isə öldüm.

Bəlli oldu ki, var imiş bu! İndi də oturmuşam sizin yanınızda. Elə bil, heç nə olmayıb. Sanki, əvvəlki kimi piştaxta arxasında ərzaq çəkirəm, balıq bükürəm. Elə əvvəlki kimi baqqal Pettersonam ki, varam. O riqqətə gələrək susdu. Sonra da əlavə etdi: – Bu həyatdan bir şey anlamasam da, hər şey üçün minnətdaram. Mən yaşayırdım. Sonra da öldüm. Amma indi yenə yaşayıram. Bütün bunlar üçün minnətdaram.

Daha bir söz demədi, dərin fikrə gedib oturmuşdu.

Ortaya sükut çökdü.

Söhbət isə zülmətdə səyahətinə başladı, ölülərin bir qrupundan o birisinə, daha uzaqda yerləşənlərə keçə-keçə, daha yuxarılara qalxa-qalxa gəzdi və dövrə vuraraq, yenə də üzüaşağı yönəldi. Əgər yer üzündəki vaxtla ölçsək, təxminən yüz ildən sonra o, yenə bayaqkı dəstəyə yetişdi, amma bu dəfə tamam başqa tərəfdən. Bu dəfə onların deyəsi bir sözü də yox idi. Acıdil dedi:

– Xatırlatdığım kimi, mən çox əhəmiyyətli bir şəxsiyyət idim. Mən həm də belə düşünürəm ki, ölü olmaq üçün, daha doğrusu, əbədiyyətə qovuşmaq üçün, gərək həqiqətən, bir dəyərin olsun. Gərək həyatdan kənarda, bir az yuxarıda dayanasan, onun tabeliyində, ondan asılı olmayasan. Mən elə idim.

İkinci həmsöhbət dedi:

– Mən elə bilirəm ki, həyat hər şeydir. Düşünürəm ki, o, ağlasığmaz dərəcədə nəhəng və zəngindir; onun miqyasını yalnız özü nəhəng olanlar anlayarlar. Mənim nəsibimə bu düşmüşdü. Amma indi adi ölüyəm.

Onlardan bir qədər aralıda, sanki, tamam ayrı oturmuş dükançı isə yalnız bunu əlavə etdi:

– Mən isə elə qabaqkı kimi baqqal Pettersonam.

İndi onların hər üçü dinməz oturmuşdu, öz fikirlərinin içindəydi, amma ətrafında başqa söhbətlər cərəyan edirdi, hər kəs yalnız öz həyatından danışırdı, kimsənin dediyi maraqlandırmırdı onu. Biri deyirdi:

– Mən özüm barədə, həyatım haqqında danışım. Mənim səhərdən axşama kimi çalışdığım şəxsi emalatxanam böyük bir şəhərin qırağında yerləşirdi, qıfıl ustasıydım və bu mənim yeganə işim idi, sizə də elə bu barədə danışmaq istəyirəm. Daim tənha olurdum. Yanımda kimsənin varlığına dözə bilmirdim. Balaca dəmirçixana köhnə bağçanın lap dərinliyində idi, orada çoxlu ağac bitirdi; meyvə ağacları, güllər, onları çox-çox qabaqlar kimsə əkmişdi burada, heç bilmirdim kim. Lakin bağçanı kol-kos yaman basmışdı, axı mənim başım öz dəmirçixanama qarışmışdı, başqa şeylə nə işim vardı ki. Səhərdən axşama kimi alaqaranlıq otaqda şəhərimizdəki evlər üçün cürbəcür kilidlər düzəldirdim. Adi kilidlər deyildi, bir-birinə qətiyyən oxşamazdı, hər yeni kilid özündən əvvəlkilərdən tamam fərqliydi və onların asıldığı qapılardan yalnız açarı əlində olan, onu açmağın yoluna bələd adam keçə bilərdi, məsələn, əvvəl, gərək açarı bir tərəfə buraydın, sonra bir az da dərinə salıb, tamam başqa tərəfə; ya da görürdün ki, fərqli, tamam yeni bir fənd fikirləşirdim, onun da sirrini yalnız kilid sahibinə açırdım, insanları görməyə gözüm yox idi, öz kilidlərimlə ayırırdım onları bir-birindən, hərəsini öz otağında bağlayırdım. Mənim kilidlərim geniş şöhrət tapmışdı, onları xüsusi dükanda satırdılar, amma özüm bilmirdim ki, həmin dükan haradadır, mən heç şəhəri də tanımırdım, evdən heç vaxt çıxmazdım, başım həmişə öz işimə qarışıq idi. Hamı öz evinə mənim kilidlərimdən almaq istəyirdi ki, qapılarını kimsə aça bilməsin, mən də səhərdən axşama kimi işimi görürdüm, illər uzunu eyni işi, özü də tək-tənha, pulum da

elə hey artır, üst-üstə gəlirdi, kilidlər bahalıydı, amma yenə də alırdılar, mən də varlanırdım yavaş-yavaş, artıq çox varlıydım, amma sərvətimin qədərindən də xəbərim yox idi deyə, hələ ki, kasıb idim. Qocaldım, saçlarım ağardı, işləyəndə əllərim artıq əsirdi; amma bunu kimsə görmürdü, çünki tamam tək idim: günlərin birində başladım öz həyatım üzərində fikirləşməyə, əvvəl necə idim, nə iş görürdüm, lakin indi də davam etdirirdim öz işimi, titrəyən barmaqlarımla kilidlərimi düzəldirdim. Mən öz həyatımdan danışıram. Bir dəfə səhərçağı, işdən ayrılıb, başımı qaldıranda, emalatxanamın toz içində olan pəncərəsindən bağçadakı ağacların arasıyla gedən bir gənc qız gördüm. Onun on yeddi-on səkkiz yaşı ancaq olardı, başıaçıqdı, saçları da açıq rəngdəydi, günəşin altında par-par yanırdı, o isə üzündə xoşbəxt bir təbəssüm, ətrafına göz gəzdirə-gəzdirə gedirdi. Cəmi bircə an göründü gözümə, sonra ağacların arxasında yox oldu.

Mən başdan-ayağa qəribə bir hissə qərq olaraq, yerimdə donmuşdum. İşim yadımdan çıxdı, dayanıb pəncərəyə baxırdım, amma qız artıq orada deyildi. Təkcə obrazı qalmışdı: açıq rəngli saçları, xoşbəxt, cavan, hamar sifəti. Bütün bunlar mənə o qədər doğma gəlirdi ki. Onu qabaqlar heç görməmişdim, ümumiyyətlə, adam görmürdüm. Amma nədənsə içimdə elə bir hissiyyat vardı ki, həmin o sarışın mənim qızımdır, amma bilmirəm niyə belə düşünürdüm. Mən axı heç vaxt, heç bir qadınla bir yerdə yaşamamışam. İndi isə bədbəxt, belibükük, əlləri əsən bir qocaydım, amma qəflətən özümü bu qızın atası hiss etmişdim. Saçları o qədər gözəl idi ki, günəş onu sığallayanda heç ayrılmaq istəmirdi. Bu qızın kimliyini də bilmirdim. Təkcə bunu bilirdim ki, sevirəm onu. Mən dayanıb pəncərəyə baxırdım, o isə artıq yox idi.

Özümü məcbur edərək, yenə işin qulpundan yapışdım. Əllərim həmişəkindən də artıq əsirdi. Bunu kimsə görmürdü, ancaq özüm şahidiydim. Kiçik detalları əldə saxlamaq mənim üçün artıq çətin idi, elə tullanıb qaçmaq istəyirdilər, amma

mən çox çalışırdım ki, hər şey əvvəlki kimi olsun. Əlimi əsəbi vəziyyətdə dodaqlarıma bərk-bərk sürtdüm ki, əsməsini dayandırım. Öz-özümə dedim ki, bu məhəbbət haradan çıxdı, görəsən! Həyatda məhəbbətə layiq heç nə yoxdur, heç nə. Sonra hər şey öz yerinə qayıtdı, onu beynimdən çıxardım, öz işimlə məşğul olmağa başladım. Amma son zamanlar gözlərim də zəifləmişdi, pəncərəyə yaxınlaşıb tozunu sildim ki, rahat işləyə bilim. Birdən fikirləşdim ki, görəsən, qayıdanda bu yolla keçməyəcək ki.

Bütün gün arxada qaldı. Mən səylə çalışırdım, həmin gün həmişəkindən də çox iş gördüm. Və yalnız axşam, artıq qaranlıqlaşanda qız yenidən göründü.

Mən onu gördüm. Gülümsəyərək gedirdi, günəşin olan-qalan şüalarının hamısı saçlarında yanırdı. Pəncərənin qabağında donaraq tamaşasına durmuşdum.

O, gözdən itəndə oğrun-oğrun bayıra çıxdım. Bağçadan keçirdim, yay idi, hər tərəfdən gül qoxusu gəlirdi, mən isə ağacların arasıyla gedirdim. Yola çıxdım, burada hər şey o qədər yad idi ki, amma yenə oğrun-oğrun dalına düşdüm. Şəhərə girdim, onu uzaqdan izləyirdim, küçələr bir-birini əvəz edirdi, mən isə yalnız onu görürdüm. Qız evlərdən birinə girdi. Küçədə gözləməyə başladım, bir az aralıda. Uşaqlar mənə gülürdülər, demə, önlüyümü çıxarmağı unutmuşdum. Asta-asta evimə döndüm.

Daha onun haqqında fikirləşmirdim. Elə qabaqkı kimi işimi görürdüm. Qısa bir zamanda lap qocaldım, bu yay bitəndə, payız başlananda oldu. Bağçada yarpaqlar tökülməyə başladı. Bir dəfə axşam, adətim üzrə, belimi büküb işimi görəndə, ürəyimin yerində bir soyuq, bir boşluq duydum, canımdan üşütmə keçdi, ayaqlarım, əllərim buz kimi oldu. İşimi buraxıb nəfəsimi dərdim, əsim-əsim əsirdim. Ayaq üstə zorla durmuşdum, mənə elə gəlirdi ki, indicə öləcəyəm. Elə bir qorxu girdi canıma ki, alaqaranlıqda, cəmi bir kirli lampanın səyriyən işığıyla aydınlanan otaqda bənd-bərəsi bağlanmış vəhşi

kimi ətrafıma döyükdüm, pəncərədən o üzdə külək vıyıldayır, yağış tökürdü, qoca bağçanın qol-budaq atmış ağacları lüt budaqlarını pəncərənin şüşəsinə çırpırdı, yox, mən burada tənha ölmək istəmirdim, ölmək istəmirdim, kaş tək olmayaydım, kaş bu tənha otaqda ölməyəydim. Səntirləyə-səntirləyə artırmaya çıxdım, bayıra açılan qapını itələdim. Külək az qaldı məni ayaqdan sala, yağış düz üzümə çırpırdı. Sonuncu gücümü topladım, yola düzəldim, özümü şəhərə çatdırdım. Belə havada küçələrdə bir ins-cins gözə dəymir, mən tək-tənha idim. Birtəhər irəliləyirdim. Yağışın altında, zülmətdə ayaqlarımı zorla ata-ata, birtəhər gedirdim. Mən onun evinə sarı gedirdim, mən onun yanında ölmək istəyirdim, onun yanında, balamın yanında. Evi tapa bilmirdim, çox gəzdim, çox dolaşdım, nəhayət ki, tapdım. Qapısını döydüm, hay verən olmadı. Titrəyən barmaqlarımla kilidi tapdım. Mən balamın yanında ölmək istəyirdim, sevimli balamın. Qapını açan olmadı.

Yenidən geriyə, evə tələsdim. Körüyü qızışdırdım, əritdim, döydüm, yondum. Mən açar düzəldirdim, bütün yadımda qalan açarları, onlar isə minlərləydi, artıq gecə də düşmüşdü. Yeyəni əlimdən buraxmırdım, bütün ömrüm boyu düzəltdiyim açarları – minlərlə açar düzəltdim. Onları bir ipə düzdüm; ağırlıqları altında belim bükülürdü, amma yenə bayıra çıxdım. Bu yerdə fikirləşdim ki, o, mənim nəyimi sevməlidir ki, dünya ilə haqq-hesabı təkcə ölümündə qalmış bir qocanı. Qayıdıb pullarımı da götürdüm, nə qədər vardısa hamısını götürdüm. Mən güman etdiyimdən xeyli artıq oldu, əgər bunların hamısını, nəyim vardısa, hamısını ona versəydim, bəlkə də, yanında ölməyimə razılaşardı. İkiqat yükün altında əyilərək, evdən çıxdım. Külək məni alıb, irəli apardı. Tamam gücdən düşmüş halda, onun evinə yetişdim. Yenə barmaqlarımla qapının kilidini tapdım, açarları yoxlamağa başladım. Bir-bir yoxladım, düşəni yox idi. Heç biri düşmürdü. Yəqin ki, zehindəki xırda bir yanlışlıq imkan vermirdi qapının

açılmasına, mən axı bilirdim ki, lap xırda diqqətsizlik, qeyri-dəqiqlik belə bəs eləyər, lap xırdası da. Ürəyim yerində donurdu. Yağışın altında, küləkdə titrəyirdim, yerə uzanmaq istəyirdim. Həyatım başa çatmışdı, yalnız uzanmaq və bir daha qalxmamaq keçirdi ürəyimdən. Lakin yenə şəhərin küçələrinə düşdüm, sanki, dumanda gəzirdim. Küçələrdə kimsə yox idi, mən yenə tək-tənha idim. Açarlarımı hər evin qapısında sınayırdım, mən artıq çox şey istəmirdim, mən artıq öz sevgili balamın yanında ölməkdən də vaz keçmişdim. Mən yalnız bir insan istəyirdim, kim olursa-olsun, elə bir insan ki, indi, ölümqabağı mənə sığınacaq versin. Elə hey yoxlayır, yoxlayırdım açarları, biri də açmadı. Yad bir evin qarşısında dizlərim üstə düşdüm və ürəyim öz mübarizəsini dayandırdı. Məni səhər elə orada tapdılar, bütün açarlarımı qucub ölmüşdüm. Sərvətim də heç oldu. Onu kimsəyə bağışlaya bilmədim, sadəcə əlimdən aldılar. Amma açarlar qaldı, onlara tamah salan olmamışdı.

O, öz söhbətini bitirib, sükuta qərq oldu.

Başqası deyirdi:

– Dağın döşündə bir qədim kənd var, orada daim günəş olur. Küçələr orada uzuyoxuşa qalxır, evlərin divarları ağappaqdır, par-par yanır. Mən də öz qardaşlarımla elə orada yaşayırdım. Onlar xoşbəxt və mehriban idilər, mən isə kinliydim, rahatlıq nə olduğunu bilmirdim, daim nəsə çatmırdı, elə bil. Qardaşlarım tarlada işləyir və evə yalnız axşamlar qayıdırdılar. Mənim başım ağrıdan az qalırdı çatlaya və ruhum rahatlıq tapmırdı. Mən öz küncümdə sakitcə oturub susmuşdum. Onlar isə masa arxasına əyləşərək, yemək yeyirdilər, mən də hirslənirdim onlara, heç özüm də bilmirəm ki, niyə; sonra onlar həyətə çıxıb, söhbətləşir, mahnı oxuyurdular. Biri sitra çalırdı, elə qəşəng çalırdı ki. Mən isə uzanmışdım, ağlayırdım. Yox, bu, adam səsi deyildi, sitranın özüydü belə gözəl, belə qəribə oxuyan. Onlar mənimlə heç danışmırdılar, zəhlələri gedirdi məndən – niyə, görəsən?

Mən gündən-günə solurdum. Əriyib çöpə dönmüşdüm. Mənim həyatımda heç nə yox idi, taleyim məni kor qoymuşdu. Və bir dəfə onların yeməyinə gizlicə nəsə tökdüm, hamısı öldü. Bu mənim əlimdən gələn yeganə şey idi, daha nə edə bilərdim ki. Amma bu da heç nəyi dəyişmədi. Evlər elə qabaqkı kimi, günəş şüaları altında par-par yanırdı, insanlar isə gülümsünürdülər, onlar xoşbəxt idilər. Mən isə günbəgün solurdum. Sönürdüm, sanki. Bütün bunları ona görə danışıram ki, soruşum – niyə?

Bu yerdə birisi də dilləndi:

– Mən həyat sevincinin dalınca qaçırdım. Onu başqalarından oğurlayıb mənimsəyirdim, istəyirdim bütün xoşbəxtlərdən də xoşbəxt olum. Gözüm də heç doymaq bilmirdi; bəxtim həmişə gətirirdi, sağdan da qapırdım, soldan da, həyatın gözəl nemətlərinə yaman acgöz idim, onlardan nə qədər dadırdımsa, yenə azlıq edirdi, o qədər kef görmüşdüm ki, elə bil, daha heç nə qalmamışdı, amma ölkəmiz hələ yekə idi.

Qocalandan sonra fikirləşdim ki, görəsən, indiyə kimi elədiklərim düz idimi və əlimdə bu qədər nemət ola-ola özümü, həqiqətən, xoşbəxt saya bilərəmmi? Tərəddüd keçirərək, özümü həyatda törətdiyim çox şeylərə görə ittiham etməyə başladım. Bir dəfə birisi ilə rastlaşdım, ondan da oğurluq etmişdim, ayaqlarını zorla çəkirdi, görkəmi xəstəhal, miskin idi. Burada inandım ki, hər şeyi düz eləyibmişəm. Yoxsa onun kimi olardım. Mən öz xoşbəxtliyimi dərk etdim. Mən varlı idim. Onun isə heç nəyi yox idi.

Bu görüşdən bir neçə gün sonra o öldü. Yaşadığımız ölkədə mənim geniş malikanəm vardı, orada payız ovuna çıxırdım. Bir dəfə səhər-səhər mən ova tək getdim, baxmayaraq ki, artıq səksən yaşım vardı. Yağış yağırdı, payız meşəsinin iyi gəlirdi. Ayağım büdrədi, tüfəng açıldı. Yadımda qalan sonuncu şey – ağzımı gödəkcəmin qoluyla silməyim oldu, qolum yaş idi, o yağışın iyini hələ də xatırlayıram və bu sonuncu xatirəmdir, indiyə kimi yadımdadır və mən yaşadığıma görə, həqiqətən, xoşbəxtəm.

Beləcə oturub, özlərindən danışırdılar.

Amma bircə dəfə belə ağızlarını açmayanlar da çox idi, elə bil, heç burada deyildilər. Onların arasında bəstəboy, diqqət cəlb eləməyən bir qoca da vardı, o yalnız sakitcə oturaraq başqalarını dinləyirdi. Onun çox həssas qəlbi vardı və yoldaşlarının əhvalatlarına böyük maraq göstərirdi. Özü öz həyatı barədə fikirləşəndə yaşadıqları ona elə boz-bulanıq, elə gülməli gəlirdi ki, xatirələrindən danışmağa utanırdı. Əvəzində, başqalarının özündən danışdıqlarına diqqətlə qulaq asırdı və sanki, başqa həyatlar yaşayırdı, elə bil, öz həyatı heç olmamışdı. Hərçənd ki, həyatı boyu heç olmasa nəsə görmüş olmalıydı axı, elə bir şey ki, yalnız özünə məxsus ola, başqa heç kəsə. Tez-tez özünə bu fikri təlqin edirdi ki, onun şəxsi, özünəməxsus və təkrarolunmaz cəhəti elə başqalarının həyatı ilə yaşamaq istedadında, özü bir şey olmasa da hamını anlamaq bacarığındadır. Amma hərdən özünəməxsusluğu, təkrarolunmazlığı özünü tamam başqa şəkildə büruzə verilirdi və qəlbinin dərinliklərində onun nə qədər gözəl, nə qədər bənzərsiz olduğunu duyurdu, lakin kimsəylə bölüşə bilmirdi. Amma istəyərdi. Başqalarını xoşbəxt etmək istəyərdi. O da istəyərdi ki, beləcə oturub, başqaları kimi özünün sadə həyatından danışsın, necə yaşadığından, nələr düşündüyündən, yaşayarkən nələr duyduğundan danışmaq keçirdi ürəyindən. Lakin hər dəfə bütün bunlar onun dilindən qopmağa hazır olanda qorxurdu, axı yoldaşlarına onun həyatı o qədər mənasız görünərdi ki, onlar, yəqin, bütün bu başına gələnlərin bir qara quruş qiyməti olmadığını düşünərdilər və ona gülməyə başlayardılar, onu dolayardılar: o isə bunu heç istəmirdi, çünki onun üçün həyat nə mənasız idi, nə gülməli, hətta öz həyatı belə. Odur ki yalnız başqalarına qulaq asırdı, özü isə susmağa üstünlük verirdi. Başqalarının söhbətlərində həyat onun yaşadıqlarından daha çox-çox əhəmiyyətli görünürdü və o başa düşürdü ki, özünün əhəmiyyətsiz olaylarını ortaya çıxarmağın mənası heç yoxdur: danışmayanda hər şey gözəl,

həyat daha maraqlı, daha çoxşaxəli gəlirdi ona, amma elə həqiqətdə də beləydi. Başqalarının nəsə güclü, zəngin hiss-həyəcanları olmuşdu, onların hamısının nəyisə çiçəklənir, bəhrə verirdi. Bəlkə də, onların özləri danışdıqlarını heç də həmişə əhəmiyyətli bir şey saymırdılar; amma o duyurdu bunu, bilirdi ki, məhz belədir. Elə ona görə də başqalarına qulaq asır, onların yerinə xoşbəxt olurdu. Həyat haqqında dəyərsiz bir şey kimi söz açanlara qətiyyən inanmırdı. Lakin o qədər ehtiraslı idilər, dərdlərinin dərinliyi o qədər nəhayətsiz idi ki, onları yaxşı başa düşürdü. O, uzaqdan axan selin səsinə qulaq verirdi, sanki. Zira ki, özü əhəmiyyətli bir hadisə, fövqəladə, güclü hisslər yaşamamışdı, o sadəcə olaraq sakitcə sevinərək, həyatını sürmüşdü.

O, yerin altındakı ictimai tualetin pəncərəsi önündə oturub, camaatdan pul yığırdı. Bir ereyə bir parça tualet kağızı verirdi – vəssalam. Bax buna görə öz həyatından danışmaq istəmirdi, axı başqalarına bu həyat çox mənasız, hətta gülməli də gələ bilərdi. Bax beləcə, həyatının düz sonuna kimi həmin o pəncərənin qabağında oturdu. Bu işə düzələndə cavan idi, fikirləşirdi ki, işdir də, yoxdan ki yaxşıdır, orada çox ləngiməz, hələlik işləyəcəkdi, həqiqi meylinin hansı sənətə olduğunu aydınlaşdırana kimi işləyəcəkdi. Amma zaman keçdikcə anlayırdı ki, elə buna da həvəsi var, elə bu iş üçün yaranıb. Burada pis nə var ki? O elə bir yerdə çalışırdı ki, orada mütləq kimsə işləməli idi; əgər o da olmasaydı, kimsə mütləq olacaqdı. Elədirsə, qoy elə özü olsun. Kiçik vəzifə idi, amma o özü də heç böyük deyildi. Adi, sıravi bir adam, lakin bu iş elə adi, sıravi adam üçün idi. Belə düşünərək həyatını xoşbəxt yaşadı.

Ömrünü orada, torpağın altında səhərdən axşama kimi keçirsə də, gündüz işığını nadir hallarda görsə də, o, həyatı dərk edir, onu hər şeydən çox sevirdi. O anlamışdı ki, həyatda eybəcər heç nə yoxdur, əksinə, hər şey yaxşı, gözəldir. Bəzi şeylərin əhəmiyyəti bir qədər az, bəzisininki çoxdur,

amma hər şey elə öz yerində bəlli əhəmiyyət daşıyır: həyatda artıq, dəyərsiz, diqqətdən kənar qalası heç nə yoxdur. Hər şey əzəmətli ola bilməz, nəsə kiçik, balaca qalmalıdır, hətta lap cılız – heç olmasa onun xətrinə ki, başqa şeylər onun yanında daha yaxşı görünsün, daha çox ucalsın: zira həyat, əlbəttə ki, zəngindir, amma heç də nəhayətsiz deyil.

O, beləcə, yerin altında oturub, çox şeyi illər ötəndən sonra anlamışdı.

İnsanları yalnız ictimai tualetdən istifadə edənlər qismində müşahidə edirdi. Lakin onları başa düşməyi, sevməyi öyrənə bilmişdi. Onlar bura, yerin altına dünyada insanın varlığının məqsədini əsaslandıran nəsə bir qeyri-adi igidlik etmək üçün deyil, bütün canlılara xas olan sadə həyati ehtiyaclarını ödəmək üçün gəlirdilər. Lakin bu aktın özündə onlara nəsə bir alçaqlıq, rəzalət gətirən heç bir şey yox idi: insan onsuz da əzəmətli və nəcib bir məxluqdur və, o insanları sevirdi. Xüsusilə də, onların müəyyən qismini – həmin o tanıdığı güclü, hövsələli, səbirli insanları, bilirdi ki, taleləri neçə dəfə onların boğazından yapışaraq, bu adamlardan öz məqsədləri üçün istifadə etməyə çalışıb. Onların simasında o qədər sarsılmaz bir sakitlik vardı ki, hətta bu məkan kimi bir yerdə də o qədər təbii ləyaqət nümayiş etdirirdilər ki, onun özü də inam və sakitlik tapırdı. Tualet kabinələrindəki insanların öz təbii ehtiyaclarını necə ödədiklərini eşidə bilərdi; amma içəridən çıxanda ki, onlara baxırdın, kabinet haqqında fikirləşməyi bilmərrə unudurdun, o qədər ləyaqət vardı görkəmlərində. Bu insanlar ehtirasın, yeganə ali məqsəd naminə mübarizənin təcəssümü idilər. Hərdən belələriylə görüşəndən sonra o hələ bir xeyli oturub, onlar haqqında düşünür, onların varlığına sevinirdi, onların sifətlərini yadına salır, yuxarı, gün işığına necə çıxdıqlarını, nurlu bir inamla böyük işlər gördüklərini təsəvvürünə gətirirdi. İnsanlar isə ona o qədər də fikir vermirdilər, hətta heç görmürdülər onu. Əlindən tualet kağızını alırdılar, vəssalam, bundan sonra onlar üçün

daha mövcud deyildi. Elələri də vardı ki, onları lap üzdən də tanıyırdı, lap çoxdan bəri xatirindəydilər, onlar bu müəssisənin xidmətindən illər uzunu istifadə edirdilər, belləri bükülür, saçları ağarırdı, onlarla bir yerdə o da qocalırdı. Lakin bu adamlar onu tanımırdılar.

İndi, əbədiyyətin qoynunda isə, elə qabaqkı kimi, yalnız başqalarının danışdıqlarına qulaq asır, onlara inanırdı. Onlar heç onun mövcudluğundan da xəbərdar deyildilər, elə bil, yox kimiydi. Lakin o, orada, onların arasındaydı və xoşbəxt idi. İndi, həyatı boyu dəfələrlə olduğu kimi, hərdən qəlbini yaman açmaq istəyirdi, oraya topladığı sərvəti kiməsə bağışlamaq arzusundaydı, lakin hiss edirdi ki, malik olduğu hər nə varsa, onunku deyil, onun bildikləri başqalarının başına gələn hadisələrdən çox, həyatın özünə məxsus idi və elə buna görə də dinləməyə və hər şeyi yadda saxlayaraq, çinədanına yığmağa üstünlük verirdi, sanki, gec-tez bunların hamısının başqa birisinə, sevdiyi bir kimsəyə ötürüləcəyini bilirdi.

Çoxları öz xoşbəxtliklərini ondan az duyurdular. Çoxları oturub tənhalıqlarının əzabını çəkirdilər, başqalarına bənzəmədiklərinin ağrısı incidirdi onları, özləri kimisini tanımadıqlarından bilirdilər ki, onların qəlbindəkiləri kimsə anlaya bilməyəcək. Məsələn, burada iki adam vardı, onlar bir qədər kənarda otururdular, başqalarını heç başa düşmürdülər, necə ki başqaları da onları dərk etmirdi. Onlar heç bir-birilərini də anlamırdılar, amma əvəzində, danışa bilirdilər öz aralarında, hərəsi özü barədə. Birinin sağ əlində baş barmağı yox idi, belə anadan olmuşdu və elə bu səbəbdən bütün ömrü boyu tək qalmışdı. O, həmişə nəsə başqa cür, qalanları kimi olmadığını hiss edirdi, elə indi də həmin hiss vardı içində. Özünü heç vaxt cəmiyyətdən təcrid olunmuş, uğursuz, taleyindən incik olan saymırdı, o adamlar arasında yaşayır, çoxlarıyla görüşür, dostlaşırdı və bütün bunlara baxmayaraq, öz içində həmişə nəsə elə bir şey hiss edirdi ki, onu adamlardan ayırırdı, heç kəsin nə içindən keçə, nə də dağıdıb tökə

bilmədiyi bir divar kimi. Adamlar onunla bütün başqaları kimi danışa bilirdilər, elə hesab edirdilər ki, onun qəlbinə giriblər; amma heç ağıllarına da gəlmirdi ki, o, əslində, necə idi, zira onların hamısından fərqliydi.

Burada, əbədiyyətin zülmətində gördü ki, həmişə özünün fərqliliyini hiss edəndə nə qədər haqlı imiş, şəxsiyyətindəki özünəməxsusluğun çox dərin mahiyyətdən doğduğunu aydın başa düşdü: sağ əlinin baş barmağı isə elə əvvəlki kimi yox idi. Və bir də özünün tənhalığını daha bariz duyurdu. O oturub başqalarının söhbətlərinə qulaq asırdı, amma bütün söhbətlər, sanki, onun şüurundan yan ötürdü, elə bil, tamam başqa dildə danışırdılar. Onları başa düşmürdü və onlar da onu anlamırdılar, çünki onların ondan fərqi yalnız sağ əllərinin baş barmaqlarının yerində olmasıydı. Elə buna görə də o, tənhalığından qüssəyə düçar olaraq, hər şeydən imtina etmişdi.

İkincisinin bütün barmaqları vardı, amma əvəzində, orta barmağının dırnağında qara ləkə görünürdü. Bu ləkə hələ uşaq ikən əmələ gəlmiş, sonra da qalmışdı. Bütün ömrünü dırnağındakı ləkə ilə yaşamışdı, elə onunla bir yerdə qocalmış, onunla ölmüşdü. Nə qədər qəribə olsa da çoxlarının ağlına da gəlmirdi ki, o da tənhadır, ona fikir vermir, elə düşünürdülər ki, elə özləri kimidir. Hərdən bu barədə fikirləşəndə gülümsəməkdən özünü saxlaya bilmirdi: o, bütün bəşəriyyətdən fərqli idi, bəşəriyyətin isə bundan heç xəbəri belə yox idi. Amma onun özü üçün bu ağır bir yük idi. İnsanları bir-birinin ardınca dişinə vururdu, amma özü kimi bircəsi də rast gəlmirdi. Ümid edirdi ki, onu bu həyata yadlaşdıran qara ləkə, nə vaxtsa öz-özünə yox olacaq, ləkə də itmək bilmirdi. Onun tənhalığı isə elə dərinləşməyindəydi, bütün ömrünü səhrada səyyah kimi dolaşırdı. O şikayətlənmirdi, əzablarından xəbərdar olan yox idi, heç kəs bilmirdi ki, bütün dünyada özü kimi birisini axtarır, axtarırdı. Həyatdan da elə beləcə, dərk olunmadan köçdü, onun əzablarından kimsə şübhələnmədi də.





Burada, zülmətdə dırnağındakı qara ləkə onun gözünə görünmürdü. Lakin özü bilirdi ki, yerindədir, taleyinin qeyri-adiliyini də həmişəkindən daha iti düyürdü. Ətrafında bir boşluq vardı – qatı zülmətin özü kimi nəhayətsiz boşluq.

Onlar bir-birini tapanda sakitcə sevinirdilər, heç olmasa söhbət eləməyə kimsə vardı. Lakin bir-birini başa düşmək imkanları yox idi. Tənha olduqlarını hər ikisi anlayırdı, lakin heç biri o birisinin təkliyini dərk edə bilməzdi. Onların hər biri öz əzabını tək yaşadığından başqasının əzabını, təbii ki, hiss edə bilməzdi, yalnız dumanlı şəkildə ehtimal edərdi – qaranlıqda zorla sezilən uzaq bir işığın sayrışması kimi. Digərinin isə sağ əlinin baş barmağı anadangəlmə olmasa da, dırnağında heç bir qara ləkəsi yox idi. Onların əbədiyyəti bu minvalla axıb gedirdi.

Onlardan bir qədər aralıda isə bir kişiylə qadın pıçıldaşırdılar. Bu məsafədən sözlərini anlamaq olmurdu, təkcə ehtiraslı pıçıltılarıydı eşidilən. Onlar bütün ömürləri boyu bir-birini sevirdilər. Amma hələ də cəlb edirdilər bir-birini. Kişi deyirdi:

– Mən səni sevəndə, sanki, doğulmadığım, yad, nəhəng, uzaq bir ölkədə qərib kimi yaşayıram. Qarşımda ağaclar, dağlar ucalır, buludlar, quşlar süzür – əzəmətli, ecazkar bir ölkə. İşıqlı meşələrdə küləyin necə vıyıldamasını, dərin dərələrdəki çayların qıjıltısını eşidirəm. Qulaq asıram, amma doymaq bilmirəm. Lakin bu mənim ölkəm, mənim doğulduğum yer deyil. Sevdiyim bu ölkədə yaşaya-yaşaya, sanki, doğulduğum, buralardan çox-çox uzaqlardakı ölkəmin xiffətini çəkirəm.

Qadın isə cavab verdi:

– Səninlə olanda mən həmişə xoşbəxtəm.

Amma kişi belə deyirdi:

– Sən məni heç vaxt başa düşməmisən, mən sənin qəlbinə yol tapa bilmədim, sən də mənimkinə.

Qadın dedi:

– Mən həmişə səni sevmişəm.

Amma kişi cavab verdi:

– Sən mənim niyə yaşadığımı dərk edə bilmədin. Mən mübarizə aparırdım, əzab çəkirdim, qurur, uçururdum. Mən daim axtarır, daim tərəddüd keçirirdim. Bəs sən nə edirdin?

Qadın dedi:

– Mən inanırdım.

Kişi dinməz oturdu, fikrinin gözləri bütün həyatında gəzdi, hər nə olmuşdusa, hamısını birər-birər gördü. Sonra dedi:

– Mən həyatla mübarizə aparırdım.

Qadın dedi:

– Mən yaşayırdım.

Onlar bir müddət tənhalıqlarını bölüşmədən, susub qaldılar. Sonra kişi dedi:

– İndi isə hər ikimiz ölmüşük. Amma sən məni hələ də cəlb edirsən.

Qadın dedi:

– Mən elə həmişəki kimi səninləyəm, sevgilim.

Amma bu yerdə qalan ölülərin arasında bayaqdan gözə dəyməyən sadə bir fəhlə dilləndi; sakit, amma dərin bir hissiyyatla dedi:

– Mən evimizi istəyirəm. Şəhər ətrafının kasıb məhəllələrində bizim balaca bir evimiz vardı, amma o qədər də yoxsul deyildik, iki otağımız, mətbəximiz vardı, otaqlardan biri gündoğana baxırdı. Evimiz çox rahat, səliqəli, təmiz idi. Küncdəki stolların üstündə ağ süfrələr olurdu, qonaq otağımızdakı böyük masanın üstünə isə sarı süfrə salınmışdı, arvadım özü toxumuşdu onu. Biz xoşbəxt idik və başqa heç nə arzulamırdıq. Axşamlar mən fabrikdən evə qayıdanda – mənim işim ağır, yorucu idi, – hisdən qapqara olurdum, heç nəyə toxunmaq mümkün deyildi və körpəmi qucağıma almamışdan mütləq yuyunmağa, sonra da paltarımı dəyişməyə gedirdim, o isə mən qapının ağzında görünəndən qucağıma atılmaq istəyirdi.

Əvvəllər, hələ bu evi almamışdan mən daim elə kir-pas içində gəzir, yatmaq üçün yerimə də elə belə girirdim, mənim üçün heç nəyin fərqi yox idi, vecimə də deyildi. İndi isə hər

şeyə diqqət yetirirdim, hər şey əhəmiyyətli olmuşdu mənim üçün. Ətrafımdakılar mənim necə xoşbəxt olduğumdan danışırdılar. Biz şam edir, sonra işığı yandırmadan oturub dincəlirdik. Balacam da yüyürüb, dizimin üstünə dırmanırdı. Onun belə bir oyunu vardı: guya, mən atam, o da belimə minib çox-çox uzaqlara, qaranlıq meşəyə çapır, amma axırda at özü evin yolunu tapıb qayıdır. O, mənim qollarımın üstündə yuxulayırdı: sinəmə sıxdığı yanağı isti, qıpqırmızı olurdu. Mən evimizi buna görə istəyirəm.

Biz oturub uşağımızdan danışırdıq, amma, elə bil, söhbət özümüzdən gedirdi. Arvadımın səsi musiqi kimi idi, bu səsi heç vaxt unutmaram. Sonra qaranlıq düşməyə başlayırdı. Mən boşqabların naxışını, divardakı tablonu xatırlayıram, çəkməcəli komod və köhnə, qəhvəyi divan yadımdadır, bir də körpənin döşəmənin üstündəki oyuncaq parovozu. Ona görə evimizi istəyirəm.

O, öz keçmişinin xəyallarına dalıb susdu. O biri tərəfdə isə kimsə öz həyatından danışırdı, söhbətini maraqlı sayanlar üçün danışırdı. Uzun yaşamamışdı, nə mənası vardı ki, uzun yaşamağın. Sonra tam aydınlaşdı ki, həqiqətən, mənası yox imiş. O danışarkən hər şeyi təfərrüatıyla söyləyir, elə bu səbəbdən də söhbəti kifayət qədər inandırıcı görünürdü, hiss olunurdu ki, həmin hadisələri beynində dəfələrlə araşdırıb. Aramla, tələsmədən danışırdı:

– Bir dəfə meşədəki köhnə dəyirmanın yanına gəldim. Hələ gec deyildi, hava o qədər saf idi ki, sanki, bütün təbiət yuxudan indicə qalxmışdı. Günəşin çəpəki şüaları yarpaqları dəlib keçirdi, quşlar hələ cəh-cəhlərindəydilər, adama elə gəlirdi ki, bu, axşamçağı deyil, səhər idi. Otlar şehdən islanmışdı, su içindəydi, atımın dırnaqları da yaş olmuşdu, yaz isə özünün lap oğlan çağındaydı. Torpaq və ot iyi gəlirdi hər tərəfdən.

Mənim at belində getdiyim yol, deyəsən, dəyirmançının torpaqlarından keçirdi. Odur ki, darvazadan keçərkən dayanmaq fikrim yox idi, ləngimədən yolumu davam etdirmək

fikrindəydim. Darvazadan çöldə isə hər şey o qədər gözəl və qeyri-adi idi ki, istər-istəməz yüyəni çəkib ətrafıma göz gəzdirəsi olurdun. Həyəti dörd tərəfdən ağappaq tikililər üzük qaşı kimi dövrəyə alırdı – onlar ağappaq idi, sanki, dəyirman daşlarının və arabalara yüklənmək üçün hazır kisələrin üzərini bulud kimi alan un tozuyla kimsə kirşanlamışdı onları. Həyətin özü də başdan-ayağa un tozunun içindədir, at bundan həyəcanlanır, fınxıraraq dırnağıyla torpağı eşir, yerdən hər dəfə qapqara kəsəklər qoparır. Mənə isə bütün bunlar ecazkar gəlir. Gözəl mənzərədir. Bu məxsusi, bütün qalan dünyadan etibarla təcrid olunmuş kiçik bir dünya idi, sakit kənd mühiti, lakin bu dünya özündə həm də əzəmətli bir bolluq ehtiva edən bir dünyaydı, istər-istəməz adamın içində bir hörmət doğurdu. Düz dəyirmanın qabağında köhnə bir araba durub, qabaq təkərlərinin çənbəri yoxdur, milləri tamam çürüyüb və adama elə gəlir ki, araba diz çöküb. Dəyirmanın özü isə möhkəm qurğudur, geniş, əsaslı tikilib, onun girişi yerdən xeyli hündürdədir, lap bunker girişinə bənzəyir. At belində oturub, ətrafıma göz gəzdirəndə, bunkerin qapısı açıldı, qaranlıqdan dəyirmançının özü, sonra da arvadı göründü. Mən o dəqiqə başa düşdüm ki, bu, dəyirmançı ilə onun arvadıdır. Dəyirmançı cantaraq, qarasaç kişidir, əynində undan ağappaq paltarı var, əlləri isə mexanik əlləri kimi qapqara, yağlıdır, elə bil, maşın-zad təmir eləyir. Əvəzində zahirindən qırx-əlli yaş verilməli olan arvadı dolu bədənli, gülərüz qadındır – iri, yaxşı bəslənmiş, amma dadlı tikədən heç vaxt imtina eləməyən ev heyvanına bənzəyirdi. Döşləri əməllicə köpmüş iki çörək kömbəsi kimiydi, birbaş mənə sarı baxırdı, döşlərilə qarnının arasında piyli, koppuş əlləri görünürdü. O, mənim üzümə gipgirdə, qaşsız gözləriylə mehriban-mehriban baxır, piyli boynunun qırışlarında batmış başını tərpədərək salamlamağa çalışırdı, mən də özümü bütün günü meşə yollarında atını dördnala çapmış igid süvari kimi göstərərək, onun işarəsinə həvəslə cavab verirəm. Bu qonaq-

pərvər malikanənin təkcə görkəmi mənim əhvali-ruhiyyəmi artıq qaldırmışdı. Onlara deyirəm ki, meşənin dərinliyində belə gözəl, xəlvət bir guşə tapdığımdan çox məmnun qalmışam. Dəyirmançı başımın üstündən harasa baxaraq susur. Əvəzində arvadı şirin-şirin gülümsünərək, başını razılıqla tərpədir, yəni hə, hə, buralar, həqiqətən, çox gözəldir. Mən isə bu sakit guşəni tərifləyərək, az qala, bülbül kimi cəh-cəh vururam ki, buralar necə gözəl, necə səliqəlidir, pəncərələrdəki pərdələr nə qədər təmiz, bu un tozu səpilmiş həyət necə ürəyəyatandır, burada atılıb qalmış köhnə araba da adamı öz görünüşüylə çox riqqətə gətirir. Dəyirmançı arvadı da gözlərini mənim ağzımdan heç çəkmir. Düz girişdə, ayaqlarını bir az aralı qoyaraq durub, özündənməmnun təbəssümü dodaqlarından çəkilmir. Dəyirmançı isə, sanki, farağat komandasında durmuşdur.

Nəhayət, qadın soruşdu ki, dəyirmana baxmaq istəyirəmmi. “Əlbəttə, istəyirəm, böyük məmnuniyyətlə”, – deyə cavab verib, atdan düşürəm və divarda mıxça gəzirəm ki, atımı bağlayım. Amma bir şey dəymir gözümə, onda atı elə həmin köhnə arabaya bağlayıram – nə fərqi var ki, bundan sonra isə yuxarı, dəyirmançı ilə arvadının yanına dırmaşıram. Ora çıxmaq asan deyil, çünki giriş qapısı yerdən xeyli yüksəkdədir, pilləkən-zad da yoxdur, adamın ayaqları unlu divarlardan sürüşür. Amma birtəhər çıxıram. Dəyirmançının arvadı qəmiş kimi yapışıb, qayğıkeşlik edib, üstümün tozunu çırpır, dişsiz ağzının dərinliklərində ağaran iki dənə böyük köpək dişini göstərərək, gülümsünə-gülümsünə çırpır. Dəyirmançı isə lal kimi dinməzdir. Budur, biz dəyirmana baxmağa gedirik. Dəyirman daşları hərəkətə gəlir. Daşların böyük, ağır olmasına baxmayaraq, onlar, boğuq, tox bir uğultu ilə hərlənir, nə bir gurultusu var, nə də cırıltısı. Ahəstə-ahəstə fırlanır, adama sakitləşdirici təsir göstərir. Hiss olunur ki, onların taxılları boldur və bu çox gözəl bir hissdir. Un bütün döşəmənin üstündə qalın bir təbəqə yaradıb, adam ayağını

basanda ləpiri dərin qalır. Dəyirmançı durub baxır. Məncə, onun yaman sarsaq görkəmi var. Əvəzində arvadı ürəyiyumşaq qadındı, təbəssümü üzündən əskilmirdi. O, əhəmiyyətli bir görkəmlə öz təsərrüfatını mənə nümayiş etdirir, ağzını yummadan danışırdı və indi adamın gözünə bir az da kök görünürdü. Onun enli yançaqlarının ortasında aydın görünən çökək diqqətimi çəkir, görünür, əynində paltardan başqa heç nə yox idi. Amma bu mənə qətiyyən xoş təsir bağışlamır, hətta bir az iyrənirəm də. Amma bununla yanaşı, bu barədə düşünməyə bilmirəm. Mən gözlərimi çəkmədən bu ləngərlənən yançaqları süzürəm, onun utanmazlığına təəccüblənirəm.

Dəyirmançı isə qaranlıq otağın dərinliyindəki kiçik qapını açır – şəlalənin gurultusu bir göz qırpımında içəri dolur, güclü yel mənimlə dəyirmançı arvadının ətrafında havaya un buludu qaldırır. Mən səbirsizəm, yuxarıdan tökülən suyun dəyirmanın çarxını necə hərlədiyinə baxmaq istəyirəm. Amma dəyirmançının arvadı narazıdır, ərinin üstünə hirslə çığırır ki, qoyma, hara gedir bu. Lakin o, bu gurultu və iniltinin içində arvadının səsini eşitmir; mən də arxamı qadına çevirib, dəyirmançının dalınca ensiz, yaş, sürüşkən səkiyə çıxıram, müvazinətimi zorla saxlayıram və ehtiyatla daha bir neçə addım atıram.

Heyranlığımdan nəfəsim kəsilir. Burada, həqiqətən, görməli şey çoxdur. Dəyirmanın çarxı özünün köhnə, əpriyərək seliklənmiş pərləriylə altında kükrəyən qapqara sudan, həqiqətən, iblisvarı bir musiqi çıxarırdı. Gurultu və ulartı qulaqlarımı batırır və əlimi qeyri-ixtiyari yaş, soyuq bir tirə atıram. Ayaqlarının altında ulayan qapqara selin üstündə dayanmaq heç də xoşagələn bir şey deyil, lakin bununla bərabər, dəhşətli dərəcədə nəhəng, əzəmətli və qeyri-adi mənzərə vardı burada, adamın lap nəfəsi kəsilirdi. Mən xoşbəxt idim və dərindən, lap dərindən, köksdolusu nəfəs alır, çayın sərinini və təravətini sinəmə çəkərək, aşağıya, sıldırım sahillərin

yaratdığı dar boğazda kükrəyən çaya baxıram. İndi xatırlayıram ki, meşədən keçəndə bəndi aşan suyun səsini uzaqdan eşidirdim və hələ təəccüblənirdim ki, niyə çayın özünü görmürəm. Budur, indi, nəhayət, o, mənim gözlərim önündədir, özünün bütün əzəmətiylə buradadır: dəli kimi sahillərə çırpılır, burularaq inləyir, amma köpüklənmir, suları daim tutqun, daim qaradır.

Nəhayət, ətrafıma göz gəzdirərək, dəyirmançını axtarıram. O, səkinin lap axırında çömbələrək oturub, dəyirmanın çarxını yağlayır. Qəribə mənzərədir. Gərilərək, irəli uzanmış boynunun üstündə, alına tökülmüş qara kəkilli, sallaq bığlı başı özünün son dərəcə ciddi ifadəsiylə yaman gülməli idi. Bu zırpı uşaq daim öz-özüylə danışırdı, mən heç nə eşitmirdim, yalnız dodaqlarının necə tərpəndiyini görürdüm. Bütün qalan mənzərənin fonunda o, kifayət qədər komik bir personaj idi. Üzümü çevirib, yenə də aşağı baxıram, ayaqlarımın altında sürətlə axan suya. Hava bir az da qaralır. Axırda su da qapqara olur.

Nəhayət, sürüşkən səkidə müvazinətimi birtəhər saxlayıb, geri dönürəm və düşünürəm: görəsən, dəyirmançının arvadı necədir? Elə belə də bilirdim: o, bayaqkı kimi elə dəyirman daşlarının yanındaydı, gəzişirdi, şişman və girdə. Məni görərkən mehriban-mehriban gülümsünür. Amma görürəm ki, nədənsə narazıdır. O, bayaqdan bəri bayırda nə etdiyimizlə maraqlanır. Mən də cavab verirəm ki, oralar o qədər gözəldir, adam özünü qayıtmağa məcbur eləyə bilmir və soruşuram ki, niyə bizimlə getmədi. O isə: – Taxtalar çox sürüşkəndir və bir də o dar qapıdan keçmək mənimçün lap zülümdür, – deyə cavab verir. Bu yerdə də ona baxıb, qəhqəhə çəkirəm, özümü heç cür ələ ala bilmirəm. Amma o, qətiyyən pərt olub-eləmir, sakit hərəkətlə piyli baldırlarına sığal çəkirdi və mənə elə bir baxış atdı ki, lap çaşıb qaldım, bu baxışın mənasını anlaya bilmirdim. Sonra isə maraqlandı ki, bəs əri niyə gəlmir, nə edir orada? Çarxı yağlayır, – deyə saymazyana cavab verdim, sanki, yer üzünün ən adi işiydi bu. Onda səbirsiz

bir tərzdə başını yelləyib, qapıya tərəf gedir. Başını bayıra çıxararaq, onu çağırır. Lakin o, görünür, eşitmirdi. Qadın bir də səsləyir, o, yenə görünmür. Onda mən gedirəm köməyinə. Onun başının üstündən baxıb görürəm ki, dəyirmançı, elə bayaqkı kimi, dizi üstə oturaraq, çarxı yağlayır. Onun iməkləmə vəziyyətində görkəmi o qədər axmaq idi ki, gülüşümü saxlaya bilmədim. Biz artıq ikimiz də səs-səsə verib çığırışırdıq. O isə, sanki, kar, kor olmuşdu. Dəyirmanın çarxı qaranlıqda elə guruldayırdı ki, adam lap birtəhər olurdu. Biz yenidən birlikdə çağırırıq onu. O isə yerindən tərpənmir. Belə olanda, qadın qapını elə qəzəblə çırpır ki, bütün bina lərzəyə gəlir və cəftəsini də çəkir. Amma elə həmin dəqiqə də yenidən mehribanlaşır – sanki, heç nə baş verməmişdi. Amma bizim aramızda, həqiqətən, elə bir şey baş verməmişdi. O yalnız ərinin əlindən hirsliydi. Biz onunla oradan-buradan söhbət eləməyə başladıq, bu gün havanın necə gözəl olmasından – bir sözlə, belə şəraitdə, adamın danışmağa sözü olmayanda, adətən, nə danışırlarsa, həmin o cürbəcür, mənasız şeylərdən. Amma üzündə elə ifadə vardı, sanki, bu söhbət onu çox maraqlandırırdı. Nəhayət, mən deyirəm ki, vidalaşmaq lazımdır, daha vaxt itirə bilmərəm, yoluma davam etməliyəm. O, mənə təəccüblə baxaraq, soruşur ki, bunu necə təsəvvür edirəm, yoluma davam etməliyəm nə deməkdir? Cavab verirəm ki, yəni getməliyəm, hava tam qaralana kimi hələ xeyli yol qət etməliyəm. “Yol getməlisiniz? – soruşur. – Burda yol qurtarır axı”. Necə yəni?! – tamamilə çaşaraq səslənirəm. O tərəfə yol yoxdur? Qadın təsdiq əlaməti olaraq, başını tərpədir. Əllərini qarnının üstündə çarpazlayır və bütün sifəti səmimi bir təbəssümdən yayılır. “Hə də, buradan o üzə yol yoxdur, – deyə təkrar eləyir, – yolun axırı elə buradır, yol buraya dirənir”.

Xoşagəlməz bir çaşqınlıq içindəyəm. Elə bilirdim ki, istiqaməti düz götürmüşəm! “Yox, yox, – deyir və çox geniş təbəssümündə iki dənə dişini yenə göstərir. – Əslində, siz bura çatmamışdan əlli mil əvvəl, meşənin içində, yol ayrı-

landa sola burulmalıydınız. Sonra isə sağa və bir də sola, yenə də sağa, dalınca sola. – Mənim hövsələm tükənir: Aman, İlahi! O isə əlavə edir: – Bax doğru yol dediyim, həmin o yoldur, amma nabələd adam onu tapa bilər məgər?".

Mən isə, bir də təkrar edirəm, yaman çaşmışdım. O, ərkyana, bir dost kimi sakitləşdirirdi məni. Bura gör necə yaxşıdır, ziyan yoxdur, heç nə olmaz. Yəni mən bu gecəni onlarda da qala bilərəm, səhər tezdən isə qayıdıb, həmin o yolu tapmağa cəhd edərəm. Dedi ki, onlar çalışacaqlar, burada rahatlıq tapım, bunun üçün istənilən şərait yaratmağa hazırdırlar. Mansardada bir otaqları da vardı, ora sakitlikdi, əla yatmaq olur, istəsəm lap sabah günortaya kimi yata bilərəm.

Onun qonaqpərvərliyindən qeyri-ixtiyari riqqətləndim, baxmayaraq ki, bir belə vaxtımın itməyinə yaman dilxor olmuşdum. Amma, ümumiyyətlə, meşənin içində yerləşən, hər şeyin qeyri-adi, təəccüblü olduğu bu köhnə dəyirmanda gecələmək özü maraqlıydı, – kiçik, amma xoşagələn macəra idi, sonra yada salmağa bir şey olardı. Elə indi bircə tikə nəsə yeyib, rahat yatağa yıxılmaq, yatmaq da pis olmazdı. Nə isə, hər şey yaxşı idi.

O, məni binanın yaşayış olan qismindəki qaranlıq dəhlizlə aparır və qapını açır, geniş, əməlli-başlı gözəl otaq görürəm. İçəri giririk və qadın qalın, sarı şamları yandırır və adama elə gəlir ki, bu şamlar yanmaqla qurtarası deyil, əbədi işıqlanacaq: onların nurunda ətrafda nə varsa, o qədər isti, o qədər rahat olur ki. O, məni otaqda tək qoyub deyir ki, gərək gedib şam yeməyi hazırlasın. Bütün pəncərələrdə təzə yuyulmuş pərdələr, taxtasının sarısı üzə çıxana kimi qaşınmış təmiz döşəmə, nəhəng masanın üstündə bəyazlığı ilə göz qamaşdıran süfrə. Burada hər şey düzənli bir həyata dəlalət edirdi. Mən oturub, yerimi rahatlayıram ki, qəlbimi sarmış razılıqdan ləzzət ala bilim. Özümü çox əla, rahat hiss edirəm. Bir də etiraf edim ki, yaman acmışdım, indi necə iştaha ilə şam edəcəyimi düşünürdüm.

O, yemək gətirir. Əvvəlcə bir qazança sıyıq və ayağı ilə dığırlayıb otağa saldığı pivə çəlləyi görünür. Sıyığı əla idi, bol-bol şəkərləmiş, darçın vurmuşdu, ortasında da babat bir tikə kərə yağı vardı, əriyirdi özü üçün. Üzbəüz oturub, yırtılana kimi yedik, pivədən də elə hey vururduq. Qazança boşaldı. Nəfəsimi zorla alırdım. O isə məmnun bir görkəmlə dodaqlarını silirdi.

Sıyığın dalınca iri bir bulud ilanbalığı qızartması gətirdi, tikələr öz yağında az qala üzürdü və balıq o qədər yağlı idi ki, tikələr çəngəlin altından sürüşüb qaçırdı, odur ki əllərimizlə yeyəsi olduq. Xörəyin yağı çənəmizdən süzülür, köynəyimin qoynuna dolurdu. Çox ləzzətli idi! O, balığı da yaman çox yedi. Mən də iştahla yeyirdim. Bir belə yeməyimə özüm təəccüb qalmışdım. Adətən, heç çox yeməzdim. Burada isə, elə bil, ömrümdə ilk dəfəydi ki, əməlli-başlı yeyirdim. Buna baxanda, məgər əvvəllər yediyimə yemək deyə bilərdin? Pivədən isə o qədər içirəm ki, necə partlamıram, ona özüm də təəccüb qalmışam. Nəhayət, ilanbalığından bircə tikə də qalmadı, o isə növbəti yeməyi gətirdi. Dana qızartması. Dağ boyda qalaqlanmışdı tikələr, onların arxasından ev sahibəsini görə bilmirdim, yox, hiss edirdim ki, daha yeyə bilmirəm. Dana əti isə elə gözəl qızarmışdı, o qədər iştahalı görünürdü ki, dadına baxmamaq mümkün deyildi. O, boşqabıma ən iri tikələri doldurur. Özünə isə qabağıma qoyduğundan iki dəfə artıq yığır. Yenə yeyirik.

Sükut içində yeyirik. Bircə kəlmə də danışmadan. Təkcə onun iki dişiylə ət tikələrini necə çeynədiyi eşidilir. Və mən onun qaşsız, girdə gözlərini görürəm, baxışları aydın və sadədir, mənim gözlərim isə indi, yəqin, bayquş gözünə bənzəyir. Hiss edirdim ki, yeməkdən və pivədən getdikcə daha artıq məst oluram. Əsasən də, yeməkdən, mədəmin içində ağır bir yük kimi qalmışdı, sözün əsl mənasında, tərpənmək iqtidarında deyiləm. Artıq başım da pis işləyir. Beynimin içi dumandır, sanki. Amma buna baxmayaraq, tikələrdən yenə

də boşqabıma qoyuram. Onun necə yediyinə baxanda, nədənsə özümü saxlaya bilmirəm. Canım çıxa-çıxa yeyirəm, iri-iri ət tikələrini bir-birinin dalınca, az qala, zorla boğazımın yoluna itələyirəm. Nəhayət, dana qızartması da bitir. Xörəyin artıq-urtuğunu öz qabağına çəkir.

Dana qızartmasının da işini bitirib, ayağa qalxır və qayğıkeş ana təbəssümüylə yenidən mətbəxə yollanır. Artıq qarnımda bir qurğuşun ağırlığı var. Əllərimi masaya dirəyərək, küt-küt ətrafıma baxıram. Zorla yerimdən qalxıb, içimdə yığılmış qazları çölə buraxıram. Artıq sərxoşam. Amma hər şey gözəldir. Mən əməlli-başlı bir xoşbəxtlik içindəyəm. Hər şey, sən demə, çox sadə və aydın imiş qətiyyən əvvəllər mənə necə gəlirdisə elə deyilmiş. Hər şey gözəldir, könlümdən nə keçirsə, o da alınır. Bu da ki qiyamətdir və bu sadə həqiqətin dərkindən əhvalım düzəlir, büsbütün sakitləşirəm. Tamamilə aydın duyuram ki, hər şey indi necədirsə, elə düzü də budur. Mən xoşbəxtəm.

O, əlində yeni xörək içəri girir. Donuz ətidir, yağdan işım-işım işıldayan soyutma bud, sininin içinə zorla sığışıb. Bu təzə xörəyə artıq tamamilə sakit baxıram. Yenə də yemək lazım olduğu mənə qəribə gəlmir. Hər şeyin mənası mənə indi açılıb. Biz otururuq. Artıq heç qabaqkı kimi yemirəm. Tələsmədən, əməlli-başlı yeyirəm. Ləzzət almaq üçün yeyirəm. Yeməyə sevinirəm, bu prosesin bilavasitə özünə sevinirəm. Lap ayığam.

Biz bir kəlmə də danışmırıq. Birdən mənə elə gəlir ki, o, çox suyuşirindir. Əsl kənd arvadı, necə olmalıdırsa, elə də görünür. Həm də əla ev xanımıdır. Biz yenə yeyirik. Donuz əti axıra çatanda mən fürsətdən istifadə edib, xörəyin qalanını öz qabağıma çəkirəm, necə deyərlər, iştaha diş altındadır. Boşqabdakı yağı da çörəklə siyirirəm.

Desert kimi isə o, badam tortu gətirdi, məncə, orta böyüklükdə idi. İkimiz də hərəyə bir tikə götürüb, dinməzcə yeyirik. Cürbəcür şeylər haqqında düşünürəm: içində

şirin badam olan bu tort, məncə, əla dadır. Özü də doyumluqdur.

Tortun işini bitirəndən sonra, masanın arxasından qalxıram, stulumu yerinə çəkib, ev sahibəsinə yüngül bir təzim edirəm, minnətdarlığımı belə bildirirəm. Qısaca, amma son dərəcə nəzakətlə. Və səndirləyən addımlarla rahat otaqda gəzişirəm, tox və razı halda əlimi əlimə sürtərək, əlavə edirəm ki, indi yatmaq heç pis olmazdı. "Əlbəttə, – deyə o, mənə tez dəstək verir. – Çox yaxşı olardı". Yenə də ana qayğıkeşliyi yağdıran həmin o baxışını hədiyyə eləyir.

Budur, o, şamı götürüb mənə tapşırır ki, dalınca gəlim. Dar dəhlizdən keçirib, vintli pilləkənlə yuxarı aparır. Mən aralanmadan onun dalınca gedirəm, bircə addım aramız var. Pillələri qalxarkən gözlərimin önündə yekə yançaqları löngər vurur, arasındakı çökək indi lap aydın sezilir. Sadəcə, baxırdım, elə bir fikir keçmirdi içimdən. Mənim otağıma qalxırıq. Ürəkaçan, rahat, işıqlı divarları və çaya baxan üç pəncərəsi olan otaqdır, orada, aşağıda çayın gurultusu eşidilir. Divarın dibində təzəcə ütülənmiş, tərtəmiz mələfələri olan enli çarpayı durur. Ev sahibəsi şamı çarpayının yanındakı stulun üstünə qoyur, onun titrək şöləsi döşəmədə oynayır. Bu otaqda mənə elə rahat, elə yaxşıdır ki, gəl görəsən. Burada doyunca yatıb, yuxumu alacağam. Mənim necə razı qaldığımı görən ev sahibəsinin üzündə yenə iki dənə köpək dişlərini göstərən qonaqpərvər bir təbəssüm peyda olur, damaqları lüm-lütdür, çənələri isə – hər an şaqqıltıyla bağlanmağa hazır olan tülkü tələsinə bənzəyir. Yox, o lap qiyamətdir! O, yatağımı düzəldib, mələfəni yüngülcə sığallayır, sonra əllərini sinəsinin altında elə çarpazlayır ki, döşləri təknədə babat acımış xəmir kimi dikəlir və soruşur ki, yenə nəsə lazımdırmı. "Yox", – deyə, bir az çaşqın halda cavab verirəm. O isə çevrilib, qapıya sarı gedir. Düz qapının ağzında bir də çönür və bu dəfə daha israrla soruşur ki, bir şey istəmirsiniz, dəqiq? "Yox, yox, çox sağ olun", – deyə təkrar edirəm, amma

artıq, elə bil, sakitləşmişəm. O, mənə "gecəniz xeyrə qalsın" deyərək gedir.

Arxasınca qapını örtəndən sonra mən tələsmədən, əynimdəki paltarları çıxarmağa başlayıram. Hərəkət eləmək çətindir, elə bil, kökəlmişəm. İndicə yerimi rahatlayaraq uzanıb necə ləzzətlə yatacağımı fikirləşərək, tələsmirəm. Yerə sərilmiş, tərtəmiz, enli kilimlərin üstündə şamın şölələri oynayır. Budur, yorğanın altına girirəm.

Mələfələr ılıqdır, adama ləzzət verir. Elə ətrafımdakı hər şey də, sanki, canımı qızdırır. Ayaqlarımı uzadıram və dizlərimlə təmiz kətanın xəfif sərtliyimi duyuram. Burada hər şey təzəcə ağardılıb, gözəldir. Divarlar da, tavan da. Şam otağı özünün ılıq işığına qərq edib. Pəncərələrdə təmiz, bəyaz pərdələr var. Onların o üzündə isə çay kükrəyir, səs-küy qoparır, çox gözəl, çox rahatdır bura.

Mən uzanıb həyat haqqında düşünürəm; hər halda, yaşamaq olduqca gözəldir. Getdikcə mürgü məni daha dərinlərə aparır və indi hər şey aydındır, gün kimi aydındır mənə. Dəyirmançının arvadı barədə fikirləşirəm. Gözlərimin qabağındadır, ətli-qanlı, sağlam, sadə və bəzək-düzəksiz – o, sanki, cismani bolluğun və sağlamlığın, sadəlik və sadəlövhlüyün təcəssümüdür. Bütün insanlar onun kimi olsaydı, yəqin, hamısını sevmək olardı. Mədəmdəki yemək xoş bir ağırlıq gətirmişdi mənə, tərpənməyə tənbəllik edirəm. Bədənim həzz içindədir. Zaman yox olur  və indi heç bir şeyin nə başlanğıcı var, nə sonu. Beynimdə, elə bil, nəsə çönüb. Hiss edirəm ki, yaşadığım bütün bu hisslərdən, bu ləzzətdən, elə bil, azacıq sərsəmləmiş kimiyəm. Yavaş-yavaş yuxuya qərq oluram. Uyuyuram. Yatıram.

Çox sonra, mənə elə gəlir ki, neçə illərdən sonra qəflətən içimdə elə hiss yaranır, sanki, yatdığım otağa kimsə girdi. Gözlərimi açaraq qıyıram, əlbəttə, bu, odur, dəyirmançının arvadı. Əynində artıq heç nə yoxdur. Yatağıma sarı gələndə yağlı budları bir-birinə sürtülür. Amma çox ciddidir, elə bil, heç bayaqkı adam deyil. "İşığı söndürmək lazımdır", – deyə

qətiyyətlə dillənir, şamın üstünə oturur, şam cızıldayır. “Hə, – deyirəm, – əlbəttə, lazımdır”. Sonra isə o, yanıma girir.

Məncə, həyatda hər şey necədirsə, elə düzü də budur. Əsası budur ki, mən xoşbəxtəm.

Onun boynunu qucaqlayıram. Bədəni o dəqiqə boşalır. Biz həyatdan danışırıq. Biz hər şey barədə eyni cür düşünürük. O, yeməkdən çox danışır, elə mən də. Mən ona deyirəm ki, sənin iri döşlərinə elə ilk baxışdan valeh olmuşdum. O isə hər iki kömbəsini yorğanın altından çıxarıb qarşıma sərir. Bundan sonra çox illər keçir.

Daim yuxum gəlir və tamamilə xoşbəxtəm. Yadıma atım düşür: görəsən, o necə oldu? “O özü özünü yedi, lap çoxdan”, – deyə dəyirmançının arvadı cavab verir. Hə, deyirəm, işə bax e. Həyat haqqında çox düşünürəm. Onun nə qədər səxavətli və gözəl olduğu barədə. Öz qadınımı da çox sevirəm və mənim üçün zaman yoxdur, yəni heç nəyin nə əvvəli var, nə axırı. Bəs dəyirmançı? Soruşuram. O cavab verir ki, çarxı yağlayır. “Hə, belə de”, – deyə dillənirəm. Sonra yenə neçə illər keçir.

Nəhayət ki, ayılıram. Uzaqda nəyinsə kar gurultusu eşidilir. Qaranlıqda yerimin içində oturub, gözlərimi ovxalayıram. Heç nə görmürəm, amma nəyinsə yeknəsəq, ağır-ağır guruldaması qulaqlarıma yetişir. Bu, çaydır. Yenə də uzanıram. Bu, çaydır. Dəyirmançının arvadı xoruldayır. Bütün səsləri seçirəm. Beynim təmiz, ayıqdır. O, kürəyiylə mənə sığınaraq uzanıb, xoş bir istilik duyuram. Pəncərələrin altında isə gurultu öz işindədir, getdikcə daha bərk, daha ucadan gəlir səsi. Bu dəhşətli gurultudan mənim gözlərim qaralır, bu, dözülməzdir, daha tabım yoxdur.

Yerimdən sıçrayıb qalxıram. Pəncərənin qarşısına atılıram, onu taybatay açıram. Gurultu qəzəblə, quduzmuş kimi üstümə atılır, nəfəs ala bilmirəm, özümü aşağı atıram.

Su məni göydə tutur, soyuq, lap buz kimidir. İti axan su məni də aparır. Gurultu isə kəsilmək bilmir. Məni dəyirmanın

çarxına, onun nəhəng, poladla üzlənmiş pərlərinə sarı aparır. Tikə-tikə eləyir bədənimi, qanım sel kimi köpüklənərək axır. Qaranlıqda, ulduzların işığında isə qollarını havada oynadan dəyirmançını görürəm, ağzı vəhşi bir sevinc nərəsi üçün açılıb. Bu, qiyamətdir, mən canımı ekstaz içində tapşıram və bir heçə çevrilirəm.

İndi, öləndən sonra, heç nə bilmirəm. Bilmirəm ki, həyatımın mənası nə idi, onun özü, ümumiyyətlə, nədən ibarət idi. Mən, sadəcə olaraq, hər şeyi danışıram, necə olubsa, eləcə, yadımda qalan kimi danışıram.

O susdu.

Dinləyənlər yekdilliklə belə fikirləşirdilər ki, bu əhvalat, həqiqətən, çox qəribədir. Onlar söhbət əsnasında eşitdiklərini elə də çevirdilər, belə də. Sonra isə yenə də susdular, hərəsi öz içinə qapıldı. Onlardan isə çox uzaqda, tamam başqa diyarda lap çoxdan ölmüş bir yeniyetmə qımıldanmayaraq oturmuşdu, yaman fikrə getmişdi. Sifəti çox incə, bütün zahiri, həqiqətən, çox cavan idi, baxmayaraq ki, cizgiləri, sanki, sürtülərək, solmuşdu artıq. O, hər axşam öz-özüylə danışaraq, belə deyirdi:

– O, aşağıda, gül-çiçəyin arasında dolaşır. O, meşədəki nəhəng ağacların kölgəsində gəzərək, məni düşünür. O, atasının evi qarşısında oturub, məni xatırlayır. İndi axşamdır, o, gizlincə qaçaraq, sıx meşədəki xəlvət, səssiz cığırla gedir və qaranlıq çökməyə başlayır. Çayın kənarında, şanagüllə rayihəsi duyulan yerlərdə oturur. Axşamın alatoranında məni orada gözləyir. O, bəyaz qayığımı gözləyir, qayığın ətrafında isə su sakitcə qıjıldayaraq, zümzümə edir: O, xırdaca dalğaların kiçik nəğmələrini gözləyir və dodaqları axşamın alatoranında gülümsünür. Bilir ki, mən gələcəyəm, elə buna görə də əlləri indi ürəyinin şiddətli çırpıntısından lap qaynar olur. Bax elə indicə, elə bu alatoranda.

Sevgilim, bu axşam mən sənin yanına gəlməyəcəyəm. Bu axşam mən gələ bilmərəm. Lakin sabah mütləq səninləyəm.

Sabah, hava qaralanda, mənim qayığım çayın axınına əks istiqamətdə, sakit qıjıldayan suyun üzüylə sürüşəcək. Sabah mən səninlə olacağam.

O susdu. Xiffətli baxışlarını zülmətin harasınasa zillədi.

Ona cavabı, elə hər axşam olduğu kimi, yenə də yanında oturmuş uzun ağsaçlı qoca verdi:

– Sənin sevgilin öldü. O öləndə mən yanında oturub onun qoca əlini əlimin içinə almışdım: o mənim anam idi. Mənim əziz, sevimli, mehriban anam.

O heç vaxt səndən danışmayıb. Amma dünyasını dəyişəndən sonra sənin şəklini tapdım, köhnəlikdən solmuş şəklini. Yanında olmaq üçün bura gələndə də səni elə həmin şəklə görə tanıdım. Anam xoşbəxt idi. Atam da çox mehriban adam idi. Lap cavan yaşlarında evlənmişdilər, sənin öldüyünü bildiyindən, ürəyini ona vermişdi. Anam onu bütün uzun və xoşbəxt həyatı boyu sevirdi. İndi artıq çoxdan ölüb. İndi biz hamımız ölmüşük.

Onda yeniyetmə sakit bir alovla nurlanan nəzərlərini ona dikib dedi:

– Sən deyirsən ki, sevgilim ölüb. Mənim sevgilim ölməyib. Axşam düşəndə o, çayın kənarında oturur, şanagüllə çiçəklərinin qoxusu duyulan yerdə. Məni orada gözləyir, hava da qaralır. O, ləpələrin pıçıltısını gözləyir və alatoranda dodaqları gülümsünür. O bilir ki, gələcəyəm, bilir ki, lap yaxındayam. Sən nə bilirsən məhəbbət nədir!

Qoca cavab verdi:

– Mən ahıl adamam. Sənin kimi cavan ölməmişəm, çox yaşamışam. Bilirəm ki, məhəbbət heç də hər şey deyil, həyat isə hər şeydir. Hə, həyat hər şeydir. İndi isə biz hamımız ölüyük.

Yeniyetmə dedi:

– Mənim bütün həyatım məhəbbət idi. Yeganə işim sevmək olub. Başqa heç nəyin qayğısını çəkməmişəm və əgər mənə ikinci həyat bəxş etsəydilər, yenə də yalnız

məhəbbətlə yaşayardım, həmişə və indi sevdiyim insana məhəbbətimlə.

Mən onu çay kənarında axtarardım. Mən onu alaqaranlıqda məni gözlədiyi yerdə arardım.

Sən məhəbbət haqqında nə bilirsən axı!

Qoca cavab verdi:

– Mən saçlarımı ağardana kimi yaşamışam və öləndə onun balaca, qırışmış əlini əlimin içində saxlamışam, anamın əlini. Əgər artıq ölüyüksə, bizim üçün məhəbbətin, həyatın nə dəyəri.

Bu vaxt yeniyetmə üzünü ondan çevirdi, lakin səsini içinə salıb zülmətin harasınasa müraciətlə dedi:

– Sevgilim, bu axşam sənin yanına gəlməyəcəyəm, bu axşam gələ bilmirəm. Sabah isə yanında olacağam. Sabah, hava qaralanda, qayığım çay yuxarı sürüşəcək, məni gözlədiyin yerə, şanagüllə çiçəklərinin rayihəsi duyulan yerə gələcək. Sevgilim, sabah mən səninlə olacağam.

Zülmətə bunları pıçıldayırdı.

Artıq ona cavab verən yox idi, qoca öz düşüncələrinə qərq olub oturmuşdu. Ətraf boş və səmirsiz idi. Lakin hardansa uzaqlardan, zülmətin ən dərinliklərindən sürəkli, şikayətli, hədsiz dərəcədə şikayətli mələrtiyə bənzər səs gəlirdi – heyvanın xətrinə dəyəndə, adətən, belə səs çıxarır. Onlar ilk dəfə deyildi ki, bu səsi eşidirdilər, amma nə olduğunu bilmirdilər, bu, elə bil, tamam başqa dünyadan gələn bir səs idi. Çox-çox qədimlərdə, tarixin özünün belə unutduğu keçmişlərdə yaşamış bir adamın səsiydi bu. O, dizləri üstə düşmüşdü, bütün bədəni tüklə örtülüydü, burnu yastı, iri ağzı yarıaçıq idi. Onun kimliyindən xəbərdar olan yox idi. Kimliyini heç özü də bilmirdi, bir zamanlar həyatda yaşadığını belə xatırlamırdı. O yalnız qoxuları xatırlayırdı, böyük meşənin, qatranın və nəm mamırın qoxusunu, bir də elə onun özü kimi isti, ümumiyyətlə, elə onun özünə bənzəyən başqa bir insanın qoxusunu. Onun heç yadında

deyildi ki, o başqası da adam idi. Yalnız qoxusu yadındaydı. Və indi də burun pərələrini ətrafındakı zülmətə geniş açıb, iy çəkirdi və səlbə yemiş heyvan təki şikayətli səslər çıxarırdı. Bunu dinləmək heç xoş deyildi. Bu səslərdə elə ürəkparçalayan bir xiffət vardı ki, artıq neçənci dəfəydi diksinirdi onlar. Lakin o, digərlərinin dünyasından deyildi, tamam başqa dünyadan idi. Digərləri yer üzündə öz qanunlarına əsasən yaşayırdılar, onlar axtarır, əziyyət çəkir, mübarizə aparırdılar, inanır və tərəddüd edirdilər: şikayətlənmir, zingildəmirdilər.

Hamı uzun müddətə susdu. Dörd bir tərəf soyuq, boş idi. Adama elə gəlirdi ki, zülmət bir gecədir. Amma yorulmaq bilmədən danışan iki uşaq – on iki yaşlı oğlan və onun rəfiqəsi üçün çoxdan səhər idi. Onlar üçün həmişə səhər idi. Bir-birilərinə deməli o qədər sözləri vardı ki, başqa heç kəsi eşitmir, görmürdülər və onlara hər şey təzə gəlirdi, tərəddüdün nə olduğunu bilmirdilər. Xüsusilə də oğlanın söz-söhbəti çox idi danışmağa, o tələsir, bir mövzudan o birisinə atılırdı, bölüşməyə o qədər sözü vardı ki. Qız əməlli-başlı heyran idi ona. Gör nə qədər şey bilirdi, nə qədər əməllərdən şəxsən özü çıxmışdı, nə qədər maraqlı işlər qurmuşdu! Onun həyatı ağzına kimi dolu və son dərəcə maraqlıydı. Yayda gölə gedib, qamış basmış bir körfəzdə torla durnabalığı ovlayırdı, gün yandırır, qamışın yarpaqları bıçaq kimi itiydi, ətrafda isə elə sakitlik olurdu ki, nəfəs almaqdan da çəkinirdin, yalnız palçıqda fırçıldayan ayaqlarının səsi gəlirdi, çünki gölün dibi yaman lilli idi. O qədər balıq tuturdu ki, evlərinə zorla apara bilirdi, sonra da onları qızardırdı, həm özü üçün, həm də kim yemək istəyirdisə, onun üçün, hərdən lap bütün binaya bəs eləyirdi. Onun hələ bir yığın başqa işləri də vardı: amma hamısından maraqlısı gölə, balığa getmək idi. Bir dəfə qışda, bazar günüydü, hələ yaxşı donmamış buz sındığından suya düşən bir oğlanı çıxarası olmuşdu, ən əsası o idi ki, qiyamət oğlan idi suya düşən, yaxşı ki, vaxtında çatıb xilas eləyə

bilmişdi onu, çünki ən səmimi dostu idi, yəqin, böyüyəndə nəsə çıxacaqdı ondan.

Hə, bu oğlan dünyada nə var-nə yox, hamısıyla maraqlanandan sonra, axırda dənizçi olmaq qərarına gəlmişdi, istəyirdi dünyanı gəzsin, hər şeyi öz gözləri ilə görsün. Bir dəfə yazın əvvəlində özünə bir yelkənli qayıq da düzəltdi – bir parça taxtadan və atasından çırpışdırdığı bez köynəkdən, onunku daha böyük idi, yelkən kimi istifadə etmək olardı. İstəyirdi başqa ölkəyə üzüb getsin. Külək də səmtinə əsirdi, dalğalar eləydi ki, baxanda adamın nəfəsi tıncıxırdı. Lakin ortaya çatanda, külək qəflətən dəyişdi, oğlan heç gözləmirdi bunu. Onun qayığı çevrildi, bir də gördü ki, sudadır. Amma çox maraqlı idi, səyahətinin baş tutmamasının günahı da ancaq özündəydi. Uzun sözün qısası, daha nə gəlməmişdi ki, başına!

Qız onu gözləri alışıb yana-yana dinləyirdi, göstərdiyi igidliklərlə onun özündən az qürrələnmirdi və düşdüyü hər çətinliyə çox həyəcanlanırdı. Oğlanı özünün təəccüb dolu nidalarıyla, bitib-tükənmək bilməyən suallarıyla həvəsləndirir, əhvalatları təkrar-təkrar danışmasını xahiş edirdi. O da tükənməz ehtiyatlarından yeni-yeni olaylar çıxarırdı. Bax, məsələn, onun özünün dovşanları, kartof yetişdirdiyi şəxsi bostanı vardı. Bir də ki o, qatara minmişdi, düz üç mil təkbaşına getmişdi. Bir də yağış buludlarını yalnız baxmaq üçün yarayan adi buludlardan fərqləndirə bilirdi. Səhər günəşin neçədə çıxdığını bilirdi. Bir də ki tüfəngi vardı, qarğa vururdu. Bu yerdə qız öz fikrini bildirdi ki, bu, hər halda, qəddarlıqdır. Amma oğlan dedi ki, qətiyyən elə deyil, çünki qarğalar yaman doğub-törəyirlər, son zamanlar xeyli artıblar, qız da bununla razılaşdı. O, bütün heyvanların, quşların adlarını bilirdi, onları təqlid edirdi və ümumiyyətlə, yer üzündəki bütün səsləri əla yamsılayırdı. Daha nə bilmir, nə bacarmırdı ki!

Qızın özü isə, təbii ki, ona nisbətən az şey bilir, az iş bacarırdı. O ancaq oyun oynayır, gül-çiçək yığırdı, əlindən

daha heç nə gəlmirdi. Amma nə olsun ki, indi gör necə dostu vardı, onsuz da, bütün maraqlı, gülməli şeyləri ondan öyrənirdi də.

Bir sözlə, onlar xoşbəxt idilər. Hər şey əla, lazım olduğu kimi idi və onlara lazım olan hər şey o qədər bol idi ki, nə vaxtsa bitəcəyinin qəti qorxusu yox idi. Dəqiq bilirdilər ki, bəsləridir. Onların ətrafındakı zülmət təxəyyüllərindəkiylə rənglənmişdi. Onlar xoşbəxt idilər.

Amma budur, böyüklərdən biri də dilləndi:

– Bir səhər lap ertəydi, günəş təzəcə çıxmışdı, mal-qaranı örüşə çıxarmaq vaxtıydı deyə meşəyə gedib hazırlıq görməliydim. Hələ uşaq ikən oynadığım ağcaqayın meşəsinə. Gözəl idi, havadan təzə yarpaq, çiyələk qoxusu gəlirdi. Yol boyu hər şey və eyni zamanda, heç nə barədə fikirləşmirdim. Ağaclar, onların arasında günəşdən par-par yanan talalar göz oxşayırdı. Onların hamısı mənə tanış idi. Mən gedirdim, gedə-gedə də indi evimizdə olan, məni və dünyaya tezliklə gətirəcəyi ilk balamızı gözləyən sevgilim barədə düşünürdüm. Ətrafda quşlar cəh-cəh vurur, dağdakı şam meşəsində hüt-hüt dillənirdi. Fikirləşirdim ki, arvadım üçün, balamız üçün bir az çiyələk yığım, şamdan sonra yesinlər. Beləcə gedirdim ki, birdən su şırıltısı eşitdim. Çay idi, mənim köhnə tanışım. Uşaq vaxtı burada bir oyuncaq dəyirman düzəltmişdim, könlümdən keçdi ki, ona bir də baxım, görüm durur-mu? Bir az sahillə getdim. Çay axarının əks səmti istiqamətində bir zamanlar dəyirmanımı qurduğum yekə daşları gördüm; daşlar yerindəydi, amma dəyirman yox, yəqin, su aparmışdı onu. Bu il su bol idi. Şükür ki, arpa da yaxşı gətirmişdi. Balaca olanda bu daşların üstüylə o qədər sürünmüşəm ki. Hər yaz, kim bilir, nə qədər vaxt keçirirdim burada. Qəflətən aşağı tərəfdən uşaq səsləri eşitdim. Evdən erkən çıxmışdım, hələ vaxtım çox idi deyə, səs gələn tərəfə getdim. Uşaqlar bir dəyirman çarxıyla əlləşirdilər, pərləri tamam qapqara mürəkkəb içindəydi, deyəsən, yaman tələsirdilər onu quraş-

dırmağa, elə səylə çalışırdılar ki, fısıltıları uzaqdan eşidilirdi. Mən dedim: qabaqlar bir az o tərəfdə axın daha güclü idi, orada qurun. Onlar isə belə cavab verdilər: indi bura daha yaxşıdır. Bir az durub baxdım. Sonra kiçik bataqlıqdan ötərək yenə cığıra çıxdım.

Günəş artıq əməlli-başlı qızdırırdı. Bir az ağcaqayın qabığı soyub qutu düzəltdim, içini çiyələklə doldurdum, lap ağzına kimi, yerini yaxşı bilirdim. Özüm artıq çiyələyi o qədər də xoşlamırdım, uşaq vaxtı yaman yeyərdim, indi isə evdəkilər üçün yığırdım. Bir azdan örüş yerimizə çatdım.

Çiyələyi otun içinə qoydum. Çəpər üçün payaları çıxardım; onları keçən həftə gətirmişdim bura, çəpəri bağlamağa ağcaqayın çubuqları da vardı: bizim otlaqda nə qədər istəsən, tapa bilərdin; təzəcə çırtlamış yarpaqlardan gözəl iy gəlirdi. Mən günəş lap qalxana kimi işlədim.

Həmin o səhəri yaşadığıma indi elə sevinirəm ki...

O dinməmişdən belə deyildi, amma danışanda bütün sifəti işıqlanırdı.

Biri də öz düşüncələrinə qərq olub oturmuşdu. O, qatil idi. Bir nəfəri öldürmüşdü, həmin qətlə yetişənə kimi isə düz əlli il yol gəlmişdi: bu acı həqiqətə alışmaq lazım idi, fikirlərini cəmləməyə əməlli-başlı ehtiyacı vardı. Əvvəlcə uzun bir gün olmuşdu, parlaqlığından göz qamaşan, bitib-tükənmək bilməyən bir gün. O, günün altında işləyirdi, bənna idi; bünövrə ustası – sənəti bu idi də. Adama elə gəlirdi ki, bu par-par yanan günəş heç vaxt batmayacaq. O, bir qadını sevirdi, qadın isə onu. Onların çoxlu uşağı da olmuşdu. Uşaqlarıyla meşəyə gedir, onlara ağaclardan, dənizdən, buludlardan, daşlardan söhbət edirdi. Uşaqlar da yavaş-yavaş böyüyürdülər. Oğlanları lap yekəlmişdilər, artıq elə onun özü kimi düşünürdülər. Qızları isə anaları kimi. Balaları getdikcə daha artıq bənzəyirdilər onlara. O, günlərin birində saqqal saxladı; oğulları da saqqallı oldular, elə onun özü kimi bəm səsləri də vardı. Qızları ərə getdilər, oğul-uşaq sahibi oldular. Oğulları

da ailə qurdular. Günəş isə elə hey parlayır, parlayırdı, heç cür batmaq bilmirdi. Yer üzündə birisi vardı ki, onu mütləq öldürmək istəyirdi, amma bunun üçün yaman işıqlı idi hər tərəf. O, elə hey işləyir, işləyirdi, özünü də daim bəxtiyar sayırdı. Parlaq günəşin isə bir solan çağı görünmürdü. Yavaş-yavaş başı keçəlləşdi, üşüməsin deyə özünə xəz papaq aldı. Amma dünyada bir nəfər vardı ki, onu öldürmək istəyirdi. Və nəhayət, axşam yetişdi.

O, ətrafına oğrun-oğrun nəzər salaraq, yola çıxdı. Göy üzünü buludlar sarmışdı. Tarlaların arasıyla gedirdi. Həmin o adam isə həmişə ondan qabaqda olurdu. O, ayaq saxlayıb ətrafa qulaq verdi, arxın üstündən tullanaraq, meşəyə tərəf yüyürdü, quru budaqlar ayaqlarının altında şaqqıldayıb sınırdı. Sonra kimsə duyuq düşməsin deyə barmaqlarının ucunda gedirdi. Əyilə-əyilə. Nəfəs belə almadan. Həmin o öldürmək istədiyi lap yaxında idi.

Eniş başlandı. Yol daralıb yarğanın içinə endi. Külək ağacları səsləndirirdi. Keçilməz bir zülmət vardı bütün ətrafda. O isə qaranlığa sevinirdi, köynəyinin yaxasını açdı. Yol isə daha sərt enişlə uzanırdı. Sürüşkən daşlar və yaş xəzəllər. O, indi artıq uzanmışdı, sürünməyə başladı. İstəyirdi ki, kimsə eşitməsin. O birisi isə lap yanında idi. O da sürünürdü. Necə ağır-ağır nəfəs almasını duyurdu. Özü isə heç nəfəs almadan sürünürdü. Budur, yerindən sıçrayıb irəli atıldı, bütün ağırlığını onun üstünə salıb, altına basmarladı. Sonra da bıçağı sinəsinə sapladı...

İndi isə burada oturub fikirləşirdi. Alnını ovcunun içinə söykəmişdi, sonra ahəstə-ahəstə başını qaldırdı və çaşqın nəzərlərlə ətrafına baxdı. Həmin o tüklü isə zülmətin dərinliyindən hələ də şikayətli-şikayətli zingildəməyindəydi.

– Mən təəccüblü bir diyarda yaşayırdım, – deyə içində alov yanan bir başqası dilləndi. – Biz yer üzündə yaşayırdıq, xoşbəxt idik. Əkib-biçirdik, elə öz valideynlərimiz, bütün əcdadlarımız kimi. Geniş vadilərdə üzüm, buğda yetişdirir,

dağ yamaclarında zeytun əkirdik. Həyatın mənası bizim üçün aydın idi. İndi isə mənim söhbətimə qulaq asın, görün nə danışacağam.

Dağın lap ətəyindəki balaca evdə Cuditta yaşayırdı. Mənim danışmaq istədiklərim, əsasən, elə onun barəsində olacaq. Deməzdin ki, o, bizim kəndin başqa qızlarından çox fərqliydi, sadəcə olaraq, Cuditta hamıdan gözəl idi. Başında səbəti cığıra düşüb gedəndə ətrafda nə varsa sevincdən çiçəklənir, qaranquşlar düz günəşə sarı millənirdilər. Günəş isə daim başımızın üstündə parlayırdı, nə qədər ki şəhərimiz vardı, həmişə. Bizim hər hər şeyimiz torpaqdan idi, nəyimiz vardısa, yer üzündəydi; göylər ucalarda, bizdən çox uzaq idi.

Cuditta da torpaqdan idi, yerin bəzəyiydi; bunda ona tuş gələ bilən olmazdı. Kəndin içinə ayaqyalın düşüb iri ləpirlər qoya-qoya gedir, yolboyu hamıdan gözəl oxuyurdu. Lakin axşam qonşu qızlar ucadan deyə-gülə quyunun yanında toplaşanda o, başını rəfiqəsinin dizləri üstə qoyub söhbətlərinə dinməzcə qulaq asırdı, döşləri bərk, ağır idi; lap yetkin qadınınkı kimi, təbəssümü də gözəl idi, qəribə gülümsünürdü – amma yox, xoşbəxtlik hələlik onun yanına gəlməmişdi.

O, məni sevdi. Bir-birimizi uşaq kimi sevirdik, əsl məhəbbət hələ tanış deyildi bizə. Bir yerdə oxuyur, oynayırdıq, axşamlar sıldırım qayalarla kimsəsiz dağlara dırmanırdıq. O qədər yüksəklərə qalxırdıq ki, orada insan izi tapa bilməzdin və bir dəfə necə oldusa, azdıq. Hava da qaraldı. Bir də baxdıq ki, qayanın yarığından zəif bir işıq gəlir, sən demə, orada qətiyyən bizim evlərə bənzəməyən, daş və gildən düzəlmiş kiçik bir daxma vardı. Ora getdik, qapısı o qədər alçaq idi ki, içəri keçəndə əyiləsi olduq. Darısqal bir otaqdı, tavan isə elə alçaq idi ki, tərpənməyə imkan yoxdu. Torpaq döşəmədə ocağı vardı, közərərək tüstülənirdi. İçəri girəndə əvvəlcə heç nə görmürdük, bir azdan insan fiqurunu seçə bildik – bu, beli lap bükülmüş, çox yaşlı, hisdən qapqara və dəhşətli dərəcədə arıq qarı idi – bir dəriydi, bir sümük. Dizləri üstə oturub ocağı

eşirdi. Tək bircə gözü vardı. Biz azmışıq, dedik ona. Hə, deyə dilləndi; sanki, artıq başımıza gələnlərdən xəbərdar idi. Baxan kimi bilinirdi ki, bizim tayfadan deyildi bu qadın. Evi isə o qədər darısqal və qeyri-adi idi ki, mən buradan tez çıxıb öz vadimizə, günəşin, ağacların yanına, evlərin, insanların yanına getmək istəyirdim, amma bilirdim ki, özümə qalsa, yolu yalnız səhər tapa bilərəm.

Cuditta isə qarı kimi dizi üstə oturdu, ocağa tamaşa edirdi. Qarıdan kimliyini soruşdu. Qarı da cavab verdi ki, heç kiməm. Deməli, sən adam deyilsən? Yox, deyə qarı cavab verdi, mən adamları qoruyuram. Cuditta dedi: sənin axı bircə gözün var, necə qoruya bilərsən onları?! Hə, deyə qarı cavab verdi, gözüm bircə dənədi, amma yalnız həqiqi olan şeyləri görürəm, qalan şeylər barədə bir şey bilmirəm. Məgər təkcə həqiqi şeyləri görmək bəs deyil? – Cuditta soruşdu. Burada, yer üzündə bəsdir, qarı cavab verdi. Cuditta dedi: Bilmirəm, baxır kimin üçün necədir, amma mənə qalsa, bəsdir, falıma bax, nə olar, – sonra da əlini ona uzatdı. Qız lap odun yanında oturmuşdu, yalın ayaqları qıpqırmızı idi, iri, ağır döşləri paltarının altından özünü bəlli edirdi. Hiss edirdim ki, bərk sevirəm onu, onu buradan qoparıb aparmaq istəyirdim, zülmətdə üzüaşağı qaçırmaq istəyirdim, vadiyə, evlərin, insanların yanına, günəşin, ağacların yanına, bilirdim ki, kəndimizin yolunu hətta indi, gecə belə tapardım; o isə məni nə eşidir, nə görürdü. Qarı onun əlini tutub xeyli baxdı. Sonra isə dedi: sən doğanda öləcəksən.

Cuditta diksinərək, əlini qarının əlindən qoparmaq istədi bir anlıq, amma yavaş-yavaş çəkdi. Hiss edirdim ki, rəngim ağarır, tir-tir əsirəm. Cuditta isə öz səsinə heç bənzəməyən, ölü bir səslə soruşdu: mən niyə ölməliyəm? Qarı dedi: həyat sənin içindən daşıb artıq.

Biz oradan getməyə hazır idik, bir-birimizə heç baxmırdıq. Soruşduq ki, evimizə necə yetişə bilərik. Qarı izah elədi, bəlli oldu ki, yolu tapmaq heç də çətin deyilmiş. Biz zülmətə çıxdıq.

Dinməzcə yanaşı gedirdik, amma həmişəki kimi əl-ələ tutmamışdıq. Mən əvvəllər həyat barədə heç düşünmürdüm, sadəcə yaşayırdım, vəssalam, heç məhəbbətin nə olduğunu da bilmirdim. İndi isə... İndi isə Cudittanın qaranlıqda addım səslərini acgözlüklə dinləyirdim.

Yol sərt enişə gedirdi. Onun ayağı daşa ilişdi, mən əlimi uzatdım ki, qolundan yapışıb kömək edim və əlinə toxundum. Elə istəyirdim ki, Cudittanı hər bəladan qoruyam, onu necə sevdiyimi indi hiss edirdim.

Biz getdikcə daha aşağı enirdik, sərt yamac bitəndə biz yaxşı tanıdığımız yola çıxdıq. Artıq səhər idi. Gözlərimiz qarşısında vadi özünün bütün əzəməti və bolluğu ilə açılırdı, günəş onu ağzına kimi doldurmuşdu, adama elə gəlirdi ki, bu gözəllik nəhayətsizliyədək uzanır. Və mənim, elə bil, ürəyimdən bir daş götürüldü. Dayandım, bütün içimi xoşbəxtlik sarmışdı. Ata evimi görürdüm, başqalarının evlərinə baxırdım, ağacları, quşları, bütün həyatı görürdüm. Və onda mənə elə gəldi ki, yaşamın mənasını anlamışam, həyatda hər şeyin necə nəhayətsiz, necə işıqlı və gözəl olduğunu dərk etmişəm.

Cuditta yanımda durmuşdu, o da vadiyə baxırdı. Lakin dağınıq, dumanlı nəzərlərlə. Birdən mənə sığındı, boynumu qucaqlayıb bütün ağırlığıyla asılaraq dodaqlarımdan ehtirasla öpməyə başladı. Mən, sanki, o dəqiqə məst oldum, axı ilk dəfəydi ki, öpürdü məni. Lakin üzünə nəzər salanda qorxdum və onu özümdən uzaqlaşdırdım. Mən onu necə sevdiyimi hiss edirdim və onu indi qorumaq istəyirdim, özümdən qorumaq istəyirdim, onunla bir yerdə ölənə kimi yaşamaq istəyirdim. Lakin o, yenə də israrla mənə sıxıldı, iti bir hərəkətlə dolu döşlərini açdı, onlardan süd iyi gəlirdi, mən boğulurdum, o, məni dalınca çəkib yerə uzanmağa məcbur elədi, qılçalarını araladı, yox, mən o dəm bu barədə düşünmürdüm, yalnız həyat üçün yalvarırdım göylərə, bütün ömrümüzü birlikdə yaşamaq üçün yalvarırdım. O uzanmışdı, gülümsünürdü. Sonra birdən baxışları ağırlaşdı, tutqunlaşdı,

həyatla ölüm ikisi də birdən doldu onlara – bu görməz baxışlara.

Sonra biz sükut içində qalxaraq evə sarı getdik. Bütün yol boyu bir-birimizlə bircə kəlmə də danışmadıq.

Atamın evi böyük, işıqlı idi. Mən özüm üçün başqa ev tikdim. Cuditta mənim yanıma köçdü. Biz onunla xoşbəxt yaşamağa başladıq. Həmin il mənim şərabım həmişəkindən çox oldu, elə taxılım, zeytunum da. Üzümlərimi əsaslı şəkildə budadım ki, gələn il daha yaxşı məhsul versin, torpağımızı da səylə şumladım; Cuditta artıq boylu idi, çöldə-bayırda ehtiyatla dolaşırdı.

Yenə yaz gəldi və onun doğmağına az qalmışdı. Bu isti bir gündə, düz günortaçağı baş verdi. O qışqırmır, ağrıya qalib gəlmək istəyirdi. Uşaq dünyaya gələndə anası artıq ölmüşdü. Onun qanı çox qatı, çox qaynar idi, bu qan onun ölümünü tələb edirdi.

Uşağı əlimə götürdüm. Bir tikə idi. Onu bərk-bərk sinəmə sıxıb çıxılmazlıq içində döyükdüm. Bütün evdə boşluq, sakitlik idi, məndən başqa kimsə yoxdu. Qüssə yükünün altında əzilərək durmuşdum.

Burda uzaqdan gələn xor səsi eşitdim. Kimsə oxuyurdu – ağır, ləngərli və yeknəsəq bir nəğməydi, amma səslərində sevinc çalarları vardı. Bu nəğməni elə o dəqiqə tanıdım, qədim dua idi oxuduqları. Dayanıb qulaq asırdım. Başımı aşağı dikib uşağı bağrımın başına bərk-bərk sıxaraq evimin kandarına çıxdım.

Mərasim vadi ilə ağır-ağır irəliləyirdi. Qabaqda əlində uzun paya olan birisi gedirdi, payanın başında kişi orqanının rəmzi təsviri vardı, onu aparan adam əlindəkini lap yuxarı, günəşə qaldıraraq daşıyırdı, onun dalınca da oxuyanlar gedirdi. Bu bizim ata-babaların qədim adəti idi, əcdadlarımız yazın hər gəlişini, məhsuldarlıq çağını belə qeyd edirdilər. Uşağımı sinəmə bərk-bərk sıxıb dayanmışdım, o qədər balaca idi ki... Bitmək bilməyən insan dəstəsinə

baxırdım, belə bir gündə bayram mərasimi görmək mənə qəribə gəlirdi.

Günəş par-par yanırdı, hamı eyni yeknəsəq nəğməni oxuyurdu – xoşbəxtlik nəğməsini, bir ağızdan oxuyurdu. Mən onların qabağına yeridim.

Vadinin ortasında dayandılar. Mən də bir az aralıda ayaq saxladım, özümü onlara tamam yad hiss edirdim. Dəstənin arasında atamı, anamı, bir çox başqa tanıdıqlarımı görürdüm. Baxdıqca, sanki, bütün ağacları, kəndimizin bütün evlərini, bütün həyatı görürdüm.

Mənə elə gəldi ki, mövcudiyyətin mənasını bircə anda dərk etdim. Anladım ki, həyat üçün mühüm olanı elə onun özüdür. Əlbəttə, ona ağaclar da lazımdır, adamlar da, bütün yer üzünü rayihəsinə qərq edən güllər də lazımdır, amma, ümumiyyətlə, lazımdır – ayrı-ayrılıqda onların heç biri həyat üçün əziz deyil.

Həyat şəxsən səni sevmir, ey ağac, heç səni də sevmir, ey insan, səni də, ey küləkdə əsən çiçək, o, səni yalnız öz təzahürü, özünü büruzə verməyin vasitəsi kimi sevir, elə belə sevir.

Özünü büruzə verdimi, artıq sevməz, sakitcə məhv edə bilər.

Günəş par-par yanırdı. Günəşi heç belə parlaq, isti görməmişdim. Beynimin içi, sanki, qurğuşundan idi: heç nə anlamayaraq uşağım əlimdə durub baxırdım, körpə isə hələ yaş idi, onun bədənində ana həyatının dirilik suyu vardı. Sərməstedici bir duman içindəydim, sanki, durmuşdum və bu yeknəsəq xoşbəxtlik nəğməsini hamı ilə bir yerdə oxuyurdum – atamla anam kimi, bütün yer üzündəki insanlar kimi. Birdən ayaqlarımızın altındakı torpaq laxladı. Dağlar yarıldı, arasından yanar torpaq çıxdı, sel kimi üzüaşağı, bizim üstümüzə, vadiyə axdı, qarşısına çıxan hər şeyi bir heçə çevirərək axdı və göylər dəhşətli gurultudan sarsıldı.

Qorxu içindəydim, uşağımı sinəmə bir az da bərk sıxdım. Lakin yerimdən tərpənmədim. Dayanıb gözləyirdim və

ətrafıma göz gəzdirəndə gördüm ki, hamı hərəkətsiz durub. İnsanlar sadəcə durub gözləyirdilər. Sanki, öləcəklərini artıq bilirdilər və özlərinin yeknəsəq xoşbəxtlik nəğmələrini oxuyurdular, onlara qalan yeganə şey bu idi. Od tutub alışan torpaq bizi uddu.

İndi orada yanmış bir səhra var. Külək dağları aşındırır, torpaq külə çevrilir, qum burulğanları közərmiş günəşin üzünü tutur.

O susdu. Sonra sakitcə dedi:

– Mən inanmıram ki, həyat üçün ağaclar və insanlar, güllər və çiçəklər qiymətlidir – bütün bunlar ona yalnız onun üçün lazımdır ki, özünü büruzə verə bilsin. Amma belədə – bunlar heç olmasa da, mümkündür. Yanmış səhra. Boşluqda qum tufanları.

O susdu.

Hamı danışdığı əhvalatın dəhşətli sonluğundan sarsılmışdı. Çoxlarına onun yekun sözləri xoş gəlmədi və onu qəti qəbul etmək istəmirdilər. Amma kimsə deməyə bir söz tapmadı.

Bu yerdə onların arasında oturmuş birisinin səsi çıxdı, amma onlarla danışmırdı, harasa fəzaya müraciət edirdi. O çömbələrək dizlərini qucub oturmuşdu, hərəkətsizdi, əlində isə səyyahların əsasına bənzər əl ağacı vardı. O deyirdi:

– Mən evimizi istəyirəm, doğma diyarımı. Mən evimizə, həmişə tək olduğum əzəmətli səhranı istəyirəm. Mən evimizi, kimsənin ayaq basmadığı, yolların insan tapdağı görmədiyi ölkəmi istəyirəm. Mən öz evimizi, sərhədsiz və nəhayətsiz diyarımızı, kölgə nə olduğunu bilməyən yandırıcı günəşi istəyirəm. Boş və çılpaq, közərmiş qumlardan da ölü səmamı istəyirəm.

Mən əldən düşərək öldüyüm doğma diyarımızı, öz evimizi istəyirəm. Mən həmişə tənha olduğum böyük səhranı istəyirəm.

Onu təəccüb içində dinləyirdilər. Özlərindən sorurdular: o da bizimkilərdəndir, görəsən? Bu suallarına isə cavab da

tapa bilmirdilər. Onlar bilmirdilər ki, bu adam haradan peyda olmuşdu aralarında.

Bütün eşitdiklərindən can qurtarmaq istədikləri vaxtda, aralarında oturmuş daha birisi dilləndi, nitqində tələskənlik yoxdu, səsi isə aydın, son dərəcə yumşaq idi:

– Mən insanların xilaskarı idim, əzab çəkib ölmək üçün yaşadım. Mən yaşadım ki, insanlara həyatın ləzzətindən qurtaran əzab-əziyyət və ölüm haqqında xəbər verim.

Mən yer üzündə qonaq idim. Dünyəvi nə varsa, mənə çox yad, məndən çox uzaq idi. Ağaclar mənə yaxınlaşmaz, dağlar haradasa lap uzaqlarda qalardı. İstər lap dənizin sahilində dayanım – onun qoxusu da xırdaca bir çiçəyin rayihəsindən artıq deyildi mənim üçün, torpağın üstüylə yerisəm də, addımlarımı duymazdı. Külək toxunmazdı mənə, paltarımı oynatmazdı.

Hər şey zahirdədir, görüntüdür yalnız, hər şey həqiqi mahiyyətin gözləntisidir. Sadəcə, həqiqi mahiyyətin xiffətidir çəkirik, həyatın bitməz əzabıdır hər şey.

Mən Tanrını “ata” deyə çağırırdım, bilirdim: o, mənim atamdır və göylər də evimizdir, məni gözlədiyi evimiz. Mən əzaba “qardaş” deyirdim, zira o, mənim canımı həyatdan qurtarırdı, zahiri şeylərdən, həqiqi mahiyyətə aid olmayan şeylərdən qurtarırdı məni. Ölüm ən yaxşı dostum idi, zira əbədi həyatının bir neçə ili boyunca məni insanlar içində yaşamağa göndərən “atamla” həmişəlik qovuşduracaqdı məni. Mən də bütün canlıların qüssəsini öz çiyinlərimə götürdüm. İnsanlar da məni çarmıxa qaldırdılar, əzab çəkərək ölməliydim çarmıxın üstündə. Onda “atamı” səslədim. Müti inamımı, məhəbbətimi ona ünvanladım, insan əzablarından, bütün canlıların həyat qorxusundan, onların həqiqi mahiyyətə qovuşmaq istəyindən söz açdım. O, məni zülmətdə gizlətdi, bütün yer üzünü zülmətə qərq etdi ki, məni yad gözlərdən gizlətsin.

İnsanlar da mənim xaçımın önündə diz çökdülər sonra, yer üzünün bütün insanları diz çökdülər və məni xilaskar

elan etdilər, onları həyatdan, həqiqətən, canlı olmayan şeylərdən azad etmiş bir xilaskar.

O susdu. Onlar isə nitqindən həyəcanlanaraq gözləyirdilər. Sakitcə dedi:

– Mən bura gələndə isə “ata”mı görmədim, o yox idi. Mən də elə sizin kimi adi insan idim. Həyatın kədəri də, sən demə, heç mənim kədərimə bənzəmirmiş. Həyatın əzabı şirin əzabdır, mənim öz çiyinlərimə götürdüyüm əzaba heç bənzəmir.

Lakin o, sözünü bitirməyə macal tapmamış, tamam başqa bir səs ucaldı:

– Mən insanların xilaskarı idim. Bütün həyatım başdan-ayağa sevincdən ibarət idi, torpaqdan da, günəşdən də ləzzət alırdım. İnsanları xilas etmək üçün gəlməmişdim bu dünyaya, amma gəlməyimlə onları xilas etmiş oldum. Özüm yaşadığım üçün onlara həyatın gözəlliklərindən müjdə verdim.

Mən yer üzündə hökmdarlıq etmək üçün doğulmuşdum. Bir dəfə, hələ çox cavan ikən öz torpaqlarımla at çapırdım. Yay vaxtı, par-par yanan, aydın bir gün idi. Hər şey mənə çox yaxın idi – bütün insanlar, bütün ağaclar və çiçəklər, yer üzündə nə varsa hamısı yaxın idi. Onda mən anladım ki, həyat hər şeydir, ondan başqa heç nə yoxdur. Bir qadın aldım yanıma və o, mənə oğul bağışladı, oğlum da mənə oxşayırdı, o da yaşamaq üçün yaranmışdı. Öz xalqımı ətrafıma topladım, onu başqalarına qarşı mübarizəyə qaldırdım, ona yaşamağı, ölməyi öyrətdim. Hamımız – həm qələbə çalanlar, həm məğlub olanlar parlaq günəşin altında döyüşürdük. Biz hamımız həyatın şirinliyini duyurduq, amma hamımız görürdük ki, bu şirinliyin həm başlanğıcı var, həm də sonu. Qəhrəmanlar qanına qəltan olurdular, ölülər dirilərin naminə unudulurdu.

Həmin o səhər yetişdi; döyüş şeypurları səs-səsə verdi. Mən at belinə qalxıb, irəli çapdım, artıq qoşunu xeyli qabaqlayırdım, əynimdə zirehim-zadım da yox idi, amma özüm silah-

lıydım. Kimsə qılıncını düz sinəmə sancdı, mən onu çəkib çıxardım və anladım ki, mənim də ölmək vaxtım yetişib. Qanıma qəltan olaraq döyüşməkdə davam edirdim ki, bu axır dəqiqələrimdə də həyatdan sona kimi kamımı alım. İndi həmişəkindən də səylə döyüşürdüm bu parlaq günəşin şüaları altda. Bir yeniyetmə düz mənim üstümə çapırdı atını, elə mənim kimi cəsarətliydi, qılıncımı çaldım və o, yəhərdən düşdü. Torpağın üstündə uzana-uzana və mənim kimi ölərkən başını çevirərək ardımca bir xeyli baxdı, qəribə bir baxışla baxdı. Yox, bu baxışda nifrət yox idi – paxıllıq vardı, atını gözəl həyatın pişvazına çapan birisinə paxıllıq, o özü isə bütün bunları qoyub gedirdi artıq. Mən sinəmi açıb öz yaramı göstərdim ona. O da hər şeyi anladı, dodaqlarında təbəssüm son nəfəsini verdi.

Lakin hiss edəndə ki, ölüm artıq lap yaxındadır, döyüş meydanından uzaqlara çapdım. Qanım axa-axa atımı gözəl torpaqlarla çapırdım. Çiçəkləri, ağacları görürdüm, dağları, yolları görürdüm, günəş altında parlayan kəndləri, onların üzərində pərvazlanan quşları görürdüm. Hər şey mənə çox yaxın idi, hər şey mənimləydi və onda hiss etdim ki, həyat hər şeydir, ondan başqa heç nə yoxdur. Yəhərdə qəddimi dikəldərək ətrafıma göz gəzdirə-gəzdirə öldüm.

O susdu. Sonra dedi:

– Amma bəlli oldu ki, bu, hələ son deyil və həyatın sevinci mənim yaşadığım sevincə qətiyyən bənzəməz. Həyatın sevinci sirlidir, ağlasığmazdır, mənim sevincim kimi deyil. Mən də hamı kimi insan idim, insandan artıq bir şey deyildim.

Onun bu sözlərindən sonra qulağa xoş gələn bir yeniyetmə səsi eşidildi, uşaq səsi kimi bir az utancaq, çəkingən bir səs:

– Mən insanların xilaskarı idim. Mahiyyətin əsl mənasını açacaq şeyləri onlara söyləmək üçün doğulmuşdum. Həyatın sirri həmişə mənimləydi, başqalarıyla onların inamı,

yaxud inamsızlığı olan kimi. Ətrafımda baş verənlər haqqında düşünərkən yalnız gördüklərimi dərk etmirdim, həm də görmədiklərimi anlayırdım, mən bütün görünən və görünməzlərin toplandığı, həmişə aydın və sakit olan açıq fəzaya daxil olurdum. Bir müddət orada qalırdım, ona görə yox ki, nəyisə dərk etməyə çalışırdım, sadəcə olaraq, onun üçün ki, ora aydınlıq idi, axı mən hələ uşaq idim.

Mən nəyə sahib idimsə onlar haqqında düşünmürdüm, onlar həmişə mənimlə idi. Lakin mən hiss edirdim ki, içimdəki mübhəm sirr böyüyür və hər səhər yuxudan oyananda duyurdum ki, o da mənimlədir. Gəzməyə çıxanda günəş par-par yanırdı, ağacların altındakı otlar şehdən nur saçırdı və mən hər şeyin, bütün canlıların, həm xoşbəxtlərin, həm də bədbəxtlərin məni hansı intizarla gözlədiyini duyurdum. Hər şey mənim içimdəkiləri bölüşəcəyim günün intizarındaydı. Mən isə daha aydın bir fəzaya girirdim, bütün görünən və görünməzlərin cəmləşdiyi fəzaya və orada getdikcə daha artıq qalırdım, axı hələ uşaq idim və orada – içəridəydi mənim həqiqi evim.

Öləndə cəmi on dörd yaşım vardı. Mən içimdə həyatın sirrini daşıyırdım, onun üçün ölməliydim.

Hamı bu uşaq səsinə sıxılaraq qulaq asırdı. Çarəsizlik sükutu zülmətə hakim kəsilmişdi. Amma birdən onlardan kimsə dedi:

– Mən isə çox məşhur, müştərisi bol və böyük restoranların birinci metrdoteli idim. Bu çətin və son dərəcə məsuliyyətli bir peşə idi. Ən müxtəlif insanların istəyini bilməliydin, elə etməliydin ki, onları razı salasan. Mən də gözəl bilirdim ki, müştərini razı salmaq üçün nə etmək lazımdır.

Gərək insanların nə arzuladığını anlayasan və hamının işinə yarayasan. Mən adamlarla davranmağın qaydasını bilirdim və hamı belə hesab edirdi ki, mən bu işə çox yarayıram.

Axı müştərini razı salmaq üçün hər şeyi necə etmək lazım olduğunu gözəl bilirdim. Burada nə vardı ki, çox xırda şeylər lazım idi, ən əsası da – fantaziya. Vazda bir dəstə gül,

bir az zövq – bəzən hər şeyi elə bu həll edir. Bir də masanın üstü mütləq qüsursuz düzəldilməlidir – bu, bəlkə də, ən vacibidir. Yox, bu göründüyü qədər də sadə iş deyildi. Bu əsl elm idi – insanların içini görmək, onlara yarınmaq. Mən bunu bacarırdım, mənə bel bağlamaq olardı. Həmişə gedərkən məni əmin edirdilər ki, xidmətimdən çox razıdırlar.

Mən, sadəcə olaraq, əvəzedilməz idim. Amma mən də öz işimə əlvida deyəsi oldum, çünki hamımız öləsiydik. Onlar, təbii ki, özlərinə yeni metrdotel tapası oldular; bunsuz işləri aşmazdı. İnanmaq istərdim ki, o, müştərilərlə necə davranmaq lazım olduğunu bilir və gələnlər elə əvvəlki kimi razı gedirlər.

Onu dinləyənlər lap çaşdılar. Artıq bilmirdilər ki, nə düşünələr, başlarında əməlli-başlı qarışıqlıq vardı və onda zülmətin arasından kimsə qalxdı.

Burada, əbədiyyət zülmətində kiminsə qalxdığı, oturuşunu dəyişdiyi, ümumiyyətlə, nəyinsə başqa vəziyyətə düşdüyünü hələ görən olmamışdı. Hamı heyrətlə ona baxırdı. Onun üzü, sanki, ehtirasdan yanmışdı, gözləri zülmətdə alışırdı. Və danışığı da başqalarınınkı kimi deyildi, nitqi qaynar, alovluydu. O, belə deyirdi:

– Həqiqət nədir? Söyləyin bizə: nədir həqiqət? Bizim yer üzündə yaşadığımız həyat başdan-ayağa xaosdur, nəhayətsiz, sərhədsiz rəngarənglik xaosu! Həddindən ziyadədir hər şey! Hə, həddindən ziyadədir və ondan sadəcə olaraq, baş çıxara bilməzsən. Biz yalnız özümüzə aid olanı görə bilirik, amma bu, o qədər xırda, əhəmiyyətsizdir ki... Həyatın qalan hissəsi isə – olduqca nəhəngdir! Biz hər birimiz təklikdə mübarizə aparırıq, daim nəsə axtarırıq, amma hər kəs yalnız özünü tapır. Biz nəhayətsizənginlikdə tənhayıq, tənhalığımız zülmətdə hay salır. Nicat yoxdur bizə – biz həddindən ziyadəyik və olmazın dərəcədə müxtəlifik. Ortaq yol tapa bilmərik.

Onda, bəlkə, həyat həmişə elə məndən, səndən, ondan ibarətdir? Ayrı-ayrılıqda. Bizim bir yerdə olmağımız heç vaxt

həyat deyil? Heç vaxt – kifayət qədər sadə və qəti ifadədir, biz başlarımızı ona söykəyib rahatlıq tapa bilərdik. Başımızı ona söykəyərdik – hər gün öz uşaqlarına eyni sözləri deyən, məhəbbətinin günbəgün gücləndiyini hiss edən qoca ana kimi ona sığınardıq və bəlkə də, xoşbəxt olardıq; öz doğma evinin tavanı altına yığışmış bir ailə kimi xoşbəxt. Bəlkə, o, yəni həyat o qədər əzəmətlidir ki, onu dərk etmək heç vaxt nəsibimiz olmayacaq? Heç vaxt – zamanın lap sonuna kimi! Onda bizə daim eyni şeyləri danışmaq qalacaq, hərə özününkündən dəm vuracaq və görəcəyik ki, bütün qalan şeyləri bizim üçün keçilməz olan zülmət necə udur.

Həyatın bu qədər nəhəng olması mənim üçün dözülməzdir! Mənim üçün dözülməzdir ki, o, sərhəd tanımır! Bu sonu görünməyən fəzada tənhalığım mənim üçün dözülməzdir!

Mən Tanrını tapmaq istəyirəm! Bizim üçün onu tapmaq çox vacibdir, onun axtarışına bir yerdə çıxmalıyıq ki, nəhayət, hər şeyi aydınlaşdıraq.

Ona gərgin bir diqqətlə qulaq asırdılar. Hamı onun nitqinin təsirinə düşmüşdü. Batinlərindəki dərinlikdə gizlənmiş nəyəsə toxunmuşdu, əl vursan qövr edəcək hansısa yaralarına dəymişdi bu adam. Onlar həyatın acılığını qabaqlar heç vaxt bu dərəcədə aydınlığı ilə duymamışdılar, onların bəziləri buna bənzər hissləri, ümumiyyətlə, yaşamadıqlarından, heç xatırlaya bilmirdilər. İndi isə, nəhayət ki, öz vəziyyətlərini bütün ciddiyyətiylə dərk etmişdilər. İnsan həyatının necə qatmaqarışıq olduğunu, onun vüsətini və müşküllüyünü indi hamı anlamışdı. Artıq bilirdilər ki, həyatda insana dinclik, rahatlıq ola bilməz, çünki ayaq basmalı bircə möhkəm bünövrə, bircə qarış yer də yoxdur burada, həqiqət yoxdur. Onlar indi başa düşmüşdülər ki, heç nəyi dərk etmədən, həqiqi bir inanca sahib olmadan onların əvvəl yaşadıqları kimi ömür sürmək necə alçaqlıq, necə rəzalət imiş. Onlar indi dərk etdilər ki, keçilməz zülmətin içində necə nəhayətsiz bir tənhalığa məhkumdurlar. Və onlar başa düşdülər ki, buna mütləq son

qoymaq lazımdır, nəsə başqa bir şey, hamıya yarayan bir şey tapılmalı, birlikdə aydınlığa, həqiqətə çıxmalıdırlar.

Lakin bəziləri düşündü, ümumiyyətlə, Tanrı varmı? Onlardan biri dilləndi ki, bəs Tanrı necə, ümumiyyətlə, görəsən, varmı? Şəxsən mənim üçün, deyəsən, Tanrı yoxdur. Başqa birisi dedi ki, elə mənim üçün də, deyəsən, Tanrı yoxdur. Lakin digəri – həmin o ehtirasla danışan cavab verdi ki, ayrı-ayrı adamlar Tanrıya ehtiyac duymaya bilər, amma bizim hamımız üçün, milyonlarla insan üçün Tanrı zəruridir. Və dinləyənlər də onun bu sözlərinə inandılar, yerlərindən qalxdılar ki, gedib bu ağlasığmaz həyata görə Tanrıdan cavab tələb etsinlər.

Yerlərindən qalxmaları asan başa gəlmədi onlara. Çətinliklə durdular. Hər biri bir zamanlar özü üçün necə rahat idisə, elə də oturmuşdu, əbədilik və heç bilməzdilər ki, nə vaxtsa vəziyyətlərini dəyişəsi olacaqdılar. Odur ki, yaman çətinliklə qalxırdılar və onların zülmətdə atdıqları ilk addımlar inamsız idi, ləngər vurur, səndirləyirdilər. Lakin, nəhayət ki, onları irəli aparacaq adamın ətrafına yığışanda artıq ayaq üstə möhkəm dayanır, ümumi ideyanın müqəddəs alovunda sıx birləşmiş bir dəstə təşkil edirdilər. Onlar hiss edirdilər ki, bütün bu qarışıqlıq və düzənsizlikdə, nəhayət, onları birləşdirən nəsnə tapıldı və bu nəsnə ümumi dərd və nəhayətsiz çıxılmazlıqdan ibarət idi. Artıq onları birləşdirən çarəsizliyin bütün dərinliyini duyur və ondan zövq alırdılar. Onlar bu birliyi mübariz ruhun doğurduğu nəhayətsiz insan gücü kimi duyur və ondan təsəlli tapırdılar. İndi özünü xoşbəxt sayanlar bilmirdilər ki, bu xoşbəxtliyə necə nail olmuşdular. Bədbəxtlər isə daha bədbəxt ola bilmədiklərindən təəssüflənirdilər.

Həmin o ehtiraslının rəhbərliyi altında yola düzəldilər ki, Tanrıdan cavab istəyələr.

Əgər əbədiyyətin meyarlarıyla ölçsək, əvvəlcə onlar bir o qədər də çox deyildilər. Lakin yolboyu onlara yeni-yeni insanlar, dörd bir tərəfin zülmətində oturanlar qoşulurdular;

saysız-hesabsız. Onlar elə həmin o qorxu və o həyat barədə qızğın söhbətlər gedən kiçik qruplarla rastlaşır, elə dəstələr də görürdülər ki, tam sükut içində oturmuşdular, onları yalnız lap yaxına gələndə görmək olurdu. Hamıdan ayrı, tam tənha qaldıqlarını da görür, onları da özləriylə götürürdülər. Onlar xoşbəxtləri və bədbəxtləri, varlıları və yoxsulları, inananları və xəyal qırıqlığı yaşayanları, güclüləri və zəifləri, təslim olmuşları və mübarizə aparanları – bir sözlə, yer üzündə bir zamanlar yaşayanların hamısını özləriylə aparırdılar. Onlar da dəstəyə qoşuldular. Aydın olanda ki, bu əzəmətli yürüş həyatın dəhşətli dolaşıqlığından can qurtarmaq üçün, insanın ətrafını sarmış, sonu görünməz tənhalıqdan qurtulması üçün düşünülüb, dinməzcə qalxaraq yürüşə qoşulurdular. Gözlərindən yandırıcı əzab oxunan çoxları həyəcandan alışaraq ekstaz içində olanlara qoşulurdular. Eləlləri də vardı ki, tələsmədən, sanki, yarıkönül qalxırdılar, onların sifətində hələ gizli bir xoşbəxtliyin nuru bəlliydi və onlar qayğılı-qayğılı harasa baxaraq gedirdilər. Lakin, istisnasız olaraq, hamı yerindən qalxıb bu yürüşə qoşuldu.

Dəstənin başında həmin o ehtiraslı gedirdi, amma daha heç nə danışmırdı, o da indi dəstədəkilərin biriydi, ancaq qabaqda gedirdi. Lakin başını hamıdan dik tutmuşdu və başqalarından ucaboy görünürdü; içindəki alovdan sifətinin cizgiləri nurlanmışdı. Yaşayanda çəkməçi idi və çəkilib bir küncdə oturaraq işini görürdü; indi isə yer üzündə yaşayanların hamısını ətrafına toplayıb Tanrının yanına aparırdı. Yaşayanda qatran və dəri qoxuyan boğucu havası olan xırdaca emalatxanasında öz həyatına hövsələylə dözürdü, indi isə hamının məsuliyyətini almışdı çiyinlərinə. Hamı onun dalınca gedirdi, zira o, indi dalınca yürüyənlərin gözündə çoxəsrlik məhrumiyyətin təzahürünə çevrilmişdi. Onun simasında özlərini görürdü bu adamlar, özlərinin əzab çəkərək haldan düşmüş, qəfəsə salınmış və indi, azadlığa çıxdıqdan sonra, bu bomboş, soyuq dünyadan qorxaraq yenidən evinə dönmək

istəyən, lakin buz kimi məhbəsini tərk etməsiylə artıq evi olmadığını anlayan, əbədilik evsiz qalacağını dərk edən ruhlarını görürdülər. Və zülmətdən yeni-yeni dəstələrin qoşulduğu, bu bitmək bilməyən səyahətləri nə qədər çox çəkirdisə, bir o qədər də tez-tez həyatın necə dəhşətli, necə müdhiş dərəcədə, təsəvvürdə canlandıra bilindiyindən də nəhəng olduğu barədə düşünürdü və çiyinlərinə bu boyda yük salmış, indi isə onlara dəqiq bilgi və sakitlik bəxş etməklə nicat verməli olan Tanrı haqqında fikirləşirdilər. Hakimi-mütləqin gücü və daim nəsə istəyən ruhu barədə fikirləşirdilər, o ruh barədə ki, zənginliyinə baxmayaraq, daim nəsə arzulayır və içində mütləq bir alov işarmalıdır ki, uzaq səyahətini daha heç bir yol olmayan səhrada başa çatdırmış səyyah əllərini öz istisində necə qızdırırsa, onun da sevincsiz mövcudiyyətini eləcə bəzəsin. Tanrı bu sifətini onlara da verməliydi.

İnsanlar isə elə hey gəlir, gəlirdilər. Ağlasığmaz böyüklükdə dəstələr yarandı. Artıq təxəyyül belə onları öz içinə yerləşdirməkdən imtina edirdi. Onlar sahilsiz okean kimi dalğalanırdılar və nəhayət, bu həyəcanlandırıcı insan okeanı, sanki, hərəkətdə dondu və indi yalnız bütün tənha və mübariz, çaşqın və atılmış, bütün axtaran və axtarışında var olan fərdlərdən ibarət yeni-yeni insan sellərinin ona sarı axmasını, ona qovuşmasını duyurdu. İnsanlar isə yalnız ona sevinirdilər ki, artıq bir yerə toplaşmaqdadırlar və hər an yeni-yeni adamlar yanaşacaq, düz sonuncu fərdə kimi, hamı bir yerdə olana kimi. Bu, əgər yerdəki zamanla ölçsək, yüzilliklər, minilliklər boyu davam etdi, zira çox əzəmətli, möhtəşəm bir hərəkat idi.

İndi irili-xırdalı bütün selləri, bütün çayları öz qoynuna yığmış bu insan okeanı gur-gur guruldayırdı – insan dalğaları bu okeanın səthində oynayır, ağır-ağır qalxıb-enir, bir-biriylə toqquşurdular; şahə qalxaraq bir-birinə keçir, sonra hamarlanıb xırdaca ləpələrə çevrilir və tamam başqa yerdən bir də qalxıb-enirdi. Sonra hər şey yenidən sakitləşməyə

başladı, okeanın sərhədləri, sanki, sıxılaraq sərtləşdi və daha dəyişmədi; dəmir çəpər kimi hər şeyi öz içində qapayaraq daha bayırdan heç nə buraxmadı. Lakin buraxası bir şey də qalmamışdı artıq; bayırda yalnız boşluq vardı.

İndi, nəhayət ki, hamı toplaşandan sonra, insanların, tufanlı dənizdə dalğaların qaynaşaraq qarışdığı kimi, bir-birinə qarışmasından sonra sakitləşən adamların içində tamamilə heyrətamiz bir şey baş verdi – belə bir şeyin olacağı kimsənin ağlına belə gəlməzdi. Hər şey birdəfəlik sakitləşəndən sonra onların içində qəribə bir hissiyyat oyandı, sanki, onlar artıq çoxluq deyildilər, tək, vahid idilər. Sanki, hamısı bir yerdə bir bütövlüyə çevrilmişdi: hər şey bir-birinə uyuşur, yaraşırdı. Onlar, həqiqətən, vahidləşmişdilər və bu vahid o qədər sadə idi ki, gözlərinə inanmayaraq ətrafa döyükə-döyükə baxırdılar. O, indi nə mürəkkəb idi, nə dolaşıq. O, indi, sadəcə, çox nəhəng idi. Yox, nəhəng deyildi, sadəcə, çox idi.

Hamı və hər kəs burada özününkünü tapırdı. Burada çətin bir şey yox idi, hər şey öz-özünə alınırdı, sanki. Hər kəs azacıq axtarandan sonra özünə bənzəyənlərin yanında tapırdı yerini və tezliklə bir düzən yaranırdı. Belə çıxırdı ki, onların həyatları özünün rəngarəngliyiylə o qədər də fərqlənmirdi bir-birindən, hər növ öz-özlüyündə çoxsaylı olsa belə, növlərin sayı az idi və müxtəlif növlər bir-birindən ayrılaraq özünə yer tapandan sonra, bəlli cinslər formalaşdı – özünəməxsus cəhətləri olan cinslər. Çoxluqdan birlik məhz belə yaranırdı. Son dərəcə bədbəxt olanlar burada son dərəcə bədbəxtləri tapırdılar, ümumiyyətlə, xoşbəxtlər başqa xoşbəxtləri, möminlər möminləri, tərəddüd edənlər tərəddüd edənləri tapdılar, qiyamçılar axtarıb elə daim qiyama qalxanların yanında qərar tutdular, xəyalpərəstlər həmişə xəyala dalaraq xiffət edənləri, sevgililər sevənləri, şəbədəbazlar özünün acı ironiya və nifrətində qapananları, tərkedilmişlər tərk edilənləri, mərhəmətlilər mərhəmətliləri tapdılar və çəkməçilər çəkməçilərin, süpürgə hörənlər süpürgə hörənlərin, qəbir-

qazanlar qəbirqazanların, quldurlar quldurların, əzabkeşlər əzabkeşlərin, qəhrəmanlar qəhrəmanların, təlxəklər təlxəklərin, heç nə olmayanlar da heç nə olmayanların yanında durdular.

Əvvəlcə, nə qədər ki hərə öz yerini axtarır, özünəbənzərləri tapırdı, bütün bu çoxmilyardlıq dəstələr daimi hərəkətdə idilər və bu dalğalanan insan okeanının üstündə bir uğultu dururdu. Lakin budur, haradasa eyni görkəmli yüzminlik dəstələr formalaşandan sonra onlardan kimliklərini soranda bir səslə cavab verirdilər ki, biz dükançı Pettersonlarıq. Burada isə daha böyük kütlə durmuşdu, onları səslədilər ki, bəs siz kimsiniz? Onlar isə qüssə içində bir ağızdan cavab verdilər: biz dırnağında qara ləkəsi olanlarıq.

Lakin yerlərini tam tapandan sonra bütün dəstələr birləşdi, heç bir cəhətiylə fərqlənməyən bir vahid təşkil etdi və tədricən tam sakitlik çökdü araya, hər tərəfdə qəribə bir hüzur bərqərar oldu və həyat artıq qətiyyən qəribə, anlaşılmaz bir şeyi xatırlatmırdı, hər şey tam aydın, hər şey necə lazımdırsa, elə idi. Bütün bunların mənası, görünür, bu idi ki, ayrı-ayrılıqda hər kəsin yaşamaq haqqı vardı, lakin onlar birləşəndə tam, bütöv bir nəsnə təşkil etməliydilər. Məntiq o qədər sadə idi ki, buna daha heç nə əlavə edə bilməzdin. Qətiyyən heç bir şey.

Heç bir qarışıqlıq da yox idi. Hər şey nizamlı və çox etibarlı, necə olmalıydısa, elə idi. Və heç bir tənhalıq da mövcud deyildi, zira onların arasında elə birisi yox idi ki, eynən özü kimi bir neçə milyard adam tapılmasın. Nə çıxılmazlığa, nə nigarançılığa, nə köməksizliyə yer yox idi burada. Hər şey düzənli, hər şey necə olmalıdırsa, elə idi. Hamı, sözün əsl mənasında, sarsılmışdı. Vücudlarını böyük sevinc, dərin minnətdarlıq hissi doldurmuşdu. Öz ətraflarına sakit baxışlarla göz gəzdirirdilər, hər yana dinclik və mərhəmət, bütövlük hakim kəsilmişdi. Onlar necə qorxduqlarını, axtarışlarda çəkdikləri əziyyətləri, daim əzab içində qovrulmalarını, qorxu

və tərəddüd keçirmələrini, öz batinlərini daim qazımalarına rəğmən, lap dibə çata bilmədiklərini, zülmətdə əllərini irəli açıb özünə qardaş ola biləcək bir kimsəni yana-yana aradıqlarını xatırlayırdılar, lakin məgər idraka tabe olmayan nəhayətsiz boşluqda kimisə tapmaq mümkün idi? İndi isə onların içini dərin sevinc və məmnunluq hissi doldururdu. Lakin bütün gecəni fırtınayla mübarizədə olan birisi səhər açılanda birdən görür ki, tufan artıq başa çatıb, dəniz sakitləşib, heç meh də əsmir və nəhayətsizənginlik bir sükunət nuruna qərq olub, o, əvvəlcə nicat tapdığına, hər şeyin aydın və işıqlı olduğuna nəhayətsiz dərəcədə sevinir, fəqət sonra dinc üfüqlərə diqqət yetirərək, qəflətən içində bir çaşqınlıq, boşluq duyur və beləliklə, ətrafını çoxdan arzulanan hüzur sarmış beləleri də birdən öz batinlərində bir boşluğun acısını yaşayası oldular. Hə şey çox sadə, bəsit idi. Hər şey tam aydın və anlaşılan idi. Hər şey məhz onlar bir zamanlar istəyən kimiydi, bütün həyatları boyu, həmişə bunu arzulayırdılar. İndi artıq mübarizə aparası, sənə əzab verəsi bir şey də yox idi.

Onlar, sanki, əzilirdilər indi. Çaşıb durmuşdular, bilmirdilər özləriylə nə etsinlər, canlarını hara daşısınlar. Onlar qəflətən mövcudiyyətlərinin mənasını təşkil edən bütün nəsnələrdən bir anda məhrum olmuşdular. İçlərini heç bir qorxu doldurmurdu. Heç bir həyəcan onları irəli aparmırdı. Hər şey öz-özünə bitmişdi, hər şey necə olmalıydısa, elə idi. Tanrını axtarmağın da artıq bir mənası qalmamışdı. Hər şey elə onsuz da anlaşılan idi və əslində, anlamalı bir şey də qalmamışdı. Hər şey necədirsə, eləydi.

Hər tərəfə dərin bir sükut çökdü, bir cansıxıcı boşluq hakim kəsildi.

Bu vaxt irəli çıxan bir adam xırıltılı, lakin təsirli səslə danışmağa başladı; o, boyca alçaq, səliqəsiz, pinti görünürdü, lakin qəddini dikəldən kimi boyu da ucaldı və ilhamlı, əsəbi sifətində ruhunun bütün çalarları çox bariz şəkildə oxunurdu. O deyirdi:

– Yaxşı, bu axı nədir belə?! Nədir bu?! Bizim mübarizə və əzablarla yaşadığımız, başımızın üstündə zülmət pərdəsi kimi asılan, ürkək fikirlərimizin dələrək keçməyə can atdığı, yaşama başlayandan daim yalnız irəli getməyə can atdığımız, hamı və hər kəs üçün həqiqəti tapmağa çalışdığımız bu həyatın içində, belə çıxır ki, bizim aradıqlarımızın heç biri yoxdur, o yalnız özü-özünü təkrarlamaqla məşğuldur? Hər dəfə, yenidən elə həmin şeylər, eyni bəsit, primitiv məna, miskin məzmun, elə həmin heçlik, elə həmin boşluq. Biz yorulmaq bilmədən mübarizə aparırıq, amma belə çıxır ki, heç mübarizə aparası bir şey də yoxdur! Biz sinəmizi yırtırıq orada, içəridə isə yalnız ürək, taleyinə özündən qabaq və sonra döyünərək ölmək yazılmış min-min ürəkdən bir ürək döyünür. Biz öz sinəmizdə hər şeyi kamına çəkən müqəddəs bir alov duyuruq, sən demə, bu yalnız ürəyimizin döyünməsi və yaşaması üçün zəruri olan yanacaq imiş; donaraq canımızın çıxmaması üçün yataqlarımızı qızdıran yanacaq.

Beləliklə, bütün bunlar yalnız onu görə mövcudmuş ki, biz çezməyək! İşimiz bitəndə, canımız çıxanda da yaxşı yemlənmiş, öz payını günəşli yer üzündə bəs deyincə gövşəmiş ətlik mal-qara kimi qulağımızdan tutub hərəmizi öz pəyəsinə atırlar və özümüzdən sonra qoyduğumuz yeganə şey gələnilki ot üçün peyin olur. Buna da həyat deyirlər! Başdan-ayağa yalan, içimdə ən müqəddəs saydığım ilkin mahiyyətin dəhşətli təhqiridir bu! Rəzalət və miskinlikdir! Bundan sonra yaşamağın özü də alçaqlıqdır!

Nə səhvlər var, nə kədər. Nə bədbəxtlik, nə qövr edən yaralar, nə də sakitlik nə olduğunu bilmədən çırpınan ürək var. Heç nə yoxdur. Heç bir şey. Həyatın bütün zənginliyi və acılığı, içimizi qorxu və qarşısıalınmaz bir həyəcanla, nəhayətsiz qüssə ilə dolduran nə varsa – belə çıxır ki, bir heç imiş! Məna və məzmun, əhəmiyyət daşıyan həmin o tək nəsnə isə hər birimizin mənliyindən kənarda qərar tutubmuş.

Mən tənha bir yolçu idim, evsiz-eşiksiz, daim axtaran və dinclik nə olduğunu bilməyən yolçu. Bəs indi nəyəm?! Heç nə. Bir boşluq. Tənhalıq yasaqlanıb artıq və mən bir heçə dönmüşəm. Təklik indi hamıya qadağandır, kimsə özünə kimi heç kəsin qədəm basmadığı, özündən sonra isə silinib itəsi cığırla getməyəcək. Kimsə çırpıntısı eşidiləsi olmayacaq, zülmətdə donan qanlı ürəyi ilə təkbətək qalmayacaq.

Tənhalığım yasaqdır mənim və həmişə yasaq olaraq qalacaq.

Bu necə boşluq, bu necə mənasızlıq!

Bu dözülməzdir və mən içimdəki nifrəti köməyə səsləyib, qiyama qalxıram! Mən içimdə ən müqəddəs nə varsa hamısını təhqir edənə nifrətimdən alışaraq, qiyama qalxıram. Mən Tanrını axtarıram, mən Tanrını tapmaq istəyirəm! Bizə onu tapmaq lazımdır ki, həyatın mənasızlığına görə cavab verməsini tələb edək. Biz Tanrını tapmalıyıq ki, həyatın birmənalı olmasına, ondakı vahid həqiqətin isə bəsitliyinə, insan üçün təhqir anlamı daşımasına görə ittihamlarımızı şəxsən onun özünə təqdim edək. Bizə Tanrını tapmaq lazımdır ki, ondan səhvlərimizi, tərəddüdlərimizi, ruhumuzun sərhədsiz laübalılığını, qorxumuzun hədsizliyini, indi sərhəd qoyulmuş sonsuzluğun əbədi ənginliklərini tələb edək!

Onlar natiqə getdikcə artan həyəcanla qulaq asırdılar. Onun nifrəti hamıya yoluxdu, hər kəs içindəki nifrətin necə doğulduğunu, qalxaraq böyüdüyünü və artıq daşıb bütün bu insan okeanını ağzına almasını aydın duyurdu. Onun ilhamlı, əsəbi sifətinə baxırdılar və bu onların öz sifəti idi – əzab yalvarışlarının və titrək həyəcanın təcəssümü, ruhun tənhalıq arzusu idi, elə tənhalıq ki ondan nicat tapmaq mümkün deyildi və onlar həyatın kobud qəddarlığını dərk etmişdilər: necə qəddar bir sevinclə alırdı əllərindəki hər şeyi! Qışqırıqlar eşidildi ki, "biz Tanrını taparıq!" Artıq hər tərəfdən, uzaqlardan belə nidalar eşidilirdi. "Biz Tanrını tapıb cavab verməyə məcbur edərik! Biz onu həyatın aydınlığına görə məsuliyyətə cəlb

edərik! Biz ondan bütün qorxuları, bütün zülməti, dibsiz dərinlikləri, bütün dərkedilməzlikləri özümüzə qaytarmasını tələb edərik!" İnsan kütləsi üzərində təlatümə gəlmiş okeanın gurultusu təki çığırtılar, qışqırıqlar gəzirdi: "Biz Tanrını axtarıb taparıq, onu məsuliyyətə cəlb edərik!"

Onlar həmin o ilhamlının başçılığı altında təntənə ilə yola düzəldilər.

Bu qəribə səyahət idi. Nəhayətsiz insan okeanı ağır-ağır, lakin durmaq bilmədən dalğalanırdı. Suların hərəkətində elə bir əzəmət vardı ki, hamının içində məmnunluq oyadırdı və bu əzəmətin ruhu onların düşüncələrinin misilsiz əzəmətinə mistik bir inamla, qaynar əminliklə doldu. Onlar gedir, gedirdilər, lakin mənzilbaşına heç cür yetişə bilmirdilər. Onlar əsrlər, minilliklər boyu elə hey gedirdilər və heç cür çata bilmirdilər və onda fikrə getməyə başladılar: həddindən artıq görünməmiş, ağlasığmaz bir işə girişmişdilər, deyəsən, könüllərindən öz miskinliklərini o boyda əzəmətin qarşısına çıxarmaq keçirdi, axı o, qəddar, özünün xəlq etdiyi qarışqa yuvası kimi qaynaşan həyata öz dərkolunmaz mahiyyətinin xırdaca parçasını, bir balaca sevinc və dincliyi, azacıq bilik və günəş hərarətini bir parça çörək kimi ataraq, sərvətinin üstündə möhkəm oturub özüyçün və insanlar bədniyyətliliklə çulğaşmış qorxu içində dərk edirdilər ki, bir azdan onunla üz-üzə dayanası olacaqlar. Amma mənzilbaşına heç cür çata bilmirdilər. Tanrının yolu həddindən ziyadə uzun imiş.

Həmin o ilhamlı camaatı mənzilbaşına çatdıra bilmədi. Məcbur oldu aralarındakı ağsaqqallara müraciət etsin ki, onların hamısı qabağa çıxıb qüvvələrini toplayaraq, yolu tapmağa cəhd göstərsin. Ağsaqqallar müdrik, sarsılmaz insanlar idi, amma indi onlar da həyəcana qərq olmuşdular. Dodaqlarını möhkəm sıxaraq irəli çıxdılar, tərəddüdlərini heç nə ilə büruzə vermədilər, lakin üzlərindən necə gərgin daxili həyəcan içində olduqları bəlli idi. Beləliklə, yürüşə onlar başçılıq etdilər. Ağsaqqallar gedir və gedə-gedə ətraflarına diqqətlə

nəzər salırdılar. Onların ardınca isə qalanları səbirli bir mütilik içində irəliləyirdilər. Hərdən kimsə camaatın başı üstündən qabağa baxmağa cəhd göstərirdi, amma əksəriyyət, sadəcə olaraq, rəhbərlərinin dalınca gedirdi, hövsələli bir intizar içində elə hey irəliləyir, irəliləyirdi. Ətraf bomboş, sükut içindəydi. Onlar gedir, gedir, amma çata bilmirdilər.

Nəhayət, uzaqda zəif bir işıq göründü. Sakit işıqdı, sayrışmırdı, lakin o qədər zəif idi ki, ətrafdakı zülmətin içində zorla seçə bilirdilər onu. Onlar fikirləşirdilər ki, yəqin, orada bir dəniz nur var, sadəcə olaraq, indi çox uzaqdadır deyə, belə kiçik görünür. Nəhayət, üstündən çox illər keçəndən sonra, ora yaxınlaşa bildilər. Sən demə, şüşəsini toz basmış kiçik bir lampa imiş yanan, ətrafını solğun, sakit nura qərq edirdi. Bir qoca onun işığında odun yarırdı. Onlar başa düşdülər ki, Tanrı elə bu kişidir.

Bəstəboy idi, belində azacıq donqarlığı vardı, amma bədəndən möhkəm görünürdü. Əlləri kobud idi – belə əllər bütün həyatı boyu ağır və yeknəsəq bir işlə məşğul insanlarda olur. Qırışlı sifətində yorğunluğun əsəri duyulurdu, lakin üzünün ifadəsi müti və ciddi idi. Onları görmürdü.

İrəlidə gedənlər arxadan gələnlərin təzyiqini zorla dayandıra bildilər. Onun qarşısında heyrət içində durdular. Ona baxır, baxırdılar və heç nə anlamırdılar. Arxada dayananlar barmaqlarının ucunda qalxaraq, maraqla boyunlarını uzadırdılar, sıraların arasıyla kor bir uğultu keçib haradasa lap uzaqlarda dondu. İrəlidə onların ən qocaman və müdrik ağsaqqalları durmuşdular, ruhlarının yorulmadan çalışması onlara bir nəcabət bəxş etmişdi, indi gözləri nəcib bir etiraz içində parlayırdı.

– Sən Tanrısan? – deyə, nəhayət ki, qocaya müraciət elədilər, səsləri titrəyirdi. – Deməli, Tanrı sənsən?

Qoca çaşqın nəzərlərlə baxdı onlara. Amma cavab vermədi, yalnız razılıq əlaməti olaraq başını tərpətdi.

– Və sən burada odun yarırsan! – onlar dedilər.

O, yenə susdu. Əlinin arxasıyla ağzını silib ətrafına utancaq nəzərlərlə baxdı və başını yenə aşağı saldı.

– Biz bir zamanlar yer üzündə yaşayanlarıq, – dedilər. – Biz sənin xəlq etdiyin həmin o həyatıq. Biz həmin o daim mübarizə aparan, daim əzab çəkən, tərəddüd edən və inanan, zülmətdə, yolun, izin olmadığı yerlərdə qədəm-qədəm irəliləyən, daim nəsə axtaran, nəsə tapmaq istəyən, nəyəsə ümid bağlayıb, nəyinsə təşnəsi olanlarıq, biz öz varlığımızdan kənarlara çıxmaq istəyənlərik, ürəklərimizi sinəmizdən qoparıb qarşımızdakı sərhədlərdən o üzə ataraq, onları əzablı tənhalıqda qanı axa-axa qalmağa məhkum edənlərik. Bu – bizik! Sən bizi hansı məqsədlər naminə yaratdın?

Qoca sıxılır, əzilirdi. Ona məsələnin nə yerdə olduğu və bu adamların kimliyi, sanki, indicə çatmışdı. O, başını qaldırıb, ayaqları altında təlatümlənən insan okeanına tərki-dünyalara məxsus çaşqın nəzərlərlə baxdı. Ucu-bucağı görünmürdü. Hansı səmtə baxsa, insan dənizi bitmək bilmirdi. Başlardan ibarət, milyardlarla milyard başdan ibarət dəniz – nə ucu bəlliydi, nə bucağı.

O artıq baxmadı. O, torpağa göz qoyurdu, yəqin, indi nə etməli olduğunu bilmirdi. Baltasını bayaqdan qoymuşdu bir kənara. Əynindəki paltarı köhnə, nimdaş idi – indi bu lap gözə girirdi. O, əlini ağappaq, seyrək saçlarına çəkdi və əli çarəsiz halda yanına düşdü. İndi, əlləri işdən azad olanda, sanki, onları nə edəcəyini bilmirdi.

– Mən axı sadə zəhmətkeşəm, – nəhayət, sakitcə dilləndi.

– Bunu elə biz özümüz də görürük, – deyə əsil-nəsillilər cavab verdilər. – Əlbəttə, bir gəl hələ görməyək də, – deyə hamı, hətta lap arxada olanlar belə təsdiq etdilər.

Qoca özünü bir az da itirdi. Onların qabağında sözlərindən əzilərək, müti bir görkəmlə durmuşdu:

– Mən həyatı yaradanda məxsusi bir şey düşünməmişdim, – deyə həmin o bayaqkı etiraf ahəngiylə sözünə davam edirdi.

Onun bu sözlərindən əsil-nəsillilər sarsıldılar:

– Siz bir buna baxın! – Gözləri alışıb-yanırdı. – Məxsusi bir şey düşünməyibmiş! Biabırçılıqdır bu! Lap biabırçılıqdır!

– Düşünməyibmiş! – Bu nida əks-səda kimi sıraların üstündə gəzdi. – Siz bir buna baxın! Biabırçılıqdır bu! Biabırçılıqdır!

Onların qəzəbi qocanı lap birtəhər elədi. O bilmirdi ki, əllərini nə etsin. Ağsaçlı başını aşağı dikmişdi. Görkəmindən necə əzab çəkdiyi bəlliydi. Nəhayət, elə bil, özünü ələ aldı:

– Mən bacardığım kimi elədim, – deyə sakitcə dilləndi.

Bu sadəlövh cavabda, onlara müqavimət göstərmək bacarıqsızlığında riqqətləndirici nəsə vardı və əsil-nəsillilər bunu duydular, lakin sözlərinə elə bayaqkı ahənglə, quru və sərt davam etdilər:

– Sən bizi ora, kədər yuvasına atmısan, əzab və əziyyətə məhkum etmisən, adı da bilinməyən dibsizliyə tullamısan. Sən bizi əbədi əzaba məhkum etmisən, tikanlı yollardan ötərkən çiynimizdə bədbəxtlik yükümüzü daşımağa vadar eləmisən. Sən bizi inandırmısan ki, həyatımız yalnız çəkdiyimiz əzablarla əzəmət və dəyər qazanır, əbədiyyət və Tanrının gözündə qiymətə minir. Sən bizi əldən düşməyə, çıxılmazlığa düçar olmağa, ölməyə məcbur etmisən. Niyə axı, niyə?

Qoca sakitcə cavab verirdi:

– Mən bacardığım kimi etmişəm.

Onlar davam edirdilər:

– Sən bizə günəş və sevinc bağışladın, həyatın gözəlliyindən, ayaqlarımızı sərinlədən şehli səhərin hər şeyin – ağacların, güllərin və dağların xoş rayihə saçdığı səhərin – bütün gözəlliklərindən ləzzət almağımıza icazə verdin. Sən torpağın bəxş etdiyi bəxtiyarlığı tanımağımıza imkan yaratdın, torpağı öz evimiz, öz çiçəklənən evimiz saymağa məcbur etdin; sən məcbur etdin ümidimizi ona bağlayaq ki, həyat yalnız sevinc, parlaq işıq, bitməz sabahdır. Niyə axı, niyə?!

Qoca sakitcə cavab verirdi:

– Mən bacardığım kimi eləmişəm.

Onlar davam edirdilər:

– Sən nə ona inanırdın, nə buna. Sən sadəcə olaraq baxdın ki, belə eləsən işin daha yaxşı gedəcək. İstəyirdin ki, həyat öz-özünə getsin, ona bir sonluq düşünmək lazım olmasın. Sən yalnız yer üzündə həyatın olmasını istəyirdin, vəssalam. Niyə, niyə axı?

Qoca yavaşca cavab verirdi:

– Mən necə bacarırdımsa, elə də elədim.

Bu hər dəfə təkrar olunan cavab onları çaşdırırdı və onun bu sözləri o qədər müti, riqqətləndirici idi ki, axırda qeyri-iradi susdular. Lakin içlərində qaynayan ehtiras çölə çıxmağa can atırdı və onlar tutduqlarını buraxmırdılar:

– Yaxşı, bütün bunları nəyə görə etdin axı? Hər halda, nəsə bir məqsədin olub da! Bu həyat adlı iblis maşınını niyə işə saldın? Axı belə çıxır ki, biz tam sadəliyə və eyni zamanda da, çətinliyə can atmağa məhkumuq? Biz daimi sevinc istəyirik, özümüzün işıq və bəxtiyarlıq hüququmuza əmin olmaq istəyirik və eyni zamanda, içimizdə bir inkarçılıq yanğısı kükrəyir və istəyirik ki, ümumiyyətlə, heç bir sevinc olmasın. Biz nəhayətsiz qorxu diləməyə, heç kəsin anlaya bilməyəcəyi, bizi ya öldürəcək, ya da tam əldən salacaq əzablar arzulamağa məhkumuq və bununla yanaşı, əmin olmaq istəyirik ki, qorxu üçün heç bir əsas yoxdur. Biz hər şeydə bir ahəngdarlıq, düşüncələrimizə, əldən düşmüş qəlbimizə bir sakitlik arzulayırıq və bununla yanaşı, içimizdə bir inkarçılıq yanğısı var, istəyirik ki, ümumiyyətlə, heç bir düzən, heç bir dinclik və sakitlik olmasın. Belə çıxır ki, biz hər şeyi eyni anda istəməyə məhkumuq.

Qoca artıq onları daha sakit dinləyirdi. Görkəmindən elə bayaqkı kimiydi, amma, hər halda, indiki vəziyyəti bayaqkından xeyli fərqlənirdi, baxmayaraq ki, mütiliyi heç də əskilməmişdi.

– Mən sadə zəhmətkeşəm, – deyə onlara nəzər salaraq dedi. – Mən yorulmaq bilmədən çalışırdım. Günlər uzunu

öz işimi görürdüm, həmişə, özümü nə qədər xatırlayıramsa, elə bununla məşğul olmuşam. Ümumiyyətlə, heç nəyə can atmamışam. Nə sevincə, nə kədərə, nə inama, nə tərəddüdə – heç bir şeyə. Mən sadəcə istəyirdim ki, yer üzündə nəsə olsun, heçliklə, boşluqla kifayətlənməli olmayasınız.

Onun bu sözlərindən irəlidə dayanan əsil-nəsillilərin, sanki, ürəyi sancdı. Onun sakit baxışlarıyla rastlaşdılar – gözlərindəki ifadə onları, içini yandıran səbirsizliyə heç bənzəmirdi. Qocaya baxırdılar və o, sanki, göz önündə böyüyürdü, qəflətən o dərəcədə böyüdü ki, bəlkə də, artıq dərk edə bilməzdilər onu, böyüməyiylə də elə əvvəlki kimi yaxın qalmışdı bu insanlara. Onlar susurdular, sinələrində nəsə ılıq bir şey oyanırdı, yeni, hələ tanımadıqları bir nəsnə, onların gözləri nəmləndi, dilləri artıq özlərinə tabe olmaqdan imtina edirdi. Lakin arxada duran milyardlar üçün, qocanın səsini eşidə bilməyənlər üçün batinlərindəki nigarançılıq sakitləşmək bilmir, əksinə bir az da artırdı. Onlara elə gəlirdi ki, qoca sadəcə tərslik edir və həqiqəti onlara açmaq istəmirdi, odur ki, daxillərində toplanmış qəddarlıq bayıra çıxmağa can atırdı. Onlar bu tərs qocanı ağzını açmağa məcbur edərlər. Amma bircə şey qəribə gəlirdi onlara, əsil-nəsillilər, nədənsə, hamısı birdən susmuşdu. Geri çəkilirdilər, yəqin, onlara xəyanət edirdilər. Onların nə vecinə ki, kimsə nicat diləyir, kimsə acı taleyinin əlində əsirdir. Eybi yox, nə olar, özləri girərlər bu döyüşə, baxmayaraq ki, qanı daman ürəklərindən savayı, başqa bir silahları da yoxdur.

Bu milyardların içində saysız-hesabsız balaca uşaqlar da vardı, bütün uzun yolboyu onlar bacardıqları kimi oynayıb-əylənirdilər, hara və niyə aparıldıqları barədə heç anlayışları da yox idi, amma indi seçim onların üzərinə düşdü, öz anlaşılmazlığı ilə dəhşətli olan həyatın adından danışmağı onlara etibar etdilər. Uşaqları Tanrının yanına gətirərək, batinlərindəki nəhəng qəddarlıqla düz gözlərinin içinə baxıb çığırdılar:

– Bəs bunları niyə xəlq etmisən?! Bu günahsız körpələri yaradanda nə düşünürdün?!

Uşaqlar əvvəlcə utandılar, yalnız arxaya boylanaraq, böyüklərin üzlərinə baxırdılar; bilmirdilər ki, nə etməlidirlər, onlardan tələb olunan nədir. Onlar dayanıb inamsız nəzərlərlə bir-birinə baxırdılar. Sonra qocaya yaxınlaşıb onu sıx dövrəyə aldılar. İki ən kiçiyi xırdaca əllərini ona uzatdı, qoca da dizlərini qatlayıb oturdu və balacalar onun dizlərinə dırmandılar. Qocanın iri, qabarlı əllərinə baxır, saqqalını qarışdırır, barmaqlarını ağzına toxundururdular, görünürdü ki, bu mehriban qoca çox xoşlarına gəlir, uşaqlar ona sığındılar, o isə bir əliylə onları tutub qucaqladı.

Qoca gözünü qırpanda bir damla yaş yanağından süzüldü. Körpələrin başını ehtiyatlı bir yöndəmsizliklə, mehriban-mehriban sığallayır, sığallayanda barmaqları əsirdi.

– Mən onda heç nə barədə düşünmürdüm, – deyə çox astaca dedi, amma sözlərini hamı eşitdi. – Mən, sadəcə, sevinirdim onlara baxanda, sevinirdim, vəssalam.

Hamı durub uşaqlarla əhatə olunmuş Tanrıya baxırdı və hamının qəlbində, sanki, nəsə əriyir, genişlənirdi. Kişilər riqqətə gəlmələrini gizləməyə çalışırdılar, qadınlar isə astaca burunlarını çəkirdilər: hər birinə elə gəlirdi ki, Tanrının dizləri üstə oturan məhz onun balasıdır, Tanrı onun başını sığallayır və xoşbəxt göz yaşları axıdırdılar. Ortaya çökmüş sükutda yalnız yüngül hıçqırtılar eşidilməkdəydi. İndi hamı Tanrıyla öz arasında mübhəm bir daxili bağlılıq duyurdu. Hamı birdən anlamışdı ki, elə Tanrı da onlar kimidir, amma daha dərin və daha böyükdür. Daha doğrusu, anlamamışdılar, sadəcə, ürəklərinə dammışdı. Bu, möcüzə idi – onun ilahi mahiyyətini birdən dərk etmişdilər: əsil-nəsillilər onun düşüncə tərzindən, qəlbinin hökmü ilə yaşayan, yüksək materiyaların fərqində olmayan sadə insanlar isə uşaqlarla olan həmin bu səhnədən.

Daha bir kəlmə də deyilmədi. Onlar nəsə demək iqtidarında deyildilər, lakin qətiyyən utancaqlıqdan deyildi bu,

ürəklərinin ağızbaağız doluluğundan idi. Onlar susurdular ki, burada dərk etdikləri, qəlblərində təzəcə yuva salmış nəsnələrin sakitləşərək yer-yataq olmasını gözləsinlər, onlara daha dərindən nüfuz etməyə çalışsınlar. Onlar batinlərindəki mənlərindən imtina etmişdilər ki, yeni əxz etdikləri biliklərə baş vursunlar.

Yavaş-yavaş hıçqırtılar kəsdi. Şirin bir sükut, yay yağışından sonrakı, nəm, yenicə çimmiş, ılıq və bizə bu dərəcədə yaxın olan torpağın günəşə gülümsündüyü bir hüzur bütün vücudlarını çulğadı. Və onlar anladılar ki, böyük yürüşləri uğurla yekunlaşdı.

Bütün burada baş verənlərdən sonra Tanrını tərk eləmək çox çətin idi onlara. Lakin, nəhayət, aralığa hakim kəsilmiş sükutu pozmadan geri dönərək yola çıxdılar. Qocaya baxmaq üçün sonuncu dəfə boylandılar, o isə elə oturduğu yerdə qalmışdı: sonra da başlarını qaldıraraq addımlarını qarşılarında açılan zülmətə atdılar.

Uşaqlar isə Tanrıdan heç cür ayrılmaq istəmir, onunla qalmağı arzulayırdılar. Lakin o, hər birinin yanağını sığallayıb dedi ki, böyüklərlə getmək lazımdır, ata-anaya qulaq asmaq lazımdır, uşaqlar da tabe oldular və o tək qaldı, durub onların ardınca baxırdı, ciddi və xoşbəxt. Nəhayət, budur, artıq o gözdən itdi. Zəif işığı zülmət uddu.

Onlar isə yenə zülmət içində gedir, gedirdilər. Lakin indi bu insan okeanı artıq təlatümlü deyildi, Tanrıya sarı gedəndə qopardıqları səs-küy eşidilmirdi – indi okean bir hüzur içindəydi. Bu yorulmaz yolçular qatı zülmətdə tələsmədən addımlayaraq yol gedirdilər. Başlarını uca tutmuş, gözlərini geniş açmışdılar. Onlar böyük ruh yüksəkliyi içində irəliləyərək, qarşılarında yeni açılmış nəsnələr haqqında dərindən düşünürdülər. Tanrı ilə görüş zamanı yaşadıqları, aydın və anlaşıqlı duyğuların batinlərindəki tapmaca və mübhəmlərlə qarışaraq yaratdığı hisslər haqqında düşünürdülər, hər şey yavaş-yavaş bəlli cizgilər taparaq, qafalarına yerləşir, qəlb-

lərinə çökürdü – sirli şeylər dərinlərdə, aydın və sadələr üzdə qərar tuturdu. Hər kəs öz içindəkiləri düşünürdü, hər biri özüylə təkbətək qalmışdı. Lakin yalnız özünə aid olan şeylər haqqında fikirləşərkən hamı ilə yaxınlığını duyur və öz-özüylə qalsa belə, eyni zamanda, yaxınlarının içində hiss edirdi özünü.

Yavaş-yavaş, irəlilədikcə bu fərqli qablar eyni məzmunla dolurdu. Kimsə içini qürurla, kimsə mütiliklə doldurmuş nəsnəni dağıtmadan daşımağa çalışırdı – nəcib quruluşlu, onu daşıyanların özünə də bir nəcabət verən qablarda, ya da ki tamam sadə, kəndli qadınların yay vaxtı vadidəki quyu quruyanda su daşımaq üçün dağdakı bulağa apardıqları adi gil dolçalara bənzəyən qablarda; onlar var-dövlətlərini aparırdılar geri və hamısının yükü eyni idi. Yavaş-yavaş onların içini eyni ruhi sabitlik, ümid və işıq doldurdu.

Onda da insanlar dilləndilər, hər biri özününkü barədə, amma hamıya müraciətlə dilləndi – eşidilmək, anlaşılmaq istəyirdilər. Onlar bir-biriylə qardaş kimi danışırdılar; sadə və sakit, hisslərini, düşüncələrini bölüşürdülər. Onlar fikirlərini bir-biriylə elə əvvəlki kimi, amma qat-qat daha sakit bölüşürdülər. Və artıq çox sözlü deyildilər, təmtəraqlı ibarələrdən də qaçırdılar: onlar batinlərindəkiləri çölə tökmür, yalnız inamlarını bölüşürdülər – hamıya eyni dərəcədə məxsus olan inamlarını.

Onların arasında biri gedirdi, sifətindən bəlliydi ki, artıq çox qocadır, amma başını uca tutur, qarşısına, qətiyyətlə baxırdı, irəlidə nə qədər yol varsa, hamısını qət etmək əzmindəydi. O dedi:

– Mən səni qəbul edirəm, sevimli həyat, necə varsansa, elə də qəbul edirəm, çünki səni başqa cür, onsuz da, heç təsəvvürə gətirmək mümkün deyil.

Və o, yoluna davam edirdi – hamı ilə birlikdə, dinməz, başqalarını dinləyərək gedirdi və yer üzündə yüzilliklər yüzilliklərlə, minilliklər minilliklərlə, nəsillər nəsillərlə əvəz

olunurdu. Onlar isə bu barədə heç nə bilmirdilər, xəbərləri yox idi bundan. Onlar gedir, gedirdilər, yan-yana, çiyin-çiyinə. Qabaqda gedəndən xeyli arxada addımlayan birisi dilləndi:

– Mən həyata içindəki bütün yaxşı və pis şeylərlə birlikdə inanıram, mən ona hər şeyə görə minnətdaram. Mən ona zülmət və işığına, tərəddüd və inamına, gündüz və gecəsinə görə minnətdaram. Məndə bir şey varsa, bütün qalanları da qardaşlarımdadır.

Həmişə özünə qapanıb yaşayan, indi isə azad olaraq bütün başqalarıyla birlikdə, onlardan biri kimi addımlayan birisi ona güc və inam vermiş yeni inancını ifadə edərək dedi:

– İnsan üçün həqiqi tale, əslində, bir qəfəsdir, çünki adama yalnız bir variant təklif edir, çünki onun sərhədləri möhkəm və dəqiqdir. Bu sərhədlər nə qədər möhkəmdirsə, ondan o üzdəki nəhayətsizliyi daha iti duymaq imkanı verir və indi, nəhayət ki, mənəvi sakitlik tapandan sonra, mən bilirəm: insan ruhu məhz məhbəsdə pərvazlanır.

Başqası dedi:

– Mənə sakitlik bəxş edən bütün nigarançılıqlarıma görə həyata borcluyam. Mənə qorxunun içimdə olduğu, xislətimə xas olduğu, vücudumdan ayrılmaz olduğu barədə həqiqətləri açan bütün qorxularıma borcluyam.

– Sənə, həqiqətən, xas olan şeyləri təcrübəsiz də bilirsən: dəniz sakit vəziyyətdə, tufansız olanda belə, özünün qaranlıq dərinliklərindən xəbərdardır.

Onlar bir-biri ilə beləcə danışırdılar.

Amma biri də belə dedi:

– Çoban dağlarda öz sürüsünü otarırdı ki, birdən haradasa yerin təkindən bütün dağıdıcı gücünü çölə çıxarmağa hazır olan lava qaynamağa başladı. Onun baş verənlərdən xəbəri yox idi, elə buna görə də narahat deyildi. O, günün altında öz sürüsünü otarır, dincələndə öz çomağını torpağa dirəyib, ona söykənərək, ətrafına təbəssümlə baxırdı.

Sonra, faciə baş verəndə isə ona elə bütün başqa şeylər kimi təsir etdi. O, əllərini göylərə açıb ucadan nərə çəkdi. Deməli, bu nərə də haradasa onun içindəymiş həmişə. Sonralar tamam başqa sürüləri, tamam başqa, tanımadığı dağlarda otaranda o, yenə də dincələrkən sakitcə öz çomağına söykənib təbəssümlə günəşli vadiyə baxırdı və qətiyyən vulkan gözləmirdi.

Eşitdikləri səflərin arasında min dəfələrlə əks-səda verdi – axı indi onların hər şeyi ümumi idi.

Yer üzündə isə zaman amansızcasına axıb gedir, yüzilliklər, minilliklər ötüb keçirdi. Amma onların bundan xəbərləri yox idi. Onlar öz yollarıyla sakit, yetkinləşmiş, gözüaçıq irəliləyirdilər.

Budur, uzun sükutdan sonra daha bir səs eşidildi və bu səsdə nəsə bir mübhəm cazibə də vardı, müti və eyni zamanda, qətiyyətli bir səs idi:

– Biz yalnız özümüz barədə bilirik, qalan şeyləri isə ancaq təsəvvür etmək imkanımız var, bizim nəsibimiz həyatdır, başqa şey yox.

Digəri isə dedi:

– Əgər bizim mövcudiyyətimizin hətta heç bir əsası olmasaydı belə, onun altındakı bünövrəni özümüz qurmalıydıq. Sarsaqlar və axmaqlar deyərdilər ki, guya, biz boşluqda tikirik bünövrəmizi. Lakin insanlar tikməli və inanmalıdırlar və bizim bünövrəmiz, harada tikdiyimizdən asılı olmayaraq, möhkəm durardı. Çünki boşluq, əslində, mövcud deyil.

Onlar bir-biriləriylə belə söhbətlər edir və Tanrı haqqında fikirləşir, özünün kiçik lampasının sönməz işığında necə oturduğunu təsəvvürlərinə gətirir, özlərini sakitlik, hüzur içində hiss edirdilər. Onlar elə hey gedir, gedirdilər. Dallarınca isə uşaqlardan ibarət dəstə gəlirdi, onlar səs-küy salır, gülürdülər, qaçdı-tutdu oynayırdılar. Özlərinə təzə oyunlar uydururdular ki, darıxmasınlar və böyüklər bir-biri ilə öz fikirlərini bölüşdükləri vaxt uşaqlar da öz oyunlarını oynayırdılar.

Kimsə dedi:

– Həyatın zənginliyinin həddi yoxdur. Heç bir təxəyyül onu öz içinə sığışdıra bilməz. Əgər belədirsə, onda daha nə arzulamalıyıq ki? Lakin əgər biz daha nəsə istəyiriksə, anlamadıqlarımızın, tanımadıqlarımızın da hamısı bizim ixtiyarımızdadır. Bircə əlimizi irəli uzadıb orada nəsə var, deyə düşünməliyik, bir də görəcəksən hazırdır, gözlərinin önündədir artıq. Bundan artıq nə arzulamalıyıq ki?

Kimsə yenə danışdı:

– Bizim şəhərdə çox qəribə bir adam yaşayırdı. O, bəşəriyyətin xoşbəxtliyi uğrunda mübariz idi, işıq və həqiqət naminə döyüşür, bizləri çox sevirdi. O, həmişə bizdən öndə gedir, zülmətin içində yol göstərirdi. Biz isə onu tutub tonqalda yandırdıq, amma qarşımızda baş əymədi. Min il keçdi, biz onu yandırdığımız meydanda bir daş qoyduq. Daşın üzərində isə onun ölməz adını və altında bu yazını cızdıq: "O, insanlara yol göstərirdi. Biz onu burada tonqala atdıq". Başqa cür hərəkət edə bilməzdik.

Bu əhvalat onların qəlbini qalib bir inamla, təntənə ilə doldurdu. Onlar uzun müddət dinməz getdilər, özləri ilə sərvətlərini aparırdılar. Onlar qaranlıqda irəliləyir, irəliləyirdilər, güclü və azad. Nəhayət, onlardan biri sakit tərzdə, astaca dilləndi:

– Xoşbəxt olmaq insanın vəzifəsidir.

Onun bu sözləri, sanki, öz içində onların bütün inamını ehtiva edirdi. Bu sözlər, bu sadə sözlər onların düz ürəyinə işləmişdi. Onların hamısı sükut içində, düşünərək irəliləyir, irəliləyirdi və batinlərinin işığı indi üzlərindən oxunurdu. Amma daha biri dedi:

– Biz dilənçilərin və məhrumların arzuladığı xoşbəxtliklə xoşbəxt deyilik. Biz xoşbəxtlik yarandığından xoşbəxt olan insan necə ola bilərsə, elə xoşbəxtik.

Bir başqası dilləndi:

– Sevincə nail olmaq asan deyil, bunun üçün xeyli səy göstərmək lazımdır. Qoy insan öz qüssəsini basdırsın, onu

bütöv bir nur dənizində boğsun və onda hər kəs görəcək ki, bu tənha, xırda ağrı cansıxıcı qayalardan çıxarılan bahalı almaz kimi necə parlayır.

Ciddi insanlar xoşbəxtlik barədə belə mülahizə yürüdürdülər. Amma başqası, səsi qat-qat cingiltili olan birisi bunları danışdı:

– Böyük bir kədəri olan və artıq sonuna yaxınlaşsa da, taleyilə amansız mübarizə aparan bir nəfər yolun yanındakı bir evin böyründən keçərkən bir qum təpəciyinin üstündə küçüklə oynayan iki yaşlı oğlan uşağı görür. Küçük lap körpə idi, qalın ayaqları bir-birinə dolaşa-dolaşa, gülməli yeriyirdi. Nəm burnuyla uşağın kürəyini daim dümsükləyirdi, uşaq isə hər dəfə sevincək şaqqanaq çəkərək əl çalırdı. Gözləri heyranlıqdan par-par yanırdı. Onlara bir cavan qadın tamaşa edirdi və onun da üzündən xoşbəxtlik yağırdı. O heç də həmin anlarda uşaqdan az sevinmirdi. Həmin adam da qeyri-ixtiyari ayaq saxlayaraq, bu mənzərəyə gülümsünür – çox maraqlı idi onlara baxmaq. Lakin o həm də ona görə gülümsünürdü ki, bəxtiyarlıqlarından necə ləzzət aldığını onlara göstərsin.

Bax beləcə bir müddət gülümsünərək, durdu orada. Bu səhnə tamam başqa, onun öz həyatından uzaq olan xoşbəxt bir həyatdan idi, aralanan kimi bunu da unutdu. Amma, görünür, bu səhnə beyninin harasındasa ilişib qalmışdı deyə, yenə də öz dərdinə qərq olaraq qərar qəbul etmək üçün dərin fikrə gedəndə qeyri-iradi gülümsünürdü.

Bunun dalınca daha biri dilləndi:

– Bəs siz heç bilirsiniz ki, dünyada hər dəqiqədə bir qozbel doğulur? Belə çıxır ki, insan nəslinin qozbellərə də ehtiyacı var. Mənim yer üzündə hələ yaşadığım əyyamlarda elələri tapıldı ki, bu barədə eşidərkən belə bir nəticəyə gəldilər: həyat mahiyyətcə çox qəddar bir şeydir və bu qənaətlərindən çıxılmazlığa düçar olaraq həmin bu çıxılmazlığın özünü yeganə böyük həqiqət, yeganə nicat yolu, onları ucaltmağa

və onlara insanın mütilikdə tapdığı acı təskinlik verməyə qadir yeganə ideya elan etdilər. Lakin öz ideyalarını nə qədər alovlu təbliğ etsələr də, yer üzünə qozbellər bundan çox gəlmirdi. Qabaqkı kimi, dəqiqədə bircə nəfər doğulurdu. Və indi də məhz bu səbəbdən çıxılmazlığa düçar olaraq, axırda təbliğatlarını dayandırası oldular və elə ona qane oldular ki, yenidən xoşbəxtdirlər.

Onlar bir-biriləri ilə beləcə söhbət edirdilər. Hər biri özündə elə şeylər tapıb çıxarırdı ki, başqalarıyla bölüşə bilərdi, nəsə işıqlı, gözəl şeylər tapır və onları bütün arzulayanlara təklif edirdi. Onlar bir-birini dinləyir, birgə səylərilə yeni inancın binasını ucaldırdılar.

Milyonlarla adam qaranlıqda addımlayırdılar. Öz sularını zülmətdə səssiz axıdan nəhəng sel, lakin onlar üçün artıq zülmət yox idi. Nəhayət, budur, onlar bir zamanlar toplaşdıqları həmin o yerə çatdılar, indi burada yenidən ayrılmalıydılar. Təntənəli vida anı yetişdi.

Hamının susduğu dəm həmin o kifayət qədər qoca kişi ağsaçlı başını qaldıraraq, qarşısındakı istənilən yolu qət etmək qətiyyətiylə irəli baxdı:

– Mən səni qəbul edirəm, əziz həyat, necə varsansa, eləcə də qəbul edirəm, zira səni başqa cür təsəvvür etmək, onsuz da, mümkün deyil.

Daha heç kəs heç nə demədi. Bütün vacib şeylər artıq deyilmişdi; onlar belə hesab edirdilər. Onların əlində qalan sərvətin dəyərini təyin etmək isə, onsuz da, mümkünsüzdü, bu, qəlblərinin dərinliyində gizlədikləri sirləriydi onların.

Bir-birlərindən dinməzcə ayrıldılar, indi onların hər biri yollarını gözləyən gələcəkdə öz yerini tapmalıydı.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# MARİAMNA

Böyük çar İrodun bu dünyadakı həyatı zamanı bütün yer üzündə qüdrətdə ona tay olan başqa birisi yox idi. O özü belə düşünürdü. Bəlkə də, səhv etmirdi. Lakin o, adicə adam idi – yer üzünü məskunlaşdıran, nəsli silinərək özü barədə heç bir yaddaş qoymadan yox olacaq adamlardan biri. Amma gəlin bu düşüncələrimizdən diqqəti yayındıraq və onun taleyindən söz açaq.

İrod İudeya çarı idi və xalq onu sevmirdi. Qəddarlığına görə sevmirdi, bir də ona görə ki, o, idumey olduğundan sünnətini qayda-qanuna uyğun etməmişdilər: idumeylərin adətlərinə əsasən, oğlan uşaqlarının artıq dərisinin ancaq kiçik bir hissəsi kəsilib atılırdı. Saysız-hesabsız qəddarlıqları xalqın nifrətini durmadan artırırdı və nə qədər ki sağ idi, hamı onun ölümünü arzulayırdı. Lakin o, ilahinin şəninə dəbdəbəsi ilə Solomon məbədini də geridə qoyan bir məbəd ucaltdı. Xalq təəccüb qalmışdı, tikilinin bənzərsiz gözəlliyini heç kəs dana bilməsə də, çara bəslədikləri nifrət azalmırdı. Onu insanlar arasında ilahiyə hamıdan zidd gedən, ən müdhiş bir şəxs, bəşər övladının düşməni sayırdılar və o, ürəkləri nifrət, qorxu, çıxılmazlıq hissləriylə doldururdu. Onun barəsində əfkari-ümumun hökmü belə idi. Ədalətli və həqiqi hökm idi.

O isə Mariamnanı sevirdi.

Yerusəlimdə anadan olsa da, əsl vətəni səhra idi – əcdadlarının torpağı; onların hamısının ruhunda səhra möhürü vardı. Səhra onun da içində yaşayırdı və o, tez-tez səhranın çağırışlarını, dəhşətli boşluğunu duyurdu. Amma içində həm

də əcdadlarından miras qalmış vəhşi, şən və acgöz həyat sevgisi, öldürmək həvəsi və öldürülmək qorxusu yaşayırdı.

Qəddarlıq, qan, müharibə görəndə, düşmən cəsədlərini tapdayan tərdən köpüklənmiş at görəndə, qaçanlar və yaralılar, onun əsgərlərinin əlinə keçmiş əsir qızlar – bir sözlə, müharibədə çalınan qələbənin gətirdiyi bütün şeyləri görəndə ürəyi dağa dönür, zəfərə, qızıla, hakimiyyətə sevinirdi. Amma məğlubiyyətə də – onun məğlub vaxtları da olurdu – sevinirdi, çünki sinəsində kükrəyən, hamıdan gizlətməyə çalışdığı düşmən nifrəti qanlı bir qisasda, yeni döyüşdə çağlamaq üçün məqam gözləyirdi. Əvəzində, qadınlar sarıdan uğursuzluq onun cilovlanmaz yaşam eşqini söndürürdü və hər belə hadisədən sonra daxilində sümürücü bir boşluq hiss edirdi, bayaq söylədiyimiz, səhra oğlunun tənha ruhunun dəhşətli boşluğunu.

O, boyca uca, cantaraq idi, kobud cizgiləri vardı və yəqin, heç kəs onu qəşəng adlandırmazdı, amma bircə dəfə görən bir də unuda bilmirdi. Ən azı, baxışını yaddan çıxarmazdılar, hərçənd ki, onun baxışlarına gözlərini yayındırmadan davam gətirən kimsə nadir hallarda tapılardı. Baxışı təhlükəli-sınayıcı idi; o, insanları mühakimə edirdi, özü də çox qəzəblə. Gözləri tünd rəngdəydi, ağımtıl damarlar keçirdi içindən, bəzən şir gözüylə müqayisə edirdilər, amma şirin gözləri heç elə deyildi, rəngi xeyli açıq idi. Üzünün dərisi sarı idi, hətta dodaqlarında da bu sarılıq sezilirdi, sarı rəng isə qeyri-sağlam rəngdir, lakin qalan nə vardısa, hər şey onun sağlamlığına, gücünə dəlalət edirdi. Bəziləri elə fikirləşirdilər ki, içini dağıdan gizli bir xəstəlikdən saralıb və tezliklə öləcək. Lakin səhv edirdilər.

Yerişində aşkar qüsuru yox idi, amma sağ ayağını həmişə soldan ağır basırdı. Özü, bəlkə də, fikir verməmişdi buna, lakin ətrafındakılar görürdülər bunu və onun bədəni elə bu səbəbdən daha dəhşətli, daha ağır təsir bağışlayırdı, xüsusilə də söhbətini yarımçıq kəsərək çıxıb gedəndə ona arxadan

baxırdınsa. Bəlkə də, məsələ heç yerişdə deyildi, axı o, söhbətini, adətən, əsəbiləşəndə yarımçıq kəsirdi və onun qəfil gedişi heç kəsə yaxşı bir şey vəd eləmirdi.

Onunla hər görüş məşum ola bilərdi. Və xoşbəxt o adam idi ki, İrod onu öz yanına çağırmır və onunla yolda belə rastlaşmaqdan qaça bilirdi.

Solomonla Davidin müqəddəs taxtına onu qanlı bir yol gətirmişdi və hakimiyyətə yiyələnən kimi, onun qarşısını nə vaxtsa kəsmək istəyənlərdən intiqamını almağa başladı. O unutmamışdı ki, bir zamanlar onun qəddarlığı Ali Məhkəmə qarşısında, Sinedrion qarşısında cavab verməsinə səbəb olmuşdu və onu ittiham edənlər kimlər idi. Onların heç biri salamat baş aparmadı, hərçənd ki, hamısı ruhanilər, İudeyanın ağsaqqalları idi. Ruhanilərə aşkar nifrəti vardı, onların özünə də, qədim, köhnəlmiş və elə köhnə olduğu üçün, təməli qoyulandan bəri nə tikilinin özündə, nə də orada icra edilən dini ayinlərdə heç bir şey dəyişmədiyindən xüsusilə müqəddəs sayılan məbəddə sitayiş etdikləri ilahiyə də nümayişkaranə gülürdü və onun əleyhinə atacağı addımlar haqqında düşünən və şübhəli saydığı kim vardısa hamısı, hakimiyyəti ələ keçirən kimi İrodun saldığı qırğının qurbanına çevrildi. Daha bir neçə il ötəndən sonra isə romalıların köməyi ilə Yerusəlimi, özünün əyilməz paytaxtını mühasirəyə saldı və şəhər təslim olanda murdar bütpərəstlərə şərait yaratdı ki, qarətlər törətsinlər, camaatı qırsınlar; onda küçələr meyitlərlə doldu və hətta məbədin özündə belə ölənlər, yaralananlar vardı. Odur ki xalqın nifrəti və onu insan cildində bir həyula sayması heç də təəccüblü deyildi.

Bəs necə olmuşdu ki, belə bir adam, üstündən az illər ötəndən sonra, inanmadığı Tanrıya məbəd ucaltmaq fikrinə düşmüşdü? Misli-bərabəri olmayan, dəbdəbəli bir məbəd.

Necə olmuşdu bu? Səbəb nə idi?

Məbədin tədricən ucalmasını görənlər də, İrodun taleyi və həyatı üzərində indiyədək düşünənlər də belə hesab edirdilər

ki, o, bunu müştəbehliyindən – taxtına ədalətsizliklə yiyələndiyi Solomonu öz şöhrəti ilə geridə qoymaq, hətta Romanın məşhur məbədlərini üstələmək, adını şöhrətləndirmək üçün edirdi, məbədi özünə ucaldırdı ki, adı əsrlər boyu yaşasın, ölməzlik qazansın.

Başqa səbəb yox idi. Onun misilsiz şöhrətpərəstliyi sərhəd tanımırdı və təbii ki, məbəd tikdirmək fikrinə elə bu şöhrətpərəstliyi ucbatından düşmüşdü. Özündən soruşsaydılar, heç nəyi danmazdı, hətta suala təəccüb də edərdi.

O, tikintiyə diqqətlə göz qoyur, hər bir xırdalığa fikir verir və yaratdığını, öz əməyinin bəhrəsini tələbkarcasına, uzun-uzadı seyr edirdi və tez-tez, yuxusu gəlməyəndə sarayı tərk edərək, tikintiyə gedərdi. O saatlarda orada kimsə olmazdı və İrod tənha durardı. Öz məbədində tək-tənha gecənin zülmətində məbədi ağır addımlarıyla gəzərdi.

Məbədi tərk edəndən sonra saraya aparan yolun üstündə tez-tez dayanıb ulduzlu səmaya baxaraq, bomboş ruhunu haqqında heç nə bilmədiyi parlaq kəhkəşana açardı. Çünki o, fəaliyyət adamı idi – bayıra, zahirə, xaricə meyilli adam.

O heç vaxt özünü araşdırmaq fikrinə düşməmişdi. O, sadəcə olaraq, dünyaya necə göz açmışdısa, eləcə də vardı.

Yəhudilər bu qədər nahaq qanın səbəbkarına, həqiqi yəhudi olmayan və adətə tam uyğun şəkildə sünnət edilməmiş böyük günahkarın ucaltdığı məbədə tam inamsızlıqla baxırdılar. Onları hiddətləndirən onun Tanrı evi tikmək üçün özündə cəsarət tapması idi. Axı ilahi buna necə yol verirdi?

Əlbəttə, məbəd gözəl, dəbdəbəli olacaqdı, divarları mərmərdən, uzaq, yad ölkədən gətirilən daşdan idi, onu qızılla da, gümüşlə də, mislə də, bahalı korinf bürüncü ilə də bəzəyəcəkdilər. Lakin Tanrı belə bir evdə yaşamaq istəyəcəkdimi? Ona belə ev lazım idimi? Bütün bu dəbdəbə ona rəzalət təsiri bağışlamazdımı?

Məbəd üçün daşları onun doğma şəhərinin ətrafındakı dağlardan tədarük etsəydilər, Tanrı üçün daha xoş olmazdımı? İlahi bunu daha çox xoşlamazdımı?

Onun iradəsini öyrənmək asan iş deyil. Lakin dərindən düşünəndə görürsən ki, bu, onun üçün daha yaxşı olardı.

Məbədin nə içindəki, nə də çölündəki dəbdəbə, bütün bu bər-bəzək ona qətiyyən gərək deyil, ona köhnə məbəd kimi özünə uyğun bir ev lazımdır.

Bunu heç kəs dəqiq bilmirdi. Tanrının arzularını heç kəs, heç vaxt dəqiq bilmir. Lakin ona hamıdan yaxın olan baş kahin belə hesab edirdi ki, binanın görünməmiş dəbdəbəsinə və gözəlliyinə baxmayaraq, Tanrı da elə öz qulları kimi, hər şeyin necə idisə, eləcə də qalmasını arzulayır.

Amma ilahi yeni məbədin divarlarını yerlə yeksan etmədi, İrodun qurduğunu heç bəyənməsəydi, mütləq dağıdardı məbədi. Bəlkə də, bunun izahı onda idi ki, köhnə məbədi birdən uçurmamışdılar, onu yenisi ilə ehtiyatla, hissə-hissə əvəz edirdilər, bu elə içəridəki bəzək işlərinə də aid idi, odur ki, məbəddə ibadət qətiyyən kəsilmirdi, düzdür, tikintinin səs-küyü mane olurdu, amma həm xalqın, həm də ruhanilərin qorxduğu şey yalnız ibadətin kəsilməsi idi, axı Tanrıya gündəlik ibadətdən vacib heç bir şey ola bilməzdi.

Və etiraf etmək lazımdır ki, bunun qayğısına İrod özü qalmışdı, o özü əmr etmişdi ki, tikinti bu minvalla aparılsın. Belə yaramaz, mürtəd bir adam üçün qəribə hərəkət deyildimi? Lakin onun barəsində xalqın rəyi dəyişməz qalırdı, onun dəyişməsi üçün elə bir səbəb yox idi. Çünki o, elə Yerusəlimdə də əvvəlki İrod idi, muzdlularının dəhşətə gətirdikləri ətraf kəndlərdə də. Muzdluların əksəriyyəti gəlmələr idi, yerli camaatı, Tanrının qoruduğu xalqı adam yerinə qoymurdular. İrod hakimiyyəti və taxt-tacı onların hesabına qoruyurdu. Hörmət bəsləyirdilər ona, çünki qarətlərə, qətllərə, düşmənlərlə, qanunsuz əməllərdə şübhəli sayılanlarla haqq-hesab çürütməyə geniş imkanlar yaratmışdı, onlar başqalarının

malikanələrinə yiyələnirdilər. Muzdlular elə öz sahibinə bənzəyirdilər və ona it kimi sədaqətli idilər.

Bunu hamı bilirdi və onun adı qanlı dumana bürünmüşdü, İrodun zəhmli görkəmini çox nadir hallarda görsələr belə, o, öz sarayında olanda da, məmləkətin ən ucqar guşəsinə səfər edəndə də hamı, hər yerdə yalnız bəla gözləyirdi.

Onun sarayına nadir adamları buraxırdılar və çoxları heç bilmirdi ki, orada nələr baş verir. Lakin dillərdə dolaşan şayiələr sarayda pozğun həyat yaşandığından, orgiyalar təşkil olunduğundan, yad ellərdən gətirilən bütpərəst qadınlarla cürbəcür əxlaqsız əməllər törədildiyindən xəbər verirdi və çarın özü saraydakıların ən pozğunu idi.

Burada təəccüblü bir şey yox idi – Yerusəlimin əhalisi bu barədə yalnız pıçıldaşırdı, çünki çar hər yerə öz casuslarını yollayırdı, – heç bunda da təəccüb ediləsi bir şey tapmazdın, axı onun əcdadlarının yaşadığı torpaqlar – günahın vətəni, Tanrının səhraya döndərdiyi Sodom və Qomorranın yerləşdiyi məkanlar idi.

Amma bütün danışılanlar daha çox fərziyyə sayılmalıydı. Həqiqət olanı İrodun yalnız məhəbbətdə qəddarlığı idi. O, qadınlara nifrət edirdi və nifrəti nəvazişlə dolu idi, yaxınları ona daim yeni-yeni kənizlər gətirirdilər ki, çar onlardan bezəndə, özlərinə götürə bilsinlər. Çox gözləyəsi olmurdular. Məhəbbət əyləncələri bitən kimi, çarın qəlbində bir nifrət baş qaldırırdı. Lakin hərdən eyni qadını bir müddət yanında saxladığı da olurdu. Onda yaxınları təəccüb edirdilər və sarayda hər şey birdən dəyişirdi. Amma o, heç kəsi sevmirdi və heç kim də onu sevmirdi.

Günah dolu həyat. Bəlkə də, xalq öz hökmündə tam ədalətli deyildi. Bəlkə də, günahın böyüyü o idi ki, həyatı bu dərəcədə cansıxıcı keçirdi. Əgər məhəbbətin özü belə, qəlbə sevinc gətirə bilmirsə, onda gör yaşam nə qədər mənasızlaşar.

Düzdür, qəddarlıqdan da zövq almaq olar.

Məbədin inşası da davam edirdi, saraydakı həyat – camaatda qatma-qarışıq şayiələr doğuran günah dolu həyat öz axarında idi. Çarın öz şəxsi məbədinə tənha gecə gəzintiləri də elə əvvəlki kimi davamlıydı.

Onun məmləkətinə çevrilmiş müqəddəs torpaqlar üzərində isə elə həmişəki ulduzlu gecələr dururdu. Amma İrod paytaxtdan uzun müddətə ayrılır, öz adamları ilə qanlı qarətlərə baş vururdu, düşmənlərini və yaxud özünə düşmən saydığı, onun hakimiyyətini devirmək niyyətində olduqlarını güman etdiyi insanları əzirdi. Yəhər üstə keçən köçəri həyat ona daha uyğun idi. Ata-babaları cənub səhralarında elə bu cür həyat tərzi keçirir, İudeyaya hücumlar edərək, tacirlərin karvanlarını talayırdılar. Amansız, sərt yaşayırdılar və İrod öz damarlarında onların vəhşi qanını, qəlbində isə həyatın vəhşi sevincini duyurdu. Əsl həyatın – atalarının sürdüyü və onun ovqatını müəyyənləşdirən həyatın.

Təbəələri isə deyirdilər:

– O, səhra oğludur. Elə buna görə bir belə dözməli oluruq.

Sonra o, Mariamna ilə rastlaşdı.

O, Dəməşq yolunun üstündə durmuşdu, şəhər darvazaları arxasında, qız isə düz yanından keçdi. Heç nə baş vermədi, bu an həyatın bütün axarını dəyişən bir ana heç bənzəmirdi, amma hər şey dəyişdi onun gözündə: günəş, çöl, çöldəki alçaq otlar, onun gül-çiçəyi, alçaq otların arasındakı gül-çiçək. Bu nə çiçəklər idi belə, birinci dəfə görürdü. Otlaqları qoyun sürüləri yemişdi artıq, amma çiçəklərə dəyməmişdilər. Bu çiçəklər elə həmişə burada bitirdi, amma qız yanından ötməsəydi, İrod onları heç vaxt görməyəcəkdi.

Qızı bircə an gördü, amma bütün həyatında belə bir an olmamışdı. O, nə baş verdiyini heç anlamadı da, bircə onu bilirdi ki, baş verən görünməmiş, qəribə, izah edilməsi mümkünsüz bir şeydir. Qız isə çıxıb getmişdi, artıq yox idi. O, gözlərini

tutdu ki, gördüyünü unutmasın, başqa heç bir şeyə baxmasın. Bu hərəkətin özü də onun üçün təzə idi. Beləcə, ovuclarıyla gözlərini qapayaraq durmuşdu yolun kənarında, baxanlar isə, yəqin, anlamırdılar, elə bilirdilər ki, günəşdən qorunur. Amma o, günəşdən qorunmurdu. Qətiyyən.

Yeri gəlmişkən, İrodun nə gördüyündən, qəlbini oynadan, onu əsirə çevirən şeyin nə olduğundan söhbət açmaq lazımdır.

Yanından ötən cavan qız uşağı idi, Yerusəlim qadınları üçün nadir olan sarışın saçları vardı. Zadəgan adətiylə, yunanlar sayaq geyinmişdi, başına, sarışın saçlarının üstünə isə ağ örtük salmışdı. Qəribədir, amma onun gözəlliyi diqqətini, demək olar, heç çəkməmişdi, hərçənd ki, başqalarına baxanda, mütləq əvvəlcə gözəlliyinə qiymət verərdi. Sanki, onun gözəlliyinin İrod üçün elə bir əhəmiyyəti də yox idi. Sonralar anladı bunu və özü üçün aydınlaşdırdı. Onun gözəlliyi aşkar və əhəmiyyətsiz idi, çünki bu qızın qalan hər şeyi gözəlliyindən üstün idi. Topuqlarında gümüş bilərziklə bağlanan yüngül səndəlli ayaqları onu quş kimi aparırdı. Sanki, havada süzürdü.

Gördüyü yalnız bu idi. Lakin heç nəyi təfərrüatı ilə görə bilməmişdi: gördüyündən oyanan hissiyyat onu yaman çulğamışdı. Özünün necəliyini xatırlayaq, gördüyünün ona nə dərəcədə bənzəmədiyini təsəvvür edək və yadımıza salaq ki, özündən başqa nə haqdasa düşünmək adəti heç yox idi İrodun. Onun başına niyə belə bir hadisə gəlmişdi? Niyə həmin dəqiqələrdə, məhz qız buradan keçən anlarda, İrod da orda idi? Sadəcə, təsadüf idi bu. Onu Dəməşq darvazalarına təsadüf gətirmişdi. Özü də bilmirdi ki, bura niyə gəlib, xüsusi bir işi yox idi. Lakin vacib olmayan bir yerə getmək adəti də qətiyyən yox idi onda. Bəs niyə baş vermişdi bu? Başına gələn nə idi?

Anlaya bilmirdi.

Əllərini gözlərindən üsulluca çəkdi və yanından ötən, darvazalardan girib-çıxan adamları gördü – yad, tamamilə yad adamları.

Çaşqınlıq içində o da darvazalara yaxınlaşıb, şəhərə girdi.

Qızın kim olduğunu öyrənməyə cəhd elədi. Amma bu asan deyildi. Çünki özünü faş eləmək istəmirdi, istəmirdi deyə ki, bu məlumat nəyinə gərəkdir. Qızı təsvir etmək fikrindən də vaz keçdi, çünki yaddaşına həkk olunmuş simanı ətrafındakı casuslar, xəbərçilər dəstəsinə etibar etmək ona həyasızlıq kimi gəlirdi. Onlar Yerusəlimdə, yoxsullardan savayı, demək olar ki, hamını tanıyırdılar, lakin həmin qızın kasıblara bir aidiyyəti də yox idi. Onlara etibar etmək, qızı onlara tay tutmaq fikrinin özü ürəyindən deyildi. Bir də ki gördüyünü dəqiq çatdırmaq, onu olduğu kimi təsvir etmək məgər asan iş idi?

Elə buna görə də vaxt keçirdi, amma o, rastlaşdığının kimliyindən hələ də bixəbər idi.

Neçə dəfə elə eyni saatda Dəməşq qapılarına gedib gözləyirdi ki, bəlkə, qız yenə oradan keçdi. O isə görünmürdü. İrod artıq düşünürdü ki, qızı bir də heç vaxt görməyəcək.

Lakin qəribə bir təsadüf nəticəsində qızın kimliyini öyrənə bildi. Öyrəndi ki, Yerusəlimə təzə gəlib, yaxın qohumlarının yanında yaşayır və onu çox az adam tanıyır.

Qız Makkaveylər nəslindən idi, o, çoxdan bəri həmin nəslin ən yaxşı oğullarını qılıncdan keçirərək, dizlərini qatlamaq istəyirdi. Qız isə ən tanınmış Makkaveylərdən idi.

Onun qohumlarından biri, cəmi on iki-on üç yaşı olan bir oğlan uşağı, nəslinə göstərilən münasibətə görə saray gözətçisini öldürməyə cəhd etmişdi. Onu tutub zindana atmışdılar ki, baş ayılanda bəlli üsullarla qiymətli məlumat öyrənsinlər. Elə bu səbəbdən də ertəsi gün son dərəcə təəccüblənmiş İrod öz qarşısında süzə-süzə yeriyən həmin o qızı, özü də elə həmin paltarda gördü.

O, taxtın qoltuqlarından yapışıb, elə sıxdı ki, lap əli ağrıdı, amma özünü ələ ala bildi.

Qız gəlmişdi ki, həmin oğlanın xahişini eləsin: qohum idilər, çox gənc, hələ lap uşaq idi və təbii ki, nə etdiyini anlamırdı.

Onun kimi birisindən mərhəmət diləmək həddindən ziyadə cəsarət istəmirdimi? Qız onun qarşısında dayanmışdı – balaca, kövrək bir məxluq – və elə buna görə də göstərdiyi cəsarət adama lap qəribə gəlirdi. Elə bu sözləri qıza da dedi. O isə heç anlamadı da. Burada qəribə nə vardı ki, axı o ən vacib bir xahişlə əlaqədar gəlmişdi, daha cəsarət nəyinə lazım idi? Nədən qorxmalıydı ki?

Qızın son sözləri ona qəribə təsir göstərdi. O heç vaxt belə şey eşitməmişdi. Nəhayət ki, onu görəndə dəhşət hissi keçirməyən bir nəfər tapılmışdı...

Qıza baxırdı. Ağ, lap ağ, başqalarınınkından da ağ, nazik dərili açıq sifət. Lakin gözləri, kirpikləri tünd rəngdəydi, baxışlarından isə qəribə incəlik duyulurdu. İndi artıq o görürdü ki, qız necə gözəldir, yalnız indi görmüşdü bunu.

Dodaqları dolu, bir az ətli idi, saray qadınları, şəhərin əsilnəcabətli xanımları kimi boya da vurmamışdı dodaqlarına.

Qızın kim olduğunu da elə bu dodaqlardan, onun öz dilindən eşitdi. Qətiyyən heç nəyi gizlətmək fikri yox idi, danışdı ki, elə həmin oğlan kimi o özü də Makkaveylər nəslindəndir və bununla fəxr edir, axı onlar da bir zamanlar çarlıq etmişdilər.

O, yenə fikirləşdi ki, qızda bu cəsarət, görəsən, haradandır. Kövrəkliyi deyilmi ona cəsarət və güc verən? O, qızın gözlərinə baxırdı, baxışından utanaraq baxırdı, çünki onlara dözməyin nə qədər çətin olduğunu yaxşı bilirdi. Qız isə gözlərini yayındırmırdı. Ona şax və adi nəzərlərlə, qorxu və ya utancaqlıq çaları olmayan gözlərlə baxırdı.

– Oğlanı gətirin, – deyə o əmr verdi.

Gözətçi onu gətirdi. O, arıq, yaşına uyğun olmayan dərəcədə balaca, çəlimsiz idi, qarğa qanadı kimi qara saçları və içində nifrət yanan qara, vəhşi gözləri vardı. İrodu görəndə,

elə bil, lap üstünə atılmaq istəyirdi. Qıza isə təəccüblə ötəri bir nəzər saldı və bir də ona tərəf baxmadı.

İrod oğlanı bic bir təbəssümlə seyr edirdi, amma bu təbəssüm adamın canına yüngül üşütmə salırdı.

– Belə bir sarsaqlıq haradan gəldi ağlına? – deyərək, oğlanın qara saçlarını qarışdırdı.

Sonra isə əzələlərinə toxundu.

– Oho, yaman güclüsən, ha! – deyib güldü. – Burax onu, qoy qaçıb getsin, – gözətçiyə sarı çöndü. – Bir də belə iş tutmaz.

Oğlan ona nifrət dolu daha bir nəzər salıb sakitcə, tələsmədən zalın çıxışına tərəf getdi. Çılpaq idi, əynində yalnız bel sarğısı vardı. Arxadan arıq, çəlimsiz görünürdü, kürəkləri də möhkəm çıxırdı.

İrod qıza tərəf çöndü.

– Sizi bir dəfə də görmüşdüm, – dedi.

– Bu ola bilməz, – qız cavab verdi.

– Yox, görmüşəm. Dəməşq darvazalarının yanında. Orada qəribə güllər bitir, çox gözəl güllərdir, amma adlarını bilmirəm. Siz yanımdan ötənə kimi o güllərə fikir verməmişdim.

O dillənmədi və əliylə özünü müdafiə edirmiş kimi bir hərəkət etdi. Deyirlər ki, qadınlar bütün dövrlərdə bu qeyri-iradi hərəkəti edirlər. Elə qız da bunu qeyri-iradi etmişdi.

– Sonra da neçə dəfələrlə getdim ora, ümid edirdim ki, bir də keçərsiniz yanımdan. Amma siz daha keçmədiniz. İndi isə bura gəlmisiniz, mənim yanıma. Mən də sevinirəm, kefim kökəlib. Əgər sizə bir xidmət göstərə bildimsə, ürəkdən şadam. Nə arzunuz olsa, həmişə mənə müraciət edin, mən sizin üçün imkanım daxilində olan hər şeyi edərəm. Elə bilirəm ki, hər şeyi... Sizi bir də görəcəyimə ümid edə bilərəmmi?

– Bəli, – deyə qız utancaqlıqla dilləndi. İlk dəfə idi ki, inamı onu tərk edirdi.

O da bunu gördü və onlar ayrıldılar, qız asta addımlarla zaldan çıxıb beləcə düz evlərinə kimi getdi.

Ən yaxşısı, heç onun gözlərinə görünməmək olardı.

Şəhərə tiranın görünməmiş mərhəməti barədə, oğlanı xilas etmiş qız haqqında söz-söhbət yayıldı. Bu ağlasığmaz idi, amma əzilənlərin ürəyində bir ümid cücərdi. Axı çoxlarının əri, oğlanları və əzizləri, əgər işgəncələrdən və aclıqdan, yaxud cəlladın əlində ölməmişdilərsə, zindanda hələ də əsir idilər, onların taleyi barədə heç kim bir şey bilmirdi. Qadınlar bir-birinin dalınca qızın yanına gələrək, yalvarırdılar ki, çarın ürəyini yumşaltmağa bir də cəhd etsin.

Onların xahişi qızı qorxudurdu. Onu qorxudan bir də əvvəllər heç görmədiyi, əzabkeş və çıxılmazlıq içində olduğu duyulan sifətlər idi. Təbii ki, onlara kömək etmək istəyirdi. Hamısına. Lakin necə edəydi? Qadınlar yalvarışları ilə onu əldən salırdılar, amma heç bilmirdilər ki, qız üçün onların xahişlərini yerinə yetirmək nə deməkdir. Necə izah edəydi onlara?

Hamısının xahişini birdəfəyə eləmək olmazdı. Belə xahiş həm onun qəzəbini oyadardı, həm də heç kəsi əfv etməzdi. Bircə nəfərin xahişini eləyə bilərdi. O, qadınlara bunu söylədi, vəziyyəti izah etdi. Lakin hər qadın istəyirdi ki, həmin o bir nəfər məhz onun əri, onun oğlu olsun. Çünki insan xisləti belədir. Bu ağlamaqdan şişmiş, yorğun sifətlərə baxaraq, birini seçmək onun üçün çox çətin idi.

Seçimini edəndən sonra kimi seçdiyini heç bir şeylə büruzə vermədi və gələnlərdən hər biri elə bildi ki, məhz onun xahişi yerinə yetiriləcək, məhz o nə vaxtdan bəri yolunu gözlədiyi əzizini görəcək.

Mariamna da, qəlbində dərin nigarançılıq yenidən sarayın çətin yoluna qədəm basdı.

Onu görəndə İrod ayağa qalxaraq, pişvazına yeridi, hər bir hərəkəti ilə göstərirdi ki, gəlişinə necə şaddır. Ona

dinməzcə baxırdı, nəzərləri sınayıcı idi, amma onlarda nə ağırlıq, nə təhlükə duyulmurdu. Çar barəsində dillərdə dolaşan şayiələrə rəğmən, onun baxışında şəhvət də yox idi. O, sadəcə olaraq, diqqətlə, istəksiz, lakin son dərəcə ciddi və bir az da nəvazişlə süzürdü qızı. Görkəmi nə dəhşət, nə də həyəcan oyatmırdı.

Hər şey qız düşündüyündən xeyli asan imiş və o, öz xahişini qorxu-ürküsüz dilinə gətirdi.

– O da sizin qohumunuzdur? – deyə çar soruşdu.

– Yox, qohumum deyil.

Çar diqqətlə onun üzünə baxırdı, sonra isə zindan gözətçilərinin rəisini çağırdı və bəlli oldu ki, məhbus ölümə məhkum edilmiş bir yeniyetmə imiş.

Gözətçilərin rəisi onun işarəsiylə çıxıb gedəndən sonra çar üzünü qıza tutdu:

– Bu oğlan kimdir? Onu tanıyırsınız?

– Yox.

– Bəs niyə onun taleyi sizi narahat edir?

– Çünki onun xahişini məndən anası eləyib.

– Belə de. Anası. – Qıza tərəddüdlə baxırdı. – Həqiqətən, tanımırsınız onu?

– Hardan tanımalıyam ki. Axı Yerusəlimə təzə gəlmişəm.

– Hə, – sakitləşərək, dedi. – Elədir.

Qız İrod üçün dəhşətli bir xəstəliyə çevrilmiş şübhəsini ilk dəfə onda gördü.

Çar isə bircə anda dəyişdi, söz verdi ki, oğlanı azad edəcək və bir də onun barəsində danışmadı. Sonra isə qıza sarayı göstərdi, onu bütün zallardan keçirdi və qız sarayın boşluğuna, darıxdırıcılığına heyrətlə baxdı. Adamların azlığına da təəccüblənirdi, tək-tük nökər dəyirdi gözə. Qadınları isə heç görmədi – eşitmişdi ki, burada çoxlu qadın var. Adama elə gəlirdi ki, o, bu nəhənglikdə sarayda tənha yaşayır. Təbii ki, zirzəmilərdəki məhbusları və onların keşiyini çəkənləri hesaba almasaq.

Onu bayaq qəbul etdiyi zala dönəndə çar dedi:

– Yəqin, anlayırsınız ki, cinayətkarları yalnız sizi görmək üçün azad edirəm, başqa heç bir səbəb yoxdur. Əslində, gərək mən belə etməyəm. Bilirəm.

Və beləcə ayrıldılar.

Saray isə ona görə boş idi ki, oradan bütün qadınları, bu ənlik-kirşanlı fahişələri və bir də onu əhatə eləyən bütün adamları, bu tör-töküntülərin hamısını qovmuşdu. Öz evini onlardan təmizləmişdi.

Qızı görən gündən bir qadına yaxınlaşmırdı.

Beləliklə, qız onun yanına dəfələrlə gedəsi oldu, çünki bədbəxtlərin qohumları yalvarırdılar və elə özünün də məhbəsdə can çürüdənlərə yazığı gəlirdi. O isə bəzən qıza sərt, kobud tərzdə yox deyirdi, qız da başa düşürdü ki, xahişini etdiyi adam artıq sağ deyil. Amma daha tez-tez hamını qorxudan bu dəhşətli insanın daha kimisə əfv etməsinə nail olurdu və düşünürdü ki, bu fədakarlığı ilə xeyirli bir iş görür. Çünki özünü, həqiqətən də, qurban verirdi.

Qohumları isə nəsillərinin bu qədər nümayəndəsini məhv etmiş, nifrət bəslədikləri idumeyin yanına getdiyindən ona çəp-çəp baxırdılar. Qız da onlarda yaşayır, onların çörəyini yeyirdi və onların qınayıcı sözlərini dinləmək yaman çətin idi. Yəni o bilmirdi ki, əmilərindən ikisi taxt-tacı romalıların köməyi ilə ələ keçirən, əslində, dünyaya iudey kimi gəlməmiş bu qanlı tiranın qurbanına çevrilmişdilər? Və onun atası da, əgər bu hadisədən azacıq qabaq öz əcəli ilə ölməsəydi, onların acı qismətinə mütləq şərik çıxardı?

Lakin onunla hamıdan pis davranan əvvəllər qıza həmişə sadiq qalan, onu gözdən qoymayaraq daim müşayiət eləyən həmin oğlan idi. Ona olan nifrətini dinməz göstərəndə də, söyüb biabır edəndə də arıq sifəti tamam dəyişirdi. Qız isə oğlana laldinməz baxır, bir az sakitləşdirmək üçün başını sığallayırdı.

Oğlanın davranışına təəccüblənmirdi: axı onun atasını İrod özü qətlə yetirmişdi, öz əlləriylə, öz qılıncı ilə, o qılıncla ki həmişə, hətta sarayda olanda belə yanında gəzdirərdi.

Amma başqaları – onun kömək etdiyi və köməyinə ümid edən insanlar adını xeyir-dualarla çəkirdilər. Onu görəndə üzləri minnətdarlıq duyğularından nurlanırdı, qadınlar isə dizi üstə çökərək plaşının ətəklərini öpürdülər. Onların minnətdarlığı qıza sevinc gətirirdi və o, yenə də, yenə də dəhşətli hökmdarın ürəyini yumşaltmağa cəhdlər edirdi. Hərçənd ki, bu ürəyi yumşaltmaq, demək olar ki, imkansız idi. Axı özü demişdi ki, məhbusları ancaq ona görə buraxır ki, onların xahişlərini qız eləyir, cinayətkarları onu bir də görmək ümidilə azad edirdi.

Yaxşısı budur, çarın bu sözləri barədə heç düşünməsin. O, təhlükəli bir yola qədəm basmışdı və onu bu yolda nə gözləyirdi, görəsən?

Qohumları isə ondan getdikcə daha çox uzaqlaşırdılar. Hamıdan artıq uzaqlaşan da tərs oğlan idi, onu ilk dəfə görəndə boynuna sarılmış həmin o tərs oğlan.

Saraya həmişə ürəyində bir ağırlıq yaxınlaşırdı. Bütün girişlərdə gözətçilərin sayı ikiqat idi, əsas girişdə isə daha çox idilər, sarayı qılınclarla, digər silahlarla silahlanmış qoşunlar dövrəyə almışdı. Bomboş zallarla dolaşan, camaatın dediyinə görə, həyatı üçün hər an qorxduğundan qılıncını əlindən buraxmayan tənha bir insanı qoruyurdular.

Bu dəfə necə, görəsən, özü dustaq kimi sehrli qalada qıfıllanmış birisinin mərhəmətinə nail ola biləcəkmi?

Bir dəfə İrod ondan xahiş etdi ki, arvadı olsun. Onu sevdiyini demədi, yəqin, çoxdan bilirdi bunu və bir də heç vaxt dilindən çıxmamış bu sözləri tələffüz etmək çətin idi onun üçün. O, bu sözləri heç vaxt deməmişdi, qorxurdu onlardan. Hiss edirdi ki, belə sözlər ona yaraşmır.

Qız cavab vermədi. O heç cavab da istəmirdi. Bir az da çəkingənliklə, bir də xahiş etdi ki, bu barədə düşünsün.

Həmin gün qız sarayı tərk edəndə nəfəsi çatmırdı, dodaqlarının rəngi avazımışdı. Yüngül addımlarını sürətləndirməməyi, sarayın zallarıyla, şəhərin küçələriylə yüyürməməyi necə bacarmışdı? Qaçmaq? Hara? Bütün yer üzündə sığınacağı yox idi.

O, aramla gedirdi. Getdikcə daha yavaş, məqsədsiz. Özünü ələ almağa çalışırdı. Fikirləşməyə çalışırdı. Necə hərəkət edəcəyini fikirləşməyə. Ona kömək edə biləcək kimsə yox idi. Hər şeyə tək özü qərar verməliydi. Artıq adət etmişdi buna. Lakin özünü heç vaxt belə tənha duymamışdı.

Axıra kimi qurban gedərək, onun taleyini bölüşsün? Dəhşətli taleyini? Əgər seçimindən yalnız öz həyatı asılı olsaydı, heç vaxt ürək eləməzdi. Bəs başqaları? Bu hərəkətiylə onlara bir xeyir verə bilərdimi? Özünü ona təslim etməklə. Ona etibar eləyən, ümid bağlayan bədbəxtlərə bir xeyri dəyərdimi? Onun əzab verdiyi insanlara.

Özünü ona təslim etməklə kiməsə xeyri dəyərdi? Özündən soruşurdu, bir dəfə yox, dəfələrlə soruşurdu. Onun ruhunu yumşalda, qəzəbini azalda biləcəkdimi? Bacaracaqdımı bunu? Onu dəyişmək gücünə malik idimi? Qız ona başqaları kimi yox, bir az fərqli baxırdı. İnkar edə bilməzdi ki, yavaş-yavaş onun qəlbində hamının nifrət etdiyi və haqlı olaraq nifrət etdiyi tiran üçün yer də vardı. Ona acıyırdı. Bu acımanın arxasında nələr dururdu, bunu araşdıra bilmirdi və öz hisslərini araşdırmağı heç istəmirdi də. O, hamının halına acıyırdı, odur ki, ona da acıdı. Bəs əgər bu yalnız yazığı gəlmək deyildisə, onda necə?

Onu heç vaxt sevə bilməzdi, bilirdi bunu, həddindən ziyadə nifrəti vardı. Amma yazığı gəlirdi. Və bu hiss həmişə ondan qurban tələb edirdi. Deməli, onun üçün də özümü qurban verməliyəm?

O, sevgi barədə heç nə bilmirdi və elə fikirləşirdi ki, özünü yalnız qurban verir.

İndi hardayam, görəsən? Hansı küçədə? Deyəsən, tanıyırdı bu küçəni. Dəməşq darvazalarına aparmır ki bu yol? Elədir, bu da darvazalar.

Keçsin?

O, darvazalardan ötdü, bir az da gedib ayaq saxladı. Yolun kənarındakı çöllükdə çiçək yox idi. Artıq yox idi. Adda-budda, qurumuş saplaqlar gözə dəyirdi, amma çiçəklər yox idi və o, evə sarı döndü.

Tezliklə saraya gəlib çara dedi ki, əgər istəyirsə, onun arvadı ola bilər. Bu sözləri ilə onu xoşbəxt elədi. Necə xoşbəxt olduğu aydın görünürdü, hərçənd ki, bu xoşbəxtlik hissinin özü onun üçün təzə idi və onu ifadə etməyə, göstərməyə alışmamışdı.

Qız ona əlini uzatdı və əli onun pəncəsində o qədər kiçik göründü ki, bu anın bütün ciddiliyinə baxmayaraq, ikisi də təbəssümünü saxlaya bilmirdi. Beləcə, üzbəüz durmuşdular, bir-birinə heç bənzəməyən iki nəfər: kövrək, incə, neçə nəsildən bəri miras qalmış qədim gözəlliyə malik qız, bir də o – ağır, kifir və kobud kişi.

Onu qucaqlayıb özünə sarı çəkmədi, özünü cilovlayır, ehtiramla aparırdı və qız da bu davranışına görə ona minnətdar idi. Sonra, ayrılandan sonra isə özünü bu minnətdarlıq hissinə görə də qınayırdı.

O, özünü daim qınayanlardan idi.

Zifaf gecəsi onun cilovlanmaz ehtirasından qorxdu. Məhəbbəti tanımırdı, heç belə olduğunu bilməzdi. Onun hərəkətlərini təqlid etməyə cəhd göstərdi, lakin həyatında heç bir kişi olmadığından və sevgi nəvazişlərindən bixəbərliyi ucbatından nə onun çılğın məhəbbətinə cavab verə bildi, nə də ehtirasını yüngülləşdirdi. Çaşqınlıq içində olan sifətini qaranlıq gizləmişdi və o heç nə hiss etmədi.

Zifaf gecəsi onun üçün əzaba çevrildi. Amma sonralar bəzən onun ehtirasını bölüşürdü. Getdikcə ona daha artıq öyrəşirdi, o isə daha incə, daha ehtiyatlı olurdu. Və bir-birinə qətiyyən bənzəmədiklərinə baxmayaraq, amma, bəlkə də, elə bu səbəbdən, onun nəvazişləri hərdən qıza dolğun sevinc bəxş edirdi. Hərçənd ki, özü ona dəhşət təlqin edirdi.

Onların birgə həyatı, ümid etməyə özündə cəsarət tapdığından da yaxşı alınırdı. Amma onu büsbütün ələ almağı heç vaxt bacarmadı. Çalışırdı ki, o, bunu hiss etməsin, özünü gizləməyə can atırdı. Amma belə bir şeyi gizləmək çox çətindir. Onun şübhələrinə bələd idi. Çalışırdı ki, onda nifrət etdiyi nə idisə, onların üzərində diqqətini cəmləməsin. Və bunun öhdəsindən getdikcə daha yaxşı gəlirdi. Amma bilirdi ki, onu sevmir.

Qız sarayın səliqəsini öz zövqünə uyğun qurdururdu və bu binanın ən azı bir qismi evə oxşamağa başlamışdı. O, cansıxıcılığı qovub çıxartdı və seçdiyi zallar artıq rahat, ürəyəyatımlı olmuşdu. Onlar qız üçün əsl evə çevrilmədi, amma görkəmləri tam dəyişdi. Qalan zallar isə elə əvvəlki kimi boş və qorxulu olaraq qalmışdı, amma bunun elə bir əhəmiyyəti yox idi, onsuz da oralara yolu düşmürdü.

Bir məsələyə heç dözə bilmirdi: zirzəmidə dustaqlara işgəncə verilməsinə. Oradan bir səs gəlmirdi və saraya qədəm basan heç kəs heç nə duya bilməzdi, lakin qız bilirdi ki, orada məhbuslar əzab çəkirlər. Və çara da elə bu barədə söylədi. Dedi ki, bu fikrə heç dözə bilmir və ona yalvarır ki, o zavallıları azadlığa buraxsın. Bilirdi ki, dustaqlara onun yazığı gələn deyil. Xahiş edirdi ki, ona yazığı gəlsin. Onun arvadı olmuşdu, bir tavanın altında, onun evində yaşayırdı. Məhbəsdə yaşamağa isə razı deyildi.

Bütün bunları ona izah elədi, o da güzəştə getdi. Xüsusilə, ağır cinayətlərə görə müqəssir olan və edamını tezliklə gözləyənlərdən başqa bütün məhbusları buraxdı.

– Qalanları onsuz da tezliklə tam azad olacaqlar, – deyə ciddi bir tərzdə, heç bir kinayəli eyhama yol vermədən dilləndi.

Qeyri-adi xəbər şəhərə meşə yanğını sürətiylə yayıldı. Şübhə edirdilər, inanmırdılar, amma öz gözləriylə gördülər. Yaxınlarını bir də qucaqlamağa müvəffəq olanlar Mariamnaya alqış edirdilər, çarın daş qəlbini yumşaldan, ondan görünməmiş mərhəmətə nail olan mehriban çariça Mariamnaya.

İlahi, ona xeyir-dua ver, Pərvərdigara, onu hifz elə.

Lakin qohumları ona taxt-taca yalanla yiyələnmiş alçaq, rəzil bir tiranın arvadı olduğuna görə hədsiz nifrət bəsləyirdilər. Gör onların nəsli üçün, həqiqətən, çar nəsli üçün necə böyük bir həqarət idi bu! Necə böyük günah və utanc yeri! Bunu bağışlamaq olmazdı və qızı tanımaq belə istəmirdilər. Həmin zamandan etibarən, ona bu şərəfsizliyə son qoyacaq bir ucuz ölüm arzulayırdılar.

Qız isə bu barədə heç nə bilmirdi və əgər danışsaydılar belə, inanmazdı.

Xalq isə, xüsusilə, məhbuslara bağışlanan azadlıqdan sonra tiran üzərində müsbət təsirinə görə hörmət bəsləyirdi ona. Bütün xoş dəyişikliklər məhz onun mərhəməti sayəsində baş verirdi. Xalq da ona hər şeydə etibar etməyə başlamışdı.

Lakin onu yalnız etdiyi xeyirxahlıqlara görə sevmirdilər. Həm də ona görə sevirdilər ki, başqalarına heç bənzəmirdi. O sərt, kobud zəmanədə Mariamna nəcib, sakit idi və yolunun üstündə rastlaşdığı bütün insanlara qayğılı təbəssümünü bağışlayırdı. O, şəhərin küçələrinə çıxanda üzərinə hər tərəfdən insan məhəbbəti axırdı. Hamı onu o dəqiqə tanıyırdı. Və həm də ona görə ki, az qala, həmişə eyni geyimdə olurdu. Çariça olandan sonra da, sadə və qeyri-adi geyimindəki heç bir şeyi dəyişməmişdi. Baş örtüyündə gümüş tikmələr vardı, plaşının ətəyi də gümüş köbəli idi, bir də gümüş kəmər taxmağı xoşlayırdı. Səndəlləri də həmişə gümüş bilərzikli olurdu.

Gümüşün boğuq parıltısı ona yaraşır, gözəlliyinə uyuşur, ona bənzəyirdi. Sırğaları da həmişə gümüş olardı, qızıl

yox. Əlalxüsus, ilk vaxtlar çar əbəs yerə ona Şərqin ən bahalı, misilsiz daş-qaşı ilə bəzənmiş, tələbkar qadın zövqünə uyğun, ustalıqla süslənən bahalı sinəbəndlər hədiyyə eləməyə çalışırdı. Onun hədiyyələrini rədd edirdi. Çariça olandan sonra da, heç nəyi dəyişmək istəmədi və əvvəlki kimi qalaraq, bir dəfə, çox düşünmədən seçdiyi elə həmin paltarları geyirdi.

Onu insanlar elə bu cür sevirdilər. Şəhərin küçələrində görəndə sifətləri sevincdən parlayırdı. Ayaqlarına düşərək plaşının ətəklərini öpüşlərə qərq edən qadınlar onu başqa cür təsəvvür də etmirdilər. Onu necə vardısa, eləcə də sevirdilər və ona "gümüş çariça Mariamna" deyirdilər.

Bir dəfə, axşamdan xeyli keçmiş, ona baş çəkməyə gələn qohumlarının bir qoca qulluqçusundan öyrəndi ki, bəs həmin o tərs oğlan dağlara, Makkaveylərin düşərgəsinə qaçıb.

Özünə sual etdi: görəsən, oğlanın qaçışı onun nifrətəlayiq bir şəxsə arvad olması ilə bağlı deyildi ki. Belə olmaması üçün nəyindən desən, keçərdi. Lakin hər axşam yerinə girəndə balaca qaçqın barədə düşünür, gözləri önündə onun əzabkeş, arıq sifətini görürdü.

Onun hökmdara təsiri, həqiqətən, müsbət idi. O, həqiqətən də, yaxşıya doğru dəyişirdi, hakimiyyəti yumşalmış, qəddarlığı azalmışdı, daha qabaqkı kimi gözə girmirdi. Bunu inkar etmək, görməmək mümkün deyildi. Hamı bilirdi ki, bütün bunlara görə yalnız Mariamnaya minnətdar olmaq lazımdır, başqa heç kəsə. Bunu hətta dəhşətli idumeylə nikahına görə ona nifrət edənlər belə boyunlarına alırdılar.

Yalnız qohumları öz qəddar nifrətlərində sabit idilər.

Bir dəfə İrod onu özü ilə məbədə tərəf apardı. Yaratdığını göstərmək istəyirdi. Onlar tikilinin ətrafında bir xeyli dolaşdılar və o, məbədin necə düşünüldüyünü izah edib, özünün

gözəlliyi və şöhrəti ilə Solomon məbədini necə üstələyəcəyindən danışdı.

Qız dinləyir, baxırdı, amma diqqəti orada deyildi. Bütün bunlar ona əhəmiyyətsiz gəlirdi. Bəlkə də, bu məbəd heç ona gərək deyildi.

Özü haqqında o qədər az düşünürdü ki. Bu müqəddəs ocağı öz şəninə ucaldan insan isə ondan tamamilə fərqli idi. Özünə qapanaraq, ruhunun dərin həyatını yaşayırdı. Tamam fərqli, ondan tamam fərqli. Bəlkə, heç mömin də deyildi? Ya da inandığını özü də dərk etmirdi? Eynilə mərhəmətli olub öz mərhəmətini dərk etmədiyi, onun qayğısına qalmadığı kimi?

Bəlkə, ona məbəd gərək deyildi?

Gecələr tikintiyə gedəndə onu özü ilə aparmırdı, elə əvvəllər olduğu kimi, tək gedir və zülmətdə tək dolaşırdı.

Niyə? Heç özü də bilmirdi. Elə belə. Amma yenə gedirdi. Qaranlıqda uzun müddət gəzib-dolaşırdı. Sonra da parlayan gecə səmasının altında durub gözlərini göylərə zilləyirdi.

İlahi ilə heç bir bağlılığı yox idi. Qəlbi səhra kimi idi və ulduzların soyuq nizələri onu deşirdi.

Çox şeyi ondan gizlədirdi və qızın təkcə tənha gecə gəzintilərindən deyil, çox şeydən xəbəri yoxdu. Çünki kiməsə etibar etmək kimi adəti yox idi və qıza da hər şeydə etibar eləmirdi. Onların arasında qarşılıqlı inam yox idi, heç biri buna ehtiyac duymurdu.

Qadın öz vaxtını ürəyi istəyən kimi keçirməyə adət etmişdi, o da bu imkanı yaradırdı. Hər ikisi öz qayğıları ilə baş-başa idi, birinin işinə o birisi qarışmırdı. Lakin o, qadının nə ilə məşğul olduğunu bilirdi, qadının isə onun işlərindən xəbəri yox idi. Onun şübhə qarışıq gərgin həssaslığı vardı. Həm də casusları öz işlərini yaxşı görürdülər.

Beləliklə, Makkaveylər evinin qoca qulluqçusunun gəlişindən o dəqiqə xəbər tutdu. Mariamna bunu bilsəydi, yaman narahat olardı.

Azadlığa buraxdığı oğlanın dağlara, Makkaveylərin yanına qaçması haqqında ona məlumat çatdıranda qəzəbindən alışdı. Onu buraxmaq sarsaq hərəkət idi qətiyyən lazım deyildi.

Bu xəbər onu uzun müddətə özündən çıxarmışdı. Amma Mariamnaya bir söz demədi.

Qadına ehtirası səngimək bilmirdi. Onun qarşısıalınmaz iştahasını doyurmaq qız üçün çətin idi. Adama elə gəlirdi ki, onun gücü tükənməzdir, qadının isə nəvazişə ehtiyacı ödənilməmiş qalırdı. Düzdür, daha yumşaq, daha ehtiyatlı olmuşdu, ona qarşı diqqətli idi, amma həmişə yox. O, elə həmişəki kimi, ancaq özünü düşünürdü və sevgisində də, bütün başqa şeylərdə olduğu kimi, qəddar idi. Qadın hərdən qorxurdu ki, onun nəvazişlərindən boğulacaq.

O isə heç vaxt ona bənzər bir qadın görməmişdi və bundan daha çox vəcdə gəlirdi. Bu qadın onun üçün yeni, özünə tam əks bir adam idi və heç cür dərk edə bilmirdi onu, başqa, ciddi və sərin duyğuların dünyasına qədəm basmaq iqtidarında deyildi.

Qabaqlar heç vaxt məhəbbəti tanımamışdı, onun nə olduğundan da xəbərsizdi. Məhəbbət də onun mahiyyətinə yad idi. O, Mariamnanı sevdiyini anlamışdı, amma bu sevginin özüylə daha nələr gətirəcəyindən xəbərsiz idi. Ehtiras onun ruhunu dəyişə bilməmişdi.

Lakin o, qıza meylinin gücünü yaxşı başa düşmüşdü və fikirləşirdi ki, məhəbbət elə budur.

Qız tez-tez gündəlik qayğılarından yorulurdu, lakin gecələr ərinin qulluğunda durmağa çalışırdı, çünki heç bir şeydə onun iradəsinə zidd gedə bilmirdi, amma təkcə bu səbəbdən də deyildi. Qadın istəyirdi ki, əri onun ağuşunda hər şeyi unutsun: vəhşi istəklərini, nəhayətsiz şəhvətini – dünyada hər şeyi.

Sonra İrod onun başını sığallayanda kişi sakitləşirdi, ona isə elə gəlirdi ki, nəhəng, vəhşi bir heyvanı ram edib. Belə

anlardan xoşlanırdı. Axı bağlanmışdı ona. Yazığı gəlirdi və bir az da bağlanmışdı.

Onun qəzəbi necə, səngimişdimi? Mahiyyətcə daha yaxşı olmuşdumu?

İrod ona qarşı həmişə mərhəmətli idi.

Lakin qadın istəyirdi ki, hamıya qarşı mərhəmətli olsun.

Onların həyatı beləcə axıb gedirdi və nəhayət, qadının acı məhəbbət səylərinə diqqət yetirdi; bu, onun öz hissiyyatından tamam fərqli bir şey idi. Əvvəllər, başqa qadınlarla olanda, yalnız öz istəyi haqqında fikirləşirdi, qalan hər şeyə tam biganə idi. Onun yanında isə hər şey dəyişmişdi. Əzablarını büruzə verməyib içində gizlətsə də, əzab çəkirdi. Özünü heç bir vəchlə, heç bir şeylə büruzə vermək fikrində deyildi. Bu xislətinə rəğmən alçalmaq çətin idi onun üçün, amma özünü büruzə vermək daha ağır idi.

Acı əzabı isə əyan idi. Özünə getdikcə daha artıq qapılır, baxışları qadını tez-tez qorxudurdu və qadın da onun gözlərinin içinə baxmaqdan çəkinirdi. O özü də gözlərini arvadının baxışlarından qaçırırdı. Qadın hər şeyi anlayır, lakin bu barədə danışmağa ürək eləmirdi. Bir də necə deyəydi axı ona? Bir yastığa baş qoyan iki nəfərin bu cür şeylərdən danışması asan deyildi. Bir-birinə etibar etməyən onlar üçün isə bu, tamamilə mümkünsüz bir məsələ idi. Odur ki, qadın ona daha artıq yarınmağa çalışır, göstərmək istəyirdi ki, ərinin fikirləşdiyi kimi, yalnız onun deyil, elə özünün də ehtiyacı vardı ərinə. Lakin bundan onun şübhələri, həssaslığı daha da dərinləşir, qadını daha düzgün dərk etməyə başlayır və hər ikisinin həyatı elə bu səbəbdən daha ağır olurdu.

İndi artıq onların hər ikisi, demək olar ki, daim susurdu, arvadına necə ehtiyacı olduğunu o əsla büruzə verməməyə çalışır, özünü dözümlü olmağa öyrədirdi və nəhayət, ona yaxınlaşmaqdan tamam əl çəkdi, içindəki ehtirası artıq boğmuşdu.

Öz məhəbbətini o, indi belə göstərirdi.

Dağlarda isə döyüş təzədən başlandı. Yerusəlimdə bunu bilən çox az adam vardı, lakin Makkaveylərin dəstələri ilə əlaqədə olanların hamısı bundan xəbərdar idilər. Ölkənin hər tərəfindən çaparları qəbul edən İrod isə, təbii ki, döyüşün harada və nə vaxt başlanmasından lap tez xəbər tutdu. Döyüşə birinci onun qoşunları girişməmişdi, bu dəfə Makkaveylər hücum etmişdilər. Onun qoşunları Makkaveylərdən sayca az idi deyə, düşmənləri hücum qərarını vermişdilər.

Çaparlar sarayı əhatə etmişdilər və hamı başa düşdü ki, nəsə çox mühüm hadisələr baş verir. Bunu Mariamna da anladı. İrod bir müddətlik şəhəri tərk etməli, başqa bir nahiyəyə getməli olduğunu söyləyəndə təəccüblənmədi, amma əri hara getdiyini dəqiq demədi. Onlar vidalaşdılar. Qadın ərinin əlini ovcuna alıb bir müddət buraxmadı.

Yerusəlimi, sarayı qoyub gedəndə, həmişəki kimi, bir yüngüllük hiss etdi özündə. Bu dəfə azadlığına lap əvvəllərdəki kimi sevinirdi.

Başının dəstələri ilə dağlara yaxınlaşanda azad küləyi sinədolusu içinə çəkirdi və batinində əcdadlarının qədim qanı qaynadı, içini dağıdan qara ehtirasına baxmayaraq, yenə sevinirdi, yenə özünə dönmüşdü.

At belində piyada cangüdənlərini xeyli qabaqladı və tamamilə tənha qaldı. Onun adamları bu xasiyyətinə adətkərdə idilər, heç vaxt nə əsgərləri, nə sərkərdələri özünə yaxın qoymurdu. Amma dediyimiz kimi, onlar öz hökmdarını sevirdilər. Qismən də ona görə ki, çılğınlıqlarını cilovlamır, öldürməyə, qarətə şərait yaradırdı. Həm də onlardan uzaq gəzməyi, heç kəsi yaxınına buraxmamağı xoşlarına gəlirdi, çünki onlara əsl rəhbər, sərkərdə lazım idi. Qeyri-adi, onlara tay olmayan birisi.

Çoxdan bəri onlarla yürüşə çıxmırdı, o səbəbdən də hökmdarını görəndə sevinirdilər. Amma o da diqqətlərindən yayınmadı ki, bu dəfə İrod xüsusilə qaraqabaq və sərtdir.

Dağlarda özününküləri tez tapdılar, bəxtləri gətirmişdi, onların aşırımda qurduğu posta rast düşmüşdülər. Hərbi hissələrin yerini öyrəndilər. Onlar sağda, aşırımın o üzündə düşərgə quraraq, tonqal kənarında qızınırdılar, buralar yüksəklik olduğundan soyuq idi. Rəis gözləmədiyi qonaqlara təəccübləndi, hərçənd ki, köməyi özü istəmişdi, amma İrodun özünü görəcəyini güman eləmirdi. Nə baş verdiyini birbəbir anlatdı və İrod da onu sükut içində dinlədi. Sonra bir çox məsələlərə görə onu danladı və qoşun rəisi döyüşçülərin azlığını səbəb gətirəndə etiraz etdi ki, qüvvələrindən daha səmərəli istifadə eləyə bilərdi. Narazılığını heç gizlətmirdi. Cavanlıq çağlarını çoxdan yaşamış və çarın xarakterini yaxşı öyrənməyə macal tapmış rəis başa düşdü ki, bu narazılığın kökündə nəsə gizlənib. İrod dağ döyüşlərinə həddindən ziyadə gözəl bələd idi deyə, belə ədalətsiz fikirlər yürüdə bilməzdi.

Elə onların söhbəti əsnasında kəşfiyyatçı var gücüylə yüyürərək, uzaqdan çığırdı ki, düşmən şərqdə sıldırımların arasındakı dar keçidlə irəliləyir. Bu, vadiyə çıxan yeganə yol idi.

İrod özü qoşuna başçılıq edərək, tələsik əmrlər verirdi. O, düşməni keçiddəcə qıfıllamaq istəyirdi, amma artıq gec idi. Makkaveylər vadiyə səpələnmişdilər. İrodun əsgərləri də onları elə vadidə yaxaladılar, amansız döyüş başlandı və dağlar döyüş hayqırtılarından dilə gəldi. Makkaveylər köməyin gəlməsindən bixəbər idilər deyə, çaşqınlıq içindəydilər. Lakin elə eyni nifrətlə, özlərinə həmişə xas olan eyni dəlisov cəsarətlə çarpışırdılar. İrod yeni dəstələrlə özünü yetirməsəydi, Makkaveylər vadidəki qoşunun hamısını qılıncdan keçirəcəkdilər. İndi isə onları döyüşün tamam başqa nəticəsi gözləyirdi. Makkaveylərin üzərinə saysız-hesabsız düşmən dəstələri hücuma keçmişdi. Hər iki tərəfin itkiləri çox, Makkaveylər üçünsə müəyyənləşdirici idi, çünki düşmən sayca onlardan müqayisəolunmaz dərəcədə çox idi.

İrod, həmişəki kimi, döyüşün ən qızğın yerində qılınc çalırdı. Lakin həmişəki zövqü alması hiss olunmurdu. Onun

kimi döyüşdən sərməst olan birisi yox idi. Amma indi yox. Elə bil, içində nəsə sönmüşdü. O, adi əsgər kimi, özünə xas dəli çılğınlığı olmadan vuruşurdu.

Döyüş isə, elə nəzərdə tutulduğu kimi, davam edirdi. Makkaveylər itkilər verir, təslim olmağa tələsməsələr də, ümidləri getdikcə öləziyirdi.

Döyüşün lap sonunda yaşlı Makkaveylərin arasında həmin o arıq oğlan göründü, əlindəki qılınc başqalarınınkından kiçik olsa belə, onun çəlimsiz bədəni üçün ağır idi. Qəribə mənzərəydi.

Lakin İrodun həmin oğlanı görən kimi, üstünə atılaraq, qılıncı onun sol çiynindən düz ürəyinə kimi çapması daha qəribə idi.

Bunu görənlərin hamısı çarın layiqli rəqibin yox, balaca bir oğlan uşağının üstünə necə qəddarcasına şığıdığına təəccübləndi. Lakin bu balaca oğlan da döyüşçü idi, hər bir döyüşçü kimi döyüşdə ölə də bilərdi. Başdan-ayağa qan içində olan kiçik bədəni və tamamilə ağarmış arıq sifəti çox yazıq görünürdü. Qəribədir, niyə özləriylə döyüşə uşaq gətirmişdilər, qabaqlar heç belə iş tutmazdılar.

İrod hələ uzun müddət nəfəsini çətinliklə dərirdi. Oğlanın cəsədinə ötəri nəzər saldı, daha bir də o tərəfə baxmadı.

Döyüş isə artıq, demək olar ki, qurtarmışdı, Makkaveylər keçidə çəkilirdilər. Onların çox kiçik bir hissəsi döyüş meydanında qalmışdı ki, geri çəkilən qüvvələrin sağ çıxmasına şərait yaratsın. Sonra onlar da qaçdılar.

Cəsədlər döyüş meydanında – məğlubiyyət meydanında qaldı; oğlanınkı da qalan meyitlərlə bir yerdə.

İrodun əsgərləri öz yaralılarını apardılar, düşmən meyitlərini isə yığan olmadı; adət belə idi. Sonra da tonqalların yanına, qızınmağa getdilər.

Gün axşama doğru idi. Əsgərlər silahlarını təmizləyirdilər. İrod da qılıncını təmizlədi.

Şər qovuşurdu.

Mariamna tezliklə hər şeydən xəbər tutdu, çünki həmin döyüşün şahidi olmuş Makkaveylərdən biri dağlardan enərək, gizlicə Yerusəlimə gəlmişdi ki, yaralarını müalicə etsin. Xəbəri isə Mariamnaya qohumlarının evindən olan qoca qulluqçu çatdırdı. İki gün ara vermədən ağladı.

İrod Yerusəlimə uzun müddət dönmədi. Ora qayıtmaq istəmirdi. Mariamna isə zamanın necə ötməsindən xəbərsiz idi, belə faciəvi bir şəkildə həlak olmuş oğlana görə dərd çəkirdi. O, qəlbən dərk edə bilmirdi ki, belə bir hadisə axı necə baş verib. Günlər uzunu oturub gözlərini məchul bir nöqtəyə zilləyərək, nə baş verdiyini anlamağa çalışırdı. Hadisə necə olmuşdu? Və gözləri önündən ilk dəfə qohumlarıgilə gələndə onun boynuna sarılan tərs oğlanın arıq sifəti çəkilmirdi.

Bu sifət ağappaqdı, qanı qaçmışdı, qınayıcı nəzərlərlə baxırdı.

Onun ölümündə günahı vardımı? Dağlara qaçmağında vardı, deməli, elə ölümündə də. Məgər oğlan onun nifrət etdiyi İroda arvad olduğuna görə qaçmamışdımı? Etiraz etdiyindən qaçmışdı.

Bu fikirlərdən canını qurtara bilmirdi.

Bəs oğlanı İrod niyə öldürdü? Özü də bu cür qəddarlıqla. Heç vaxt, heç kəsi – nə böyüyü, nə kiçiyi – bağışlamadığından öldürmüşdü onu? Hə, onun xisləti belə idi, bunu qadın gözəl bilirdi, bunu elə özü də hərdən etiraf edirdi. Bəlkə, öz yumşaqlığına görə peşman idi və onu düşmənlərin arasında gördüyündən coşmuşdu?

Nə olsun ki, bu onun günahını azaltmırdı. Hər şeydə qadın özü, özü müqəssir idi.

Bəlkə... bəlkə... Yox, bu ola bilməz...

Görəsən, ərini sevmədiyinə görə İrod ondan intiqam almırdı ki? Onu sevmədiyinə görə, ürəkdən sevmədiyinə görə?

Yəni bu mümkündür? Lap əgər olsa belə, məgər günahım yüngülləşir? Yox, Mariamna heç bir şey anlaya bilmirdi. Amma özünü həmişə qınayanlardan idi.

Yerusəlimə dönən kimi İrod başa düşdü ki, Mariamnanın hər şeydən xəbəri var. Onun sifəti kədərdən dəyişmişdi, amma elə dəyişmişdi ki, əvvəlkindən də gözəl olmuşdu. Üzü daha solğun və şəffaf olmuşdu, qüssədən işıqlanırdı, ruhu da daha aydın duyulurdu.

Gözlərində yaş qalmamışdı daha, bütün göz yaşlarını ağlayıb qurtarmışdı artıq, indi gözlərində yalnız kədər vardı. Onlar, sanki, tökdüyü göz yaşlarının nəmliyini qoruyurdu özündə. Qəribədir, baxışları daha zərif və ılıq olmuşdu, amma, əslində, əzab-əziyyət baxışları da sərtləşdirir, üzün cizgilərini də. Onun cizgilərində isə kədər yalnız zərifliyi artırmışdı.

İrod ondakı dəyişikliyi görəndə arvadına elədiklərini, onun ucbatından yaşadıqlarını başa düşdü, alnında buz kimi tər damlaları puçurlandı və iniltiylə ayaqlarına yıxılaraq əllərini ona uzatdı, toxunmağa ürək eləmirdi və yalnız qan çəkmiş gözlərindəki yalvarışları oxunurdu. Ona sözsüz yalvarırdı, yalvarırdı ki, qəzəbini bağışlasın, belə olmasını bağışlasın. O rəhmdildir. Və qadın sərin əlini onun alnına çəkib bu dəhşətli alındakı soyuq təri sildi, onun tərdən islanmış tündkürən saçlarını sığalladı – o vaxtacan ki, İrodun dodaqlarının əsməsi dayandı, baxışları yumşalıb sakitləşdi.

Onun sinəsinin üstündə ağlayırdı, sonra da sakitləşdirmək üçün ağuşunu açdı ona. Nə qədər çətin başa gəlsə də, qadın yenə qabaqkı kimi olmağa çalışır, ona əvvəlki təsirini qaytarmağa ümid bəsləyirdi və bilirdi ki, bunun üçün ehtirasını doyurmalıdır. Amma bir məsələ də vardı, təəccüblənsə də, özünə etiraf etmək istəməsə də: o lazım idi ona. Oyatdığı bədən onun xiffətini çəkirdi, hərçənd ki, özləri də, hissiyatları da bu dərəcədə fərqli idi.

Mariamna mat qalmışdı ki, bütün baş verənlərdən sonra da onun nəvazişlərindən xoşlanırdı. Amma belə idi. Və özünü buna görə də qınayırdı. Hər şey üçün və həmişə özünü qınayırdı. Qaranlıqda isə bənizi qaçmış, əzabkeş gözləri olan

oğlanın sifəti heç çəkilmirdi gözlərinin önündən, oğlanın gözləri ölümündən sonra, sanki, bir az da yekəlmişdi.

İrod, həqiqətən də, bir müddətlik sakitləşdi və dəhşətli şayiələr də səngidi, ən azından Yerusəlim özü sakit idi. Mariamnanın bildiyi qədərincə, sakitlik bərpa olmuşdu. Lakin onun ətrafla əlaqələri zəif idi, bildiklərinin hamısını qohumlarının qoca qulluqçusundan eşidirdi. Qarı onun yanına sahibəsindən icazəsiz gəlirdi; əgər xəbər tutsaydılar, başı bəlalar çəkərdi. Amma buna baxmayaraq, yenə də gəlirdi. Çünki bu barədə hər ikisi sussa da, bir dam altında yaşadıqları aylar ərzində Mariamnaya möhkəm bağlanmışdı, elə Mariamna da onu çox istəyirdi. Qarının qırışlarla qazılmış sərt üzü vardı, amma sərt olan yalnız görkəmi idi. Heç vaxt gülümsəməzdi. Niyə? Kim bilir ki, heç kim bilmir. Bəzən elə olur ki, adam heç gülümsünmür, xüsusilə də qoca adam, çiyinlərində bir ömrün yükünü daşıyan adam.

O, Mariamnaya qohumlarının evində, Yerusəlimdə, dünyada baş verənlərdən danışırdı. Artıq bir söz işlətməzdi, hərdən danışmağa söz qalmayanda belə, axşamtərəfi mütləq Mariamnaya baş çəkirdi.

Mariamna da sevinir, ona minnətdarlıq edirdi. Sevinirdi ki, onu görür, sevinirdi ki, dünya ilə əlaqəsi var, qəlbən bağlandığı qohumları haqqında soruşa bilər. Deyirdilər ki, ona nifrət bəsləyirlər. İnanmırdı.

O, elə əvvəllər olduğu kimi, tez-tez şəhərdə gəzir, kənara çıxırdı. Çox nadir qadınlar burada belə sərbəst gəzib-dolaşa bilərdilər, lakin Mariamna tənha gəzintilərə öyrəşmişdi. Axı o, Yerusəlimdə anadan olmamışdı, ailələrinə məxsus kiçik şəhərcikdə gəlmişdi dünyaya, indi o şəhərciyin izi-tozu belə yox idi. Sonuncu dəfə görəndə, tüstülənən xarabalıqdan savayı, başqa bir şey yox idi orada.

Gəzintiləri zamanı çox adamlar görürdü, heç biri də tanışı deyildi və elə buna görə heç kəslə danışmırdı. Hərdən tanıyırdılar onu, gülümsünürdülər göstərdiyi köməyə görə. Çünki

bütün xoş dəyişiklikləri və zülmün azalmasını adamlar yalnız onun ayağına yazırdılar. Buna görə də onu tanıyan kimi gülümsünürdülər, bəziləri isə hətta əyilib Mariamnanın plaşının ətəklərini öpürdülər.

Mariamnanın, gümüş çariçanın.

Onun necə dəyişdiyinə heyran qalırdılar. Niyə, görəsən? Bir də onların üzünə əvvəlki təki gülümsəmədiyinə.

Təbəələrinin güzəranının yaxşılaşması və saraydakı sakitlik əbədi davam edə bilməzdi.

İrod getdikcə daha artıq nigarançılığa düçar olur, yenə özünə dönürdü. Onun gözündən yayınaraq, özünün şübhə və inamsızlıq dünyasına qayıdırdı və Mariamna görürdü ki, ona təsirini yavaş-yavaş yenə itirir.

Səbəbini bilirdi. Bu dəfə özü hər şeyi demişdi.

Yenə də dağlardakı müharibəyə, daim ürəyindən olan səfər həyatına görə Yerusəlimi tərk etdi.

Mariamna o qədər də kədərlənmədi, çünki onun yanında olmasından getdikcə daha çox narahatlıq yaşayırdı. Onu sevmədiyinə görə açıq-aşkar qınayırdı, bu söhbətləri də bitmək bilmirdi. Əvvəllər çalışıb, özünün dediyi kimi, bu əskikliyi gizləməyə, içində boğmağa səy göstərirdi. İndi isə artıq deyirdi, düz üzünə deyirdi qadının. Bir dəfə dedi ki, bəs məni sevmədiyini bilirəm, hər dəfə səninlə olanda bunu müşahidə edirəm, özün də gözəl bilirsən və hər dəfə özünü heç vaxt yaşamadığın ehtirasın əsiri kimi göstərməyə çalışanda daha artıq faş edirsən özünü, axı ehtiras sənin sərin, qansız, kövrək bədənin üçün deyil; nə əllərin, nə bətnin, nə qəlbin ehtiras üçün yaranmayıb, sənin hər nəyin varsa, hamısı soyuqdur.

Qadın onun qan çəkmiş gözlərinə özünün qüssəli nəzərləri ilə dik baxırdı. Və o, bu baxışlara davam gətirməyib uzaqlaşdı, qonşu zaldakı skamyaya sərildi, ürəyi ağzından çıxacaqmış kimi çırpınırdı.

Beləcə ayrıldılar. O, dağlara üz qoydu.

Mariamna üçün tənha, sakit bir dövr başlandı. Artıq özü üçün yaşayırdı, buna çoxdan hazırlaşırdı. Heç vaxt özü barədə düşünməyən qadın hər şeydən çəkilib daxilinə qapandı. O, torpağa ayaq basır, yer üzündə yaşayırdı və nəsə mübhəm bir şey kövrək, sərin vücudundan keçirdi, külək yarpaqlardan keçən kimi.

Özü isə, az qala, özünü tanımırdı – belə qeyri-adi, belə bənzərsiz idi, amma özü barədə çox az bilirdi. Qəribəliyi onda idi ki, onun nəzərlərində bunun heç əhəmiyyəti yox idi. Daha doğrusu, əgər bu haqda düşünsəydi, əhəmiyyət verməzdi. Lakin o, özünü nə qədər az tanıdığı barədə heç fikirləşmirdi.

Bəli, bu belədir: o, bir ağac kimi ömür sürürdü. Axı ağac da özü barədə heç nə bilmir. Hər ağacın sirri var, böyük sirri. Amma ağac heç bir şey bilmir. Bu barədə heç düşünmür də. Yəqin, elə buna görə də məbəd gərək deyildi ona.

Axı ağacların, çiçəklərin, dəniz sahilindəki qəşəng daşların məbəd nəyinə gərəkdir? Bir də ki kim tikərdi onlar üçün məbədi? Onun da məbədə ehtiyacı yox idi. O, ağaclar kimi idi. Budaqlarında gəzişən külək – bütün məbəd ibadəti bundan ibarət idi, külək oxuyur, onlarsa dinləyirdilər. Hərdənbir. Onlar özlərini dinləyir, onlar duaları dinləyirlər. Ağaclar belə yaranıb. Mariamna da ömrünün o tənhalıq dövründə elə ağaclar kimiydi.

O, sarayın zalları ilə dolaşır, onlara yaşam ruhu verməyə çalışırdı. Buralar ona ev ola bilməmişdi. Lakin onun heç yerdə əsl evi yox idi. Bir zamanlar evi kiçicik bir şəhərdə idi, indi həmin şəhərcik çoxdan xarabazara çevrilib. İşıqlı, sevimli evlərini xatırlayanda hələ də ürəyində bir hərarət duyur.

O, atasını, anasını, qardaşlarını xatırladı, heç biri sağ deyildi. Yalnız o. Düzdür, bir də Yerusəlimdəki qohumları vardı. Onların da, deyəsən, ancaq nifrəti qalmışdı. Eybi yox, hər halda, qohumlarıdır. Deməli, tək deyil.

Hərdən yanına qoca qulluqçu gəlirdi və onlar haqqında danışırdı. Onların nifrətindən danışmazdı Mariamnaya. İrod barədə də heç vaxt pis bir söz demirdi, hərçənd ki, çox şeylərdən xəbəri vardı. O heç kəs haqqında bir pis söz demirdi. İndi, İrod sarayda olmadığından daha tez-tez baş çəkirdi bura.

Bir dəfə şəhəri dolaşarkən Mariamna qadınların su götürdüyü quyunun yanına gəlib çıxdı. Quyu kiçik bir meydanda idi və qadınlar binəyi-qədimdən buradan su aparardılar. Meydan da, quyu da qədim idi, Yerusəlimdəki hər şey kimi.

Quyunun yanından keçəndə qadınların arasında əmisi qızını tanıdı. Onunla yaşıd idilər. Qollarını açıb üstünə yüyürdü, dodaqlarından salam kəlməsi qopmağa hazır idi. Lakin gənc qadın üzünü çevirərək, dolu səhəngini başına qoydu və bir zamanlar Mariamnanın da yaşadığı evə aparan dar küçə ilə arxasına belə baxmadan, sürətlə evlərinə sarı yürüdü.

Mariamna onun dalınca baxırdı.

Yerusəlimə qayıdan İrodun qanı həmişəkindən daha qara idi. Ondan qaçırdı, sorğu-sualına isə belə cavab verirdi ki, dağda hər şey gözəl idi və onun vüqarlı nəslinin bir çox ötkəm nümayəndəsi orada başından keçəsi oldu. Daha nə lazımdır ona?

Daha sonra, heç bir səbəb olmadan danışdı ki, bəs dağda olanda qoşunun dalınca gedənlərin içində, əsirlərin arasında başqa qadınları da olub, amma ona tay deyildilər, hərçənd ki, onlar da Makkavey soyundan idilər. Mariamna heç bir cavab vermədi. Onun susması İroda çox bərk dəydi. Yəni tam biganə idi ona? Lakin hissini büruzə vermədi. Qadının bu davranışı ona yalnız toxunmadı, həm də onu təəccübləndirdi. Tamam başqa bir şey gözləyirdi, gözləyirdi ki, sözləri onu bərk incidəcək. Bütün qadınların onda yalnız nifrət oyatdığından isə heç danışmadı. Bunu heç özünə belə etiraf etmək istəmirdi. Lakin qadınlar onda təkcə nifrət doğurmurdular.

Bu nifrət onun şəhvətini qəribə bir tərzdə oyadırdı. O, Mariamna ilə – sevdiyi qadınla tamam başqa cür idi, fərqli idi. Sevdiyi qadınla. Məhz aralarındakı fərqdən, onun paklığından zövq alırdı. Amma paklıq da hərdən bezdirir.

Yalnız onu, təkcə onu sevirdi.

Mariamna dinmədi, hərçənd ki, onun etirafından təhqir olunmuş, kədərlənmişdi, lakin o, başqa bir şey də gözləmirdi. Bəs onda niyə qınasın ki? O da qınamırdı.

Daha bir də Mariamnaya yaxınlaşmadı, onun məhəbbətini axtarmadı. Bütün bunlara rəğmən, qadın onun xiffətini çəkirdi, hərçənd ki, ərinin hər şeyi onda nifrət və dəhşət oyadırdı.

Mariamna bir də ondan çəkinirdi ki, əri yalnız qadın məsələsində deyil, bütün qalan şeylərdə də əvvəlki əməllərinə qayıdar. Onun üzərindəki hakimiyyətini artıq tam itirmişdi, bu aydın idi, bəs onda necə olacaq?

Azacıq zaman ötdü və onun ən pis ehtimalları doğrulmağa başladı.

Camaat arasında söz-söhbət dolaşdı ki, yenə qara günlər yetişib. İnsanları evlərinin içində həbs edib ailələrindən ayıraraq harasa aparır, sonra da onlar yoxa çıxırdılar. Yerusəlim küçələrində yenə dəhşət kabusu sürünməyə başlamışdı.

Sarayın zirzəmiləri yenə dustaqlarla doldu və onlara verilən işgəncələri yalnız təsəvvür etmək olardı. Mariamna həyəcan və nigarançılıq içində yaşayır və heç cür anlaya bilmirdi ki, ürəyi niyə partlamır. Qorxurdu ki, İrodun adamları qohumlarının da evinə soxulmuş ola. Amma onların evinə toxunmadıqlarını aydınlaşdıra bildi. Əlbəttə, əgər orada kişilər olsaydı, çətin ki, sağ qurtaraydılar, lakin evdə kişi qalmamışdı, yalnız qadınlar idi. İrod yenə də cürbəcür qadınlara, ənlik-kirşanlı fahişələrə öyrəşdi, yaxınları da ona qabaqlar olduğu kimi təzə qadınlar gətirirdilər. Bu qadınlar ona yalnız şəhvət alovunu söndürmək üçün gərək deyildi, bu qadınlarla sevdiyi və onu sevməyən qadını alçaltmaq, təhqir etmək, yaralamaq istəyirdi. Çünki qəlbi elə məhəbbətdə də kinli idi.

Lakin Mariamnanı alçaltmaq asan deyildi. Ruhundakı, surətindəki nəsə onu sınmaz edirdi. O, böyük günahların məskən saldığı evində dolaşır, gözləri isə bütün bunları heç görmürdü. Əlbəttə, hər şeyi görürdü, lakin alçalmış hiss etmirdi özünü. Bu hiss ona heç tanış deyildi.

Bir dəfə İrod onu acı qınaq obyektinə çevirmişdi; belə bir həyata dözdüyünə, ətrafında nə baş verdiyini görmədiyinə, onu əxlaqsızlığına görə qınamadığına görə. Dəhşətə gəlirdi ki, necə imkan verir buna!.. Necə göz yumur!.. Lakin İrod bütün bunları deyəndə birdən, elə bil, duruxdu, susdu və qan çəkmiş gözlərini yana qaçırdı. Mariamna da onun suallarına cavab verəsi olmadı.

Əri getdi və o hadisədən sonra xeyli müddət görüşmədilər. Daha doğrusu, bu onların son görüşü oldu, çünki İrod onu bir də Mariamna ölərkən, onun yanına gecikəndə gördü.

Həmin günə hələ xeyli qalmışdı. Lakin onlar bir-birindən qaçırdılar.

Onun qadınları ilə Mariamna arasında heç bir narazılıq baş vermirdi. Onların heç bir təqsiri yox idi, niyə günahlandırsın ki bu qadınları? Odur ki, günahlandırmırdı. Qadınlar isə çalışırdılar ki, onun xətrinə dəyməsinlər. Bəlkə də, onun görkəmindən heyrətlənmişdilər. Bəlkə də, yazıqları gəlirdi. Fikirləşirdilər ki, Mariamna onlardan da yazıqdır.

Həm də çox az görüşürdülər. Mariamna sarayın ev görkəmi verdiyi otaqlarında qalırdı. Heç kim həmin otaqlarda narahatlıq yaratmırdı ona.

Lakin bir nəfər, Makkaveylərdən əsir götürülmüş və vəhşi, kobud gözəlliyi ucbatından saraya zorla gətirilmiş qız Mariamna ilə qarşılaşanda özünün nəhayətsiz nifrətini ona yağdırdı.

– Məni əsir alıblar, məni alçaq tirana, rəzil idumeyə zorla veriblər. Sən isə öz istəyinlə ona təslim olmusan, çariçasan və elə bilirsən ki, nəcibsən! Mən çariça deyiləm! Mən alçaldılmış

düşmən qızıyam və bununla fəxr edirəm! Bəs sən nəyinlə fəxr edirsən! De də, de! Tfu!

Başqa qadınlar onun Mariamna ilə necə davrandığını İroda çatdırdılar. Çar özü döydü həmin qadını, yorulmadan, acımadan döydü. Qadın isə cınqırını da çıxarmadı. Amma hamı onun bu qadını qovacağını fikirləşsə də, qovmadı, kamını almaq üçün özünə saxladı. Çünki bilirdi: bu qadın heç vaxt öz taleyi ilə barışmayacaq və hər dəfə ona zorla yiyələnəsi olacaq.

O, Mariamnanın xətrinə dəyməyə heç kimə imkan vermirdi.

Qoca qulluqçu çoxdan saraya baş çəkmirdi və Mariamna da bunun səbəbi barədə düşünürdü. Bəlkə, heç nə olmamışdı, axı qabaqlar da bəzən gec-gec görünürdü, yəqin hələ gələcək. Əlbəttə, hələ gələcək.

Qarı isə gəlmək bilmirdi. Həftələr, aylar keçdi. Mariamna əməlli-başlı nigaran qaldı. Nə baş vermişdi? Bütün yer üzündə soruşası bircə nəfəri belə yox idi.

Bəlkə, ev sahibləri onların gizli görüşləri barədə çarın kənizindən xəbər tutaraq, qadağan eləmişdilər ona buralara gəlməyi? Ya başqa bir bəla vardı? Necə öyrənəydi?

Sonra isə qadınların birindən öyrəndi ki, qarı daha yoxdur və Mariamna sarayda gəzib-dolaşanda nahaq yerə onun intizarını çəkir. Mariamna maraqlandı ki, bu xəbərlər qadında haradandır. Dedi ki, eşitmişəm, camaatdan eşitmişəm, vəssalam.

Nədir, ölüb məgər? Bu barədə dəqiq bir şey bilən yoxdur, amma daha heç yerdə görünmür, yəqin, ölüb.

Daha sonralar bu xəbər öz təsdiqini tapdı. Mariamna dəqiq öyrəndi ki, qarı artıq ölüb, onu İrod götürmüşdü aradan, şübhələnirdi ki, Mariamnaya Makkaveylərlə əlaqə yaratmağa kömək eləyir. Mariamnanın özünü isə düşmənləri ilə məxfi əlaqədə şübhəli bilirdi. Mariamnanın öyrəndiyi bunlar oldu.

Yalana bax. Belə bir şey heç onun beyninə sığışmırdı. Axı o, buna qətiyyən inana bilməzdi.

Mariamna inanmırdı ki, qoca qulluqçu artıq yoxdur. Onun halına ürəkdən acıyırdı, ona yaman bağlanmışdı, hərçənd ki, özünə bu barədə heç vaxt bir söz deməmişdi. Yəni o, bir də saraya gəlməyəcək? Ona yaxın olan sonuncu ruh da Mariamnanı tərk etdi və o lap tənha qaldı.

Bütün günü qarını xatırlayırdı. Onun qırış-qırış və zahirən sərt görünən sifəti vardı, amma özü əsla sərt deyildi. Qətiyyən. Sadəcə, heç gülümsünməzdi. Görəsən, niyə? Kim bilir ki, heç kim bilmir bunu.

Artıq o yoxdur.

İrod isə, həqiqətən də, arvadının Makkaveylərlə əlaqə saxladığından şübhələnmişdi. Ona görə şübhələnmişdi ki, qoca qulluqçu saraya, onun yanına tez-tez baş çəkirdi və əmr etdi ki, qadını yığışdırsınlar.

Lakin bununla sakitləşmədi.

Ehtiraslı qəzəb hissilə yaşayan bir çox insanlar kimi, onu da ölüm qorxusu təqib edirdi. Minlərlə həyata son qoymuşdu, amma özü ölümdən qorxurdu. O, döyüşdə ölməkdən qorxmurdu, döyüşün məstliyində heç nədən qorxmurdu. Lakin içini yeyən xəstəlikdən ölmək, tanımadığı, görmədiyi düşmənin əlində ölmək qorxudurdu onu. Qorxurdu ki, onu satqınlıq nəticəsində, kürəyinə – sol kürəyinə xəncər saplayıb öldürələr. Bilirdi ki, bu baş verəcək, bundan qurtarmaq olmaz, bundan qaça bilməzsən və əgər ona sui-qəsd təşkil olunarsa, qəsdçilər üçün ən yaxşısı çarın yanında, şübhəli görünməyən, onun evinin içində olan inandığı bir adam tapmaq deyil? Bundan yaxşı nə ola bilər?

İnanırdımı buna? Əlbəttə, yox. Şübhələri dəhşətli idi, amma o dərəcədə yox ki, Mariamnanı qəsddə şübhəli saysın. O, düşmənlərin tərəfindədir? Mümkündürmü bu? Lakin az sonra özünü inandıra bildi.

Ona getdikcə daha artıq əziyyət verən fikirlərin qaynaqlandığı nəsnələri özündən də gizlədirdi. Qəlbinin dərinliklərində

gizlənən qaranlıq niyyətini özünə də etiraf etmirdi. Qəlbinin bulanıq dərinliklərində gizlənən hissləri.

Mariamnanı isə xalq elə əvvəlki kimi sevirdi, xalqın əksər hissəsi. O, saraydan çıxanda – artıq tez-tez çıxmırdı bayıra – insanlar öz məhəbbətlərini ona əvvəlki kimi göstərirdilər. Hərçənd ki, indi artıq onlara heç bir köməyi dəymirdi, onlar üçün bir iş görə bilmirdi. Xalq isə yenə də sevirdi onu. Baxmayaraq ki, daha onların üzünə gülümsəmirdi, heç vaxt gülümsəmirdi. Bilirdilər nə vəziyyətdədir və niyə həmişə qüssəlidir, hamısı bilirdi. Onlar bilirdilər ki, niyə belə dəyişib, tamam başqa adam olub. Amma yenə də sevirdilər onu. O isə daha gülümsünmürdü, heç vaxt gülümsünmürdü. Onu da sevirdilər.

Mariamnanı, gümüşü çariçanı.

O, özünü hazırlayırdı. Özünü sınayırdı. Sınayırdı, görsün, onun bu dünyada yaşamasına nə qədər dözə biləcək? Çətindir, qərar vermək çətindir, amma, nəhayət, qaçılmazlığın gözünün içinə dik baxmaq lazımdır.

Artıq çoxdan görmürdü onu. Qadın artıq ona yad kimi gəlirdi. Yad qadın onun yanında, onun evindəydi. Bu, nədir belə? Onunla heç görüşmürdü, lakin bir dam altında yaşayırdılar və o, bunu unutmurdu. Onunla bir dam altında və bəlkə də, düşmənləri ilə gizli əlaqədə. O, qərar vermək istəyirdi. Daha ləngitmək olmazdı. Bəsdir. Bir gün də gecikmək olmaz.

Onu çoxdan bəri görmədiyindən, qərar vermək daha asan oldu.

Budur, onu öldürmək üçün muzdlu qatil tutdu. Tapşırıqlarını verən kimi içində bir yüngüllük duydu.

Püşk atılmışdı və o sakitləşdi.

O, belə işlər üçün əvvəllər də muzdlu qatildən istifadə edirdi. Belə? Belə işlər?

Qatil ucaboy, şaqqallı idi, çarın özü kimi, elə sifətdən də oxşayırdılar. Niyə onu çağırmışdı?

Niyə məhz onu seçmişdi? Özünün bənzərini? O qədər qatil vardı ki. Niyə onları seçmədi? Niyə məhz bu? Özünə oxşayan.

Onun xidmətindən istifadə etmişdi, özü də bir dəfə yox. Amma gör nə qədər başqası var. Bəs niyə mütləq bu, ona bənzəyən?

Atını yəhərləyib, yola düşdü, Yerusəlimdən qırağa. At tələsmədən addımlayır, çarı hara gəldi aparırdı. Erkən payızın mülayim havalı günlərindən biri, səma da aydın və buludsuz idi. Günəşin duruşu ilə çar vaxtı təyin edirdi. Odur ki, arabir başını qaldırıb, göyə baxırdı.

Birdən heç bir zahiri səbəb olmadan, atının üzünü təzədən Yerusəlimə çevirdi. Və tezliklə – o dəqiqə yox, amma tezliklə – atın yüyənini buraxıb mahmızladı. Əvvəlcə yavaş çapırdı, lakin şəhər darvazalarına yaxınlaşanda atı dördnala qovdu.

Saraya çatanda darvazaların qabağında yüyəni buraxıb, yerə sıçradı və pillələrlə yuxarı yüyürdü.

Otağına girəndə onu yerdə gördü, qan gölməçəsinin içində, iki bıçaq zərbəsi almışdı – boynundan və sinəsindən. Hələ sağ idi, amma nəfəsini lap üzdən alırdı. Gözləri yumulu idi, amma gəlişini hiss edib, gözünü açdı və ona baxdı.

– Sevgilim, sevgilim, – deyə pıçıldayaraq, ona sarı əyildi. – Sevgilim, sevgilim...

Eşitdimi?

Bunu bilmək onun nəsibi deyildi.

Danışa bilmirdi, yalnız əlini yüngülcə tərpətdi. Və öz nazik əlini onun ovcuna qoydu.

Deməli, hələ bilmir? Bilmir?..

Bəlkə, bilir – bilə-bilə?..

Bilə-bilə?..

Onunla yanaşı dizləri üstə düşdü, o bilmirdi ki, özüylə nə etsin qətiyyən başa düşmürdü ki, neyləsin.

Yalnız bir sözü təkrarlayırdı:

– Sevgilim.

O isə yenə gözlərini açdı. Açdı və dərindən köks ötürüb bir də yumdu. Və İrod onun öldüyünü başa düşdü.

Üzərinə əyildi.

– Sevgilim, sevgilim, – təkrar-təkrar deyirdi.

Lakin o eşitmirdi.

Həmin gün yox, amma tezliklə qatili yaxaladı. Onun üzərinə quduz bir qəzəblə atılaraq, cantaraq bədəninə saysız-hesabsız qılınc çaldı.

O, boydan hündür və elə çarın özü kimi əzəmətli bədənə sahib olsa da, heç bir müqavimət göstərmədən özünü onun zərbələrinə tabe edirdi.

İrodun Mariamnanın ölümündən sonrakı həyatı haqqında bircə onu danışmaq qalır ki, eynilə qabaqkı kimi, kin və günah içində yaşadı və onun həyatında heç nə dəyişmədi. Necə ki məhəbbət dəyişə bilməmişdi onu, heç Mariamnanın ölümü də dəyişmədi. Xasiyyətini yalnız qısa müddətə yumşaltdı və təbəələri bir az yüngülləşərək, gümüşü çariçanın son köməyinə sevinib dərindən nəfəs aldılar. Lakin sonra hər şey əvvəlki məcrasına döndü. O, yenə də özünə çevrildi.

Bəli, özünə inamı və yer üzündə ona tay-bərabər bir kimsənin olmadığına arxayınlığı da elə onun qüsurları, günahları kimi ilbəil artırdı.

Onun hakimiyyəti hələ bir az da möhkəmləndi: Makkaveylərin müqavimətini qırıb, dağlarda onları darmadağın elədi, özü üçün təhlükəli saydığı adamların hamısını qılıncdan keçirtdi. Onun dəhşətli mütləqiyyət idarəçiliyi yıxılmış, tapdanmış xalqa əzab verirdi.

Zoru, ədalətsizliyi və qanunsuzluğu xeyli davam etsə də, səngimək bilməyən əxlaqsız həyat tərzindən sağlamlığı, nəhayət ki, sarsıldı. Lakin ondan üz çevirən yalnız cisminin gücü idi, xasiyyəti isə onun qəzəbinə, yaxud adi narazılığına düçar olan adamlar üçün ipə-sapa yatmaz, dəhşətli olaraq qalırdı. Hələ gücü vardı. Xalqın da ona nifrəti hələ öz qüvvəsindəydi.

Qocalıq getdikcə daha aşkar yan alırdı ona. Demək olar ki, vaxtına lap az qalanda da, sakitləşmək bilməyən, qəddar həyat sürür, əvvəlki ehtiraslarına və günahlarına davam edirdi.

Amma o, Mariamnanı unutmadı.

Bir dəfə artıq bütün gözəlliyi və dəbdəbəsi ilə ucalan məbədə baxmağa gələndə yadına Mariamna ilə bura gəlmələri düşdü. Onda tikintiyə necə az maraq göstərmişdi, necə biganə qalmışdı məbədə. Təəccüb doğuracaq dərəcədə biganə. Sanki, ona heç məbəd gərək deyildi. Çar buna yenə təəccübləndi.

Öz adını şöhrətləndirmək, şöhrətinin əsrlər boyu solmasına imkan verməmək, ölümsüzlük qazanmaq üçün ucaltdığı müqəddəs ocağı, məbədi bir də gəzdi. Gözəl məbəd idi, bəlkə də, yer üzünün bütün məbədlərindən gözəl idi. Çar yenə də qızıl, mis, bürünc və gümüş bəzəklərə, uzaq ölkələrdən gətirilmiş, çox qiymətli par-par yanan mərmərə ləzzətlə baxdı. O, məbədi illərin yükündən bir az da ağırlaşmış qəribə yerişi ilə dolaşdı. Üzündə qocalıq və xəstəliyin möhürü vardı, lakin bu mühüm deyildi, bunu kimsə görmürdü, kimsə yox idi yanında və məbədi aramla dolaşaraq, gözəlliyinə bir də əmin olub, öz sarayına, öz yataq otaqlarına – Mariamnanın evə çevirmək istədiyi otaqlara qayıdırdı. Tək olanda mütləq həmin otaqlara gedərdi. Artıq çox vaxt tək olurdu, çünki onu əhatə edən adamların hamısına içində bir nifrət oyanmışdı.

Mariamnaya, həqiqətən də, məbəd gərək deyildi. İbadət onun batinində idi və o, ürəyi istəyən vaxt dinləyə bilirdi onu. O, sanki, bir ağac idi, küləyin pıçıldadığı sirlərlə daim dolu

bir ağac, pıçıldaşan yarpaqlardan paltar geymiş sirli ağac kimi idi Mariamna və onun mehraba ehtiyacı yox idi.

İroda isə məbəd lazım idi. Çünki o, səhranın oğlu idi. Məbədi də səhrada ucaltdı ki, özünə şöhrət qazandırsın.

Ancaq özünəmi? Dəqiq?

Kim bilir bunu? Mən bilmirəm.

Xəstəliyin gücsüzlüyü onu tamam əldən salanda və bədənini dözülməz ağrılar didməyə başlayanda atalarının diyarına, ölkəsinin Ölü dənizdən cənubdakı sərhədlərinə yollandı ki, sakitliyini və sağlamlığını, bəlkə, o yerlərdə tapa bilsin. Eşitmişdi ki, orada insana gəncliyini qaytaran, güc bəxş edən qaynar bulaqlar çağlayır.

Əvvəllər burada olmamışdı və ona ruhunu bağışlamış bu diyarı təəccüblə süzürdü – boş düzənliklər və qan rəngli dağlar çarlığını. Bütün bunlar dəhşət doğurur və eyni zamanda, ürəyi heyranlıqla doldurur. İrod isə o qədər qoca və xəstə idi ki, əcdadlarının yurdunu görərkən, demək olar ki, heç bir şey duymurdu.

Xəstə bədəni burada da sağlamlıq tapmadı, qaynar bulaqların kükürdlü sarı suyu onun əzablarını azaltmadı, əksinə bir az da gücləndirərək, alov kimi qarsıdı bədənini. Bura ölüm ölkəsi idi, həyat yox.

Bir az da gücdən düşdü.

Tamam əldən düşmüş halda Yerusəlimə döndü. Şişmiş bədəni həm özü, həm də ətrafındakılar üçün dözülməz olan üfunət qoxuyurdu. Xasiyyəti bir az da dəhşətli olmuşdu, öz qəzəbini hamıya ünvanlayırdı, odur ki, hamı onun nəzərlərindən yayınmağa can atırdı. Hətta qoca, sınanmış nökərləri belə ona ehtiyatla yaxınlaşırdılar.

Dözülməz ağrılar didirdi bədənini. Ən çox qorxduğu şey baş verirdi: gözəgörünməz, tanımadığı düşmən onun həyatını əlindən alırdı.

Və yalnız ölümün son qoya biləcəyi ağrılarına baxmayaraq, gecə-gündüz elə ölümdən qorxurdu. Xüsusilə də, gecələr ona əsl işgəncə idi. Hər axşam şər qarışmasını dəhşətlə gözləyirdi. Amma xəstəlik və ölüm qorxusu ona özündən, öz əzəməti və şöhrətindən ləzzət almağına mane olmurdu və hiddətlənirdi ki, onun kimi bir adam adi, insani ölümə, murdar və təhqiramiz ölümə məhkumdur. O, ilahilər kimi ölmək istəyirdi. Amma qisməti deyilmiş.

Ona əziyyət verən xəstəlik bəlli deyildi. Deyirdilər ki, qurdlar onu diri-diri yeyirmiş – böyük günahlarına görə göndərilmiş qurdlar. Nə qurdlar idi, bilmirik, amma xalq məmnuniyyətlə inanmışdı buna.

O artıq öz sarayında, demək olar ki, tənha yaşayırdı, çünki insan görəndə qəlbində nifrət çağlayırdı, elə onu görənlərin qəlbində çağlayan nifrətə bənzər. Onunla tək-tük nökərləri qalmışdı. Sarayın qarşısında isə qabaqkı kimi İrodun həyatını qoruyan silahlı döyüşçülər dururdu. İrodun həyatını mühafizə edir, qoruyurdular, hərçənd ki, hamı ancaq onun sonunu gözləyirdi.

Elə həmin vaxtda şərqdə bir ulduz doğdu və nuru bütün qalan ulduzların nurunu soldurdu və uzaq, boş torpaqlardan olan üç müdrik bu ulduzu dərhal tanıdı, onun dalına düşdü və o İudeya üzərində dayandı. Yerusəlimə gələn həmin o üç nəfər saraya girərək, qapıçıya dedilər:

– Çarın övladı olub və bu uşaq bütün yer üzünün hökmdarı olacaq. Əgər çarın sarayı buradadırsa, deməli, uşaq da burada doğulub.

Qapıçı narahat olaraq, onlardan xahiş etdi ki, gözləsinlər, özü isə çara məlumat verməyə getdi. Qorxudan əsə-əsə, bu qəribə sözləri İroda çatdırdı, çünki onun nəyə qəzəblənəcəyini qabaqcadan bilən adam yer üzündə yox idi.

Lakin İrod qəzəblənmədi. Nökər heyrətlə duydu ki, deyəsən, bu sözlər çarı qorxutdu. Öz ağasının bu cür sifətini

heç vaxt görməmişdi. İrodun işarəsi ilə həmin o üç müdrikin yanına qayıtdı və onlar çarın qarşısında durdular.

İrod, həqiqətən də, əvvəlcə qorxmuşdu. Lakin həmin o üç nəfəri görən kimi sakitləşdi. Əyinlərindəki dilənçi paltarlarına baxıb başa düşdü ki, onların sözünə də əhəmiyyət vermək lazım deyil və başladı sorğu-suala ki, kimsiniz, haradan və nə üçün gəlmisiniz. Onlar isə elə nökərə dediklərini söylədilər çara ki, bəs uşaq anadan olub və bu uşaq İudeyada və bütün yer üzündə çarlıq edəcək.

İrod soruşdu ki, bunu haradan bilirlər.

Onlar cavab verdilər ki, şərqdə parlayan bir ulduz görüblər, çarın doğulmasından xəbər verən parlaq bir ulduz. Həmin ulduzun dalınca gediblər. Ulduz da Yerusəlim üzərində dayanıb, deməli, çar da burada doğulub.

İrod ürəyində onlardakı nitqin bəsitliyinə güldü, sonra isə dedi ki, sarayda heç kəs doğulmayıb, burada təzə anadan olmuş çar-zad da yoxdur.

Üç yadelli təəccüblə bir-birinə baxırdı, bilmirdi nə desin.

İrod isə həmin ulduzu görmək istədiyini söylədi, onlar da axşam, ulduz çıxan ərəfədə qayıdacaqlarına söz verdilər.

Axşam sarayın damına çıxdılar ki, ulduzu və bütün göy qübbəsini daha yaxşı seyr edə bilsinlər və İroda həmin ulduzu nişan verdilər.

Qoca qırış-qırış üzünü gecənin səmasına tutub ulduza baxırdı. Hə, parlaq idi. Amma onun üstünə, sarayın üstünə, İudeyanın və bütün yer üzünün üstünə sərilmiş, gecəsini yaşayan səma ona müqayisəolunmaz dərəcədə diqqətəlayiq gəldi. Ulduz dərkedilməz vahid ənginliyin yalnız bir hissəsidir. Yanıb, yanıb, sönəcək. Ulduzlu səma isə öz tənhalığında heç vaxt sönməz.

Çar belə mülahizə edirdi.

Müdriklər isə gördülər ki, ulduz titrəyərək, yoluna davam etdi, sən demə, onların fikirləşdiyi kimi, heç də burada dayanmayıbmış. Sonra ulduzun dalınca zülmətə tələsdilər.

İrod isə səmaya baxır, baxırdı – indi ruhunu ulduzlara açmışdı.

Müdriklər İudeya gecəsində çox dolaşdılar və nəhayət, kiçik bir şəhərə yetişdilər, adını bilmədikləri balaca bir şəhərə. Ulduz da elə bu şəhərin üzərində, hansısa mağaranın üstündə durmuşdu. Həmin mağaraya çobanlar həmişə öz sürülərini qovardılar, amma indi bu mağarada ər, arvad və körpələri yaşayırdı və elə bu körpənin başının üstündə durmuşdu ulduz. Elə həmin an da nuru öləziyərək, yavaş-yavaş söndü, çünki artıq səhər açılırdı.

Müdriklər də anladılar ki, bu körpə məhz axtardıqları, ulduzun işarə etdiyi gələcək çarın özüdür.

Onlar mağaraya ehtiramla qədəm basdılar və kandarda dizlərini qatlayıb sakitcə durdular, sanki, dua edirdilər; günəşdən rəngi solmuş nimdaş paltarlarında donub qaldılar, səslərini çıxarmadan dualarını edirdilər, uşağı isə günəş şüaları elə indicə oyatmışdı və apaydın gözləriylə müdriklərə baxırdı. Onlar da gətirdikləri hədiyyələri körpənin qabağına qoydular. Onlar yoxsul idilər, səhralardan çıxmışdılar, ona görə hədiyyələri də sadə idi, amma onları səmimi-qəlbdən gətirmişdilər və ruhi mütiliklə təqdim edirdilər.

Birincisi uşağa daş gətirmişdi, gözəl bir daş, bomboş doğma sahillərində dənizin yonub hamarladığı bir daş.

İkincisi uzaq vətəninin qumsallıqlarında bitmiş, görkəmindən hökmdar əsasına bənzəyən ayıpəncəsi gətirmişdi.

Üçüncüsü isə oğlan üçün öz doğma diyarında qaynayan bulağın bir bardaq suyunu gətirmişdi və bu bulaq ecazkar idi, çünki birbaşa qumdan qaynayırdı.

Bax belə hədiyyələr gətirmişdilər körpəyə.

Sadə adamlar olan, bahalı hədiyyələrə öyrənməmiş valideynləri onlara ürəkdən minnətdarlıq etdilər.

Uşağa, onun ata-anasına bir də baş əyərək, həmin o üç nəfər mağaradan çıxıb, öz uzaq ölkəsinə qayıtdılar.

İrod xəbər tutanda ki, şərqdən gələn üç müdrikin dediyi uşaq həmin balaca şəhərdə doğulub, əmr etdi, ehtiyat üçün oradakı bütün körpə oğlan uşaqlarını öldürsünlər ki, gələcək çar dəqiq sağ qalmasın.

Xəstə, ölüm ayağında olan bir qoca idi – amma şər əməllərindən də qalmırdı. Onun üçün nə fərqi vardı ki, ölümündən sonra çar kim olacaq? Yox, İrod üçün fərqi vardı. Yalnız özü olmalıydı çar! Bütün dünyada ona tay olmamalıydı və o, əmrlərinin ən dəhşətlisini verdi!

Bu onun sonuncu şər əməli idi. Çünki ölüm artıq özünü ona yetirirdi.

Amma həmin o balaca şəhərdə çarın dəhşətli istəyi yerinə yetiriləndə körpə, onun atası və anası artıq uzaqlarda idilər.

İrod sarayda tənha qalmışdı. Bütün nökərləri tərk etmişdi onu. Onlar bilirdilər ki, çar tezliklə öləcək və daha qorxmurdular ondan; onu ataraq, hərəsi bir tərəfə dağılmışdı.

Tənha günlərində Mariamna haqqında düşünməyə başlamışdı. Onun barəsində yaman tez-tez fikirləşirdi. Onu – yeganə sevgilisini unutmamışdı. Qəribədir, görəsən, öz sevgisini bütün murdar həyatından keçirərək, bu gününə necə salamat çatdıra bilmişdi və bu sevgi onun kin-küdurətinin qucağında necə sağ qala bilmişdi? Amma hələ sağ idi.

Hərçənd ki, ona təsiri yox idi, onu dəyişə bilmirdi.

Mariamnanın ölümü də onu dəyişmədi və o başa düşmədi ki, özü öldürüb onu və bu qətli öz əlləriylə törətməmək üçün başqa birisini – özünə bənzəyəni pulla tutsa da, Mariamnanı özü öldürüb.

Onu heç nə dəyişmirdi. Heç nə heç vaxt onu dəyişə bilməzdi. Çünki o, səhraların oğlu idi. Orada, səhrada isə saf sulu, gözəl bulaqlar qaynamırdı və heç nə yox idi ki, kuzəni doldurub yaxalanaraq dəyişəsən, yeniləşəsən.

Orada ecazkar su yoxdur.

Və o, Mariamnaya bənzəmirdi. Məbədsiz yaşaya bilən Mariamnaya. Ağac kimi küləyin sirrini dinləyən Mariamnaya. O, başqa cür idi. O İrod idi. O çar idi. Həşəmətli çar İrod və budur, indi ölümə məhkum idi.

Tənha, hamı tərəfindən tərk edilmiş halda ölürdü, biz də elə öləcəyik. Çünki ölümlə üz-üzə hamımız tənhayıq, hamımız tərk edilmişik. O da ölürdü, bizim öləcəyimiz kimi ölürdü.

Gecə – onun ən çox qorxduğu zaman düşdü.

Xəstəlik onu elə didib-tökmüşdü ki, ayaq üstə dura bilmirdi. Lakin o, ölümünü yataqda, uzanıqlı qarşılamaq istəmirdi. Yox, o belə ölməməliydi. İrod belə ölməməliydi.

Ölüm dəminin yaxınlığını duyanda və anlayanda ki, qaçılmaz bir şeydən qaçmaq olmaz, ayağa qalxıb, divarlardan tuta-tuta getdi. Ölərkən sarayın yataq otaqlarını, boş və cansıxıcı zallarını ağır-ağır dolaşdı.

Sonuncu fikri yalnız onun barəsində idi, yalnız onun, yeganə sevgilisinin. Ölüm saatında da darıxırdı onun üçün.

– Mariamna! Mariamna! – deyə ucadan qışqırırdı.

Boş zallar isə onun qışqırtısına güclü əks-səda verirdi. Səndirləyərək, divardan tutub qışqırır, qışqırırdı:

– Mariamna! Mariamna!

Əks-səda boğuq və boş səslə onun ölmüş sevgilisinin adını təkrarlayırdı.

Dəhşətli həyatının son addımlarını çətinliklə, zülmətdə atırdı.

O yıxıldı. Qalxmaq istədi, bacarmadı. Əllərini qaranlığa açıb, sevimli adı bir də, sonuncu dəfə ucadan söylədi:

– Mariamna! Mariamna!

Sonra əlləri heysiz halda yanına düşdü və o öldü.

Belə yaşadı yer üzündə çar İrod öz həyatını, ona ayrılmış ömrü. Yer üzünü məskunlaşdıran, nəsli izsiz itmiş, özü haqqında xatirə də qoymamış insanlardan biri kimi yaşadı. Öz həyatını belə yaşadı.

Mariamna, Mariamna.

# CƏLLAD

Cəllad yarıqaranlıq traktirdə oturub içirdi. Traktir sahibinin qoyduğu yeganə piy şamın titrək, hisli işığında onun qan rəngli paltarda olan əzəmətli bədəni stolun üstünə sərilmişdi, alnındakı cəllad damğasını əliylə örtürdü. Stolun o biri başındakı içki məclisindən bu həndəvərdə yaşayan bir neçə sərxoş sənətkar və şagirdinin səsi ucalırdı, arxasında onun əyləşdiyi stolun yarısı isə tamam boş idi. Daş döşəmənin üzəriylə səssizcə yeriyən qulluqçu onun parçını dolduranda əlləri əsirdi. Qaranlıqda sivişib traktirə keçərək, bir qıraqda sakitcə oturmuş usta şagirdi də onu par-par yanan gözlərilə yeyirdi.

– Qiyamət pivədir, hə, cəllad? – şagirdlərdən biri çığırdı. – Eşidirsən, bizim sahibə dar ağacının yanına getmişdi, səndən bir dənə oğru barmağı çırpışdırmağa, indi də odur e, düz çəlləyin üstündə ipdən asıb. Dəridən-qabıqdan çıxır ki, pivəsi hamınınkından yaxşı olsun, müştəriləri bəyənsin. Pivəyə isə, bilirsən də, dar ağacından asılan adamın barmağı qədər dad verən heç nə ola bilməz!

– Hə, doğrudan qəribədir, – ağzıəyri çəkməçi qoca çal saqqalından süzülən pivəni silib fikirli-fikirli dilləndi. – O cür işlərə dəxli olan hər şeydə mütləq bir ecazkar qüvvə olur.

– Düz deyirsən, Oto, özü də qüvvə deyirəm ha, sənə! Yadımdadır, bizim tərəflərdə bir kişini asmışdılar, icazəsiz ov etdiyinə görə, amma özü deyirdi ki, günahı yoxdur. Cəllad ayağının altındakı kətili ki vurdu, boğazının halqası tarım çəkildi, çəkilən kimi də necə əldən qoydusa, bütün ətrafı iy basdı, çiçəklər başını yerə qoydu, dar ağacının şərqindəki çəmənlik isə tamam soldu, elə bil, heç su üzü görməmişdi,

hə, külək də qərbdən əsirdi axı, bunu demədim sizə. Həmin il yayda məhsul yaman qıt oldu bizdə.

Hamısı stolun üstünə sərilərək gülüşdü.

– Mənim atam isə danışırdı ki, hələ cavan olanda, onlarda bir dabbaq varmış, baldızının işinə baxırmış, dünyadan köçmək vaxtı yetişəndə, onun da başına eyni hadisə gəlmişdi, bir göz qırpımında cismindən qopmalı olanda nə desən baş verər, burada qəribə bir şey yoxdur. Camaat bu iydən az qaldı qaça, bir də baxdılar ki, göyə qara bulud qalxır, dəhşətli bir bulud, üstündə isə şeytanın özü oturub, əlində də yabası, kişinin günahkar ruhunu özüylə aparırdı, hələ qəhqəhə də çəkirmiş bu iyin ləzzətindən.

– Bəsdir sarsaq-sarsaq danışdın, – cəllada sarı çəp-çəp baxan qoca yenə müdaxilə etdi söhbətə. – Mən zarafat eləmirəm, həqiqətdir dediyim, nəsə böyük qüvvə var bu işdə. Lap elə Kristeni götür – Annanın uşağını – ağzında köpük yerdə çapalayırdı, çünki cin girmişdi canına! Mən özüm neçə dəfə onu tutmuşam, ağzını açmağa kömək eləmişəm – bilirsən, necə dəhşət silkələnirdi, heç mən elə silkələnən adam görməmişəm. Amma elə ki anası onu özüylə aparıb dəmirçi Erker edam olunanda məcbur elədi ki, onun qanından bir az içsin, uşağın xəstəliyi bilmərrə yoxa çıxdı. O vaxtdan bəri bircə dəfə də tutması olmayıb.

– Hə-ə...

– Mən axı onların qonşusuyam, yaxşı bilirəm, elə siz də məndən az xəbərdar deyilsiz.

– Kim mübahisə eləyir ki.

– Əlbəttə, bilirik, bunu hamı bilir.

– Amma bircə şey vacibdir, içdiyin qan mütləq bir qatil qanı olmalıdır, bir də, gərək hələ isti-isti içəsən, yoxsa xeyri olmaz.

– Məlum məsələdir.

– Hə, lap möcüzədir, nə deyim daha...

– Bax azar-bezarlı, zəif uşaqlar da cəllad qılıncından süzülən qanı içən kimi sapsağlam olurlar, bu, hələ uşaqlıqdan

yadımdadır, – qoca sözünə davam edirdi. – Bizim tərəflərdə bunu hamı bilirdi, mamaça qarı qanı cəlladın evindən daşıyıb gətirirdi. Yoxsa düz demirəm, ay cəllad?

Cəllad ona tərəf baxmadı. Heç qımıldanmadı da. Alnının damğasını əliylə örtdüyü ağır, ifadəsiz üzü zəif, titrək işıqda zorla sezilirdi.

– Hə. Şərin özündə də adama şəfa gətirən bir güc gizlənib, bu lap dəqiqdir, – qoca sözünü yekunlaşdırdı.

– Nahaq yerə deyil ki, şər işlərə dəxli olan nə varsa, insanlar acgözlüklə qapırlar. Gecə dar ağacının yanından keçib evə gedəndə görürsən ki, əlləşirlər, qaynaşırlar altında – qorxudan adamın ürəyi üzülür lap. Bəs dərman düzəldənlər, türkəçarəçilər, Tanrının xoşuna gəlməyən başqa cadugərlər dərmanlarını buradan götürürlər də, sonra da yazıq kasıb, biçarə azarlı, alın təriylə qazandığını verir onlara. Deyirlər ki, bəzən meyiti lap sümüyünə kimi soyurlar, heç adama bənzəri qalmır. Mən sizdən yaxşı bilirəm ki, bunda nəsə bir qüvvə var, ehtiyac olanda, onsuz keçinə bilməzsən, özüm sınamışam, hələ desən, lap arvadım da istifadə eləyib, amma sizə deyim ha, tfu, yaman murdar şeydir! Odur ki meyit yeyən ancaq donuzlarla quşlar deyil, elə bizlər də lazım olanda yeyirik!

– Sən Tanrı, səsini kəs! Sənin bu sözlərindən adamın içi qarışır. Deyirsən, özün də dadmısan, nə idi sənə uddurduqları?

– Nə udduğumu deməmişəm, heç demərəm də. Mən bir şey deyirəm: tfu, şeytan əməlidir bu! Çünki əsl mayeyi-fəsad odur, inanın!

– Əh, boş söhbətdir. Bütün axşamı boşboğazlıq edirsiniz. Sizin sayıqlamalarınıza daha qulaq asmaq istəmirəm.

– Sən niyə pivə içmirsən?

– İçirəm, niyə içmirəm ki? Sən özün də iç, ay əyyaş.

– Amma yenə də yaman qəribədir ki, şər həm kömək eləyir, həm də gör nə boyda gücü var.

– Hə, məsələ də elə bundadır da.

– Hə, onun gücü həm belə çönə bilər, həm də elə. Bununla zarafat eləmək olmaz.

Onlar susdular, pivə parçlarını qabaqlarından itələdilər. Bəziləri üzünü yana çevirdilər, yəqin, xaç çəkirdilər.

– Deyirlər ki, cəllada nə bıçaq batır, nə qılınc, – deyə qoca masanın o biri başındakı qaradinməz adamın qorxulu fiquruna çəpəki nəzər salıb dilləndi. – Bu həqiqətdirmi, bilmirəm.

– Boş söhbətdir, əşi!

– Yox, elə demə, hərdən elələri olur ki, sanki, daşdandır bədənləri, heç nə kar eləmir. Cavan olanda bir dənə beləsi barədə eşitmişdim. Onu qatı cinayətlərinə görə gətiribmişlər edama, baxırlar ki, qılınc kəsmir. Əl atırlar baltaya – balta əllərindən nə təhər çıxırsa, canlarına lap qorxu dolur, məcbur olub buraxırlar, sonradan başa düşürlər ki, onun içində şər qüvvələr yuva salıbmış.

– Gopdur, əşi!

– Tanrı haqqı dübbədüzdür, yalan deyirəmsə, oturduğum yerdə onun qəzəbinə gəlim!

– Eh, boş-boş danışırsan da! Kim bilmir ki, cəlladları da elə başqaları kimi qılıncla, baltayla edam edirlər. Götür cəllad Ensi, onun başını təbərzinlə üzmədilərmi?

– Əşi, Ensinki başqa məsələdir, o, həmin şər qüvvələrlə dilbir deyildi. Durduğu yerdə bəlaya düşmüşdü, tamam günahsız bir bədbəxt idi, arvad-uşaqlarından ayrıla bilmirdi deyə, sağ qalmaq üçün yalvarırdı. Bu tamam başqa məsələdir, qardaşım. Bu sənət onun ürəyindən deyildi, kötüyün yanına çıxanda, cinayətkardan pis əsirdi. O, şər qüvvələrdən qorxurdu, bildinmi. Elə ölümünün də səbəbi öz qorxusu ilə bacarmamağı oldu, işinin öhdəsindən gəlmirdi – mən elə bilirəm, axırda da ən yaxın dostu Staffianın işini bitirdi. Sənə bir şey deyim, balta Ensdən güclü idi, elə bil, özünə sarı çəkirdi onu, o da müqavimət göstərə bilmirdi, axırda özü düşdü baltanın altına, çünki həmişə bilirdi ki, axırı belə olacaq, həmişə gözləyirdi. Yox, onun içində şər qüvvələr

yox idi. Amma kimin içində onlar varsa, ona heç nə kar eləməz.

– Bəlli məsələdir ki, cəlladın vücudunda heç kəsdə olmayan bir qüvvə gizlənir, yoxsa havayı yerə şər qüvvələrin yanındadır həmişə? O ki qaldı onun baltasına, ya başqa alətlərinə, onlarda da ecazkar bir güc olur, bu da həqiqətdir. Elə buna görə də kimsə ürək eləməz ki, onlara əl vura; nə onlara, nə də cəlladın əli dəyən başqa şeylərə.

– Düz sözə nə deyəsən.

– Şərdə güc var, qardaşım, bizim heç yuxuda da görmədiyimiz bir güc. Əlinə düşdünmü, işin bitdi, caynağından buraxmaz.

– Sən bunu haradan bilirsən? – deyə bayaqdan bəri dinməz oturmuş adam dilləndi. – Bunun mahiyyətinə varmaq o qədər də asan deyil, lakin şərin necəliyini yaxından görsən, hərdən heyrətə də gələrsən. Mən demirəm ki, şərə dərindən bələdəm, yox, amma bir müddət onun təsiri altında olmuşam, demək olar ki, düz gözünə baxmışam, sirlərini oxumuşam. Bunu ömründə unutmazsan. Qəribə də burasıdır ki, ondan sonra, elə bil, qorxun olmur şərdən.

– Ola bilməz!

– Yəni heç olmur? İnanmağım gəlmir nəsə!

– Düz sözümdür, heç nədən qorxmuram. Həvəsin varsa, qulaq as, gör mənim qorxum niyə yox oldu. Bayaqdan danışırdınız, mənim də yadıma bəzi şeylər düşdü. Bu hadisə baş verəndə hələ uşaq idim, elə bilirəm, beş-altı yaşım ancaq olardı. Atamın malikanəsində yaşayırdıq, təsərrüfatı pis aparmırdıq, ehtiyac nə olduğunu bilməzdik. Mən də ata-anamın bircəsi idim deyə, həddindən artıq istəyirdilər məni, ailədə uşaq tək olanda belə olur da. Xoşbəxt yaşayırdım, valideynlərim də elə mehriban idilər ki, heç beləsi ələ düşməz, indi hər ikisi dünyasını dəyişib, yatdığı yerlərindən inciməsinlər, ruhları hüzur içində olsun. Malikanəmiz kəndin lap qırağında, bir az aralıda idi deyə, vaxtımı tək keçirməyə öyrəncəli

idim, hərdən də ya atamın, ya anamın dalınca yüyürürdüm həyətdə. İndiyə kimi yadımdadır ki, həyətimizdə nə harada idi: həyətdəki tikililər də, zəmilər də, evin cənub tərəfindəki bostanımız da. Hərçənd ki, bunların hamısı artıq əlimdən çıxıb və yəqin, bir də heç vaxt görə bilməyəcəm onları, amma bütün bunlar elə mənim içimdə indi də yaşayır.

Bir dəfə, biçinin lap qızğın çağı anam atam üçün icma otlaqlarına yemək apardı. Yol uzaq olduğundan mənimlə gedə bilməzdi deyə, evdə tək qaldım. Gün yaman qızdırırdı, möhkəm isti idi, milçəklər kandardakı daşın üstünə yığışmışdılar, mal-qara həyətində, səhərlər süd süzülən yerin üstündə də bulud kimi idilər. Mən həyətdə gəzib-dolaşır, ətrafa baxırdım, sonra bağa keçdim, odun anbarının yanına getdim, pətəklərdən tənbəl-tənbəl çıxan, istidən hallanmış tox arılara baş çəkdim. Sonra da bilmədim niyə, bəlkə də, darıxmışdım deyə, çəpərdən aşıb cığırla meşəyə tərəf üz qoydum. Heç vaxt bu cığırla uzağa getməmişdim, onun ancaq əvvəlinə bələd idim. Amma onda nəsə tanımadığım yerlər qəflətən çəkdi məni. Cığır yamacla uzanırdı, meşə isə yaman sıx idi, böyük ağacları vardı, mən onların gövdələrinin, üstünü mamır basmış iri-iri daşların arasından ətrafa tamaşa edirdim. Aşağıdakı dərədə bizim kəndin içindən keçən çay səs-küylə axırdı. Özüm üçün gəzə-gəzə sevinirdim: xoş hava da başımı qatırdı, qalan şeylər də. Günəş yarpaqların arasında uyuyur, ağacdələnlər taqqa-taraq salır, qatran qoxuyan hava adamın bədənini öz istisi ilə qızdırır, quşların səsindən cingildəyirdi.

Bu minvalla nə qədər getdiyimi bilmirəm, amma birdən şıqqıltı eşitdim və irəlidə, sıx kolların arasında nəsə tərpənib yerdən qalxdı. Addımlarımı yeyinlətdim ki, görüm oradakı nədir.

Döngəyə çatanda baxdım ki, nə idisə qaçaraq uzaqlaşırdı, mən də onun dalına düşdüm. Cığır düzənliyə çıxmışdı, burada meşə seyrək idi və mən talaya çıxanda gördüm ki, iki nəfərdir. Yəqin, yaşıd olardıq, amma paltarlarımız fərqli idi.

Talanın o biri üzündə ayaq saxladılar, çönüb arxaya baxdılar. Sonra yenə götürüldülər. Mən də düşdüm dallarına. Qaça bilməzsiniz, – deyə fikirləşdim, – onsuz da tutacağam! Amma onlar arabir cığırdan çıxıb sıx kolluqlarda gözdən itirdilər. Əvvəlcə fikirləşdim ki, mənimlə gizlənqaç oynamaq istəyirlər, sonra gördüm yox, buna oxşamır.

Amma mən onlarla tanış olmaq, oynamaq istəyirdim deyə, sürətimi azaltmır, yavaş-yavaş haqlayırdım. Axırda hərəsi bir səmtə qaçdı, biri yerə aşmış şam ağacının altına sürünüb orada gizləndi. Onun dalınca cumdum, budaqları aralayıb baxdım: yumaq kimi büzüşüb uzanmışdı. Tamam tərləmişdim, qəhqəhəylə üstünə yıxılıb torpağa sıxdım. Başladı mənim əlimdən çıxmaq üçün çırpınmağa, başını qaldırdı, qorxmuş, vəhşi gözləri vardı, dodaqları qəzəbdən əyilmişdi. Kürən, qısa vurulmuş saçları vardı, üzü isə xırda, kirli çillərlə dolu idi. Əynində paltardan yalnız köhnə, süzülmüş alt köynəyiydi, demək olar ki, tamam lüt idi, əlimin altında balaca vəhşi heyvan kimi tir-tir əsirdi.

Məncə, onun görkəmi bir az qəribə idi, amma əl çəkmirdim, çünki ondan pis heç nə gözləmirdim. Birdən istədi ayağa sıçrasın, dizimlə sıxdım onu yerə, gülə-gülə dedim ki, əlimdən heç yana qaça bilməzsən. O sakitləşdi, mənə dinməzcə baxır, dillənmirdi. Artıq görürdüm ki, deyəsən, dostlaşırıq yavaş-yavaş və məndən daha qaçmayacaq. Bunu hiss edəndə buraxdım, hər ikimiz yerdən qalxdıq, yanaşı addımlamağa başladıq, lakin fikir verdim ki, arabir ehtiyatla baxır mənə. Bacısı da onunla idi, artıq o da göründü, gizləndiyi yerdən çıxmışdı. O, məndən aralanıb bacısının qulağına nəsə pıçıldadı, qız isə solğun sifətindəki qorxmuş ifadə ilə gözlərini geniş açıb qulaq asırdı. Lakin mən onlara yaxınlaşanda, daha qaçmadılar.

Beləliklə, başladıq oynamağa, onlar həvəslə oynayır, yəqin ki, qabaqcadan tanıdıqları müxtəlif yerlərdə gizlənirdilər, elə ki onları tapırdım, dinməzcə başqa yerə qaçırdılar. Oralar, demək olar ki, tamam açıq tala idi, bəzi yerlərdə iri daşlar,

yıxılmış ağaclar vardı, onlar da, görünür, burada hər şeyi əzbər bilirdilər, mən isə hərdən onları tapmaqda yaman çətinlik çəkirdim, çünki səsləri qəti çıxmırdı. Uşaqların belə səssiz oynamasını ömrüm boyu görməmişdim. Onlar əməlli-başlı həvəslənmişdilər, dələ kimi oyan-buyana tullanır, amma səslərini qətiyyən çıxarmırdılar. Heç mənimlə də bir kəlmə kəsmədilər. Amma elə belə də yaxşı idi bizim üçün, mən tamam razı qalmışdım. Hərdən lap oyunun qızğın yerində ayaq saxlayıb, dinməzcə mənə baxırdılar.

Görünür, xeyli vaxt idi, oynayırdıq, çünki meşədən kimsə səsləndi və uşaqlar bir-birinə cəld nəzər salıb götürüldülər. Mən onların dalınca qışqırdım ki, sabah mütləq görüşərik, amma onlar heç çönüb baxmadılar da, qulaqlarıma dəyən təkcə cığırda tappıldayan yalın ayaqlarının səsi idi.

Mən evə qayıdanda hələ heç kəs yox idi. Tezliklə anam gəldi, amma ona danışmadım ki, hara getmişdim, nə görmüşdüm. Nə bilim, sirr saxlayırdım özüm üçün.

Ertəsi gün o, yenə biçinçilərə yemək apardı, elə ki tək qaldım, o dəqiqə yollandım dünənki yerə və dostlarımı tapdım. Onlar yenə də vəhşi kimi ürkək idilər, xüsusilə də əvvəl-əvvəl heç cür başa düşmək olmurdu ki, mənim gəlişimə sevinirdilər, yoxsa yox. Amma burada mənimlə eyni vaxtda peyda olmuşdular, elə bil, məni gözləyirdilər. Yenə qızışdıq, səssiz oyunumuzdan əməlli-başlı tərlədik: mən də qışqırmırdım, heç cınqırım da çıxmırdı, amma onlar olmasaydı, yəqin, sakit qalmazdım. Mənə elə gəlirdi ki, onlarla çoxdan tanışam. Bu dəfə lap böyük talaya kimi qaçdıq, orda kiçik bir ev gördüm, arxasında ucalan qayaya söykənmişdi. Nəsə cansıxıcı bir evə oxşayırdı, çox elə yaxınlaşmadıq ona.

Evə dönəndə anam artıq məni gözləyirdi, içəri girən kimi məndən hara getdiyimi soruşdu. Ona dedim ki, meşədə gəzirdim.

Ora hər gün getməyə adət elədim. Evdəkilərin ot çalmağa başları elə qarışmışdı ki, mən yadlarına düşmürdüm, evdə

olmadığıma da fikir verən yox idi. Uşaqlar məni yolun yarısında qarşılayırdılar, deyəsən, daha çəkinmirdilər məndən.

Çox könlümdən keçirdi ki, necə yaşadıqlarına tamaşa edim, amma onlar, elə bil, həmişə mane olurdular buna. Məni həmişə oynadığımız yerlərə çəkirdilər. Amma bir dəfə necə oldusa, cəsarətlənib lap evlərinə yaxınlaşdım – onlar da mənim dalımca gəldilər, amma bir az dalda. Adi ev idi, lakin ətrafında nə şum vardı, nə də ki lək-filan, eləcə xam torpaq idi, sanki, heç kəs yaşamırdı burda. Qapı açıqdı, onları gözlədim və birlikdə içəri girdik. Alaqaranlıq idi, boğuq havası vardı evin. Qabağımıza bir qadın çıxdı, salamlaşmadı, heç nə demədi bizə. Gözləri sərt idi, elə bil, dəlib keçirdi məni – bilmirəm, amma nəsə bəd şeylər hiss edirdim. Saçları əlçim-əlçim yanaqlarına tökülürdü, ağzı isə iri, dodaqları qansız idi, nəsə acıqlı bir istehza vardı onlarda. Amma onda bu qadının görkəmi haqqında çox elə düşünmürdüm də. Yalnız fikirləşdim ki, yəqin, analarıdır, sonra da başladım ətrafa göz gəzdirməyə.

– Bura necə gəlib çıxıb? – deyə uşaqlardan xəbər aldı.

– O, meşəyə, bizimlə oynamağa gəlir, – deyə onlar qorxa-qorxa cavab verdilər.

O, məni maraqla nəzərdən keçirirdi və elə bil, bir az yumşalmışdı, ya da, bəlkə, mən artıq adət elədim ona. Hətta onunla qızın arasında bir bənzəyiş də tapdım, ağacların dalından gözlərini geniş açıb çıxanda hansı sifətdə idisə, qadın da indi ona oxşayırdı.

Yavaş-yavaş alaqaranlığa öyrəndim. Heç özüm də səbəbini bilmirəm, amma oralar qəribə gəlmişdi mənə. Evləri zahirən bizimkindən o qədər də fərqlənmirdi, amma nəsə başqa cür idi, ürəyimə heç yatmırdı. Bir də ki, hər evin öz qoxusu olur, bununku rütubət və bürkü kimi idi, havası həm ağır, eyni zamanda, elə bil, soyuq idi, bəlkə də, qayaya söykənirdi deyə, belə idi.

Mən hər şeyə göz qoyur, tamaşa edirdim.

Otağın uzaq küncündə nəhəng qılınc asılmışdı, enli və düz, hər iki tərəfi iti, üstündə müqəddəs ana ilə körpə İsanın

şəkli, çoxlu dolaşıq işarə, yazı vardı. Yaxınlaşdım ki, hər şeyi daha yaxşı görüm – o vaxta kimi belə bir şey görməmişdim, – özümü saxlaya bilməyib əlimi vurdum qılınca. Birdən, elə bil, kimsə köksünü ötürdü, burnunu çəkdi... Ətrafıma baxıb dostlarımın yanına qayıtdım.

– Kim idi ağlayan? – soruşdum.

– Ağlayan? Heç kəs ağlamır! – anaları cavab verdi. Gözlərini mənə zillədi, baxışları yenə dəyişmişdi. Bunu deyən kimi də əlimdən yapışdı, çəkə-çəkə qılıncın önünə apardı və tapşırdı ki, ona bir də toxunum.

Və əlim toxunan kimi yenə kimsə dərindən köksünü ötürüb, burnunu çəkdi, aydınca eşidilirdi.

– Qılıncdır! – ucadan deyərək, məni geri dartdı. – Qılıncdan gəlir bu səs!

Sonra əlimi buraxıb üzünü başqa səmtə çevirdi. Sobaya tərəf yeriyib odun üstünə qoyduğu qazanı qarışdırmağa başladı.

– Sən kimlərdənsən? – deyə, bir az susandan sonra soruşdu və soruşanda ağzı xoşagəlməz bir tərzdə əyildi, həqiqətən, mənə elə gəlmişdi ki, ağzını əyir.

Mən cavab verdim ki, volalı Kristofferin oğluyam, atamın adı belə idi.

– Belə de.

Uşaqlar yerlərində donub dəhşət dolu vəhşi gözlərilə düz qənşərlərinə baxırdılar.

O, sobanın yanında xeyli əlləşdi. İşini qurtaranda skamyaya oturub, məni də dizlərinin üstünə əyləşdirdi. Başımı sığalladı.

– Hə, belə-belə işlər... – deyib diqqətlə bir xeyli üzümə baxdı, sonra əlavə elədi: – Gərək sizinkilərin yanına səninlə gedim, belə daha yaxşı olar.

O yığışdı, başqa ətəklik geydi, başına da qəribə bir şey qoydu, mən bunu heç bir qadında hələ görməmişdim. Və biz yola düzəldik.

– Buralarda oynayırsınız? – deyə meşəyə girəndə məndən soruşdu. Yolboyu mənimlə bir neçə dəfə də danışdı. Nədənsə qorxduğumu hiss eləyən kimi əlimdən tutdu.

Mən heç nə anlamırdım, amma nəsə soruşmağa da cürət etmirdim.

Bizim evə tərəf qalxanda anam qapının ağzına atıldı, sifəti ağappaq idi, onu hələ bu vəziyyətdə görməmişdim.

– Mənim oğlumdan nə istəyirsən? Uşağı burax, eşidirsən! Elə bu dəqiqə burax, alçaq məxluq!

O ləngimədən əlimi buraxdı, üzü tamam əyildi, qovulub əldən salınmış vəhşi heyvan kimi baxırdı.

– Mənim oğluma nə etmisən?

– O bizdə idi...

– Sən onu murdar evinə dartıb aparmısan! – deyə anam qışqırdı.

– Mən heç yana aparmamışam onu. Özü gəlmişdi, əgər bilmək istəyirsənsə. Qılınca yaxınlaşıb təsadüfən əlini vuran kimi də ah-uf başlandı.

Anam qızarmış gözlərindəki çaşqın və ürkək baxışlarla düz mənim üzümə baxdı.

– Bunun nə demək olduğunu, gərək ki, özün də yaxşı bilirsən.

– Yox... Mən bilmirəm.

– Onun ölümü cəllad qılıncından olacaq.

Anamın sinəsindən boğuq bir qışqırıq çıxdı və ölü rənginə düşmüş dodaqları əsən sifətini, çarəsiz baxışlı gözlərini mənə zillədi, lakin bir cavab vermədi.

– Mən də fikirləşirdim ki, özüm gəlsəm yaxşı olar, amma görürəm "sağ ol" demək əvəzinə, hirslənirsən. Götür zibilini, indi ki, belə istədin, vaxtı çatanadək bizim barəmizdə heç nə eşitməyəcəksən!

Bunu deyərək əsəbi halda çönüb getdi.

Tir-tir əsən anam məndən yapışıb özünə sarı çəkdi, öpməyə başladı, amma baxışları donuq, yad idi. Məni evə apardı,

özü isə həyətə atıldı və gördüm ki, zəmidən ötüb nəsə qışqıra-qışqıra yüyürür.

Atamla bir yerdə geri döndülər, qanları qara idi, danışmırdılar. İndiki kimi yadımdadır, mən pəncərənin qabağında durmuşdum, atamla anamın evə tərəf necə gəldiklərinə baxırdım.

Heç biri mənə bir kəlmə də söz demədi. Anam sobanın yanında əlləşməyə başladı. Atam isə, adəti üzrə, oturmurdu, evin içində obaş-bubaşa var-gəl edirdi. Onun arıq sifəti donmuş, lap ağaca dönmüşdü, sanki, canlı deyildi. Anam su gətirmək üçün bir dəqiqəlik çölə çıxanda, o, məni düz qabağına qoyub inamsızlıqla, yoxlayırmış kimi, gözlərimin içinə baxmağa başladı, sonra isə üzünü yana çevirdi. Onlar öz aralarında da danışmırdılar. Bir az sonra atam çıxdı, başladı həyətdə gəzişməyə, hərdən də durub uzaqlara baxır, gözləri yol çəkirdi.

Mənim üçün ağır, acılı günlər başlandı. Tamam tənha idim, heç kəsə gərək deyildim. Ətrafda da hər şey dəyişdi, hətta çəmənliklər də əvvəlki təki deyildi, baxmayaraq ki, havalar elə qabaqkı kimi gözəl, günəşli keçirdi. Oynamağa çalışırdım, amma bir şey çıxmırdı. Onlar yaxınlıqda olanda da heç bir şey demədən yan keçirdilər. Elə bil, tamam yad idik. Axşamlar, anam məni yatağa salanda sinəsinə elə sıxırdı ki, az qalırdı nəfəsim kəsilsin.

Mən anlaya bilmirdim ki, nə dəyişib, niyə hər şey məni belə boğur. Hərdən şənlənirdik də, amma bu şənlik daha əvvəlkilərdən deyildi. Bütün evimiz, elə bil, ölüxana idi, indi burada daha heç kəs bir-biri ilə danışmırdı. Amma hərdən, mənim yaxında olduğumu görməyəndə onlar pıçıldaşırdılar. Mən başa düşə bilmirdim ki, nə etmişəm, amma nəsə çox pis bir iş gördüyümü düşünürdüm, belə olmasaydı, heç olmasa, mənim üzümə baxardılar. Mən də çalışırdım ki, özüm öz başımı qatım, onların gözünə görünüb bezdirməyim, fikir verirdim ki, belə daha yaxşıdır onlar üçün.

Anamın yanaqları sallanmışdı, heç nə yemirdi. Hər səhər gözlərindən görünürdü ki, gecə ağlayıb. Yadımdadır, mal-qara

həyətinin arxasında bir yer tapıb xırda daşlardan özümə ayrıca ev tikməyə başladım.

Nəhayət, bir dəfə anam məni yanına çağırdı. Atam da onunla idi. Mən yaxınlaşanda, əlimdən tutub, meşəyə tərəf apardı, atam isə durub dalımızca baxırdı. Məni o dəfə getdiyim həmin o cığırla apardığını görəndə ilk dəfə möhkəm qorxdum. Amma həyatım o qədər cansıxıcı idi ki, fikirləşdim onsuz da bundan pis olası deyil. Anama sıxılıb daşların, kötüklərin üstündən ehtiyatla keçərək sakitcə gedirdim ki, ona əlavə problem yaratmayım. Sifətdən o qədər arıqlamışdı ki, tanınası halı yox idi.

Mənzilbaşına çatanda, həmin evi görəndə tir-tir əsdi. Var gücümlə əlini sıxdım, istəyirdim kefini qaldıram.

Uşaqlardan və onların anasından başqa evdə bir nəfər də vardı. İri sümüklü, nəhəng qamətli bir kişi, qalın, sanki, çevrilmiş dodaqları köndələninə qırışlarla kəsik-kəsikdi, sifəti iri çopurlarla dolu idi, üzündə isə nəsə kobud, vəhşi bir ifadə vardı, baxışları ağır, gözləri qan çəkmiş – sarımtıl-qırmızı idi. Gözümü dünyaya açandan bəri heç bir bəşər övladı məni belə qorxuya salmamışdı.

Heç kəs salam vermədi. Qadın ocağın qabağında durub maşa ilə közü elə qarışdırırdı ki, qığılcım yayılırdı hər tərəfə. Kişi əvvəlcə bizə çəpəki bir nəzər saldı, sonra o da üzünü yan çevirdi.

Anam qapının ağzında ayaq saxladı, başladı nəsə yalvarmağa – bircə onu başa düşdüm ki, söhbət məndən gedirdi, amma əməlli anlaya bilmirdim ki, onlardan istəyi nə idi. Elə hey deyirdi ki, axı bunun çarəsi var, istəsəniz, kömək edə bilərsiniz.

Ona cavab verən yox idi.

Anam o qədər bədbəxt, o qədər yazıq görünürdü ki, xahişini rədd etməzdilər. Onlar isə heç üzlərini də bizə tərəf çevirmirdilər. Sanki, heç yox idik.

Anam isə elə hey danışır, danışırdı, səsi getdikcə daha yalvarışlı, daha boğuq olurdu, bir çarəsizlik vardı səsində.

Mənim ona dəhşətli dərəcədə yazığım gəlirdi, o deyirdi ki, bircə uşağım var, yazığınız gəlsin, gözləri də yaşla dolmuşdu. Lap axırda isə eləcə durub ağlayırdı – görünür, bütün yalvarışları əbəs idi deyə.

Məni isə birdən elə darıxmaq tutdu ki, bilmirdim nə edim, qaçdım lap küncə sıxılmış uşaqların yanına. Biz qorxa-qorxa bir-birimizə baxırdıq. Sonra isə divarın dibindəki skamyaya oturduq, daha ayaq üstə durmağa halımız yox idi.

Bu dəhşətli sükutun içində lap çox oturduq. Birdən kobud kişi səsi eşidib möhkəm diksindim. O durub bizim tərəfə baxırdı.

– Gedək mənimlə!

Mən tir-tir əsə-əsə ona yaxınlaşdım, o, harasa gedəndə isə, sakitcə düşdüm dalına. Anam da bizim dalımızca çıxdı. Ocağın yanındakı qadın üzünü çevirdi. “Tfu!” – deyə onun dalınca tüpürdü.

Sonra biz bir yerdə evin yaxınlığındakı ağcaqayın meşəliyinə aparan tapdanmış cığırla getməyə başladıq. Onunla yanaşı özümü pis hiss edirdim deyə, bir az aralı addımlamağa çalışırdım. Amma, hər halda, yanaşı getməyimizlə, elə bil, tanış olurduq bir-birimizlə. Sıx ağacların arasında bir bulaq vardı, yəqin, onlar suyu buradan götürürdülər, çünki yanında parç da qoyulmuşdu. O, çökəkdə göllənmiş nohurun lap yanında diz çökdü, şəffaf suyu ovucladı.

– İç! – deyə, mənə müraciətlə dilləndi.

Görünürdü ki, pis bir niyyəti yoxdur, mən də onun tapşırdığı kimi elədim, heç qorxmurdum. Adama elə gəlirdi ki, ona yaxından baxsan, lap qorxulu görünər, amma əksinə alındı, onda bayaqkı qəzəbli vəhşilikdən əsər-əlamət qalmamışdı, daha çox adi adamlara bənzəyirdi. O, dizləri üstə durmuşdu, qan çəkmiş gözlərinin ağır baxışlarını görürdüm və yadımdadır ki, fikirləşdim: görünür, o da xoşbəxt deyil. Mənə üç dəfə su verdi.

– Hə, indi düzələcəksən, – dedi. – Mənim əlimdən su içmisən, daha qorxmaya bilərsən, – və o, başımı yüngülcə sığalladı.

Elə bil, möcüzə baş vermişdi!

O qalxdı, biz geri döndük. Günəş par-par yanır, quşlar ağcaqayın ağaclarının budaqlarında cikkildəşirdilər, yarpaq, ağac qabığının iyi gəlirdi havadan, evin yanında isə anam gözləyirdi bizi və bizim əl-ələ tutub gəldiyimizi görəndə onun gözləri sevincdən par-par yandı. Məni qucaqlayıb öpdü.

– Tanrı sizə yar olsun, – deyə cəllada müraciətlə dedi, lakin o, üzünü yana çevirdi.

Biz xoşbəxtlik içində evimizə tərəf yollandıq.

– Hə, işə bax ee, – o, söhbətini bitirəndə kimsə təəccüblə dilləndi.

– Gör nələr olur dünyada.

– Doğrudan, şər qüvvələr çox qəribə olur, buna şübhə yoxdur.

– Elə bil, şərin içində mütləq bir xeyir də olur.

– Hə...

– Sən bir gücə bax! Belə çıxır ki, o, səni həm öldürə bilər, həm də ölümdən qurtara bilər.

– Hə, dəqiq deyirsən.

– Qəribə işlərdir.

– Belə şeylər eşidəndə adam ağıllanar da, yüz faiz ağıllanar.

– Mənə elə gəlir sənin anan cəlladın arvadından söyüşlərinə görə üzr istəsəydi, bəd olmazdı, yəqin.

– Mən də elə düşünürəm, amma o üzr istəmədi.

– İşə bax bir.

Onlar fikrə dalıb kirimişcə oturmuşdular. Qurtum-qurtum içib dodaqlarını silirdilər.

– Məlum məsələdir, cəllad da mərhəmətli ola bilər. Xəstələrə, biçarələrə, son həddinə çatmış adamlara əlləri həkimdən üzüləndən sonra hərdən cəlladların nicat verdiyini hamı eşidib.

– Hə. Axı onlar əzabın nə olduğunu bilirlər, bu, həqiqətdir. Məlum məsələdir ki, həyatını əlindən almamışdan əvvəl cəllad məhkumdan həmişə üzr diləyir.

– Düzdür. Axı öldürməli olduğu adama qarşı içində heç bir qərəzi olmur onun. Lap yaxşı dost kimi də ola bilərlər, özüm görmüşəm.

– Hə, düz deyir, lap dost kimi! Mən də bir dəfə görmüşəm, kötüyün yanına qucaqlaşıb gedirdilər!

– Yaxşı, görək!

– İkisi də möhkəm dəm idi, ayaq üstə zorla dururdu: onlara nə vermişdilərsə, hamısını son qurtumuna kimi vurmuşdular, ayaqları dolaşırdı. İkisi də lül-ataş idi, amma cəllad lap aşırdı. Məhkumun başını üzəndə “O-o-ho!” – deyə bir qəribə səs də çıxardı.

Hamı gülüşdü, təzədən pivəyə cumdular.

– Deməli, səni cəllad kötüyü gözləyirdi hə? Heç birimiz bilmirik başımıza nə gələcək.

– Düzdür, düz deyirsən.

– Yox ey, sən ondakı gücə bir bax, düz demirəm? Sənin danışdığın əsl möcüzədir də. Kömək etməsəydi sənə, kəllənə çoxdan əlvida demişdin.

– Hə, qardaş, görəydin onun möcüzələrini! Müqəddəslərin elədiyi nədir onun yanında!

– Yox, bununla razılaşa bilmərəm, möcüzələrin ən böyüyünü müqəddəs möminlərlə Pak Qız göstərir!

– Bir də ki günahlarımızı yuyan Məsih!

– Onlar öz yerində, ay kütbeyin, indi onlardan danışmırıq. Söhbət cəlladlardan gedir!

– Cəlladın, həqiqətən, əcaib gücü olur. Şərin böyük hökmü var, bu hamıya bəllidir.

– Güc olur, sözüm yoxdur, amma haradan gəlir bu güc? Mən deyirəm ki, iblisdən gəlir, yəqin! İnsanlar ona görə hər şeydən artıq şərə meyillidirlər, hətta Tanrı kəlamından, ilahi sirlərdən də artıq şərə uyurlar.

– Amma bax buna kömək eləyib ki...

– Hə, nə deyirsən de, amma bu kişiyə kömək eləyib də!

– Bəlkə də, nə deyim...

– Amma keşişin gücü çatmazdı buna.

– Əşi, nə keşiş, burada şər qüvvələrin əməli vardı, elə o da şərin qoynunda idi, keşiş nə edə bilərdi ki!

– Tfu, iblisin işləridir bunlar!

– Necə yəni?..

– Bəs eşitmədiniz, anası "Tanrı sənə yar olsun" deyəndə, cəllad üzünü çevirməyib?..

– Hə-ə...

– Əşşi, cəhənnəmə ki, vuraq e-e! Nədir e, oturub elə iblisin əməllərini yada salırıq!

– Düz deyir, ey, pivə verin bizə! Pivə, yenə pivə gətir! Fərlisini ver!

– Ən yaxşı çəlləkdən olsun! Amma oğru barmağı asılandan olmasın ha... Bura bax, düzdür ki, sizin çəlləklərin hansınınsa içində oğru barmağı var?

Xidmətçi qızın rəngi ağardı, başını yelləyib nəsə mızıldandı.

– Ay qız, inad eləmə, bütün şəhər bundan danışır! Əşi, ver gəlsin e, lap həmin çəlləkdəkindən ver! Eyni zibildir, təki babat tutumu olsun!.. O cəllad necə deyirmiş – "O-o-ho!"

– Sən çox hökküldəmə! Bir də gördün, kəllən əlindən getdi, içmək istəyəcəksən – amma pivəni tökməyə yer tapmayacaqsan!

– Hə, nə qədər imkan var, istifadə eləmək lazımdır!

– Bu pivəni şeytanın özü bişirib, dadından bəllidir!

– Bura iblis yuvasıdır da, nə bilmişdin bəs, amma, əvəzində, bundan gözəl pivə heç yerdə görməzsən!

İçdilər. Dirsəklərini geniş aralayıb stolun üstünə çökdülər.

– Deyirəm, yəqin, sabah tezdən edam olacaq, hə? – qoca çəkməçi soruşdu.

– Onu kim bilir ki...

– Elə də ola bilər...

– Deyirəm, yəni cəllad dincəlir də. Özü də qırmızı geyimindədir, tamam hazır vəziyyətdə.

– Hə... Oxşayır...

– Amma nəsə heç eşitməmişik ki, kimisə edam etməyə hazırlaşırlar, hə?

– Elədir...

– Nə olar. Yəqin, təbillər çalınanda eşidərik.

– Ay baba, yaxşısı budur, vur getsin! Boş-boşuna guruldama.

Onlar bir də vurdular.

İçəri bir oğlanla iki qadın girdi.

– Ora bax, fahişələr də təşrif gətirdilər!

– Əşi, cəllad haradadırsa, başının dəstəsi də oradadır.

– Ay oğlan, şamı üfür, alovlansın, bir sənin gözəlçələrinə baxaq.

– Hə, babat şeylərdir, fahişəxanadandırlar, görəsən?

– Özün görmürsən məgər?

– Yaxşı, cəlladın yanında niyə oturmursunuz? Nədir, ürək eləmirsiz?

– Hə-ə... Siz, deyəsən, onunla yaxından tanış olmağa macal tapmısınız.

– Ehey! Bakirə qızlar, dar ağacının yanına getmişdiniz? Orada birini asıblar, dünən gecə lüm-lüt soyundurublar əynindəkiləri, lüt-madərzad sallanıb indi, Tanrının yaratdığı bütün möcüzələri də sallana qalıb. Yoxsa daha maraqlı deyil sizin üçün? Özünüz bilin, amma arvadlar səhər tezdən gəlirlər, elə bil, ibadətə tələsirlər, Tanrının yaratdığına baxmaq üçün. Bilirsiz niyə, ona görə ki, asılanların şey-şüyü yaman cəlbedici olur. Ağız-burnunuzu nə büzürsüz? Bura baxın ha, usta dərsinizi verər!

– O, sizi hələ qamçılamayıb lənət sütununun yanında?

– Əşi, görməmiş deyillər, onlar falaqqaya öyrəncəlidilər, onlar üçün adi əlcəkdir də.

– Eybi yox, bir balaca hövsələ eləyin, onun qamçılarından başınızı götürüb şəhərdən qaçacaqsınız, yoxsa dalınızı dağıdacaq, gözəlliyiniz itəcək lap.

Qadınlardan biri onlara sarı çöndü:

– Qəssab Yokum, sən dilini saxlasan, yaxşıdır! Yaxşısı budur, get evə, arvadının yanına, yoxsa o da elə bizim kimi fahişəlik eləyir, axşam qaça-qaça gəlmişdi yanımıza, deyirdi ki, məni də qəbul eləyin, yoxsa evdə könlümü xoş eləyə bilmirlər!

– Siz qeybət eləməyin. Məni özümdən çıxarmaq istəyirsinizsə, bunun xeyri yoxdur, sizdən yaxşı bilirəm onun fahişəliyini! Axırda dincələcək, dərisini soyanda!

– Elə bilirsən köməyi olar?

– Köməyi olmaz, öldürərəm!

– Hə, bax, onda ağ günə çıxar, istəsə lap iblisin özüylə sevişər!

O, qadının cavabında yenə nəsə donquldandı, qalanları da gülüşdülər.

– Arvadların çarəsini heç yerdə tapan yoxdur, nə o dünyada, nə bu dünyada.

– Yox, elə demə, onları da bizim kimi odda yandırır, suda boğur, edam edirlər.

– Düzdür, cəllad onlara da rəhm eləmir.

– Hə.

– Mən fikir vermişəm, o qədər cəllad var ki, qadınları edam eləməyə həvəslidir.

– Bir gəl olmasın, aydın məsələdir!

– Əlbəttə, kişilərin işinə baxmaqdan daha xoşagələndir.

– Hə, elədir, yəqin.

– Yox, həvəslidirlər demək düzgün olmaz. Həmişə belə olmur. Mən özüm bir dəfə görmüşəm, birisi arvadı öldürə bilmirdi.

– Ola bilməz...

– Gerçək sözümdür, heç cür icra eləyə bilmirdi hökmü, çünki vurulmuşdu ona, elə kötüyün yanındaca vurulmuşdu.

– Yaxşı görək...

– İşə bax e!

– Hamı başa düşdü ki, vurulub bədbəxt. Dayanıb baxırdı, baltanı qaldırmağa əli gəlmirdi, heç qaldırmadı da!

O, həqiqətən, gözəl qadın idi, indiki kimi yadımdadır, uzun, qara saçları vardı, gözləri isə – gözləri lap dəhşət gözəl idi, yazıq-yazıq baxırdı, möhkəm də qorxmuşdu, lap heyvan gözü kimi nəmli idi, üzü isə indiyə kimi gözlərimin qabağındadır, o dərəcədə qeyri-adi gözəllik vardı onda. Onu heç kəs tanımırdı, gəlmə idi, bizim yerlərdə təzəcə yuva qurmuşdu, cəllad da ilk dəfə idi ki, onu görürdü. Qadına vurulmasında qəribə bir şey yox idi. Ağappaq olmuşdu, əlləri əsirdi yazığın. “Özümlə bacarmıram” – deyirdi. Yaxında dayananların hamısı eşitdi bunu.

– Yox əşi... İşə bax ha!

– Hə, maraqlı idi onlara tamaşa etmək, Tanrı haqqı, yaman maraqlı idi. Camaat isə onun gözlərindəki məhəbbəti gördü, lap yumşaldılar, başladılar pıçıldaşmağa, öz aralarında danışmağa – hiss olunurdu ki, qadına yazıqları gəlir.

– Məlum məsələdir də...

– Hə. Bir az duruxdu, sonra baltanı bir kənara qoyub əlini uzatdı ona. Onun da gözlərindən başladı yaş axmağa, belə çıxırdı ki, qadın da məhəbbətin cazibəsinə düşmüşdü və burda qəribə bir şey də yox idi, gör cəllad necə bir addım atmışdı – özü də düz kötüyün yanında, özü də cəllad təyin olunduğu bir edam icra olunanda.

– Hə.

– Bəs axırı necə oldu?

– Deməli, belə oldu da, üzünü hakimə çevirib dedi ki, həmin bu qadını özünə arvad eləmək istəyir – özünüz bilirsiniz də, bu cür vəziyyətlərdə onlar məhkumu əfv eləyə bilərlər, əgər meyilləri olsa. Bu yerdə camaat da başladı səs-küyə ki, onu bağışlamaq lazımdır. Hamını təsirləndirmişdi bu mənzərə: həm camaatı, həm hakimi, çünki onlara cəllad kötüyünün yanında baş qaldırmış məhəbbətin ecazkar gücü əyan olmuşdu, o qədər adamın gözlərindən yaş gəlirdi ki... Nə isə, elə də etdilər. Keşiş isə onların kəbinini kəsdi, oldular ər-arvad.

Bircə alnına damğa basdılar, qanun necə tələb edirsə, axı dar ağacından qurtulması öz izini qoymalı idi. Amma həyatını xilas edə bilmişdi.

– Hadisəyə bax ha.

– Hə, yer üzündə daha nələr olmur ki.

– Sonra necə oldu onların axırı? Yəni, həqiqətən, öz xoşbəxtliklərini tapmışdılar?

– Hə, cəlladın evində xoşbəxt yaşamağa başladılar, bütün qonşuları deyirdi bunu. Deyirdilər ki, cəlladı heç vaxt belə görməyiblər, məhəbbət onu tamam başqa adama döndərmişdi, əvvəllər heç belə deyilmiş, onların evində indi həyat dəyişmişdi, qabaqlar cürbəcür yaramazlar gələrmiş bu evə. Onlarla tez-tez rastlaşırdım, onda qadın hələ hamilə idi, zahirən də bir-birini sevən adamlara oxşayırdılar, başındakı həmin o cəllad papağına baxmayaraq, gözəl idi bu qadın, siz axı bilirsiniz, cəllad arvadları da elə papaq qoymalıdılar, bir də, təbii ki, alnındakı damğası qorxulu idi, qalan şeyləri lap adi adamlarınkı kimi idi.

Onun doğmaq zamanı yetişəndə hamı kimi mamaça çağırmaq istəyirmişlər, bütün adamlar kimi, uşaqlarının olacağına yaman sevinirmişlər, camaat belə danışırdı. Amma görün nələr oldu, bizim evlə üzbəüz yaşayan bir qarı vardı, gəldilər onun yanına, istəyirdilər ki, doğuş vaxtı o kömək eləsin, qorxurdular bədbəxt hadisə ola, qarı da onlara rədd cavabı verdi, heç başqaları da razılaşmadılar, çünki necə olsa, şər qüvvələrlə oturub-dururdular.

– Nə deyirsən de, belə bir işdə yardımdan imtina eləmək xaçpərəstə yaraşan hərəkət deyil.

– Axı o, edama məhkum adam idi, bir də gördün, mamaça ondan sonra bir təmiz qadının doğuşunu qəbul edəsi oldu!

– Əlbəttə, ola bilər.

– Hə də. Odur ki, o doğanda təkcə qalası oldu, heç əri də çata bilməmişdi, vaxtından qabaq başlamışdı doğuş, özü də elə yaxşı keçməmişdi, heç kəs bilmir ki, hadisə lap dəqiqliyi

ilə necə olmuşdu, amma qadın məhkəmədə etiraf eləmişdi ki, uşağını özü boğub.

– Sən nə danışırsan?.. Boğub?

– Necə olub axı bu?

– Qadın, guya, demişdi ki, uşağı doğandan sonra özünə gəlib götürmüşdü onu əlinə, üzünün qanını silmək istəyirmiş, qəflətən alnında bir xal görüb – lap dar ağacına oxşayan bir xal. Axı qadının alnına damğanı boynuna uşaq düşəndə basmışdılar, qadın da bunu görən kimi, ürəyi sancır. İstəmirmiş ki, uşağı bu dünyada yaşasın, axı onun alnına qabaqcadan dar ağacı yazılmışdı, qadın isə onu yaman sevirmiş, guya. O, çox şey danışırmış, amma deyirlər ki, sözləri inandırıcı deyilmiş, görünür, elə onun da alnına dünyada şər işlər görəcəyi qabaqcadan yazılıbmış.

– Yaman yazığım gəldi ona.

– Hə, necə olsa, yazıqdır.

– Hökm də belə çıxarıldı ki, onu diri-diri basdırsınlar: axı gör nə boyda günah eləmişdi, indi də öz günahlarını torpaqla örtməliydi. Mən onda da getdim baxmağa, asan deyildi onun əri üçün, axı, həqiqətən, sevirdi, çox sevirdi onu, düzdür, axır-axırda öz alçaq hərəkəti ilə yaman qırmışdı ərinin qəlbini. O, kürəklə qadının gözəl bədəninə torpaq tökə-tökə, onun gözdən necə itməsinə baxırdı, üzünə çatanda isə nə qədər bacardısa, ləngitdi. Qadın isə bütün bu müddət ərzində bir kəlmə də dinmədi, mənə elə gəlir qabaqcadan vidalaşmışdılar, eləcə uzanıb sevgi dolu gözləri ilə ərinə baxırdı. Axırda, təbii ki, üzünə də torpaq tökməli oldu, amma bunu eləyəndə, üzünü yana çevirmişdi, baxa bilmirdi. Hə, yaman çətin idi ona. Amma nə edə bilərdi ki, hökm çıxarılmışdı.

Deyirdilər, guya, gecə gəlibmiş ki, qazıb çıxarsın qadını, fikirləşirmiş ki, bəlkə, sağ qalıb, amma, boş söhbətlər idi, axı yaxşı bilirdi ki, bu, qeyri-mümkün bir şeydir.

Yeri gəlmişkən, o, tezliklə bizim yerləri tərk elədi, heç kəs bilmir ki, sonralar başına nə gəldi onun.

– İşə bax ha. Hə, adamın hər ikisinə yazığı gəlir.

– Amma onlar axı özləri, gərək başa düşəydilər ki, yaxşı bir şey alınmayacaq, onların şər işləri uşaqlarına da keçəcək.

– Əlbəttə, eşitmədin, alnında dar ağacı işarəsi varmış!

– Hə, görünür, belə şeylər adamdan asanlıqla əl çəkmir.

– Hə də.

– Lap dəridən-qabıqdan çıxsan belə, əl çəkməz. Dəqiq belədir.

– Deməli, axırda ona cəlladlığı özü eləyəsi oldu.

– Hə, elədir, məcbur oldu.

– Deməli, alın yazısı imiş də.

Qapının dalından qışqırıqlar eşidildi, traktirə hay-küylə birisi təpildi, qaranlıqda dalısınca gələn kiməsə qışqırıb, biləkdən yox qoluyla hədələdi:

– Yalan deyirsən, kəndçisifət! Xalları özün sayırdın, düz çıxmadı?

– Qurğuşun vardı sənin zərlərində, fırıldaqçı!

– Şeytan oturmuşdu zərin içində! Qurğuşun vardı? Yuka, dillən də!

– Yox, belə bir şey ola bilməz, – deyə əlsizin dalınca dabanbasma gələn oğlan cavab verdi.

– Bu şeytan balası da fırıldaqçılığa öyrənib, odur ki, sənin tərəfini vermir, sən özün kart da tuta bilmirsən, şikəst iblis! Kartların da nişanəlı idi, yoxsa məni belə lütləyə bilməzdiniz, məlum işdir!

– Əşi, kəs səsini, avara! – O oturub, çəp-çəp ətrafına göz gəzdirdi. Cəlladı görəndə sifəti əsdi. Arıq, batıq yanaqlı sifəti vardı, gözləri isə par-par yanırdı. Oğlan skamyada ona lap yaxın əyləşdi.

– O, deyəsən, Asılmış Lasse təşrif gətirib bizə!

– Lasse, sən də cəlladla yanaşı oturmaqdan qorxdun?

– Əşi, boş-boş çərənləmə!

O, ləngərli yerişlə keçib hamıdan o tərəfdə, stolun axırında oturdu. Oğlan da onun dalınca.

– Bax sənin yerin oradır, fırıldaqçı! – deyə kəndli onun dalınca qışqırdı. – Dayan bir, keçərsən onun əlinə!

– Hə, qardaşım Lasse, indi növbədə dar ağacıdır. Səndə daha kəsiləsi bir şey qalmayıb.

– Sarsaq-sarsaq danışırsan da, amma kəllən boşdur. Mənə dar ağacı kar eləməz, aydındır?!

– Əşi, dar ağacı nədir ki...

– Yəni o da bacarmaz səninlə?..

Çiyinlərini çəkib, stola yaxınlaşdı.

– Pivə! – deyə qulluqçuya qışqırdı, o isə cəld pivə süzdü. Oğlan parçı onun ağzına yaxınlaşdırdı, o isə karlı bir qurtum aldı. Sonra nəfəsini dərdi, oğlan da bir az gözləyib parçı bir də yaxınlaşdırdı. – Deyirsən, fırıldaq edirəm?.. – deyərək, üzünü yavaş-yavaş qapının lap ağzında oturmuş kəndliyə çevirdi.

– Deyirəm. Yoxsa fırıldaq eləmirsən?!

– Sənin qəpik-quruşunu ələ keçirmək üçün fırıldaq eləmək çox elə lazımımdır! Onlar özü mənim cibimə axır, sənin kirli şalvarının iyindən qaçır pulların!

– Yum murdar ağzını!

Bundan kəsərli söyüş tapa bilməyən kəndliyə hamı güldü.

– Onun nişanəli kart, qurğuşunlu zər nəyinə gərəkdir, Lasse istəsə, onlarsız da işini aşırar.

– Bundan da təsirli bicliklər bilir, sən hara, o hara, kəndli babasan!

– Əşi, bütün fırıldaqçıların bildiyini bilir də. Heç başa düşə bilmirəm səni, Lasse, bu qədər oyun gəlib başına, yenə azlıq edir.

– Əşi, boş şeydir, ya qismət! Lasse itib-batan deyil!

– Hə, deyəsən elədir...

– Yadımdadır, onlar mənim barmaqlarımı kəsdilər – onda bunun boyda idim, – deyərək, oğlana işarə elədi – sonra barmaqlarımı kötüyə mismarladılar. Sonra getmişdim baxmağa – adamı gülmək tuturdu! Onlar mənə deyirdilər: bax odur

sənin oğru barmaqların. Mən isə ancaq hırıldayırdım, deyirdim ki, belə şeylər mənim üçün milçək vızıltısıdır! Lasse itib-batmaz! Elə dediyim kimi də oldu!

O, bir neçə dəfə göz vurdu, üzü səyridi. Yukanı kəsik qoluyla dümsükləyib yenə pivə istədi. O da tez parçı uzatdı. Oğlanın diribaş sifəti vardı, gözləri isə otərəf-butərəfi eşməyində idi. Ətrafında baş verən heç nə gözlərindən yayınmırdı.

– Amma onlar əllərinə də girişdilər, bu, yəqin, barmaq kimi asan başa gəlməz!

– Əşi, boş şeylərdir hamısı...

Qolu ilə ağzını sildi.

Stolun o biri başında oturmuş qoca çəkməçi irəli əyildi.

– Onda mandraqora kökü var, eşitmisiniz? – deyə həyəcandan fısıldayaraq pıçıldadı.

– Yox, məni qorxuda bilməzlər, – Lasse ucadan dedi. – Heç nə vecimə deyil, başa düşdün? Bu de, bu balaca da yanımdadır. Başı saat kimi işləyir.

– Hə, görünür!

Tərifdən xoşhal olmuş oğlan gözlərini döydü.

– Oğlun deyil ki, Lasse?

– Nə bilim, əşi! Elə ona oxşayır e-e, mənə çəkib, deyəsən.

– Hə, belə de, sən özün də bilmirsən heç.

– Yox. Gəzəyən Hannanın oğludur, evdən qaçıb, yaman döyürmüş uşağı, deyir, yemək də vermirmiş, odur ki, yapışıb məndən, müəyyən şeylər öyrənəcək, sonra karına gələr həyatda. Amma ay diribaşdır ha, beləsini çıraqla axtarasan, gərək. Hə, Yuka, mən sənin atanam, yoxsa yox?

– Mənim üçün nə fərqi var, – deyə Yuka qımışdı.

– Hə, düzü budur. Əşi, nə fərqi var axı! Mənim yanımda günü xoş keçir, vəssalam. Düzdür, Yuka?

– Hə! – deyə oğlan dişlərini ağartdı.

– Amma sən yalnız bu burnufırtıqlı ilə heç cür keçinə bilməzsən. Ömründə inanmaram.

– Doğrudan, deyirsən?..

– Hə, əlbəttə!

– Yox, qardaşım, sən hərdən bəzi qüvvələri köməyə çağırırsan, məlum məsələdir.

– Hansı qüvvələri, bir dillən görüm?

– Mən nə bilim hansılarını!

– Hə, bilmirsən! Bəs onda niyə boşboğazlıq edirsən?

Bir anlıq hamı susdu. Parçlarını oynadırdılar əllərində.

– Deməli, səndə ecazkar bir kök olması yalandır?

– Boş sözdür...

– Düz deyirsən. Sən bu vəziyyətdə kökü necə çəkib çıxararsan axı?!

Parıldayan gözləri alaqaranlıqda işıldadı, arıq sifəti isə elə bil, bir az da büzüşdü.

– Görünməmiş bir şeydir məgər, Lasse nəyin desən öhdəsindən gələr, ehtiyac yaransa!

– Hə də.

– Yox, dar ağacının altından bu kökü çıxarmaq asan iş deyil. Bunun heç əli də yoxdur axı.

– Hə. Bir də ki bu dəqiq məlumdur: qışqırıq eşitdinsə – bitdi, deməli, son saatın yetişib.

Onlar çəp-çəp Lasseyə baxdılar. O, iti hərəkətlə başını qaldırıb əsdi, elə bil.

– Sizə bir söz deyim, onda bu kök də var, hələ başqa şeylər də! Mən belə hesab edirəm ki, sən çoxdan iblisə satılmısan, hə, Lasse?

– Məlum məsələdir, necə olmalıdır ki!

– Görürsünüz, mən də elə bunu deyirəm də!

– Aha, eşitdiniz?

– Bəs şər ruhlar necə, gecələr sənə baş çəkir?

– Yo-ox... İblisin özüylə dostluq edənə şər qüvvələr dəyməz. O, körpə kimi şirin yuxuda olar, rahat yatar.

– Bunu gopladın da, Lasse!

– Hə, qardaşım! Bu lap gop oldu! Əgər belə olmasaydı, şikəst olub ömrün boyu əziyyət çəkməzdin ki!

– Usta əməllicə işləyib üstündə, səni öz ovu sayıb, iblisinki yox!

Onlar öz zarafatlarına qəhqəhə çəkərək gülürdülər. Onlara tərəf baxan gözlərdə isə dərin kin parlayırdı.

– Mənim bunlar qətiyyən vecimə deyil, heç tüpürmək də istəmirəm onlara, anladınız?!

– Pah, tüpürmək istəmirmiş!

– Onlar səninlə adi cəllad qəniməti kimi davranıblar, Tanrı haqqı!

– Nə olsun ki! Onsuz da Asılmış Lasseni sındıra bilməzlər! – O, gözlərini qəzəblə parıldadıb qışqıra-qışqıra deyirdi bu sözləri. – Bunlara bax bir, gör könüllərindən nə keçir! Asan işdir məgər?!

– Asan deyil ki?! Başlamağına başlayıblar artıq!

– Mənim daha heç nəyimi əlimdən ala bilməzlər, ixtiyarları çatmaz! – deyə yerindən sıçrayaraq çığırdı. – Başa düşdün? Çatmaz – vəssalam! Mənə güc gəlmək insanın qüvvəsi xaricindədir, dedim axı!

– Sən nə danışırsan! Bədbəxtliyə bax!

– Onların mənə heç vaxt gücü çatmaz! Məndə olanı dünyada heç bir qüvvə əlimdən ala bilməz! Məndən də bu oğlana keçəcək, o, mənim varisimdir!

– Pah! Sənin mirasın da var ötürməyə, hə, Lasse? İşə bax ha, eşitdiniz?

– Bəs sən nə bilirdin! Var, özü də sizinkindən çox olar! Ona məndən həmin o kök də, bütün cəhənnəm də miras qalacaq!

– Deməli, o kök səndədir hə?!

– Hə! Ruhunu iblisə girov qoya bilərsən ki, var! Nədir, göstərim sənə!

– Yox, yox!..

– Bax buradadır, sinəmin üstündə! Baxanda lap adama oxşayır, istəyirsən onunla oğurluq elə, ya da başqa bir şey, hər nə var düz ovcunun içinə özü gəlir, hətta əlin yoxdursa belə!

Onların ağzı açıq qalmışdı. Qorxu içində baxırdılar.

– Bəs onu necə keçirmisən öz əlinə, ay biçarə? Yəni kötüyün yanından çırpışdırmısan?

– Bəs hardan olacaq! Düz dar ağacının altından, meyitləri basdırdıqları yerdən, özləri basdıran kimi aradan çıxırlar!

– Sən də ürək elədin ora gedəsən! Özü də gecə!

– Məsələ də elə burasındadır ki, ürək elədim! Bu, sənin üçün evdə yatağa uzanıb yuxudan qabaq dua eləmək deyil! Səndə o ürək haradaydı!

– Yox, yox, mən eləyə bilməzdim!..

– Elə inildəyir, elə köks ötürürdülər – dəhşət...

– Kim inildəyirdi?

– Məlum məsələdir, ölülər! Ay cumurdular ha üstümə, mən kökü axtaranda! Ay soxulurdular ha! Yaman çırpdım onları, ağlayıb ulayırdılar, dəliləri döyəndə necə ağlayırlar, bax elə! Elə ulayırdılar, elə bil, cəhənnəmin özü idi lap, elə bildim başım xarab olacaq, yaxamdan heç cür qopmurdular! “Rədd olun, lənətə gəlmişlər! – deyə qışqırırdım. – Yaxamdan əl çəkin, kabuslar! Mən ölməmişəm ki, sağam hələ, mənim karıma gələr bu kök!” Axırda birtəhər qovdum onları. Elə o dəqiqə də gördüm: düz dar ağacının altında bitirdi, onda Qəssab Petter idi, başqaları idi, qaynaşırdılar orada. Kəsik qollarımla torpağı eşdim, sonra da uzandım e-e, dişlərimlə yapışıb dartmağa başladım!

– Yox bir! Dişlərinlə?

– Hə! Dişlərimlə! Buna ürək eləməyənlər itləri məcbur eləyir torpağı eşməyə!

Baxışları qeyri-adi alovla yanırdı.

– Bir də gördüm başladı ulamağa! Elə uladı! U-u-u! Adamın qanı donurdu damarlarında! Amma mən başqaları kimi qulaqlarımı tutmaq fikrində deyildim! Arvadam məgər! Dözürdüm! Elə hey dartırdım, dartırdım kökü! Meyit iyi gəlirdi, qan, çürüntü! Və ulayırdı, yeraltı səltənətdən səslər gəlirdi! Amma mən qulaqlarımı tutmurdum! Elə hey dartırdım, dartırdım! Çünki istəyirdim mənimki olsun!

O, dəli kimi qızışmışdı. Hamı bir az geri çəkildi.

– Elə ki qopardım onu, bir gurultu qalxdı ki, dörd bir tərəf tir-tir titrədi, əsim-əsim əsdi! Dibsiz bir uçurum açıldı, meyitlər, qan çıxdı üzə! Zülmətin bağrı yarıldı, alov çıxdı yer üzünə! Dəhşət, göz yaşları! Hər şey alovlar içində idi! Elə bil, cəhənnəm yer üzünə qalxmışdı! Mən isə qışqırırdım: "O artıq mənimdir! Mənimdir!"

Ayaq üstə durub kəsilmiş qollarını başının üstündə oynadırdı, dəhşətli, yaralı kabus idi, sanki, dəli baxışları bir də parladı, səsi isə bütün insani ahəngini itirmişdi.

– Mənim mirasım var, var! Mirasım var mənim! Ruhunuzu iblisə girov verin ki, var!

Cəllad daş kimi hərəkətsiz oturmuşdu, onun ağır, zamanlardan keçən baxışları qaranlığa zillənmişdi.

Camaat artmışdı, səs-küy qalxmışdı, darısqallıq idi, alaqaranlıqda səslər, gülüş, pivə parçlarının taqqıltısı eşidilirdi, tavanın altındakı şüşə şar aramla fırlanaraq tutqun, göy-bənövşəyi və yaşıl işıqlar səpirdi ətrafa, rəqs edən cütlər salonun ortalarında döşəmədə sürüşür və musiqinin zəif sədası eşidilirdi.

Rəqs masaların arasındakı keçidlərə də axmışdı, açıq rəngli paltarlar geymiş qadınlar gözləri yarıyumulu kişilərdən sallaşmışdılar, musiqi caz ritmləri vururdu.

Dolu bədənli bir gözəlçə yanındakı kavalerinin çiyninin üstündən geriyə boylanaraq süzüb keçdi.

– Bax cəllad da buradadır, – o dedi. – Ay, nə maraqlıdır!

İşıqlar səs-küylü qarışıqlığın üzərində sürüşür, masalar solğun-yaşılımtıl, ölgün işıq verirdi, tərləmiş ofisiantlar insan səslərinin içində vurnuxur, şampan şərablarının mantar tıxacları yaylım atəşləri açırdı.

Qarnının yekəliyindən irəli çıxan yaxalıq taxmış gonbul bir cənab yaxınlaşaraq, sayğı ilə baş əydi.

– Cəlladı aramızda görmək bizim üçün böyük şərəfdir, – deyə qulluğa hazır adam kimi əllərini əllərinə sürtərək dilləndi və arxasında tikanlı gözləri işaran eynəyini düzəltdi.

Rəqs başa çatdı və cütlüklər salona yayılıb təbəssümlə masalarının arxasına döndülər.

– Xəbəriniz var ki, cəllad buradadır?

– Yox bir!

– Hə, odur e, əyləşib.

– Qiyamətdir ki!

Oğlan sifətli bir cavan ona yaxınlaşdı, dabanlarını şaqqıltı ilə bir-birinə vurub sağ əlini yuxarı atdı.

– Hayl! – çığıraraq, bir anlıq yerində dondu. Sonra geriyə dönüb bir də dabanlarını taqqıldatdı və öz yerinə qayıtdı.

Hamı ucadan danışır, gülürdü, cındırından cin ürkən birisi zala girib, masadan masaya yanaşır, nəsə pıçıldayaraq arıq əlini açırdı, nəhayət, onu çölə atdılar.

Küçə avaraları oturub badələrindəkini içirdilər.

– Əladır, gör necə şıq görünür qırmızı kostyumdakı!

– Hə, qiyamətdir!

– Görkəmi də vəhşi kimidir – kişi belə olar!

– Görkəmindən, məncə, əsl pişikdir.

– Sən nə danışırsan, başın xarab olub, deyəsən! Gör necə kişidir.

– Bəs niyə əlini alnından çəkmir?

– Mən nə bilim.

– Amma şıq görünür, ha.

– Hə!

– Adam cəlladla ola, necədir, görəsən?

– Oh, ləzzətdən barmaqlarını yalayarsan, heç nigaran qalma.

Musiqi yenidən səsləndi, amma bu dəfə nisgilli – başqa orkestr çalırdı. Cütlər zalda gəzişən göy işığın içində süzürdülər, nazik qollar çiyinlərdən asılır, yarıyuxulu gözlər çəpləşirdi.

– Məgər sabah nəsə gözlənilir?

– Bilmirəm, amma, ümumiyyətlə, onların öldürmək üçün nəzərdə tutduqları nə qədər adamları var. Mənə qalsa, qoy buyursunlar.

– Hə, heç ziyan gətirməz bu. Yer üzündə kifayət qədər adam var, özü də əsl, mükəmməl adam. Hər halda, bir qayda olaraq, yaşamağa yaxşılar qalır, buna xüsusi diqqət eləyirlər.

– Əlbəttə.

Hərbçi duruşlu yaşlı cənab dodaqlarını çeynəyə-çeynəyə inamlı, sərt addımlarla cəlladın masasının yanından keçdi.

– Əladır ki, qayda-qanun bərqərar olacaq, cənab cəllad! Xalq kələfin ucunu itirib, ona yerini göstərmək vaxtıdır artıq!

– Yox, bu nədir belə! Biz sizə turş çaxır sifariş etmişdik, siz isə kəmşirin gətirirsiniz! Biabırçılıqdır!

– O, bağışlayın, xahiş edirəm...

– Hə də, daha nə deyəsiniz ki. Belə xidmət olar! Gör nə vaxtdan gözləyirik.

– Şüşəni də açıb artıq!

– Yox, dəyişməli olacaqsınız. Biz turş şərabdan başqa heç nə içmirik.

Dolu əndamlı şəhərli qadın ləngər vura-vura tualetdən gəlirdi; cəlladı görən kimi əllərini yana açdı:

– Yox, siz bir baxın! Cəllad da buradadır! Mən mütləq Herbertə bu barədə deməliyəm!

Yaxınlaşıb əlini ərklə cəlladın çiyninə qoydu.

– Mənim oğlum, yəqin ki, sizinlə tanış olanda dəhşət sevinəcək. Çox gözəl oğlandır, qan-qadadan ötrü lap ürəyi gedir.

O, başını qaldırıb özününküləri tapmaq üçün ana təbəssümü ilə boylandı.

Musiqi nisgilli səslənir, döşəmə üstündə süzən oynaq qadın bədənlərinə sığal çəkirdi, üz-gözü qapqara balaca bir oğlan sivişərək zala keçdi, yaxasını açdı, altdan əynində heç nə olmadığını müştərilərə göstərməyə başladı, ta ki ofisiantlar onu tutub çölə atana kimi.

– Əksinə, mənim əzizim! Zor bəşəriyyətin yalnız fiziki deyil, həm də mənəvi gücünün təzahürüdür! Bu bizim sayəmizdə sübuta yetirilmiş bir faktdır. Başqa cür düşünənləri isə məhz zor tətbiq etməklə fikrindən daşındıracağıq, belə

etsək, şəksiz ki, onlar da bizə inanacaqlar, bəlkə, siz fərqli düşünürsünüz?

– Siz nə danışırsınız, əlbəttə.

– Bəli! Biz də elə buna ümid edirik.

– Beləliklə, biz qəti bir tələb irəli sürəcəyik: başqa cür düşünənlər axtalanmaya məruz qalmalıdırlar! Biz əgər öz ideyalarımızın qələbəsini möhkəmləndirmək istəyiriksə, bu adi ehtiyacın diktəsidir! Siz, yəqin ki, bu yoluxucu azarın gələcək nəsillərə ötürülməsinə şərait yaratmağımızı bizdən tələb etməzsiniz. Yox, cənab! Biz öz məsuliyyətimizi dərk edirik!

– Bəli, əlbəttə.

– Əzizim, deyəsən, siz hələ də keçmişin adətkərdə olduğunuz anlayışlarının əsirisiniz, gülməlidir lap! Başa düşün, bizim dünyagörüşümüzdən savayı, başqa heç bir dünyagörüşü bir daha mövcud olmayacaq! Buna son qoyulub, başa düşürsünüz, həmişəlik son qoyulub!

– Bəs belə imiş! İndi anladım sizi. Əlbəttə! Təbii!

– Düz deyilmi, elə ki, adət etdiyiniz təfəkkür tərzindən imtina edirsiniz, bizim bütün problemlərə yeni baxışımızı dərk etmək mümkün olur. Yalnız əvvəl bir az çətin olur. Amma mahiyyətcə burda çətin bir şey yoxdur.

– Əlbəttə, elədir.

– Siz bizim tətbiq etdiyimiz üsulun – tabe olmaq istəməyənlərin döyülməsində iştirak etməmisiniz? Bax bütün mümkün mənzərələrin ən ilhamvericisi, həqiqətən, budur, sizi inandırıram. Adamda elə təəssürat yaranır ki, sanki, bəşəriyyətin yeni, daha yüksək həyat üçün tərbiyəsində, onun təkmilləşdirilməsində iştirak edirsən.

– Ah, həqiqətən, böyük məmnuniyyətlə tamaşa edərdim buna!

– Hərdən elə olub ki, biz vaxtımızı əsirgəməyəndə səksən yaşında kişiləri belə yolundan döndərə bilmişik.

– İnanılmazdır. Xüsusilə də yada salanda ki, əsl ideyalar insanlar arasında, ümumiyyətlə, necə çətinliklə yayılır.

– Bəli! Sizi inandırıram ki, biz, həqiqətən, müstəsna uğurlar qazanırıq.

– Elədir.

– Lakin biz həm də gələcək nəsillər qarşısında məsuliyyətimizi dərk edirik, başa düşürsünüz? Biz bilirik ki, bir dəqiqəmizi belə itirə bilmərik! İndi insanlar düzgün düşünməyə başlasalar, deməli, sonralar da səhv düşünməyəcəklər. Biz unutmamalıyıq ki, əzəmətli bir dövrdə yaşayırıq! Elə bir zamanədir ki, bəşəriyyət üçün, yer üzündə həyatın gələcək inkişafı üçün həlledici əhəmiyyət kəsb edir.

– Əlbəttə, elədir.

– Və biz bilirik ki, gələcəyimiz üçün cavabdehlik daşıyırıq.

– Elədir.

– Siniflər! Daha cəmiyyətdə heç bir sinif yoxdur! Baş verənlərin əzəməti və əhəmiyyəti də məhz bundadır! Yalnız bizim kimi düşünən insanlar və bəlli sayda başqaları var ki, onlara da bizim kimi düşünməyi öyrətmək üçün həbsxanada saxlayırlar. Onların arasında sağ qalanlar, şəksiz ki, bunu öyrənəcəklər.

– Bəli.

– Siz özünüz görürsünüz, məsələn, elə burada şampan, ya da əksəriyyət kimi sadəcə pivə içirlər, bürgerlər də, fəhlələr də, daha varlı insanlar da – hamı bir-birinə qarışıb, hamı eynidir, bərabərdir. Hamı da eyni cür düşünür – bizim kimi! İçəriyə salınmayanların hamısı bizim kimi düşünür!

– Aha, elədir.

– Nəhayət ki, sizin gözləriniz önündə vahid, yekdil xalqın görünməmiş mənzərəsi canlanır! Yeri gəlmişkən, çox tezliklə yolunu azanlar da bu mənzərəyə qoşulacaqlar, buna heç bir şübhə ola bilməz. Müqavimət göstərənləri yerində oturda biləcəyik! Öz həbsxanalarının ətrafında səf çəkən, oradan daha bir islah olunmuşun çağırışını eşitmək ümidiylə gözləyən xalq!

– Heyranedicidir bu! Ruh yüksəkliyinin miqyasına bax!

– Hə, dünya hələ belə bir şey görməyib! Bu, ümumi dua mərasimidir, sanki, bir çoxları "farağat" komandasında duraraq,

dönənlərin iniltisini gözləyirlər, onlar baxışlarından gizlənən həqiqətlərə, öz irqlərinin üzərində baş verən mübhəm sirlərə ehtiram bəsləyirlər. Bu, həqiqətən, patetik bir mənzərədir. Bunu ancaq bizdə təsəvvür etmək olar. Biz yer üzündə heç bir başqa xalqa bənzəmirik! Bir zərrə də oxşamırıq heç kəsə!

– Düzdür.

– Bəli, bizim öz Tanrımız olmalıdır, özü də lap təcili. Başqa Tanrıya, natamam irqlərin sitayiş etdiyi Tanrıya iman gətirməsini bizim xalqdan tələb etmək olmaz. Xalqımız çox mömindir, lakin o, öz Tanrısının olmasını arzulayır! Ümumi Tanrı barədə təsəvvürlər bizim dünyagörüşü sisteminə açıq saymazlıqdan savayı başqa bir şey deyildir və bütün qalan cinayətlər üçün nəzərdə tutulan tədbirlərlə cəzalandırılmalıdır.

Zalın alaqaranlığında bir şübhəli subyekt dolaşır, üzündəki sırtıq ifadə ilə sədəqə istəyir, heç bir şey verməyəndə, stolları kobud şəkildə itələyərək badələrdəki içkiləri masanın üstünə dağıdır.

Uzaq küncdəki masa arxasında bir kampaniya oturub.

– Bu nə deməkdir! Biz pivə ilə sosiska sifariş etmişik, siz isə şampan gətirirsiniz. Biabırçılıqdır, lənət şeytana! Elə bilirsiniz, biz də bu piyli donuzlar kimi milyonçuyuq?

– Üzr istəyirəm, mən elə bildim, yüksək təbəqədən olan cənablar, yəqin...

– Tfu, ağzını yaxala! Gələn dəfə gözlərini açıb yaxşı baxarsan, yoxsa qulağının dibindən elə qoyarlar, daha ayaq üstə yuxulamazsan!

İçəri ayaq üstə dura bilməyən bir əsgər təpildi, cəlladın yanında oturub, düdüləməyə başladı:

– Nə sarsaq görkəmin var!.. Sən niyə yürüş geyimində deyilsən, hə? Buna baxın bir!..

– Ss-s... – yaxınlıqdan kimsə pıçıldadı. – Sən görmürsən ki, bu cəlladdır.

– Görürəm, əşi, niyə görmürəm! Amma baxanda adamın gülməyi tutur buna! Belə cəllad olar? Kimə lazımdır belə

cəllad! Pulemyot lazımdır, bildin! Bir də qumbara!.. Onlar olsa, bu tamam başqa məsələ, aydındır? Deyəsən, sən bu peşəyə yaramırsan, o dəqiqə görünür!

– Sarsaqlama! Yarayır, səndən də yaxşı yarayır. Oğlan, sən gəl boşboğazlıq eləmə. Siz axı bir-birinizə qohum kimisiniz, özün başa düş də.

– Mən də elə ona görə deyirəm ki, qoy pulemyotdan istifadə eləsin!.. Əla şeydir, müasir silahdır, aydındır?.. Bir göz qırpımında, bir-iki – hazırdır!.. Sənə yürüş paltarı lazımdır, başa düşdün, dostum?

– Sən qızışma, oğlan! Müharibə barədə mənim başmağımdan az bilirsən, barıt iyi dəyməyib burnuna, danışığından görürəm!

– Görməmişəm, görərəm, başa düşdün?! Ruhunu iblisə girov qoya bilərsən ki, görəcəyəm! Bax onda bilərsiniz, lənət şeytana!

– Bir gəl olmasın, sənin kimisi girişsə, qiyamət olacaq!..

– Hə, mən də, elə o biri uşaqlar da! Narahat olmayın, biz öz işimizi bilirik! Ağciyərlərdən deyilik!

– Afərin, oğlan, düz deyirsən!

– Kişi balasıdır, hərçənd ki, bu gün içdiyi pivə hələ möhkəmlənməmiş beyninə artıqlıq eləyir. Ölkəmizdə belə cavanların olması əladır! Belələrini görəndə ahıl bir şəxs necə duyğulanmasın...

– Əşi, qocalar heç... heç nə dərk eləmirsiz daha... Sənin sağlığına, cəllad! Səni alqışlayıram! İkimiz birləşsək bu dünyada bir qayda-qanun yaradarıq!.. Sən niyə içmirsən? Buna bax e, içmir şeytan balası! Nədir, nədən qüssələnmisən?

Masaların birinin arxasında elə gülüşürdülər ki, qonaqlar da, ofisiantlar da həmin səmtə boylandılar, cavan bir qadın az qalırdı gülməkdən cırıla.

– Bizə müharibə gərək olduğu aydın məsələdir! Müharibə sağlamlığa bərabər bir şeydir bizim üçün! Müharibə istəməyən xalq xəstə xalqdır!

– Düzdür, sülh südəmər çağalar, bir də xəstələr üçün yaxşıdır, bax sülh onlara lazımdır! Yetkinlik yaşına çatmış normal adama qətiyyən lazım deyil!

– Səngərlər – abırlı kişinin özünü yaxşı hiss etdiyi yeganə yer buradır. Dinclik dövründə də səngərlərdə yaşamaq lazımdır, evdə yox, ev adamı incəldir.

– Hə, müharibənin qurğuşun duşu əvəzolunmaz bir nemətdir! Normal xalq onsuz on ildən artıq keçinə bilməz. Əks təqdirdə o, məhv olmağa başlayır – əlbəttə, əgər, həqiqətən, normaldırsa.

– Elədir. Müharibəni dayandıran da satqındır!

– Düz deyirsən!

– Rədd olsun satqınlar! Rədd olsun satqınlar!

– Satqınlara ölüm!

– Hətta qələbə qazanan da satqındır. Çünki qələbə qazanmaqla öz xalqını vicdansızcasına dinc yanaşı yaşayışın mütləq qeyri-müəyyənliyinə məhkum edir. Müharibənin nə olduğu həm bəlli, həm də anlaşılandır, xalq sülh içində yaşayanda isə, o, hər tərəfdən naməlum təhlükələrə məruz qalır.

– Çox dəqiq buyurursan.

– Bəsdir, iflas gətirən qəlbiyumşaqlığın daşını birdəfəlik atmaq lazımdır! Uşaqlarımızı müharibə üçün tərbiyə etməliyik. Onlar yerimək öyrənəndə belə, bunu müharibənin ehtiyacları üçün etməlidirlər, anaları üçün yox!

– Tezliklə bu məsələlər öz həllini tapacaq. Uşaqlarla özümüz məşğul olacağıq, onları məsuliyyətsiz valideynlərin ümidinə buraxmaq olmaz.

– Məlum məsələdir.

– Bununla da, gələcəyimizi təmin etmiş olacağıq.

– Dostlar, baxıram ki, siz müharibədən danışırsınız, – deyə, az qala, bütün sifətini güllə aparmış bir şəxs dilləndi, onun üzünün ancaq aşağı hissəsi qalmışdı, ondan üstdə isə qırmızı, kələ-kötür nəsə gözə dəyirdi. O, inamsız tərzdə ayağa qalxdı.

– Bu, məni sevindirir! Ümidvaram ki, xalqımızın keçmiş döyüş meydanlarına yenə də qürurla çıxacağı günədək yaşamaq xoşbəxtliyi mənə nəsib olacaq və ümid edirəm ki, müasir elm həmin zamana kimi elə nailiyyətlərə imza atacaq ki, həmin müharibədə mən də iştirak edə biləcəyəm! Bu yaxınlarda mənə bir şey oxudular: alimlər belə hesab edirlər ki, bilavasitə ruhun köməyilə görmək mümkündür, deməli, nişan almaq da olacaq. Əgər belə olsa, məni ilk sıralarda görəcəksiniz və gözüm də iti olacaq, çünki ruhum tam sağlamdır!

– Bravo, bravo!

– Bu qiyamətdir!

– Belə insanlar yalnız əzəmətli dövrlərdə doğulurlar!

– Hə, nahaq yerə demirlər ki, müharibə insanın alnına bir nəciblik damğası vurur! Bunu çox gözəl görürük!

– Möhtəşəm!

– Xalqımız! Sən, həqiqətən, məğlubedilməzsən!

– Bəli, tamamilə aydındır ki, biz öz ideyalarımızı bütün dünyaya yaymalıyıq! Biz bunu başqaları ilə bölüşməsək, düzgün olmaz. Lakin hansısa bir xalq bizim ideyaları qəbul etmək istəməsə, onu yer üzündən silmək lazımdır.

– Təbii. Elə onun öz rifahı xatirinə. İstənilən xalq üçün yox olmaq belə bir təlimə etiqad etməməkdən yaxşıdır!

– Hə, elədir!

– Dünya bizim nəyə can atdığımızı anlayanda minnətdar olacaq.

– Bəli, bəşəriyyətin müəyyən zaman kəsiyindən sonra bütün yaratdıqlarını məhv etməsi zəruridir! Əks təqdirdə dərketmənin uşaqsayağı təmizliyi itib gedir. Dağıtmaq bəsit adətdən doğan primitiv quruculuqdan daha əhəmiyyətlidir. Böyük, möhtəşəm günlər yetişib! Dünyanı qurmaq üçün çalışqan, işlək qarışqalar həmişə tapılar, bunun üçün narahat olmağa heç dəyməz. Lakin əlinin bir hərəkəti ilə oyuncaq insan dünyasını yenidən qurmaq üçün dağıtmağa qadir cəsarətli zəkalar

nadir hallarda zühur edirlər, yalnız biz buna layiq olanda yaranırlar.

– Bəli, biz tamamilə sağlam xalqıq! Elə buna görə də açıq bəyan etməyə cəsarətimiz çatır: biz başqalarının istismar dediyi nə varsa, onu sevirik. Yalnız zəif, degenerasiyaya məruz qalmış irqlər ondan qaçır. Hər bir güclü xalq isə onun başı üzərində oynayan qamçıya sevinir və özünü, eyni zamanda, gözəl hiss edir!

– Bəli, bu, həqiqət deyilmi? Bizi ən çox qanadlandıran öz sıralarımızda gəncləri görməyimizdir. Gənclər bizim dayağımızdır! Mərd, qeyri-sentimental, müasir gənclik! Hər yerdə bizim tərəfimizə keçir onlar, güclülərin tərəfinə! Gənc qəhrəmanlar!

– Ürəyə bax ha!

– Deyəsən, kimsə nəsə dedi axı?.. Hə, deməli, qara basıb məni, yəqin.

Giriş qapısının ağzında nəsə bir həyəcan yarandı, adamlar pıçıldaşdılar, yerlərindən sıçrayaraq qalxmağa, əllərini atıb salamlamağa başladılar, bütün baxışlar eyni səmtə yönəldi. Zala bir səs-küy doldu.

– Yaşasın qatillər! Yaşasın qatillər!

Kifayət qədər yaxşı geyinmiş, suyuşirin, adi görkəmli iki cavan yuxarı millənmiş iki sıra əlin arasından keçərək, mehriban təbəssümlə başlarını sağa-sola yelləyirdi. Bütün zal ayağa durmuşdu, rəqs musiqisi susdu və daha abırlı orkestr hamının ayaq üstə dinlədiyi himni çalmağa başladı. Üç ofisiant səssizcə yeni gələnlərə yaxınlaşdı, tələsən metrdotel isə pivə parçları və qırmızı şərabla dolu qrafini hansısa qadınların üstünə aşırdı, onlar da sakitcə və səmimi tərzdə bəyan etdilər ki, heç bir narazılıqları yoxdur, metrdotel də yalnız bundan sonra yüyürərək yoluna davam etdi. Zal ağzına kimi dolu idi, kimsə durub evinə gedəsi oldu, cavan oğlanlar isə boşalmış masanın arxasında oturdular.

– Lənət sənə, kor şeytan, indi hara ayaq bassan, o dəqiqə tanıyırlar.

– Hə, elədir, lənət şeytana, – deyə ikincisi cavab verərək, ağzından siqaret tüstüsünü buraxdı, ayaqlarını masanın altında uzadıb sifarişi gözləməyə başladı. – Bu, deyəsən, artıq mənim zəhləmi tökməyə başlayır.

– Hə, demə daha, bilsəydik ki, qatil olmaq bu qədər çətindir, o balacanı, yəqin, vurmazdıq heç. Yeri gəlmişkən, o heç pis oğlan da deyildi axı.

– Hə, amma görkəmindən bəlli idi ki, bizimkilərdən deyil.

– Elədir, əlbəttə. Nə bilim nəyə oxşayırdı...

Zəncilərdən ibarət orkestr fokstrota girişmişdi, arıq bir qadın qucağında baş yaylığına bürünmüş uşağı zalda dolaşırdı, ona heç restoranın işçiləri də əhəmiyyət vermədilər deyə, az sonra çıxıb getdi.

– Bu gecə meyitləri daşımağa gələcəksən?

– Meyitləri daşımağa?

– Hə də, bəzi satqınları, yeni dünyagörüşünün düşmənlərini qəbiristandan bataqlığa daşımaq lazımdır, onların yeri bataqlıqdır.

– Hə-ə..

– Hə-ə? İstəmirsən?

– Bilmirəm. Nəsə ideya aydın deyil mənə.

– İdeya? Bizim hərəkatın ideyasıdır, dostum!

– Elədir, amma... Onlar axı biz başlayana kimi ölüblər.

– Hə, nə olsun ki?

– Məncə, bu artıq işdir.

– Nə dedin? Sən istəmirsən? Rədd edirsən?

– Rədd edirəm? Mən yalnız deyirəm ki, məncə, artıq işdir bu.

– Artıq işdir! Bəlkə, sarsaq iş sayırsan bunu?

– Yox, sarsaq yox, amma...

– Qulaq as, sən nə demək istəyirsən? Tez ol, kəsəsini söylə!

– Nə demək istəyirəm?.. Nə yapışmısan yaxamdan?

– Əmrə tabe olmaqdan boyun qaçırırsan?! Mülahizə yürüdürsən, hə?!

– Burax yaxamı, sənə deyirəm!

– Gör ürəyindən nə keçir, bu dəqiqə buraxdıq səni, gözlə!

– Buraxın məni, ay iblis balaları!

– Eşitdiniz bizə nə dedi?!

– Əclaf! İmtina edirsən!.. Satqın!

– Mən imtina etməmişəm!

– Yox, etmisən!

– Nə söz güləşdirirsiniz bu satqınla! Söhbəti qurtar!

Atəş açıldı, cansız cəsəd tappıltı ilə masanın üstünə yıxıldı.

– Yığışdırın bu leşi burdan!

– Əşi, qoyun qalsın, kimə mane olur ki.

Caz guruldamağına davam edirdi, cavan bir qız nazik boynunu həmin səmtə çevirdi.

– Orada nə olub, görəsən? – deyə soruşdu.

– Deyəsən, kimisə vurdular.

– Hə-ə.

Kiçik bir kampaniya uzaq stolun arxasında yerləşmişdi.

– Bunların hamısı sabah nə baş verəcəyindən dəm vurur, bilirsiniz sabah nə olacaq, məncə?

– Nə?

– Bu burnufırtıqlıların gözlədiyi qətiyyən olası deyil.

– Bəs nə olacaq?

– Hə-ə... – tənbəkisini kağıza bükdü, eşməsini qonşusundan alışdırdı, ağzındakı tütün qırıntılarını tüpürdü. – Axı biz də yeri gələndə tətiyi çəkə bilirik. Bir də ki Tanrı bilir onu, bəlkə, elə bəzi fəndləri bizdən öyrənib onlar – əgər bunu öyrənmək, ümumiyyətlə, lazımdırsa.

– İnanmıram, bu cür işlərə indiki zəmanədə təbii meyil var.

– Əlbəttə.

– Amma bəşəriyyəti azacıq təmizləmək heç pis olmazdı. Onun aşkar ehtiyacı var buna.

– Hə, mən gücüm çatan qədər iştiraka etiraz etmirəm.

Gənc qadın yaxınlaşıb, sakitcə cəlladın yanında əyləşdi. O, dilənçiyə oxşayırdı, lakin başındakı yaylığı açandan sonra sifəti qəribə, bol bir işıq saçdı. O, əlini ehtiyatla onun əlinin

üstünə qoydu, o da üzünü qadına sarı çevirdi – deyəsən, bu qadın ilk şəxs idi ki, bütün bu axşam ərzində onun üzünə baxırdı. Onun barəsində söhbətimiz hələ qarşıdadır.

Musiqi dəyişdi, zalın o biri başındakı orkestr klassik üslubda həzin bir tanqo çalmağa başladı. Sakit, hüzur dolu bir mühit vardı, amma bir cənaba tərs kimi tualetə çıxmaq lazım oldu. Qayıdanda gördü ki, estradanın arxasındakı stol ətrafında oturmuş zəncilər öz buterbrodlarını tələsik udurlar. Onlara yaxınlaşdı, hirsindən qıpqırmızı olub dedi:

– Donuz uşağı, siz nə cəsarət edirsiniz! Ağ adamlarla bir yerdə oturub yemək yeyirsiniz!

Onlar heyrətlə çöndülər. Ən yaxında əyləşəni stulundan qalxdı:

– Nə? Cənabınız nə demək istəyir?

– Nə demək istəyirəm! Nə cəsarətlə burada oturub yemək yeyirsən, murdar meymun?

Qaradərili yay kimi yerindən atıldı, gözləri parıldadı, amma başqa hərəkətə ürək eləmədi.

– Hello, centlmenlər! Hello! – qəzəblənmiş cənab üzünü camaata tutub çığırdı, neçə adam da irəli yüyürüb, onları dövrəyə aldı. – Siz belə bir şey görmüsünüz? Belə iş olar! Bu meymunlar bizimlə bir yerdə oturub yemək yeyirlər!

Dəhşətli qarışıqlıq düşdü.

– Həyasızlığa bax! Görünməmiş bir şeydir! Nədir, elə bilirsiniz bura meymunxanadır?! Sizcə, elədir?!

– Bütün canlılar kimi biz də yeməliyik! – zəncilərdən biri dilləndi.

– Amma adamlarla bir yerdə yox, küçük!

– Yemək yeyir bu! Siz bura çalmağa gəlmisiniz! Yeməyə yox!

– Siz bizim üçün çalmaq şərəfinə nail olmusunuz, çünki biz sizin musiqinizdən zövq almaq istəyirik! Lakin özünüzü ədəbli aparın, yoxsa sizi linç edərik! Aydındır?!

– Tez dırmaşın yerinizə!

– Tez! Tərpənin!

Qaradərililər əmri yerinə yetirmək fikrində deyildilər.

– Bu ki əsl passiv müqavimətdir, cənablar! – nəcib görkəmli bir cənab dedi.

– Hə! Çox gözləməliyik?!

– Tez olun! Tez dırmaşın estradaya!

– Biz acıq! Yemək yeməliyik ki, çala bilək!

– Acdırlar! Eşitdiniz bunların cavabını?!

– Hə, yemək lazımdır! Bizim hüququmuzdur bu, – zırpı birisi qəzəblə gözlərini parıldadıb dedi.

– İşə bir bax! Sənin hansısa hüquqların da var? Həyasız!

– Bəli, var! – zənci yaxınlaşaraq dedi.

– Nə? Ağ adama belə cavab verirsən, əclaf! – qaradərilinin düz sifətinə zərbə endirdi.

Zənci yumaq kimi büzüşdü, heyvan təki əsdi, sonra bir göz qırpımında irəli sıçrayıb yumruğunu ona elə ilişdirdi ki, ağdərili cənab üzüstə düşdü.

Ağlasığmaz bir qarışıqlıq başladı. Camaat irəli yüyürdü, bütün zal yaman qızmışdı. Qaradərililər dəstə halında sıx durmuşdular, əzələlərini möhkəmlədib, tüklərini qabardaraq durmuşdular, qan çəkmiş gözləri parıldayır, qıcanmış bəyaz dişləri ağarırdı, sanki, insan cəngəlliyində əcaib vəhşi heyvanlar idilər. Atəş səsi guruldadı və bir nəfər dəstədən ayrılaraq nərilti ilə, qanı axa-axa ağların üstünə atıldı, kimi gəldi qəzəblə yumruqlamağa başladı. Qalanları da qışqırtı ilə onun dalınca atıldılar, lakin revolver atəşləri onları dayandırdı, ara vermədən atəş açılırdı, onlar da qan içində yıxılaraq stolların arxasına sürünürdülər.

– Hə, nədir, çalacaqsınız? – suyuşirin ağbəniz bir cənab qışqıraraq, öz brauninqini onların gizləndiyi səmtə boşaltdı.

– Yox! – qaradərililər nərildədilər.

– Bizim axı başqa orkestrimiz də var! – deyə hamını sakitləşdirmək istəyən kimsə çığırdı. – Biri də var!

– Rədd olsun sentimental zirzibil! Qoy bunlar çalsın! Qalxın görüm, qara meymunlar!

Onları sığınacaqlarından çıxardılar və ara yenə qarışdı, bayaqkından da pis; hamı dəli olmuşdu, elə bil. Əşyalar göydə ölümsaçan mərmilər kimi uçur, küçə qadınları stulların üstünə dırmanıb ciyildəyirdilər. Zənciləri bütün zal boyu qovurdular.

– Bu nədir belə? Biz axı mədəni adamlarıq!..

– Nə?! Bu sözü bir də dilinə gətirsən, təpənə bir güllə çaxacağam!

– Mədəniyyət!

Ucaboy qaradərili yumruğunu düyünləyib vəhşi heyvan kimi zalı dolaşır, qabağına çıxanı badalaqla aşırır, sağa-sola ölümcül apperkotlarını[1] yağdırırdı, lakin sərrast gülləyə tuş gəldi, sinəsindən yapışıb yıxıldı, üzündə geniş, kinayəli bir təbəssüm donmuşdu. Qalanları dağılmış qüvvələrini bir yerə yığıb stullarla silahlandılar, qarşılarına çıxanların kəllələrini dağıdırdılar. Onlar kor bir nifrətlə vuruşur, gözlərinin ağı ilə dörd tərəfə kin-küdurət yağdırırdılar – ta məğlub olub yerə sərilənə kimi.

– Dişləyirsən, qorxaq köpək! – Hərbi geyimli bir nəhəng yerdə yarımcan uzanmış, dişlərini onun ayağına keçirmiş qaradəriliyə nərildədi, tapançanın lüləsini aşağı yönəldib atəş açdı. Qaralar ibtidai dövrün meşəsindəymişlər kimi, döyüşçü çağırışları qışqırır, ağlar isə özlərini qorxutmağa imkan verməyərək, mövqelərində silahın köməyi ilə möhkəm dururdular, revolver atəşləri pulemyot kimi şaqqıldayırdı. Bu qızğın, qəzəbli bir döyüş idi.

İki cavan qatil bu döyüşdə iştirak etmirdi, oturub baş verənlərə göz qoyaraq əylənirdi – onlar öz işlərini görmüşdülər artıq.

Nəhayət ki, sağ qalmış zəncilər küncə sıxışdırılıb mühasirəyə alındılar. Onların müqaviməti qırıldı, ümidləri qaliblərin insafına qaldı.

– Hə, belə olar! – deyib, ağlar nəfəslərini dərdilər.

– Dırmaşın estradaya, tez!

---

[1] *Apperkot* – ilkin təsəvvürlərə və təcrübəyə əsaslanan qavrayış.

Qaradərililəri estradaya itələdilər, məcbur etdilər ki, alətlərini götürsünlər.

Əyninə smokinq geymiş cüssəli bir cənab onlarla üzbəüz stula dırmanıb, revolverinin lüləsini üstlərinə yönəltdi.

– Kim çalmasa, gəbərdəcəyəm! – deyə elan etdi.

Zəncilər çaldılar. Dəli kimi, qanı axan üzlərindəki qan çökmüş gözlərini bərəldərək, qanlı əlləriylə quduz kimi çalırdılar. Bu, indiyədək eşidilməmiş sərsəm, gecəyarısında cəngəllik ulartısı kimi, dəhşətli bir musiqi idi, gün batandan sonra meşədə toplaşan vəhşi qəbilənin ölüm təbillərini xatırladırdı. Nəhəng qamətli bir zənci hamıdan öndə duraraq, dişlərini sıxıb dəli kimi təbil çalırdı, başındakı yaradan qan boynundan keçib üzüaşağı axırdı, cırılmış köynəyi al-qırmızı idi. O, qanlı yumruqlarını təbilə döşəyir, döşəyirdi və qalan alətlərin səsi təbilin şimşək gurultusuna qarışaraq anlaşılmaz bir səs yaradırdı.

– Əla! Əla!

Ağlar oynayır, musiqinin ritminə uyğun atılıb-düşürdülər. Zalın hər tərəfində oynayırdılar, hər yan qaynayır, cadugər qazanındakı iksir kimi pıqqıldayırdı. Sifətlər döyüşdən və zalın istisindən yanırdı, ağır buxar boğucu dalğalarla ətrafa yayılır, can verənlər masaların arasında uzanıb xırıldayırdılar, rəqs edən cütlər yerdəki cəsədləri ayaqlarıyla itələyirdilər. Tavanın altındakı şar rəngdən-rəngə düşərək, pis qoxulu, boğucu havada hərlənirdi. Qadınlar şəhvət və gözəllikdən parıldayır, qanı axan zənciyə alovlu baxışlar yollayır, ayaqlarını kavalerlərinin ayaqları arasından irəli uzadırdılar, baxışlardan və kəmərdən sallanmış revolverin hərarətindən alovlanan kişilər isə qadınları özlərinə daha bərk sıxırdılar. Görünməmiş bir ruh yüksəkliyi hakim idi zalda.

Ruh yüksəkliyindən qıpqırmızı pörtmüş, yaxalığı davada cırılmış bir cənab cəlladın yaxınlığındakı stolun üstünə sıçrayıb, brauninqini havada silkələyirdi.

– Qələbə bizimdir, dostlar! Bizim əleyhimizə bütün qiyam cəhdləri əbəsdir! Qayda-qanun! İntizam! Biz onların

naminə qalib gəlirik! Biz dünyada hökmranlığımızı bu yolla quracağıq! – deyə o, əl-qol oynadaraq çığırırdı, ətrafında nitqinə qulaq asmaq istəyən bir dəstə də toplanmışdı. – Və bu əlamətdar gündə, öz irqimizin bütün başqa irqlər üzərində hakimliyini təsdiq etdiyimiz bir gündə hər şeydən artıq qiymətləndirdiyimiz bir peşənin nümayəndəsini aramızda görməkdən xoşbəxtik! Cəllad bizim aramızdadır! Biz onun burada olması ilə fəxr edirik, çünki onun burada olması əzəmətli bir zəmanədə yaşadığımızın sübutudur, əgər kimsə buna inanmırdısa, qoy indi inansın! Şərəfsizlik və zəiflik əsri artıq geridə qalıb və bəşəriyyət yeni şəfəqin intizarındadır! Cəlladın qüdrətli fiquru bizə inam və dəyanət verir! Qoy bizi o aparsın irəli – arxasınca tərəddüdsüz irəliləyəcəyimiz yeganə şəxs!

– Səni salamlayırıq, ey bizim rəhbərimiz, sənin müqəddəs rəmzlərinlə, həyatımızda ən dəyərli simvollarla bəşəriyyət tarixində yeni era açacağıq! Qan – budur insanın rəngi! Və biz bilirik ki, sizə layiq olacağıq! Arxayınıq, sən bizə ürəklə etibar edə bilərsən, biz ucadan elan edirik: "Eşq olsun sənə! Eşq olsun!"

O, masanın üstündən yerə atıldı, nəfəsini birtəhər dərib, öz kumirinə sarı getdi. Cəllad başını qaldırmadan, qımıldanmadan ona nəzər saldı və heç bir cavab vermədi. Alovlu cənab bundan bir az çaşdı, bilmirdi ki, nə etsin.

– Eşq olsun! – deyə əlini yuxarı qaldıraraq bir də qışqırdı və yenə də inamsız. Ətrafdakılar da həmin hərəkəti təkrar etdilər.

Cəllad bir kəlmə demədən onlara baxırdı.

– Siz... siz məgər cəllad deyilsiniz? – deyə bəlli bir inamsızlıqla soruşdular.

Onların müraciət etdiyi şəxs əlini cəllad damğası vurulmuş alnından çəkdi – kütlədən heyranlıq dolu sədalar ucaldı.

– Bəli, mən cəlladam! – dedi və ayağa qalxdı, özünün qan rəngli paltarında əzəmətli, qorxunc görünürdü. Hamının

nəzərləri ona yönəldi və guruldayan, ulayan zala elə bir sakitlik çökdü ki, onun nəfəsinin səsi də eşidilirdi.

– Zamanın binəsindən öz işimlə məşğulam, sonu isə hələ görünmür. Minilliklər gözlərim önündə sayrışır, xalqlar doğulur, xalqlar zülmətdə məhv olur, hamıdan sonra təkcə mən qalıram, üstü qanlı və onların dalınca baxıram – yalnız mən qocalmıram. İnsanlara sadiq qalaraq onların yoluyla gedirəm, onların tapdaladığı elə bir gizli yol yoxdur ki, orada tüstülü tonqalımı çatmamış olum, torpağı qanla suvarmayım. Əvvəldən sizin ardınızca gedirəm və dövrünüz başa çatana kimi sizinlə olacağam. İlk dəfə ilahi vəhydən nəzərlərinizi göylərə sarı çevirəndə mən sizin üçün qardaşınızı kəsdim, onu qurban etdim. Onun ürəyini çıxararaq alovun içinə atanda küləkdən əyilən ağaclar və sizlərin üzündə oynayan tonqal işığı bu günə kimi yadımdadır. Həmin gündən etibarən, çoxlarını günahlı-günahsız Tanrıya və İblisə, göylərə və cəhənnəmə qurban etmişəm. Xalqları yer üzündən silirdim, imperiyaları dağıdıb xarabalıqlara çevirirdim. Sizin istədiyiniz hər şeyi edirdim. Qərinələri məzarlara gömərək qanlı qılıncıma söykənib bir anlıq dayanırdım, ta ki yeni nəsillər məni cavan, hövsələsiz səsləriylə çağırana kimi. İnsan dənizini qanlı köpüyü üzə çıxana kimi çalxalayırdım və onun narahat səsini əbədilik kəsirdim. Peyğəmbərləri və xilaskarları dinsizlik üstə tonqallarda yandırırdım. İnsan ömrünü gecə və zülmət burulğanına gömürdüm. Hər şeyi sizin üçün edirdim.

İndiyə kimi də məni səsləyəndə, gedirəm. Mən ətrafımı seyr edirəm: yer üzü qızdırma içində, hərarətdən alışır, göylərin ucalığından isə quşların hüznlü çığırtıları eşidilir. Şərin toxumlayan vaxtıdır! Cəlladın gələn vaxtıdır!

Günəş buludlar içində boğulur, onun nəm çəkmiş kürəsi laxtalanmış qan ləkəsi təki közərir. Qorxu və həyəcan gətirərək, çöllərdən keçib məhsulumu yığıram. Mənim alnımda cinayətin damğası var, mən əbədilik məhkum olunmuş, lənətlənmiş şərin özüyəm. Sizə görə. Mən sizə qulluq etməyə

məhkumam və öz qulluğumu dəqiq edirəm. Minilliklərin qanı mənim çiyinlərimi əzir. Mənim ruhum sizin qanınızla doludur! Gözlərimin önündə qanlı pərdə var, insanlar arasından ulartı gələndə heç nə görmürəm! Qəzəblə hər şeyi, hər yanı dağıdıram, sizin bütün istədiklərinizi eləyirəm! Mən sizin qanınızdan koram! Batininizdəki əsir mənəm! Siz mənim zindanımsınız, bu zindandan qurtuluş yoxdur!

Axşamın sükutündə, öz evimin pəncərəsi önündə – çəmənliklərin, bütün gül-çiçəyin dinclik içində uyuduğu və ağacların dərin, qəribə bir dinməzliyə qərq olduğu pəncərənin önündə duranda taleyim məni əzir, boğur. Mən halsız düşərdim, əgər yanımda bu olmasaydı. O, dilənçiyə bənzəyən qadına baxdı, baxışları toqquşdu. Üzümü çevirirəm, çünki yer üzünün gözəlliyinə dözə bilmirəm. O isə elə hey dayanıb baxır bu mənzərəyə – ta zülmət çökənə kimi. O da mənim kimi bizim ümumi evimizdə əsirdir, lakin o, yer üzünün gözəlliyinə baxıb yaşaya bilir. Cəlladın evini o təmiz saxlayır və onu elə yığışdırır ki, elə bil, insan evidir. Mənim nahar etdiyim masaya süfrə salır. Onun kimliyini bilmirəm, lakin o, mənimlə mehribandır. Həyətdə hava qaralanda o, əliylə mənim alnımı sığallayır, deyir ki, orda daha cəllad damğası yoxdur. O, hamı kimi deyil, o məni sevə bilir. Mən insanlardan onun kimliyi barədə soruşmuşam, lakin onu tanıyan yoxdur.

Deyə bilərsinizmi, məni niyə sevir, niyə evimizə əl gəzdirir? Mənim evim cəllad evidir! Başqa heç bir şey ola bilməz! Vücudumu çulğamış çıxılmazlıq daha dəhşətli olardı onda!

Onun qucağımda uyumasını gözləyirəm, sonra qalxıb isti olsun deyə, üstünü yaxşıca örtürəm və sakitcə yığışıram ki, onu oyatmayım. Evdən səssiz çıxıram ki, gedib gecənin işini görüm, yer kürəsinin üzərinə sərilmiş qorxulu göyləri görürəm. Yaxşı ki, o oyanmadı. Yaxşı ki, mən öz ağır yükümlə təkbətək qalmışam. Lakin bilirəm, o qayıtmağımı gözləyəcək, işimi görüb əldən düşmüş halda, qan içində gələndə məni qarşılayacaq.

Niyə hər yükü öz çiyinlərimdə çəkməliyəm? Niyə hər şey mənim çiyinlərimə yıxılmalıdır? Bütün qorxu, bütün günahlar, bütün törətdikləriniz! Niyə axıtdığınız bütün qanlar içimdən səslənməlidir ki, ömrümdə dinclik tapa bilməyim! Qatillərin lənəti və günahsız qurbanların şikayəti – niyə bədbəxt ruhum hər şeyə görə əzab çəkməlidir?

Məhkumlar öz talelərini mənim çiynimə yıxırlar – onların ölümün intizarını çəkərkən danışdıqlarına qulaq asmamaga çalışıram, lakin onların sözləri mənim içimdə qalır. Uzaq minilliklərin sədası içimdən səslənir, hamının unutduğu, həyatı əlindən alınmış, amma içimdə öz köhnə həyatlarını yaşayan səslər! Qanınızın qoxusu ürəyimi bulandırır, məni günahın unudulmazlığı ilə əzir!

Sizin taleyinizi öz çiynimdə daşımalıyam, sizin yolunuzla yorulmadan addımlamalıyam, baxmayaraq ki, özünüz çoxdan bəri öz əməllərinizdən qəbirdə dinclik tapmısınız!

Kim elə dərin qəbir qaza bilər ki, məni orada basdırmaq mümkün ola! Məni unutdurmaq üçün! Kim mənim çiyinlərimdən lənət yükünü qaldıraraq, mənə ölüm sükutu bağışlaya bilər! Heç kəs! Çünki heç kəs bu yükü çiynimdən ala bilməz!

Hələ Tanrı olan zamanlar, bir dəfə onun yanına getdim ki, ehtiyacımı bəyan edim. Bəs cavab nə oldu onda? Yadımdadır, bunu ona görə elədim ki, xilaskar olduğunu söyləyən bir adamın qarovulunu çəkəsi olmuşdum. O, sizin yolunuzda əzab çəkib ölmək istəyirdi ki, sizə nicat verə. O, mənim də yükümü almaq istəyirdi çiyinlərimdən.

Mən onun sözlərində məna tapa bilmirdim, çünki görürdüm ki, zəif, gücsüzdür, hətta adi kişi gücünə belə malik deyildi və ona yalnız gülürdüm. Özünü Məsih adlandırır, yer üzündə sülh üçün moizə edirdi – elə buna görə də məhkum olundu. Hələ uşaq olanda başa düşmüşdü ki, insanların yolunda əzab çəkərək ölməlidir. O, öz uşaqlığından çox danışırdı – onlar həmişə uşaqlıqlarından danışırlar – Qalileya adlandırdığı çox qəşəng diyardan danışırdı, deyirdi oralar

gözəl imiş – həmişə belə deyirlər. O yerlərdə ilin yaz aylarında dağlarda gül-çiçək bol olarmış, bir gün dayanıb çiçəkli çəmənlərə baxanda başa düşübmüş ki, Tanrının oğludur. Bədbəxt bir divanə idi, onun söhbətlərinə qulaq asan kimi bunu anlamışdım. Çiçəklərə tamaşa edəndə ona əyan olur ki, insanlara təlqin edəcəyi təlim nədən ibarətdir, onlara nələr deməlidir, deyəcəkləri yer üzündə dinclik, sülh barədəydi. Mən ondan soruşdum ki, bu dünyada hüzur içində yaşaya biləcəyi halda, niyə ölməlidir, cavab verdi ki, belə olmalıdır, onun gizli razılığı var buna. Çünki atası ona belə deyib, ata deyəndə Tanrının özünü nəzərdə tuturdu. O, öz inancında saf uşaq kimi dönməz idi.

Lakin vaxt yaxınlaşanda elə başqaları kimi qorxdu, titrədi və görünür, daha əvvəlki kimi inamı yox idi söylədiklərinə. Mən ona heç nə demirdim, içindəki qorxu ilə təkbətək qalmışdı və nəzərləri hərdən, elə bil, çox uzaqlara zillənirdi. Sanki, uşaqlıq çağının oylaqlarını, gül-çiçəkli çəmənləri bir də görmək istəyirdi.

Onun qorxusu get-gedə güclənir, güclənirdi. Dizi üstə düşüb pıçıltıyla dua etməyə başladı: "Mənim qəlbim ölüm kədəri içindədir. Əziz atam, əgər mümkünsə, bu nəsibi məndən yan keçir!" Vaxt yetişəndə məcbur oldum onu dalımca sürüyüm.

Xaçını daşımağa zorla gücü çatırdı, əldən düşüb ləngərləyirdi, baxdım, yazığım gəldi və xaçı alıb, yolun bir qismini özüm apardım. Bunu ancaq mən elədim, başqaları etmədi. İnsanların yolunda çiyinlərimə tökülən yükün ağırlığı ilə müqayisədə bu nə idi ki.

Onu xaçın üstünə qoyanda hələ mismarlarını çalmamışdan, adəti üzrə, üzr istədim ondan. Bilmirəm niyə, amma onu qətlə yetirmək mənim üçün çətin idi. Bax onda mənim üzümə mehriban, qorxmuş gözləriylə baxdı – cani gözüylə yox, adi, bədbəxt bir adamın gözləriylə. "Mən səni bağışlayıram, qardaşım", – deyə sakit səsiylə cavab verdi mənə. Yaxınlıqda

dayananlardan biri israr edirdi ki, o, bu sözləri deyəndə alnımdakı cəllad damğası yoxa çıxdı, hərçənd buna özüm inanmıram.

Bilmirəm niyə məni qardaş çağırdı! Amma bu bircə kəlmə sözə görə mənə elə gəldi ki, öz doğma qardaşımı çarmıxa çəkirəm. O vaxtdan bəri əllərimdən keçən insanların heç birini öldürmək mənə bu dərəcədə çətin olmayıb. Vəzifəni icra edərkən hərdən qeyri-ixtiyari öz qurbanına nəzər salmalı olursan – yox, o, mənim əvvəlki qurbanlarımın heç birinə bənzəmirdi.

Həmin o sözləri deyəndə mənə baxan gözlərini heç vaxt unuda bilmərəm!

O qədər gözəl xatırlayıram ki! Bütün səsləri və tökülən bütün qanları – sizin çoxdan unutduğunuz hər şeyi içində saxlayan mən!

Mən niyə əzab çəkməliyəm? Mən niyə hər şeyi öz çiyinlərimdə daşımalıyam – sizə görə! Niyə sizin günahlarınızı öz üstümə götürməliyəm?

Mən axı onu həyətdə qamçı ilə də döyməli oldum, guya, bunsuz ölməyəcəkdi – onun bədəni mənim əllərimin altında yaralandı, şişdi. Və hər şey məni o dərəcədə bezdirdi ki, onun xaçını zorla qaldıra bildim.

İnsanlar isə mən onu qaldıranda sevindilər. Onu, nəhayət ki, çarmıxda görəndə qışqırır, atılıb-düşürdülər. Mən hələ edam təpəsində belə şadyanalıq görməmişdim! Ona kinayə edir, məsxərəyə qoyurdular, yazığı söyürdülər, özünü onların peyğəmbəri, Məsihi – ya nə bilim nəyi saydığına görə... Ona sarı tüpürür, əzablarına gülürdülər. O, gözlərini yummuşdu ki, nicat vermək istədiyi insanları görməsin. Bəlkə də, çalışırdı ki, hər halda, çar olduğu, Tanrı tərəfindən seçildiyi barədə düşünsün. Adamların hördüyü tikanlı çələng onun qanlı başında gülməli şəkildə yana əyilmişdi. Mən baxa bilmirdim, üzümü yana çevirdim.

Lakin canı çıxmamışdan əvvəl bütün yer üzünü zülmət basdı və mən onun gur səslə qışqırtısını eşitdim:

– Mənim Tanrım, mənim Tanrım, niyə məni tək qoymusan?

Bunu eşidəndə heç tabım qalmadı baxmağa. Az sonra öldü, çox şükür. Biz o dəqiqə çarmıxdan çıxardıq onu, çünki şənbə günü yetişirdi, cəsədi çarmıxın üstündə asılı qoymaq olmazdı.

Hamı şənbəyə hazırlaşmaq üçün gedəndə və ətraf boşalanda, mən orada, edam təpəsində meyit iyi və üfunət içində oturmuşdum. Yadımdadır, gecədən xeyli keçənə kimi ulduzlu səmanın altında oturaraq qaldım. Elə onda da ağlıma gəldi ki, ayaqlarım məni Tanrıya sarı aparsın, onunla bir söhbət eləyim.

Yeri tərk eləyib göylərə yollandım, burada heç olmasa rahat nəfəs almaq mümkün idi. Elə hey gedirdim, gedirdim, nə qədər getdiyimi də bilmirdim. Tanrı dəhşətli dərəcədə uzaqlarda idi.

Nəhayət, onu gördüm öz qarşımda: o, göylərin ənginliyindəki taxtında əzəmətlə oturmuşdu. Tələsik yaxınlaşdım, qanlı baltamı taxtın qabağına qoydum.

– Məni öz peşəm bezdirib! – ona dedim. – Bəs deyil bu peşə ilə məşğul olmağım?! Vaxtdır, məni azad et!

O isə boşluğa baxaraq oturmuşdu, tərpənmirdi, daşdan idi, elə bil.

– Eşidirsən?! Cəlladlığım bəs elədi mənə! Bundan artıq dözə bilmirəm! Qan, dəhşət, sənin razılığınla baş verən bəlaların içində daha yaşaya bilmirəm! Nədir axı bunun mənası, deyə bilərsən mənə?! Mən öz işimi dəqiq görürdüm, nəyə gücüm çatırdısa əsirgəmirdim, lakin daha qüvvəm qalmayıb! Daha dözə bilmirəm buna! Bəsdir! Eşidirsən?!

Lakin o, məni görmürdü. Gipgirdə, boş və cansız gözləri səhra kimi boş ənginliyə dikilmişdi. Qorxu girdi vücuduma, dözülməz bir çıxılmazlıq içindəydim.

– Bu gün sənin doğma oğlunu çarmıxa çəkdim! – deyə vəhşi qəzəb içində çığırdım. Amma onun sərt, hissiyyatsız sifətində bir cizgi də tərpənmədi. Sanki, daşdan yonulmuşdu bu sifət.

Buz kimi sükutun içində durmuşdum və əbədiyyətin küləyi özünün soyuq nəfəsi ilə içimdən keçirdi. Nə edəydim? Kiminlə danışaydım? Heç nə yox idi! Baltamı götürüb, elə gəldiyim yolla qayıtmaq qalırdı mənə.

Başa düşdüm, çarmıxdakı onun oğlu deyildi. O, bəşər nəslindən idi, özləriylə necə davranırlarsa, onunla da elə davranmışdılar, burda təəccüblü nə vardı ki. Onlar özlərindən cəmi birisini çarmıxa çəkmişdilər, adətləri üzrə. Mən içimdə etiraz, narazılıq soyuqdan dona-dana qayıdırdım.

O da başqaları kimi öldü, sakitlik tapdı. Bədbəxt, məhkum ruhum isə həmin yolla hələ də addımlayır və əsrlər durduqca addımlayacaq. Yer üzünə qayıdıb həmin ağır yola bir də qədəm basmalıydım – başqa nəsibim yox idi. Mənə heç kəs nicat verə bilməz!

Yox. O, insanların xilaskarı deyildi. Onun təki birisinin buna gücü çatardı ki! Onun yeniyetmə kimi nazik qolları vardı, onlara mismar çalanda elə yazığım gəlirdi ki, əzab çəkirdim, çalışırdım mismarlar nazik sümüklərinin arasından keçsin. İnanmırdım ki, xaçdan asılanda, bu qollar onu saxlasın. Belə bir adam insanları xilas edə bilər?!

Xaçdan çıxarmaq vaxtını bilmək üçün onun böyrünü deşəndə artıq ölmüşdü, adətən, çarmıxdakı adamlar nə vaxt ölürdüsə, onlardan xeyli tez tapşırmışdı canını.

Bu bədbəxtin harası xilaskar idi?! O, sizə necə kömək edə bilərdi?! Mənim yükümü necə çəkə bilərdi?! O, haradan insanların Məsihi oldu?! Anladım ki, niyə sizə mən qulluq etməliyəm! Niyə siz həmişə məni çağırırsınız!

Mən sizin Məsihinizəm, alnında cəllad damğası olan Məsihiniz! Sizə yuxarıdan göndərilmiş xilaskar!

Yer üzündə düşmənçilik və pis xislətlər naminə!

Siz Tanrınızı daşa döndərmisiniz! O lap çoxdan ölüb. Mən isə – sizin Məsih – sağam! Mən onun əzəmətli zəkasının bəhrəsiyəm, məni onunla birlikdə yaratmısınız və mən o, hələ güclü olanda doğulmuşam – o, hələ yaşayanda, nə

istədiyini biləndə, bunun hansı məna ehtiva etdiyini biləndə! İndi isə o, taxtında hərəkətsiz ucalıb, zaman onu xəstəlik kimi ehmallıca aşındırır, öldürücü külək isə tozunu göylərin nəhayətsizliyinə sovurur. Mən – sizin Məsih isə sağam! Sağam ki, siz sağ qala biləsiniz! Mən yer üzündə döyüş yolumu keçirəm və hər gün sizi qan içində xilas edirəm! Siz isə məni çarmıxa çəkməzsiniz!

Mən qurban gedərək ölməyin xiffətini çəkirəm – bir zamanlar bədbəxt, köməksiz qardaşım kimi. Çarmıxa mismarlanaraq ruhunu azadlığa buraxmaq, dərin, mərhəmətli zülmətdə ərimək! Amma bilirəm, mənim üçün belə bir an heç vaxt olmayacaq. Nə qədər ki siz varsınız, mən də öz işimi görməliyəm. Xaçımı heç vaxt qaldıran olmayacaq! Nəhayət, mən öz işimi başa çatdıracağam, yer üzündə mənlik iş qalmayacaq, bax onda mənim narahat ruhum atamın ölüm yatağı olan Kainatın gecəsində yorulmadan uçacaq – sizin naminizə etdiklərimin peşmançılığı və qorxusu içində!

Buna baxmayaraq, həmin günü arzulayıram. Sonun yetişməsini arzulayıram ki, ağır günahlarımı bir az da artırmayım.

Mən sizin yer üzündən silinəcəyiniz günü, başınızın üstündə qaldırdığım qılınclı əlimin, nəhayət ki, aşağı enəcəyi günü arzulayıram. Sükut hökm sürür, məni çağıran xırıltılı səslər artıq yoxdur, tək-tənha durub ətrafıma baxıram və bilirəm ki, hər şey bitdi artıq.

Qanlı baltamı bir zamanlar buralarda yaşamış insan nəslinin xatirəsi kimi bomboş torpağa tullayaraq əbədi zülmətə gedirəm!

O, sərt və alovlu nəzərlərini adamların başı üzərində dolandırıb sonra qarşısındakı masanı itələdi, qəzəbli addımlarla çıxışa tərəf getdi. Lakin qapının dəstəyindən yapışanda bayaq yanında oturmuş, dilənçiyə bənzəyən, sifəti mübhəm və əzablı xoşbəxtlikdən nur saçan qadın yerindən qalxaraq, sakit, aydın səslə onu dindirdi:

– Sən bilirsən ki, yolunu gözləyəcəyəm! Əldən düşmüş, qan içində gələndə ağcaqayınların arasında gözləyəcəm. Başını çiynimə söykəyəcəksən və mən də səni sevəcəyəm. Alışan alnını öpərək, əlinin qanını siləcəyəm.

Sən bilirsən ki, yolunu gözləyəcəyəm!

Cəllad onun üzünə sakit, qüssəli bir təbəssümlə baxırdı. Küçədən boğuq təbil gurultusu gəlirdi, ayaq saxlayıb qulaq verdi. Sonra bir əliylə kəmərindən yapışıb şəfəqin alatoranına doğru addımladı.

# DÜNYADA QONAQ

Başqaları kimi, bu İsveç şəhərciyindəki dəmir yol stansiyasının nəzdində də restoran vardı. Tikilinin özü relslərə o qədər yaxın idi ki, hər şey parovoz tüstüsünün hisinə bulaşmışdı, yoxsa bu bina ağappaq olardı, sanki, nağıllardakı saraylar, sehrli qəsrlər kimi tikmişdilər onu. Diş-diş qüllələri, heç kəsin çıxmadığı eyvanları başdan-ayağa oymalardan, yapmalardan ibarət, gül dibçəkləri üçün nəzərdə tutulmuş taxçaları; damında isə lüt flaqştoku vardı binanın. Bütün bunlara rəğmən, bu, sadəcə olaraq, tökülüb-itən, köhnə, hisə bulaşmış bir tikili idi. Amma heç boş olmazdı, hətta nəsə bir bayramsayağılığı da vardı; stansiyadan keçənlər bura bir parç pivə içmək üçün, qatarları yola düşənədək toqqalarının altını bərkitmək üçün baş çəkirdilər, axşamlar isə restoranın bağçasında musiqi səslənirdi. Hə, bu saraydan saray kimi istifadə etmirdilər, buradakı ziyafətlər bitib-tükənmirdi, onların əvvəli və axırı bilinmirdi deyə, bina da bu kökə düşmüşdü. Linoleum sürtülərək cırılmış, məxmər divanların oturacağı yağlanaraq, yaprıxmış, üçüncü dərəcəli kafenin çopur döşəməsi qarın vermişdi; stulları laxlayır, oturacaqları deşik-deşik idi, amma heç kim buna fikir vermirdi, bu heç kəsin qarşısını kəsmirdi, müştərilər bura dəstə-dəstə gəlir və içəri girən kimi də yemək tələb edirdilər. Onları bu sarayda hansısa sonsuz ziyafətə çağıran yox idi, amma yenə gəlirdilər, qatarları yolunu dəyişənə kimi, perrondakı zəngin səsi onları yenidən yola düşməyə çağırana kimi yeyib-içirdilər. Burada sakitlik yox idi, daim tələsən sərnişinlər qaynaşırdılar. Diş-diş qüllələrlə, flaqştoklarla, eyvanlarla, boş taxçalarla bəzənmiş qəsr isə yerində durmuşdu özü üçün – ətrafına uyuşmayan nağılvari bir əzəmətlə, hamını daimi ziyafətə səsləyərək durmuşdu.

Binanın üst mərtəbəsini mənzilə ayırmışdılar, orada çoxuşaqlı ailə yerləşirdi. Görünür, üst mərtəbəni əvvəlcə vağzal mehmanxanası etmək istəyirmişlər, uzun və qaranlıq dəhliz boyu bir neçə nömrə yerləşərdi, amma bu istəkdən bir şey çıxmamışdı deyə, cəmi iki otaq və mətbəx düzəltməklə kifayətlənmişdilər ki, onlarda da bir ailə lap bineyi-qədimdən yaşayırdı. Onlar bura təzə köçəndə cavan ailə üçün bu otaqları hətta böyük də saya bilərdin, lakin sonra bir-birinin dalınca uşaqlar doğuldu, ailə böyüdü və mənzil darlıq etməyə başladı. Amma bu barədə heç kəs düşünmürdü, bura yuva idi, yuvanı isə atıb getmirlər. Dar otaqlara işıq pis düşürdü; hər otağın üç pəncərəsi lap tavanın altında qərar tuturdu; onları gözəllik üçün düzəltmişdilər, elə bil, qeyri-adi fasadın gözəlliyi üçün. O qədər də zərif əl işi olmayan köhnə mebeli isə, görünür, ailə haradansa əldən-ayaqdan uzaq yerlərdən almışdı.

Zalda toxunma süfrəli böyük, dəyirmi stol dururdu; bazar günləri ailə onun ətrafında toplaşar, həftənin bütün qalan günləri isə yeməklərini mətbəxdə yeyərdilər.

Divarın birində Lüterin təsviri olan oleoqrafiya asılmışdı, o biri divarda şüşəli çərçivənin içində, parça üzərində ilmə-ilmə toxunmuş əlifba vardı. Komodun üstündən rəf asılmışdı, içində də köhnə, cildi sürtülmüş incil, Arndtın moizələri və qızlara kilsə icmasına qəbul olunanda bağışlanmış iki dənə üz qabığı mumlu kağızla örtülmüş təzə İncil vardı. Vəssalam, başqa bir şey yox idi. Alabəzək qurama xalçalar, demək olar ki, bütün döşəməni örtərək addım səslərini boğurdu. Evdə, darısqallığa baxmayaraq, demək olar ki, daim sakitlik idi.

Pəncərələrin altında divar səki kimi bir çıxıntı yaradırdı, balacalar orada oturmağı xoşlayırdılar, körpə quş balaları yuvasından boylanan kimi, oradan boylanardılar. Hərəsinin öz oturacağı vardı, özününkü deyəndə bir az böyük çıxır, böyüklər daha istifadə etmədikləri oturacaqları uşaqlara vermişdilər. Hər uşağın öz oturacağı olur axı. Amma burdakı oturacaqlar pəncərədən bayıra baxmaq imkanı da verirdi.

Orda, pəncərənin altında isə qatarlar dalbadal gəlir, yollarını dəyişir, gedirdi; parovoz fit verə-verə vaqonları vağzala çəkirdi, vaqonlardan perrona isə əl-qol atan bələdçilər birinci tullanırdılar. Bu pəncərədən nələr görməzdin! Hərdən külək tüstünü içəri qovurdu, gərək tez pəncərəni bağlayaydın. Bağlayan kimi də evin sakitliyindən qulaq çəkilirdi və vağzalın gurultusu artıq çox uzaqlardan gəlirdi, sanki. Lakin pəncərədən həmişə elə eyni şeylər görünürdü: perronda durmuş qatar bir azdan tərpənir, sonuncu vaqonun arxasındakı nömrə lövhəsi parlayıb, yox olur, parovoz yolunu dəyişirdi – həmişəki mənzərə. Pəncərənin çərçivəsinə daim his hopurdu və əlinə cındır alan ana onu nə qədər təmizləsə də, hisin yağıqarası yenə peyda olurdu.

Belə sakitliyə nadir yerlərdə rast gələrsən. Ataları yemək üçün evə gəlirdi. O, dəmiryolçu idi, elə buna görə də burada yaşayırdılar. Əvəzində, ana həmişə evdə olurdu, daim iş görür, küçəyə nadir hallarda çıxırdı. Ağbəniz idi, aydın, boz-göyümtül gözləri və düz tağla ayırdığı seyrəlmiş saçları vardı. Yer üzündə ağbəniz adamlar nadir deyillər, lakin elələri də var ki, ağbənizlik onların yalnız zahirini deyil, həm də bütün davranışını, həyatını çulğayır və onlar bu işıqlı rəngdə özlərinə bir istinad nöqtəsi, bir kömək tapırlar. Belə adamlar, əksərən, kövrək, zəif görünürlər, sanki, külək sovuracaq, özüylə aparacaq indicə. Lakin güclü, həddindən ziyadə sərt bir əl özünün ehtiyatsız hərəkəti ilə onları məhv edib, yer üzündən silsə, dünya şirin yuxusundan ayılaraq ətrafına baxanda yalnız acı, xoşagəlməz həqiqətlər görər. Həmin bu insanlar elə heyrətamiz gücə malikdirlər ki, yer üzündə qətiyyən solğun kölgə kimi sürünmür, sakit və inamla addımlayır, sanki, onlara qələbə çalmağın qeyri-mümkünlüyünü özləri də gözəl bilir, daim belə qalacaqlarına, heç bir şər qüvvənin təsirinə uymayacaqlarına əmindirlər. Onlar, sanki, zamanların sınağından çıxmış qədim, əbədi, ilkin bir irqə mənsubdurlar. Nə qədər ki həyat var, onlar da olacaqlar və dünya öz şirin yuxusundan heç vaxt oyanmayacaq.

Anaları da bu irqdən idi. Onda diqqəti cəlb edən qeyri-adi heç nə yox idi, bütün günü otaqlarda, mətbəxdə öz işini görür, uşaqları sakitləşdirir, qabları, paltarları yuyur, ütüləyirdi. Boş vaxt tapanda da yırtıq-yamaq edirdi. İşini görə-görə böyük övladlarının zarafatlarına məmnuniyyətlə qulaq asırdı, elə-belə oturub dincələndə isə əllərini dizlərinin üstünə qoyub, dərindən nəfəs ala-ala uşaqlarından, sanki, uzaqlaşır, aralanırdı. Axşamlar o ya “İncil” oxuyardı, ya da ki dua kitabçası. Pıçıltıyla, az qala, içində oxuyardı. Çırağın zəif işığında üzünün cizgiləri silinir, nazik dodaqları aramsız tərpənirdi. Amma onda, həqiqətən, qeyri-adi heç nə yox idi. Axı belələri dünyada nə qədər desən var.

Ataları axşamlar evə gələndə mundirini çıxarıb, əlindəki fənəri söndürür, əski ilə təmizləyib, dəhlizə qoyurdu, çünki yanacağı balıq yağı olduğundan yaman his eləyirdi. Sonra da masa arxasında oturub, vaqonların nömrələrini qeyd edə-edə hansılarını boşaltmaq, hansılarını isə yükləmək lazım olduğunu götür-qoy edir, sabah nə iş görəcəyindən danışırdı. Yeməkdən sonra isə o da “İncil”i götürüb oxuyurdu. Anaları da, ataları da “İncil” oxuyurdular deyə, kimsə cınqırını çıxara bilməzdi, bu sükutu pozmamaq uşaqlar üçün yaman çətin idi. Onlar susub durmağa məcbur idilər, sükutun ağırlığı isə onları sıxır, əzirdi. Aşağıdan, üçüncü dərəcəli kafedən içki içənlərin səs-küyü, bağırtıları gəlirdi, amma bu, hesabdan deyildi, bu səslər qətiyyən diqqət yayındırmırdı. Əgər qatar stansiyaya bivaxt yaxınlaşırdısa, ataları əlində “İncil” pəncərəyə yanaşır, bayıra boylanırdı. Sonra yenə də masaya dönüb, mütaliəsini davam etdirirdi.

Yatmamışdan gəzməyə icazə verilirdi uşaqlara, onlar da siçovul sürüsü kimi otağın qapısından sivişib dar dəhlizə çıxır, pillələrlə endikcə səslərini də ucaldırdılar. Gözəl yaz axşamı işım-işım parıldayır, hər yan indicə kəsmiş yağışın qoxusunu verirdi. Həyətlərinin alaqapısı parka açılırdı. Oralar isə musiqi səltənəti idi, müxtəlif alətlər guruldayır,

ciyildəyir, ulayaraq oxuyurdu; fleyta vıyıltısı, şeypur nərələri ətrafı ağuşuna alırdı. Parkın içərilərində isə aydınlıq idi, gur işıq yanırdı. Uşaqlar bütün cəsarətlərini toplayıb, ağacların gövdələri arasından keçərək, budaqlarını torpağa sallamış qoca küknarın altına gedirdilər. Ora lap qaranlıq idi, uşaqlar da ağacın qatranına bulaşmamağa çalışaraq, düz budaqların arasına girirdilər. Yaxınlıqdakı meydança isə nura qərq olub par-par yanırdı, orada musiqiyə qulaq asan çoxlu adam olurdu, qadınların ən gözəlləri də çiyinlərinə mütləq qırmızı örtük salırdılar. Ofisiantlar masalara qəşəng şüşələrdə cürbəcür içkilər daşıyırdılar, orada-burda sayrışan ağ köynəklərindən göyərçini xatırladan bu adamları yalnız qurşağa kimi görmək mümkün idi. Yarımçıq, ortadan kəsilmiş evə bənzəyən pavilyonda isə hərbi orkestr dəridən-qabıqdan çıxırdı. Mundirlər, pavilyonun tavanındakı qızılı ulduzlar da parlayırdı. Bu parıltı musiqi alətlərində də vardı, onların ecazkar səsləri əvvəlcə axşamın sükutuna sel təki axırdı, ifa olunan pyesin sonunda isə yalnız bəm şeypur eşidilir, onun da səsi artıq damla-damla süzülürdü.

Tərpənməyə özlərində cürət tapmayan uşaqlar hər şeyə nəfəs çəkmədən baxır, par-par yanan gözlərində bir heyranlıq işarırdı. Burada böyüsələr, bu mənzərəni, az qala, hər gün seyr etsələr belə, gördükləri hər dəfə onlara daha qəribə, daha ecazkar, daha gözəl gəlirdi.

Hava tam qaralanda isə evə yüyürüb təxəyyüllərində canlandırdıqları qəribə şeylər haqqında düşünə-düşünə yuxuya gedirdilər.

Səhərlər isə mətbəxdə onları köhnə tənəkə vedrənin təzə südü qarşılayırdı. Onu 7.15 qatarı ilə, birbaşa parovozda, maşinistin yanında gətirirdilər. Süd hələ ilıq olar, yelin qoxuyardı, bəs deyincə içərdilər ondan. Vedrənin qapağının altında isə yol boyu silkələndiyindən süddə islanmış bir məktub olardı. Məktubda hərdən ya əkinin, ya da biçinin necə keçdiyindən, mal-qaradan, kənddə-kəsəkdə təzəlikcə baş verənlər-

dən yazırdılar, lakin ən çox da bir yenilik olmadığından, pərvərdigarın kərəmindən, hamının salamat olmasından və salam göndərdiklərindən yazırdılar.

Vedrə kənddən gəlirdi. Onların əsl evi orada idi.

* * *

Uşaqlar parkda səs-küylə qaçışırdılar. Park o qədər böyük idi ki, deyərdin, lap səliqəli meşədir. Düzdür, onun bir küncündə ağaclar necə gəldi qol-budaq atmışdı, oraları tamam ot basmışdı. Uşaqlar ən çox elə parkın bu tərəfində vaxt keçirməkdən xoşlanırdılar. Amma belədə, elə bir fərqi yox idi, harada gəldi yüyürüşürdülər – vağzala yaxın təpədəki yemişanlıqda, içində konserv qabları, qırıq içki şüşələri dağ kimi qalaqlanmış köhnə köşkdə, yaxınlıqdakı qarışqa yuvasının otu dizə çıxan həndəvərində – elə bil, qarışqalar bu otu özləri böyütmüşdü ki, yuvalarını yad gözlərdən gizləsin və bir də parka çıxan, hər iki tərəfində yasəmən kolları bitən küçədə əylənirdilər. Onlar atılıb-düşür, qaçdı-tutdu oynayır, gəzir, hərdən də cınqırlarını belə çıxarmadan quşların səsinə qulaq asırdılar. Gün həddindən ziyadə aydın, hava xoş idi. Ağappaq, adda-budda buludları göy üzündən qovan yox idi, günəş isə öz nəvazişini onlardan da əsirgəmirdi. Hər yan gözəl, sakit idi.

Günorta saatlarında park büsbütün uşaqların ixtiyarına keçirdi. Uzaqda, lap uzaqda, səsləri yetişməyəcək qədər uzaqda bir qoca parkın yollarını dırmıqlayırdı, ondan qorxmurdular, tanıyırdılar.

Bu gün nə etsinlər? Bəlkə, yasəmən kollarında "xoşbəxtlik" çiçəyi axtarsınlar? Qızlardan biri onu həmişə tapırdı. Hər dəfə elə kola sarı əyilən kimi düz rastına çıxardı. Qızın adı Siqne idi, onun barəsində söhbət hələ sonra gedəcək. Lap yekə "xoşbəxtlik" tapanda isə, hətta bir az xəcalət də çəkirdi ki, niyə axı həmişə onun bəxti gətirir. "Oy", – deyib sevinirdi.

Sonra da əl çalıb tez öz “xoşbəxtliyini” yeyirdi, çünki yeməsə arzuları çin olmazdı.

Sonra da əsl oyun başlanırdı. Böyük oğlanlar qızlardan birinin kürəyinə bir şapalaq vuraraq ağacların arasıyla yüyürürdülər. Şabalıdların, çinarların altında, gəndalaş kollarının arasında qaçdı-tutdu oynayırdılar. Buraların torpağı heç vaxt bellənməzdi deyə, nə qədər istəsən tapdamaq olardı. Bütün parkı bir göz qırpımında əldən-ayaqdan salardılar; tərləyənə, nəfəsləri təngiyənə qədər qaçar, sonra qəflətən ağacların budağından tutub durar, bir an keçmiş yenə də götürülərdilər; qızlar daha tez yorulurdular deyə, çox vaxt dayanırdılar, amma nəfəslərini dərən kimi yenə də qaçmağa başlayırdılar.

Budur, gözlənilmədən bütün dəstə kafenin qarşısındakı meydançaya tərəf yüyürdü. Və nəfəslərini dərmək üçün ayaq saxlayanda yerlərində donub qaldılar, oyun bilmərrə yaddan çıxdı. Qəribə idi, gündüz buralar necə fərqli görünürdü. Boş, kirli masalar, günün altında quruyan pivənin, punşun kəsif qoxusu, stolların ətrafı kibrit çöpləri, əzik siqaret kötükləri ilə doludur, bir az o tərəfdə də kimsə qusmuşdu. Bir küncdə isə püpitrlərinin skeleti görünən tərk edilmiş estradanın bətni qaralırdı. Üstündəki ulduzlu, cırıq səma piltə-piltə sallanıb. İndi buralarda nə sevinc vardı, nə bayram. Yox, gündüz bura heç maraqlı deyildi.

Onlar yarımçıq qoyduqları oyunlarına döndülər, “qaçdı-tutdu” onları yüyürməyə məcbur edir, ürkmüş qoyun sürüsü kimi birbaş kolluqlara soxurdu; ağacların dalından qızların tükürpərdici qışqırıqları gəlirdi. Lap kiçikləri, Anders isə o biri uşaqların dalınca qaçmadı. O, hələ elə bərk qaça bilmirdi, kafenin indicə gördüyü boş mənzərəsindən gözlərini çəkə bilmir, durub baxırdı. Hər axşam gözəlliyilə onları sehrinə salan bu məkan nə qədər kirli, nə qədər cansıxıcı imiş. Heç nə anlamırdı, axı Anders burada hər şeyin həqiqət olduğuna çox əmin idi – parlaq ulduzlu səmanın da, mələklər

kimi anlaşılmaz musiqiçilərin də, qulaq asanda adamı dəhşət götürən gözəl musiqinin də. Bütün bunlar hələ yaddaşındaydı. Niyə dünyada yaxşı nə varsa, tez puç olur, təkcə darıxdırıcı boşluq qalır?

O həm qorxdu, həm də kədərləndi, hətta nəfəsi belə təngimişdi indi. Görəsən, niyə belə üşüdü birdən, axı günəş hələ də var gücüylə qızdırırdı?

Çaşqınlıq içində uzaqlaşdı. Qardaş və bacılarının qışqırıqları hər tərəfdən eşidilirdi, amma onların da yanına getmək istəmirdi. O, parkı tək dolaşır, nə edəcəyini bilmirdi. Parkı köndələninə kəsən enli yolun üstündə çömbəldi, bura bol çınqıl tökmüşdülər, o biri tərəflərə isə, görünür ki, çatmamışdı; oralarda çınqılların arasından torpağın qarası görünürdü. Anders bir ayağının üstünə qum tökdü, əlləriylə döyəcləyib möhkəmlətdi, ayağını qumun içindən çıxaranda isə yolda çala qaldı, böyük olsaydı, içinə kartof-zad, ya da uzun müddət saxlamaq istədiyin başqa şeylər yığardın. Daha bir neçə çala düzəltdi, əməlli-başlı çalışdığından işi sürətlə gedirdi. Sonra da yerini lap rahatlayaraq böyük xəndək qazmağa başladı. Barmaqlarıyla torpağı eşirdi, bir az da, bir az da dərinə, qum getdikcə narınlaşır, nəmlənirdi, xəndək isə, deyəsən, dar çıxmışdı, barmaqları artıq içinə əməlli yerləşmirdi. Başı işə elə qarışmışdı ki, kafe sahibinin necə yaxınlaşdığını hiss etmədi, bir də onda ayıldı ki, kişinin qarnının gipgirdə kölgəsi çalaya düşüb. Kafe sahibi mehriban bir qoca idi, amma uşaqlar ondan yaman çəkinirdilər, elə bilirdilər ki, parkın bu tərəfi onunkudur; əslində isə, onunku olan elə çox deyildi, çünki parkın bu hissəsini cəmi on illiyə icarəyə götürmüşdü və bu müddət hələ ki, bitməmişdi. O, jiletinin cibindən düyməsinə geniş qövs cızan saat zəncirini başını bulaya-bulaya əlində oynadırdı.

– Belə eləmək olmaz, – dedi. Və bir az da yumşaq tərzdə əlavə elədi: – Balaca uşaqlar çala qazanda evlərində kimsə ölür.

Başqa uşaqlara o, sadə dillə, amma birbaşa qadağan edərdi yolu qazmağı, lakin bu balacaya mütləq nəsə izah etməliydi.

Anders dəhşətdən rəngi qaçmış halda ayağa qalxdı. Sifətində bir anda donmuş ifadəylə, gözlərini çəkmədən çalaya baxdı, sonra da dizləri üstə düşüb onu sürətlə doldurmağa başladı.

Uşağın hərəkətləri qocaya qəribə gəldi, cibindən kiçik torbada konfet çıxardı, o, balacaları sevirdi və adətən, cibində həmişə şirni gəzdirərdi, konfet isə necə olsa, konfetdir də. Anders ona uzatdığı bir az yapışqanlı, yekə karameli titrəyən əliylə aldı. Lakin təşəkkür əlaməti olaraq başını tərpədən kimi, daha dayanmadı, otların üstüylə, kolluqlara dəyə-dəyə evlərinə sarı yüyürdü.

Kim öləcək, görəsən? Kim öləcək? Bəlkə, anası? Ya özü? Yox, özü hələ balacadır, hələ ölməz. Anasının rəngi isə yaman solub, tez-tez yorğunluqdan şikayətlənir. Ofisiantlardan heç biri ölməz, hamısı sağlamdır, güclüdür. Yox, yəqin, anasıdır. Oy, yəni anası öləcək?

Ayağı ilişdi, otun içinə yıxıldı, sıçrayıb qalxaraq, yenə yüyürdü.

Aha, atası! Atası ola bilər! O, qatarların yolunu dəyişir! Qalacaq altında! Əlbəttə, atası öləcək! İndi aydın oldu!

Uşaqların yanına qaçdı. Daha tək qala bilməzdi burda. Amma nəsə onların səsi eşidilmirdi. Haradadırlar, görəsən? Hə, oradadırlar, yemişan kolluğunda. O, bənizi qaçmış, nəfəsi kəsilmiş halda təpənin başına dırmandı və düz Siqnenin qucağına düşdü.

Qalan uşaqlar heç bir şey duymadılar, bircə onun var gücüylə qaçmasını görmüşdülər. Siqne də o dəqiqə qardaşını qucağına aldı.

– Sənə nə olub? – soruşdu.

O isə heç bir kəlmə də danışa bilməzdi. Artıq başa düşmüşdü ki, dünyada elə şeylər var, onlardan danışmaq olmaz, onsuz da danışmaq nəyi düzəldəcəkdi ki, yaxşısı susmaq, dözmək idi. Və dinməzcə Siqneyə sığındı.

Qalan uşaqlar isə ayaqlarını çəpərdən sallayıb stansiyaya baxırdılar. Orada dik yoxuş vardı, təpəni partlatmışdılar ki, yeni xətt çəkələr, çəpər də ondan üstdə idi.

– Oy, – Xelge, uşaqların böyüyü qışqırdı. – Odey, ata!

Uşaqlar da atalarını gördülər – parovozun pilləkənində durmuşdu, bir əliylə tutacaqdan möhkəm yapışıb, o birisiylə onları salamlayırdı. Siqne Andersi gücü çatan qədər yuxarı qaldırdı ki, o da görsün. Budur, atası qatarın tam dayanmasını gözləmədən pilləkəndən atıldı, buferin altına girdi. Anders nəfəsini içinə çəkdi. Atası artıq görünmürdü, hələ bir xeyli görünmədi. Andersin əlləri Siqnenin boynundan elə bərk yapışdı ki, qızın canı ağrıdı. Nəhayət ki, ataları göründü, maşinistə işarə verdi və qatar ehtiyat yola girdi.

Bacısı Andersi yerə qoydu. O, tir-tir əsirdi.

– Hə, belə, – uşaqların ən böyüyü elə hasarın üstündən dilləndi, – Yuhansson taxtalarını yükləyənə kimi elə orada gözləyəcəklər... İndi hara gedək? – soruşub aşağı tullandı.

Hamısı başladı bir-birinin sözünü kəsə-kəsə hara gedəcəklərini qərarlaşdırmağa.

– Mən evə getməliyəm, anaya bir az kömək eləyim, – Siqne dedi. Andersin əlindən tutdu ki, onu da özüylə aparsın.

İkisi bir yerdə qalan uşaqlardan ayrıldılar. Parovozun uğultusu gurultu kimi eşidilən çəmənliyin yanından ötdülər, otluqla gedirdilər. Birdən onlarla üzbəüz əyninə jilet geymiş nəfəsi təngiyən bir gonbul kişi çıxdı, əlində stəkan vardı.

– Uf, zəhrimar, yaman havadır, – dedi, – salam, uşaqlar.

Onlar dinməz gedirdilər. Siqne onun əlinin necə əsməsini hiss edirdi, amma bilmirdi ki, niyə əsir. Beləcə, ağacların altından keçərək, alaqapılarına çatdılar.

Burada bacısı ayaq saxladı.

– Anders, al sənə xoşbəxtlik verim, – dedi və önlüyünün cibindən çiçək çıxardı. Bir az əzilmişdi, lakin qız onu ovcunun içində tutub bərkdən üfürdü və çiçək qəddini dikəltdi.

– Olmaz, axı sənindir, – oğlan dedi.

– Eybi yox! Götür, götür görüm. Mən o qədər tapıram ki.

Oğlan çiçəyi ağzına soxdu və sanki, bir az toxdadı. O, indi Siqnenin "xoşbəxtliyini" cidd-cəhdlə çeynəyirdi.

* * *

Anasıyla Siqnenin bağlılığında nəsə bir qeyri-adilik vardı. Onların ev işlərini necə gördüklərinə baxan – ev işlərini isə onlar daim görürdülər – hər bir adam buna fikir verərdi. Onların ikisi də, sanki, eyni həyatı yaşayırdı, başqalarının həyatına bənzəməyən, onlarınkından qat-qat yaxşı bir həyatı. Evdəkilərin hamısının can atdığı mərkəzi də elə ikisi bir yerdə təşkil edirdi, hamı onlarla nəfəs alırdı, elə bil. İşləri çox olurdu, mətbəxdə, otaqlarda yorulmadan əlləşir, qabları yuyur, tozları alırdılar, hərdən də bağçada noxudu qabığından ayırırdılar, şənbə günləri isə mütləq bıçaqları təmizləyir, itiləyirdilər. Əslində, evləri yalnız onların qayğısı ilə yaşayır, onların qayğısıyla nəfəs alırdı. Ailədə hamını bir-birinə bir inam, bir məhrəmlik birləşdirirdi, məhz bu hisslər də onları dünyanın qalan qismindən qoruyurdu, lakin ailənin digər üzvləri arasındakı münasibət ilə bu iki nəfərin bağlılığı heç müqayisəyə gəlməzdi. Onlar ayrılmaz bir vəhdət təşkil edirdilər və fərqləri yalnız onda idi ki, birinin yaşı o birisindən xeyli az idi. Onlar eyni zəncirin halqaları idilər, bitməyən bir zəncirin, çünki biri solub analıq yükünün ağırlığından yorulanda o birisi yetkin həyata hələ təzə qədəm qoyurdu. İndi zəncirin hər iki halqası bir yerdə mövcud idi və buna sevinirdilər. Oynadıqları rolun müstəsna əhəmiyyətini özləri də duymurdular və nə vaxt baxırdınsa, heç nə olmayıbmış kimi bəsit, mənasız şeylərdən danışırdılar.

Məsələn, bu gün paltar yuyurdular. Paltar yumaq çətin bir şey deyil, adi işdir. Hər ikisi sıxılmış paltarı səliqəylə üst-üstə qalaqlayır, təknənin suyunu boşaldır, təzədən su yığır, sabun dalınca yüyürür, corabları qurutmaq üçün elə pəncərədən

sərir, eyni zamanda da söhbətləşir, qaqqıldayıb şaqqanaq çəkir, sonra təzədən paltar taxtasının dalına keçir, yenə işə girişirdi. Siqne dolu bədənli, yaşına uyğun gəlməyən dərəcədə ağıllı gözləri olan, şən və gülməli qızdır. İndi saçları nəmlənərək möhkəm qıvrılıb, gözləri parıldayır. Tamam tər içindədir. Paltarı elə sürtür ki, təknədən sabun köpükləri qalxır. Başını bir çiyninə əyərək işini elə səylə görməyə çalışır ki, yanaqları qızarıb, saçının qıvrımlarında isə buxar damcılara dönüb.

– Oy, anacan, – qəddini düzəldib deyir, – buna bax. Rəngi çıxır ki!

– İşə bax e! – anası cavab verir. – Ömrümdə belə şey görməmişəm. Barı o biri paltarlara keçməyəydi.

– Nə danışırsan, ana! Görürsən, ağlar da rənglənib artıq. Ana, ana, bəs indi necə olacaq?

– Hə, işə düşdük! Bəlkə, nə qədər gec deyil, çıxaraq? Buna bax e! Neyləyək daha, qaynadarıq, bəlkə, ağardı!

– Oy, oy! Gör bir neylədik! Heç özüm də bilmirəm necə oldu!

Beləcə, bir müddət də danışdılar. Bir an sonra isə yenə də başlarını təknələrə sarı əyib işlərindəydilər.

Bütün ev sükut içindəydi, kimsə yoxdu. Artıq təzə bir şey baş verməyəcəyi gün kimi aydın olan günlərdən biri idi. Yalnız mətbəxdə iş qaynayırdı. Günəş qısa müddətə pəncərələrdən boylanır, elə o dəqiqə də gizlənirdi, çünki göy üzünü elə hey buludlar alırdı.

Uşaqlar ya məktəbdə idilər, ya da hərəsi öz işinin dalına düşmüşdü.

– Bəs Anders haradadır? – birdən ana duyuq düşdü.

– Yəqin, pəncərənin qabağında oturub, ona görə səsi çıxmır, – Siqne cavab verdi.

O, həqiqətən də, pəncərənin önündə idi. Yumağa dönüb, kirimişcə oturmuşdu, çərçivəyə qonmuş hisin üstündə şəkil çəkirdi. Çərçivənin bir tayını bitirib, o birisinə keçdi, hamısının üstündə nazik his pərdəsi vardı. Burdan vağzaldakı

qatarlar görünmürdü. Amma uğuldaya-uğuldaya, sürünə-sürünə necə getdiyini, yollarını necə dəyişdiyini əzbər bilirdi. O heç baxmadan da bunları görürdü. Yalnız evlərinə yaxın yoldakı parovoz yerindən tərpənəndə tamaşa etmək üçün boylandı. Bu parovoz hamısından kiçik və o qədər gülməli idi ki, Anders az qaldı qaqqıldaya. Fitini çalıb, o dəqiqə tərpəndi və bir göz qırpımında uzaqdakı ağcaqayınların dalında havaya tüstü burumları buraxaraq, gözdən itdi. Balaca parovoz ona lap doğma idi və Anders onun dalınca bir xeyli əl yellədi. Sonra yenə də yarımçıq şəkillərinə döndü.

İndi hər şey necə qəribə və boş görünürdü! Bütün dünya, sanki, harasa itmiş, hardasa gizlənmişdi, evdəki əşyalar da, sanki, başlı-başına qalmışdı, nə edəcəyini bilmirdi. Bu, vağzaldakı evin hər yerindən bəlli idi. Sanki, hər şey qırılıb bitmişdi, boğulub ölmüşdü.

O isə oturub şəkil çəkirdi. Bəsdir çəkdin! Tez ol, bağa çıx. Orada başını qatmağa nəsə taparsan. Hə, bağa, yaxşısı elə budur.

Otağa keçdi, dəhlizə çıxdı. Oradan mətbəxə qapı vardı, qulağını dayayıb dinlədi. Anası ilə Siqne söhbət edirdilər, lakin sözlərini başa düşmürdü, çünki paltar yuya-yuya danışırdılar, təknədəki su da şappıldayıb səs salırdı. Yox, içəri girmək istəmirdi, eləcə dayanıb bir az qulaq asmaq fikrindəydi. Aha, anasının dediklərini indi eşidirdi:

– Siqne, bala, bəlkə, bir qəhvə içək? Deyəsən, haqqımız çatır axı, zəhmətimizlə qazanmışıq bu haqqı!

– Əlbəttə, anacan!

– Onda dur, qəhvədanı qoy ocağın üstünə, mən də məhrəbanı durulayım, gəlirəm.

– O-o-f, – Siqne dedi. – Adam qəddini dikəldəndə ləzzət eləyir!

Güldü. Sonra da ocağın üstündəki nəyisə gurultu ilə tərpətdi.

Anders isə sivişib dəhlizə çıxdı, qaranlıq pillələrlə aşağı endi.

Həyətin dörd tərəfi anbarlar idi. Günəş yaman qızdırırdı, amma Anders, demək olar ki, hiss etmirdi bunu. Çirkab suyunu axıdan qanovun ətrafı göllənmişdi, ağzındakı tora şərab tıxacı, bir də limon qabığı ilişmişdi. Qanovun yanındakı, içində qəhvə çöküntüsü və kül olan vedrəyə solmuş çiçək dəstəsi də atmışdılar. Anders anbarların qabağı ilə getdi. Küncdə boş şüşələr qalaqlanmışdı, hələ içki iyi verirdi. Ortadakı, rənglənməmiş tikiliyə yaxınlaşmamağa çalışaraq, əks tərəfdəki anbarların qabağına keçdi. Səy göstərirdi ki, həmin tikiliyə heç baxmasın. Onun pəncərələri yox idi, təkcə bir divarında dəlik qaralırdı və əgər əlini həmin dəliyə soxsaydın, tir-tir əsərdin. Çünki içərisi buzla dolu idi bu tikilinin. Yox, yaxşısı budur, taxta anbarlara baxsın, görsün içində nə var. Hər üç anbarın qapısını taybatay qoymuşdular ki, içindəki odun qurusun, buradan ağcaqayın qoxusu gəlirdi, sanki, hər anbarın içinə bütöv bir meşə sığmışdı. Üçüncü ağcaqayın meşəsində isə bir qoca odun doğrayırdı. Onun tənbəkidən saralmış böyük, çal saqqalı, qıyıq gözləri vardı. Anbarın alatoranında başqa bir şey seçmək olmurdu.

– Xoş gördük, balaca, – qoca dedi, – xeyir ola burada?

– Elə-belə gəlmişəm, – deyə, Anders cavab verdi.

– Hə, nə olar. Qoca Yunsson isə elə hey mişarlayır, hə? Bu işə səndən azacıq iri olanda başlamışam. Səhərdən axşama kimi, hər gün, bir də baxdım ki, qocalmışam, görürsən də. Bax necə qocalmışam. Hamısı da nəyə görə? Ona görə ki, adamlar soyuqdan qırılmasınlar. Elə bilirsən ki, qoca Yunsson bütün ömrü boyu odun doğramasaydı, buralarda çox adam sağ qalardı? Min-min adam ölərdi soyuqdan. Atan da, anan da, Siqne də, ofisiantların hamısı da, lap kafenin sahibi də ölərdi – hamısı donub, daş kimi buzlayardı. Amma gör heç bu barədə fikirləşən var? Gör heç gəlib soyuqdan ölmədikləri üçün təşəkkür edərlər mənə? Hə? Heç kəs gəlməz. Onlar fikirləşirlər ki, buna görə "sağ ol" deməyə dəyməz. Amma dayanın, günlərin

birində Yunsson bezər, təngə gələr, yorular, ya da lap qocalar, daha onların qızınmağı üçün belini əyməz, hamısı soyuqdan qırılar. Necə bilirsən, əcəb olar onlara, hə?

Anders gözünü qırpmadan qocaya baxırdı.

– Hə, onda ölümdən heç cür canlarını qurtara bilməyəcəklər. Çünki qışda ocaq qalamasan, çox soyuq olur, bilirəm...

– Hə, – yenə dilləndi. – Niyə burada durmusan, az qalır, ağlayasan ki? Tez ol, tərpən günün altına, balası, nə qədər ki yaydır, canını qızdır. Qışa isə çox var hələ, qışda baxarıq. – Və onun üzündə bir az kinayəli təbəssüm göründü.

Oğlan sözə baxdı, anbardan çıxıb ətrafına boylandı. Günəş, doğrudan da, par-par yanırdı, yerə döşənmiş çay daşlarının arasından boy verən ot təzə bitibmiş kimi parıldayırdı, çirkab yığılan xəndəkdəki suyun üzündə isə incə zəncirotular üzürdü. Hər yan dinc, sakit idi, sanki, bazar günüydü bu gün. Bəs o, niyə kədərlidir? Ürəyində nəsə bir ağırlıq da var. Bəlkə, gedib mətbəxin qapısından bir az da qulaq assın? Yox, yaxşısı budur elə burada qalsın, hava əladır, gəzmək, sevinmək lazımdır. Bəs başını nəyə qatsın? Darvazanın qabağına keçib, çölə boylandı. Buradan günəşli çəmənlik görünürdü, ondan o üzdə yemişan kollarından canlı çəpər uzanıb gedirdi, səmada isə bəyaz buludlar hərəkətsiz, sərili qalmışdı. Və daha heç yerdə heç nə yox idi, yalnız hava, bomboş hava, hərdən belə də olur. Anders darvazanın önündən çəkildi.

Bəlkə, buzxanaya girsin? Bundan yaxşı nə ola bilər? Əlbəttə, ora da baş çəkmək lazımdır.

Pəncərənin kor koğuşundan üzüaşağı uzanan taxtanın üstü ilə yuxarı dırmandı, bərk-bərk yapışdı ki, yıxılmasın. Yuxarıya, qara dəliyə baxmaqdan çəkinirdi, başını çiyinlərinə sıxıb taxtanın kənarlarından ikiəlli tutdu. İçəridən qalxan soyuğun dalğasını artıq duyurdu, dəliyə yetişmişdi. Yenə də, qətiyyən baxmadan içəri tullandı.

Zil qaranlıq idi. Soyuqdan bütün bədəni titrəyirdi, iməkləyə-iməkləyə yaş taxta kəpəyinin üstüylə irəliləyirdi. Buz parçaları

səliqəylə yığılmamışdı, bəzi yerdən xeyli götürərək, çalalar yaratmışdılar, başqa yerlərdə, əksinə, parçalar bir-birinin üstünə qalaqlanırdı. Kənarlarda isə kəpəyin arasından buz parçaları çıxırdı və əli o yerlərə toxunanda barmaqları keyiyir, onları hiss eləmirdi.

Anders buzxana ilə sürünürdü, buralar zil qaranlıq, soyuq, qorxunc idi. Ürəyi ağzından çıxırdı – yox, hələ donmayıb, gicgahları elə guppuldayırdı ki, elə bil, möhkəm qızdırması vardı. Dəhşət! Sanki, basdırıblar səni, bilmirsən o dünyadasan, yoxsa bu dünyada. Anders tir-tir əsirdi...

Görəsən, kimdir həyətdə gəzən, deyəsən, atamdır... Deşiyin ağzına süründü, ehtiyatla bayıra boylandı. Hə də, atamdır, evə gəlib. Onu çağırmaq istəyərdi, bir yerdə mətbəxə qalxardılar, pilləkəndə isə atasının əlindən tutardı, bura lap zəhləsini tökmüşdü, amma yox, yaxşısı elə burada qalmaqdır, atası artıq evə girmişdi, Andersin isə ağzıaçıq qalmışdı, lakin cınqırını belə çıxarmadan onun dalınca baxa-baxa qalmışdı.

Bura necə soyuq, iyrənc, qorxuludur. Zülmət və dəhşət soyuq... Pəncərədən içəri süründü, bir az da soyuq oldu. Ayaqları yaş kəpəkdə batırdı, divarlar, tavan islanıb piltə-piltə tökülmüşdü. Sakitləşdi, deyəsən, artıq tamam donmuşdu. Hətta barmaqlarını da tərpədə bilmirdi.

Oy, deyəsən, çoxdan buradadır. Nə qədər keçib, görəsən? Tamam donub? Yox, başı alışıb-yanır, bütün bədəni yanır. Gərək özünü pəncərəyə yetirib təmiz hava alsın, günəşə baxsın. Təngnəfəs olmuşdu, boynunu cidd-cəhdlə uzadaraq, qorxu içində həyətə baxırdı.

Budur, atası əlində zənbil evdən çıxdı.

– Ata! – Anders qışqırdı. Ona elə gəldi ki, var gücüylə qışqırır, lakin atası eşitmədi.

– Ata! – bir də qışqırdı. Bu dəfə atası başını qaldırdı.

– Anders, orada neynirsən? Tez düş aşağı! Niyə çıxmısan ora? Biz də səni axtarırıq. Nənəngilə getmək istəyirsən? Ata səni drezinada aparacaq. Hə, gedirsən?

– Nənəgilə! – oğlan qışqıraraq əllərini yellədi. – Dayan bir dəqiqə, indi gəlirəm!

O dəqiqə də pəncərədən çıxaraq taxtanın üstüylə aşağı sürüşdü. Atasının üstünə atılıb qolundan sallandı.

– Hansı drezində gedirik? Rəisdən götürəcəyik, yoxsa Karlssondan? Getdik, tez gedək, bəs zənbildəki nədir, nənəyə aparırsan, tez gedəcəyik? – deyə birnəfəsə hüdülədi.

– Sənə nə olub? – atası ona diqqətlə nəzər salıb soruşdu. – Buzxanada nə işin vardı?

– Heç, – gözünü yerə dikib dilləndi. – Elə bir az dayanıb baxdım. Nənəgilə istəyirəm. Elə indi gedirik də, hə, ata, indi?

– Yaxşı, getdik, – deyib atası onun əlindən tutdu.

Onlar darvazadan günəşli çəmənliyə çıxdılar. Oğlanın tənəffüsü getdikcə tənzimlənirdi. Ətrafına baxdı, mavi səmaya baxdı, sonra təzəcə dırmıqlanmış, indi isə günün altında qızaraq kef eləyən sarı qumlara, çiçəkləmiş yemişan kollarından çəpərə nəzər saldı. Bir az da gedəndən sonra başını qaldırıb, sınayıcı nəzərlərlə yuxarı, atasının üzünə baxdı.

– Nə yaxşı oldu ki, gedirik, – və utancaq bir ifadə ilə astaca güldü.

– Əlbəttə, – atası cavab verdi.

Yalnız daha bir neçə addımdan sonra Anders, nəhayət ki, tullanaraq irəli yüyürdü, stansiyaya aparan alaqapını açıb pillələrlə aşağı cumdu, sonra bir də yuxarı qayıtdı, atasını da dalınca dartıb, bir də güllə kimi dəmir yoluna sarı üz qoydu və relslərin üstüylə addımlamağa başladı, gah ora, gah bura, gah üzüqabağa, gah daldala...

– Görürəm ki, kefin kökdür, – atası dilləndi.

– Oy, gör nə gözəl havadır! Hə, ata? Bax mənə, qaça-qaça da gedə bilirəm!

– Ehtiyatlı ol, yıxılarsan! – atası onun dalınca qışqırdı. Amma o yıxılmadı. Bir xeyli irəli qaçdı, elə geri də qaça-qaça qayıtdı.

– Ata, bəs bizim drezina hanı?

– İndi görərsən, yük anbarının yanında durub.

Onlar birbaş anbara tərəf getdilər. Drezinanı divara söykəmişdilər – üçtəkərli böyük taxta lövhə və dəmirdən uzun dəstək – üçtəkərli drezinaydı, vəssalam. Əvvəlcə onun dalınca gedib bir xeyli itələməli oldular, təkcə zənbillərini mindirmişdilər üstünə.

– Bəs biz nə vaxt minəcəyik? – deyə atasından əl çəkmirdi.

– Gözlə, – atası cavab verirdi, – relsin üstünə endirək, sonra.

Anders qabağa qaçıb göz qoyurdu ki, drezina ləngərləməsin, yoxsa zənbil aşar, nənəsinin qəhvəsi, şəkəri, bir də ki mayası dağılardı.

Stansiyanın yanından şəhər qəbiristanı uzanıb gedirdi. O, qəbirlərə baxmaq istəmirdi, üzünü yana çevirirdi. Nə boyda qəbiristan idi! Andersin indi başı qarışıq idi, nənəsinin zənbilini güdürdü, həm də baxmalı o qədər şey vardı ki ətrafda – lap elə yolun o üzündəki odun qalağı, bax da, nə qədər istəyirsən. Atasıyla da söhbət edə bilərdi, onda qəbiristan lap tez qurtarardı. Budur, artıq o qədər uzağa gediblər ki, burada daha qəbir-zad yoxdur, tərtəmiz, yaşıl çəmənlikdə ancaq cavan cökə qələmələri basdırıblar – tabut üçün, hələlik torpağın üstündə gəzənlərin yolunu gözləyir bu körpə pöhrələr. Atasına sığındı.

– Nə vaxt minəcəyik axı? – pıçıldadı.

– Bir azca da döz.

Alaqapının o üzünə keçən kimi yola düşdülər. Anders ayaqlarını kiçik təkərə sarı uzadıb oturmuşdu, zənbili bərk-bərk tutmuşdu. Atası taxtanın enli tərəfində, iki təkərin arasında dayanaraq dəstəyi çəkirdi.

Sürəti tez yığdılar. Bir azdan şəhər də uzaqda qaldı. Dəstək çınqıla dəqiq, nizamla vururdu, təkərlər var gücüylə hərlənir və relslərin qovşağında elə taqqıldayırdı, sanki, əsl qatar idi gedən. Çox sakit bir gün olsa da, elə bir külək qopdu ki, hər ikisi papağını qulaqlarının üstünə çəkəsi oldu.

– Bərk tutmusan? – sürəti azaltmaq üçün əyilmiş atası soruşdu.

– Hə! – deyə Anders onun cavabında qışqıraraq, bəxtəvərcəsinə güldü. Əvvəlcə onlar çəmənlik boyunca şütüyürdülər. Çiçəklər rəngbərəng işıq nöqtələri kimi, arxaya uçurdu, hansı güllər idi, görünmürdü, relslərin üstünə qarışıq bir rayihə yayılmışdı. Sonra meşə başladı. Möhkəm küknar iyi gəldi, amma ağcaqayın ağaclarının, qızılağacın, şamın, ardıcın incə, yüngül qoxularını da sezmək olurdu. Sonra da zərif çiyələk iyi dəydi burnuna, buralar əsl çiyələk yerləriydi, dörd bir tərəf meyvədən qırmızıya boyanmışdı, adamın gözlərində qırmızı ləkələr ilişib qalırdı, amma onlar daha uzağa, uzağa, lap uzağa getməliydilər. Yamaclarda hansı çiçəklər parlamırdı ki: yabanı kətan da, qaymaqçiçəyi də, çobanyastığı da, yonca da vardı, nə bitmirdi ki buralarda... Hamısı da qoxuyur, alışıb-yanır və sayrışaraq gözdən itirdi, bir az o yanda isə küknarlar, ağcaqayınlar, ardıc kolları birbirini əvəz edirdi. Telefon dirəkləri arxaya qaçırdı, elə bil, evlərinə tələsirdi, sanki, yolları drezinanınkı ilə əks istiqamətdəydi.

Anders diqqətlə baxırdı, istəmirdi ki, gözündən nəsə yayına, yanaqları azacıq avazımışdı, ona isti idi, ürəyi sevinc içində çırpınırdı. Sevindiyindən içinə sığmırdı. Atası qabağadala əyilir, dəstəyin şpallara dəyməməsinə, sürüşməməsinə göz qoyurdu, amma elə-belə baxırdı, ehtiyat üçün, onlar getdikcə daha sürətlə, sürətlə, sürətlə şütüyürdülər.

Budur, dəmir yolu xətti çayın döngəsindən keçmək üçün burulur. Bu tərəf tamam sudur – çaylar, arxlar, meşə gölləri. Ara-sıra körpülər də dəyir gözə. Burada atası elə sürət yığmışdı ki, hər şey gurultu ilə yanlarından ötürdü.

– Gözlə, papağını itirərsən! – deyə oğluna qışqırdı.

– Qooorxma! – Anders çığırıb həm papağından, həm də zənbildən bərk yapışırdı. Elə uçurdular ki, qulaqlarında fit səslənirdi.

Budur, stansiya nəzarətçisinin evi görünür, uşaqlar yasəmən kollarının arxasından təəccüblə boylanır, heyrətdən önlüklərini dartışdıraraq, atılıb-düşürlər. Drezina isə artıq çayın üstündən keçən böyük körpüdədir və dəstəyi yorulmadan çəkərək irəli uçurlar, aşağıda da sel kimi su qıjıldayır.

Bu da stansiya. Sürətlərini azacıq yavaşıtdılar, amma çox yox, çünki stansiya balaca idi, hər başında bircə oxu vardı. Rəis perronda gəzirdi. Onlara dəmiryolçu salamı verdi, belə kiçik stansiyalarda dayanmayan əsl qatarı salamladığı kimi salamladı onları.

Yenə də sürət yığdılar. Dəmir yolu zəmilərin, çəmənliklərin arası ilə böyük, lakin tərk edilmiş bir təsərrüfatın yanından ötüb, sonra bir də meşəyə girirdi. Burada yolun hər iki tərəfi quş cəh-cəhi ilə dolu enliyarpaq ağaclardan ibarət meşəydi. Xətdə səkkiz kişi işləyirdi, çürük şpalları dəyişirdilər. Drezina yanlarından ötənə kimi əl saxladılar. Tələsməklərinə baxmayaraq, onlarla salamlaşmasaydılar, yaxşı olmazdı, amma papaq çıxarmağın da yeri yox idi və Anders zənbili əlindən buraxmadan başını elə atası kimi tərpətdi.

Sonra yoxuş başlandı, amma elə sürət yığmışdılar ki, heç hiss etmədilər. Bu yoxuşdan sonra xətt üzüaşağı aparır, buranı keçmək lap asandır, bircə qulaqlarındakı fit güclənəcək. Təpənin üstündə görünən isə yenə nəzarətçinin evidir. Nəzarətçi damda, bacasının yanında oturub gündöyəndə damını qatranlayırdı.

– Bu nə qrafikdənkənar qatardır belə? – deyə, yuxarıdan qışqırdı.

– Bu, bizik! – atası cavab verdi. Drezina isə artıq üzüaşağı uçurdu.

Atası dəstəyi hazır saxlamışdı ki, ehtiyac yaransa sürəti yavaşıda bilsin. Qulaqlarında küy vardı. Andersin ayağının altındakı təkər elə sürətlə fırlanırdı ki, milləri görünmürdü, sanki, sevindiyindən təkər də atılıb-düşürdü. Lap səhərlər tövlədən çölə buraxılan dayça kimi. Relslər səf çəkmişdi,

zəncirotu, qaymaqçıçəyi, yonca da səf çəkmişdi, telefon naqilləri günün altında nazik xətt kimi bərq vururdu, sərçələr ürkərək qanad çalır, naqillərdən pırr eləyib qalxır, ağac və kolların arasından uçaraq, hətta dələnin keçə bilməyəcəyi qədər sıx olan meşəyə tələsirdi.

Bir neçə dəqiqə ötdü, uzun yamacın enişi də qurtardı. Və göz önündə geniş vadi açıldı, çoxlu sulu çəmənliyi, balaca gölü, əkin, otlaq sahəsi, çəpəri, bataqlığı, meşəsi və yulafı, çovdar sahələrinin arasına səpələnmiş həyəti olan bir vadi. Günün altında hər şey par-par yanırdı, buradan lap uzağı da görmək mümkün idi deyə, babasının çinarların altındakı həyətini gördü. Artıq yavaş gedirdilər. Sahilində qamış, suzanbağı bitən enli çayı sakit keçdilər, kələ-kötür yola dirənəndə əyləci çəkib hər ikisi yerə tullandı. Çatmışdılar.

– Əla gəldik! – oğlan əl çala-çala atasının başına dolanaraq gülürdü. Atası da məmnuniyyətlə gülümsündü və drezinanı yoldan çəkib otluğa uzatdı. Babasıgilə hərəsi zənbilin bir qulpundan tutub getdilər.

Anders həyəcanlı idi, yüyürməkdən özünü zorla saxlayırdı. Atası həvəslə, yüngül addımlayırdı, elə bil, iyirmi yaşı vardı. Onu güldürmək üçün Anders zənbili hərdən bir özünə sarı çəkirdi və hər ikisi, beləcə, bir yerdə, yanaşı getməyinə gülürdü.

Atası bir az qəribə adamdı. Adama elə gəlirdi ki, o, təbiətcə nikbindir. Amma bu, kənardan nadir hallarda sezilərdi, çox vaxt isə içindəki qəribə sıxıntını özündən uzaqlaşdıra bilmirdi, sanki, nəsə məhdudlaşdırırdı onu. Qayğısı çox idi, amma məsələ bunda da deyil. Bu cür adam idi: şadlığını elə gizlədir, qabağını elə alırdı ki, elə bil, nəsə utanmalı bir şey vardı onda, elə bil, içində boğmaq istəyirdi onu.

Amma indi ikisi də ürəkdən sevinirdi. Tanış zəmilər payızqabağı görkəmlərinin bütün təntənəsiylə göz önündə canlanırdı, çovdar sünbülləmişdi, havanın istisi çəpərlərin üstündə

qaynayırdı. Yol artıq çaydan aralanmışdı, dəyirmanı keçdilər, üstü unlu dəyirmançı onlara əl elədi. Sonra bir dənə kiçik çaydan da ötdülər, sahilindəki yoxuşu qalxan kimi həyəti də, evi də gördülər.

Hündür, uzun bir ev idi, divarlarının qırmızı rəngi tamam tökülmüşdü deyə, boz tirləri görünürdü. Çinarların kölgəsi evin damına düşürdü. Bir az o tərəfdə lap köhnədən tikilmiş, son zamanlar azacıq əl gəzdirilmiş mal tövləsi dururdu.

Addımlarını yeyinlətdilər, evin pəncərələrinə baxa-baxa, az qala, qaçırdılar – bəlkə, bir hərəkət göründü, amma pərdələr tərpənmirdi. Əvəzində buzov yüyürdü pişvazlarına, dartınır, bağlandığı payanı yerindən çıxarmaga çalışaraq, burnunu onların ovuclarına sürtüb, böyürürdü. Sonra pərdə də tərpəndi. Onlar artıq bağçadan keçirdilər.

Nə qədər alma, armud ağacları, yasəmən kolları vardı burada, bir az o üzdə isə pion, georgin, parlaq rəngli gülümbahar, hündür malva, yay münasibətilə evdən çölə çıxarılmış ətirşah, rayihəsi uzaqdan duyulan levkoya, lavanda və rezedaların səltənəti başlanırdı. Cığır boyu çubuqdan hörülmüş alçaq çəpər uzanırdı, Anders barmaqlarının ucunda dikəlib qarağat kollarına baxdı. Evin kandarındakı çiçəklərin arasında isə artıq nənəsi durmuşdu.

– Gör kim gəlib bizə! Mənim balalarım!

Nənəsi artıq o qədər qoca idi ki, onun üçün hər ikisi bala sayılırdı. Gör nə qoca idi! Arıq üzü tam qırışmamışdı, addabudda şırımları vardı ancaq, möhkəm bədəni yaş ötdükcə kiçilmiş, sanki, torpağa yaxınlaşmışdı, əynində də quru torpağı andıran boz ətəkliyi vardı. Bütün bunlara baxmayaraq, elə anasına bənzəyirdi. Elə həmin gözlər, çallaşsa da, elə həmin seyrək saçlar. Zahiri sərtliyinə baxmayaraq, o da Andersin anası kimi sanki, nur saçırdı. Onların əlini sıxır, qəhvə, şəkər, Andersin tələsik çıxardığı başqa hədiyyələr üçün təşəkkür edir. Sonra ikisini də otağa itələyir, özü isə elə ayağındakı corabla artırmaya çıxır.

Artırmadan qəribə köhnə taxta, torpaq və quru peyin qoxusu gəlirdi. Taxta başmaqların iyiydi. Otaqda isə saralmış kağızın üstünə düzdüyü soğanın qoxusu vardı.

Qapının pərdəsini qaldırıb otağa girdilər.

Bayırın işığından içəri girəndə otaq adama yaman qaranlıq gəlirdi. İki iri, üstünə dəri salınmış çarpayı və ortadakı masa – otağın, demək olar ki, bütün mebeli bunlardan ibarət idi, pəncərənin qabağında toxucu dəzgahı vardı, üstündə də yarımçıq mələfə parçası. Sobadakı mis qazanda donuzlar üçün kartof qaynayırdı. Babası isə oturub oda nəzarət edirdi. Babası da qoca idi, amma onun da möhkəm bədəni vardı. Enli, ciddi sifəti, təmiz qırxılmış üzü, sərt, dişsiz ağzı vardı. Burum-burum ağ saçları çiyinlərinə tökülürdü. Babası dəri şalvar və qalay düymələri olan dəri jilet geymişdi. Yerindən tərpənmədi; xəstə ayaqları sözünə baxmırdı, onların yaxınlaşmasını gözləyirdi.

– Hə, baba, işlərin necədir? – atası dilləndi.

– İlahinin kəráminə şükür, – ucadan cavab verdi; qulaqdan zəif idi, – hər şey yaxşıdır. Bəs siz necəsiniz, şəhərdə nə var-nə yox?

– Çox sağ ol, hamı sağ-salamatdır, – atası da ucadan cavab verdi.

– Bəs sən necəsən, balaca? Gör atan səni nə uzaqlara gətirib...

Babası Andersi dizlərinin üstünə əyləşdirib damarlı əlləriylə başını sığallayırdı. Andersin dünyada ən çox sevdiyi şey elə babasının dizləri üstündə oturmaq idi, onun üzünə baxır, gödəkcəsini əlləşdirirdi... Babanın bədəni yaşına görə çox möhkəm, sərt idi.

Atası ilə babası xeyli söhbət elədilər; aramla və ucadan, səsləri divarlardan əks-səda verirdi. Baba hər şeylə maraqlanırdı. Hər şey barədə tam ciddi danışırdılar. Hətta sevindirici, gülməli hadisələrdən də. Atası indi tamam başqa adama dönmüşdü. O, barmaqlarını çarpazlayaraq, azacıq əyilib oturmuşdu, lap axşamlar Müqəddəs kitabı oxuyanda göründüyü

kimi, yaşlı görünürdü. Qazandakı kartofun buxarı otağı doldurmuş, pəncərələri tərlətmişdi.

Nənə isə elə hey mətbəxlə otağın arasında gir-çıxdaydı. O heç vaxt dincəlmir, daim özünə bir iş tapırdı. Lakin ayağında təkcə corab olduğundan addımlarının səsi heç eşidilmirdi. Yaxınlaşıb kartofun vəziyyətinə baxdı, hələ hazır deyildi.

– Balası, sən gedib qarağat yeyəydin barı, – Andersə dedi.

O da, elə bil, ayıldı, doğrudan ha, qocaların yanında nə işi vardı ki, babasının dizlərindən sürüşüb düşdü, bayıra çıxdı.

Bağçadakı rənglər, xüsusilə də od rəngli pionlar gözünü qamaşdırırdı. Çiçəklər öz ağuşlarını, güllərə azacıq toxunan kimi, sanki, elə qoxulamaqdan doyurmuş təki uçub gedən gözəl, bəzəkli kəpənəklərə, çalışqan arılara etibarla açmışdı. Anders qarağat kollarının arasına girdi. Kolların altında ılıq, zərif torpaq vardı, bəlkə, buranı toyuqlar eşmişdi, yumurtlamaq üçün? Hər yerdə lələklər vardı, onları yığıb bir kənara atdı, kiçik təpələrdən birinin üstündə yerini rahatlayıb əllərini kola salaraq, yeməyə başladı. Kollar başdan-ayağa salxım idi. Bəziləri kölgədə yetişdiyindən dənələri iri, amma turş, digərləri gündöyənə düşdüyündən xırda, lakin şirin idi, hansını istəyirsən, seç. O da diqqətlə, düşünərək seçir, şirin daddan bezəndə turşlarına keçirdi. Özü isə nə görünür, nə də səsi çıxırdı. Kim görəcəkdi onu? Bağda da, yolda da kimsə yox idi. Hər tərəf sakit idi. Ancaq çay kənarındakı çəmənlikdə arabir inək böyürür, ya da kolluqların üstündə uçuşan milçəklər vızıldaşırdı. Vəssalam. Heç yel də əsmirdi, çinarlar günün altında mürgüləyirdi, hətta həmişə əsən cökələr belə donub qalmışdı. O, hərdən kolları aralayıb, ya səmanın maviliyinə, ya da göy üzündə donub qalmış buluda baxırdı.

Qarağatdan qarnı partlayana qədər yemişdi ki, nənəsi də evdən çıxdı. Kartofu ocaqdan götürmüşdü, donuzlara yem verməyə gedirdi. Ətrafına qulaq verdi, göz gəzdirdi, deyəsən, onu axtarırdı, ay tapdı ha!

– Ay şuluq, hara itmisən, – qışqırdı, – mənimlə gedirsən donuzları yedirtməyə?

O isə kolların dalıyla ehmallıca alaqapının yanına keçdi və orada da nənəsini azacıq qorxutdu. Əgər qaranlıq olsaydı, əməlli-başlı qorxardı. Onlar tövləyə yollandılar.

Ana donuz süd əmən balalarının arasında uzanmışdı. Ayağa qalxanda bədənindən kəsafət tökülürdü, balaları da ora-bura qaçışdılar, amma bütün donuz ailəsi yeməyi görüb yaman sevincək olmuşdu. Yemin üstünə cumub, bir göz qırpımında uddu hamısını, balaları da vəlvələdə idilər, amma onlara bir şey çatmadı. Andersla nənə işlərinə davam etdilər. Hələ xeyli işləri vardı. Buğaların, boğaz inəyin altını təmizləmək, peyini bir yerə toplamaq. Yayda peyin qıt olur, otlaqlarda əbəs yerə zay olub qalır. Mal-qara həyətində bir yerə yığmışdılar peyini, gün qurudurdu. Boğaz inək axurun qabağından ağır-ağır onlara sarı çöndü, böyürərək Andersə baxdı. Yuxarıdakı taxçada oturmuş toyuq həyəcanla qaqqıldadı.

– Deyəsən, yumurtlayıb, – nənəsi dedi. – Anders, bir bax gör!

O da nərdivanla yuxarı dırmaşdı.

Yuxarının saman qoxuyan alaqaranlığında əvvəlcə bir az duruxdu. Samanı təzəcə gətirmiş və necə gəldi qalaqlamışdılar, odur ki, içəridəki hər şeydən təzə saman iyi gəlirdi. Bura qaranlıq olsa da qətiyyən qorxulu deyildi. Pəncərədən işıq düşürdü. Anders pəncərəyə yaxınlaşıb boylandı, sonra ayaqlarını çölə sallayıb yellədi. Yumurtanı o dəqiqə tapdı, hələ ikincisini də gördü.

– Anana apararsan, – nənəsi dedi.

Nənənin yanında gəzmək, ona kömək göstərmək, əl-ayaq etmək, söhbətləşmək yaxşıdır. Nənəsi ciddi adamdır, hər şeyi başa düşür, həm də çox mehribandır, bu elə baxan kimi görünür. Onunla gedəndə hər şeyi o qədər aydın görürsən ki, daha heç nədən qorxmursan.

Tövlədəki işlərini qurtaranda artıq inəkləri sağmağın vaxtı idi. Axşam düşürdü, hərçənd ki, günəşin istisi hələ də

vardı. Çəmənlik o qədər yaş idi ki, nənəsi ayaqqabılarını çıxarası oldu, Anders isə onun taxta başmaqlardan qabarlamış iri ayaqlarının ləpirləriylə təpəcikdən təpəciyə tullana-tullana gedirdi. İnəklər sağılmaq üçün özləri çıxırdılar bayıra, sağanda da sakit dururdular, Anders isə onların quyruqlarından yapışırdı ki, heyvanlar milçəklərini qovanda nənəsini şapalaqlamasınlar.

Buralar gözəl idi, çay boyu əla mənzərə açılırdı. Torpaq dincəlirdi. Evlər çayın üstünə uzun kölgələr salmışdı. Bu tərəflərdə tikili az idi, otlaqların, meşəli təpələrin, tarlaların arasında adda-budda gözə dəyirdi. Bu çökəkliyin torpağı suyun məcrasından yüksək deyildi və otların arasında günəşin altında sevincək parlayan su görünürdü. Əsl yay günü idi, lap həşərat da ləzzət alırdı belə gündən.

Əllərində süd evə dönəndə şərq tərəfdə nəsə guruldadı və nəfəs almaq azacıq çətinləşdi. Təsərrüfatlarını idarə eləyən dayısı meşədən təzəcə gəlmişdi, odun gətirmişdi və indi də buğaları tövləyə salırdı. Xoş bir görüş. Dayısı qoca deyildi, ağbəniz, mavigözlü, bəstəboy və möhkəm bədənli, çox işgüzar adam idi. Əllərinin dərisi ağac qabığı kimi sərt idi, bir barmağı çatmırdı: nə vaxtsa təzə evlənənlərin şərəfinə toyda güllə atanda barmağını aparmışdı. Ona da kömək etdilər, mal-qaranı içəri saldı. Dayısı bu gün, demək olar ki, heç danışmırdı, yəqin, çox yorulmuşdu, oturub nəfəsini dərirdi – ancaq ağır, adamı əldən salan iş günündən sonra belə nəfəs alırlar.

Sonra üçü bir yerdə bağdan keçdi. Göy bir də guruldadı və lap bürkü düşdü. Belə gözəl bir gündə bu bürkü nə idi, görəsən... Atası ilə babası indi zalda oturmuşdular və hamı artıq şam yeməyini gözləyirdi.

Qoca sobanı qalayıb içində donuz əti olan tavanı üstünə qoydu. Sonra da boşqabları, çəngəl-bıçağı stolun üstünə düzdü. İndi də dayısıyla atası söhbət edirdilər. Çinarları qəflətən külək vıyıldatdı və elə o dəqiqə də otağa pəncərədən bir qaranlıq doldu. Nənə cızıldayan tavanı stolun üstünə qoyduğu

iki taxta parçasının üzərinə endirdi. Ət ləzzətli iy verirdi. Baba ayağa qalxıb, ucadan süfrə duası oxudu və hamı, sanki, çiyinlərinə birdən düşmüş sözlərin ağırlığından əyilib oturdu və sükut içində yeməyə başladı.

Yedikləri müddət ərzində heç kəs danışmırdı. Nənə bir az uzaqda, stolun o biri başında oturmuşdu, hərdən durub səssizcə mətbəxə keçir və elə səssizcə də qayıdırdı. Bax şimşək stolu işıqlandırdı. Hamı diqqət kəsildi, amma göyün gurultusu o dəqiqə eşidilmədi.

– Heç işıq da lazım deyil, – nənə dilləndi.

– Uzaqdadır, – dayı cavab verib özünə bir tikə də ət götürdü. Ağaclar yenə bir anlıq təlatümə gəldi və ortaya yenə sükut çökdü, indi hər yarpağın səsini eşidərdin. Külək əsən kimi malva çiçəkləri özlərini pəncərəyə çırpdı və otağın içi şimşəyin işığından bir də alışdı.

– Mən gedim, – atası dedi. – Bu gün növbətçiyəm.

– Belə havada hara gedirsiniz? – nənə təəccübləndi.

– Birtəhər gedərəm. Amma Anders qoy gecəni sizinlə qalsın, – deyə qərarını verdi. – Səhər gəlib səni də apararıq.

Anders əvvəlcə başa düşmədi ki, niyə ayrılmalıdırlar bir-birindən. Yəni burada tək yatacaqdı? Niyə? O da evlərinə getmək istəyirdi.

Amma artıq qərar verilmişdi, daha ev barədə fikirləşməyin yeri deyildi.

Yeməklərini yedilər və atası sağollaşdı. Bir-bir hamısına yaxınlaşırdı, Anders gözünü ondan çəkmirdi. Sonra atasını artırmaya qədər ötürüb, oradan dalınca baxırdı. Bağa qaranlıq çökürdü, bayaqkı sakitliyi yox idi artıq. Külək yarpaqlarını çevirdiyindən çinarlar da bozarmışdı. Budur, atası təpənin arxasında gözdən itir. Yox oldu, tamam itdi! Bəlkə, Anders onu bir də görməyəcək?

Qəflətən parlaq şimşək ətrafdakı hər şeyi işıqlandırdı – otlaqları, üstü süpürgə kollarıyla dolu təpələri, meşə zolaqlarını – indi torpaq boz və boş görünürdü, səmanı isə, sanki, odlamışdılar.

Anders özünü içəri atdı, qapını külək əlindən alırdı, dəstəyindən bərk yapışıb var gücüylə çəkdi və dəhşətdən ağappaq olmuş halda içəri təpildi. Elə bu an bir də guruldadı, hər tərəf səsə gəldi, şüşələr cingildədi. Sobanın kənarında oturmuş babası başını qaldırıb ətrafına nəzər saldı, pəncərədən çölə baxdı.

– Göy gurultusuna qulaq asmaqdan xoşum gəlir, – dedi. – Tanrının əli hiss olunur onda.

Sonra çətinliklə, ağır-ağır durub "İncil"inin dalınca getdi.

– Mənim fırçam hanı, Stina? – deyə soruşdu. Nənə ona at tükündən özünün düzəltdiyi girdə fırçanı verdi. Saçlarına sığal çəkdi, indi onlar çiyinlərinə səliqə ilə tökülürdü. Sonra ağır "İncil"in kəmərlərini açdı və oxumağa başladı:

"Bilirəm, ilahi, insanın iradəsində deyil getdiyi yol, gedən təyin etmir ləpirlərinin səmtini. Məni cəzalandır, ilahi, amma ədalətinlə cəzalandır, qəzəbinlə yox".

Oxuya-oxuya səsini də getdikcə ucaldırdı, müqəddəs kəlamın hər sözü onun ağzında xüsusi inamla səslənirdi. Nənə isə iş görə-görə dinləyir, arabir sakitcə köksünü ötürürdü. Dayısı pəncərənin qabağında oturub bayıra baxırdı. Bütün otaq yenə ani işıqlandı, bu dəfə pəncərənin arxasındakı hər yarpaq belə aydın göründü və elə o dəqiqə də gurultu qopdu. Qoca qımıldanmadan oxuyurdu.

Nənəsi artıq qab-qacağı yığışdırıb oturmuşdu, dincəlirdi. Heç kəs yerindən qımıldanmırdı. Şimşək pəncərələri döyürdü və nəhayət, yağış da başlandı, göy gurultusu isə kəsmək bilmirdi, ildırım əməlli-başlı meydan sulayırdı.

Anders özünə yer tapa bilmir, otaqda gəzişirdi, büzüşərək, əvvəlcə toxucu dəzgahının yanında oturdu, bir azdan stolun böyrünə keçdi, sonra otağın küncünə, çarpayının yanına, özünə arxayın bir yer tapa bilmirdi; axı ildırım hər yanı vura bilərdi. Evdəkilər isə oturub sakitcə qulaq asırdılar. Anders gözünü babasından çəkmirdi. Qırışlı üzü sakit idi, alnı demək olar ki, hamardı, amma yanaqlarında və ağzının kənarlarında

dərin şırımlar – uzun ömrün izləri vardı. Babası bir zamanlar, artıq yaşlaşandan sonra heç nəyin fərqinə varmadan qaynar bir həyat yaşamışdı, lakin ailədə bu barədə danışmazdılar deyə, Anders də heç nə bilmirdi. Amma bir erkən gəncliyində, bir də ixtiyar çağlarında Tanrı qorxusu canına girmişdi, dini inancların ciddi təsiri altında yaşayırdı.

Şimşək ötüb uzaqlara getmişdi. Babası isə hələ də oxuyurdu. Nənə barmaqlarını çarpazlayıb gözlərini çəkmədən dinləyirdi.

Yağış kəsirdi, amma ağaclar sakitləşməmişdi. Divardakı saat doqquz dəfə vurdu. Babası da kitabını şappıltı ilə bağlayıb, gözlərini qaldırdı.

– Səmalardakı atamızın adı ilə, amin. Amin.

Anders stuldan qalxdı. Artıq yatağa girməyin vaxtı idi. Dayısı hamıya xeyirli gecə arzulayıb öz otağına, yuxarı qalxdı. Oğlan isə nənə-babası ilə, qocalarla qaldı. Onlarla birlikdə yatmaq oğlana qəribə gəlirdi. Onlar soyundular, Anders babasına şalvarını qatlanmayan ayaqlarından çıxarması üçün kömək etməli oldu. Qoca yatağının yanında dizi üstə düşüb ucadan axşam duasını oxudu, nənənin yardımı ilə yerdən qalxdı və yay olmasına baxmayaraq, hər ikisi üstlərini dəri ilə basdırıb uzandı.

Anders də tez soyundu, onun üçün hazırladıqları yatağa girdi. Nəhəng çarpayıda hələ çox yer vardı, qalın, ağır yorğan sinəsini sıxır, sifətinə dırmaşırdı.

Oğlan geniş açılmış gözlərini zülmətə zilləyərək, özünü yuxuya verməyə çalışırdı. Hər yer qaranlıq idi: bağ da, çayın yanı da, zəmilər də, amma otağın içi hər yerdən qaranlıq idi, o da bu qaranlıqda qocaların yanında təkcə uzanıb. Diqqət yetirdi, səsləri gəlmirdi. Yəqin, yatmışdılar. Çinarlar da səsini kəsmişdi, yarpaqlarının bircə xışıltısı da eşidilmirdi. Amma hər yerdən sakit bura idi. Təkcə ürəyinin guppultusunu eşidirdi.

O, babası, nənəsi barədə fikirləşirdi. Yaman qoca idilər. Qocalıqdan tamam qırışmışdılar. Artıq iyləri də qoca iyi idi. Burada hər şeydən iy gəlir. Döşəyin samanından, balışüzündən.

Toxucu dəzgahının üstündə qalaqlanmış əlçim-əlçim qoyun yunundan. Döşəmənin enli, üstündə qara çopurları olan sürtülmüş taxtalarından. Açıq sobanın hisindən. Artırmadakı taxta başmaqlara yapışmış palçıqdan. Hər şeydən qoca iyi gəlirdi. Burda hər şey çox qoca, çox köhnə idi.

Yox, yuxuya gedə bilmirdi. Ürəyinin guppultusu da sakitləşmək bilmirdi. Yorğan sinəsini basır, rahat nəfəs almağa imkan vermirdi. Nə istidir bura...

Tss.. Yox, səs gəlmir.

Niyə səsləri heç gəlmir? Məgər nəfəs almırlar ki? Özüm gör necə fısıldayıram...

Doğrudan ha, səsləri heç çıxmır. Tamam sakitlikdir. Hənirti də yoxdur.

Bəlkə, nəfəs almırlar? Bəlkə, ölüblər? Gör necə qocadırlar, hansı dəqiqə desən, ölə bilərlər. Yəqin, yəqin, ölüblər artıq!

Durmaq lazımdır. Amma qaranlıqdır. Onlar ölüblər!

O qalxır, özünü birtəhər onların çarpayısına çatdırır.

Əlini uzadır... babasına toxunur... qırışlı boynuna... açıq ağzına...

Yox, ölməyiblər, sakitcə yatıblar, hər ikisi.

Astaca yerinə qayıdır. Və artıq yorğunluğu ona qalib gəlir, yuxulayır. Hərdən yatağında narahatlıqla oyan-buyana çönür, dərindən köks ötürürdü. Yuxuda görürdü ki, hər yer zülmətdir: bağ da, zəmilər də, meşə də, stansiya da, ata-anasının yanı da. Zülmət çönüb böyük qaranlıq bir qəbir olur; içində isə həm ölülər, həm dirilər vardı. Yuxarıda, alışıb-yanan səmada isə şimşək gurultusunu andıran bir səs ölülər və dirilər haqqında anlaşılmaz şeylər oxuyur.

* * *

Bir dəfə payızda on iki yaşlı Anders öz daşının yanına getdi. Bu daş meşədə idi. Külək əsir, yağış yağırdı, payızsayağı

bir xəsisliklə, narın yağırdı. Dəmir yolunun yanıyla gedirdi; meşənin ən qısa yoluydu bu. Hava tutulmuşdu. Stansiyada atasını gördü, o, vaqondan vaqona keçir, nəsə yazırdı, yağışın altında islandığından kürəyini donqarlatmışdı. Atası görməsin deyə, Anders vaqonların arxasından keçdi, yoxsa mütləq soruşacaqdı ki, bu havada hara belə gedirsən. Atasının addım səsləri düz onun tuşundan, amma vaqonların o biri tərəfindən eşidildi. Anders özü isə çalışırdı ki, lap səssiz yerisin.

Bu gün heç ora getmək fikri yox idi. Öz-özünə alınmışdı. Hava da bayaq yaxşı idi, hava yaxşı olanda daşın yanına getmirdi. Amma bir az keçdi, hava dəyişdi deyə, o da getmək qərarına gəldi.

Yağış yaman tökürdü, Anders isə addımlarına heç haram qatmırdı. Ciddi, bir az da kədərli görkəmlə, əllərini əyninə artıq dar gələn, parıldayan mis düyməli gödəkçəsinin cibinə soxub gedirdi. Yolunu dəyişən parovoz Andersin üzünə ılıq hava püflədi.

Hə, səhər-səhər, gün başlananda nəmişlik olsa da, hava aydın idi. Anders erkən, saat altıda durmuşdu, çünki matroslar gedən qatar gəlmişdi, əlli dənə cavan oğlanı limana aparırdılar. Burada qəhvə içməliydilər; restoranın yanında onlar üçün qoyma ayaqların üstündə məxsusi uzun stollar da düzəltmişdilər. Onlar ucadan danışıb səs-küy salır, qoğallarını ağızlarına təpişdirir, qışqırışırdılar və səhərin bütün sərinliyinə qəhvələrinin qoxusu hopmuşdu. Sonra isə yuxarıdakı pəncərədə oturmuş balaca oğlana əl elədilər, deyəsən, kefləri kök idi – bu dayanacaqlarından əməlli-başlı razı qalmışdılar. Tənbəkilərini iyləyib yenə vaqonlara doluşdular.

Axşamdan bilsəydi, heç yerinə girməzdi, hər şeyi əməlli-başlı görərdi. Matroslar yola düşəndən sonra yenə azacıq yatdı, duranda da məktəbə getdi. Böyük tənəffüsdə bir az dərslərinə baxdı, dükana qaçıb anası üçün kerosin aldı. Heç

daş yadına da düşmürdü. Anders daş barədə heç vaxt fikirləşmirdi, öz-özünə düşürdü yadına. Hava korlandı, yağış başlandı. Məktəbdən sonra Qustava kömək elədi ki, stulları parkdan kafeyə daşısın, onları birillik, yaya qədər yığışdırırdılar, anbara qoyub qapısını da kilidləyirdilər. Sonra Anders evə getdi, mətbəxin qapısı ağzında yenə qulaqlarını şəklədi; anası ilə Siqne nə barədəsə sakitcə söhbət eləyirdilər, yəqin, onun barəsindəydi söhbətləri, ağır xəstə olduğundan, çox yaşamayacağından danışırdılar. Düzdür, onun heç bir yeri ağrımırdı, amma bu barədə keçən il də bir dəfə nəsə danışırdılar, gizlicə qulaq asmışdı onda. Sonra pəncərənin qabağında oturub qatarların yağışın altında yollarını dəyişməsinə tamaşa elədi. Elə onda başa düşdü ki, bu gün daşın yanına mütləq getməlidir. Bu gün ora getmək çətin idi, amma gərək gedəydi.

Budur, artıq vağzalın sonuna yetişib, düz deponun yanındadır. Parovoza kömür yükləyirdilər, o da yanından ötəndə Andersin üzünü odlu nəfəsi ilə qarsıdı. Sonra isə dəmiryol xətti açıqlıqdan keçirdi, külək hərdən fit verib ulayaraq güclənirdi. Yağış da öz işindəydi, möhkəm çırpırdı. Anders başını çiyinlərinə sıxıb bürüşürdü, xüsusilə də külək güc gələndə. Havaya bax ha! Eybi yox! Belə daha yaxşıdır! Axı hər dəfə ora gedəndə qurban verir, qoy heç olmasa qurban olduğu yoldan da duyulsun.

Bəlkə də, bayaq evdə heç onun barəsində pıçıldaşmırdılar? Artıq neçə dəfə yanılmışdı: ona elə gələndə ki, söhbət onun barəsindədir, anası ilə bacısı yanaşı oturub heç danışmırlarmış, tamam susublarmış. Amma bu gün səslərini lap aydın eşitmişdi. Əgər onun tezliklə öləcəyindən danışmırdılarsa, onda niyə pıçıldaşırdılar? Elə ucadan danışaydılar da.

Külək zəmilərin üstündə tüğyan eləyirdi, göy üzü ağır-ağır tərpənib, sanki, yerə yaxınlaşırdı. Meşədə, ağacların içində hava bir az sakit idi, amma yağış tökürdü. Damcılar ağacların qabığından süzülüb mamırların, qarağatın üstünə düşürdü,

küknarların islanaraq ağırlaşmış budaqları, az qala, yerə dəyirdi, heç cür dikələ bilmirdi. Anders dəmir yolunun çınqıl tökülmüş təpəsindən enəndə hər şeyi tam aydınlığı ilə görürdü. Telefon məftillərində də damcılar vardı, amma məftillər tamam başqa səmtə – üzü şəhərə qaçırdı. O, şpalların üstüylə addımladı. Qatranlı idi deyə, islanmırdı, su damlaları onların üstündə elə damcı kimi durmuşdu, bərq vururdu.

Sonra yoldan çıxdı, təpədən enərək, meşənin içərilərinə doğru hərəkət elədi.

Hər dəfə kolları aralayanda üstünə damlalar tökülürdü. Hava hələ qaralmasa da, buralar artıq qaranlıq idi. İki təpəciyin arasında, otların içindən bir neçə düym boy göstərən yastı bir daş vardı. Bu daşda qəribə bir şey tapmazdın. Qəribə olanı yalnız bu idi ki, daş burada, mamırın içində tək-tənha durmuşdu. Anders əvvəlcə ətrafına ehtiyatla göz gəzdirdi, yola tərəf baxdı, hərçənd ki, o tərəfdən kimsənin gəlməyəcəyi aydın idi. Sonra isə daşın yanında dizləri üstə çökdü və dua etməyə başladı.

İndi ətrafda ölü bir sükut vardı, yalnız budaqlardan düşən damlaların tappıltısı eşidilirdi. Bu sükutu Anders də pozmurdu; duasını lap səssizcə edirdi. Sifəti alışıb-yanırdı. Bir az o üzdə isə tala vardı, onun tən ortasında, təxminən, adam boyda yaralı bir küknar ağacı bitirdi. Anders də elə həmin o küknara gözünü çəkmədən baxırdı, hərçənd ki, duasının ağaca heç bir aidiyyəti yox idi. Təbii ki, duasını ağaca etmirdi. Yox, elə evlərindəki böyüklər kimi, onun da duası Tanrıya ünvanlanırdı. Amma burada, bu yerdə Tanrı onun şəxsən özününkünə çevrilirdi, Anders də onu hiss etməyə başlayırdı, qəribə hiss idi bu, amma səbəbini heç özü də izah edə bilməzdi. Məhz təbiətin qoynunda dua etmək kimi bir istəyi də yox idi. O, ümumiyyətlə, belə fikirlərdən uzaqdı. Amma yenə də evdə dua etmək istəyindən heç vaxt bir şey çıxmırdı, alınmırdı, mütləq eşidiləcəyinə inam yaradan həmin o gücü, həmin o əminliyi evdə qətiyyən duymurdu. Sənin eşidilməyin

üçün o qədər şərt var ki. Bu, Andersin öz məntiqiydi. Elə həmin məntiqə əsasən də hava xoş olanda gəzmək ləzzət eləyəndə buralara gəlməyin heç bir mənası yox idi və o da gəlmirdi. Qəribə, anlaşılmaz, dolaşıq hisslər yaşayırdı; niyə içində bura gəlmək istəyi qəflətən baş qaldırır və ona tabe olanadək adama əziyyət verir? Özü də hər dəfə gərək çətinliklə gələydi bura, başqa cür alınmırdı.

Onun öz qayğıları vardı. Öz anlayışlarının, öz təsəvvürlərinin dar dünyası. Gündüzün günortaçağı, sanki, qaranlıqdaymış kimi, əlləriylə yoxlayıb yeriyir, yıxılırdı. Nə edəsən? Belə idi, belə də olmalıydı.

Yanaqları getdikcə daha çox isinirdi. O, barmaqlarını bir-birinə ilişdirmişdi, möhkəm, lap ağrıyana kimi sıxırdı. Duası isə tək bircə şey barədə idi: Kaş özü ölməyəydi, kaş evdəkilərdən heç kəs ölməyəydi! Nə atası, nə anası, nə qardaşları, nə bacısı (hamısını adlarıyla bir-bir sadalayırdı), nə nənəsi ilə babası! Qoy hamısı sağ qalsın, hamısı! Qoy heç kəs ölməsin! Qoy hər şey elə olduğu kimi qalsın. Heç nə dəyişməsin!

Onun bütün həyat eşqi bu həyatın əbədiliyinə köklənmişdi. Dualarında başqa heç nə istəmirdi. Təkcə yaşamaq. Sonrası isə qoy hər nə olursa olsun, eybi yox.

O, həmin bu “eybi yox” kəlmələrini bilərəkdən tez-tez işlədirdi. Fikirləşirdi ki, belə desə, arzuladığı yeganə şey daha tez çin olar. O, duasını edərkən düşdüyü qəribə, yarıyuxulu vəziyyətində arzusunun obrazını beynində canlandırmağa çalışır və onu, az qala, görürdü. Elə hey yalvarır, yalvarırdı ki, hər şey necə var, eləcə də qalsın, heç vaxt qurtarmasın, heç vaxt bitməsin. Qoy əvvəlcə qış olsun, sonra yay, sonra yenə də fəsillər dəyişsin, bircə özü burada qalsın, bircə o qalsın!

Özünü, az qala, cəzb olanadək qızışdırır, tir-tir əsir, istidən alışıb-yanırdı, adi vəziyyətindən tam çıxırdı. O anlarda qəlbində, sanki, həyat himni oxunurdu, qeyri-adi bir himn qətiyyən dəbdəbəsiz, sadəcə olaraq, hər şeyin, hər şeyin

yana-yana sadalanmasından ibarət ecazkar himn. Buna baxmayaraq, Andersin himni əsl himn idi.

Yağış isə elə hey yağırdı, mamırın üstünə düşür, gözlərini zillədiyi ağaca çırpılırdı. Lakin onun dua etdiyi yerdə sakit və tutqun hava vardı, adətən, axşamçağı olurdu bu cür hava. Havanın bu qaşqabaqlı sükutundan özünü elə gözəl hiss edirdi ki, heç yaxşı hava da gərəyi deyildi.

Oğlan indi tam hərəkətsiz durmuşdu. Yalnız sifəti alışır və barmaqlarını var gücüylə bir-birinə sıxırdı. Duasını bitirib cəld ayağa qalxdı. Ağır işin arxada qaldığına sevinirmiş kimi, yaş dizlərini çırpdı.

Təpəciyin birindən o birisinə tullana-tullana yola düzəldi. Bu gün ay palçıq vardı, ha! Ancaq təpəciklərin üstüylə getmək olardı. Küknar ağacı yağışdan şişmişdi, damlalar onun iynə yarpaqlarında muncuq kimi işarırdı. Qızılağac isə nazik, çılpaq budaqlarını əl kimi irəli uzatmışdı. Burada, bu xəlvət guşədə ağcaqayınların yarpaqları, tam olmasa da, qismən hələ dururdu; onlar ağacları böyük sarı tonqallara çevirmişdilər, bu tonqalların qığılcımları isə mamırın, süpürgəgülü kollarının üstündə közərirdi.

Yaşamağın özü necə böyük xoşbəxtlikdir, sadəcə yaşamaq, lap qısa müddət belə olsa. Əlbəttə, o, bu tezliklə ölməyəcək – nə bu gün, nə də sabah. Çünki hər dəfə ürəkdən yalvarır, ürəkdən dua eləyirdi! Ağcaqayınlar, mərsin kolları, süpürgəgülü – hamısı ona başlarını tərpədirdi: salam, balaca, sağ ol, gəlmisən, sağ ol, yaşayırsan.

O, sərçə kimi, bir təpəcikdən o birisinə tullanırdı. Başını qaldırıb baxdı, dinlədi. Dələ idi, deyəsən, gözünə görünən? Küknar budağından yapışıb, üstündəki yağış damlalarını mərsin koluna səpdi, sonra da böyürtkənə; gərək bir dəfə də gəlib böyürtkən yığsın. Yenə də dəmir yolunun çınqıl tökülmüş təpəsinə dırmaşdı.

Addımlarını yeyinlətdi. İndi naqillərdəki damcılarla onun yolu bir idi, onlar da evə qaçırdı. Yol boyu ağacların təpələrini,

göydəki buludları nəzərdən keçirirdi. Artıq hava da xeyli açılmışdı, meşədə göyərçinlər quruldaşır, başqa quşlar isə onların səsinə səs verirdilər .

Əlini uzatdı. Yağış tamam kəsmişdi. Göy üzündə parça-parça buludlar gəzirdi. Budaqlardakı sərçələr silkələnib lələklərindən yağış damlalarını tökürdülər.

Bircə anda hər şey necə dəyişir, heç xəbərin də olmur. Həyatda heç nəyin düzəni, qayda-qanunu yoxdur, necə gəldi, elə də gedir. Bəs onda nəsə istəməyin, nəyisə arzulamağın nə mənası var? Təkcə yaşayasan, var olasan – başqa heç nə lazım deyil.

O gedir, gedirdi. Artıq meşə də qurtardı, anbarlar görünür, barıt, dinamit anbarları, bunlar birdən partlasa ay gurultu qopar, ha! İndi dəmir yolu zəmilərin arası ilə uzanırdı, lakin bayaqkı külək artıq yox idi və buradan lap, lap uzaqlar görünürdü. Bu da depo, nəhayət ki, vağzala çatmışdı. Parovozlar yollarını dəyişir, fısıldayıb tüstülənirdi, iki dənə lap balacası axşam qatarının vaqonlarını çəkə-çəkə, quş balası kimi, şikayətlə fit verirdi, əsl parovoz isə göyün üzünə boz bulud üfürməyindəydi. Bələdçilər baqaj vaqonlarının pilləkənindən sallanıb əl eləyirdilər. Parovozlardan biri dalınca mərsinlə dolu beş vaqon çəkirdi, o birisi, nəfəsi təngiyən isə mal-qaranın böyürüşdüyü saysız-hesabsız platformanı dartırdı. O, vaqonların arasından keçir, şpalların üstü ilə yeriyir, qazançılara, maşinistlərə, bələdçilərə, əlində fənər vaqonlara tələsən nəzarətçilərə salam verir, yer üzündə hər şey barədə eyni zamanda düşünür, hədsiz dərəcədə sevinirdi!

Bu ölmək məsələsi haradan girmişdi e, ağlına? Qətiyyən ölməyəcək! Niyə məhz o ölməlidir axı? Təbii ki, nə vaxtsa baş verəcək bu, amma indi yox... Nə vaxtsa elə hamı öləcək də. Əşi, çox var hələ, görək nə olur.

Bu dəfə lap yüngülləşdi, ürəyi rahatlanmışdı. Nəhayət ki, evdə idi.

Perronda çamadanlı adamlar gəzişirdi, qatara gecikməkdən qorxan qadınlar yüyürürdülər. Ulson birinci zəngi çaldı,

Karlsson baqaj arabasını çıxardı, qışqırırdı ki, ona yol versinlər, qazançı parovozun işıqlarını yandırdı – hamı qatarın yola düşməyinə hazırlaşırdı.

Pillələrlə qalxdı; restoranın yanından – düz evə. Üçüncü dərəcəli kafedə qatara gecikmiş iki sərxoş çığırışırdı. Həyətdə, anbarların arasında isə sakitlik idi. Anders yuxarı qalxdı, qaranlıq dəhlizdən keçdi. Mətbəxin qapısında ayaq saxlayıb qulaq asdı – yox, pıçıldaşan yox idi. Tamam islanmış gödəkçəsini qaranlıq dəhlizdə asıb qapının arasından sivişərək mətbəxə girdi.

Anası orada idi, şam yeməyi hazırlayırdı. Onlar bir az söhbət elədilər. Anası, yəqin, elə bilirdi ki, o, parkda gəzirmiş. O isə möhkəm sevinir, səhərki matroslar barədə dilboğaza qoymadan danışırdı. Həmişəki kimi işıq haləsində görünən anası isə sakit, aram idi. Amma bu gün nəsə bir qədər ciddi gəlirdi ona.

Sonra atası işdən qayıtdı, o birilər gəldilər, stol arxasında oturub şam yeməklərini yedilər. Zaldakı böyük lampanı yandırdılar və bacıları yataqları qaydaya salana kimi atası ilə anası stolun kənarında əyləşərək, güclə eşidiləcək bir səslə dua oxudular. O isə pəncərənin qabağında yumağa dönüb oturmuşdu. Yağış təzədən başlandı, damcılar qaranlıqda şüşələri döyəcləyirdi. Budur, sonuncu qatar da fit verərək, arxa fənərinin işığını parıldadıb, gözdən itdi.

Evdə isə tamam sakitlik idi. Ancaq hərdən anası köks ötürür, dodaqları titrəyirdi. Adam baxanda, onun üçün yaman qorxurdu, ona elə yazığı gəlirdi ki, lap kömək eləmək istəyirdi.

Yazıq evdəkilər, yaman çətindir onlara.

* * *

Bir səhər süd özü gəlmədi. Qatardan vedrəni əlində tutmuş nənəsi çıxdı, özü də həmişəki paltarında deyildi, yaraşıqlı yaylığı vardı. O, sağına-soluna baxaraq, yolu ehtiyatla

keçdi və pəncərələrindən qonaqlara tamaşa eləyən qızlar başlarını çıxarmış restorana tərəf getməyə başladı. Qarşısına çıxanların hamısına baş əyib salamlayırdı. Nənə burada – şəhərdə yaman balaca görünürdü. Paltarı qara idi, tikiş yerləri bir az bozarmışdı; amma geyilməkdən yox, köhnəliyindən. Qalın parçadan tikilmiş ətəkliyi uzun idi, lap topuğuna qədər, küləkdə yellənmirdi. İndi başına bağladığı, üstündə basma qırmızı gülləri olan qara ipək yaylığı nənəyə toyunda bağışlamışdılar. Bu yaylıq nənənin üzünü, demək olar ki, tamam gizləyirdi, saçaqları çiyninə tökülürdü, yaylığın düyünündən üstdə isə nənənin yalnız qoca çənəsi görünürdü. Palto əvəzinə çiyninə salaraq, arxadan bağladığı tünd rəngli şalı da vardı. Aydın, şaxtalı bir qış günü idi və yollar buz bağlamışdı. Nənə yaşına uyğun olmayan yüngüllüklə yeriyirdi, ona təkcə şalı bir az mane olurdu. Qüllələrə, diş-diş dama, qarlı taxçalara və eyvanlara baxdı: yox, kimsə görünmürdü; üçüncü dərəcəli kafenin üstündəki pəncərələrdə heç kim yox idi. Onu gözləmirdilər. Darvazanın qabağında küləyin gecə sovurub topladığı qar təpəsi vardı. Nənə onun üstündən çətinliklə aşa bildi. Pivə iyi verən həyətdə qarı kürüyən kafe sahibinə və Qustava baş əyib qapıya girdi və yuxarı, özününkülərin yanına qalxdı. Onun qapını döyməsinə mətbəxdən uşaqlar çıxdılar. Onlar artıq məktəbə hazırlaşaraq, başlarını darayırdılar. Anaları isə sıyıq bişirirdi. Nənənin məhz bu gün gələcəyi heç kəsin ağlına da gəlməzdi!

– Tanrı sizə yar olsun, mənim balalarım, – deyərək yorğun-yorğun kətilə əyləşdi. – Sizə süd gətirmişəm. Lap vaxtında çatmışam, deyəsən, sıyıq sobadadır.

Ana ona şalını açmağa kömək elədi və nənələri təkcə dar yun jaketində qalanda lap arıq göründü. Yaylığını da açdı, nazik ağ saçları da parıldayırdı, bütün qocalar kimi, çökəyə düşmüş mehriban gözləri də.

Bəlli oldu ki, kənddəkilərin hamısı onlara salam yollayır və İlahiyə şükür ki, salamatlıqdır. Emil dayının başını odun yaman

qatıb, yazıq tamam əldən düşüb, hələ öküzlərlə də əlləşir; at yoxdur deyə, işi pis gedir. Baba da sağ-salamatdır. İnəklər yaxşı süd verir, yemlərini də hələ ki çatdırırlar, bəs eləyir. Bir sözlə, şikayətlənmək günahdır. Gələn həftə çoşqanı kəsməyə hazırlaşırlar; bu barədə srağagünkü südlə yazmışdılar, bilirdik.

Bəs nənə niyə şəhərə gələcəyindən xəbərdar etməmişdi onları?

Göndəriblər onu, az qala, zorla göndəriblər. Özü istəmirdi, nəyə lazımdır axı? Son zamanlar yaman əldən düşür, yəqin, boş şeydir, amma əl çəkmədilər, beyinlərinə sığışıb ki, mütləq həkimə getməliyəm. Hə, arıqlamağına, yaman arıqlamışdı, gözləri lap çökəyə düşmüşdü. Amma qocaların hamısı belə olur da, burada nə vardı ki?! Yox, o elə həmişəki kimidir.

Anaları isə əl çəkmirdi ondan, elə hey otərəf-butərəfinə keçir, sorğu-sual edir, harasının ağrıdığını öyrənmək istəyirdi. Elə bir ağrısı yox idi, sadəcə, nəsə gücdən düşmüşdü, əli iş tutmurdu, görünür, yorulmuşdu artıq. Amma heç yeri ağrıyıb-eləmirdi, boş şeydir, hərdən bir az sızıldayıb toxtayırdı. Niyə göndəriblər onu, heç özü də bilmir. Amma, bəlkə, ona dərman-zad nəsə bir kömək eləyər.

O, əllərini daraqlayıb gülümsəyərək, uşaqlara baxırdı, deyəsən, təbəssümü də əvvəlki kimi deyildi. Ana dinməzcə onun yanında oturmuşdu və gözlərini çəkmirdi. Onlar iki bacı kimi idilər – o dərəcədə oxşayırdılar. Hər ikisi solğun, ağbəniz, hər ikisinin saçları seyrək idi, sifətlərinin cizgilərində də eyni zəriflik və sakitlik vardı. Boyları da bərabər idi; hər ikisi balacaboy və möhkəmbədənli. Ana nənənin əllərini ancaq yüngülcə tumarlayır, uşaqların yanında öz hisslərinə sərbəstlik verməməyə çalışırdı.

– Nənə artıq qocalıb, – anası deyirdi, – bu yaxınlarda səksən yaşı olacaq, məlum məsələdir, xeyli yaşdır. Əlbəttə, mütləq həkimə də getmək lazımdır, görək nə vaxt qəbul edəcək. Yaxşı olar hər şey.

– Hər şey Tanrının əlindədir, – bunu da nənə dedi.

Uşaqlar nəzərlərini gah birinin, gah o birinin üzünə dikirdilər. Anaları necə qüssəli idi... Ağappaq olmuş Anders bir küncə sıxılmışdı və oradan nənəsini gözləriylə yeyirdi, sanki, lap içinə baxmaq istəyirdi. Daha danışmırdılar, qızlar mətbəxdə işlərini görürdülər, sıyığı və kiçiklər üçün boşqabları stolun üstünə qoydular; onların isə gedən vaxtı idi. Anders stolun arxasına keçməyə məcbur oldu, amma xörək boğazından keçmirdi, ilişirdi. O, nənəsinə uzun bir nəzər saldı, "Salamat qalın" deyib qapıya tərəf yüyürdü.

Məktəb yolunda bacısı ilə bir yerdə qarda ağnadılar. Şaxta vardı, ətrafa ölü bir sükut hakim kəsilmişdi; şəhər, sanki, yatmışdı hələ, pillələrin qarşısında ayaq izləri də görünmürdü, elə bil, evlərdə heç yaşayan yox idi.

Zəng səsi gəldi. Anders büzüşdü – yəni kilsə zəngi idi? Amma cəmi bircə dəfə vurdu; bu, saatın zəngi idi.

Qonşu küçələrdən artıq səslər gəlirdi, oradan dəstə-dəstə uşaqlar qaçaraq itələşir, bir-birinə qartopu atırdılar. Kilsə həyətinin yanında hərə özünə baş qatmaq üçün iş tapır, qaçaraq sürət yığır, sürüşür, yıxılır, bir də ayağa qalxırdı. Andersla bacısı da sürüşdülər, amma sürət yığmadan – bu gün o halda deyildilər. Böyük tənəffüsdən qabaq iki dərs vardı. Anders oxuya fikir verməyə, dərsi yadında saxlamağa, hamıyla bir yerdə olmağa çalışırdı. Amma alınmırdı. O, var gücüylə qulaq asırdı, lakin fikri ancaq çox diqqətlə qulaq asmağının yanında qalmışdı, odur ki, heç nə alınmırdı. Nədən danışırdı onlar – indi sözlər divarlara dəyib qayıdır, onun üçün heç bir məna daşımırdı.

Hə, indi də Tanrıdan danışmağa başladılar – evdə az idi danışan, burada da başlandı, hər yerdə! Axı nəyə lazımdır bu? Sözdür də, boş söz! Nədir, məgər həyatda nəsə asanlaşır bu sözlərdən? Ona Tanrı-zad lazım deyil. Bəsdir. Onsuz da Tanrıdan danışanda heç vaxt başa düşməyib. Nəyinə lazımdır?

Bax indi qaçaydı meşəyə! Buraxsaydılar, var gücüylə qaçardı, lap uçardı, təki vaxtında çataydı ora və nəfəsi kəsilə-kəsilə, aşa-aşa olsa da, qaçıb birbaş daşın yanına gedərdi...

Buraxsaydılar onu, bəlkə, desin, desin ki, vacib lazımdır, mütləq getməlidir, tez, tez... Yox ey, olmaz, başa düşərlər məgər? Həm də necə deyəydi? "Mən meşəyə qaçmalıyam?" Bunu kim anlayar ki, dizi üstə düşüb, ürəkdən, var gücüylə mərhəmət istəməlidir daşdan... xahiş etməlidir hamı sağ qalsın, heç kəs ölməsin!

O artıq ətrafında nə baş verdiyini dərk eləmirdi. Tənəffüsün necə keçdiyindən də xəbəri olmadı, təzə dərsin başlanmasından da, tamam başqa müəllimin gəlib tamam başqa şeylərdən danışmasından da xəbəri olmadı...

Bunlar nə qədər danışır! Elə bil, bilə-bilə əsas məsələ haqqında fikirləşmək istəmirlər. O barədə ki, bütün adamlar əvvəl-axır öləcək, mütləq öləcək...

Budur, yenə zəng çalındı, uşaqlar çığırışa-çığırışa, bir-birini itələyə-itələyə dəhlizə yüyürdülər. Həyətdə bir-birini yeməkqabağı qartopuya basırdılar.

Anderslə bacısı isə yolu dinməz gedirdilər. Bilmirdilər ki, tələssinlər, yoxsa addımlarını bir az da yavaşıtsınlar. Çatana yaxın, az qala, yüyürürdülər. Amma nənə hələ həkimdən qayıtmamışdı. Hamı nənə ilə ananı gözləyirdi. Anders pəncərənin qabağında büzüşmüşdü, elə bil, iynə üstündə oturmuşdu. Ürəyi çırpınır, göz qapaqları alışıb-yanırdı – qızdırma yüksək olanda necə olarsa, bax elə.

Nəhayət, onlar darvazanın ağzında göründülər. Çox sakit, aramla gəlirdilər. Uzaqdan elə ikisi də qoca qarı kimi görünürdü – ikisi də yaylıqlı, amma analarının əynində hələ paltosu da vardı. Vağzal növbətçisiylə, restoranın pəncərəsindən boylanan aşpaz qadınla salamlaşıb, qapıda gözdən itdilər.

Otağa girdilər, uşaqlar onlara tərəf atıldılar, onlar da oturub danışmağa başladılar. Nənəyə kömək eləmək artıq mümkün deyil. Gec xəbər tutublar. Doktor xeyli müayinə

etmişdi onu, çox mehriban, diqqətli adam idi. Amma heç nə etmək mümkün deyil artıq. Onda xərçəngdir, özü də böyüyüb.

– Hə, hə, – nənə təsdiqləyirdi. – Hər şey Tanrının əlindədir.

Daha çox anaları danışırdı, nənə hərdən bir-iki söz deyirdi.

Çox qəribədir, nənələri həkimi tərifləyir, deyirdi ki, necə yaxşı, diqqətli insandır. Camaat danışırmış ki, guya, çox ciddi adamdır həkim, xəstələr yanına getməyə də çəkinirlər. Amma onunla lap balaca uşaq kimi danışıb. Heç pul da götürməyib, deyib ki, imkanınız yoxdur. Gör necə mərhəmətli adamdır... Amma, adətən, yaman baha baxır xəstələrə, alimdir də, nə deyəsən... Hə, çox gözəl insan imiş.

Uşaqlar dəhşət içində bir-birinə sıxılmışdılar. Lap arxada Anders təkcə durmuşdu, ölümün özü kimi ağappaq idi, yerində donub baxırdı, nənəsinə baxırdı. Anası ilə nənəsi şaxtanın naxış vurduğu pəncərənin qabağında oturmuşdular, onlara baxanda heç deməzdin ki, nəsə bir dəhşətli hadisə baş verib. Analarının sifəti bir az da nurlanmışdı, sanki, ruhu harasa, lap uzaqlara uçmuşdu. Ancaq nənənin əlini elə hey sığallayırdı, onun ləçəyini düzəldir, ətəkliyinin qırışlarını səliqəyə salırdı. Nəsə dəyişmişdi – nənələri indi qayğıkeş anasının qulluq elədiyi körpə uşağa dönmüşdü. Qarı başına gələnlərdən fikirli, çaşqın görünürdü, onu əsas məsələdən çox bəzi əhəmiyyətsiz, xırda şeylər düşündürürdü. O, toyunda bağışlanmış qırmızı basma güllü yaylığını dizinin üstündə hamarlayırdı. Sonra, görünür, fikirləşdi ki, yəqin, uşaqlar onun hələ nə qədər onlarla bir yerdə olacağı ilə maraqlanarlar, dedi: həkimdən soruşdum, özüm bilmək istəyirdim, hazırlaşmaq lazımdır axı, soruşdum ki, vaxtım nə vədə tamamdır, həkim üzünü çevirdi, dedi, bu barədə bir şey bilmir. Mən də soruşmağıma yaman utandım. Sonra da həkimə dedim ki, bunu kim bilir ki, İlahidən başqa...

Pəncərələrin altından fit verən parovoz keçdi, günün elə vaxtı çatmışdı ki, neçə-neçə qatar yolunu birdən dəyişirdi.

Tüstü pəncərə şüşələrini yaladı, buz naxışları əritdi. Ana dedi ki, bir fincan qəhvə içmək vaxtıdır.

– Hə, yaxşı olardı, – nənələri cavab verdi. Qızlar qəhvə hazırlamaq üçün yerlərindən sıçradılar.

Hamı stolun kənarına keçib, qəhvə içməyə başladı. Az danışırdılar. Uşaqlar gözlərini fincanlarına zilləyib köks ötürürdülər, hərdən də gizlicə yaylıqlarını çıxarıb burunlarını silirdilər. Anders qəhvə istəmədi, rəngi ağappaq olmuşdu, otaqda gəzişirdi, pəncərədən stola, stoldan qapının ağzına. Gözləri qupquru idi. Nənə onun solmuş gözlərini gördü və yüngülcə gülümsünüb başını tərpətdi. Onun isə sifəti qəti qımıldanmadı, amma baxışlarına daha davam gətirə bilmirdi.

Qəhvəni içdilər və nənə ayağa qalxdı.

– Hə, mənim getmək vaxtımdır. Əzizlərim, siz də gəlin bizə.

Artıq uşaqlar özlərini saxlaya bilmirdilər. Analarının da gözlərində yaş damlaları göründü, amma özünü birtəhər ələ aldı, ağlamadı.

– Hə, anacan, – dedi. – Biz indi tez-tez gələcəyik, lap tez-tez.

– Lap yaxşı, biz qocaları yaddan çıxarmasanız, yaxşıdır.

Ölüm ilk dəfəydi ki, onlara bu qədər yaxınlaşmış, evlərinin lap içinə girmişdi. Onlar özlərini bir-birindən ayrılmaz sayırdılar və dərk edə bilmirdilər ki, əcəl kimisə əllərindən alıb həmişəlik apara bilərdi. Məhəbbətin bütün alovlu gücü indi zühur etmişdi və bu güc onlara bir olduqlarını daha artıq anladırdı. Bu isə bir yüngüllük gətirirdi. Yalnız Anders hamını çulğayan bu odlu məhəbbət selindən kənarda qərar tutmuşdu. O sivişib qonşu otağa keçmişdi və qupquru gözləri ilə hamını oradan süzürdü. Uşaqlar nənələrinə toxunur, onu sığallayırdılar. Ondan başqa hamısı. Elə bil, onlardan az istəyirdi nənəsini!

– Mənim hələ şəhərdə bir aləm işim var, – deyə nənə şalını arxadan bağlayanda dilləndi.

Dəmirçi dükanından otdoğrayan üçün bir-iki detal tapmalıydı. Bir də Emil bir çətvər tənbəki istəmişdi, gərək Lundqrendən alaydı, deyir ki, onun tənbəkisindən yaxşısı yoxdur. Sonra da yarım kilo qəhvə də almalıydı, gələn həftə çoşqanı kəsəcəkdilər axı.

Ana onun dilindən söz aldı ki, bu gündən belə özünü gözləyəcək, çoşqa kəsiləndə evdə qalacaq, zarafat deyil, çöldə yaman soyuq olur.

– Hə, əlbəttə, – nənə dedi. – Mənsiz də keçinərlər. Əlimdən nə gəlir ki. Heç bilmirəm, – artıq qapının ağzında dedi bunu, – mən gedəndən sonra işlərin öhdəsindən necə gələcəklər. Başqa adam götürsələr, yaman baha oturar.

Ləçəyini bağlayıb başında düzəltdi.

– Yaxşı, mən gedim daha. Sağ olun, mənim əzizlərim. – Və o, süd vedrəsini də götürüb çıxdı.

* * *

Nənələri bir il də yaşadı. Yayda bir az biçinə kömək elədi; çovdar biçəndə, sonra da yatağa düşdü. Ona tez-tez baş çəkirdilər, lap qısa müddətlik də olsa, dəyib salamlaşırdılar. Anders getmirdi. Hər dəfə bir bəhanə gətirirdi, onu da evdə qoyub gedirdilər. Amma hərdən o da gedirdi. Həyətə yaxınlaşanda rəngi qaçırdı. Nənəsinin yanına girəndə əlini zorla uzadırdı. Ona baxa bilmirdi, baxışlarını gizlədirdi. Qalanları isə özlərini lap həmişəki kimi aparırdılar; heç bir şey olmayıbmış kimi, amma ona qarşı bir az da diqqətli olmağa çalışırdılar. Andersin gözündə isə o artıq dəyişmişdi, ölmüş kimi idi. Hərdən nənəsi ona diqqətlə baxırdı. Yəqin, fikirləşirdi ki, sən demə, bu nəvəsi ona o qədər də bağlı deyilmiş.

Əlinə fürsət düşən kimi, sivişib qapıdan çıxırdı. Başlayırdı bağın cığırlarını tapdamağa. Güllərin qoxusu yox idi, nənənin heç bir gülündən iy gəlmirdi. O, qarağat kollarının yanında dolaşır, günün istisində onların arasında necə gizləndiyini,

nənəsinin evin qabağına çıxıb onu axtarmasını xatırlayırdı. Talvara baş çəkirdi, orada nənəsi adətən noxud təmizləyərdi, – indi ora necə də qaranlıq, boş idi... Hər şey dəyişmişdi, hər şey başqalaşmışdı. Günəş həmişəki kimi nur saçırdı. Amma burada hər şey başqa cür idi. Həqiqi deyildi.

O, yemişan kollarının üstündən keçib, ətrafına baxırdı. Bomboş idi hər yan. Hər tərəf tarlalar, çəpərlənmiş otlaqlar idi. Amma hamısı da boş. Yamyaş çəmənlikləri isə, sanki, əllə sivirmişdilər, heç nə qoymamışdılar qala. Hər şey qondarma idi, sanki, həqiqi deyildi.

Kimsə çıxıb çağırırdı onu. O isə çəpərin dalında gizlənirdi.

Sonra mal-qara həyətinə keçirdi, qapıdakı yarıqdan boş axurlara baxırdı; nənəsi inəkləri həmişə orada sağırdı. Qışda çölün şaxtasından içəri girəndə südün ilıq, şirin iyi gələrdi... Vedrəni inəyin yelininin altına qoyanda məmələrdən fışqıran südün səsindən nənəsi onun içəri necə girdiyini eşitməzdi...

Mal-qara həyətini dolaşıb ətrafında quşarmudu və ardıc kolları əkilmiş otlağa çıxırdı. O, həyətin ətrafına dolaşır, indi nənəsinin, ona baş çəkməyə gələnlərin olduğu otağın pəncərələrindən içəri boylanırdı.

Sonra da getmək vaxtı çatdı. O, içəri girib nənəsi ilə sağollaşırdı, hamı kimi. Qarı da ona diqqətlə baxırdı. Yəqin, fikirləşirdi ki, bu nəvəsi onu başqalarından az istəyir. Nənəsigilə getmək onun üçün hər dəfə dəhşətli bir əzaba çevrilirdi.

Xüsusilə də, bir gün yadında möhkəm qalıb. Yayda necə olmuşdusa, anası ilə bir yerdə getmişdi ora. Hələ yolla gedəndə uzaqdan görmüşdülər ki, bostanda kartof qazır. Azacıq, ancaq nahar üçün. Dizi üstə durmuşdu, ağrı imkan vermirdi ki, əyilsin. Əlindəki qazançanı doldurub qalxmaq istəyəndə bacarmadı, anası ilə o, köməyə yüyürdülər. Əvvəlcə ləngərləyə-ləngərləyə əyilirdi, az qaldı, yenə yıxılsın, gözləri də şüşə kimi idi, elə bil, heç nə görmürdü. Anders özü də əsim-əsim əsdi, az qaldı yıxıla, onun üçün çətin idi nənəsini

saxlamaq. Anası isə arvadın paltarına yapışmış nəm torpağı çırpıb onu evə keçirdi.

Elə onda da qaçıb getdi, evdən çıxdı və ağladı. Ağlayıb ürəyini boşaltmaq ancaq onda qismət olmuşdu Andersə.

Ölümün qarşısında yaşadığı dəhşətin özündə də bir qəddarlıq vardı. Bu dəhşət hər şeyi üstələyirdi. Onun hətta nənəsinə də yazığı gəlmirdi. Hər gün, səhərdən düz axşama kimi onu gözləri qabağında görürdü. Lakin onun barəsində düşünmürdü; yalnız başına gələcək şeylər haqqında fikirləşirdi. Fikirləşirdi ki, gör necə dəhşətdir, adam hələ sağdır, amma yavaş-yavaş ölür, tezliklə tamam öləcək. Elə bil, bu fikirlərinin içində nənəsinin özü tamam yaddan çıxırdı. Onu ancaq əvvəlki kimi, hələ diri, ölümə məhkum olmamışdan necə idisə, elə də xatırlayırdı. İndi isə o, elə bil, burada yox idi, haradasa uzaqlarda idi. Elə bil, onu ancaq xatırlamaq olardı.

Həyata bu dəli bağlılığında nəsə bir qəddarlıq vardı – qeyri-təbii, bu həyata aidiyyəti olmayan qəddarlıq.

Qışda, artıq yatağa düşəndə isə nənə yavaş-yavaş əriməyə başladı. Artıq üsulluca uzaqlaşırdı onlardan, gedirdi; gözləri pis görür, söhbət eləyəndə hər şeyi başa düşmürdü. Artıq bilmirdi ki, təsərrüfatda işlər necə gedir, hərdən də başlayırdı sorğu-sual eləməyə, cavab verəndə də, sanki, eşitmirdi. Bir axşam qəflətən soruşdu ki, məni hansı otağa uzandırmısınız? Cavab verdilər ki, kiçik, o isə təəccüb elədi, ona elə gəlmişdi ki, böyük otaqdadır.

Bütün bunlar haqqında südlə bir yerdə gələn məktublarda yazırdılar. Hər səhər xutordan bir neçə sətirlik kağız gəlirdi. Qış yaman soyuq keçirdi deyə, kağız da donub vedrənin qapağına yapışırdı, anası onun donunu açmaq üçün nəfəsi ilə qızdırırdı ki, məktubu oxuya bilsin.

Son vaxtlar anaları xutora daha tez-tez gedirdi, axırda elə orda qaldı. Babalarıyla bir yerdə ölənə qulluq eləyirdilər. O, pəncərənin qabağında oturub "İncil" oxuyurdu. Anası isə xəstəni yedirdir, səssizcə otaqdan çıxır, sonra yenə içəri

girir, xəstəyə sarı əyilib pıçıltısına qulaq asırdı. Baba artıq onun dediklərini eşitmirdi. O isə pıçıldayırdı ki, kişinin "İncil" oxumasına qulaq asmaq istəyir. Kişi də o dəqiqə əlində "İncil"i, pəncərə önündə otururdu. Külək qarı sovurub pəncərələrin qabağında təpələmişdi, bəzi yerlərdə isə qış lümlüt idi; bu qış bağdakı bir çox ağacı da don vurdu.

Sonra uşaqların hamısı nənələriylə vidalaşmağa getdilər, amma onları tanımadı. Bir neçə gündən sonra anası süd ilə yolladığı məktubda yazdı ki, artıq hər şey bitib.

Anders, az qala, bir yüngüllük hiss etdi özündə. Qardaş-bacıları bütün günü nənələrindən danışırdılar – necə adam idi, qabaqlar nə deyirdi, necə tezdən dururdu, necə güllər bəsləyirdi, necə pionları vardı, lap çoxdan, hələ qız olanda meşədə necə azmışdı – hər şeydən. Anders acgözlüklə dinləyir, özü də arabir danışırdı. Onun da hər şey yadında idi, nələri yadda saxlamamışdı ki! O danışır, xatırlayırdı və nənəsindən harada söhbət düşürsə düşsün – o hazır idi. Yanaqları alışır, gözləri parıldayırdı...

Elə bil, təzədən dirilmişdi nənəsi!

Anaları evə qayıtdı ki, uşaqları dəfn mərasiminə hazırlamaq üçün nəsə tiksin; həm qızlara, həm də iki oğlana – orada xeyli iş vardı, hamıya bəs edərdi. Anders həmin il kilsə icmasına qəbul olunmalıydı deyə onun üçün qara paltarı əvvəlcədən tikmişdilər. Hələ ömründə qara geyməmişdi. Zarafat deyildi – hamı ona, papağındakı matəm lentinə baxırdı. Bütün ailələri başdan-ayağa qara geyimdə anaları ilə bir yerdə bayıra çıxanda hamı onlara sarı çönüb məxsusi salamlaşırdı. Anders özünü birtəhər hiss edirdi, elə bil, başqa cür idi, bütün adamlar kimi yox. Bazar günü erkən qalxdılar, dəfn mərasiminə yollandılar. Alaqapının qabağında qarın üstünə şam budaqları düzmüşdü. Bağlar soyuqdan əsirdi, amma ev isti idi. Camaatın bəzisi artıq gəlmişdi, əsasən də, qocalar; əllərini açıq sobanın qabağında qızdırırdılar, sobada isə şam ağacının odunu çırtaçırt yanaraq, döşəməyə qığılcım

saçırdı. Döşəməni yumuşdular, hamı yerə salınmış palazların üstü ilə sakitcə gedir, pıçıltı ilə salamlaşaraq, əllərindəki burun yaylıqlarını əzişdirirdi. Şəhərdən mərhumun yaxınları – ana, ata və uşaqları – gələndə otaqlara tamam sükut çökdü. Qocalar onların əllərini öz əllərində xeyli saxlayırdılar. Demək olar ki, söhbət etmirdilər. Otağın ortasında bir kürənsaqqal durmuşdu, buralarda təzəlikcə məskən salmışdı, ucadan danışan bircə o idi.

Adamlar elə hey gəlirdilər. Mal-qara həyətinə xizəklər gəlir, şala bürünmüş adamlar evə girirdilər. Elə bir ucdan gəlirdilər, əksəriyyəti qoca idi gələnlərin. Xizəyi olmayanlar taytıya-taytıya piyada gəlirdilər. Heç ev yiyələrinin də atı yox idi, dəfn münasibətilə əlborcu götürmüşdülər. Hündürboy, arıq, dişsiz, naftalin iyi verən qara paltarlarda kəndli qadınlar, qonşuluqda yaşayan, əyinlərinə çox böyük olan qara kostyumlar geymiş kişilər elə gəlir, gəlirdilər. Ev ağzına kimi dolmuşdu, hətta çardağı da soğandan, almadan təmizləmişdilər, indi orada da camaat dayanmışdı, addımlarının səsləri aşağıda eşidilirdi.

Nəhayət, yan otağın qapısı açıldı və bütün evdə, sanki, buz kimi bir külək dolaşdı. Hamı otağa keçdi. Otaqdan təzə yuyulmuş döşəmə iyi gəlirdi, soyuqdan qurumurdu, döşəmənin üstünə atılmış şam budaqlarından üstündəki, hələ əriməmiş qarın rütubətli qoxusu gəlirdi. Hamı mərhuma son dəfə nəzər salıb vidalaşmaq istəyirdi – qocalıqdan başları əsən, ağılları kəsəndən onu tanıyan qarılar, mərhumu elə indi uzandığı kimi, ağsaç və bomboz görmüş cavan qadınlar, onunla qızlıq dövründə qol-qola rəqs eləmiş qocalar, Bolsqord və Yutaqordda işləyən, Emilin yanına bir fincan qəhvə, bir qədəh araq vurmaq üçün baş çəkən fəhlələr. Anders arxada durmuşdu. Özündən qabaqda duranların arxasından boylanır, kimsə çəkiləndə nənəsinin alnını və seyrək saçlarını görürdü, əyilmiş çənəsini və açıq ağzını görəndə isə lap birtəhər oldu, yad adamların dalında gizləndi və daha heç bir şeyə baxmaq istəmədi. Amma

böyük qardaşı Xelqe düz nənəsinin yanında durmuşdu. Onu uşaqların hamısından çox istəyirdi, yanına daha tez-tez baş çəkirdi və indi nənəsinin cəsədi onu nə qorxudur, nə də ki ikrah doğururdu. O, hərdən ot biçməyə, heyvan otarmağa da kömək eləyirdi, turp çıxarır, noxud təmizləyir, çayda onun üçün balıq tutur, tezdən torları yoxlayıb, ilanbalığı gətirirdi səhər yeməyinə. O, az qala, şəhərlidən çox kəndçi idi və kənddəki qohumlarına onun kimi bənzəyən yox idi. Nənəsinin yanında durub sakitcə ağlayırdı, çünki çox sevirdi onu.

Tabutu bağlamağa başlayanda Anders, az qaldı, nənəsinə sarı cuma. Bir az ləngidilər, baba mərhumun yanağını sığallayana kimi gözlədilər. Uzun çəkdi, tabutu örtənə kimi yaman uzun çəkdi. Nəhayət ki, örtəndə Anders özünü dəhşətli dərəcədə narahat hiss etdi ki, bu qədər adamın arasında nənəsi ilə vidalaşmayan bircə o oldu. Artıq gec idi, o sakitləşdi və nəhayət ki, hamı kimi ağlayıb yüngülləşə bildi.

Yakob – bəyaz saçları olan, qəddi əyilmiş hörmətli qoca psalom oxumağa başladı. Səsi azca cırıltılı çıxırdı, amma əsmirdi, o, bineyi-qədimdən kilsə ağsaqqalıydı, neçə illərdi dəfn mərasimlərində oxuyurdu.

Sonra tabutu bayıra çıxardılar.

Atlar irəli atılır, xizəyi dartırdılar. Xəz papaqlı xizəkçilər isə heyvanların üstünə qışqırıb cilovlarını çəkirdilər. Tabutu qabaqdakı xizəyə qoydular, yutarqordlu bir işçi sürəcəkdi onu, at da onlarınkı idi. Tövlədə inəklər böyürürdülər, toyuqlar düz dişlənin altına soxulub arpa dənləyirdilər. Hər şey hazırdır, tərpənmək vaxtıdır.

Baba alaqapının qabağında durmuşdu, vəziyyəti heç yaxşı deyildi, camaatla gedə bilmədi. Elə hey təkrar eləyirdi:

– Eybi yox, mənim də vaxtıma bir şey qalmayıb.

O, gedənlərin arxasınca əlini yelləyir, yelləyirdi, düz dəfn mərasimi gözdən itənə kimi.

Kilsənin yolu sahilləri donmuş çay boyunca idi. Çəmənlər də donmuşdu. Lümlüt həyətlər adamın üzünə şiniyirdi, ancaq

qışda belə olur, yayda göz oxşayan yaşıllıqdan əsər-əlamət qalmayanda. Sanki, boşalmışdı bütün ətraf. Amma, sanki, yox, elə həqiqətən, boş idi həyətlər; hamı mərhumu basdırmağa gedirdi, uzun səf yaratmış xizəklərdə oturmuşdular, çox böyük, yöndəmsiz bir arabanı xatırladırdı bu dəstə. Hərdən, lüt torpağa dəyəndə xizək gurultu salır, oturanları silkələyirdi, onlar da ətrafa boylanırdılar. Qabaqdakı xizəyin üstündə şəhərdən gətirilmiş, kasıbbabı gül çələngi yırğalanırdı.

Dəstəni görəndə kilsənin zəngləri çalındı və zənglərin sədası bütün ətrafı doldurdu – çöllüyün, qəsəbənin üstündən keçib lap uzağa, düz meşələrə kimi yetişdi. Zənglərin səsi harada eşidilirdisə, kişilər, adəti üzrə, papaqlarını çıxarır, qadınlar isə xaç çəkirdilər. Kilsə icmasının dörd bir yana səpələnmiş kiçik kəndlərindən ən uzaqdakında açıq pəncərənin önündə yaylığa bürünmüş bir qarı oturmuşdu. O, buralarda hamıdan yaşlı idi, artıq beli də bükülmüşdü, neçə illər idi ki, evinin kandarından bayıra ayaq basmırdı. Lakin saçları qatran kimi qara qalmışdı, qəhvəyi gözləri isə par-par yanırdı. O da nənələri idi, atasının anası. Bəlkə də, onun damarlarında cənublu qanı axırdı, bəlkə də, yox, amma nəsə qarışığı mütləq vardı, çünki bu yerlərin camaatı belə qarabuğdayı olmur. Onu yerli qadınlardan yenə nəsə fərqləndirirdi, bəlkə də, bu fərq qız vaxtı kilsə icmasına qəbul olunarkən mülkədar qızları ilə bir yerdə hazırlaşmasında idi. İndi isə “İncil”i dizlərinin üstündə, açıq pəncərənin qabağında oturmuşdu ki, qoca Stina üçün kilsə zənglərinin necə çalındığını eşitsin və birinci zəng ona çatan kimi əlini pəncərədən çıxarıb elə cidd-cəhdlə yellədi ki, yanındakı tayada özlərinə yer düzəltmiş sərçələr ürkərək dörd bir tərəfə dağıldılar.

Kilsə bu yerlərin bütün təpələri kimi alçaq bir təpədə yerləşirdi. Xizəkləri dikdirdə saxlayıb tabutu əllərində apardılar. Zənglər düz başlarının üstündə çalınır, qəbirlərin arasında konfirmasiyaya hazırlaşan solğunbənizli oğlan və qızlar əl-ələ tutub tabuta baxırdılar.

Əsas mərasim kilsədə oldu. Anders bilirdi – indi ən qorxulu an olacaqdı. Orqanın səsi ətrafa yayıldı, indicə ən dəhşətli psalomu, ən qorxulu sözləri oxuyacaqdılar; bundan daha qorxulu sözlər ola bilməzdi. O, yay kimi gərilib gözlərini düz qabağına zillədi. Hamı bir ağızdan qəribə heyranlıqla oxumağa başladı, xordan uşaq səsləri də gəlirdi, hamı oxuyur, orqan isə kilsə tağlarının arasında guruldayırdı.

"Yer üzündəki bütün yollarım yalnız ölümə aparır..."

Sanki, dünyada heç həyat yoxdur və kimsəyə lazım da deyil! Oxuyanlar bütün hisslərini yalnız bu sözlərə kökləyirdilər, elə bil, ən vacib, ən qaçılmaz sözlər məhz bunlar idi.

Pastor isə davam edirdi: "Torpaqdan yarandın. Torpağa çevriləcəksən..."

Tez qurtaraydı bircə, tez! Ölümün şərəfinə bu uzunluqda bayram olar – dəhşətdir.

Budur, məzara sarı getdilər! Hamı – kilsədə olanların hamısı tabutun dalınca yollandı. Təzə qazılmış qəbir uzaqdan qaralırdı, yanında qapqara torpaq təpəsi ucalırdı, linglə işləməyə məcbur olmuşdular, çünki torpağın üç futunu don vurmuşdu. Qəbirin ətrafında dövrə vurub dayandılar, nənəni çalaya necə saldıqları eşidilirdi.

Bu mərasim onun düşündüyü qədər də dəhşətli deyilmiş. Açıq havada heç nə o qədər dəhşətli görünmür. Soyuq külək əsir, adamı dəlib keçirdi. Andersin qaloşuna qar dolurdu. Oyun yoldaşları gözlərini çəkmədən ona baxırdılar. Burada kilsənin içindəki kimi boğucu hava yox idi. Qəbrin üstünə çiçək atıb, yüngülləşərək hönkürdü.

Sonra da kilsəyə qayıdıb mərasimi başa çatdırdılar.

Evə də elə gəldikləri kimi döndülər. Qar yaman yağmışdı, xizəklər indi yüngül gedir, atlar həvəslə qaçırdılar; elə bil, qayıdanbaş yol qısalmışdı. Qapının ağzında onları baba qarşılayırdı. Yenə xizəyə nəzər saldı; indi həmin xizək boş idi və sırada sonuncu durmuşdu. Anası ona dəfn mərasiminin necə keçdiyindən danışdı, əvvəldən axıra kimi hər şeyi danışdı.

Baba yol barədə soruşdu, anasının, deyəsən, yoldan danışmaq yadından çıxmışdı.

Nahar artıq onları gözləyirdi; iki stolun üstündə yeməli şeylərdən barmaq basmağa yer yox idi, mətbəxin qapısından isə otağa cürbəcür iştahaaçan qoxu dolurdu. Qadınlar masaların üstünü nəzərdən keçirir, soyuqdan gəlmiş kişilər isə indicə içəcəklərini fikirləşərək, əllərini bir-birinə sürtüb qızışırdılar.

Stol arxasına keçdilər və düz hava qaralana kimi oturdular. Sadə xörəklər gəlirdi, amma yaman bol idi. Hər yeməkdən dadmaq lazım idi, hərçənd ki, bişmişlərin bəziləri bir-birindən, demək olar ki, fərqlənmirdi. Kişilər vururdular. Əvvəlcə məclisdə bir təntənə havası hakim idi. Amma tezliklə dillər açıldı, artıq stolun bu başından o birisinə söhbətləşir, ucadan qışqırır, stəkanlarını toqquşdurmaq üçün bir-birinə uzadırdılar. Qonşulardan gətirilmiş stulları yaxın düzmüşdülər, qapının ağzına tərəf isə adi taxta qoyulmuşdu oturmağa, bir də həyətdəki köşkdən skamyanı da gətirmişdilər. Kişilərdən hansısa çölə çıxmalı olanda, az qala, hamı ayağa dururdu, yerlərindən qalxmaqla heç arası olmayan qadınlar da, yüngülcə deyinirdilər. Ümumi səs-küy getdikcə artır, həm otaq, həm də adamların qəlbi yavaş-yavaş isinirdi. Sobada odun çırtıldayır, üzlər tərləyirdi.

Kefləri durulmuşdu, aralıq şən idi indi. Söhbətləşirdilər. Dildən iti olanlar da artıq bir-biriylə söz güləşdirirdilər. Onları həvəslə dinləyirdilər, qadınlar diqqət kəsilib başlarını çiyinlərinə sarı əyərək qulaq asırdılar. Qalanları da boğaz inəklərindən, superfosfatdan, drenajdan danışırdılar. Özü də hər danışan dediklərini mütləq hamı eşitsin deyə, boğazını yırtırdı.

Massa-Yane – əslən buralı olan, əyalətdə hamını geyindirən bapbalaca dərzi də məclisdə idi. Ölçüləri götürəndə mütləq skamyanın üstünə çıxası olurdu deyə, qanı qaralır, dili zəhərə dönürdü. Dəfndə iştirak edən yeganə şişman adam – arxası bir oturacağa yerləşməyən dəyirmançı da burada idi. Anders onunla yanaşı oturub qulaqlarından çıxan unlu

tüklərinə tamaşa edirdi. Qapının ağzındakı skamyada isə torpaqsız kəndli Peter belini donqarladıb əyləşmişdi.

Bütün məclis ərzində o, bircə kəlmə də dinmədən oturub, kilkəli başını boşqabına sallamışdı. Deyirdilər ki, o, qonaqlığa dəvət gözləyəndə neçə gün ağzına bir tikə də almır. Düzdür, hərdən uzun müddət qonaqlıq düşməyəndə evdə özü üçün nəsə hazırlamağa məcbur olurdu. Onlara gedəndə isə masanın üstünə mütləq quru çörəklə sobada bişmiş kartof qoyurdu. Ən düzü isə o idi ki, Peter çox yoxsul yaşayır, nadir hallarda qarnını doyura bilirdi. Amma bu barədə danışmağı xoşlamırdılar və söhbət bu məcraya düşəndə həmişə zarafata çevirməyə üstünlük verirdilər. O, otağın ən uzaq küncünə təpilmişdi; əvvəla, öz statusuna görə, ikincisi də, ora qaranlıq olduğundan arabir boşqabını doldurması heç kəsin diqqətini cəlb etmirdi.

Təxminən, saat beş üçün, ət xörəkləri bitəndən sonra, masanın üstünə şirin şeylər gəlməyə başladı. Bir də ki qonaqların gətirdiyi cürbəcür pendirlər. Onlar bir-birindən az fərqlənirdi, amma pendirini yaxşı tanıyan hər qadın qonşularını da ona qonaq etməyi özünə borc bilirdi. Hamı toxluqdan və aldığı ləzzətdən nıqqıldayırdı, Peter də oturduğu yerdən məclisə baxa-baxa öz işində idi.

Andersə buranın isti və çox səs-küylü olması, hamının birdən danışması və heç özlərinə bənzəməməsi yaman xoş gəlirdi. Soba çırtıldayır, isti adama layla çalırdı. O, divarın dibində oturmuşdu. Arxasında his kimi qara pəncərələr vardı, otağın içi isə bəs deyincə işıqlı idi. Uzun stolun bir başında kerosin lampasının biri, o biri başında isə ikincisi yanırdı, lap qapının ağzına da şam qoymuşdular. Pastorun yanındakı ən hörmətli yerdə anası oturmuşdu, bənizi ağappaq, özü sakit idi.

Mərasim başa çatırdı. Lap axırda şəhərdən gətirilmiş, qara və ağ kremli, ortasında böyük qara xaçı olan tort gəldi süfrəyə. Tort Andersin qabağına çatanda o diksindi və bir tikə də götürmədi, hərçənd ki, bir də belə ləzzətli şeydən

dadmayacağını gözəl bilirdi. Dəyirmançı isə özünə zırpı tikə götürərək, qara xaçın köndələn tirini də iştah ilə aşırdı.

Nəhayət, pastor dua oxudu və stolun arxasından qalxmağa başladılar.

Qapıları taybatay açdılar, camaat evə dağıldı. Artırmadan o qədər kürk, palto asılmışdı ki, elə bil, bütün icma burada idi və camaatın üst geyimlərindən mal-qara qoxusu, saman iyi gəlirdi. Yuxarıdakı otaqlar isə boş idi, aşağının istisindən sonra adama bura çox sərin gəlirdi. Havasından soğanla almanın qoxusu hələ sezilirdi, güzgünün arxasında isə dəstələnib bağlanmış lavanda çubuqları dururdu, nənəsi kilsəyə gedəndə onlardan istifadə edərdi. Qəhvəni burada verdilər; qadınlara – peçenye ilə, kişilərə – konyakla, tezliklə bura da səs-küylü, isti oldu.

Anders bilmirdi ki, nə etsin. Onun yaşıdı olan oğlan uşağı yox idi. Bikarçılıqdan otaqda gəzişir, divarlara söykənib dururdu. Adəti üzrə, mətbəxə də baş çəkdi, amma orada da yad adamlar vardı. Onlar qabları yuyub silir, dağ kimi üst-üstə düzürdülər, elə qablar da yad idi, əlborcu götürmüşdülər, hər boşqabın ortasında yekə qızılgül vardı. Avaraçılıq idi, yenə yuxarı qalxdı və söhbətlərə qulaq asmağa başladı. Kişilərlə qadınlar artıq ayrılmışdılar, kişilər oturan otaq tüstü içindəydi, tobbi içir, hamısı birdən, bir-birinin sözünü kəsə-kəsə danışırdı. Bura xoşuna gəldi. Amma bir azdan yenə aşağı düşdü. Artırmaya açılan qapının üstündə sadə bir şəkil asılmışdı – kilsəyə gedən yol, ətrafda həyətlər, təpənin üstündə isə yanında xaçları olan məbəd, bir də ki ağcaqayın ağacları təsvir olunan bir şəkil. Bu gün şəklə baxmadı, bayıra çıxdı.

Dəhşət zülmət idi. Soyuq və sakit havada meh deyilən şey yox idi. Bir neçə kişi qarağat kollarının dibinə at kimi fışhafışla işəyirdi. Kişilər qaranlıqda yaman yekə görünürdülər. Şərq tərəfdə ulduzlar görünürdü, amma göy üzünün qalan hissəsi buludlu idi. Kişilər evə qayıtdılar, Anders bu sakitlyin içində tək qaldı.

Deşikdən mal-qara axuruna baxdı, amma hörümçək torunun arasından zəif işıqdan savayı, başqa bir şey görmədi. Budur, bir əlində vedrə, o birisində fənər, kimsə çıxdı oradan. Qadın idi, cığırla gedirdi. Əlindəki fənərin işığı yerə və ayaqlarına dolaşan uzun ətəkliyinə düşürdü. İşıqlı, səs-küylü evə tərəf gedirdi, amma onun tinindən mətbəxin qapısına sarı buruldu. Anders yalnız burada seçdi ki, gördüyü qoca, tamamilə yad bir qadındır.

Çayda buz şaqqıldayırdı, Anders bunu birdən eşitdi və yadına düşdü ki, hava soyuqdur və əslində, o da kişilərin bayaq kollektiv şəkildə gördükləri işin dalınca çıxmışdı bayıra. O da düz qapının ağzındakı, köhnə, tanış alma ağacının dibini seçdi.

Evdən səs-küy gəlirdi. O qədər qonaq vardı ki, adama elə gəlirdi, ev indicə ortadan parçalanacaq. Yalnız danışmaq həvəskarı olan adamlar belə hay-küylə dağılışa bilərdilər. Arxası evə dayanmış Anders diqqət kəsildi. Ümumi səs-küyə tənha, yumşaq bir səs də qarışmışdı, sakit, heç kəsə müraciət etməyən və heç kəsdən cavab gözləməyən bir səs.

Anders qanrıldı. Aşağıda, düz yanında bir pəncərə işarırdı, içəridə qəribə sükut vardı, elə bil, bu pəncərənin arxasında, otaqda heç kəs yox idi. Bu, həmin o yandakı kiçik yataq otağının pəncərəsi idi.

Anders işini qurtarıb, pəncərəyə boylandı. Balaca otaqda, nənəsinin öldüyü çarpayıda oturmuş babası "İncil"i qabağındakı qoyun dərisinin üstündə açaraq oxuyurdu. Əynində ağ, tikməli köynək vardı. Çarpayının mələfəsini indicə dəyişmişdilər, par-par yanırdı, səliqəyə salmışdılar; üstündə bir dənə qırışı da yoxdu. Yaxşıca daradığı ağ saçları babasının çiyinlərinə səliqəylə tökülürdü. Təntənəli, bayramsayağı görkəmi vardı. Döşəmə küknar budaqlarıyla örtülmüş, künclərdə mərsin kolları qoyulmuşdu.

Anders nəfəsini şüşəyə verdi, şüşə tərlədi. Bir istədi çıxıb getsin, amma sonra əlinin içi ilə şüşəni silərək qaldı. Dırmandığı

qar təpəsinin buz qaysağı artıq onu saxlamırdı, Anders yıxıldı. Bir də baxdı ki, ayaqlarının altındakı çiçək ləklərini soyuqdan qoruyan budaqlardır.

Pəncərənin şüşəsini alt tərəfdən don vurmuşdu deyə içəri görünmürdü, bir az dartınası oldu.

Qoca qımıldanmadan oturmuşdu. Yuxarıda qışqırışıb danışırdılar, o isə eşitmirdi, bəlkə də, fikir vermirdi. Həmişəki səsiylə, ucadan oxuyur, dişsiz ağzının dodaqları tərpənirdi. Anders hər kəlməni seçirdi.

Nəhayət, "İncil"i örtüb əlini üstünə qoydu.

– Amin. Ata, oğul və müqəddəs ruh xatirinə.

Kitabı yatacağın yanındakı stulun üstünə qoyaraq, ətrafına göz gəzdirib dilləndi:

– Tanrımız səni qiyamət günü oyadacaq.

Sonra babası uzanıb şamı üfürdü və zülmət onu uddu.

* * *

Anders yeniyetməlik çağlarına qədəm qoyurdu. O, indi şəhərə, ətraf yerlərə tez-tez gəzməyə çıxırdı, həm dostlarıyla, həm də tək. Evdə yaman darıxırdı. Yaxınlıqları, evlərindəki birlik onu sıxır, əl-qolunu bağlayırdı. Burada hər şey bütöv, ayrılmaz, qırılmaz idi – köhnə mebel, otaqların ab-havası, onların ruhu, nənəsinin kənddə toxuduğu kilimlər, onların üstü ilə gəzənlər – hər şey. Elə qapını açıb salamlaşmaq kifayət idi – o, evə girirdi və hər dəfə burada da hər şeyin həmişəki kimi olduğunu görürdü. Lampa kənarında keçən axşamlar da həmindi, şam yeməkləri də: lampanın zəif şöləsi, bacılarının əl-ayaq etməsi, pəncərədən gələn qatar səsi – hər şey eyni, hər şey hər axşam olduğu kimi. Atası ilə anası isə həmişə ciddi səslə, diqqətlə "İncil"i oxuyurlar. Bundan ürəyi sıxılırdı. Lakin bütün bunlar bir zamanlar sakitlik, aramlıq, dinclik gətirirdi ona! Bəs indi niyə ürəyini sıxırdı, görəsən?

Hər şeyləri ümumi, bənzər idi. Bütün dünyadan təcrid olunmuş rahat otaq. Bir dəfə qoyulmuş, dəyişməz qayda-qanun. Dəyişməz həyat!

Onlar bütöv bir nəsil, ailə idilər, o isə artıq qopmaq, ayrılmaq, özü olmaq istəyirdi! Buna görə onlardan uzaqlaşmağa başladı Anders.

Bu gizlincə baş verirdi. Heç kəs heç nə görmürdü. Onların ailəsində nadir şeylər kənardan bəlli olar, büruzə verilərdi, adətən, hər şey gizlində qalar, yalnız fəhmlə duyulardı. Anders də onlar kimi idi.

Amma indi baş verənlər elə doğuş kimi kobud idi. Elə doğuş zamanı olan qorxunu, əzabı, yeni zəif orqanizm üçün, köhnə orqanizm üçün keçirilən nigarançılığı yaşayırdı. Bir də yükünü yerə qoymaq, nəyisə dəyişmək ağrısını... Niyə?

Heyvanlar doğuş tutmalarını hiss edəndə yuvalarında gizlənir, qaranlıq guşə tapıb orada, xəlvətdə inildəyirlər, yüklərini yerə qoyanda isə balaların göbəyini dişləriylə kəsirlər. Dünyaya gələn kor balaları da analarının torpağa hopmuş qanının qoxusunu alır...

Hər kəs bir nəslə mənsubdur. Niyə?

O, içində baş verənlərdən əzab çəkirdi. Hər xırda dəyişikliyə fikir verirdi ki, heç bir şey diqqətindən yayınmasın. O əzab da çəkir və bu əzablardan zövq də alırdı...

İlk dəfə idi ki, həyatın dağınıqlığını, pərakəndəliyini anlayırdı. Anlayırdı ki, insanlar natamam məxluqdurlar, uydurduqları yalanla yalandan yaşayırlar, amma bu, onların qəti vecinə deyil. Həyat özü onları buna vadar edir, əhval-ruhiyyələrini elə kökləyir ki, hələ bir yaşamlarından razı da qalırlar. Onların ayaqları altından torpaq qaçır – veclərinə almırlar. Anders əvvəllər yalnız öz içində yaşayırdı.

İnsan həyatının ən dəhşətli çağı – cavanlığı belə başlanırdı onun. Bu, onun da ən yarımçıq, ən etibarsız, ən kövrək çağları idi. Bunu anlamayan aldanacaq, özü-özünə xəyanət edəcək. Uşaqlığı, yetkinliyi, qocalığı düzgün, tam yaşamaq

asandır. Cavanlıq isə elə dövrdür ki, əsl insana çox asanlıqla yaraşmaya da bilər. Ondakı düzənsizlik, ehtiyatsızlıq, məsuliyyətsizlik, həqiqətən, insana yaraşmır. Bəlkə, elə bu səbəbdən boşboğaz adamlar cavanlıqlarından dəm vurmağı xoşlayırlar? Onlar üçün ömrün ən gözəl çağları elə cavanlıqdır: insandan o qədər az tələb olunur, insana o qədər çox verilir ki, yada salanda xoşhal olursan. Lakin Andersin cavanlığı hələ yenicə başlanırdı.

Onların Tanrısından gizlicə qaçdı, nəzərə çarpmadan qaçdı, heç kim də görmədi onu. Qaçandan sonra əvvəlcə böyük, boş bir otağa düşdü. Canına üşütmə düşmüşdü. O, boşluğu və qaranlığı bütün vücuduyla hiss edirdi. Bəli, ətraf bomboşdur. Bunu çoxdan, lap özünü xatırlayandan bilirdi. Amma boşluğu içində duymaq, hiss etmək tamam başqa şeydir. O, qismətinin dərk olunmuş ağırlığından özündə qəribə yüngüllük duydu.

Təki heç kəs mane olmasın. Taleyindən şikayətçi deyildi, ona elə gəlirdi ki, öz yükünü çəkə bilər. Təki onu heç kəs narahat etməsin, ətrafındakı qaranlığı hürkütməsin. Lakin o öləcək, çox tezliklə öləcək. Bunu hamı bilir. Bilirlər ki, ağciyərləri xəstədir, tezliklə öləcək. Ondan uzaq gəzirlər ki, xəstəlik tutmasınlar. Hamı uzaq gəzir, hətta qardaşı, bacıları da, həm də qorxurlar ki, birdən özü də hiss edər bunu. Onların bu ehtiyatkarlığı qəlbinə necə dəyirdi! Nahaq çalışırlar axı! Hərdən, az qala, düz gözlərinin içinə demək, hayqırmaq istəyir bunu.

Yəni görmür ki, necə can atırlar ondan aralı durmağa? Nədir, kordur məgər! Yəni onlar elə fikirləşirlər ki, bircə kəlmə söz də, həmin kəlmənin hansı ahənglə deyilməsi də, bircə baxış, bircə təbəssüm də onun gözlərindən yayına bilər? Yəni o, mətbəxdə, otaqda qapını örtüb pıçıldaşmalarından bixəbərdir – niyə qabaqlar bağlamırdılar qapıları! Yəni başa düşmür ki, onu diriykən ölü kimi ağlayırlar... Axı evdəki narahatlığı, ağırlığı ki ondan gizlədə bilmədilər – aralarında

ölümə məhkum birisinin mövcudluğu onlar üçün, həqiqətən, ağır idi. O, hər şeyi görür. Hər şeyi anlayır. Burada çətin nə var ki?!

Yalnız anası həmişə olduğu kimi idi, yaxın təmasda idi onunla. Lakin anası xəstəlikdən də, ölümdən də uca idi. Onu hesaba almaq düzgün deyildi. O çox mehribandır. Qorxurdu ki, oğlu başa düşər, çalışırdı ki, hər şey həmişə necə idisə, elə də olsun; duyuq düşməsin, bircə onu hiss eləsin ki, onu çox istəyirlər, onun barəsində düşünürlər – anası daim onu fikirləşir, həmişə yanında olmağa çalışırdı, sanki, artıq ömrünün sonuna az qalmışdı... Hamıdan da artıq elə o büruzə verirdi özünü!

Bahardan etibarən ona hər gün səhər yeməyinə yumurta verməyə başladılar, o biri uşaqlara yumurta düşmürdü. Hər səhər stolun dalında ona xatırladırdılar dərdini... Sanki, unuda bilərdi... Anası mütləq yanında otururdu – stolun ətrafında neçə dənə boş stul ola-ola. Səhər yeməyini ikilikdə yeyirdilər, bəs niyə düz yanında otururdu! O, hər şeydən danışırdı, təkcə hər ikisini düşündürən məsələdən başqa, onun başını qatmağa, fikrini dağıtmağa çalışır və elə mehriban danışırdı ki, onun lap ürəyi düşürdü. Nə bir qınaq, nə bir sərt söz eşitməzdi. O artıq yeməkdən qabaq dua da eləmirdi, anası isə bu günahından keçir, özünü görməzliyə vururdu – Anders isə onun mərhəmətinə heç dözə bilmirdi! Ah, kaş danlayaydı, nifrət edəydi!

Bu zərif məhəbbət atmosferi onun üçün dözülməz idi. Bu otaqlara bircə dənə kobud külək girə bilməzdi. Bütün dəlmə-deşikləri tutulmuş mənzilin isti rahatlığında oturmaq – bundan çətin nə var! Tonqala çevrilməyən öldürücü, boğucu hərarət kimi! Bu hərarət qəlbini göynədir! Valideynlərinin möminliyi də, onların ağır, qədim inancı da onu əzir, nəfəsini qısırdı. Bircə buradan tez qurtaraydı canını!..

Tanrını inkar edən, ona bel bağlamağı mənasız sayan, həyatı tam, bütün bəzəksiz çılpaqlığı ilə, planauyğun mənasızlığı ilə qəbul edən yeni təlim ona daha çox uyğun gələrdi.

Axı bu, həqiqi təlim olardı. Heç bir inanca bağlanmadan, həyatı necə varsa elə də qəbul etmək.

Onun üçün nə fərqi var ki, onsuz da, tezliklə öləcək! Amma yox, qopmalı, canını qurtarmalı, bu çevrədən çıxmalıdır! Elə bir yerə çıxmalıdır ki, havası daha seyrək, daha sərtdir, külək isə birbaşa üzünə vurur.

Bəli, fövqəlbəşər heç nəyin olmadığını, göylərin boşluğunu bilmək yaxşıdır. Boşluğa alışmaq olar, yavaş-yavaş sakitləşib dincələrsən, qaçılmaz olanlar qarşısında duyduğun dəhşəti rədd edərsən...

Amma yox, buna adət etmək olmaz! Yeni təlimin üzərinə acgözlüklə atılmışdı. Sanki, məhz onun üçün yaranmışdı bu təlim. Təlim ona kömək edir, qəlbinə bir sabitlik verirdi. Uşaqlıq çağlarını da anladırdı ona: niyə bütün aramlığına və etibarlı sakitliyinə baxmayaraq, evlərində sinədolusu nəfəs almaq belə çətin idi. O elə əvvəllər də bunun səbəbini təxmin edirdi. İndi isə tamam anlamışdı.

Amma öyrəndiklərində sakitlik və xoşbəxtliyini tapa bilmədi. Nə xoşbəxtlik! Hər şey qeyri-sabit, hər şey laxlaqdır, ayağının altındakı hər şey sürüşdüyündən elə onun özü də sürüşür. Etibarlı, dəqiq, daimi, inanılası heç nə yoxdur. Yalnız boşluq əbədidir. Dəhşət onun yaxasını buraxmır, vücudunu çeynəyir, əzab verir ona, sanki, qəlbini burğu ilə deşirlər...

Yorğunluq anlarında fikirləşirdi ki, onsuz da tezliklə öləcək, təslim olmaq lazımdır, qurtulmaq, azadlığa çıxmaq üçün son gücünü sərf etməyə dəyməz; artıq gecdir. Evdə, anasının yanında əbədi hüzur tapmaq daha yaxşı olmazmı – onun əlindən tutaraq dualar oxuyardı, axı anası çox istəyir bunu...

Yox. Olmaz. Həqiqətin gözləri içinə şax baxmaq gərəkdir. Qoy lap bu yaxın zamanlarda öləsi olsun, lakin ona ayrılmış ömrü əməlli-başlı yaşamalıdır. Evdə isə boğulur, nəfəs ala bilmir. Kaş azadlığa çıxaydı!

O özü üçün məhz bunun vacib olduğunu anladı...

Özünü əldən düşmüş, küncə sıxılmış hiss edirdi. Tez-tez bədəni alışırdı... Bəlkə, bütün bunlar xəstəliyin qızdırmasıdır... Ya, bəlkə, uşaqlıq dövründə yatmış, indi isə qəfil oyanıb onu boğan mübhəm bir güc idi bu? Bunu bilmirdi. Heç kəs bilmirdi. Onu, elə bil, harasa çəkirdilər; amma hara çəkildiyini bilmirdi. İndi onun xarakterində bir kobudluq yaranmışdı, içində baş verənləri, özündən və başqalarından gizlətmək istədiklərini yalnız kobudluğu ilə pərdələyə bilirdi.

Lakin o tezliklə öləcək axı! Tezliklə öləcəkdisə, həyatın ona nə dəxli vardı ki? Sanki, okeana atmışdılar onu, sanki, özgə qapısının ağzında pusaraq, gizlincə dinləyirdi nəyisə...

Ona elə gəlirdi. Lakin həyat vüsətli olduğu qədər də mənasızdır.

O da qayğısız, xoşbəxt olurdu. Ona baxanda da heç kəs heç nə duymurdu.

Bir də görürdün, hər xırda şeydən qəlbi sevinclə çırpınırdı. Günəşin çıxmasından. Bir neçə quraqlıq gündən sonra, nəhayət ki, yağan yağışdan. Ya da tamamilə səbəbsiz, hər şeyin aram və sakit olmasından, dəyişməməsindən. Elə ki öz zirzəmisindən çıxırdı, gözləri qarşısında geniş, azad, aydın həyat mənzərəsi açılırdı və bu dünyanın bütün işıqlı şeyləri gözləri önündə daha aydın cilvələnirdi. Bəli, bircə başını öz yuvasından çölə çıxarmağına bənd idi...

İçindəki bu məhrəm hiss bir çox başqa təəssüratla qarışırdı. Məsələn, qışda, az qala, səhərdən axşama kimi donmuş göllərdə konki sürərdilər. Göl çox idi, biri qurtaran kimi digəri başlanırdı, onlar da göllərin birindən digərinə adlayırdılar. Məktəbi təmizlik üçün bağlayanda, dərsləri olmayanda lap səhər tezdən – buz konkinin tiyəsi altında hələ cingildəyəndə qaçardılar sürüşməyə. Stansiyanın nəzarətçisi yaşayan evə kimi sürüşmək, vıyıltı ilə toyuqların üstünə şığıyıb onları ürkütmək olurdu. Bura da, elə sürüşməli başqa yerlər kimi, təhlükəli idi, göldən mütləq bir kiçik çay da axırdı, onun buzu çox nazikdi, gərək diqqətli olaydın, çünki hər yerdə nişan

ağacları yox idi. Göllərdə xırda adalar da vardı, onlardan da yan keçməliydin. Şimal tərəfdəki sahil isə çimmək yerləri idi, qışda buralar yaman qəribə görünürdü, çimməndə paltarlarını üstünə sərdikləri kolları isə heç tanımaq olmurdu.

Axşamlar hərdən qamış gətirib tonqal çatar, qoltuqlarına topa-topa yığıb elə sürüşə-sürüşə, dayanmadan atardılar tonqala. Alov lap göyə qalxır, ətrafa qığılcımlar səpirdi. Buz əriyir, istidən və uşaqların sıx durmasından ayaqlarının altında çırtıldayırdı. Buz tabe olur, qaranlıqda uca iniltilər çıxarırdı.

Soyuqdan qıpqırmızı, ac qayıdardılar evə, əyin-başlarını uzun-uzadı soba yanında qurudardılar. Onları vaxtı çoxdan ötmüş naharla, ya da şamdan qalmış, təzədən qızdırdıqları boyat xörəklə doyurardılar.

Gözəl həyat idi. Şəksiz. Bəs onun həyatı necəydi? Məgər o da başqalarıyla bir yerdə sürüşməyə getmirdi?

Hə, qəribədir, amma o, elə bil, ikiləşirdi. İki tamamilə müxtəlif həyatın, sanki, bir-biriylə qəti bağlılığı yox idi. O oynayanda özünü tamamilə unuda bilərdi, fikri dağılar, möhkəm şənlənə bilərdi... Və sonra da qəflətən özünə gələ bilərdi... Amma, hər halda, yaşamaq gözəl idi. Maraqlı idi. Xüsusilə də vaxtın lap az qalanda.

Nə idi axı xəstəliyi? Onun barəsində düşünməyəndə qətiyyən əziyyət vermirdi. Yaxşı, qəm yemə, qoy nə olur-olsun...

Çoxlu dostu, yoldaşı olurdu. Birinin adı Yunas idi, kənddə yaşayırdılar. Qışda mühüm problemləri həll edir, yayda isə birlikdə durnabalığı tuturdular. Yunasın bir qolu taxtadan idi, uşaq vaxtı dəndöyən maşın aparmışdı sağ qolunu. Amma hamıdan zirək idi, tək bir qolu ilə elə işlər görürdü ki, başqası heç iki əliylə də bacarmazdı. Ən çox da durnabalığı tutmaqda mahir idi, Anders isə yayda, onların şəhər yaxınlığındakı kəndlərində yaşayanda kalan balıq tuturdu. Buralarda göl sarıdan bolluq idi, xüsusilə də sahilləri qamışlıq olan göllər əla idi, burada durnabalığı günün altında canını

qızdırırdı, uşaqlar da onu elə bu vaxt pusurdular. Ayaqqabılarını, gərək, sahildən uzaqda, hələ meşənin kənarında çıxaraydın və yavaş-yavaş yaxınlaşaydın, suya az qaldıqca daha çətin olurdu. Yunas həmişə birinci gedirdi və işin əsas hissəsi də onun öhdəsinə düşürdü. Budur, Andersin ayağının altında yaş torpaq fırçıldayır, Yunas yeganə yumruğu ilə onu hədələyir və Anders yerində donub qalırdı. Yunas daha nə oyunlardan çıxmırdı! Az qala, sürünə-sürünə irəliləyir, çömbəlib durur, zanbaq yarpaqlarının altında mürgü döyən durnabalıqlarını lap uzaqdan görürdü. Balığın başını xüsusi tora ilişdirdinmi, vəssalam, işi bitdi. Tezliklə vedrəsi dolurdu. Gözünün ucu ilə də nəzər salırdı görsün paxıllığını çəkənlər sahildən ona göz qoyurmu, qamışlıqda qayıq-zad gizlənməyib ki? Yunas fərasətsiz yerli balıqçıları qorxu içində saxlayırdı.

Amma bu heç də o demək deyildi ki, onların evində daim doyunca balıq yeyilirdi. Balığın, demək olar ki, hamısını yolda paylayırdı. Hərdən evlərinə, ümumiyyətlə, heç gətirmirdi, onlar qapının ağzında ayaq saxlayanda anası deyinə-deyinə qəhvə ilə çörək gətirirdi bayıra, elə ayaq üstə yeyirdilər.

Onların yaşadığı kənd çox darıxdırıcı yer idi, azından Andersə belə gəlirdi, bəlkə də, ona görə belə gəlirdi ki, buralı deyildi. Evlər rənglənməmiş, köhnə, pəncərələrin çoxu pərdəsiz idi. Elə evlərin ətrafı da, əksərən, başlı-başına buraxılmışdı, hər birinin yanında günlüksüz quyusu olardı, bağ-zad da yox idi, yalnız tənha bir alma ağacı görürdün. Bəlkə də, elə buna görə bir-birinin yaxınlığında yerləşdirilmiş evlərin arasındakı sahələr kənardan lap boş, kimsəsiz görünürdü. Adama elə gəlirdi ki, burada bir-birinə qonaq gedən də yoxdur, camaat heç tanımır da qonşularını. Lakin Yunas hamını tanıyır, gülər üzlə salamlaşırdı – quyudan su çəkən qızlarla, küləş, ya da peyin daşıyan oğlanlarla. Onlar da, adətləri üzrə, onun əlini sıxırdılar; təbii ki, sol əlini.

Kəndin ətrafında meşələr vardı. Yunas da ova gedirdi, bunda da birinci idi. Tüfəngini cəld çəkib, demək olar ki, nişan

almadan atəş açırdı. Ördək, dovşan, valdşnep, başqa cür-bəcür heyvanlar vururdu. Payızda isə qaratoyuq, hərçənd ki, onları ovlamaq qadağan idi, amma bu yerlərdə qadağaya çox elə məhəl qoyan yox idi. Yunasın əlindən nə gəlmirdi ki!

Yayda onlar bir-biriylə əla dil tapırdılar. Qışda, şəhərdə isə tamam başqa cür idi. Geyim-kecimli, işıqlı küçələrlə gəzəndə həmənki azadlığı duymurdular, sıxılırdılar, söhbətləri üzücü, darıxdırıcı olurdu. Amma tez-tez özlərini unudub meşədəki kimi oyunbazlıq edirdilər. Qayğısız adam idi Yunas, heç nə vecinə deyildi. Tez-tez taxta qolunu yoxlayırdı, elə bil, arxayın olmaq istəyirdi ki, yerindədir. Üzü isə daim mehriban, amma istehzalı bir təbəssümdən işıqlanırdı.

Şəhərdə şöhrətpərəstlik ona güc gəlirdi. Taxta əlinə nazik dəri əlcək taxırdı, elə ki, azacıq sürtülüb rəngi getdi, o dəqiqə təzəsini alırdı. Bir gözəl baharda, qızlara girişmək fikrinə düşəndə açıq boz rəngdə, ağlasığmaz əlcəklər almışdı özünə, fors eləyirdi.

Lakin qürurlu idi. Sirli, incə bir təbəssümlə gülümsünə bilirdi və əgər istəsəydi, ürəyindən keçəni edə bilərdi. Lakin o artıq dünyanın iç üzünü də görür, onun axmaq bir şey olduğunu bilirdi, odur ki, tezliklə doğma yerlərindəki sakit həyatına döndü.

Onun yerinə Murre adlı alçaqboy birisi peyda oldu – lap bircə qarış boyu vardı. Anders onu hələ xalq məktəbində oxuyandan tanıyırdı, Murre məktəbi bitirəndən sonra velosiped təmir etməklə pul qazanmağa başlamışdı. Yalnız bazar günləri, Murre bikar olanda görüşürdülər. Əgər adi iş günləri təsadüfən küçədə rastlaşırdılarsa, Murre Andersla salamlaşarkən onun əlini bulaşdırmamaq üçün ancaq baş barmağını uzadırdı. Əvəzində, o, hər bazar son dəblə geyinir və onlar Murrenin hər ikisi üçün aldığı beş erelik siqardan çəkə-çəkə gəzişirdilər.

Daha tez-tez dəmir yolunun kənarı ilə meşəyə gedirdilər, orada gəzir, uşaq kimi tullanıb-düşürdülər. Lakin uşaqlıq

çağlarından söz düşəndə həyatlarının çoxdan ötmüş dövrü kimi danışırdılar ondan, ürəyigenişliklə gülümsünüb iti yaddaşlarından razı qalırdılar. Daşın – həmin o daşın – yanından keçəndə isə Anders tamam başqa səmtə baxıb başlayırdı ağzına gələni danışmağa. Bu, onun sirri idi və bu sirrini kimsəyə açmırdı.

Başqa tanışları da vardı. Birisi ömrü boyu bircə kəlmə ağıllı söz deməmişdi, amma hamı onun çox ağıllı olduğunu düşünürdü. O birisi o qədər yüksək materiyadan danışırdı ki, nə dediyini anlamaq mümkün deyildi. Bütün tanışlarıyla uzun-uzadı söhbətləri olurdu. Nədən desən, danışırdılar, amma əsas məsələni Anders həmişə gizlədirdi. Onu ən çox düşündürən, ona ağırlıq edən, əzab verən mətləbdən heç kəsə danışmırdı.

Bazar günlərinin dostu ilə xudahafizləşəndən sonra tez-tez daşın yanına qayıdırdı. Bütün günü gəzib yorulsa və ümumiyyətlə, ora getmək istəməsə belə, qayıdırdı.

Yolboyu dostu ilə oradan keçdiyini yadına salırdı. Heç nə dəyişməmişdi buralarda, heç hava da hələ qaralmamışdı. Fikirləri dağılır, daha nələr düşmürdü yadına, günbəgün, ömrünün həm şad, həm də kədərli günlərini xatırlayırdı. Eh, necə bağlanmışdı bu xatirələrinə! Sadə şeylərin sevincinə Anders başqa oğlanlardan daha çox bağlı deyildimi? Birdən xatırladığı ən kiçik detalların sevinci qəlbini necə dağ boyda eləyirdi...

Məgər o, xoşbəxt deyil, məsələn, lap elə indinin özündə, dəmir yolunun kənarıyla gəzişəndə? Başqalarından daha az xoşbəxt idi məgər? Heç də az deyildi.

Özünün bütün əzablarını isə o, sadəcə olaraq, uydurmuşdu. Onlar boş şeylərdir. Məsələn, o, daşın yanına niyə gedirdi? Nə vardı orada? Qabaqlar, uşaq olanda onu bura daxili ehtiyacı çəkib gətirirdi, bu daşa dərin, özünü unutduran bir inamla müraciət edirdi. Sonralar bu inam zəiflədi və axırda adi mərasimə çevrildi. Amma indi heç o da qalmayıb. Hətta mərasim də gərəyi deyildi artıq. Amma yenə də hərdən gedirdi...

O, daşın yanında durdu. Həmişə durduğu yerdə, bax, otu da əzikdir hələ. Dizi üstə düşmədi – bunu artıq çoxdan eləmirdi. Lakin əllərini var gücü ilə sıxdı, elə sıxdı ki, daşa döndərdiyi əllərinin ağrısı bütün bədəninə yayıldı və özünü ətrafdan qəribə bir tərzdə təcrid etdi. Dua eləməyə başladı.

Bircə həyatını əlindən almayaydılar. Başqa heç nə yox idi bu duasında. Yaşamaq, yaşamaq. Elə qabaqkı kimi, həmişəki kimi. Qalan şeylər isə qoy necə olur-olsun. Bircə ölməsin.

Daha Tanrı barədə də fikirləşmirdi. Daha inamı yox idi. İçində heç duanın onu möhkəmlədəcəyi, ona güc verəcəyinə də inam yox idi və indi duanın özü də heç mühüm deyildi: həmişə eyni iltimas, eyni sözlər.

O inanmırdı. Sadəcə, qəlbindəki gərginlik özünə bir çıxış nöqtəsi axtarırdı. Yalnız bu idi.

Bəli, o azad olmuşdu. Canını qurtarmışdı.

* * *

Bir dəfə Anders şəhərdə gəzirdi. Şimal tərəfə, şəhər kənarına getməliydi. Gün axşama doğru əyilmişdi, hava tutulurdu. Bir az qabaq yağış da yağmışdı. Küçələr islanmış, nadir fənərlərin işığı gölməçələrdə parıldayırdı. Kimsə yox idi, təkcə bir polis nəfəri tində durmuşdu. Tindəki evdə işıq yanırdı, amma pəncərəsindəki pərdənin dalında, orada fortepiano çalırdı kimsə. Bu evin yanından ötüb yaxalığını qaldıraraq yoluna davam elədi.

Şimal küçəsinə çatıb, darvazadan həyətə girdi. Qaranlıq idi, göz gözü görmürdü, həyətdə bir neçə maşın dayanmışdı, küncdə isə metal qırıntıları, paslı dəmir parçaları, köhnə təkər-zad qalaqlamışdılar. Bütün bunlardan o üzdə alçaq bir ev vardı, onun işığı yanırdı, amma evin pəncərələri başqa səmtə baxırdı. Evdən oxumaq səsi gəlirdi, çox zəif, sanki, çox qalın divarların o üzündəydi bu musiqi. O qulaq asdı, səsə sarı gedib qapını tapdı. Açıb içəri girdi.

O, pis işıqlandırılmış, divarları malalı, tavanı tağlı olan bir otağa düşdü. Ortada sütun vardı deyə, otağın yalnız bir hissəsi görünürdü. Rənglənməmiş skamyalarda qarılar, papaqları dizlərinin üstündə olan bir neçə cavan sıxılıb oturmuşdular, sütunun arxasında isə oğlanlar durmuşdu. Bir az o üzdə iki dənə kerosin lampasının işıqlandırdığı estrada qurulmuşdu. Orada, işığın altında Xristian Qurtuluş Ordusunun bir neçə əsgəri əyləşmişdi, divarın dibində isə həmin ordunun iki zabit qadını gitaranın müşayiəti altında oxuyurdu. İçəri girib skamyada oturdu.

Buranı qızdırırdılar, amma yenə soyuq idi. Heç kəs üst paltarını çıxarmamışdı. Əksəriyyət arxa, qaranlıq sıralarda oturmuşdu, işığın altında olan ön sıralar boş idi. Qapının lap ağzında qocalar evindən dəli Yuxan oturmuşdu və onun gözləri qaranlıqda par-par yanırdı. Divarlar nəm çəkmişdi, malaları qopan yerlər hisdən qapqara idi. Əvvəllər burada dəmirçixana yerləşirdi, onda tən ortada soba dururdu.

Cingiltili səslə oxuyurdular, ürəkdən, kişi səslərini qadın səsləri üstələyirdi. Gitaraların simləri dilə gəlir, mahnı zirzəmidəki kimi dolğun səslənirdi. Xorun içindən iki zabit qadının güclü səsi əməlli-başlı seçilirdi. Onlar düz işığın altında duraraq, başlarını uca tutmuşdular, gözləri parlayırdı və başqalarından fərqli olaraq, qarşılarındakı kitablarına heç baxmırdılar, mətni əzbər bilirdilər.

Hər ikisinin əynindəki plaş yuxarıya kimi düymələnmişdi. Biri qaraşın, qırmızıyanaq qız idi, parlaq gözlərində və isti, koppuş dodaqlarının cizgilərində hissiyyat oxunurdu. Balaca, kövrək ikincisi hələ lap gənc qız uşağı idi, cansızçəlimsiz. Onda adamı riqqətə gətirən nəsə vardı, köməksiz bir sadəlik duyulurdu simasında. Üzü solğun, cizgiləri bəsit, kəndçisayağı idi; ona nəcib deməzdin, amma gözəllikdən də uca bir zərifliyi vardı bu qızın. Gözləri parıldamırdı, lakin baxışları lap dərindən, sakitcə işıqlanırdı. Zabit papağının altından sarışın, nazik telləri görünür, yanaqlarına düşürdü.

Onda ecazkar bir solğunluq vardı, amma bununla yanaşı, tamam yanırdı. Gücünü solğun mumdan alan şam kimi.

Anders ona gözlərini çəkmədən baxırdı. O, bu sifəti artıq haradasa görmüşdü...

Getdikcə daha ürəkdən oxuyur, qızışırdılar. Əvvəlcə hələ özlərini idarə edirdilər, amma tezliklə tamam unutdular özlərini, artıq üz əzələləri nəzarətdən çıxır, ipə-sapa yatmırdı. Biri vəcdə gəlib çığırır, o biriləri onun dalınca nəğmənin sözlərini mızıldayırdılar. Alqış sənə, İsa! Alqış və eşq olsun sənə! Alliluyya! Alqış və eşq! Onlar köksləri ötürərək, üzlərini ovuclarında gizləyib dua edirdilər. Bir qadın, oturduğu yerdə, ağrıyırmış kimi, yellənirdi. Bu qışqırıqlar onu daha da qızışdırırdı, o tələsir, mahnının sözləri nəfəsini kəsirdi. Elə bil, sayıqlayırdı. Ümumi bir dalğa içəridəkilərin hamısını öz ağuşuna almışdı, sonra da qaynayaraq tamam uddu. Kimsə inildəyirdi artıq. Düz qapının ağzındakı qaranlıq küncdən isə dəli Yuxan gözlərini bərəltmişdi.

Anders getdikcə daha pis hala düşürdü. Hiss edirdi ki, indicə qaytaracaq. Boğulur, havası çatmırdı...

Onlar isə elə hey oxuyur, oxuyurdular. Barı Tanrıdan oxuyaydılar. Yoxsa, təkcə İsa və yalnız İsa, Andersin isə bu heç ürəyindən deyildi, onu qaçırır, uzaqlaşdırırdı, içində bir narazılıq, yadlıq baş qaldırırdı. Havanın özündə bir ağırlıq duyulur, sinəsi sıxılır, Anders boğulurdu... Bütün bu qızdırma qaynarlığının, hissiyyat kükrəyişinin ona qətiyyən aidiyyəti yox idi.

Budur, gərək ki, əvvəllər də haradasa gördüyü həmin o solğunbənizli, gənc qızın danışmaq növbəsi çatdı. O, məhəccərə yaxınlaşıb, gözlərini qaldırmadan danışmağa başladı. Anders onun necə inamsız davrandığını hiss etdi, görünür, hələ zabit olduğuna adət eləməmişdi. Amma başdan-ayağa işıq saçırdı. O inandığından, İsanın bir xilaskar kimi yanına gəldiyindən danışırdı. Eşq və alqış! Xeyir-duanı əsirgəmə, Tanrım! Onun günahlarını necə təmizləməsindən, yeni həyat

bağışlamasından söyləyirdi, özünün daha yaxşı olmasından deyirdi. İndi artıq o, müasir cavanların ömrünü puç edən qayğılardan azaddır. Onun bütün acılarını İsa öz çiyinlərinə almışdı. Bütün bunları elə sadə bir tərzdə dedi ki, elə bil, söhbət tamam adi, sadə şeylərdən gedirdi. Bunları deyəndə də gözləri par-par yanırdı.

Anders yerində donaraq, gözlərini çəkmədən ona baxırdı. Məhəccərin qabağındakı oğlanlar pıqqıldaşdılar. Anders diksindi, sanki, yuxudan qəfil ayılmışdı və elə o dəqiqə də fikrini yayındırmağa, oğlanları görməməyə, həmin qızdan savayı, kimsəni görməməyə çalışdı.

O artıq daha az sıxılırdı, hərdən gözlərini qaldırıb zala nəzər salırdı. Duaların mızıltısı, bütün künclərdən ucalan köksötürmə və iniltilər onu çaşdırmırdı, səsi daha dərinləşir, daha ılıqlaşırdı. Əynindəki göy şeviot plaşında necə təmiz, necə sadə görünürdü. Plaş köhnə idi, bəzi yerləri sürtülməkdən parıldayırdı, xüsusilə də "Çağırış" qəzetini satarkən qəzet dəstəsini sol qoltuğunun altında tuturdu, həmin o sol böyrü. Amma indi, zəif işıqda plaşı sürtülməkdən işıldayaraq, daha gözəl görünürdü. Çox yaraşırdı ona. Ən azından, Anders belə fikirləşirdi. Gözlərini qızdan, onun sifətindən çəkə bilmirdi, o danışanda üzü tamam dəyişib təzələndi. Rəngi qaçmış dodaqları, sanki, gülümsünürdü. Əslində, üzündə bir təbəssüm də yox idi, sadəcə olaraq, adam baxanda ağzının, xüsusilə, incə cizgiləri təbəssüm təəssüratı yaradırdı.

O susanda dönməzlərin duası başlandı. Skamyaların üstündə dizi üstə durub dua edirdilər. Estradadakı "əsgərlər" arabir oxumağa başlayırdılar. Gitaralar cingildəyirdi. Zalda iniltilər gəzirdi. Alaqaranlıqda demək olar ki, heç bir şey seçmək mümkün deyildi, amma Anders görürdü ki, bəziləri, az qala, skamyaya uzanıblar. İnildəyən də elə onlar idi.

Dua mərasimi getdikcə daha da qızışırdı. Artıq hamı dua edirdi. Duanın sözlərini daha yanğılı mızıldayır, kəlmələri udurdular: " Ah, İsa, bizim xilaskarımız! Üzünü günahkardan

yan çevirmə, öz yolunu öyrət ona! Xilas et onu, elə bu gün xilas et! Ah, xilas et, ilahi, günahkar ruhunu elə bu gün xilas et! Biz də sənə alqış yağdıraq! Ah, İsa!

Qoy bizim duamız yerdə qalmasın! Qoy günahkar ruhumuz səmaları elə bu gün ziyarət etsin!"

Sonra yenə də, yenə də... İsti oldu, bürkü, nəfəs almaq mümkün deyildi...

Andersin rəngi ağardı, dodaqları titrəyir, gözləri parıldayırdı... Boğulurdu... Birdən o da inildəməyə başlayar ha... Ya da ki qışqırar!

Skamyadan ikiəlli yapışdı...

Onun düz yanında Qurtuluş ordusundan cavan bir zabit qız bir fəhlə arvadı ilə qucaqlaşıb dua edirdi. Bəs niyə o, sakit idi, həyəcanlanmırdı, onun kimi qızışmırdı?

Qız əllərini qoynunda çarpazlayıb yavaşca pıçıldayırdı. Dua edirdi? Ya nəsə başqa bir şey mızıldayırdı? Eşitmədi. Hiss olunurdu ki, sadə, adi sözlər pıçıldayır. Onun hər şeyi sadə, sakit idi. Ətəkliyi azacıq yana sürüşmüşdü, altından bircə çəkmələri görünürdü. Əvəzində, başındakı qırmızı sarğı alov kimi yanırdı.

Dua, iltimas edirdilər. Oxuyur, oxuyurdular – eyni şeyləri. İnildəyir, köksələrini ötürür, yerlərində qıvrılırdılar. Bürkü, isti, darısqal idi bura... tavan əzir, divarlar üstünə yeriyir, ətrafında sıxılırdılar, dözülməz oldu, çıxıb qaçmaq istəyirdi...

Nəhayət ki, qaranlıqdan bir yeniyetmə çıxdı, o ləngər vururdu, sanki, yuxuda idi, səhnəyə yaxınlaşdı, qışqırdı ki, artıq nicat tapıb, lakin bomboş sifəti tam yorğunluqdan savayı, başqa heç nə ifadə etmirdi... və birdən mızıldanmağa başladı, boğula-boğula mızıldanmağa...

Hamı necə coşdu birdən, necə oxumağa başladı! Gitaraların səsi bir az da ucaldı!

– Eşq və alqış olsun sənə, ilahi! Təşəkkür sənə, İsa!

Nəzir yığdılar. Yenidən oxudular. Alqış sənə, İsa! Xeyirdua ver bizə, ilahi!

Budur, hər şey bitdi. Anders qapıya tərəf atıldı və həyətdən keçərək, küçəyə birinci çıxdı.

Yaxalığını qaldırıb irəli-geri gəzişməyə başladı. Qızı gözləmək fikrindəydi.

O, içindəki nifrətdən əziyyət çəkirdi. Ağrılı, mükəmməl nifrətdən. Qəzəbi, ruhuna hər cür müdaxiləyə etirazı ürəyini buz kimi etmişdi... Budur, qarılar, eybəcər cavan qadınlar, qaqqıldayan oğlanlar və dəli Yuxan, özünü nicat tapmış elan edən yeniyetmə qapıdan çölə tökülüşdülər... Onların hamısı ikrah doğururdu. Küçəni keçməyə tələsdi ki, onu heç kəs görməsin.

Küçə boşalanda qız da çıxdı. Yenə formada idi! Deməli, həmişə belə geyinir!

Onlar şəhər kənarına, şərq istiqamətində uzanan əsas yola tərəf istiqamət götürdülər. Hava düzəlmişdi. Göy üzü təmiz idi, tezliklə Ay da çıxdı və ətraf elə işıqlandı ki, qızın üzünü artıq aydın görə bilirdi.

Ondan soruşdu ki, Qurtuluş ordusuna üzv yazılmaq haradan ağlına gəlib. Qız danışdı. Evdə daha beş qardaş-bacısı vardı, hamısı da ondan balaca. Valideynləri ailəni dolandıra bilmirdilər, o da məcbur olur ki, qulluqçuluq etsin. Özü də bədəndən zəif idi; kiminsə evində işləmək üçün gərək gücün olsun. Hərdən yorğunluqdan lap əldən düşüb yıxılırdı. İndi isə hər şey arxada qalıb, artıq nicat tapıb, hər yükün altına girməyə gücü çatır... İnanırmı? Əlbəttə, inanır! İsa onu öz yanına aparacaq. Bəli, həmin o axşamı heç vaxt unutmaz. O, nicat tapıb, bunu qəti bilir. Bundan gözəl, bundan sevindirici də heç nə ola bilməz. Həm də onu təmin edirlər, bu da yaxşıdır. Ordu həm geyindirir, həm də yedirir. Adamın könlünə bir şey düşəndə də, yalnız məlumat vermək lazımdır, adətən, imtina etmirlər. İndi onun vəziyyəti xeyli yaxşılaşıb. İndi onun həyatı Tanrının ixtiyarındadır. Amma, təbii ki, özünü dolandıra bilsəydi, evlərində, anası, bacı-qardaşlarıyla bir yerdə yaşamaqdan imtina eləməzdi.

Anders qulaq asırdı. Qız onunla yanaşı addımlayır, papağı onun üzünü görməsinə imkan vermirdi. Amma üzü kimi özü də büsbütün elə səsində idi.

Hər şeyi elə sakit, elə asan danışdı ki. Belə çətinliklərdən bu cür sadə necə danışa bilirdi, görəsən?

Gölün yanına çıxdılar. Sahil boyu uzanan dəmir yolunu keçdilər. Artıq qatarlar getmirdi, gec idi və yolun döngəsində relslər düz millənib, lap uzaqlara kimi görünürdü və bu görüntü gecənin bütün tənhalığını özündə ehtiva edirdi. Təkcə yol nəzarətçisi gözə dəyirdi; o da artıq evinə gedirdi, bir azdan meşənin qaranlıq qoynundan getdikcə daha çox uzaqlaşan drezinanın səsi də gəldi.

Suya yaxınlaşanda yol palçıq oldu, qaloşları yapışırdı. Onlar otlu sahillə addımlayırdılar, bərk-bərk sıxılmışdılar bir-birinə. Onun istisini hiss edir, necə nəfəs aldığını eşidirdi və ovcunda zəif əlini möhkəm sıxırdı. Bir xeyli susaraq getdilər... Bəlkə, sevir bu qızı?

Üzbəüz araba göründü, sonra biri də, biri də. Atlar yorğun-yorğun başlarını silkələyir, arabaçılar mürgü döyürdülər. Sahildəki qəsəbədən siyənək balığı daşıyırdılar, on bir mil gedib, səhər bazara yetişəcəkdilər. Satıcılar yeməklərini, şərablarını yanlarına qoyub sakitcə yatmışdılar, balıq isə ay işığında parıldayırdı.

Gec idi artıq. Qayıtmaq vaxtı idi. Lakin onlar sahildə bir az da dayanıb sayrışan ləpələrə baxdılar. İndi tamam aydınlıq idi. Ay işığı düz qızın üzünə düşdü. Onun bütün sifəti parladı. Andersə yenə elə gəldi ki, qız başdan-ayağa işıq saçır, hətta plaşının sürtülmüş parçası da parıldayırdı, lap orada, dua evində olan kimi. Hər yerdə, hər şeydə işıq vardı, o da işıqlanır və işığın qucağından boylanırdı.

Anders baxır, baxırdı və ona elə gəlirdi ki, bu qızı sevir. Lakin bu qız paklığın özü idi. Cizgiləri ilahi bir dəqiqliklə cilvələndi. Onun sifətində nə heyranlıq, nə ehtiras vardı. Yalnız hüzur, sükut.

Onun vücudunda bu dünyadan bir şey yox idi. Niyə, görəsən, niyə yox idi?

O, birdən qızın paklığından, ətrafındakı işıqdan sıxıldı. Hər şey tanış gəldi ona. Kimisə xatırlatdı bu qız...

Bəzi insanlarda nəsə qorxuducu bir şey var, səbəbi odur ki, belələri mükəmməl, sarsılmaz, zövqlü hüzuru həddindən ziyadə xatırladırlar. Belə insanlarla rastlaşanda dünyanın xoşagəlməzliyini daha ağrılı duyursan. Onlar həyata məhrum olduğu ilıqlığı bağışlayırlar, bundan isə yaşamaq yalnız çətinləşir.

Ay səni, görəsən, nə qədərdir burada dayandıqları? Evə getmək vaxtıdır.

Onlar şəhərə tələsdilər. Artıq qaçmaq, qurtulmaq istəyirdi bu qızdan. Ya da gərək onun üçün müqəddəs, toxunulmaz olan şeyləri lağa qoyaydı, tapdayıb heç eləyəydi, özünü kafir kimi aparaydı. Lakin onlar sükut içində gedirdilər.

Şəhər boşalmışdı. Onu keçmiş dəmirçixanaya qədər gətirdi. Binanın arxasında isə balaca bir daxma vardı, qız orada yaşayırdı. O, axşamlar arxasından həmin iniltilərin, çığırtıların ətrafa yayıldığı divarın dibində durmaqdan iyrənirdi. Onlar vidalaşdılar və o, evə adi insan məskəni kimi qədəm basdı.

* * *

Gəncliyin ilk dönəmi belə bitdi: dağınıqlıq, çaşqınlıq, qarışıqlıq içində.

Inventas vitam
juvat excoluisse
per artes

# HEKAYƏLƏR

# TOY

Yunasla Fridanın nikahı saat dördə təyin olunub və artıq qonaqlar stansiya qəsəbəsinin kənarındakı, təntənə keçiriləcək evə gəlməyə başlayıblar. Fridanın uzaq qohumları yaşayan xutordan arabalar yetişdi, Yunasın isə qohumu-zadı yox idi. Qəsəbənin özündən də bəzi adamlar gəlmişdilər – cəmi on beş nəfər olardı.

Hava gözəl idi, kişilər həyətdə qalıb bağçada gəzişir, bir-birinə yaxınlaşıb söhbətləşirdilər. Evi dörd tərəfdən gözdən keçirirdilər, elə bil, tamaşasına durmuşdular. Tikilinin şərqə baxan tərəfindəki qapının üstündə balaca, solmuş bir lövhə vardı: "Frida Yuhanssonun əl işləri ticarəti". "Hm, belə. Deməli, bu gün Fridanı veririk ərə. Nə olar, lap yaxşı". Daha bu barədə heç nə demirdilər, amma, yəqin, nəsə fikirləşirdilər.

Düzünə qalanda, bu toy məsələsi çox qəribə iş idi, amma necə lazımdı, yemək-içmək olacaqdı, dəvət də almışdılar, niyə gəlməyəydilər ki. Yəqin, artıq vaxt idi, içəri keçmək olardı.

Bəy artırmanın qabağında durmuşdu. Bəstəboydu, gözəgəlimli deyildi, açıq rəngli sallaq bığları və üzündən heç vaxt əskik olmayan bəxtəvər təbəssümü vardı. Təmiz və mehriban gözlərində daim nəsə bir minnətdarlıq oxunurdu, gözləri isə hərdən, lap bir anlığa da olsa, gizlənmək istəyirmiş kimi, tez-tez qırpılırdı. Başını həmişə azacıq yana əyirdi, elə bil, daim nəyəsə qulaq asırdı. Görkəmindən yaxşı oğlana oxşayırdı, buna söz ola bilməzdi. Onu buralarda Şlaqbaum Yunas çağırırdılar, hərçənd ki, əsl adı Yunas Samuelsson idi, bu ayama isə ona hələ lap yeniyetmə çağlarından, stansiyalarında vaqondan düşənlərin baqajına kömək etmək üçün dəmir yolunun keçidində saatlarla gözlədiyi vaxtlardan bəri yapış-

mışdı və o, əməlli bir iş tapanadək uzun müddət yalnız bununla məşğul olmuşdu. Lakin artıq çoxdan stansiya mehmanxanasında yükdaşıyan işləyirdi, odur ki, indi həmin o şlaqbaumun yanında durmaq elə onun vəzifə borcu sayılırdı. Bu, onun peşəsi idi. Amma bu gün Fridaya evlənirdi deyə, onun kimliyini, bundan sonra kim olacağını söyləmək artıq asan deyildi, bəlkə, elə dükanın işinə kömək edəcəkdi, ya da ki ancaq ehtiyac yarananda əl yetirəcəkdi, bəlkə də, heç işləməyəcəkdi, bunu hələ bilmək olmazdı. Fridadır da, nə bilmək olar, planı nədir, ya da ki, məsələn, nə qədər pulu var; bunu, özündən başqa, kimsə bilməzdi. Bəlkə də, lap çox idi pulu. Nədən Yunası elə köhnə yerində işləməyə qoymayaydı ki, oğlanın boynuna biçilmişdi bu işi. Əldən çox iti olduğunu deməzdin.

Fridanın durduğu yerdə ərə getmək istəməsi qohumlarının o qədər də ürəyindən deyildi və burda təəccüblü bir şey də yox idi. Onları maraqlandıran heç də Fridanın taleyinin necə olacağı deyildi, bunun qayğısını toydan sonra, onsuz da, qohumları çəkməyəcəkdi. Lakin bu yaşda ərə getməyə nə ehtiyac vardı ki? Onlar elə düşünürdülər ki, bu lap mənasız işdir. Axı filan qədər pulu da vardı, işləyib yığmışdı. Düzdür, bu barədə dəqiq bir şey bilmirdilər, amma heç onun işlərinə qarışmaq niyyətləri də yox idi. Lakin əgər ona bu lazım idisə, heç olmasa bir başqasını seçəydi, Yunası yox. Bəlli məsələdir ki, elə geniş bir seçim imkanı da yox idi. Bütün bunlar, bəlkə də, elədir, amma Frida onlarla qohum idi, yaxşı ailədən çıxmışdı axı. Elə yaxşı oldu ki, mehrini beləsinə saldı. Qoy olsun, onun öz işidir. Özü istəyib də, deməli, hər şey yaxşıdır. Belə baxanda mərhəmətli, səmimi adamdır, həm də sakit insandır. Bunu kim desən, təsdiq eləyər. Burada daha ikinci bir fikir ola bilməz.

Yunas artırmanın qabağında qonaqları qarşılayır, qulluğa hazır bir görkəmlə ətrafına göz gəzdirir, sanki, kimə kömək lazım olduğunu soruşurdu. Və kiminsə əlində yola götürdüyü gödəkcədən-zaddan nəsə görəndə əlindən alıb evə aparmaq

imkanı qazandığından özünü yaman xoşbəxt hiss edirdi. Nəyi də olmasa, bunu yaxşı bacarırdı; belə bir gündə isə insan əlindən gələn yaxşı nə varsa göstərmək istəyir. Təzə qonaqlar görünməyəndə vəziyyət daha pis olurdu: onunla kəlmə kəsən yox idi, əynində Fridanın məxsusi bu gün üçün tikdirdiyi təzə qara kostyum, eləcə əllərini yanına salıb, gülümsəyərək dururdu. Hələlik başını qatası bir işi yox idi, buna rəğmən, sifətində, həmişə olduğu kimi, bir razılıq ifadəsi vardı. Az sonra isə onun üçün yenə iş tapıldı, gələnlərə qəhvə verirdilər, o da gərək təbəssümlə hamını yerbəyer eləyəydi, camaatı əyləşdirmək, başlarını qatmaq lazım idi ki, darıxmasınlar, amma danışmaqla heç arası yox idi, dindirməsən dinməzdi. Bir fikirləşdi ki, qonaqlara təklif eləsin, ürəklə yesinlər, amma sonra düşündü ki, deməsə yaxşıdır, çünki süfrənin üstündə nə vardısa Fridanınkı idi, onunku yox. Qonaqlar isə onsuz da yeyirdilər, artıq qəhvənin ikinci fincanını içərək, bir-biriylə söhbətləşirdilər, tamam uyğunlaşmışdılar. İndi Yunas xoşbəxtdir; sobanın çıxıntısına dirsəklənib hamı kimi qəhvə içir, bütün danışılanlara səmimi bir xeyirxahlıqla qulaq asır, dolu qəhvədanın dalınca mətbəxə yüyürür, işə yaramağa çalışırdı. Əlbəttə, bəyin qonaqlara bax beləcə qulluq göstərməsi adət-ənənəyə uyğun deyildi, lakin onun, bəlkə də, bundan heç xəbəri yox idi. Qonaqlar ona istehzalı təbəssümlə baxırdılar, o isə cavabında, elə özü kimi, mərhəmət və səmimiyyətlə gülümsünürdü. Bəlkə də, onlara elə gəlirdi ki, üzündəki bu təbəssüm onun görkəminə bir sarsaqlıq verir. Amma qətiyyən belə düşünmək olmazdı: təbəssümü ağıllı, saf idi. Qəribə bircə burası idi ki, daim, ara vermədən gülümsünürdü. Neynək, gülümsünürsə, deməli, səbəb var bunun üçün. Hər şeyin yaxşı getdiyinə sevinirdi. Həqiqətən, eləydi. Hər şey yüksək səviyyədəydi, istəsəydin də, qəmiş qoya bilməzdin.

Yuxarıda, çardaqda isə Fridadan gəlin düzəldirdilər. Ən yaxın rəfiqəsi sayılan Anesa Karlsson onun seyrək saçlarını isti qayçı ilə elə bururdu ki, ütülmüş tük iyi bütün həyəti

başına götürmüşdü. Ömründə ilk dəfə idi ki, saçlarını bururdular, bu gün onsuz keçinə bilməzdi. Komodun üstündən götürdükləri güzgüyə baxanda özünü zorla tanıyırdı. Xeyli yaşı olan Frida indi özünə o qədər də bənzəmirdi. Belə təntənəli gündə həmişəki görkəmdə ola bilməzdi axı.

İşə bax ha, nəhayət, həmin gün yetişmişdi!

Bu gün o və Yunas mehrabın qarşısında duracaqdılar, nikaha girəcəkdilər – Tanrı qarşısında əbədilik birləşəcəkdilər. Bir düşünün, həmin gün artıq yetişmişdi, bütün bunlar tezliklə, lap indicə baş verəcəkdi.

– Kaş gülləri mən deyən kimi qoymaq yaddan çıxmayaydı, tapşırmışdım skamyaların yanına düzsünlər. Hə, Aqnesa? Düzərlər, görəsən?

– Əşi, narahat olma, düzərlər.

– Bir də tort. Görəsən, dəqiq gətiriblər, o üstündə venzeli olanını deyirəm.

– Gətirdilər, əlbəttə, özüm gördüm, Klas əlində yekə qutu gəldi, bəllidir ki, tortdur.

– Bəlkə, ehtiyat üçün düşüb, öyrənəsən?

– Nə danışırsan, vaxt var bəyəm, əvvəl qoy bir səninlə işimizi bitirək.

– Hə, hə, düz deyirsən, bu da vacibdir.

Belə bir gündə hər şey vacib olur. Hər şeyə diqqət verəsən gərək.

Kaş hər şey yaxşı keçəydi, kaş nə vaxtdan bəri gözlədiyi, arzuladığı kimi keçəydi bu təntənə. İstəyirdi elə bir təntənə olsun ki, bu günün əhəmiyyətini, ciddiliyini göstərə bilsin.

Bizim dünyəvi həyatımızda iki nəfərin qovuşmasından, Tanrı qarşısında görüşərək öz ittifaqlarını ilahinin taxt-tacı önündə bağlamasından əhəmiyyətli bir hadisə ola bilərdimi? Eh, çoxları, yəqin, bu təntənənin əsl mahiyyəti üzərində heç düşünmür, ona şənlik, çalıb-oynamaq, gülmək bayramı kimi baxırlar. Əlbəttə, bu da düzdür, indi elə o özü də sevinirdi, ürəyi atlanırdı. Yer üzündə ondan çox sevinən gəlin, yəqin,

tapmazdın və heç kəsin xoşbəxt olmağa səbəbi onunkundan artıq deyildi. Həqiqətən, belədir.

Amma, yenə də... Bütün bu sevincə baxmayaraq... Onların bu təntənəli günü öz üzərində hər şeydən çox bir əhəmiyyət, ciddilk möhürü daşıyır. Axı onunla Yunas nə vaxtsa başlarına gələ biləcək ən mühüm hadisə ərəfəsindəydilər. Həyatları birləşəcək, özləri birləşəcəkdilər. Ruhları əbədilik bir olacaqdı. Daha tənha qalmayacaqdılar: nə Yunas, nə o. Necə qəribədir! Heç vaxt tənha olmayacaqlar. Necə başa düşməyəydi bunu, axı hələ uşaqlıqdan, valideynləri öləndən bəri, həmişə tənha olub. Bütün ömrünü tənha yaşayıb, tənhalığını hər gün duyub. Hə, təklik insan üçün çətin şeydir.

İndi əgər o, bu ecazkar anda hər şeyin layiqli və gözəl olmasını arzulayırsa, burada pis nə var ki...

– Bir güzgüyə bax görüm xoşuna gəlirmi, – Aqnesa dillənir.

Sonra Frida əyilib əksinə baxır, barmağını alnında gəzdirərək saçının adət eləmədiyi qıvrımlarına toxunur.

Sifəti balaca, nazikdir, lap qan azlığından əziyyət çəkən qıza bənzəyir. Üzünün cizgiləri artıq solub, yanaqları da batıqdır. İllər ona öz möhürünü vurub, çoxlu qırış qoyub. Amma xırda, nazik qırışlardır. Sanki, xüsusi bir ehtiyatla çəkmisən onları. Hətta boynundakı çapıq da balaca, nazik, incə görünür, elə Fridanın bütün qalan şeyləri kimi. Bircə gözləri iri və nəhayətsiz dərəcədə nəcibdir, sadəlövhdür. Ağzı isə qələmlə çəkilibmiş kimi nazikdir, cizgilərindən elə düşünmək olar ki, çox qətiyyətli, uzaqgörən qadındır. Amma, əslində, ancaq ona görə belə görünür ki, dodaqları da bütün qalan yerləri kimi nazik və solğundur. Bircə təbəssümü bəs eləyir ki, görünüşü büsbütün dəyişsin, çox qəribədir. Bütün sifəti, elə bil, qəflətən nur saçmağa başlayır. Bir də bütün əyalətin ən gözəl qoyma dişləri də ondadır axı, buna elə bir əhəmiyyət verməsələr də, çoxları belə hesab edirdilər. Muncuq kimi düzüblər dişlərini.

Əlbəttə, gözəl deyil və heç vaxt da gözəl olmayıb, indi isə, təbii ki, heç yaş da o yaş deyil. Lakin onun görkəmində tikişçilərdə, paltar ütüləyənlərdə olan nəsə qeyri-adi bir təmizlik var. O elə özü də ticarətə başlamamışdan uzun müddət tikişçilik etmişdi. Dükanında da ancaq incə, zərif şeylərlə işləyirdi – əsl özünə uyğun bir işi vardı, elə işə həvəslə girişməyinin səbəbi də, əslində, bu idi. Əlləri ağappaq idi, heç vaxt kobud bir işlə məşğul olmamışdı. Amma çox işlətmişdi əllərini, baxanda bilinirdi.

– Bəlkə, çələngi də taxıb yoxlayaq, – Aqnesa deyir, – görək saç düzümünə yaraşırmı. Deyirsən, çələng taxacaqsan axı.

– Hə, Aqnesa, əzizim, gəl baxaq.

Aqnesa Fridanın mərsin budaqlarından ustalıqla toxuduğu çələngi saç sancaqlarıyla təpəsinə bərkidir. Bu mərsin kolu ona anasından miras idi, bir zamanlar o da gəlin olanda həmin kolun çələngiylə bəzənmişdi. Ağac bu illər ərzində üç dəfə az qalmışdı ki, quruya, lakin Frida onun qələmələrini təzədən əkmişdi, odur ki, çələngi elə həmin koldan idi – anasının kolundan. Çələngin içinə tül parça da bərkitmişdi, əla duvaq çıxmışdı.

Frida ayağa qalxır ki, güzgüdə özünü əməlli-başlı nəzərdən keçirsin. Alt köynəyini və paltarını hələ geyinməmişdi ki, əzilməsin, əynində dükanında olan incə krujeva ilə işlənmiş ağappaq darbalaq vardı, hava kimi yüngül duvağı isə kürəklərindən düz dizlərinin büküşünə kimi sallanırdı. Həmin bu özünüseyretmə anlarında o, gözəl görünürdü, qayğılı və xoşbəxt. Güzgüdəki əksinə xəyalpərəst nəzərlərlə baxır, nəhayət ki, özünü gəlin simasında görür.

– Oy, sənin darbalaqdan başqa əynində bir şey yoxdur ki! – Aqnesa ucadan deyərək, qaqqıldayıb gülür.

– Hə, doğrudan, – Frida da buna diqqət eləyir və üzündə nəcib, utancaq bir təbəssüm peyda olur. Əli ilə duvağı çəkib, ehtiyatla oturur.

Aqnesaya elə gəlir ki, çələng onun başında çox yastı görünür.

– Doğrudan? Mən heç fikirləşmədim bu barədə. Bəlkə, belə yaxşı deyil, başqa cür eləyək?

– Bəlkə, saçlarını bir az da burum, azacıq qalxsın, hə? Bilirsən, sənin saçlarına hündürlük vermək heç asan deyil.

– Hə, lap nazik, seyrəkdir saçlarım.

– Elədir. Yaxşı, görək nə eləyə bilərik.

Aqnesa o qədər mehribandır ki, dinmədən hər şeyi təzədən eləyir, saçlarını yanlardan çəkib, çətinliklə, birtəhər təpəsinə yığır. İndi də istəyir, ortanı da bir az qaldırsın, çünki saçın harada olmasının elə bir əhəmiyyəti yoxdur, onsuz da duvaq örtəcək hər şeyi. Aqnesa yaxşı qadındır, gör necə səy göstərir.

Frida isə oturub, hərdən düşüncələrinə qərq olur. Bu da təbiidir...

O, Yunasla necə görüşdüyünü, talelərinin necə qovuşduğunu, bu böyük, gözəl ana gətirən yola necə qədəm basdıqlarını xatırlayır. Onlar çoxdan bir-birinə zərif münasibət bəsləyirlər, artıq neçə illərdir. Bu, qəlblərinin gizli yaxınlıq arzusu idi, sakit, qeyri-iradi arzu. Əsl məhəbbətə sonralar çevrildi. Amma buna baxmayaraq, elə o hissin özü, sanki, onları bir-birinə yaxınlaşdırırdı. Xatırlayır ki, bir axşam qatarla şəhərdən gələndə onun əlindəki zənbili necə aldı. Küçə ilə yanaşı addımlayırdılar. "Yəqin, gəzməyə yox, alış-verişə getmişdiniz", – Yunas ona belə demişdi. "Hə, xırda-mırda almışam bir az", – deyə cavab vermişdi. Amma cavab verəndə necə alınmışdısa, düz gözlərinin içinə baxmışdı. Dörd il keçib, amma dünənki kimi xatırlayır. Elə həmin vaxtdan da aralarında ciddi münasibət yarandı.

İnsan taleyi necə qəribə şeydir, e. Bizi idarə eləyən nədir, görəsən? Onunla Yunası bu müqəddəs hisslə bir-birinə möhkəm, heç vaxt qırılmayacaq tellərlə bağlayan hansı qüvvədir? Ah, bu məhəbbət oyunları, iki sevənin gizlənqaç oynaması! Hər ikisi eyni hissləri keçirir, amma özlərini birinci büruzə vermək istəmirdilər.

Ruhları bir-birinə can atır, bir-biri üçün darıxır, xiffət edirdi, lap nəğməkar quşlar kimi, tövlədəki heyvanlar kimi bir-birini uzaqdan səsləyirdilər.

Və bütün bunlara rəğmən, içlərindəki daimi nigaran tərəddüd. Görəsən, məni sevirmi? Bəlkə, heç sevmir? Bəs mən özüm necə, onu əsl məhəbbətlə sevirəmmi? Bütün ürəyimlə, lap dərindən və səmimi, əslində, necə sevməliyəmsə elə sevirəmmi? Necə sevmək lazımdırsa elə. Doğrudanmı, bizim ruhlarımızın bu dünyadakı həyatda görüşməsi Tanrının istəyidir? Məhəbbətin işıqlı səltənətinə qədəm basmağımız, yəni doğrudan, ilahinin məsləhətiylədir? Bəli, bu belədir, mən inanıram ki, belədir!

Hə, o inanır. O bilir. O oturub, düz qənşərinə baxır, dinməz bir heyranlıq, bəxtiyar tərki-dünyalıq içində baxır.

Yer üzündə hər hansı iki adamın görüşməsinin onunla Yunasın görüşündən gözəl, ondan uca olmasını təsəvvür etmək mümkün deyildi. Bu fikirdən onun gözləri nəmlənir, baxışları harasa çox uzaqlara, başqa, naməlum diyarlara yönəlir.

Həqiqətən, düşündüyü kimidirmi? Bəli. Hər şey elə eynilə düşündüyü cürdür. Onların bir-birinə bəslədiyi hiss elə məhəbbətin özüdür. Bəyəndiyi üçün onu seçib. Yalnız məhəbbət naminə sevir onu. Bəs Yunas? O razılıq verdi, çünki bu təklifi nəhayətsiz mərhəmətin, dərdinə şərik olmağın təzahürü sandı. Özü heç bu barədə fikirləşməmişdi. Lakin qadının icazə verdiyini duyanda, misilsiz bir sevgi baş qaldırdı içində. O zamanadək heç vaxt bir kimsəni sevməmişdi, axı heç ondan bu barədə soruşan da olmamışdı, özünün isə qəti ağlına gəlmirdi belə şeylər. Amma buna icazə verildiyini görəndə, bütün aşiqlərin ən heyranına çevrildi. Onun qarşısında misilsiz dərəcədə mərhəmətli və gözəl, ali bir vücud kimi baş əyirdi. Onda bənzərsiz mükəmməllik görürdü. Bu qadın onun üçün elə taleyinin özü idi.

İmkanlı olması ilə qəti maraqlanmırdı, bu cür işlərdən heç başı çıxmazdı. Axı onun özünə çox şey lazım deyildi

həyatda. Hamının dediyi kimi, imkanlıdırsa, lap yaxşı, nə olar. Özü isə bu izdivac haqqında fikirləşəndə heyranlığa bənzər bir hiss yaşayırdı. Bu hissin təsirindən də hər şey daha qeyri-adi görünürdü ona.

Bircə imkan olaydı ki, qatar ayağına, heç olmasa, hərdənbir gedə bilsin. Yaman adət etmişdi, bir şeyə də adət elədinmi, ondan ayrılmağa yaman heyfin gəlir. Axı onun üçün bu işi elə sevdiyi peşə kimi bir şeydir. Amma Frida belə hesab etsə ki, bu daha ona yaraşmaz, bəlli məsələdir, tabe olacaqdı. Eybi yox, hər şey yaxşı olacaq. Ondan bu barədə fikrini birbaşa soruşmaq istəmirdi. Hara tələsir ki? Onu sevirdi, əsas məsələ budur və onun yolunda hər şeyə hazır idi. O, Fridanı elə necə varsa, eləcə də sevir. Bir də ona görə sevir ki, ona qarşı mərhəmətlidir, ona diqqət yetirmiş yeganə insandır.

Bax işlər belədir. Onların hər ikisinə məhəbbət, yalnız məhəbbət hakim kəsilib.

Hə, Yunas... Frida oturub, onun barəsində fikirləşir, necə adam olması barədə. Yox, ötən bahar meşədə onu özünə sarı çəkərək, dünyada çiçəklərin ən gözəli olduğunu söyləməsi haqqında. Necə gözəl sözlər deyə bilirdi, başqalarının heç ağlına gəlməyən sözlər. Çox ağıllıdır, əla başı var onun, burasını gözəl bilirdi.

Aqnesa saçını düzəldib qurtardı.

– Hə Frida, qurtardı, bundan gözəl olmayacaqsan, – deyir.

– Mənim əzizim, gözəldir, məncə, çox gözəl. Sağ ol!

Onlar yenə də sınayıcı nəzərlərlə yaxşı-yaxşı baxaraq, etiraf edirlər ki, saç düzümü indi daha gözəl çıxıb və bundan yaxşı ola bilməz.

– Mənə belə gəlir ki, tələsmək lazımdır, gəl paltarı geyinək.

– Hə, yəqin, vaxtdır. Ah, Aqnesacan, sən bilmirsən ki, içimdə necə qəribə bir hiss var.

– Nə danışırsan!

– Bir düşün – gəlin paltarı geymək... Elə bil, yuxudayam. Heç inanmağım gəlmir ki, bu, həqiqətdir.

– Bilirsən, əgər mənim məsləhətimə qulaq asmaq istəsəydin, qara bayram paltarını geyinərdin, o, sənə yaman yaraşır.

– Sən nə danışırsan, Aqnesa, əzizim. Necə ola bilər elə şey!.. – Frida ona görünməmiş təəccüblə baxır, belə bir təklifi ona etdiyinə görə rəfiqəsinin əlindən, az qala, dilxor olur. – Gəlin axı mütləq ağ paltarda olmalıdır, bu həyatda ən gözəl bayramdır.

– Bunu bilirəm ey, amma... mən nəsə belə fikirləşirəm. Özün bilərsən.

Onlar Frida bilən kimi edirlər. Başqa cür geyinsəydi, təəccüblü olardı, axı elə bu günün səbəbinə özünə ağ paltar hazırlamışdı, neçə gecə oturub onu tikmişdi. Bu paltarı tikənəcən hansı xəyallardan dadmamışdı! Aqnesa ona paltarını geyməyə kömək edir. Gözəl, ütülüdür, gərək diqqətli olsunlar ki, heç yeri qırışmasın, krujevaları əzilməsin. Alt köynəyi arxadan görünürdü, problem təkcə bunda idi. Nə etmək olar, onu da sancaqlamaq olardı.

Aqnesa aşağıdan gələn səslərə diqqət yetirir:

– Deyəsən, keşiş gəlib.

– Nə danışırsan, ola bilməz, – Frida astaca cavab verir və sifətindən qanın necə qaçdığını duyur.

– Qulaq as da, gör necə səslərini kəsiblər.

– Onda tələsmək lazımdır, tez qurtaraq, – Frida zorla eşidiləcək bir səslə dillənir.

Yunas yarıaçıq qapını ehtiyatla tıqqıldadır.

– Keşiş gəldi, – heyranlıq dolu pıçıltıyla dillənir.

– Yunas, əzizim, sənsən? Yox, mənə baxma hələ, olmaz. Biz bu dəqiqə, lap bu dəqiqə gəlirik, bircə yerdən də bərkitsin, bitdi. Deyirsən, pastor buradadır artıq. Deməli, bizim də vaxtımız başlanır... Qəribədir, Aqnesa nəyə boylanır ey? Aqnesacan, bir az tələs, yaxşı?

– Sən bir tərpənmə görüm, yaxşı yığa bilim də!

– Hə, hə, tərpənmirəm... Yunas, pastor nə dedi?

– Pastor nə dedi? Bir söz demədi.

– Sən necə, salamlaşdın onunla?

– Yox, onu görən kimi tərpəndim.

– Tərpəndin?

– Hə də, sizin yanınıza qalxdım.

– Hə, hə, bizi xəbərdar etmək üçün, düz iş görmüsən. Bircə duvağı da qoyuruq – mən hazır. Yunas, əzizim, orada, aşağıda necə, hər şey qaydasındadır?

– Hə, Fridacan, deyəsən, qaydasındadır, çox gözəldir hər şey.

– Dibçəkdəki güllər də lazım olan yerə qoyulub?

– Deyəsən, elədir, hə.

– Bəs skamyaların üstündəki krujevalı salfetlər necə, Hulda unutmayıb onları?

– Yox, unutmayıb, oradadır.

– Hə, bəs tort necə? Tort, Yunas! Dəqiq gətiriblər tortu?

– Bunu deyə bilmərəm, bircə onu gördüm ki, Klas özüylə böyük bir qutu gətirdi, fikirləşirəm, yəqin, elə tort olar da.

– Hə, yəqin, tortdur içində. Kaş hər şey uğurlu alınaydı. Kaş hər şey necə olmalıdırsa, elə də olaydı. Həyatımızın böyük, təntənəli günündə hər şey yaxşı olaydı. Onlar qəhvə içdilər, Yunas?

– Əlbəttə, içdilər, bəs necə.

– Sən dəvət eləyirdin onları?

– Heç ehtiyac yox idi, Fridacan.

– Hə, indi, demək olar ki, sən tamam hazırsan, – Aqnesa deyir və sonuncu dəfə rəfiqəsini tələbkar nəzərlərlə süzür.

– Hazıram! Çox sağ ol, Aqnesa, mənim əzizim. İndi içəri girə bilərsən, Yunas, gəl, gəl görüm, qapının dalında durma daha.

Yunas da içəri girir. O, otağın ortasında parlayan gözəl, gözqamaşdıran dərəcədə bəyaz və misilsiz mənzərədən heyrətə gəlib, yerində donur. Bu, Fridadır, onun sevimli Fridası, xoşbəxtlikdən hətta başı hərlənir. Qadına par-par yanan gözləriylə baxır, doya bilmir, inanmır, bunun həqiqət olduğuna inanmağa gücü çatmır.

– Hə, necədir, dostum, xoşuna gəlirəmmi?

– Hə, – onun boğazı qovuşur, batmış səsiylə cavab verir və baxışları önünə göz yaşından pərdə çəkilir. Daha heç nə deyə bilmir, ancaq sevgilisinin əlini sıxır, razılığını bildirirmiş kimi, elə hey sıxır, sıxırdı.

– Onda, hər şey yaxşıdır, deməli, – Frida pıçıldayıb burnunu çəkir. – Onda gedək aşağı, – gözlərini burun dəsmalı ilə silir ki, onu çulğamış həyəcanı büruzə verməsin.

– Bəs toy buketi! – Aqnesanın nidası eşidilir, gül dəstəsinin dalınca vazaya tərəf gedir, güllərin saplağını dəsmalla qurulayır – ətrafına yaşıl bəzək otları düzülmüş qərənfillərdir.

– Çox sağ ol, Aqnesacan. Necə yadımdan çıxmışdı!.. Belə dəqiqələrdə nəyi desən, unudarsan.

Sonra onlar aşağı düşürlər. Yanaşı, bir-birinə sıxılaraq. Pillələri enə-enə, duvaq azacıq yana sürüşür, başqa hər şey normaldır. Par-par alışan gözləriylə toy salonuna qədəm basırlar – qalın pərdələrinin arasından günəş süzülən, o qədər də böyük olmayan otağa. Onlar qonaqların arasıyla addımlayırlar, evlənənlərə dörd gözlə baxan qadınların, öskürən kişilərin arasıyla. İrəlidə, krujevalı salfetlərlə örtülü skamyaların yanında onları möhtərəm və ciddi keşiş gözləyir. Onun qarşısında uşaq kimi sadəlövh görkəmlə, həyəcanlı intizar içində dururlar. Pastor onlara pensnesinin üstündən diqqətli bir nəzər salır, kitabını açıb, oxumağa başlayır.

– Ata, Oğul və Müqəddəs Ruhun adı ilə.

Onlar nəfəs belə çəkmədən dinləyirlər. Bu iki nəfərdən daha diqqətli dinləyicini təsəvvür etmək də olmaz, bircə kəlməni belə qaçırmaqdan qorxurlar, bu anların bütün ciddiyyəti vücudlarını çulğayıb. Yunas həmişəki kimi gülümsünür, lakin bu təbəssüm indi görünməmiş heyranlıqdan doğur. Başını azacıq yana əyib ki, hər şeyi lap yaxşı eşidə bilsin, əllərini sinəsinə qoyaraq, ona müraciətlə deyilən sözlərə səmimi bir ümidlə diqqət kəsilib. Frida da gül dəstəsini tutan əllərini bir-birinə möhkəm sıxıb, baxışları inam və müti bir minnətdarlıqla doludur.

İndi isə diz çökməlidirlər, bundan sevincli an ola bilməz. Günəş öz nurunu onların üstünə səpir: sanki, işıqdan toxunmuş duvağı çiyinlərindən sallanan bəyaz paltarlı Fridanın və geyilməmiş, təptəzə kostyumlu Yunasın. Onlar düz pəncərənin qabağında dizi üstə durublar, bundan da gözləri qeyri-təbii bir parıltıyla alışır. Sağ-sollarında salxımlanan çiçəkləri olan dibçəklər qoyulub. İşıq və gözəllik dolu anlar.

Başqaları, indi, təbii ki, həmin hissləri yaşaya bilməzlər. Axı onlar bu mərasimdə adi qonaq kimi iştirak edirlər. Lakin pastor ilahi kəlamlar söyləyir, nə deyəsən, çox təntənəli bir mərasimdir. Qadınların gözü azacıq nəmlənir, toyda elə belə olmalıdır da. İndi isə hamı bu iki nəfərin titrək səslə suallara cavab verməsinə qulaq asır. Evlənənlərin ikisini də yaxından tanıyanda belə mərasimlərdə iştirak etmək kifayət qədər maraqlı olur. Axı onlar, demək olar ki, Yunası da tanıyırlar.

Keşiş onların şərəfinə xüsusi bir nitq söyləmir, buna nə ehtiyac var ki. Əvəzində "Müqəddəs Ata" və "Xeyir-dua" dualarını oxuyur. Bu iki duanın hələ heç vaxt belə gözəl səsləndiyi olmamışdı, sanki, tamamilə təzə, məxsusi onlar üçün yazılmış sözləri vardı. Sonra o, kitabını örtür – və təsirli mərasim başa çatır. Frida ilə Yunas artıq əbədilik nikaha girmişdilər.

Qonaqlara şərab paylayırlar. Hamı yaxınlaşıb bu iki nəfərlə içir: əvvəlcə onlara xoşbəxtlik diləyən pastor, sonra isə növbə ilə qalanları – növbə ya yaşa görədir, ya da qohumluq əlaqəsinə görə. Günəş qədəhlərdə yanır, qədəhlərin cingiltisi və parıltısı isə bütün otağı bayram sevincinə qərq eləyir. Tən ortada, qonaqların əhatəsində bəxtiyarlıqdan işıqlanan gəlin durub. Mehriban üzünün hər qırışı ilə gülümsünən Yunas isə onun yanındadır. Onun şərəfinə də içirlər, o da öz qədəhini nadir bir çiçək kimi barmaqlarının ucunda tutaraq, irəli uzadır. Dörd tərəfdən səmimi gözlə baxır, o da minnətdarlıq əlaməti olaraq, elə hey baş əyir, baş əyir. Üzərinə elə bir hərarət və səmimiyyət seli axır ki, bunu ömrü boyu heç

arzulaya da bilməzdi. Sonra yavaş-yavaş hər şey sakitləşir, qonaqlar stolun arxasında, divanda otururlar və bir-biriylə söhbətləşməyə başlayırlar, onu isə rahat buraxırlar, tam rahat – otağın ortasında tək qalır.

Frida isə qadınların ixtiyarına keçir, əlini mehribanlıqla sığallayıb, adi təbrikdən əlavə bir neçə səmimi söz demək üçün.

– Hə, Fridacan, budur, bu arzun da yerinə yetdi. Nəhayət ki, xoşbəxtsən. Elədirmi?

– Bəli, əziz fru Lundqren, çox xoşbəxtəm! İnsan necə xoşbəxt ola bilərsə, elə xoşbəxtəm!

– Əlbəttə, Fridacan, təbiidir bu.

Qohumlar da yaxınlaşıb bir-iki kəlmə kəsməlidirlər.

– Nəhayət, sən də ərə getdin, Fridacan.

– Hə, Emma.

– Görürsən, hamının axırı budur.

– Yox, axı kim bilərdi ki, axırı belə olacaq? Məgər alın yazısını qabaqcadan bilmək olur?

– Ah, – söhbətə tütün dükanında işləyən xanım Svensson qoşulur, – əlbəttə ki, Frida ərə getməli idi. Mən neçə dəfə demişəm ki, Frida Yuhanssonun ərə getməməsi çox qəribədir. O, ərə gedə bilər axı.

– Görürsən, mən də elə fikirləşirdim. Mənim ərim isə, qohumlardan söz düşən kimi, tutduğundan əl çəkmirdi ki, bəs Frida ərə getməyəcək. Mən də deyirdim ki, bir dayan, buna hələ baxarıq, qabaqcadan nə bilirsən. Təbrik eləyirəm səni, Fridacan, sənin ərə getməyin çox gözəl oldu.

– Çox sağ ol, əzizim Matilda.

Bax beləcə söhbət gedir. Frida da gülümsünür, o xoşbəxtdir, axı Yunası var. Onlar bir-birlərinə baxıb, mübhəm bir tərzdə başlarını tərpədirlər, gözləri isə dumanlıdır indi, hələ də müqəddəs kəlamın qəlblərində səslənən sözlərinin təsiri altındadırlar. İndi onlar ayrı durublar, amma bunun elə bir əhəmiyyəti yoxdur, axı bu, qısamüddətli ayrılıqdır və hər

şey çox gözəl gedir – Frida görür ki, Yunası da eynən onun kimi düşünür. Ah, həqiqətən də, bu məclisdəkilərin hamısı gözəl insanlardır. Çoxları uzun yolu yalnız bu təntənəli gündə onlarla birlikdə olmaq üçün qət edib. İndi, bura bu qədər adamın yalnız onların xətrinə toplaşması məgər qəribə deyildi? Hamı eyni anda nədənsə danışır, sözlərini eşidə bilmirsən, bilmirsən kimə qulaq asasan. Amma bayaq, tək-tək yaxınlaşıb onların sağlığına içəndə hər şey çox təntənəli idi.

Mətbəxdən yemək qoxusu gəlir və qadınlar başlayırlar fikirləşməyə ki, görəsən, qonaqlara nə verəcəklər yeməyə, yəqin ki, adəti üzrə, qovurmadan başlanacaq. Frida elə adamdır ki, istəməz süfrəsi kiminkindənsə pis olsun, imkanı da var axı. Kim bilir, bu dükan nə qədər gəlir verir. Hulda da, yəqin, yemək paylayacaq, ver görüm, nə verirsən. Önlüyü də krujevalıdır, bunun forsuna bax bir.

Keşiş irəli yeriyib, elan edir ki, onun getmək vaxtıdır... Belə toyda çox ləngiməyə dəyməz. Onu işləri gözləyir, necə deyərlər, təcili işləri. O, Fridanın necə adam olduğunu, qonaqlar üçün nə tədarük gördüyünü bilmir. Haradan bilsin ki.

Frida ümid eləyirdi ki, pastor da qalacaq, mütləq qalacaq, görərsiniz. Onunla məclis lap təntənəli olardı. Lakin o getməli oldu. Nə olar, işləri çoxdur da. Məlum məsələdir, ruhani atadır, həyatda ən əhəmiyyətli bir şey üçün, insan ruhu üçün cavabdehlik daşıyır. Gör onun başqalarının gözünə görünməyən nə qədər işi olmalıdır. Frida bu əlamətdar günə belə təntənə gətirdiyi üçün, dediyi bütün gözəl sözlər üçün ona təşəkkür edir. O, Yunasla bir yerdə keşişi qapıya kimi ötürür, Yunas paltosunu tutur, küçəyə çıxan qapını açır, pastor ağacların arxasında gözdən itənə kimi dayanıb arxasınca baş əyir.

İndicə ortaya yemək gələcək, hamı masa arxasına keçir. Ailə quranlar – fəxri yerdə, uzununa qoyulmuş masanın baş tərəfində, tən ortada əyləşirlər, qalan qonaqlar da öz yerlərini

tuturlar. Kişilər qəsəbənin lap yaxınlığında dənizə axıdılan çirkab sularından söhbət salmışdılar, söhbət düşübsə, deməli, onu başa çatdırmaq lazım idi, yoxsa kəndlilər, belə məlum olurdu ki, bu məsələnin müzakirələri zamanı qalxan səs-küydən heç xəbərdar deyildilər. Artıq soyuq qəlyanaltılar, dolu qədəhlər onları gözləyirdi – yeməyə başlamağın əsl məqamıydı. Nə qədər istəsən, yemək vardı, stolun üstündə barmaq basmağa yer tapmazdın. Elə araq da əməllisindəndir, bir qədəh vurmaq günah olmazdı. Yavaş-yavaş hamının kefi kökəlir, cana gəlirlər, sanki, toyda elə belə olmalıdır da. Əgər qarımış qız Fridaya ərə getmək lazım olubsa, qoy olsun, onlar da hər şeyin necə lazımdırsa, elə keçməsinin qayğısına qalacaq və doyunca yeyib-içəcəklər, şükür ki, yemək sarıdan bolluqdur.

– Ey, Yunas, bir boğazını yaşla da. Əskiyin çıxmaz ki!

– Nədir, o içmir məgər? – Emil, Fridanın Estraqorddakı əmioğlusunun xalası oğlu stolun o başından nərildədi. – Ona xeyirdir vurmaq! Bir qurtum al, bəlkə, heç olmasa, dilin açıldı.

Yunas isə üzündə elə həmin təbəssümü qonaqların israrına tabe olur, hərçənd ki, spirtli içkilərlə heç arası yoxdur. Nə edəsən, əgər onunla içmək istəyirlərsə, deməli, lazımdır.

– Birdən gözünü açıb qəflətən görəsən ki, öz toyundasan, qiyamətdir, hə?

– Bunun harası qəflətəndir, bundan da pisi olur. Bir də görürsən elə tələsirlər, fikirləşirsən: görəsən, nə var burada? Amma bizim tələsməklə nə işimiz!

– Düz sözə zaval yoxdur, Yunas, düz deyirsən. Sənin sağlığına! Səninki də elə zarafatdır da.

– Yox bir, getsinlər tullanmaqlarının dalınca, mənə öküzlərimi dəyişməyi təklif eləyirlər – qoy ən yaxşı mal-qaralarını gətirsinlər, üstündə də görək hələ nə verirlər. Onlara belə də dedim. Tanrı haqqı, anadan olandan builki kimi axmaq yarmarka görməmişdim.

– Yəni araq da yox idi?

– Əşi yox e, dükan bağlıydı.

– Hə, onda bəlli məsələdir, alver getməz də.

– Ey, o başdakılar, Emil, bizə də ötürün! Bunlara bax e, hər şeyi süpürürlər öz qabaqlarına!

Qovurma gətirdilər, necə içməyəsən? Yunas hərə ilə bir qurtum almağa məcbur olur, hərçənd ki, istəyərdi heç içməsin.

– Əşi, sən necə kişisən, əgər içki üçün əldən getmirsənsə!

Hamı içirsə, deməli, o da içməlidir. Yunas da içir, amma çalışır ki, az içsin. O, nəyisə rədd etmək bacarığına malik olan adamlardan deyil. Həm də bu insanlar axı onun yaxşılığını istəyirlər, fikirləşirlər ki, qoy onun da payına bu məclisdən bir şey düşsün.

– Vur getsin, gücə gələrsən. Kim bilir, bəlkə də, bu gün səni gözləyən işin dadına hələ ömründə baxmamısan.

– Əgər istəyirsən Frida razı qalsın, onda, gərək səndən möhkəm araq iyi gəlsin.

– Eh, qardaşım Yunas, bundan belə kefin kök olacaq. Daha özünü bərkə salmaya bilərsən.

– Mehmanxanadan necə, çıxacaqsan? Hələ bilmirsən? Deməli, hələ bir söz deməyib sənə.

– Bir də gördün qoca vaxtı başladın tikmə satmağa. Pisdir məgər, iş deyil e, qaymaqdır, qaymaq. Gül-çiçəklə də başını qatarsan, gör Frida nə qədər çiçək əkib.

– Yaxşı, bəs onu öz dükanında işlədəcəksən, yoxsa başqa yerə düzəldirsən?

Frida cavab verməyə bilər, onsuz da hamı birdən danışır, səs-küydən qulaq tutulur. O, iri, həlim gözlərini naməlum bir nöqtəyə zilləyib, sakit bir ləyaqətlə dinməzcə əyləşmişdi, başında azacıq yana sürüşmüş duvağı, əynində isə ona çox yaraşan gəlinlik paltarı. Hərdən stolun altında Yunasın əlini sıxırdı, bu anlarda onun üzü xoşbəxt təbəssümdən işıqlanır və onlar xəlvəti bir sevinclə bir-birinə baxırdılar. Sonra yenə ciddiləşir, bir qədər kədərli görkəm alırdı.

Hava qaralmağa başlayanda Hulda lampanı gətirir. Stolun üstünə şirnilər düzülür. Şirin şeylər əla çıxmışdı, amma Frida yeyə bilmir, yalnız dadına baxır ki, yaxşı çıxdığına əmin olsun. Bir gəl yaxşı çıxmasın, nə qədər əlləşmişdilər üstündə. Sonra da növbə torta çatır. Tort, doğrudan da, qiyamətdir. Ortasında çəhrayı mürəbbə ilə "Y" və "F" hərfləri yazılıb, amma bunu seçən olmur, hərflər o qədər qəlizdir ki, lap naxışa oxşayır. Lakin Yunasla Frida özləri həmin hərfləri o dəqiqə seçirlər və stolun altında əl-ələ tutub, bir-birlərinə incə, xoşbəxt nəzərlərlə baxırlar. Tortun yanında şərab verilir. Əgər pastor da qalsaydı, indi, yəqin ki, onların şərəfinə bir nitq irad eləyərdi. Mütləq nəsə deyərdi. O, yeri gələndə, çox gözəl danışa bilir. Amma elə pastorsuz da hər şey əla gedir. Tortu son tikəsinə kimi yeyirlər.

Bununla da, ümumi ziyafət başa çatır, indi növbə qəhvənindir. Stoldan qopmuş camaat otaqlara dağılışır, azacıq ləngərləyən kişilər yenə söhbətə qızışıb, səs-küy salırlar. Onları siqara qonaq edir, qəhvə süzürlər.

– Sizdə konyak tapılmaz, Frida? – Emil maraqlanır.

Yox, bu heç ağlına gəlməyib. Yəqin, gözləmirdi ki, belə bir gündə bu qədər içki içiləcək.

– Belə təntənəli bir gündə konyakınız yoxdur, bu lap biabırçılıqdır ki, – Emil dillənir. – Toydursa, aydın məsələdir ki, konyak da mütləq olmalıdır! Mənim arabamda bir şüşə var, yolüstü götürdüm özümlə. Eybi yox, gətirim içsinlər.

O, səs-küylə otaqdan çıxır və tezliklə də əlində konyak şüşəsi geri dönür.

– Hə, indi kefdəyik!

Hamı yenidən vurmağa başlayır. Kişilər danışmırlar, qışqırırlar, elə bil, qapalı otaqda yox, öz xutorlarındadırlar, bir həyətdən o birisinə danışırlar, çığırmasan – eşitməz, söyüşün də biri beş quruş – birini deyirlər – beşi ağızlarından tökülür, sanki, indicə qıracaqlar bir-birlərini. Amma, əslində, topa-topa durub, dostyana, dil boğaza qoymadan söhbət

edirlər. Vaxt keçir, get-gedə onların sərxoşluğu daha artıq bəlli olurdu, gah bir-birinə söykənib durur, gah da özlərini səs-küylə stullara yıxırlar. Qəsəbədən olanlar, özlərini daha abırlı aparırlar, kəndçi deyillər ki, amma bu xutorlular, deyəsən, lap ağını çıxarırdılar. Tüstü tavana dirənir, nəfəslərdəki spirt buxarı otaqlara yayılaraq, onları öz hərarətiylə doldururdu.

Qadınlar da darıxmırdılar, bir küncə təpilib, aralarında olmayanların qeybətini eləyirdilər, əyalətdə baş verən müxtəlif hadisələrdən danışırdılar, əllərinə fürsət düşmüşdü, axı çoxdan bəri belə görüşmürdülər, son zamanlar qonaqlıq-filan eləyən yox idi, belə yığışmaq nadir hallarda qismət olurdu. Söz-sözü çəkir, ürəklərində nə varsa çəkinmədən dillərinə gətirirlər, başlarını bulayır, dodaqlarını büzürlər, bir-birinə nəsə pıçıldayır, yenə qulaq asıb, təzədən danışırlar. Kim bilir, söhbət nədən gedir orada. Frida bir müddət onlarla oturur, sonra mətbəxə baş çəkir, gülləri yerinə qoyur; onları qaytarıb öz yerlərinə qoymamışdılar, onun dalınca lampanı düzəldir, lap axırda isə barmaqlarını qarnının üstündə bir-birinə keçirərək otağın ortasında durub ətrafındakı səs-küyə qulaq verir.

– Bu gicəsulaya bax, ağ paltar geyib, – qəflətən arxasında bir səs eşidir.

Onda gedib Yunasın yanında oturur. Elə oturan kimi də göz yaşlarını saxlaya bilmir.

Amma bu əsl ağlamaq deyil, göz yaşları sadəcə onun gözlərindən süzülür, aramla, sükut içində. Yunasdan başqa heç kəs heç nə görmür. O isə bərk bir nigarançılıq içində sevgilisinin əlini sığallayır, onu ovuclarının içində incə-incə sıxaraq, elə hey soruşur ki, nə baş verib, niyə ağlayır. Onda Frida baxışlarını qaldıraraq, nəcib, mehriban təbəssümü ilə onun üzünə gülümsünür, həmişə bir-biriylə danışanda gülümsündüyü kimi.

– Heç bir şey olmayıb, Yunas, – deyir, – sevindiyimdəndi.

O da sakitləşir, çünki Fridanın həqiqət söylədiyini görür.

– Yunas, əzizim, – o deyir, – gedək yuxarı, öz otağımıza.

Elə də edirlər. Hamı ilə şən, səmimi, əsl xoşbəxt gəlin və bəy kimi vidalaşıb, yuxarı, öz otaqlarına qalxırlar.

Otaq gözəl bəzənib, yatacaq hazırdır, hər şey Fridanın istədiyi kimi düzəldilib. Çarpayıya krujeva tikməli mələfə salınıb – onun dükanındakı ən enli mələfə, stolun üstündə tər çiçəklər, zehli ağ süfrə, komodun üstündə də eyni örtük var. Pəncərə taybataydır, həyətdə isə ilk payızın ılıq işıqlarını onların otağına salan parlaq ulduzlu bir axşam yaşanır.

Aşağının hay-küyü, sanki, bura yetişmir – necə sakitlik, hüzur var burada. Heyranlıq içində bir-birinə sarılırlar. Beləcə uzun müddət dururlar, o qədər dururlar ki, zaman anlayışı içlərini dolduran xoşbəxtlikdə qətiyyən hiss olunmur. Aşağıda elə bayaqkı kimi səs-küydür, onlar isə bu səsləri qətiyyən eşitmirlər. Çox qəribədir, beləcə eşitməmək olarmış, heç nəyi eşitməmək.

Sonra onlar soyunub yatağa uzanırlar, nəvaziş dolu pıçıltılarla bir-birinə sarılırlar, əvvəllər heç vaxt dadmadıqları, misli-bərabəri olmayan, qəribə hisslər yaşayırlar.

Frida heç vaxt güman eləməzdi ki, məhəbbət bu nəhənglikdə ola bilər. Bu barədə o qədər düşünmüşdü ki, amma yenə də bu əzəməti indiyədək bütün tamlığı ilə təsəvvür edə bilmirdi. Sanki, bütün həyatını tək bu an üçün yaşamışdı – Yunasa qovuşmaq anı üçün. O isə sevgilisini bərk-bərk qucaqlamışdı – özünün qüvvətli əli ilə qucaqlamışdı. Bu əllər gör nə qədər ağır yüklər görmüşdü bütün həyatı boyu; qüvvətli olmalıydı da. Frida isə özünü sevgilisinə tam təslim edir, bu heç vaxt duymadığı həzzdir – nəyin varsa hamısını qızırqanmadan, ilahi bir heyranlıq içində vermək. O qədər vəcdə gəlir ki, hətta onu qoyma dişləriylə dişləyir də, Yunas isə bundan lap başını itirir. Frida bunu edəndə əvvəlcə özü də çaşır. Amma məhəbbət elə budur da, onun öz dili olur axı. Böyük, ilahi məhəbbət, varlığı ilə hər şeyi işıqlandıran, şüura sığmadığından ona tabe olmayan bir möcüzə.

Sonra da yanaşı uzanırlar, şirin bir yorğunluq, hər şeyi sözsüz anladan sükut içində. Əl-ələ tutub uzanırlar, sanki, bu təmasda məhəbbət nəvazişlərindən də zərif bir incəlik var. Elə bil, xoşbəxtliklərinin mükəmməl tamlığından uçunublar onlar.

Yunas uzun gündən sonra özünü yuxuda unudur. Qəşəng, istəkli sevgilisi yanında uzanıb, Frida onun saçlarını incə-incə sığallayır, onları səliqəyə salır. O da özünü bir qədər yorğun hiss edir. Lakin alaqaranlıqda gözüaçıq uzanıb sakitcə qulaq asır.

Necə sakitlikdir. Heyrətamiz dərəcədə sakitlikdir. Qonaqlar ordadırlar, görəsən, yoxsa, gediblər artıq?

Heç nə eşitmir. Ətrafında yalnız nəhəng, dərkedilməz bir gecədir – bir də sevgilisidir, yanında yatıb, sakitcə xoruldayır. Başqa heç nə.

Ona bir az da yaxınlaşıb, əlini əlində bərk-bərk sıxaraq, yuxuya gedir. Bax beləcə gecənin qoynunda bir-birinə sarılaraq uzanıblar, yanaqları alovlanır, ağızları isə öpüş üçün yarıaçıq qalıb. Açıq pəncərədən isə ulduzlar görünür və səf çəkib, yallı gedən bu ulduzların bitməz rəqsi onların yatağı üzərində göylərin əzəmətli təranəsi kimi, yeganə həqiqi dəyərə ünvanlanmış alqış kimi süzür, zülmət dərinləşdikcə, halay çəkən ulduzların sayı da durmadan artır, artırdı.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# XİLASKAR YUHAN

Adım Yuhandır, amma hamı məni Xilaskar çağırır, çünki yer üzündəki insanları xilas edəcəyəm. Bu, mənim nəsibim, qismətimdir, Xilaskar adını da elə ona görə qoyublar. Başqaları kimi deyiləm və şəhərdə mənə bənzəyən bir şəxs belə yoxdur. Mənim qəlbimdə Tanrı alov yandırıb – heç vaxt sönməyən bir alov; onun gecə-gündüz içimdə necə yanmasını hiss edirəm. Bilirəm ki, insanları xilas etməkdir vəzifəm, onların yolunda qurban getməliyəm. Mənim inancım – onlarla paylaşmaq istədiyim inanc insanlara nicat bəxş edəcək.

Bəli, bilirəm ki, necə möhkəm inanmalıyam, onların hamısının yerinə – tərəddüd edənlərin, acgözlük edənlərin, nəfsiylə bacarmayanların, gözü doymayanların yerinə də inanmalıyam. Onlara səbat verməliyəm. Çıxılmazlıqda, kədər anlarında məni çağırırlar, mən də mərhəmətli, mehriban bir əlin yüngül hərəkətiylə onları bütün bəlalardan azad etməliyəm – ondan sonra nə bir qayğı qalacaq, nə həyəcan.

Bəli, yer üzündəki insanlara nicat verəcəyəm. On dörd yaşım olanda dərk etdim ki, nəsibim budur. Elə o vaxtdan başqaları kimi deyiləm.

Mənim hətta geyimim də hamınınkı kimi deyil. Gödəkcəm iki sıra gümüş düyməli, kəmərimin qırağı yaşıl, qollarımda isə qırmızı köbələr var. Boynumdakı qaytandan siqar qutusunun qapağı asılıb, üstündə cavan, gözəl qadın şəkli də var – bunu haradan tapdığımı artıq xatırlamıram. Bax geyimim belədir. Alnımda isə tənəkədən özüm kəsdiyim ulduz var, günəşin altında parlayaraq, lap uzaqdan görünür, elə yanır ki, hamı ona diqqət yetirir.

Mən küçə ilə gedəndə adamlar arxamca baxırlar. Onlar təəccüblənirlər. “Baxın, Xilaskardır”, – deyirlər. Onlar bilirlər ki, bu mənəm. Bilirlər ki, onları xilas etmək üçün gəlmişəm.

Amma məni başa düşmürlər. Onlar lazım olduğu qədər inanmırlar. Mənim kimi inanmırlar. Onların içində qəlbimdəki alovdan kükrəmir. Ona görə də danışmalıyam onlarla, inanmaq öyrətməliyəm, hələlik onların arasında olmalıyam.

Məncə, bu çox qəribədir: onlar öz Xilaskarını görürlər, eşidirlər, Xilaskar elə onların arasında yaşayır, lakin yenə də dərk etmirlər onu. Amma nə vaxtsa gözləri açılacaq, onu necə varsa elə görəcəklər.

Bu gün bazar günüdür. Mən meydanda idim və həmişəki kimi, moizə edirdim. Orada arabalı kəndlilər vardı. Hamısı mənim ətrafıma yığışmışdı. Onlara içimdə daşıdığım bütün şeylərdən, dünyaya çatdırmalı olduğum Tanrı sözündən, yer üzünə onları xilas etmək üçün gəldiyimdən, hüzur tapmalarına kömək edəcəyimdən danışırdım. Onlar diqqətlə qulaq asırdılar və mənə elə gəlir ki, sözlərim onlar üçün bir təsəlli oldu.

Amma bilmirəm nəyə gülürdülər. Özüm heç vaxt gülmürəm. Mənim üçün hər şey ciddidir. Dayanıb bütün bu adamlara baxanda düşünürdüm ki, hamısının ruhu var, bu ruhları xilas etmək gərəkdir, hiss edirdim ki, qarşımda necə əzəmətli və ciddi bir vəzifə durur. Danışmaqdan, səni dinləyənlərin olduğunu görməkdən gözəl nə ola bilər! Hətta bir anlıq elə bildim ki, qarşımda ucsuz-bucaqsız insan dənizi durub, onların arasında bu gün mənə qulaq asmağa gəlməyənlər də var (axı bazar kiçik olanda orada elə çox adam da olmur), mənə elə gəldi ki, qarşımda yer üzünün hüzur istəyən, sükutun acı olan bütün insanlarını görürəm və onlara nicat gətirirəm. Bu, bir məmnunluq anı idi və bu anı heç vaxt unutmaram.

Elə bilirəm ki, bu gün xüsusi ilhamla danışırdım və onlar da məni anlayırdılar.

Sözümü bitirəndə onlardan biri irəli yeriyib, bütün toplaşanlar adından mənə bir baş kələm təqdim elədi. Onu özümlə aparıb evdə çox dadlı şorba bişirib, doyunca yedim. Çoxdan isti xörək yemirdim. İlahi, o mərhəmətli insana xeyir-dua ver.

İnsanlara yaman yazığım gəlir! Hamısı bədbəxtdir, hamısı əzab çəkir, hamısı çıxılmazlıq içindədir.

Çörəkçi Yuhansson ona görə bədbəxtdir ki, böyründə başqa çörəkçi dükanı açılandan müştərilərini itirib. Amma çörəyi elə əvvəlki kimi dadlıdır, tez-tez mənə də bir tikə verir. Çörək gözəl nemətdir. Arabir söhbətləşdiyim polis nəfəri Ekstrem isə ona görə bədbəxtdir ki, arvadı yaxşı evdar deyil və son zamanlar onun qeydinə heç qalmır. Hətta şəhər hakimi də bədbəxtdir, çünki yeganə oğlunu itirib.

Xoşbəxt yalnız mənəm. Axı içimdə heç vaxt sönməyən, daim alışacaq, məni yandırana kimi alovlanacaq inam odu kükrəyir. Mən nə qayğı bilirəm, nə həyəcan; mən onlar kimi deyiləm. Onlar kimi ola bilmərəm.

Yox, mənə ümidsizlik yaramaz. Axı onların yerinə də inanmalıyam.

Onlar məni dövlət təminatına götürüblər ki, bütün gücümü öz işimə sərf edim, heç bir şeyin qayğısını çəkməyim. Mənim üçün bura yaxşıdır, bizi gündə iki dəfə yedirdirlər. Buradakıların hamısı yoxsul və bədbəxt insanlardır, onlara çox yazığım gəlir. Mehriban, sakit adamlardır, elə bilirəm, məni onlar qədər yaxşı anlayan heç olmayıb. Onlar da məni Xilaskar çağırır və çox hörmət edirlər.

Axşamlar onlara moizə söyləyirəm. Məni həyəcanla dinləyirlər, hər sözüm onların qəlbinə işləyir. Görəydiniz mən danışanda onların gözləri necə parıldayır! Onlar məndən də, mənim sözlərimdən də yeganə ümidləri kimi bərk yapışırlar. Bəli, anlayırlar ki, mən onların xilası üçün gəlmişəm.

Şam yeməyindən sonra onları ətrafıma yığıb, hər şeyə qələbə çalmağa qadir, yer üzünü ilahinin bizə bəxş etdiyi xoşbəxt sığınacağa çevirə bilən inamdan ilhamla söz açıram. Rəis deyir ki, olar, buna icazə var. O, məndən razıdır. Sonra da dincəlməyə gedirik. Otaqda dörd nəfərik. Mənim yatağımın üstündən ulduz asılıb, o, bütün gecəni başımın üstündə parlayır, yatanda sifətimi işıqlandırır. Mən başqaları kimi deyiləm.

Ah, qəlbimdəki ümidsizlik! Ümidsizlik və çıxılmazlıq hamımızı boğur!

Ulduz yoxa çıxıb, bizə əsl yolu nişan verə bilən nicat ulduzu! Səhər mən oyananda onu asdığım mismar artıq boş idi. Hara yoxa çıxdığını da heç kəs bilmir. Zülmət bizi uddu, mən işıq şüası axtarıram, lakin tapa bilmirəm, bu dəhşətli zülmətdən çıxaran yolu tapa bilmirəm. Hamı qüssə içindədir, bütün şəhər kədərə qərq olub. Səmanın bozarıb boğulmasını evimizin pəncərələrindən görürük, sanki, binalara, küçələrə kül səpilib, heç yerdə bircə işıq da görünmür.

Nə edək? Bizi sarmış çıxılmazlıqdan necə qurtulaq?

Hamı ümidlə mənə baxır. Amma başımın üstündə ulduz parlamırsa, səma nuru yolumu nişan vermirsə, mən kiməm ki? İndi bir heçəm, elə başqaları kimi yoxsulam.

Bəs onda dünyanı kim xilas edəcək?

Hər şey qaydasına düşdü, hər şey yaxşıdır. Mən bütün günü pərvərdigara şükürlər etmişəm.

Onu qoca Enuk gizlətmişdi. Onun döşəyinin altından tapdıq. Artıq hamı xoşbəxt və sakitdir. Mənim inamım bu sınaqdan sonra daha da möhkəmlənib.

Bu, bir zarafat idi, odur ki, hirslənmirəm.

Hərdən özümü yaman tənha hiss edirəm, ətrafımda bir boşluq duyuram. Onda mənə elə gəlir ki, insanlar nə üçün göndərildiyimi hələ anlamırlar. Onların ruhlarına hakim kəsilməyimə şübhə edirəm. Azad edə biləcəmmi onları?

Moizə eləyəndə elə gözəl gülümsünürlər ki... Məni görən kimi üzləri nurlanır. Amma, həqiqətən, inanırlarmı mənə?

Məncə, kimliyimi anlamamaları qəribədir, içimdəki kükrəyən alovu, ruhumu yandıran qeyri-bəşəri ilhamı duymurlar. Axı özüm bütün bunları lap aydın hiss edirəm.

Bəzən moizə söyləyərkən mənə elə gəlir, tamam tənhayam, hərçənd ətrafıma məni dinləyən nə qədər adam toplaşıb. Mən yüksəklərə, lap ucalara qalxan, qalxdıqca da təmizlənən, parlaqlaşan alov kimiyəm. Amma bu alovun istisinə qızınan yoxdur...

Ah, məni sındırmaq istəyən tərəddüd! Sənsən günahkar, bizim bu qədər bədbəxt, alçaldılmış olmağımızın günahı yalnız səndədir.

Bu gün quşların, çiçəklərin qonağı idim. Gəlişimə sevinirdilər. Torağaylar oxuyur, bənövşələr, zəncirotular çəmənlikdən başlarını qaldırırdılar. Mən öz moizəmi sükutla edirdim. Hər şey diqqət kəsilmişdi. Torağaylar başımın üstündən çəkilmirdilər ki, dinləyə bilsinlər. Təbiətdə bir ruhi sakitlik duyulurdu, məni burada hamı anlayırdı.

Əgər insanlar da gül-çiçək, ağac olsaydılar, onlar da məni dərk edərdilər. Adamlar torpaqdan köklü-köməcli qoparılmış bitki kimidirlər, günəş onları yandırır, torpaq isə onların yenidən torpağa çevrilməsinin intizarındadır. Heç bir şey onları xoşbəxt eləyə bilməz, yalnız gətirdiyim Tanrı sözündən savayı heç nə onlara nicat verə bilməz. Bax onda hər bir şey öz yerini tapacaq və torpaq zanbaq rayihəsi yayacaq, insanlar hüzur içində olacaqlar.

Axşam evə dönəndə pivəxanaların yanında çoxlu adam vardı, hamı öz Xilaskarını çağırırdı, istəyirdi ki, onlara da moizə söyləyim. Mən isə cavab verirdim ki, Tanrımla bu gün artıq danışmışam və indi onun dedikləri barədə düşünmək üçün evə getməliyəm.

Bəlkə də, düz hərəkət deyildi, amma özümü onların arasında yad hiss edirdim və evə içimdəki kədərlə döndüm.

Ah, ürəyim, yaşamaq nə qədər çətindir mənə! Daşıdığım yük nə qədər ağırdır! Bu gün öz düşüncələrimə qərq olub küçəylə gedəndə qəflətən məktəbdən çıxan bir dəstə uşağın arasına düşdüm. Onlar məni dövrəyə aldılar. “Baxın, Xilaskar gəlir, – deyə çığırışırdılar, – Xilaskar gəlir!” Onlar çox idi, ayaq saxlamalı oldum və onda uşaqlardan biri əllərini yana açıb qışqırdı: “Çarmıxa çəkilən! Çarmıxa çəkilən!” Elə bilirəm ki, kimsə öyrətmişdi onları, çünki ətrafımdakı qalan balacalar da əllərini yana açaraq, özlərinin uşaq səsiylə qışqırışdılar: “Çarmıxa çəkilən! Çarmıxa çəkilən!”

Sanki, ürəyimə bıçaq soxdular. Ürəyimin dayandığını duydum, alnımda soyuq tər puçurlandı. Onların çığırtıları altında birtəhər aralarından çıxa bildim. Dülgər Lundqrenin həyətinə girib oturdum və ağladım.

Mən uşaqları sevirəm. Onları mənim kimi sevən yoxdur. Uşaqların təmiz gözlərinə baxanda elə bir sevinc duyuram ki, yer üzündə başqa heç nə onu əvəz edə bilməz. İstərdim ki, onlar da gəlsinlər yanıma. Dizimin üstündə oturdub başlarını sığallayardım və onlar da yanaqlarını yanağıma söykəyərdilər...

Çörəkçi Yuhanssonun balaca oğlu axşamlar öz qapılarının ağzında, atasının qucağında oturanda bunu necə elədiyini tez-tez görürəm: atasının yanağını sığallayır, sonra da boynunu qucaqlayır və onlar beləcə, uzun-uzadı oturaraq dünyada heç nəyin fikrini çəkmirlər. Bir uşaq əlinin mənə də nəvaziş göstərməsini elə tez-tez arzulayıram ki...

Lakin insanları xilas etmək üçün yer üzünə göndərilmiş bir adam tənhalıqda dolaşır, adamlar arasında yad kimidir. Onun nə evi var, nə dünyəvi sevinci, nə də ki kədəri. O, hər şeydən məhrumdur, çünki içində kükrəyən alov onsuz da

hər şeyi yandıracaq. Başqalarına bir belə bənzəməyən bu məxluq kimdir?

Çarmıxa çəkilən! Çarmıxa çəkilən!

Yalnız inanmaq və bir də inanmaq! Hamının əvəzinə inanmaq! Hər axşam elə yorğun qayıdıram, sanki, minlərlə başqasının həyatını da yaşamışam. Heyvantək yumağa dönüb yuxuya gedirəm. Yorğun vücudumun, gicgahları guppuldayan başımın üstündəki ulduz alışır ki, sabah səhər bir də oyananda daha möhkəm inanım.

Niyə bu məhz mənim nəsibim oldu? Pəncərənin qarşısında oturub yuxarıdan şəhərə baxanda mənə qəribə gəlir ki, bu qədər insanın hamısını mən xilas etməliyəm. Axı çox miskin, yazıq, zəifəm, dünyada məndən güclü, məndən imkanlı o qədər adam var ki. Zəif çiyinlərimə düşən qismət yüküm mənim vücudum üçün çox ağırdır, qəddimi bükür, dizi üstə düşürəm. Belə dəqiqələrdə qəlbimi bir çıxılmazlıq, bir qorxu çulğayır...

Xilaskarın yıxılmaq ixtiyarı var məgər? Məgər o qorxu hiss edə bilər?

Ah, niyə axı mən – insanların ən zəifi, onların da əvəzinə inanmalıyam!

Bu gün meydandan keçəndə hakimlə rastlaşdım. O, mənə baş endirdi.

– Salam, Yuhan, – dedi.

Mən hətta ayaq saxladım...

O, mənə Xilaskar demədi!

– "Salam, Yuhan" – dedi... Yalnız Yuhan, daha heç nə.

Lap uşaqlığımdan bəri məni belə səsləyən olmamışdı. İndi xatırladım ki, anam da məni belə çağırardı, dizlərinin üstündə əyləşdirib, başımı sığallayardı... Yalnız indi xatırladım, bir az fikirləşən kimi yadıma düşdü...

"Salam, Yuhan..."

O çox mehriban idi. Axşamlar evə gəlib lampanı yandırar, şam yeməyi hazırlayardı, sonra da dizlərinin üstünə dırmaşardım. Saçları, elə bil, qızıldan idi, əlləri isə – gözəl, bəmbəyaz, çünki bütün günü döşəmə yuyurdu... İndi xatırladım... Onun boynunu qucaqlayırdım... Yadımdadır...

“Salam, Yuhan...”

Hakim bunu deyəndə özümü elə yaxşı hiss etdim ki! İsti, rahat. Qəlbim də, sanki, elə o dəqiqə sakitləşdi – nə həyəcan qaldı, nə narahatlıq.

Təkcə Yuhan, başqa heç nə.

Ah, kaş hamı kimi ola biləydim! Kaş qismət yükünü çiyinlərimdən ata biləydim, onlardan birinə çevriləydim, onlar kimi olaydım – sakit və əndişəsiz, hamı kimi bu dünyanın qayğılarıyla yaşaya biləydim bütün ömrümü, hər axşam isə gün ərzində gördüyüm işlərdən yorularaq evə dönəydim. İşdən yorulaydım, amma inamdan, təkcə inamdan yorulmayaydım...

Bəlkə, dülgər Lundqrenə kömək edə bilərdim. Bunu bacarmasam, lap həyətini süpürərdim.

Onda mən də onlar kimi olardım. Alov da məni daha yandırmaz, içimdəki çıxılmazlıq ruhumu əzməzdi.

Yalnız Yuhan, daha heç nə... Onların hamısı bilərdi ki, mən kiməm, görərdi ki, hər gün öz işimlə məşğulam. Hə, dülgərin həyətini süpürən Yuhan?..

Axı niyə onların ən zəifi, ən yazığı olan məni seçiblər ki, hamısını xilas edim! Sakitlik və hüzur istəyən məni, yer üzündə yaşamağıma icazə verildiyi üçün Tanrısına şükürlər eləyən məni. Zəngin masanın önündə dizi üstə çökən gəlməyə, zorla sezilən bir tumurcuğa bənzəyən məni...

Aman, ya rəbbim, atam mənim, əgər mümkünsə, qoy qismətim məndən yan ötsün!

Yox, yox. Mən tərəddüd edə bilmərəm. Onları atmaq olmaz.

Bəs qəlbim niyə rahatsızdır? Niyə onları uçuruma, zülmətə yuvarlamağa sövq edir məni, onları atmağa çağırır?

Bu, dəhşətdir! Yəni mən daha inanmıram?

Yox, yox! İnanıram, qabaqlar inandığımdan da artıq! Mən onları xilas edəcəyəm. Mən, təkcə mən xilas etməliyəm onları!

Gecənin ağuşunda gedirəm, dayanmadan gedirəm. Küçələrlə, sonra da yolun ağına düşərək, düz meşəyə kimi, sonra da geriyə... Külək əsir, buludlar yüyürür... Mən haradayam?.. Başım alışıb-yanır... Elə yorulmuşam ki...

Yox, mən inanıram. İnanıram. Mən onları xilas edəcəyəm, onların yolunda qurban gedəcəyəm.

Tezliklə, lap tezliklə...

Bəs onda ruhumu çulğayan bu darıxmaq nədir? Məgər Xilaskar belə darıxaraq qərarsızlığa düçar ola bilər?

Yox, yox...

Deyəsən, yenə meşədəyəm. Ağacların səsini eşidirəm... Niyə tənha gəzib-dolaşıram burada? Niyə orada, insanların yanında deyiləm, mənim yolumu gözləyən insanların...

Onlar məni heç başa düşmürlər.

Axı necə başa düşsünlər? Başdan-ayağa çarəsizlik, çıxılmazlıqdan ibarət olan birisini necə başa düşmək olar axı? Zülmətdə dolaşaraq, rahatlıq tapa bilməyən bir insana necə inansınlar axı?

Yox, xilas edə bilməyəcəyəm onları! Bacarmayacağam!

Bəli, onların Xilaskarı mübhəm bir qorxu içindədir. Başlarının üstündə uçaraq çığıran quş kimidir o. Onun yuxarıdan gələn çığırtısını eşidirlər, amma bilmirlər ki, nə istəyir. Quş axı onlardın çox yüksəkdədir. Qanına qəltan olub cansız halda yerə düşməyənədək heç nə anlamayacaqlar. Yalnız bundan sonra anlayacaq və inanacaqlar.

Çarmıxa çəkilən! Çapmıxa çəkilən!

Hə, məni qurban verəcəklər.

Onlar azadlıqlarını mən yazığın qanı bahasına tapacaqlar...

Tezliklə, lap tezliklə baş verəcək bu...

Gecənin sakit ağuşunda rahat yatın, ey çiçəklər, çəmənlər, ağaclar, dincəlin, ey yer üzünün bütün insanları! Hüzur tap, ey sevimli dünya. Mən səni azad edəcəyəm; gecələr yatmıram, başının üstündəyəm. Axı sənin kədərin elə mənimkidir. Sən əzab çəkməyəcəksən, qoymaram dünyam əzab çəkə. Axı həyatımı sənin yolunda qurban edəcəm.

Meşə necə sakitdir... Xəzəlin üstüylə addımlayıram... Addımlarımın səsi eşidilmir... Payızda çoxlu gül solub ləçəklərini tökür, yarpaqlar çürüyür, ağacların altı ona görə yumşaqdır, lap səssiz gedirsən... havadan da çürüntü qoxusu gəlir...

Şəhərdə kilsənin zəngi çalınır... Bir... iki...

Ah, necə yorulmuşam, yaman yorulmuşam... Evə getməliyəm. Gedib uzanacağam, daha bacarmıram. Axı onlar məni gözləyirlər, təəccüb qalıblar ki, hara yoxa çıxmışam.

Budur, deyəsən, yola çatıram artıq. Yaman palçıqdır; lap saqqız kimi... Yəqin, dünən yağış yağıb... Hələ küləyə bax!

Yox, zəng hələ də çalınır, durmaq bilmir. Hava titrəyir... Deyəsən, nəsə dəhşətli bir şey baş verib... Nə qədər zəng birdən çalınır, onlar lap Qiyamət günündəki kimi inildəyir. Bu, nədir belə? Qaçmaq lazımdır.

Yanğındır! Yanğın! Alov kükrəyir, səma qan rənginə boyanıb. Şəhər yanır! Dünya yanır, hər şey məhv olur!

Aman, Tanrım, onları mən xilas etməliyəm axı. Mənim borcumdur bu. Onlar indi yolumu gözləyirlər, fikirləşirlər ki, görəsən, haradayam, niyə gəlib çıxmıram...

Gözləyin, qaçıram, qaça-qaça gəlirəm! Sizi xilas edəcəyəm! Palçıq imkan vermir, yoxsa lap bərk qaçaram!

Torpaq yanır, göy yanır – bütöv bir alov dənizi! Mən onları xilas etməliyəm, xilas etməliyəm!

Ey ürəyim, belə möhkəm çırpınma, lazım deyil, əziz ürəyim, lazım deyil! Axı qaça bilmirəm, onlar isə məni gözləyir, xilas etməliyəm onları! Axı sən özün də bilirsən, mütləq xilas etməliyəm!

Tükənməz bir alov dənizi. Və tufan guruldayır. Od tutmuş göylər indi birbaş yerə yağır, torpağı yandırır.

Adamlar görürəm – hamı elə o səmtə yüyürür.

– Dünya məhv olur! – qışqırıram.

– Əşi, – cavab verirlər, – təkcə əlillər evidir yanan.

Hə, ancaq əlillər evidir. İnanmağa gücləri çatmadığından daim nəsə diləyən, nəsə uman bədbəxtlərin hamısı od içindədir. Onlar məhv olurlar! Ancaq mən xilas edə bilərəm onları.

Ürəyim, belə döyünmə, incidir axı, az qalıb, çatıram, bu dəqiqə, elə indicə...

Alovun dilləri çırpınır, tüstü küçəni ağuşuna alıb, istini hiss edirəm...

Budur, çatdım.

– Mən onları xilas edəcəyəm! Xilas edəcəyəm! – deyə çığırıram.

– Orada xilas olunası kimsə qalmayıb! – deyə mənim qabağımı kəsib qışqırırlar. Onlar bilmirlər, onlar heç nə anlamırlar. Mən alovun içinə atılıram.

Tüstü məni boğur. Yox, yıxılmaram, mən onların Xilaskarıyam, yox, Xilaskar yıxıla bilməz. Mütləq keçəcəyəm – bu da dəhliz... dəhliz... otaq...

Bura boşdur. Burada deyillər. Yuxarıdadırlar.

Pilləkəndə tüstü yenə boğur məni, alovun parlaqlığından gözlərim görmür... Yox, mən yıxılmaram... Onları xilas edəcəyəm... Hamısını... Hamısını...

Haradadırlar?

Yuxudayam, elə bil, əllərimi divarlara sürtə-sürtə gedirəm. Qarşımı tüstü divarı kəsir. Alov dilimləri oynayır. Ayaq üstə qalmaq yaman çətindir.

Haradadır onlar?

Özü yeriyə bilməyən qoca Enuk... Bir də Anton – o da axsaqdır, bəs Kristina qarı – o isə lap körpə uşaq kimi, heç nə anlamır, Samuelson, Manfred...

Onları da görmürəm, yoxdurlar...

Döşəməylə sürünürəm – alov da dalımca sürünür... Ətrafda səs-küydür... inilti səsi... uçulur, deyəsən... Onlar haradadır?.. Nə stollar var, nə çarpayılar – boşluqdur, bir də ki soyuq... Elə bil, burada yaşayan yoxdur və heç olmayıb da... Haradadırlar? Burada deyillər... Burada bircə mənəm... yalnız mən...

Dörd tərəfim alışıb! Binanın tirləri dağılır, alov tüğyan eləyir... Odun içində çırpınıram... Haradadır onlar? Harada? Zavallı insanlar... Mən onları tapa bilmədim, yoxdurlar – yalnız alov var burada, alov, bir də mən, təkcə mən...

Ah ürəyim, bu, sənsən yanan? Bəlkə, təkcə sən yanırsan? Mənim bədənimi, sinəmi necə yandırmağını duyuram, tezliklə sənin özündən savayı, başqa heç nə qalmayacaq! Ey ürək, özün yandır, hər şeyi yandır! Yalnız səndən ibarət olmaq istəyirəm, yalnız səndən – içində arzu-istəyi olan ürəkdən, məni yandırıb-yaxan ürəkdən!

Başqa heç bir şey olmaq istəmirəm... heç nə... yalnız sən...

Yox, daha dözə bilmirəm... bacarmıram... bitdi hər şey... Hə, mən yıxılıram... Yıxılıram... Bu da son...

İlahi, məni bağışla ki, xilas etməli olduğum insanları tapa bilmədim! Mən onları tapa bilmədim... Yanan ürəyi bağışla... özünü sənə qurban vermək arzusuyla alışıb-yanan... və ölən... ölən...

Bilirəm, məni bağışlayacaqsan... Sənin yolunda yanan ürəyimi də bağışlayarsan... O, sənin adınla yandı... Sən sevirsən bəlalərini... Hə, sən bəlalərini sevirsən... İmkan verəcəksən, qoyacaqsan yansın... Yansın... Qoyacaqsan sakitlik tapsın... Hüzur tapsın...

Çarmıxa çəkilən! Çarmıxa çəkilən!

# MORİS FLERİ

Bir yay günü səhər tezdən Moris Fleri bu yerlərdən uzaqlarda, ölkənin lap sərhədində gedən müharibədən evlərinə qayıdırdı. Ömrünün yetkinlik çağlarını yaşayan bu insana təbiət həm zahiri, həm də batini gözəllik vermişdi, vücudundakı hər şey öz ahəngdarlığı ilə seçilir, onun mənəvi səbatı hisslərinin dərinliyiylə bir uyğunluq təşkil edirdi. Düşüncələri adi məfhumların sərhədindən çox nadir hallarda çıxsa, təhtəl-şüurun qaranlıqlarında yalnız hərdənbir dolaşsa belə, təxəyyülü qeyri-adi, cilovlanmaz gücə malik idi.

Bu bahar böyük döyüşlərin birində ağır yaralanmışdı. Qumbaranın qəlpələri sifətini dağıdıb tökmüşdü. Qəlpələr onun alt çənəsini parçalamış, üzünün dərisinə dəhşətli yaralar vurmuş, dodaqlarını, burnunu eybəcər hala salaraq sol gözünün nurunu həmişəlik söndürmüşdü. Moris Flerini döyüş meydanında güllə yağmuru altında tapanda onun başı, elə bil, ət maşınından çıxmışdı və yoldaşları fikirləşmişdilər ki, yəqin, ölüb. Lakin lazaretdə qanı saxlamaq mümkün olmuşdu və həkimlər onu xilas etməyin reallığına inanmışdılar. Uzun müddət qayğı ilə müalicə etmişdilər onu, yavaş-yavaş yaraları qaysaqlamış, çənə sümükləri birtəhər qaynayıb bitişmişdi. Gün gəldi ki, sarğını çıxarası oldular. O artıq ağrı hiss eləmirdi. Amma üzünü həmişəlik itirmişdi. Sifəti tanınmaz dərəcədə dəyişmişdi, səsi isə lap cırıltılı, boğuq olmuşdu. Yalnız alnı salamat qalmışdı və daxilini əks etdirən indi yeganə görən gözü idi. Ona icazə verdilər ki, bayıra çıxıb günün altında canını qızdırsın: günəş şüaları yaraların tez sağalmasına kömək edirdi. Üstündən bir az da

keçdi və onu evə buraxdılar. Tez-tez baş verən ürəkgetməyə görə onu ən azı yaxın gələcək üçün hərbi xidmətə yararsız saymışdılar.

Beləliklə də, bu səhər erkən yaxşı bələd olduğu yolla evlərinə sarı addımlayanda öz bədbəxtliyi haqqında deyil, qarşıda onu gözləyən böyük sevinc barədə fikirləşirdi: tezliklə ailəsini yenidən görəcəkdi – arvadını və sevimli balalarını. Onunla çiyin-çiyinə müharibə meydanlarında uzun müddət döyüşən yoldaşlarının hamısının başına ağır fəlakətlər gəlmişdi, elə bu səbəbdən də öz faciəsini artıq bir elə dəhşətli saymırdı. Əgər tamam kor olsaydı, yəqin, şikayətlənərdi, indi isə şikayətlənmək fikrində deyildi. Axı gözü görürdü, deməli, həyatın ehtiva etdiyi nə varsa hamısından zövq ala bilərdi, – insana bundan artıq nə lazımdır ki!

Onun doğulub boya-başa çatdığı diyar sabahın zəif işığına qərq olmuşdu və işıq təbiətin bu çağının bütün güc və əzəmətini ona göstərirdi. Dörd tərəfi nəhayətsiz, məhsuldar çöllər idi, dik qalxmış taxıldan torpağın üzü görünməz olmuşdu. İndicə onun zəmiləri başlanacaqdı. Par-par yanan yaşıl divarın arxasında ev görünürdü. Bu evin sakinləri onun belə qəfil, gözlənilməz gəlişinə yaman sevinəcəkdilər! Axı yaralanandan bəri onun barəsində heç bir məlumatları yox idi, hətta, bəlkə də, öldüyünü düşünürdülər.

Gözlərinin qabağında arvadının həyəcan içində ona sarı necə atılması, uşaqlarının dizləri üstünə dırmaşaraq xırda əlləriylə onu necə tumarlamaları, bu xoşbəxt ailəni nökərlərin necə dövrəyə alması, bağçanın alçaq çəpərindən o üzdəki zəmidə taxılın necə dalğalanması canlandı. Gördüyü qanqadanı, eşim-eşim torpaqdan axan qan çaylarını, gurultunu, ərşə qalxaraq gecənin zülmətinə dirənən, ürək parçalayan iniltiləri tamam unudaraq ailəsinin içində sakitcə yaşamasını təsəvvüründə canlandırdı. Bəli, həyatın ilahi gözəlliyi və cazibəsi içində – qızılı zəmilər və gülüşən uşaqların arasında beləcə oturacaq. Onun qəlbi sevinclə doldu.

Nəhayət, ağappaq, iri evi olan malikanəsinin girişinə yaxınlaşdı. O, doğma zəmilərin qoxusunu çoxdan almışdı. İndi bağın kölgəsinə qədəm basanda isə öz ağaclarının iyini, yuxularından yenicə ayılmış çiçəklərinin rayihəsini də tanıdı. O, bu qoxuları sinəsinə çəkərək, necə zəngin və xoşbəxt olduğu barədə fikirləşirdi. İtlər üstünə cumub onu qoxuladılar və dərhal da sevinc içində atılıb-düşməyə, əllərini yalamağa, sabah şehindən islanmış pəncələrini onun sinəsinə dirəməyə başladılar. Adamlar isə gözə dəymirdilər. Evdəkilər hələ bərk yatmışdı, bircə mal-qara həyətindəki işçilərin səsləri ucalırdı. Moris Fleri ayaq saxladı, doğma evinin gözəlliyinə bir də valeh oldu. Ona elə gəlirdi ki, heç vaxt bu divarlar belə bəyaz olmamış, pəncərələr isə sübh çağının şəfəqləri altında bu cür canlanmamışdı. Yalnız evin qara damı aydın səmaya məşum bir bulud təki soxulurdu. Moris Fleri evin ətrafına dövrə vurdu. Əzizlərini oyatmaq istəmirdi: elə yanlarında olmağı da bəs edirdi. Onları bir-birindən təkcə nazik bir divar ayırırdı, elə buna görə də doğma evlərinə dönüşü ona lap inanılmaz gəlirdi. Yataq otağının pəncərələri önündə ləngidi. Onların içəridə necə yatdığını yaxşı təsəvvür edirdi. Bax burada arvadı yatır, onun çarpayısı çöl divarın qabağındadır, amma divara tam söykənməyib. Bu tərəfdə, qonşu çarpayılarda isə başı divara sarı onun uşaqları – qız və oğlan – yatırlar. Yəqin ki, ataları otağa girib onların yanında duranda da, elə beləcə yatmış olacaq hamısı. Artıq kövrək uşaq bədənindən üstünə axan hərarəti də duyurdu.

O, indi, sanki, yenidən tapdığı evinin qabağında xoşbəxtliyindən əsə-əsə durmuşdu, sevimli arvadının, uşaqlarının nəfəslərinə qulaq verirdi ki, birdən son zamanlar, yaralanandan sonra ona əziyyət verən ürəkgetməsi tutdu onu. Evin bəyaz divarından yapışmağa çalışaraq səndirlədi, ətrafdakı hər şey bir anda ağ, şəffaf pərdəyə bələndi, əliylə havadan yapışmaq istəyirmiş kimi, bir hərəkət edərək huşunu itirib

yerə yıxıldı. Xoşbəxtlikdən, başı bir zamanlar evin ətrafında düzəltdiyi gül ləkinə düşdüyündən əzilmədi.

Amma bu ağarmış bənizi, kobud, amansız dəmirin salamat yer qoymadığı, insani cizgilərdən tamamilə məhrum olmuş bu simanı öz dümdüz, nazik saplaqları üstə dik duran, qürurlu, gözəllikdən alışıb-yanan başlarını günəşə sarı vüqarla dikəldən gözəl bağça gülləri arasında görmək çox qəribə idi.

Huşu qayıdanda gözlərini aramla açıb gördü ki, öz otağındakı divanda uzanıb. Arvadı, qızı və oğlu da yanında idi. Hər üçü həyəcanla ona tərəf əyilmişdi.

Həmin o həyəcanlı an artıq yetişmişdi.

Onlar hamısı elə qoyub getdiyi kimi idilər. Keçən yay, o, cəbhəyə gedəndə, uşaqlarının əynində hansı paltarlar vardısa elə onda idilər. Arvadının kədərli gözəlliyi də elə həmənki idi.

Lakin dikəlib oturanda heç qucağına atılaraq boynunu qucaqlayan, onu öpüşlərə və nəvazişə qərq edən olmadı.

Onu tanımadılar.

Uşaqlar ona təəccüblə, çəkinə-çəkinə, səksəkə içində baxırdılar. Arvadı çiyinlərindən yapışıb ona kömək eləyə-eləyə soruşdu ki, o, kimdir və nə iş gəlib başına.

Onların üzünə dəhşət içində baxırdı. Həmin anlar hansı hissləri yaşamadı; ağrı və naümidlik, qorxu və özünə, öz qismətinə nifrət ürəyini sardı! Bu hisslərin toplusu onun üstünə tökülüb çoxcəhətli gücüylə içini əzdi. Ətrafına çaşqınlıq içində göz gəzdirdi. Qarşısındakılar onun doğmaca arvadı, uşaqları idilər. Polad qəlpələrdən yaralanmış dodaqları içindəki dəhşətli ağrıdan səyridi. Sanki, onun əzablara qatlaşmış ruhu həmin an yanında durmuş sevimli məxluqlara can atır, insafsız dəmirin vurduğu kobud çapıqların altında tükənərək çırpınır, yaşla dolduğundan yaxşı görməyən gözü isə gah onun, gah da bunun üzünə baxaraq acı-acı soruşurdu: yəni öz atanızı tanımadınız? Məgər qarşınızda məğlub uzanmış, tanımamaqla alçaltdığınız insan öz atanız deyil? Onların gözlərinə baxırdı – arvadının, sevimli uşaqlarının gözlərinə

– amma axtardığını onların heç birində tapmadı, gözlərin heç birindən eşitmək istədiyi yeganə kəlməni oxuya bilmədi. Balacaların gözündə ancaq dəhşət və nifrət vardı, ürəyi əzabdan partlamaq dərəcəsinə çatmışdı, arvadının gözlərindən isə ancaq bədbəxt və yad bir insanın dərdlərinə şərik olması oxunurdu, gördüklərindən, elə bil, sinəsində soyuq boşluq yarandı.

O, yenə də divana sərildi. Lakin düşüncələri və hissiyyatı qəddarlaşdı, baxışı tikanlı idi və daha heç kimin gözlərini gəzmirdi. O, öz içində tüğyan edir və öz yaxınlarına kin bəsləyirdi; onu tanımamışdılar deyə. Əşi, onu bir zamanlar sevdiklərinə də indi şübhəylə yanaşırdı. Axı sevdiyin adamı minlərlə başqasının arasında tanıyarsan, hətta ən ağır yaralar belə onun sifətindəki doğma cizgiləri gizlədə bilməz. Qoy lap bədəni başdan-ayağa çapıqlar içində olsun – onun qüdrətli, gözəl ruhu yaşayır axı və məgər dəmir qəlpələr canlı insan ruhu qarşısında aciz deyil? Axı hər şey elə qabaqlar olduğu kimidir – onların qarşısında elə əvvəlki adam uzanıb! Həmişə necə idisə, elədir, onları indi də ürəkdən sevir, amma ağrıdan təkcə qəlbidir paralanan. Onu tanıya bilmirdilər. Deməli, az istəyirmişlər, deməli, heç düz-əməlli tanımırmışlar onu və insanın əsl mahiyyətinin gizləndiyi hiss və mənəviyyat aləminin mübhəm guşələrinə nəzər salmayıblarmış – ona görə kim olduğunu anlamırdılar.

O, evlərinə onların yanında bircə dəfə də olsun geyinmədiyi hərbi mundirdə gəldiyini də fikirləşmirdi, onun başına gələn bəlalardan ailəsinin tam xəbərsiz olduğunu da büsbütün unutmuşdu. Bircə şey bilirdi: məğlub, bədbəxt halda özününkülərin arasında uzanıb, onlar isə atalarını tanımırlar. Yadına düşdü – gözü o dəqiqə yenidən yaşardı, – xatırladı ki, itlər onu görən kimi tanımışdılar, ətrafında necə atılıb-düşür, ağır pəncələrini sinəsinə necə dirəyirdilər.

Uşaqları elə də möhkəm qınamırdı, düzdür, onları itələyib özündən uzaqlaşdırmaq istəyirdi, amma əli gəlmədi.

Balacaların gözlərindəki dəhşəti görəndə o yalnız yerində narahat-narahat qurcalanırdı. Əvəzində, bütün acısını arvadına qarşı yönəltmişdi. Necə sevirdi onu! Məhəbbətini necə qızırqanmadan bağışlayırdı ona! O isə tanımadı, deməli, heç vaxt əsl yaxınlıq olmayıb aralarında! Çəkdiyi əzablar onun üzünü eybəcər hala salmışdı. Arvadı da tanımadı onu. Əgər belədirsə, onda heç mən də onu tanımaq istəmirəm.

Qadın bir də soruşanda ki:

– Nə gəlib başınıza? Siz kimsiniz? – o, gözünü qaldırmadan cavab verdi:

– Mən müharibədən qayıtmış bir insanam. Sizin qapını döyüb, çörək istəyəcəkdim, amma bu gözəl evin qarşısında huşumu itirərək yıxıldım – yəqin, divarlarının ağlığı gözümü kor etdi, başım hələ də hərlənir.

Qadın dedi ki, indicə onun üçün yatacaq düzəldəcəklər, dincələ bilər. O isə cavabında söylədi ki, buna ehtiyac yoxdur, qoy bircə imkan versinlər ki, elə bu divanın üstündə azacıq uzansın, tezliklə özünə gələcək. Sonra onu tək qoyub getdilər.

Onlar çıxandan sonra hönkürtü çəkib ağladı. Lakin göz yaşları da ürəyini yumşalda bilmədi. Qismətinə düşənlərə ağlayırdı, onu öz evində yada çevirmiş bəxtinə. Lakin bircə an belə olsa, nəsibindən qaçmaq haqqında fikirləşmirdi: atalarını tanımadığına görə uşaqlarını bağışlasın, ərini tanımadığına görə arvadını? O düşünürdü ki, indi başına gələnlər, əslində, elə bütün ömrü boyu tənha olmasını sübut edir. Nə olar, deməli, bundan sonra da elə bu cür yaşayacaq. Əgər indi kim olduğunu söyləsə, nə baş verəcək? Arvadı da, uşaqları da üstünə atılıb boynunu qucaqlayacaq, öpüb-əzizləyəcəklər. Amma qəlbi yenə boş qalacaq, yetim qalacaq, heç yuz il keçsə də, ruhunun musiqisini onlar eşidə bilməyəcəklər.

Bu evi zahirən çox sakit bir tərzdə, amma qəddarlaşmış ürəklə tərk edərək, bayıra çıxdı. Bağçada isə artıq səhər yeməyini masanın üstünə düzmüşdülər, onu da yeməyə dəvət etdilər.

Günəş par-par yanır, otların, ağacların üstündəki şeh damlalarında parıldayırdı! Bütün təbiət sükut içindəydi, yetirdiklərini işıq selində çimizdirirdi. Üzü oğurlanmış adam günəşin altına çıxdı, arvadı da yanında idi. Onlar öz həyatlarında artıq neçənci dəfə yaşıllaşan qıvrımbaş ağacların kölgəsinə birgə qədəm basdılar. Arxadan da uşaqlar gəlirdilər.

Masa dalında müharibədən, döyüşlərdən danışırdılar. O, gecənin zülmətində sürətlə uçan güllələrin, qəlpələrin öz qurbanlarını necə dəqiq tapdığından, qaranlıqda gizlənməsinə, büzüşüb yumaq boyda olmasına baxmayaraq, adamları necə tapmasından, onlara necə ağır yaralar vurduğundan danışırdı. Bir də, ev sahibəsinin xahişi ilə, bu cür gecələrdən birində özünün necə yaralanmasını söylədi. Onlar hücuma keçirdilər. Partlayan mərmilərin işığı göy üzünü qızardırdı. Birdən onu, sanki, götürüb yerə çırpdılar, üzünü, elə bil, qaynar tər yandırdı. Ağrıdan bütün bədəni titrədi, qanına qəltan olmuş ağzından inilti çıxdı. Onun iniltisi zülmətdə göylərə ucalan başqa iniltilərin xorunda əridi. Qan içində, hamı tərəfindən atılaraq uzanmışdı. Sonra da huşunu itirdi və ətrafını saran zülmət pərdə kimi tam qapandı.

Qadın onun başına gəlmiş bu hadisənin hansı döyüşdə olması ilə maraqlandı və cavab alandan sonra isə dedi ki, onun əri, bu balacaların atası da müharibədədir, yəqin, qonağın danışdığı döyüşlərdə o da iştirak edib, amma çoxdandır bir xəbərətər yoxdur ondan: bəlkə, elə həmin gecə o da qanına qəltan olaraq döyüş meydanında düşüb qalıbmış və onun da iniltisi – dəhşət və ağrının hayqırtısı – başqa əsgərlərin iniltisinə qarışırmış?

Qonaq ona cavab verdi:

– Hə, o, bəlkə də, elə mənim yanımda uzanmışdı.

Bu sözlərdən onların yanında, günəşin altında oturmuş uşaqların bədəni üşüdü, analarının isə gözləri doldu. Qonaq soruşdu ki, ərinizin adı nə idi. Qadın cavab verdi:

– Moris Fleri. – Bu adı eşidən kimi, o, titrək baxışlarını qadına və uşaqlara zillədi. Qadın da ona qorxa-qorxa baxdı.

Sonra da həyəcan içində soruşdu: – Niyə bizə belə diqqətlə baxırsınız?

O cavab verdi:

– Çünki Moris Fleri sağ deyil, o, mənim qucağımda keçindi.

Uşaqlar göz yaşları içində analarının qucağına atılıb tanımadıqları, onlara dəhşətli şeylər söyləyən bu qorxulu adamdan, sanki, qorunmaq üçün ona sığındılar. Ana balalarını möhkəmcə sinəsinə sıxdı, üzü dəhşətdən tamam dəyişmişdi.

– Mənə indicə söylədikləriniz həqiqətdirmi? – deyə soruşdu.

O təkrar elədi:

– Moris Fleri sağ deyil, o, mənim əllərimin üstündə keçinib.

Onda qadın acı-acı ağladı, bəxtindən şikayətlənərək başını uşaqlarına sarı əydi.

Onların kədərini sakitcə seyr edirdi. Ona qəribə gəlirdi ki, yad bir adam üçün nədən belə yana-yana ağlayırlar, axı o, neçə illər bu evdə yalnız qonaq olmuşdu, indi isə birdənbirə adını xatırlamışdılar. Onlar hönkürüb ağlaşırdılar. O isə mərhumla cəbhə həyatının bütün ağrısını və sevincini necə tən böldüklərindən, döyüşdə həmişə çiyin-çiyinə vuruşduqlarından, bir yerdə əldən düşüb ümidsizliyə necə qapıldıqlarından, elə bir yerdə də yavaş-yavaş dirçələrək güclərini necə bərpa etmələrindən danışmağa başlamışdı. Danışırdı ki, cəbhə arxasındakı, yaralanaraq düşdüyü lazaretə az sonra Moris Flerini də gətirmişdilər. Zahirən onun həyatına bir təhlükə yox idi, süngü yarası almışdı, bu cür yaralar, adətən, tez sağalırdı. Yaxın dost olduqlarından onlara yanaşı çarpayıda yatmağa icazə vermişdilər. Lakin Moris Flerinin halı qəflətən pisləşdi, yarası irinlədi və güclü iltihab bütün bədəninə yayıldı. O, dözülməz əzablar çəkirdi və gecənin qaranlığında dostuna öz dözülməz ağrılarından pıçıltı ilə danışırdı. Ürəyinin kökləri – gözəl, al-qan kimi qızaran şah damarları – bir-birinin dalınca iltihabın zəhərini sümürərək, öz içinə

doldururdu. Bədənin ən kövrək, ən vacib camı zəhərlənirdi! Artıq onun hissiyyatı, fikirləri də, elə bil, zəhərlənmişdi. Yaralı əzablar içində qovrulur, gözləri hamıdan aman diləyirdi. Son günlər baxışları da yalvarırdı – güllələmək istədikləri qoca, xəstə köpəyin – hətta güllə onun sinəsini deşəndən sonra belə: "mənim sədaqətimi, sizləri necə sevdiyimi xatırlayın, öldürməyin məni" deyirmiştək, yalvaran gözlərinə nəzər salmaq çox çətin idi. Bu gözlərə sakit baxmaq, bu əzaba biganə qalmaq mümkün deyildi. Zəhər isə yavaş-yavaş qüvvətli bədənə üstün gəlirdi. Zəhər aman vermirdi. Lakin həyatının lap sonuna yaxın onun aydın təfəkkürü yenə özünə qayıtdı. O dedi ki, həyatın onun üçün elə bir dəyəri yoxdur, onun bu dünyaya heç bir tel bağlılığı yoxdur, evsiz-eşiksiz, tənha, tərk edilmiş birisidir.

– O, belə deyə bilməzdi! – qadın səsini ucaldaraq, ağlamaqdan şişən üzünü yad adama çevirdi.

Yad adam cavab verdi:

– Amma elə beləcə də dedi. Lap öləndə isə soruşdum ki, onun son dəqiqələri barədə məlumat verməli olduğum kimsə varmı, pıçıldadı: "Məni heç kəs tanımır".

Qadın soruşdu:

– Onun adı dəqiq Moris Fleri idi?

Yad adam cavab verdi:

– Bəli, dəqiq bilirəm.

Yenə soruşdu:

– Onun üzünü xatırlayırsınız?

Yad adam cavab verdi:

– Bəli, çox yaxşı yadımdadır. Sifəti kişiyana, sərt, dərisi qarabuğdayı, təmiz idi. İri bozumtul-göy gözləri vardı. Səsi də təmiz bəm.

Artıq qadın heç şübhə eləmirdi ki, ölən elə onun əri imiş. Amma onun son sözləri nə demək idi? Yad adam dilləndi:

– Bəlkə, qızdırmasından idi, sayıqlayırmış, yəqin.

Hər ikisi razılaşdı ki, yəqin, elə sayıqlama imiş.

Dərddən sarsılmış qadın bütün günü qüssə içindəydi. Hava isə həmin gün ılıq, xoşagələn idi, göyün təmiz üzü geniş açılmışdı. Qadın bağçada, rəngbərəng gül kollarının arasında var-gəl edirdi. Yad adam isə onun dalınca gəzməyə məcbur idi, çünki qadın yenə də öz ərindən suallar verirdi, ömrünün son dəqiqələriylə maraqlanırdı. Onun əzablarını, bu əzablara necə dözdüyünü öyrənmək istəyirdi. Yad adam məcbur oldu ki, müharibədə günlərinin necə keçməsindən, ərinin döyüşdəki cəsarətindən, döyüş bitəndən sonra qanla sulanmış torpaqda uzanıb dincələrkən söylədiklərindən, düşündüklərindən söhbət açsın.

Axşam düşdü və qadın xahiş etdi ki, yad adam bu gecə onlarda qalsın, çünki o getsə, dərd onu lap çarəsiz edəcək, yeganə təsəllisi əri barədə heç olmasa onun söhbətlərini dinləməkdir. O da qalacağına söz verdi.

Evə sarı yollandılar. Uzun kölgələri özlərindən irəlidə yerə sərilmişdi. Evin divarlarında isə başlarının kölgəsi iri, lap aydın göründü. Onlara baxaraq, fikirləşdi: "Kölgə – üzü oğurlanmış insandır. Mən də özüm özümün kölgəsiyəm". Sonra onlar evə girdilər.

Yad adam xutoru nə ertəsi gün, nə də ki o birisi gün tərk etmədi. Qadın hər dəfə onun qalmasını israrla xahiş edir, o da qalırdı. Nəhayət ki, günlərin birində, axşamtərəfi özündən, öz qəribə taleyindən danışmaq qərarına gəldi. O, üzünü məhv etmiş yaraları alandan sonra evlərinə dönmüşdü. Onu tanıyan olmamışdı: nə anası, nə atası, nə də ki cəbhəyə gedərkən onu öpüşlərə qərq edən kiçik qardaş-bacıları. İtlərdən başqa heç kəs – itlər onun əllərini yalayırdılar. Onda o, öz doğma evlərindən elə gəldiyi kimi – tanınmadan çıxıb gedir. Məgər ananın, atanın borcu deyil ki, öz övladını tanısın? Üzümü çıx, mən elə necə vardım, eləcə də qalmışam, budur, qarşınızdayam... Elə o vaxtdan bəri o, yad adamların arasında dolaşıb sədəqə hesabına yaşayır.

Bu tarixçədən mütəəssir olan qadın onlarda elə öz evi kimi, ürəyi istəyən qədər yaşamasını təklif elədi. Məgər evinin

qapılarını ərinin sonuncu dostu olmuş bir əzabkeşin qarşısında açmaq xoşbəxtlik deyil?!

Qonaq onun təklifini minnətdarlıqla qəbul etdi.

O dəmdən etibarən, qadın da, uşaqlar da günbəgün ona daha çox alışaraq bir az da möhkəm bağlanırdılar. Uşaqlar daha onun görkəmindən qorxmurdular, dizlərinin üstünə dırmanıb hekayətlərinə – boğuq, xırıltılı səsiylə nə danışırdısa, hamısına yorulmadan qulaq asırdılar. Onların kövrək bədənlərinin ağırlığını hər dəfə dizlərində duyanda bədənlərinin yaxınlığını hiss edəndə o, nəhayətsiz tənhalıq keçirir, qüssəsi ələnirdi. Bəzən, yanlarında kimsə olmayanda uşaqları yanına çağırıb sinəsinə sıxırdı. Onlar da təəccüblə baxaraq bir xeyli müddət susub otururdular. Ana onun uşaqlara məhəbbətini görür, qəlbində bir hərarət baş qaldırırdı. Tez-tez ikilikdə oturub uşaqlardan uzun-uzadı danışırdılar. Bu söhbətlərdə, eləcə də müxtəlif şəraitlərdə onun zəkasının üstünlükləri, qəlbinin genişliyi tam açılırdı. Qadın getdikcə ona daha çox bağlanır, inamı artırdı.

O isə fürsətdən istifadə etmək niyyətindəydi. Qadının düşüncələrinə getdikcə tam hakim kəsilirdi. Hərdən ikiüzlülük də etməli olurdu və bununla əylənirdi. Artıq qadın ovqatının müxtəlif cəhətlərini müşahidə edib, onları dəyərincə qiymətləndirə bilirdi. Ona qarşı biganə idi, lakin içini didən maraqdan qadının mahiyyətinə vardıqca varmaq, ürəyini ona açmasına nail olmaq istəyirdi. O hətta qabaqlar bilmədiklərini də öyrənmək ümidindəydi və tezliklə qadının sirlərini etibar etdiyi bir insana çevrilə bildi.

Təkcə bir mətləbdən cidd-cəhdlə uzaq qaçmağa çalışırdı – Moris Fleri haqqında söhbətlərdən. Elə ki qadın mərhum barədə söz saldı, o, söhbətin məcrasını dərhal ustalıqla dəyişirdi. Yavaş-yavaş qadının şüurundan öz keçmiş obrazını silməyə müvəffəq olur və bundan həqiqi zövq alırdı. Bəzən Moris Fleri barədə danışmaqdan can qurtarmaq mümkün olmayanda özündə cəsarət taparaq, eyhamla eşitdirirdi ki, mərhum

özünün sağlam bədəninə və güclü xarakterinə rəğmən bəzi qəribəliklərə də malik idi və onu kifayət qədər sevməyənlər bu qəribəliklərini çatışmazlıq da saya bilərdilər, qüsur da. Seçdiyi dostlarından isə Moris Fleri umurdu ki, qəlbinin ən dərinliklərindəki mübhəm guşələrə nüfuz etsinlər, o, özünün dərd yükünü, az qala, sərvət sayaraq, elə qoruyurdu ki, onlara hər şeydən artıq qiymət verməsi aşkar görünürdü. Qadın ərinin şəxsiyyətinə bir az kölgə salan bu eyhamlardan incimirdi, ona elə gəlirdi ki, kişi bunları qəsdən yox, fərqinə varmadığından, ötəri gətirir dilə. Odur ki münasibətləri günbəgün daha sıxlaşırdı və bu da onun uzaq niyyətinə tam cavab verirdi.

Tez-tez öz-özünə deyirdi ki, bəzən insan sifətsiz daha rahat olur, deyəsən. Həm sərbəstsən, həm də sakit. Ətraf dünya ilə birbaşa əlaqən kəsilib və daim ayıq-sayıq olmağa da lüzum yoxdur. Ayağını torpağın üstünə daha inamlı basırsan, hər şey barədə qərəzsiz düşünərək, fikir yürüdə bilirsən, kimsəni incitməkdən də qorxmursan. Adamın üzü olmayanda özü kimi qala bilir.

Sifətsiz insana dönəndən sonra bu bəlasını öz xeyrinə çevirə bilmişdi. O, qadını inamla öz arxasınca aparırdı, qadın isə yavaş-yavaş onun görmək istədiyi kimi olurdu. Və elə bir an yetişdi ki, heç qadının özü belə hiss etmədən, o, aralarındakı münasibətləri məhəbbət atəşinin yüngül kölgəsinə bənzər bir hissiyyata bürüyə bildi. Bu kölgə ona çox lazım idi. O, hələlik zorla sezilən həmin bu yüngül kölgəni günbəgün qalınlaşdırmaq, qəlizləşdirmək və tündləşdirməklə məşğul idi. Alatoran onun yaralarını gizlədirdi və qadın indi onun yaralarını heç görmürdü də. Öz əliylə yaratdığı bu qaranlıq başqa vəziyyətdə hamıya əyan olacaq digər şeyləri də gizlədə bilirdi. Yad adam səylərinin bəhrəsini məmnuniyyətlə seyr edərək, öz-özünə deyirdi: həqiqətən də, məhəbbət kordur, yaxşı ki, heç olmasa, mənim bir gözüm görür.

Hərdən fikirləşirdi: nə yaxşı ki, sifətinin cizgiləri müdrik təbiətin ruhun gücündən ilhamlanaraq yaratdığı, illər uzunu

səbirlə cilaladığı ilkin cizgilər deyil, vəzifəsinin öhdəsindən bir anda gələn kobud dəmir parçalarının bağışladığı şırım və çapıqlardan ibarət qəribə labirintdən yaranan cizgilərdir. Əgər sən qadına indiki donuq maskada sevimli cizgilər axtarmamağı öyrədə bilmisənsə, deməli, burada artıq daha rahat yerləşmək olar. Daha öz qəsdini, öz biganəliyini dəqiqəbaşı gizləməyə ehtiyac yoxdur, indi heç soyuq münasibət belə aramızın dəyməsinə səbəb olmaz.

O, həqiqətən də, yad adamla qadını arasındakı ötəri romanın şirinliyindən qəribə bir ləzzət alırdı. Vəziyyətin ikibaşlılığını tam dəyərləndirə bilmişdi: o, öz arvadı ilə yad kişinin incə məhəbbət səhnələrinin şahidinə çevrilmişdi. Hələ bu azmış kimi, bu məhəbbətin incə ecazkarlığından doyunca dadırdı da. Bu məhəbbətin özündə də, üzünü görmək nəsibi olmayan bir kişiyə vurulmuş qadının özü kimi, çox incə, özünəməxsus nəsnələr vardı. Qadın kişinin yalnız mübhəm gücünü və ruhunun gözəlliyini duyur, bütün vücudu ilə onlara can atırdı. Sevgilisinə qovuşmaq yolunda onun hissləri qeyri-adi mənəvi çalar, ilham kəsb etdi, qadın cazibədarlığı var qüvvəsiylə çiçəkləndi! Onlar əsl yaxınlığa nail olmadılar, amma macəranın ləzzətli, qıcıqlandırıcı gözəlliyi məgər elə bunda deyildi?

Adama elə gəlirdi ki, onları daim nazik bir pərdə ayırır, qadın öz sevgilisinin obrazını zorla sezirdi, səbəbi isə o idi ki, üzünü bircə dəfə də görməmişdi. Gizli bir hiss onları bir-birinə sarı itələyirdi, hətta şəxsi hissiyyatları da incələşmişdi – axı duyğularının incə çalarlara köklənməsi qeyri-ixtiyari olaraq, hissiyyata da sirayət edirdi. Bir sözlə, hər ikisi xüsusi, bənzərsiz bir zövq alırdı.

Bir axşam, ilk payız yağışı yağanda qonağın nə vaxtdan bəri səy göstərərək bicliklə nail olmaq istədiyi həmin o iş baş verdi. Onlar evin qərb fligelində tək idilər. Pəncərələrin nəm şüşəsindən otağa qaranlıq dolurdu. Bayırda tufan tüğyan edirdi. Belə axşamlarda evdə qalmaq yaxşıdır. Ona, az qala, zorla yiyələndi.

Lakin bu gecə əzdi onu, ürəyini qırdı, fikirlərini və hisslərini dolaşdırdı. İndi lap yanında olan bu qadına əzəli ehtirası cidd-cəhdlə bürüdüyü zirehi qırdı. Özü isə bundan əməllibaşlı laxladı, sarsıldı, yıxıldı. Çaşqınlıqdan özünü itirib, başını götürərək qaçdı.

O, zülmətdə xeyli dolaşdı. Bir istinad nöqtəsi axtarır, lakin tapa bilmirdi. Qorxu içində özündən sorurdu: mən kiməm? Cavabını isə tufan verirdi:

– Sifətsiz adam – heç kəs, amma kim desən, ola bilərsən.

Yağış onun başına, kürəyinə döyürdü, o isə xutordan aparan cığırlarla dolaşır, dolaşırdı.

Amma qayıtdı, o qadın üçün darıxdığından qayıtdı. Öz nisgilinin bütün dərinliyini, bütün gücünü dərk edirdi artıq. Nəhayət ki, yanaqlarından isti göz yaşları axırdı.

Həmin dəqiqədən etibarən, tam dəyişdi. Özünə qapanmışdı və artıq saralmış yarpaqların havada fırlanaraq düşdüyü bağ cığırlarında tənha dolaşırdı. Uşaqlarla da, qadınla da qaradinməz, soyuq olmuşdu. Amma hərdən başını dinməzcə onlara tərəf əyərək, qabaqlar göstərmədiyi bir incəliklə öpürdü. Uşaqlar da analarına danışırdılar ki, hərdən ikilikdə oturub oynayanda qəflətən onlara yaxınlaşır, dizlərinin üstünə əyləşdirib odlu nəvazişlər göstərməyə başlayır, özünün isə gözü yaşla dolur. Qadın bu söhbətlərə heyrətlə, ürək ağrısı ilə qulaq asırdı.

Gecə düşəndən və hamı yatandan sonra tez-tez evdən gedir və yollarda, cığırlarda tamamilə məqsədsiz dolaşırdı. Payız gecələri idi, özünün leysanları, tufanlarıyla. Hər yerdə, həmişə tənha dolaşaraq, baş verənlər haqqında yorucu düşüncələrinə qərq olur, hamıdan çox da özünü, qürurunu qınayırdı. Bu dəyişiklik daxili müqavimətsiz baş verməmişdi. Hərdən o inad göstərərək, günahı öz boynundan atır və elə əvvəlki kimi sərt, barışmaz olurdu. Amma hər dəfə də başını yenə aşağı dikərək bu ağır yükü çiyinlərinə çəkəsi olurdu. Nəhayət, bir gün bu yükü birdəfəlik boynuna götürdü,

həmin andan etibarən, daha, özündən savayı heç kimi günahlandırmadı. Beləliklə, həmin ana qədər özündə dözülməz saydığı nə vardısa hamısından imtina elədi. Budur, əzəmətli görkəmindən sərtlik yağan o, indi zülmətdə durmuşdu, ürəyi isə yalnız incə hisslərlə dolu idi.

Geriyə, evə sarı döndü. Cəbhədən qayıdarkən keçdiyi həmin yolla addımlayırdı. Qəlbi də elə ondakı kimi sevinirdi. Yer üzünü zülmət, yağış, tufan sarmışdı, lakin o hiss edirdi ki, hər addımı onu bəyaz evə necə yaxınlaşdırır.

Nəhayət, bağçadakı ağacların altına yetişdi. Onlar başının üstündə səs salırdı, o isə aramla evə tərəf addımlayırdı. Divarlar yumşaq ağ işıq saçırdı və adama elə gəlirdi ki, torpaqdan yüngül duman qalxır. Evə sakitcə, az qala, nəfəsini içinə çəkib yaxınlaşırdı, elə bil, qorxurdu ki, ilğıma bənzəyən bu görüntü gecənin zülmətində qəfil əriyər.

Arvadı ilə uşaqlarının yatdığı otağın pəncərəsinin önündə ayaq saxladı, lap keçən dəfəki kimi. Tufan idi, yağış onun çiyinlərini döyəcləyirdi, lakin bu zülmətin içində, sanki, doğma vücudların hərarətini duyurdu. O, uşaqlarına pıçıltı ilə dedi:

– Sabah səhər atanız müharibədən evə dönəcək. Onun yaraları dərin və dəhşətlidir. Lakin bəxtiyar o kəsdir ki, öz sifətindən imtina etməyi bacardı.

# QARDAŞ QARDAŞI AXTARIR

Bir şəhərdə iki qardaş yaşayırdı: böyüyü Mikael və ondan bir neçə yaş kiçik Stefan. Çox ciddi və sərt adam olan atalarından miras qalmış bir dəmirçixanaları vardı. Dəmirçixana şəhərciyin kənarında, kəndə aparan yolun düz üstündə yerləşirdi. Bir zamanlar ağardılmış divarlarını çoxdan his basmışdı, balaca pəncərələrində isə hörümçək toru vardı. Dəmirçixananın içərisi dar, qaranlıq idi. Tən ortada soba durmuşdu, ocaqda kömür qıpqırmızı közərir, dəmirçi körüyü hay-küylə dolub boşalırdı. Dəmirçixana köhnəydi, ətrafında rəngi hisdən qaralmış, tapdanmış torpağı da vardı. Qardaşlar yolun o biri üzündə, qədim bir evdə yaşayırdılar. Anaları da onlarla idi. O, oğulları üçün biş-düş eləyir, oralardan keçən, bazara soyulmuş heyvan cəmdəkləri aparan kəndlilərdən aldığı əti iri qazana töküb qaynadırdı. Onların yatağına ağappaq mələfə sərirdi, oğlanlar da gecələr rahatca yatıb dincəlirdilər.

Qardaşların alaqaranlıqda dəmirçixanada necə işlədiyini görən hər bir kəsə elə gəlirdi ki, burada iki müxtəlif geyimdə eyni adam çalışır, amma işığa çıxanda onların bir-birinə əsla bənzəmədiyi bəlli olurdu. Hər ikisi saqqal saxlayırdı, amma seyrək saqqalları da qardaşlar arasındakı gözgörəsi fərqi gizləyə bilmirdi. Böyüyünün sərt cizgiləri olan sifəti, quru ağzı, ciddi, sirayətedici baxışları vardı. Kiçiyinin üzündə isə xəyalpərvər bir zəriflik ifadəsi olurdu, ağzı da, üzünün cizgiləri də zərif və mülayim idi, tünd rəngli gözlərində mübhəm bir nisgil gizlənirdi.

Atalarının sağlığında qardaşların görkəm və xasiyyətlərindəki fərq o qədər də gözə çarpmırdı. O, bütün ailəni öz iradəsinə tabe etmişdi, hər sözü qanun idi. Ataları çox

qüvvətli, sağlam kişi idi. Amma zindanın yanında durduğu, pəncərələrdə ocağın qan rəngli işığı əks olunan axşamların birində qəflətən yerə sərildi, heç zindana vurduğu sonuncu çəkicin cingiltisi də dəmirçixanaya yayılmağa macal tapmadı. Qardaşlar ömrünü keçirdiyi, alçaq tavanlı qaranlıq dəmirçixanadan onu çıxardılar və enli yolun o biri üzündəki evlərinə apardılar. Əynindəki iş paltarını çıxarıb meyitini yudular, hispasını təmizlədilər. Sonra da atalarını ağ kəfənə bürüyüb torpağa tapşırdılar.

Qoca həyatdan köçəndən sonra qardaşlar arasındakı fərq özünü getdikcə daha artıq büruzə verməyə başladı: Mikael köhnə dəmirçixananı uçurub yerində yeni, geniş bir emalatxana tikmək istəyirdi. Axı indi dəmirçidən yalnız at nallamaq, araba təkərinin partlamış çənbərini qaynaq eləmək tələb olunmurdu. Yeni emalatxanada iş də bol olardı, fürsətdən vaxtında istifadə etmək lazım idi, şəhər ilbəil böyüyəcəkdi; bir-iki əlavə işçi götürmək lazım idi və ümumiyyətlə, işin qulpundan daha möhkəm yapışmaq istəyirdi. Lakin Stefanla anası onun bu fikrini təqdir eləmirdilər. Elə təkcə əsrlərdən bəri əcdadlarının hər gün tər tökdüyü, atalarının həyatını büsbütün dəyişən dəmirçixananın sökülməsi fikri onları hiddətləndirdi: onlara elə gəlirdi ki, dəmirçixana ilə bir yerdə babalarının xatirəsi də yaddaşlardan silinəcək. Ahıl qadının gözləri doldu, Stefan isə qardaşına belə dedi: “Əgər dəmirçixana onların babaları üçün yaxşı olubsa, indi onun çox dar və tavanının alçaq olmasından danışmaq günahdır”. Mikael etiraz elədi: “Əgər onlar evlənsələr, uşaqları olsa, dəmirçixana iki ailəni dolandırası olacaq”. “Eybi yox, yəqin, hamımız dolanarıq” – Stefanın cavabı belə olurdu. Mikael yenə israr edirdi: “Nuh əyyamından qalma bir şeyi nəsildən-nəslə, əl vurmadan ötürmək heç ağlabatan iş deyil, mütləq təzəsini tikmək lazımdır – daha böyüyünü, genişini, işıqlısını”.

Stefan da heyrət içində susurdu. Mikaelin sevməli, sitayiş etməli olduğu bir şey barədə bu cür danışması onun

xətrinə yaman dəymişdi. Bircə şeyi dəqiq başa düşmüşdü artıq – qardaşı ona tamam yad imiş, sən demə, onu heç tanımırmış. Sonra ondan uzaqlaşmağa başladı; günbəgün özünə daha artıq qapanırdı.

İndi o, səhərlər şehdən islanmış yolu keçib doğma dəmirçixanalarına daxil olanda köhnə tikilinin necə gözəl olduğunu, onun qalın divarları arasında necə sakitlik tapdığını əvvəlkindən daha artıq duyurdu, əvvəlkindən daha artıq qiymətləndirirdi burada olan hər şeyi: içərinin alatoranında qədim, köhnəlmiş zindan dəmirçi körüyünün boğuq səsi altında işıldayırdı. Hərdən axşamlar, hər tərəfə alaqaranlıq çökəndə dəmirçixananın yanındakı tapdanmış qara torpaqlı sahədə durub at nallayırdı: əvvəlcə heyvanın dırnağını kəsib hamarlayır, sonra onun güclü, əsən ayağını bərk-bərk tutub nala mismar çalır, atın nəm burnu isə onun çiyninin üstündən sallanırdı. İşini görə-görə fikirləşirdi ki, həyatını bax beləcə, sakitlik içində başa vurmaq istərdi.

Mikaeli isə dəmirçixananın darlığı, işlərin yeknəsəqliyi getdikcə daha artıq sıxırdı. Onun nəsə təzə iş qurmaq istəyi günbəgün daha da aydınlaşır və qətiləşirdi. Gərək mütləq yeni, müasir dəzgahlar alsın. Binanın özü isə daha geniş, işıqlı olmalıdır, dəmirçixananı metal üzərində istənilən işi görməyə imkan verən müasir bir emalatxana kimi qurmaq lazım idi. Onun təxəyyülündə artıq buranın gələcək görünüşü də canlanırdı – ağappaq, təzə və təmiz, geniş pəncərəli, damı tənəkə ilə örtülü, içində bol günəş işığı olan bir ev. O artıq özünü də başqa işçilərlə yanaşı, güclü bir tornaçı kimi, torna dəzgahlarının yanında görürdü. Lakin bu barədə söhbət salanda qardaşı da, anası da inciyib üz çevirirdilər ondan. O da əsəbiləşir, onları bəs deyincə qınayırdı. Daha onların evində nə həmrəylik vardı, nə sakitlik.

İki il keçdi, qarşılıqlı narazılıq isə artmaqda davam edirdi. Amma Mikael ailə qurdu, doğma evlərini tərk etdi və köhnə dəmirçixananın yaxınlığında öz gücü ilə yeni emalatxananın

inşasına girişdi. Al-qırmızı kərpicdən əla bir tikili ucaltdı, sonra onu ağappaq suvadılar. İçərisində parıldayan polad hissələri olan nəhəng qara maşınlar quraşdırdılar. İçəri girəndə, həqiqətən də, adamın çiçəyi çırtlayırdı – dəmirlə polad elə gözəl parıldayırdı ki.

Yeni emalatxanaya elə o dəqiqə sifarişlər gəlməyə başladı və tezliklə Mikael tikinti üçün götürdüyü borcu qaytarmağa başladı. Bir müddət sonra onu artıq varlı adam saymaq olardı.

Köhnə dəmirçixananın yolunu isə camaat, demək olar ki, artıq unutmuşdu və evlənib oğul-uşaq yiyəsi olmuş Stefan indi günlərini kasıbçılıq, imkansızlıq içində keçirirdi. Beləliklə, onun qəlbində çörəyinə bais olmuş, ailəsini ac qoymuş qardaşına qarşı kin-küdurət baş qaldırdı, bütün olanlara görə qardaşını sərt ittiham elədi, hərçənd ki, təbiətən elə əvvəlki kimi üzüyola və mehriban olaraq qalırdı.

Lakin var-dövlətinə baxmayaraq, Mikaelin də yaxasından dərd, acı əl çəkmirdi. Qoca anası bircə dəfə də olsa, onun evinin kandarından içəri ayaq basmamış, nəvələrini dizləri üstündə oturdub kobud əlləriylə başlarına sığal çəkməmişdi. Bütün bunlar barədə fikirləşəndə Mikaelə elə gəlirdi ki, həyat öz mənasını itirib, nəsli artıq öz kökündən məhrum olub. Bax əzab yükünü qardaşlardan biri digərinin boynuna belə yıxmışdı. Qardaşlar bir-birindən qaçır və kəlmə də kəsmirdilər.

Müharibə başlananda xasiyyətcə fərqli olan bu qardaşların qırxa yaxın yaşı vardı. Günlərin birində onların hər ikisinin nəsibinə ağır ordu həyatı yaşamaq düşdü; onları cəbhəyə apardılar.

Bu elə bir əyyam idi ki, insanlar arasında bağlılıq çox asan yaranırdı. Nisgilli adamların yaralı qəlbləri yaxınlıq axtarırdı.

Əsgərləri aparan qatar şəhəri səhər tezdən tərk etdi ki, onları bütün ölkədən keçirib mənzilbaşına çatdırsın. Ölkə isə böyükdü, məhsuldar torpaqları vardı. Parovozun qısa bacasından çıxan his buludu zəmilərin, çəmənliklərin üstünə

çökürdü. Əsgərlər ağzına kimi dolu qaranlıq vaqonlarda oturmuşdular. Altlarında polad təkərlər taqqıldayır, qalın relslər parlayırdı. Dizlərinin arasında isə dəmir və ağacdan tüfənglərini sıxıb saxlamışdılar, patrondaşlı kəmərləri onların belini qucur, yanlarından isə nazik süngü tiyəsi asılmışdı. Onların sifətləri vaqonun alaqaranlığında əriyirdi. Baxanda adama elə gəlirdi ki, eyni insanın çoxsaylı təkrarını görür.

Əsgərlər isə müxtəlif idilər – aralarında güclüləri də vardı, zəifləri də. Qardaşlar yanaşı oturmuşdular. Onlar, sanki, ocaqda yanan kömürün atəşindən qızışıb mənzilbaşına tələsən parovozun gurultusuna, səs-küyünə qulaq asa-asa gözlərini yumaraq sinəsiylə qatarlar şütüyən doğma ölkələrinin nə qədər əzəmətli olduğunu düşünərək, vəcdə gəlirdilər; onların mənsub olduğu xalqı başqa xalqlardan ayıran sərhədlər haradansa çox-çox uzaqlardan keçirdi. Qardaşların hər ikisi hiss edirdi ki, onları bu uzaq mənzilə qurbanlıq kimi, ölümün ağuşuna atmaq üçün aparırdılar. Amma yenə bir-birinin böyründə susub oturmuşdular. Onlar hətta yanaşı düşdüklərinin də fərqində deyildilər.

İki gün sonra qatar onları cəbhəyə çatdırdı. Vaqonlardan enən əsgərlər uzaqdan gələn top səslərini eşidirdilər. Ertəsi gün səhər isə qulaqbatırıcı gurultu onları hər tərəfdən öz ağuşuna aldı.

Bu başqa, adət etmədikləri bir aləm idi. Başlarının üstündə mərmilər partlayır, dörd bir yana iri, parlaq ulduzlar səpilirdi. Qəlpələr sürətlə üzüaşağı uçur, qurbanlarını taparaq onları parça-parça edirdi. Əsgərlər bir-birinin ardınca qanlarına qəltan olub yerə sərələnirdilər.

Qardaşlar nadir hallarda rastlaşır, görüşəndə də sıxılaraq, başlarını tərpətməklə salamlaşırdılar.

Müharibənin iyirminci günü yetişdi. Düşmən istehkamları üzərinə hücum həmin günə nəzərdə tutulmuşdu. Əsgərlər dəstə-dəstə boş çöllükdə hücuma atılır, lakin qabağındakı hər şeyi süpürüb aparan düşmən metalının qarşısında məhv

olurdular. Yeni-yeni dəstələr hələ qanı soyumamış yaralı bədənlərin üstündən keçərək can verən insanların iniltiləri altında ölümün pişvazına tələsirdilər. Əvvəllər taxıl qoxuyan geniş zəmilər indi alov rəngli qızılgülü andıran insan cəsədləriylə dolu idi, adama elə gəlirdi ki, ağrıdan torpaq da əsir.

Nəhayət, bir-birinin ardınca iki güclü dəstə düşmən xəttini yara bildi. Birinci dəstə özünü qurban verməliydi ki, onu addımbaaddım izləyən ikincisi mənzilbaşına çataraq qələbə çala bilsin. Qələbə qazanacağı əvvəlcədən bəlli olan dəstənin arasında dayanmış Mikael qurban getmək üçün nəzərdə tutulan dəstənin içində qəflətən qardaşını da gördü.

Əsgərlər yaralıların qışqırtıları, güllə yağışı altında hücuma atıldılar. Döyüşün ən qızğın çağında belə, Mikael qardaşından gözünü çəkmirdi. Birdən onun səndələyərək necə yıxıldığını gördü.

Gözləri az qaldı hədəqəsindən çıxa. O, əllərini qabağa uzadaraq irəli atıldı; elə bil, onu havada tutmaq, kömək etmək istəyirdi. Birdən düz qabağında böyük bir mərmi partladı və hər tərəfi alov bürüdü. Gözlərində işıq söndü. İndi o, zülmət içində ləngər vura-vura gedirdi. Sonra yıxıldı.

Yarası ağır deyildi, sol çiynindəki tək yaradan əlinə qan axırdı. Lakin ətrafında nə vardısa hamısını zülmət udmuşdu. Dəhşət içində kiçik bir işartı, kiçik bir işıq parçası axtarırdı ki, sübh şəfəqi kimi ona can atsın, ona tərəf sürünsün. Lakin nə qədər gəzsə də, ətrafında keçilməz zülmətdən savayı, başqa bir şey tapmadı. O, köməksiz, yalqız bir körpə kimi hönkürdü. Hönkürtü onun bütün bədənini sarsıdırdı. Çıxılmazlıq və kədər vücudunu çulğamışdı.

Qorxunun ilk, hər şeyi içində udan dalğasının təsirindən bir az özünə gələndən sonra qanlı torpağın sinəsində sakitcə uzanmışdı, indi onun ruhuna bir zəiflik hakim kəsilmişdi. Bu yerdə də qardaşını xatırladı. Gözlərinin qabağında həmin o mənzərə canlandı: qardaşı səndələyərək yıxıldı; təəssüf! – bu, Mikaelin həyatda gördüyü sonuncu şey oldu. Birdən ona

elə gəldi ki, Stefan hardasa onun yaxınlığındadır, aldığı ağır yaradan qanı axa-axa böyründə uzanıb. Ətrafına qulaq verdi. Onu bürümüş zülmətin hər tərəfindən çığırtı, inilti sədaları gəlirdi: yaxından – uca və tükürpərdici, uzaqdan – yavaş və boğuq. Onların arasında qardaşının səsini seçməyə cəhd göstərdi. Lakin çığırtılar bir-birinə qarışıb bitmək bilməyən böyük bir iniltiyə dönürdü.

Diqqəti yenə öz dəhşətli vəziyyətinə qayıtdı: budur, o, qanla suvarılan döyüş meydanında uzanıb, gözlərinin nuru isə əbədilik sönüb! Bir də heç vaxt aşiqi olduğu günəşi görməyəcək. Zəhmətinin bəhrəsinə fərəh hissi ilə baxaraq işləyə bilməyəcək. Daha yaxşı həyat naminə ucaltdığı par-par yanan həmin o bəyaz evi bir də görməyəcək. Geniş pəncərələrindən nur seli axan emalatxanasına bir də qədəm basmayacaq, bütün həyatı boyu onun ömür yoldaşı ancaq qatı zülmət olacaq.

Evdə qoyub gəldiyi doğmaları barədə fikirləşirdi: arvadı və iki balaca balası haqqında. Bir də heç vaxt onları görməyəcəkdi, onları daim qaranlıqda əlləriylə axtarmağa məhkum idi. Və əgər dodaqlarını onların alnına bir də toxundurmaq, uşaqlardan hansınınsa yanağını sığallamaq nəsibi olsa belə, heç vaxt əvvəlki yaxınlığından aldığı zövqü ala bilməyəcək. Bu gündən etibarən və ömrünün son saatına kimi qoynunda dolaşacağı dəhşətli boşluq barədə fikirlərdən başı gicəldi.

Amma öz acı qismətindən duyduğu kədər tədricən öz yerini yaralı halda, yaxınlıqda yıxılmış qardaşı sarıdan nigarançılığa verdi. Onun ölü kimi bəyaz sifətini, yerdə uzanıb inildəməsini gözləri qabağında canlandırdı. Onları bir zamanlar bir-birinə bağlayan hər şeyi xatırladı – uşaqlıq, yeniyetməlik dövrünü, qoşa əkilmiş ağac kimi bir yerdə böyüyüb qol-budaq atmalarını yadına saldı. Oğullarını göz qırpmadan daim izləyən, boya-başa çatdıran, həyat küləyinin onların bədənini möhkəmlətməsinə şərait yaradan, eyni zamanda, viranedici tufandan qoruyan atasını, anasını xatırladı. Yadına saldı ki, qardaşıyla bir-birinin yanında necə yatardılar, səhər

duranda isə eyni işin qulpundan nə təhər yapışardılar. Köhnə dəmirçixananın alaqaranlığında çiyin-çiyinə çalışmaları düşdü yadına; bəli, onun atasının, babalarının dəmirçixanası indi bu sonsuz zülmətin ağuşunda gücsüz halda uzanıb hıçqırarkən artıq qaranlıq ona miskin gəlmirdi. Qardaşı ilə onu qəlblərindəki qarşılıqlı qəzəb, nifrət ayırmamışdan onları bir-birinə birləşdirən nə vardısa hamısını xatırladı. Fikirləşəndə ki, bir zamanlar onların ikisini də öz bətnində gəzdirən, əzab çəkərək onlara həyat bəxş edən, indi isə artıq saçları ağarmış, qocalmış anası günlərini elə əvvəlki kimi köhnə evlərində başa vurur, yanaqlarından odlu göz yaşları süzülməyə başladı.

Ətrafdakı yaralıların səslərinə diqqət kəsildi. Bu səslər arasında qardaşının səsi yox idi ki?! Öz-özünə dedi: mən onu mütləq tapmalıyam.

Sürünə-sürünə cansıxıcı zülmətə getdi. Əlləri, dizləri sıx otu nəmlətmiş qandan yapışqanlı olmuşdu. Döyüşün sədası, topların gurultusu, mərmilərin titrəyən partlayışı qulaqlarına yetirdi, lakin bütün bunlar indi ona çox uzaq bir şey kimi gəlirdi. Döyüş orada, günəş işığı altında qaynayırdı; o isə burada, keçilməz zülmətdə, can verənlərin, ölülərin arasında sürünməyə məhkum idi.

Qarşısına çıxan hər şeyi əlləriylə yoxlayıb irəliləyirdı. Budur, yerə uzanmış birisini tapdı. Amma bu çəlimsiz idi, özü də, görünür, lap uşaqdı. Mikael onu buraxıb sürünməyinə davam elədi.

Özündən soruşdu: bu zülmətdə qardaşımı necə tapım? Səsini eşitmirəm, heç ürəyim də xəbər vermir ki, onu harada axtarsam yaxşıdır. İndi də başqa birisini tapmışdı – o artıq ölümün ağuşunda idi. Başına tərəf süründü və əlini üzünə çəkdi: tanış deyildi. Və yenə də zülmətə tərəf süründü.

“Qardaşımı necə tapım axı?” – durmadan özünə sual verirdi və öz ürəyini qınayırdı ki, qanı axan qardaş ürəyinin indi harada olduğunu bilmir.

Bir az aralıda başqa bir əsgər uzanmışdı. Hələ sağ idi. Kiminsə əlini öz üstündə duyanda, kömək diləyərək inildədi. Lakin Mikael onun səsindən bildi ki, bu, onun qardaşı deyil. Təsəvvür elədi ki, bu yaralı insan əzab dolu, iltimas dolu gözləri ilə ona necə baxır. Mikael onu taleyin ümidinə buraxaraq, quru səslə "Mən qardaşımı axtarıram" deyəndə yaralının vücudunu necə qorxu bürüdüyünü hiss etdi.

Beləcə, bir yaralıdan o birisinin yanına sürünə-sürünə gedirdi.

Nəhayət, dizi üstə qalxaraq, seyrək saqqalı olan birisinə tərəf əyildi. Çağırdı, zülmətdə qardaşının adını çağırdı. Lakin yaralının dodaqlarından cavab olaraq bircə kəlmə də qopmadı. Onun sifətini əlləri ilə yoxlamağa başladı, hər qırışını diqqətlə və ehtiyatla sığalladı. O, qardaşının zahiri əlamətlərini yaddaşında canlandırmağa çalışdı və başa düşəndə ki, onun obrazı artıq şüurundan silinmək üzrədir, qardaşının sifətinə məhəbbətlə bircə dəfə belə nəzər salmadığı həmin o illəri xatırladı və göz yaşları yenə də yanaqlarından axmağa başladı. Özünün keçmiş qəddarlığından, Stefana nifrətindən acı peşmançılıq hissi keçirir, titrəyən barmaqları ilə qarşısındakı sifətə toxunaraq qardaşının indi ona bu dərəcədə əziz olan cizgilərini tanımağa can atırdı.

Məhz qardaşının önündə durduğu barədə ümidləri anbaan möhkəmlənirdi. Onun adını bir də ucadan çağırdı. Bir şey çıxmadı. Amma qardaşının bədəni hələ isti idi və Mikael onun ürəyinin, zəif də olsa, necə döyündüyünü duyurdu. Yəqin, yarası o qədər dəhşətli deyildi, yəqin, onu hələ ki xilas etmək olardı, bircə kömək vaxtında yetişəydi.

Mikael ehtiyatla onun bədənini yerdən araladı. Həmin anda hardasa zülmətin içindən gələn pıçıltının zorla anlaşılan sözlərini seçdi: "Bu, sənsən, Mikael?" Bu zəif səsi, qaranlıqda eşidilən məhəbbət dolu sözləri sarsılaraq dinlədi. Sonra hönkürüb, yaralının sinəsinə sindi: "Mənəm, sənin qardaşın! Nəhayət ki, tapdım səni!" Qardaşının əllərini öz saçlarında

duydu. Sonra da zəif xırıltı eşitdi və hiss etdi ki, onun əli cansız halda yanına necə düşdü.

O, qardaşını bir də dindirdi. Lakin zülmətdən cavab gəlmədi. Bir də çağırdı – yenə olmadı.

Onda qardaşının əzələli bədənini qolları arasına alıb ayağa durdu.

O özü də cüssəli, möhkəm bədəni güclü idi. Amma əzələlərinə azacıq zor edən kimi, sol çiynindən qan fışqıraraq sinəsini, əllərini islatdı. Lakin qardaşını mütləq təhlükəsiz, ona kömək göstərə biləcəkləri bir yerə aparmalıydı. Öz hissələrinə yetişmək üçün günəşə sarı getməli olduğunu bildiyindən yavaş-yavaş çönməyə başladı, ətrafındakı zülmətin içində günəşin, cüzi də olsa, işığını duymağa çalışırdı. Nəhayət, gözləri önündə nəsə parladı, sanki. Qardaşını əlindən buraxmayıb işığa tərəf getdi.

Meyitlər ayaqlarına dolaşır, yıxılırdı. Lakin yenə də qalxırdı. Zülmətdən can verənlərin tükürpərdici qışqırıqları qulağına çatırdı. O, qorxu və əzab okeanından keçərək, günəşin parladığı yerə can atırdı.

O irəliləyir, durmadan addımlayaraq qabağa, bir az da qabağa gedir, bütün yol boyu qardaşına ən incə, ən mehriban sözlər deyir, amma heç bir cavab ala bilmirdi.

Birdən dəhşətdən sarsılaraq ayaq saxladı. Hiss etdi ki, qardaşının bədəni soyuyur, sinəsi də getdikcə buza dönür. Qəlbinin döyüntüsünü eşidə bilmirdi. Bəlkə, artıq ürəyi dayanıb?

Yox, qardaşım ölməyib! O ölməməlidir! Mikael onu xilas edəcək, döyüş meydanından çıxaracaq. Ölməyib o! Onun qardaşı yaşamalıdır, evə, anasının, balaca balalarının yanına qayıtmalıdır! O, yenə köhnə dəmirçixanaya dönəcək, illər yavaş-yavaş onun qəddini əyəcək və günlərin birində atası kimi qəflətən cansız halda yerə yıxılacaq.

Bu fikirlərindən özündə yeni güc tapan Mikael qardaşının sakit bədəni qucağında yenə irəli atıldı. Qanı axa-axa,

qolları üstündəki ağırlıqdan əldən düşərək, yaralı heyvan kimi günəşin şüaları altında irəli cumurdu.

Burada da metalın mərhəmətli qəlpəsi, nəhayət ki, qardaşların bir-birinə möhkəm sarılı bədənlərini parça-parça elədi. Onların sinələrini dəldi və cəsədləri yerə düşərək bir-birini möhkəm qucaqlamış halda, uzanılı qalanda qanları bir-birinə qarışdı, ürəkləri də, sanki, bitişik idi.

Ölüm yuxusunda onların sifəti ciddi, amma bir təskinlik içində idi. Nə qədər oxşayırmışlar bir-birinə. Sanki, yer üzündə iki cür görünən bir adam yaşayırmış.

Inventas vitam
juvat excoluisse
per artes

# AZAD OLUNMUŞ ADAM

Əlimdə girdə daş var. Mavi damarlı qırmızı daş. Amma diqqətlə baxsan, başqa rəngləri də seçə bilərsən. Yaşıl, bənövşəyi, bir də qızıla bənzəyən, qum kimi parlaq dənəciklər. Əgər onu əlində ehmallıca çevirsən, bütün rəng və çalarları görünər. Ona tamaşa eləmək, nəzərlərimi onun qəşəng, hamar və bütün hamar şeylər kimi, hətta bir az yumşaq görünən səthində gəzdirmək məni heç vaxt bezdirmir. Quş yumurtası boyda daşda bu qədər zəngin mənzərələrin qərar tutması maraqlıdır. Bu, bütöv bir dünyadır. Sənin təmasa girdiyin nəhayətsizlikdir, elə bir nəhayətsizlik ki, ovcunda yerləşir.

Mən onu həbsxananın həyətində tapdım və özümlə içəri keçirməyə nail oldum.

Həyətdə yarım saatlıq gəzinti zamanı yerə əyilib nəsə götürmək bizə yasaqdır. Gözətçi məni gördü və soruşdu ki, yerə niyə əyilmişdin. Cavab verdim ki, elə-belə, o da sakitləşdi, bircə onu dedi ki, onsuz da, burada götürəsi bir şey yoxdur. Xoşbəxtlikdən, mənim üstümü axtarmadı.

Daş artıq mənimkidir! Şəxsən özümün! Bütöv bir dünya, bu nəhəng, hələ kəşf edilməmiş dünya mənimkidir. Hamısı mənimdir! Mənim gizli dünyam! İçimi özünün nəhayətsizliyi ilə dolduran, həqiqi, canlı, naməlum dünya.

Mən onu əlçatmaz yerdə, taxtın altında, lap küncdə gizlədəcəyəm. Orada heç kim tapa bilməz onu. Bir də bu boş şeyi kim axtaracaq ki?

Mənə elə gəlir ki, hər şeyin başlanğıcı sevincdir. Sevincdən başqa bu yer üzünü, bu günəş sistemini, ulduzlu yolları

nə yarada bilərdi ki?! Bəs niyə indi hər şey dəyişib? Niyə hər şey yaranışın ilk günündəki kimi deyil? Axı yer də, göy də həmənkidir, həyat isə daha zəngin, daha maraqlıdır, hətta əvvəllər olduğundan da zəngin.

Bəs Sevincimizi nə alıb əlimizdən?

Mavinin öz mənası var, qırmızının – öz. Bu daşda nə varsa, əminəm ki, məxsusi məna daşıyır. Bunu dərk edə bilmirəm, amma mənim üçün heç şübhə doğurmur ki, bütün bunlar dərin daxili məna, zəngin məzmun kəsb edir. Axı bu, bəlli həqiqətdir. Mənim üçün də tam aydındır ki, əzəli yaranış anı əzəmətli bir sevinc anı olub. Bəs indi? Hara yox olub, görəsən, bu sevinc? Axı hər şey elə qabaqkı kimidir, yerində durub, təkcə əyilib götürmək lazımdır. Sərvət hər yana səpələnib.

Həbsxana həyatinin hər yanına.

Göy də səninkidir, yer də səninki. Yer üzü gül-çiçək içindədir, bütün ulduzlar da par-par yanır. Lakin onların nuru kosmosun boşluğuna yönəlib, onlar sənin üçün parlamır. Çiçəklərin rayihəsi də, sanki, yalnız küləyindir.

Bəs güllərin qoxusunu sinəsinə çəkməli olan, Andromeda bürcünün salamını qəbul edəcək məxluq, görəsən, haradadır? Günəşin şüası ilk öncə kimə sarı uzanacaqdı? Çəmənliklərdə dolaşan, dünyada işıqlı, nurlu nə varsa hamısının sevdiyi şəfəqin?

Sən haradasan, ey insan?

Həyatın sərvəti, sanki, atılıb, unudulub. Elə bil, çiyinlərimizə həyatın yalnız darıxdırıcılığını şələləmişik, bu yük bizi tamam işğal edib. İçində nifrət yaşadan adam nifrətini, xəstə xəstəliyini daşıyan kimi, biz də onu daşıyırıq. Məhrumiyyətlərə düçar olan bizlər yoxsulluğun quru çörəyini gəvələyirik, yanımızda bizim kimi gəvələyənləri lənətləyə-lənətləyə.

Zənginliyin açıq süfrəsi isə əl vurulmamış, qonaqsız qalır.

Həmişə öz taleyim barədə əzablı düşüncələrə dalıram. Həm özümün, həm də qalanlarının taleyi barədə. Niyə məhbusuq burada? Həbsxana işçiləri də məhbusdurlar, onların da həyatı elə bizimki kimi keçir. Nə edəsən: biz əsiriksə, onlar da əsir olur, demək. Hara baxsan, ancaq əsir görərsən. Kameralardır, bir də əsirlər. Azad kimsə yoxdur!

Həbsxana işçilərinə, yəqin, bizdən çox-çox çətindir. Görünür, onların həyatı tamam boşdur. Elə təkcə üzlərinə baxmaq kifayətdir – həmişə eyni sərt, ifadəsiz, donuq sifətlər görərsən. Məhbusların üzündə isə əzab, çıxılmazlıq, qəzəb olur, bir-birindən fərqlidirlər, öz ifadələri var bu canlı sifətlərin. Məhbusları qorxu didib-dağıdır, onlar daim nəyinsə əzabını çəkirlər, onların həyatı, bütün kasadlığa baxmayaraq, heç vaxt boş olmur.

Yalnız məhbus həbsxana həyətində nəsə tapa bilər.

Mənim daşım dənizin balasıdır. Bir toxun ona. Elə buna görə ideal dərəcədə hamardır. Dəniz onu nə zamanlardan bəri cilalayır, bəlkə də, minilliklərdir. Dəniz onu gah şahə qalxan, gah da enən dalğalarda yuyurdu, nəhayətsiz, rahatlıq bilməyən təbiət. Hamarlığından yumşaq kimi görünənədək yuyurdu. Düz canlanana kimi. Qadın kimi yumşaqdır mənim daşım. Çünki onu dəniz yaradıb. Onun dibində uzanaraq, minilliklərin aram səsini, dərinliklərin nəfəsini, daşlar arasındakı qum dənəciklərinin xışıltısını dinləyib.

Dəniz...

Yəqin, həyatı yaman sevirdim! Onu xatırlayıram, əbədilik ayrılmağa məcbur olduğum istəkli qadın kimi xatırlayıram həyatı. Onun saçlarının günəş haləsini görürsən, hərçənd ki, günəş işığının özü görünmür sənə, bir də heç cür xatırlaya bilmədiyin mənzərənin fonunda onun silueti canlanır gözlərin önündə. Bax bu cığırı tanıya bilmirəm, baxmayaraq ki, elə bil, tanışdır mənə. Ağacları da tanımıram, bax məhz

bu ağaclar mənə tanış deyil. Hərçənd ki, haradasa onların bənzərini görmüşəm. Çox şey unudulub, bəlkə də, sadəcə şəklini dəyişib tamam. Hər şey dəyişib, ondan savayı. O elə həminki kimidir. Yerişi nizamlı, sakitdir, başı isə azacıq yana əyilib, sanki, budaqlardan yayınır, ya da nəyəsə qulaq asır. Hə, bu, onun özüdür, mənim keçmiş məhəbbətim. Üzünü görə bilmirəm. Axı məndən uzaqlaşır. Yalnız siluetini seçirəm və o, mənə sarı heç dönmür.

Bəlkə, həyatın üzü mənim üçün daha yoxdur?

Dəniz...

O elə qabaqkı kimi qalxıb-enir, bu gün də elə dünənki kimi, əsrlərdən bəri olduğu kimi. Dalğalar şappıldayıb səslənir, gəlir. Mənə elə gəlir ki, onu eşidirəm, ovcumda daş, burada oturanda belə, eşidirəm, sakit nəfəsini duyuram.

Dəniz elə əvvəlkidir. Onu unutmaq olmur. O, unudulmaq üçün həddindən ziyadə sadə və böyükdür. Bütöv və dəyişilməzdir, sabit və əbədidir. Hər bir hərəkəti həm həmişəkidir, həm də bənzərsiz. Budur, dalğa sahilə yüyürür, indi isə, sanki, maneəylə rastlaşıb, cəld çəkilir, naməlum məqsədə sarı qaçır, indi isə gen sinəsi aramla ləpələnir, nəfəs çəkirmiş kimi qalxıb-enir. Hər şey həmişəki tək və daim cavandır.

Bəli, sevgilim məhəbbətə layiq idi.

Divarlar həyatdan ayıra bilməz məni, həyat düz içimdə səslənir. Onlar yalnız həyatın üzünü gizlədə bilər. Onun dərinliyi isə həmişə içimizdədir, sadəcə olaraq, indi heç bir şeyi özündə əks etdirmir bu dərinlik. Divarlar məhəbbətin qarşısını kəsə bilməz, onlar ancaq bizi sevgilimizdən ayıra bilər. Hicran anlarındakı kimi, nə vaxt sevirsən ki!

Başlıca həyat arteriyalarımız vahid nəhayətsizliyə çataraq, bizi onunla birləşdirir. Haradasa hər şey bir məcraya axır, bir məcrada birləşir, əzəmətli dənizlə, əbədiyyətin nəfəsiylə qovuşaraq eyni alır nəfəsini hər şey. Haradasa hər şey bir

nəhayətsiz dərinlikdən ibarətdir, dəyişməz, əlçatmaz, gizli, zahiri qılafsız dərinlikdən. Güzgüdəki əksi Həqiqətin özüylə müqayisədə nədir ki? Həyatın görünən üzü Həyatın özüylə müqayisədə nədir ki?

Bəlkə, indi, bütün görünənləri əlimdən alandan sonra, əvvəllər mənim üçün əlçatmaz olan nəsnələrə də yaxınlaşa bilərəm, şeylərin mahiyyətini daha yaxşı anlayaram – axı insan gözlərini əlləriylə qapayanda, daha yaxşı düşünə bilir. Bəlkə, mübhəm bir bulaq məni saf suyuyla dolduracaq və mən gözlərimizdən gizli qalan həqiqət və mahiyyət dünyasını tanıyacağam.

Deyirlər ki, korlar öz qədərlərindən ötə bilirlər. Bəs mən niyə özümünkündən ötə bilməyim ki?!

Dərinliyə nəzər salmaq zülmətə baxmaq deyil ki? Bilmirəm. Bəlkə, əksinədir? Bəlkə, mənbələr işıqlıdır, bəlkə, dərinlik işıqlıdır? Hər şeyin kökündə, əsasında da, bəlkə, bir sevinc durur! Mümkündür ki, bu yolla yaranışın ilk günündəki geniş, işıqlı dünyaya nəzər salacağam.

Yox, yoxsul olmağa razı deyiləm! Mən inanmaq istəyirəm ki, həyat gözəl və həmişəcavandır. İnanmaq istəyirəm ki, onun dərinliyində işıq var və mənim bulaqlarım istənilən divarı dəlib çağlayar. İnanmaq istəyirəm ki, xeyir zəngin, güclüdür və şər onun qarşısında davam gətirə bilməyəcək. Əllərimlə gözümü tutaraq yalnız ora, dərinliyə, bizdən gizli qalan həqiqi mahiyyətin əbədicavan dünyasına baxacağam.

Qədərindən ötmək! Baxmağa mane olmaq istəyən divarların altından keçmək! Onlar elə düşünür ki, bizi zindana gömüb işığı əlimizdən ala bilərlər. İnsanı işıqdan məhrum etmək elə də asan deyil! Onu dünyadan təcrid et – sən yalnız onun dünyadakı əksini əlindən alacaqsan. Onun həyatını əlindən al – yalnız onun şəxsi həyatını əlindən alarsan, ona dəxli

olan əzəmətli, nəhəng, güclü həyatı yox, bu həyatdan onu kimsə ayıra bilməz. Kimlərinsə ucaltdığı divarlardan, bulaqlarının indi qatı zülmətdə çağlayaraq heç bir şey əks etdirməməsindən həmin o həyatın qətiyyən xəbəri də yoxdur. Həyat bulaqları məhbəs torpağından da çağlayır, məhbuslar isə susuzluqdan əzab çəkirlər. Həyat öz bulağının gözünü kora da açır, korluğunu bilmədiyindən, onun üçün narahat da olmur. O sakitdir, həyəcanın nə olduğundan xəbərsizdir, əlçatmazdır, ona heç nə toxuna, ziyan gətirə bilməz. O işıqlı, güclüdür, həmişə olduğu və həmişə olacağı kimi.

İnsanlar əzab çəkirlər. Lakin həyat əzab nə olduğunu bilmir.

Məhbəs torpağında gilənar bitirdi. Mişarladılar. Amma o yenə çiçəkləyir. Bir yığın odun parçası kimi yerdə qalaqlanıb, çiçəkləyir. Budaqları budanıb, lakin yaşayır, bəziləri üstündəki çiçəklərdən lap bəmbəyazdır.

Həyat bilmir ki, gilənarı kəsiblər. Ona çiçəklərdən don geydirib, adəti üzrə, həmişə olduğu kimi.

Yox, məhbuslar susuzluqdan məhv olmayacaqlar! Onlar bütün bəlaları adlayacaq, ölümün özündən keçəcəklər. Onlar həyata məxsusdurlar və onları qopara bilməzsən həyatdan. O, möhkəm tutub, buraxmaz. Zorla nəyəsə nail olmaq mümkünsüzdür, əzmək, məhv etmək faydasızdır. Onlarda çıxılmazlıq hissinə tabe olmayan, onun nə olduğunu bilməyən nəsə var.

Kəsilmiş ağac parçası çiçəklənir.

Bizi kəsilmiş ağaca çeviriblər. Lakin qələbə bizə zor tətbiq edənlərin, insanı şikəst hala salanların tərəfində deyil. İnsanın içindəki ölməz başlanğıc nəhayətdə dağıdıcı qüvvələrə qələbə çalacaq. İnsana zor tətbiq ediləndə, ilkin mahiyyəti onun şikəst olmuş zahirində daha aydın görünür. Onun sirri aşkara

çıxır, çünki batininin dərində yerləşən mahiyyətini örtən nə varsa, dağılıb yox olur. Obrazın valehedici sadəlik və əzəməti bitib-tükənməyən əzablar, itkilər hesabına formalaşır. Viranedici qüvvələr, özləri də bilmədən yaranışın ölməz mahiyyətinin azadlığa çıxmasına səbəb olur.

Axı niyə yer üzündə əzab mövcud olmalıdır? Yəni son qələbə naminə zəruridir onun olması və bu qələbəni əzab çəkmədən qazanmaq mümkünsüzdür? Yəni bizim üçün qələbənin simvolu mütləq kəsilmiş ağac olmalıdır? Bizim nəsibimiz budur? Yəni mahiyyətimizi açmaq üçün yeganə üsul elə əzab-əziyyətin özüdür? Yalnız əzablardan keçib, sözün ali mənasında, özümüzü tapırıq? Belə bir imkan varmı, ümumiyyətlə? Onda belə çıxır ki, dağıdıcı güc mahiyyətcə elə qurucudur? Öz-özlüyündə bəhrəsiz, həyat doğurmayan, neqativ və eyni zamanda da qurucu? Bütün bunlara rəğmən qurucu? Elə bu səbəbdən də nəsnələrin bu dözülməz zəncirindən həmişə elə yalnız kəsilmiş ağac doğur?

Yox, məni buna inanmağa heç bir şey məcbur edə bilməz!

Əzab, təbii ki, heç nə yaratmır və heç bir qələbə də çalmır, o ki qaldı zor ola. Bizim formalaşmağımızda onun heç bir rolu yoxdur! Neqativ bir şey, sözün həqiqi mənasında, yaradıcı ola bilməz. Yaradıcı yalnız bolluq və işıqdır! Yalnız onların yaratmağa hökmü çatır – özünütəsdiq, əməliləşmə, formalaşma yalnız onlardadır. Məgər elə deyil?

Əlbəttə, elədir. Yəqin, elədir. Başqa cür olduğunu təsəvvür belə etmirəm. Heç təsəvvür etmək də istəmirəm. Axı bu məhz belə olmalıdır.

Mən yalnız bunu başa düşmürəm ki, niyə əzab bu dərəcədə nəhayətsizdir və niyə dəhşətli bir kölgə kimi bütün həyatı qaraldır. Bu necə alınır? Niyə bu əzab həyatın ali formaları üzərinə daha qatı kölgə salır, sanki, həyatın inkişafı ilə o da güclənir, böyüyür? Bu niyə belədir? Buna gizli bir ehtiyac varmı?

Heç bir canlı, insanın əzab çəkdiyi kimi, əzab çəkmir. Lakin bolluq və xoşbəxtlik üçün də, başqalarından artıq biz yaranmışıq! Amma biz tale yükümüzü çəkirik, zirvəyə aparan yollarla irəlilədikcə tutqun kölgə başımızın üstünə daha qalın pərdə çəkir, getdikcə daha dəhşətli olur.

Niyə insan taleyi mütləq qüssəli bir drama çevrilməlidir? Gündüz günəş nuruyla dolu, gecə ulduzlu örtük altında sakitləşmiş, dəbdəbəli, gözəl sarayda cərəyan edən faciəyə, ölməzlik həddində gözəl və həyəcanlandırıcı, lakin eyni zamanda, qəddar və alçaldıcı bir saraya dönməlidir taleyimiz.

Bəlkə, ölməzliyimiz elə bundadır?

Göy də, yer də səninkidir. Lakin heç kəsin çəkə bilmədiyi yük də sənindir, tale yükü – hər şey və hamı üçün həddindən ziyadə ağır olmuş, bəlkə, yalnız təbiətin hökmdarının çəkə biləcəyi bir yük. Həyat onu bizim çiynimizə yıxıb. Biz onu daşımalıyıq və əyilməyə heç bir haqqımız yoxdur. Yıxıl, amma yükünü atma. Ölümcül yaralar alıb, parça-parça ol, amma ölmə. Əzab çək, lakin əzaba qələbə çal. Yenə, yenə də qaldır yükünü və irəli apar, bütün zəmanələrə apar.

Bəlkə, biz həyatın öz taleyini daşıyırıq çiyinlərimizdə? Belə çıxmır məgər? Öz yükü deyilmi bizim çiynimizə yıxdığı, sirlərinə yeganə vaqif olan, yaxın saydığı, onun etibarına layiq birisi kimi! O özü necə, gizlində, büruzə vermədən, dillənmədən əzab çəkmirmi? Bəlkə, bu əzab bizim vasitəmizlə dilə gətirilməli, dərk edilməlidir? Bəlkə, bizim üçün nəzərdə tutulan vəzifə budur? Və bununla hansısa ali məqsəd güdülmürmü, bunda hansısa böyük, nəhayətsiz və əlçatmaz nəsnələrə can atmaq durmurmu? Əlbəttə ki, həyat zəngin və əzəmətlidir. Lakin zənginlik xoşbəxtliyin sinonimidirmi? Buna inanmaq sadəlövhlük deyilmi? Əlbəttə, o, işıqlıdır, öz mənbələrinin lap kökünə kimi işıqlıdır, lakin bu mənbələrin suyu xəfə, işıq şüasının çatmadığı nəhayətsizliklərə axmırmı? Məgər onun mahiyyətinin özü çoxmənalı və ziddiyyətli deyil?

Bəlkə, elə bunun üçün də insan yaranmalıymış? Onun ziddiyyətini, parçalanmasını, ikili olmasını dərk etmək üçün, hər şeyi özündə ehtiva etmək üçün? Bəlkə, onun ikili mahiyyəti – Yanusun gündüz və gecəyə baxan iki sifəti kimi – məhz insanda təcəssüm tapmalıydı? İnsanın vahid ruhu işıqla zülmət arasında parçalanaraq, onların hər ikisini mübarizədə birləşdirməliydi öz içində? İnsanın nəsibinin daşıdığı məna bunda deyilmi? Buna görə deyilmi əzab çəkməli olduğumuz?

Mən əlimdə daş tutmuşam. O, bütün rənglərlə parlayır, çalardan çalara düşür, nəfəs alır, yaşayır. Onda həyatın bütün zənginliyi və çoxcəhətliliyi cəmləşib, sanki. Lakin o, "xoşbəxtlik" talismanı deyil. Hər şey belə sadə ola bilməz. O, xoşbəxtlik gətirmir, bəlkə, ondan daha böyük, daha əhəmiyyətli və vacib nəsə gətirir.

Çarların tacında bir məxsusi daş olur, çox daşın arasında biri. Soyun gizli talismanı, nəsildən-nəslə ötürülən daş. Tale daşı.

Haradan gəlib o? Hansı ənginliklərdə doğulub bir zamanlar və doğulub ki, sonradan insana bəxş edilmiş çoxmənalı həyat neməti olsun? Ona işığın sirri kimi, zülmətin sirri də bəllidirmi? Bütün rənglərinin söndüyü dərinlikləri xatırlayırmı və bir də ola bilər, nə vaxtsa sönəcəyi yeri necə, xatırlayırmı? Gündüz çarlığı ilə yeraltı zülmət çarlığı arasında, çarın ürəyindəki işıqla zülmət arasında bağlayıcı halqadırmı o?

Gecələr sarayda onun ağır addımları eşidilir və Qadesin kölgələri qədim zallarla onu qarabaqara izləyir, iriniylər[1] qayanın üstündə tənha ucalan akropolun ətrafında qaynaşaraq, təbiəti özlərinin əbədi unutqanlığında təsvirəgəlməz dəhşətə məruz qoyur. Yalnız burada, zirvədə, insan məskənində, – yalnız burada taleyin yükünə dözə bilərlər, hər şeyə dözə bilərlər.

Gündüz işığının dünyası! Məgər hər şeyin səbəbi o deyil? Hər şeyin həqiqətdə mövcudluğu onda deyilmi? Göy, yer

[1] *İrineylər* – Qədim Yunanıstanda xüsusi gözəlliyə malik kişilər

onun xətrinə meydana gəlməyib? Onun üçün yaratmayıblar yerlə göyü?

Lakin yaradılmışın haradasa lap ürəyində, onun ən mübhəm dərinliyində, yəqin, nəsə faciəvi, qövr eləyən bir yara var. Ola bilər ki, yaranış anında nəsə ölümcül bir zərbə endirilib, qətl törədilib. Yaradılmışın hamısı ikili mahiyyət daşıdığından, elə oradaca tərk edilib, ləğv olunub. Kainatdan qan damır və mümkündür ki, biz insanlar o qanı damla-damla yığmaq üçün yaranmışıq. Çünki yalnız bizim qabiliyyətimiz çatdı ki, tamaşanın dramatik mahiyyətini, əzabın faciəviliyini dərk edək və törənən cinayəti özümüz də yenə də, yenə də təkrarlayaq.

Günahın yer üzünə insanla birgə gəlməsi barədə çox qədim təsəvvürdə, bəlkə də, böyük həqiqət payı var, lakin, təbii ki, bunu qədim zamanlarda dərk etdikləri anlamda yox. Məgər qədim dünyadakı anlayışların, ümumiyyətlə, hamısı doğrulmurmu? Əlbəttə, həmin anlamda deyil, hər əsrin öz anlamında, yeni anlamda. Məgər irineylər tarixin başlanğıcında ulu babalarımız kimi indi də bizi təqib etmirmi?

İnsan həyatının tapmacası, onun lap mərkəzindəki bu mübhəm çat özünü günah hissində büruzə verir. İnsan bəlli bir sərhəddən keçdisə, onun ruhu həyəcanlanır, qorxur, özü özünə əzab verir. O ən əzablı, ən çıxılmaz nə varsa hamısını çiyinlərinə götürərək, öz yükü kimi daşıya bilir. Daşıyır və dözür. Həyatın lap ürəyində gizlənən, öz təzahürünü mütləq tapmalı olan və bununla da, azadlığa çıxacaq nəsnəni öz çiyinlərinə götürmək...

İnsan yaranmalıydı. O, həyatın faciəvi dərəcədə ikiüzlü, çoxmənalı, ziddiyyətli mahiyyətinin təzahürü idi. Yalnız o, hər şeyi öz içinə sığışdırmağa qadir idi. Yalnız o, əzab çəkə bilərdi və ancaq o, cinayətin dibsiz burulğanına baş vurmağa qadir idi. Yalnız o, günahın nə olduğunu bilirdi, təkcə o, əslində, özününkü olmayan, lakin ona elə özününkü imiş kimi

əzab verən faciəvi müqəssirlik hissini duyurdu, məsələn, Edip kimi, özü də bilmədən atasını öldürən Edip. Aşkar absurddan, əzabdan, parçalanma və müxtəliflikdən nəsə bir qiymətli, mənalı bir mahiyyət çıxarmaq bacarığı ancaq insanda olub.

Yəqindir ki, onun bu istedadında çox mühüm, həyat üçün məhsuldar nəsə vardı.

Qapalı çevrədə qalan çıxış tapdı özünə. Yatmış oyandı, şüur qazandı. Uzunmüddətli unudulmadan əzablar bahasına çıxdı və hiss etdi ki, heyvani zahiri onu necə tərk edir. Özünü qalanlarına heç bənzəməyən bir varlıq kimi hiss etdi: onlardan zəngin, qüdrətli, xoşbəxt, lakin eyni zamanda, təsvirəgəlməz əzab üçün seçilmiş yeganə varlıq.

Nəhayətsizlik öz qoynunu açdı – bunun mənası vardı onun üçün. O, bu dibsizliyi öz içində, öz ruhunda duyurdu. İndi artıq bu dərinliklərə baş vurmaq, sonra da özünü elə onun dibindən hamının eşidəcəyi tərzdə ittiham eləmək məqamı idi.

Həyat daha yüksək mahiyyət kəsb etdi. O, taleyə, borca, əzab yoluna çevrildi. “Via dolorosa” oldu, insanın qədəm basdığı, öz xaçını daşıdığı qədər yoluna döndü. Artıq həyat bütün dərdini, bütün ağrılı ziddiyyətlərini onun – insanın çiyinlərinə yıxa bilərdi. Həyatın günahlarından doğan əzabı çəkməyə və cinayətlər törətməyə o qadir idi. Yalnız o, çarmıxa çəkilməyə və çarmıxa çəkməyə qadir idi.

İnsan dünyasının yaranışı və inkişafı, həyatın dərinləşməsi və genişlənməsi üçün günah, özünüalçaltma, peşmançılıq hissinin qiymətini kim verə bilər? Nəyinsə düz, nəyinsə əyri hesab edilməsinin, istənilən hərəkətin şüursuz deyil, şəxsiyyətin formalaşmasına bu və ya başqa şəkildə təsir göstərən addım sayılmasının, kor, qeyri-iradi hərəkətlərə son qoyulmasının məhsuldarlığını, ruhların əbədi yoxluq girdabına yuvarlana bilməsinin və anadangəlmə ədalət hissi ucbatından təmizlik, şəxsi mənafeyi rəddetmənin zirvəsinə pərvazlanmağını

kim qiymətləndirə bilər? Həyat bununla yeni ölçü vahidləri qazanır, öz misilsiz qəribəliyində cilvələnir.

Bu yeni ölçü meyarları olmadan insana həyat qurmaq, şəxsiyyətin formalaşması, mənəvi mübarizə, mədəniyyəti inkişaf etdirmək qeyri-mümkün olardı. Nəhayət, indi həyatın çatmaq istədiyi yüksəklik və dərinliyin ölçü meyarları, insan ruhunun öz içinə sığışdırmalı olduğu meyarlar tapılmışdı. O faciəvi əzəmət duyulmağa başladı və artıq orkestrovkanın bütün zənginliyi sezilirdi. Simfoniya da təntənə və hüznün tam avazı ilə səsləndi, leytmotiv – taleyin güclü motivi qurtularaq, daha ucadan səsləndi, azadlıq uğrunda mübarizə nəğməsi güc yığıb, getdikcə daha aydın, daha parlaq eşidildi.

Xeyir və şər, savab və haram, dibsiz dərinliklərin təmizliyi və işığın zirvələrinə yürüş. İnsan səltənəti! İnsan taleyi!

Yeni, toxunulmamış bir diyar, məhsuldar və nəhayətsiz. Bolluq, bolluq. Mübarizələrdə qazanılmış ümidlər diyarı.

Lakin bütün qazanılanların, bütün əldə olunanların bahası kimi dözülməz əzab. Faciəvi gərginlik heç vaxt səngimir, dramın inkişafı boyu yüksələn xətlə davam edəcək, çünki münaqişə öz həllini tapası deyil və heç vaxt da tapmayacaq. Çünki ziddiyyətlərin miqyası həyatın miqyası ilə birlikdə böyüyür, çünki inkişaf eninə gedir və baş verənlərin hamısı insan vasitəsilə yaradıcılıq aktının davamıdır.

Bizdən niyə bu qədər çox şey tələb olunur! Niyə biz mümkünsüz şeyləri bacarmalıyıq! Niyə bizim qarşımızda heç vaxt yerinə yetirə bilməyəcəyimiz tələblər qoyulur! Niyə bizim xoşbəxtliyimiz böyük və çətin işlərin yolunda qurban getməlidir, o dərəcədə böyük və çətin ki, xoşbəxtlik anlayışı ilə bir araya sığan deyil!

Niyə biz seçilmiş olmağa borcluyuq?!

Soruşmaq olar. Şikayətlənmək olar.

Lakin insana ancaq mübarizə qalır. Getdikcə daha açıq mövqelərə çıxan, səngərlərin ön xəttində, gözlərini gecə-gündüz

qırpmadan mübarizə tələb edən bir döyüş. Sərhədlər isə durmadan genişlənir: insan səltənəti nəhayətsizdir, onlar hələ kimsəyə məxsus olmayan torpaqlar hesabına genişlənir – qələbə çalaraq və ölərək, uğrunda vuruşduğumuz vətənimizdir bu. Hərdən müdafiə xətti yarılır – onda qaçış, vahimə, çaşqınlıq və əzilmiş hərbi hissələr arxa cəbhədə yenidən toplanır. Ümumi bir ruh düşkünlüyü yaranır, hər şey ümidsiz görünür və ölümcül yorulmuş, kirli əsgərlər öz yuvalarına qısılıb, anadan olandan bəri qorumağa məhkum olduqları ölkələrini qınayırlar. Hətta ən cəsur və ən məsuliyyətlilər belə naümid olaraq, bu cür düşünə bilərlər: döyüş meydanından, dözülməz əzablardan qaçmaq, ot kimi özbaşına yaşamaq, bir çiçək, bir ağac, bir quş sürüsünün adi sevincləriylə dolu bir həyat sürmək. Bütün bunlar belə qurbanlara dəyərmi? Bu döyüş özü mənasız deyilmi? Bəs qələbənin özü necə? Sərhədləri olmayan hansı ölkədir belə? Onu necə müdafiə edək axı? Heç qələbələrin də qiyməti yoxdur, onlar heç bir nəticə vermir, hər şey elə eyni dərəcədə qeyri-müəyyən qalır. Hara baxırsan döyüş, hara baxırsan qurban və vətən öz sinəsində əbədi yuxuya getmiş qəhrəmanlarını yadda saxlamayacaq, çünki onun torpaqları nəhayətsiz, igidləri isə saysız və adsızdır. Bu nə nəsibdir ki, qismətimizə yazılıb?

Lakin gecə düşəndə kimsə yerindən durub, ulduzların işığında bu qədər döyüşçünün baş qoyduğu, viran qalmış, tərk edilmiş torpaqları seyr edir. Sonra onlar silahlarını götürüb, gecənin ağuşunda gizlicə irəli gedirlər.

Maraqlıdır, axı kim satıb bizi? Biz qələbə çalırdıq, biz heç vaxt qələbədən-qələbəyə belə yürüməmişdik və birdən beləcə xəyanətlə üzləşdik. Mövqelərimizi, sanki, məxfi bir əmrə uyğun olaraq buraxdıq, baxmayaraq ki, onlar həmişəkindən də əlverişli idi. Düzdür, bu mövqelər çox irəlidə yerləşirdi və yalnız bəzi yerlərdə yaxşıca möhkəmləndirilmişdi, baxmayaraq ki, oradakı əsgərlər bu barədə heç məlumatlı

deyildilər. Amma onları əldə saxlamaq, yəqin, mümkün idi. Ya da, heç olmasa, müdafiə etmək. Niyə buraxıb getmişdik?!

Əmrləri kim verir? Təbii ki, ali komandanlıq. Mən düşünmürəm ki, hər şey sıravilərdən başlanıb, onlar birinci çəkiliblər. Əvəzində, sonra artıq hər şey laxlayıb, dağılanda isə dəhşətli çıxılmazlıq və məğlubiyyət orgiyasının təşəbbüskarları məhz onlar oldular.

Yox, mən elə bilirəm, bu xəyanəti ən təhlükəli məqsədlərə doğru irəliləmək əmri verənlər, bizi əzəmətin son həddinə itələyərək, qələbə naminə özünü qurban verməyə çağıranlar etdilər. Onların əmrləri mahiyyətcə ikimənalı idi!

Xəyalpərəst xainlər!

Hər şey qələbəyə can atır. Lakin hər şey iflasa və məhvə də can atır. Zirvə fəth olunanda uçurum da, sanki, həmişəkindən yaxındır və sən onun cazibəsini, gücünü məhz zirvədə daha bariz duyursan. İnsanın can atdığı ən yüksək nöqtələr, mədəniyyətin zirvəsi, kamilliyin zirvəsi mahiyyətcə tərəddüdün ocağıdır; mədəniyyətin çürüməsi prosesi məhz yüksək qatlarda başlanır. Hər bir bəlli mədəniyyət özündə iflasın başlanğıcını, onu aşındıran bir nəsnəni ehtiva edir. Daha ilkin mərhələlərdə bu o qədər təhlükəli deyil. Hətta, əksinə. Axı zəhər kiçik dozalarda istənilən orqanizmə həvəsləndirici təsir göstərir. Bu hətta kral tacının qiymətli daşlarına özünəməxsus gözəllik, melanxolik bir sayrışma da bəxş edir. Yalnız sonra aydın olur ki, dəyişikliyin səbəbi daşlardadır və bu dəyişiklik onların öz parlaqlığını tamam itirəcəyindən xəbər verir.

Qəribədir, sadəcə olaraq, ağlasığmazdır: necə olur ki, dağıdıcı qüvvələr qurucu, qələbə gətirən qüvvələrlə vahid bir tamlıq təşkil edir...

Təzə tac, sadəcə olaraq, daha zəngin, daha dəbdəbəlidir. Hər bir tac öz məhvi ərəfəsində, həqiqətən, gözəllik zirvəsinə yüksələ bilər.

Bu günlərdə barmaqlıqların arxasından səmaya baxarkən gördüyüm bulud yaddaşıma yazıldı. O, insan başına oxşayırdı, nəcib, ciddi və qürurlu profili olan kişi başına – üstünlük, ucalıq və zövq təcəssümünə. Mən durub baxanadək, siluetin cizgiləri tədricən dəyişirdi. Əvvəlcə bu simanın gözəlliyi daha bariz göründü, onun özünəməxsusluğu, fərdiliyi daha aydın duyuldu, lakin sonra onda həyəcan təlqin edən, qəribə, şişirdilmiş nəsə sezildi, daha sonra isə artıq xəstəhal, ürpərdici nələrsə. Bu sima, sanki, mənim gözümün önündə çürüyür, lakin eyni zamanda, özünəməxsusluğunu da qoruyur, keçmiş simasına bənzəyişini saxlayırdı. Tədricən o sifət cüzamlınınkına oxşadı, dəqiq cizgilərini itirdi, aşındı, dağıldı, diriykən çürüdü. Nəhayət, gözün yerində bir deşik qaldı, çənə isə qopdu – indi baş əvəzinə gözlərim önündə skelet kəlləsi dururdu. Lakin hətta bu kəllənin özündə belə qabaqkı əzəmətli, gözəl obrazla bənzəyiş vardı, onları bir-birinə nəsə ümumi, dərində gizlənmiş bir sirr bağlayırdı.

Hər şey çiçəklənməyə can atır. Amma hər şey həm də özünüməhvə, ölümə can atır. Hər çiçəyin bir əkizi olur, onu əbədi alatoranlıq səltənətindən səsləyir, hər ağacın öz əkizi var, bəhərsiz budaqlarını heç nəyi seçmək mümkün olmayan, hər şeyin eyni cür göründüyü zülmətdə uzadır və məhz çiçəklənmə, yetkinlik çürüdən qüvvələrə "hazır ol!" siqnalı verir. Məhz inkişafının kulminasiya nöqtəsində hər şey iflasa, məhvə can atır. Məhz qələbə silahı yerə qoymaq əmri verir.

Bu nədir belə? Yer üzündə olan hər şeyin öz çıxış nöqtəsinə can atması, onun xiffətini eləməsidir? Hər şeyin birləşdiyi zülmət burulğanına baş vurmaq yanğısıdır bu – bir zamanlar olduğu kimi. Özündən məhrum olub ümumi, vahid əbədiyyətdə ərimək arzusudur? Və ali iradənin istəyiylə yenidən dirilmək – bizi yoxluqdan çağırmaq yalnız onun iradəsindədir. O sərhədsiz ənginliklərin ağuşundan ehmallıca qurtulmaq, zülmətdən çıxmaq və özünü dərkedilməz bir sevinclə

bir də, amma bu dəfə artıq yeniləşmiş, təzədən yaranmış kimi duymaq. Həyatın heyranlığına dalmaq, yaranış möcüzəsi ilk dəfə baş veribmiş kimi.

Bəlkə, ölüm səltənəti özü də həyatınkıdır? Heç vaxt işıq üzü görməyən doğuş, yaranış dərgahı, əbədi ana bətni?

Mənim yaranışın ilk günü üçün çəkdiyim xiffət elə yenidən yaranma xiffəti deyilmi?

Ölülər arasından dirilmək. Yenə də əvvəlki kimi olmaq. Amma eyni zamanda da, əvvəlkindən fərqlənmək. Nə baş verir axı? Bilmirəm. Amma vücudumda gümrahlıq, təzəlik duyuram, budaqların üstü isə tamam şeh damlalarıdır. Həyat suyuna baş vurmaq və artıq heç nə əvvəlki kimi deyil. Nəsə əlavə olunub, baxmayaraq ki, biz hələ bunu dəqiq təyin edə bilmirik. İrəliyə bir addım da atılıb və bu tamamilə təzə gündür, yer üzündə hələ heç vaxt doğmamış bir gün.

Bəlkə, elə belə də olmalıdır, bəlkə, bu qaçılmazdır – bizim əbədi çağırışa tabe olaraq, işıqdan zülmətə qayıdışımız? Yoxluğa baş vuraraq, əbədi vahidlikdə ərimək ki, gündüz işığında yarana bilməyən möcüzələrin ən nəhəngi baş tutsun? Dərinliyin, zülmətin əhəmiyyəti bu deyilmi? Gecənin gündüz üçün əhəmiyyəti bu deyilmi?

Bəlkə də, gündüzün meyvəsini heç başqa cür toplamaq da mümkün deyil? Yalnız gecənin qohum zəminindəki məhsul, zamanın küləklərini duymamış, heç vaxt həyəcana gəlməyən və dalğalanmamış cisimsiz, bəlkə, sonuncu dəninə kimi anbarlara yığılan sünbüllərdir, çünki onlar, əbədiyyətin özüylə bir vahidlik təşkil edir. Yer üzündə ətə-cana dolan sünbül artıq çürüntüyə, quruma çevrilməyə hazırdır – elə eyni anda da unudulmuşlar səltənətində ölməzlik, dirilmə üçün yetişir o.

Batinimizdə olan hər şeyin məhz özünün ən uca nöqtəsində iflasa can atması bu səbəbdən deyilmi? Son həddinə yüksələn həyat eşqi, hər tamlıq, hər təntənə?

Kaş buna inana biləydim! İnanaydım ki, dağıdıcı qüvvələr, məhvin özü həyata, ondakı ən əhəmiyyətli nə varsa, ona xidmət edir. Ən heyranedici nə varsa, ona! Davamiyyət və yeniləşməyə – təkcə sonsuz həddə təkrara yox. İnana biləydim ki, məhv və ölüm heç düşmən deyil bizə və onların təkcə dağıdıcı qarşıdurma yox, həm də bir vahidlik olduğuna inanaydım. İnanaydım ki, hər şeyin məğzində məqsədəuyğunluq, dinclik və hüzur var.

İnanmaq nə gözəldir! Çıxılmazlığa düçar olmaq isə nə dərəcədə acıdır, ağırdır.

Yox, çıxılmazlığa yuvarlanmaq olmaz. Heç bir səbəb yoxdur buna. Buna ancaq lap yaxınlığındakı nəyəsə baxanda düçar ola bilərsən. Məhbəs hasarlarını, kamera divarlarını, həbsə salındığın yeri görəndə. Daha uzağı görə biləndə, tamlığın qarşılıqlı əlaqəsini hiss edəndə, özünün ona aidiyyətini duya biləndə isə çıxılmazlıq mümkünsüzdür.

Təsadüfi şeylər bizi daim yoldan azdırır. İndi, necə deyərlər, bizim zəmanədə baş verənlər həyatın kiçicik bir parçası barədə şişirdilmiş təsəvvür yaradaraq, bütün qalan şeylərin önünü qapadır. Biz qalan şeyləri, sadəcə olaraq, unuduruq və zahiri reallıq öz təzyiqində nə qədər kobud və ədəbsizdirsə, onun altında gizlənən reallığı bir o qədər asan unuduruq.

Lakin həyat heç nəyi unutmur. O, həmişə, hər yerdə, eyni zamanda və tam, bütöv şəkildə var.

Çıxılmazlığa qapılmaq! Bu o deməkdir ki, bax bu qəfəsin – indi içində oturduğum, bütün əzab çəkən məhbusların olduğu qəfəsin hər şey olduğunu düşünəsən! Düşünəsən ki, həyat elə budur. Bizim bu qəfəsdə qısa müddətə mövcudluğumuz həyatda qismətimizə düşmüş mövcudluğumuzun bütün mənasını təşkil edir. Bu, “sən yalnız və yalnız məhbussan!” fikri ilə barışmaq demək olardı!

Lakin həyat bizi təcrid eləmir, ayırmır, əksinə, bütün zəmanələrin ölüləri və diriləriylə bağlayır. Ölüm və dirilmə ilə, ümumi inkişaf və yeniləşmə ilə, ölməzliklə, yaranışın əbədi və daim yeni günü ilə bağlayır.

O, zaman və məkan zəncirlərini qırır. O azadlıqdır, azadlıq, azadlıq!

Mən üstdəki barmaqlıqlardan azadlığa baxıram. Göy üzündə süzən buludlara baxıram, bir-birinin içinə girən və birindən o birisi doğan, ayrılan və yenidən birləşən buludlara – sakit, arasıkəsilməz çevrilmə selinə. Onlar vahid mahiyyətə malik, lakin daim dəyişən, qeyri-sabit nəsnələr təşkil edirlər. Hərəkətverici qüvvələr gözə görünmür, mən yalnız nəticəni seyr edirəm: nəyinsə yaranmağını, nəyəsə dönməyini, dəyişməyini – bir anlıq belə, arası kəsilmir bu hərəkətin, Kainatın nəhayətsiz ənginliklərində sərgilənən bu maraqlı tamaşanın.

Bir az keçir və hər şey tədricən göz önündən yox olur, dağılır, əriyir, buxarlanır. Yay gününün səması artıq mavi və boşdur, heç nə qalmadı bu səmada.

Heç nə?

Yox, hərəkətverici qüvvələrin özü qaldı. İndi onlar, sadəcə olaraq, mənim görə biləcəyim heç bir şeyə təsir etmir. Mən yalnız görünənləri seçə bilirəm. Amma, əslində isə, hər şey elə bayaqkı kimi qalıb.

Əgər mən yüksəklikdəki bulud dünyasını görməsəydim, orada hansısa qüvvələrin olduğunu da bilməzdim. Görün biz necə səhv edə bilərik!

Dayanıb, boşluğa baxardım və heç nə də gəlməzdi ağlıma.

Mən buludlarla tez-tez ünsiyyətdə oluram. Onlar mənə, demək olar ki, yaxın məxluqdır, çox sirlərini mənə etibar edir. Ən mühüm sirlərini yox, mənim başa düşə biləcəklərimi, mənə necəsə anlatmaq mümkün olanları. Talelər sayrışaraq, yanımdan ötür, həyat öz axarındadır: doğulma, mövcudiyyət,

ölüm. Buludların taleyi, buludların ömrü, qanadlı alleqoriyalar, ötəri, dəyişkən, işıqlı yaşam – bu həyata mənim də dəxlim var. Bu, mənim dünyamdır.

Pəncərə o qədər yüksəkdədir ki, yer üzü görünmür. Mən, sanki, onu tərk etmişəm.

Gecələr isə ulduzlarla ünsiyyətdəyəm. Onlar lap yaxınlıqda parlayır, özlərinin ilahi nuruyla cilvələnir.

Məni, elə bil, basdırıblar, amma Kainatın nəhayətsiz ənginliklərində basdırıblar.

Bəli, görə bilmədiyim güclər həmişə yerindədir. Hara gedəcəkdir ki!

Onlar axı öz mövcudluqlarına nöqtə qoya, harasa yox ola bilməz. Ayrılmaz parçası olduqları bir şeyi tərk edə bilməz. Onlar əbədi və həmişə eyni dərəcədə canlıdır, hətta mənə görünən şeylərə təsir etmədikdə, "ölü" vəziyyətdə olanda belə. Həyat nədir? Ölüm nədir? Məgər ölüm başqa həyat deyilmi? Biz hazırda orada yaşamadığımız üçün anlaşılmaz sandığımız bir həyat.

O biri həyatda yaşayanda isə bu həyat barədə nəsə bilirik?

Bizə qəti və taleyüklü gələn sərhəd iki müxtəlif dünyanı ayıran deyil, ancaq bizim qavrayışımızın sərhədidir, bu reallıqdan savayı, heç nəyi görməyə və bilməyə qadir olmayan qavrayışımızın. Əgər biz, həqiqətən, bilmək, görmək qabiliyyətində olsaydıq, ümumiyyətlə, heç bir sərhədin olmadığını, bu iki dünyanın bir olduğunu görərdik. Duyardıq ki, onların ikisi də mahiyyətcə birdir.

Bizim hamımızı toplayıb qoruyan vahid ana qucağı. Əbədi ana bətnində unudulmanın zülməti içində uyuyuruq, ananın dizinin dibində duraraq həyatın üzünə aşağıdan yuxarı baxanda isə heç nəyi xatırlaya bilmirik. Onda biz aydın, dəqiq görünənə sevinirik, onda biz tam olaraq işıqlı dünyadayıq. Unudulmanın qaranlıq dünyası artıq qavrama həddimizdən xaricdir. Amma biz ona çox yaxınıq və bu bizə qətiyyən yad

dünya deyil. Biz onun sirlərini, tapmacalarını içimizdə gəzdiririk, biz ondan doğulanlarıq.

Əks təqdirdə haradandır bu xatırlamaq istəyi?

Əbədi həyat. Əlbəttə, əbədi həyat yeganə mövcud reallıqdır. Bizim həyatımız başqa nə cür mövcud ola bilərdi? Necə təmin edilərdi? O lap körfəzsiz, gəmisiz ada kimi yoxsullaşar, məhv olardı, sərvətini toplamağa yeri olmazdı. Əgər onun zamanın fövqündəki yaşamla, tükənməz tamlıqla əlaqəsi olmasaydı.

Təbii ki, əbədi həyat var. Biz özümüz də ona aidik, biz onun hissəsiyik.

Biz qorxmamalıyıq. Saysız-hesabsız xəzinələr, tükənməz ehtiyatlar, zəngin yükü olan gəmilər və onların gözəgörünməz yelkənlər altında girdiyi körfəzlər var, ruhumuzun sirli körfəzləri. Onlar öz yüklərini mənzilbaşına çatdırır, onlar daim yoldadır.

Təkcə ölüm yoxdur, tükənmə yoxdur.

Gəmilər dirilər məmləkətindən boş qayıtmır. Biz nə idik, nəyə nail olduq, nə əldə elədik – hamısını qorumaq üçün toplayırlar. Bu, əbədiyyətin məhsuludur və onu son dənəsinə kimi yığmaq gərəkdir, bircə qırıntısını da itirmək olmaz.

Necə itirə bilərik, əgər məhvin özü həyata xidmət edirsə, ondan ayrılmazdırsa və orağın biçdiyi yenidən dirilməyə can atırsa.

Bax buna görə də biçin vaxtı gələndə bizim vicdanla yaşamağımız, qiymətli olmağımız mühümdür. Bax elə buna görə istənilən insan taleyi, istənilən hərəkət böyük əhəmiyyət daşıyır.

Biz əbədiyyət üçün qiymətli olacağıqmı? Onu zənginləşdirəcəyikmi? Ya gəmi yelkənlərini sallayıb əbədiyyətə heç nə çatdırmadan boş qayıdacaq?

Məhsul necə idi?

Hər şeyə görə cavabdeh bizik və bundan canımızı qurtara bilmərik. Məsuliyyət hissi bizə rahatlıq vermir. Hərdən sivişib, canımızı qurtarmaq istəyirik, bu köhnə fikirləri lağa qoyuruq və elə bilirik ki, onlardan qurtulmuşuq. Amma, əslində, içimizdəki bu hissin kökünü kəsmək mümkün deyil, çünki mühüm məqsədlərə xidmət edir və onlarsız keçinmək heç cür mümkün olmaz. Çünki o, həyatın yaradıcı iradəsindən ayrılmazdır, biz isə bu iradənin alətləriyik.

Mənəvi çürümə bu və ya başqa dövr üçün məhvedici ola bilər, lakin son söz qətiyyən onunku deyil, çünki həyatın mahiyyəti ilə, onun qurucu iradəsi ilə ziddiyyətdədir.

Hərdən elə fikirləşirlər ki, mənəviyyat dinə söykənir, onunla bir yerdə yaranıb, onunla da məhv olur. Bu da həqiqət deyil. Dinin kökləri bir çox şeylərlə çulğaşıb və o cümlədən, bununla da. Lakin din insan ruhunda heç bir dəyər doğurmur, yalnız artıq mövcud olan dəyərləri təzahür etdirir. Məsələ qətiyyən belə qoyulmur ki, Tanrıya canlı inam olmayan dövrlər mənəviyyatsız, dinin güclü olduğu dövrlər isə mənəviyyatlıdır. Dinin təsiri altından çıxmış insanlar da mənəviyyatca möminlərdən əskik deyillər, hətta bəzən yüksəkdirlər də.

Yox, mənəvi nəsnələr bu və ya başqa dini təsəvvürlərə söykənmir və onlarla bir yerdə yox olmur. O, həyata inamın tükənməsi ilə – biz həyata xəyanət edəndə, yaxud onu saxtalaşdıranda – yoxa çıxır. Onun bizim qarşımızda qoyduğu tələblərdən qaçmağa, məqsəd kimi qəbul etdiyimiz bir şeyə dolayı yollarla nail olmağa can atanda.

Lakin, ümumiyyətlə, həyatı saxtalaşdırmaq heç vaxt mümkün olmur.

O, mütləq bizə qalib gəlir, ehtiva etdiyi mənanı isbata yetirərək inkişafın axarını bərpa eləyir.

İnsanın müvəqqəti yox, mənəvi məhvinə inanmaq o deməkdir ki, insanın könül mülkünün ucaldılmasında bünövrə təşkil edən əsaslı, vacib nəsnələrin dağılacağına, onun özünün isə toxunulmaz qalacağına inanasan. Mövcudiyyətin ilkin şərtlərinin kökündən dəyişəcəyinə inanasan. Bu ki absurddur.

İnsan həyatının görünən hissəsində hərdən bəlli olan dəyişikliklər qətiyyən dərinlikdəki faciəvi sapıntılara dəlalət etmir.

Dinin boy atdığı zəmin də yox ola bilməz. Bu zəminin zaman-zaman doğurduğu simvollar dünyası sola bilər, sözün bəlli mənasında, öz hakimiyyətini itirə və günlərin birində, ümumiyyətlə, ölə bilər – onu doğuran nəsnə isə qətiyyən yox. Həyatı kasadlaşdırmaq olmaz – elə insanı da.

Məgər ən dərin mənbələrdən birini qurutmaq, insan ruhunun yaranmasının ilkin səbəbini ləğv etmək mümkündür? O olmasa, biz də olmazdıq.

Bir ağac öz toxumunda gizlənən, onu yaradan qüvvələrə necə son qoya bilər? Ağac onun təbiətinə bələd deyil, o toxumun mövcudluğundan xəbərdar deyil, lakin toxumun bütün imkanları onda təzahür edir, o, həmin bu toxumun sayəsində yaşayır. Və özü də bilmədən, elə həmin toxumları doğuraraq, gələcəyə təhvil verir. Hətta zədəli ağac belə özündən sonra eyni toxumlar qoyaraq, yenidən sağlam, necə olmalıdırsa, elə doğulur. Daha yaxşı və kamil gələcək naminə.

Ölməzlik, intibah! Alçaqlıqdan, ağrıdan mükəmməlliyə, ölməzliyə intibah. Yalnız indi hər şey olmalı olduğu kimi deyil. Yalnız indi. Toxumda isə hər şey elədir, hər şey düzdür. Ancaq orada hər şey düzdür. Hər bir konkret zaman kəsiyində nələrsə olmalı olduğu kimi olmur. Lakin toxumda kamillik əmanəti var və o, səbirlə öz zamanını gözləyir, onun zamanı mütləq yetişir. Ağaca boy vermək, onu qamətli, qol-budaqlı etmək zamanı. Ona mane olurlar, o, özünün bütün imkanlarını

heç vaxt həyata keçirə bilmir: ağacı gah boğurlar, gah şikəst edirlər, gah onu ildırım vurur, şaxları budanır, əyilir, yanır. Lakin zamanın uzaq gələcək kəsiyində ağac qol-budaq atacaq, əzəmətli olacaq – onun boy atmasına heç nə mane ola bilməz. Sadəcə olaraq, onun taleyi belədir – maneələrdən keçmək.

Məhv mövcud deyil, ölüm mövcud deyil, zəiflik mövcud deyil. Yalnız gücün daimi yenilənməsi mövcuddur, yalnız daim təkrar olunan, tükənməz sayda yeniləşən yaradılmış var. Yalnız əbədi-ilkin yaranış gününün əminliyi və sevinci var.

Çıxılmazlığa düçar olmaq? Biz buna düçar olmamalıyıq! Ölməz gücün, ölməz qələbə əzminin daşıyıcıları, misilsiz möcüzəyə aidiyyəti olan bizlər. Ruhunda kamilliyin sirlərini qoruyan və onu əsrlərdən keçirərək, gələcəyə ötürən, lakin onu dərk edə bilməyən bizlər. Mükəmməllik reallığa çevrilə bilməz, o, bir məqsəd kimi əlçatmazdır, o, əbədiyyətin ecazkar bətnində qalmalıdır, möhürlənmiş, toxunulmaz. Əgər biz möhürü sındıra bilsəydik belə, heç nə anlamazdıq. Amma həyatın yenidən doğulduğu, toxumun öz qılafını yırtaraq azadlığa çıxdığı hər dəfə bu möhür sınır və möcüzə özünü qələbə əzmini reallaşdıran yaradıcı qüvvədə büruzə verir.

İnsan  əbədi qələbə əzmidir!

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam juvat excoluisse per artes

# TƏLƏBKAR QONAQ

Burada çox qısa müddət qalacağam. Ona görə də hər şeyi bu dərəcədə başlı-başına, tərk edilmiş, səliqəsiz görməyim mənə çox təsir eləyir.

Əbədi zülmətdən gəlmiş turistlər üçün olan bu mehmanxanaya düşürəm, tələsirəm, o qədər işi çatdırmalıyam ki, sakitlik, rahatlıq istəyirəm: bu yerlərin bütün gözəlliyini dadmalı, bu dadın, həqiqətən, eşitdiyim kimi bənzərsiz olduğunun şahidinə çevrilməliyəm. Burada isə hər şey dağım-dağımdır. Mebel hollda qalaqlanıb, rəngsazlar divarları, tavanları boyayırlar, dülgərlər döşəməni söküb, yenidən yığır, taqqataraqla bərkidir, mismarlayırlar. Zırpı, qaraqabaq tiplər nəhəng təknələrdə suvaq qarışdırırlar. Şübhəli qaraşın adamlar pilləkən meydançalarını sökürlər. Qəribə, birtəhər adamlar məhəccərləri laklayır, pəncərələri silir, işıqlandırma təchizatının yerini dəyişirlər. Hər yerdə rəng, taxta yonqarı, əhəng, mismar, hündür ayaqaltılar, kötüklər, əlif, mala, sement və təzə kəsilmiş ağac iyi, bir də ki cəhənnəm səs-küyü nəzərə çarpır.

Hər şeyi sök! Hər nə var təzədən tik!

Üstümə hər tərəfdən bu kobud adamların qışqırıqları, söyüşü, dürtmələri yağır, mən mehmanxananın kandarından keçən kimi onlar üçün bir maneəyə çevrilirəm, az qalıram murdar tüpürcəklərində sürüşərək, təhqir və kinayəli baxışları altında yıxılam.

Nəhayət ki, xidmət personalının bir nümayəndəsi ilə rastlaşıram. O nəzakətlidir, qonağa hansı münasibət göstərməli olduğunu hələ bu qarışıqlıqda unutmayıb. Sizə qulluq göstərməyə hazırdırlar, lakin əllərindən heç nə gəlməz, heç

bir şey. Dəhşətli dərəcədə uğursuz vaxtda təşrif gətirmisiniz, yaman qarışıqlıqdır, heç özümüz də bilmirik, nə edək.

Məni divar kağızlarının yarısı cırılmış, kaşı divar sobası sökülərək döşəmənin yarısını zəbt eləmiş, döşəksiz dəmir çarpayılı bir otağa aparırlar və elə o dəqiqə də tələsik çıxıb gedirlər, çünki işləri yaman çoxdur, heç olmasa, qismən səliqə-sahman yaratmaq lazımdır buralarda.

Bu dəhşətdir, axı vaxtım da lap azdır. Vaxtım haradaydı buraların səliqəyə düşməsini gözləməyə, məcburam bu qarışıqlıqda, bu hay-küylü cəhənnəmdə yaşayam. Mən isə sakitlik və hüzur arzulayırdım, fikirlərimi cəmləşdirmək istəyirdim, geriyə dönməmişdən nəyəsə nail olmağa çalışırdım, lakin bu qarışıqlıqda özüm üçün heç nəyi aydınlaşdıra bilmirdim, bu nizamsızlıqda bir nizam, bir rahatlıq yaratmaq iqtidarında deyildim, burada heç vaxt düzən tapa bilməyəcəkdim.

Amma buna baxmayaraq, barışmağa məcbur idim. Səhərdən axşama kimi rəng qablarının, taxta yonqarının, sementin içində gəzir, ağzı üstə çevrilmiş mebellərin, üst-üstə qalaqlanmış, iyli, təzə taxtaların arasında, söyüşcül, kobud fəhlələrin tüpürcəyi içində dolaşırdım. Gecələr isə dəmir millərinin kürəyimə saplandığı çarpayımda yuxulaya bilmədən, xəstə, əldən düşmüş, yorğun uzanıb qalırdım. İllər uzunu. Çünki burada zaman dəli bir sürətlə axır! Bir də görürsən ki, gözünü qırpmağa macal tapmamış, ilin tən yarısı arxada qalıb.

Mən çıxılmazlıq içindəyəm. Gecələr yuxusuz qalmaqdan, həyəcandan, taleyim barədə mənasız düşüncələrdən ağarmış, kütləşmiş bənizimlə dəli kimi irəli-geri addımlayıram. Özüm hiss edirdim ki, görünüşüm sərsəmləmiş adamlarınkına bənzəyir, miskin görünürəm, bunu unutsaydım belə, ətrafımdakı kütlə xatırlatmağa tələsəcəkdi. Amma bu mənim vecimə deyildi. Öz çıxılmazlığımın, acı peşmançılığımın ağuşunda idim. Bu kobud subyektlər arasında, qorxu və acı içində dolaşmaqdan utanmıram. İllər uzunu. Getdikcə

məni qoynuna almış bu düzənsizlik, səs-küy, bu dəhşətli qarışıqlıqdan daha artıq sıxılır, qaranlıq düşüncələrimə qərq olduqca bütün bunların mənasını dərk etməyə çalışırdım.

Nəhayət, dözməyə hövsələm qalmadı. Qeyri-müəyyənlik içimi dəhşətli əzablarla doldurur. Mənə bir fikir əziyyət verir, içimi dağıdıb-tökürdü, bir an belə rahat qoymurdu, əslində, bircə şey barədə fikirləşirdim. Bunu aydınlaşdırmağa cəhd etməliydim, soruşmalıydım, bəlkə də, nəsə öyrənə bilərdim. Əgər mən bunu öyrənsəydim, əla olardı və mən də başqa bir şeylə məşğul olmaq barədə düşünə bilərdim, digər insanlar kimi olardım.

Yanımdan ötən mehmanxana işçilərindən birini səsləyirəm:

– Üzr istəyirəm... Deyə bilməzsiniz...

– Nəyi? – o, nəzakətlə çığırır, amma artıq uzaqdan.

Başa düşürəm ki, gülməli görünürəm. Aman, Tanrım, axı belə bir şeyi bu qədər tələsən adamdan soruşmaq olmaz. Bunu adam dostundan soruşa bilər, o da neçə saatı bir yerdə keçirəndən, dünyada hər şey barədə söhbət eləyəndən sonra. Utanıram. Şalvarımdan tozu çırpıb, hələ də səliqəli görünən ştibletlərimi nəzərdən keçirirəm.

– Heç, heç, – deyərək, cibimdən saatımı çıxarıb əqrəblərini əsəbi halda, yarım gün geriyə çəkirəm. O isə gözdən itir.

Yenə də illər bir-birini əvəz edir. Gicgahlarım ağarır artıq, mən yorulmuşam, yaman yorulmuşam. Ətrafda nəyisə taqqıldadır, guruldadır, qırır, düzəldirlər. Səs və küy, taxta qalaqları, kərpiclər, çirkli ayaqaltılar. Kobud oğlanlar, adamın ayağı sürüşən tüpürcək lombaları.

Mən öz xaçımı daşıyıram. Onun öhdəsindən təkbaşına gəlməyə çalışıram. Amma getdikcə daha çətin olur. Dözə bilmirəm. Mən onun ağırlığı altında əldən düşürəm, sadəcə olaraq, dizlərim bükülür.

Kiməsə söykənməliyəm, kimdənsə kömək istəməliyəm. Soruşmalıyam, aydınlaşdırmalıyam, öyrənməyə çalışmalıyam.

Məni bu tam qeyri-müəyyənlik, bu bəhrəsiz fikirlər, mənanı, məhz mənanı tapmağın qeyri-mümkünlüyü öldürür.

Bir dəfə yenidən personaldan kimisə səsləyirəm. Mən özümdə qətiyyət tapmalıyam, yenə çıxıb getməsinə imkan vermək olmaz, soruşmalıyam, sorğu-suala çəkməliyəm onu.

– Üzr istəyirəm... Deyə bilməzdiniz...

– Sizə necə kömək edə bilərəm? – o, son dərəcə nəzakətlə soruşur.

Mən yenə sıxılıram. Bu nəzakətli sözlərdən mənə aydın olur ki, həddindən ziyadə təmtəraqlı danışmağa hazırlaşırdım və ruhi vəziyyətim kənardan biabırçı dərəcədə narahat görünürdü. Mən onun bəsit, lakin son dərəcə sadə, sərbəst şəkildə deyilmiş sözlərinə heyran qalıram, onların ahəngini tutmağa çalışıram, düzü, mən də bu ahəngə yiyələnməkdən vaz keçməzdim. Yalançı bir sərbəstliklə əlimdəki çəliyi yelləyib, demək istədiklərimi, heç nə olmayıbmış kimi, dilimə gətirməyə çalışıram:

– Bilirsiniz, fikirləşdim ki...

Lakin sözümə davam etmək istəyəndə birdən duydum ki, içimdəki qorxu zahirə çıxmağa necə can atır, səsimin, ağır bəlaya düçar olmuş bir insan kimi həyəcandan necə titrədiyini hiss edirdim.

– Mənə deyin... zəhmət olmasa... biz niyə yaşayırıq?

O, mənə gülmür, davranışımda gülməli heç nə görmür, ya da, ən azı, bunu büruzə vermək istəmir. Uzun müddət durub, verəcəyi cavabı ciddi şəkildə götür-qoy eləyir. Sonra deyir:

– Zəhmət olmasa, müdiriyyətə müraciət edin. Pilləkənlə yuxarı, sonra da sola. Zəhmət olmasa!

Sonra o, tələsik əlini papağına aparıb yox olur.

Yetim kimi tək, çaşqın durmuşam. O, düz deyirdi. Məhz müdiriyyətə müraciət etməli idim. Axı bu aydın məsələdir. Sadə, sıravi bir əməkdaş bu sualın cavabını bilməyə qətiyyən borclu deyildi. Başına mehmanxana papağı qoyan,

hüquqsuz, küncə sıxılmış, heç fikirləşməyə belə vaxtı olmayan bir biçarə.

Kaş müdiriyyətə müraciət etməyə qətiyyətim çataydı! Təki tapaydım özümdə bu qətiyyəti. Lakin mis lövhəli, üst tərəfində o üzü görünməyən şüşə vurulmuş, həmişə yaxınlaşanda həyəcanla sivişib yan keçdiyim bu qapıya indi də ürəksiz baxıram. Axı hələlik burada qalmağımın pulunu da ödəməmişəm. Mən pul almalıyam, onu gözləyirəm. Pul da gəlib çıxmaq bilmir. Heç bir şeyim yoxdur, amma müəyyən bir yerdən, heç özüm də bilmirəm haradan, alacağım var, amma hələ gəlib çıxmır! Borcum isə elə hey böyüyür, böyüyür.

İçəri girməyə ürək eləmirəm. Yox, ora girməyə heç vaxt ürək eləmərəm. Aman, ilahi, bu dəhşətdir, mənim heç burada da qalmaq hüququm yoxdur, hətta bu cəhənnəmdə də!

Sakitcə öz otağıma gedirəm. Tozlu kaşı qalaqlarının üstündən keçərək, milləri kürəyimə sancılan çarpayıma yıxılıram. Düşüncələrə qərq oluram – düz yorğunluqdan halsız düşüb, özümü unudaraq yuxuya gedənə kimi.

Beləcə, uzanılı qalıram, xəstə, tənha. İllər uzunu. Artıq qalxmaq iqtidarında da deyiləm. Zaman dəhşətli sürətlə irəli şütüyür! Ətrafda səs-küylü qaynaşma var, nələrinsə uçurulmasını, nələrinsə tikilməsini duyuram. Düşünür, düşünürəm. Bütün bunlar nə üçündür, nə üçün? Nəyə lazımdır axı? Bura hər şeyi anlamaq, bunun gizli mənasını öyrənmək qətiyyətiylə gəlmişdim, özümün nəyə gərək olduğumu dərk etmək istəyirdim. Elə hey fikirləşir, fikirləşirdim. Ətrafda nəyisə taqqıldadır, guruldadırlar, nələrisə uçurub, təzədən tikirlər. Mən də məna axtarıram! Məna axtarıram! Aman, ilahi, əgər nə vaxtsa bütün bunların mənasını öyrənə bilsəm, özüm də işə girişərəm. Mən məna axtarıram!

İllər uzunu. İllər boyu. Qocalıram, artıq ağ saçları kilkələnmiş qocaya çevrilmişəm, əllərim qırışıb, çənəm əsir. Ətrafdakılar isə nəyisə mıxlayır, möhkəmlədirlər, qışqırır, anqırırlar. Şeytan əməlidir, məgər aydın deyil: dəqiq və dərindən fikir-

ləşmək üçün, həqiqətən, düşünüb, nəyisə tapmaq üçün insana heç olmasa bir az sakitlik, dinclik lazımdır! Məgər aydın deyil: bütün mənzərəni tam şəkildə seyr etmək üçün bu dərəcədə unudulmuş düzənsizlik olmamalıdır! İblis aparsın onları! Elə hey qocalır, qocalıram. Mən öləcəyəm, mən öləcəyəm axı!

Burada çıxılmazlığım, çaşqınlığım hədsiz olur, sərsəmləşir. Mən qızdırma içində çapalayıram yataqda, dəmir millər bədənimə sancılaraq qanadır, qan damlaları döşəməyə damcılayır. Şikayətlənərək ağlayıram, mən ağrıdan qışqırıram.

Məna! Məna!

Yox, onu özüm tapa bilməyəcəm! Özüm tapa bilməyəcəm!

Bəlkə, zəng çalıb, personalı çağırım? Bəlkə, personaldan kimsə kontora enib, öyrənsin bunu? Doğrudan, bəlkə, elə bir parça kağızda cavab yazacaqlar mənə?

Yox, yox! Bunun yerinə mənə hesabı göndərəcəklər. Mənim də ödəyəsi pulum yox, hələ məktub gözləyirəm, içində çoxlu-çoxlu pul olan məktub, o da ki gəlib çıxmaq bilmir. Müəyyən gözləntilərim var, mən onu müəyyən yerdən gözləyirəm, bilirəm ki, gələcək, bəlkə də, elə lap indicə yetişəcək. Amma o gəlmir, gəlib çıxmır, yox, bu həyatımda heç vaxt yetişməyəcək bir məktub! Burada qalmağa ixtiyarım yoxdur, kürəyimə sancılan bu çarpayıda uzana bilmərəm.

Hamı yorulmaq bilmədən çalışır. Mən isə məktub gözləyirəm. Başqaları döyəcləyir, mismarlayır, yapışdırır, malalayır, lak çəkirlər. Mən isə düşünürəm, bütün bunlarda məna axtarıram.

Bəlkə, zəng eləyim? Bəlkə, cavabı mənə bir parça kağızda yazarlar? Yox, yox! Heç nəyi bax beləcə, zəng vurub öyrənmək mümkün deyil! Heç nəyi kağızda yazmaq mümkün deyil!

İlahi!

Mən artıq ölümün yaxınlaşdığını hiss edirəm! Bəli, bəli! Mən tezliklə öləcəyəm! Artıq lap az qalıb!

Aman, ilahi, aman!..

Bu yerdə ayağa qalxıram. Səndirləyərək, otaqda gəzirəm. Paltarımı tapıram. Küncə atılmış, kif içində cır-cındırdır. Soyuqdan əsərək, onları əynimə geyirəm. Sonra çıxıb, pillələrlə ləngər vura-vura enirəm.

Yaxalığım yoxdur. Əlimlə boynumu örtməli oluram. Mənə gülürlər, lağ edirlər, dalımca tüpürürlər. Şüurum isə zorla dərk edir.

Nəhayət ki, müdiriyyətin qapısındayam. Özümü bir balaca tox tutmağa çalışıram. Kiflənmiş paltarlarıma bir az da bərk bürünürəm. Sonra isə, nəhayət, qapını açaraq, içəri girirəm.

Qoz ağacından olan parlaq piştaxtanın arxasında əynində əla tikilmiş sürtuk və zolaqlı şalvar olan, şəhadət barmağına göyqaşlı üzük, gözünə isə üst tərəfi düz xətt təşkil edən pensne taxmış bir cənab durub. Baş İblis şəxsən özü. O, mənə iti bir nəzər salır.

Əlimi boynumdan çəkmirəm. Barmaqlarımı kilkələnmiş saçlarımda gəzdirirəm. Sakit olmağa çalışıram, tamam sakit.

Mən piştaxtaya yanaşıram, ona ikiəlli söykənib, azacıq ona sarı əyilirəm.

– Bağışlayın, – deyirəm. – Bağışlayın, deyə bilərsinizmi... niyə yaşadım?

Mən bu sözləri dilim dolaşa-dolaşa, dişlərimi şaqqıldada-şaqqıldada, bütün vücudumla əsərək deyirəm.

O da piştaxtaya yanaşır. Əllərini ona söykəyir, zahirən eynən mənim kimi, amma, elə bil, həm də bir az başqa cür. Mənə tərəf əyilir, üstündə sancağı olan göy qalstuku var, ağzından gözəl iy gəlir. O deyir:

– Siz, özünüzü nəzərdə tutursunuz? Şəxsən özünüzü?

Mən razılıq əlaməti olaraq başımı tərpədirəm.

Onda böyük bir kitabı açıb baxır. Məni tapır. O, şəhadət barmağını yuxarıdan aşağı gəzdirərək, vərəqləri bir-bir çevirir, sağ tərəfində üç qırmızı sütunu olan təmiz vərəqləri.

Ağır vəziyyətdəyəm. Dəhşət içində. Sonra o, iti hərəkətlə kitabı örtüb, sərt baxışlarını vücuduma sancır.

– Bunu ancaq şeytan bilər! Ancaq şeytan!

Daha heç nə demir. Məni qınamır da heç. O heç mənə baxmır da, sakitcə öz işlərinə qayıdır.

Artıq bu məsələ onu qətiyyən maraqlandırmır. Heç maraqlandırmır onu.

Mən yumağa dönürəm, məhv olmuşam. Nəsə mızıldanıram, amma o eşitmir. Barmaqlarımı uşaq saçları kimi nazik, nəm saçlarımda gəzdirirəm və inamsız addımlarla qapıya sarı gedirəm. Pillələri enirəm, nəhəng holldan keçirəm. Taxta qalaqlarının, ayaqaltıların, saqqallı adamların arasından ötürəm. Lakin heç kəs dalımca təhqirlər, söyüşlər yağdırmır, məni itələmir, üstümə çığırmır. Daha heç kimi maraqlandırmıram. Daha heç kəsə maraqlı deyiləm.

Mən ölmüşəm.

Geniş, taybatay açıq qapıdan görünmədən keçirəm. Uzaqlaşıram, gəldiyim həmin o dibsiz qaranlığa üz qoyuram.

# LİFT İSƏ CƏHƏNNƏMƏ GEDİRDİ

Bank direktorunun müavini Yensson dəbdəbəli liftin qapısını açıb, kirşan və xəz qoxuyan zərif məxluqu yüngülcə irəli itələdi. Yumşaq oturacağa əyləşib bir-birinə möhkəm sıxıldılar və lift aşağı yollandı. Bəstəboy qadın şərab iyi verən yarıaçıq dodaqlarıyla Yenssona sarı dartındı və onlar öpüşdülər. Elə indicə otelin açıq terrasında, ulduzların altında şam eləmişdilər və indi əylənməyə gedirdilər.

– Yuxarıda qiyamət idi, əzizim! – qadın pıçıldadı. – Orada səninlə yanaşı oturmaq nə qədər poetikdir – sanki, lap, lap göylərdə, ulduzların arasında süzürdük. Yalnız orada anlamağa başlayırsan ki, məhəbbət nədir. Sən məni sevirsən axı, hə?

Bank direktorunun müavini öpüşlə cavab verdi, birincisindən də uzun bir öpüşlə. Lift aşağı düşürdü.

– Nə yaxşı ki, sən gəldin, mənim körpəcəm, – dedi. – Artıq özümə yer tapa bilmirdim.

– Hə, yaxşı oldu, kaş biləydin, o, necə dözülməzdir! Elə özümü təzəcə səliqəyə salmağa başlamışdım, soruşdu ki, hara gedirsən. “Hara lazımdır, ora”, – cavab verdim. Məhbus-zad deyiləm ki! Onda oturdu, gözlərini bərəldib zillədi mənə və düz geyinib qurtarana kimi eləcə baxdı – bej rəngli təzə paltarımı geyirdim; necə bilirsən, o paltar yaraşır mənə? Ümumiyyətlə, hansı paltarım daha yaxşı tutur məni? Bəlkə, çəhrayı yaxşıdır?

– Sən al da geysən yaraşar, şal da, sevgilim, – bank direktorunun müavini heyranlıqla cavab verdi, – amma bugünkü qədər gözqamaşdırıcı olduğunu hələ heç vaxt görməmişdim.

Minnətdarlıqla gülümsünən qadın qısa kürkünün düymələrini açdı və onların dodaqları uzun bir öpüşdə bir-birinə qovuşdu. Lift aşağı düşürdü.

– Sonra, artıq tam hazır olanda və evdən çıxanda yapışdı qolumdan, elə sıxdı ki, indiyədək ağrıyır, heç olmasa bir söz deyəydi! Yaman kobuddur, sən heç təsəvvürünə də gətirə bilməzsən bunu! "Yaxşı, sağ ol", – dedim ona. Təbii ki, bunu da cavabsız qoydu. O qədər tərsdir ki, daha tabım yoxdur ona.

– Mənim yazıq körpəcəm, – bank direktorunun müavini Yensson dedi.

– Sanki, mənim bir qədər əylənməyə də ixtiyarım yoxdur! Amma bilirsən, onun kimi ciddi adam, bəlkə də, heç bütün yer üzündə yoxdur. Heç nəyə sadə, təbii baxa bilmir, onun üçün hər şey ölüm-dirim məsələsidir.

– Yazıq körpəcəm, nələrə dözməli olursan sən!

– Oo, əgər bilsən, mən necə dəhşətli əzab çəkirəm, dəhşətli. Belə əzabı kimsə görməyib. Yalnız səninlə rastlaşandan sonra məhəbbətin nə olduğunu bilmişəm.

– Əzizim! – Yensson onu qucaqlayaraq dedi. Lift aşağı düşürdü.

– Necə gözəldir, – qucaqlaşmanın ləzzətindən özünə gəlib dilləndi, – səninlə orada, yuxarıda oturub ulduzlara baxmaq və xəyala dalmaq; oo, mən bunu heç vaxt unutmaram. Axı Arvid o qədər dözülməzdir ki, haçan baxırsan ciddidir, bir damcı da poeziya yoxdur onda, poeziya onunçün əlçatmaz bir şeydir.

– Təsəvvür edirəm, əzizim, lap dəhşətdir.

– Düzdür, dəhşətdir. Yox, – qadın gülümsünərək əlini ona uzatdı, – nə mənası var oturub, belə şeylərdən danışmağın? İndi çıxarıq, yaxşıca əylənərik. Sən məni sevirsən, hə?

– Əlbəttə, özü də necə! – bank direktorunun müavini sevincək oldu və uzun bir öpüşlə qadının dodaqlarından sallaşdı. Lift aşağı düşürdü.

Yensson ona sarı əyildi, nəvazişlər yağdırmağa başladı; qadın qızardı.

– Biz bu gecə bir-birimizi heç vaxt olmayan kimi sevəcəyik, deyilmi?.. – pıçıldadı. Qadın onu özünə tərəf çəkdi və gözlərini yumdu. Lift aşağı düşürdü.

Elə hey düşür, düşürdü.

Nəhayət, Yensson qalxdı, üzü pörtmüşdü.

– Bu liftə nə olub, görəsən? – təəccübləndi. – Niyə dayanmır bu? Məncə, biz nə vaxtdan buradayıq, lap çoxdan, oturub söhbət edirik, elə deyil?

– Elədir, əzizim, düz deyirsən. Vaxt da yaman tez keçir axı.

– Bir Tanrı bilir nə vaxtdan oturmuşuq burada! Bu nədir belə?

O, qapının barmaqlıqları arasından baxdı. Qatı zülmət idi, başqa heç nə. Lift isə elə hey enirdi, özü də yaxşı sürətlə, rahat enirdi, getdikcə daha dərinə, daha aşağı.

– Aman, Tanrım, bu nədir, görəsən? Elə bil, dibsiz quyuya düşürük, artıq nə vaxtdandır belədir!

Onlar bu dibsizlikdə nəsə görməyə çalışırdılar. Qatı zülmətdən savayı, bir şey görünmürdü. Onlar isə daha da dərinə enirdilər, getdikcə daha dərinə.

– Cəhənnəmə düşürük, – Yensson dedi.

– Mən qorxuram, sevgilim, – qadın onun qolundan sallaşaraq ağlamsındı. – Xahiş edirəm, qəza dəstəyini çək!

Yensson var gücü ilə dəstəyi dartdı. Kömək etmədi: lift elə bayaqkı kimi aşağı tələsirdi, nəhayətsizliyə.

– Dəhşətdir bu! – o çığırdı. – Bəs nə edək biz?!

– Burada nə gələr ki, əlimizdən? – Yensson dilləndi. – Lap sayıqlamadır ha, yuxuya oxşayır.

Bəstəboy qadını bir çıxılmazlıq çulğadı, hönkürtü çəkdi.

– Bəsdir, əzizim, ağlama, buna şüurlu yanaşmalıyıq. Onsuz da əlimiz bir yana çatmayacaq. Belə, indi gəl, oturaq... Sakitcə oturaq, yanaşı, baxaq görək axırı nə olur. Haradasa dayanmalıdır axı bu zəhrimar, heç olmasa iblisin dərgahında!

Beləcə oturub gözləyirdilər.

– Sən bir işə bax, – qadın dilləndi, – gərək bizim başımıza gələydi bu, özü də əylənməyə hazırlaşanda!

– Hə, çox sarsaq işdir, – Yensson razılaşdı.

– Sən məni sevirsən, elədir?

– Mənim sevgili körpəcəm! – Və Yensson onu bərk-bərk sinəsinə sıxdı. Lift isə aşağı enirdi.

Nəhayət, durdu. Ətrafdakı parlaq işıq gözləri kor edirdi. Onlar cəhənnəmdə idilər. Şeytan nəzakətlə liftin barmaqlıqlarını açdı və əməlli bir təzim edib dedi:

– Axşamınız xeyir!

Şıq geyinmişdi, ancaq frakı arxadan domba dururdu, elə bil, paslı mismar vardı kürəyində: şeytanın tüklü peysərindən aşağı, birinci fəqərəsi yaman donqar dəyirdi gözə. Başları gicəllənən Yensson və qadın birtəhər liftdən çıxdılar.

– Biz haradayıq, aman, allahım?! – qışqırışdılar, bu eybəcər məxluqu görəndə uçunma tutmuşdu onları.

Şeytan bir az sıxıla-sıxıla, onlara hara düşdüklərini anlatdı.

– Amma bu camaatın fikirləşdiyi qədər dəhşətli deyil, – tələsik əlavə etdi, – ümidvaram, cənabınız hətta ləzzət alacaq burada. Bircə günlük təşrif gətirmisiniz, elə bilirəm, hə?

– Hə-hə! – sevincək olmuş Yensson təsdiqləməyə tələsdi. – Yalnız bircə gecəlik! Artıq qalmaq fikrimiz yoxdur qətiyyən!

Bəstəboy qadın tir-tir əsərək, onun dirsəyindən yapışmışdı. Sarı-yaşıl işıq o qədər kəskin idi ki, ətrafda nəyisə görmək, demək olar, mümkün deyildi. İşlər pis idi, bunu anlayırdılar. Gözləri bir az öyrəşəndə, gördülər ki, ətrafında evlərin ucaldığı, zülmət içində olan bir meydandadırlar, evlərin pəncərələrindən qırmızı işıq düşürdü bayıra, bəlli idi ki, içəridə alov tüğyan edir.

– Cənabınız, deyəsən, sevgilisiniz, deyilmi? – şeytan maraqlandı.

– Bəli, çox sevirik bir-birimizi, – qadın cavab verdi və onun gözəl gözləri parladı.

– Onda xahiş edirəm, mənim dalımca buyurasınız, – lütfkarcasına təklif elədi. Bir neçə addım keçəndən sonra, onlar meydandan qaranlıq döngəyə çöndülər. Kirli giriş qapısının üstündən köhnə, çatlaq fənər asılmışdı. – Bura buyurun. – O, qapını açdı və nəzakətlə bir addım dala atıb, onları irəli buraxdı.

İçəri girdilər. Onları gönbul, yaltaq bir təbəssümlə gülümsünən, iridöşlü, saqqal və bığında bənövşəyi kirşan yumruları olan şeytan qarşıladı. O fıs-fıs fısıldayırdı, istiot dənələrinə oxşayan gözləri təzə gələnlərə havadar kimi, dostyana baxırdı, alnındakı buynuzların ətrafı saçlarıyla hörülmüşdü və mavi ipəkdən lentlərlə bağlanmışdı.

– Ah, cənab Yenssondur, bir xanımla! Buyurun səkkizinci nömrəyə, – deyərək, böyük bir açar uzatdı onlara.

Onlar kirli pilləkənlə yuxarı qalxdılar. Pillələr yağdan parıldayırdı, adam sürüşüb yıxıla bilərdi; iki pilləkən qalxası oldular. Yensson səkkizinci nömrəni tapdı və onlar içəri girdilər. Otaq böyük deyildi, havası da ağır, boğucu. Düz ortasında, üstündə kirli süfrəsi olan stol, divarın dibində nimdaş mələfəli çarpayı dururdu. Otaq onlara rahat gəldi. Paltolarını çıxardılar və dodaqları uzun bir öpüşdə qovuşdu.

Digər qapıdan ofisiant paltarı geymiş birisi səssizcə içəri girdi, amma smokinqi səliqəli idi, yaxalığı isə elə təmizdi, sanki, alaqaranlıqda işıq saçırdı. O, səssiz yeriyirdi, addımları eşidilmirdi və hərəkətləri də, elə bil, avtomatik idi, sanki, nə etdiyini başa düşmürdü. Ciddi sifətindəki hərəkətsiz gözləri düz qənşərinə baxırdı. Üzündə ölü bəyazlığı vardı, gicgahında isə güllə dəliyi qaralırdı. O, otağı səliqəyə saldı, tualet masasını sildi, gecə vazasını, zibil vedrəsini qoydu.

Onlar bu şəxsə heç fikir vermirdilər, lakin o getməyə hazırlaşanda Yensson dedi:

– Bəlkə, bir az şərab götürək, bizə yarım şüşə madera gətirin, zəhmət olmasa.

Kişi baş əyib, yox oldu.

Yensson pencəyini çıxardı. Qadın tərəddüddə idi:

– O qayıdacaq axı.

– Balası, tərpən, belə yerlərdə utanmağın adı yoxdur, soyun getsin.

Qadın paltarını çıxardı, tumanını nazlı bir əda ilə çəkib, onun dizləri üstündə oturdu. Bu, qiyamət idi.

– Bir düşün, – o pıçıldadı, – biz səninlə belə qeyri-adi, romantik bir yerdəyik, birlikdəyik! Necə poetikdir! Bunu ömrüm boyu unutmaram...

– Mənim gözəlim, – o dedi və dodaqları uzun bir öpüşdə bir-birinə qovuşdu.

Adam bir də içəri girdi, yenə də tam səssiz. Yenə də sakit, avtomatik hərəkətlərlə qədəhləri qoydu, şərabı süzdü. Masanın üstündəki gecə işığının nuru onun üzünə düşdü. Sifətində diqqəti cəlb edəcək məxsusi bir şey yox idi, sadəcə, ölü bəyazlığı vardı üzündə, gicgahında isə güllə dəliyi qaralırdı.

Qadın qışqırıb Yenssonun dizindən düşdü.

– Aman, ya rəbbim! Arvid! Bu, sənsən! Sən! İlahi, o ölüb! O, özünü güllələyib!

Adam hərəkətsiz durmuşdu, baxışları bayaqkı kimi, düz qənşərinə yönəlmişdi. Onun sifətində əzab yox idi, ciddi idi, çox ciddi.

– O, Arvid, sən nə etdin, nə etdin! Niyə etdin bunu?.. Əzizim, əgər mənim ağlıma belə bir şey gəlsəydi, inandırıram səni, evdə qalardım, səninlə qalardım. Sən mənə bu barədə heç nə demədin gedəndə, bircə kəlmə də demədin! Mən axı haradan biləydim, sən susurdunsa, haradan ağlıma gələydi? Aman, ilahi!..

O, tir-tir əsirdi. Kişi isə qadına yad, tanış olmayan adam kimi baxırdı, nəzərləri buz kimi soyuq və rəngsiz idi, bu baxış qarşısındakı hər şeyi dəlib keçirdi. Bəyaz-sarı sifəti parlayır, yarasından qan gəlmirdi, orada ancaq qaralan bir dəlik vardı.

– Oo, dəhşətdir bu, dəhşət! – qadın qışqırdı. – Mən burada qalmaq istəmirəm. Gedək, elə bu dəqiqə gedək, buna dözə bilmirəm!

Paltarını, gödəkçəsini və şlyapasını qapıb, otaqdan bayıra atıldı. Yensson onun dalınca tələsdi. Onlar pillələrlə aşağı cumdular, qadın sürüşdü və düz tüpürcək lombalarının,

siqar külünün üstünə oturdu. Aşağıda elə həmin buynuzlu qarı durmuşdu, o, dostyana, havadarcasına gülümsünür, başını tərpədirdi.

Küçədə onlar bir az sakitləşdilər. O geyindi, bəzək-düzəyini qaydaya saldı, burnunu kirşanladı. Yensson, onu müdafiə edirmiş kimi, belini qucdu, öpüşləriylə gözlərindən sıçramağa hazır olan yaşları saxladı, o yaman mehriban idi. Tələsik meydana tərəf addımladılar.

Müdir-şeytan elə bayaqkı kimi gəzişirdi orada, onlar yenə rastlaşdılar.

– Necə, bitdi artıq? – dedi. – Ümidvaram, cənabınız razı gedir?

– Oo, bu, dəhşət idi! – qadın səsini ucaltdı.

– Belə deməyin, ola bilməz ki, siz, həqiqətən, belə düşünəsiniz. Xanım, bir görsəydiniz buralar keçmiş zamanlarda necəydi! İndi artıq cəhənnəmdən şikayətlənmək, sadəcə, günahdır. Biz hər şey edirik ki, insan nəinki ağrı duymasın, həm də ləzzət alsın.

– Hə, düz sözə nə deyəsən, – cənab Yensson razılaşdı, – etiraf etmək lazımdır ki, buralar xeyli insanpərvər olub indi.

– Oo, əlbəttə, – şeytan dilləndi, – yuxarıdan aşağıya kimi, hər şey, necə lazımdır, modernləşdirilib.

– Əlbəttə, zamanla ayaqlaşmaq gərəkdir.

– Hə, indi ancaq mənəvi əzablar qalıb.

– Tanrıya şükürlər olsun! – qadın dilləndi.

Şeytan nəzakətlə onları liftə ötürdü.

– Görüşənədək, – deyib, əməlli bir təzim etdi, – və yenidən görüşmək ümidiylə.

O, qapını örtdü. Lift yuxarı qalxdı.

– Nə yaxşı ki, bitdi bu, – bir-birinə sıxılıb yumşaq oturacağa çökəndə, hər ikisi yüngülləşibmiş kimi dilləndi.

– Sənsiz mən heç dözə bilməzdim buna, – qadın pıçıldadı.

O, qadını özünə tərəf çəkdi və dodaqları uzun bir öpüşdə qovuşdu.

– Bir düşün, – kişinin qucağından ayrılaraq, özünə gələn qadın dedi, – gör bir o nə etdi! Amma həmişə birtəhər adam olub o. Sadə, həyati şeylərə adi, təbii baxa bilmirdi, onun üçün hər şey ölüm-dirim məsələsiydi.

– Sarsaq işdir...

– Axı mənə bir kəlmə deyə bilərdi də, elə deyil? Mən evdə qalardım. Səninlə başqa vaxt da görüşə bilərdik.

– Əlbəttə, – Yensson dedi, – əlbəttə, başqa bir vaxt görüşərdik.

– Amma, sevgilim, bu nədir ee, oturub gör nə barədə danışırıq, – qadın pıçıldayaraq kişinin boynunu qucaqladı. – Artıq hər şey arxadadır.

– Hə, mənim körpəcəm, hər şey arxadadı.

O, qadını ağuşuna aldı. Lift isə yuxarı qalxırdı.

# QƏHRƏMANIN ÖLÜMÜ

Yeni əyləncələr tamarzısı olan bir şəhərə Konsorsium aşağıdakı şərtlərlə akrobat dəvət etmişdi: o, əvvəlcə kilsə qülləsinin lap təpəsində müvazinətini saxlamaqla təpəsi üstə durmalı, sonra isə, oradan yerə düşüb parça-parça olmalıydı. Bunun əvəzində isə akrobat beş yüz min alacaqdı. Təşəbbüs bütün təbəqələrdən olan şəhər sakinlərində canlı maraq doğurmuşdu. Biletlər bir neçə gündə satılıb qurtarmışdı və hamı yalnız qarşıdakı hadisədən danışırdı. Bax buna deyərəm cəsarət – daha sözüm yoxdur! Pulu da babatdır, ha! Düzdür, o hündürlükdən yıxılıb param-parça olmaq adama heç ləzzət eləməz, amma məbləğ də az deyildi, gərək insafən, burasını da etiraf edəsən.

Əyləncənin təşkilatçısı simasında çıxış edən Konsorsium, həqiqətən də, xəsislikdən uzaq idi və vətəndaşlar öz doğma şəhərlərində belə bir tamaşanın baş tutacağından, haqlı olaraq, qürur hissi keçirə bilərdilər. Təbii ki, bunu boynuna çəkən insanın şəxsiyyəti qeyri-adi marağa səbəb olmuşdu. Reportyorlar bu cəsuru, sözün əsl mənasında, qarabaqara izləyir, bircə addımını belə gözdən qoymurdular, axı tamaşaya cəmi bir neçə gün qalmışdı. O, jurnalistləri şəhərin ən yaxşı mehmanxanasındakı otağında gülərüz qarşılayırdı.

– Hə, bu mənim üçün, sadəcə, razılaşmadır. Bəlli məbləğ təklif olundu, mən də razılaşdım. Vəssalam.

– Bəs sizi narahat etmir ki, buna görə həyatınızı qurban verməli olacaqsınız? Təbii ki, burada başqa sonluqdan söhbət gedə bilməz, çünki onda sensasiya baş tutmazdı, Konsorsium da bu boyda məbləği vəd etməzdi. Amma, hər halda, bu işdə şəxsən sizin üçün sevindirici bir şey görünmür.

– Elədir ki var, haqlısınız, mən özüm də bu barədə düşünmüşəm. Lakin pul üçün nəyə razılaşmazsan ki!

Onun dediyi bu sözlərə istinad edən mətbuat həmin anadək heç kəsin tanımadığı şəxs barədə geniş yazılar dərc edir, onun keçmişi, dünyaya baxışı, müasir dövrün müxtəlif problemlərinə münasibətindən dəm vururdu. Onun xarakterinə və şəxsi həyatına da xeyli yer ayrılırdı.

Qəzetlərin heç biri qəhrəmanın şəkli olmadan işıq üzü görmürdü. Qəzet sütunlarından sizə cavan, düzgün biçimli, güclü bədənə malik, məxsusi bir cəhətiylə fərqlənməyən, enerjili, aydın sifətli, canlı və nisbətən özünə arxayın, qətiyyətli və sağlam düşüncəli insan – bir sözlə, müasir gəncliyin ən yaxşı kəsiminin bir nümayəndəsi baxırdı. Onun portretini hər bir kafedə müzakirə edir, öyrənirdilər: Adamlar qarşıdakı sensasiyaya hazırlaşırdılar. Hamının rəyi üst-üstə düşürdü; o, kifir deyildi, hətta suyuşirin idi də, qadınlar isə onu lap cazibədar sayırdılar. Ağıldan iti olan bəziləri isə çiyinlərini çəkərək deyirdilər: “Yaxşı fikirləşiblər!” Amma hamı bir fikirlə razılaşırdı ki, bu qəribə, fantastik ideya yalnız yaşadığımız, sürətli həyat ritminə malik, hər şeyi qurban verməyə qadir olan bizim əsrdə meydana çıxa bilərdi. Hamının fikri yekdil idi ki, bu ideyanı heç bir məsrəfə məhəl qoymadan həyata keçirən, şəhərə belə bir əyləncə bəxş eləyən Konsorsium hər cür tərifə layiqdir. Görünür, Konsorsium məsrəfləri satılan biletlərin pulu hesabına ödəmək niyyətindəydi – biletlər çox baha satılırdı, amma yenə də müəyyən bir risk mövcud idi.

Nəhayət ki, həmin o əlamətdar gün yetişdi. Kilsənin ətrafındakı məhəllə camaatla dolu idi. Gərginlik özünün son həddinə yetişmişdi. Adamlar nəfəslərini içinə çəkib, baş verəcək hadisəni gözləyirdilər.

O, həqiqətən də, yıxıldı. Hər şey çox tez baş vermişdi. Tamaşaçılar diksindilər, sonra isə içlərində müəyyən xəyal qırıqlığı, evlərinə dağılışmağa başladılar.

Bu, təbii ki, çox qiyamət idi, amma... Eləcə yıxılıb parça-parça oldu. Deyəsən, belə sadə bir şeyə baxmaq üçün həddindən çox pul vermişdilər. Təbii ki, o hündürlükdən yerə düşəndə tamam parça-parça oldu, amma sevindirici bir şey vardımı bunda? Ümidlərlə dolu bir gənc həyatına "əlvida" demişdi.

Narazı vətəndaşlar başlarını aşağı salıb evlərinə dağılışırdılar, xanımlar da çətirlərini açdılar ki, günəşin şüalarından qorunsunlar. Yox, belə dəhşətli şeylərin nümayişinə qadağa qoymaq lazımdır. Kim ləzzət alır bu cür şeylərdən? Əgər dərindən düşünsən, lap biabırçılıqdır bu.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# ZİRZƏMİDƏ

Biz onu, demək olar ki, hər gün görmüşük və görürük də. Əhəmiyyət vermirik və yanından keçərkən onun barəsində heç düşünmürük də, sanki, elə həmişə burada olmalıdır, sanki, həyatımızın ayrılmaz bir parçasıdır o. Mən ayaqları qurumuş, gön əlcəkli əlləriylə yerdən itələnərək küçə və bulvarlarla sürünən Lindqren barədə deyirəm; onun ayaqları da meşinə tikilib. Qısa saqqallı üzündəki əzabı xırda, müti gözləri ifadə etmək gücündə deyildi. Biz onunla daim qarşılaşmışıq və qarşılaşırıq da, ona özümüzün bir parçası kimi adət etmişik, heç görmürük də. Yanından ötəndə qurumuş əlinə xırda pul qoyuruq, axı o da yaşamalıdır. Lakin bu qoca barədə, demək olar, hamı bircə onu bilir ki, yer üzündə belə bir insan da var. Buna görə də onun barəsində bildiklərimin hamısını sizə danışacağam.

Mən bu qoca ilə söhbətləşmək üçün tez-tez ayaq saxlayırdım, onda müsbət, sakitlik gətirən nəsə vardı, onunla danışmaqdan xoşum gəlirdi. Elə tez-tez ayaq saxlayırdım ki, yoldan ötənlər elə bilərdi bu zavallı mənim qohumumdur. Amma elə deyil. Bizim nəsildə şikəst yoxdur, çiynimizə düşən kədər payını da elə çəkirik ki, heç kəsin ondan xəbəri olmur. Lakin mən düşünürəm ki, hərdən ayaq saxlayıb onunla kəlmə kəsmək lazımdır – elə onun özü üçün də kiminləsə danışmaq lazımdır ki, özünü rədd edilmiş saymasın, bu elə mənim özümə də lazımdır, çünki qocanın danışası sözləri çoxdur.

Mənə qətiyyən elə gəlmirdi ki, aramızda dərin bir uçurum var; tez-tez fikirləşirdim ki, əgər ayaqlarım qurusaydı, onun kimi yer üzündə sürünməyə məcbur qalsaydım, qəribə bir şey olmazdı və bu taleyin niyə məhz mənə nəsib olduğuna

heyrətlənməyə heç bir əsasım olmazdı. Beləliklə, bizim aramızda nəsə ümumi cəhətlər də vardı.

Bir payız axşamı onunla, adətən, sevgililərin görüşdüyü parkda rastlaşdım. O, fənərin altında, işıqlı bir yerdə uzanıb arıq əlini açmışdı, hərçənd ki, ətrafda bir kimsə gözə dəymirdi; bəlkə, elə fikirləşirdi ki, sevən insanlar daha səxavətli olurlar, amma, çox güman, dünyanın gərdişindən baş çıxarmadığı üçün əlini harada gəldi açıb irəli uzadırdı; bəlkə də, elə buralarda, yaxında yaşayırdı. Yağış təzəcə kəsmişdi, hər yan gölməçə idi və Lindqren tamam palçığa bulaşmışdı, görkəmində bir yorğunluq, xəstəhallıq vardı.

– Evə getmək vaxtı deyil, Lindqren? – dedim. – Artıq gecdir.

– Hə, – deyə cavab verdi, – tərpənmək vaxtıdır, deyəsən.

– Bir az ötürərəm sizi. Harada yaşayırsınız?

Ünvanını dedi, bəlli oldu ki, evlərimiz bir-birinə lap yaxındır, yolumuz da eyniydi.

Biz küçəni çəpinə keçdik.

– Yol keçməkdən qorxmursunuz? – soruşdum.

– Yox, niyə qorxuram ki, – cavab verdi. – Mənə qarşı hamı çox diqqətlidir. Dünən polis məxsusi mənim üçün yoldakı hərəkəti dayandırdı. Düzdür, tapşırdı ki, bir az tələsim, amma bunda qəribə bir şey yoxdur. Yox, yox! Məni burada hamı tanıyır, adət eləyiblər artıq.

Biz aramla yolumuza davam edirdik. Addımbaşı ayaq saxlamağa məcbur idim, yoxsa yetişə bilməzdi mənə. Yağış çisəməyə başladı. O, mənim yanımca sürünür, kirli əlləriylə daşlardan yapışıb bədənini irəli çəkirdi, lap öz yuvasına girmək istəyən yorğun bir heyvan kimi.

Lakin o, elə mənim kimi bir adam idi, danışır, köksünü ötürürdü, həmin axşamın tutqun havasından, ətrafdakı fənərlərin adda-budda yanmasından onu yaxşı görə bilməsəm də, eşidirdim, mənə çatmaq üçün tələsərkən necə əziyyət çəkdiyini hiss edirdim.

– Öz taleyinizdən şikayətçi deyilsiz ki, Lindqren? – deyə soruşdum. – Yəqin, daim fikirləşirsiniz ki, bu nə acı taledir?

– Yox, – cavab verdi. – Yəqin, çox qəribə gələr sizə, amma mən heç də düşünmürəm ki, taleyim başqalarının fikirləşdiyi dərəcədə ağırdır. Adam hər şeyə adət eləyir. Mən axı anadan belə doğulmuşam. İnsan sağ-salamat olanda, sonra birdən başına belə hadisə gələndə çox pis olur. Yox, dərindən düşünəndə, məncə, şikayətlənməyə elə bir əsasım yoxdur. Adamlar var ki, daha çətin vəziyyətdə yaşamağa məcburdular. Mən başqalarının dözməli olduğu çox problemlərdən azadam. Sakit ömür sürürəm, taleyim mənə mərhəmət göstərir. Əgər fikir versən, araşdırsan, bəlli olar ki, mən həyatda ancaq yaxşı şeyləri görürəm.

– Necə yəni? – təəccübləndim.

– Hə də, ancaq yaxşı adamlarla rastlaşıram, çünki yalnız yaxşılar mənə sədəqə vermək üçün ayaq saxlayırlar. Başqalarını heç tanımıram, onlar həmişə məndən yan ötürlər.

– Siz, Lindqren, deyəsən, hər şeyi yaxşıya yozmaqda bacarıqlısınız! – istəmədən gülümsünərək, dedim.

– Yox, həqiqətən, elə dediyim kimidir, – ciddi bir tərzdə etiraz elədi. – Və bunu qiymətləndirmək lazımdır.

Amma, əslində, mən onun sözlərinə tam ciddi yanaşırdım. Anladım ki, həqiqət onun tərəfindədir. Dünyada yalnız yaxşını görənlər, doğrudan, xoşbəxtdirlər.

Biz elə hey gedirdik. Yaxınlıqdakı zirzəmidə yerləşən dükanın işığı yanırdı.

– Mən bir çörək alım, – deyib, dükanın pəncərəsinə tərəf sürünərək onu tıqqıldatdı.

Əlində səliqəli bir paket olan qız çıxdı içəridən.

– Axşamınız xeyir, Lindqren, – dedi. – Havaya bax ha! Vaxtdır, evə getmək vaxtıdır.

– Hə, vaxtdır, – qoca cavab verdi, onlar başlarını tərpədib sağollaşdılar və qız qapını örtdü.

– Mən hər şeyi ancaq zirzəmilərdən alıram, – bunu yolumuza davam edəndə dedi.

– Hə, başa düşürəm, – cavab verdim.

– Ordakı insanlar həmişə gülərüz olurlar.

– Aha, ola bilər.

– Yox, həqiqətən, elədir, – israrla dedi.

İndi də hansısa qaranlıq, kələ-kötür döngələrdən keçirdik.

– Mən özüm də zirzəmidə yaşayıram; siz, yəqin, elə də fikirləşirdiniz, hə? – sözünə davam edirdi. – Zirzəmidən xoşum gəlir. Hər şeyi bizim binanın yiyəsi düzüb-qoşub. Gözəl insandır.

Beləcə, küçələrdən ötürdük.

Heç vaxt hiss etməmişdim ki, evimiz bu qədər uzaqdır. Yorulub, əldən düşmüşdüm, mənə elə gəlirdi ki, bütün insanlar kimi yerimirəm, qaranlıqda dəhşətli əzablar bahasına sürünürəm. Hər dəfə fənərin altına yaxınlaşanda Lindqreni ayaqlarımın yanında görürdüm, sonra isə yenə yoxa çıxırdı və mən yalnız onun hərdən tutulan nəfəsini eşidirdim.

Nəhayət ki, əvvəlcə onların küçəsinə çatdıq, sonra da yaşadığı binaya. Böyük, gözəl bir ev idi, demək olar ki, bütün pəncərələrində işıq yanırdı, ikinci mərtəbəsində isə, görünür, qonaqlıq vardı: çilçıraqlar parlayır, payızın çamuruna musiqi sədaları qarışır, rəqs eləyən siluetlər gözə dəyirdi. Lindqren öz pilləkəninə yetişdi – aşağı enən üç-dörd pillə onun mənzilinə aparırdı. Elə oradaca qabağından parça asılmış pəncərəsi görünürdü, qabağında da ançous konservinin tənəkə qutusunda əkilmiş çiçək qoyulmuşdu.

– Buyurun içəri, səmimi sözümdür, görün necə yaşayıram, – dedi.

İçəri girmək fikrində deyildim. Başa düşmürdüm ki, bu, mənim nəyimə gərəkdir. Özümü birtəhər hiss elədim. İçəri niyə girim axı? Dost deyildik ki, yolumuz eyniydi deyə, sadəcə ötürürdüm onu, evinə gəlmək niyyətim yox idi.

Fikrə getdim: ikinci mərtəbədəki qonaqlıq olan mənzildə tanışlarım yaşayırdılar. Qəribə idi ki, qonaqlığa məni dəvət eləməmişdilər, – yəqin, yaddan çıxmışdım.

– Cənab, sizi içəri dəvət etməyimdən incimirsiniz ki? – deyə mənim susmağımdan narahat olmuş qoca dilləndi.

– Yox, – deyə cavab verdim.

Yox, o, məni düzgün başa düşmədi, mən "hə, hə" deyəcəkdim, deyəcəkdim ki, içəri girib, necə yaşadığına baxmaq istəyirəm.

O, pillələri enib, qapısını açmaq üçün açarını çıxardı. Açar yerinin Lindqrenin əli çatması üçün çox aşağıda qoyulması da diqqətimi çəkdi.

– Ev sahibi belə düzəltdirib, – dilləndi. – Hər şeyə fikir verir, qayğımı çəkir.

Qapı açıldı, biz içəri girdik. O, işığı yandırıb, ətrafa göz gəzdirdi. Balaca, yoxsul bir otaq idi, soyuq daş döşəməsinə süzülmüş kilim salınmışdı. Ortada ayaqları mişarlanmış stol və iki dənə alçaq stul dururdu. Küncdəki sobada isə, görünür, qoca öz xörəyini bişirirdi. Anbar rolunu oynayan rəfdə isə ağızları parça ilə örtülü şüşə bankalar və səliqəylə quru çörək tikələri düzülmüşdü, görünür, bu, çörək parçalarını qəhvəyə batırıb yeyirdi; rəfi ağ kağızdan krujeva bəzəyirdi. Divarın dibində isə çarpayı, daha doğrusu, alçaq taxt vardı, üstünə təmiz, səliqəli örtük salınmışdı.

Əməlli-başlı yoxsulluğa baxmayaraq, otağın hər tərəfində bir səliqə-sahman, rahatlıq vardı.

Bilmirəm nədən, amma otağı nəzərdən keçirəndə, dəhşətli bir darıxmaq tutdu məni.

Nəyinə lazım idi bu səliqə? Onun yerində mən pintiliyə, kirə-pasa üstünlük verərdim, heyvan kimi girib, içində gizlənmək mümkün olan bir yuvaya, deşiyə üstünlük verərdim – bu mənim üçün daha asan olardı. Burada isə bir təmizlik və səliqə vardı. Otaqda sürünərək rahat məskəninə əl gəzdirməyə başladı: qalxıb, içində çiçəklər olan vazaya su tökdü,

sonra da aşağı sürüşərək, yeşikdən mavi rəngə boyanmış süfrə çıxardı, stolun üstünə sərib, fincanları, nəlbəkiləri düzdü.

Onun bütün bu işləri, adəti üzrə necə gördüyünə baxanda ürəyim paralanırdı. Əlcəklərini çıxarmışdı, ovucları düz, kobud idi. Ocağın yanında uzandı, sobanın lüləsindən yanan alovun səsi eşidilənə kimi ocağı körükləyib yandırdı, kömür əlavə elədi və qəhvədanı odun üstünə qoydu. Ona heç bir kömək edə bilməzdim: hər şeyin yerini yalnız özü bilirdi. Hər işi dəqiq, səlis görürdü, hiss olunurdu ki, bu kiçik işlərdən, qayğılardan necə zövq alır. Arabir gözlərindəki səmimi ifadəylə mənə də nəzər salırdı. Burada, öz evində tamam başqa adam olmuşdu, mehriban, sakit. Tezliklə qəhvədan qaynadı və bütün otağa qəhvə iyi yayıldı. Hər şey hazır olandan sonra stulun üstünə çətinliklə çıxıb üzündə məmnunluq təbəssümü yerini rahatladı. Qəhvəni fincanlara süzdü və içməyə başladıq. Vücuduma şirin bir hərarət gətirdi onun qəhvəsi. O, belə hesab edirdi ki, mən də çörəkdən bir tikə götürüb yeməliyəm, amma mən bunu eləyə bilməzdim. Özü isə qəribə bir təntənə ilə yeyir, tikələri aramla qopararaq, bütün qırıntıları toplayırdı. Elə yeyirdi, sanki, müqəddəs bir ayin icra edirdi. Gözləri parlayırdı. Mən heç vaxt görməmişdim ki, insanın sifəti belə parlaya, bu cür sakit bir nura qərq ola.

Həm riqqətə gəlmişdim, həm də onu belə gördüyümdən əzilirdim. Bədbəxtliyinə kişi kimi dözmək üçün haradan güc tapırdı, görəsən? Mən bura təsadüfən, onun yuvada necə yaşamasına baxmaq üçün gəlmiş tamamilə sağlam bir adamam, – lakin indi özümü heç ələ ala bilmirdim.

“Hə, – düşünürdüm, – yəqin, onun başqa, gizli ümidləri var, bəlkə də, mömindir, mömin olsa, hər şeyə dözər, heç nədən qorxmaz”. Birdən xatırladım ki, ondan məhz elə bu barədə soruşmaq istəyirdim, axı bu mətləb məni də incidir, heç vaxt rahat buraxmır, vücudumun müqavimət göstərdiyi dərinliklərə sürükləyirdi. Əslində, elə buna görə yolu onunla gəlmişdim də – bu barədə soruşmaq istəyirdim.

Yoxsa burada nə işim vardı ki. Ancaq bunu soruşmaq üçün gəlmişdim.

– Mənə cavab verin, Lindqren, – deyə sözümə başladım, – insanın həyatı belə, sizinki kimi olanda, bu qədər məhrumiyyətlərə dözəndə, insanda qeyri-adi bir qüvvəyə, sənə belə ağır tale yazmış və bununla da nəsə çox ali bir məqsədə can atan qüdrətli Tanrının varlığına başqalarından daha artıq inanmaq ehtiyacı yaranmır ki?

Qoca bir az fikirləşdi.

– Yox, – deyə duruxaraq, cavab verdi, – düzdür, olur, amma mənim kimi adamlarda yox.

Nə qədər qəribə, nə qədər utandırıcı idi onun cavabı. Yəni o, öz yaşamının miskinliyini qətiyyən duymur, həyatın nə qədər gözəl olduğundan tamam bixəbərdir?!

– Yox, – deyə öz düşüncələrinə qərq olmuş halda, bir də təkrar elədi, – bizim Tanrıya ehtiyacımız başqalarına nisbətən daha azdır. Əgər o mövcud olsa belə, yalnız özümüzün artıq başa düşdüyümüz həqiqətləri anlada bilərdi bizə, yalnız o həqiqətləri ki, onlara görə biz onsuz da minnətdarlıq hissi keçiririk. Mən bu barədə bizim ev sahibi ilə tez-tez söhbət edirəm, – deyə Lindqren sözünə davam etdi, – o, mənə də çox şey öyrədib. Cənabınız, yəqin, onu tanımır, amma, çox təəssüf, gözəl insandır.

– Yox, onunla tanış deyiləm.

– Əlbəttə, əlbəttə, lakin çox təəssüf.

"Təbiidir, – fikirləşdim, – mən haradan bilməliyəm, həmin bu ev sahibinin necə adam olmasını, – ola bilər ki, həqiqətən, nadir insanlardandır, – lakin mən tamam başqa yerdə yaşayıram". Bütün bunları yalnız beynimdən keçirdim, dilimə gətirmədim.

– Qəribədir, – qoca dedi, – onun o qədər evi var ki, az qala, şəhərin bütün evləri onundur; yəqin, cənabınız da elə onun evlərindən birində yaşayır... Hə, ona hər işə yetişmək çox çətindir! Onun yanına gəlib sığınacaq istədim – hara-

dasa yaşamalıyam axı – əvvəlcə məni bir xeyli süzdü. Sonra da dedi: “Səni zirzəmiyə yerləşdirərəm – yuxarıda yaşaya bilməzsən”. “Əlbəttə, – dedim, – yaxşı başa düşürəm”. “Məncə, zirzəmi uyğun gələr sənə, – dedi, – zənnimdə səhv etmirəm ki? Sən özün necə fikirləşirsən?” “Məncə, ən uyğunu elə zirzəmidir”. “Hə, mən də zirzəmiyə hər yetəni buraxa bilmərəm, ha. İstəmirəm ki, camaat bir-biriylə dalaşıb – küsüşsün, pis, şübhəli sakinlər istəmirəm. Yuxarıya arxayın olmadığım, tanımadığım adamları buraxa bilərəm, amma zirzəmilərimdə ancaq yaxşı, etibarlı adamlar, mənim dostlarım yaşayırlar. Necə bilirsən, sənə uyğundur bu?” “Hə, əlbəttə”, – deyə cavab verdim; çox sevincək idim. “Deməli, hər şey qaydasındadır. Bəs pulunu necə, ödəyə biləcəksən? – soruşdu; ciddi adam idi, “bir söz deyə bilmərəm. Hamı pul ödəməlidir, nə qədər kasıb olsan belə, sən də ödəyəcəksən. Sən az verəcəksən, çünki çox olsa, ödəyə bilməzsən. Amma müəyyən qədər verməlisən. Pulu haradan tapacaqsan?” “Mən mərhəmətli insanların hesabına yaşayıram”. “Yer üzündə elələri də var?” – deyə təəccüblə baxdı mənə. “Əlbəttə var, özü də çoxdur belə adamlar, bəs necə?” “Hə, elədir, – dedi, – istəsən hamısını bircə-bircə saya da bilərsən. Sən ağılsız qoca deyilsən, qal mənimlə”. Hə, əla adamdır, görkəmi də elə sadədir ki. Mənə çox kömək elədi. Onsuz vəziyyətim fəna olardı. Tez-tez baş çəkir bura – bir az oturub dərdləşirik. Bilirsiniz necə köməkdir mənə. Adam hiss eləyəndə ki, onu anlayan var, yüngülləşir. “Lindqren etibarlı adamdır” – mənim barəmdə belə deyir. Adama ləzzət eləyir eşidəndə.

Xoşbəxt və razı halda baxırdı mənə.

– Siz necə, cənab, etibarlı adamsınız? – deyə soruşdu.

Mən cavab verməyib gözlərimi yerə dikdim: baxışlarımız toqquşmasın deyə.

Biz onun sakit və yoxsul otağında oturmuşduq. Çırağın işığı ayaqları kəsilmiş, alçaq stolun üstünə, süfrəyə, qupquru

çörək tikələrinə, onun yatdığı çarpayıya düşürdü. Mənim susmağım onu narahat etmirdi. Fikir verdim ki, öz aləmindədir.

Sonra o, stuldan sürüşüb yerə düşdü, ocağa nəzər saldı, fincanları yuyub səliqəylə rəfə qoydu. Çarpayısına tərəf sürünüb nəyisə düzəltdi, örtüyü götürdü. Amma onu stulun üstünə qoyub qırışlarını səliqəylə hamarlayandan sonra elə döşəmənin üstündə uzanıb qaldı.

– Gün başa çatanda yaxşı olur, – dedi. Onun, həqiqətən, yorulduğu hiss olunurdu.

– Lindqren, siz belə həyatı zəngin, əhəmiyyətli sayırsınız?

– Bəli, – qabağındakı naməlum nöqtəyə sakitcə baxaraq cavab verdi, – həyat zəngindir. Mən bunu gözəl bilirəm, aydın duyuram. Lakin günü sonuna kimi yaşamaq çox çətindir. Nə edəsən, mən də beləyəm də.

O, dərindən köks ötürdü. Onun dizləri üstə necə büzüşməsini görəndə adam elə bilir ki, ibadət eləyir, amma onu təbiət özü belə yaradıb.

Mən getməyə hazırlaşaraq, sakitcə ayağa qalxdım. Yaxınlaşıb təşəkkür elədim, xeyirli gecə arzuladım. O, ürəyim nə vaxt istəsə bura gələ biləcəyimi dedi, mən də məmnuniyyətlə ona baş çəkəcəyimi söylədim. Sonra da məni qapıya kimi ötürmək üçün süründü və mən küçəyə çıxdım.

Artıq bütün ev qaranlığa qərq olmuşdu. Bayaq çilçıraqları parlayan ikinci mərtəbədə də qaranlıq idi. Yəqin, belə tez qurtarıbsa, heç ziyafət deyilmiş onlarda. İşıq ancaq aşağıda, qocanın otağında yanırdı və həmin işıq mənim yolumu lap evimizə qədər aydınlatdı.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# ATAM VƏ MƏN

Yadımdadır, təxminən, on yaşım olanda, bazar günlərinin birində, nahardan sonra atam mənim əlimdən tutub, meşəyə apardı. Quşların oxumasına qulaq asmaq istəyirdik. Anamla sağollaşdıq: o, xörək bişirmək üçün evdə qaldı. Günəşli, ılıq hava vardı və biz yüksək əhvali-ruhiyyədə yola düzəldik. Əslində, quşların oxumasına çox elə əhəmiyyət vermirdik – bunda görünməmiş nə vardı ki! – hər ikimiz sağlam, ağlı başında olan adam idik, təbiətin qoynunda yaşayırdıq və onun gözəlliklərini sakit, həyəcansız seyr etməyə öyrəncəli idik. Sadəcə, bazar günüydu və atamın da başqa bir işi yox idi. Biz şpalların üstü ilə addımlayırdıq, ümumiyyətlə, burada yerimək yasaq idi, amma atam dəmir yolunda işlədiyi üçün onun icazəsi vardı. Bu yolla biz birbaşa meşəyə çıxdıq, daha əyri, dolanbac cığırlarla getmədik.

Meşənin əvvəli bizi quş nəğmələriylə, başqa şeylərlə qarşıladı. Kollarda alacəhrə və ötməquşu, sərçə və qaratoyuq cikkildəyirdi, bir sözlə, adi meşə səsi. Torpaq novruzgülüylə rənglənmişdi, ağcaqayınların tumurcuqları yenicə çırtlamışdı və budaqlar təzə zoğlarla örtülmüşdü, hər tərəfdən cürbəcür qoxular duyulurdu, meşə buxarla nəfəs alırdı – Günəş əməllicə qızdırırdı. Dörd bir tərəfimizdə həyat çağlayırdı: vəhşi arılar yuvalarından çıxır, bataqlığın üstündə ağcaqanad dumanı dururdu, kolluqlardan isə, bir də görürdün hansısa quş ox kimi qopdu, böcəkləri tutub bir göz qırpımında yox olurdu. Yanımızdan qatar ötdü – şpalların üstündən endik, atam iki barmağını bayır-bacaq şlyapasına toxundurub, maşinisti salamladı, maşinist isə dəmiryolçu təzimi

etdi və əl elədi bizə; qatar tam sürətiylə gedirdi. Biz yenə günün altında tərləyibmiş kimi, üzərində qatran puçurlanan şpalların üstünə qalxdıq, havadan isə maşın yağı və badam, süpürgəgülü, qatran qoxusu gəlirdi. Addımlarımızı geniş ata-ata, şpaldan şpala keçirdik ki, çəkmələrimizi çınqıllar cızmasın. Relslər günün altında parıldayırdı. Onların hər iki tərəfində isə teleqraf dirəkləri ucalırdı, biz yanlarından ötəndə naqillər sakitcə uğuldayırdı. Nə deyəsən, gözəl gün idi. Göy üzü tərtəmizdi, bircə bulud da görünmürdü, bir də: “axı belə havada bulud haradaydı” – atam belə dedi. Biz dəmir-yol xəttinin sağındakı yulaf zəmisinə kimi getdik, orada biz, tanış torpar (torpaqsız kəndli-icarəçi) tala saxlayırdı. Yulafı sıx, səliqəli bitmişdi. Atam zəmini təsərrüfatçı diqqətiylə nəzərdən keçirdi və deyəsən, razı qaldı. Mənim yulafdan, sən deyən, başım çıxmırdı, çünki, necə olsa, şəhərdə doğulmuşdum. Sonra körpünün üstündən çayı keçdik, adətən, onun suyu az olardı, amma həmin gün, deyəsən, sel gəlmişdi, su qaynayırdı. Biz əl-ələ tutmuşduq ki, ayağımız sürüşməsin. Bax beləcə yol nəzarətçisinin almalıq və motmutu kollarının yaşıllığı içində itmiş evinə yetişdik. Evə yaxınlaşdıq, sahiblərilə salamlaşdıq, bizi südə qonaq elədilər, toyuqlarını, donuzlarını, meyvə ağaclarını və güllərini göstərdilər. Və biz yolumuza davam elədik. İstəyirdik çaya kimi gedək, çünki oralar yaman gözəl idi, həm də bu çay düz atamın uşaqlığı keçən evin böyründən axırdı. Gəzintimiz həmişə məhz burada bitirdi, elə indi də o cür olacaqdı. Stansiya lap yaxında idi, amma biz çaya tərəf döndük. Atam semafora nəzər saldı ki, görsün işləyirmi – onun xasiyyəti belədir: həmişə, hər şeyi fikirləşir. Biz çayın yanında ayaq saxladıq, suyun şən səsinə qulaq asdıq. Çayın məcrası burada xeyli genişlənir, sular günəşin şüaları altında parlayırdı. Sahildəki sıx bitki örtüyü suda güzgü kimi əks olunurdu, hər tərəf işıqlı, təmiz idi, çay qırağındakı kiçik körfəzlərdən meh əsirdi. Biz yamacdan enib, sahillə getdik bir az. Atam mənə balığın bol olduğu yerləri göstərirdi. O, hələ

balaca olanda buradakı daşların üstündə oturub tilovla bütün günü xanı balığı tuturmuş, hərdən balıq lap az olurmuş, amma nə fərqi, onsuz da kef alırmış, heyif ki, indi vaxtı yoxdur buna. Biz sahil boyu gəzir, suya ağac qabıqları salıb üzdürürdük, xırda daşlar atırdıq – kiminki daha uzağa gedər, şənlənirdik, ləzzət alırdıq: mən də, atam da. Nəhayət, ikimiz də yorulduq və qərara aldıq ki, bugünlük bəsdir, evə qayıtmaq vaxtıdır.

Hava qaralmağa başladı. Meşə göz qabağındaca qiyafəsini dəyişirdi, hələ tam qaranlıq deyildi, amma artıq alatoran düşürdü. Biz tələsdik. Anam, yəqin, intizarla gözləyirdi. O, həmişə qorxur ki, birdən başımıza nəsə iş gələr. Amma nə gələ bilərdi başımıza axı? Belə gözəl bir gündə! Hər şey əla keçdi, tamam razı idik. Alatoran qalınlaşırdı. Ağaclar qəribə görünürdülər. Onlar bizim hər addımımıza qulaq asırdı, sanki, heç tanımırdı. Birinin üstündə işıldaquş vardı. Oturub bizə baxırdı. Atamın əlindən yapışdım, amma o, bu qəribə işığı görmədi, yanından ötdü. Hava tamam qaralmışdı. Biz çayın üstündən keçən körpüyə yaxınlaşdıq. Aşağıda suyun səsi elə gəlirdi, sanki, altımızda dibsiz uçurum vardı, bizi udmaq istəyirdi. Şpalların üstü ilə ehtiyatla addımlayırdıq, əl-ələ tutmuşduq, bir-birimizdən möhkəm yapışmışdıq ki, yıxılmayaq. Mən elə fikirləşirdim ki, atam məni körpüdən qucağında keçirəcək, amma o, belə etmədi, istəyirdi ki, mən də onun kimi qorxmayım. Biz elə hey gedir, gedirdik. Atam qaranlıqda sakit, aramla addımlayır, susurdu, öz düşüncələrində idi. Mən heç cür başa düşə bilmirdim ki, ətrafında belə zülmət ola-ola necə sakit ola bilərsən. Qorxu içində oyan-buyana boylanırdım. Qatı zülmət idi. Qorxudan ölürdüm lap, hətta nəfəsimi belə dərindən almağa ürək eləmirdim: birdən qaranlıq nəfəsimlə birlikdə içimə girib, məni boğar? Həmin dəqiqələrdə mənə belə gəlirdi. Dəmir yolunun tökmə torpağı üzüuçruma enirdi, qaranlığa, gecənin dibsizliyinə. Teleqraf dirəkləri kabuslar

kimi göyə millənirdi, onların içində, elə bil, nəsə küt uğultu çıxarırdı, sanki, torpağın altından səslər ucalırdı, dirəklərdəki ağ kaşı papaqcıqlar isə, elə bil, qorxudan büzüşmüşdü, ətrafı dinləyirdi. Qorxuram. Hər şey başqa cür görünür, hər şey yaddır mənə, lap yuxuda olan kimi. Atama sıxılıb pıçıldadım:

– Ata, qaranlıq olanda niyə hər şey qorxulu görünür?

– Yox, balaca, qorxulu bir şey yoxdur, – deyə atam cavab verib mənim əlimdən tutdu.

– Ata, çox qorxuludur.

– Yox, oğlum, heç nə olmaz. Biz axı yaxşı bilirik, Tanrı bizi tək qoymaz.

Özümü elə tənha, tərk olunmuş hiss edirdim ki. Qəribədir, qorxu məni atamdan ayırmışdı: axı o heç qorxmurdu. Nə qədər qəribə olsa da, onun sözləri mənə heç kömək eləmədi, mən qorxudan elə bayaqkı kimi əsirdim. Hətta Tanrını xatırlaması da mənə kömək etmədi. Tanrı da qorxulu idi. Onun hər yerdə: aşağıda, ağacların altında, vıyıldayan teleqraf dirəklərində, hər yerdə, hər yanda olması da qorxulu idi. Hər yerdədir, amma görə bilməzsən onu.

Biz susaraq gedirdik. Hərə öz fikirlərində idi. Ürəyim sıxılırdı, elə bil, zülmət içimə girib onu sıxışdırırdı.

Artıq döngədə arxadan dəhşətli bir gurultu eşitdik. Qorxu bizi fikirdən qopardı. Atam məni yoldan enişə dartdı. Yanımızdan qatar ötürdü, tamam qaranlıq içindəydi, heç vaqonlarından da işıq gəlmirdi, dəhşətli bir sürətlə gedirdi. Bu nə qatardır? İndi heç bir qatar olmamalıdır! Biz ona qorxu içində baxırdıq. Nəhəng parovozda alov şölələnirdi, kimsə kürəklə kömür atırdı onun ocağına, qığılcımlar isə gecənin qoynunda vəhşi rəqsində idi. Dəhşətli mənzərə idi. Maşinistin rəngi ağarmışdı, donub qalmışdı, onun altdan işıqlanan sifəti isə, elə bil, daşa dönmüşdü. Atam heç tanımırdı, bilmirdi ki, kimdir, haradandır; maşinist irəli baxırdı, yalnız irəli baxaraq sonsuz qaranlığa şütüyürdü.

Qorxudan boğulurmuş kimi, durub bu dəhşətli kabusa baxırdım. Budur, onu gecə uddu artıq. Atam məni yenə relslərin üstünə çıxardı və biz evimizə tələsdik.

– Qəribədir, bu nə qatar idi, görəsən? – deyə dilləndi. – Heç maşinistini də tanımıram.

Daha heç nə demədi.

Mən isə əsməyimi heç cür saxlaya bilmirdim. Axı bu mənə görə idi, hər şey mənə görə idi. Mən bunun mənasını fəhmlə duyurdum: bu, qorxu idi, mənim gələcək qorxum, atamın bilmədiyi və bilmədiyindən məni də qorumaq iqtidarında olmadığı bütün naməlum şeylərdən qorxu. Mənim üçün bu dünya, bu həyat belə olacaq, atam üçün hər şeyi sadə və aydın sayılan dünya. Qəribə dünya, qəribə həyat. Sonu bilinməz zülmətə şütüyən alovlu həyat.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam juvat excoluisse per artes

# SALNAMƏÇİ

Heç vaxt yada düşməyən, varlığından çox az adamın xəbərdar olduğu bir əyalət şəhərciyində bir zamanlar görkəmindən yetmişə yaxın yaşı olduğu duyulan, tamam tənha yaşasa da, müəyyən dərəcədə tanınan və insanların özünəməxsus marağına səbəb olmuş bir qəribə qoca məskunlaşmışdı. Zahirən müəllimə bənzəyirdi, amma həmin şəhərcikdə müəllimlik etmədiyi də bəlli idi, bəlkə, pensiyaya çıxandan sonra köçmüşdü bura. Bəlkə də, heç müəllim deyildi. Heç kəslə ünsiyyət saxlamırdı və onu tanıyan bir kəs də yox idi. Lakin buna baxmayaraq, demək olar ki, hamını tanıyırdı. İnsanlarla söhbət etməyi sevir, hamıya eyni gülərüzlülük göstərirdi. Həmsöhbətinə qoca, ağıllı gözləriylə baxaraq, onun dediklərini həmişə diqqətlə dinləyirdi. Lakin özü haqqında heç kimə heç nə danışmırdı. Onu hamı tanısa da, adamlar üçün yad olaraq qalırdı, hər gün kuçəyə, adam içinə çıxsa belə, tənhalığından heç vaxt ayrılmırdı.

Onun hündür, arıq siluetini uzaqdan tanıyırdılar. O, küçə ilə öz yolunu tək gedəndə belə, az qala, tərki-dünya insanlarınkını xatırladan üzü daim daxili bir heyranlıqdan parlayırdı. Tez-tez onu şəhərin ətrafında görürdülər, oralarda gəzməyi sevirdi, lakin o, hərdən heç yoldan ötənləri də görməzdi. Çiyninə saldığı gen plaşı ona romantik, hətta qəribə bir görkəm verirdi. Heç onda gülməli bir cəhət tapa bilməzdi, qəribəliyi ilə ad çıxarmasının başlıca səbəbi isə inzivaya çəkilməsində, tərki-dünyalığındaydı. Düşməni yox idi, əksinə, hamı ona bəlli bir hörmətlə yanaşırdı, çünki zahiri görkəminə baxanda, necə deyərlər, yüksək cəmiyyətə mənsubluğu aydın sezilirdi.

İstənilən kiçik şəhərdə sakinlər öz həmşəhərlilərinin bütün mübhəm sirlərini bilməliydilər (yoxsa sakit olmazdılar). Elə bu səbəbdən də tərki-dünya qocanın kimliyi barədə çoxları baş çatladırdı. Onlara hər şeydən artıq qəribə gələn isə otağında gecələr səhərə kimi yanılı qalan işıq idi, görəsən, nəylə məşğul idi – axı, yəqin, nəsə bir iş görürdü. Haradansa öyrənmişdilər ki, gecələr səhərə kimi otağında oturub, nəsə yazır. Dillərdə dolaşan bu fikir onlara inandırıcı gəldi və dedi-qoduçular qocanı o dəqiqə alim elədilər.

Hər halda, elə həmin gündən etibarən dillərə mənşəyi mənə bəlli olmayan bir şayiə düşdü – guya, o, nəsə bir tarixi əsər yazırdı. Məhz o zamandan ona "Salnaməçi" dedilər. Bu ayamaya layiq idi.

Lakin o, adi salnaməçi deyildi: gələcəkdən yazırdı. Qarşısındakı, saraldığından artıq indidən qədim bir şeyə bənzəyən perqament cildli böyük bir kitabda insanların qismətinə düşəcək bütün qəribəliklərdən, uzaq gələcəkdə onların bəxtinə yazılan heyrətamiz talelərdən, gələcəyin əzəmətli, əhəmiyyətli hadisələrindən ibarət olan hekayətini incə təhkiyə diliylə qələmə alırdı.

O, bənzərsiz, nəhayətsiz, hələ tam naməlum gələcəkdən yazırdı.

Bu işdə diletant deyildi. Keçmiş əyyamlara yaxşı bələd idi, onun araşdırılmasına ömrünün çox illərini həsr eləmişdi. Lakin keçmiş onun içində heç məmnuniyyət hissi oyatmırdı. Keçmişi araşdıran insanı həddən ziyadə mətləblər əzir, ilhamının qanadlanmasına çox şeylər yol vermirdi. Özünü keçmişə həsr etsəydi, zəhmətindən heç bir zövq ala bilməyəcəkdi. Elə buna görə də gələcəyin salnaməçisi olmuşdu.

Qarşısında gözəl bir məqsəd dururdu. Özünü tam olaraq bu məqsədə həsr etməkdə qərarlı idi. Artıq diqqətini xırda məsələlərə yönəldə bilməzdi, tam sakitliyə ehtiyacı vardı. Elə buna görə də tərki-dünya yaşayırdı: gərək fikrini yalnız əsərinə cəmləyəydi.

Tarix yazmaq fikrinə düşən insana tez-tez müasir həyat mane olur, bu həyat hərdən onu lap çaşdıra da bilər. Dünyada nələr baş vermir, nələrdən həyəcanlanmırsan axı! İnsan bəzi hadisələrə həddən ziyadə əhəmiyyət verərək, onlara o qədər mühüm yer ayırır ki, dünya barədə öz təsəvvürləri də təhrifə uğrayır, yazdıqları həqiqətdən uzaq olur. O, yersiz və qeyri-elmi təsirlərin qurbanına çevrilə bilər. Hərdən də elə olur ki, son nəticədə işləmək üçün ən vacib şeylərini itirirsən – qətiyyətin zəifləyir, əməyindən aldığın zövq harasa yoxa çıxır.

Bax məhz elə bu səbəbdən o, yaşadığı aləmdən qopmuş, bu ucqar şəhərciyi tapmışdı ki, əzəmətli əsərini qələmə ala bilsin. O, həyata dəqiq baxışını qorumalı idi. Tarix yazmaq üçünsə sükutdan əlverişli şərait yoxdur.

Lakin o, dünyada baş verənləri də izləyirdi, nə onlardan təcrid olunmaq fikrində idi, nə də insanlardan. Sadəcə olaraq, hər saatda baş verən hadisələrin doğurduğu narahatçılıqdan qorunmağa can atırdı, törəyən və törəməkdə olanların onu kədərləndirməməsinə can atırdı ki, qəlbindəki ümid çırağını sönməyə qoymasın. Zəmanəsi, ətrafında baş verənlər haqqında düşünərkən neçə dəfələrlə öz-özünə demişdi: “Bütün bunlar mənim kitabımda yazılanlarla müqayisədə çox əhəmiyyətsiz şeylərdir”.

Yox, keçmişi və indisi onun boynunu bükə bilməzdi. O yalnız qısa müddətə kədərlənə bilərdi, vəssalam. Qarşısında duran böyük məqsədə çox vurğundur və öhdəsindəki bu vəzifə o qədər əhəmiyyətlidir ki, kədərə, sıxıntıya heç bir yer yoxdur. O çox uzaq gələcəyə baxır, ilhamının, zəkasının güclü qanadlarında sabaha uçur.

Bəşəriyyətin keçmişdə yaşadıqları onu gələcəkdə gözləyənlərə nisbətdə nə qədər əhəmiyyətsizdir! Axı keçmiş dünyanın uşaqlığı, səsli-küylü, ipə-sapa yatmaz oyunlar dövrü idi.

Tərki-dünya isə yetkin kişilərin işindən yazırdı.

Öz salnaməsində hansı zamanlara qədər irəliləyə bilmişdi? Eh, az, çox az, cəmi bir neçə yüz minillik.

Görəsən, bu əsərini nə vaxtsa, ümumiyyətlə, bitirə biləcəkmi?

Arabir başını xırda, səliqəli sətirlərlə qaralanmış kitabdan qaldıraraq, əlində qələmi, düşüncələrə qərq olurdu. Mülayim, öyrənmək acı olan baxışları gecəyə zillənirdi. Bütün şəhər yuxuda idi, təkcə o, çırağın işığında oyaq qalmışdı.

Onun bu dəqiqələrdə nə barədə düşündüyünü kimsə bilmirdi.

O qocanın sonradan başına gələnləri bilmək istərdim. Görəsən, indiyə kimi sağdırmı? Onun barəsində çoxdan bir şey eşitmirəm. Amma həmin vaxtlar tez-tez görürdüm və yaxşı xatırlayıram onu. Bir dəfə hətta otağına da girmişdim. O, dülgərdən mənzil kirayələmişdi, dülgərlə bizimkilər isə ailəvi yaxınlıq edirdilər, hərdən məni ora, qaymaq almağa göndərirdilər: südçü də elə orada yaşayırdı. Təbiidir ki, qocanın özü də, onun ömrünü həsr etdiyi əsəri də məndə qarşısıalınmaz bir maraq oyatmışdı. Bir dəfə, Salnaməçi evdə olmayanda – yəqin, onda da uzun-uzadı gəzintilərindən birində idi – mən özümlə bacara bilməyib gizlicə onun otağına girdim, o böyük kitaba nəzər salmaq üçün alışıb-yanırdım.

Bütün otaq döşəmədən tavana kimi kitabla dolu idi. Masasının üstündəki kitab isə o vaxta kimi gördüklərimin hamısından çox, lap çox iri idi, heç düşünməzdim ki, yer üzündə bu boyda kitablar olur. Bu, həmin kitab idi. Həyəcanla yaxınlaşdım. Yadımdadır ki, heç qəşəng də gəlmədi mənə: hər yanında barmaq izləri, ləkələr vardı, cildi isə, elə bil, yanmışdı. Hə, görünür, bu kitabın cildi az şeyin şahidi deyildi. Lakin bütün bunlara baxmayaraq, gözəl kitab idi.

Onu böyük çətinliklə açdım. Amma yazılarından baş çıxarmaq cəhdim əbəs idi, heç nə alınmadı. Salnaməçi qəribə, qeyri-adi ifadələrlə yazırdı, mən heç nə anlaya bilmədim. Bildiyim yalnız məktəbdə yazıb-oxuduğumuz sözlər idi. Lakin oturub bu kitaba sadəcə baxmağın özü belə, maraqlı idi. Axıra çatdırmamışdı, bunu dəqiq başa düşdüm.

Gözümü kitaba zilləyib oturmuşdum və birdən hiss etdim ki, arxamda kimsə durub. Çönəndə qocanı gördüm. Onun otağa necə girməsindən xəbərim olmamışdı – axı arxamca qapını örtmək yadımdan çıxmışdı. Özünün yağışdan tamam islanmış gen plaşında durub mənə tamaşa edirdi. Çox qorxdum, düşünürdüm ki, indi əməlli-başlı əsəbiləşəcək. Amma düşüncələrimə rəğmən, heç hirslənmək fikrində deyildi. Əlini başıma qoyub, özünün azacıq nəmli, qəribə gözlərindəki sakit, mehriban ifadə ilə mənə baxdı. Sonra da başını tərpədib dinmədi.

Sonralar bu barədə dəfələrlə fikirləşmişəm. Onun arxamda necə durmasını, qoca, lakin hələ də işıqlı gözlərini, köhnə dəbli romantik plaşda uca qamətli görkəmini yadıma tez-tez salıram.

Sağdırmı, görəsən? Bilmirəm. Həmin o sakit şəhərciyi çoxdan tərk etmişəm. Bütün bunlar lap çoxdanın əhvalatıdır. Ola bilər ki, qoca artıq orada yoxdur. Lakin mən ümid eləyirəm ki, gecələr o, yenə haradasa öz əsəri üzərində çalışır. Nə bilmək olar, bəlkə də, səyləri heç əbəs deyil.

Onda, həqiqətən, bir az qəribəlik vardı, bəlkə də, sadəcə xəyalpərəst adam idi. Və mümkündür ki, heç öz həmkarları – peşəkar tarixçilər onun səylərini təqdir etməzdilər.

Amma, hər halda... Heç kəs həmin o əzəmətli kitabın qarşısında oturub, gələcəyin tarixini yazmasa necə olar, görəsən?

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# KRAL QIZI, KRALLIQ DA ÜSTƏLİK

Biri vardı, biri yoxdu, bir şahzadə vardı və günlərin birində o, müharibəyə gedir ki, həyatda hər şeydən çox sevdiyi misilsiz gözəlliyə malik bir kral qızı ilə evlənmək hüququ qazansın. Həyatını riskə qoyub, torpaqları qarış-qarış azad edir, qarşısına çıxan hər şeyi dağıdaraq, ölkənin içərilərinə irəliləyirdi. Onun qarşısını ala biləcək heç nə yox idi. Şahzadə döyüşlərdə yaralanıb qanına qəltan olmuşdu, amma yenə, yenə döyüşə atılırdı. Ən cəsur cəngavərlər arasında belə ona tay yox idi. Onun döyüş arzusu da elə cavan sifətinin cizgiləri kimi nəcib idi.

Nəhayət ki, gözəl kral qızının yaşadığı dəbdəbəli saray yerləşən şəhərin divarları önünə yetişdi. Şəhər əhalisi ona müqavimət göstərə bilməyib qalibdən aman diləməyə məcbur oldu.

Kral qızı şahzadənin necə vüqarlı və gözəl olduğunu görəndə və onunla ailə qurmaq üçün neçə dəfələrlə həyatını təhlükəyə atdığını düşünəndə davam gətirə bilməyib ona əl uzatdı. Şahzadə qarşısında diz çökərək, onun əlini atəşin öpüşlərə qərq elədi.

– Mənim sevgilim, axır ki, sənə nail oldum! – deyə gözləri xoşbəxtlikdən par-par yanaraq ucadan nida etdi. – Mən yalnız sənin uğrunda döyüşürdüm, nəhayət, sən mənimsən!

Elə həmin gün kəbinlərini kəsdirməyi təklif elədi. Bütün şəhər bayram libasına büründü, toyu ən yüksək səviyyədə, dəbdəbəli keçirdilər.

Axşam isə şahzadə öz istəklisinin yataq otağına girmək istəyəndə onu qapının ağzında hörmətli bir ağsaqqal, kral sarayının işlər müdiri qarşıladı. O, qalib cavana krallığın

açarını və qiymətli daş-qaşla bəzənmiş tacı təqdim edərkən bəmbəyaz ağarmış başını əyib dedi:

– Hökmdar, budur dövlətin, daha doğrusu, onun xəzinəsinin açarı, oradakı bütün sərvət bu gündən sənə məxsusdur.

Şahzadə qaşlarını çatdı:

– Sən nə deyirsən, qoca! Nəyimə lazımdır sənin açarların! Mən sərvət qazanmaq üçün döyüşmürdüm, sevgilimə qovuşmaq üçün qılınc çalırdım, dünyada mənim üçün ondan qiymətli heç nə yoxdur.

Qoca cavab verdi:

– Lakin sən həm də bu açarları qazanmısan, mənim hökmdarım. Sən onlardan imtina edə bilməzsən. Bu gündən etibarən sən hökmdarlıq etməlisən, öz krallığının sərvətini qorumalısan.

– Görünür, sən məni anlamırsan! Başa düşmürsən ki, heç bir mükafat – nə şöhrət, nə qızıl, nə taxt-tac, nə krallıq ummadan döyüşərək, yalnız xoşbəxtlik tapmaq naminə qələbə çalmaq mümkündür? Bəli, mən qələbə çalmışam, lakin əvəzində heç bir şey tələb etmirəm, yalnız dünyada mənim üçün ən qiymətli varlıq olan bir xanımla xoşbəxt yaşamaqdır arzum.

– Bəli, hökmdar, sən qalibsən. Sən cəsurlardan da cəsur döyüşürdün, heç nəyə acımırdın, arxanda bomboş torpaqlar qoyurdun. Sən öz xoşbəxtliyinə nail oldun. Lakin, mənim hökmdarım, başqaları xoşbəxtliklərini itirdilər. Sən qələbə çalmısan, deməli, hər şey sənə məxsusdur. Sənin qarşında əzəmətli bir ölkə durur, məhsuldar torpaqları olan, qüdrətli, lakin müharibənin viran qoyduğu, müflis olmuş bir ölkə. Onun sərvətləri tükənməzdir, amma hər tərəfdə yoxsulluq, aclıqdır, burada şənliklə kədər qonşudur. Bu gündən etibarən bunların hamısı sənindir. Çünki kral qızı ilə evlənmək xoşbəxtliyini qazanmış şəxs onun anadan olduğu ölkənin də sahibinə çevrilir. Onu idarə etməlidir, qorumalıdır.

Şahzadə qaşqabaqla qulaq asır, narahat olur, çaşqınlığından qılıncının qəbzəsiylə oynayırdı.

– Mən yalnız xoşbəxtliyin şahzadəsiyəm, vəssalam! – deyə o coşdu. – Başqa heç nə olmaq niyyətim yoxdur! Əgər mənim qabağımı kəssən, köhnə dostumu – qılıncımı köməyə çağıracağam.

Qoca isə əlini qaldırıb müdrik bir təmkinlə cavana baxdı. Şahzadə geri çəkildi.

– Hökmdarım, sən artıq şahzadə deyilsən, – qoca itaət içində dilləndi. – Sən kralsan.

O, qoca əlləriylə tacı şahzadənin başına qoydu.

Gənc hökmdar dinməz və həyəcanlı durmuşdu. Başındakı tacla daha qüdrətli görünürdü... Yer üzündəki hökmdarlığın məsuliyyətini tam dərk edərək, dərin düşüncələr içində sevgilisinin otağına keçdi ki, yastığını onunla bölüşsün.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI




Inventas vitam
juvat excoluisse
per artes

# QƏZƏBLİ MƏLƏK

Gecə şəhərin küçələriylə qəzəbli mələk gedirdi. Külək evlərin arasında vıyıldayır, damların üstündə tüğyan edirdi. Küçələrdə mələkdən savayı heç kim yox idi. Onun bədəni əzələli, damarlı idi, küləyə qarşı əyilərək, dodaqlarını bir-birinə möhkəm sıxıb irəliləyirdi, qan qırmızısı rəngdə plaşı nəhəng qanadlarını örtmüşdü. O, uzun müddət çürük qoxulu, havasız yerdə qaldığı kafedral kilsədən qaçmışdı. Əsrlər boyu şam yanığı və buxur iyiylə nəfəs almışdı, başının üstündən asılmış ölü Tanrıya ünvanlanan mədhiyyə himnlərini, duaları dinləmişdi. Dizi üstə düşmüş, kilsə döşəməsinə sərilmiş, nəzərlərini göylərə dikərək, inandıqları cürbəcür mənasız şeyləri mızıldayan insanlara əsrlər boyu tamaşa etmişdi. Müxtəlif yalanlara bağladığı inancdan iylənmiş qorxaq ünsürlər!. Qorxu ilə dolaşıq fikirlərin, taledən qaçmağa, sürüşüb aradan çıxmağa rəzil ümidin ürəkbulandıran qarışığı! Nəhayət ki, o qaça bildi!

O, qandallarından qurtulub damarlı ayağını mehraba basanda müqəddəs nemətlərlə dolu qabı aşırmışdı. Qəzəb içində döşəməyə enərək, ibadətə gələnlərin oturacaqlarını təpiklə darmadağın etmişdi. Ətrafda nəcib, heyran sifətli müqəddəslər asılmışdı, barmaqlıqlar arxasındakı təbərrük əşyalardan çürüntü qoxusu gəlirdi, taxçada işıq yanırdı, orada, çürük samanın üstündə bir körpə uzanmışdı və mumdan düzəldilmiş ana körpənin qabağında dizi üstə durmuşdu – yalançı, mənasız zirzibil! Qapıları təpiyinin zərbəsi ilə açıb, küləkli gecəyə çıxmışdı.

O, həqiqəti deyəcək!

Darvazadan çıxan kimi ayaq saxlayıb ətrafına göz gəzdirdi. Aha, deməli, insanların məskəni elə bura imiş. Onlar elə burada yaşayırlar.

O, evlərdən birinin darvazası önündə dayanıb od saçan baxışlarıyla onu süzdü. Yanındakı qılıncla darvazanın üstündə xaç işarəsi cızdı.

– Sən öləcəksən! – dedi.

Sonra başqa evə tərəf getdi. Mələyə yan tərəfdən baxanda deyərdin ki, qozbeldir, qanadları enli kürəklərinin arxasında bükülmüşdü. Bu evin də qabağında ayaq saxlayıb, xaç cızdı.

– Sən öləcəksən! – dedi.

Beləcə, evdən-evə keçərək qəssab bıçağı kimi qısa, ağır qılıncı ilə darvazalarda xaç şəkli çəkirdi.

Sən öləcəksən. Sən öləcəksən. Sən də öləcəksən. Sən də öləcəksən. Sən də!

Küləklə əlləşə-əlləşə bütün şəhəri dolaşdı və bircə ev də qoymadı qala.

Öz işini başa çatdırıb, şəhərdən gecəyə çıxdı, burada daha bir dənə də olsun insan yuvası yox idi. Plaşını atıb, lüt qaldı və qanadlarını açaraq, qarşısındakı zülmətin gen sinəsinə uçdu.

Səhər yuxudan oyanan insanlar hər evdə xaç işarəsi görüb təəccübləndilər. Amma heç qorxmadılar. Deyirdilər ki, maraqlıdır, görəsən, necə, nə üçün eləyiblər bunu. Hərə öz işinin dalınca getməmişdən, adətləri üzrə, bu məsələ barədə söhbət elədilər. Görəsən, niyə hər yerdə, onsuz da hamının yaxşı tanıdığı bir işarəni qoymuşdular?! Guya, bundan mühüm bir şeyi xatırlatmaq olmazdı?!

– Biz öləcəyimizi, onsuz da, bilirik ki, – onlar deyirdilər.

# CINDIR BAZARI

Hər gün işə gedəndə istəsəm də, istəməsəm də, bazar meydanındakı daimi cındır bazarından iyrənə-iyrənə keçirəm, orada, elə yolun kirli daşlarının üstünə satış üçün köhnə şeylər düzülür, yol keçənlər nimdaş paltarların, cürbəcür zirzibilin üstündən addımlamağa məcbur olur, alverçilər isə müştərilərini adətkərdə olduqları nidalarla cəlb edərək, tələsik, ya müxtəlif oğurluq mallar, ya da köhnə-kürüş geyim şeyləri təklif edirlər. Hər tərəf nurlu səhər sərinliyinə qərq olub, bazarda isə üfunət və çürük hava satıcıların boğuq qışqırıqları ilə yayılır. Adamlar üst-üstə qalaqlanmış köhnə şeylərin arasından keçir, əski-üskü içində eşələnib, rəngbərəng cır-cındır, ucuz, saxta bəzək şeyləri axtarır, ağızlarını ayıraraq, yağlı dilləriylə hərifləri cəlb edən alverçilərin yanında uzun-uzadı dayanırlar. Görəsən, bu köhnə-kürüş adamların nəyinə lazımdır və bu zirzibili, ümumiyyətlə, necə satmaq olar axı? Hər dəfə bazar meydanından ötəndə həm nifrət, həm də kədər hissi keçirirəm, ətrafdakı insanların ac, xəstə gözləri isə məni lap ümidsizliyə aparır.

Görəsən, nə vaxt burada təmiz, keyfiyyətli paltarlar satılacaq, piştaxta üstünə xoş rayihəli bəyaz ağ parçalar salınacaq, əsl bəzək əşyaları, daş-qaş düzüləcək?

Bir dəfə isə həmin o bazarda ay kimi gümüşə çalan bir qoca ilə rastlaşdım, o da cır-cındır qalaqlarının, gərəksiz şeylərin arasında gəzirdi.

– Sifətinizi niyə turşudursunuz? – mənə müraciətlə dilləndi. – Bu bazar adamların xoşuna gəlir, özünüz görürsünüz. Onları bu sevincdən niyə məhrum etsinlər ki? Cındır bazarı ürəklərincədir, bura əbəs yerə tünlük olmur. Necə

bilirsiniz, burada camaata təmiz, xoş rayihəli paltarlar təklif etsəydilər, bir belə adam olardı? Əgər həqiqi bəzək şeyləri satsaydılar, onları məgər hamı ala bilərdi? Yalnız yalançı bəzək-düzək ucuzdur deyə, hamının almaq imkanı var. Bir də ki bu yalançı bəzək şeylərinin məgər heç bir dəyəri yoxdur? Məgər bu daşların parıltısı, onları almaq xoşbəxtliyi qazanmış adamların gözündəki parıltı kimi deyil? Öyrəşdikləri cındır bazarını bu insanların əlindən alın, elə bilirəm, çətin ki, özlərini bəxtiyar sayalar.

– İndi necə, bəxtiyardırlar? – qocanın piştaxta üstündən götürüb ovcunda nəzərdən keçirdiyi parlaq bəzək əşyasına baxaraq soruşdum.

– Bəli. – O, əlindəkini ehtiyatla qaytarıb kirli piştaxtaya qoydu. – Xoşbəxtlik nədir axı?

# CƏNNƏT

Sonra Tanrı dedi:

– Budur, baxın, çalışmışam sizin üçün yaxşı şərait yaradım, düyü, noxud, kartof, karınıza gələcək bir çox başqa yeməli nemətlər yetişdirdim, çörək bişirmək üçün cürbəcür dənli bitkilər, kokos palmaları, şəkər qamışı və şəkər çuğunduru əmələ gətirdim, müxtəlif məqsədlər üçün torpaqlar yaratdım: əkin, çəmənlik, bağ salmaq üçün, əhliləşdirməyə uyğun gələn heyvanlar və ovlamaq üçün vəhşi heyvanlar xəlq elədim, düzənliklər, dağlar, yaylalar, üzüm, zeytun yetişdirmək üçün uyğun yamaclar qurdum, piniya, evkalipt və gözəl akasiyalar əkdim, ağcaqayın meşələrini, lotos və çörək ağacını, yasəmənli yamacları, çiyələk talalarını tapdım, sizə çoxlu sevinc bəxş edəcək, – bunu görəcəksiniz – günəş işığını kəşf elədim, göy üzünə ay çıxardım ki, özünüzə saat düzəldənə qədər zamanın axarını izləmək sizin üçün asan olsun, dənizdə gəmilərinizə və fikirləriniz, düşüncələriniz yerdən ayrılanda onlara yol göstərmək üçün ulduzları asdım səmadan, yağış yağdıran və kölgə salan bulud düzəltdim, rəngarənglik üçün ilin fəsillərini fikirləşdim, onlara xoşagələn düzən verdim, növbələşməsini təmin elədim – bir sözlə, bu qəbildən olan cürbəcür işlər gördüm. Ümidvaram ki, gününüz xoş keçəcək. Amma baxın ha, həqiqətən, zəkalı və bilici olmaq üçün zəka ağacının meyvələrindən dadmağı unutmayın.

İlk insanlar öz Tanrılarının önündə hörmətlə, düz yerə kimi təzim etdilər.

– Çox sağ ol, – dedilər.

İnsanlar başladı yeri şumlayıb əkin əkməyə, çoxalıb artmağa və bütün cənnəti doldurdular, demək olar ki, günləri,

həqiqətən, xoş keçirdi. Zəka ağacından da, Tanrının tapşırdığı kimi, müntəzəm dadırdılar, – amma şüurlarının getdikcə daha çox inkişaf etməsi nəsə hiss olunmurdu. Onlar getdikcə daha bic və çoxbilmiş, mütəfəkkir və savadlı olurdular, ümumiyyətlə, bir çox şeylərdə inkişaf edirdilər, lakin şüurları inkişaf eləmirdi. Elə bu səbəbdən də onların həyatı getdikcə daha müşkülləşir, dolaşıq, çətin olur, onların özü üçün get-gedə daha çox pisləşirdi. Nəhayət ki, günlərin birində işlərin belə axarından çox əziyyət çəkən bir cəsarətli adam peyda oldu və o, ilahi pərvərdigarın yanına qalxaraq dedi:

– Mənə elə gəlir ki, insanlar özlərini kifayət qədər qəribə aparırlar: düzdür, onlar günbəgün daha dərrakəli və məlumatlı olurlar, amma öz bicliklərini və çoxbilmişliklərini, əsasən, özlərinin ziyanına işlədirlər – əlbəttə, mən bilmirəm, amma, görünür, zəka ağacının özündə nəsə bir çatışmazlıq var deyəsən.

– Nə, nə? – Tanrı hiddətləndi. – Səncə, zəka ağacında çatışmazlıq var?! Ola bilməz! O məhz necə varsa, elə də olmalıdır, aydındır? Onu daha mükəmməl eləmək mümkün deyildi! Əgər sən onu necə düzəltmək lazım olduğunu məndən yaxşı bilirsənsə, buyur, zəhmət olmasa, de görüm.

Yox, haradan biləydi bunu. Bircə onu bilirdi ki, orada, aşağıda işlər pisdir, yaman pisdir və Tanrı zəka ağacını fikirləşməklə nə qədər uzaqgörən addım atsa da, insanların onu dadaraq müdrikləşdiyi görünmür.

– Bu ağac başqa cür ola bilməz axı, – Tanrı dilləndi. – Bəllidir ki, onun meyvələrindən düzgün dadmağı öyrənmək heç sadə bir şey deyil, amma kim deyib ki, hər şey mütləq sadə olmalıdır? Nə edəsən, bəzi həqiqətləri də, gərək özünüz kəşf edəsiniz, yoxsa, həyatınızın nə mənası qalardı! Hər nə var, çeynəyib ağzınızın içinə qoymayacaqlar körpə uşaq kimi – belə olmaz. O ki qaldı mənə, mən fikirləşirəm ki, zəka ağacı mənim kəşflərimin ən qiymətlisidir və əgər sizlər ona layiq olmasanız, deməli, bəşər övladı da yaşamayacaq, bunu mənim adımdan hamıya yetir.

İnsan da elə bu sifarişlə geri dönəsi oldu.

Lakin o çıxıb gedəndən sonra Tanrı kədərlənmiş, çaşqın qalmışdı. Heç olmasa, onun kəşf etdiyi başqa şeylərin hansınasa qəmiş qoyaydılar, ona bu dərəcədə toxunmazdı, lakin yaranması yer üzündəki bütün ağaclardan, bütün başqa şeylərdən çətin başa gəldiyindən onun ürəyinə çox yaxın idi bu kəşfi. O, indi, əsl böyük rəssam kimi, hamı tərəfindən yekdilliklə qəbul olunan əsərləri haqqında deyil, yalnız bu anlaşılmaz əsəri, içərisinə bütün ürəyinin hərarətini gizlicə qoyduğu və əvəzində, heç bir sevinc payı almadığı kəşfi barədə düşünürdü. Axı onun özünə məhz bu əsəri fövqəladə əhəmiyyətli gəlirdi – o heç ağlına belə gətirmirdi ki, bəşəriyyət onsuz, onun ehtiva etdiyi çox dərin mənalara vaqif olmadan keçinə bilər.

Bəlkə də, haqlı idi. Axı dahiyanə xaliqdir və təbii ki, özü hər şeyi daha yaxşı bilir. Özü daha yaxşı bilir ki, bütün ruhunu hansı əsərinə qoyub.

Oturub insanların onun ən görkəmli əsərinə və şəxsən özünə qarşı necə qədirbilməz münasibət göstərməsi haqqında fikirləşirdi.

Onun bu vəziyyətdə nə qədər oturduğunu söyləmək çətindir. Əbədiyyətdə, ola bilər ki, zaman çox sürətlə axır və Tanrı fikrinin uçuşunda bizim üçün bircə dəfə qanad çalmaq, bəlkə də, minilliklər sürür. Lakin budur, Tanrının yanına yenə qonaq gəldi, amma bu dəfə baş mələk Cəbrail idi gələn.

– Sən təsəvvür eləyə bilməzsən ki, yer üzündə, cənnətdə nələr baş verir, – o dilləndi, – bu ağlasığmazdır. Adamlar hər şeyi korlamaqla, məhv etməklə məşğuldurlar və bunun naminə min oyundan çıxırlar, cürbəcür alçaqlığa, şər əməllərə əl atırlar. Orada tüstü ərşə dirənib, elə səs-küy var ki, lap qulaq batır, – bir-birinə zəka ağacının elə meyvələrini atırlar ki, dəhşətli gurultuyla partlayır, hər şeydən pisi isə, ağacları, bitkiləri kökündən çıxarırlar. Elə qürrələnir, elə lovğalanırlar ki, qulaq asanda ürək bulanır: guya, hər şeydən, Tanrının

özündən də artıq xəbərdardırlar, elə şeylər kəşf edirlər ki, heç sən yuxunda da görməmisən onları. Onlar, həqiqətən, dəhşətli həyulalar düzəldiblər, qabağına nə çıxırsa, basıb məhv eləyir – sənin yaratdığın bütün şeyləri – səmada isə onların od yağdıran, hər şeyi dağıdan əldəqayırma quşları uçur. Xoşbəxtlikdən, mənim nəsibimə cəhənnəmdə olmaq düşməyib, amma elə düşünürəm ki, orada da bənzər bir mənzərə var. Rəzalət, biabırçılıqdır! Hər şeydə sənin zəka ağacın günahkardır, heç onu adamlara verməli olardı, öz aramızdır, amma mən səni əvvəldən çəkindirmək istəyirdim bundan. Özün bilərsən, amma, heç olmasa, bir bax, – gör orada nələr baş verir.

Tanrı yer üzünə nəzər saldı, gördü ki, həqiqətən, elədir. Onda onun yaralanmış xaliq ruhu qəzəbdən alovlandı, gözlərindən şimşəklər yağdı və o, səma qoşununu insanların üstünə göndərdi, onlar isə adamların bütün iblis, şeytan əməllərini, zirehli arabalarını da, alov püskürən həyulalarını da əllərindən aldılar və elə onların köməyi ilə adamları qupquru çöllərə qovdular – çəmənlər xoş rayihə saçır, hava quşların nəğməsindən cingildəyirdi. Didərginlər isə taxtaların arasındakı yarıqlardan baxanda, əvvəllər yaşadıqları yerlərin necə olduğunu görürdülər, amma ora qayıda bilmirdilər.

Qarovul çəkən mələklər döyüşdən sonra dincəlmək üçün uzanmışdılar və yorğunluqdan onları yuxu apardı. Düşüncələrinə qərq olmuş Tanrı isə cənnətdə, yaratdıqlarının ən sevimlisinin altında oturmuşdu, zəka ağacının budaqları ona dərin rahatlıq verirdi.

# MÜQƏDDƏS SÜMÜKLƏR

İki xalq bir-biriylə böyük müharibə aparırdı, hər ikisi də bununla fəxr edirdi, müharibə ehtiraslarını elə coşdururdu ki, adi, kiçik insani həyəcan və nigarançılıqlar onunla müqayisədə heç nə idi. Döyüşlərdən salamat qurtarmış insanlar acgözlüklə bu ehtiraslara qurşanırdılar. Cəbhə xəttinin döyüşlər gedən və qanlı qırğınlar səngimək bilməyən hər iki üzündə həyatını itirmiş, özünü vətəninə qurban vermiş və indi torpaqda uyuyan döyüşçülərə nəhəng abidələr ucaldılırdı. Ora zəvvarlar ayaq açır, orada qəhrəmanlara layiq ölümlə müqəddəsləşən, torpağın altında sümükləri uyuyan, əbədilik şöhrət tapmış igidlərin şərəfinə alovlu nitqlər söylənilirdi.

Lakin bir gün ağızdan ağıza bir xəbər dolaşdı, guya, keçmiş müharibə meydanlarında qəribə işlər baş verir. Ölülər qəbirlərindən çıxaraq, sərhədi keçib bir-biriylə görüşürlər, sanki, nə vaxtdan barışıblar.

Xəbər hamını sarsıtdı. Qəhrəmancasına həlak olmuş, bütün xalqın baş əydiyi şəxslər düşmənlərlə görüşür, barışırlar! Dəhşətdir!

Hər iki xalq hadisə yerinə komissiya göndərdi ki, bu məsələni aydınlaşdırsın. Döyüşlərdən salamat çıxmış yaralı ağacların arxasında pusqu quraraq, gecəyarısını gözləməyə başladılar.

Sonra – aman, ilahi, dəhşət! – ağlasığmaz şayiələr təsdiqini tapdı. Bomboş torpaqlardan kabuslar qalxır və sərhədə tərəf gedirdilər, özü də, deyəsən, əllərində nəsə aparırdılar. Hamı narazı bir tərzdə onların üstünə cumdu:

– Siz özünüzü vətənə qurban vermisiniz, sizin qarşınızda baş əyirik, zəvvarlar ziyarətinizə gəlir, biz sizə ehtiram bəslə-

yirik və heç vaxt unutmuruq, məzarlarınızı müqəddəs bir məkan kimi qoruyuruq, siz isə düşmənlə oturub-durur, barışırsınız!

Həlak olmuş qəhrəmanlar təəccübləndilər:

– Siz nə danışırsınız, qətiyyən elə deyil. Biz bir-birimizə elə əvvəlki kimi nifrət bəsləyirik. Sadəcə olaraq bəzi sümükləri dəyiş-düyüş edirik, yaman qatma-qarışıq düşüblər.

# MƏHƏBBƏT VƏ ÖLÜM

Bir axşam sevgilimlə bir yerdə küçə ilə gedirdik, birdən yanından ötdüyümüz cansıxıcı bir evin darvazaları açıldı və qaranlıqdan bir amur çıxdı. Amma adi, balaca amur deyildi, nəhəng bir kişi idi, ağır, damarlı, başdan-ayağa tüklü. Zırpı oxatana bənzəyən bu amur əlindəki yekə oxla məni nişan aldı. Atdı və düz sinəmdən dəydi, özü isə qaranlıq, ürəksıxan bir qəsrə bənzəyən evin darvazasını arxasınca bağlayaraq yox oldu.

Mən yıxıldım, sevgilim isə yoluna davam elədi. Yəqin ki, mənim yıxılmağımı heç görməmişdi. Əgər görsəydi, mütləq ayaq saxlayıb mənə tərəf əyilər, kömək etməyə çalışardı. Lakin o, yoluna davam elədi və mən də fikirləşdim ki, yıxılmağımı görmədi. Qanım küçənin kənarındakı arxla onun dalınca axdı, amma tezliklə dayandı, çünki tamam axıb qurtarmışdı.

**Per Lagerkvist** NOBEL MÜKAFATI LAUREATI

Inventas vitam
juvat excoluisse
per artes

# SƏRGÜZƏŞT

Qara yelkənli bir gəmi məni aparmaq üçün gəldi. Mən elə bir tərəddüd keçirmədən onun göyərtəsinə qədəm basdım, kiçik bir səyahətdən vaz keçməzdim: gənc, qayğısız idim və dənizin xiffətini çəkirdim. Biz körpüdən aralandıq, sahil gözdən itdi və təzə başlamış külək gəmini inamla irəli qovdu. Gəmi heyəti qaraqabaq, danışmaqla arası olmayanlardan ibarət idi. Gecə-gündüz gedir, gedirdik. Torpaq isə görünmək bilmirdi. Açıq dənizdə, səmt küləyinin altında elə hey üzürdük, neçə il ötdü. Torpaqdan isə xəbər-ətər yox idi. Axırda bu, mənə çox qəribə gəldi və matrosların birindən soruşdum ki, nə olub belə? Cavab verdi ki, daha quru yoxdur, məhv olub, okeanın dibinə gedib. Qalan yalnız bizik.

Bu xəbər məni sarsıtdı. Dənizin gen sinəsi ilə hələ çox üzdük. Külək qara yelkənimizi şişirdirdi. Hər yer açıqlıq, boşluq idi, altımızda isə dibsizlik.

Birdən dəhşətli tufan başlandı. Dəniz hayqırıb qaynayırdı. Biz təbiətlə qatı zülmətdə çarpışırdıq. Nə tufan bitirdi, nə qaranlıq çəkilirdi. İllər bir-birini bu minvalla əvəz edirdi.

Qara yelkənin üstündə buludlar sıxlaşır, bütün ətraf isə qaranlıq, boşluq və kimsəsizlik.

Əldən düşmüş, naümid halda qorxu, zülmət və aclıqla çarpışırdıq, qurtulacağımıza inamımız qırılmışdı artıq.

Və birdən ləpədöyənin səsini eşitdik. Əzəmətli bir dalğa bizi dənizdən baş qaldıran qayaya çırpdı. Gəmi parçalandı, biz isə qayanın çıxıntılarından yapışdıq. Ətrafda gəminin parçaları, yelkən parçaları üzürdü, biz də daşlardan tutmuşduq. Nəhayət, hava işıqlaşdı və biz ətrafımıza göz gəzdirdik. Çırpıldığımız sıldırım kələ-kötür, qara idi. Üstündə əyri gövdəli

bir tənha ağac vardı, bircə ot, bircə çiçək belə bitmirdi. Biz bu sıldırımdan bərk yapışmışdıq.

Xoşbəxt idik. Xoşbəxtlikdən torpağa sarılaraq ağlayırdıq. Axı torpaq yenə də okeanın dibindən qalxmağa başlamışdı.

# MÜNDƏRİCAT

*Tanrısını axtaran insan* . . . . . . . . . . . . . . . 5

## ROMAN VƏ POVESTLƏR

Cırtdan *(roman)* . . . . . . . . . . . . . . . . . . . 12
Varavva *(roman)* . . . . . . . . . . . . . . . . . . 178
Sivilla . . . . . . . . . . . . . . . . . . . . . . . . . 282
Əbədiyyətin təbəssümü . . . . . . . . . . . . 404
Mariamna . . . . . . . . . . . . . . . . . . . . . . 478
Cəllad . . . . . . . . . . . . . . . . . . . . . . . . 524
Dünyada qonaq . . . . . . . . . . . . . . . . . . 578

## HEKAYƏLƏR

Toy . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 652
Xilaskar Yuhan . . . . . . . . . . . . . . . . . . 674
Moris Fleri . . . . . . . . . . . . . . . . . . . . . . 686
Qardaş qardaşı axtarır . . . . . . . . . . . . . .702
Azad olunmuş adam . . . . . . . . . . . . . . .714
Tələbkar qonaq . . . . . . . . . . . . . . . . . . .738
Lift isə cəhənnəmə gedirdi . . . . . . . . .746
Qəhrəmanın ölümü . . . . . . . . . . . . . . . .754
Zirzəmidə . . . . . . . . . . . . . . . . . . . . . . .758
Atam və mən . . . . . . . . . . . . . . . . . . . .768
Salnaməçi . . . . . . . . . . . . . . . . . . . . . .774
Kral qızı, krallıq da üstəlik . . . . . . . . . .780
Qəzəbli mələk . . . . . . . . . . . . . . . . . . .784
Cındır bazarı . . . . . . . . . . . . . . . . . . . .786
Cənnət . . . . . . . . . . . . . . . . . . . . . . . .788
Müqəddəs sümüklər . . . . . . . . . . . . . . .792
Məhəbbət və ölüm . . . . . . . . . . . . . . . .794
Sərgüzəşt . . . . . . . . . . . . . . . . . . . . . .796

NOBEL MÜKAFATI LAUREATI

# Per Lagerkvist

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

Çapa imzalanmışdır 09.09.2009. Format 60×84 $^{1}/_{16}$. Ofset çap üsulu.
Fiziki çap vərəqi 50. Sifariş 148. Tiraj 7000.

"Şərq-Qərb" ASC-də çap olunmuşdur
Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+994 12) 474-75-62
Faks: (+994 12) 470-18-49
e-mail: sharq.qarb@gmail.com